Heydər Əliyev

ŞƏXSİYYƏT VƏ ZAMAN



III HİSSƏ

1982-1990

Elmira Axundova

BAKI
2009

Redaktor – Dilarə Vəkilova,

Rəssam – İsmayıl Məmmədov,
Azərbaycanın əməkdar rəssamı

Tərcüməçilər – Yaşar Quluzadə,
Nərgiz Qurbanova,
Səyavuş Məmmədzadə

Heydər Əliyev. Şəxsiyyət və Zaman.
Kreml beşilliyi
Bakı, «Ozan», 2009, 804 səh.

Tanınmış Azərbaycan yazıçısı, publisisti, ictimai xadimi **Elmira** Axundova Heydər Əliyevin ilk bioqraflarındandır. Onun dahi şəxsiyyətin siyasi bioqrafiyasının müxtəlif dövrlərini əks etdirən «Naşirin qətli» (2001), «Həqiqət anları» (2003), «Şüşə saray» kitabları ölkənin mədəni həyatında hadisəyə çevrilmişdir.

Elmira Axundova «Heydər Əliyev. Şəxsiyyət və Zaman» adlı çoxcildlik roman-tədqiqatını ömrünün ən mühüm layihəsi sayır. Beş ilə yaxın gərgin zəhmət, kitab qəhrəmanının uşaqlıq və gənclik dostları, qohumları və yaxınları ilə lentə alınmış yüzlərlə söhbət, tanınmış siyasi xadimlər və dövlət adamları ilə müsahibələr, DTK arxivlərində, Prezidentin şəxsi arxivində iş ulu öndərimizin ən dolğun və obyektiv bioqrafiyasını yaratmaq cəhdi olan romanın unikal sənədli əsasını təşkil edir. Kitab dərin təhlil və müəllif şərhləri ilə müşayiət edilən xeyli sayda az məlum olan fakt, epizod, eksklüziv informasiya ilə zəngindir. Yazıçının Heydər Əliyevlə şəxsi tanışlığı və dostluğu romana xüsusi emosionallıq və səmimiyyət gətirir.

Elmira Axundova respublikanın əməkdar jurnalisti, Milli Məclisin deputatı, H.Zərdabi, R.Rza, N.Nəcəfov adına mükafatların laureatıdır, «Şöhrət» ordeni ilə təltif olunmuşdur.

4702060206-53
A ---------- 2008
On-047-08

© E.Axundova, 2009

Müəllifdən

Romanın üçüncü kitabında Heydər Əliyevin həyatı və taleyi ötən əsrin 80-ci illərində Sovet İttifaqında, beynəlxalq aləmdə cərəyan edən qlobal proseslərlə sıx bağlanır. Bu dövr dünya sivilizasiyasının hələ uzun illər təsirindən qurtula bilməyəcəyi kataklizmlər, inqilabi dəyişikliklər ərəfəsi idi. Başlıca məqsədimiz Siyasi Büro üzvünün, SSRİ Nazirlər Soveti sədrinin birinci müavininin gərgin gündəlik qayğılarını mümkün qədər dərindən və obyektiv əks etdirmək, eyni zamanda mətbuatda və siyasi memuaristikada hələ də səhifədən səhifəyə adlayan bir sıra stereotipləri puç etməkdir. Bu, xüsusilə kitab qəhrəmanının dövlətin birinci şəxsləri – Y.Andropov, K.Çernenko, M.Qorbaçov, N.Tixonov, N.Rıjkovla münasibətlərinə aiddir. Biz həmçinin Heydər Əliyevin çoxşaxəli fəaliyyətinin 1982–1987-ci illərdə nəhəng ölkədə gedən siyasi-iqtisadi və sosial-mədəni proseslərə göstərdiyi təsiri yenidən gözdən keçirməyə və müəyyənləşdirməyə, SSRİ-nin xarici siyasətində onun səy və təşəbbüslərinin miqyasını əks etdirməyə çalışmışıq.

Bu həm də ona görə vacibdir ki, Heydər Əliyevin bioqrafiyasının Moskva mərhələsi, karyerasının ən yüksək zirvəsi Əliyevşünaslıqda zəif əks olunmuşdur. Bu qəbildən yalnız iki-üç bioqrafik kitabda yer almış on-on beş səhifəlik materialı, bir də partiya elitası, ittifaq nazirliklərinin keçmiş nümayəndələrinin KİV-lərdə dərc edilmiş və bəzən də dəqiqliyi ilə bir o qədər seçilməyən qısa xatirələrini yada salmaq olar. Üstəlik bu materiallarda H.Əliyevin SSRİ rəhbərliyindəki fəaliyyəti dövründə verdiyi böyük töhfələr tarixi baxımdan heç də həmişə düzgün və dolğun qiymətləndirilmir.

Mən Moskvada H.Əliyevin "Kreml beşilliyi" dövründə Siyasi Büro üzvlərindən tutmuş köməkçi-referent və texniki işçilərə qədər onunla yaxın təmasda olmuş adamlarla təxminən yarım il söhbət etdim. Bu, kilometrlərlə maqnitofon yazıları, kompüterin virtual yaddaşında yüzlərlə meqabayt deməkdir. H.Əliyevin Siyasi Büro və Nazirlər Soveti üzrə keçmiş həmkarlarının siyasi memuarlarından – onlarda subyektivlik amili güclü olsa belə – az faydalanmadım. H.Əliyevin şəxsi arxivində işləməyin mənə böyük köməyi dəydi. Nəzərə almaq lazımdır ki, 90-cı illərdə bu işə könüllü qoşulanların səyi nəticəsində Rusiya Federasiyasının bir sıra arxivlərində, həmçinin yaxın və uzaq xaricin digər məxəzlərində H.Əliyevin fəaliyyətinin Moskva dövrü ilə bağlı xeyli sənəd aşkar edilərək Bakıya gətirilmişdir. Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevin icazəsilə onların demək olar ki, hamısı ilə tanış ola bildim.

H.Əliyevin həyatının 1982–1990-cı illər dövrünə həsr olunmuş, çox güman, ən irihəcmli və əhatəli "Kreml beşilliyi" kitabı beləcə yarandı. Bu illər böyük yüksəliş, məsuliyyət, şöhrət və nüfuz, eyni zamanda ümidlərin boşa çıxması, acı itkilər və idealların iflası dövrü idi.

KREML BEŞİLLİYİ

Birinci fəsil

Yeni ümidlər

(Y.Andropovdan K.Çernenkoya qədər)
dekabr 1982–fevral 1984

Yuri Andropov və onun irsi

Yuri Vladimiroviç Andropov 1914-cü il iyunun 15-də Stavropol diyarının Naqutskaya stanitsasında anadan olmuşdur. Erkən yaşlarından komsomol işində çalışmış, Böyük Vətən müharibəsi illərində Kareliyada partizan hərəkatının təşkilatçılarından olmuşdur.

50-ci illərin əvvəllərində Moskvada Sov.İKP MK aparatında, 1954–1957-ci illərdə Macarıstanda səfir işləmişdir. Həmin dövrdə kommunist rejiminə qarşı macarların silahlı üsyanının yatırılmasında fəal iştirak etmişdir. Bundan sonra o, yenidən Sov.İKP aparatında fəaliyyətə başlamış və 1967-ci ilədək, L.Brejnev onu SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinə göndərənə qədər burada işləmişdir. Andropovun dostu və həmkarı V.Kryuçkovun dediyinə görə, o, Lubyankadakı yeni kabinetinə "həvəssiz və əzmkarlıq göstərmədən keçmişdi. O, əslində, nə dövlət təhlükəsizliyi orqanlarının iş xüsusiyyətlərini bilirdi, nə də ki bu təşkilatda xidmət edən insanları tanıyırdı"[1].

DTK generalı V.Kevorkovun fikrincə isə, "əgər şübhə doğurmayan şəxsi sədaqətini (L.Brejnevə–*E.A.*) nəzərə almasaq, o xüsusi xidmət orqanları üçün zəruri olan heç bir keyfiyyətə malik deyildi. Lakin düşüncə tərzinə görə Andropov irimiqyaslı dövlət xadimi kimi doğulmuşdu"[2].

Bununla belə Y.V. (həmkarları öz aralarında onu belə çağırırdılar) SSRİ gizli polisinin rəhbəri vəzifəsində düz 15 il–1967-ci ilin mayından 1982-ci ilin mayına qədər işlədi. Brejnevin təklifi ilə o,

1973-cü ildə Siyasi Büronun tamhüquqlu üzvü seçildi və həmin vaxtdan da Brejnev hakimiyyətinin ən azsaylı "yaxın" əhatəsinə daxil oldu.

1982-ci ilin mayında MK-nın plenumunda Y.Andropov Sov.İKP MK katibi seçildi və ideologiyaya rəhbərlik ona tapşırıldı.

Artıq 1982-ci ilin yayında ölkədə həm hakimiyyətin ən əsas vasitələri Andropovun əlində idi, həm də müdafiə naziri D.Ustinovun, xarici işlər naziri A.Qromıkonun, Andropovun yerlisi M.Qorbaçovun simasında triumvirat onu fəal dəstəkləyirdi. Baş katib kürsüsünü Brejnevin favoriti K.Çernenko da tutmağa hazır idi, onun arxasında Nazirlər Sovetinin sədri N.Tixonov, Sov.İKP MK katibi A.Kirilenko və Moskva partiya təşkilatının başçısı V.Qrişin kimi "qadir qocalar" dayanmışdı. Yeri gəlmişkən, V.Qrişin "Xruşşovdan Qorbaçova qədər" kitabında yazır ki, Sov.İKP MK-nın 1982-ci ilin payızına nəzərdə tutulmuş təşkilati plenumunda L.Brejnev Sov.İKP MK Baş katibi vəzifəsinə Ukrayna partiya təşkilatının rəhbəri V.Şerbitskini təklif etmək istəyirdi, özü isə partiya MK-nın sədri kürsüsünə keçməyi qərara almışdı[3]. Brejnev dövründə partiya kadrları ilə məşğul olan V.Kapitonov da sonralar bunu təsdiqləyirdi.

Bəzi xarici tarixçilər, o cümlədən Rusiya tarixçiləri sensasiya yaratmaq naminə məsələni qəlizləşdirir, o günlərdə SSRİ-də guya "polis çevrilişi" baş verdiyini iddia edirlər. Xarici radiosəslər L.Brejnevin ölümündən dərhal sonra vahimə yaratmaq niyyəti ilə xəbərlər yayırdılar ki, güya Siyasi Büroda amansız hakimiyyət davası gedir, Moskva ətrafında Kantemirov qvardiya diviziyasının tırtılları səslənir, üstü brezentlə örtülmüş yük maşınlarından isə qarlı Moskva asfaltının üstünə DİN-nin F.Dzerjinski adına diviziyasının əsgərləri tökülüşürlər.

L.Brejnevin keçmiş mühafizə rəisi Vladimir Medvedev bu versiyaların qəti əleyhinə çıxır. Kitabın müəllifi ilə söhbətdə o demişdir:

"İndi çox yazırlar ki, guya Andropov Leonid İliçi kənarlaşdırmaq istəyirmiş, çevriliş hazırlayırmış. Cəfəngiyatdır! Yuri Vladimiroviç həmişə Leonid İliçə yaxşı münasibət bəsləyirdi, yüksək dairədə Brejnevə ən yaxın adam idi. Belə boş sözləri vəziyyətdən ümumiyyətlə xəbəri olmayanlar uydururlar".

K.Çernenkonun köməkçisi V.Pribıtkov razılaşır ki, Moskva küçələrində əsgər və tanklar olmayıb, lakin Andropov–Çernenko qarşıdurması olub. Üstəlik Çernenkonun arxasında hər şeyə qadir aparat və Siyasi Büronun Tixonov, Şerbitski, Qrişin və başqaları kimi qocaman üzvləri dayanmışdılar.

Məlumatlı adamların dediyinə görə, Konstantin Çernenko Leonid İliçin vaxtında MK-da ən nüfuzlu adamlardan idi. V.Pribıtkov öz kitabında yazır:

"Ona APARATIN o şöbəsi tapşırılır ki, orada təkcə bu və ya digər qərarlar hazırlanmır, "kağız bürokratiyası"nın gücü ilə TƏSİR prosesini idarə etmək imkanı yaranır: Brejnevə "lazım olan" məsələlər tez, "lazım olmayan"lar isə ləng həll olunur. Təkcə sənədlərin hərəkətindən, onların yerdəyişmə sürətindən işdə və dövlətin idarə olunmasında çox, lap çox şey asılıdır!"[4].

1979-cu ildə K.Çernenko Sov.İKP MK-nın ümumi şöbəsinin müdiri vəzifəsində qalmaqla Siyasi Buronun üzvü seçilir. O, köməkçi və katibləri "narahat" etmədən günün istənilən vaxtı Baş katibə müraciət edə bilərdi. Leonid İliç öz "Kostya"sını çox sevsə də, real imkanlarını, yəqin ki, obyektiv qiymətləndirir və onun simasında öz varisini görmürdü.

Bəzi mənbələrə inansaq, ölkənin "sahibi" postuna, digər namizəd Qriqori Romanov idi. Sov.İKP MK-nın keçmiş işçisi V.Leqostayev "Xəyanətin texnologiyası" kitabında bildirir ki, artıq 70-ci illərin əvvəlində SSRİ-nin ali rəhbərləri ən nüfuzlu xarici dövlət başçılarına etimadla L.Brejnevin Q.Romanovu öz varisi kimi gördüyünü söyləyirdilər.

Məsələn, 1972-ci ildə İtaliya hökumətinin başçısı C.Andreottinin SSRİ-yə rəsmi səfəri zamanı onu qəbul edən Baş nazir A.Kosıgin fürsət düşən kimi ağzından qaçırmışdı: "Bütün şayiələrə baxmayaraq, SSRİ-nin gələcək siyasi həyatında əsas fiqur Q.Romanov olacaqdır". Həmin vaxt Q.Romanov hələ heç Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd də deyildi.

Adətən danışığında son dərəcə diqqətli olan A.Kosıginin ehtiyatsızlığının səbəbləri haqqında V.Leqostayev belə yazır:

"Çox güman ki, o bu yolla yavaş-yavaş Qərb siyasi istəblişmentini yeni sovet liderinin adını qəbul etməyə hazırlamağa çalışırdı.

Axı bəllidir ki, özü Leninqraddan olan Aleksey Nikolayeviç Leninqrad Vilayət Partiya Komitəsinin birinci katibinə rəğbətlə yanaşırdı, onu həm ölkənin müdafiə kompleksinin bilicisi, cəsarətli qərarlar qəbul etməyi bacaran idarəçi-mütəxəssis, həm də şəxsi planda nöqsansız partiya lideri kimi yüksək qiymətləndirirdi. Lakin A.Kosiginin Qərb siyasi "mətbəxinə" çatan informasiyası gözlənildiyinin əksinə olan reaksiya ilə nəticələndi: məhz Qərb və onun xüsusi təbliğatı Romanovu Brejnevin mümkün varisləri sırasından vurub çıxarmaq üçün bütün gücünü qoydu"[5].

Əslən leninqradlı olan Qriqori Romanov nisbətən cavan idi (H.Əliyevin həmyaşıdı). 1970-ci ildən Leninqrad Vilayət Partiya Komitəsinə başçılıq edirdi. 1973-cü ildə Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd, 1976-cı ildən isə üzvü seçilmişdi. Onun cəmiyyətdə hörmət və nüfuzu durmadan artırdı. Lakin sonra nə isə anlaşılmazlıq baş verdi. Ona qarşı məqsədyönlü, gələcəyə hesablanmış dezinformasiya təşkil olundu.

Naməlum kanallarla şayiə yayıldı ki, Qriqori Romanov qızının toyunu Leninqrad saraylarından birində keçirib, toyda Ermitajdan götürülmüş çar servizləri işlədilib. Sonradan araşdırma aparıldı və şayiə təsdiqini tapmadı. Məlum oldu ki, toy sarayda yox, adi restoranda keçirilib, özü də olduqca sadə və dəbdəbəsiz, ancaq Leninqrad rəhbərinin adı artıq ləkələnmişdi.

"İzvestiya" qəzetinin keçmiş baş redaktoru İvan Laptev bu, özlüyündə qeyri-adi şəxsiyyəti xatırlayaraq yazırdı:

"Nə qədər qəribə görünsə də, onun problemləri ali partiya rəhbərliyinə yüksələndən sonra başlandı. Mətbuat Leninqradın necə yaşayıb işləməsi barədə səsini birdən kəsdi, onun adı isə nadir hallarda çəkildi. Əvəzində şayiələrin sayı artdı: Romanov Qış sarayında qızına toy edib, qonaqlar muzey qab-qacağını qırıblar; Romanov knyaz malikanəsinə köçüb, Romanov Kirovun mənzilində yaşayır və sair. O, özünü təmizə çıxarmağa çalışır, jurnalistlərə öz mənzilini, hökumət bağını, hətta toy etdiyi restorandan arayış da göstərirdi. Lakin heç nə kömək etmirdi. Elə bil kimsə qəsdən Romanovun Sov.İKP-də ən yüksək kürsüyə iddia etmək imkanının qarşısını alırdı... Sonra da, Romanovun içkiyə aludə olmağı haqqında artıq bu dəfə bir o qədər də əsassız olmayan informasiya yayıldı.

Əminəm ki, bu şayiələrin generatoru Siyasi Büronun bəzi üzvlərinin Romanovun güclənməsinin qarşısını almaq, buna imkan verməmək istəyi olub. Hələ Leninqrad partiya təşkilatının Q.Y.Zinovyev və A.A.Kuznetsov kimi nüfuzlu rəhbərlərini güllələyən Stalinin vaxtından, A.A.Sobçakın federal səviyyəyə buraxılmadığı bizim günlərədək Moskva rəhbərləri piterlilərdən həmişə qorxublar. Və şimal paytaxtının V.V.Putinin timsalında müasir revanşı heç kimi çaşdırmamalıdır. Yaşayarıq, görərik"[6].

İkilikdə görüşərkən Q.Romanov kömək üçün o vaxt SSRİ DTK sədri Y.Andropova müraciət etdiyini V.Leqostayevə söyləmişdi. O təsdiq etmişdi ki, radioaksiya Qərb xüsusi xidmət orqanları tərəfindən planlaşdırılmış və həyata keçirilmişdir. Məqsəd də Leninqradın birinci katibinin SSRİ-nin ali siyasi rəhbərliyindəki mövqelərini zəiflətməkdən ibarət idi. Romanovun bu barədə SSRİ DTK-sı adından rəsmi bəyanatla çıxış etmək xahişinə Andropov belə cavab vermişdi: "İndi onların hər sözünə baş qoşacağıq? İşinlə məşğul ol".

"Buna baxmayaraq, "Ermitajdan" olan serviz öz işini gördü,–Leqostayev yazır.–Görünür ki, Qərbin aksiyası bu halda mahiyyət etibarilə Moskva və Leninqrad qruplaşmalarının istəkləri ilə üst-üstə düşmüşdü. Q.V.Romanovun adı tədricən kölgədə qaldı və siyasi səhnədə yeni ulduzlar göründü"[7].

L.Brejnev qəflətən vəfat etdi və öz mümkün varisi haqqında Siyasi Bürodakı həmkarlarına heç bir yazılı göstəriş verməyə macal tapmadı. K.Çernenkonun mümkün müqavimətini qabaqlamaq üçün Rusiya yazıçı və tarixçisi S.Semanovun qeyd etdiyi kimi, SSRİ müdafiə naziri D.Ustinov "özü Çernenkonun yanına getdi və Baş katibliyə Yuri Vladimiroviçin namizədliyini irəli sürməyi xahiş etdi. Konstantin Ustinoviç həvəslə razı oldu, bu vəziyyətdə axmaq da başa düşərdi ki, məsələ nə yerdədir... Əlbəttə, Andropovu çoxları sevmirdi, amma Çernenkonun başına yığışmış "qocalar" da (Qrişin, Tixonov, Solomentsev) təşkilatlanmağa vaxt tapmadılar (onlar bunu bir ildən sonra etdilər, lakin artıq gec idi). Romanov da daxil olmaqla "əyalətçilər" isə adətləri üzrə oyuna girişmirdilər... Qromıko həddən artıq qoca və biganə idi"[8].

Öz növbəsində Y.Andropovun opponentlərini sakitləşdirmək üçün partiyada ikinci adam sayılan MK-nın ideologiya üzrə katibi vəzifəsinə K.Çernenkonu seçmək qərarlaşdırıldı.

K.Çernenkonun köməkçisi Viktor Pribıtkovun sözlərinə görə, "DTK aparatından geniş ideoloji cəbhəyə yenicə adlamış Andropov... aparat oyunlarının bütün incəliklərinə lazımınca bələd deyildi. Çernenko isə köhnə qurd idi! 20 il idi ki, partiya bürokratiyasının düz ürəyində oturmuşdu! Əlbəttə, Andropovun ətrafında çoxlu yeni qüvvələr, gənc kadrlar var idi, lakin onların da bu ali partiya qazanında bir qədər bişməsi, təcrübə toplaması lazım idi.

Bir sözlə, Andropov üçün ilk vaxtlar işləyən adam lazım idi! Aparatı bilən, Mərkəzi Komitəni idarə edə bilən adam! Brejnevin qəfil vəfatından sonra Çernenko partiyada birinci adam olmadı, lakin "ikinci adam" yerindən də onu, göründüyü kimi, qovan yox idi. O, təcrübəli aparat işçisi kimi lazım idi..."[9].

İdeoloji şöbələr, ümumi şöbə və məktublar şöbəsindən savayı, partiya-təşkilat və inzibati orqanlar şöbələri də Çernenkonun səlahiyyətinə keçdi.

Bütün bu razılaşmaları Sov.İKP MK-nın 1982-ci il noyabrın 12-də səhər keçirilmiş Plenumu təsdiq etdi. Həmin Plenumda səhhəti ilə bağlı A.Kirilenko Siyasi Büro üzvlüyündən azad edildi, onun yerinə isə Siyasi Büroya Heydər Əliyev daxil edildi. Lakin o, aparatda Kirilenkonun yerini tutmadı, SSRİ Nazirlər Soveti sədrinin ən geniş səlahiyyətlərlə birinci müavini seçildi. Bundan əlavə, görkəmli istehsalatçı, bir müddət Ağır Maşınqayırma Nazirliyinə rəhbərlik etmiş, SSRİ Dövlət Plan Komitəsində işləmiş N.Rıjkov iqtisadiyyat üzrə Sov.İKP MK katibi oldu.

* * *

Andropovun Sov. İKP MK Baş katibi seçilməsi və onun bu vəzifədə ilk addımları sovet cəmiyyətinin ən müxtəlif təbəqələrində və hətta xaricdə ümidlə qarşılandı. Qərbin ən iri kütləvi informasiya vasitələri ölkənin baş "çekistinin" rəhbərliyi altında "SSRİ" adlı nəhəngin hansı istiqamətdə irəliləyəcəyini proqnozlaşdırmağa çalışaraq böyük məqalələr dərc etdilər. Bu qəbildən, "Taym" jurnalının 1982-ci il 6-cı sayında dərc olunmuş məqaləni ixtisarsız təqdim edirəm*.

* Bu və sonrakı sitatlar müxtəlif vaxtlarda Qərb KİV-lərində dərc olunmuş məqalələrdən gətiriləcək. Məqalələr mənim tərəfimdən Heydər Əliyevin şəxsi arxivindən tapılmışdır.

Deviz–ehtiyatlı olmaqdır

Andropov dəyişikliklərdən danışır, lakin ləng irəli gedir*

Qanunvericilik orqanı olan Ali Sovetin çox zaman qanunların qəbul edilməsinə barmaqarası yanaşılan iclasları nadir hallarda Sovet İttifaqından kənarda diqqət obyektinə çevrilir. Buna baxmayaraq, ötən həftə, Kremlin tağlı, neoklassik salonunda başa çatmış iclası bir qədər başqa cür oldu. 1500 deputat öz yerlərini tutana kimi yuxarı yaruslarda əyləşmiş diplomat və jurnalistlər bir məsələni qızğın müzakirə edirdilər: Sovet İttifaqında yeni prezident** seçkiləri keçiriləcəkmi? 10 noyabrda Leonid Brejnevin vəfatından bəri bu şərəfli vakansiya öz namizədini tapmamışdı. Şərhçiləri bir məsələ narahat edirdi: DTK-nın keçmiş başçısı, Kommunist partiyasının Baş katibi Yuri Andropov hökumətin başçısı adına iddia edəcəkmi?

Brejnevin xatirəsinə bir dəqiqəlik sükutdan sonra partiyanın Moskva bossu Qrişin tribunaya tərəf yönəldi və nəhəng salona sakitlik çökən kimi sözə başladı: "Yoldaş deputatlar! Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Ali Sovetin Rəyasət Heyətinə seçilmək üçün Baş katibin–Yuri Vladimiroviç Andropov yoldaşın namizədliyini irəli sürür". Yuxarı yarusda müşahidəçilər təəccüblə bir-birlərinə baxırlar, yəni, doğrudanmı, "prezidentlik" sözünün yerinə "Rəyasət Heyəti" işlədilmişdi? Bəli, məsələ məhz belə qoyulmuşdu. Andropovun namizədliyi prezidentliyə yox, Ali Sovetin rəhbər orqanına–Rəyasət Heyətinə qırxıncı üzv kimi irəli sürülmüşdü. Bunun ardınca sanki sehrli çubuğun "işarəsi" ilə bütün 1500 deputat yekdilliklə "lehinə" səs verdi. Hazırkı məqamda Andropov Brejnevin ikinci adını almadan keçinə bildi.

Yeni prezidentin seçilməsində ləngimə ondan xəbər verə bilərdi ki, Kremldə əvvəlki kimi hakimiyyət uğrunda mübarizə gedir. Hər halda Moskvada belə bir fikir üstünlük təşkil edirdi ki, Andropov partiya üzərində hakimiyyəti sakitcə əlinə yığaraq ehtiyatlı tər-

* Məqalələri Azərbaycan Dillər Universitetinin tələbə və aspirantları, həmçinin qızım Lalə Axundova tərcümə etmişlər. Onlara öz təşəkkürümü bildirirəm.
** O dövrün xarici mətbuatında SSRİ Ali Sovetinin sədri vəzifəsi prezidentlik kimi göstərilirdi.

pənib Brejnevin özünün 13 il gözlədiyi ikinci postu tutmaqdan yan keçməyə üstünlük veribdir. Doğrudan da, ehtiyatlı davranmaq Sovetlər ölkəsinin yeni liderinin devizi oldu. Gözlənilirdi ki, Andropov dərhal partiya iyerarxiyasında özünü göstərəcək, lakin ötən həftə o yalnız iki mühüm görüş təyin etmişdi. Baş katib qismində ilk əsas çıxışında ölkənin "axsayan" iqtisadiyyatını şiddətli tənqid etməklə təəccübləndirsə də, daxili və ya xarici siyasətdə kəskin dəyişikliklər təklif etmədi.

Kremlşünaslar Andropovun vəzifədə olduğu ilk həftələrdən hər addımını izləyir, siyasət üslubunda mümkün olası dəyişikliklərə bir işarə sezməyə çalışırdılar. Müəyyən nəticələr verməyən Ali Sovetin sessiyasına bir gün qalmış, bütün Sovet İttifaqında partiya nümayəndələri və qəzet redaktorları rəsmi mətbuat agentliyi olan SİTA-nın xəbərlərini diqqətlə izləyir, Kommunist Partiyası Mərkəzi Komitəsinin Plenumuna aid nəsə tapmağa ümid edirdilər. Əslində, Siyasi Bürodan gələn bütün qərarlar Mərkəzi Komitə tərəfindən bəyənilməli idi və şayiələr gəzirdi ki, Andropov hakimiyyət dəyişikliklərini elan etmək üçün qapalı plenum keçirə bilər.

Gözlənildiyi kimi, son aylar bir neçə rəsmi qəbulda iştirak etməyən 76 yaşlı MK katibi Andrey Kirilenko çox güman səhhəti ilə əlaqədar Siyasi Büronu tərk etmişdi. Şayiələr gəzirdi ki, Kirilenko siyasi cəhətdən gözdən düşüb. Brejnevin və partiyanın ideoloqu Suslovun ölümündən sonra siyasi "boşluqları" nəzərə almaqla Andropovun üç boş yeri var idi. Lakin bir çox ekspertlərin təəccübünə səbəb olaraq Mərkəzi Komitə elan etdi ki, yaxın zamanlarda Kremldə yalnız bir nəfər vəzifə tuta bilər. Həmin adam Azərbaycan Sovet Respublikasının sabiq DTK sədri, sonra isə partiya rəhbəri 59 yaşlı Heydər Əliyev oldu.

Əliyev Brejnevin favoriti hesab olunurdu və onun statusunun yüksəldilməsi qərarı Brejnevin ölümündən qabaq həll oluna bilərdi. Ola bilsin ki, bu yeri Əliyevə mayda Andropovun keçmiş vəzifəsini ala bilmədikdən sonra söz vermişdilər. Əliyevin yuxarıya irəli çəkilməsi faktı sonradan təsdiqini tapdı. Ona hökumətdə əsas vəzifə–Baş nazir Nikolay Tixonovun birinci müavini postunu tapşırdılar.

Andropov MK Katibliyində, partiyanın gündəlik işi ilə məşğul olan 9 nəfərdən ibarət güclü icra orqanında Brejnevin xəttindən elə

də aralanmadı. O, açıq-aydın Suslovdan ona miras qalan ideologiya və xarici işlər üzərində nəzarət siyasətinə sadiq qalmağı qərara almışdı. Yeganə yenilik Sverdlovsk maşınqayırma zavodunun keçmiş baş direktoru, ağır sənayeyə nəzarət etmək üçün istifadə olunan 53 yaşlı Nikolay Rıjkovun təyinatı idi.

Yeni sovet liderinin ilk nitqi əsasən yumşalma siyasətini təşviq etməkdən və sovet fəhlələrini əmək məhsuldarlığını artırmağa çağırmaqdan ibarət idi.

Bir tərəfdən bu, keçmiş siyasətdən radikal surətdə uzaqlaşmaq demək idi. Andropovun nitqi kəskin, aydın və bəzən də sərt, açıq idi.

Milli iqtisadiyyatın vəziyyətini təhlil edərkən o, açıq etiraf etdi ki, "çoxlu təcili məsələlər vardır", onların həlli üçün isə onda "hazır reseptlər yoxdur".

Qeyd etdi ki, "fəaliyyətsizlik və köhnə qaydaya sadiqlik" milli artımı ləngidir. O, fəaliyyəti, işgüzarlığı, eksperimentlər aparmağı gücləndirməyə çağırdı.

Andropov dedi: "Yalnız şüarlarla siz heç şeyi yerindən tərpədə bilməyəcəksiniz". Macarıstanda ciddi şəkildə mərkəzləşdirilmiş planlaşdırmanı aradan götürən və bu ölkənin iqtisadiyyatını sovet blokunda ən möhkəm edən iqtisadi islahatları misal gətirən Andropov partiya rəhbərlərini "qardaş ölkələrin təcrübəsini nəzərə almağa çağırdı".

Andropov sovet məhsuldar qüvvələrini fəallaşdırmaqdan ötrü daha sərt tədbirlərin görülməsini tələb etdi. Kapitalistə daha çox yaraşan bir iradla o qeyd etdi ki, "aşağı keyfiyyətli iş, fəallığın və məsuliyyətin olmaması qaçılmaz effektə gətirib çıxara, fəhlənin əmək haqqına, rəsmi statusuna və mənəvi nüfuzuna təsir edə bilər". O vurğuladı ki, "kadrlar elə yerləşdirilməlidir ki, həlledici sektorlarda siyasi cəhətdən yetkin, işini bilən, bacarıqlı və yeniliyə həssas adamlar olsun". Bəziləri onun dediklərini bürokratik təbəqələrin "təmizlənməsinə" işarə kimi başa düşdülər.

Andropov onun üçün iqtisadiyyatın gündəmdə birinci yerdə olmasına baxmayaraq, ümumi şəkildə xarici siyasətə də öz baxışlarını açıqladı. O dedi ki, Sovet İttifaqı "bizim böyük qonşumuz" Çinlə münasibətlərin yaxşılaşdırılmasını davam etdirəcək və Pekindən

gələn hər hansı müsbət cavaba böyük diqqətlə yanaşacaqdır. Buna baxmayaraq SSRİ-nin ABŞ-ı yaranmış gərgin vəziyyətə görə günahlandırmaqdan əl çəkəcəyinə eyham belə yox idi. Andropov dedi: "Biz heç kimə qarşı sanksiyalar tətbiq etmirik, biz imzalanmış qətnamə və sazişləri denonsasiya etmirik, biz başlanmış danışıqları pozmuruq". Orta mənzilli raketlər barədə Cenevrədə keçirilən iki danışığa istinad edən Andropov söylədi ki, "bütün razılaşmalar qarşılıqlı olmalı və bərabərliyə əsaslanmalıdır". O, xəbərdarlıq etdi: "Qoy heç kəs bizdən birtərəfli tərksilah gözləməsin. Biz sadəlövh xalq deyilik".

Partiyanın gündəlik rəsmi qəzeti "Pravda" Reyqanın MX tipli raketləri yerləşdirmək qərarına Andropovun reaksiyasını əks etdirmişdi. Şərhdə deyilirdi ki, Sovet İttifaqının "ABŞ ilə bu tipli yeni silah yaratmaq sahəsində yarışa girmək" niyyəti yoxdur. "Pravda"-da həmçinin qeyd edilirdi ki, təzyiq olacağı təqdirdə Moskva Birləşmiş Ştatların silahlanmanı sürətləndirməsinə cavab olaraq öz güc mövqelərini möhkəmləndirəcəkdir.

Vaşinqtonda dövlət katibi Corc Şults ilk dəfə olaraq sovet səfiri Anatoli Dobrınin ilə görüşdü, Dövlət departamentinin spikeri Con Xyues qeyd etdi ki, Reyqan administrasiyası "Andropovun Qərblə Şərq arasında gərgin münasibətlərin yumşaldılmasında maraqlı olmasını" qiymətləndirmişdir. Lakin o, ilk addımın Moskva tərəfindən atılması barədə ABŞ-ın xahişini bir də təkrar etdi. Xyues dedi: "Biz Sovet İttifaqının konstruktiv addımlarını yalnız alqışlayacağıq, xüsusilə insan hüquqları sahəsində, eləcə də Polşa və Kampuçiya məsələsində".

Andropovun yumşaq siyasət yürütməsi barədə spekulyativ şayiələrə son qoymağa cəhd göstərən dövlət katibinin müavini Lourens İqlburger sərt fikir söyləmişdir: "Əgər kişi şalvarının balağı qatlanmış qərb kostyumu geyirsə, bu hələ o demək deyil ki, o, liberal olmuşdur".

Çinlə bağlı Andropovun sülh təşəbbüsü Pekində oxşar reaksiya doğurdu, xarici işlər naziri bəyan etdi ki, "Çinlə münasibətin tənzimlənməsi məhz Moskvadan asılıdır". Fransanın gündəlik "Le Mond" qəzetinə müsahibə verən Fransa prezidenti Mitteran vurğulamışdı ki, Brejnevin ölümü Kremldə qüvvələr nisbətini bir o qədər də dəyişməmişdir. Yeni liderin başçılığı ilə Sovet İttifaqı "hər bir qitədə öz ideoloji və siyasi irəliləyişini davam etdirməyə səy göstərəcəkdir".

Hər halda, Moskvada böyük dəyişikliklər barədə danışmaq hələ çox tezdir, lakin keçən həftə Andropov Sovet İttifaqını Brejnev hakimiyyətinin son illərində düşdüyü letargiya yuxusundan oyatmağa kifayət qədər meyilli görünürdü. İctimai əhval-ruhiyyəyə yekun vuran sovet məmuru qəbulda xarici qonağa bu sözlərlə müraciət etmişdir: "Biz gərginlik içindəyik. Hamı hansısa dəyişiklikləri gözləyir, ümidvarıq ki, yaxşı tərəfə". Bütün dünya bunu ümidlə gözləyir".

Con Koqan, Erik Amfiteatrov
və Coanna MakQiri

* * *

Yeni Baş katibin ilk addımlarından danışmazdan öncə onun ölkəni "əziz Leonid İliçdən" hansı vəziyyətdə aldığını yada salmaq pis olmazdı.

Bir aləm siyasi ədəbiyyat oxumağıma baxmayaraq, mən "son" Brejnev dövrü haqqında pozitiv qiymətə çox az rast gəldim. Əlbəttə, ölkə M.Qorbaçov və onun komandasının fərasətsiz rəhbərliyi sayəsində düşəcəyi iqtisadi kollapsdan hələ uzaq idi. Əlbəttə, Sovet İttifaqının nüfuzu sosializm düşərgəsindən olan tərəfdaşları və "üçüncü dünya" adlanan ölkələr arasında hələ yüksək idi, NATO ölkələri isə tamamilə haqlı olaraq SSRİ-nin hərbi qüdrətindən çəkinirdilər. Lakin qarşıdan gələn sistem böhranının ilk təzahürləri adi gözlə görünürdü, bundan ötrü iqtisadiyyatçı olmağa lüzum yox idi. Milyonlarla sovet vətəndaşının yaddaşında ötən əsrin 80-ci illərinin əvvəli ərzaq mağazalarının boş piştaxtaları, ərzaq kartoçkaları və talonların tətbiq edilməsi, hər bir şey üçün sonu görünməyən növbələr, total qıtlıqla qalmışdır.

Rusiya tarixçisi R.Medvedevin fikrincə, 1965–1982-ci illərdə ölkə rəhbərləri "Stalin totalitar diktatura sistemini dağıtmağa yox, yumşaltmağa və modernləşdirməyə çalışırdılar... Cəmiyyətdə qorxu atəleti hələ böyük idi. Mətbuat, digər kütləvi informasiya vasi-

tələri və mədəniyyətdə ciddi senzura qalmaqda idi. Ölkənin siyasi həyatında ciddi mərkəzləşmə əsasında təşkil edilmiş yeganə partiya–Sov.İKP tam hökmranlıq edirdi. Dövlət və partiya aparatlarının bütün sistemlərinə yalnız yuxarıdan aşağı nəzarət olunurdu, rejimə qarşı hər hansı müxalifət susdurulurdu, hər halda onun açıq təzahür etməsinə yol verilmirdi...

Ölkənin iqtisadi inkişafı son dərəcə ləng gedirdi, buna baxmayaraq hərbi-sənaye və kosmik sənayenin bütün sahələrinin genişlənməsinə və ordunun güclənməsinə xüsusi diqqət yetirilirdi. Məhz Brejnev dövründə SSRİ bədnam "paritet"ə nail oldu, onun hərbi qüdrəti praktik olaraq bütün NATO ölkələrinin birlikdə hərbi qüdrətinə və ya Çin və ABŞ-ın hərbi qüdrətinə bərabər oldu. Hərbi sahələrin və ordunun prioritet inkişafının nəticəsi cəmiyyətin və iqtisadiyyatın son dərəcə hərbiləşdirilməsinə, intellektual və iqtisadi resursların bu sahədə cəmləşməsinə və ekologiyaya qarşı etinasızlığa səbəb oldu. Cəmiyyətə inadla düşmən obrazı təlqin edilir, xarici siyasət isə ekspansionizm cizgilərini qoruyub saxlayırdı..."[10].

SSRİ siyasət Olimpində "bərabərlər sırasında birinci" olduqdan sonra özünün ilk ideya və təşəbbüslərini götür-qoy edərkən Yuri Vladimiroviçin qətiyyən "əsaslara" toxunmaq fikri yox idi. O, özü uzun müddət L.Brejnevə çox yaxın olan bir neçə şəxs sırasına daxil idi, Siyasi Büro ən vacib siyasi və iqtisadi qərarları onun birbaşa iştirakı ilə qəbul edirdi. Deməli, həyatın müxtəlif sahələrində yığılıb qalmış bütün mənfi hallar üçün o cümlədən Y.Andropov da məsuliyyət daşıyırdı.

Eyni zamanda, sözsüz ki, vicdanlı və məsuliyyət daşıyan insan kimi o, ölkənin xalq təsərrüfatında artan səmərəsizlik və yüksək texnologiyalar sahəsindəki geriliklə, məhsuldarlığın və icra intizamının aşağı səviyyədə olması, "kölgə" iqtisadiyyatının təhlükəli dərəcədə artması, kənd təsərrüfatının tənəzzülü və ixracın xammala yönəlməsi ilə barışa bilmirdi.

Aşağıda 80-ci illərin əvvəli üçün SSRİ-də yaranmış vəziyyətin qiymətləndirilməsinə dair fikirləri veririk. Özü də qiymətləndirmə yüksək vəzifəli, müxtəlif siyasi təmayüllü partiya funksionerlərinə məxsus olduğundan dolğun və obyektiv mənzərə yaradır. Bu mənzərəni indinin özündə də sovet dövlətinin güc və qüdrətini yada salaraq nostalji hisslər keçirənlərin yadına salmaq yerinə düşərdi.

V.Vorotnikovun "Məsələ belə olmuşdu..." kitabından:

"Yazılarımın xronologiyasından bir qədər kənara çıxaraq, qısaca demək istərdim ki, ölkə iqtisadiyyatı, xüsusilə də 1980–1982-ci illərdə pisləşməyə başladı. Sənayenin bir sıra sahələrində istehsalın inkişaf sürətinin aşağı düşməsi müşahidə olundu. Elmi-texniki tərəqqi üçün stimulun olmaması əmək məhsuldarlığının artmasının qarşısını alırdı. Texnologiyaların səviyyəsindəki gerilik, xüsusilə də əhali üçün mal istehsal edən sahələrdə, məhsulun keyfiyyətinə mənfi təsir göstərirdi. Maliyyə-kredit sisteminin köhnəlməsi də əmək məhsuldarlığının və məhsulun keyfiyyətinin yüksəlməsinə kömək etmirdi.

Bu illərdə kənd təsərrüfatında vəziyyət pisləşdi. Bir sıra vilayətlərdə əhalidə müəyyən narazılıqlar doğuran talonlar tətbiq etməyə məcbur oldular (ət və heyvan yağı kimi bəzi heyvandarlıq məhsullarının bir növ norma ilə bölüşdürülməsi sistemi). Sənaye məhsullarının çeşidi kiçildi, xarici mallar azaldı. Bunun həm obyektiv, həm də subyektiv səbəbləri kifayət qədərdir"[11].

V.Medvedevin "Qorbaçovun komandasında. İçəridən nəzər" kitabından:

"Bütün bunların arxasında inkaredilməz fakt durur: 70-ci illərdə ölkə əvvəlki vaxtlarda yaranmış ictimai-siyasi və sosial-iqtisadi sistemin ümumi böhranı nəticəsində tormozlanma və tənəzzül zolağına sürünürdü. İndi bu hamıya tamamilə aydındır.

Lakin elə o zaman da uğursuzluğun dərk edilməsi artırdı. Səkkizinci beşillik (1966–1971-ci illər) demək olar ki, ölkənin sosial-iqtisadi inkişafında sonuncu uğurlu dövr oldu. 60-cı illərdəki iqtisadi islahatların, xarici iqtisadi amillərin müsbət təsiri altında iqtisadi artım sürəti əvvəlki illərdəkindən, hətta bir qədər çox idi. Bir sıra mühüm sosial tədbirlər də həyata keçirilmişdi, məsələn, mənzil tikintisi genişləndirilmişdi.

Bundan sonra iqtisadi inkişaf sürətlə və durmadan pisləşməyə başladı. Növbəti iki beşillik plan, onların sosial proqramları da daxil olmaqla müvəffəqiyyətsizliyə uğramışdı. Müəyyən vaxta qədər

iqtisadi konyunktura dünyada yanacaq-energetika və xammal ehtiyatlarının yüksək qiymətləri hesabına saxlanılırdı. Ölkə əhəmiyyətli dərəcədə öz təbii sərvətlərinin sağa-sola dağıdılması hesabına dolanırdı. Qərb ölkələrindən fərqli olaraq, o nəinki enerji böhranı və enerji ehtiyatlarının qiymətində baş verən inqilabdan əziyyət çəkdi, əksinə, qabağa düşdü. Lakin 80-ci illərdə bu amil də tükəndi. Durğunluq dövrü başlandı və bu da addım-addım istehsalın mütləq aşağı enməsinə gətirib çıxardı. İqtisadiyyatın yalnız bir sahəsi–hərbi-sənaye kompleksi daim çiçəklənirdi. Ölkə hərbi xərclərin dözülməz yükü altında əldən düşürdü.

Sözdə "Hər şey insan üçün, hər şey insanın rifahı üçün!" deyə bağırırdılar, əslində isə sosial problemlərin kəskinliyi artırdı.

Bu ilk növbədə ərzaq məsələsinə aid idi. Hər il "məhsul uğrunda döyüş" aparılırdı, lakin ərzaq bazarında götürülən məhsuldan asılı olmayaraq vəziyyət düzəlmirdi. Onilliklərlə insanlar boş piştaxtalara və uzun növbələrə məhkum idi. İstehlak mallarının istehsalı, xidmət və istirahət sahələri miskin vəziyyətdə idi"[12].

A.Yakovlevin "Alatoran" ("Sumerki") kitabından:

"Hər şeydən əvvəl, taxıl və digər məhsulların xaricdən alınması haqqında. Bu məqsədlərə külli miqdarda vəsait sərf olunurdu, bununla belə sovet kənd təsərrüfatı göz görə-görə zəifləyirdi. Yetişdirilmiş məhsulun yarısı yığım, daşınma, saxlanma zamanı məhv olurdu. Rəhbərlik guya bunu görmürdü və kənd təsərrüfatı məhsullarının alınmasına tonlarla qızıl xərcləyirdi. Yalnız 1984-cü ildə, yəni Yenidənqurmaya bir il qalmış, Sovet İttifaqı Qərbdən 45 milyon tondan çox taxıl və taxıl məhsulları, 484 min ton ət və ət məhsulları, 1 milyon tondan çox heyvan və bitki yağları, digər ərzaq məhsulları almışdı. Xaricə qaz, neft və ağac satışından əldə edilmiş külli miqdarda valyuta vəsaiti göndərilmişdi"[13].

Ş.Munçayev və V.Ustinovun "Sovet dövlətinin tarixi" kitabından:

"İsrafçı iqtisadiyyat və müdafiə kompleksi milli gəlirin xeyli hissəsini udurdu. Sosial tələblər üçün ayrılan vəsaitlərə də qənaət etmək lazım gəlirdi. Müəssisələrin rentabelliliyi aşağı düşürdü. Maşın parkının texniki vəziyyəti yarıtmaz idi: 40 %-dən çox mexanizmin köhnəlmə dərəcəsi 50%-i keçmişdi. İdarəetmə sisteminə məsuliyyətsizlik yol tapırdı. Ölkəni getdikcə daha çox qanunlar deyil, onları şərh etmək və onlardan istifadə etmək ixtiyarı qazanmış insanlar idarə edirdilər"[14].

V.Leqostayevin "Xəyanətin texnologiyası" kitabından:

"Hakimiyyətin zirvəsində yüksək dərəcədə qeyri-müəyyənliyin olması, ölkənin formal liderinin vaxtı çatmış qərarlar qəbul edib onların yerinə yetirilməsinə nail ola bilməməsi, olduqca mürəkkəb sovet cəmiyyətinin faktiki olaraq SB üzvlərinin kiçik qrupu tərəfindən süst konsensus prinsipləri əsasında idarə olunması – bütün bunlar ölkənin inkişafının qarşısını alırdı, xalq arasında güclü narazılıq, ümidsizlik, sabaha inamsızlıq doğurdu. Xalq dəyişiklik istəyirdi.

Cəmiyyətdə korrupsiyanın, tamahkarlığın, mənəviyyatsızlığın artması onun qeyri-sağlam durumunun qorxulu obyektiv göstəricisinə çevrilmişdi. Sonradan əldə olunmuş məlumatlara görə 1975-ci ildən 1980-ci ilə qədər olan dövrdə ölkədə dövlət və ictimai əmlakın oğurlanması hallarının sayı birə üç, aşkar olunmuş rüşvətxorluq faktları yarıbayarı, möhtəkirlik 40 faiz artmışdı. 1980-ci ildə rüşvətxorluğa görə məhkum olunanların az qala otuz faizini Sov.İKP üzvləri və üzvlüyə namizədlər təşkil edirdi"[15].

G.Züqanovun "Sadiqlik" kitabından:

"... Bizim bir çox quruculuq təşəbbüslərimiz mərkəzi aparatın bürokratik bətnində itib-batırdı. İstər-istəməz Leninin xəbərdarlığı yada düşür: bürokrat məhz formal baxımdan haqlı olduğu üçün qorxuludur. Artıq o vaxt aydın idi ki, mərkəzləşdirmə həddini aşmışdı, təşəbbüsün əl-qolunu bağlayırdı, ən mühüm qərarlar isə çox vaxt yuxarıda, özlərinə əvəzedilməzlik şöhrəti yaradan kiçik qrup tərəfindən qəbul olunurdu. Zənnimcə, sözün həqiqi mənasında total xarakter almış indiki korrupsiyanın kökü burada gizlənib. O illərdə, Leonid İliç Brejnev hakimiyyətinin son illərində isə mən partiyanın hakimiyyət və həqiqət üzərindəki monopoliyasının onu məhv edə biləcəyini dərk etməyə yaxınlaşmaq üzrə idim.

Partiya bölüşdürmə–idarəçilik funksiyalarını əlində saxlayaraq, Nazirlər Sovetindən tutmuş Ali Soveti, Dövlət Plan Komitəsini,

komsomol, kooperasiya, OADKYC, ordu və dövlət təhlükəsizliyi orqanlarına qədər bütün ictimai həyatı ətrafında cəmləşdirən tipik dövlət idarəçilik qurumuna çevrilirdi. Yuxarıdan hazır, "bükülübütülənmiş" həqiqət və şüarların göndərilməsi, onların şablon, asan düzələn tədbirlər vasitəsilə ictimai düşüncədə yerləşdirilməsi təcrübəsi dərin kök salmışdı"[16].

Bir sözlə, ölkənin nəhəng iqtisadi nizamçarxını "yağlamaq", dövlətin gələcək inkişaf strategiyasını müəyyənləşdirmək və zəruri islahatlar aparmaq tələb olunurdu. Y.Andropovun vəziyyətinin mürəkkəbliyi bir də ondan ibarət idi ki, hakimiyyətə gələn kimi öz komandalarını yaratmağa başlayan qərb ölkələri prezidentləri və ya baş nazirlərindən fərqli olaraq, sovet liderlərinə ətrafdakılarla, öz səlahiyyətlərinin təyin etdiyi kadrlarla işləmək lazım gəlirdi (hər halda ilk vaxtlar). Məlum olduğu kimi, SSRİ-də, məsələn, Siyasi Büro və ya Nazirlər Soveti üzvlərinin istefaya çıxmaq ənənəsi yox idi. Buna baxmayaraq Y.Andropov öz ilk kadr dəyişikliklərinə artıq Sov.İKP MK-nın 1982-ci il noyabr Plenumunda başladı. Həm ölkədə, həm də xaricdə ən geniş əks-sədaya səbəb Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin müavini və Siyasi Büronun üzvü seçilməsi oldu.

Heydər Əliyev və Yuri Andropov

H.Əliyev formal olaraq Siyasi Büroya 1966-cı ildən müdafiə məsələləri üzrə MK katibi olan A.Kirilenkonun yerinə gəlmişdi. Müəyyən vaxta qədər A.Kirilenko pis işləmirdi, lakin 70 və 80-ci illərin qovuşuğunda onun səhhəti pisləşdi, kəllə-beyin damarlarının sklerozu güclənməyə başladı. L.Brejnevin katibi O.Zaxarovun sözlərinə görə, "xəstəliyin zahiri əlamətlərini artıq ətrafdakılardan gizlətmək olmurdu. Kirilenkoda gözlənilmədən yaddaşın pozulması başladı, bəzən o kiminlə danışdığını anlamırdı, nitqi arabir anlaşılmaz olurdu. Buna baxmayaraq, o var qüvvəsi ilə öyrəşdiyi həyat tərzindən yapışmışdı, MK-dan getmək istəmirdi"[17]. 1982-ci ilin sentyabrında, nəhayət ki, Siyasi Büro Kirilenkonun təqaüdə çıxması ilə bağlı qərar qəbul etdi.

Lakin bu təqaüdə getmək məsələsi Kirilenkonun guya partiya və hökumət əleyhinə hansısa xətaya yol verdiyi, qızının alverlə məşğul olduğu, oğlunun isə xaricə qaçması ilə bağlı qalmaqallı şayiələrlə müşayiət olunurdu. O.Zaxarovun fikrincə, bütün məsələ onda idi ki, Kirilenkonu xəlvəti çıxartdılar, partiya və ictimaiyyəti bu barədə məlumatlandırmağı lazım bilmədilər.

Kirilenkonun vəzifədən götürülməsi barədə "Həyat və islahat" kitabında gələcək Baş katib M.Qorbaçov da hərtərəfli söhbət açır:

"1982-ci il noyabrın 22-də MK katibi Kirilenkonun çox vaxt aparmış vəzifədən azadedilmə "əhvalatı" başa çatdı. Onun səhhəti elə həddə çatdı ki, gizlətmək mümkün deyildi. Dərin beyin dəyişiklikləri nəticəsində onun şəxsiyyətinin tənəzzülü kəskin şəkildə sürətləndi. 1981-ci ildə, XXVI qurultayda ona MK-nın yeni tərkibi barədə təklif irəli sürmək tapşırılanda o bir çox namizədlərin soyadlarını təhrif etdi. Halbuki, xüsusi olaraq onun üçün hazırlanan siyahı ən böyük şriftlə çap olunmuşdu. Zal buna, yumşaq desək, məəttəl qaldı. Belə epizodlar yaddan çıxmır və hər cür siyasi xarakteristikalardan daha güclü təsir bağışlayır.

Buna baxmayaraq, hətta belə epizoddan sonra da, köhnə dostluğu yaddan çıxarmayan Brejnev Kirilenkonu yeni Siyasi Büronun tərkibinə daxil etdi. Lakin xəstəlik güclənirdi. Hamının gözü qarşısında o söhbətin məzmununu itirir, tanış adamları tanıya bilmirdi. Və nəhayət, Brejnev Kirilenko ilə söhbət edib təqaüdə çıxması barədə ondan ərizə almağı Andropova tapşırdı.

Bu söhbət barədə mənə sonradan Yuri Vladimiroviç danışmışdı. O, Kirilenkonun kabinetinə gəlib, onun inciməməsi üçün sakit, lakin kifayət qədər qətiyyətlə sözə başladı:

– Andrey, özün bilirsən, biz hamımız köhnə yoldaşlarıq. Mən hamının, sənə həmişə və indi də hörmət edən adamların adından danışıram. Bizdə ümumi fikir yaranıb ki, sənin sağlamlığın işə əhəmiyyətli dərəcədə təsir göstərməyə başlayıb. Sən ciddi xəstəsən, müalicə olunmalısan və bu məsələni həll etmək lazımdır.

Kirilenko həyəcanlandı, ağlamağa başladı. Onunla danışmaq çox çətin idi, lakin Andropov söhbəti kəsmədi:

– Sən başa düş, Andrey, indi prinsip etibarilə həll etmək lazımdır. Sən istirahətə gedərsən–bir ay, iki ay, nə qədər lazımdır. Hər

şey olduğu kimi qalacaq–maşın, bağ, tibbi xidmət. Biz dost söhbəti edirik, lakin necə olsa, gərək təşəbbüs sənin tərəfindən gəlsin. Yadına sal, Kosıgin özünü daha yaxşı hiss edirdi, amma yazdı...

– Yaxşı, Yuri,–Kirilenko, nəhayət ki, dilləndi,–əgər belədirsə, əgər lazımdırsa...Ancaq sən mənə ərizə yazmağa kömək elə, özüm yaza bilməyəcəyəm.

Andropov tez qısa bir ərizə yazdı. Andrey Pavloviç, böyük çətinliklə də olsa, öz əli ilə üzünü köçürtdü. Məsələ həll olunmuşdu. Noyabrın 22-də, artıq Brejnevin ölümündən sonra bu məsələ MK-nın Plenumunda həll olundu.

Həmin Plenumda Heydər Əliyevi Siyasi Büro üzvü seçdilər. Mən sonradan Yuri Vladimiroviçdən soruşanda ki, niyə bu namizədin üstündə dayanıb, Yuri Vladimiroviç könülsüz və ikibaşlı cavab verdi ki, məsələ Brejnev tərəfindən həll olunmuşdu və o, bu qərarı dəyişmək istəməyib..."

Daha sonra M.Qorbaçov öz fərziyyəsini irəli sürür:

"Məsələ heç də Brejnevə verilən sözdə deyildi. Əliyev uzun müddət DTK-da işləyib. Andropov onunçün təkcə keçmiş "şef" yox, həm də sözsüz avtoritet idi. Ona görə də Əliyevin Siyasi Büroya gəlməsi Yuri Vladimiroviçin mövqelərini möhkəmlədirdi. Vəssalam"[*].

Y.Andropovun H.Əliyev üçün birmənalı avtoritet olması, əlbəttə, doğrudur. Onda icazə verin soruşaq: bəs Qorbaçovun özü üçün, elə ali partiya rəhbərliyində olan bir çox digərləri üçün o, avtoritet deyildi? Bəlkə, hələ Stavropolda işləyərkən hər vasitə ilə Andropovla yaxınlaşmağa fürsət axtaran Qorbaçov deyildi? Özünü çaparaq Kislovodska çatdıran, özünün və arvadının məzuniyyətlərini həmin vaxta salıb DTK sədrinin yanında daha cox görünməyə çalışan o deyildi? Bu barədə hələ danışacağıq. O ki qaldı H.Əliyevin Moskvaya işə keçməsinə, əlbəttə ki, Andropov bu addımı mərhum Baş katibin xatirəsinə olan hörmətin müqabilində atmamışdı. Aşağıda mən Yuri Vladimiroviçin həqiqətən H.Əliyevin məsləhət və köməyinə ehtiyacı olduğunu sübuta yetirən çoxsaylı faktlar gətirirəm. Y.Andropovun Sovet İttifaqı miqyasında reallaşdırmağa cəhd göstərdiyi ideya və təşəbbüsləri hələ çox əvvəl H.Əliyev öz respublikasında həyata keçirmişdi.

Bundan əlavə, V.Leqostayevin doğru qeyd etdiyi kimi, "mühüm kadr qərarları qəbul edərkən Y.V.Andropov... yalnız məsələnin xeyrini rəhbər tuturdu. Onun şəxsi siyasi mövqeyi son dərəcə möhkəm, partiya və xalqın gözündə nüfuzu – şübhəsiz idi, cəmiyyət və xalq ona tamamilə inanırdı. Ona görə də o, konyunktur planları nəzərə almaya bilərdi"[*].

Mənimlə söhbətdə H.Əliyev barəsində Y.Andropovun gələcək planları haqqında keçmiş yüksəkrütbəli partiya funksionerləri də xatırlayırdılar.

Anatoli Lukyanovla söhbətdən:*

"Heydər Əliyevin Siyasi Büroya gəlməsi və hökumət sədrinin birinci müavini təyin olunması xeyli dərəcədə Andropovun hakimiyyətə gəlməsi ilə əlaqəli idi. Və mən deyə bilərəm ki, bu onun təşəbbüsü idi. Bəli, Brejnev ilə Heydər Əliyeviçin yaxşı münasibətləri var idi, lakin təşəbbüs Andropovdan gəlirdi. Təhlükəsizlik orqanlarındakı təcrübə və əlaqələri ilə Heydər Əliyev, təbii ki, burada öz yerində idi. Düzdür, o hökumətə hələ orada xeyli dərəcədə Tixonov ab-havası hökm sürən zaman gəlmişdi".

Y.Soloduxinlə söhbətdən:**

"Mən öz fərziyyəmi söyləyəcəyəm. Heydər Əliyev məni söhbət etmək üçün dəvət etməyi xoşlayırdı. Mən məruzə ilə onun yanına gəlirdim, o hər şeyi dinləyirdi, müəyyən tapşırıqlar verirdi, sonra isə onun təşəbbüsü ilə müxtəlif mövzularda söhbətlərimiz başlayırdı: ölkədəki iqtisadi, sosial vəziyyət haqqında, ziyalılar arasında gedən cərəyanlar, ideya-tərbiyə işləri, mənəvi tərbiyənin əhəmiyyəti haqqında. Artıq müəyyən müddətdən sonra məndə qəti fikir yarandı ki, bu, Heydər Əliyeviç üçün SSRİ Nazirlər Sovetində məşğul olduğu sahədən daha maraqlıdır, daha mühüm əhəmiyyət kəsb edir.

Buradan mən nəticə çıxardım: yəqin ki, Yuri Vladimiroviç onu dəvət etmiş, onların arasında razılaşma olmuşdur ki, bu, müvəqqəti

---

* M.Qorbaçov hakimiyyətdə olan vaxt Sov.İKP-də ümumi şöbənin, sonra inzibati şöbənin müdiri işləmişdir, 1987-1991-ci illərdə – MK katibi, Siyasi Büro üzvlüyünə namizəd, SSRİ Ali Sovetinin sədri.

** Sov.İKP MK aparatının keçmiş işçisi, 1983-1984-cü illərdə – Heydər Əliyevin köməkçisi.

mərhələdir, Heydər Əliyeviçi partiyanın ali rəhbərliyinə daxil etmək üçün sadəcə olaraq bir imkandır. Əliyev və Rıjkov Andropovun ilk böyük təyinatları idi. Yəqin ki, o, Heydər Əliyevə Sov.İKP MK katibi kimi Zimyaninin apardığı sahəni – ideologiyanı söz vermişdi.

Məndə qəti təəssürat yaranmışdı ki, təbliğat, elm və mədəniyyət şöbələri Heydər Əliyeviçə verilməli idi. Çünki onun bu sahələrə marağı şübhəsiz idi. O, məni bir çox xırdalıqlar və nüanslar barədə sorğu-suala tuturdu. Təbii ki, ehtiyatlı adam olduğundan o heç vaxt söhbətin nədən gedəcəyini birbaşa demirdi, lakin mən artıq bilirdim, həmin məsələləri izləyirdim, informasiya üçün, qiymətləndirmək üçün (kim, kiminlə, necə) MK-nın şöbələrinə, keçmiş yoldaşlarımın yanına gedirdim.

– Bəs konkret olaraq onu nə maraqlandırırdı?

– Onu cəmiyyətin mənəvi həyatında gedən proseslər maraqlandırırdı: insanların əhval-ruhiyyəsi, yaradıcı ziyalıların həyatı, mədəniyyətdə, ictimai elmlərdə nələr baş verir, tərbiyə işləri necə aparılır, dissidentlər kimdir, əks-təbliğat işi necə qurulub, onu necə gücləndirək və s.

Siyasi Büronun üzvü, Sov.İKP MK katibi vəzifəsi statusuna görə, Nazirlər Soveti sədrinin müavinindən yüksəkdir. Bizdə, sözsüz, lider Baş katib idi, ondan sonra hər şey konkret şəxsiyyətdən asılı idi. İkinci katibin ölkədə nüfuzu yüksəkdir, ya hökumət başçısının? Hökumət başçısı Kosıgin olanda–bu bir şeydir, Tixonov olanda isə–başqa. Yəni reallıqda Əliyev ikinci katib ola bilərdi.

Mən hesab edirəm ki, Andropovun belə bir fikri olub. Ona görə deyəndə ki, o, Qorbaçova ümid bəsləyirdi, nə mən, nə də yaxından müşahidə edənlər buna heç vaxt inanmamışıq. Bu, Qorbaçov Baş katib olandan sonra onun yaxın ətrafındakı adamlar tərəfindən ortaya atılmış əfsanədir, mifdir.

Bu yaxınlarda, Andropovun yubileyi ilə bağlı "Komsomolskaya pravda" onun oğlu ilə müsahibə dərc etmişdi. Ona sual verirlər ki, Yuri Vladimiroviç Qorbaçovu öz varisi hesab edirdimi? O cavab verir: "İnanmıram. Atamdan eşitmişəm ki, onun hələ kifayət qədər təcrübəsi yoxdur. Atam onu bu vəzifə ilə bağlı nəzərə almırdı".–"Bəs niyə o vərəsəni təyin etmədi?" sualına cavabında isə o, iki məqamı qeyd etdi: birincisi, xəstəlik Andropovu çox tez əldən

saldı, ikincisi isə, çox güman, o vaxt hələ ürək etmirdi, düşünmürdü ki, bunu etmək üçün kifayət qədər nüfuza malikdir.

Hesab edirəm ki, mənim versiyam həqiqətə çox yaxındır, çətin ki, Yuri Vladimiroviç məhz Heydər Əliyevin dəmir yolunu, dəniz və çay nəqliyyatını gerilikdən qurtarmalı olduğunu düşünürdü. Öz keçmiş işindəki təcrübəsinə görə Əliyev ən az bu işə yarayırdı. Onun stixiyası elm, mədəniyyət, sosial sahə idi, axı respublikanın birinci katibi kimi o bu sahələri gözəl bilirdi. Bir sözlə, hesab edirəm ki, Andropov Əliyevin simasında öz etibarlı silahdaşını görürdü. Ona lazım idi ki, Əliyevi ali rəhbərliyə daxil etsin, lakin o bunu yalnız bu üsulla edə bilərdi, çünki başqa boş yer yox idi. Andropovun Əliyevi bu vəzifədə çox saxlamaq fikri olmadığına əminəm. Heydər Əliyeviç də düşünürdü ki, bu sahəyə həmişəlik gəlməyib. Bu, onun bütün davranışından, maraqlarından görünürdü".

Roy Medvedev "Naməlum Andropov" kitabında yazır ki, 1982-ci ilin sentyabrında L.Brejnev Siyasi Büroda təqaüdə göndərilən Kirilenkonun yerinə Əliyevi seçməyi təklif edir. Yəni H.Əliyevin taleyindəki dönüş hələ Brejnevin sağlığında razılaşdırılmışdı, Andropovun isə onu dəyişməyə nə istəyi, nə də ki, bəhanəsi var idi:

"SSRİ Nazirlər Sovetinin sədri vəzifəsini o vaxt 77 yaşlı, açıq-aşkar işinin öhdəsindən gələ bilməyən N.Tixonov tuturdu. Moskvada şayiə dolaşırdı ki, bir neçə aydan sonra məhz H.Əliyev Nazirlər Sovetinin sədri vəzifəsini tutacaqdır...

H.Əliyev Moskvadakı vəziyyətinin çətinliyini yəqin başa düşürdü. O, heç kimi özü ilə Moskvaya gətirməmişdi, olduqca çox işləyirdi, hesab edirdi ki, onun bacarıq və işgüzarlığı Andropova lazım olacaqdır"[20].

Vladimir Medvedevlə* söhbətdən:

"– Əliyevlə Brejnev arasında Heydər Əliyevin Moskvaya işə keçməsi barədə razılaşma olubmu?

– Bu, Brejnevin addımı idi. Onun Baş nazir olması barədə söhbət olmuşdu... Düşünürəm ki, Brejnev Əliyevi Baş nazir vəzifəsində görürdü. İndi bunu dəqiq təsdiq edə bilmərəm, hər halda Brej-

* V.Medvedev müxtəlif vaxtlarda L.Brejnevin və M.Qorbaçovun mühafizə xidmətinin rəhbəri olmuşdur.

nev onu Moskvada Siyasi Büro üzvü kimi görürdü. Brejnevin Əliyevə necə münasibət bəsləməsini fərz etmək olar: o, sağ qalsaydı, Əliyevi Siyasi Büronun üzvü edəcəkdi.

– Niyə Andropov onu Baş nazirin birinci müavini təyin etdi? Bəlkə, burada bir məqsəd var idi?

– Əlbəttə. O, Əliyevi hökumətin sədri edəcəkdi. Andropov sadəcə olaraq istəyirdi ki, Əliyev bütün İttifaq üzrə işlərdən xəbərdar olsun".

Yeqor Liqaçovla* söhbətdən:

"– Bəs Andropovun Əliyevə münasibəti necə idi? Əliyev onun kadrı idi?

– Əliyev daha çox Brejnevin kadrı idi.

– Axı Brejnev vəfat etmişdi, Andropov Əliyevi Moskvaya aparmaya da bilərdi.

– Zənnimcə, o, Əliyevə müsbət münasibət bəsləyirdi. Andropovun Əliyevi sözsüz dəstəkləməsini göstərən bir misal gətirmək istəyirəm. Partiya etikası mövcuddur. Sov.İKP MK-nın Plenumu gedir. İki yeni əmələ gəlmiş korrupsionerin məsələsi həll olunur, əlbəttə, indikilərə baxanda o qədər də irilərinin yox. Söhbət Şolokov və Medunovdan gedirdi. Onların MK-nın tərkibindən çıxarılması məsələsi qoyulmuşdu. Gizli səsvermənin nəticələrini hesablayan və elan edən hesablama komissiyası yaradılır. Heydər Əliyev komissiyanın sədri, Liqaçov isə katibi təyin olunurlar. Bəlkə də, xırda məsələdir, lakin Andropov bütün incəlikləri nəzərə alırdı: başda elə adamı qoymaq lazımdır ki, hər şeyi düzgün və dəqiq yerinə yetirsin, çünki orada çox güman ki, müxtəlif fikirlər, əlaqələr və s. var idi".

İvan Laptevlə söhbətdən:**

"– Belə versiya mövcuddur ki, Andropov Heydər Əliyevi uzaq məqsədlərlə götürürdü.

* M.Qorbaçovun vaxtında Y.Liqaçov Sov.İKP MK-nın kadr və ideologiya məsələləri üzrə katibi idi.

** İ.Laptev – 1984-1990-cı illərdə "İzvestiya" qəzetinin baş redaktoru; 1990–1991-ci illərdə SSRİ Ali Soveti İttifaq Sovetinin sədri.

– Düşünürəm ki, əgər Andropov sağ olsaydı, Əliyev MK-nın ideologiya üzrə katibi yox, Nazirlər Sovetinin sədri olacaqdı.

Mən Andropovla işləmişəm. Andropovun iki məşhur "Lenin məruzəsinə" və onlardan daha çox məşhur olan "SSRİ-də sosializm quruculuğunun bəzi problemləri" məqaləsinə əl gəzdirməli olmuşam. Birinci məruzə üzrə briqadaya rəhbərlik edirdim, ikincidə artıq briqada üzvü kimi çalışırdım.

Məqaləni isə biz hələ Brejnev üçün yazmağa başlamışdıq, sonra Suslov onu apar-gətirə saldı. Andropov gələndə biz yenidən işə başladıq. Və birinci dəfə çox şeylər yazdıq. Bu yaxınlarda onu bir də oxudum. İndiyə qədər aktuallığını itirməyib.

Ona görə də mən Andropovun ideoloji baxışları ilə tanışam, onun arxalandığı politoloq və ideoloqlar qrupunu tanıyıram. Hesab edirəm ki, Heydər Əliyev ona Kremldə, Nazirlər Sovetində yüz dəfə çox gərək idi.

– Ancaq Yakovlev deyir ki, Andropovun Əliyevdən xoşu gəlmirdi və onu Brejnevə görə götürməli oldu.

– Mən bununla qəti razı deyiləm. Bundan başqa, bəzi əlamətlərə görə söyləmək olar ki, Andropov sağ olana qədər Əliyev özünü çox gözəl hiss edirdi. Bu, göstəricidir. İkinci ulduzu da o, Andropovun vaxtında aldı.

Əlli illiyim ərəfəsində mənim Lenin ordeni ilə təltif olunmağım məsələsi müzakirə olunurdu. Qorbaçov katiblikdə dedi:

– İvan Dmitriyeviçin əlli yaşı tamam olur. Lenin ordeni onun üçün hələ tezdir, onun hələ 50 yaşı var. Qırmızı Əmək Bayrağı ordeni də vardır. Gəlin onu Oktyabr İnqilabı ordeni ilə təltif edək.

Yəni ki bu qərar həmişə birinci şəxs tərəfindən qəbul olunurdu. Andropovun Heydər Əliyevdən necə xoşu gəlməyə bilərdi? Axı Əliyev onun adamı idi".

Zakir Abdullayevlə söhbətdən:

"Brejnev onu MK katibi qoymağa söz vermişdi, vəfat edəndən sonra hər şeyi dəyişdilər. MK aparatına ikinci Stalini buraxmaq istəmirdilər. Nazirlər Soveti isə elə Nazirlər Sovetidir".

Həsən Həsənov bu fikirlə razılaşmır, o əmindir ki, bu dövrdə Heydər Əliyev ölkədə çox böyük hakimiyyətə malik idi.

Həsən Həsənovla söhbətdən:

"– Moskva qəzetlərindən birində oxudum ki, 1984-cü ildə Sov.İKP MK-nın Plenumunda Heydər Əliyevi MK katibi seçməli idilər. Lakin Baş katib Andropovun ölümü bu fikri həyata keçirməyə mane oldu. Bu məsələ ilə bağlı nə deyə bilərsiniz?

– 1976-cı ildə Heydər Əliyevi Siyasi Büronun üzvlüyünə namizəd seçəndə, hələ o vaxt deyirdilər ki, onu Moskvaya aparacaqlar. Azərbaycanın heç vaxt Siyasi Büroda yeri olmayıb. 50-ci illər istisna olmaqla, o vaxt bu, cəmi bir neçə ay davam etmişdi. Aydındır ki, Heydər Əliyevin Siyasi Büro üzvü seçilməsi onun şəxsi xidmətləri və keyfiyyətləri hesabına mümkün olmuşdu. Bunun sonradan onu Moskvaya keçirmək məqsədilə edilməsi haqqında söhbətlər 1976-cı ildən 1982-ci ilə qədər fasiləsiz olaraq davam etmişdir. Biz hər plenumda buna bənzər nəsə gözləyirdik. Təbii ki, respublika MK-nın birinci katibi vəzifəsindən o Sov.İKP MK katibi vəzifəsinə keçə bilərdi. O vaxt, əlbəttə, çoxları fikirləşirdi: hə, Heydər Əliyev Sov.İKP MK katibi olsaydı, yaxşı olardı. Belə fikir ictimai şüurda yer almışdı. Yeri gəlmişkən, artıq Nazirlər Soveti sədrinin birinci müavini olarkən Heydər Əliyev mənə danışırdı: bir çoxları, hətta onun özünə də deyirdilər ki, Sov.İKP MK katibi olmaq Baş nazirin birinci müavini olmaqdan yaxşıdır.

Mənim fikrim fərqlidir: Siyasi Büro üzvü olan Sov.İKP MK katibləri bir neçə nəfər idi, bundan başqa, onlar Sov.İKP MK aparatının bürokratik ənənələrinə bağlı idilər. Ancaq Siyasi Büronun üzvü, eyni zamanda Baş nazirin birinci müavini olan yalnız Heydər Əliyev idi. Hüquqi statusuna görə, o, SSRİ kimi fövqəldövlətin hökumətində ikinci adam idi. Lakin onun şəxsi keyfiyyətləri, cərəyan edən proseslərə təsir qüvvəsi, problemləri həll etmək bacarığı, uzaqgörənliyi, SSRİ iqtisadiyyatının inkişafının strateji yollarını qabaqcadan görmək qabiliyyəti nəzərə alınarsa o vaxt o, İttifaq hökumətində birinci idi.

O, ölkədə qayda-qanun yaratmaq, Azərbaycanda artıq sınaqdan keçmiş və müsbət nəticələr vermiş öz üslubunu həyata keçirmək, öz iş metodlarını tətbiq etmək üçün bütün səlahiyyətlərə malik idi. Əlbəttə, Heydər Əliyev kimi unikal şəxsiyyət hər yerdə özünü parlaq ifadə edə bilərdi. Lakin onun gəlişi ilə Nazirlər Kabinetinin

aparatı daha işgüzar oldu və Sov.İKP MK aparatı ilə müqayisədə konstruktiv transformasiyalara, əsaslı dəyişikliklərə, yeniləşməyə daha çox məruz qaldı. Hətta uzun illər keçəndən sonra, 90-cı illərdə, mən xarici işlər naziri kimi prezident Heydər Əliyevi müşayiət edərkən müxtəlif ölkələrin yüksək rütbəli siyasətçilərinin Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini postunda fəaliyyətindən yadlarında qalan faktları razılıqla xatırladıqlarının şahidi olmuşam.

O ki qaldı ictimai rəyə, Heydər Əliyevin adı SSRİ Nazirlər Soveti sədri postuna ən real namizəd kimi çəkilirdi. Bundan əlavə, 1983-cü ilin oktyabr ayında, mən Belçika və Lüksemburqda ezamiyyətdə olarkən, Avropa telekanallarından birində gedən verilişdə Heydər Əliyevin adının Sov.İKP MK Siyasi Bürosunun Baş katibi vəzifəsinə ən ehtimal olunan namizəd kimi çəkilməsini şəxsən eşitmişəm.

– Başqa sözlə, demək istəyirsiniz ki, müstəqil işləmək, müstəqil qərarlar qəbul etmək baxımından bu, Heydər Əliyev üçün ən əlverişli sahə idi?

– Tamamilə doğrudur. Birincisi, Siyasi Büronun üzvü olaraq o, ölkənin bilavasitə siyasi rəhbərliyinə daxil idi, ikincisi isə, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi kifayət qədər geniş və konkret sahəsi var idi: həm sırf iqtisadi, həm də humanitar sahəyə cavabdehlik daşıyırdı. Hökumətdə Heydər Əliyev vəzifəyə gəldiyi anda dərin böhran keçirən dəmir yoluna kuratorluq edirdi, özü də böyük uğurla. Qısa vaxtda müsbət nəticələr əldə olunmuşdu. O, Qərbi Sibir və Urenqoydan ölkənin Avropa hissəsinə nəhəng qaz kəmərlərinin, həmçinin BAM-ın (Baykal-Amur dəmiryol magistralı–*E.A.*) tikintisinə kuratorluq edirdi. Yeri gəlmişkən, 1983-cü ildə mən Urenqoyda, 1984-cü ildə isə BAM-ın tikintisində ezamiyyətdə idim və 10 gün ərzində Baykal gölündən başlayaraq magistralın çox yerlərində oldum. Fəhlə və yerli rəhbərlərlə bütün görüşlərdə Heydər Əliyev haqqında ən tərifli sözlər eşitdim. 1985-ci ilin aprelində Vyetnamda ezamiyyətdə olarkən bir neçə ay əvvəl burada səfərdə olan Heydər Əliyevin taleyüklü məsələləri həll etdiyindən xəbər tutdum.

O vaxt Nazirlər Soveti yanında OMK, yəni Operativ Məsələlə-

rə dair Komissiya fəaliyyət göstərirdi. KOV (KOV–komissiya po operativnım voprosam və ya komissiya po osobo vajnım voprosam–*E.A.*) adlanan bu komissiyaya Nazirlər Soveti sədrinin müavinləri və bəzi nazirlər daxil idilər. Həftədə bir dəfə, bazar ertəsi yığılan komissiyanın fəaliyyəti formal xarakter daşıyırdı. Heydər Əliyev komissiyanın başında durandan sonra onun iş üslubunu kökündən dəyişdi. OMK Heydər Əliyevin vaxtında az qala ikinci Siyasi Büroya çevrildi. Ölkə təsərrüfatının idarə olunmasında bütün mühüm məsələləri komissiya həll edirdi və faktiki olaraq İttifaqın rəhbər orqanına çevrilmişdi. OMK-nın iclaslarına müttəfiq respublikaların Nazirlər Soveti sədrlərinin müavinləri, respublika nazirləri dəvət edilir, onlardan tam ciddiliklə hesabat tələb olunurdu. Bir sözlə, Heydər Əliyev SSRİ xalq təsərrüfatında ən böyük nüfuz sahibi olmuşdu. Nazirlər Soveti sədrinin müavinləri, nazirlər, Sov.İKP MK katibləri ən geniş səpkidə məsələlər barədə H.Əliyevə müraciət edir, onun rəyi ilə hesablaşırdılar".

Aleksandra Biryukova* mövzunu inkişaf etdirir:

"Biz sonradan öz aramızda fikirləşirdik, deyirdik ki, "yuxarıda" böyük səhvə yol verib Əliyevi SSRİ-nin rəhbəri seçməyiblər, onun yerinə isə haradansa Qorbaçovu tapıb çıxarıblar. Niyə Andropovun ölümündən sonra Əliyevi Baş katib seçmədilər? Guya utandılar–bəsdir, biri gürcü, o biri azərbaycanlı, bir də ki, guya Brejnevə bəli-bəli deyirdi. Özü də Qorbaçovun seçilməsində ürəyində Əliyevdən xoşu gəlməyən Liqaçovun böyük rolu olmuşdu.

Heydər Əliyev Andropovun vaxtında çox az işlədi. Axı Rıjkovu Andropov təyin etməmişdi, onun Nazirlər Soveti sədrini dəyişməyə vaxtı çatmamışdı. Rıjkovu Qorbaçov təyin etmişdi. Əgər Andropov bir qədər çox işləsəydi, Heydər Əliyev sözsüz ki, Nazirlər Sovetinin sədri olacaqdı. Buna heç bir şübhə yoxdur. Andropovun ona münasibəti çox yaxşı idi. Elə Moskvaya da onu Andropov gətirmişdi.

* A.Biryukova ötən əsrin 80-ci illərinin ikinci yarısında Sov.İKP MK katibi, Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd idi. 1988-1990-cı illərdə – SSRİ Nazirlər Soveti sədrinin müavini, SSRİ Nazirlər Soveti sosial inkişaf üzrə Bürosunun sədri.

– Bəziləri iddia edir ki, bu, Brejnevin qərarı idi, Andropov ondan keçə bilməmişdi.

– Bu, düz deyil. Andropov uzun illər Əliyevlə işləmişdi və həmişə də onu dəstəkləyirdi. O, mütləq Əliyevi Nazirlər Sovetinin sədri təyin edəcəkdi, başqa adam tapmaq çətin idi. Bir də Andropov bunu hərtərəfli götür-qoy etmişdi. O, düşünürdü ki, əgər o, rus, SSRİ çoxmillətli dövlətdirsə, onda bu ölkədə hər hansı bir respublikanın nümayəndəsinin əhəmiyyətinə görə ikinci vəzifəni tutmasını Tanrı özü buyurub. Ali Sovetin sədri, əslində, formal bir iş, təmsilçilikdən başqa, bir şey deyil. Bu vəzifə isə işləmək tələb edir. Əliyev axı çalışqan adam idi. Həm dəmiryolçular, həm bütün sosial sahə–ona çox yaxşı münasibət bəsləyir, həmişə onun tərəfini saxlayırdılar. Hamı deyirdi ki, başqa sədr müavinləri də olub, lakin problemləri Əliyev kimi həll edən olmayıb.

– Bəziləri hesab edir ki, Andropov Əliyevi Sov.İKP MK katibi qoymaq istəyirdi, lakin katiblik məncə daha çox "kabinet adamı" üçündür. Nazirlər Soveti hər halda onun istədiyi mühit idi–çevik, müxtəlif xarakterli iş. Üstəlik daha geniş səlahiyyətlər...

– Əlbəttə. Məsələləri kim həll edirdi? MK katibləri Nazirlər Sovetinə zəng vururdular. Əgər bir məsələni həll etmək lazım gəlirdisə, mən ardı-arası kəsilmədən həm Əliyevə, həm də Nikolay İvanoviçə (Rıjkova–*E.A.*) zəng vururdum. Axı qərarları biz vermirik, biz maliyyələşdirmirik, nəhayət, bu ya digər müəssisənin harada tikilməsini həll etmirik. Mən də sədr müavini olmuşam. Mən Əliyev deyiləm, onun qədər təcrübəm yox idi, lakin əlimdə o qədər şey cəmləşmişdi ki, o qədər məsələləri həll edə bilərdim ki, edirdim də. "Tryoxqorka"da* xarici iqtisadi məsələlər üzrə direktor müavini olanda, məsələn, gəlirsən qobelen və sair parçalar istehsal edən müəssisəyə, sənə deyirlər: "Aleksandra Pavlovna, korpus sizin vaxtınızda tikilib. Aleksandra Pavlovna, bütün bu dəzgahları siz almısınız".

Yəni sədr müavini olmaq böyük məsələdir. Hər şeyi o həll edir-

* A.Biryukovanın 60-cı illərdə baş mühəndis işlədiyi və 90-cı illərin əvvəlində istefaya çıxdıqdan sonra yenidən işləməyə qayıtdığı Moskva "Tryoxqornaya manufaktura" Pambıq Parça Kombinatı.

di: müəssisə üçün avadanlıq alınsın, ya alınmasın, filan şeyi necə edəsən ki, maliyyə vəsaiti ayırsınlar. Yəni Nazirlər Soveti çox məsələləri yoluna qoyurdu.

– Sizə qulaq asdıqca o qənaətə gəlirəm ki, Andropov bir az çox yaşasaydı, ölkədə hər şey başqa cür olacaqdı. Əliyevin rolu da tamamilə fərqli olacaqdı.

– Əlbəttə. Ancaq Andropov nə qədər hakimiyyətdə oldu ki? Onu təyin etmələri ilə xəstələnməyi az qala bir oldu. Sonuncu yarım ili isə, demək olar ki, heç işləmirdi.

Tanınmış Rusiya tarixçisi **Roy Medvedevlə** Moskvada ətraflı söhbətim oldu. Həmişə Heydər Əliyevə səmimi hörmətlə yanaşan Roy Aleksandroviç də olduqca maraqlı versiyalar dilə gətirir:

"Sovet dövləti şəxsiyyətlərin azad rəqabətini nəzərdə tutaraq qurulmamışdı, onun bir liderə ehtiyacı var idi, yerdə qalanları isə məmurlar idi, özü də anonim. Böyük sayda insanların bacarıqlarından istifadə edilmirdi, hakimiyyətə isə siyasi fəaliyyətdən daha çox aparat intriqalarına qadir olan adamlar gəlirdi. Ona görə də, ümumiyyətlə, avtoritar dövlət, Stalin dövründə olduğu kimi totalitar dövlət, istedadı daha çox olanları irəli çəkən mühit deyildir. Və Əliyevin burada irəli getməsi olduqca gözlənilməzdir, Azərbaycan və SSRİ üçün böyük nailiyyətdir. Çünki daha kim vardı? Özbəkistandan Moskvaya Siyasi Büronun üzvü kimi Mühitdinov gəlmişdi, lakin elə nüfuzlu adam deyildi. Kunayev qabiliyyətli adam idi, ancaq Qazaxıstanda qala bildi və SSRİ-də yüksək postlara iddia etmirdi.

– Deməli, müsəlman respublikalarından ilk Siyasi Büro üzvü...

– ...Mühitdinov idi. Onu Siyasi Büroya Xruşşov götürdü. Lakin o, heç kimin yadında qalmadı. Bir neçə il Moskvada işlədi, lakin yadda qalmadı, çünki bu adamın şəxsi keyfiyyətləri, biliyi, intellekti o səviyyədə deyildi. O, hey anlaşılmaz hərəkətlər edirdi, beynəlxalq məsələlərdən baş çıxarmırdı. Xarici səfərlər zamanı özünü qeyri-adekvat aparırdı. Bəlkə də öz respublikasında o, yaxşı, maraqlı insan idi, lakin Moskvada yox. Kunayev həmçinin Siyasi Büronun üzvü idi, ancaq Moskvada heç bir yüksək post tutmurdu. Mühitdinovdan fərqli olaraq, Heydər Əliyev Orta Asiyadan mədəni cəhətdən xeyli yüksək olan Zaqafqaziyadan gəlmişdi. Oranın intellektual mühiti tamamilə başqadır.

... O vaxt heç birini yoxlaya bilmədiyim iki fərqli versiya dolaşırdı. Biri ondan ibarət idi ki, Əliyev Siyasi Büroya Brejnev Azərbaycana gələndən, burada dəbdəbə ilə qarşılanandan sonra seçilmişdi və partiya rəhbərliyinə daxil olmalı idi. Andropov Əliyevin Moskvaya gəlməsi haqqında əvvəlcədən qəbul edilmiş qərara riayət etməli idi. Lakin o, Əliyevə, sanki partiya rəhbərliyi mərkəzindən bir qədər kənara çəkərək, SSRİ Nazirlər Soveti sədrinin müavini vəzifəsini tapşırır, yəni onu MK katibi deyil, hökumət sədrinin müavinlərindən biri edir. Bu bir versiyadır–özlüyündə güclü insan, lakin xəstə Andropov istəmirdi ki, onun yanında daha bir güclü, lakin sağlam lider dayansın.

O biri versiya Əliyev üçün əlverişlidir: Andropov başa düşür ki, Nazirlər Sovetinin başında zəif adam durur, ona güclü icraçı, ölkənin xalq təsərrüfatını idarə edə biləcək parlaq lider lazımdır. Onun belə vəzifə üçün bir nəfər də olsun yararlı namizədi yoxdur, ona görə də o istəyir ki, Əliyev müavin vəzifəsində təcrübə, nüfuz qazansın, özünü rəhbər kimi göstərsin, növbəti addım isə onun Nazirlər Soveti sədri təyin edilməsi olacaqdır.

Nə birinci, nə də ikinci versiyanı nə təsdiqləyə nə də ki, təkzib edə bilirəm. Ancaq hər halda bütün görüşdüyüm adamlar Əliyev haqqında olduqca müsbət danışırlar. Moskvada o özünü ancaq ən yaxşı tərəfdən göstərdi. O, Moskvaya öz komandasından bir nəfər də olsun gətirməmişdi, ardınca qohumlarından heç kimi çəkib aparmamışdı (bəzilərinin gözlədiyi kimi). Moskvada o öz qrupunu yaratmağa, yeni əlaqələr qurmağa, həqiqətən öyrənməyə başladı".

Həmsöhbətlərimi dinləyə-dinləyə, onlarla bir yerdə siyasi pasyans düzə-düzə neçənci dəfədir ki, nə Y.Andropovun, nə də H.Əliyevin memuar yazmadıqlarına heyifsilənirdim. Ona görə də indi bizə Kremldəki vəziyyəti və qüvvələr nisbətini təsəvvür etməkdən ötrü əsl həqiqəti zərrə-zərrə üzə çıxarmaq lazım gəlir.

Deyə bilmərəm niyə Y.Andropov Heydər Əliyevi Azərbaycandan Moskvaya keçirmək kombinasiyasını məntiqi sona çatdırmayıb.

Ya Əliyevdən çəkinib, ya öz silahdaşlarından. Siyasi Bürodakı həmin o qoca herontokratlar "dəstəsi" çox güman ki, etiraz edib, onun isə mübarizə aparmaq üçün ya gücü olmayıb, ya da elə bir həvəsi. Nə bilmək olar.

Mənim üçün bir məsələ aydındır: Y.V-nin hakimiyyətdə olduğu bütün qısa zaman kəsiyində Heydər Əliyev onun komandasında "əsas rollarda" idi. Ən maraqlısı da elə burada başlayır. Rusiya politoloq və tarixçiləri, bilərəkdən ya bilmədiklərindən, 1983–1987-ci illərə aid olan dövrdə bu və ya digər sənədlərin hazırlanmasında H.Əliyevin adını çəkmirlər; SSRİ-nin iqtisadi və sosial-mədəni həyatında, məsələn, Baykal–Amur magistralının tikintisinin sürətləndirilməsində iştirakını görmürlər; Ulyanovsk və Novorossiyskdə baş vermiş ən böyük fəlakətlərin nəticələrinin aradan qaldırılmasında onun rolunun üstündən sükutla keçirlər. Andropov haqqında yazılmış sayca çox olmayan kitablarda, əgər R.Medvedevin "Naməlum Andropov" kitabındakı iki səhifəni saymasaq, Heydər Əliyevin adı, demək olar ki, çəkilmir. Ümumiyyətlə, rusiyalı həmkarların–tarixçilərin, memuar müəlliflərinin əsərlərini oxuyanda təəccüblənirsən: elə bil o illərdə Əliyev soyadlı Siyasi Büro üzvü heç olmayıb.

Məsələn, A.Şubin "Sovet dövrünün sirləri" (Moskva, 2008) kitabında Andropov–Çernenko dövrünün iki mühüm sənədindən ("Əmək kollektivləri haqqında qanun" və "Ümumtəhsil və peşə məktəbinin islahatının əsas istiqamətləri") müfəssəl söhbət açır, lakin bu qanunları əsas işləyib hazırlayan və onların qəbul edilməsi zamanı məruzəçi olan H.Əliyevin adını belə çəkmir. O, Qorbaçov haqqında ətraflı yazır, guya o, Andropov və Çernenkonun hakimiyyəti dövründə "birinci sıralarda" imiş, bununla da müəllif öz istədiyini gerçəklik kimi qələmə verməyə çalışır. Mən daha Y.Liqaçovdan tutmuş G.Şahnazarov və A.Yakovlevə qədər 80-ci illərin siyasi elita nümayəndələrinin çoxsaylı memuarlarından danışmıram. Bunlar 1983–1987-ci illər sovet rəhbərliyində H.Əliyevin rolu və əhəmiyyətini açıq-aşkar gizlədir, hətta təhrif edir, özlərini ön plana çəkib çıxarırlar.

Bizim məqsədimiz–ədaləti bərpa etmək və H.Əliyevin Y.Andropovun (elə K.Çernenkonun da) komandasında həqiqi yerini, rolunu və əhəmiyyətini göstərməkdir. Heydər Əliyevin Y.Andropovun

inanılmış adamı olmasını, onun ən yaxın "məhdud" əhatəsinə daxil olmasını mən yox, məndən dəfələrlə məlumatlı adamlar təsdiq edirlər. Bəlkə də, H.Əliyev "qeyri-titul" milləti təmsil etdiyi üçün Y.V. ona varisi kimi baxmırdı. Lakin Andropov dövründə ən mühüm tədbirlərin H.Əliyev tərəfindən həyata keçirilməsi təkzibedilməz faktdır. 1982–1984-cü illərdə M.Qorbaçov hələ də kənd təsərrüfatı sektoruna bağlı idi və oradan adam içinə nadir hallarda çıxırdı. Heydər Əliyev isə o dövrdə superpopulyar idi: mətbuat onun haqqında ara vermədən yazırdı, televiziya onu müntəzəm göstərirdi, qəzetlər xarici səfərləri barədə səhifəlik materiallar çap edirdi. Moskva ziyalıları ona pərəstiş edirdilər, mədəniyyət xadimləri qəbuluna düşməyə can atırdılar, çünki bilirdilər: H.Əliyev mütləq onların problemlərini həll edəcəkdir.

Bu populyarlığı sonradan ona nəinki Qorbaçov, Siyasi Büronun digər üzvləri də bağışlamadılar. Qorbaçov bütün kitablarında hər vasitə ilə Andropovla yaxınlığını vurğulayır. Lakin belə idimi? Doğrudur, yerlidirlər, etnik cəhətdən bir-birlərinə daha yaxındırlar. Bəs ruhən necə, yaxındırlarmı? Məsələ bundadır. Hər halda, bu iki ali rəhbərin "H.Əliyev fenomeni"nə yanaşmasının daban-dabana zidd olması inandırıcı şəkildə göstərir ki, onlardan biri ölkənin ali maraqlarından çıxış edirdi, o biri isə–yerinə yetməyən şəxsi ambisiyalarından.

* * *

Əvvəlcə Andropovun, sonra isə Çernenkonun ölkəyə rəhbərlik etdiyi dövrdə, Heydər Əliyev bəlkə də Sovet İttifaqının ali siyasi elitasında ən xarizmatik, görkəmli şəxsiyyət idi. Heydər Əliyevin ölkənin daxili siyasəti (xarici siyasətin də bəzi aspektləri) ilə bağlı bir sıra məsələlərdə isə sovet hökumətində birinci şəxs olması barədə biz hələ danışacağıq.

Bu iki qeyri-adi siyasətçi arasında etibarlı münasibətlərin mövcudluğunu Y.Andropovun Baş katib kimi əks olunduğu azsaylı fotoşəkillər bir daha təsdiq edir: H.Əliyev həmişə onun yanındadır. Məsələn:

1983-cü ilin iyunu, SSRİ Ali Sovetinin səkkizinci sessiyası. Həmin sessiyada Y.Andropov SSRİ Ali Soveti Rəyasət Heyətinin səd-

ri seçildi, H.Əliyev isə onun tapşırığı ilə "Əmək kollektivləri haqqında SSRİ Qanununun layihəsi" adlı məruzə ilə çıxış etdi;

iyunun 16-da Kremldə Y.Andropov H.Əliyevə Lenin ordeni və Sosialist Əməyi Qəhrəmanının ikinci qızıl ulduzunu təqdim etdi, onu "Partiya və Sovet dövlətinin görkəmli xadimi" adlandırdı;

iyunun 21-də, H.Əliyev yüksək səviyyədə sovet–macar danışıqlarında iştirak edən zaman (səciyyəvi fakt: Yuri Vladimiroviçdən sağda xarici işlər naziri A.Qromıko, solda isə H.Əliyev əyləşmişlər);

və nəhayət, çox nadir, necə deyərlər, xatirə şəkli: H.Əliyev SSRİ ali rəhbərliyinin üzvləri ilə birlikdə. O, Andropovun arxa tərəfində dayanmışdır.

Bundan əlavə, şahidlərin dedikləri, həmçinin bəzi başqa faktlar göstərir ki, Andropov Əliyevə təkcə ən sadiq və ən möhkəm silahdaş kimi etibar göstərmirdi. Nəhəng dövlətin başında durandan sonra o, 70-ci illərdə haqqında çox eşitdiyi Əliyevin metodları ilə silahlanmışdı. Romanın ikinci hissəsində H.Əliyevin iş ilə bağlı Moskvaya gələrkən mütləq SSRİ DTK naziri Y.Andropova baş çəkməsi barədə danışmışıq. Y.Andropov artıq onun bilavasitə rəhbəri olmasa da, H.Əliyevin respublikada apardığı yenidənqurma işləri, rüşvətxorluğa və "kölgə" iqtisadiyyatına qarşı sərt və barışmaz mübarizəsi, kütlələrlə təmasda olmaq stili, partiya orqanlarının fəaliyyətində aşkarlığın artırılması haqqında danışdıqlarına maraqla qulaq asırdı. O, həmişə H.Əliyevin ən sadiq və qızğın tərəfdarı idi. Üstəlik əminəm ki, SSRİ DTK-sı kimi qüdrətli təşkilatın etibarlı dəstəyi Azərbaycanın rəhbəri postunda H.Əliyevə L.Brejnevin mühafizəkar əhatəsinin müqavimətini (və ya anlaşılmazlığı) qırmaqda dəfələrlə kömək olmuşdur.

İndi budur, Baş katib olduqdan sonra Y.Andropov dostu və silahdaşının korrupsiya ilə mübarizə metodlarından tutmuş xalqla ünsiyyət qurmaq stilinə qədər ən müxtəlif sahələrdə topladığı uğurlu təcrübədən istifadə edirdi.

O günlərdə tükü tükdən seçən və məlumatlı Qərb mətbuatı da bu barədə yazırdı. Azərbaycan Prezidentinin şəxsi arxivindən "Kremldə dəyişikliklər. Andropovun ilk yüz günü" məqaləsinin tərcüməsini tapdım. Jurnalist Dasko Doder tərəfindən yazılmış və

"Vaşinqton post"da dərc edilmiş məqalə bir sıra KİV-lər tərəfindən təkrar çap olunub (o cümlədən "Sitl taymıs" qəzetinin 27 fevral 1983-cü il nömrəsində). Məqalədə deyilir:

"... Andropov partiya aparatı və hökumətdə böyük təmizləmə aparmışdır. Ən mühüm addım Ağ Evin ştatına ekvivalent olan partiyanın Baş katibinin katibliyinin ləğv edilməsidir. Xruşşovun, xüsusən də Brejnevin vaxtında katiblik nəzərəçarpacaq dərəcədə genişlənmiş və böyük hakimiyyət qazanaraq, əslində, ölkəni səmərəli idarəetmə mərkəzinə çevrilmişdi. Müxtəlif cür müşavir və köməkçilər şeflərinin mövqeyindən asılı olaraq hökumətdəki və partiyadakı həmkarları ilə müqayisədə daha imtiyazlı vəziyyətdə idilər.

Beləliklə, hökumətdə təmizləmə xeyli sayda nazir və şöbə müdirini əhatə edir. Ən mühüm təyinatlara, çox güman ki, aşağıdakıları aid etmək olar:

– Andropov tərəfindən Heydər Əliyevin, keçmiş DTK işçisinin Baş nazirin birinci müavini təyin edilməsi və Siyasi Büroya daxil edilməsi;

– DTK veteranı olan Vitali Fedorçukun general V.Şolokovun yerinə daxili işlər naziri təyin edilməsi.

DTK-dan çıxanların yüksək mövqelər tutması Moskvada lətifə yaratmışdı. Orduya, Aviasiyaya və Donanmaya Könüllü Yardım Cəmiyyəti–OADKYC zarafatla belə açılırdı: Andropova, Əliyevə, Fedorçuka könüllü yardım cəmiyyəti*.

Andropov hökumətdə hakim mövqelərə qətiyyətli, dəyanətli, təcrübəli adamları təyin edir və bu yolla onun tələblərinə cavab verəcək bir hökumət mexanizmi yaratmağa ümid bəsləyir".

Və bir qədər sonra:

"... Andropovun vaxtında liderlərin daxili çevrəsi müdafiə naziri Ustinov, xarici işlər naziri Qromıko, Əliyev və Ukraynanın partiya rəhbəri Şerbitskidən ibarətdir... Onlar Amerikanın Sovet İttifaqına meydan oxumasından narahatdırlar və SSRİ-ni irəli aparmağı zəruri hesab edirlər. Bunlar ciddi məqsədləri olan ciddi insanlardır..."

---

* Rusca DOSAAF – Dobrovolnoye Obşestvo Sodeystviya Andropovu, Aliyevu, Fedorçuku.

Gördüyümüz kimi, Qorbaçov bu liderlər sırasında yoxdur. Yeri gəlmişkən, həmin günlərdə Qərb diplomatiyası və mətbuatının bir çox nümayəndələri bu şəxsiyyətlərə eyni qiymət verirdilər.

1983-cü il iyulun 23-ü və 28-də "Amerikanın səsi" radiostansiyası İlya Zemtsovla iki dəfə geniş söhbət verdi. Bu söhbətdən bəzi parçaları sitat gətirməzdən əvvəl (onlar da Heydər Əliyevin arxivindən tapılmışdır) cənab Zemtsovun şəxsiyyəti ilə tanış olaq.

"Andropov: siyasi dilemmalar və hakimiyyət uğrunda mübarizə" (Yerusəlim, 1983) kitabında naşirlər keçmiş bakılı haqqında aşağıdakı bioqrafik məlumatı vermişlər:

"İlya Zemtsov sovet sistemini onunla bilavasitə bağlı insan kimi yaxşı bilir və başa düşürdü. SSRİ-də o, fəlsəfə və sosiologiya üzrə iki doktorluq dərəcəsi və professor adı almışdı. Zemtsov Elmlər Akademiyası nəzdində Sovet Sosioloqlar Assosiasiyası İcraiyyə kollegiyasının üzvü idi. O, Azərbaycanın qabaqcıl ali məktəblərindən birində istehsalatın idarə olunması fakültəsinin dekanı işləmiş, sonralar Yaroslavl Tibb İnstitutunda fəlsəfə kafedrasına rəhbərlik etmişdir. O, Heydər Əliyevlə şəxsən tanış idi və Bakıda Sosioloji İnformasiya Mərkəzinə rəhbərlik etdiyi zaman onunla işləmişdir. Professor Zemtsov 200-dən çox əsər çap etdirmişdir. Bunlar sovet cəmiyyətinin müxtəlif aspektləri, onun sosial strukturu, insan davranışının modelləri, təhsil və cinayətkarlıqla bağlı kitablar, məqalələr, oçerklərdir. O, Amerika Siyasi və Sosioloji Elmlər Akademiyasının, politoloq və sosioloqların beynəlxalq assosiasiyalarının üzvüdür.

1973-cü ildən İsraildə yaşayır. Herbryu Universitetinin professoru olmuş İlya Zemtsov hazırda İsraildə Müasir Cəmiyyətin Tədqiqi üzrə İnstitutun direktorudur.

Özümüzdən əlavə edək ki, İ.Q.Zemtsov "Partiya yoxsa mafiya? Talan olunmuş respublika" (Paris, 1975), "Andropov: siyasi dilemmalar və hakimiyyət uğrunda mübarizə" (Yerusəlim, 1983), "Çernenko: Sovet İttifaqı yenidənqurma ərəfəsində" (London, 1989), "Dövrün süqutu" (Moskva, 1999) kitablarının müəllifidir.

Söhbətin əvvəlində Zemtsov deyir ki, bir zaman Əliyevin DTK sədri vəzifəsinə təyin olunmağına "Sviqun kömək etmişdir... Əliyevin yüksəlməsində Sviqunun rolunu qeyd etmək vacibdir". Lakin

Zemtsovun sözlərinə görə, "öz karyerası üçün Əliyev Andropova borcludur".

Sonra o, sensasiyalı, lakin heç nə ilə təsdiq olunmayan fikir söyləyir: "Əliyev də öz növbəsində Andropova borclu qalmamışdı. Brejnevin ölümündən sonra Andropovun Baş katib seçilməsində Əliyevin rolu son dərəcə böyükdür. Təsadüfi deyil ki, Andropov Baş katib vəzifəsinə keçəndən sonra Əliyev Siyasi Büro üzvlüyünə seçilmiş, həmçinin ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı medalı ilə təltif olunmuşdur".

Radiostansiya müxbirinin "Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədri vəzifəsinə qədər yüksəlməyə şansı varmı?" sualına Zemtsov cavab verir:

"Mənə elə gəlir ki, Əliyev bu vəzifəyə təyin olunmayacaq. Andropov onu daha yüksək posta təyin etməyi nəzərdə tutmuşdur. Əldə olunmuş məlumatlara əsaslanaraq deyə bilərəm ki, Əliyevin kadrlar üzrə Sov.İKP MK katibi təyin olunması gözlənilir. Əliyev Siyasi Büro üzvü seçiləndən sonra güman edilirdi ki, o bu vəzifəyə təyin olunacaq. **Lakin yenicə Baş katib seçilmiş Andropovun Siyasi Büroda rastlaşdığı müqavimət bu addımı həyata keçirməyə imkan vermədi** (seçmə bizimdir–*E.A.*). Əmin olmaq olar ki, ziddiyyətlər aradan götürülən kimi Əliyev indi Çernenkonun tutduğu katib vəzifəsini tutacaqdır... Əliyevin SSRİ Nazirlər Soveti sədri təyin olunması ehtimalı azdır... Stalindən sonra bu vəzifəyə daha bir qafqazlının gəlməsi narazılıq doğura bilər... "

Daha sonra Zemtsov deyir ki, bu yaxınlarda Andropov barədə çap etdirdiyi kitabda yazıb: "Əgər biz Andropovu hərtərəfli tanımaq istəyiriksə, onda Əliyevə müraciət etmək lazımdır. Əliyevin Siyasi Büroya seçilməsi və Nazirlər Soveti sədrinin birinci müavini təyin olunması təsadüfi deyildir. Andropov Əliyevin Azərbaycanda tətbiq etdiyi üsulları bütün Sovet İttifaqına yaymağa çalışacaqdır. Qeyd etmək lazımdır ki, Əliyev katib seçilənə qədər Azərbaycanda planlar yerinə yetirilmirdi, partiya və sovet aparatının işçiləri yalnız öz şəxsi maraqlarını ödəmək haqqında düşünürdülər. Bakılılar demişkən, "qaz vurub qazan doldururdular". Əliyev onları məcbur edirdi ki, dövlət maraqları haqqında da düşünsünlər. Bu alınmayanda onlar vəzifədən kənarlaşdırılır, partiyadan xaric olunurdular...

İndi Andropov Əliyevin köməyilə həmin metodu bütün ölkədə tətbiq etmək istəyir. Məlumdur ki, Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu dövrdə Azərbaycan planların yerinə yetirildiyini sovet respublikaları arasında birinci bəyan edirdi. Ona görə də mən öz əsərimdə göstərdiyim kimi, əgər biz Andropovun fəaliyyətinə qiymət vermək istəyiriksə, hər şeydən əvvəl, Əliyevin fəaliyyətinə müraciət etməliyik".

Sonra Zemtsov öz "sakit" inqilab terminini açıqlayır: "Korrupsiya dalğası bütün Sovet İttifaqı kimi Azərbaycanı da ağuşuna almışdı. Məsul postları tutan partiya rəhbərləri varlanmaları üçün bütün imkanlardan istifadə edirlər. SSRİ-də korrupsiya əsla təzə şey deyil, onun kökündə sosializm sisteminin özü durur. Sovet İttifaqında elə adam yoxdur ki, aldığı əmək haqqı onu qane etsin, istər partiya aparatı və ya dövlət müəssisəsi işçisi olsun, istərsə də fəhlə, ya kolxozçu.

Zaqafqaziya, Orta Asiya və Baltikyani respublikalarda korrupsiya daha geniş vüsət almışdır. Bu rayonlarda onun miqyası o qədər böyükdür ki, bütün sovet sisteminin müqəddəratı təhlükə altındadır. Azərbaycanda Axundovun hakimiyyətdə olduğu dövrdə respublikada korrupsiya o həddə çatmışdı ki, onun bundan sonra birinci katib vəzifəsində qalması heç cür mümkün deyildi...

Əliyev hakimiyyətə gələndən sonra DTK işçilərinin köməyilə respublikada qarışıqlığı aradan qaldırmağa, korrupsiyanın qarşısını almağa başladı. Yüksək postlar tutan bəzi şəxslər işdən kənarlaşdırıldı, hətta həbs edildi. Bu yolla Əliyev Azərbaycanda "sakit", eyni zamanda bir o qədər də sakit olmayan inqilab həyata keçirdi. Hazırkı vaxtda Andropov Əliyevin köməyilə "sakit" adlanan həmin inqilabın metodlarını bütün SSRİ-də tətbiq etmək istəyir".

Həqiqətən də, Əliyevin əvvəllər MK dəhlizlərində birmənalı qarşılanmayan korrupsiya ilə sərt mübarizə metodlarını Yuri Andropov böyük həvəslə öz arsenalına yazdı. 80-ci illərin əvvəlində SSRİ-də iqtisadi sahədə cinayətlərlə genişmiqyaslı mübarizə başlandı. Hələ SSRİ DTK sədri olan zaman Y.V. iqtisadi cinayətlərlə bağlı bir sıra gurultulu işlərin təşəbbüskarı oldu. Andropov Sov.İKP MK Baş katibi seçiləndən sonra bu sahədə mübarizəni gücləndirdi.

Mübarizə "kölgə" iqtisadiyyatının nümayəndələri və onların havadarları ilə əsl müharibəyə döndü. Yüzlərlə adam həbs edildi. Bir çoxları həbs olunmağı gözləmədən, ailələrinin şərəfini qoruyaraq intihar etdi. O vaxtın mərkəzi qəzetlərində məsul işçilərin "qəflətən" vəfat etdikləri barədə nekroloqlar dərc olunurdu.

Lakin Y.Andropov sadəcə qayda-qanun yaratmırdı. O, sosialist qanunçuluğu, şəxsi sahibkarlığı, şəxsi mülkiyyəti və insanın insan tərəfindən istismar edilməsini qadağan edən 1977-ci il SSRİ Konstitusiyasına riayət edilməsi uğrunda mübarizə aparırdı. O gedəndən sonra "kölgə" iqtisadiyyatına iki fərqli nöqteyi–nəzər müəyyənləşdi: Bəziləri hesab edirdi ki, "kölgə iqtisadiyyatı" real iqtisadiyyatda "kriminal ocaqdır" və ona qarşı amansız mübarizə aparılmalıdır. Digərlərinin fikrincə, bu, sosialist təsərrüfatçılığı və cinayət qanunvericiliyinin dar çərçivələrində sıxılan yüksək səmərəli təsərrüfatçılıq nümunəsidir[21].

H.Əliyevin 70-ci illərdə etdiyi kimi, Y.Andropov sovet hakimiyyətinin Olimpində möhtəşəm təmizləmə apardı–MK aparatında və Nazirlər Sovetində yüksək rütbəli məmurların üçdə birindən çoxunu isti yerlərindən qovdu. Eyni zamanda o, hakimiyyətin əyalət bünövrəsini də lərzəyə gətirdi: 150 əyalət partiya rəhbərindən 47-si işdən qovuldu, yenə də təqribən üçdə biri.

Bundan əlavə, korrupsiya və rüşvətxorluqda təqsirli bilinən bir çox məmurlar həbs olundu. Onlardan bir neçəsi, o cümlədən Brejnevin dostu, "Texnopromeksport"un sədri Yuri Smelyakov və "Yeliseyevski" qastronomunun direktoru Yuri Sokolov, hətta ölüm cəzasına məhkum edildilər. Daxili işlər naziri Nikolay Şolokovu vəzifədən götürdülər, MK-dan və partiyadan xaric etdilər, həbs etməyə hazırlaşırdılar. O, məhkəmədən Brejnevin kürəkəni Yuri Çurbanovdan fərqli olaraq, intihar etməklə yaxa qurtardı. Milis sıralarında geniş təmizlənmə aparıldı. "Yalnız Moskvada, sıravi milis nəfərləri hesaba alınmadan, iki yüzə yaxın yüksək rütbəli əməkdaş həbs edildi"[22].

Ali dövlət orqanlarında Andropov klanının mövqelərinin möhkəmlənməsi partiya rəhbərliyinin intensiv təmizlənməsi ilə müşayiət olunurdu. Bu işdə Y.Andropovun əsas "silahı" 1983-cü ildə Sov.İKP MK-nın partiya–təşkilat işi şöbəsinin müdiri təyin edilmiş

Y.Liqaçov oldu. O, bu işə ciddi girişmişdi, bütün ölkəni gəzib dolanırdı, yerli partiya rəhbərləri ilə söhbətlər aparırdı. Bu söhbətlərin nəticəsi təşkilati məsələ olurdu. Moskva şəhər partiya təşkilatının rəhbəri V.Qrişinin dediyinə görə, 1983–1984-cü illərdə o, Sov.İKP vilayət və diyar komitələrinin təxminən 70 faizində birinci katib vəzifəsinə öz adamlarını qoya bildi. Bu adamlar "onun bütün göstərişlərini yerinə yetirməyə, MK plenumlarında səsvermə zamanı istənilən məsələ üzrə say üstünlüyünü təmin etməyə hazır idilər"[21]. Bir qədər sonra bu kadrlar Liqaçovun fəal surətdə dəstəklədiyi Qorbaçovun hakimiyyətə doğru irəliləməsinə yardımçı olacaqlar.

"Moskvada partiya rəhbərlərinin 31, Ukraynada 34 (o cümlədən 9 MK katibi), Qazaxıstanda–32 faizə qədəri dəyişildi. 1983-cü ilin ortalarınadək Krasnodar diyarında təsərrüfat cinayətlərində təqsirli bilinərək 200 nəfərdən çox adam həbs edildi. Bu da nəhayət, Andropovun sözlərinə görə, "istintaq üçün çətinliklər yaradan" diyarın "sahibi" S.Medunovu yıxmağa imkan yaratdı. İyunun 14-də Sov.İKP MK-nın Plenumunda Medunov və Şolokov bu orqandan çıxarıldılar"[24].

Yeni Baş katibin iş üslubu da Əliyevin 70-ci illərdəki rəhbərlik stilini xatırladırdı. Roy Medvedevin sözlərinə görə, "nizam-intizam yaratmaqda qətiyyət və sərtlik nümayiş etdirən Y.Andropov eyni zamanda şəxsi davranışda sadə və təvazökar olmağa çalışır, öz yeni mövqeyini nəzərə çarpdırmırdı"[25]. Bundan əvvəlki Baş katibə respublikaların liderləri və xarici ölkələrin dövlət başçıları tərəfindən bahalı hədiyyələr təqdim etmək praktikasına son qoyuldu, Kremldə ziyafətlər yığışdırıldı, yerli "knyazların" özlərini Brejnevə oxşadaraq əylənmək üçün getdikləri ov yerləri və qoruqlar boşaldı. Hələ üstəlik Moskva ətrafında və cənubda bahalı bağı olanlar özlərini narahat hiss etdilər: şayiə yayıldı ki, Baş katib partiya nəzarəti komitəsinə tapşırıb ki, partiya–dövlət elitasına məxsus şəxsi və dövlət bağları haqqında MK-ya məlumat təqdim etsin. Əgər yadınızdadırsa, romanın ikinci hissəsində mən yazmışdım ki, zəhmətsiz gəlirlərlə, məsələn, elit bağlarla mübarizə 70-ci illərdə H.Əliyevin diqqət mərkəzində idi.

V.Solovyov və Y.Klepikovanın kitabından:

"Brejnevin ölümündən iki ay yarım sonra, 1983-cü il yanvarın 31-də Andropov xəbərdarlıq etmədən Serqo Ordconikidze adına dəzgahqayırma zavoduna gəlir, sexləri gəzir, dəzgahların yanında dayanıb fəhlələrlə söhbət edir. Açıq, heç nəyi gizlətmədən, eyni zamanda tələbkar tərzdə danışır, elə danışır ki, Sovet İttifaqında xalqla çoxdan bəri heç kim belə danışmırdı"[26].

Kütlələrlə bu cür təmasda olmaq üslubunu, çox güman ki, onun fikrinə H.Əliyev salmışdı. Respublikaya başçılıq edən zaman o, nadir hallarda MK-da oturub qalırdı, demək olar ki, hər gün zavodlarda, fabriklərdə, neft mədənlərində və ya kənd təsərrüfatı obyektlərində olurdu. Y.Andropov isə sırf kabinet adamı idi və camaat arasında olmağa alışmamışdı. Lubyankada işlədiyi 15 il müddətində çox az adamla təmasda olmuşdu. 6 il MK-nın ideologiya üzrə katibi vəzifəsinidə çalışanda da bir o qədər xalq içinə çıxmayıb. Ona görə də Moskva zavoduna gəlməsi yaşlı, səhhəti o qədər də möhkəm olmayan Baş katib üçün, heç şübhəsiz, ağır imtahan idi.

Daha bir maraqlı məqam: məhz Andropov hakimiyyətə gəldikdən sonra ölkənin qəzetlərində hər həftə Siyasi Büronun iclasları haqqında müzakirə olunan problemlərin xülasəsi verilməklə məlumat dərc olunmağa başladı. Tam əminəm: partiya orqanlarının işində aşkarlığın genişlənməsinin bu formasını Y.Andropova məhz H.Əliyev təklif etmişdi. On il bundan qabaq (SSRİ miqyasında ilk dəfə) onun təşəbbüsü ilə respublika qəzetlərində Azərbaycan KP MK Bürosunda müzakirə edilən məsələlər barədə məlumat, həmçinin MK-da qəbul edilmiş bir çox qərarların xülasəsi dərc olunmağa başlamışdı.

Sov.İKP MK katiblərinin 18 yanvar 1983-cü il tarixli müşavirəsində Y.Andropov bəyan etdi ki, KİV-lərdə tənqidi xarakterli materialların miqdarının artmasını bəyənir: "İndi bizim qəzetlərimizdə tənqidi yazılar daha çox dərc olunur. Hesab edirəm ki, bu yaxşıdır, çünki hər hansı məsələ barədə tənqidi fikri qəzet vasitəsilə deyil, bəs harada söyləmək olar? Qəzetlərdə tənqidi materiallar vermək lazımdır. Bu sözsüzdür və onu ütüləmək lazım deyil...".

Mən iddia etmirəm ki, rəhbərlik etməyin bütün bu üslub və metodlarının xüsusiyyətlərini Y.Andropov H.Əliyevdən götürüb. Sadə-

cə, onlar əqidələrinə görə indi dəbdə olan təbirlə desək, "eyni qan qrupuna malik" insanlar idi. Ona görə də belə çox paralellər yada düşür. Hətta sırf zahiri xasiyyətlərində, xarakterlərində, maraq dairələrində, həvəs göstərdikləri sahələrdə. Onlar, məsələn, insanları eyni səbirlə dinləyə bilirdilər.

"...O, (Andropov–*E.A.*) hətta xoşu gəlmədiyini də səbirlə dinləyirdi. Yadıma gəlmir ki, o vaxtlar hansısa vacib söhbəti sadəcə xoşuna gəlmədiyi üçün yarıda kəssin. Ancaq tez-tez olurdu ki, eşitdiyini şərh etmir, heç bir reaksiya vermir, susurdu. Bu, başqa məsələ..."[27].

Hər ikisi yüksək intellektə malik idi, hər ikisi sənədlər üzərində çox diqqətlə və son dərəcə dəqiq işləyirdi. Heç vaxt camaat qarşısında köməkçi və müşavirlərinin onlar üçün yazdıqlarını oxumurdular, mətni ciddi redaktə etməyə, öz əli ilə onun üzərində işləməyə üstünlük verirdilər. Andropov (Əliyev də) unikal yaddaşa malik idi və çox zaman öz əməkdaşlarını təəccübləndirirdi.

Çoxları Y.Andropova xas olan yumor hissindən, poeziyanı, ciddi musiqini sevdiyindən, yazıçılarla dostluğundan (Y.Yevtuşenko, Y.Semyonov) yazırlar. Bütün bunlar onu qızğın kitab həvəskarı, teatr və şərq poeziyasının bilicisi, filormonik konsert həvəskarı H.Əliyevlə doğmalaşdırır.

Maraqlıdır ki, məhz Y.Andropov Heydər Əliyevin sevimli müğənnisi, 60-cı illərin ortalarında stadionda çıxışına görə bir qədər yüksək qonorar almağı "özünə rəva bilmiş" və bu səbəbdən SSRİ Mədəniyyət Nazirliyinin qəzəbinə düçar olmuş Müslüm Maqomayevi sözün tam mənasında "böyük" səhnəyə qaytarmışdır.

Sonralar Müslüm bu barədə özünün "Məhəbbətim mənim–melodiya" kitabında söhbət açır:

"...Bir qədər sonra mənim gözdən düşməyim bitdi. Bu, gözlənilmədən oldu.

Məni Azərbaycan DTK-sına çağırdılar. O vaxt bu orqanın rəhbəri Əliyev idi. Məni onun müavini qəbul etdi...

– Müslüm, səni Moskvaya çağırırlar. Andropovun şəxsi xahişidir.

– Mən niyə ora getməliyəm? – Ürəyim yerinə gəlmişdi və mən "buynuzlarımı" göstərməyə başladım.

– Dövlət Təhlükəsizliyi Komitəsinin yubileyi ilə bağlı konsertdir...

Mən bir az da qızışdım:

– Heç yerə getməyəcəyəm! Onlar məni yarımillik cəzalandırıblar. Nə üstə? Qastrola çıxmaq olmaz, ancaq onlara Kremldə kef vermək olar?

Əliyevin müavini sakit, lakin sərt dedi:

– Sən artıq Daxili İşlər Nazirliyi, Mədəniyyət Nazirliyi ilə münasibətləri korlamısan. Nədir, indi də bütün DTK və şəxsən Yuri Vladimiroviç Andropovla korlamaq istəyirsən? Məsləhət görmürük.

Sonra öyrəndim ki, Andropovun özü Furtsevaya zəng vurubmuş:*

– Yekaterina Alekseyevna, bizim uşaqlar Maqomayevə qulaq asmaq istəyirlər.

– Biz onu cəzalandırmışıq – ona çıxış etmək qadağandır.

– Bizim tərəfdən o, təmizdir, – baş çəkist cavab verdi. – Zəhmət olmasa, təmin edin.

Furtseva başa düşürdü ki, cəzalandırmağı da bacarmaq lazımdır. Bu zəng isə gözəl bir bəhanə idi. Çıxışlarıma qoyulan qadağa götürüldü. Mən Moskvaya yollandım və həmin yubiley konsertində oxudum"[28].

Tamamilə əminəm: burada da H.Əliyevin köməyi olmadan ötüşməmişdir. Əbəs yerə deyil ki, "bağışlanma" haqqında xəbər Müslümə o vaxt (1967-ci ilin oktyabrı) Heydər Əliyevin rəhbərlik etdiyi respublika DTK-sında çatdırılır.

Andropov haqqında yazanlar onun bütün maddi nemətlərə laqeyd, ailə üzvlərinin–həyat yoldaşı və qızının təvazökar və təmiz insanlar olduğunu qeyd edirlər. Maraqlı məqam: Baş katibin həyat yoldaşı Tatyana Filippovna dünyasını dəyişdikdən sonra uşaqlar Kutuzov prospektindəki mənzili boşaltmalı olurlar. "Və məlum olur ki, onlar bu hökumət mənzilini heç özəlləşdirməyiblər də. Halbuki, o vaxt az qala bütün bina artıq özəlləşdirilmişdi. Onlar isə utanıblar. Mənzilin özündə də kitabxanadan başqa qiymətli heç nə yox idi. Otaqlara ən adi sovet mebeli qoyulmuşdu. Heç bir "Mersedes"-

* Yekaterina Furtseva – 1960–1974-cü illərdə SSRİ mədəniyyət naziri.

dən söhbət getmirdi... Bu ailədə özləri haqqında düşünməyiblər"[29]. Burada da H.Əliyevlə birbaşa paralel yada düşür: axı, o da respublikadan gedəndə, öz mənzilini təhvil vermişdi, 90-cı illərin əvvəlində vətənə qayıdanda isə faktiki olaraq evsiz idi, qohum və yaxınlarının mənzillərinə sığınmaq məcburiyyətində qalmışdı?

Y.Andropovu yaxşı tanıyan N.Yakovlev yeni Baş katibi belə səciyyələndirmişdi:

"O, siyasətçi idi, xəyalpərvər idi. Lakin gündəlik işlərdə–qayda-qanuna əməl edən qətiyyətli əsgər idi"[30].

Andropovla üst-üstə 30 il işləmiş Vladimir Kryuçkov onun bəzi diqqətəlayiq xüsusiyyətləri barədə yazır:

"Vəzifə borcunu yerinə yetirmək məqamında nə qədər ciddi və qətiyyətli idisə, hər hansı problemin müzakirəsi zamanı lazımi təklif və qərar hazırlamaq məqamında bir o qədər nəzakətli, həlim, tabeliyində olanlarla münasibətdə hətta demokratik idi. Lakin o heç vaxt sadəlövh olmayıb. Onu fikrindən döndərmək o qədər də asan deyildi. Hər aldatmaq cəhdi onunla bitirdi ki, o bu adamla əlaqəni kəsir, ya da, sadəcə, saya salmırdı. Onun qeyri-səmimilikdən zəhləsi gedirdi, ancaq görəndə ki, kimsə səhv fikirdə olub, lakin səhvini boynuna alıb, onun günahından keçməyə hazır idi..."[31].

Kitabın birinci və ikinci hissələrində biz mühüm məsələlərin həllində Əliyev rəhbərliyinin də beləcə demokratik və kollegial üslubuna aid çoxsaylı misallar gətirmişdik, yazmışdıq ki, Heydər Əliyevin dünyada ən xoşlamadığı şey tabeliyində olanların onu aldatması idi. Bunu o bağışlamırdı, səhvi bağışlaya bilərdi, yalanı yox.

Düzdür, Y.Andropov şəxsiyyətinə verilən başqa qiymətlər də vardır. məsələn, Moskva şəhər partiya komitəsinin sabiq birinci katibi, heç şübhəsiz, məlumatlı adam olan Viktor Qrişin kitabında yazır:

"...Y.V.Andropov çox mühafizəkar adam idi. Siyasətdə ortodoksal, həyatda çevik olmayan, müəyyən qədər də bürokratik. Yuri Vladimiroviçin bürokratikliyi şəxsi həyatında, davranışında özünü göstərirdi. O, adamayovuşmaz, söhbəti sevməyən, insanlara ehtiyatla, şübhə ilə yanaşan adam idi, iş yoldaşları ilə ünsiyyətdə olmaq həvəsi yox idi (mən onu yoldaşlıq stolu arxasında cəmi iki-üç dəfə, ya Yeni il, ya da Siyasi Büro üzvlərindən kiminsə ad günündə

görmüşəm. O da L.İ.Brejnevin məclisdə iştirak etdiyi zaman). Y.V.Andropovun geyimi yeknəsək idi – qışda və payızda uzun qara palto, tünd rəngli kostyum, həmişə də boz rəngli fetr şlyapa, hətta yayın istisində də.

O, partiyanın siyasi xəttindən hər hansı bir sapmaya, fikir ayrılığına, dissidentliyə dözümsüz idi, mən hələ antipartiya və antisovet təzahürlərini demirəm"[32].

Həmin bu məsələlərdən sabiq SSRİ DTK sədri V.Kryuçkov da danışır, ancaq bir qədər fərqli:

"Andropov üçün ölkədə və dünyada gedən prosesləri dərindən dərk etmək, təhlil etmək bacarığı səciyyəvi idi. Eyni zamanda o, ideoloji və siyasi baxışlarında tamamilə birmənalı idi. Bu məsələdə plüralizm onun üçün tamamilə mümkünsüz idi. Andropovun sosializmə sədaqəti birmənalı idi, kapitalizm quruluşunu qəbul etmirdi, lakin onun bəzi aspektlərinin mənimsənilməsini mümkün, hətta lazımlı hesab edirdi. O, cəmiyyətimizin inkişafındakı qüsurlardan xəbərdar idi, lakin çıxış yolunu yalnız sistemin özünün kamilləşməsində görürdü, hesab edirdi ki, sabitlik və qayda-qanunu, hətta sadəcə möhkəmləndirmək hesabına böyük uğur qazanmaq olar"[33].

MK-nın beynəlxalq şöbəsinin keçmiş əməkdaşı, M.Qorbaçovun sabiq köməkçisi və məsləhətçisi A.Çernyayev özünün "Mənim həyatım və zamanım" kitabında Y.Andropova kəskin mənfi qiymət verməklə, açıq boynuna alır ki, bu məsələdə o heç vaxt öz dostlarının – Bovin və Arbatovun ümidlərini bölüşməmişdir:

"O, Sinyavski–Daniel məsələsini qızışdırmış, sonra isə dissident hərəkatına məharətlə "dirijorluq" etmişdir. Onlara qarşı mübarizə aparmaqla müqəddəs məqsədinə doğru irəliləməkdə asılı ola biləcəyi hər kəs qarşısında özünün partiyaya və ideologiyaya sədaqətini nümayiş etdirirdi. Onun idarəsi daim antisemitizmi qidalandırırdı. Saxarovu Qorkiyə sürgün etmək–onun ideyasıdır. Andropov Saxarovun, eləcə də Soljenitsın və digərlərinin təqib olunması kompaniyasına "rəhbərlik" edirdi. O, hətta ən yüksək rütbəlilərin telefonuna belə gizlicə qulaq asmağı təşkil etdi. Onun vaxtında hər yerə sirayət edən əhalini izləmə xidməti yaradılmış və bütün sahələrdə saysız-hesabsız pullu xəfiyyələr ordusu yığılmışdı. Hər necə olsa, biz Əfqanıstana görə ilk növbədə ona "borcluyuq". O, Brejnevə

və Siyasi Büroya "imperializm planları" barədə "kəşfiyyat məlumatları" ötürürdü və bununla da ölkənin üzüntülü silahlanma yarışında getdikcə daha dərinə batmasına, yümşalmanın isə gurultulu demaqogiya səviyyəsində qalmasına Qromıko, Ustinov və Qreçkodan az "kömək" etmirdi. Andropov MK katiblərinə şəxsən zəng vurub onun agentləri tərəfindən "başqaları" ilə "qeyri-ortodoksal" söhbətlərdə "yaxalanan" əməkdaşları aparatdan kənarlaşdırmağı tələb etməyi özünə ayıb saymırdı"[34].

Beşinci sovet rəhbərinin maraqlı portretini RSFSR Nazirlər Sovetinin sabiq sədri V.Vorotnikov verir. Biz onun gündəliklərinə, eləcə də onunla söhbətlərimin lent yazılarına dəfələrlə müraciət edəcəyik. V.Vorotnikovun xatirələri o dövrün ab-havasını hiss etməkdə, hadisələri təsəvvürümdə canlandırmaqda mənə xeyli kömək etdi.

"Heç şübhəsiz, Y.V.Andropov qeyri-adi şəxsiyyət idi. Böyük, geniş diapazonlu ağıllı siyasətçi, güclü təşkilatçı idi. Savadlı, geniş maraq dairəsi olan insan idi: iqtisadiyyat, siyasət, beynəlxalq hüquq, ədəbiyyat, incəsənət. Cəmiyyətin sosialist yenidənqurması ideyasının düzlüyünə inanan, çox təmiz və məsuliyyətli. Öz simpatiya və antipatiyalarını gizlətməyən Y.Andropov, mənca, hansısa cazibə qüvvəsinə malik idi. Zahirən ağırtərpənən, həmişə səfərbər, işləməyə hazır. O söhbət zamanı özünəməxsus, andropovsayağı diqqətlə, öyrənirmiş kimi eynəyinin qalın şüşələri arxasından həmsöhbətinin gözlərinə baxırdı. Baxışı qeyri-adidir, içəriyə sirayət edir. Elə təəssürat oyanır ki, o sənin barəndə hər şeyi bilir.

Onun əqidəsinə, bu və ya digər məsələdə tutduğu mövqeyə müxtəlif cür yanaşmaq olar. Ancaq Yuri Vladimiroviçi tanıyanların əksəriyyətinin fikri danılmazdır: bu insan ideyaya sədaqətini, xalqa sədaqətini sözdə yox, əməllərində təsdiq edir. Y.V.Andropovun obrazı məndə, bax, bu cür xatirələr oyadır"[35].

Mənca, H.Əliyevi və Y.Andropovu doğmalaşdıran da elə bunlar idi: partiya işinə sədaqət, mənəvi təmizlik və ideya möhkəmliyi. Hər ikisi dövlətçi idi və doğma ölkəni möhkəmləndirmək, inkişaf etdirmək naminə çalışırdı.

Çoxları islahatların aparılmasında, partiya və təsərrüfat "təmizlənməsində" Y.Andropovun baş məsləhətçisinin kim olduğunu başa düşür və ya bilirdi ki, bu da Heydər Əliyevə olan sevgini artırmırdı. Andropovun ölümündən sonra Siyasi Büronun bir çox üzvləri onunla yaxınlıqlarını vurğulayaraq memuar yazdılar. Məsələn, N.Rıjkov da, V.Vorotnikov da, G.Arbatov da və heç şübhəsiz, M.Qorbaçov da ölüm yatağında olan Y.Andropovun yanına, Kuntsevoya gəldiklərini, Baş katibin onlarla necə riqqətlə vidalaşmasını müfəssəl qələmə alıblar. H.Əliyev heç vaxt Y.Andropovla yaxın olması mövzusuna toxunmayıb. Lakin onun mühafizə xidmətinin rəisi Aleksandr İvanov bildirir ki, Əliyev xəstəxanada Andropovun yanında olub, özü də bir dəfə yox. Ancaq bu yaxınlıqdan öz xeyri üçün istifadə etməyib və Sovet İttifaqının ən qüdrətli adamı ilə olan dostluğunu reklama çevirməyib.

Kreml komendantlığının birinci korpusunda

Aleksandr İvanovla söhbətdən:

"– Moskvaya gəldikdən dərhal sonra hara getdiniz?

– Dekabrın 7-də aeroportdan birbaşa Kremlə yollandıq. Borovitsk qapılarından keçib Nazirlər Sovetinin binasına çatdıq. Öz aramızda biz ona "Uqolok" deyirdik, rəsmi adı isə Kreml komendantlığının 1 №-li korpusudur. Siyasi Büronun iclasları orada keçirilirdi. Baş katibin kabineti də oradadır. Nazirlər Sovetinin sədri və onun müavinləri də orada işləyirdilər. Heydər Əliyeviçə V.Lenin muzey-mənzilinin altındakı 58 nömrəli kabinet ayrılmışdı. Sanballı, böyük kabinet idi, bir vaxtlar orada V.Molotov otururdu"*.

Siyasi Büronun üzvü Heydər Əliyevin mühafizə rəisi – Aleksandr Alekseyeviç İvanovun söhbətlərinə dəfələrlə müraciət edəcəyik. Sağlığında Heydər Əliyevə son dərəcə sadiq olan və bu gün onun xatirəsini əziz tutan A.İvanov güclü çekist yaddaşına malikdir. Öz şefinin Moskva həyatının nadir məqamlarını, təfərrüatı ilə tarix üçün hifz etmək onun ümdə arzusudur. Bundan başqa, Heydər Əliyevin katibliyinin əməkdaşları, köməkçiləri, məsləhətçiləri, bir

* Vyaçeslav Molotov–1939–1949-cu illərdə SSRİ xalq komissarı, 1953–1956-cı illərdə SSRİ-nin xarici işlər naziri.

sözlə, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini postunda çalışarkən fəaliyyətinin üslub və metodlarını yaxından müşahidə etmək imkanına malik insanlar mənimlə öz xatirələrini məmnuniyyətlə bölüşmüşlər. Zənnimcə, bu eksklüziv təfərrüatlar çox vacibdir. Belə ki, bəzən məhz ötəri, ilk baxışda əhəmiyyətsiz görünən şeylərdə insanın xarakteri, onun işinə, iş yoldaşlarına münasibəti üzə çıxır.

Hələlik isə tələsməyək: "Uqolok"un kabinetlərini gəzək, Heydər Əliyevin qəbul otağının quruluşu ilə, katibliyində kimlərin işləməsi, əməkdaşları qarşısında hansı tələblər qoyması, gündəlik iş rejimi, istirahət otağının avadanlığı və hətta ofisiantları Tanya və Rayanın onun üçün nahara nə gətirdikləri ilə maraqlanaq.

"– Yeri gəlmişkən, Heydər Əliyevi neçə nəfər qoruyurdu?–deyə Aleksandr İvanovdan soruşdum.

– O, Siyasi Büronun üzvü idi, odur ki, dəstədə iyirmidən çox zabit çalışırdı. Gündəlik növbədə üç-altı nəfər idi. Mühafizəyə "təhkim edilmiş" (o, belə də adlanırdı), şəxsi avtomobilin sürücüsü, yol mühafizəsinin zabitləri, "9"-luğun əməkdaşları daxil idilər... Mən Heydər Əliyevin şəxsi mühafizəsinə başçılıq edirdim, iki müavinim var idi. Biz SSRİ DTK-sı 9-cu idarənin birinci şöbəsinin 6-cı bölməsi adlanırdıq".

Ümumiyyətlə, partiya elitasının təhlükəsizliyinə aid bütün məsələlər keçmiş SSRİ DTK-sının doqquzuncu idarəsinin səlahiyyətinə daxil idi.

Keçmiş MK aparatının əməkdaşı A.Qraçov öz kitabında yazır: "Hər partiya əyanını "doqquzluq"dan (partiya və dövlət rəhbərlərinin mühafizəsi ilə məşğul olan DTK-nın doqquzuncu Baş İdarəsi) "təhkim edilmiş" adlandırılan şəxs gecə-gündüz müşayiət edir, qoruyur və əslində, onun bütün yerdəyişmələrini nəzarətdə saxlayaraq izləyirdi. Rəhbərlərin mühafizəsi qaydaları öz başlanğıcını Stalinin ətrafındakıları total şəkildə izləmək üçün incəliklərinə qədər hazırladığı sistemdən götürür. Görünür, bu, hər yeni başçıya elə əlverişli olub ki, 1991-ci ildə DTK ləğv edilənə qədər bütün siyasi çaxnaşmalara baxmayaraq, dəyişilməz qalmışdı"[16].

Bu, rəhbərlərə, bəlkə də, əl verirdi, lakin mühafizə edilənlərin

özlərinə yox. Aleksandr İvanov bununla bağlı mənə qəribə bir əhvalat danışdı:

"Heydər Əliyeviçin Moskvada Eduard Pesov adlı şəxsi fotoqrafı var idi. Eduard bir dəfə xahiş edərək dedi: "kişini" yola gətir, şəkillərini çəkim, onun qeyri-rəsmi fotoşəkilləri heç yoxdur". Heydər Əliyev razılaşdı və bazar günlərindən birində çəkiliş aparmağı qərara aldı.

Düzü, xahiş etdi ki, bu haqda heç kim bilməsin və onun fotostudiyaya gəlişi ətrafında lazımsız ajiotaj yaranmasın. Lakin DTK-nın 9-cu idarəsinin sistemi elə qurulmuşdu ki, Siyasi Büro üzvünün mühafizə edilən obyektdən kənara istənilən çıxışı, yaxud daxil olması barədə bütün DİN, DTK və sair xüsusi strukturlara xəbər verilirdi. Bizim vəzifəmiz isə maşının maneəsiz çıxması, marşrutun düzgün müəyyənləşdirilməsi, mühafizə olunan şəxsin və gedəcəyi obyektin təhlükəsizliyinin təmin edilməsi üçün 9-cu idarə üzrə növbətçini məlumatlandırmaq idi. Bunu etməsəydik, güc strukturlarında çaxnaşma yarada bilərdik. Təbii ki, növbətçiyə zəng vurub onun çıxdığını dedim, lakin xahiş etdim ki, obyekt ətrafında boşuna təlaş yaratmasınlar. Xüsusən ona görə ki, fotoatelye Moskvanın mərkəzində yerləşirdi. Yol boyu hər şey yaxşı gedirdi, lakin atelyeyə yaxınlaşan zaman bizi artıq DTK və DİN-in rayon strukturları gözləyirdi. Heydər Əliyeviç hirsləndi və elə maşındaca məni tənbehə başladı, yəni bu hay-küyü niyə qaldırmısan. Mən Heydər Əliyevlə atelyeyə getməyib onlarla çənə-boğaza başladım. O, atelyedən çıxanda ətrafda heç kəsi görmədi (hərçənd onlar haradasa yaxınlıqda idilər), maşınına əyləşdi və razı halda dedi: "Axır ki, qayda-qanun yaratdılar". Mən ona cavab verməyə cəsarət tapdım:

"Onda qəbul etdiyiniz qərar dəyişilməlidir".–"Hansı?"–deyə Heydər Əliyeviç təəccübləndi. "SSRİ-nin xüsusi vəzifəli simalarının və Sovetlər İttifaqına gələn ali qonaqların mühafizəsi haqda Siyasi Büronun qərarı". O, bir qədər susdu və mənə "təpinməyini" yumşaltmaq üçün bu söhbəti zarafatla bitirdi: "Qulaq as, birdən "sola" getsəm, əlbəttə getmərəm, amma birdən getsəm, sən nə edəcəksən?"–"Hasara çıxıb oturacağam orada". O, qəhqəhə çəkdi və biz axşamçağı bayram çıraqbanlığını seyr etmək üçün şəhər boyu irəlilədik".

Elə bu barədə SSRİ Nazirlər Sovetinin keçmiş sədri Nikolay Rıjkov "On təlatümlü il" kitabında yazır: "Əvvəllər, bəzən şənbə günləri axşama yaxın Qosplandakı kabinetimdən çıxıb bukinist dükanlarını gəzir, yeznəmlə onun "Jiquli"sində Vorontsov hamamlarına yollanıb özümüzü rahatca buxara verirdik... İndi isə DTK-nın doqquzuncu idarəsinin əməkdaşı ilə birlikdə özümü buxara verməli olacaqdım... Amma düzünü desəm, onlara da yazığım gəlirdi. Bizi qoruduqlarına görə onlara elə də böyük pul vermirdilər, amma bizi "itirsəydilər", dərhal başlarına oyun açılacaqdı. Belə bir şey mənim katibliyimin ilk vaxtlarında oldu. Arvadımla sadəlövhcəsinə bağ evindən əkilib əvvəllər olduğu kimi şəhərdə gəzişmək qərarına gəldik. Düzdür, bağdan çıxmağına çıxa bildik, ancaq Uspensk şosesində "doqquzluq" tərəfindən xəbərdar edilmiş yol milisləri mühafizəni nəzakətlə öhdələrinə götürdülər. Dərhal darıxmağa başladıq. Moskvanı sərbəst gəzmək fikrimiz baş tutmadı.

Nəhayət, arxamda daim kiminsə olduğu ilə barışdım. Onlar dərrakəli, yaxşı oğlanlardı, bəziləri ilə lap bugünəcən yaxşı münasibətim var. Onları zərbə altında qoymurdum. Hərçənd ki, müşayiətlərini də xoşlamırdım. Adam özünü rahat hiss etmir, elə bil akvariumdasan..."[37].

Moskvaya gəldikdən sonra Heydər Əliyevə Siyasi Büronun bütün üzvləri kimi "ZİL" verdilər. Bununla bağlı Aleksandr İvanov maraqlı bir məqamı xatırladı:

"Bütün hökumət "ZİL"-ləri boz-qəhvəyi üzlüklü idi. Bizimki velyurdan, albalı rəngində idi. Əliyevin sürücüsü keçmiş Baş katib Brejnevə xidmət edən adam idi. Məlum oldu ki, maşın özü də Brejnev üçün nəzərdə tutulubmuş. Maraqlı bir detal: avtomobilin qabaq kreslosunun arxasında bu maşınlar üçün nəzərdə tutulan saat əvəzinə külqabı düzəldilmişdi, çünki siqaret çəkməsinə həkimlərin qadağa qoyduğu Brejnev maşında tüstü içində getməyi sevirdi və arxada oturmuş mühafizəçiləri çəkməyə məcbur edirdi.

* * *

Ölkəni idarə edən baş sistem–Sov.İKP MK aparatı Moskvanın Köhnə meydanında yerləşirdi və "müstəqil" respublikalardakı partiyalardan tutmuş hər müəssisə, hətta hər kənddəki partiya özəklərinəcən bütün səviyyələrdə partiya orqanları və strukturları Köhnə meydanla sıx tellərlə bağlı idi.

"...Köhnə meydandan fərqli olaraq, 1964-cü ildən sonra Kreml sovet dövlətçilik binasının fasadı rolunu oynayırdı. Ali Sovet orada ildə iki dəfə 2-3 günlük Leninin nəhəng heykəli qarşısında toplaşırdı ki, ayaq üstə öz partiya rəhbərini və onun silahdaşlarını alqışlasın. Elə buradaca, Kremldə, keçmiş Senat binasında Lenin dövründən başlayaraq sovet hökumətinin yuxarı eşelonu yerləşirdi.

Partiya dövlətinin əsl siyasi və inzibati mərkəzi isə onda hələ fövqəl gücə malik olan MK aparatı idi. MK binaları Kremlin Spassk darvazalarından uzanıb gedən Kuybışev küçəsi (keçmiş İlyinka) və "Rossiya" mehmanxanasını əhatələyən kilsələrin arasında bir neçə şəhər məhəlləsində yerləşir. Bu binalar örtülü keçid və yeraltı dəhlizlərlə birləşirdi"[38].

Kitabımın qəhrəmanına beş il işləmək müyəssər olan "Uqolok" Kremlin bütün tikililəri kimi tarixi idi. Çar zamanında burada Senat yerləşirdi, inqilabdan sonra bura fəhlə-kəndli hökuməti daxil oldu. Burada, ikinci mərtəbədə daim Stalin işləyib, sonralar isə bütün baş katiblərin iqamətgahları burada olub. Hazırda "Uqolok" Rusiya Federasiyası prezidentinin iş iqamətgahıdır.

RSFSR Nazirlər Sovetinin keçmiş sədri Vitali Vorotnikovla söhbətimdə mən binanın quruluşu və SSRİ rəhbərliyinin yüksək nümayəndələrinin xidməti "qeydiyyatından" müfəssəl informasiya aldım.

"Bu binada ikinci mərtəbədə Stalin işləyirdi. Sonralar Stalinin kabinetində sovet hökumətinin bütün sədrləri–Kosıgin, Tixonov, Rıjkov–oturmuşlar... Oradakı mebel də Stalin dövründən qalıb. Heç kim heç nəyi dəyişməyib, hətta qlobus da əvvəlki kimi elə orada durur. Üçüncü mərtəbədə isə Baş katibin iqamətgahı yerləşirdi: onun kabineti, qəbul otağı, qoz ağacından düzəldilmiş otaq və buradan keçid. Sonra Siyasi Büronun iclas zalı gəlirdi.

Ümumiyyətlə isə bu, Nazirlər Sovetinin binası idi, MK-nın burada yalnız Siyasi Büro üçün yeri var idi. Eyni zamanda bu binaya bitişik, İvanovskaya meydanına çıxan, Nazirlər Sovetinin hərbi idarələrinin məskunlaşdığı bina da var. Nazirlər Sovetinin bir çox şöbələri isə Vladimirov keçidində yerləşirdi.

– Deməli, MK-nın bütün aparatı Köhnə meydanda yerləşirdi?

– Bəli. Sov.İKP MK-nın bütün katibləri: Brejnev, Andropov, Qorbaçov orada işləyirdilər, buraya isə ancaq Siyasi Büronun iclaslarına gəlirdilər.

– Hətta Baş katib olduqda belə?

– Bəli, yalnız Brejnev artıq xəstələndikdən sonra Köhnə meydana getmir, bura gəlirdi. Qorbaçov da prezident olandan sonra daha Köhnə meydana getmədi, onun vaxtında burada artıq həm prezident, həm də Baş katibə məxsus iqamətgahı var idi. Andropov isə daim Köhnə meydandakı MK binasında işləyirdi.

– Maraqlıdır, bu, nə ilə bağlı idi, Kreml sanki daha prestijli idi?

– Aparatı burada yerləşdirmək olmur, axı. Orada, Köhnə meydanda isə bütün aparat yerləşib. Birini çağırırsan, o birinə iş tapşırırsan. Bundan başqa, bir-birinin ardınca müttəfiq respublikaların KP MK katibləri, xarici kommunist partiyaları nümayəndələri gəlirlər.

Maraqlıdır ki, 1972-ci ilin mayınadək Sov.İKP MK-nın Baş katibi L.Brejnevin yalnız bircə xidməti kabineti olub. Bu, Köhnə meydanda 4 №-li evin beşinci mərtəbəsində yerləşirdi. L.Brejnevin keçmiş katibi O.Zaxarov Baş katibin Kremldə ikinci kabinetinin yaranması barədə öz qeydlərində bildirir:

"1972-ci ildə Moskvada Amerika prezidenti R.Niksonun SSRİ-yə səfəri ilə bağlı hazırlıqlar gedirdi. Onun L.Brejnevlə görüşü nəzərdə tutulmuşdu. Lakin R.Niksonu Köhnə meydandakı kabinetdə qəbul etməyi ayıb saymışdılar: necə olsa, bu, partiya MK-sının binası idi, səfər isə dövləti xarakter daşıyırdı. Bax, o zaman Kremldə təcili surətdə L.İ.Brejnev üçün daha bir xidməti otaq təşkil etdilər. Orada iki liderin görüşü keçirilməli idi".

Heydər Əliyevin iş yeri qəbul otağı, kabinet, katiblik, mühafizəçilər üçün iki otaq, Nazirlər Sovetinin iclasları üçün kiçik zal və Operativ Məsələlərə dair Komissiya iclasları üçün böyük zaldan ibarət idi. Heydər Əliyev çiyninə düşən bütün yükə əlavə olaraq buna da başçılıq edirdi. O, hər həftə iclas keçirirdi. Tixonovun, Rıjkovun olmadığı vaxtlarda Heydər Əliyev Nazirlər Soveti Rəyasət Heyətinin də iclaslarını keçirirdi.

İş kabinetinin arxasında balaca bir yemək otağı var idi, oradan dəhlizə ayrıca qapı açılırdı. Otağa kiçik bir masa qoyulmuşdu və Heydər Əliyev burada səhər və günorta yeməyini yeyirdi. Heydər Əliyevin katib-referenti Camal Camalovun dediyinə görə, "o vaxtlar Siyasi Büro üzvlərinin bu cür otaqlarında xarici televizor, maqnitofon yox, rəngli "Elektron-714" televizoru olurdu. Hərdənbir axşamlar, gecikmiş şam yeməyi zamanı o televizora baxırdı. Yadımdadır, bu televizor çox pis göstərirdi. Bilmirəm antenanı necə çəkmişdilərsə Kreml kabinetlərində televizorlar zəif işləyirdi. Mənim qəbul otağımdakı televizor daha yaxşı göstərirdi".

İstirahət üçün nəzərdə tutulmuş otaqda isə taxt, telefonu olan yazı masası var idi. Bunun arxasında tualet otağı yerləşirdi. Hər şey çox sadə, ifratçılıqdan uzaq idi. Bu otaqların bəzək-düzəyi isə bir vaxtlar burada oturmuş Molotovun zamanındakı kimi qalıb.

Camal Camalovla söhbətdən:

"Dekabrın 20-si olardı, Rəfael Allahverdiyev mənə yaxınlaşdı və xahiş etdi ki, bir qədər ayaq saxlayım.

– Nə olub ki? – soruşdum.

– Səni Heydər Əliyeviçin katibi vəzifəsinə təqdim etmək haqda fikir var.

O dedi ki, daimi nümayəndəlik işçilərindən bütün namizədlər müzakirə olunub və Heydər Əliyev mənim adımın üzərində dayanıb. Bu mənim üçün çox gözlənilməz idi. 29 yaşında idim və daimi nümayəndəlikdə təzəcə işə başlamışdım.

1982-ci il dekabrın 22-də axşam saat onda, on birə işləmiş Heydər Əliyev məni Kremldə qəbul etdi. O, böyük masanın arxasında oturmuşdu, Rəfael Allahverdiyev də kabinetdə idi. Bilmirəm niyə, amma ilk dəfə olaraq bir neçə dəqiqə nitqim qurudu. Bir-iki dəfə həyəcandan ona "Heydər Əliyeviç" əvəzinə daimi nümayəndəmiz "Ənvər Cəlaloviç" kimi müraciət etdim.

Heydər Əliyev ailəm barədə bir neçə sual verdi, harada işlədiyimi, daimi nümayəndəliyə necə gəldiyimi soruşdu. Mən ona hər şeyi ətraflı danışdım. Sonra dedi:

– Azərbaycandan mənim adıma çoxlu məktub gələcək. Bura Azərbaycanın rəhbərləri gələcəklər. Buna görə istəyirəm ki, qəbul otağımda azərbaycanlı işləsin.

Cavabında dedim ki, bu mənim üçün gözlənilməzdir və böyük şərəfdir. Bilmirəm bu şərəfə layiqəmmi?

– Bir neçə ay sınaq müddəti keçəcəksən, – dedi.

İki ay daimi nümayəndəlikdə onların əməkdaşı kimi məvacib aldım. 1983-cü il fevralın 17-də isə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyeviç Əliyevin katibi təyin edildim.

– Heydər Əliyevin iş üslubundan danışın.

– Heydər Əliyeviç çox ciddi, tələbkar başçı idi. Adətən işə saat səkkizə qalmış gəlirdim. Doqquzun yarısında–doqquzda Heydər Əliyev gəlirdi.

Heydər Əliyevin katibliyinin müdiri çox təcrübəli aparat işçisi–Valeri Arkadyeviç Qridnev idi. Təəssüf ki, o vəfat edib. Valeri Arkadyeviç məzuniyyətə gedəndə, yaxud xəstələnəndə bütün işi onun müavini Vladimir Sergeyeviç Uxov aparırdı. Çox yaxşı, alicənab insan, keçmiş uzaq dəniz səfərləri kapitanı idi. Katiblikdə dəniz nəqliyyatına nəzarət edirdi. Uxov 1983-cü ildə Ulyanovsk və 1986-cı ildə Novorossiyskdə gəmilərdə baş vermiş fəlakətin səbəblərinin araşdırılması və nəticələrinin aradan qaldırılması zamanı Heydər Əliyevin yanında olub.

Yadımdadır, bu ezamiyyətlərdən Heydər Əliyeviç əzgin, yorğun qayıdırdı, gördüyü insanların ağrı-acısından son dərəcə əzab çəkirdi.

Bu adamlardan başqa, Heydər Əliyeviçin bir neçə köməkçisi var idi. Nəqliyyat məsələlərinə SSRİ Yollar Nazirliyinin Yol Hərəkəti Baş İdarəsinin keçmiş rəisi Aleksandr Stepanoviç Perminov nəzarət edirdi. İlk vaxtlar ideologiya məsələləri üzrə köməkçisi Yuri Nikolayeviç Soloduxin idi. İki ildən sonra onu MK-ya apardılar və yerinə Aleksandr Timofeyeviç Qavrilov gəldi. Yüngül sənaye üzrə köməkçisi Proxorenko Eduard Qriqoryeviç idi. O, bir vaxtlar Kamışinsk kombinatına başçılıq etmişdi, sonra SSRİ Yüngül Sənaye Nazirliyində şöbə rəisi, Nazirlər Soveti aparatında yüngül sənaye şöbəsində baş referent işləmişdi.

Heydər Əliyeviç işə saat doqquzda gəlirdi. Katibliyin müdiri

Qridnev bir həftəlik iş planı hazırlayırdı və bazar ertəsi onu Heydər Əliyeviçlə razılaşdırırdı. Onlar dəqiq qrafik tərtib edirdilər: hansı səfərlər gözlənilir, kimi nə vaxt qəbul etmək, kimi ötürmək lazımdır. Bəzən bunu cümə günü axşamçağı edirdilər.

Katibliyin müdiri həmişə Heydər Əliyeviçdən yarım saat tez gəlir və ona qədər bütün vacib kağızları hazırlayırdı. Qrafikin surəti mühafizəyə də göndərilirdi ki, hara və nə zaman çıxmağı, gediləcək obyektlər haqda məlumatı bilsinlər–axı mühafizə hər şeyə qabaqcadan hazırlaşmalıdır.

Cümə axşamları saat on bir radələrində adətən Siyasi Büronun iclası keçirilirdi və bunun nə vaxt bitəcəyini demək çətin idi. Yerdə qalan günlər əgər hər hansı komissiya iclası planlaşdırılmamışdısa, yaxud Nazirlər Sovetinin sədri iclas keçirmirdisə, o, naharacan sakitcə işləyirdi.

O, ikinin yarısı, ikidə adətən, elə yemək üçün ayrılmış həmin otaqda nahar edirdi. Siyasi Büro üzvlərinin hamısı iş yerlərində nahar edirdilər. Heydər Əliyevin iki ofisiantı var idi–Tatyana və Raya. Çörək, pendir, süddən tutmuş şirəyə qədər bütün qidanı onlar ağzı bağlı qablarda alırdılar, naharı onun üçün qızdırırdılar və Heydər Əliyeviç düyməni basan kimi süfrə açır, yemək gətirirdilər, o yeyib qurtardıqda isə qab-qacağı yığışdırırdılar.

O, yemək məsələsində vasvası deyildi, az yeyirdi. Axşam isə problemlər çıxa bilirdi. Çünki o, yeddidə, səkkizin yarısında şam etməli idi. Bu isə həmişə baş tutmurdu. Bəzən müttəfiq respublikaların başçıları gəlirdilər, ilk zamanlar Azərbaycan rəhbərliyi tez-tez gəlirdi. Onları yalnız saat altıdan, yeddidən sonra qəbul edirdi, çünki buna qədər işləyir, macal tapa bilmirdi. Nazirlər Sovetinin şöbə müdirlərinin işi yeddidən sonra qurtarırdı. Ona görə kənar adamlar üçün adətən işdən sonra vaxt təyin olunurdu. Bu səbəbdən çox vaxt şamı gec etməli olurdu, hərdən doqquzda, bəzən isə onda. Azərbaycanın birinci şəxsləri gələrkən evə çox gec gedirdi. Onun özünə rəhmi gəlmirdi. Ondan çox cavan idim, lakin mənim üçün də səhərdən axşamacan orada olmaq çətin idi. O zamanlar Kremlin kabinetlərində hələ kondisioner yox idi, avadanlıqlar köhnəlmişdi, kommunal xidmətlər kabinetlərdəki hərarəti 22-24 dərəcə civarında saxlamağa çalışsalar da, otaqlar gah soyuq olurdu, gah isti.

– Deməli, hətta sizin üçün belə iş rejiminə qatlanmaq çətin idi?

– Sözsüz. Bəzən o, on bir, on ikinin yarısına qədər qalırdı. Heydər Əliyeviç getməmiş, bağa çatmamış, uşaqlar zəng çalıb çatdıqlarını deməyincə mən gedə bilmirdim. Yalnız mühafizənin zəngindən sonra, masada hansısa artıq kağızın qalmadığını, bütün pəncərələrin bağlı olduğunu bir də diqqətlə yoxlayırdım. Axı, həyatda hər şey ola bilər. Sonra onun kabinetinin bütün qapılarını bağlayıb plomblayırdım. Odur ki, haradasa gecə saat bir üçün evə çatırdım.

Heydər Əliyeviç böyük insan idi. Bax, sizinlə danışıram və hiss edirəm ki, qəhər məni boğur. Bir dəfə o məni çağırdı və məzəmmət etməyə başladı:

– Pencəyini niyə düymələməmisən? Niyə qalstukun altından köynəyin düymələnməyib? Sən görmüsən ki, mənim qalstukun altındakı düyməm açıq qalsın? Yanımda işləyirsən, məndən nümunə götür.

Heydər Əliyev həmişə səliqəli geyinirdi, paltarı ütülü, tər-təmiz olurdu. Onda hər şey ideal idi. Kabinetdə pencəyini yalnız yayda, isti olanda çıxarırdı, qışda isə hərdən həmişə istirahət otağındakı şkafda asılmış puloveri geyirdi. O, adətən pencəkdə, qalstukda işləyirdi".

İlk dövrlərdə Heydər Əliyeviçin vəzifə və səlahiyyətlərinin əhatəsi qeyri-adi dərəcədə genişləndiyi üçün ona, həqiqətən, çətin idi. O, nəhəng ölkə daxilində nəqliyyat və rabitədən tutmuş, təhsil və səhiyyəyə qədər son dərəcə mühüm sahələrlə məşğul olmalı, həm də xarici siyasətdəki incəliklərin və müəmmaların mahiyyətinə varmalı idi. O, Siyasi Büronun üzvü, deməli, güclü sovet imperiyasını idarə edən və cümə axşamları öz həftəlik yığıncaqlarında ən müxtəlif məsələləri həll edən seçmə simalardan idi.

Ona görə uzaq 1969-cu ildəki kimi o, müəyyən müddət çalışqan şagird oldu. O, öyrənməyi heç zaman ayıb saymırdı.

"Heydər Əliyeviç Moskvada işə başlayan kimi xahiş etdi ki, onun üçün müxtəlif sorğu kitabları, lüğətlər, qanunlar, bir sözlə, nəqliyyatla bağlı nə varsa gətirsinlər. O, nəqliyyat problemlərini beyni dumanlanana qədər oxuyur, öyrənirdi. Əvəzində, qısa müddətdən sonra mütəxəssisləri öz məlumatlılığı və peşəkar yanaşma tərzilə heyrətləndirirdi".

(Yuri Kamayevin xatirələrindən).

"Yeri gəlmişkən, sosial sferada ona cəmiyyətin fəaliyyəti, bilavasitə insan həyatı ilə bağlı bütün sahələr–həmçinin yaradıcı ittifaqlar–rəssamlar, bəstəkarlar, yazıçılar, kino xadimləri ittifaqları tapşırılmışdı. Sosial təminat da onun idarəçiliyində idi.

Mən bir dəfə maraq üçün hesablayıb müəyyən etdim ki, yalnız sosial sferada bu və ya digər halda, demək olar ki, otuz nazirlik, dövlət komitəsi, agentlik və digər idarələr ona baxırdı. Hələ nəqliyyatı demirəm".

(Yuri Soloduxinlə söhbətdən).

İlk iki-üç ay o, Kremldən gecə saat ikidən tez getmirdi. "9-luğun" əməkdaşları, həmçinin Nazirlər Sovetinin bəzi işçiləri də onun qədər oturmalı olurdular. Əlbəttə, onlar bu rejimdən məmnun deyildilər, çünki əvvəlki şefləri özlərini o qədər də işlə yükləmir və qaranlıq düşməmiş evə gedirdilər. Sonralar Heydər Əliyev özü Nazirlər Sovetinin məsul əməkdaşlarının ondan Y.Andropova necə şikayət etdiklərindən danışırdı. Bir dəfə necə olmuşdusa iş həftəsinin sonunda Baş katib hökumət iclaslarından birinə təşrif gətirmişdi. İclası bağlayarkən o, iştirakçılara yaxşı istirahət günləri arzuladı. Məsul işçilərdən biri narazı halda dedi:

"– Yuri Vladimiroviç, siz bizə yaxşı istirahət günləri arzulayırsınız, lakin Heydər Əliyev bizi bazar günləri də işləməyə məcbur edir.

Yuri Vladimiroviç əlacsız kimi əllərini açdı:

– Bazar günləri o, bəzən məni də işləməyə məcbur edir"[20].

Doğrudan da, aparatın bir çox yüksək vəzifəli məmurları, xüsusən də Brejnev hakimiyyətinin sonlarında çalışqanlıqları, əməksevərlikləriylə fərqlənmirdilər. Xüsusən ona görə ki, Baş katib özünün və silahdaşlarının həyatını yüngülləşdirməyə çalışırdı. D.Volkoqonov "Yeddi rəhbər" kitabında yazdığı kimi, "hakimiyyətə gəldikdən az sonra onun təkidi ilə Siyasi Büro 1966-cı il iyulun 28-də qərar qəbul etdi. Qərara görə ali partiya kollegiyası üzvlərinin mə-

zuniyyət müddəti ildə iki ay yarım müəyyən edildi. Özü də onların iş saatı nahar fasiləsi də daxil olmaqla 9-dan 17-dək idi"[41].

Hakimiyyətə gələrkən Y.Andropov nəinki bu qərara yenidən baxmadı, əksinə, Siyasi Büro iclaslarının birində həmkarlarını buna daha ciddi yanaşmağa çağırdı.

Sov.İKP MK Siyasi Bürosunun 1983-cü il 24 may tarixli iclasından işgüzar qeyd*:

"Siyasi Büro üzvləri, Siyasi Büro üzvlüyünə namizədlər və MK katiblərinin iş rejimi haqqında

Andropov–Söz yol.Çernenkoya verilir.

Çernenko–Yoldaşlar, bir vaxtlar Siyasi Büro üzvləri, Siyasi Büro üzvlüyünə namizədlər və MK katiblərinin iş rejimi haqda iki qərar qəbul edilmişdi. Siyasi Büro üzvlərinin hər birinin çiyninə düşən işin xeyli yüngülləşdirilməsi, iş vaxtının saat 9-dan 17-dək məhdudlaşdırılması, yaşı 65-dən yuxarı olan yoldaşlara isə daha uzunmüddətli məzuniyyət verilməşi və onların həftədə bir gün ev şəraitində işləməsi nəzərdə tutulmuşdu. Demək lazımdır ki, qəbul etdiyimiz hər iki qərar bu gün yerinə yetirilmir. Bununla əlaqədar təklif irəli sürülür–bu qərarlar dəqiqləşdirilsin, birləşdirilsin və onlara əməl edilməsinə daha ciddi yanaşılsın.

Andropov–Mən Konstantin Ustinoviçin təklifini müdafiə etmək istərdim. Siyasi Büronun hər iki təklifi partiyanın rəhbər kadrlarının səhhətinə olduqca böyük diqqət göstərən L.İ.Brejnevin təşəbbüsü ilə qəbul edilmişdi. Biz bu xətti davam etdirməliyik. Axı Siyasi Büronun heyətinin yaş həddinə müxtəlif cür baxmaq olar. Burada partiyamızın siyasi təcrübəsi cəmləşmişdir, odur ki, insanların düşünülməmiş, tez-tələsik əvəz edilməsi heç də həmişə işin xeyrinə olmur. Bu məsələyə ehtiyatlı, diqqətli və ölçülüb-biçilmiş yanaşma vacibdir. Son dərəcə gərgin rejimdə biz qazandığımızdan daha çox itirə bilərik. Odur ki, Siyasi Büroda müəyyən edilmiş iş rejiminə bütün yoldaşlar tərəfindən sözsüz riayət edilməlidir. O cümlədən, hər bir Siyasi Büro üzvü üçün dəqiq gün müəyyən edilməlidir ki, ev şəraitində işləyə bilsin. Bundan başqa, bazar gününün istirahət günü olması qanununa ciddi riayət edilməlidir.

Əliyev–Düzdür.

Qromıko–Düşünürəm ki, məsələ düzgün qoyulmuşdur.

Pelşe–Əsas odur ki, Yuri Vladimiroviç, sən özün bu rejimə dəqiq riayət edəsən, özünə baxasan, özünü qoruyasan.

Ponomaryov–Vaxtilə Lenin demişdir ki, Siyasi Büro üzvləri öz səhhətlərinə dövlət əmlakı kimi baxmalıdırlar.

Fikrimcə, izaha ehtiyac yoxdur. Yalnız Əliyevin "düzdür" replikası təbəssüm doğurur. O, sözdə həmkarlarının qərarını loyal qarşılasa da, işdə Siyasi Büro üzvlərinin müəyyən etdiyi iş rejimini daim pozurdu.

Camal Camalov xatırlayır:

"Ümumiyyətlə, Heydər Əliyeviçin gəlişinə qədər Nazirlər Soveti aparatı şənbələr istirahət edirdi. Heydər Əliyeviç isə şənbə günü işləyirdi. Və bu, Nazirlər Sovetinin əksər şöbə müdirlərində narazılıq yaradırdı. Onların bir çoxu qışda xizək sürməyi, yayda balıq tutmağı sevirdi, ona görə cümə günləri düz saat 18-də Nazirlər Soveti boşalırdı.

Azərbaycan KP MK-da öyrəşdiyi iş üslubunu bura da gətirmişdi və tələb edirdi ki, qalanları da bu qanun-qaydaya riayət etsinlər. Onlara isə bu, xoş gəlmirdi.

Lakin bəzən Nazirlər Sovetindən kimsə heyranlıqla deyirdi: "Bu kabinetlərdə Stalin zamanından bu yana heç kəs belə çox oturub qalmamışdır". Əliyev isə heyfsilənirdi ki, sutkada cəmi 24 saat var və bunun hamısını işə həsr etmək olmur,–ona tapşırılan bütün sahələrdə, ilk növbədə isə nəqliyyatda vəziyyəti yoluna qoymaq istəyi onda beləcə güclü idi, dostuna kömək etmək, onun çiyninə düşən ağır yükü bir qədər yüngülləşdirmək istəyirdi. Odur ki, üç-dörd saat yatdıqdan və bir saat qüvvəsinin bərpasına sərf etdikdən sonra o, yenidən Rublyovo–Uspensk şosesilə Kremlə doğru gedir və artıq doqquza on dəqiqə qalmış ikinci mərtəbədəki kabinetinə daxil olurdu.

* Sov.İKP MK Siyasi Bürosunun bir sıra iclaslarının stenoqramlarından burada və bundan sonra gətirilən qeydləri bizə professor Cəmil Həsənli təqdim etmişdir.

Vladimir Uxovla söhbətdən:

"Mən Heydər Əliyevin katibliyində müdir müavini idim. Katibliyin müdiri isə artıq dünyasını dəyişmiş Valeri Arkadyeviç Qridnev idi. Yeri gəlmişkən, biz onu son mənzilə yola salarkən Heydər Əliyeviç böyük əklil göndərmişdi. Valeri Arkadyeviç Rusiya Federasiyası Hökuməti Aparatı başçısının müavini vəzifəsində çalışarkən avtomobil qəzasında həlak olmuşdu. Onlar harasa tələsirmişlər, bu zaman qəza baş vermişdi.

Nazirlər Sovetı aparatının böyük bir hissəsi Heydər Əliyeviçlə bağlı idi, belə ki, bu bölmələr konkret nazirlik və idarələrə kuratorluq edirdi. Bizim vəzifəmizə bir tərəfdən onların iştirakı ilə bu və ya digər tədbirin təşkili, hazırlanması, o biri tərəfdən isə daha çox bilavasitə Əliyevin tapşırdığı materialların hazırlanması daxil idi. Son vaxtlar Heydər Əliyeviç sosial məsələlərlə çox məşğul olur, ölkədə bütün sosial proqrama rəhbərlik edirdi.

Bu öz spesifikasına görə bəzən illərlə yığılıb qalmış problemləri olan çox böyük və rəngarəng sahədir, odur ki, işi qurtarmırdı. Üstəlik, hökumət sədrinin üç-dörd müavininin, nazirlərin daxil olduğu, operativ məsələlər üzrə çox yüksək səviyyəli komissiyaya rəhbərlik də ona tapşırılmışdı. O, nazirlik və idarələrin hökumət qərarlarını necə yerinə yetirdiyinə nəzarət edirdi. Bundan əlavə, BAM-ın tikintisi üzrə komissiya da onun tabeliyində idi.

– Onun yaxın ətrafına kimlər daxil idi?

– Katibliyin müdiri, müavini, üç köməkçi. Onlardan əlavə, kargüzarlığı aparan, sənədləri yazan qızlar–makinaçılar, stenoqrafçılar. Məncə, yeddi, ya səkkiz nəfər idilər. Onlar səhər saat səkkizdən axşam saat ona-on birəcən işləyirdilər. Və üstəgəl iki katib–Camalov və Savin. Cəmisi on beş nəfərə yaxın adam. Hə, bir də iki ofisiant qız və mühafizənin bir neçə zabiti ona qulluq edirdi. Həmçinin komendant Kamayev Yura. Amma onlar bizim ştata daxil deyildilər.

– Demək, siz materialların, məruzələrin, müxtəlif sənədlərin hazırlanması ilə məşğul idiniz?

– Təkcə bunlarla yox. Məsələn, Heydər Əliyevə Hindistanın müdafiə nazirini qəbul etmək tapşırılmışdı. O vaxtkı Baş nazir Raciv Qandinin yaxın dostu olan həmin qonağın şərəfinə müvafiq nahar verilməli idi. Bu isə bizim öhdəmizə düşürdü. Tutaq ki, o, nazir Kremldə qəbul etməlidir. Mən qəbulu təşkil edirəm... Bizdə onun adətən ali qonaqları qəbul etdiyi məxsusi otaq vardı. Qəbula hazırlaşmaq, ilk növbədə material toplamaq demək idi: Hindistanla hansı problemlərimiz var, onlar hansı məsələləri irəli sürə bilərlər. Xarici İşlər Nazirliyindən, Xarici Ticarət İdarəsindən mütəxəssisləri çağırırdım. Hindistanla hərbi sahədə münasibətlər, digər müvafiq məsələlər haqda arayış hazırlamalı, şefi bunlarla tanış etməliydim. Nəyi danışacağını, nəyi pərdə arxasında saxlayacağını müəyyən etməli idim.

Bundan əlavə, qonaqlar üçün Kremlə buraxılış sənədi sifariş verməliydim. Gərək hamıya zəng vuraydıq, televiziyanı, mətbuatı dəvət edəydik, bu danışıqlara daha kimi çağırmaq barədə düşünəydik.

– Başqa sözlə, siz onun həm də mətbuat katibi idiniz?

– Yox, biz mətbuatı yalnız dəvət edirdik, jurnalistlər isə sonra qəzetə material verirdilər. KİV-lər üçün biz yalnız kiçik xəbər hazırlayırdıq ki, Heydər Əliyev bu gün filankəsi qəbul edib.

– Bununla belə, haradasa mətbuat katibi funksiyasını da icra edirdiniz.

– Ola bilər. Mən SİTA-ya bir kağızı öz imzamla, ya Qridnevin imzası ilə göndərəndə Heydər Əliyeviç bunu mütləq gözdən keçirirdi...

– Lütfən danışın, onun işi Nazirlər Sovetində necə təşkil olunmuşdu?

– Bütün kağızlar onun masasında müvafiq qaydada qoyulmuşdu. Solda perspektiv üçün olan materiallar idi və onları araşdıracaqdı. Bu cür on iki-on beş material yığılırdı. Deyək ki, bunlar hansısa öyrəniləcək gələcək layihələr, hansısa maraqlı qeydlər idi.

Bir qədər yaxında daha bir qalaq vardı, burada bir qayda olaraq teleqramlar, həmçinin "bağlı" teleqramlar olurdu. O, iş gününə bunları nəzərdən keçirməklə başlayırdı. Baxdığı hər sənədi quş qoymaqla nişanlayardı. Deməli, bunu götürə bilərdim. Masanın düz ortasına isə həftəlik iş planı qoyulurdu. Burada baxılacaq məsələlər, bununla bağlı kimlərinsə qəbulu gününə, saatına qədər göstərilirdi.

– Bu plan necə tərtib edilirdi?

– Katiblik layihəni onun bizə verdiyi tapşırıqları əsasında hazırlayırdı. Biz artıq əvvəlcədən qeydlər edir və hər gününü dəqiqliklə bölüşdürürdük. Sonra plan gündəlik olaraq dəqiqləşdirilirdi. Planın hazır layihəsini ona göstərirdik. O, ya razılaşırdı, ya da deyirdi: "Filan şeyi ora keçirin". Planı makinada çap edirdilər. Lakin əgər ona, deyək ki, nazirlərdən kimsə zəng vursaydı, yaxud Rıjkovdan göstəriş gəlsəydi, onda öz əliylə planda dəqiqləşdirmə aparırdı... Planlaşdırılmış tədbiri keçirəndə kiçik quş qoyub qeyd edirdi ki, bu bənd yerinə yetirilib.

Sağdakı sənədlər isə bu gün baxdıqları idi. Lakin bunlar daha çox cari xarakterli sənədlər idi.

Ona məruzə etdiyimiz poçtu, ya müdir gətirirdi, ya da mən. Adətən, sol tərəfdəki kiçik masanın arxasında oturur və baxılacaq sənədlər haqda məlumat verirdik.

– Bəs özü olmayan zaman hər hansı bir sənəd göndərildikdə necə?

– Onda sənəd mövzuca aid olduğu qalağa qoyulurdu. Özü də mütləq üstdən. Çünki alta qoyulsaydı, onu görməyə bilərdi.

– Demək, qarşısına yox, məhz qalağa?

– Qarşısında yalnız təcili olanlardı. Xüsusilə, məsələn, yuxarı instansiyadan göndərilmiş qeyd. Ya tutaq ki, Rıjkov zəng edib, Heydər Əliyeviçsə yoxdur, o deyirdi: "Filanı, filanı Heydər Əliyeviçə çatdırın". Biz bunu qeyd edib masanın mərkəzinə qoyurduq. O gələn kimi qeydi görüb Rıjkova zəng edirdi. İş qurtardıqdan və o getdikdən sonra bütün bu qalaqları müdirin kabinetinə yığırdıq. Səhər isə o gələnədək yenə hər şeyi əvvəlki yerinə düzürdük.

– Bəs niyə elə öz yerində saxlamırdınız?

– Qayda belə idi, masa təmiz olmalıdır. O bu məsələyə çox fikir verirdi, o yoxdursa, masa üzərində heç nə olmamalıdır. Əvvəla, demək olar ki, bütün kağızlar məxfi idi, ikincisi də, bu onun yox, dövlətin sənədləri idi. Götürək Heydər Əliyeviçin hər hansı məsələ ilə bağlı qeyd dəftərçəsini. O, qeydini edib onu da qalağın üstünə qoyurdu. Səhər biz dəftərçəni yenidən onun kabinetinə gətirirdik.

...Əgər axşama nə isə planlaşdırırdıqsa, mütləq onu da xəbərdar edirdik. Tutaq ki, sabah teatra getməyə hazırlaşırsan, ona yaxınlaşıb deyirsən: "Heydər Əliyeviç, sabah teatra getmək istərdim". O deyirdi: "Əlbəttə, gedin, amma burada kimsə olsun", ona görə birbirimizi əvəz edirdik. Ya da öz aramızda razılaşırdıq.

– Adətən, doqquzacan, onacan qalırdınız?

– Bəli. O, adətən doqquzda "Zaman" xəbərlər proqramına baxırdı. Bəzən idman xəbərlərinə çatanda daha baxmırdı. Heydər Əliyeviç bu proqrama təkcə təzə xəbərləri bilmək üçün yox, həm də zənnimcə, jurnalistlərin söz açdığı çatışmazlıqları vaxtında aradan qaldırmaq üçün baxırdı. Məsələn, göstərirdilər ki, hansısa şəhərdə evlər təmir olunmur, ya su vaxtında verilmir, axı bu, o zaman fövqəladə hadisə sayılırdı. O, dərhal bizi çağırıb deyirdi: "Eşidirsiniz, yoxlayın, görün orada nə baş verir". Və biz məktub yazır, "siqnalı" yoxlayırdıq. Yaxud haradasa yüklər ilişib qalıb. O, gecə də olmasa (amma elə gecə də edə bilərdi) səhər yollar naziri Konarevə zəng edib deyirdi: "Nikolay Semyonoviç, siz axşam eşitdiniz?" və o eşitməyibsə, Heydər Əliyeviç özü süjetdə deyilənləri danışmağa başlayırdı.

– Başqa sözlə, "Zaman" xəbərlər proqramı onun üçün əlavə, obyektiv məlumat mənbəyi idi?

– Əsas odur ki, sonra Konarev və bütün digər nazirlər də bu proqrama baxmağa başladılar. Əvvəllər, yadınızdadırsa, qəzetə, yaxud televiziyaya neqativ məlumat gəldikdə bunu sonra yoxlayır, ölçü götürür və ictimaiyyətə informasiya çatdırırdılar. Bax, işin bu hissəsini o, çox dəqiqliklə yerinə yetirirdi. Odur ki, evə "Zaman" proqramından sonra gedirdi.

Qayda isə belə idi. Getməzdən qabaq məni, yaxud Qridnevi çağırıb soruşurdu: "Mən hər şeyi yekunlaşdırdım. Sabah hər şey plan üzrə gedəcək, yoxsa təzə nə isə var?".

Mən onun yanına həmişə Almaniyanın istehsal etdiyi yaxşı üz çəkilmiş qeyd kitabçası ilə girirdim. Bir dəfə onsuz daxil oldum, çünki başqa kabinetdən gəlirdim. O mənə bütün tapşırıqlarını verəndən sonra: "Bəs niyə qeyd etmirsiniz?" – soruşdu. Dedim: "Heydər Əliyeviç, axı kitabçanı götürməmişəm. Başqa kabinetdən gəlirəm". – "Götür bu kağızı, yaz. Yoxsa gedərsən, yolda səndən nə isə soruşarlar, unudarsan". Bu, doğrudan da belə idi, təzədən onun yanına gedib: "Heydər Əliyeviç, dediklərinizi bir də təkrar edin"

deməyəcəkdim ki?! Mən bununla onun vaxtını alacaqdım, halbuki, aylarla onun qəbulunu gözləyənlər var. Odur ki, bütün tapşırıqlarını mən dərhal qeyd edirdim.

– Birgə işinizlə bağlı hansısa maraqlı fakt, qeyri-adi epizod xatırlayırsınızmı?

– Elə məsələn. Heydər Əliyevin təkcə hökumətə deyil, həm də yerli partiya təşkilatına gəlməsi ilə əlaqədar maraqlı bir fakt. İlk partiya təşkilatında qeydiyyata durmaq kimi qayda vardı. Heydər Əliyeviç demişdi: "Mən Nazirlər Sovetinin nəqliyyat və rabitə şöbəsində qeydiyyata duracağam". Dekabr, ya bəlkə də, yanvarda axşam bizdə partiya iclası olmalı idi. Əlbəttə, ona bu barədə məlumat vermişdilər. Heydər Əliyeviç qərara gəlir: "Mən də sizin təşkilatın üzvüyəm, bu iclasa gedəcəyəm". O zaman nəqliyyat şöbəsi Kremldə yox, onun yaxınlığında, Qızıl Meydanın arxasında – indiki Nikolski döngəsindəydi. Yəni Kremldən kənarda. Və axşam saat altıda o, doğrudan da, öz maşınında gəldi. Hələ heç kim bu binaya Siyasi Büro üzvünün gəldiyini görməmişdi. Orada Nazirlər Soveti şöbələrinin müdirləri və aparat işçiləri otururdu.

Heydər Əliyeviç əvvəlcə yoldaşlarımızın oturduqları kabinetlərə daxil olub hamı ilə tanış oldu. Ağlagəlməz məsələ idi, bizim ilk partiya təşkilatında olmayan başqa işçilər təəccüb edirdilər ki, Heydər Əliyeviç burada neyləyir? Sonralar o, bütün iclaslarda iştirak etmədi, yalnız bir-iki cari yığıncağa gəldi, amma hesabat-seçki iclaslarında mütləq olurdu.

Və bir dəfə qəribə hadisə baş verdi. Artıq yaşlı olan partiya təşkilatı katibi hesabat verərək deyir: bütün partiya üzvlərimizə tapşırıqlar verilib. Biri partiya komitəsi üzvüdür, o biri idman sahəsinə baxır, üçüncüsü həmkarların özək sədridir, bu təşviqatçıdır... Yalnız bir nəfərimizin partiya tapşırığı yoxdur – o da Heydər Əliyeviç Əliyevdir. Hamı gülüşdü. Heydər Əliyeviçsə dedi: "Mənim də partiya tapşırığım var. Mən Mərkəzi Komitənin üzvüyəm, Siyasi Büronun üzvüyəm və bir neçə partiya komissiyasının sədriyəm. Odur ki, mənim də partiya tapşırığım var". Katib pərt oldu, az qaldı ağlaya. "Yaxşı, yaxşı, – deyə Heydər Əliyeviç onu sakitləşdirdi, – yalın ki, mənim də tapşırığım var, daha sonra məni axtarmasınlar".

1983-ci ildə Heydər Əliyev Sov.İKP MK-nın məsləhətçilər qrupundan Yuri Soloduxini özünə köməkçi götürdü. Hələ 60-cı illərin əvvəllərində Sov.İKP MK-nın Beynəlxalq və Sosialist Ölkələrinin Kommunist və Fəhlə Partiyaları ilə Münasibətlər şöbələrində məsləhətçi vəzifəsi təyin olunmuşdu. Sonralar məsləhətçi bölmələri yaradıldı, 1965-ci ildə isə bu bölmələri şöbə nəzdində məsləhətçi qrupları adlandırdılar. Məsləhətçilər bölmə müdirləri ilə, məsləhətçilər qrupunun müdiri isə şöbə müdirinin müavini ilə bir tutulurdu. Sonra Sov.İKP MK-nın ideoloji şöbəsində və digər şöbələrində məsləhətçilər İnstitutu yaradıldı. Məsləhətçilərdən birinin – "Literaturnaya qazeta"nın keçmiş baş redaktoru Fyodor Burlatskinin söylədiklərinə görə, "məsləhətçiliyə namizədlər qarşısında qoyulan başlıca tələblər – hərtərəfli erudisiya, yaradıcı düşüncə bacarığı və fikri kağız üzərində savadlı, lazımınca canlı və aydın izah etmək" idi"[42].

Yuri Soloduxinlə söhbətdən:

"Bu insanlar analitik materiallar hazırlayır, şöbə rəhbərliyinə və daha yuxarıya müxtəlif növ məsləhətlər, təkliflər verir, rəhbərlik üçün mətnlər yazırdılar. Təbliğat şöbəsindəki məsləhətçilər qrupu digər şöbələrdəki bu tipli qruplardan fərqli olaraq təkcə öz müdiriyyətinə yox, həm Siyasi Büro üzvlərinə, həm də MK katiblərinə xidmət edirdi.

"Dünya və sosializm problemləri" jurnalına* ilk ezamiyyətdən qayıtdıqdan sonra mən bir il SSRİ Elmlər Akademiyasının Rəyasət Heyətində ictimai elmlərə rəhbərlik edən vitse-prezident Fedoseyevin köməkçisi işlədim, sonra məni Sov.İKP MK-da sosialist ölkələri şöbəsinə dəvət etdilər. Oradan artıq şöbə müdiri kimi Praqaya ezamiyyətə getdim. Qayıdan zaman məni təbliğat şöbəsinə dəvət etdilər. Odur ki, iki şöbədə işləmək təcrübəm var idi və deməliyəm ki, zənnimcə, ən yaxşı məsləhətçilər sosialist ölkələri şöbəsində, beynəlxalq şöbədə və təbliğat şöbəsində idilər. Bu üç şöbə bütün yuxarı rəhbərliyə xidmət edirdi.

Heydər Əliyevlə şəxsi tanışlığımız 1983-cü il yazın əvvəllərin-

* "Problemı mira i sosializma" – kommunist və fəhlə partiyalarının aylıq nəzəri və informasiya jurnalı. 1958-ci ildən Praqada 34 dildə nəşr olunurdu.

də olub. O mənə dedi ki, iki məziyyəti olan köməkçiyə çox ehtiyacı var. Birincisi, köməkçi Heydər Əliyevə tapşırılan sosial sahəni yaxşı bilməlidir, ikincisi isə yaxşı qələm sahibi olmalıdır. Yəni onun üçün müxtəlif növ analitik yazı, müxtəlif məruzə, çıxış, məqalə, müsahibə hazırlamağı bacarmalıdır. Bu, indi hər bir məşhur insan üçün, ilk növbədə rəhbərliyin yüksək pilləsinə daxil olan tanınmış siyasətçi üçün adi haldır. Lakin o zamanlar bu cür fəaliyyət, yəni indi bizim "piar" adlandırdığımız hallar az-az baş verirdi. Bu məsələ yuxarıdan ciddiyyətlə məhdudlaşdırılırdı, kimin məruzəylə, yaxud məqalə ilə çıxış edəcəyi hər dəfə Sov.İKP MK-nın qərarı ilə müəyyənləşirdi. Əgər kimsə özü bu təşəbbüslə çıxış edirdisə onda MK-nın icazəsi tələb olunurdu".

Növbəti həmsöhbətim Aleksandr Timofeyeviç Qavrilov 1984-cü ilin iyunundan 1987-ci iladək SSRİ Nazirlər Soveti sədrinin birinci müavininin köməkçisi vəzifəsində işləmişdir. O, humanitar məsələlərlə: mədəniyyət, tibb, idmanla məşğul olurdu. Və həmçinin Heydər Əliyevə məruzə yazmaqda kömək edirdi.

"– Əliyev barəsində ilk dəfə nə zaman eşitmisiniz?

– Onun haqqında çoxdan eşitmişdim. Mən Sov.İKP MK-da işləyirdim və əlbəttə, bilirdim ki, Azərbaycan KP MK-nın birinci katibi hörmətli, yaradıcı adamdır. Onun bütün çıxışlarını oxumuş, haqqında çox eşitmişdim. Məndən qabaq köməkçi vəzifəsində 1983-cü ildən 1984-cü ilin iyununadək Yuri Nikolayeviç Soloduxin işləyib. Daha dəqiq desək, o bir qədər əvvəl gedib və müəyyən müddət Heydər Əliyeviçin bu məsələlər üzrə köməkçisi olmayıb. O, onu-bunu nəzərdən keçirir, axtarır və xahiş edir ki, onun üçün Sov.İKP MK-nın təbliğat şöbəsindən namizədlər göndərsinlər. Ona on namizəd təqdim etmişdilər. 1984-cü il mayın ikinci yarısında təbliğat şöbəsinə zəng edib dedilər ki, Heydər Əliyev mənimlə tanış olmaq istərdi.

Yuri Soloduxinlə tanış olduğum üçün, demək olar ki, məni Heydər Əliyevə o məsləhət görüb.

Kremlə gəldim. Dedilər ki, qəbulla məşğul olduğu üçün on-on beş dəqiqə gözləməyimi xahiş edir. Doğrudan da, on beş dəqiqə keçməmiş məni onun kabinetinə dəvət etdilər.

O, mənə yer göstərdi və soruşdu:

– Bilirsiniz sizi niyə çağırmışam?

– Ehtimal edirəm, Heydər Əliyeviç.

– İstəyirəm ki, köməkçim olasınız. Bu məsələyə necə baxırsınız?

– Heydər Əliyeviç, – deyə cavab verdim, – əlbəttə, mən buna böyük hörmət və minnətdarlıqla yanaşıram. Amma bilmirəm sizin tələblərinizə cavab verə bilərəmmi?

– Buna hələ baxarıq, – dedi. – Hər şeydən əvvəl, soruşmaq istəyirəm: hansı hobbiniz var?

– Dərhal cavab vermək olmur, – dedim. – Çünki bu, mənim üçün adi məsələ deyil.

– Yaxşı, nə ilə maraqlanırsınız? Məsələn, ovla?

– Xeyr.

– Balıq tutmaqla necə?

– Xeyr.

– Marka yığırsınız?

– O da yox.

– Bəs nəyi xoşlayırsınız?

– Mən oxumağı, boş vaxtımda düşünməyi sevirəm, yazmağı sevirəm.

– Bilirsiniz, bu məsələdə biz oxşarıq. Mən də sizin kimi ovla, balıqçılıqla maraqlanmıram, lakin yazmağı, oxumağı, söz üzərində işləməyi xoşlayıram.

Və doğrudan da, sonralar onun söz üzərində necə dəqiqliklə işləyə bilməsinin şahidi oldum. Buna qədər bilirdim ki, Heydər Əliyev hələ Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olduğu zaman Moskvaya gəldikdə tez-tez Yazıçılar İttifaqına baş çəkirdi. Markovun, Verçenkonun və ittifaqın başqa katiblərinin yanına gəlirdi. Bir dəfə Yazıçılar İttifaqına növbəti gəlişi zamanı rəhbərliyin bütün heyəti toplaşıb və o deyib:

– Xalqların dostluğu – Azərbaycan ədəbiyyatı ilə SSRİ-nin digər xalqlarının ədəbiyyatları arasında dostluq möhkəmlənməlidir. Mən bunun üçün hər şey edirəm və sizə söyləmək istəyirəm ki, bizim Azərbaycanda rus ədəbiyyatını bilirlər. Baxın, sizə oxuyum.

Və xeyli müddət Puşkindən əzbər deməyə başladı. O, "Ruslan və Lyudmila"nı, "Yevgeni Onegin"i əla bilirdi. Bu, qeyri-rəsmi gə-

lişlər idi, sadəcə olaraq söhbət etməyə gəlirdi. Görənlər danışırdılar ki, bu heyrətamiz görüş idi: Kommunist Partiyası MK-sının birinci katibi elə-belə, qeyri-rəsmi Yazıçılar İttifaqına gəlir və Puşkindən, Lermontovdan şeirlər deyir.

Ona görə hələ Heydər Əliyevlə şəxsi tanışlığımdan əvvəl məndə onun barəsində yaradıcı bir şəxs kimi təəssürat yaranmışdı və onunla danışmağa mövzu tapırdıq. Xüsusən ona görə ki, mən təbliğat şöbəsində müşavir, jurnallara nəzarət edən bölmənin müdir müavini idim, ədəbi-bədii jurnallara, həm cavanlar üçün, həm populyar jurnallara kuratorluq edirdim. Biz ikimiz də ixtisasca tarixçi idik.

– Siz mənim çıxışlarımı oxumusunuz? – deyə o, ilk görüşümüzdə məndən soruşdu.

– Əlbəttə, oxumuşam, Heydər Əliyeviç. Mən sizin çıxışlarınızı izləyirdim.

Bundan bir müddət əvvəl o, Moskvada məruzə ilə çıxış etməliydi. Nə ilə əlaqədar olduğu yadımda deyil. Və Sov.İKP MK-nın təbliğat şöbəsinin briqadası ona məruzəni hazırlamaqda kömək üçün Kremlə getmişdi. Bir-iki gün işləmişdilər, sonra o demişdi:

– Hamınız çıxın gedin.

Yəni onlar onun xoşuna gəlməmişdilər. Onun dəvətini alarkən artıq bundan xəbərim var idi. Fikirləşdim ki: "Ay Allah, neyləyəcəyəm?". Amma dəvət edilmişdimsə, getməliydim.

– Yaxşı, lütfən deyin, mənim çıxışlarımın xüsusiyyəti nədən ibarətdir? Onları qısa şəkildə necə xarakterizə edərdiniz?

Bir az düşünüb cavab verdim:

– Düşünürəm ki, Heydər Əliyeviç, bir sözlə, əlbəttə ki, bu xarakteristika tam olmayacaqdır, amma mən deyərdim ki – publisistik.

– Düzdür, – dedi.

Və o mənə gələcək işimin istiqamətini anlatdı.

– Bilirsinizmi ki, mənim çıxışlarım üzərində işləməli olacaqsınız? – deyə soruşdu.

– Çalışacağam.

– Lütfən deyin, fərz edək ki, mənimki sizinlə tutmadı. Axı mən sizi götürməklə risk edirəm.

– Elə mən də risk edirəm, Heydər Əliyeviç. Siz əgər məni götürməsəniz, mən artıq gəldiyim yerə qayıtmayacağam.

– Doğrudur, – dedi. – Demək istəyirdim ki, mən öz adamlarımı atmıram. Ona görə narahat olmayın: əgər bizimki tutmasa, çalışacağam ki, incik qalmayasınız.

Bu detal – səmimiyyət, etibar – onu səciyyələndirir. Biz onunla ilk dəfədir ki, görüşürdük, mənim yanımda ürəyindəkiləri dilinə gətirmək nəyinə lazım idi? Lakin o bunu deməyi lazım bildi.

– Əlbəttə, – dedi, – ikimiz də risk edirik, amma gəlin yoxlayaq.

– Çox sağ olun, Heydər Əliyeviç, mən sizin etimadınızı doğrultmağa çalışacağam.

Beləliklə, 1984-cü il iyunun 4-dən mən onun yanında köməkçi işləməyə başladım...

Onun son dərəcə intizamlı olduğunu və qeyri-adi iş qabiliyyətini nəzərə çatdırmaq istərdim. Mənim funksiyama mətbuatla əlaqə yaratmaq və cari hadisələrin icmalını ona təqdim etmək daxil idi. İşə səhər saat səkkizdə gəlirdim, Heydər Əliyeviç 8:45-də. O vaxta qədər mən ona ən ümdə məsələləri – SİTA materiallarını, mühüm əhəmiyyətli hadisə və görüşləri qeyd etməliydim ki, o, ancaq sovet və dünya mətbuatındakı ən başlıca tendensiyalara diqqət yetirsin.

O həmişə düz 8:45-də gəlirdi. Əvvəlcə səhər yeməyinə əyləşərdi, – yüngülcə yeyərdi, – və eyni zamanda mətbuatı gözdən keçirərdi. Bu, doqquzacan çəkirdi.

Mən onun yanına girməyə bilərdim. Mətbuat qovluğu artıq masasının üzərində hazır idi. Əlavə nəyisə öyrənmək lazım olduqda məni dəvət edirdi. Bu onun iş gününə hazırlıq mərhələsi idi. Doqquzda – doqquz on beşdə o, tam məlumatlı və işə hazır vəziyyətdə olurdu.

– Necə düşünürsünüz, onun səviyyəsində olan bütün rəhbərlər belə edirdilər?

– Burada bütün bu prosesi təşkil etmək istəyi və bacarığı olmalıdır. O biri rəhbərlər barədə heç nə deyə bilmərəm, lakin bir çox sədr müavinləri belə etmirdilər. Onlar ən yaxşı halda "Pravda"nı, hansısa "öz" qəzetlərini nəzərdən keçirirdilər, Heydər Əliyeviçə isə bütün qəzetlərdəki ən mühüm məsələlərin icmalı, SİTA-nın xarici xəbərlərinin xülasəsi lazım idi – onlarda da mən ən əsas yerləri nişanlayırdım və o, bunları gözdən keçirirdi.

Mövzunu yekunlaşdıraraq Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin qidalanmasının necə təşkil edildiyindən danışaq. Baxmayaraq ki, burada danışılası elə bir şey də yoxdur. Onu yaxından tanıyan insanların sözlərinə görə qəhrəmanım yeməyə o qədər də meyilli olmayıb və heç vaxt xüsusi delikateslər sifariş etməyib.

"Yadımdadır, 1996-cı ildə Bakıya gəlmişdim, əməlli-başlı söhbət etməmişdik ki, – deyə Aleksandr İvanov xatırlayır, – Heydər Əliyeviç dedi: "Otur maşına, getdik bağa". İqamətgaha gəldik. O, qalxıb həmişəki kimi paltarını dəyişdi. Əyləşdi, biz də İlhamla üzbəüz oturduq. Onun Mariya adlı aşpazı var idi. O hələ biz olduğumuz vaxtlardan orada qalıb. Qaynadılmış ət tikələri, badımcan, pomidor gətirdi. "Hə, otur bax gör prezident nə yeyir". Mən dedim ki: "Heydər Əliyeviç, guya mən sizin nə yediyinizi bilmirəm. Elə əvvəlki menyudur". Moskvada hərdənbir qohumlarının göndərdiyi Naxçıvan yeməklərindən dadmağı sevirdi. Məsələn, iri küftədir, içində də yumurta. Deyəsən, adı Ərzuman küftəsi idi. Ordubad qaymağanağını sevirdi. Kremldə ona Tatyana Petuxova və Raisa Kuznetsova adlı ofisiantlar xidmət edirdilər. Onlar naharı ona xüsusi qablarda gətirirdilər. Raya və Tanya mənim tabeliyimdə idilər. Onlar bizə Brejnevdən miras qalmışdılar.

– Siyasi Büro üzvləri üçün yemək ayrıca hazırlanırdı?

– Bəli, doqquzuncu idarənin tərkibində xüsusi bölmə, ayrıca mətbəx mövcud idi. Bu, Kremlin ərazisində yerləşirdi. Yeməyi orada bişirib xidmət heyətinin otağına gətirirdilər. Düzdür, elə də qeyri-adi şey olmurdu. Elə Heydər Əliyeviç özü də heç zaman xüsusi nəsə sifariş etmirdi".

A.İvanovun söhbətini V.Uxov da təsdiq etdi: "Heydər Əliyeviç ümumiyyətlə, yemək-içmək, xüsusi təam, ya nə isə başqa şey həvəskarı deyildi. Və ümumiyyətlə, o, çox az yeyirdi".

"İzvestiya"nın baş redaktoru İvan Dmitriyeviç Laptevə bir neçə dəfə Siyasi Büro üzvü ilə tikə bölüşmək qismət olub. O, bunu belə xatırlayır:

"Onunla işləmək əla idi. Hətta elə olurdu ki, o, gecəyədək qalırdı, mən isə belə şeylərə artıq öyrəşmişdim, axı qəzeti həmişə gecə buraxırdıq. Ona şam yeməyi gətirirdilər və biz bu yeməyi iki yerə bölürdük. Onunla üç dəfə bu cür şam etmişdik.

– Heydər Əliyev üçün şama nə gətirirdilər?

– İki dəfə adambaşına kartof püresi ilə iki sosiska, hansısa qəlyanaltı və çay. Bir dəfə isə rostbifə bənzər bir şey. Biz bunu yarı böldük və onun istirahət otağında yedik.

Onun şamı yeməyi son dərəcə adi idi. Ümumiyyətlə, heç kim onu qeyri-təvazökarlıqda məzəmmət edə bilməz. Sonralar nə qədər qara yaxsalar da, heç kim onun təvazökar olmadığını deyə bilməyib".

"Siyasi Büroda çox sərt mühit var idi"

Heydər Əliyev:

– Deməliyəm ki, Siyasi Büroda heç kim heç kəsə ürəyini açmırdı. Mən Moskvada 5 il işlədim, Nazirlər Soveti sədrinin birinci müavini, Siyasi Büronun üzvü oldum, amma heç kimlə açıq söhbət edə bilmədim. Görürdüm ki, o birilər də o cürdür. Siyasi Büroda yığışırıq, hansısa çatışmazlıqlardan nə isə deyirik, amma öz səmimi fikirlərini kiməsə söyləyəsən – bu mümkün deyil.

Vladimir Tolts:

– Niyə? Qorxurdunuz?

Heydər Əliyev:

– Mən Moskvaya köçənə qədər çox şeydən xəbərsiz idim. Siyasi Bürodakı ab-havanı bu cür təsəvvür etmirdim. Çox sərt mühit vardı. Mən orada 5 il işləmişəm, işdəkilərin arasından bircə dostum, bircə yoldaşım yoxdur.

Əlbəttə, mühafizəkarlar var idi orada, dəhşətli mühafizəkarlar...

Yeri gəlmişkən deməliyəm ki, Siyasi Büroda ağıllı adam da az idi. Hətta burada, respublikada işləyərkən Siyasi Büro üzvləri ilə daha yaxından ünsiyyətdə olanda, Moskvadan qayıdarkən düşünürdüm: "İlahi, bu nə bəsitlikdir!"

(Heydər Əliyevin "Azadlıq" radiostansiyasına müsahibəsindən).

C.Camalovla söhbətdən:

"Siyasi Büro üzvləri elə-belə bir-birinin yanına getmirdilər. Moskvada işləyənlər Siyasi Büro qabağı bir neçə dəqiqəlik görüşə

bilərdilər. Heydər Əliyev Rıjkovun yanına gedə bilərdi, çünki onun birbaşa rəisi idi. Başqa vaxtlarda isə Siyasi Büro üzvləri iclaslarda, ya da hansısa rəsmi tədbirdə görüşürdülər. Onun Moskvada işlədiyi bütün dövr ərzində Andrey Andreyeviç Qromıkonun yalnız bir dəfə gəldiyini görmüşəm. O, xarici işlər naziri və eyni zamanda Nazirlər Soveti sədrinin müavini idi. Kabineti üçüncü mərtəbədə idi. Hansısa məsələ ilə bağlı Heydər Əliyevin yanına gəlmişdi.

– Heydər Əliyev mənə danışırdı ki, Moskvada işlədiyi müddət ərzində Siyasi Büro üzvləri ilə yaxın ünsiyyətdə ola bilmədi ki bilmədi. İşdənkənar heç bir əlaqə yox idi.

– Bu məsələdə o zaman respublikalarda işləyən Siyasi Büro üzvlərini istisna etmək olar. Onların da hamısını yox. Məsələn, Dinmuhəmməd Ahmetoviç Kunayev. Şerbitski bizə bir dəfə gəlmişdi. Siyasi Büronun tərkibinə sonradan daxil edilmiş Şevardnadze isə xarici işlər naziri olandan sonra faktiki olaraq Heydər Əliyevin kabinetinə ayaq basmamışdı. Hər halda, mən onu görməmişəm. Amma Ermənistan KP MK-nın birinci katibi Dəmirçyan Heydər Əliyeviçin yanında dəfələrlə olub. Onların çox yaxşı münasibətləri var idi".

Vitali İvanoviç Vorotnikov mənə danışırdı ki, ümumiyyətlə, Siyasi Büronun üzvləri arasında heç bir əlaqə yox idi. Xruşşovun zamanında mütəmadi yığışardılar, Stalin vaxtında da. Bir yerdə ova da gedirdilər, birgə naharlar təşkil edirdilər və sair. "Andropov, Çernenko və Qorbaçov zamanında isə bir yerə toplaşmaq üçün yeganə bəhanəmiz Yeni il idi. O da Yeni il ərəfəsində deyil, yanvarın birində, MK-nın Novo-Oqaryovadakı qonaqlar üçün bağında yığışırdıq. Yalnız Siyasi Büro üzvləri arvadları ilə yığışıb bayramı qeyd edirdilər. Elə-belə, formal şəkildə. Bundan başqa heç yerdə heç bir görüşümüz olmurdu.

– Yaxşı, axır ki, Heydər Əliyev kiminləsə yaxın olubmu?

– Deyə bilmərəm. Tixonovla onların yalnız işgüzar münasibətləri var idi. Rıjkovla da həmçinin. Qorbaçovla isə hər hansı əlaqənin olduğuna inanmıram".

Mixail Qorbaçov özünün "Həyat və islahatlar" kitabında maraqlı bir epizod gətirir. 70-ci illərdə o, Y.Andropovla qeyri-rəsmi şəraitdə kifayət qədər tez-tez görüşürdü, xüsusən də Andropov istirahət və müalicə üçün Qafqaz Mineral Sularına gələndə. Amma Moskvaya gəlib çıxandan və 1980-ci ilin sonunda Siyasi Büronun üzvü olandan sonra o, bu imkanını itirdi.

Və artıq Yuri Vladimiroviçin bağ qonşusu olandan sonra bir dəfə Qorbaçov arvadı ilə Andropovu həyat yoldaşıyla nahara dəvət etmək qərarına gəlirlər. Lakin Y.V. nəzakətlə rədd cavabı verir. Qorbaçov bunun səbəbini soruşduqda belə cavab alır:

"Çünki elə sabah söz-söhbət çıxacaq: kim? harada? niyə? Nəyi müzakirə edirdilər?.. Mən Tatyana Filippovna ilə hələ sizə çatmamış artıq Leonid İliçə məruzə edəcəklər. Bunu Mixail, ilk növbədə sənin üçün deyirəm".

O vaxtdan kimisə dəvət etmək, yaxud kiminsə dəvətlisi olmaq həvəsi bizdə yaranmayıb. Köhnə dostlarımızla görüşməkdə davam edir, yenilərilə dostlaşırdıq, həm dəvət edirdik, həm də özümüz qonaq gedirdik. Lakin Siyasi Büro və katiblikdəki həmkarlarımızgilə yox"[43].

SSRİ Nazirlər Sovetinin keçmiş sədri N.Rıjkov öz kitabında eyni vəziyyəti təsvir edir:

"Yuxarıda (pillə nəzərdə tutulur–*E.A.*) Siyasi Büro üzvləri, ortada üzvlüyə namizədlər və üçüncüdə katiblər dururdu. Və hər şey hamısı üçün birdəfəlik müəyyən edilmişdi. Rəyasət Heyətində kim kimin yanında oturmalıdır, Mavzoleyin tribunasına kim kimdən sonra çıxmalıdır, kim hansı iclası keçirməlidir və foto çəkilişi zamanı kim o şəklə düşməlidir, kim yox. Hələ onu demirəm ki, kimin bağı necədir, neçə cangüdəni var, xidməti maşını hansındandır. Bu dəmir qanun-qaydanın kim tərəfindən və nə zaman qoyulması mənə məlum deyil, lakin bunlara bugünə qədər riayət olunur: bu qaydalar sürünə-sürünə MK və köhnə aparatdan hakimiyyətin müasir dəhlizlərinə çataraq orada da kök atmışdır.

Əlbəttə, bu qanun-qayda mənim kimi azad təbiətli adama gülməli gəlirdi. Yadımdadır, əvvəllər də yaxşı tanıdığım Vladimir İvanoviç Dolgixdən soruşdum ki, bayramlarımız necə keçir? Mən katibliyə noyabrda gəlmişdim, Yeni il yaxınlaşırdı... Soruşdum ki, bunu necə qeyd edirsiniz, harada və kiminlə, arvadla gəlmək olarmı? Dolgix mənə baxdı.

– Heç kəs heç kimlə yığışmır, – dedi. – Bunu birdəfəlik unut.

"Üç pillə insanlarının" bütün münasibətləri iş kabinetləri və dəhlizlərdən o yana kəsilirdi. Bağları çəpər-çəpərə, yaxud mənzilləri eyni mərtəbədə olsa belə işdən sonra görüşmək, necə deyim, ayıb kimi sayılırdı. Məndən əvvəl necə olduğunu, Ustinovun, məsələn Pelşe ilə bayramları necə keçirdiklərini bilmirəm, amma mən işləyəni həmişə belə görmüşəm.

Bilirsiniz, bu, dəhşətdir! İş çox vaxt aparırdı, təzə dost tapmaq çətindir, köhnələrini də itirmək istəmirsən.

Xoşbəxtlikdən arvadımla mənim dostlarımız kifayət qədər idi, biz əvvəlki tək bütün bayramları onlarla birlikdə keçirirdik. Görünür, həmkarlarla işdən kənar münasibətlər əlbirliyə cəhd kimi qiymətləndirilə bilərdi. Stalin dövrünün hər şeyə şübhə ilə yanaşma adəti Köhnə meydanda hakimiyyətin yüksək eşelonundan hələ də çəkilib getməmişdir. Bəlkə də, bu, istənilən ali hakimiyyətin qaçılmaz atributudur? Hər halda, indiki hakimiyyət belə şübhələri yalnız möhkəmləndirir"[44].

Qəribə də olsa, bu cür şübhə və güdükçülük atmosferini artıq qocalmış Brejnev də yaradırdı. Qonaqları və həmkarları ilə birgə ov etməyi xoşladığına baxmayaraq, vaxtaşırı anladırdı ki, kiminlə, necə dostluq etmək və kiminlə necə münasibət saxlamaq məsələlərini onunla razılaşdırmaq lazımdır.

Bir dəfə DTK generalı Kevorkovun yanında (o, L.Brejnevin Y.Andropovla telefon danışığının şahidi olub) Baş katib gözlənilmədən mövzunu dəyişərək bəzi Siyasi Büro üzvlərinin "vaxtlarını qeyri-adi keçirmələrindən" danışıb.

"– Mən eşitmişəm ki, Podqorni və Şelest artıq ikinci dəfə bir yerdə ova gediblər. Necə bilirsən, bu nə ola bilər? Yura, göz-qulaq ol, bu ovçular bizə gözlənilməz qənimət gətirməsinlər.

Xruşşova qarşı uğurlu sövdələşmə nəticəsində vəzifəsinə sahib olmuş Brejnev, görünür, daim düşünürmüş ki, o özü də hakimiyyətdən eyni üsulla uzaqlaşdırıla bilər"[45].

Partiya-dövlət elitasına yalnız vizual şəkildə nəzarət etmirdilər. Bu haqda Rusiya tarixi və siyasəti haqda bir çox əsərlərin müəllifi general-polkovnik Dmitri Volkoqonov belə deyirdi:

"Bu gün artıq dəqiq sübut edilmişdir ki, Siyasi Büro üzvlərinin

telefon danışıqlarına qulaq asmaq, onların şəxsi kağız-kuğuzlarını eşələmək 1990-cı ilədək adi, "normal" bir iş olub..."

Elə Siyasi Büro üzvlərindən bəziləri, məsələn Moskva kommunistlərinin keçmiş şefi V.Qrişin də bu fikirdədir:

"Düşünürəm ki, DTK-da bizim hər birimizə-MK Siyasi Büro üzvlərinə, namizədlərə, mərkəzdə və yerlərdə çalışan digər rəhbər işçilərə dosye hazırlanırdı. Güman etmək olar ki, L.İ.Brejnevin Siyasi Büro üzvləri əhatəsində "...Sizin hər biriniz haqda məndə materiallar var" deməsi bununla bağlıdır. Düzdür, biz bunların nə material olduğunu və haradan çıxdığını soruşmadıq, ancaq güman edirdik ki, DTK-dan olar"[47].

Heydər Əliyevin qızı Sevil xanım Əliyevanın söhbətindən:

"Xidmət heyətindən danışmaq istəyirəm. Onların hamısı–aşpazlar, qulluqçularımız–hərbçi idi. Bağa daxil olmaq üçün onların hərbi formada fotoşəkli olan xüsusi buraxılış vəsiqələri var idi. Və bu insanlar bizi güdürdülər. Məsələn, həyətdə budkada mühafizəçi otururdu. Uşaqlarım balaca olanda həmin budkaya girib jurnal görüblər. Orada kimin saat neçədə gedib, neçədə qayıtması qeyd olunurmuş. Hətta uşaqlarımızın ora-bura getmələrini də qeyd edirdilər. Daha bağın böyük sakinlərini güddüklərini deməyim artıqdır. Məsələn, yadımdadır ki, bizə kimsə gəlməliydi. Atam artıq işləmirdi. Mən mühafizəçiyə yaxınlaşıb dedim ki, qapını açsın və bu adamı içəri buraxsın. O soruşdu: "Kimdir ki o?". Mən dözməyib sərt cavab verdim: "Sizə nə? Əgər siz bizi qoruyursunuzsa, tanımadığımız adamlardan qoruyun. Amma əgər mən sizə "qapını açın", deyirəmsə, demək bizə gələn ya dostumdur, ya da tanışım və onun adının nə olduğu sizin işiniz deyil". Mən qəsdən qonağın adını demədim. O isə belə cavab verdi: "Yaxşı, müdiriyyətə elə bu cür çatdıraram".

Yaxud, yadımdadır, atamın qardaşı, Cəlal əmi gəlmişdi, evə keçdi. Bir-iki dəqiqə keçməmiş həyətdəki budkadan praporşik zəng etdi. Dəstəyi aşpazımız götürdü. "Kimdir gələn?" – deyə praporşik xəbər aldı. Arvad isə "Heydər Əliyeviçin qardaşı", – deyə cavab verdi. Praporşik əl çəkmədi: "Hansı qardaşı? Adı nədir?". Qadın hirsləndi: "Mən nə bilim hansı qardaşıdır, adı nədir". Yəni, doğma qardaşından da şübhələnirdilər. Bu, əsl casusluğa oxşayırdı. Biz be-

lə gərgin şəraitdə yaşayırdıq.

Mən çoxdan, hələ 70-ci illərdən nəzarətdə olduğumuzu bilirdim. Yadımdadır, atamla, anamla Moskvaya gəlib mehmanxanada yaşayarkən **atam anama bir söz demək istəyəndə onu hamam otağına aparır, krandakı suyu açıb sonra danışırdı** (seçmə bizimdir–*E.A.*).

Bir də atamın DTK-dakı həmkarlarından birinin, köhnə dostunun ona "Siz daim nəzarət altındasınız" deməsi yadımdadır. Bu, yaxşı vaxtlara, atamın MK-nın birinci katibi işlədiyi və Moskvadakı tədbirlərə gedib-gəldiyi zamanlara təsadüf edir. Bunu deyən adam özü isə camaatın danışığını pusmaqla məşğul olan idarədən idi".

Bununla əlaqədar Ramiz müəllim Mehdiyev mənimlə söhbətində maraqlı detal xatırladı.

"...Moskvada olarkən adətim üzrə həmişə Heydər Əliyevlə görüşürdüm. Ya Kremldə, ya da ki, bağına gedirdik. Yadımdadır, bağdakı kottecin divarları arasında heç zaman söhbət etmirdik. Bir qayda olaraq ərazidə gəzişirdik. Hiss edirdim ki, evə qulaq asa biləcəklərindən ehtiyat edir. Odur ki, həmişə deyirdi: "Çıxaq bayıra, gəzək".

Üzücü bir paradoks: gizli polis öz içindən çıxmış generalına qulaq asır. Daim nəzarət altında olmağa öyrəşmək qəhrəmanımda az danışıb, çox qulaq asmaq, hər ifadəsini, sözünü, hətta intonasiyasını düşünüb-daşındıqdan sonra cavab vermək, son dərəcə təmkinli olmaq və heç vaxt özünüidarəni itirməmək kimi dəmir vərdişlər yaratmışdı.

Mövzunu bitirərkən general-polkovnik D.Volkoqonovun xatirəsindən bir parçanı misal gətirim:

"1992-ci ilin əvvəlində Barvixaya, MK-nın keçmiş müalicə "qoruğuna" ongünlük putyovka aldım. Orada "toxunulmazların" keçmiş xidmətçilərindən olmuş bir qadının danışdıqları yadımda qalıb. O, astadan söyləyirdi ki, Siyasi Büro üzvlərinin nəhəng nömrələrində (onlar üçün xüsusi əla korpuslar tikilmişdi) xırda işlərlə məşğul olarkən onlarla etdiyi söhbətləri mütləq, sanatoriyada hansısa simvolik vəzifə tutan komitə işçisinə çatdırmalı imiş. Onu hər şey maraqlandırırmış: nə danışırdı, kimdən danışırdı, o biri rəhbərlər haqda necə danışır... Hər yerdə belə idi. Kollegiya üzvlərinin qazancı, məişəti, dolanışığı, hətta fikirləri, bütün özəl həyatları qüdrətli komitənin ixtiyarında idi"[48].

S.Semanovun "Yuri Andropov" kitabında yazdığı kimi yüksək partiya-dövlət nümayəndələrinin bütün xidmətçiləri SSRİ DTK-sının 9-cu idarəsi tərəfindən seçilir və elə onlara da tabe olurdu. Adi və xüsusi rabitə də "orqanların" ixtiyarında idi və onlar tərəfindən himayə olunurdu. "DTK öz rəhbərlərinin təkcə sadiq qarovulçusu deyil, həm də dayəsi idi"[49].

Doğrudur, SSRİ DTK-sı sədrinin birinci müavini Filipp Bobkov iddia edirdi ki, yüksək şəxslərin danışıqlarına gizli qulaq asmırdılar:

"Əvvəla, ölkəmizdə heç bir kütləvi qulaqasmalar həyata keçirilmirdi, bir çox vilayət mərkəzlərində bu cür idarələr heç mövcud deyil. İkincisi, partiya və dövlət orqanlarının SSRİ DTK-sının əmrləri ilə təsbit edilmiş qərarlara əsasən bütün səviyyələrdə partiya və sovet rəhbərlərinə, rayon bölməsindən başlayaraq seçkili komsomol və həmkarlar işçilərinə, nazirlik və idarə kollegiyaları üzvlərinə, partiya və komsomol mətbuatı əməkdaşlarına, bütün səviyyələrdə xalq deputatlarına qarşı bu cür vasitələrdən istifadə etmək qadağan edilmişdi. Heç kimə bu əmrləri pozmağa icazə verilmirdi"[50].

* * *

Siyasi Büro üzvləri, xüsusilə "təmiz" partiyaçılarla təsərrüfatçılar arasında münasibətlər həmişə kifayət qədər sərin olurdu. Bu məsələ haqda M.Qorbaçov öz kitabında söz açır.

Bəzən MK katibliyini aparan Qorbaçovun özgə eparxiyaların işinə müdaxilə cəhdləri müqavimətlə qarşılanırdı. Onun başlıca opponenti Tixonov idi. Hökumətin sədri iqtisadi sahəni kənar müdaxilədən qısqanclıqla qoruyurdu. Andropov Baş katib seçildikdən sonra Tixonov ona dedi: "Gəlin belə edək, sən inzibati orqanları, ideologiyanı, xarici siyasəti yaxşı bilirsən. İqtisadiyyatı isə mən təmin edərəm... – Qorbaçov xatırlayır. – Lakin Andropov mənə, Rıjkova və Dolgixə iqtisadiyyatı və planlaşdırmanı idarə etməyi təkmilləşdirmək və müəssisələrin müstəqilliyini genişləndirməklə

bağlı təxirəsalınmaz problemlərin siyahısını tutmaq tapşırığı verəndə Tixonov əməlli-başlı təşvişə düşdü". Siyasi Büronun 18 avqust tarixli iclasında münaqişə baş verdi: Tixonov MK Katibliyinin, xüsusilə Qorbaçovun artıq növbəti dəfə təsərrüfat məsələlərini öz üzərinə götürməsindən hiddətlənmişdi (kiçik söz atışması. Qorbaçov: "Siz həll etmirsinizsə nə edək?". Tixonov: "Baş açmadığınız problemlərlə işləməyə cəhd göstərməyin").

Bu toqquşma təsadüfi deyildi – sənayeçilər yalnız Siyasi Büronun suverenliyini qəbul edərək sırf partiya strukturları tərəfindən onların üzərində nəzarətin yaradılmasına bacardıqları qədər müqavimət göstərirdilər. Andropov bu sahədəki qüvvələr nisbətini saxlamağa çalışırdı. O, Qorbaçova dedi: "Mixail, xahiş edirəm, elə et ki, Tixonovla münasibət pozulmasın. Sən, axı bunun indi mənim üçün necə vacib olduğunu anlayırsan"[51].

SSRİ Nazirlər Sovetinin yaşı ötmüş sədri N.Tixonovun öz cavan müavini Heydər Əliyevə münasibətinin də eynilə bu cür, sərin və şübhəli olduğunu V.Andriyanov və H.Mirələmov öz kitablarında təsdiq edirlər:

"Əminəm, Yuri Vladimiroviç Andropov SSRİ Nazirlər Sovetinin sədri vəzifəsində Tixonovu deyil, başqa adamı görürdü, – deyə Nikolay Semyonoviç Konarev öz nöqteyi-nəzərini bildirir. İndi o, Rusiyada nəhəng nəqliyyat-ekspedisiya firmalarından birinə, QSC "İntertrans"a başçılıq edir, bundan əvvəl doqquz il Sovet İttifaqının yollar naziri olub – 1982-ci ildə Andropovun təklifi ilə təyin edilib. – Nazirlər Sovetinə daha masştablı, çevik, böyük idarəetmə qabiliyyətinə malik siyasətçi başçılıq etməliydi. Eyni zamanda görünür, milli mənsubiyyət də nəzərə alınırdı ki, çoxmillətli dövlətin hökumətində yalnız ruslar olmasın. Yuri Vladimiroviç kadrları çoxlarından yaxşı tanıyırdı. Və mən o zaman və sonra onun kadr siyasətini təhlil edərək bu nəticəyə gəldim ki, Əliyevin təyinatı uzaq perspektiv üçün nəzərdə tutulmuşdu. Heyf ki, tale Andropov üçün bu qədər az ömür ayırmışdı...

Bu təyinat Tixonovu çox da sevindirməmişdi. Bir vaxtlar o özü Kosiginin birinci müavini olmuş və Baş naziri böyük hörmətinə baxmayaraq sıxışdıraraq üsulluca öz məqsədinə doğru irəliləmişdi. Qocalmış Tixonov Əliyevin şəxsində Baş katibin mütləq inamını

qazanmış və istənilən an onu əvəz edə biləcək enerjili rəqib görürdü: digər birinci müavinlərindən Nikolay Aleksandroviç qorxmurdu – Baybakov, Arxipov onun yaşıdları idilər və partiyanın "zirvəsində" parlamırdılar. Nazirlər Sovetindən yalnız iki nəfər – Tixonovun özü və Əliyev Siyasi Büronun üzvü idilər və məntiqə görə birincilər arasında Əliyev ən birinci olmalıydı. Lakin məzuniyyətə, yaxud ezamiyyətə gedərkən Tixonov heç vaxt öz yerində Əliyevi qoymurdu. Əlbəttə, bu, Heydər Əliyeviçə toxunurdu, lakin o, bunu büruzə verməməyi bacarırdı"[52].

N.Rıjkovla söhbətdən:

"– Siz iki il SSRİ Nazirlər Sovetinin sədri vəzifəsində Heydər Əliyevin rəhbəri olmusunuz.

– Məni sədr vəzifəsinə 1985-ci il sentyabrın 28-də təyin etdilər. Heydər Əliyev birinci müavin idi. Həqiqətən, mən də bugünəcən bəzi şeyləri anlamıram. Mən bilirdim ki, Tixonov məzuniyyətə, ezamiyyətə və s. gedərkən, bir qayda olaraq, heç vaxt Əliyevi vəzifəsinin icraçısı kimi təyin etmirdi. Və Rəyasət Heyəti iclaslarını həmişə Arxipov İvan Vasilyeviç keçirirdi. O da birinci müavin idi, lakin Siyasi Büro üzvü deyildi. Və demək, partiya xətti ilə o heç kim idi. Əliyev isə Siyasi Büronun üzvüdür, amma onu yaxın qoymurlar. Əlbəttə, bu, Heydər Əliyeviçin mənliyinə bir zərbə idi...

Və mən bir həftə işlədikdən sonra Rəyasət Heyətinin növbəti iclasında bir sıra məsələlər barədə öz fikrimi dedim. "Həmçinin, – dedim ki, – belə bir məsələ var. Bilirəm ki, – iclasda isə Heydər Əliyeviç, Arxipov, Rəyasət Heyətinin üzvləri iştirak edirdilər, – hər dəfə Nazirlər Sovetinin sədri hansı səbəbdənsə olmadıqda onun əvəz edilməsi məsələsi ortaya çıxır. Hesab edirəm ki, bu, düzgün deyil. Dəqiqlik və aydınlıq olmalıdır, hamı bilməlidir ki, sədr olmayanda onu filankəs əvəz edəcək. Bu gündən, olmadığım zaman məni Heydər Əliyeviç əvəz edəcək".

Hamı donub qaldı, bircə nəfər də söz demədi. Əlbəttə, Heydər Əliyeviçin çöhrəsi açıldı. Axı, onun da heysiyyəti var. Siyasi Büronun üzvü olasan, amma sənə hökumətin iclasını aparmağı etibar etməsinlər. Düşünmürəm ki, Tixonov özü belə bir qayda qoysun. Möhkəm əminəm ki, ona kimsə yuxarıdan göstəriş vermişdi..."

Qeyd edək ki, N.Rıjkov da, Heydər Əliyev haqqında kitabın müəllifləri də Nikolay Tixonovla Heydər Əliyevin münasibətlərinin kifayət qədər sərin olduğunu təsdiq edən eyni dəlil gətirirlər: məzuniyyətə gedərkən Tixonov guya **heç vaxt** Nazirlər Soveti "təsərrüfatını" Heydər Əliyevə tapşırmayıb. Bu, o qədər də düz deyil və ya heç də belə deyil. Prezident Əliyevin şəxsi arxivində işləyərkən və "Rusiya Federasiyası arxivlərində saxlanılan və Heydər Əliyevin 1983-cü ilin iyunundan 1989-cu ilin aprelinə qədər olan müddətdə fəaliyyətini əks etdirən sənədlərin surəti" adlı qovluğu nəzərdən keçirərkən Nikolay Rıjkovun Heydər Əliyevi öz yerinə "birinci" qoymaq ənənəsinin məhz ondan gəldiyi haqda söhbətini təkzib edən kiçik bir tapıntım oldu.

SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin
16 avqust 1985-ci il tarixli 27 №-li
iclasının protokolundan çıxarış

V. SSRİ Nazirlər Sovetinin sədri yol.Tixonov N.A.-nın məzuniyyəti ilə əlaqədar yol.Əliyev H.Ə. və yol.Arxipov İ.V.-nin öhdəsinə bəzi əlavə vəzifələr verilməsi (yol.Tixonov, Smirtyukov, Arxipov, Baybakov).

SSRİ Nazirlər Sovetinin sədri yol.Tixonov N.A.-nın məzuniyyəti müddətində öhdəsinə verilsin:

a) SSRİ Nazirlər Soveti sədrinin birinci müavini yol.Əliyev H.Ə.-yə

– **SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin iclaslarına sədrlik etməsi və bu iclaslar üçün materiallar hazırlanması** (seçmə bizimdir–***E.A.***);

– cari və operativ məsələlərə dair qərar layihələrinə baxılması;

– SSRİ-nin iqtisadi və sosial inkişafı Dövlət Planının və SSRİ-nin 1985-ci il üçün dövlət büdcəsinin yerinə yetirilməsinə nəzarəti həyata keçirməsi;

– xalq təsərrüfatını 1985-1986-cı ilin payız-qış mövsümü müddətindəki işlərə hazırlamaq və bunun üçün lazım olan yanacaq, xammal və material ehtiyatlarını yaratmaq, göstərilən ehtiyatların toplanması və yanacaq-enerji resurslarına qənaət edilməsi üçün

operativ qaydada tədbir görülməsilə bağlı məsələlərə baxılması:

– SSRİ Dövlət Plan Komitəsinin 1986-cı ildə nəqliyyat və rabitənin, nəqliyyat tikintisinin, xalq istehlakı mallarının istehsalının, əmtəə dövriyyəsinin və qeyri-istehsal sahələrinin inkişafı üçün təqdim etdiyi layihələrə qabaqcadan baxılması;

b) SSRİ Nazirlər Soveti sədrinin birinci müavini yol.İ.V.Arxipovun öhdəsinə:

– SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin iclaslarında SSRİ Dövlət Plan Komitəsi və SSRİ Maliyyə Nazirliyinin təqdim etdiyi 1986-cı il üçün müttəfiq respublikaların, SSRİ nazirlikləri və idarələrinin büdcə planlarına, həmçinin 1986-cı il üçün maliyyə planına və ixrac və idxal planına baxılması;

– SSRİ-nin 1986–1990-cı illər üçün və 2000-ci il müddətinə qədər iqtisadi və sosial inkişafının əsas istiqamətləri layihəsinin hazırlanması işində iştirak etməsi.

SSRİ Nazirlər Sovetinin sədri
N.Tixonov".

Şahidlərin dediklərinə görə, Nikolay Tixonovu və Heydər Əliyevi uzun illərin səmimi və xeyirxah münasibətləri bağlayırdı. Hələ Nazirlər Sovetində sədr müavini olarkən N.Tixonov Ümumittifaq sosializm yarışındakı qələbəsinə görə növbəti keçici Qırmızı bayrağı respublikaya təqdim etmək üçün dəfələrlə Bakıya gəlmiş, Heydər Əliyevlə birlikdə Bakının sənaye müəssisələrini, neft mədənlərini, yeni tikililərini gəzmişdi. O, Azərbaycanın Heydər Əliyevin başçılığı altında hansı uğurlar qazandığını görür və Moskvaya qayıdarkən, mütləq hər şeyi L.Brejnevə məruzə edirdi. Növbəti fəsillərdə biz N.Tixonovun digər aparıcı Siyasi Büro üzvləri ilə birlikdə Kremldən aprelin 24-nün "Soyqırım qurbanlarının xatirəsi günü" elan edilməsi razılığını almağa cəhd göstərən K.Dəmirçyan və M.Qorbaçovun təşəbbüsünə qarşı çıxış etməsindən danışacağıq.

Heydər Əliyevin müşaviri C.Camalov mənimlə söhbətində deyirdi ki, "Tixonovla Heydər Əliyevin çox yaxşı münasibətləri var idi". Qaldı, yaşlı Baş nazirin Heydər Əliyevi öz rəqibi kimi görüb-görməməsinə... Nə bilmək olar. Tarix bu haqda susur. Lakin onun

öz yerində N.Rıjkovdansa Heydər Əliyevi görmək istəməsi faktdır, sübuta ehtiyacı olmayan fakt.

* * *

Vitali Vorotnikovla söhbətdən:

"1987-ci il mayın 11-də Heydər Əliyevi infarkt vurdu. Bu barədə mənə həkimim xəbər verdi. Məsələ ondadır ki, belə bir ənənə mövcud idi: Siyasi Büro üzvünün xəstəliyi dəryaya atılmış sirr olmalı idi. Heç kəs kimdə hansı xəstəliyin olduğunu bilmirdi. Məsələn, Ustinovun xəstəliyi haqda biz ölümünə bir həftə qalmış xəbər tutduq. Düzdür, Andropovun vəziyyətinin necə pis olduğunu hamı bilirdi, çünki gizlətmək mümkün deyildi.

Çernenkonun da məsələsi eyni cür idi. Baxan kimi görürdün ki, o, fiziki cəhətdən zəifdir. Başqalarına gəldikdə isə hə, ya işə çıxmayıb, ya da ezamiyyətdədir. Hər şey gizli saxlanılırdı. Və budur, çox maraqlı hal – Heydər Əliyeviç infarkt olub, bir neçə gündən sonra Siyasi Büronun iclasıdır və o orada deyil. Əslində, sədr deyə bilərdi: qulaq asın, Heydər Əliyeviçin başına belə bir iş gəlib, ona baş çəkmək, dəstək olmaq lazımdır. Amma yox, sanki heç nə baş verməmişdir.

Heydər Əliyevin "Azadlıq" radiosuna müsahibəsindən:

"– Normal insani sual: həmkarlarınız hələ 87-ci ildən sizi "səhhətiylə əlaqədar" adı altında hesabdan siliblər. Siz çox mürəkkəb bir əməliyyat keçirmisiniz, özünüzü indi necə hiss edirsiniz?

Heydər Əliyev:

– Bu suala bir qədər geniş cavab verəcəyəm (bu da həmçinin Siyasi Bürodakı adətləri xarakterizə edir). 1987-ci ilin mayında Kremldə, kabinetimdə özümü qəflətən pis hiss etdim, xəstəxanaya aparıb hansı iynələrisə vurdular, iki gün özümdə olmadım. Sonra mənə dedilər ki, ciddi infarkt olmuşam, hətta iki günü xəstəxana dəhlizlərində keçirən övladlarıma demişdilər ki, sağ qalmağıma ümid azdır.

Sonra artıq Qorbaçov yanıma adam göndərməyə başladı. Xəstə

halımda çalışırdılar ki, işləyə bilmədiyimi və elə xəstəxanada ikən məni vəzifədən azad etmələrini söyləyim. Bu cür qeyri-insani münasibət! Məndə Siyasi Büroya ikrah hissi yaradan neçə-neçə belə misal çəkə bilərəm! 1976-cı ilin fevralında məni Siyasi Büro üzvlüyünə namizəd seçəndə bunu xoşbəxtlik sayırdım, sonra isə hər şeydən iyrəndim.

Yeri gəlmişkən, "Siyasi Büro" deyirsiniz, iki ay yarım xəstəxanada yatmışam, Siyasi Büronun bir üzvü belə telefonla zəng vurmayıb!..

Amerikada, Vaşinqtonda (1999-cu ildə–***E.A.***) işlərimi bitirib getməyə hazırlaşarkən birdən özümü pis hiss etdim. Dedilər ki, əməliyyat etmək lazımdır. Mən razılaşdım. Görünür, Amerika administrasiyası bundan xəbər tutdu, çünki əməliyyatdan qabaq mənə Madlen Olbrayt zəng vurdu, ürək-dirək verdi, dedi ki, onun dostlarından bu əməliyyatı keçirənlər var və çox gözəl yaşayırlar. Əməliyyatdan bir gün sonra Klintondan məktub aldım, sonra Olbrayt yenə zəng vurdu, sonra Klintonun özü.

Bu hadisədən sonra bir gün kiməsə demişdim ki, iki ay yarım Moskvada xəstəxanada yatdım, orada mənim heç kimim, nə qohumlarım, nə dostlarım yox idi, ancaq uşaqlarım yanımda idi. Və bir nəfər belə mənə zəng vurmadı! Siyasi Büro mənəviyyatı budur..."

Qəhrəmanım bu cür ağır, sərt ab-hava şəraitində, ona gəlmə yabançı kimi baxan, biganə, soyuqqanlı, bədxah insanlar arasında beş il işləməli və məyusluğun, ümidsizliyin acısını udmalı olacaq. Buna baxmayaraq, o yenə də əvvəlki kimi üzərinə düşən vəzifələri vətənində olduğu kimi fədakarlıqla yerinə yetirirdi.

"Andropov islahatlar mövqeyində dayanmışdı"

"İndi artıq Y.V.Andropovun ölümündən 10 il keçmişdir, lakin onun şəxsiyyəti bu gün də müxtəlif yaşlı adamların və müxtəlif peşə sahiblərinin diqqətindədir.

Siyasi üfüqdə ulduzu tez parlayıb sönmüş bu insanı çoxları xoş sözlərlə yada salır. O vaxt heç bir lider xalq içində onun kimi rəğ-

bət qazana bilməmişdi. İndinin özündə də təəccüblə fikirləşirsən: necə ola bilər ki, ölkənin başında cəmi 15 ay durmuş, bunun da yalnız bir ilini işləmiş rəhbər bu qədər müsbət emosiyalar doğursun? Lakin o, bu hissləri doğurdu.

Adamların çox az hissəsi (bunlar əsasən keçmiş aparıcı partiya aparatı işçiləridir) isə ciddi tənqid üçün tutarlı əsasları tapmadığına görə, bütün oxlarını onun DTK ilə bağlı fəaliyyətinə və ölkədə sərt intizam yaratmaq uğrunda mübarizədəki sapmalara yönəldirlər.

Andropov fenomeni, zənnimcə, ondan irəli gəlirdi ki, ali hakimiyyətə ölkəni 18 il idarə etmiş keçmiş Baş katibdən xeyli fərqlənən yeni bir adam gəlmişdi (yeri gəlmişkən, bu zaman kəsiyində beş Amerika prezidenti, altı Britaniya Baş naziri dəyişilmişdi). Hamı görürdü ki, yeni Baş katib Brejnev təbiətli adam deyil. Leonid İliçin dövründə insanlar boşboğazlıqdan, özünü göstərməkdən, ikili mənəviyyatdan yorulmuşdular. İşgüzar, təmiz adam lazım idi, o da gəldi"[53].

Həqiqətən də, həm sovet adamları, həm SSRİ-nin sosializm düşərgəsindən olan tərəfdaşları, hətta kommunizmin strateji düşmənləri də yeni Baş katibi dəyişikliklər ümidi ilə qarşıladılar. Məsələ onda deyildi ki, nəhəng ölkə sakinlərinin çoxu DTK-nı və ya sərt qayda-qanun ideyasını dəstəkləyirdi. Sadəcə olaraq Brejnev hakimiyyətinin son dövrünə xas olan intizamsızlıq və boşboğazlıq camaatı təngə gətirmişdi. Hakimiyyət zirvəsində nəyisə dəyişdirmək iqtidarında olan adam görmək istəyirdilər. Andropov məhz belə lider təsiri bağışlayırdı.

L.Brejnevin dəfnindən bir həftə sonra Sov.İKP-nin 1983-cü il üçün plan və büdcənin müzakirəsinə həsr olunmuş növbəti Plenumu yığıldı. Plenumda nitqlə çıxış edən Y.Andropov ənənəvi bəlağətə borcunu verdi: "Mərkəzi Komitənin üzvləri Leonid İliç Brejnevin son nitqlərini xatırlayırlar...". Lakin bundan sonra yeni Baş katib o vaxt üçün qeyri-adi olan çılpaqlıqla iqtisadiyyatdakı təhlükəli vəziyyətdən danışdı. Bir sıra mühüm göstəricilər üzrə beşilliyin ilk iki ilinin planları yerinə yetirilməmişdi. Əmək məhsuldarlığının artım sürəti qənaətbəxş deyildi. İstehsalatın səmərəliliyinə, intensivliyinə doğru dönüş haqqında ağızdolusu danışılmasına baxmayaraq, planlar əvvəlki kimi böyük məsrəf və istehsalat xərcləri

hesabına yerinə yetirilirdi. Nəqliyyatın işində, əsaslı tikintidə, kənd təsərrüfatında, xalq istehlakı mallarının istehsalında ciddi problemlər var idi.

Nitqdə yaranmış vəziyyətdən çıxmaq üçün bir sıra prinsipial tədbirlər dürüst ifadə edilmişdi. Ehtiyatları elmi-texniki tərəqqinin gücləndirməsində, elmin, texnikanın və qabaqcıl təcrübənin geniş və sürətli tətbiqində aramaq təklif olunurdu. Deyilirdi ki, insanların təşəbbüskarlığına yol açmaq üçün sənaye birliklərinin və müəssisələrin, kolxoz və sovxozların müstəqilliyini genişləndirmək lazımdır.

Bir sözlə, Y.Andropov nitqində faktiki olaraq öz komandasına iqtisadi islahatların ən uğurlu yolunu təyin etmək üçün eksperimentlərə "xeyir-dua" verdi. Lakin bütün bunların nəticəsi bir neçə ildən sonra bilinəcəkdi. Bəs Andropov öz sürətləndirməsini yaxın illərdə nəyin hesabına həyata keçirmək niyyətində idi? Onun nitqindən bir neçə sitat:

"Ümumdövlət, ümumxalq maraqlarının gözlənilməsi uğrunda məsuliyyəti gücləndirmək, idarə mənafeyinin güdülməsinin və yerlibazlığın kökünü qətiyyətlə kəsmək lazımdır... Hər hansı partiya, dövlət və əmək intizamının pozulmasına qarşı qətiyyətlə mübarizə aparılmalıdır... Çatışmayan başqa şeydir – təşəbbüs və təsərrüfatsızlığa, israfçılığa qarşı qətiyyətli mübarizə.

...Kadrları düzgün yerləşdirmək lazımdır, həlledici sahələrdə siyasi cəhətdən yetkin, səriştəli, təşəbbüskar, təşkilatçılıq bacarığına, yenilik hissinə malik adamlar dayanmalıdır, bunsuz bizim vaxtda müasir müəssisəyə uğurla rəhbərlik etmək mümkün deyil"[54].

Uzaq perspektivdə nəzərdə tutulmuş praqmatik dəyişikliklərə qədər iqtisadi maşının bütün boşalmış hissələrini bərkitmək və onun yeni sıçrayışına nail olmaq planlaşdırılırdı. Lakin bu çətin məsələnin öhdəsindən yalnız rəhbərliyə hədsiz sədaqətli, korrupsiyaya qurşanmayan, yeniliklərə hazır olan kadrlar gələ bilərdi.

Kadrların təmizlənməsi mühüm bir vəzifəni yerinə yetirməli idi: məmurların orta dəstəsini vəzifədə irəliləyiş müqabilində işin səmərəliliyini artırmaqda maraqlandırmaq. Kadrların Brejnev sabitliyi dövründə karyera stimulları zəifləmişdi, çünki məmurlar öz kreslolarına yapışıb qalmışdılar. İndi yerdəyişmə başlanmışdı. Təşəbbüs göstərirsən, intizam uğrunda mübarizə aparırsan – buyur, bu

da karyera yüksəlişi. Əks təqdirdə səni işdən çıxarılmaq və ya daha pis, sürgün gözləyir.

"Yuri Vladimiroviç bizi xəbərdar etdi ki, onun çıxışında işləri xüsusilə pis gedən nazirliklərin konkret rəhbərlərinin məsuliyyətindən danışılmayana qədər o Plenuma getməyəcək, – deyə Qorbaçov xatırlayır. – Ona görə də ildən-ilə xalq təsərrüfatının ehtiyaclarını ödəməyən nəqliyyat, metallurgiya və tikintidə yaranmış vəziyyət haqqında kəskin tənqidi fikirlər mətnə əlavə olunmuşdu. Çox keçmədi ki, həmin nazirliklərin rəhbərləri – Pavlovski, Kazanets və Novikov, ümumiyyətlə, işdən kənarlaşdırıldılar... Novikovla bağlı məsələ ona görə qoyulmuşdu ki, yaxınlarda Volqodonskda tikilmiş "Atommaş"da bina və qurğular çökməyə başlamışdı, bu da onu göstərirdi ki, əvvəlcədən aparılmış hesablamalarda və tikinti zamanı görünməmiş məsuliyyətsizliyə yol verilmişdi". Sonrakı hadisələr göstərdi ki, ən iri qəzalar hələ qabaqdadır və məsələ nazirdə deyil, sistemdədir. Konkret təşkilati nəticələr isə hər halda insanları Andropovun niyyətinin ciddiliyinə inandırırdı. Bu, təmizləmənin hələ başlanğıcı idi"[55].

"Kommunist" jurnalının 1983-cü il üçüncü nömrəsində yeni Baş katibin "Karl Marks və SSRİ-də sosializm quruculuğunun bəzi məsələləri" adlı məqaləsi dərc olundu. Sovet və xarici politoloqlar aşağıdakı sensasiya doğuran etirafı xüsusilə vurğulayaraq bu məqalədən hələ uzun müddət sitatlar gətirəcəklər: "Əgər açıq danışsaq, biz hələ yaşadığımız və işlədiyimiz cəmiyyəti lazımi dərəcədə öyrənməmişik... Ona görə də bəzən, necə deyərlər, empirik, sınaq və səhvlər yolu ilə hərəkət etməyə məcburuq".

Nikolay Rıjkovun fikrincə, yeni Baş katibin bu ayıldıcı sözləri, əslində, elə "yenidənqurma"nın başlanğıcı idi:

"Andropov Lenindən sonra ilk dəfə cəmiyyətin keçdiyi yolun ciddi, prinsipial təhlili haqqında məsələ qaldırdı. "Biz gərək aydın dərk edək ki, haradayıq. Qabağa qaçmaq – yerinə yetirilməsi mümkün olmayan vəzifələrin irəli sürülməsi deməkdir, yalnız nail olduğumuzun üzərində dayanmaq əlimizdə olanın hamısından istifadə etməmək deməkdir. Bu cəmiyyəti onun bütün imkan və ehtiyacları ilə real dinamikada görmək – bax indi tələb olunan budur".

Bu, Andropovun "Kommunist" jurnalında dərc olunmuş məqa-

ləsindən götürülmüş sözlərdir. Onları indinin özündə də hər bir liderin, xüsusilə də dünyada hər şeyi dəqiq və qəti bildiyinə möhkəm inanan liderlərin yuxuya getməzdən əvvəl təkrar etməyi pis olmazdı.

Sabiq Baş katibi tənqid edənlər onu intizam uğrunda mübarizədə yol verilən sapmalarda günahlandırırlar. Bəli, əyintilər həmişə olduğu kimi var idi. Axmaqlar, hətta ibadət vaxtı başlarını yarırlar. Əyintilər, özü də yalnız bu işdə deyil (mən onlarla belə misal gətirə bilərəm), kampaniyaçılığın, vaxt və səbir tələb edən bir işi mümkün qədər tez, vaxtından əvvəl yerinə yetirmək cəhdlərinin nəticəsində olurdu. Lakin tənqid edənlər yaddan çıxarırlar ki, məhz o, şəxsiyyətə baxmadan sözlə əməl arasındakı fərqə görə, boşboğazlıq və məddahlığa görə ciddi cavab tələb edirdi. Bu, hər şeydən əvvəl, partiya funksionerlərinə, MK üzvlərinə, təsərrüfat və partiya rəhbərlərinə aid idi.

Bundan əvvəlki illərdə güclü şəkildə laxladılmış dövlətçiliyi möhkəmləndirmək məqsədi qarşıya qoyulurdu. Korrupsiya, mafiya, kölgə iqtisadiyyatına qarşı onun tərəfindən başlanmış genişmiqyaslı mübarizəni qiymətləndirməmək olmaz. Düşünürəm ki, bu səbəbdən də bu gün insanlar Andropovun həyatdan tez getməsinə daha çox heyifsilənirlər.

Onun keçmişdəki gözə kül üfürməkdən və gələcəkdəki şeypurlardan çox uzaq olan bütün addımları və fikirləri cəmiyyətin yeniləşməsi perspektivlərinin cizgilərini çəkmişdi. Təkamülə yönəlmiş tədbirlər ölkədə əsaslı dəyişikliklərə gətirib çıxaracaqdı. İnsanlar bunu qiymətləndirə bildilər və Yuri Vladimiroviç onların yaddaşında təmiz adam kimi qaldı"[57].

V.İ.Vorotnikov. Sov.İKP MK Siyasi Bürosu üzvünün gündəliyindən:

"6 iyul.

Ümumtəhsil məktəbinin islahatı üzrə MK komissiyasının iclası. İclası K.Çernenko aparır. Alt komissiyalar haqqında razılığa gəldik. Onlara tapşırıldı ki, respublikaların təklifləri nəzərə alınmaqla ümumiləşdirilmiş materialı sentyabrda komissiyada məruzə etsinlər.

İclasdan sonra Çernenko MK şöbə müdirlərindən, katiblərdən

getməməyi xahiş etdi və onları bir gün əvvəl Y.V.Andropovun MK katibləri ilə baş tutmuş söhbəti barədə məlumatlandırdı. Orada söhbət bizim iqtisadi siyasətin vacib məsələlərindən getmişdir. Andropovun dediklərinin əsas mahiyyəti:

1. Beşilliyin birinci yarısının müfəssəl və obyektiv təhlili lazımdır. Nazirliklərlə konkret işləmək və bir-birinin ardınca "düyünləri" açmaq. Perspektivi nəzərə almaqla iqtisadi problemlərlə ciddi məşğul olmaq.

2. MK aparatı vilayət komitələri ilə əlaqələri gücləndirməli. İşin faktiki vəziyyətini daha yaxşı bilmək: çox vaxt bizə təhrif olunmuş informasiya gəlib çıxır, bəzən isə Mərkəzdən kömək almaq məqsədilə vəziyyət bilərəkdən qəlizləşdirilir. İşçi, işgüzar nəzarət lazımdır, kağız üzərində yox. Bundan ötrü mütəxəssislərdən, aparatdan qruplar formalaşdırıb yerlərə göndərmək, özünüzün tez-tez periferiyaya gedib işi təşkil etməyiniz lazımdır. Kadrları öyrənmək. İşin öhdəsindən gələ bilməyənləri dəyişdirmək.

3. Məxsusi olaraq intizam haqqında. Əmək intizamı zəifləmişdir. Moskvada, məsələn, iş vaxtı minlərlə adam boş-bekar veyllənir, xüsusən də, idarə işçiləri, nazirlik, ETİ əməkdaşları və i.a. İntizamı qaldırmaq kampaniya deyil, uzunmüddətli vəzifədir. Tapşırılan işə görə cavabdehlik daha ciddi olmalıdır.

4. Ölkənin valyuta vəziyyəti haqqında. Vəziyyət çətindir. Maliyyəçilər bir o qədər də sərişteli deyillər. Çoxlu ziyanlı sazişlər bağlanır. Boş-boş şeylər alırıq. Xarici Ticarət Nazirliyi pis işləyir. İxrac üçün nəzərdə tutulan məhsul rəqabətə davamlı deyil. Ərzaq tədarükü xərclərini azaltmaq lazımdır.

5. Əsas vəzifə–texniki tərəqqi, qabaqcıl texnologiyanın tətbiqi. Bu bizim prinsipial iqtisadi xəttimizdir. Əfsuslar ki, 15– 20 ildir köhnəlmiş maşınlar buraxmaqda davam edirik. Siyasi Büroya məhsulun keyfiyyətinin yüksəldilməsi, onun yeniləşdirilmə sürətinin artırılması haqqında təkliflər hazırlamaq.

6. Cari məsələlər: məhsul yığımının təşkili, xalq təsərrüfatının qışa hazırlığı, sosial məsələlərə diqqət.

Çernenko Andropovun çıxışını tezis şəklində belə ifadə etmişdi. Demək olar ki, həmin söhbətdən sonra ölkənin iqtisadi vəziyyətinin yaxşılaşdırılması, təxirəsalınmaz sosial məsələlərin həlli üzrə hərtərəfli, konkret iş başlandı. Yenidənqurmanın hazırlığına təkan o vaxtı verilmişdi.

Bu, 1983-cü il iyulun əvvəli idi"[37].

MK-nın noyabr Plenumundan sonra Y.V.Andropov bir sıra işçi müşavirələri keçirdi, diqqəti əsas problemə cəlb etdi: əmək və istehsalat intizamının hər vasitə ilə möhkəmləndirilməsi. 1983-cü il fevralın 1-də partiyanın əsas qəzeti "Pravda" Baş katibin Moskva dəzgahqayırma zavodu fəhlələri qarşısındakı nitqinin xülasəsini verdi. Çıxışın ana xəttini ölkədə qayda-qanun yaradılması məsələsi təşkil edirdi:

"Bu il beşilliyin əsas ilidir. Açıq demək lazımdır ki, biz əvvəlki iki ildə başa çatdırmadıqlarımızı görüb qurtarmalıyıq, əldən buraxdıqlarımızın əvəzini çıxarmalıyıq, beşilliyin son iki ilində normal işləmək üçün şərait yaratmalıyıq... Hər şeyi intizamla ölçmək olmasa da, məhz buradan başlamaq lazımdır, yoldaşlar... Lazımi intizam olmasa – əmək, plan, dövlət intizamı – biz sürətlə irəli gedə bilməyəcəyik. Qayda-qanun yaradılması, həqiqətən, hər hansı kapital qoyuluşu tələb etmir, lakin çox böyük səmərə verir".

Yeri gəlmişkən, 13 il əvvəl Azərbaycan KP MK-nın avqust plenumunda respublika partiya təşkilatının birinci katibi seçilmiş H.Əliyev məhz bu "əsas məsələ" haqqında danışmışdı. Respublika xalq təsərrüfatının geridə qalması səbəblərini təhlil edərkən demişdi:

"Bunu nə ilə izah etmək olar? Təhlil göstərir ki, bir çox sahələr üçün səciyyəvi olan ümumi cəhətlər də az deyildir. Bu, hər şeydən əvvəl, etibar edilən iş sahəsi üçün bəzi rəhbərlərin məsuliyyət hissini itirməsindən ibarətdir. Tabelikdə olan müəssisələrə rəhbərlik səviyyəsi aşağıdır, lazımi tələbkarlıq və intizam yoxdur... Respublikada mövcud əmək ehtiyatlarından hələ pis istifadə edilir. Bizdə heç yerdə işləməyən, ictimai-faydalı əməklə məşğul olmayan xeyli adam var. Bakıda 19 min məktəb məzunu işə düzəlməmişdir, Kirovabadda isə 15 mindən çox adam və ya bütün əmək qabiliyyəti olanların 20 faizi boş-bekar gəzir". Gördüyümüz kimi, səsləşmə şübhəsizdir.

Partiya və hüquq-mühafizə orqanları proqram xarakterli göstərişləri yerinə yetirmək üçün işə qızğın girişdilər, həmişə olduğu ki-

mi, bəzən ifrata da vardılar. Yaşlı və orta nəslin nümayəndələri, yəqin ki, camaatın gur olduğu yerlərdə: hamamlarda, bazarlarda, defisit mal üçün növbələrdə (görəsən qadınlar iş vaxtı yox, bəs nə vaxt bu növbələrdə dayanmalı idi?), kinoteatrlarda seans vaxtı "oblava" və sənədlərin yoxlanmasını xatırlayırlar. Bu, əlbəttə ki, əhalinin narazılığına səbəb olduğundan sənədlərin kütləvi yoxlanması kampaniyası tezliklə unuduldu.

Sov.İKP MK-nın keçmiş katibi N.Rıjkov mənimlə söhbətdə təsdiqlədi ki, MK-nın intizam məsələləri üzrə qərarının əsas hazırlayanları o və H.Əliyev olmuşdur.

"Andropov intizamı möhkəmləndirmək məsələsi ilə çox məşğul olurdu. İntizam məsələləri üzrə qərarla Nazirlər Soveti xətti ilə Heydər Əliyev, MK xətti ilə mən məşğul olurdum. İndi deyirlər ki, bəs, Andropov adamları hamamlardan, başqa yerlərdən qovmaq haqqında göstərişlər verirdi. Hə, olmuşdu belə bir şey, ancaq, nədənsə, həmin o adamlar demirlər ki, intizam və kadrların möhkəmləndirilməsi haqqındakı qərarda sovet hakimiyyətinin sonuna qədər qüvvədən düşməyən xeyli maddə var idi.

– Məsələn, nə?

– O vaxt qərar qəbul edilmişdi ki, əgər kimsə, səhv etmirəmsə, 20 ya 25 il eyni müəssisədə çalışıbsa, onun təqaüdünün üstünə 10% əlavə olunur. Və bir çoxları 120 yox, 132 manat təqaüd alırdı. O vaxt üçün az artım deyildi.

– Yəni bu yolla işçinin sosial müdafiəsi artırılırdı.

– Bu, ona görə edilirdi ki, adamlar müəssisələrə bağlansınlar, bir yerdən o birinə qaçmasınlar. İşçi bilirdi ki, əgər 20 il işləsə artıq 120 yox, 132 manat təqaüd alacaq. O vaxt isə hər 10 manatın əhəmiyyəti var idi. O vaxt 120 manat təqaüdlə babat dolanmaq olurdu. Qərara digər mütərəqqi məqamlar da daxil idi və bütün bunlar 1991–1992-ci illərə qədər qüvvədə qaldı. Heydər Əliyev bu qərarın hazırlanmasında fəal iştirak etmişdi".

V.Vorotnikovun sözlərinə görə, "söhbət qayda-qanunun təkcə müəssisələrdə, istehsalat kollektivlərində deyil, həmçinin idarəetmə aparatında, müxtəlif elmi və layihə institutlarında, idarələrdə, sovet və partiya orqanlarında yaradılmasından gedirdi. Müvafiq qərar qəbul edildi.

Hər yerdə intizamsızlıqla mübarizə başlandı. Düzdür, çox vaxt bu mübarizə həddən artıq sərt, inzibati xarakter daşıyırdı. Lakin əhalinin əsas hissəsi tərəfindən düzgün başa düşüldü"[5].

Baş katibin yeni iş üsulu və komandasının qarşısına qoyduğu yeni tələblər Qərb KİV-lərinin diqqətini cəlb etdi. Məsələn, nüfuzlu "Vaşinqton post" qəzetinin müxbiri Dasko Doder, Andropovun birinci yüz gününə qiymət verərək yazırdı:

"Andropov ictimaiyyətin və polisin gücü ilə gündüz saatlarında iş yerində olmayan adamları aşkar etmək üçün çoxsaylı reydlər həyata keçirdi. Reydlər üç həftə davam etdi və çox ehtimal, ölkəni letargiya yuxusundan oyatmaq məqsədi daşıyırdı. Son statistik məlumatlar göstərir ki, yanvarda sənaye mallarının istehsalı və əmək məhsuldarlığı inanılmaz dərəcədə artmışdır.

...Şaquli hakimiyyət strukturuna malik ölkədə rəhbərin iş üslubu ürək döyüntüsü kimi əks-səda verir. Adamlar indi işə vaxtlı-vaxtında gəlir, çünki onların rəhbərləri də gecikmir. Sovet jurnalistləri danışırlar ki, əsas həftəlik sovet qəzetinin redaktoru öz bağında oturub göstərişləri telefonla verirmiş. İndi həmin redaktor hər gün kabinetində işləyir...

Sovet ölkəsinin bundan əvvəlki təcrübəsi ilə müqayisədə onun birinci yüz günü qeyri-adidir. Stalin, Xruşşov və Brejnevin özləri üçün illərlə yaratdıqları güclü mövqeyə Andropov üç aya nail olmuşdur... Andropovun uzun müddət DTK-da işləməsinə baxmayaraq, camaatın ona münasibəti maraqlıdır. Ona daha çox hörmət edirlər, nəinki qorxurlar. Onun korrupsiya ilə mübarizəsi eləcə də qanunlara riayət edilməsində və intizamın möhkəmləndirilməsində inadkarlığı populyarlıq qazanmışdır. Sovet adamlarının fikrincə, o, ən azı hökumətin və partiyanın xalq qarşısında daha çox hesabat vermələrini istəyir. Onun çıxışları qısadır, mətləbdən kənara çıxmır və yaxşı qarşılanır. Şişirdilmiş vədlər verməməyi də xoşa gəlir".

Bununla yanaşı, Y.Adropovun yaxın silahdaşı V.Kevorkovun öz memuarlarında yazdığı kimi, Baş katib ölkədə demokratik islahatlar keçirilməsinin əleyhinə deyildi. Lakin demokratikləşməni o yalnız tədriclə və mütləq yuxarıdan keçirilən proses kimi təsəvvür edirdi. Başqa cür olsa, onun fikrincə, ölkədə xaos başlayardı. Andropov hər şeydən çox bundan ehtiyat edirdi.

..."Demokratiya" sözünü o, ümumiyyətlə, işlətmirdi, yeri gələndə "sivilizasiya" terminindən istifadə edirdi. Andropov əmin idi ki, Sovet İttifaqı daha sivilizasiyalı cəmiyyətə Brejnev vaxtındakından fərqli olaraq daha sərt siyasi və iqtisadi rejim vasitəsilə gəlib çatmalıdır. Səciyyəvi haldır ki, "qayda-qanun" və "sivilizasiya" anlayışları onun dilində daim bir-birinin ardınca gəlirdi"[59].

Mühüm şərtdir ki, qayda-qanuna və intizama çağırışlar yalnız vətəndaşlara aid edilmirdi. Sərişteşiz, natəmiz partiya-dövlət aparatı rəhbərlərinə qarşı sərt tədbirlər də görülürdü. Ciddi kadr təzələnməsi təkcə mərkəzi aparatda getmirdi. Belə ki, 1983-cü ilin sonu üçün ölkədə vilayət partiya komitələri birinci katiblərinin 20 faizi, nazirlərin isə 20 faizdən çoxu əvəz olunmuşdu. Andropov partiya təşkilatlarını şəxsi keyfiyyət və qabiliyyətlərindən çıxış edərək yeni rəhbərləri cəsarətlə irəli çəkməyə çağırırdı və ümumi xeyir haqqında yox, öz xeyirləri barədə düşünənlərə qarşı dözülməz idi[60].

Yeqor Liqaçov öz memuarlarında bunun necə baş verdiyi barədə danışır:

"Zənn etdiyim kimi, 1983-cü ilin baharından partiya və təsərrüfat kadrlarının sürətlə yeniləşməsi başlandı. Təəssüf ki, fəaliyyətinin son dövründə Brejnev və onun yaxın əhatəsi əsas diqqəti kadrların sabitliyi probleminə yönəltmişdilər, bu da, əslində, lazımlı adamların "toxunulmazlığına" gətirib çıxarmışdı. Bir çox rəhbər kadrlar partiyada iyirmi ildən yuxarı işləyirdilər, üstəlik çoxunun səhhəti işin gərginliyindən pozulmuşdu, özlərini nalayiq aparanlar da var idi. Əminəm ki, kadr dəyişikliyi vaxtında həyata keçirilsə idi, partiya və ölkədə hadisələrin inkişafı tamamilə başqa cür ola bilərdi.

...Andropov məhz kadr yeniləşməsindən başladı. Bu siyasət, Çernenko dövründə bir qədər ləngisə də, Qorbaçovun vaxtında davam etdirildi.

Əlbəttə, mənim payıma adamlara istefaya getməli olduqları barədə xəbər vermək kimi xoşagəlməz vəzifə düşmüşdü. Bir çox hallarda, məsələn, pis işləməyən, lakin yaşlı və ya səhhətilə əlaqədar işdən getməli olan adamlara gəldikdə mən çox həyəcan keçirirdim, xoşagəlməz söhbətə uzun müddət hazırlaşırdım. Həmişə xeyirxah danışmağa çalışırdım, onun üçün qaçılmaz olan acını bir qədər yüngülləşdirmək məqsədilə həmin adamın bütün müsbət cəhətlərini sadalayırdım.

Lakin başqa cür də olurdu, söhbəti sərt aparmaq lazım gəlirdi, hələ 1983-cü ildə məhz Andropovun göstərişilə Rəşidovla mübarizəyə qatılmalı olduğumu demirəm. Bu haqda kitabımda xüsusi söhbət açılır. Rollar dəqiq bölüşdürülmüşdü. Əgər kiməsə istefaya getmək haqqında məsləhət vermək lazım gəlirdisə, onun ilk reaksiyasının bütün mənəvi ağırlığını üzərimə götürərək bu adamla əvvəlcə mən söhbət edirdim. Ancaq təyinat, irəliçəkilmə məsələsi olanda adamları yanına Qorbaçov çağırırdı və sevindirici xəbəri məhz o çatdırırdı. Rolların belə bölüşdürülməsində özüm üçün heç bir pis şey görmürdüm və bunu tamamilə zəruri hesab edirdim. Qorbaçov məndən on yaş cavan idi, o artıq Siyasi Büronun üzvü idi və mən partiyanın, ölkənin maraqları naminə ona kömək etməyi, onu dəstəkləməyi tamamilə təbii hesab edirdim. 1983-cü ildə, Andropovun dövründə, məhz Qorbaçov Yuri Vladimiroviçin mümkün varisi hesab edilməyə başladı və bu şəraitdə mənim vəzifəm tamamilə aydınlaşdı. Kadrların yeniləşdirilməsi işinin xoşagəlməz hissəsini öz üzərimə götürməyə borclu idim. Mənim aləmimdə bu, əlbir görülən işin vacib tərkib hissəsi idi, o vaxt kimin ağlına gələ bilərdi ki, bu iş sonradan belə çətinləşəcək, yarıda qalacaq və biz müxtəlif mövqelərdə, necə deyərlər, müxtəlif barrikadalarda olacağıq.

Ancaq həyat göstərirdi ki, rəhbər kadrların dəyişilməsi prosesi mürəkkəb məsələdir, böyük çətinliklər hesabına başa gəlir. Bəzi vilayət katibləri, hətta yaşlarının çox olmasına baxmayaraq, öz vəzifələrindən əl çəkmək istəmirdilər, Siyasi Büro üzvlərinə şikayət yazırdılar, ancaq aydın idi ki, onların məsələsi çoxdan "yetişmişdi", həll olunması vacib idi. Bəzən maddi məsələlər də öz sözünü deyirdi ki, bu da başa düşüləndir"[61].

Əlbəttə, Y.Andropovun ölkədə iqtisadi vəziyyətin yaxşılaşdırılmasının yeganə çarəsini qayda-qanunu və intizamı gücləndirməkdə görməsini fikirləşmək sadəlövhlük olardı.

"Hər bir addımında ehtiyatlı olan Andropov gənclik çağlarında bir Volqa bosmanından eşitdiyi və həyat kredosuna çevrilən sözləri tez-tez təkrar edirdi: "Həyat, Yura, yaş göyərtədir. Orada sürüş-

məmək üçün, tələsmədən hərəkət et. Və hər dəfə də mütləq ayağını qoyacağın yeri seç!.." Andropov, heç şübhəsiz, sovet sisteminin həyat qabiliyyətinə inanan sonuncu dövlət xadimi idi. Özü də o, hakimiyyətə gələndə miras aldığı sistemə yox, həyata keçirdiyi qətiyyətli islahatlar yolu ilə yaratmaq istədiyi sistemə inanırdı"[62].

Heydər Əliyevin "Azadlıq" radiosuna müsahibəsindən:

"Yeri gəlmişkən, bu məsələni çoxları bilmir: Andropov Brejnevdən sonra seçiləndə islahatlar mövqeyində dayanmışdı. Bəziləri hesab edir ki, o hər şeyi sərtləşdirmək istəyirdi – düzgün deyil. Bəli, o, intizamı, qayda-qanunu möhkəmləndirmək istəyirdi, çünki intizamsızlıq mümkün olmayan həddə çatmışdı. Ancaq o, islahatlar aparmaq istəyirdi. Əlbəttə ki, o, quruluşun əleyhinə deyildi, onu dəyişmək istəmirdi, lakin başa düşürdü ki, bu quruluşun islahata ehtiyacı vardır. Və məni Moskvaya Siyasi Büro üzvü, Nazirlər Soveti sədrinin birinci müavini kimi dəvət edəndə o, islahatların hazırlanması üzrə bir sıra komissiyalar yaratdı və bu komissiyalarda mən ya üzv idim, ya da ki sədr".

Və artıq neçənci dəfədir ki, H.Əliyevin memuar yazmağa vaxt tapmadığına heyfsilənirəm. Çünki xatirələrini yazmağa macal tapmış Andropovun keçmiş komanda üzvləri, təbii ki, özlərini ön plana çəkərək iddia edirlər ki, yenidənqurmanın müjdəçisi olmuş eksperiment və islahatların hazırlanması məhz onlara tapşırılıb. Bunların həqiqətə nə dərəcədə uyğun olduğunu deyə bilmərəm. Ancaq fakt faktlığında qalır: hökumətdə Andropov ideyalarının ən fəal iştirakçısı və həyata keçirəni, hər halda, Heydər Əliyev idi. Bunu mənimlə söhbətdə **Nikolay Rıjkov** da xatırlayır:

"– Heydər Əliyev danışırdı ki, Andropovun vaxtında o, əmək kollektivləri barədə SSRİ Qanununu hazırlayan komissiyaya rəhbərlik etmişdir. Onun iştirakı ilə daha hansı layihələr həyata keçirilmişdi?

– Əmək kollektivləri haqqında Qanun hazırlanarkən mən Sov.İKP MK-da işləyirdim. Yeri gəlmişkən, bu, müəssisələr haqqında ilk qanundur. İş çox ağır gedirdi, Siyasi Bürodan keçməli idi.

– Yəni başa düşmürdülər ki, bu nəyə lazımdır?

– Bilirsiniz, hansı təsir var idi? Yuqoslaviya təsiri. Çünki Yuqoslaviyada müəssisələrə kifayət qədər demokratik, liberal münasibət mövcud idi. Onların müəssisələri bizimkilərlə müqayisədə daha çox hüquqlara malik idi. Mən özüm zavoddan çıxmışam, bilirəm. Əlbəttə, bizim qanun Yuqoslaviya qanunundan çox uzaq idi. Ancaq, hər halda, bu, irəliyə doğru atılmış böyük addım oldu. Bu işlə də məhz Heydər Əliyeviç məşğul olurdu. O, Nazirlər Sovetində, mən isə MK-da. Sonradan Qorbaçov və Dolgix də işə qoşuldular. Bu, böyük komissiya idi.

Qanun layihəsi çətin ərsəyə gəlirdi, çünki hər şey yeni idi. Bir çoxları bizi başa düşmürdü, deyirdi ki, biz idarəetməni əlimizdən buraxırıq".

1983-cü il iyunun 16-da Moskvada onuncu çağırış SSRİ Ali Sovetinin səkkizinci sessiyası öz işinə başladı. Həmin sessiyada Y.Andropov SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri seçildi.

Sessiyada digər məsələlərlə yanaşı, "Əmək kollektivlərinin və onların müəssisə, idarə və təşkilatların idarə olunmasında rolunun yüksəldilməsinə dair SSRİ Qanununun layihəsi haqqında" məsələ də müzakirəyə çıxarılmışdı. Bu məruzənin hazırlanmasını Y.Andropov H.Əliyevə həvalə etmişdi. Maraqlıdır ki, Y.Andropovun, sonradan isə K.Çernenkonun ətrafında rus millətindən olan bir nəfər tapılmamışdı ki, bu cür konseptual məruzəni savadlı və yüksək səviyyədə hazırlaya bilsin. Siyasi Büronun üzvlərinin analitik və natiqlik qabiliyyətləri, ümumiyyətlə, zəif idi. Bu səbəbdən də həm Andropov, həm Çernenko ən mühüm məruzələri azərbaycanlı Əliyevə tapşırırdılar.

İsa Nəcəfovla birlikdə yazdığımız "Naşirin qətli" kitabında Heydər Əliyev məruzəni hazırlayarkən necə böyük müqavimətlə qarşılaşdığını xatırlayır. Aşağıda həmin kitabdan sitat gətirilir:

"Əmək kollektivləri haqqında hazırladığı qanun layihəsini Siyasi Bürodan necə keçirdiyi onun yadından çıxmamışdı. Əliyev hesab edirdi ki, xalq təsərrüfatının idarə olunması sistemini dəyişmək, ilk növbədə, ölkə müəssisələrinə sərbəstlik və müstəqillik vermək lazımdır. Elə həmin bu radikal ideya layihənin əsasını təşkil etdi. O bilirdi ki, layihəni Nazirlər Sovetindən keçirmək çətin olacaq, lakin bu dərəcədə sərt müqavimətlə qarşılaşacağını gözləmirdi. Demək olar ki, bütün sədr müavinləri əleyhinə çıxış etdilər. Kömək üçün

Andropovun yanına getmək lazım gəldi. O, Əliyevi dinlədikdən sonra dedi: "Çıxart Siyasi Büronun müzakirəsinə". Siyasi Büroda da əsl döyüş oldu. Axırda Əliyevə SSRİ Ali Sovetinin sessiyasında məruzə etmək tapşırıldı. Hadisə 1983-cü ilin yayında olmuşdu"[ω].

Bu onun ilk böyük məruzəsi və ittifaq auditoriyası qarşısında ilk ciddi çıxışı oldu.

Qanun layihəsi əmək kollektivlərinin dövlət hakimiyyət orqanları ilə qarşılıqlı əlaqələrini və onların idarəçilikdə iştirakı prinsiplərini müəyyən edirdi. O, əmək kollektivlərinin, xüsusilə də əməyin idarə olunması sahəsində səlahiyyətlərini genişləndirən bir sıra yeni müddəaları ehtiva edirdi.

H.Əliyev auditoriyaya inkişaf etmiş sosializm dövründə əmək kollektivlərinin mahiyyətinin və spesifik xüsusiyyətlərinin dərin analitik təhlilini təqdim etdi, sonra isə əmək kollektivləri fəaliyyətinin Qanunda nəzərdə tutulmuş əsas istiqamətlərini və səlahiyyətlərini canlı, anlaşıqlı tərzdə açıqladı.

Qanunun prinsipial yeniliklərindən biri planların yalnız əmək kollektivləri tərəfindən baxıldıqdan sonra təsdiq edilmək üçün dövlət orqanlarına təqdim edilməsi haqqında müddəa oldu. Qanun əmək kollektivlərini intensiv iş metodlarına keçməyə, əmək məhsuldarlığının sürətinin artırılmasına istiqamətləndirirdi. Üzərlərinə düşən funksiyaların necə və neçə işçi ilə yerinə yetirilməsini müəyyənləşdirmək ixtiyarı əmək kollektivlərinin özlərinə verilirdi. Qanunda əsas yeri əmək intizamının gücləndirilməsi, həmçinin əməyin təşkilinin briqada formasının hər vasitə ilə tətbiq olunması məsələləri tuturdu.

Əməyə və onun ödənilməsinə nəzarət sahəsində kollektivin hüquqları əhəmiyyətli dərəcədə genişləndirilirdi. Qanunun həvəsləndirmə fondlarının əmək kollektivinin razılığı olmadan müsadirə edilə bilməməsi haqqında müddəası da böyük əhəmiyyət kəsb edirdi.

Qanuna uyğun olaraq əmək kollektivləri mənzil tikintisi planlarına baxmaq və bəyənmək, onların yerinə yetirilməsinə dair hesabatları dinləmək, müəssisələrin fondları hesabına mənzil tikilməsi haqqında qərar qəbul etmək hüququ qazanırdılar.

"Mənzil verilməsi məsələlərində ədalət, aşkarlıq, əməli nəzarət xüsusilə vacibdir. Bütün bunlar Qanunda öz aydın əksini tapmışdır".

(H.Əliyev məruzəsində "aşkarlıq" sözünü əmək kollektivlərinin idarəetmə məsələlərində iştirakını yaxşılaşdırmaq üçün təsirli vasitə kimi bir neçə dəfə işlətdi).

H.Əliyev əmək kollektivlərində ideya-siyasi, mənəvi, əmək, beynəlmiləlçilik tərbiyəsi, kadr siyasəti məsələlərinə də toxundu. Qanunda ilk dəfə olaraq əmək kollektivi tərəfindən vəzifəli şəxslərin və kollektivin digər üzvlərinin fəaliyyətinin qiymətləndirilməsi prinsipi təsbit edildi. Müəssisə və idarələrdə rəhbər işçilərin vəzifəyə təyin olunması və işdən azad edilməsi əmək kollektivinin rəyini nəzərə almaqla həyata keçirilməli idi.

H.Əliyev Qanun layihəsinin üzərində gedən işdən danışdı. Ümumxalq müzakirəsində 110 milyondan çox sovet vətəndaşı iştirak etmişdi. 1 milyon 230 min əmək kollektivində layihənin müzakirəsinə həsr olunmuş iclas keçirilmişdi. İclaslarda 5 milyon nəfərdən çox adam çıxış etmişdi. Qanun layihəsi ilə bağlı mərkəzi orqanlara təqribən 130 min yazılı təklif və irad daxil olmuşdu. Onların hamısı SSRİ Ali Sovetinin İttifaq Soveti və Millətlər Sovetinin qanunvericilik komissiyalarında öyrənilmişdi. Bununla əlaqədar layihənin 23 maddəsindən 21-i dəyişikliklərə məruz qaldı, 70-dən çox düzəliş və əlavələr daxil edildi.

Qanun layihəsi onu şərh edən burjua kütləvi informasiya vasitələrinin fikrinə görə, yarımçıq idi və müəssisələrə həqiqi mənada sərbəstlik vermirdi. Ancaq, hər halda, Qanunun qəbul edilməsi cəmiyyətdə demokratik əsasların inkişafında, sosialist özünüidarə praktikasının təkmilləşdirilməsində irəliyə doğru ciddi addım oldu. *(H.Əliyevin məruzəsinin tam mətni 18 iyun 1983-cü il tarixli "Pravda" qəzetində çap olundu).*

Xeyli sonra, AzərTAc-ın müxbirinə verdiyi müsahibədə Yeqor Liqaçov bu Qanunun ölkə həyatındakı rolu və əhəmiyyətindən söhbət açırdı:

"Qanunvericilik sahəsində biz bir-birimizlə əmək kollektivləri haqqında İttifaq Qanununun hazırlanması ilə bağlı xüsusilə sıx əlaqədə olduq. O vaxt Siyasi Büronun üzvü olan H.Ə.Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyirdi və sosial inkişafa cavabdeh idi. O bu başlıca qanunun hazırlanması üzrə işçi qrupuna rəhbərlik edirdi və SSRİ Ali Sovetinin sessiyasında məruzə ilə çıxış etdi.

SSRİ Ali Soveti tərəfindən əmək kollektivləri haqqında Qanunun qəbul edilməsi sosialist demokratiyasının inkişafında böyük addım idi. Bunun sübuta ehtiyacı yoxdur. Cəmiyyətin əsas maddi və mənəvi dəyərləri əmək kollektivlərində yaradılır. Sovet hakimiyyəti dövründə əmək kollektivi insanları tərbiyə edən həyat məktəbi, insan fəaliyyətinin həlledici sahəsi olan istehsalatı idarə etmək üçün vərdişlərin qazanılması məktəbi idi.

Heydər Əliyeviçin əmək kollektivlərinin vahid rəhbərliyi pozmadan müəssisəni idarə etmək hüququnu necə müdafiə etdiyi mənim yaxşı yadımdadır. O, bizimlə birlikdə həmkarlar ittifaqlarının əmək kollektivlərinin həyatındakı hüquqlarının azaldılmasına qarşı qətiyyətlə çıxış edirdi. Əmək qanunvericiliyində işçinin yalnız həmkarlar ittifaqının razılığı ilə işdən azad edilməsinin yazılmasında da H.Ə.Əliyevin rolu böyükdür.

Hazırda işçinin işdən azad edilməsi yalnız həmkarlar təşkilatının "rəyi nəzərə alınmaqla" həyata keçirilir. Rusiya qanunvericiliyində, elə digər respublikalarda da, ümumiyyətlə, əmək kollektivi deyilən hüquqi kateqoriya yoxdur. O, birdəfəlik aradan götürülmüşdür. Əlbəttə ki, həmkarlar ittifaqlarının müəssisənin idarə olunmasında iştirak etmək hüququ yoxdur.

H.Əliyevin hazırlanmasına böyük əmək sərf etdiyi sovet dövrünün "Əmək kollektivləri haqqında" Qanunu cəmiyyətdə bilavasitə demokratiyanın sənədidir. O, dövlətçilik zəkası və geniş maraq dairəsi olan insan idi, onunla işləmək asan idi, əgər bir şey barədə razılığa gəldinsə, mütləq yerinə yetəcəkdi, yəni sözlə əməlin vəhdəti, başlanılan işin axıra çatdırılması göz qabağında idi"[64].

Vladimir Uxovla olan söhbətdən:

"Bu qanun hökumət tərəfindən hamılıqla hazırlanırdı. Ancaq əsas, ən çətin işi Heydər Əliyev aparırdı. Bunun üçün ölkənin hər yerinə xəbər göndərilmişdi ki, müşavirələr keçirsinlər və problemin nə vəziyyətdə olduğu barədə təkliflər versinlər. Yəni, həm ciddilik var idi, həm də demokratik prinsiplər gözlənilirdi.

Beləliklə, ölkənin hər tərəfindən on minlərlə, yüz minlərlə sənəd, təklif gəlirdi. Nazirlər Sovetində yeni islahatlar üzrə xüsusi şöbə yaratmışdılar, orada şöbə müdirinin birinci müavini vəzifəsində

elmlər doktoru, mənim köhnə tanışım Pokrovski işləyirdi. Bu məsələ ilə, əsasən, o məşğul olurdu. Bütün bu nəhəng materialı institutların birində maşında "emal edirdilər", sonra uzun vərəqlər kəsirdilər, ən tipik təkliflər götürülürdü və bundan sonra biz Heydər Əliyeviçlə birlikdə bu barədə məruzə etməyə gedirdik...

– Sizcə, əmək kollektivləri haqqında Qanunun mahiyyəti nədən ibarət idi?

– O vaxt güclü direktorlar var idi. Yalnız icraçı yox, müəyyən çərçivədə həm də diktator. Özündən yuxarılar üçün icraçı idi, zavodda isə diktator. Qanunda isə söhbət təşəbbüsün aşağıdan genişləndirilməsindən gedirdi, bunun üçünsə bəzi vəzifələrə rəhbərlər seçilməli idilər. Bu, əsas yenilik idi. Bir də müəssisələrə daha çox iqtisadi müstəqillik verilirdi. Bu qanunun bəzi elementlərini öz vaxtında hələ Kosıgin 1964–1966-cı illərin iqtisadi islahatları zamanı həyata keçirmək istəyirdi, lakin ona, əslində, imkan vermədilər. O istəyirdi ki, təməldə gəlir, məhsul buraxılışı dursun və təkcə plandan yox, bu göstəricidən də çıxış etsinlər.

– Sonralar Heydər Əliyev söyləyirdi: biz bu Qanun üzərində xeyli çalışdıq, lakin işi başa çatdırmağa bizə imkan vermədilər.

– Bəli. Qanun ona görə belə alındı ki, kompromislər başlandı. Əksər hallarda kompromis qanunlar ən yaxşı qanunlar olmur, xüsusilə də bizim gerçəklikdə.

– Yəni müəssisələr haqqında Qanun kompromis qanun kimi alınmışdı?

– Bəli, bir qədər kompromis. Orada, məsələn, necə seçmək barədə məsələ var idi. Zavodlara getməyə başladıq. "Filankəs sex rəisi olacaq. Fikriniz nədir? Gəlin seçək". Deyirlər ki, hansısa zavodda bunu, hətta həyata keçirməyə cəhd etmişdilər. Fəaliyyətdə olan sex rəisi çıxış edib deyir: "Mən ağır zəhmət tələb edən sexdə işləyirəm, bura heç kim gəlmək istəmir. Orada işləyənlərin hamısı keçmiş dustaqlardır. Mən sex rəisiyəm. Əgər sabah seçki olsa, onlar məni götürəcəklər, çünki mən sərt hərəkət edirəm. Onların heç biri mənə əl qaldıra bilməz, mənim yumruğum onlarınkından iki dəfə böyükdür. Ona görə də işləyirlər. Sabah onlar, şərti deyək, onlardan qorxan Pavel Petroviçi seçəcəklər. Onu hədələyəcəklər:

"Səni küçədə boğarıq, vəssalam". Və bu sex dayanacaq, bütün zavod da dayanacaq. Belə olmaz". Bütün bunları axı qanunda göstərə bilməzsən. Kompromislər başlandı və qanun sona kimi işləmədi".

H.Əliyevlə birlikdə Qanunu hazırlayan digər əsas sima, qeyd olunduğu kimi, MK katibi Nikolay Rıjkov idi. O özünün "On tələtümlü il" kitabında iqtisadiyyatda gələcək islahatların keçirilməsi baxımından qəbul olunmuş qanunun əhəmiyyətini belə yada salır:

"...O vaxtın birinci dərəcəli məsələləri müəssisələrin hüquqlarının genişləndirilməsi və onların öz fəaliyyətlərinə görə iqtisadi məsuliyyətlərinin gücləndirilməsi, həmçinin əmək intizamının möhkəmləndirilməsi üzrə tədbirlər idi. Bu problemlər üzərində altı ay işləmək lazım gəldi. Yalnız bundan sonra – 83-cü ilin iyulunda onlar Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qərarları şəklində Siyasi Büroda qəbul olundu.

Adət etdiyimiz çeynənmiş söz və şablon ifadələrin bolluğuna baxmayaraq, hər iki qərar mahiyyət etibarilə konkret və işgüzar idi və həqiqətən, xalq təsərrüfatında praktik yenidənqurmanın bünövrəsini qoydu. Bu qərarlar yerini tapa bilməyən digərlərindən fərqli olaraq, işlədi, çünki onları həyata keçirməli olanların maraqları ilə üst-üstə düşən fikir və tələblərdən ibarət idi. Bir tərəfdən qaydaqanun və intizam tələb olunurdu, digər tərəfdən müəssisələrə yuxarının daimi təzyiqi olmadan işləməyə imkan verən tamamilə real hüquqlar verilirdi. Vurğulayıram: heç bir təzyiqsiz yox, **daimi** təzyiqsiz...

Planlaşdırmanın bütün mərhələlərində müəssisələrin rolu artır, istehsalçıları həmişə öz çoxluğu ilə təngə gətirən plan göstəricilərinin əhatə dairəsi xeyli daralırdı. İqtisadi normativlərin rolu gücləndirilir, əmək haqqına, sosial sahəyə ayrılan vəsaitin miqdarı birbaşa işin nəticələri ilə müəyyən olunurdu.

Müəssisələrə istehsalın inkişafı və əmək haqqı fondlarından istifadədə tam müstəqillik verilirdi, yaxşı işçiləri necə mükafatlandırmağı onlar özləri həll edə bilərdilər. Özü də təkcə pulla yox, həmçinin mənzillə, istirahət evlərinə göndərişlə, tikintisi və fəaliyyəti "yuxarıdan" yox, müəssisələr tərəfindən tənzimlənən uşaq bağçalarının və körpələr evlərindəki yerlərlə.

Hazırda "Əmək kollektivləri haqqında" Qanunu demək olar ki, yada salmırlar. Ancaq bu sənədə diqqətlə nəzər yetirdikdə aydın olur ki, o, müəssisələrin və cəmiyyətin demokratikləşməsinin, eləcə də bir çox digər qanunların sələfidir. Əsas məsələ ondadır ki, bu qanun sovet cəmiyyətinin məhz ilkin qurumuna istiqamətlənmişdi. Andropov onu real dinamikada görmək istəyirdi və buna çalışırdı. O, daim, günbəgün dünyada nə varsa öyrənirdi, bizi, öz komandasını da buna məcbur edirdi. Məhz məcbur edirdi"[83].

Hökumətin 1983-cü il iyulun 14-də qəbul edilmiş "Sənaye-istehsalat birliklərinin (müəssisələrin) planlaşdırmada və təsərrüfat fəaliyyətində hüquqlarının genişləndirilməsi və işin nəticələrinə görə məsuliyyətlərinin gücləndirilməsi üzrə əlavə tədbirlər haqqında" qərarı da fondların (hər şeydən əvvəl, sənayenin inkişafı fondunun və elm və texnikanın inkişafı fondunun) xərclənməsində müəssisə rəhbərlərinin hüquqlarını bir qədər genişləndirir və əmək haqqının məhsulun realizəsindən asılılığını artırırdı.

Bu tədbirləri genişmiqyaslı eksperimentdə sınaqdan çıxarmaq qərara alındı. 1984-cü il yanvarın 1-dən ağır maşınqayırma, nəqliyyat maşınqayırması, elektrotexnika sənayesi nazirlikləri, həmçinin respublika yeyinti (Ukrayna), yüngül (Belorusiya), yerli (Litva) sənaye nazirlikləri (cəmi 700 müəssisə, sonra isə 1850 müəssisə) yeni iş üsullarına keçirildi. Burada daha geniş təsərrüfat hesabı tətbiq edilir, planların hazırlanmasında müəssisə və birliklərə müəyyən müstəqillik verilir, nəzarət göstəriciləri miqdarının məhdudlaşdırılması həyata keçirilir, müəssisələrə həmçinin prioritet qaydada vəsaitlər yönəldilirdi. Müəssisələrin fondlarına yönəldilən vəsaitin daxil olması onların nəzarət normativlərini necə yerinə yetirmələrindən asılı idi. Müəssisələr üzərinə müqavilə öhdəliklərinin yerinə yetirilməsi üzrə əlavə məsuliyyətlər qoyulur, əvəzində müdiriyyət müəssisə daxilində geniş muxtariyyət qazanırdı.

Mənimlə söhbətdə **İvan Laptev** məşhur məruzənin mətni üzərində işin necə getdiyini xatırladı:

"...Biz onunla (H.Əliyevlə–*E.A.*) çox özünəməxsus bir şəkildə tanış olduq. Bu, Əliyevin bioqrafiyasında onun üçün çox böyük əhəmiyyəti olan məqamlardan biri idi. 1983-cü ildə "Əmək kollek-

tivləri haqqında" Qanun hazırlanırdı. Qanun müstəsna əhəmiyyət kəsb edirdi, çünki orada sovet hakimiyyətinin bütün tarixi boyu ilk dəfə idi ki, əmək kollektivi ilə işəgötürən (bu keyfiyyətdə o vaxt yeganə işəgötürən kimi dövlət çıxış edirdi) arasında münasibətlər nizama salınırdı. Qanunun hazırlanması çətin gedirdi, onun çoxlu əleyhdarı var idi və xalq bu qanunu yaxşı başa düşmürdü, çünki xalqımız, ümumiyyətlə, qanunlara inanmır.

Belə bir vaxtda Kreml Sarayında ölkənin bütün partiya-təsərrüfat fəallarını toplayaraq böyük məruzə etmək və qanunu onlara təqdim etmək qərara alınır. Mənə elə gəlir ki, kim isə Heydər Əliyeviçi "işə salmaq" istəmiş və məruzə ilə onun çıxış etməsi təşəbbüsünü qaldırmışdı. Əsas məsələ siyasi məsələ idi. Cəmiyyətdə əmək münasibətlərinin vəziyyətini səciyyələndirmək, işəgötürənin muzdla işləyənlərə münasibətini, ilk dəfə "muzdlu əmək" anlayışını açıqlamaq tələb olunurdu. Yəni bütün bunlar külli miqdarda olduqca incə siyasi mətləblər idi.

Ancaq bu qanunun materiyası həddindən artıq quru olduğundan məruzənin siyasi müstəvidə səslənməsinə nail olmaq, demək olar ki, qeyri-mümkün idi. Normaları, nisbətləri, faizləri və s. sadalamaq lazım gəlirdi. Mən elə başa düşürəm ki, Siyasi Büroda kimsə Heydər Əliyeviçin qarşısında həllolunmaz vəzifə qoyub sonradan ona qarşı istifadə etmək istəyirdi.

Mən 1973-cü ildən çoxsaylı briqadaların tərkibində iştirak edərək o vaxt üçün artıq onlarla sənəd, məruzə, nitq yazmışdım. O zaman mən "Pravda" qəzetində çalışırdım, baş redaktorun müavini vəzifəsinə təzə təyin edilmişdim, işim olduqca çox idi, əvvəllər birinci müavinin səlahiyyətinə aid olan sahələri mənə tapşırmışdılar: bütün ideoloji şöbələr, kənd təsərrüfatı, kadrlar.

Bir dəfə mən olmayanda Heydər Əliyevin katibliyinin rəhbəri redaksiyaya zəng vurur. Mənə çatdırdılar ki, bəs filankəs zəng vurmuşdu, xahiş etdi ki, əlaqə yaradasınız. Mən zəng vurmadım. Sonra bir daha zəng vurdular. Yenə də həmin şey. Müəyyən vaxtdan sonra Əliyevin özü zəng vurur və qadağan olunmuş üsuldan istifadə edərək deyir:

– İvan Dmitriyeviç, nədir, siz Siyasi Büro üzvünə kömək etmək istəmirsiniz?

Mən isə artıq bilirdim onlar niyə zəng ediblər, mənim öz kəşfiyyatım var idi.

– Nə danışırsınız, Heydər Əliyeviç, mən canla-başla, sadəcə söhbətin nədən getdiyini bilmirdim, hüquqi məsələlərdən bir o qədər də başım çıxmır. Əgər siyasi, ideoloji məsələlərdirsə, mən hazır.

– Mənə də elə bu lazımdır, – deyir.

Onun briqadasının işlədiyi Nazirlər Sovetinin "Sosnı" sanatoriyasına getməli oldum. Sanatoriya Rublyovskoye şosesinin üstündə, onun bağının yaxınlığında yerləşirdi. Qorkinin keçmiş bağı, Savva Morozovun aktrisa Andreyevaya, Qorkinin mülki izdivacda olduğu qadına bağışladığı ev.

Orada çox böyük briqada var idi: 12-15 nəfər, Nazirlər Soveti aparatından məmurlar, Sov.İKP MK-nın plan-maliyyə orqanları şöbəsinin bəzi əməkdaşları. Mən də süzülüb-getmiş mavi cins şalvarda gəlib çıxıram. Onlar mənə 86 səhifə gətirirlər. Məruzə isə bir saatlıq olmalıdır–bu da eləyir ən çoxu 24-25 səhifə.

Mənə gətirdiklərini oxudum, gördüm ki, orada siyasətdən heç əsər-əlamət belə yoxdur. Yaxşı şeylər var: qanunun təhlili, maddələr, yəni qanunun özündə yer alan həmin o hüquqi əlləməlik.

Həmin günün axşamı Heydər Əliyev gəldi. Elə o vaxt da biz tanış olduq. Mən artıq həmin 86 səhifəni oxumuşdum və həyəcan içində idim. Mən axı başa düşürdüm ki, Siyasi Büronun üzvü, Kreml Sarayında bu cür yüksək səviyyəli iclasda çıxış edəcək. Nə etmək lazımdır? O gələnə qədər təxminən dörd saatım var idi və mən iş planı tərtib etmişdim. Briqada üzvlərinin yanında başqaları ilə münasibəti gərginləşdirmək istəmədiyim üçün belə dedim:

– Heydər Əliyeviç, bu çox böyük materialdır, nə lazımdırsa burada var. Yalnız bir qədər qısaltmaq, çevirmək, yerdəyişmə aparmaq lazımdır. Xahiş edirəm mənə iki gün vaxt verəsiniz. Briqadanız qoy hələlik istirahət etsin, sonra biz yenidən görüşərik və ümid edirəm ki, yalnız iki stenoqrafçı və makinaçı lazım olacaqdır.

Heydər Əliyev bunu tamamilə sakit qarşıladı, çünki mən sonralar da bunu müşahidə edirdim, o hər bir hərəkətdə, hər bir qərarda və ümumiyyətlə, hər bir vəziyyətdə ilk növbədə siyasi əhəmiyyəti və siyasi konteksti görürdü. Əliyev adi təsərrüfatçı deyildi, o,

siyasətçi idi və bu xüsusiyyət onda anadangəlmə idi. O həmişə yaranmış vəziyyəti çox geniş qavrayırdı. Ona görə də hər şeyi başa düşdü, o da həmin materialı oxumuşdu və bəlkə məndən də yaxşı başa düşürdü ki, bunun hamısı belletristikadır.

– Bəs necə oldu ki, H.Əliyev o saat sizə inandı? Bundan qabaq sizin haqqınızda bir şey bilirdimi?

– Yəqin. Düşünürəm ki, bəzi şeyləri ona "Pravda" ilə əməkdaşlıq edən Əfrand Daşdəmirov deyə bilərdi. Bundan başqa, bu nitqləri yazan insanlar məlum idi. Onların sayı çox deyildi. Mən Brejnev Konstitusiyası, Konstitusiya üzrə nitqlərin, Brejnevin "Böyük Oktyabr və bəşəriyyətin tərəqqisi" çıxışının üzərində də işləmişəm.

Xülasə, məruzə üzərində mən iki gün gecə-gündüz işlədim. Mənə 13-14 səhifəlik birinci siyasi bölməni işləmək, yəni qanunun ideya-siyasi məqsədini açmaq lazım idi. İkinci hissə isə artıq konkret idi, orada qanunun müəyyən maddələrinə müraciət etmək olardı.

Uzun sözün qısası, bu mətni yazdım. İki gündən sonra, təxminən axşam saat altıda, Heydər Əliyev mənə zəng vurdu. Mən hamıdan aralı, tək yaşayırdım. Onlar bütün ikinci korpusu tutmuşdular, mən isə birinci korpusda ikiotaqlı nömrədə qalırdım.

O gəldi, bir az oturub söhbət etdi və mətni götürüb getdi. Və artıq gecə vaxtı, saat on bir-on ikidə mənə zəng vurdu. Mən sıxılmış limon kimi idim, gözümə yuxu da getmirdi.

– İvan Dmitriyeviç, – dedi, – indi görürəm ki, məruzəm var. Orada bəzi şeyləri cilalamaq lazımdır, ancaq məzmun etibarilə məruzəm artıq var.

Və o, mənə kart–blanş verdi:

– Briqada ilə nə istəyirsiniz edin. Hamını evə göndərib təzələrini götürə bilərsiniz.

– Heydər Əliyeviç, gəlin belə edək: briqadanı yarıyadək ixtisara salaq, kim lazımdır qalsın, o biriləri isə qoy öz işləri ilə məşğul olsunlar, onları niyə burada saxlamalıyıq ki?

Onların hamısı sevinə-sevinə çıxıb getdi, biz məruzəni tamamladıq, bəzi siyasi qiymətləri təkmilləşdirdik, o vaxt qəbul edildiyi kimi, Baş katib tərəfə "təzimləri" əlavə etdik və s.

Heydər Əliyev əmək kollektivləri haqqında qanun layihəsinin müzakirəsinə həsr olunmuş həmin o Ümumittifaq partiya-təsərrüfat fəalları müşavirəsində çıxış etdi. Zənnimcə, həddən ziyadə gözəl çıxış etdi.

O vaxt belə bir qayda var idi: yazılmış mətn Siyasi Büro üzvlərinə göndərilirdi. Onlar isə öz qeydlərini edib yazını geri qaytarırdılar. Orada, adətən, köməkçilər öz "məharətlərini" göstərirlər. Çıxışdan qabaq biz üç ya dörd axşam onunla oturub bu iradları nəzərə alırdıq. O, iradların hamısını qəbul etmirdi, çünki heç kimin qarşısında əyilmək fikri yox idi. İş prinsipimiz belə idi:

– Bunu Baş katib deyib, deməli, nəzərə almaq lazımdır. Burada isə biri "lehinədir", o biri "əleyhinə", deməli, olduğu kimi saxlamaq lazımdır.

Biz mətnin nüsxələrini onun nəhəng stolunun üstünə düzüb səhifəbəsəhifə nəzərdən keçirirdik. Sonra o, mənim yanımda məruzəni iki ya üç dəfə oxudu. Mən ona qulaq asırdım. Biz nəyi və neçə diqqətə çatdırmağı, hansı sözü vurğulamağı, neçə və harada pauza etməyi dəqiqləşdirirdik. Mən hətta ona deyirdim: "Bax, bu yerdə alqışlar olacaq, bu yerdə də. Lakin baxın, burada belə də ola bilər". Belə işlərdə mənim artıq müəyyən təcrübəm var idi.

Və bu andan etibarən biz onunla daim əməkdaşlıq etməyə başladıq".

* * *

General-polkovnik L.Q.İvaşovun müsahibəsindən:

"Andropovun ifadəsini xatırlayırsınız: "Gəlin araşdıraq, biz hansı cəmiyyətdə yaşayırıq?". Onun hakimiyyətinin elə birinci ili əmək məhsuldarlığının, ümumilikdə iqtisadiyyatın əhəmiyyətli artımı ilə əlamətdar oldu. Məsələn, mənim Siyasi Büro üzvünün katibliyinin müdiri kimi oxuduğum yazılarda deyilirdi ki, planlı sistem yaxşıdır, lakin sosializm yarışı xalq təsərrüfatının inkişafında artıq həlledici stimul deyildir, bazar münasibətlərinə keçmək lazımdır. Məhz Andropov 100 faizlik planlaşdırmadan bir qədər uzaqlaşmağı təklif etdi: müəssisələr üçün ehtiyat saxlamaq lazımdır"[*].

D.Volkoqonovun sözlərinə görə, "iqtisadiyyatçı və təsərrüfatçı olmayan Andropov, sənayedə və kənd təsərrüfatında hər hansı is-

lahat məsələsinə ehtiyatla yanaşırdı. Belə ki, o, müəssisələrin hüquqlarının genişlənməsi barədə MK-nın hazırladığı qərarla razılaşmadı, Baş katib bəyan etdi ki, "əvvəlcə bir neçə zavod və fabrikdə bunu sınaqdan keçirmək lazımdır". Siyasi Büro müəssisələrin müstəqilliyi və məsuliyyətinin artırılması üzrə ilkin iqtisadi eksperimentin aparılması ilə, təbii ki, razılaşdı. Ancaq eyni zamanda Andropov MK iqtisadçılarının əməyin təşkilinin briqada formasının inkişaf etdirilməsi təklifi ilə tez razılaşdı. Baş katib sovet iqtisadiyyatının səmərəliliyinin aşağı olmasını görürdü, başa düşürdü ki, istehsal prosesinə insanların şəxsi marağını qoşmaq lazımdır, lakin son dərəcə ehtiyatlı hərəkət edirdi. Ola bilsin, Baş katib anlayırdı ki, şəxsi mülkiyyəti və azad bazarı qəbul etməmək kimi sərt ideoloji mühakimələ əsaslanan sosialist iqtisadiyyatı, çətin ki, köklü islahatlara davam gətirə bilsin. Andropov qismən yaxşılaşdırmalara və yeniliklərə, eyni zamanda istehsalatda "qayda-qanun yaratmağa" üstünlük verirdi"[67].

G.Şahnazarov hələ 60-cı illərin ortalarında Andropovla olan söhbətini xatırlayır. Andropov ölkədə islahat aparmaq yolları ilə bağlı öz fikirlərini açıqlamışdı. Əgər Şahnazarova inansaq, Andropov təxminən belə demişdi:

"...İslahatlar bizə həm iqtisadiyyatda, həm də siyasətdə lazımdır. Burada əsas məsələ hansından başlamaqdır... Bir şeyə tam əminəm: dövlətə yalnız iqtisadiyyatı əməlli-başlı irəli apardıqdan sonra toxunmaq olar. İlk baxışda burada vəziyyət guya ki pis deyil: ilbəil artım var; neftlə, qazla özümüzü də təmin edirik, qardaş ölkələrə də veririk, ixrac üçün də qalır. Yəni qoy bundan sonra da belə davam etsin. Bilirsən, Siyasi Büroda əminlik yaranır ki, bütün təsərrüfat sistemimizi əməlli-başlı silkələmək lazımdır. Kənd təsərrüfatında vəziyyət xüsusilə yarıtmazdır: ölkəni dolandıra bilmirik, ildən-ilə daha çox buğda alırıq, bununla barışa bilmərik. Belə davam etsə, bir azdan ac qalarıq. Və burada günah kolxozlarda deyil, əsas səbəb istehsalın pis təşkili, marağın aşağı səviyyədə olmasıdır"[68].

N.Rıjkovun "On tələtümlü il" kitabından:

"83-də o, xarici iqtisadi məsələlərlə xüsusi maraqlanmağa başladı. Bu gün adama elə gəlir ki, o, səksəninci ilin lap axırlarını qabaqcadan görürdü.

– Konsessiyaların, müştərək müəssisələrin iş mexanizmini öyrənin və mənim üçün təfsilatı ilə yazın,– deyə məndən xahiş etdi.

Bu, o qədər də asan deyildi. O, illərdə bizim iqtisadi ədəbiyyatda, əslində, bu məsələləri ciddi, ətraflı başa salan bir şey yox idi. Dissertasiyaların içindən nəsə tapıldı, bəzi şeylər tərcümə olundu. Və bizdə MM-lərin (müştərək müəssisə) təzə-təzə yarandığı ildə mən artıq özümü bu qurumlar üzrə kifayət qədər savadlı mütəxəssis hesab edə bilərdim.

Andropov SSRİ-nin QİYŞ (Qarşılıqlı İqtiyadi Yardım Şurası) ölkələri ilə qarşılıqlı əlaqələrinə diqqət yetirirdi. Qarşılıqlı faydalı inteqrasiyadan danışırdı, lakin həmişə xəbərdarlıq edirdi: diplomatik siyasətbazlığı azaltmaq lazımdır, biz gərək ilk növbədə öz maraqlarımızı, məhz öz maraqlarımızı güdək. Yadımdadır, Çauşesku ilə söhbətdən sonra onunla dəhlizdə rastlaşdım: hirsli, əsəbi idi, özü-özünə oxşamırdı. Vəziyyətini başa saldı:

– Mənə nə etmək lazım gəldiyini diktə edəndə zəhləm gedir. Bu, birlik deyil, kobud soyğunçuluqdur...

Mən onun öz sosialist yönümlərini bəyan edən ölkələr üçün iqtisadiyyatımızdan əsassız olaraq vəsait ayrılmasına dözməyərək yaxın adamların əhatəsində dəfələrlə şikayətləndiyinin şahidi olmuşam.

– Biz Anqola, Mozambik, Efiopiya və digər bu kimi ölkələrdə nə itirmişik? Orada bizim hansı maraqlarımız var? Öz xalqının rifahına ziyan vurmaq hesabına buna getmək lazımdırmı?

O, qəti əmin idi ki, digər ölkələrə göstərilən yardım adlanan prosesin miqyasını tədricən azaltmaq lazımdır. Onun fikrincə, fövqəldövlət olan SSRİ öz qüdrəti, iqtisadiyyatının gücü ilə düşmənlərə sinə gərməyə, dünyada tarazlığı və sabitliyi qorumağa tarixən borcludur. Lakin bu vəzifəni yerinə yetirməkdən ötrü ilk növbədə ölkədaxili məsələlərlə məşğul olmaq lazımdır"[69].

V.Kevorkovun "Gizli kanal" kitabında maraqlı etiraf rast gəlirik. Sən demə, Y.Andropov şəxsi söhbətlərdə sərt metodlarla qısa vaxtda Türkiyəni avropalaşdırmağa qadir olmuş Atatürkün təcrübəsi barədə tez-tez danışırmış.

"70-ci illərdə Türkiyədə iqtisadi yüksəliş prosesinin kəskin sü-

rətləndiyi bir vaxtda o bu ölkənin siyasi təcrübəsinə xüsusilə teztez istinad edirdi. Özü də bu prosesdə onu daha çox Qərbi Almaniyanın müsbət rolu maraqlandırırdı"[70].

1983-cü il fevralın 1-də sakit tərzdə qiymətlər bazara uyğunlaşdırıldı: tələbat olan malların qiyməti bahalaşdırıldı, piştaxtalarda yatan, toz basmış malların qiyməti isə aşağı salındı. 1983-cü ilin aprelində MK-da keçirilən müşavirədə yardımçı sahələrin, şəxsi bağ və yardımçı təsərrüfatların dəstəklənməsi imkanları müzakirə olundu. İnhisarçı iqtisadiyyat şəraitində bu irəliləyişlər çox cüzi olsa da, dövlət düşüncəsinin istiqaməti baxımından kifayət qədər əlamətdardır.

"1982-ci ilin sonu – 1984-cü ilin əvvəllərində ölkədəki şəraiti və hadisələri yaddaşda canlandırarkən Andropovun fəaliyyətinin bir çox hallarda Brejnev rəhbərliyinin son illərindən – çürümə və marazm dövründən kəskin surətdə fərqləndiyini söyləməmək çətindir. Boşboğazlığa və lovğalığa, sözçülüyə və ətalətə son qoyulmuşdu. Andropovun "Kommunist" (1983, № 3) jurnalındakı məqaləsi geniş əks-səda doğurmuşdu. Sadəlik, işgüzar münasibət cəmiyyətdə rəğbətlə qarşılanırdı. İnsanlar görürdülər: həyatı yeniləşdirmək zərurətindən irəli gələn nəsə təzə bir şey özünə yol açırdı.

Ölkənin ictimai-siyasi inkişafının bütün dramatizmini özündə əks etdirən yeni Baş katibin şəxsiyyəti eyni zamanda həm də təzadlı idi. Andropov vaxtı yetişmiş iqtisadi və sosial problemlərin kəskinliyini hiss edirdi. Xalq təsərrüfatının idarə olunması sahəsində biliklərə və praktik təcrübəyə malik olmayan Baş katib, hətta sırf icbari üsullarla da iqtisadi idarəetməni islahat aparmağa məcbur edirdi. Məsələn, tam təsərrüfat hesabının tətbiqi ilə bağlı, o vaxtın dili ilə desək, irimiqyaslı eksperimentin keçirilməsi bu qəbildən idi. O, daxilən hiss edirdi: iqtisadi islahatlarsız keçinmək mümkün olmayacaq"[71].

Tarixçi R.Medvedevin fikrincə, Y.Andropov artıq 80-ci illərin əvvəllərində daha dərin islahatların zəruriliyini başa düşürdü, lakin onların istiqamət və metodlarını kifayət qədər aydın təsəvvür etmirdi. Ona görə də o öz ətrafında iqtisadi inkişafın yeni yollarını araşdıran bir növ qərargah formalaşdırmağa başladı.

Sov.İKP MK-nın sabiq katibi N.Rıjkov bunu belə xatırlayır:

"Mən MK-ya gələndən təxminən iki həftə sonra Andropov məni, Qorbaçovu, Dolgixi öz yanına çağırıb dedi: "İslahatlar barədə çox danışılır. Bəs nədə islahat aparaq? Hara getməli? Nikolay İvanoviç, siz vəzifənizə görə iqtisadiyyat üzrə katibsiniz. Qorbaçov, siz də qoşulursunuz, kənd təsərrüfatını aparırsınız, bir də yüngül sənayeni. Sizdə isə, Dolgix, ağır sənayedir. Rəhbərlik etməkdə davam edin, lakin səylərinizi birləşdirin və ölkəni hara aparmaq lazım olduğu haqda konsepsiya hazırlayın". Və biz işə başladıq. Silsilə müşavirələr keçirdik. Az qala konveyer kimi. Bu gün ağır sənaye direktorlarını çağırırdıq, sabah yüngül, birigün təchizatçıları, daha sonra maliyyəçiləri. Və hər birindən tələb edirdik ki, bizə təkliflər, təhlillər və s. təqdim etsinlər. Çox zəngin material topladıq. Və Andropova hansı istiqamətdə getmək lazım olduğu barədə məlumat verdik. O dedi: "Bunlar hamısı yaxşıdır, lakin gəlin birdənbirə ölkə miqyasında riskə getməyək. Eksperiment keçirək". O zaman biz irimiqyaslı iqtisadi eksperimentin keçirilməsi barədə qərar hazırladıq. Məhz bununla bağlı bir çox işlərlə Heydər Əliyev məşğul olurdu.

– Bəs nə eksperiment idi?

– 5 nazirlik seçdik və həmin prinsipial müddəalar üzrə müəssisələrə müəyyən sərbəstlik verdik. Bu, irəliyə doğru addım idi, lakin Andropov dedi: "Gəlin gözləyək, əgər hər şey yaxşı getsə, davam edərik, pis olsa, düzəlişlər aparmaq lazımdır".

– Yeqor Liqaçov deyirdi ki, yenidənqurmanın əsl müəllifi Andropov olub, Qorbaçov isə artıq onun ölümündən sonra Andropovun yığdığı komanda ilə – bu sırada o, sizin də adınızı çəkir – onun təşəbbüslərini həyata keçirmək imkanı qazanıb. Heydər Əliyev də yada salırdı ki, sonradan Qorbaçovun etmək istədiyi və etdiyi bir çox şeylər, bəlkə Andropovun özü tərəfindən olmasa da, onun sağlığında düşünülmüşdü.

– Sizə deyim ki, onlar tamamilə doğru buyururlar. Məsələ ondadır ki, çoxları sadəcə olaraq həqiqətdə nə baş verdiyini bilmirdilər. Gələcək iqtisadi islahatlara hazırlıq gedirdi. Axı partiyada islahat barədə məsələ yox idi, dövlətçilikdə islahat barədə məsələ yox idi, söhbət ölkənin sosial-iqtisadi inkişafından gedirdi.

Üç il biz bunun üzərində çalışdıq, bütün alimləri işə cəlb etdik... Onlar, bugünki akademiklər, o vaxt elmlər doktorları idilər, biz onları dəvət edirdik. Həmin o Abalkini, Sitoryanı, Şatalini, Oleq Boqomolovu, Qavriil Popovu. Başqa adlar da çəkmək olar. Üç il ərzində çox şeylər hazırlandı. Sonradan Andropov dedi: "Yaxşı, siz orada işləyirsiniz, adamları narahat edirsiniz, elə isə deyin, kağızda göstərin, ölkə hara gedəcək? Konsepsiya, proqram təqdim edin". Və biz onu işləyib hazırladıq. Bu işi Andropov üç nəfərə – mənə, Qorbaçova və Dolgixə həvalə etdi. Tixonovu qoşdular, o isə öz birinci müavini Əliyevi. Yadımda deyil, biz "Ölkənin perspektivə sosial-iqtisadi inkişaf konsepsiyası"nı neçə səhifədən ibarət yazdıq. Biz bu sənədin üzərində bir, ya iki ay çox ciddi çalışdıq".

Andropovun özü də ciddi xəstə olmasına baxmayaraq, Konsepsiyanın üzərində çalışdı. Tarixçi D.Volkoqonovun sözlərinə görə, "Baş katib elit xəstəxanadan bir-birinin ardınca Kremlə, Köhnə meydana, MK-ya məktublar göndərir, sanki zəka və iradəsinin son həmlələri ilə bürokratiya və doqmatizm içində batıb qalmış strukturları dövlətin və cəmiyyətin aktual problemlərinin həllinə yönəltmək cəhdində bulunurdu". 1983-cü ilin Oktyabr təntənələrindən dərhal sonra Baş katibdən yeni bir kağız gəldi – "Müəssisələrin müstəqillik və məsuliyyətinin genişləndirilməsi üzrə eksperimentin keçirilməsi haqqında".

Əlbəttə, Y.Andropov hakimiyyətdə təəssüf ediləcək dərəcədə az oldu: bir ildən bir qədər çox. Lakin onun ölkəyə rəhbərlik etdiyi müddətin təhlili göstərir ki, ölkədə intizamın və qayda-qanunun yaradılması iqtisadiyyatda bəzi neqativ proseslərin qarşısını almağa, bəzi göstəricilərə görə isə keçənilki səviyyəni ötməyə imkan verdi. Belə ki, "ölkə əvvəlki ildən 4 faiz çox sənaye məhsulu istehsal etdi, əmək məhsuldarlığı 3,5 faiz artdı. Bununla yanaşı, istehlak mallarının istehsalı istehsal vasitələrinin istehsalından daha sürətlə artırdı (3,9 faizə qarşı 4,3). Polad və prokat istehsalında hələ 1979–1980-ci illərdə müşahidə olunan gerilik aradan qaldırıldı. Yüklərin daşınması artdı, dəmiryol nəqliyyatı vasitələrindən istifadə yaxşılaşdırıldı... 1983-cü ildə, cəmi bir il ərzində işin yaxşılaşdırılması və itkilərin azaldılması hesabına sənaye üsulu ilə ət istehsalı 10 faiz, heyvan yağı istehsalı 13 faiz, süd məhsulları istehsalı 5 faiz artırıldı. Bitki yağı, kolbasa və təbii çay istehsalında da nəzərə çarpacaq irəliləyişlər müşahidə olundu. Nəticədə, dövlət və kooperativ mal dövriyyəsinin həcmi 8 milyard manat artdı. Əhalinin əmanət kassalarına qoyduğu vəsait 12 milyard manat çoxaldı"[2].

Andropovun 14 ay hakimiyyətdə olmasını akademik G.Arbatov belə səciyyələndirir:

"Ölkə gördü ki, birincisi, onu normal, inam doğuran, hətta cazibədarlıqdan uzaq olmayan adam idarə edə bilər.

İkincisi, Andropov artıq ilk çıxışlarında dəyişikliklər olacağına – korrupsiya, ümumi hərc-mərcliklə mübarizə aparacağına söz verdi, ölkəni dirçəltmək, çətinlikləri aradan qaldırmaq və problemləri həll etmək məqsədi qoydu (o bütün bunlar haqqında bizim yadırğamış olduğumuz açıqlıqla danışmağa başladı).

Üçüncüsü, insanlar real işləri də gördülər: bu addımlar daha əhəmiyyətli dəyişikliklərin müjdəçisi kimi qarşılandı. Xüsusilə çirkin adamlar vəzifələrindən azad edildilər (o cümlədən Medunov və Şolokov), rüşvətxorluğa və dövlət malını mənimsəyənlərə qarşı mübarizə gücləndi, korrupsiya ilə mübarizə aparmaq, qayda-qanun yaratmaq, intizamı gücləndirmək üçün iş aparmağa başladılar...

Bütün bunlar elə ilk aylardan, hətta həftələrdən Andropovun yüksək populyarlığını təmin etdi. Cəmiyyətin bütün təbəqələri ondan çox şey gözləyirdi: fəhlələr də, kolxozçular da, ziyalılar da...

Əminəm ki, o, ölkənin nəinki Stalin dövründəki, hətta Brejnev vaxtındakı vəziyyətinin də normal olmadığını, iqtisadiyyatdan başlayaraq çox şeyin dəyişilməli olduğunu görürdü. Lakin burada onun digər, düşünürəm ki, vaxtı gələndə özünü göstərə biləcək başqa zəif cəhəti gizlənmişdi. Andropov iqtisadi problemlərə heç vaxt maraq göstərmirdi, qayda-qanunun, nizam-intizamın gücləndirilməsinin, maddi və mənəvi stimulların rolunun yüksəldilməsinin zəruriliyi anlayışlarından çox da uzağa getməyərək bu sahədə kifayət qədər ənənəvi düşüncə tərzinə malik idi...

O ki qaldı daxili məsələlərə, mənə elə gəlir ki, hər halda, Andropovun sosial-siyasi sahədə ciddi problemlərin həll edilməsinə nail olmaq niyyəti var idi. Burada o özünü iqtisadi sahədə olduğundan daha inamlı hiss edirdi. Söhbətlərini əsas götürsək (sonradan bu

barədə digər sübutlar da meydana çıxdı), o, məsələn, demokratiyanın inkişafını zəruri hesab edirdi... Onu ölkədə millətlərarası münasibətlərin durumu da narahat edirdi. Görünür, hələ DTK-da işlədiyi zaman o bu problemin nə qədər təhlükəli olduğunu digərlərindən yaxşı bilirdi. Andropov həmçinin ziyalılarla rəhbərliyin münasibətlərini yaxşılaşdırmağı, inamı bərpa etməyi və qarşılıqlı hörmət zəmnində əməkdaşlıq qurmağı zəruri sayırdı. Lakin bu planlar hələ götür-qoy edilirdi"[71].

Bu isə İvan Laptevin fikridir:

"Ümumiyyətlə isə, düşünürəm ki, bizim inqilab və islahatlar bir qədər səngiyəndə tarixçilər qısa və birmənalı olmayan Andropov hakimiyyəti dövrünə yenidən qiymət verməli olacaqlar. Onun raket məsələsi, məşhur SS-20-lərlə bağlı beynəlxalq danışıqlarda kəskin, sərt, deyəsən, hətta meydan oxuyan siyasətinin motivləri hələ də aydın deyildir. Korrupsiyaya qarşı yuxarıdan (!) qəti mübarizəyə başlamaq cəhdi haqqında da eyni sözləri demək olar. Əfsus ki, bu məsələ ilə bağlı hazırlanmış bir çox materiallar arxivlərdə qaldı. O, dərhal durğunluq zamanı cəmiyyətin bütün təbəqələrinə sirayət etmiş misilsiz ətalətin kökünü kəsmək üçün hansısa yollar aramağa başladı. Həmvətənlərimizin indiyədək həsrətində olduqları qaydaqanunun yaradılmasına o, sadə bir şeydən – işə normal münasibət bəsləmək tələbindən başladı.

Lakin digər bir məsələ daha mühüm görünür. Hesab edirəm ki, Andropov ictimai münasibətlərin milli-etnik davranış adlanan qatında tektonik titrəyişləri hamıdan əvvəl hiss etdi. Artıq ölüm yatağında ikən o, Sov.İKP MK-nın Plenumunu hazırlayırdı və orada partiya və hökumətin diqqətini müasir milli siyasətin müəyyən edilməsinə yönəltmək niyyətində idi. Ona həmin Plenumda çıxış etmək qismət olmadı, Andropovun nitqini özü olmadan oxudular və nitqdən bəzi şeylər yoxa çıxdı, bəzi məqamlar isə yumşaldıldı. Məsələn, mən bilirəm ki (çünki müvafiq sənədləri görmüşəm), Andropov özü üçün Volqaboyu almanları problemini müəyyən etmişdi və əgər bir-iki il də yaşasaydı, Rusiyanın xəritəsində yeni muxtariyyət yarana bilərdi"[72].

Y.Andropovun DTK üzrə silahdaşı Vladimir Kryuçkov beşinci Baş katibin portretinə işıqlı boyalar gətirir:

"Son dəqiqələrinə qədər Yuri Andropov, bu cəsarətli insan, iş haqqında düşünürdü, öz yoldaşlarından tam qüvvələrini sərf etməyi, düzgünlük və prinsipiallıq, yeni çıxış yolları və fəaliyyət planları tələb edirdi. O, hərarətlə cəmiyyətin sağlamlaşdırılmasına, korrupsiya ilə barışmaz mübarizəyə çağırırdı, qanun qarşısında hamının və hər kəsin bərabər məsuliyyət daşımasının tərəfdarı idi. Bununla bağlı Yuri Vladimiroviç partiyaya böyük ümidlər bəsləyirdi, ona inanırdı, başa düşürdü ki, partiyanın nəhəng potensial imkanlarından lazımi dərəcədə istifadə olunmayıb. Xarici məsələlərdə o bir qaydaya həmişə sadiq idi: heç bir zaman vətənin maraqlarını ayağa verməmək. Sovet İttifaqının qüdrətinin rəhnini xalqımızın hərbi, iqtisadi və mənəvi gücündə görürdü"[73].

Eyni zamanda, SSRİ DTK əks-kəşfiyyat idarəsinin keçmiş rəisi V.Kevorkovun fikrinə görə, "demokratlar"ın sonradan Andropova verdikləri qiymətlərə baxmayaraq, o, qızğın silahlanmanın tərəfdarı deyildi. Əksinə, o, "qarşıdurmanı və sürətlə silahlanmanı hərbi-sənaye kompleksinə məxsus "kazinolarda qumar oyununa" bənzədirdi: "Son nəticədə kazino sahibindən başqa, hamı uduzur". Çıxış yolunu o, Şərq və Qərbin aparıcı ölkələrinin liderləri arasında inamsızlığı aradan qaldırmaqda görürdü. Nə qədər paradoksal olsa da, heç kəsə inanmayan Andropov ən böyük ümidlərini onların arasında etibarlı münasibətlərin qurulmasına bağlayırdı"[76].

Əbəs yerə deyil ki, Y.Andropovun təşəbbüsü ilə 1969-cu ildə SSRİ və AFR rəhbərliyi arasında birbaşa rabitə kanalı təşkil edilmişdi, rabitəçi rolunu isə həmin o general-mayor V.Kevorkov yerinə yetirirdi.

Rusiya politoloqu A.Şubinin fikrincə, "əgər Andropov daha qətiyyətli olsaydı və ya daha çox yaşasaydı, hər necə olsa, sistemdə nəyisə dəyişdirmək zərurəti ilə qarşılaşacaq. Qorbaçovun hərəkət etdiyi istiqamətdə fəaliyyət göstərəcəkdi... Hər halda, Qorbaçov sürətləndirməsi tamamilə Andropov dövrünün ideyalarından doğmuşdur və onun komandası tərəfindən həyata keçirilmişdir. Qorbaçov komandasının icrasında Andropov sürətləndirməsi tam çıxılmaz vəziyyətə düşəndə Yenidənqurma başlandı. Bu mənada Qorbaçov nə dərəcədə Yenidənqurmanın atasıdırsa, Andropov bir o dərəcədə ba basıdır"[77].

"XII beşilliyi nəqliyyat beşilliyi etməli!"

Y.Andropov Sov.İKP MK noyabr (1982-ci il) Plenumundakı proqram nitqində partiya qarşısında üç əsas vəzifə qoydu. Bu vəzifələri yerinə yetirmək üçün bütün qüvvələr səfərbər edilməli idi. Birinci, XII beşilliyin tapşırıqları sözsüz yerinə yetirilməli; ikinci, partiya intizamı və ölkədə qayda-qanun gücləndirilməli idi. Üçüncü isə, nəqliyyat problemi idi.

"– Nəqliyyat, – Yuri Vladimiroviç dedi, – bütün xalq təsərrüfatı kompleksi iqtisadiyyatının əsasıdır. Nəqliyyat strategiyamızın bünövrəsidir. Və, nəhayət, üçüncü məqam. Nəqliyyatın köməyilə çoxmillətli ölkəmizin birləşməsi baş verir və bununla bağlı nəqliyyata çox böyük əhəmiyyət vermək lazımdır, təkcə iqtisadi yox, həm də siyasi, strateji və ümummilli əhəmiyyət.

– Yəni uzun illərdən bəri ilk dəfə olaraq dövlətin ali rəhbəri öz proqram çıxışında nəqliyyatın bütün xalq təsərrüfatı üçün əhəmiyyətini bu qədər ətraflı qiymətləndirmişdi.

– Və demək olar ki, hamı bununla sözsüz razı idi. O vaxt dəmiryol nəqliyyatı həm ölkə daxilində, həm də QİYŞ çərçivəsində daşınma həcminin öhdəsindən gələ bilmirdi. Bu ölkələr Polşa, Almaniya, Çexoslovakiya, Macarıstan, Rumıniya, Bolqarıstan idi. Hələ Çin, Vyetnam, Koreya... Bu, ölkə iqtisadiyyatının inkişafını ləngidir, SSRİ-nin müdafiə qabiliyyətinə xələl gətirirdi. Bütün bunlar nəqliyyata lazımi diqqət göstərilmədiyindən irəli gəlirdi.

Çoxlarının axıra qədər başa düşə bilmədikləri belə mühüm bir iş üçün də Heydər Əliyeviç Əliyev lazım olmuşdu".

(Nikolay Konarevlə söhbətdən)

H.Əliyevin Moskvada işlədiyi ilk ayların xronikasını vərəqləyərkən, onun onsuz da sıx iş qrafikində nəqliyyat məsələlərinə necə böyük yer ayrıldığına əmin olursan. **Beləliklə:**

***1982-ci il dekabrın 13-də** SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Əliyevin iştirakı ilə SSRİ Yollar Nazirliyi kollegiyasının dəmir yolları, metropolitenlər, dəmiryol nəqliyyatı sənayesi birliklərı rəislərinin, ETİ direktorları və b. iştirakı ilə geniş iclası oldu.*

Sov.İKP MK noyabr (1982-ci il) Plenumunun qərarlarının dəmiryol nəqliyyatında yerinə yetirilməsi barədə məruzə ilə yollar naziri N.S.Konarev çıxış etdi. Kollegiya iclasında dəmiryol nəqliyyatında vəziyyət təhlil edildi, Plenumda göstərilən ciddi nöqsanlar araşdırıldı, onların tez bir zamanda aradan qaldırılması üçün zəruri tədbirlər nəzərdə tutuldu".

***1983-cü il yanvarın 18-də** Dəniz Donanması Nazirliyi kollegiyasının və dəniz və çay nəqliyyatı fəhlələri həmkarlar ittifaqı MK Rəyasət Heyətinin geniş iclası oldu. İclasda H.Əliyev çıxış etdi. O, dəniz donanması qarşısında elmi-texniki tərəqqini daha da inkişaf etdirmək, qabaqcıl nəqliyyat-texnologiya sistemlərinin tətbiqinə nail olmaq, bir-birinə bağlı nəqliyyat növləri arasında qarşılıqlı əlaqələri təkmilləşdirmək vəzifələri qoydu.*

***1983-cü il yanvarın 28-də** H.Əliyev Nəqliyyat Tikintisi Nazirliyi kollegiyasının dəmiryol nəqliyyatı və nəqliyyat tikintisi fəhlələri həmkarlar ittifaqı, avtomobil nəqliyyatı və şose yolları fəhlələri həmkarlar ittifaqı MK rəyasət heyətləri ilə birgə keçirilən geniş iclasında çıxış etdi.*

***1983-cü il fevralın 8-də** Moskvada H.Əliyevin sədrliyi ilə RSFSR Çay Donanması Nazirliyi kollegiyasının və dəniz və çay nəqliyyatı fəhlələri həmkarlar ittifaqı MK Rəyasət Heyətinin geniş iclası oldu.*

Çay nəqliyyatında işlərin vəziyyəti təhlil olundu. Əsas diqqət həll olunmamış problemlərə, sahənin işinin səmərəliliyinin artırılmasına, yüklərin əlavə olaraq dəmir yolundan çay nəqliyyatına keçirilməsinə, limanlarda gəmi və yüklərin emalolunma vaxtının qısaldılmasına, daşımaların keyfiyyətinin artırılmasına, əmək intizamının gücləndirilməsinə yönəldilmişdi.

***1983-cü il mayın 24-də** H.Əliyev SSRİ Yollar Nazirliyinin kollegiyasının və dəmiryol nəqliyyatı və nəqliyyat tikintisi fəhlələr həmkarlar ittifaqı MK Rəyasət Heyətinin geniş iclasında iştirak etdi. Kollegiyada dəmiryol nəqliyyatında sərnişin daşımalarının təşkilinin yaxşılaşdırılması tədbirləri müzakirə olundu. H.Əliyev bilet satışının təşkilindəki qüsurları, vaqonların qeyri-qənaətbəxş hazırlanmasını, yol boyu vağzallarda sərnişinlərə göstərilən xidməti tənqid etdi. Sərnişin daşımalarının yaxşılaşdırılması, elmi-texniki nailiyyə*

lərin tətbiqi, Yollar Nazirliyində bu sahə ilə məşğul olan işçilərin məsuliyyətinin artırılması üzrə kompleks tədbirlər nəzərdə tutuldu.

Moskvada öz Kreml "beşilliyi" müddətində Heydər Əliyevin, həqiqətən, yaxınlaşdığı sayı çox da olmayan adamlardan biri təxminən H.Əliyevlə eyni vaxtda SSRİ yollar naziri təyin edilmiş Nikolay Semyonoviç Konarev idi. Kitab üzərində işləyərkən mənə N.Konarevlə görüşmək və xatirəsinə dərin hörmətlə yanaşdığı insanla birgə çalışdığı illər barədə söhbət etmək müyəssər oldu. Görüşümüz 2004-cü ilin əvvəlində Moskvanın Mərkəzi Klinik Xəstəxanasında baş tutdu. Nikolay Semyonoviç o vaxt artıq ağır xəstə idi, lakin unikal xatirələrini mənimlə bölüşmək üçün vaxt və qüvvə tapdı. Bu xatirələr 80-ci illərin əvvəli üçün nəqliyyatda yaranmış vəziyyəti, həm də Heydər Əliyevin rəhbərliyi altında həlli ilə məşğul olduğu bir sıra problemləri çox gözəl əks etdirir.

Nikolay Konarevin xatirələrindən:

"Noyabrın 29-da (1982-ci il–*E.A.*) gəlirəm işə, o vaxt mən nazirin birinci müavini və eyni zamanda Yollar Nazirliyinin Baş İstismar İdarəsinin rəisi idim. Mənə Nikolay Aleksandroviç Tixonov zəng vurur. Adətən günün bu vaxtı o mənə zəng vururdu və məsələn, soruşurdu: "Niyə dünən 100 vaqon daş kömür yüklənib göndərilməyib?". Ölkə üzrə isə ümumilikdə 30 min vaqon yüklənirdi. Təkcə Donbas 11 min, Kuzbas, indiki Kemerovo, haradasa 6–7 min, Ekibastuz 4 min vaqon yükləyirdi (bu Qazaxıstandır, açıq istehsal üsulu). Təxminən 3–3,5 min Karaqanda yükləyirdi. 1200–1300 hər gün Vorkuta verirdi. Rəqəmləri cəmləyəndə təqribən 30 min alınır. Əgər tam yükləyə bilmədinsə, sabahı gün səni məhşər ayağına çəkirdilər. Mən artıq buna alışmışdım. Lakin bu dəfə Tixonov mənə başqa sual verdi: "Saat 10-da mənim yanıma gələ bilərsinizmi?"-"Əlbəttə",-cavab verirəm, özüm isə təəccüblənirəm: nə olub görəsən, tamam başqa tonla danışır. Mən həmişə Nazirlər Soveti üçün hazırlanan məlumatları götürüb, yola düşdüm. Gəlirəm Kremlə. Tixonov ikinci mərtəbədə otururdu, Stalinin kabinetində. Tixonovdan qabaq orada Kosıgin əyləşirdi.

Mixail Sergeyeviç Smirtyukov-işlər müdiri məni kabinetə dəvət

edir. Tixonov stolun arxasından durub əlini uzadır. "Biz qərara gəlmişik ki, sizi yollar naziri təyin edək". Mən bura öz şparqalkalarımla, arayışlarımla gəlmişdim, elə bilirdim danlayacaqlar, çünki bundan qabaq daş kömürün yüklənməsi kəsirdə qalmışdı. Mən təəccüblə ona baxdım və cavab verdim: "Nikolay Aleksandroviç, əgər siz Pavlovskini çıxarırsınızsa, mən onun birinci müaviniyəm. Məncə, burada məntiq yoxdur". – "Biz nə etdiyimizi bilirik. İndi sizdən bir şey tələb olunur: deyəsiniz ki, razısınız, yoxsa yox, artıq sözlərə ehtiyac yoxdur". – "Ciddi fikirləşmək lazımdır". – "Fikirləşməyə vaxt yoxdur. İndi cavab verin: hə, ya yox". – "Əgər siz təkid edirsinizsə, mən razıyam". Daxilən mən artıq buna hazır idım, çünki İvan Qriqoryeviç Pavlovski və onun ətrafının nazirlikdə tətbiq etdikləri üsullar məni qane etmirdi. Bu artıq kriminalın, oğurluğun, qohumbazlığın rüşeymləri idi. Yeri gəlmişkən. Pavlovskinin əsl familiyası Bronşteyn idi. Trotski kimi.

Bir sözlə, mən Tixonovun təklifi ilə razılaşdım. O, stola yaxınlaşır və dəstəyi götürür: "Yuri Vladimiroviç, yoldaş Konarev mənim yanımdadır. O razıdır". Andropov komanda verir: "Gəlin". Tixonovla bir yerdə maşına otururuq, gəlirik Staraya ploşad meydanına, qalxırıq Andropovun kabinetinə. Orada onun bir köməkçisi də var idi, Arkadi Volski, alçağın biri idi. Mən ona sonra rast gəldim və sözümü dedim. "Arkadi, – dedim, – sən ləyaqətsiz adamsan".

Deməli belə, keçirik içəri, Andropov oturub, bütün MK katibləri. Volski də oradadır. "Təklif var ki, – Andropov deyir, – yollar naziri vəzifəsinə Konarev yoldaşın namizədliyinə baxılsın. Nə kimi fikirlər var?" Tixonov dillənir: "Mən, Yuri Vladimiroviç, öz müavinlərimlə söhbət etmişəm, yoldaşlar hesab edir ki, layiqli namizəddir". – "Bəlkə kimsə etiraz edir?" – Andropov soruşur. Susurlar. "Bir halda ki, etiraz edən yoxdur, təsdiq olunur. Lakin bundan əvvəl mən sizi, yoldaş Konarev, dinləmək istəyərdim, sizin bizə hansı suallarınız var?" Mən deyirəm: "Yuri Vladimiroviç, əvvəla, etibar göstərdiyinizə görə sizə təşəkkür edirəm. İkincisi, əgər açıq danışmaq mümkündürsə..." – "Yalnız belə lazımdır. Bundan sonra da yalnız belə". Mən deyirəm: "Əgər gələcəkdə də dəmir yolunu münasibət belə olacaqsa, onda biz 1990-cı il üçün – söhbət isə 1982-ci ilin sonunda olmuşdu – bütün xalq təsərrüfatı kompleksinin

inkişafını ləngidəcəyik". – "Niyə belə hesab edirsiniz?" Cavab verirəm: "1970-ci ildə biz 80 min vaqon almışıq. 1980-ci ildə, 10 ildə daşımaların həcmi 26 faiz artanda isə biz artıq 70 min alırıq. Yəni 10 min vaqon az. Bu il, 1982-ci ildə isə biz ən yaxşı halda 68 min alacağıq. Mən hələ yalnız vaqonlar barədə danışıram. Bəs lokomotivləri götürsək... Lokomotivlər köhnəlir axı". – "Yaxşı, aydındır, daha hansı problemlər var?" – "Nəqliyyat vasitələrinin indiki vəziyyətinə olan diqqətsizlik. Bütün nazirliklərin, respublikaların vaqona qarşı istifadəçi münasibəti. Buna heç bir iqtisadiyyat dözə bilməz". – "Belə". – "Üçüncüsü isə – elmi-texniki tərəqqidir. Biz elektrikləşdirmə sahəsində geri qalırıq". Misallar çəkirəm. Andropov yan tərəfə dönür: "Yoldaş Baybakov, XII beşilliyi nəqliyyat beşilliyi edin". XII beşilliyə isə hələ 3 il var! Andropov təkrar edir: "XII beşilliyi nəqliyyat beşilliyi edin! Yoldaş Tixonov, yoldaş Simonov (Simonov MK-da nəqliyyat və rabitə şöbəsinin müdiri idi), gedin yeni naziri təqdim edin".

Həmin vaxtlarda Heydər Əliyevi hökumət sədrinin birinci müavini təyin etdilər. Bu, dekabrın 12-də olmuşdu. Onu təyin edən zaman məni artıq nazir kimi çağırmışdılar. Yuri Vladimiroviç elan etdi: "Yoldaş Əliyev, dəmiryol nəqliyyatı da sizə tapşırılır". Hamı təəccüb qaldı, "niyə axı o?". O, DTK-da işləmişdi, sonra partiya orqanlarında, bu isə tamam başqa iş idi. Belə qərara gəldik ki, Andropovun yüz faiz inandığı adam təyin olunub.

– O yalnız dəmiryol nəqliyyatını ona tapşırmışdı, yoxsa bütün nəqliyyat növlərini?

– Bütün növ nəqliyyatı: dəniz, çay, aviasiya, avtomobil, dəmiryol. Özü də təkcə bu yox. Andropov ona meşəni tapşırmışdı, bütün meşə təsərrüfatını, həmçinin rabitəni, sosial sahəni, ticarəti və s. Çox böyük səlahiyyətlərdir!

Ertəsi gün Heydər Əliyeviç zəng vurdu: "Nikolay Semyonoviç, mənim yanıma gələ bilərsiniz?". Təbii ki, gəldim. Dörd saat yarım danışdıq. Mən onun səbrinə, söhbəti aparmaq bacarığına, xalq təsərrüfatında nəqliyyatın rolu barədə fikirlərinə heyran qaldım. "Mən, – deyir, – dəmiryolçuyam. Atam Naxçıvanda "vodokaçkada" növbətçi olub. *(Nikolay Semyonoviç məni "maarifləndirmək" üçün tarixə ekskurs edir: "O illərdə su tenderə (parovozun su saxlanılan arxa hissəsi–E.A.) yığılırdı, sonra buxara çevrilirdi, dizellər çıxana qədər parovozlar belə hərəkət edirdi. Bunun üçün xüsusi olaraq bütün ölkədə su güllələri tikirdilər. Onlar bir-birindən azı 70 kilometr məsafədə yerləşirdi. Çünki parovoz 70 kilometr gedəndən sonra tenderə yığılan bütün su buxarlanırdı. Yenidən doldurur və yola davam edirdilər").* Atam tez-tez deyərdi: "Mən su vermərəm, parovozlar da getməz". Odur ki, dəmiryol təsərrüfatını mən onun-bunun sözündən bilmirəm".

– Beləliklə, sizin ilk görüşünüz dörd saat yarım çəkdi. Söhbət nədən gedirdi?

– Dəmiryolunda olan vəziyyətdən. Mənim axı üstünlüyüm var idi, əvvəlcə on il Xarkovda Cənub dəmir yolu rəisinin müavini olmuşam, sonra dörd il elə orada yol rəisi, daha sonra dörd il nazir müavini və altı il birinci müavin. Mən, təbii ki, bütün şəbəkəni və bütün problemləri bilirdim. O, dərhal başa düşdü ki, dəmiryol nəqliyyatında baş verənlər barədə bütün informasiyanı ala biləcəyi adam mənəm. Heydər Əliyeviç hər şeyin mahiyyətinə varırdı, çətinlikləri üzə çıxarırdı, səbəblərini öyrənirdi. Mən hiss edirdim ki, o, özünə etibarlı arxa, bel bağlamaq mümkün olan adam tapdığına necə sevinir".

O illərdə Kiyev Şəhər Partiya Komitəsində nəqliyyat şöbəsinin müdiri işləmiş Kiyev metropoliteninin keçmiş direktoru Nikolay Balatski H.Əliyevin keçirdiyi selektor müşavirələrini belə xatırlayır:

"Dəmiryolu ilə daşımalarda böyük çətinliklər var idi, xüsusilə də ilin axırında, hər bir müəssisənin illik planı yerinə yetirmək üçün yükün göndərilməsinə çalışdığı bir vaxtda.

Ən çətin anlarda bu çox gərgin qış daşımaları məsələlərinə şəxsən Heydər Əliyev özü rəhbərlik edirdi. Onun bütün ucsuz-bucaqsız ölkə boyu keçirdiyi selektor müşavirələri bir tərəfdən son dərəcə çətin şəraitdə mütəşəkkillik nümunəsi idi, nəticə etibarilə yüklərin yerinə çatdırılmasını təmin edirdi. Digər tərəfdən, gənc partiya və təsərrüfat işçiləri üçün mürəkkəb məsələlərin həllində yaxşı təşkilatçılıq, mütəşəkkillik məktəbi idi.

Heydər Əliyeviç tərəfindən heç bir kobudluğa, əsəbiliyə yol verilmədiyini qeyd etməyə bilmərəm. Yadıma gəlmir ki, kimi isə belə mürəkkəb vəziyyətlərdə işdən kənarlaşdırsınlar. Hər şey vəziy-

yətin dərindən öyrənilməsinə, icraçı kadrlara etibar göstərilməsinə və əlbəttə ki, ilk növbədə Heydər Əliyeviçin son dərəcə yüksək avtoritetinə əsaslanırdı"[7].

Nəqliyyat problemləri hər zaman sovet xalq təsərrüfatı kompleksinin "zəif bəndi" olaraq qalırdı. Ancaq mütəxəssislərin rəyinə görə, bu sahəyə H.Əliyevin kuratorluq etdiyi illərdə nəqliyyatda vəziyyət xeyli düzəlmişdi. Yalnız bir neçə misal:

1985-ci il noyabrın 16-da H.Əliyev Cənubi Ural dəmiryolu Kurqan qovşağının partiya hesabat-seçki konfransında iştirak etdi və ötən illərdə görülən işlərdən danışdı:

"Beşilliyin ilk iki ilində dəmiryol nəqliyyatında işlər qaydasında deyildi. Dəmir yolunun inkişafına xeyli sərmayə qoyulmasına baxmayaraq, göstəricilər ildən-ilə aşağı düşürdü.

1983–1984-cü illərdə sahənin işçiləri yükdaşımalar üzrə gerilәmələri aradan qaldıra bilmişlər. Lakin cari ilin birinci rübündə göstəricilər, təəssüf ki, yenidən aşağı enməyə başlamışdır. Əlbəttə, ötən qışın sərt şəraitini nəzərə almamaq olmaz. Dəmiryolçuların qarşısında vəzifə qoyulmuşdur – vəziyyəti qısa müddətdə düzəltmək.

Nəqliyyata göstərilən irimiqyaslı yardım, dəmiryolçu kollektivlərinin Sov.İKP MK aprel (1985-ci il) Plenumunun qərarlarının yerinə yetirilməsinə səfərbər edilməsi nəticəsində onların işində dönüş yaranmışdır. Oktyabrda yüklərin yola salınmasında olan borc tamamlanmış, on ay ərzində plandan əlavə 7,5 milyon ton xalq təsərrüfatı məhsulu daşınmışdır. Daşınmalarla məşğul olan işçilərin əmək məhsuldarlığı üzrə plan tapşırığı yerinə yetirilmişdir. Dəmiryolçuların gördüyü iş əsl əmək rəşadətidir".

Bu həm də hər gün, bəzən gecə yarısına qədər nəqliyyat məsələləri ilə məşğul olan, nəqliyyat nazirliyinin müəssisə və qovşaqlarına şəxsən baş çəkən, mütəxəssislərlə söhbətlər aparan, dəmiryolçulara kəskin problemləri vaxtında aradan qaldırmağa kömək edən Heydər Əliyevin şəxsi hünəri idi.

Həmin proqram çıxışında H.Əliyev dəmiryolçular qarşısında XII beşillikdə yerinə yetiriləsi perspektiv vəzifələr qoydu: daşıma prosesinin sürətləndirilməsi, bütün texniki vasitələr kompleksinin etibarlılığının artırılması, ağır və zəhmət tələb edən proseslərin mexanikləşdirilməsi və avtomatlaşdırılması, hesablayıcı texnikadan geniş istifadə, dəmiryol nəqliyyatının inkişafında olan qeyri-nisbiliyin aradan qaldırılması.

1986-cı il aprelin 18-də SSRİ Nazirlər Sovetinin iclası oldu. İclasda 1986-cı ilin birinci rübündə SSRİ-nin iqtisadi və sosial inkişafı Dövlət planının və SSRİ Dövlət büdcəsinin yerinə yetirilməsinin yekunları müzakirə olundu. İclasda plandan əlavə 35,7 milyon ton yük daşınmış dəmiryol nəqliyyatında işlərin yaxşılaşması, həmçinin on ikinci beşilliyin sosial proqramının uğurla həyata keçirilməsinə başlanması qeyd olundu (bunlar H.Əliyevin kuratorluq etdiyi sahələr idi).

1986-cı il oktyabrın 20-də SSRİ Nazirlər Sovetinin növbəti iclasında ilin 9 ayı ərzində xalq təsərrüfatında görülən işlərə yekun vuruldu. İclasda H.Əliyevin cavabdehlik daşıdığı sahələrin yaxşı göstəriciləri yenidən qeyd olundu. SİTA-nın hesabatından cəmi bir, lakin çox tutarlı sətir: "Yüklərin daşınması planı nəqliyyatın bütün növləri üzrə artıqlaması ilə yerinə yetirilmişdir".

Bu quru protokol ifadəsinin arxasında əlini nəhəng dövlətin nəqliyyat mexanizminin nəbzi üstündə saxlayan Heydər Əliyevin həqiqətən titanik zəhməti durur.

Nikolay Konarevlə söhbətdən:

"Çernobılda fəlakət baş verən zaman biz çox iş gördük, zonadan 350 min adam – uşaq, qadın, qoca çıxartdıq. Biz xüsusi olaraq Çernobıldan Donbasa, Krıma, Kubana hərəkət edən 33 sərnişin qatarı ayırmışdıq, adamları bu yerlərdən uzaqlara daşıyırdıq. Gecə-gündüz işləyirdik. Mən 16 dəfə ora gedib-gəlmişdim.

Sonra isə şəhərin və bütün zonanın bərpası haqqında məsələ qalxdı. Bunun üçün pul tapmaq lazım idi. Budur, Nazirlər Sovetinin iclası gedir. Yığıncağı Nikolay Rıjkov aparır. Solda Heydər Əliyeviç əyləşib. Pul yoxdur, lakin təkcə sarkofaqın tikilməsinə külli miqdarda vəsait tələb olunur. Ona görə də büdcədə dəyişiklik aparmaq, kimdən nə qədər götürməyi həll eləmək lazım idi. Bizə beşilliyə 9 milyard manat ayrılmışdı. Mən 13 milyard üçün çalışırdım, ancaq doqquz verdilər. Bu yerdə Dövlət Plan Komitəsi deyir ki, dəmiryol nəqliyyatından 2 milyard geri götürmək lazımdır. Onda mə-

nim Rıjkovla münaqişəm yarandı. Mən deyirəm: "Siz nə danışırsınız? Bu gün sizdə Çernobıldır, sabah isə dəmiryol nəqliyyatının problemləri ilə məşğul olacaqsınız". Rıjkov deyir: "Heydər Əliyeviç, biz kimi yetişdirmişik?". Heydər Əliyeviç bir qədər tutularaq cavab verir: "Necə yəni kimi yetişdirmişik? Nəqliyyat naziri yetişdirmişik". – "Bunu bilirəm. Eşidirsiniz nə deyir? O, vəziyyəti anlamır". Bu yerdə mən dözə bilmədim: "Nikolay İvanoviç, mən on altı dəfə orada olmuşam, vəziyyəti çox yaxşı başa düşürəm. Xalq təsərrüfatının o günlərdə məruz qaldığı ən böyük itki ilk növbədə nəqliyyatdır". Və mən yayda 33 səmişin qatarını daşınmalar üçün necə ayırdığımı danışdım. Bütün bunlar axı itkidir. "Mən sizdən heç olmaya bir manat istədim? – soruşuram. – Öz pullarımla keçindim. Ona görə də ilk zərbə nəqliyyata dəydi. Siz isə mənə görün nə deyirsiniz". Nəticədə onlar bizdən yalnız bir milyard götürdülər. O vaxt Heydər Əliyeviç çox incə çıxış etdi və Rıjkovun gözləmədiyi mövqedə durdu. Axı o başa düşürdü ki, nəqliyyatla belə rəftar etmək olmaz, o, Yuri Vladimiroviçin dediyini unutmamışdı: "On ikinci beşilliyi nəqliyyat beşilliyi edin". Sonra, düzdür, hər şeyi məhv etdilər".

SSRİ Nazirlər Soveti sədrinin birinci müavininin köməkçisi, öz şefinin xarici ölkələrin nəqliyyat nazirləri ilə görüşlərində tez-tez iştirak etmiş Vladimir Uxov qonaqların H.Əliyevin bu mürəkkəb sahədə geniş biliklərindən necə heyrətə gəldiklərindən danışdı:

"İsveç nəqliyyat nazirinin səfərini xüsusilə xatırlayıram. Onlar görüşəndə Heydər Əliyeviç maraqlandı ki, işləri necə gedir. Nazir ümumi şəkildə başa saldı. Sonra Heydər Əliyeviç bizdəki mənzərəni canlandırdı. Və nazir dedi: "Hörmətli cənab sədr müavini, mən belə suallara cavab verə bilmirəm, mən təəccüb edirəm ki, siz bunları haradan bilirsiniz. Mən nazirəm, üzvü olduğum partiya seçkilərdə qalib gəlmiş və məni nazir təyin etmişlər. Nəqliyyatla məşğul olmaq lazım gəlir, lakin məsələnin mahiyyətini mən bu cür nöqtəbənöqtə bilmirəm".

O təəccüblənirdi ki, Heydər Əliyeviç bizim İsveçlə münasibətlərimizin yalnız ümumi məsələlərindən deyil, ondan kənara çıxan problemlər ətrafında da söhbət apara bilir. Heydər Əliyeviç deyirdi: "Baxın, biz isveçlilərlə ticarət aparırıq, dəniz donanmamız filan-filan mallar daşıyır. Ancaq biz istəyərdik ki, sizin limanlar vasitəsilə daşımalar daha çox olsun". Yəni, konkret məsələlər qaldırmağa başlayırdı, rəqəmlər, statistik göstəricilər gətirirdi. Naziri bax, bu təəccübləndirirdi. Yaxud Heydər Əliyeviç deyə bilərdi: "Bizdə dəmir yolunun uzunluğu filan qədərdir, hər kilometr yola düşən gərginlik filan qədərdir..." İsveç diplomatı heyrətə gəlirdi ki, o bu qədər rəqəmi necə beynində saxlaya bilir?".

Yuri Sergeyeviç Suxin Sovet İttifaqında avtomobil nəqliyyatının görkəmli mütəxəssisi idi. O, yeddi il, 1983-cü ildən 1990-cı ilə qədər RSFSR Avtomobil Nazirliyinə rəhbərlik etmişdir (o vaxt İttifaq nazirliyi yox idi, hər müttəfiq respublikada yerli nazirliklər fəaliyyət göstərirdi, Rusiya nazirliyi aparıcı sayılırdı). Ondan əvvəl Əfqanıstan Demokratik Respublikası Baş nazirinin müşaviri qismində bu ölkədə dövlət nəqliyyat sistemini yaratmışdır.

H.Əliyev haqqında yazdığı kitabda Nikolay Zenkoviç Heydər Əliyevlə bir yerdə işlədiyi illər haqqında ona xeyli maraqlı şeylər danışmış Y.Suxinlə söhbətindən bir parçanı verir:

"Nazirlər Sovetində bizim yeni kuratorumuz haqqında mən Əfqanıstanda eşitdim. Deyirdilər ki, onun Moskvaya aparılmasının təşəbbüskarı Yuri Vladimiroviç Andropov olmuşdur. Bu, Əliyevin hörmətini qaldırırdı, çünki biz hamımız Andropovu yüksək qiymətləndirirdik. Əgər o, kimisə irəli çəkibsə, deməli buna layiqdir. Bizim aramızda söhbətlər gəzirdi ki, Əliyev SSRİ Nazirlər Sovetinin sədri olacaq. Onun böyük siyasi gələcəyinə təminat verən bir fakt da digər vəzifələrlə yanaşı, Sovet İttifaqının islam dünyası ölkələri ilə əlaqələrinə kuratorluq etməsi idi. O vaxt mən müsəlman ölkəsində işləyirdim və bilirəm ki, islam dünyasında Əliyevə çox yaxşı münasibət bəsləyirdilər.

...Əliyevlə çoxdan tanış idim. O, Azərbaycan KP MK-ya rəhbərlik etdiyi illərdə mən avtomobil nəqliyyatı nazirinin beynəlxalq daşımalar üzrə müavini işləyirdim. Bakıya tranzit təşkil etmək üçün gəlirdim. O vaxt MK-nın ikinci katibi Yuri Puqaçov idi. O, məni Heydər Əliyevin yanına apardı. Tanışlığımız belə baş tutdu. H.Əliyev məni çox mehriban qarşıladı. Yaxşı təsir bağışladı. Ucaboylu, qədd-qamətli. Kostyum əyninə kip otururdu. Qəşəng qalstuku nəzəri cəlb edirdi. Əliyev rus dilində yaxşı danışırdı, çoxlu aforizm

işlədirdi. Hiss olunurdu ki, o, yumoru, incə zarafatı sevir. Ürəkdən gülməyi var idi. Bizim tanışlığımızın, yeri gəlmişkən, qeyri-adi davamı oldu...

1983-cü ilin sentyabrı idi. Üç il Əfqanıstanda olandan sonra yenicə qayıdırdım ki, məni düz Çkalov aerodromundan MK-ya apardılar. Nəqliyyat şöbəsi müdirinin müavini İvan Petroviç Trofimov dedi ki, mən avtomobil nəqliyyatı naziri vəzifəsinə tövsiyə edilmişəm və MK-da müsahibədən sonra məni Kremldə Heydər Əliyeviçlə görüş gözləyir. Biz gələndən sonra o, diqqətlə məni süzüb dedi: "Siz axı Bakıda mənim yanımda olmusunuz. Tranzitlə bağlı..." Fövqəladə yaddaş idi! Heydər Əliyeviç bir çox qibtəedici xüsusiyyətlərə malik idi və onların arasında hamı onun qeyri-adi inkişaf etmiş, unikal yaddaşını qeyd edirdi. Mən də bunun şahidi oldum: Heydər Əliyeviç Bakıda avtomüəssisə tikilməsi barədə söhbət saldı. O vaxt, birinci görüşümüzdə də biz bu məsələni müzakirə etmişdik. "Bərələrlə bağlı məsələ nə yerdə qaldı?" – Əliyev məndən soruşdu. Aman Allah, bu da onun yadındadır! Məsələnin tarixçəsi belədir. Bakı ilə Krasnovodsk arasında işləmək üçün biz Yuqoslaviyadan beş bərə almışdıq. Krasnovodskda mən dayanacaq üçün dörd hektar torpaq ayırmışdım. Oradan Əfqanıstana və Hindistana gedə bilməyimiz üçün. Sovet–Əfqanıstan sərhədində yerləşən özbək şəhəri Termezdən Hindistana qədər asfalt yol var idi. Tranzit yükləri Hindistandan Sovet İttifaqına, sonra isə Avropaya çatdırmaq üçün perspektivlər açılırdı ki, bu da ölkəmizə böyük miqdarda xarici valyuta qazandıra bilərdi. Heyif, bu cəsarətli addımları həyata keçirmək mümkün olmadı. Baxmayaraq ki, bu istiqamətdə ilk addım atılmış, Kabulda yeddi yüz "MAZ"a malik olan "Afsov" Sovet–Əfqanıstan müştərək avtomüəssisəsi açmışdıq. Onlar əvvəlcə yükləri SSRİ-dən Əfqanıstana gətirib, sonra isə Hindistana getməli idilər. "Biz Kabulda avtomüəssisənin yanında hətta məscid də tikmişdik!" – mən Heydər Əliyeviçə danışırdım. O, diqqətlə qulaq asır, incəliklərlə maraqlanırdı.

– Söhbətiniz uzun çəkdi?

– Təxminən qırx dəqiqə. Başımız elə qarışmışdı ki, mən vaxtın necə keçdiyini hiss etmədim. Sağollaşanda o dedi ki, haqqımda çoxlu yaxşı söz eşidib və əgər yoldaşlar məni yüksək vəzifəyə tövsiyə edirlərsə, deməli, onların buna əsası var. Hər cür kömək göstərəcəyini və dəstək verəcəyini vəd etdi. Ölkədə nəqliyyatın vəziyyəti haqqında hərtərəfli informasiya verdi, onun inkişafı və səmərəliliyinin yüksəldilməsi barədə bəzi mülahizələri bölüşdü. Heç bir kağıza baxmadan çoxlu sayda statistik göstəricilər gətirdi. Mən onun yaddaşının möhkəmliyinə mat qaldım. Qorbaçov niyə ondan üz döndərdi, bilmirəm, ancaq biz nəqliyyatçılar ona hörmət edirdik. Nəqliyyat kompleksi onun üçün təzə sahə idi, lakin həm mənim müşahidələrim, həm də nəqliyyat nazirliyindəki, mülki aviasiyadakı, dəniz və çay təsərrüfatındakı həmkarlarımın fikrincə, bizim yeni kuratorumuz işə çox tez bələd oldu, məsələlərin mahiyyətinə dərindən vardı. Yəqin ki, bu istedad adlandırılan nadir vergidir. Üstəgəl, əlbəttə ki, dünyagörüşünü genişləndirmək üçün çəkilən gündəlik böyük zəhmət, daim biliklərə yiyələnmək əzmi. Onun istisnasız olaraq bütün növ nəqliyyatın problemlərini dərindən bilməsi fövqəladə idi. O, geniş miqyasda, kompleks şəkildə, konseptual düşünürdü və bizi də buna çağırırdı.

Sonra Suxin danışdı ki, Əliyev onun rəhbərliyi altında işlənib hazırlanmış ölkədə ümumi istifadə olunan nəqliyyatın inkişaf proqramını hökumətin müzakirəsinə çıxaranda uzun illər öz vəzifələrində bərkdən-boşdan çıxmış köhnə nəqliyyatçılar heyrətlərini gizlətmirdilər: "Hələ belə iş olmamışdı... Düzdür, dəmir yolunun, mülki aviasiyanın inkişafı proqramları qəbul olunurdu... Hər idarə yorğanı öz tərəfinə dartırdı. Bir-birilə rəqabət aparırdı. Ancaq bütün nəqliyyat idarələrini bir möhkəm düyünlə bağlayasan, onların fəaliyyətini uzlaşdırasan? Bu, SSRİ tarixində birinci dəfədir!"

...Yuri Anatolyeviç Prokofyev Moskva Şəhər Partiya Komitəsinin sonuncu birinci katibi və Siyasi Büronun üzvü idi. Hazırda o "TV-inform" səhmdar cəmiyyətinin baş direktoru, Rusiya Federasiyası Dövlət mükafatı laureatıdır.

– Yuri Anatolyeviç, Moskvada işlədiyi dövrdə Heydər Əliyev sizin yadınızda necə qalıb? – deyə ondan soruşdum. – O öz işinin öhdəsindən gəlirdimi?

– Özü də necə gəlirdi! – paytaxt kommunistlərinin keçmiş rəhbəri gur səslə cavab verdi. – Mən dəmiryolçularla, nəqliyyat işçiləri ilə söhbət edirdim, onların hamısı bir ağızdan deyirdi ki, bu sahə ilə heç

vaxt ciddi məşğul olmamış bir adam üçün çox yüksək səviyyədədir: məsələnin mahiyyətini tez qavrayır və düzgün qərarlar qəbul edirdi. Əliyevlə qarşılaşan Moskva təsərrüfatçıları bir rəhbər kimi ona yüksək qiymət verirdilər: problemi başa düşmək, insanları dinləmək, nişangaha dəqiq tuşlanmış zəruri qərarlar qəbul etmək bacarığı.

– Bəs onda niyə Qorbaçov onu Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən uzaqlaşdırdı?

– Formal səbəb səhhəti oldu. Ancaq əslində, hər şey başqa cür idi. Qorbaçov öz ətrafında müstəqil düşünən insan görmək istəmirdi"[79].

Yuri Prokofyev haqlıdır: H.Əliyevin müstəqilliyi və işi yaxşı bilməsi təkcə Stavropolun keçmiş katibini yox, hakimiyyət sükanı arxasında duran digər partiya mənsublarını da qıcıqlandırırdı. Onlar Heydər Əliyevin mənliyinə zərbə vurmaq, "gəlmə"ni yerinə oturtmaq üçün əllərinə düşən fürsətdən istifadə edirdilər. Məsələn, "Xəbərdarlıq" kitabında Yeqor Liqaçov 1984–1985-ci illərin qışında yaranmış təsərrüfat böhranı və dəmir yollarında dayanmaların qarşısını almaq məqsədilə tədbirləri uzlaşdıran operativ qərargaha necə rəhbərlik etdiyindən şövqlə söhbət açır. Həmişə olduğu kimi, həmin il qış Sovet İttifaqına "gözlənilmədən" gəlmişdi. Ona lazımınca hazırlaşmamışdılar. Nəticədə xalq təsərrüfatı iflic həddinə çatmışdı. Əsas enerji potensialını təşkil edən 54 iri istilik-elektrik mərkəzi (İEM) istənilən an qazanları söndürə bilərdi, bəzi İEM-lərə daş kömürü, sözün əsl mənasında, vaqonlardan doldururdular.

"Görünməmiş sərt qışın hər gün xalq təsərrüfatının qarşısında qoyduğu problemlərlə xüsusi məşğul olmaq Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin müavini H.Ə.Əliyevə və Siyasi Büro üzvlüyünə namizəd, MK katibi V.İ.Dolgixə tapşırıldı. Söhbət təsərrüfat iflicinin və dəmir yollarında dayanmanın qarşısını almaq üçün tədbirləri koordinasiya edən operativ qərargahın yaradılmasından gedirdi. Siyasi Büronun qərarı ilə bu operativ qrupa rəhbərlik mənə həvalə edildi.

O vaxt mən yalnız MK katibi idim, yəni formal olaraq Siyasi Büro üzvləri və namizədlərindən rütbəyə görə aşağı sayılırdım. Lakin belə tapşırıq üzərində SSRİ Nazirlər Sovetinin sədri N.A.Tixonov təkid etdi"[80].

Həqiqətən, qəribədir. Axı nə səbəbə Nazirlər Sovetində nəqliyyata Siyasi Büronun üzvü H.Əliyev kuratorluq etdiyi halda Y.Liqaçovu partiya xətti ilə nəqliyyat üzrə operativ qrupa rəhbər təyin edirdilər? Bu sayaq etibar göstərməmək, əlbəttə ki, H.Əliyevə toxunurdu. Bir də ki, Yeqor Kuzmiç sən deyən nəzakətli adam deyildi, tez-tez operativ qərargahda kimin "böyük" olduğunu göstərmək üçün H.Əliyev də daxil olmaqla həmkarlarının sözünü kobud tərzdə ağzında qoyurdu. N.Konarevin dediyinə görə, H.Əliyev ümumittifaq selektor müşavirələrində özünü təmkinli aparırdı, elə edirdi ki, guya həmkarının kobudluğunu görmür, lakin hər dəfə bu "letuçkalar"dan qanıqara gedirdi.

MK-nın keçmiş əməkdaşı V.Leqostayev öz kitabında xatırlayır: "Mən bu müşavirələrdə iştirak etmişdim və Y.K Liqaçovun orada M.S.Qorbaçovun adını necə təkidlə çəkərək onu yada salmasını görməyə bilməzdim. Bununla o, bütün dinləyənlərə başa salırdı ki, məhz bu adam belə məsuliyyətli bir vaxtda ölkənin sükanını öz əlində möhkəm tutmuşdur"[81].

H.Əliyevin ətrafında bu nalayiq oyunlar artıq K.Çernenko hakimiyyətinin "son dövründə" başlamışdı. Y.Andropovun vaxtında belə şey, əlbəttə ki, ağlasığmaz idi. Məhz Yuri Vladimiroviç Heydər Əliyevi Baykal-Amur magistralının tikintisi məsələləri üzrə SSRİ Nazirlər Sovetinin Komissiyasına sədr təyin etmişdi. Bu nəhəng nəqliyyat arteriyasının istifadəyə verilməsini sürətləndirən prinsipial qərarların bilavasitə H.Əliyevin rəhbərliyi altında qəbul edilməsi faktını, hətta onun opponentləri də boyunlarına alırlar. Qəhrəmanımızın bioqrafiyasındakı bu əlamətdar səhifədən növbəti fəsillərdə danışacağıq.

"Onun iş yükü həddindən artıq çox idi"

Nazirlər Kabinetində Heydər Əliyev nəqliyyatdan başqa ən müxtəlif sahələrə də kuratorluq edirdi. H.Əliyevin müşavir və köməkçilərinin sözlərinə görə, Siyasi Büro üzvlərindən heç kəs onun qədər işlə yüklənməmişdi. Aşağıda gətirdiyimiz sitatlar da bunu təsdiqləyir:

"Kremldə Əliyevdən çəkinirdilər və onu doğma respublikasında

saxlamağa çalışırdılar, ancaq ora onun üçün darısqallıq edirdi – o, yerli yox, ittifaq miqyaslı siyasətçi idi və Andropovun vaxtında nəhayət ki, gəlib paytaxta çıxanda Kremldə çoxdan bəri görünməmiş enerji ilə işə girişdi. Bu həm də ona görə vacib idi ki, Andropov özü rəsmi andiçmə mərasimindən bir neçə ay sonra zəifləməyə başladı və çox keçmədi ki, birdəfəlik yatağa düşdü. Sovet qəzetlərinin yazdıqlarına istinad etsək, Əliyevin səlahiyyət dairəsinin nə qədər geniş olduğunu görə bilərik: korrupsiya ilə mübarizədən tutmuş dəmir yolunda qayda-qanun yaratmağa qədər, ümumtəhsil məktəbinin islahatından tutmuş Sovet İttfaqının Yaxın Şərq siyasətinə rəhbərliyə qədər.

Andropovun ölümündən bir gün əvvəl sovet qəzetləri Əliyevin o vaxt SSRİ-nin Yaxın Şərqdə əsas forpostu sayılan Suriyaya gözlənilən səfəri haqqında xəbər verdilər.

Andropovun ölümündən sonra Yaxın Şərqə dair məsələlər dövlət təhlükəsizliyi orqanlarının səlahiyyətinə verildi. Təkcə Yaxın Şərq yox, Əliyev üstəlik Latın Amerikası ilə də məşğul olmağa başladı (Kuba, Nikaraqua və Salvadorla xüsusi diqqətlə)..."[82].

Fərman Salmanovla söhbətdən:

"Əgər Andropov bir az çox yaşasaydı, o, Əliyevi ən yüksək hakimiyyət pillələrinə irəli çəkəcəkdi. Rusiyalılar arasında bu mövzu ilə bağlı çox söhbətlər gəzirdi. Siyasi Büroya Brejnevin xəstələnməsi səbəbindən xeyli təsadüfi adam düşmüşdü, məsələn, Yakovlev, Liqaçov, Qorbaçov və s. Andropov bütün bunları görürdü, lakin artıq ağır xəstə idi.

– Zəhmət olmasa, Əliyevlə Moskva görüşləriniz haqqında danışardınız.

– Mən onun yanına istehsalat məsələləri ilə bağlı gəlirdim, axı geoloqlara da nəqliyyat lazımdır, bu isə Heydər Əliyevin səlahiyyətində idi. Tatarıstanda və Novorossiyskdə iki böyük qəza baş verən zaman oradan mənə zəng vurmuşdu: "Fərman, geoloqların nə imkanları varsa, komanda ver, kömək etsinlər". Mən də onun göstərişini yerinə yetirirdim.

– Moskvada onun işini necə qiymətləndirirdilər?

–Nazirlərin, vilayət katiblərinin yanında hörməti böyük idi. On-

lardan biri bir dəfə mənə dedi: "Əgər başqaları Əliyevin işlədiyinin yarısı qədər işləsəydilər, biz çox şeyə nail ola bilərdik".

Aleksandra Biryukova xatırlayır:

"Onun iş yükü həddindən artıq ağır idi. Hətta Rusiya hökumətində də Nazirlər Soveti sədrinin sosial məsələlərlə məşğul olan xüsusi müavini vardır. Əliyev isə sosial məsələlərdən savayı ticarətə, yüngül sənayeyə də rəhbərlik edirdi. Yüngül sənayedə isə üç milyon yarım insan işləyirdi, üç min yeddi yüz müəssisə fəaliyyət göstərirdi. Ticarət ən dəhşətli, ən ağır sahədir. Mən bunu bilirəm, axı həm MK-da, həm də sonra Nazirlər Sovetində ticarət məsələlərinə baxırdım. O vaxtlar bu nəsə ağlasığmaz iş idi. Sentrosoyuz da ticarətə daxil idi. Heydər Əliyeviçə isə üstəlik hələ dəmir yolunu da tapşırmışdılar: bu isə sistematik olaraq vaqonların çatışmaması, kömür daşınması, bir sözlə, təcili tədbirlər tələb edən minlərlə kəskin problem deməkdir.

Mən onun vəzifəsində işləyəndə nəqliyyatla məşğul olmurdum, məndə sosial məsələlər, yüngül sənaye, ticarət idi. Və hətta bu da inanılmaz dərəcədə böyük görünürdü.

O, məsələləri çox diqqətlə hazırlayır, işin mahiyyətinə varır, institutlarda, xəstəxanalarda, məktəblərdə, ali məktəblərdə olur, ölkə üzrə tez-tez səfərlərə çıxırdı.

– Deməli, onun işinə qiymət verən olmadı?

– Hesab edirəm ki, bəli, olmadı. Nikolay İvanoviç onu qiymətləndirirdi, Əliyevlə bu cür davranmağa Rıjkovu məcbur etdilər. Heydər Əliyeviç Nazirlər Sovetində birinci müavinlər içində ən güclüsü idi, o, məsələləri həll edirdi, onları başdan eləmirdi. Bunu qəti söyləyirəm. İnsanlar da ona çox yaxşı münasibət bəsləyirdilər. Nazirlər məhz onun tabeliyinə düşdükləri üçün özlərini bəxtli sayırdılar.

– Bəlkə də nazirlərin öz məsələlərini onunla həll etmək istəyi, incəsənət xadimlərinin, Moskva ziyalılarının ona meyli Qorbaçovun qısqanclığına səbəb olurdu?

– Əlbəttə. Hələ həmkarlarda işlədiyim zaman öz təcrübəmdə belə qısqanclığın dadını görmüşəm. Bizdə sədr müavini var idi. Vasili İliç, yaşı səksəni haqlamışdı, demək olar ki, heç nə ilə məşğul

olmurdu. Bütün işləri mən görürdüm, o isə buna qısqanclıqla yanaşırdı. Gah o işi onun yerinə görürdüm, gah bu işi. O da hirslənirdi: "Sən nə etmisən, əzizim? Niyə belə etmisən?".

– Görünür ki, Əliyev də "həddini aşırmış", bəzi məsələləri yuxarıları nəzərə almadan həll edirmiş?

– Bilirsinizmi, problemləri həll edən adamlar lazım idi. Heydər Əliyeviç adamları diqqətlə dinləyirdi, çoxlarını, hətta sıravi işçiləri də yanına dəvət edirdi. Şöbə müdiri var, lakin Əliyev onunla yanaşı, bu cədvəli tərtib edən, arayışı hazırlayan işçini də çağırırdı. Bəzən də müdirin başı üstündən. Bunun özü də qısqanclıq doğururdu".

Heydər Əliyevin şəxsi arxivində saxlanılan, onun Moskva dövrü fəaliyyətini əks etdirən sənədləri vərəqləyərkən əmin oldum ki, SSRİ Nazirlər Soveti sədrinin birinci müavininin səlahiyyətləri nəqliyyat, rabitə və sosial sahə çərçivəsindən xeyli kənara çıxır. Bunu təsdiqləmək üçün bilavasitə H.Əliyevin katibliyi tərəfindən hazırlanmış və şəxsən onun imzaladığı SSRİ Nazirlər Sovetinin onlarla, yüzlərlə sərəncamından yalnız bəzilərinin adını çəkək: "Təbii fəlakətin nəticələrini aradan qaldırmaq üçün Gürcüstan SSR-ə kömək tədbirləri haqqında" (22.07.1983, № 690); "1982-ci ildə Neft Sənayesi Nazirliyinin maliyyə-təsərrüfat fəaliyyətinin yekunları haqqında" (25.07.1983, № 702); "1984–1985-ci illərdə kənd təsərrüfatı üçün mineral gübrə və bitkilərin kimyəvi mühafizəsi vasitələri istehsalının artırılması və tədarükü tapşırıqlarının yerinə yetirilməsini təmin etmək sahəsində əlavə tədbirlər haqqında" (19.03.1983, № 242); "Primorsk və Xabarovsk diyarlarında, Saxalin və Çita vilayətlərində təbii fəlakətin nəticələrinin aradan qaldırılması tədbirləri haqqında" (30.08.1985, № 826); "Akademik P.S.Aleksandrov adına təqaüdlərin təsis edilməsi haqqında" (23.01.1986, № 106); "1986-cı ildə SSRİ-də Nəzəri və Tətbiqi Kimya üzrə Beynəlxalq İttifaqın üzvi sintezə dair VI Beynəlxalq Konfransının hazırlanması və keçirilməsi haqqında" (04.04.1986, № 416) və s. və i.a.

Gördüyümüz kimi, bütün bunlar onun kurasiyası hüdudlarından kənara çıxan ən müxtəlif məsələlərdir.

Sovet dövlət maşınının ifrat mərkəzləşdirilməsi üzündən SSRİ Nazirlər Soveti nəhəng ölkədə, demək olar ki, hər bir işlə – Ukraynada təbii fəlakətin nəticələrinin aradan qaldırılması üçün tədbirlərin görülməsi və vəsaitin ayrılmasından tutmuş (1983-cü il 23 mart tarixli 527r nömrəli sərəncam), fərdi təqaüd və maaşların təyin edilməsinə qədər – məşğul olan universal orqan idi. Bəzən Heydər Əliyev tərəfindən hazırlanmış və imzalanmış yüzlərlə sərəncam içərisində qəribə və ya həllini respublika nazirlər sovetlərinə, müvafiq nazirlik və idarələrə və ya təşkilatların özlərinə tapşırmağın mümkün olduğu qərarlara da rast gəlinir. Bu qəbildən olan sərəncamlardan bir neçə nümunə:

"SSRİ Nazirlər Soveti
Sərəncam
22 mart 1984-cü il № 512r
Moskva, Kreml

General-polkovnik İ.S.Mednikovun hərbi forma geymək hüququ ilə həqiqi hərbi xidmətdən azad olunması barədə Müdafiə Nazirliyinin təklifi qəbul olunsun.

SSRİ Nazirlər Soveti sədrinin müavini H.Əliyev".

"SSRİ Nazirlər Soveti
Sərəncam
22 mart 1984-cü il № 511r
Moskva, Kreml

RSFSR Nazirlər Sovetinə Moskva Şəhər İcraiyyə Komitəsi Baş Ticarət İdarəsinin rəisi yol. N.F.Zavyalova ayda 430 manat məbləğində fərdi maaş təyin etməyə icazə verilsin.

SSRİ Nazirlər Soveti sədrinin müavini H.Əliyev".

"SSRİ Nazirlər Soveti
Sərəncam
28 avqust 1985-ci il № 1848r
Moskva, Kreml

1. Sovet Bioloqları Milli Komitəsinin Parazitoloqlar bölməsinə Ümumdünya və Avropa Parazitoloqlar Federasiyasının üzvlüyünə daxil olmağa icazə verilsin.

2. SSRİ Maliyyə Nazirliyi 1985-ci ildə SSRİ Elmlər Akademiyası üçün qeyri-ticarət əməliyyatları üzrə valyuta planı əsasında əlavə olaraq konvertasiya olunan valyuta ilə 180 manat (220 ABŞ dolları) ayırsın. Növbəti illərdə bu cür planların layihəsində SSRİ Elmlər Akademiyasına Beynəlxalq Parazitoloqlar Federasiyasına illik üzvlük haqqının ödənilməsi üçün lazım olan məbləğin ayrılması nəzərdə tutulsun.

SSRİ Nazirlər Soveti sədrinin müavini H.Əliyev".

Əlamətdar haldır ki, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Əliyevin imzaladığı sərəncamlarda əsas yeri yeni elmi-tədqiqat institutlarının, ali məktəblərin, səhiyyə müəssisələrinin təşkili və s. tutur. 1982–1987-ci illərdə H.Əliyevin xeyir-duası ilə keçmiş SSRİ-nin, demək olar ki, bütün respublikalrında bu günə qədər əhəmiyyətini itirməyən mühüm elmi, tibbi, sosial obyektlər açıldı. Bu baxımdan bəzi sərəncamlara nəzər salaq:

"DETK-nın Kemerovo şəhərində SSRİ Elmlər Akademiyası Sibir filialının Daş Kömür İnstitutunun yaradılması barədə təklifi qəbul edilsin *(SSRİ Nazirlər Sovetinin 1983-cü il 18 iyul tarixli 1344r nömrəli sərəncamı)*";

...Özbəkistan SSR Nazirlər Sovetinin ...1983-cü ildə Nəvai şəhərində Nizami adına Daşkənd Pedaqoji institutunun, təhsil forması axşam və qiyabi olmaqla, filialının açılması haqqında təklifi qəbul edilsin *(SSRİ Nazirlər Sovetinin 1983-cü il 25 iyul tarixli 1392r nömrəli sərəncamı)*";

...DETK-nın Estoniya SSR Nazirlər Sovetinə Tallin şəhərində Estoniya SSR Səhiyyə Nazirliynin Kardiologiya İnstitutunun təşkil olunması haqqında təklifi qəbul edilsin *(SSRİ Nazirlər Sovetinin 1983-cü il 25 avqust tarixli 1602 r nömrəli sərəncamı)*";

...DETK-nın... SSRİ Səhiyyə Nazirliyinə SSRİ Tibb Akademiyası elmi-tədqiqat ümumi reanimatologiya laboratoriyasının SSRİ Tibb Elmləri Akademiyası Ümumi Reanimatologiya İnstitutu kimi yenidən təşkil edilməsinə icazə verilməsi haqqında təklifi qəbul olunsun *(SSRİ Nazirlər Sovetinin 1985-ci il 126 mart 1985r nömrəli sərəncamı)*";

... DETK-nın SSRİ Maarif Naziriyinə Novosibirsk şəhərində

SSRİ Pedaqoji Elmlər Akademiyasının Elmi-Tədqiqat İnformatika və Hesablama Texnikası İnstitutunun yaradılmasına icazə verilməsi haqqında təklifi qəbul edilsin *(SSRİ Nazirlər Sovetinin 1983-cü il 23 avqust tarixli 1818r nömrəli sərəncamı)*";

...DETK-nın Azərbaycan SSR Nazirlər Sovetinə SSRİ Səhiyyə Nazirliyi ilə razılaşdırılmış:

Bakı şəhərində Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun yaradılması;

Bakı şəhərindəki Azərbaycan SSR Səhiyyə Nazirliyi N.K.Krupskaya adına Elmi-Tədqiqat Ana və Uşaqların Mühafizəsi İnstitutunun Azərbaycan SSR Səhiyyə Nazirliyi N.K.Krupskaya adına Elmi-Tədqiqat Pediatriya İnstitutu kimi yenidən qurulması haqqında təklifləri qəbul edilsin (SSRİ Nazirlər Sovetinin 1985-ci il 3 sentyabr tarixli 1896r nömrəli sərəncamı)".

H.Əliyev fəaliyyətini ölkənin mədəni, elmi potensialını yüksəltməyə xidmət edən nə varsa onu dəstəkləməyə, tibbi xidməti yaxşılaşdırmağa, sosial problemlərin həllinə yönəltmişdi.

Bundan əlavə, 1984-cü il fevralın 3-də SSRİ Nazirlər Sovetinin 128 nömrəli qərarına əsasən, H.Əliyev SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin Operativ Məsələlər üzrə Komissiyasının (OMK) sədri təyin edildi. Bu təyinat Tixonov tərəfindən açıq-aydın Andropovun təşəbbüsü ilə edilmişdi və H.Əliyevi Baş nazir kürsüsünə daha bir addım yaxınlaşdırırdı. Həmin komissiyanın sədri nəhəng səlahiyyətlərə malik idi.

Heydər Əliyevin sosial məsələlər üzrə köməkçisi Eduard Proxorenko ilə söhbət zamanı ondan komissiyanın işinin özəlliyinin nədən ibarət olduğunu və bu cür orqanın yaradılması zərurətinin səbəbini soruşdum.

"Nazirlər Sovetinin əsas orqanı hökumət iclaslarıdır, – Eduard Qriqoryeviç izah edir. – Onlar tez-tez keçirilmirdi. İşçi orqan isə bütün muavinlərin daxil olduğu Nazirlər Sovetinin Rəyasət Heyətidir. Lakin nəhəng təsərrüfata malik olan SSRİ o dərəcədə nəhəng ölkə idi, o qədər böyük problemləri var idi ki, Rəyasət Heyəti, hətta həftədə bir iclas keçirsəydi belə, bütün problemləri əhatə etmək iqtidarında deyildi. Bu səbəbdən də hər hansı, xüsusilə mühüm problemləri əvvəlcədən nəzərdən keçirən, qərar layihələri hazırla-

yan və hökumətə təqdim edən xüsusi komissiyanın yaradılması barədə qərar qəbul etdilər.

Heydər Əliyev həmin komissiyaya başçılıq edirdi. Komissiya əsla hökuməti əvəz etmir, onu tamamlayırdı. Ciddi riayət olunan iyerarxiya var idi. Lakin operativ müdaxilə tələb edən xeyli məsələ də mövcud idi.

Məsələn, harada isə fəlakət, qəza baş vermişdir. Operativ qərarlar qəbul etmək lazımdır, Nazirlər Soveti Rəyasət Heyətinin nə vaxt iclas keçirəcəyini gözləmək olmaz. Bu komissiya məhz belə təcili, təxirəsalınmaz məsələləri həll edirdi. Komissiyaya bütün prosesin bilavasitə iştirakçıları, icraçıları dəvət olunur, məsələnin həlli yolları tapılırdı".

Respublikanın işləri ilə bağlı Moskvada tez-tez olan Həsən Həsənov komissiyanın fəaliyyəti ilə bağlı maraqlı epizod danışdı:

"1984-cü ildə mən işlə əlaqədar Moskvada idim. Həmişə olduğu kimi Heydər Əliyevə baş çəkdim. Respublikadakı vəziyyət barədə söhbət etdik, bu vaxt birbaşa telefonlardan biri zəng çaldı. O, dəstəyi götürdü: "Mixail Sergeyeviç? Bəli, sizi dinləyirəm". Mən, təbii ki, belə hallarda olduğu kimi otaqdan çıxmaq üçün ayağa qalxdım. Ancaq o, əli ilə işarə etdi ki, qalım. Söhbətin mahiyyəti bundan ibarət idi ki, M.Qorbaçov xeyli sayda məsələni H.Əliyevlə razılaşdırırdı, onunla məsləhətləşirdi, tövsiyələrini dinləyirdi. Heydər Əliyev də hər şeyi ona ətraflı izah edirdi. Söhbətdən mənə aydın oldu ki, Qorbaçov hansısa məsələlərin həllində ondan kömək istəyir. Yadımdadır, Heydər Əliyev ona deyirdi: "Eybi yoxdur, mən filankəsə tapşıraram o, bu məsələni həll edər... Yaxşı, mən bunu növbəti OMK-da muzakirəyə qoyaram, sizə məruzə edərlər... mən dəvət edərəm... mən zəng vuraram... mən tapşıraram...".

Bu epizod A.Biryukovanın Nazirlər Sovetinin sədr müavininin real məsələlərin həllində Sov.İKP MK katibindən daha çox imkanları olduğu haqqında dediklərini təsdiqləyir.

Aleksandr Qavrilovla söhbətdən:

"Rıjkov olmayanda Rəyasət Heyətini Əliyev aparırdı. Bundan əlavə, Operativ Məsələlər üzrə Komissiyanı – kiçik Nazirlər Sovetini də o aparırdı. Heydər Əliyeviç onun əhəmiyyətini qaldırdı, formaldan işlək orqan səviyyəsinə qaldırdı. Məsələlərə də əməli olaraq Nazirlər Sovetindəki kimi baxılırdı.

Buna görə, əlbəttə, Heydər Əliyeviçin əlində böyük hakimiyyət var idi. Qeyd etmək lazımdır ki, Komissiyaya bir çox məsələlər, hətta onun kuratorluq etmədikləri də çıxarılırdı. Lakin Heydər Əliyev olduqca böyük istedad və qabiliyyət sahibi idi. O, iştirakçıların fikrini soruşurdu, elə təsəvvür yaranırdı ki, məsələ artıq həll olunub, lakin gözlənilmədən məsələni tamamilə əks istiqamətə çevirirdi:

– Gəlin məsələyə bir qədər fərqli yanaşaq.

Başlayırdı ideyanı açıqlamağa. Sonra OMK-da iştirak edən mütəxəssislər təəccüblənirdilər:

– Amma o, düz təklif etdi.

Bu, kənd təsərrüfatı üzrə, tikinti üzrə məsələlər ola bilərdi. Heydər Əliyevin məsələyə yanaşma tərzindən bəlli olurdu: o, sadəcə komissiyanı aparmırdı, onun işinə hazırlaşırdı, baxılacaq sənədləri, materialları öyrənirdi, iclasın özü isə ona bəzi aspektləri dəqiqləşdirməyə, baxılan predmet haqqında təsəvvürləri dərinləşdirməyə və məsələnin ən düzgün həllini tapmağa kömək edirdi. Bu, çoxları üçün maraqlı və ibrətamiz idi".

V.Andriyanov və H.Mirələmovun "Heydər Əliyev" kitabında Yuri Petroviç Batalinin (neft və qaz sənayesi müəssisələrinin tikintisi nazirinin müavini, sonradan SSRİ Dövlət Əmək Komitəsinə başçılıq etmiş, SSRİ Nazirlər Soveti sədrinin müavini olmuşdur) Operativ Məsələlər üzrə Komissiyanın iclaslarının necə keçdiyi barədə xatirələri verilir:

"Bu komissiyanın iclaslarına adından da göründüyü kimi təcili müdaxilə tələb edən, həlli təxirəsalınmaz olan ən müxtəlif məsələlər çıxarılırdı. Qaz sənayesinin inkişafı, Qərbi Sibir – Mərkəz beş ən iri qaz xəttinin, həmçinin Urenqoy–Pomarı–Ujqorod ixrac qaz kəmərinin tikintisi komissiyanın xüsusi nəzarəti altında idi.

Adətən hər həftə keçirilən OMK-nın iclaslarına nazir məni göndərirdi... Bu iclasları Əliyev aparmağa başlayanda mən yaxşı mənada onun bu işi necə apardığına təəccübləndim. Mütəşəkkil, işin mahiyyətinə vararaq.

Müxtəlif fikirləri dinləyir, müqayisə aparır və bundan sonra qə-

rar qəbul edirdi. Hər bir hərəkətində böyük təcrübə, qeyri-adi intuisiya hiss olunurdu.

OMK-ya ən müxtəlif sahələr üzrə çoxsaylı məsələlər çıxarılırdı. Onları birdəfəyə həll etmək həmişə mümkün olmurdu. Onda kompromis tapmaq üçün qrup təşkil edilirdi. Lakin çox zaman buna vaxt çatmırdı. Məsələn, magistrala boru göndərilməsi ləngiyir. Niyə? Zavod çatdırmır? Yoxsa dəmir yolu? Ləngimə harada baş vermişdir? Həqiqət haradadır?

OMK-nın daim məşğul olduğu məsələlərdən biri qaz kəmərlərindəki, mədənlərdəki "düyünlər" idi. Sverdlovskdan Tümənə qədər və Tümendən Tobolska qədər dəmiryol bölmələri həmişə həddindən artıq yüklənmiş olurdu. İkinci xəttlər çəkilirdi, stansiya yolları genişləndirilirdi... Yenə də problemlər kifayət qədər idi. Köhnə təcrübə kara gəldi: hərbi eşelonlarda olduğu kimi neft və qaz tikintilərinə boru və digər yüklər daşıyan qatarları dispetçer müşahidəsinə götürmək. Bu işdə Əliyev fəal iştirak edirdi. Ona görə də Neft və Qaz Tikintisi Nazirliyi heç bir problemlə üzləşmirdi. Təmkini və intizamı, kimin işlədiyini, kimin isə yalnız özünü göstərdiyini seçə bilməsi və qiymətləndirməsi sayəsində Əliyev məsələnin düzgün həllini tapırdı. Mən böyük psixoloji qabiliyyəti, sözlərin arxasından mahiyyəti görmək bacarığını da bura əlavə edərdim"[3].

İvan Laptevlə söhbətdən:

"O, traktor kimi işləyirdi. Bizdə, axı belədir: kim işləyir, onu da yükləyirlər. O, işə səhər tezdən gəlirdi, axşamdan xeyli keçmiş gedirdi, bütün iş günü də konveyer kimi təşkil olunmuşdu. O axı həm də Operativ Məsələlər üzrə Komissiyaya rəhbərlik edirdi. Komissiyanın iclaslarından rəngi qızarmış halda gəlirdi, sifətinə isə elə bil kül hopurdu – bərk həyəcan keçirdiyindən, var qüvvəsi ilə çalışdığından. O, həmişə bütün gücünü sərf edirdi.

– Bəs onun komissiyadakı işi əsəbilik, narazılıq doğurmurdu? Axı orada hər şey Nazirlər Sovetinin iclaslarındakından tez və operativ həll olunurdu.

– Orada hər şey əsəbilik doğururdu. Qromıko da birinci müavin idi, deyəsən, bir mərtəbə yuxarıda otururdu. Bu, hələ Qorboçova qədər belə idi. Qromıko sakitcə özü üçün otururdu, heç kimlə işi

yox idi və hamı onu sevirdi.

Əliyevin belə işləməsi isə o yerə gətirdi ki, ən çətin problemləri onun üstünə yıxmağa başladılar. "Suvorov" teploxodu qəzaya uğradı. Oraya komissiyaya rəhbərlik etmək üçün kim gedir? Əliyev. "Admiral Naximov" sularda qərq oldu – Əliyev, Şimali Muysk tuneli ilişib qaldı – yenə Əliyev.

Oraya Əliyevlə mənim müavinim getmişdi, qayıdandan sonra danışırdı:

– Lənət şeytana, o tank kimi irəliləyirdi. Qurşağa qədər uzunboğaz çəkmə geyir, kaska qoyur və irəli – orada isə, tuneldə, suyun içi ilə 12 kilometr ayaq döymək lazımdır. O gedir, hər şeyə mütləq öz gözləri ilə baxır və yerindəcə qərar qəbul edir.

Düşünürəm ki, bu, bir çoxlarını güclü şoka salırdı, çünki bizdə gərək qərarı kollektiv orqan: Nazirlər Soveti və ya Nazirlər Sovetinin sədri qəbul etsin. Bütün digərləri – statistlərdir, gecə-gündüz özlərini öldürsələr də.

Onu, əlbəttə ki, Moskvada qiymətləndirmədilər, irəliləməyə, əl-qol açmağa imkan vermədilər. Onun işi elə bil ki, hamının işi idi, işə belə can yandırmasının isə əhəmiyyəti yox idi. Tixonov saat onda gəlirdi, beşdə çıxıb gedirdi. Həkimlər ona belə yüngül rejim təyin etmişdilər. Əliyev isə doqquzun yarısında, bəzən səkkizdə gəlirdi, onda, on birdə, bəlkə bir az da gec gedirdi.

Yadıma gəlir, bir dəfə o, mənə səkkiz otuzda görüş təyin etmişdi. Cavan idim, yuxum yaxşı idi və düz bir saat yatıb qaldım. Gecikdim, özümü ora çatdırdım, tələsik Senat korpusuna ikinci mərtəbəyə qalxıram, dəhlizlə qaçıram, o isə artıq hansısa müşavirədən çıxıb mənimlə üzbəüz gəlir.

– İvan Dmitriyeviç, niyə geçikirsiniz?

– Üzr istəyirəm, Heydər Əliyeviç, yatıb qalmışam.

O, tamamilə anlaşılmaz nəzərlərlə məni süzdü: adam necə yatıb qala bilər?".

Heydər Əliyevin heyrətamiz işgüzarlıq qabiliyyəti haqqında Tahir Salahov xatırlayır:

"Moskvada Brejnev vaxtından ənənə var idi: nazirlər səhər gimnastikaya gedirdilər, sonra hovuza, iş yerinə saat on bir üçün gəlirdilər. Günorta saat birdə nahar, nahardan sonra isə məlum deyil.

Heydər Əliyeviç gələndən sonra hər şey dəyişdi, o yeni iş üslubu tətbiq etdi. Bəlkə də, bu, bir çoxlarını əsəbiləşdirirdi. Köhnə stili sındırmaq çətin idi, lakin tabeliyində olanların bir çoxları fədakarlığına və iş qabiliyyətinə görə ona hörmət etməyə başladılar. Kuratorluq etdiyi nazirliklər də işə can yandırdığı üçün ona hörmətlə yanaşırdılar. O, çox ciddi işləyirdi".

* * *

H.Əliyevin Siyasi Bürodakı silahdaşlarından N.Rıjkovdan tutmuş Y.Liqaçov və V.Vorotnikova qədər heç kim nəşr etdikləri memuarlarda qəhrəmanım haqqında bir abzas belə yazmırlar. Yazsalar da, elə belə, ötəri. Təkcə Nikolay Baybakov öz kitablarında Əliyev haqqında xoş sözlər deyir. Yerdə qalanlar isə öz xidmətləri haqqında danışmağı üstün tuturlar. Məsələn, Yeqor Liqaçov, 80-ci illərin ortalarında mədəniyyət və təhsil sahəsindəki bütün uğurları öz ayağına yazır.

Yaxud başqa misal: bu yaxınlarda Rusiya televiziyasının Yevgeni Çazov haqqındakı verilişində qeyd olundu ki, 1987-ci ildə M.Qorbaçov onu "kremlyovka"nın baş həkimliyindən çıxararaq səhiyyəyə rəhbərlik etməyə göndərmişdir. Bu, nədənsə gözdənsalma kimi qələmə verilir. Sonra veriliş müəllifləri Çazovun "kremlyovka" metodlarını bütün ölkədə tətbiq etməsini səhiyyədə inqilab adlandırır, əhalinin dispanserizasiyasını həyata keçirməsindən, diaqnostika mərkəzlərinin tikilməsinin təşəbbüskarı olduğundan danışırlar. Nəticədə SSRİ-də orta ömür müddəti 80-ci illərin sonunda uzun onilliklər ərzində ilk dəfə olaraq görünməmiş səviyyəyə: 72 yaşa çatır.

Y.Çazovun arxasında kimin dayandığı, onun təşəbbüslərini kimin dəstəklədiyi, səhiyyədə islahatlar haqqında Qanunun Nazirlər Soveti və Siyasi Bürodan kimin keçirdiyi barədə bir kəlmə də söyləmirlər. Y.Çazov Əliyevsiz, təkbaşına heç vaxt bunları edə bilməzdi. Bir qədər sonra bu mövzuya qayıdacağıq.

Bir sözlə, Rusiya tarixçiliyində bir para adamlar 80-ci illərin ortalarında SSRİ və onun vətəndaşları üçün çox işlər görmüş H.Əliyev adlı şəxsi unutmağa üstünlük vermişlər. Və bir halda ki, qəhrəmanım özündən sonra memuar qoyub getməmişdir, mən həqiqəti bərpa etmək istərdim. Xüsusən topladığım materiallar qəti surətdə göstərir ki, Qorbaçov yenidənqurmasına qədər və onun başlanmasından bir müddət sonra məhz Heydər Əliyev sovet hökumətində mərkəzi fiqur, ən parlaq və işləmək bacarığı olan şəxsiyyət idi.

1980-ci ildən 1985-ci ilə kimi SSRİ Nazirlər Sovetinə Nikolay Tixonov rəhbərlik etmişdir. Rusiya politoloqlarının sözlərinə görə, o, Brejnevə sadiq, lakin sönük adam idi. Üstəlik yaşı da az deyildi: H.Əliyev Moskvaya işləməyə gələn zaman sovet hökuməti başçısının artıq 77 yaşı tamam olmuşdu. N.Tixonov L.Brejnevlə Ukraynada işləmişdi, 1957-ci ildən Dnepropetrovsk Xalq Təsərrüfatı Şurasına başçılıq etmişdi. 1963-cü ildə N.Tixonov Dövlət Plan Komitəsi sədrinin müavini olmuş, 1965-ci ildə isə Nazirlər Sovetinə keçmiş, 11 il Nazirlər Soveti sədrinin müavini, sonra daha dörd il birinci müavini işləmişdi. Brejnevin köməkçiləri deyirdilər ki, Leonid İliç Tixonovu sevirdi, ona inanırdı, lakin onun iş keyfiyyətləri haqqında yüksək fikirdə deyildi. Bu səbəbdən də N.Tixonovu Nazirlər Soveti sədri təyin etməyə uzun tərəddüdlərdən sonra razılıq vermişdi.

Anatoli Lukyanovla söhbətdən:

"Heydər Əliyev hökumətə orada hələ xeyli dərəcədə Tixonov ab-havasının hökm sürdüyü bir zamanda düşdü.

Tixonov Çernenko ilə, Ustinov ilə, bütün o qrupla sıx bağlı idi. Digər tərəfdən Tixonovun öz sələfi Kosıginlə münasibətləri o qədər də yaxşı deyildi və heç şübhəsiz ki bu, hökumətin Rəyasət Heyətinin işinə öz təsirini göstərirdi. Və bunun da səbəbi ilk növbədə işə "texnar" münasibətdə idi. Yəni Tixonov hökumətində sosial aspekt Kosıgin dövründəkindən az idi. Mən axı Kosıginlə də işləmişəm. Bu, əlbəttə ki, yerlə göy idi. Və praktik olaraq Heydər Əliyev missiyasının başlıca çətinliyi bundan ibarət idi. Yəni onun və Tixonovun problemin həllinə yanaşma tərzləri müxtəlif idi".

Bilavasitə SSRİ Nazirlər Sovetinə müttəfiq respublika hökumətlərinin on beş sədri və yüzdən bir qədər artıq ittifaq naziri də daxil idi. Nazirlər Soveti haqqındakı qanuna görə onlar avtomatik olaraq ölkə hökumətinin tərkibinə daxil idilər. Nazirlər Sovetinin tam

tərkibdə iclasları tez-tez deyil, təxminən rübdə bir dəfə, özü də mühüm məsələlərlə əlaqədar keçirilirdi: məsələn, təsərrüfat işlərinin rüblük yekunları və ya illik planların, bütün ölkə üçün prinsipial olan vacib məsələlərin müzakirəsi. Fasilələrdə hökumətin işinə Nazirlər Sovetinin Rəyasət Heyəti rəhbərlik edirdi, buraya birinci şəxs, onun müavinləri, maliyyə naziri və işlər müdiri daxil idi. Rəyasət Heyəti hər həftə, adətən üçüncü günlər yığılırdı. İkinci günlər MK-nın katibliyi toplanır, Siyasi Büronun iclasları isə dördüncü günlər keçirilirdi. Və bu iclaslardan hər birinə diqqətlə hazırlaşmaq lazım idi, çünki birinci şəxs iştirak etməyəndə Heydər Əliyev həm Rəyasət Heyətinin iclasını, həm də "kiçik iclası" aparırdı.

H.Əliyevin katibliyi müdirinin müavini Vladimir Uxovun sözlərinə görə, Rəyasət Heyəti üçün hazırlanan materiallara qabaqcadan baxılması ənənəsi Kosıgindən gəlirdi:

"Bu gün nələrə baxılacağı haqqında ona məlumat verirdilər. O qərar layihəsinə qulaq asır, sonra deyirdi: "Yaxşı, qoyaq elə belə qalsın" və ya əksinə: "Xahiş edirəm deyişəsiniz, filan-filan işləri görəsiniz, müzakirə edəsiniz". Saat üçdə hökumətin iclası başlanan zaman onlarda artıq bütün materiallar hazır olurdu.

Tixonov bu ənənəni davam etdirirdi. Rıjkov gələndən sonra bu məsələni yığışdırdı, materiallara qabaqcadan aparatla baxılmasını dayandırdı. Ondan fərqli olaraq, H.Əliyev axıra qədər bu "kiçik" iclasları keçirirdi, hər bir əməkdaşı qabaqcadan dinləyirdi, yəni Kosıgin metodu ilə işləməkdə davam edirdi. Məsələn, əgər nəqliyyat məsələsinə baxılırdısa, şöbə müdiri və bu materialı bilavasitə hazırlayan referent gəlirdi. Bu adam yüksək rütbəyə sahib olmasa da, o, materialı hazırlayır, nazirliklərlə, müvafiq idarələrlə əlaqə yaradır, informasiyaya malikdir. Deməli, onu dinləmək lazımdır. Heydər Əliyeviç bu təcrübəni davam etdirirdi.

Rəyasət Heyətini o özü aparanda, həmişə qabaqcadan saat on birdə hər şeyi hökumət aparatı ilə nəzərdən keçirirdi. Şöbələrin nümayəndələri, işlər müdiri, işlər müdirinin müavini və aparat gəlirdi. Onlar birlikdə məsələlərə nəzər salırdılar, qərar layihələri hazırlayırdılar. Tez-tez belə hallar baş verirdi: qərarı gətirirdilər, ancaq müzakirələr zamanı aydın olurdu ki, başqa cür etmək lazımdır. Belədə Heydər Əliyeviç tapşırırdı ki, düzəlişlər edilsin".

Hər bir işə məsuliyyətlə yanaşan Heydər Əliyev nəzakətlə, lakin qəti şəkildə başqalarını da buna öyrədirdi. O cümlədən Nazirlər Soveti müşavirələrinə tez-tez öz müavinlərini göndərən ittifaq nazirlərini də.

"Budur bir misal, – Vladimir Uxov xatırlayır. – Heydər Əliyev hansısa ciddi bir məsələyə dair müşavirə keçirirdi və bəzi nazirləri də dəvət etmişdi. İkisindən savayı, hamı gəlmişdi. O iki nəfər öz müavinlərini göndərmişdi. O bunu gördü və soruşdu: "Filan nazir xəstələnməyib ki, niyə bu gün yoxdur?" – Bilirsiniz, – deyə ona cavab verirlər, – nazir MK-nın şöbəsinə gedib". – "Bəs filankəs niyə gəlməyib?" – "Ona ciddi tapşırıq verilib". O, qulaq asandan sonra dedi: "Bəs bizdə bu gün tapşırıqlar ciddi deyil? Hökumətin sədri Əliyevə və sizin nazirə tapşırıq verib. O, nədir, bundan azaddır?". Zala sakitlik çökdü. "Məgər bundan mühüm iş varmı? Bəs bu nazirlər niyə gəlib? Deməli, əvvəlcədən günlərini planlaşdırıblar. Biz axı üç gün qabaq sizə xəbər vermişik. Zəhmət olmasa, bunu öz nazirlərinizə çatdırın. Deməli bu gün sizin qərar qəbul etmək səlahiyyətləriniz var?" – "Bəli", – müavinlər pərt halda cavab verirlər. Bəs nə etsinlər? "Siz bu gün iştirak edirsiniz, ancaq nazirə deyin ki, bu, intizamsızlıqdır. Tapşırıq veriləndə, yerinə yetirmək lazımdır, ikincisi isə, burada söylənilənlərin hamısını ona mərüzə edin". Vəssalam! O biri müşavirəyə hamısı quzu kimi gəldi.

Bir dəfə müşavirə ərəfəsində SSRİ ticarət naziri Vaşşenko mənə zəng vurdu. "Bilirsiniz, çox ciddi işlərim var. Mən öz birinci müavinimi göndərəcəyəm". Mən deyirəm: "Heydər Əliyev xahiş edib ki, nazirlər olsun". – "Xəbərim var, ancaq sonra hər şeyə o müavin cavabdeh olacaq". – "Yaxşı, – deyirəm, – Heydər Əliyeviçə özünüz zəng edin". O: "Mən axı sizə zəng vururam". – "Yox, – deyirəm. – sizi yalnız Heydər Əliyeviç azad edə bilər". Vaşşenko incidi: "Deməli, istəmirsən?". Mən deyirəm: "Axı niyə, siz ki, bizim qaydaları bilirsiniz". – "Yaxşı, gələrəm", – Vaşşenko narazı halda donquldandı. O, Əliyevə zəng vurmadı. Və hamı müşavirələrə gəlməyə başladı.

– Bu yolla onları özünə hörmətlə yanaşmağa məcbur etdi.

– Bəli, söhbət hər tərəfə yayıldı, digər sədr müavinləri də tələb etməyə başladılar. Əgər nazirlər MK-da üç müşavirədə iştirak edirlərsə və daha haradasa müşavirəyə çağırılıblarsa, aydın məsə-

lədir ki, hamısına çata bilməyəcəklər, bu heç lazım da deyil. Lakin qayda-qanun qayda-qanundur, zəhmət çəkib zəng elə, məlumat ver, Heydər Əliyeviç axı hamı üçün əlçatan idi".

H.Əliyevin sosial məsələlər üzrə köməkçisi E.Proxorenkonun sözlərinə görə, Heydər Əliyevin apardığı müşavirələrdə "həmişə çox sakit və xeyirxah şərait hökm sürürdü. Mən bütün işlədiyim müddətdə bir dəfə də olsun onun səsini ucaltdığını görmədim. Müəyyən məsələlər ətrafında kifayət qədər sərt müzakirələr olurdu, ancaq yenə də hər şey normal şəraitdə keçirdi.

Mən müxtəlif tədbirlərdə iştirak edirdim. Məsələn, çox keçmədi ki, Heydər Əliyeviç Nazirlər Sovetinin sosial inkişaf, xalq istehlakı malları və xidmətlər üzrə Bürosunun rəhbəri oldu. İş sxemi belə idi: bu və ya digər məsələni aparan hər referent birbaşa Nazirlər Soveti sədrinin müavininə, Nazirlər Soveti sədrinə çıxırdı, məsələni özü məruzə edirdi və şəxsi cavabdehlik daşıyırdı.

Hansısa məsələ müzakirə olunur. Nazir görülmüş işlər barədə məlumat verir. Hər iki tərəf – "lehinə" və "əleyhinə" olanlar dinlənilir. Bütün mülahizələri dinlədikdən sonra Heydər Əliyeviç müzakirələri yekunlaşdırırdı. "Gəlin bunu bu şəkildə qəbul edək, bunu isə yenidən işləyin, bunu da bir daha gözdən keçirin. Biz filan-filan parametrlərə çıxmalıyıq".

Səciyyəvi o idi ki, həmişə hansısa konkret vəzifə qoyulurdu. Sadəcə: "Sənəd verin" yox, "filan-filan məsələləri həll edən sənəd verin".

Yuri Batalinin xatırladığına görə, Əliyev həmişə xəzinənin imkanları ilə sahənin, idarənin, insanın maraqları arasında dəqiq balans tapmağa çalışırdı. Batalin özü SSRİ Nazirlər Soveti sədrinin müavini olandan sonra Əliyevi daha yaxından tanıdı. O, tikintiyə və bir sıra digər sahələrə cavabdehlik daşıyırdı. Sədr artıq Nikolay İvanoviç Rıjkov idi. Batalinin xatırladığına görə, Rəyasət Heyətinin iclaslarında Əliyev mütləq öz mövqeyini əsaslandırırdı. O, bəzi partiya başbilənləri kimi vəzifəsinin nüfuzuna arxalanaraq deyə bilməzdi: "Mən hesab edirəm ki, belə olmaz..." və bununla da məsələ bitdi. Xeyr, Əliyev davam edirdi: "çünki..." – və dəqiq dəlillər sistemi qurardu[84].

Nikolay İvanoviç Rıjkov "On tələtümlü il" kitabında hakimiyyət strukturları daxilində qarşılıqlı münasibətlərin xüsusiyyətlərini təsvir edir:

"Monolit görünməsinə baxmayaraq, Siyasi Büro sanki iki hissəyə bölünürdü. Onlardan biri MK katibləri, ikincisi isə Nazirlər Sovetinin və respublikaların nümayəndələri idi. Düzdür, iqtisadi məsələlərlə bağlı qızğın diskussiyalar zamanı vaxtilə təsərrüfat rəhbərləri olmuş MK katibləri (Zaykov, Slyunkov, Nikonov) "emkadaxili" korporativliyi pozaraq Nazirlər Soveti sədrinin mövqeyində dururdular.

Bu ziddiyyətlər orada çoxdan bəri var idi. Bəlkə elə Stalin və Xruşşov kimi liderləri eyni vaxtda Baş (birinci) katib və Nazirlər Soveti sədri vəzifələrini tutmağa da bu vadar etmişdi? Brejnevin vaxtında da ziddiyyətlər var idi. Onun Kosıginlə münasibətlərini yadınıza salın. Mən də MK-da üç il işlədikdən sonra Nazirlər Sovetinə keçəndə Katiblikdəki bir çox keçmiş həmkarlarım üçün bir növ "özgəyə" çevrildim.

Bu antaqonizmin əsasında bir qanunauyğunluq dururdu: bu və ya digər qərar qəbul edərkən MK və SB, mənim yazdığım kimi, cavabdehlik daşımırdı. Partiyanın "yuxarıda" oturanları Nazirlər Sovetinə təsərrüfat qərarlarını diktə edərkən, hətta zorla boynuna qoyarkən onların yerinə yetirilməsi üçün heç vaxt məsuliyyət daşımırdılar. Hər şey uğurlu alınıbsa, əla, eşq olsun partiya rəhbərlərinə, təsərrüfatçılara da əhsən. Alınmayıbsa – Nazirlər Sovetindəki, idarə və ya respublikalardakı icraçılara cəza. Partiya aparatının işçilərini və bəzi katibləri isə tələbkarlığın yüksək olmadığına görə yalnız bir balaca tənbeh"[85].

Sovet hökumətinin keçmiş Baş naziri ilə söhbət edərkən, soruşdum ki, Heydər Əliyevlə münasibətləri necə olub? Boş yerə soruşmadım, çünki elə həmin kitabda Nikolay İvanoviç açıqcasına H.Əliyevə işarə edərək öz vəziyyətinin çətinliklərindən danışır:

"... Nazirlər Sovetinin sədri nazirlərdən heç birini və ya öz müavinlərini Siyasi Büronun və ya Katibliyin qərarı olmadan işdən azad edə bilməzdi, hətta çox pis işləsəydilər belə. **Bu bir yana qalsın, birinci müavinlərdən biri – yenə də vəzifəsinə görə! – Siyasi Büronun tərkibinə daxil idi və partiya xətti ilə ümumiyyətlə, öz rəisinə bərabər idi** (seçmə bizimdir–*E.A.*)[86].

Nikolay Rıjkovla söhbətdən:

"Münasibətlərimiz dəqiq və aydın idi. Heydər Əliyeviçin yanına gəlməsi lazım olanda, məsələn, MK-da yığışırıqsa və ya şöbə müdirləri dəvətlidirlərsə, hamını oraya aparmamaq üçün ona zəng vururdum. "Heydər Əliyeviç, vəziyyət belədir, bir məsələ var, siz də onunla məşğul olursunuz. Gəlin bizdə yığışaq".

– O bunu necə qarşılayırdı?

– Müsbət. O, təkəbbürlü deyildi. Mən formal olaraq telefonoqram göndərib onu dəvət edə bilməzdim: "Filan tədbirə gəlməyiniz vacibdir". Yalnız xahiş edə bilərdim. Bu, yazılmayan qanun idi. Kiçik böyükdən yalnız xahiş edə bilərdi. Böyük isə kiçiyi məcbur da edə bilərdi: "Mən filan tarixdə müşavirə keçirirəm. Nikolay İvanoviç, xahiş edirəm, iştirak edəsiniz". O, heç zəng də vurmaya bilərdi. Əgər mən iştirak edə bilməyəcəkdimsə, hökmən zəng vurub deməliydim: "Heydər Əliyeviç, həmin vaxt gələ bilmərəm, filan-filan işlərim var". Başqalarından fərqli, Heydər Əliyeviç bir o qədər də əhəmiyyət vermirdi ki, onu başqa binaya dəvət edən adam həm yaşda, həm də partiya iyerarxiyasında özündən kiçikdir.

O, bizə gəlirdi, biz onun yanına gedirdik. Onunla işləmək asan idi. Heydər Əliyeviç ağıllı adam idi. Bəziləri, bilirsiniz, buynuzlarını dirəyib heç cür razılaşmırlar, o isə həmişə kompromis, ümumi dil tapmağa çalışırdı. Əlbəttə, müəyyən mövqelərindən geri çəkilmirdi, söhbəti də təmkinlə, qarşısındakına inam bəsləməklə yanaşı, hörmət gözləyə-gözləyə aparırdı.

– Bəlkə bu, Şərq ənənəsindən irəli gəlir. Mentalitet fərqlidir. Necə bilirsiniz?

– Başqa "Şərq" adamlarını da görmüşük. Odur ki, Şərqin adını çəkməyin. O özünü konstruktiv, hörmətlə aparırdı, heç vaxt demirdi ki, bəs mən Siyasi Büronun üzvüyəm, sən isə məndən iki pillə aşağısan, hələ bir ağzını da açırsan.

– Yəni ki, o sizin peşəkarlığınıza hörmət edirdi?

– Təkcə mənim yox. O, dialoq aparmağı bacarırdı. Onda təkəbbür, iddia yox idi. Bəzi məsələlərdə biz onu inandırırdıq, bəzilərində isə o bizi. Hər halda mənim üçün onunla işləmək asan idi. Onun təkcə mənim yox, digər katiblərin, şöbə müdirlərinin də yanında hörməti var idi. Onunla bağlı problem, konflikt yox idi. Bəli, bilirəm, bir çox şeyləri o sonradan özünü məcbur edə-edə yerinə yetirirdi, onu "sındırırdılar". Elə məsələlər var idi ki, o, razılaşmağa məcbur idi. Soruşurdum: "Niyə razılaşdınız?". – "Bilirsiniz, Nikolay İvanoviç, mən nə edə bilərəm ki? Bu məsələdə heç nə. Bütün Siyasi Büro buna səs verir. Mən təklikdə qalıram".

Bəli, onunla işləmək asan idi. O, prinsipial kişi, bilikli insan idi, hazırlığı, kifayət qədər geniş erudisiyası özünü göstərirdi. Başa düşürəm, bizim hamımız müəyyən məsələlərdə zəifik. Mən bu sahəni yaxşı bilirəm, bu birində isə zəifəm, bir başqasını isə heç bilmirəm. Mən axı, bilən adamlara qulaq asmalıyam. Onda belə idi.

Açığını deyim sizə: Nazirlər Sovetinin sədri olandan sonra onunla işləmək mənim üçün asan idi. O, çox gözəl işləyirdi. Mənim ondan cavan olmağıma baxmayaraq hörmət gözləyən, çalışqan idi, aramızda yaxşı münasibətlər yaranmışdı, işindən çox razı idim".

Heydər Əliyevin keçmiş köməkçisi Aleksandr Qavrilov Baş nazir və onun müavini arasında münasibətlərin etibarlı xarakterini yada salır. Onun sözlərinə görə "Rıjkov maraqlı insan idi, o da Nazirlər Sovetinin iclaslarını olduqca prinsipial aparırdı və bu işdə Heydər Əliyeviç onun əsil köməkçisi idi. Onlar yaxşı işləyirdilər, bir-birilərini başa düşürdülər, bir-birilərinə etibar edirdilər".

Anatoli Lukyanovla söhbətdən:

"Bu, özünü sərbəst aparan insan idi. Adətən çox sakit, təmkinlə çıxış edirdi. Qeyd etmək lazımdır ki, hökumətdə yerini tapmaq, ümumiyyətlə, çətin məsələdir. Deyim ki, Heydər Əliyeviç bu dairələrlə kifayət qədər tez münasibət qurdu. Yaxşı yadımdadır, nəqliyyat məsələləri müzakirə olunanda, onun sözü həmişə çox şeyi həll edirdi, çünki o, bu problemlərə kompleks şəkildə yanaşırdı və burada onun böyük partiya təcrübəsi öz sözünü deyirdi. O, sadəcə nəqliyyat, dəmiryol problemləri ilə məhdudlaşmır, həmişə məsələni qarşılıqlı əlaqədə götürürdü: dəmiryolçuların yaşayışı necədir, sosial planda dəmir yolu ətrafında nələr tikmək lazımdır. Yəni, hər bir sahə təkcə texnika deyil, hər şeydən əvvəl, insanlardır, kadrların hazırlanmasıdır. Bu, bütün bunları yaxşı bilən insanın məsələyə əsl partiya yanaşması idi. Və həmin xüsusiyyəti ilə də o, texniki məsələləri ön plana çəkən bizim bir çox rəhbərlərimizdən fərqlənirdi".

Nikolay Konarevlə söhbətdən:

"– Heydər Əliyeviç Nazirlər Soveti Rəyasət Heyətinin iclaslarını necə aparırdı? Deyilənə görə, Rıjkov özü olmayanda iclası aparmağı ona tapşırırdı.

– Birincisi, Rıjkov və Əliyev tamamilə müxtəlif insanlar idi. Burada üstünlüyü mən Əliyevə verirəm. Çünki respublikada müstəqil işlədiyi illər, bütün təsərrüfat kompleksinə cavabdehlik daşımaq bacarığı özünü göstərirdi, bu isə həm nəqliyyat, həm sənaye, həm kənd təsərrüfatı, həm tikinti, həm mədəniyyət, həm təhsil deməkdir. Onun düşüncəsi daha qlobal idi. Rıjkov isə "Uralmaş" zavodunun direktoru işləmişdi. Böyük, yaxşı, lazımlı zavoddur. Lakin Rıjkov xalis maşınqayıran idi. Strateq deyildi. Məsələlərin həllinə yanaşmadakı bu fərq hiss olunurdu.

Heydər Əliyeviç özünü çox ədəblə aparırdı, bir dəfə də eşitmədim ki, kiminsə üstünə qışqırsın, təhqir etsin, alçaltsın. O, çox nəzakətli idi. Əbəs yerə demirlər: "Şərq incə məsələdir". O çox ağıllı idi. Ümumiyyətlə, o, görkəmli şəxsiyyətdir".

Filip Bobkovla söhbətdən:

"Mən onu SSRİ Nazirlər Soveti sədrinin müavini postunda görmüşdüm, lakin o vaxt artıq əlaqələrimiz azalmışdı. Mən sədr müavini idim, nəqliyyat mənim sahəmə daxil idi, biz nəqliyyat daşınmaları problemləri ilə çox məşğul olurduq, onun komissiyalarında iştirak edirdim.

Hələ Əliyevdən qabaq bizdə videoyazılarla problem yaranmışdı: xarici kasetlər ortaya çıxmış, onların üzünün köçürülməsi və satışı başlanmışdı. Qanunsuz gəlirlər və alverdən başqa, diplomatlarla problemlər meydana çıxmışdı, çünki məmulatı ölkəyə əsasən diplomatlar gətirirdilər. Bir sözlə, burada problem çox idi: bununla necə mübarizə aparmalı, qarşısını necə almalı? Biz təklif etdik ki (Andropov hələ DTK sədri idi), tez bir zamanda öz videomaqnitofon və kasetlərimizin istehsalını qurmalı və öz məhsulumuzla işləməyə başlamalıyıq. Sov.İKP MK-nın katibi Zimyaninin rəhbərliyi altında komissiya yaradıldı. Komissiya bir neçə dəfə yığıldı və hamı təklifin əleyhinə çıxış etdi. SSRİ rabitə naziri Şamşin və mədəniyyət nazirinin birinci müavini Popov da qızğın çıxış edib dedilər

ki, bəs, bu baha işdir, yaxşısı budur güc metodlarından istifadə edin, idxalın qarşısını alın, mübarizə aparın və s. Onlar MK katibi Zimyanini inandırdılar ki, bu, bizə lazım deyildir. Mübairzə ilyarım, ya iki il davam etdi...

Andropovun Baş katib təyin olunmasından düz üç gün sonra videomaqnitofon istehsalının təşkili barədə qərar qəbul edildi. Nazirlər Soveti xətti ilə bu işlə Əliyev məşğul olurdu. Yadımdadır, gəldim onun yanına, bütün əhvalatı danışdım. Və o, praktiki olaraq ölkədə videosənayenin yaradılması ideyasının həyata keçirilməsini öhdəsinə götürdü. Təxminən ilyarımdan sonra biz artıq Voronej təyyarə zavodunda istehsal olunan sovet maqnitofonunu öz gözümüzlə gördük".

Aleksandra Biryukova ilə söhbətdən:

"Heydər Əliyeviç Nazirlər Soveti sədrinin birinci müavini idi. Birinci müavinlər ya iki, ya da ki üç idi, ancaq o, həmişə birincilər sırasında birinci idi. Bir misal gətirmək istəyirəm. Yüngül sənayeyə avadanlıq alınması üçün vəsaitin ilk hissəsini ayıranda, deyəsən, xarici valyuta ilə 496 milyon manat idi, Nazirlər Sovetinin Rəyasət Heyətində bu vəsaitin xərclənməsi məsələsi müzakirəyə çıxarıldı.

Mən təklif edirdim ki, Yaponiyadan parçaya arası kəsilmədən bəzək vuran 29 konveyer xətti alınsın, çünki ən yaxşı xətlər və ən ağlabatan qiymətlər onlarda idi. Bizdə isə bu ən "ağrılı" yer idi, demək olar ki, bütün köynəklik parçaları xaricdən alırdıq. Mən əmin idim ki, etiraz edəcəklər, çünki 29 xəttin qiyməti bəri başdan ayrılan məbləğdən kənara çıxırdı.

Adətən sosial sahədə böyük məsələlər müzakirə olunanda Heydər Əliyeviç məni yanına dəvət edirdi. Mən gəlirdim, cədvəllərimi düzürdüm, oturub fikirləşirdik, bunu necə edək, o birisini necə yoluna qoyaq. Heydər Əliyeviç məsələnin mahiyyətini çox dərindən öyrənirdi.

– Yaxşı, – deyirdi, – hansı mövqeyi tutacağıq? Onsuz da etiraz edəcəklər. Qoy əvvəlcə onlar çıxış etsinlər, sonra siz çıxış edərsiniz, mən isə yekun vuraram. Biz həmin gün qərar qəbul etmərik, mən yenidən işləmək üçün sizə iki gün vaxt verərəm, bundan son-

ra isə Nazirlər Sovetinə təqdim etmədən hər şeyi düzəldərik.

Rıjkov məzuniyyətdə olduğundan Əliyevin apardığı Rəyasət Heyətində məsələnin müzakirəsi başlandı. Maliyyə nazirliyi çıxış edir – əleyhinə, Plan komitəsi – əleyhinə. "Özümüz hər şeyi düzəldərik", – deyirlər. Necə düzəldəcəksən, axı nə layihə var, nə lisenziya.

Müzakirə zamanı bu məsələni Siyasi Büroya çıxarmaq təklifinə Heydər Əliyeviç dedi:

– Bizim, axı 496 milyon invalyuta manatımız var. Bu məbləğdən azca kənara çıxırıq.

Və Heydər Əliyev təklif etdi ki, əsasən bəyənilsin, tamamlanması isə Biryukovaya, maliyyə nazirinin müavininə və Nazirlər Sovetindən Laxtinə tapşırılsın, o, əslinə qalsa, Heydər Əliyeviçin birinci köməkçisi idi. Biz bu sərəncamı işləyib tamamladıq, Maliyyə Nazirliyi artıq Rəyasət Heyətsiz icazəsini verdi, Heydər Əliyev sənədi imzaladı və onu Siyasi Büronun təsdiqinə göndərdilər. Orada hər şey sakit keçdi, çünki heç kimin – nə Maliyyə Nazirliyinin, nə Dövlət Plan Komitəsinin iradı yox idi.

Yəni ki Heydər Əliyeviç hər şeyi qabaqcadan hesablamışdı, bilirdi ki, xeyli etiraz olacaq, məsələ isə vacibdir və onu Rəyasət Heyətindən "keçirmək" lazımdır. Ona görə də müzakirənin mümkün ssenarisini dəqiq-dürüst hesablayırdı ki, məsələnin müsbət həlli üçün lazım olan nəticəni alsın.

Ümumiyyətlə, əgər sən onun yanında oldunsa və o, söz verdisə – şərqsayağı və bütövlükdə bir müdrik insan kimi Əliyev məsələni necə həll etmək lazım olduğunu mütləq tapacaqdı, hətta bu məsələni Siyasi Büroda dəqiq "batıra" biləcəkləri halda belə. Əgər Siyasi Büro və ya Nazirlər Soveti bu qərarı qəbul etməyibsə də, o kömək üçün digər yollar axtarırdı.

– Bəs, hər hansı məsələnin müzakirəsi zamanı Əliyev öz fikrini söyləyə bilirdimi? Siyasi Büroda o özünü necə aparırdı?

– Heydər Əliyeviç təmkinlə, ədəblə öz fikrini söyləyirdi. Özü də bunu kifayət qədər inandırıcı, dəlilli-sübutlu edirdi. Əliyev heç vaxt cavabdan yayınmırdı, sözünü gizlətmirdi. O, Siyasi Büroda həmişə çıxış edirdi. Siyasi Büroda susmağı üstün tutan adam var idisə, o da Yeltsin idi. Düzdür, o öz kitabında yazır ki, çıxış edirdi,

amma bu belə deyil.

Mən mat qalırdım: Heydər Əliyeviç kobudluğa, sərtliyə yol vermirdi, lakin öz mövqeyini ölçülüb-biçilmiş, prinsipial ifadə edirdi. Onun dediklərini dərindən götür-qoy etdikdə görürsən ki, çox müdrik sözlərdir. O sanki heç kimin xətrinə dəymir, lakin sözü elə deyir ki, ağıllı adam öz səhvini başa düşür".

Vitali Vorotnikov xatırlayır:

"Onun üçün həyatının Moskva dövrü o qədər də asan keçmirdi. Özü də bu, təkcə onun üçün səciyyəvi deyil. Bu, bizim hamımız üçün səciyyəvidlir. Əyalətdən gələnlərə Moskva ənənələrinə, buradakı münasibətlər sisteminə öyrəşmək çətin idi. Üstəlik hökumətlə MK arasında müəyyən çəkişmələr mövcud idi. Ona görə də burada elə adam lazım idi ki, birincisi, bütün bu vəziyyətdən baş çıxara bilsin və öz ləyaqətini itirməsin. Əliyev isə şəxsi ləyaqət hissi yüksək olan adam idi. İnsaf xatirinə bunu etiraf etmək lazımdır. Bu, müəyyən çətinliklər yaradırdı. O işə dedikcə tez bələd oldu, Əliyev sosial məsələlərə, yüngül sənaye, nəqliyyat məsələlərinə baxırdı. Biz onunla tez-tez təmasda olurduq. O, mənə zəng vururdu, mən ona zəng edirdim, onun yanında müxtəlif problemlərlə bağlı müşavirələr keçirir, komissiyalarda iştirak edirdik. Siyasi Bürodan savayı, biz Nazirlər Soveti Rəyasət Heyətinin iclaslarında da görüşürdük. Xüsusilə nəqliyyat üzrə, BAM üzrə. Bu işlə vaxtilə Kosıgin və əlbəttə ki, Tixonov məşğul olmuşdular. Ancaq Tixonov operativ işin xırdalıqlarına çox da qarışmırdı, ona görə də istər-istəməz bütün bu problemlər Əliyevin çiyinlərinə düşürdü. O da cavan, enerjili idi, problemləri həll edirdi.

İkincisi – yükün, ərzağın, bütün lazım olanların Şimal daşıması idi. İki ay ərzində Ust-Kut, Osetrovı, Poleynitse vasitəsilə malları Rusiyaya daşıyırdılar. Əlbəttə, nazirliklər var idi, iqtisadiyyatın sahə sistemi var idi, lakin dəmiryol nəqliyyatı ittifaq tabeliyində idi, çay nəqliyyatı isə Rusiya hökumətinə tabe idi. Elə hallar olurdu ki, vaxtında qərar qəbul etmək, limanın inkişafı, malların gətirilməsinin uzlaşdırılması və s. üzrə qabaqcadan tədbirlər işləyib hazırlamaq lazım gəlirdi. Bax, belə müşavirələr çox olurdu.

– Bəs sizin görüşlərinizin ab-havası necə idi?

– İşgüzar, mehriban.

– Aranızda mübahisə olurdumu?

– Yox. Biz həmişə razılığa gəlirdik. O, şəxsi planda mənə çox hörmətlə yanaşırdı, mən də onun hörmətini saxlayırdım. Ona görə də ittifaq və respublika orqanları arasında problemlər yarananda, biz bunu "sonraya" saxlayırdıq və artıq onunla birlikdə müəyyən qərara gəlirdik. Deməliyəm ki, Əliyev müşavirələri çox sakit, ağıllı, savadlı aparırdı, məsləhətləşirdi. Onda diktatorlara xas olan xüsusiyyətlər yox idi: "Mən dedim – yerinə yetirin!". O dinləməyə, müqayisə etməyə, başa düşməyə çalışırdı.

...Biz onunla bir çox problemlərlə əlaqədar əməkdaşlığı davam etdirirdik, o cümlədən də idman tədbirləri ilə bağlı. Problemlərimiz az deyildi: kütləvi idmanı necə qaldırmaq, idman qurğularını necə tikmək, idman geyimini, idman avadanlığını necə yaxşılaşdırmaq? Dəmir yolunun, avtomobil nəqliyyatının işi ilə bağlı əlaqələrimiz də davam edirdi. Tez-tez problemlər yaranırdı. Lakin bütün bunlara baxmayaraq, bir daha təkrar edirəm, Heydər Əliyeviç özünü həmişə ləyaqətlə aparmağa çalışırdı. Əgər o, dərhal qərar qəbul edə bilmirdisə (necə olsa, o, humanitar təhsilli idi, iqtisadiyyat sahəsində mütəxəssis deyildi), mütləq yoldaşları dinləyirdi, danışmağa imkan verirdi. Hansısa qərarı birbaşa rədd edən və ya düşünmədən müdafiə edən diktator deyildi".

Qeyd edək: bütün müsahiblərim H.Əliyev xarakterinin səciyyəvi xüsusyyətini vurğulayırlar: başqasının fikrini nəzərə almaq bacarığı, peşəkarları qiymətləndirmək və onlardan öyrənməkdən çəkinməmək. Bu xüsusiyyətini o, müstəqil dövlətin rəhbəri olanda da itirmədi.

Heç şübhəsiz, səriştəli, bilikli və məlumatlı insanların yuxarıda verdiyimiz şərhləri, hadisə və faktlara qiyməti sübut edir: Yuri Andropov öz dostunu Moskvaya işə keçirməkdə səhv etmədiyinə çox tez əmin oldu. Hər tərəfdən Əliyev haqqında müsbət, hətta tərifli rəylər eşidilirdi. Və o, növbəti "atla gedişi" ilə hətta Heydər Əliyevin özü üçün gözlənilməz olan addımı atır, onu, Sosialist Əməyi Qəhrəmanının ikinci Qızıl Ulduzu ilə təltif edir.

"Bu, Heydər Əliyevin zəfəri idi"

1983-cü il mayın 10-da Heydər Əliyevin 60 yaşı tamam oldu. İkinci kitabda qeyd etdiyimiz kimi, o, ad günləri keçirməyi xoşlamırdı. Bu münasibətlə həmkarlarından təbriklər qəbul etməkdən isə lap zəhləsi gedirdi. Ona görə də SSRİ Ali Soveti Rəyasət Heyətinin ölkənin əsas informasiya proqramı olan "Vremya"da mayın 9-da səslənən fərmanı onu müəyyən dərəcədə çıxılmaz vəziyyətdə qoydu.

Fərmanda deyilirdi: "Kommunist Partiyası və sovet dövləti qarşısındakı böyük xidmətlərinə görə və anadan olmasının 60 illiyi münasibətilə Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Sosialist Əməyi Qəhrəmanı Heydər Əlirza oğlu Əliyev yoldaş Lenin ordeni və ikinci "Oraq və çəkic" qızıl medalı ilə təltif edilsin".

Mayın 11-də SSRİ-nin bütün mərkəzi qəzetləri Sov.İKP MK, SSRİ Ali Sovetinin Rəyasət Heyəti və SSRİ Nazirlər Soveti adından Heydər Əliyevə təbriklər dərc etdilər:

"Sov.İKP Mərkəzi Komitəsi, SSRİ Ali Soveti Rəyasət Heyəti və SSRİ Nazirlər Soveti Sizi, Kommunist Partiyasının və sovet dövlətinin görkəmli xadimini 60 illiyiniz münasibətilə ürəkdən təbrik edir.

Heydər Əliyeviç, ölkəmizdə kommunizmin təntənəsi və sovet xalqının rifahı naminə Sizə möhkəm cansağlığı, gələcək işlərinizdə uğurlar arzulayırıq".

O vaxtlar SSRİ DTK sədrinin birinci müavini işləyən Filip Bobkov mənimlə söhbətində bunları xatırladı:

"Yubiley zamanı Heydər Əliyev ona ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı adı verilməsi münasibətilə Andropovdan çox səmimi bir məktub aldı.

Mən bu yubileyi təsadüfi xatırlamadım. Bu yubileylə bağlı Heydər Əliyeviçin yanında olmuşdum. O, çox həyəcanla və məmnunluqla Yuri Vladimiroviçin göndərdiyi təbrik barədə danışdı".

O zaman Moskvada Heydər Əliyevin əsil zəfərinin şahidi olan Azərbaycan KP MK-nın keçmiş katibi Həsən Həsənov mənimlə söhbətində çox maraqlı təfərrüatları bölüşdü. O günlərin ab-havası-

nı, "bəxtəvər" yubilyarı əhatə edən ümumxalq sevgisini, coşqunu təcəssüm etdirən həmin söhbəti olduğu kimi verirəm:

"1983-cü ilin mayında Azərbaycan Kommunist Partiyası MK-nın katibi kimi Çexoslovakiyaya ezam olunmuşdum. Moskvaya gəlib Heydər Əliyevin qəbul otağına zəng vurdum, xahiş elədim ki, məlumat versinlər. Ad gününü xatırladıb, ertəsi gün onunla görüşmək barədə razılaşdım. Mayın 9-da axşam "Vremya" proqramından eşitdim ki, Heydər Əliyevi Sosialist Əməyi Qəhrəmanının ikinci Qızıl Ulduz nişanı ilə təltif ediblər. Mayın 10-da səhər onu təbrik etmək üçün Kremlə yollandım. Saat 10–11-in yarısı olardı. Heydər Əliyevin qəbul otağı artıq ağzınadək dolu idi. Burada kimlər yox idi! SSRİ-nin nazirləri, nazir müavinləri, müttəfiq respublikaların təmsilçiləri, yaradıcılıq ittifaqlarının rəhbərləri, ziyalıların nümayəndələri. Mən köməkçidən xahiş etdim ki, gəldiyimi bildirsin. O, məlumat verib qayıtdı və dedi: "Əliyev xahiş etdi ki, gözləyəsiniz və heç yerə getməyəsiniz. O, hamını qəbul edəcək və mütləq sizinlə danışacaq". Təbrik etmək arzusunda olanların sayı-hesabı yox idi. Mən Azərbaycandan gəlmiş yeganə adam idim ki, bunun şahidi olurdum. Gözləmə otağında olanlar məni Heydər Əliyev, Azərbaycan barədə sorğu-suala tuturdular. Nə gizlədim, onların Heydər Əliyevə olan marağı mənə çox xoş gəldi.

Gecə (!) saat 12-nin yarısında axının arası kəsildi və nəhayət, mənə də növbə çatdı. Heydər Əliyev yüksək əhval-ruhiyyə ilə gülçiçəyə bürünmüş kabinetində oturmuşdu. "Necədir, Həsən, gördünmü? Nəzərə al ki, bunu bizimkilərdən səndən başqa heç kim görmədi". Mən Heydər Əliyevi ürəkdən təbrik edib, qəbul otağında gün ərzində onun barəsində eşitdiklərim və müşahidə etdiklərimdən danışmağa başladım.

Çox gec olsa da, həmişəki kimi, Heydər Əliyevdə yorğunluq əlaməti görmədim. Hər ikimizin əhvalı, təbii ki, çox yüksək idi, biz ayrılmağa tələsmirdik. Heydər Əliyevin siyasi fəaliyyətə necə başlamasını, bu yolda üzləşdiyi maneələri, çətinlikləri yada salırdıq... Mən Heydər Əliyevə xatırlatdım ki, ikinci Qızıl Ulduz alması ilə əlaqədar Azərbaycanda onun heykəli ucaldılmalıdır. Əvvəlcə o, bu barədə hələ düşünmədiyini bəhanə edərək söhbəti yayındırmağa çalışdı. Artıq gecə yarıdan keçmişdi, telefonlar susmuşdu, heykəlin

qoyulacağı yer və müəllifi barədə fikirlərimizi bölüşmək üçün imkan yaranmışdı.

O vaxtlar SSRİ-də yazılmamış bir qanun vardı: təltiflər arasında müddət beş ildən az olmamalı idi. Bu interval çox nadir hallarda pozulurdu. 1979-cu ilin avqustunda Heydər Əliyev MK-nın birinci katibi vəzifəsində işləməsinin 10 illiyi münasibətilə birinci Qəhrəman Ulduzunu almışdı. Aradan cəmi üç il yarım keçəndən sonra yenidən yüksək mükafat. Onda o, mənə açıq ürəklə etiraf etdi: "Mən bu cür yüksək mükafatı gözləmirdim. Əlbəttə, təltif olunacağımı düşünürdüm, ya Lenin ordeni verəcəklərini, təbrik məktubu göndərəcəklərini gözləyirdim. Ancaq Qızıl Ulduz veriləcəyini ağlıma gətirmirdim. Bu, mənim üçün gözlənilməz oldu. Bundan son anda xəbər tutdum. Siyasi Büronun yığıncağından qabaq Andropov mənə zəng vurub dedi: "Sizi Ulduzla mükafatlandıracağıq".

Heydər Əliyev ona görə bunu gözləmirdi ki, SSRİ ali siyasi rəhbərliyinin iş üslubundakı bəzi doqmatik prinsiplərdən çox gözəl xəbərdar idi. Ancaq Heydər Əliyev ilk olaraq kommunist doqmalarından imtina etmək yolu ilə getdi və ondan nümunə götürən ölkənin ali rəhbərliyi də istisna etməyi qərara aldı. Həmin gün xatirimdə unudulmaz bir gün kimi qaldı. Pafossuz deyə bilərəm: bu, Heydər Əliyevin zəfəri idi".

İndi qalırdı büstün yerini və müəllifini seçmək. İcraçı barədə tərəddüd yox idi – ancaq öz azərbaycanlı sənətkarlarımız olmalı idi. Çox fikirləşmədən Heydər Əliyev Ömər Eldarov–Rasim Əliyev tandemi üzərində dayandı.

Ömər Eldarovun dediklərindən: "Əlbəttə, onun büstünü İncəsənət Akademiyasının prezidenti Tomski də, Vuçetiç də yapa bilərdi. Bunu ona təklif də etmişdilər. Ancaq Heydər Əliyevin bu məsələ ilə bağlı öz prinsipial mövqeyi vardı. Azərbaycan KP MK-nın birinci katibi olduğu vaxt o, İttifaqın heykəltəraş elitası ilə çox tez-tez görüşürdü. Rusiya sənətkarları da ədəbiyyat və incəsənət günlərində, bütün mümkün yaradıcı konfranslarda iştirak etmək üçün Azərbaycana gəlirdilər...

Heydər Əliyevin prinsipial mövqeyi onda idi ki, bir çox rusiyalı sənətkarlarla geniş dostluq əlaqələri olsa da, onlardan heç birinə sifariş vermədi. Söhbət təkcə onun büstündən getmir. O, ümumiy-

yətlə, Azərbaycan üçün onlardan heç birinə heç bir şey sifariş verməmirdi. Yalnız azərbaycanlı heykəltəraşlar ilə iş görürdü. Heydər Əliyev mənə deyirdi: "Bu işi sizə tapşırıram. Əvvəla, güman edirəm ki, öhdəsindən gələrsiniz. İkincisi, hesab edirəm ki, mənim heykəlimi öz heykəltəraşımız düzəltməlidir".

Abidə üçün yerin seçilməsində də tərəddüd olmadı – ancaq Naxçıvanda, onun doğulduğu şəhərdə. Bəs şəhərin məhz harasında?

Məsələnin həlli ilə Heydər Əliyev 1983-cü ilin avqustunda, qanuni məzuniyyətini götürüb, Azərbaycana istirahətə gələndə məşğul oldu.

Tahir Salahovun söylədikləri:

"Biz Ömər Eldarovun emalatxanasında görüşdük. Kamran Bağırov və Ramiz Mehdiyev də orada idilər.

Söhbət onun büstünün Naxçıvanın harasında qoyulacağından gedirdi. Heydər Əliyev, hətta təyyarə ilə Naxçıvana uçmağa hazırlaşırdı, ancaq bu, o qədər də ürəyincə deyildi. Doğrudur, məsələ onu narahat edirdi, lakin özünə aid olduğu üçün xüsusi canfəşanlıq göstərə bilmirdi. Büst üçün yeri mən seçməli idim. Sözləşdik ki, təyyarə ilə Ömər Eldarov və Rasim Əliyevlə birlikdə Naxçıvana uçaq. Mən xahiş etdim ki, Ramiz Mehdiyev də MK-nın təmsilçisi kimi bizimlə getsin.

Naxçıvanda birinci katib İnqilab bağında seçilmiş yeri göstərdi. Rasim Əliyev və Ömər Eldarov artıq layihəni hazırlamışdılar. Onlar bu yeri ona görə seçmişdilər ki, yaxınlıqda inqilab mübarizələrinin abidəsi ucalırdı, bağın mərkəzində isə büstün qoyulması planlaşdırılırdı. Mən başqa fikirlərin, ideyaların olub-olmaması ilə maraqlandım.

Maarif evinin yaxınlığına getdik. Orada mərkəzi hissədə büst üçün kifayət qədər müvafiq olan boş sahə vardı. Sonra Mömünəxatun türbəsinə yollandıq, orada xeyli gəzişdik. İndi salınmış park o vaxt yox idi. Şüşə və alüminiumdan quraşdırılmış sərgi zalı və kiçik baxış meydançası vardı.

Mən məhz bu yeri seçdim. Hətta yadımdadır, konkret yeri nişanlamaq üçün ayağımı qoydum. Həmin dəqiqə bir daş gətirib o yerə qoydular.

– Bəs niyə siz məhz o yeri seçdiniz?

– Əvvəla, bu çox layiqli yerdir. İkincisi, açıqlıqdır. Bir tərəfdən köhnə Naxçıvan görünür, o biri tərəfdən yenisi. Hətta büstün baxacağı istiqaməti də müəyyənləşdirdik. Baxdığımız əvvəlki yerdə – bağda isə heykəl ağaclarla örtüləcəkdi. Heykəli görmək üçün yaxına getmək lazım gələcəkdi.

Sonra biz Bakıya qayıtdıq. Ramiz Mehdiyevlə birlikdə Kamran Bağırovun yanına getdik. Heydər Əliyev də orada idi. Naxçıvanın xəritəsini götürüb Heydər Əliyevə əvvəl seçilmiş yeri göstərdik. Mən dedim:

– Əgər siz mənim fikrimi bilmək istəyirsinizsə, mən başqa yeri məsləhət görürəm.

Bu, adi tövsiyə deyildi, SSRİ Rəssamlar İttifaqının birinci katibinin zəmanəti idi.

Bu yeri nə qohum, nə memar seçmişdi, məhz mən – SSRİ Rəssamlar İttifaqının başçısı gözaltı eləmişdim. Axı ölkədə yaradılan bir çox abidələr, bizim İttifaqdan keçib həyata vəsiqə alırdı. Bundan sonra o dedi:

– Görünür, mən Naxçıvana getməyəcəyəm.

Belə düşünürəm ki, o, daxilən bu işdə iştirak etmək istəmirdi. Fikirləşirdi ki, bu onun tərəfindən qeyri-təvazökarlıq olar".

Gələcək layihənin müəllifi **Ömər Eldarov** mənim diqqətimə başqa bir versiyanı çatdırdı:

"Heydər Əliyev özünün həll edəcəyi məsələni heç kimə tapşırmayıb. Elə həmin gün o, xüsusi olaraq Naxçıvana gəldi.

O öz gənclik xatirələrinə söykənən fikri, rəyi ilə gəlirdi. O bilirdi ki, Naxçıvanda Böyük bağ var. Ancaq baxımsız vəziyyətə düşmüş bu bağ indi hansısa rəsmi idarənin qarşısında artıq ömrünü başa vuran ağaclardan ibarət idi. Rasimlə mən həmin yerə qabaqcadan nəzər yetirmişdik. Axı biz artıq Heydər Əliyevin fikrini bilirdik.

Naxçıvana gələndən sonra Rasimlə birgə bağı bir də nəzərdən keçirdik. Mən Rasim üçün də, elə o biriləri üçün də gözlənilməz bir təklif etdim. Məsələ burasındadır ki, yaxınlıqda Mömünəxatun türbəsi ucalırdı. Orada geniş darvazalar vardı. Az aralıda da sürüş-

mək üçün buz meydançası. Meydançadan keçib yarğanın qırağına yaxınlaşdıq. Oradan Azərbaycana sanki pəncərə açılırdı. Doğrudur, İran daha çox görünürdü. Ancaq bu o qədər də əhəmiyyətli deyil. Genişlik, təbiət, gözəl mənzərə açıq-aydın hiss olunurdu. Düşündüm ki, Böyük bağda büst hər tərəfdən sıxılmış, gizlədilmiş kimi görünəcək. Nəzərə çarpmayacaq. Onda o nəyə lazımdır? Axı iki dəfə qəhrəman olmuş adamın büstünü qoymaq bizim üçün əlamətdar hadisə idi. Bu, azərbaycanlıya – SSRİ Nazirlər Soveti sədrinin birinci müavininə qoyulmuş ilk bu tipli abidə olacaqdı. Abidənin parametrləri qabaqcadan müəyyənləşdirilmişdi, hansısa material oradan, hansısa buradan gətirilməliydi, pyedestal bu cür, büst bu cür olmalı idi. Bəzi xırda-para düzəlişlər də vardı. Baxımsız bağda bu cür abidə gözə görünməyəcəkdi.

Mən Ramiz Mehdiyev də daxil olmaqla onların üçünə də dedim: "Heydər Əliyevin büstü bu ənginlikdə, yarğana yaxın yerdə qoyulmalıdır ki, gözə başqa heç bir şey görünməsin. Mənzərə çox uzaqdan görünür ki, bu da bizim üçün sərfəlidir. Onda abidə daha çox nəzərə çarpır. Dağlar, çaylar uzaqdan çox kiçik görünür, bu da abidənin daha qabarıq görünməsinə səbəb olur". Bu priyomdan tez-tez istifadə edirlər. Bax, Hökumət Evinin qarşısında Leninin heykəli düzgün qoyulmamışdı. On bir metrlik abidə binaya çox yaxın məsafədə ucaldılmışdı. Bu səbəbdən də çox cılız görünürdü. Moskvada Lomonosovun heykəli isə binadan uzaqda durur. Universitetin nəhəng binası onu "uda" bilmir. Çünki o, görkəmli yerdədir. Mən bunları izah etdim. Tahir Salahova bunu başa salmağa vaxt lazım deyildi. Rasimə də həmçinin. Ramiz Mehdiyev də hər şeyi başa düşdü.

Belə ki, biz meydanda dayanıb onun gəlişini gözləyirdik. O gəlib soruşdu: "Hə, nə təklif edirsiniz? Bu bağı uşaqlıqdan xatırlayıram. Məncə, ondan yaxşı yer ola bilməz". Mən öz düşündüklərimi ona bildirdim. O, sualedici nəzərlərlə Tahir Salahova baxdı. O isə dedi: "Düzgün təklifdir". Rasim də məni dəstəklədi. "Deməli, razısınız?" Bu ideya onun xoşuna gəlmişdi. O dərhal bizi başa düşüb variantımızı müzakirə etməyə başladı, Böyük bağı isə yaddan çıxardı. Bax, belə bir əhvalat baş vermişdi".

Mötəbər mütəxəssislərin versiyaları ilə tanış olandan sonra **Ramiz Mehdiyev** bəzi dəqiqliklər etməyi zəruri bildi.

"Heydər Əliyev məzuniyyətə 1983-cü il yayın sonu, payızın əvvəlində gəldi və bizi – Ömər Eldarovu, Tahir Salahovu, Rasim Əliyevi və məni Kamran Bağırovun kabinetinə çağırdı. Heydər Əliyev dedi ki, iki dəfə Sosialist Əməyi Qəhrəmanı olanların vətənində büstünün qoyulması barədə Siyasi Büronun qərarı var. "Siyasi Büronun qərarı ilə mənim də büstümün doğulduğum şəhərdə – Naxçıvanda qoyulması barədə tapşırıq verilib. Bundan əlavə, mən Rasim Əliyevə tapşırmışam, onlar da Ömər Eldarovla artıq bəzi təkliflər hazırlayıblar. İstəyirəm siz də oraya gedib baxasınız ki, büst harada qoyulsa daha yaxşı olar".

Onlar həqiqətən naxçıvanlıların Böyük bağ adlandırdığı köhnə parkı seçmişdilər. Orada tribuna və Leninin heykəli olan kiçik meydança vardı. Bayram günlərində elə parad, zəhmətkeşlərin nümayişi də həmin meydanda keçirilirdi. Parkın düz ortasında banditlərlə mübarizədə həlak olmuş sərhədçilərin məzarı üstündə kiçik bir abidə ucaldılmışdı. Həmin vaxt artıq parkın girəcəyində Leninin heykəlini götürmüşdülər. Yalnız tribuna qalmışdı. Bax, elə büstü o tribunanın yerində qoymaq istəyirdilər.

Parka uşaq vaxtlarımdan bələd idim. Çünki bu şəhərdə boya-başa çatmışdım və hər künc-bucağına baş vurmuşdum. Ona görə də Heydər Əliyev məndən hamı ilə birgə ora getməyi xahiş etdi. Biz Naxçıvana gəlib vilayət komitəsinə daxil olanda birinci katib Nurəddin Mustafayev Naxçıvançayın sahilində başqa bir yeri təklif etdi. Ora maraqlı bir yer idi: qarşı tərəfdən çay axırdı, uzaqdan İlandağ və ya Haçadağ görünürdü. Başqa sözlə, çox gözəl məkan seçilmişdi. Hazırda orada yaşayış mikrorayonu inşa edilib. Bu yerə yaxşı bələd idim, "Tala" adlanan yerin yaxınlığındakı 3 saylı məktəbdə oxuyurdum. Orada məktəbli yoldaşlarımla futbol oynayardıq. "Tala" bizə təklif olunan yerin yaxınlığında idi. Oraya gedib ətrafı nəzərdən keçirdik.

Qrupun hörmətli üzvləri ilə mübahisə etməyəcəyəm. Ancaq mən dedim: "Gəlin bir yerə də baxaq". Axı Naxçıvanı mən onlardan yaxşı tanıyırdım. "Gəlin, – dedim, – Mömünəxatun türbəsinə tərəf gedək". Orada hansısa yarımçıq qalmış idman qurğusu olma-

sından xəbərim yox idi. Gəldik. Buradan gözəl bir panoram açılırdı: bir tərəfdə Mömünəxatun türbəsi, o biri tərəfdə uzaqdan Araz çayı, bir qədər o yanda isə İran. Nə vaxtsa burada Sabir adına park və maşın-traktor stansiyası yerləşirdi. Genişlik, panoram çox maraqlı, hətta deyərdim ki, tarixi idi. Dedim: "Məncə, büst üçün bundan yaxşı yer tapmaq mümkün deyil".

Bu ideya Tahir Salahovun da, Ömər Eldarovun da çox xoşuna gəldi. Hər üç məkan barədə məlumat vermək qərarına gəldik. Bu düşüncə ilə Bakıya döndük. Yenə də Kamran Bağırovun kabinetində toplaşdıq və Heydər Əliyevlə birlikdə hər üç yeri müzakirə etdik. Növbə mənə çatanda dedim: "Mən Mömünəxatun türbəsinin qarşısındakı yeri seçərdim". – "Nə üçün?" – "Oradan möhtəşəm bir panoram açılır: türbə, Xan sarayı, Araz çayı, aşağıda da şəhər". Heydər Əliyev məni dəstəklədi: "Ramiz düz deyir, ora həqiqətən gözəl, tarixi yerdir. Özü də Xan dikinin qarşısında".

Sonra onlar Rasim və Ömərlə Naxçıvana getdilər və abidənin ucaldılacağı yeri qəti şəkildə müəyyənləşdirdilər.

Həmişə qürur duyurdum ki, bu yeri ilk dəfə mən təklif etmişəm".

Ramiz Mehdiyev kimi, biz də bütün versiyalara hörmətlə yanaşaq. Çünki onsuz da axırda həqiqətən kollektiv qərar qəbul olundu. Tezliklə layihə üzərində iş başlandı.

"Birinci etüdü burada – Bakıda hazırladım, – deyə Ömər Eldarov xatırlayır. – Ertəsi gün MK-da görüşümüzdən sonra Heydər Əliyev emalatxanama gəldi, bir saata yaxın qarşımda əyləşdi. Heç bir şey alınmırdı. O, etüdə baxıb dedi: "Narahat olmayın, biz hələ Moskvada da görüşəcəyik, etüdü orada hazırlayarsınız. Siz hələ işə tam girişməmisiniz, ya da ki, bəlkə də, həyəcanlısınız".

Beləliklə, o çıxıb getdi.

Sonra məni Moskvaya çağırdı. Məhz iki dəfə Qəhrəman olanların büstləri ilə məşhurlaşan heykəltəraş Rukavişnikovla qabaqcadan danışıb razılığa gəlmişdilər. O, mərkəzdə, Kalinin prospektində yerləşən emalatxanasını bizim ixtiyarımıza vermişdi. Artıq orada görüş təyin olunmuşdu. Görüşdə Tahir Salahov da iştirak edirdi. O, Heydər Əliyevlə daha yaxın olduğundan asanlıqla ünsiyyətə girə bilirdi. Bu seansda Rasim Əliyev də iştirak edirdi – o bir tərəfdən memar, o biri tərəfdən də Heydər Əliyevin qardaşı oğlu idi. Odur ki, onun əlaqələri daha sıx idi. Heydər Əliyev iki seansda naturadan işləməyimə imkan yaratmışdı. Odur ki, nahara gedə bilmədi. Zərifə xanım narahat olub zəng vuranda artıq Tahir Salahovla Rasim "Bakı" restoranına yemək sifariş vermişdilər. Fasilə vaxtı nahar etdik. İkimərtəbəli emalatxanada hər cür şərait yaradılmış, mebellə gözəl bəzədilmişdi. Heydər Əliyev mənim necə işlədiyimi diqqətlə izləyirdi. Tahirlə Rasim gərginliyi aradan qaldırmağa, ünsiyyət qurmağa kömək edirdilər. Yadımdadır ki, Tahir dedi: "Heydər müəllim, siz əyləşmisiniz, oturan adamın görünüşü başqa cür olur. Ayaq üstə durmaq lazımdır". Mənim ondan ayağa qalxmasını xahiş etməyə cəsarətim çatmazdı. Ancaq Heydər Əliyev dərhal ayağa qalxdı.

Bir gün ərzində biz iki seans keçirdik. Etüd yaxşı hazırlanmışdı. Görüşə qədər mən hazırlıq işləri görmüşdüm, daha doğrusu, plan düzəltmişdim, sonra vaxt itirməyim deyə, yadıma düşənlərdən palçıq hazırladım. İşin gedişində biz söhbətləşirdik. O özünü, ümumiyyətlə, çox sərbəst aparırdı. Onun yaddaşına heyrət edirdim. O, yadda saxlanılması çətin olan hər cür detalları xatırlayırdı: filan binanın, filan abidənin müəllifi kimdir. Bakıdakı bu və ya digər obyektlər barədə fikirlərini, çox vaxt da tənqidi fikirlərini söyləyirdi. Söhbət onun hakimiyyətə gəlməzdən əvvəl və birinci katib olduğu vaxtlarda tikilmiş obyektlərdən gedirdi. O, dərhal heykəltəraşa, onun işinə qiymət verirdi, özü də bu qiymətlər tamamilə dəqiq idi.

Həmin iki seans mənə kifayət etdi. Tahir də çox dəyərli məsləhətlər verdi. Fotoşəkillərdən başqa, naturadan çəkilmiş etüd mənim üçün əsas material oldu. Belə bir ənənə vardı – iki dəfə Sosialist Əməyi və ya Sovet İttifaqı Qəhrəmanı olan hökumət, Siyasi Büro üzvlərinin hamısı heykəltəraşlar qarşısında poza almalı idilər. Heydər Əliyev bunu bilirdi, odur ki, qarşımda müəyyən vəziyyətdə durmağa razılıq verdi, hətta bunun lazım olduğuna təəssüf göstərdi.

– Heydər Əliyev abidəni quraşdırılmış halda görmüşdü?

– Xeyr. İki dəfə Zərifə xanımla emalatxanama gəlib büstə baxmışdı.

– Büstün üzərində çox işləmisiniz?

– Təxminən bir ilə yaxın. Layihə üzərində iş, abidənin qoyulacağı yerin seçilməsi, büst üzərində iş də bura daxildir. Abidəni o, hələ SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olarkən ucaltmışdılar".

Rasim Həsən oğlu Əliyev ansamblın memarlıq hissəsinin müəllifi idi. Onunla görüşüb bu tarixi layihənin necə həyata keçirildiyi barədə danışmasını xahiş etdim:

"Bizim layihəyə görə bu, park olmalı idi. Bu park Qızlar bulağı adlanan yerə qədər uzanırdı. Qızlar bulağı ilə gələcək park arasında tikintisi başa çatmamış idman qurğusu ucaldılmışdı. Və bu, ümumi panoramı korlayırdı. Ona görə də biz onu söküb, ərazini birləşdirdik, parkın layihəsini hazırladıq. Məsələnin çətinliyi onda idi ki, bu yerin ərazisi dübbədüz idi. Əgər abidəni şaquli planlaşdırma aparmadan qoysaydıq, heykəl "itib-batacaqdı". Perspektiv nəzəriyyəsində belə bir qanun var: düz müstəvidə hər hansı şaquli qurğu ucaldılırsa, üfüqi xətt dərhal əks tərəfə əyilir. Onda mən çıxış yolu tapdım. Parkın ərazisini süni şəkildə torpaqla elə doldurdum ki, heykəl ən yüksək nöqtədə, episentrdə qalsın. Ancaq torpağı elə tökmək lazım idi ki, kənardan baxana şaquli vəziyyət görünsün. Heç kim hiss eləmirdi ki, burada yüngül maillik var. Ortasına büstü və postamenti yerləşdirdim. Heykəl Siyasi Büro üzvləri üçün təyin olunmuş parametrlərə uyğun gəlməli idi. O, Siyasi Büronun bütün üzvləri, iki-üç dəfə Sosialist Əməyi Qəhrəmanları üçün müəyyənləşdirilmiş metrajdan hündür olmamalı idi. Büstün forması fərqli ola bilərdi, ancaq büstün və postamentin ölçüləri eyni olmalı idi. Bu artıq limitləşdirilmişdi. Bax, bu yüngül maillik qoyulmuş standartlara əməl etməklə abidənin yüksək görünməsinə imkan yaratdı.

Heykəli quraşdırmaq da, sən demə, asan məsələ deyilmiş. Çünki dörd metrlik bütöv qranit bloklar bir-birinə millimetr-millimetr uyğun gəlməli idi. Bu, Ukraynadan gətirilmiş tok qraniti idi. İşə kombinatın özündə nəzarət olunmalı idi, mən də, əlbəttə ki, ora gedirdim. Çünki bircə millimetr səhvə yol verilsəydi, onda ayrı-ayrı hissələrdən, qranit bloklardan yığılan altıüzlü, səkkizüzlü plitədə heç bir şey uyğun gəlməzdi. Bu, həqiqətən, zərgər işi idi. Təbii ki, mən də memar kimi müəllif nəzarətini həyata keçirirdim. Heykəl

təxminən bir ildən sonra ucaldılmışdı".

O illərdə Naxçıvan Şəhər Partiya Komitəsinin katibi işləmiş Şəmsəddin Xanbabayevin sözlərinə görə, layihənin həyata keçirilməsi üzərində işə 1985-ci ildə başlanılmışdı. Abidənin təntənəli açılışı isə 1986-cı il iyulun 31-də oldu. Bu münasibətlə respublika KP MK-nın birinci katibi Kamran Bağırov Naxçıvana gəldi.

Xanbabayev onu da deyir ki, Ömər Eldarov səhv edir: Heydər Əliyev büstün yerinin seçilməsi üçün Naxçıvana gəlməyib. Ümumiyyətlə, o, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işlədiyi dövr ərzində bir dəfə də olsun öz "kiçik Vətəni"ni ziyarət etməyib. Onun Naxçıvan Muxtar Respublikasına son səfəri isə 1980-ci ilə təsadüf edir.

Yeri gəlmişkən, bu və ya digər hadisənin şahidləri ilə söhbət zamanı mən həmişə insan yaddaşının fərdiliyinə heyrət edirdim. Bir-birinə zidd, bir-birinin əksi olan versiyalar irəli sürülürdü. Büstün qoyulması hadisəsində də belə olmuşdu. Mənzərənin tam olması üçün və nüfuzlu həmsöhbətlərimə hörmət əlaməti olaraq, təhkiyəmizə ağırlıq gətirsə də, mən bütün versiyaları söyləməyi lazım bildim.

O vaxtdan iki dəfə Sosialist Əməyi Qəhrəmanı Heydər Əliyevin büstü naxçıvanlıların qürur yerinə çevrilib. Baxmayaraq ki, Naxçıvanın tarixində çətin günlər az olmayıb. Belə günlərdən birində Heydər Əliyevin qəzəblənmiş əleyhdarları vandalizmə əl atdılar. 1995-ci ilin martında dövlət çevrilişinə cəhd zamanı silahlı müxalifətçilərdən biri büstə qranatomyotdan atəş açdı. Ş.Xanbabayevin dediyinə görə, həmin vəhşiliyi törədənlərdən birini həbs etdilər, əsas icraçı isə Allahın bəlasına gəldi – həmin gecə evində infarktdan keçindi (!).

"Büst postamentə elə möhkəm bərkidilmişdi ki, ona heç bir şey olmamışdı, – deyə Ş.Xanbabayev xatırlayır. – Yalnız döşünün sağ tərəfində kiçik dəlik yaranmışdı. Mən Bakıya Heydər Əliyevə zəng vurdum və bu bəd xəbəri ona çatdırdım. O, layihənin müəllifləri – Ömər Eldarov və Rasim Əliyevlə əlaqə saxlamağı xahiş etdi. Həmin vaxt onlar Təbrizdə idilər və mənim zəngimdən sonra dərhal Naxçıvana gəldilər".

"Bəli, – deyə Ömər Eldarov təsdiq etdi. – Mən bərpa işləri aparmaq üçün Naxçıvana getdim, tökmə ustalarını da özümlə apardım. O vaxt Vasif Talıbov Ali Məclisin sədri, Şəmsəddin Xanbabayev isə Nazirlər Sovetinin sədri idilər. İkisi də büstün üstündə bərpa işləri apararkən əvvəldən axıradək yanımızda oldu. Ustalar fiquru götürüb emalatxanaya aparmağı və bərpa işlərini orada görməyi tələb edirdilər. Ancaq bu, mümkün olan şey deyildi. Təsəvvür edirsinizmi, necə hay-küy qopardı – Heydər Əliyevin abidəsini uçurublar! Ona görə də biz elə yerindəcə işləməyi qərarlaşdırdıq. Bir gecəyə işi başa çatdırdıq".

Belə danışırlar ki, bu hadisədən sonra Nehrəm kəndinin sakinləri şəxsi təşəbbüsləri ilə büstün kənarında gecə-gündüz növbə çəkməyə başlayıblar.

Heydər Əliyevin vəfatından sonra Naxçıvanda Azərbaycan xalqının ümummilli liderinə möhtəşəm bir abidə ucaltdılar. Buna baxmayaraq, Heydər Əliyevin büstü və abidənin ətrafında salınmış park şəhərin əsas görməli yerlərindən biri olaraq qalır.

Həm Naxçıvanın qonaqları, həm də yerli əhali oranı ziyarət etməyi çox xoşlayır.

"O çox sürətlə irəli çəkilirdi"

Bu fəsildə Heydər Əliyevin Siyasi Büro üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işlədiyi vaxtlarda onunla sıx təmasda olmuş insanların xatirələri toplanıb. Müxtəlif yönlü bu xatirələr ciddi, bəzən, hətta sərt, eyni zamanda mərhəmətli, ətrafındakılara qarşı diqqətli olan bir rəhbərin – Heydər Əliyevin şəxsi keyfiyyətləri barədə insanda əhatəli və dolğun təsəvvür yaradır. Xatirələrdə oxucu üçün gözlənilməz olacaq bəzi şeylər Heydər Əliyevin artıq şüurlarda formalaşmış portretini hansısa yeni cizgi və çalarlarla bir daha tamamlayacaqdır. Onların dəyəri də, şübhəsiz, bundadır.

Nikolay Baybakov:

O, hökumətdə nəyə cavabdeh olduğunu çox tez başa düşdü. Bütün məsələləri operativ və dəqiqliklə həll edirdi. Mən bunu Dövlət Plan Komitəsinin sədri kimi məsuliyyətlə bəyan edirəm.

İvan Laptev:

"Onun bəlası, əgər bu sözü işlətmək yerinə düşərsə, onda idi ki, çox sürətlə irəli çəkilirdi, məşhurlaşırdı. Siyasi Büroda isə bunu çox qısqanclıqla qarşılayırdılar. Andropov, ondan sonra da Çernenko Heydər Əliyevin dəyərini başa düşür və ona güvənirdilər".

Andrey Loqinov:

"80-ci illərdə Heydər Əliyev Nazirlər Soveti sədrinin müavini olarkən onunla birgə çalışan insanlarla tez-tez görüşürdüm. Bu adamların təəssüratları məndə heyrət doğurur. Əvvəla, onların birindən də irad, tənqidi fikir eşitmədim. Hərçənd, bildiyiniz kimi, Sovet İttifaqının 80-ci illərdəki rəhbər liderləri nadir hallarda xoş sözlə xatırlanır. Heydər Əliyevə münasibətdə Köhnə meydanın dəhlizlərində, Kremldə onunla birgə işləmiş insanların hamısı onu xoş hisslərlə xatırlayır, fantastik işgüzarlığını, yüksək insaniyyətini qeyd edirdilər. Bütün bunlardan əlavə, insanlar onun erudisiyasına heyrət edir, problemi dərhal anlamaq qabiliyyətinə mat qalırdılar. O, dövlətdə yüksək partiya vəzifəsi tutmasına baxmayaraq, məsələlərə yanaşmada ideoloji çərçivədən uzaq idi. Bütün bu xatirələr bugünkü Rusiya məmurlarının, Rusiya elitasının mentalitetində nəzərəçarpan gerçəklikdir".*

Camal Camalov:

"Bu, çox yaraşıqlı, zövqlə geyinmiş kişi idi. Kostyumu əyninə qutu kimi otururdu. Köynəyi, qalstuku, kostyumu – hər şey sanki məxsusi onun əyninə biçilmişdi. Saç düzümü, gözləri, hətta üzündəki xallar da ona yaraşıq verirdi. Onu kiminləsə müqayisə etmək mənim üçün çox çətindir.

Onu azərbaycanlı olduğu üçün tərifləmirəm. O, hərtərəfli inkişaf etmiş insan idi, gözəl natiq, dərin biliyə, güclü işləmək bacarığına malik, tələbkar insan. Bütün bu keyfiyyətləri özündə birləşdirən sədr müavininə çoxdan rast gəlməmişdik. Mənə elə gəlir ki, əgər Heydər Əliyev siyasətçi yox, yazıçı olsaydı, görkəmli yazıçı, aktyorluğu seçsəydi, böyük aktyor olardı. Hansı sahədə çalışsaydı, yüksək səviyyədə olacaqdı.

* V.Mustafayevin "Moskva. Kreml" filmindən.

Nikolay Rıjkovla Heydər Əliyevin yığıncaqlardakı çıxışlarını müqayisə etdikdə, onların arasındakı fərq aydın görünürdü. Çıxışları üzərində işləyərkən Heydər Əliyev onlara qəlbinin hərarətini qoyurdu, onun hər bir fikri əsaslandırılmış olurdu və demək istədiyi fikri insanlara çatdıra bilirdi. Bu, hər kəsə nəsib olan şey deyil.

Rıjkov yaxşı mühəndis, təsərrüfatçı idi. Ancaq natiqlik qabiliyyətinə malik deyildi, dinləyicilərinə öz fikrini çatdıra bilmirdi. Bu cəhətdən Heydər Əliyev hamıdan yüksəkdə dururdu. Orta pillə rəhbərləri arasında onun yüksək səviyyəli, parlaq, güclü peşəkar, həm də xarici görünüşcə çox cazibədar mütəxəssis imici yaranmışdı. Heydər Əliyevlə görüşə gələn insanlar bilirdilər ki, suallara cavab verməyə 120 faiz hazır olmalıdırlar. Əgər sən hansısa suala cavab verə bilməyəcəksənsə, onda yaxşısı budur, onun yanına getməyəsən. O özünə olduğu kimi, tabeliyində olanların hamısına qarşı çox tələbkar idi.

Nazirliklərin kollegiya iclaslarında çıxış edərkən, istər Yollar Nazirliyi olsun, istərsə də Səhiyyə Nazirliyi, fərqi yoxdur, hamı deyirdi: "Bizim nazirlər belə çıxış edə bilməzlər. O, hər şeyi o qədər anlaşıqlı izah edir ki, öz fikrini hər kəsin diqqətinə çatdıra bilir".

Vladimir Uxov:

"O, iş yoldaşlarına qarşı çox diqqətcil idi. Misal üçün, Saşaya (Aleksandr İvanov–***E.A.***) çox tez bir zamanda mənzil "düzəltdi". Camal ev aldı. Adətən, hətta daha yüksək dərəcəli işçilər uzun illər mənzil intizarında olurlar. Camal isə yalnız katib-müşavir idi. Bayramlar ərəfəsində həmişə katiblikdə olanların hamısını dəvət edərdi. Biz onun iclaslar keçirdiyi böyük, uzun stolun ətrafına yığışardıq. Heydər Əliyev hamını təbrik edib, xoş sözlər söyləyərdi. 8 Martda qadınlara gül dəstəsi təqdim olunardı. Sonda isə o deyərdi: "Kimin imkanı varsa, bu gün işdən bir qədər tez gedə bilər. Biz isə, – üzünü kişilərə tutardı, – hər halda, gəlin qalaq. Biz hələ işləməliyik". Həmişəki kimi işləyirdik, qadınları isə evə tez buraxırdıq...

Ondan yaşca cavan, səviyyəcə aşağı olsaq da, o hər birimizlə, hətta daim görüşdüyü adamla da "siz"lə danışırdı".

Yuri Soloduxin:

"–Bəs siz Heydər Əliyevin təklifindən boyun qaçıra bilərdinizmi?

– Əlbəttə. Ancaq mən işimi dəyişməyi xoşlayırdım. İki-üç il bir yerdə qalmaq məni darıxdırırdı, özümü yeni bir işdə sınamaq istəyirdim. Digər tərəfdən, mən təkcə yeni işi yox, həm də kiminlə işləyəcəyimi nəzərə alırdım. Əliyev barədə əvvəllər həmkarlarımdan çox eşitmişdim.

Mən MK-nın təbliğat şöbəsinə 1980-ci ildə gəldim. 1979-cu ildə isə Bakıda mənəviyyat məsələlərinə həsr olunmuş böyük Ümumittifaq elmi-praktik konfransı keçirilirdi. Orada əsas məruzə ilə Heydər Əliyev çıxış edirdi. Onun üçün bu məruzəni mənim həmkarlarım hazırlamışdılar. Onların içində istedadlı, parlaq şəxsiyyət, gözəl qələm sahibi olan Vladimir Fyodoroviç Provodorov da vardı. Sonralar Volodya mənə heyranlıqla danışırdı ki, Əliyev necə də maraqlı şəxsiyyətdir, orijinal təfəkkürlü, demokratik insandır. Müasir dillə desək, nəyinsə üzərində dərindən düşünən insandır, doqmatik deyil. Elə insandır ki, onunla mübahisə etmək olar, səni dinləyəndən sonra ya razılaşacaq, ya da razılaşmayacaq. Ona görə də mənə onunla işləmək maraqlı idi.

Yeri gəlmişkən, mənim bilavasitə rəislərim olan Peçenev və Laptev həm də dostlarım idilər. Onlar da mənə dedilər:

– Yura, gəl, ondan öyrənməli şeylər çoxdur. Yaxşı məktəbdir, perspektivli insandır, onun böyük gələcəyi var".

Roy Medvedev:

"Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin müavini təyin olunandan sonra Moskvaya köçəndə MK-nın, Nazirlər Sovetinin moskvalı əməkdaşları və bəzi diplomatlarla görüşəndə onları öz intellekti və yaddaşı ilə heyrətləndirirdi.

Misal üçün, rus dilini kifayət qədər yaxşı bilən İtaliyanın SSRİ-dəki səfiri (onun adı yadımda deyil) Əliyevdən SSRİ Nazirlər Soveti sədrinin müavini kimi onu qəbul etməsini xahiş etmişdi. Əliyev bu xahişi yerinə yetirdi və qəbul zamanı ona müraciət edərək dedi ki, mən, cənab filankəs, tanışlığımızı bərpa etməyimə çox şadam. Səfir adını eşidəndə çox təəccübləndi:

– Məgər biz sizinlə tanışıq?

– Əlbəttə, siz dörd il qabaq İtaliya parlamenti nümayəndə heyətinin tərkibində Bakıya gəlmişdiniz və biz sizinlə söhbət etmişdik.

Sonralar səfir deyirmiş:

– Hansı dövlət başçısı İtaliyadan gəlmiş beş-altı nəfərin iştirak etdiyi dörd il qabaqkı yarım saatlıq söhbəti xatırlayar? Bunun üçün unikal yaddaşa malik olmaq lazımdır.

Beləcə, başqalarında da o hər şeyi xatırlayan insan təsəvvürü yaratmışdı. O, Azərbaycanın bir neçə illik inkişafı barədə ozbərdən rəqəmlər misal gətirirdi. Bir çoxlarını o, problemlərdən orijinal çıxış yolları təklif etməsilə heyrətləndirirdi. O vaxtlar çoxlarına elə gəlirdi ki, Əliyev üçün yeganə əngəl onun azərbaycanlı olmasıdır. O vaxtlar Nazirlər Sovetinin başında qoca, xəstə, məsələləri həll etməyi bacarmayan Tixonov dururdu. Onun müavinləri arasında Əliyev bacarığı, qabiliyyəti, ağlı, enerjisi və iradəsi ilə seçilirdi.

Aleksandr Qavrilov:

"Heydər Əliyev fəal müsahib idi. Misal üçün, Volqoqradda o, vilayət partiya komitəsi bürosunun üzvləri ilə görüşürdü. Onları yaşadığı mehmanxanaya dəvət etdi. Bu, necə deyərlər, çay süfrəsi ətrafında görüş idi. Təbii ki, orada təkcə çay yox, şərab, konyak və s. də vardı. Bu görüşdə o, yalnız şərab içdi. Geniş ürəklə hamını qonaq etsə də, özü çox az içdi.

Həmin görüşdə açıq söhbət oldu. O, başqa vilayətlərdə gördüklərindən danışır, zarafatla sözünü çatdırırdı. Məsələn, deyirdi:

– Əminəm ki, bu, təsadüfdür. Əgər gələn dəfə gəlsəm, bəlkə onu heç görməyəcəyəm...

Beləliklə, birbaşa üzlərinə çırpmaqla yox, yumorla, zarafatla vilayət rəhbərlərinə işlərindəki neqativ cəhətləri xatırladırdı".

Eduard Proxorenko:

"Ümumiyyətlə, onun bəzi şeylərə gözlənilməz münasibəti tez-tez olurdu.

Sizə məzəli bir epizod danışım. Bu, Rustun təyyarəsini Qızıl meydana endirdiyi vaxt, adi iş günü, axşam saat altıda, həm də Təhlükəsizlik Şurasının iclası getdiyi vaxt olmuşdu.

Ümumiyyətlə, Rust təyyarəni Kremlin Çar-kolokol və Çar-puşka yerləşən Ivanovsk meydanına endirməyi planlaşdırmışdı.

O, iki cəhd etdi.

Elə o vaxt mən Heydər Əliyevin kabinetində idim. Kabinetin pəncərələri həyətə baxırdı. Birdən gördüm ki, pəncərənin qabağından düz Kremlin ərazisi ilə təyyarə uçdu.

– Bu nədir belə? – deyə Heydər Əliyev soruşdu. – Nəsə film çəkirlər?

Bu vaxt Rust təyyarə ilə ikinci dəfə keçdi.

Təxminən axşam saat yeddinin yarısında Spassk qülləsi tərəfdən işdən çıxanda təyyarənin orada olduğunu gördüm. Mühafizəçidən soruşdum:

– Bu nədir? Kino çəkirlər, yoxsa?..

– Allah bilir. Mən komendanta məlumat verdim. O isə deyir ki, "Boşla görək, nə təyyarəbazlıqdır!"

Axşam hər şey aydın oldu. Qorbaçov bütün yuxarı təbəqəni işdən çıxartdı. Ertəsi gün, biz Heydər Əliyevlə bu məsələni müzakirə edəndə, o buna istehza ilə yanaşdı.

– Bunun zirəkliyinə bir bax. İndi neyləyək, onu cəsarətinə görə mükafatlandıraq?"

Svetlana Qasımova:

"Mən çox vaxt öz həmkarlarımdan, digər respublikaların MK katiblərindən onun haqqında rəylər eşidirdim. O vaxtlar hər il müxtəlif elmi-texniki konfranslar, ümumittifaq seminarları, ixtisasartırma kursları keçirirdilər. Mən də həmin tədbirlərdə olurdum və MK-nın sənaye üzrə katiblərinin hamısı ilə görüşürdüm. Onlarla söhbətləşirdik, nəyisə müzakirə edirdik və mən o vaxt artıq SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olan Heydər Əliyev barədə fikirləri eşidirdim. Bəziləri deyirdilər ki, Heydər Əliyevin gəlişi ilə Nazirlər Soveti canlanıb. Artıq hiss olunur ki, hökumət məsələləri həll edir. Bəziləri isə açıq-aşkar ona həsəd aparırdılar.

Mən ilk dəfə onda gördüm ki, sən demə, əməksevərliyə də həsəd aparmaq olarmış. Bunu başa düşə bilmirdim. Gözəl xarici görkəmə, geyimə, yüksək vəzifəyə həsəd aparmaq olar, ancaq işləmək qabiliyyətinə... Mən heyrətə gəlirdim. "Siz də işləyin", – deyə hə-

səd aparanlara məsləhət görürdüm. "Bunu hər kəs bacarmaz", – deyə cavab verirdilər".

İvan Laptev:

"Köməkçiləri çox vaxt mənim tövsiyəmlə götürürdü, özü də MK-dan. Bəzən o, namizədlər axtarıb tapmağı xahiş edirdi. Mən iki-üç nəfəri seçirdim. Heydər Əliyev onlarla görüşüb söhbət edirdi.

Əlbəttə, seçimim həmişə uğurlu alınmırdı. Mənim insanlara öz münasibətim var, onun isə əsas tələbi o idi ki, iş qaynasın. Ancaq çoxları buna qabil deyildilər.

"İzvestiya" qəzetinin baş redaktoru vəzifəsi boşalanda, qəzet üç, ya dörd ay başsız qaldı. Qəzetdə bir-birinin ardınca səhvlər gedirdi. Moskva rəhbərliyi ilə münaqişələr yarandı. Qəzet indiki mətbuatın prinsipləri ilə fəaliyyət göstərirdi. Moskvada isə hələ Qrişin rəhbərlik edirdi, o, qəzəblənir və özündən çıxırdı.

Bir dəfə Əliyevin yanında növbəti çıxışı hazırlayanda, o qəflətən məndən soruşdu:

– İvan Dmitriyeviç, siz "İzvestiya"nı çıxara bilərsinizmi?

O vaxta qədər mənə heç kim heç bir şey təklif etməmişdi. Mənim adım heç bir siyahıda yox idi, çünki mən cəmisi il yarım əvvəl Afanasyevin başçılıq etdiyi "Pravda" qəzetinin baş redaktor müavini olmuşdum. Mən ümidimi "Pravda"ya bağlamışdım. Çünki Afanasyev deyirdi ki, "Pravda"nı mənə verib gedəcək.

– Bilmirəm, Heydər Əliyeviç, heç nə deyə bilmərəm. Ancaq yəqin ki, özümü toplasam, çıxara bilərəm.

Bununla söhbətimiz bitdi.

Sonra mən öyrəndim ki, adım siyahıya salınıb. Altı namizəd olub, mənim də adım siyahıda altıncı. Ancaq kiminsə xeyirxahlığı olub. Axı Çernenkonun köməkçiləri mənim yoldaşlarım idi.

Sözün qısası, Siyasi Bürodakı müzakirədə Əliyev özünü elə göstərdi ki, bu işdə ümumiyyətlə, heç rolu olmayıb. O, düzgün mövqe tutmuşdu. Çünki o təklif etsəydi, mastodontlar (Siyasi Büronun üzvləri nəzərdə tutulur–*E.A.*) dərhal duyuq düşərdilər. O, həmin adamların, necə deyərlər, dabbaqda gönünə bələd idi.

Belə məsələlər asta-asta, səssiz-səmirsiz həll olunur. Odur ki,

namizədliyimi Katibliyə çıxaranda, orada dedim ki, mənə etimad göstərilsə, onu doğrultmağa çalışacağam. Sonra mənə dedilər: "Sən çox uzun danışırsan". Mən iki, ya üç ifadə işlətdim. Ancaq biri lazım imiş. Təsdiqetmə mərhələsi çox sürətlə getdi. Bazar ertəsi mənə xəbər verdilər, çərşənbə axşamı Katibliyin yığıncağı oldu, cümə axşamı isə Siyasi Büronun iclası. Başqa sözlə, bir həftə ərzində belə bir nomenklaturanı təsdiq etdilər. Siyasi Büronun iclasında əvvəllər birgə işlədiyimiz Ustinov dedi: "Mən onu tanıyıram. Ponomaryov da birdən-birə "Tanıyırıq, tanıyırıq", – dedi. Üç dəqiqənin ərzində hər şey başa çatdı.

Ən əsası isə: Heydər Əliyev bir dəfə də məni bu vəzifəyə gətirdiyinə işarə belə vurmadı. Bəzən kəskin vəziyyətlər olsa da.

Deyək ki, antialkoqol kampaniyası zamanı Azərbaycanın şampan şərabları ilə bağlı "Şampan damlaları" məqaləsini dərc etdiyimiz vaxt o mənə zəng vurub dedi:

– İvan Dmitriyeviç, axı şampan şərabı sizin araq deyil!

Ancaq o deyə bilərdi ki, "sən nə edirsən, nanəcib?".

Mən buna çox təəccübləndim. Bəzən insanlar sənə bir qəpiklik yaxşılıq edir, sonra manat iddiasında olur. Heydər Əliyev isə əsla belə deyildi.

– İvan Dmitriyeviç, birgə işiniz zamanı onun xarakterində, davranışında hansısa xüsusi əlamətləri hiss etmisinizmi?

– Söhbət zamanı dörd-beş qələm götürüb, danışa-danışa onları bir-birinin üstünə yığırdı. Bu onun çox maraqlı şakəri idi.

Yalnız bir dəfə o öz iş masasının arxasında, mən isə yanındakı masanın arxasında oturmuşdum. Həmişə o, iclas keçirmək üçün böyük stolun başında, mən isə sağ tərəfində otururduq və biz işə başlayırdıq. Bir saat, iki saat işləyir, mübahisə edirdik. Bəzən mən qızışıb deyə bilərdim:

– Bu nə cəfəngiyatdır, siz nə təklif edirsiniz? Xalqın bundan zəhləsi gedir.

O belə şeyləri özünə rəva bilmədiyindən, mənim şıltaqlığıma da əhəmiyyət vermirdi.

– Heydər Əliyev qeyri-rəsmi söhbətlərdə siyasi vəziyyətlərə qiymət verməyə, ölkədə baş verən hadisələr barədə tənqidi fikirlərə yol vermirdi ki?

– Xeyr, heç vaxt. Fikrimcə, o az adamla belə şeylərə yol verərdi. Əgər yol verərdisə. Əminəm ki, ölkədə baş verənləri çox gözəl başa düşürdü, bürokratizmin, mənəviyyatsızlığın, rüşvətxorluğun bütün təzahürlərini görürdü. Lakin bu barədə ayrıca hallar kimi danışırdı. O, vəzifə adamı idi. O mənada ki, bu sistemin adamı idi, ona xidmət edirdi. Onu bu sistem yetişdirmişdi. Ancaq Heydər Əliyevin ağlının və xarakterinin gücü onda idi ki, bu birbaşa asılılığı özündə dəf edə bilmişdi. Bəli, o sona qədər öz əqidəsinə sadiq qaldı, ancaq sistemin özündən qopa bildi və artıq tamamilə başqa cür işləməyə başladı".

Aleksandr Qavrilov:

"O, əsl vətənpərvər idi. Yadımdadır, bir dəfə Heydər Əliyev məni çağırıb dedi:

– Qulaq as, Aleksandr, sən nəyə görə Bakıya getmirsən?

İş elə gətirirdi ki, məzuniyyət vaxtı ya Krıma, ya da Soçiyə gedirdim.

– Sən niyə Bakıya getmirsən? Axı səni dəvət etmişdilər.

Həqiqətən də, bizə Azərbaycan MK-nın nümayəndələri gəlmişdilər və məni Bakıya dəvət etmişdilər.

– Mən təəccüb edirəm, – deyirdi, – mənə deyirlər ki, səni Bakıya istirahətə dəvət edirlər, sən isə imtina edib getmirsən. Sən yəqin ki, Bakının, Xəzər dənizinin necə olduğunu təsəvvür etmirsən. Mən artıq dünyanın yarısını dolaşmışam və müxtəlif dənizlərdə çimmişəm. Sənə demək istəyirəm ki, bütün dünyada Xəzərdən yaxşı dəniz yoxdur. Bilirsən, mən üzə-üzə suyu hiss edirəm. Orada fərqli mikroflora var. Xəzərdə elə yosunlar, elə tərkibli duzlar var ki, dünyanın heç bir dənizində yoxdur. Xəzərin suyu müalicə əhəmiyyətlidir. Ora gedib, sadəcə, bu sularda üzməklə müalicə olunmaq lazımdır. Mən sənə təkidlə məsləhət görürəm.

Bu epizod onun tabeliyində olanlara münasibətini də göstərir. Bu, xırda məsələ idi. Getmirəm, getmirəm də. O isə deyirdi: "Mən məsləhət görürəm, peşman olmazsan".

Bu mənə çox təsir etdi. Ona dedim:

– Heydər Əliyeviç, mən, həqiqətən, çalışaram gedim. Məni saxlayan odur ki, xəstə valideynlərim və uşaqlarım arasında vurnuxuram. Onları bir yerə çıxarmalıyam ki, bir qədər qüvvə toplaya bilsinlər.

– Sən uşaqları da götür get, – dedi.

– Uşaqlarla yaxşı deyil axı.

– Heç bir şey olmaz, putyovka götür, sənə yardım edərik, get ora.

Ancaq səfərim baş tutmadı. Mən bir dəfə də olsun Azərbaycanda olmamışam, indiyədək buna çox təəssüflənirəm".

Eduard Proxorenko:

" – Heydər Əliyeviç bir qədər qapalı insan idi. Hisslərini cilovlamağı bacarır, onları heç vaxt büruzə vermirdi. Bəzən zahirən onun hər hansı bir şeyə reaksiyasını anlaya bilməzdin. Həmişə çox ciddi olurdu, hətta bəzən qəzəbli də görünürdü. İndi başa düşürəm ki, bu, işin ağırlığından imiş. Axı onun çiyninə o cür ağır yük düşmüşdü. Burada hissiyyata yer qalmırdı. Onun insani keyfiyyətlərinin üzə çıxdığı bir epizod yada düşür.

Biz sənəd hazırlayırdıq. Səhv etmirəmsə, əmək haqqı ilə bağlı çox da böyük olmayan bir sənəd idi. Belə hallarda qayda aşağıdakı kimi olur: əmr hazırlanır, imzalanmaq üçün sədrə verilir. O vaxt sədr Rıjkov idi. Heydər Əliyeviç ona məruzə etməyə getdi. Qayıdıb əmri mənə verdi:

– Nikolay İvanoviç burasını düzəltdi.

Mən oxuyub dedim:

– Heydər Əliyeviç, bu, düz deyil axı.

– Nə üçün?

Mən izah etdim. O həmin dəqiqə Əmək və Əmək haqqı üzrə Dövlət Komitəsinə zəng vurdu. Orada təsdiq etdilər ki, əlbəttə, Rıjkovun düzəlişi səhvdir.

O, mənə dedi:

– Müdirin yanına get.

Müdir Serdyukov Mixail Sergeyeviç idi.

Onun yanına gedib dedim:

– Mixail Sergeyeviç, vəziyyət belədir.

– Sən ki qayda-qanunu bilirsən, – dedi. – Bu səhifəni saxlayıb, sədrin dediyi kimi edirsən.

Biz sənədi Rıjkovun düzəlişləri ilə yenidən çap etdik. Sonra sə-

nəd MK-ya göndərilirdi.

Birgə sənəd olduğu üçün Qorbaçovun da imzası tələb olunurdu.

Ancaq MK-da da köməkçilər var. Həmin adamlar hər şeyi yoxlayırlar. Güman ki, oradan Rıjkova zəng vurublar. Həmin vaxt mən Əliyevin kabinetindəki yığıncaqda idim.

Rıjkov ona zəng vurdu. Danışıqdan başa düşdüm ki, söhbət həmin sənəddən gedir. Özü də Rıjkov Əliyevə deyir ki, orada səhv var. Çap olunmuş sənəd Rıjkovda idi. Mənim kabinetim yaxınlıqda olduğundan Rıjkovun düzəlişi olan vərəqi gətirib Əliyevə göstərdim. O, başını tərpədib dedi:

– Nikolay İvanoviç, mənim köməkçim səhv edib.

Az qaldı məni infarkt vursun. Axı ətrafda aparat işçiləri oturmuşdu, onlar hər şeyi eşidirdilər. Necə yəni köməkçim səhv edib.

Sözün qısası, hər şeyi düzəldib yolladıq. Mən dedim:

– Heydər Əliyeviç, bu necə olur?

– Dözərsən, heç bir şey olmaz, – dedi.

Bu, diplomatiya idi. O, öz rəhbərini zərbə altında qoymadı. Mənim boynuma atdı. O, özü bilirdi ki, günahkar kimdir, ancaq büruzə vermədi.

– Belə bir fikir vardı ki, Andropov onu Nazirlər Sovetinin sədri vəzifəsinə hazırlayırdı?

– Əgər Heydər Əliyev hökumətə dönüş mərhələsində başçılıq etsəydi, bəlkə də hər şey başqa cür olardı. Səfərlər zamanı o, yerlərdəki və bütövlükdə ölkədəki vəziyyətdən hali olduğundan bir sıra məsələlərə fərqli baxır və yanaşırdı. Axı o, vəziyyətdən çox yaxşı baş çıxarırdı.

Bundan əlavə, Heydər Əliyeviç öyrənmək hərisi idi. Bilmədiklərini başqalarından soruşmağa utanmırdı. Məsləhətləşməkdən, fikirlərini yoxlamaqdan çəkinmirdi. Bundan sonra qərar qəbul edirdi.

Bu, onun sənədlər üzərində işindən də görünürdü. Bir material üzərində işləyərkən problemə öz baxışı meydana gəlirdi. Bizi məcbur edirdi ki, hər şeyi onun qərarına uyğun olaraq yenidən düzəldək.

– Hökumət üzvlərindən ona kim necə münasibət bəsləyirdi? İstirahət günlərində də işə çıxmağa məcbur etdiyinə görə əməkdaşlarınız deyinmirdilər ki?

– Əslində bu, hökumət aparatında istisna haldır. Axı kadrların seçilməsi və hazırlanması sistemi mövcud idi. Yadımdadır ki, sosial inkişaf üzrə Büro yaradılarkən oraya kimi birinci müavin qoymaq məsələsi həll olunurdu. Başqa sözlə, Əliyev özü Büroya başçılıq edirdi, ancaq elə bir adam lazım idi ki, cari işi apara bilsin.

Dörd namizəd təklif olunmuşdu. Mən elə onunla bu namizədlər barədə söhbət etdim. Yaxşı yadımdadır, o, namizədlərin hər biri haqqında məlumat toplayırdı ki, bu nə cür adamdır, hansı pillələri keçib, insanlarla necə işləyir, nəyi bilir. O, hər şeyi ən xırda detallarına qədər öyrənirdi. Onu hər bir namizədin yalnız iş qabiliyyəti deyil, həm də insani keyfiyyətləri maraqlandırırdı.

Onun yanına ayrı-ayrı sahələrə kuratorluq edən sədr müavinləri çox asanlıqla gəlirdilər. İclasa yox, məsləhətləşməyə gəlirdilər. Ona görə də, belə güman edirəm ki, o, həqiqi nüfuza malik idi. Bəlkə elə buna görədir ki, kimlərisə qıcıqlandırırdı".

Misal üçün, elə Liqaçovun özünü də Əliyevin populyarlığı haldan çıxarırdı. Şahidlərin xatırladığına görə, bəzən bu qıcıqlanma üzə də çıxırdı. O, Heydər Əliyevi dayandıra, sözünü kobudcasına kəsə, onun Siyasi Bürodakı çıxışı barədə yersiz bir irad söyləyə bilərdi.

2004-cü ildə Moskvada apardığım söhbət zamanı onun gecikmiş etirafı bu cəhətdən dəyərlidir.

Yeqor Liqaçov:

"O öz xalqına, millətinə layiq insan idi. Azərbaycan zəngin, qədim tarixə malikdir. Onun həm də ən yeni inqilabi hərəkat tarixi vardır. Əliyev də mübaliğəsiz ləyaqətli insan idi. Biz onunla ünsiyyətdə olurduq. Nə çox tez-tez, nə də gec-gec. O mənə bir dəfə də olsun Qorbaçovla münasibətlərindən danışmamışdı. O, məkrli, kinli insan deyildi və heç vaxt özü üçün minnət etməzdi. Onun yerinə başqası olsaydı, otuz dəfə xahiş edərdi: "Yeqor Kuzmiç, kömək edin, bizim münasibətlərimizi qaydaya salın". O, çox ağıllı, mədəni, bütöv xarakterli, güclü insan idi. Bəlkə də kənardan sərt görünürdü, ancaq öz vəzifəsinin öhdəsindən layiqincə gəlirdi. Onun çiyninə ağır iş düşmüşdü. O da bu işi necə lazımdırsa, eləcə yerinə yetirirdi. O, mənim xoşuma gəlirdi".

[1] Крючков В. Личность и власть. М., 2004. С. 128.
[2] Кеворков В. Тайный канал. М., 1997. С. 18.
[3] Гришин В. От Хрущева до Горбачева. М., 1996. С. 61.
[4] Прибытков В. Аппарат. М., 1995. С. 58.
[5] Легостаев В. Технология измены. М., 1993. С. 10-11.
[6] Лаптев И. Власть без славы. М., 2002. С. 33.
[7] Легостаев В. Технология измены. С. 13.
[8] Семанов С. Юрий Андропов. М., 2003. С. 274-278.
[9] Прибытков В. Аппарат. М., 1995. С. 152-153.
[10] Медведев Р. Неизвестный Андропов. Ростов-на-Дону, 1999. С. 355-356.
[11] Воротников В. А было это так... Из дневника члена Политбюро ЦК КПСС. М., 1995. С. 16.
[12] Медведев В. В команде Горбачева. Взгляд изнутри. М., 1994. С. 6-7.
[13] Яковлев А. Сумерки. М., 2003. С. 304.
[14] Мунчаев Ш., Устинов В. История Советского государства. М., 2002. С. 600.
[15] Легостаев В. Технология измены. С. 16-17.
[16] Зюганов Г. Верность. М., 2003. С. 33-34.
[17] Захаров О. Записки секретаря трех генсеков. Гласность. 1992. № 18.
[18] Горбачев М. Жизнь и реформы. М., 1995, т.1. С. 229-231.
[19] Легостаев В. Технология измены. С. 29.
[20] Медведев Р. Неизвестный Андропов. С. 359-361.
[21] См.: Российское государство и общество: XX век. М., 1999. С. 228, 229.
[22] Клепикова Е., Соловьев В. Заговорщики в Кремле. М., 1991. С. 175.
[23] Гришин В. От Хрущева до Горбачева. С. 70.
[24] Шубин А. Золотая осень, или Период застоя. СССР в 1975-1985 гг. М., 2008. С. 246-247.
[25] Медведев Р. Неизвестный Андропов. С. 374.
[26] Клепикова Е., Соловьев В. Заговорщики в Кремле. С. 174.
[27] Арбатов Г. Человек Системы. М., 2002. С. 128.
[28] Магомаев М. Любовь моя – мелодия. М., 1999. С. 150-151.
[29] Семанов С. Юрий Андропов. С. 347-348.
[30] Яковлев Н. Мечтатель с Лубянки. Молодая гвардия. 1992. №8.
[31] Крючков В. Личность и власть. С.131.
[32] Гришин В. От Хрущева до Горбачева. С. 61-62.
[33] Крючков В. Личное дело. М., 2003.С. 276.
[34] Черняев А. Моя жизнь и мое время. М., 1995. С. 447.
[35] Воротников В. А было это так... С. 36-37.
[36] Грачев А. Кремлевская хроника. М., 1994. С. 11-12.
[37] Рыжков Н. Десять лет великих потрясений. М., 1996. С. 39.
[38] Грачев А. Кремлевская хроника. С.8, 10.

[39] Захаров О. Записки секретаря трех генсеков. Гласность. 1992. № 13.
[40] Аждар Ол. Мудрость. Баку, 1998 (на азербайджанском языке). С 23.
[41] Волкогонов Д. Семь вождей. М., 1995, кн. 2. С. 76.
[42] Бурлацкий Ф. Вожди и советники. М., 1990. С.109.
[43] Горбачев М. Жизнь и реформы, т.1. С. 189.
[44] Рыжков Н. Десять лет великих потрясений. С. 38-39:
[45] Кеворков В. Тайный канал. С. 72.
[46] Волкогонов Д. Семь вождей, кн. 2. С. 33.
[47] Гришин В. От Хрущева до Горбачева. С. 59.
[48] Волкогонов Д. Семь вождей, кн. 2. С. 114-115.
[49] Семанов С. Юрий Андропов. С. 11.
[50] Бобков Ф. КГБ и власть. М., 2003. С.273.
[51] Горбачев М.С. Жизнь и реформы, т. 1. С.233.
[52] Андриянов В., Мираламов Г. Гейдар Алиев. М., 2006. С. 158.
[53] Рыжков Н. Десять лет великих потрясений. С. 42-43
[54] Материалы Пленума ЦК КПСС 22 ноября 1982 года. М., 1983. С. 22.
[55] Шубин А. Золотая осень, или Период застоя. С. 241-242.
[56] Рыжков Н.. Десять лет великих потрясений. С. 42-43.
[57] Воротников В. А было это так... С. 22-23.
[58] Там же. С. 24:
[59] Кеворков В. Тайный канал. С. 19.
[60] Медведев Р. Неизвестный Андропов. С. 406-407.
[61] Лигачев Е. Предостережение, М., 1999. С. 54-56.
[62] Кеворков В. Тайный канал. С. 277, 288.
[63] Ахундова Э., Наджафов И. Смерть полиграфиста. Баку, 2001. С. 157-158.
[64] Лигачев Е. Знаю лично. Бакинский рабочий. 2004. 30 апреля.
[65] Рыжков Н. Десять лет великих потрясений. Стр. 47– 49.
[66] Досье. История и современность. 2003. № 10.
[67] Волкогонов. Семь вождей. М., 1995. С. 154-155.
[68] Шахназаров Г. С вождями и без них. М., 2001. С. 109-110.
[69] Рыжков Н. Десять лет великих потрясений. С. 50.
[70] Кеворков В. Тайный канал. С. 20.
[71] Медведев В. В команде Горбачева. Взгляд изнутри. М., 1994. С. 14.
[72] Медведев Р. Неизвестный Андропов. С. 388-389.
[73] Арбатов Г. Человек Системы. С. 393-398.
[74] Лаптев И. Власть без славы. С. 39-40.
[75] Крючков В. Личное дело. С. 274.
[76] Кеворков В. Тайный канал. С. 154.
[77] Шубин А. Золотая осень, или Период застоя. С. 280.
[78] Бакинский рабочий. 2004. 17 февраля.

[79] Зенькович Н. Гейдар Алиев. Зигзаги судьбы. М., 2007. С. 210-217
[80] Лигачев Е. Предостережение. С. 89.
[81] Легостаев В. Технология измены. С. 45-46.
[82] Клепикова Е., Соловьев В. Заговорщики в Кремле. С. 208.
[83] Андрианов В., Мираламов Г. Гейдар Алиев. С. 165-166.
[84] Там же. С. 167-168.
[85] Рыжков Н. Десять лет великих потрясений. С. 115.
[86] Там же. С. 111.

İkinci fəsil

Durğunluq

(K.Çernenkodan M.Qorbaçova qədər) fevral 1984–mart 1985

Kral öldü... Yaşasın kral!

Y.Andropov son aylarını xəstəxanada keçirdi, 1983-cü il sentyabrın 1-dən sonra isə bir daha Siyasi Büronun iclaslarında görünmədi. O, çox işləyir, ölkədə islahatlar aparmaq istiqamətləri üzərində düşünürdü. 1984-cü ilin əvvəlindən SSRİ-də sənayenin idarə edilməsinin yenidən qurulması üzrə eksperiment həyata keçirilməyə başladı. Məqsəd müəssisələrin məsuliyyətini artırmaq idi. 1984-cü il yanvarın 4-də "Pravda" Sov.İKP MK-nın işləyib hazırladığı "Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri"nin layihəsini dərc etdi. Ölkə 1984-cü il martın 4-də Ali Sovetə keçiriləcək seçkilərə hazırlaşırdı. Bir çoxları güman edirdi ki, seçkilərdən sonra SSRİ Nazirlər Sovetinin tərkibi xeyli dəyişiləcək və 79 yaşlı N.Tixonovun taleyi həll olunacaqdır. Lakin Yuri Vladimiroviçin bu dünyada yaşamaq limiti artıq tükənmişdi.

Y.Andropovun bioqraflarından biri – Sergey Semanov qəhrəmanının həyatının son aylarını təhlil edərək yazırdı:

"...Qəribədir ki, gündən-günə qüvvə və sağlamlığını itirən Andropov hakimiyyətdən var gücü ilə yapışırdı! Sadə bir fikir – istefaya çıxmaq, yaxın adamların əhatəsində sakit şəraitdə müalicə olunmaq, ətrafında qaynayan intriqaları unutmaq – onun heç ağlına da gəlmirdi. Özü də, məsələn, Beriya və ya həmin o Şolokovdan fərqli olaraq, Andropovun sovet qanun və qaydalarına görə elə bir ciddi günahı da yox idi. Hər şey – partiya və xalq üçün... Son nəfəs-

də də hakimiyyətdən dördəlli yapışmaq obyektiv öyrənilməsi və qiymətləndirilməsi hələ qarşıda duran səciyyəvi insan fenomenidir"[1].

Yanvarın axırında Y.Andropovun səhhəti kəskin pisləşdi, 1984-cü il fevralın 9-da isə Yuri Vladimiroviç vəfat etdi.

Bu şəxsiyyət, eləcə də onun SSRİ tarixindəki rolu müxtəlif cür qiymətləndirilir. Qərb publisist və politoloqları onu ölkə daxilində polis qayda-qanunu yaratmağa çalışan, Qərblə qarşıdurmaya istiqamətlənmiş xarici siyasətdə heç nəyi dəyişməyə hazırlaşmayan, xəmiri Stalin dövründə yoğurulmuş ən ortodoksal kommunist-leninçilərdən biri adlandırırdılar. Rusiya tarixçiləri və publisistləri onun haqqında qeyri-adi şəxsiyyət, bənzərsiz təşkilatçı, sosializm ideyalarına ürəkdən sadiq, eyni zamanda liberal islahatların qayğısını çəkən bir insan kimi yazırlar. Y.Andropovun bioqrafı Roy Medvedevin sözlərinə görə, "Andropov yetmiş yaşına çatmamış və nəzərdə tutduğu işlərin çox hissəsini həyata keçirməmiş dünyasını dəyişdi. O, bizim qarşımızda sosializmi təkmilləşdirməyin nəsə yeni bir proqramını açıb göstərə bilmədi. Lakin partiyanın və dövlətin rəhbəri postunda taleyin onun üçün ayırdığı on beş ay ərzində az iş görmədi"[2].

A.Qraçov hesab edir ki, "...Yuri Vladimiroviç Andropov özündən sonra əfsanə qoyub getdi. Bir qədər çox yaşasaydı, nəinki Sovet dövlətinin Xilaskarı ola biləcək, hətta "ayrıca götürülmüş bir ölkədə" inzibati sosializmin inşasını uğurla başa vura biləcək, ehtiyatlı da olsa, möhkəm əqidəli islahatçı haqqında mif yaradacaqdı"[3].

Bir çox politoloqlar, Y.Andropovun ölkəyə rəhbərlik etdiyi qısa dövrü təsvir edərkən qarşılarına sual qoyurdular: əgər tanrı ona 15 ay yox, daha çox vaxt ayırsaydı, ölkə hansı istiqamətdə irəliləyəcəkdi, SSRİ-nin və dünyanın taleyi necə olacaqdı?

Bu suala tarixçi D.Volkoqonov belə cavab verir:

"Andropov siyasi sistemin iflasını yalnız ləngidə bilərdi. Köhnə üsullarla ona yeni nəfəs vermək keçmişə qayıtmaq olardı. O, bunu istəmirdi. Lakin radikal islahatlar aparmaq iqtidarında da deyildi. Yalnız Andropov siyasi səhnədən gedəndən sonra islahatların vaxtı çatdı"[4].

Bu nöqteyi-nəzərlə, artıq qeyd etdiyim kimi, Y.Andropov fenomeninə son dərəcə şübhə ilə yanaşan Qorbaçov dalğasının "demokratı" A.Çernyayev həmrəydir:

"Əgər Andropovda "xilaskar"a məxsus əlamət görsəydim, ondan xoşum gəlməsə də, onunla "barışmağa", onu "qəbul etməyə" hazır idim. Lakin yox. Ona Rusiyanın xilaskarı olmaq şansı verilməmişdi. Ona görə yox ki, əqli imkanları və ya dövlət xadimi üçün zəruri olan keyfiyyətləri çatmırdı. Bu "keyfiyyətlərə" görə o təkcə Brejnevi yox, Qorbaçovu da üstələyirdi. Belə hesab olunur ki, əlqol açmağa onun vaxtı çatmadı. Vaxt, həqiqətən, çox az ayrılmışdı. Lakin məsələ bunda deyil. Məsələ "Rusiyanın xilaskarı" üçün mənəvi potensialın olmamasındadır. Buna görə də o, sistemin çərçivəsindən kənara çıxmadı, heç çıxa da bilməzdi – şəxsiyyətinin tarixi miqyası başqa idi. Ancaq sistem çərçivəsində hətta ən radikal tədbirlər belə Sovet İttifaqında vəziyyəti dəyişə bilməzdi, ölkəni dərin, hər şeyi ağuşuna alan, artıq xalq və bütün dünya üçün ölümcül təhlükə törədən böhrandan xilas edə bilməzdi.

Andropov həddindən artıq ideologiya əsiri idi, üstəlik uzun illər "orqanlarda"kı xidməti də onu korlamışdı. Bu səbəbdən Leninin ölümündən qabaq atmağa hazır olduğu və son nəticədə Qorbaçovun atdığı addımı Andropov ata bilmədi. Bu addım sosial-siyasi sistemin özünün yararsız olduğunu etiraf etmək idi..."[5].

Digərləri, Y.Andropovun təhlükəsizlik orqanlarındakı silahdaşı V.Kevorkov da daxil olmaqla, başqa fikirdədirlər:

"Tarix felin şərt formasını qəbul etmir. Ancaq hər halda: Brejnev tez ölsəydi, Andropov isə çox yaşasaydı, nə olardı? ...İstər-istəməz ortaya belə bir sual çıxır: Andropovun hakimiyyətə gəldiyi zaman yaranmış vəziyyət nəzərə alınmaqla, o, həqiqətən nəyi isə real dəyişdirə bilərdimi, bunun üçün zəruri olan iradə və intellektual qabiliyyətə malik idimi, yoxsa ölkədə yaranmış vəziyyəti artıq xilas etmək mümkün deyildi?

O ki qaldı Andropova, bir şəxsiyyət kimi, o heç şübhəsiz, tarixi hadisələrin gedişinə təsir göstərə bilərdi. Sosializm sisteminin həyat qabiliyyətinə inanan insan kimi, o Sovet İttifaqının dağılmaması üçün mümkün və qeyri-mümkün səylərini əsirgəməyəcəkdi. Nəyin bahasına olursa-olsun.

Qanunlara riayət edilməsi məsələsində son dərəcə prinsipial adam kimi o, korrupsiya və cinayətkarlığın tüğyan etməsi ilə barışmayacaqdı"[*].

Bütün bu müxtəlif rəylərə baxmayaraq, bir şey tamamilə aydındır: onların zəif cəhəti təxmini olmalarındadır. Bunlar yalnız fərziyyədir, çünki Andropov islahatlarının haraya gətirib çıxaracağı, əgər çox yaşasaydı, özünün nəyin üzərində dayanacağı məlum deyil. Ona qalsa, Mixail Qorbaçov da Baş katib postunda fəaliyyətinə partiyanın "baş xəttinə" sadiq qalacağına and-aman etməklə başlamışdı, onun möhkəm əqidəli kommunist olmasına isə ən qızğın bədxahları belə şübhə edə bilməzdilər.

Hər necə olsa, Yuri Vladimiroviç Andropov H.Əliyevin sözləri ilə desək, "irimiqyaslı şəxsiyyət idi" və onun vaxtsız ölümü qəhrəmanım tərəfindən şəxsi itki kimi qəbul edilirdi.

Dostunun və silahdaşının tabutu önündə fəxri qarovulda dayanarkən onun nə fikirləşdiyini biz artıq heç vaxt bilməyəcəyik. Bəlkə də onun qəlbi yaxın adamın itkisindən doğan acı kədərlə yanaşı, öz gələcək taleyilə bağlı qeyri-müəyyənlik, hətta şübhələrlə dolu idi. Bəlkə də o, ürəyində heç şübhəsiz, aralarında olmuş razılaşmanı yerinə yetirməyə vaxt tapa bilmədiyi və ya ürək etmədiyi üçün Y.Andropovu qınayırdı.

O, hələ Brejnev vaxtlarından yaxşı tanıdığı Çernenkoya bir o qədər də bel bağlamırdı. H.Əliyev özü üçün narahat olmaya bilərdi: Çernenko onun qədrini bilir, ona hörmətlə yanaşır, "sıxışdırmaz", ona görə də H.Əliyevin vəziyyəti sabit qalacaqdır. Lakin o, başqa məsələni də başa düşürdü: Çernenko və Tixonov bir dəstənin adamıdırlar, yeni Baş katib heç vaxt Tixonovun əleyhinə getməz, onu istefaya göndərməz. Ona görə də hər halda hələlik onun irəli getməsi mümkünsüzdür.

Bir şey qalırdı: yenə də əvvəlki kimi ciddi və məhsuldar işləmək, boynuna düşmüş problemləri daşımaq. O da işləyirdi.

1984-cü il şəxsən onun üçün durğunluq dövrü deyildi. O, xaricdə silsilə danışıqlar aparmışdı. "Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri" haqqında son dərəcə mühüm partiya sənədi üzərində işi başa çatdırmışdı. BAM-la məsələni həll etmişdi.

Sovet kinematoqrafçıları qarşısında geniş əks-səda doğurmuş gözəl çıxış etmişdi. Və bu fəsildə haqqında danışacağımız bir çox başqa şeylər.

Hələliksə yeni Baş katib haqqında bir qədər danışaq və nəhəng imperiyanın hakimiyyət zirvəsinə hansı şəxsiyyətin qalxdığını araşdırmağa çalışaq.

Ölkəni idarə etməyi çiyinlərinə götürmək qərarına gələn Konstantin Çernenko özünü məhvə aparan addım atmışdı. Lakin görünür ki, hakimiyyət hərisliyi, hətta özünümühafizə instinktindən də güclü olmuşdu. Siyasi Bürodakı "böyük dəstə"nin digər üzvlərinə də söz ola bilməz – Çernenkonun necə ağır xəstə olduğunu görürdülər axı, ancaq daha cavan və daha iş qabiliyyətlisini seçməyə cürət etmədilər. Hər biri özünə görə, daha doğrusu, öz vəzifəsinə görə qorxurdu.

Ali hakimiyyət dəhlizlərindəki uzun illərin intriqaları, "taxt-tac" uğrunda rəqabət, hakimiyyətin sivil yolla verilməsi mexanizminin olmaması gətirib o yerə çıxarmışdı ki, Kreml dəhlizlərində praktiki olaraq siyasi liderliyi boynuna götürməyə gücü çatan heç kim qalmamışdı.

Bu vəziyyəti K.Çernenkonun keçmiş köməkçisi Viktor Pribıtkov belə təsvir edir:

"Parlaq altılıq" – Brejnev, Suslov, Qromıko, Ustinov, Andropov və Çernenko. Kreml rəfi üzərində altı mərmər fil ...

1982-ci ildə "baş ideoloq" Suslov vəfat edir. "Altılıq" "təzələrin" hesabına genişlənmir. Dünyasını dəyişənin yerini Andropov tutur!

Yeni ölüm – Brejnev. Onlar dörd nəfər qalır, lakin Baş katib ən cavanı, Andropov olur. O cavandır, özünə etibarlı əvəz hazırlamağa vaxt tapar. Yerdə qalan üç nəfər isə – onun etibarlı dayağı və dəstək verənləridir.

Ancaq necə deyərlər, "sən saydığını say"... Heç kimin ağlına gəlməzdi ki, "ən cavanı" heç bir il də davam gətirməyəcək. Nəhəng dövlətin özbaşına o tərəf-bu tərəfə yırğalanan sükanı arxasında hələ də özlərinə əvəz hazırlamağa macal tapmamış üç əldən düşmüş qoca qaldı.

" – Sən, Konstantin, ikincisən – qismət sənindir! – yəqin ki, müdafiə naziri Ustinov və xarici işlər naziri Qromıko belə qərara

gəldilər. – Biz sənin tərəfini saxlayarıq. Qərara gəl! Vaxt var. Bir şey fikirləşərik..." Görünür, doğrudan da çıxış yolu yox idi, hazır gənc iddiaçı – normal, etibarlı, kommunizm ideyalarına yüz faiz sadiq olan yox idi. Kimlərdən seçəydilər?"[7].

İnanmıram ki, "qocaları" bu cür yüksək ülvi hisslər idarə edirdi. Siyasi Büro veteranları "əziz" Kostyanı sadə və yeganə səbəb üzündən seçdilər: o, onların əhatəsindən idi, addımları yüz faiz hesablanan və proqnozlaşdırılan adam idi. Onunla dil tapmaq asan idi, onu idarə etmək asan idi. Bir sözlə, plenum çox rahat keçdi. N.Tixonovun təklifi ilə K.Çernenkonu yekdilliklə Baş katib seçdilər.

N.Rıjkov öz kitabında yazır: "Ancaq demək olmaz ki, bu seçim kimisə etinasız qoydu: bəs, səs verdik, məsələ bitdi. Ali hakimiyyətə aidiyyəti olanlar gözəl bilirdilər ki, Leonid İliçin silahdaşları hələ kifayət qədər güclüdürlər. Onları hər bir yeniliyə, adət etmədikləri hər bir şeyə qarşı qatı nifrət birləşdirmişdir və indi öz mövqelərini verən deyillər. Onlara bu sabitləşmiş "rəhbər özəkdən" olan adam lazım idi. Çernenko yox, bir başqası olsun – təki özümüzünkü olsun. Hamı başa düşürdü ki, Siyasi Büronun nisbətən gənc üzvlərindən heç kim Andropovun hakimiyyətdə olduğu 15 ay ərzində güc toplaya bilməmişdi. Ona görə də sevinc yaşları yox idi. Bu seçkilər yalnız nəyisə dəyişmək iqtidarında olmayan gücsüzlükdən irəli gələn bir əsəbilik doğurdu.

Ancaq səhvim var: yəqin ki, Siyasi Bürodakı Brejnev koqortası seçimdən razı qaldı. Öz seçimlərindən, çünki məhz onlar – Tixonov, Ustinov, Qrişin, Kunayev, Şerbitski, Qromıko nə istədiklərini gözəl bilirdilər.

Düşünürəm ki, adı çəkilənlərdən hər biri ən yüksək kürsüdə özünü görürdü. Lakin həddindən artıq təcrübəli olduqlarından onlardan birinin bu postu tutacağı təqdirdə nələr baş verəcəyini aydın təsəvvür edirdilər... "Sənin o birilərindən nəyin artıqdır ki?", əbədi prinsipinə sadiq qalaraq, elə özlərinkilər basıb yeyəcəkdilər. Çernenko isə onlar üçün başqalarından "yaxşı" idi – ən azı ona görə ki, ömrü boyu real rəhbər vəzifə tutmamışdı və bu təcrübəli insanlar onu kifayət qədər sərbəst idarə edə biləcəkdilər. Çernenko ona görə "hakimi – mütləq" ola bilməyəcəkdi ki, hakimiyyəti həmişə içəridən də olsa kənardan görmüşdü, özü də həmişə köməkçi olmuşdu və bu, hər şeyi həll edirdi. Üstəlik o, yavaş-yavaş, lakin ümid yeri qoymadan sönürdü. Bu kompromis fiqur idi və zənnimcə, belə qərar çarəsizliyin əlaməti idi. Bir də əlavə etmək lazımdır ki, Andropovun iqtisadiyyatda atdığı həddən ziyadə sərt addımlar onları qorxuya salmaya bilməzdi. Onlar sakitlik istəyirdilər. Onların fikrincə, Çernenko da özü ilə məhz bu sakitliyi gətirirdi"[8].

Onunla işləyən adamların xatirələrinə görə, Çernenko ləyaqətli, mənəvi cəhətdən qüsursuz insan idi. Lakin bir sıra səbəblərdən o, nə partiyada, nə də cəmiyyətdə böyük hörmətə malik deyildi, güclü siyasətçi də deyildi, intellekt sarıdan da seçilmirdi. Bunlar azmış kimi, o, fiziki cəhətdən çox zəif idi, bunu hətta televizorda da aydın görmək olurdu. Səciyyəvidir ki, plenumda Siyasi Büro adından onun namizədliyini SSRİ Nazirlər Sovetinin 79 yaşlı sədri, daha bir "sadiq Brejnevçi" kimi tanınan N.Tixonov təklif etdi.

"Brejnevin əldən düşmüş görkəmindən uzun illər onsuz da cana doymuş ölkənin siyasi zirvəsində bu iki zəif qocanın görünməsi cansıxıcı təsir bağışladı. Sanki Brejnevin özü birdən məzardan qalxıb, üstündəki qarlı torpağı çırparaq əvvəlki iş yerinə qayıtmışdı. Cəmiyyətdə elə bir vəziyyət yarandı ki, psixoloqlar buna frustrasiya deyirlər. Yəni içdə bütün ümidlərin puça çıxması, həyəcan, üzüntü, eyni zamanda nəşəli, şiddətli bir qəzəb – kiminsə ənginə birini vurasan, sonra qoy nə olur olsun. Mənim təəssüratıma görə Çernenkonun Baş katib seçilməsi cəmiyyəti məhz belə vəziyyətə gətirdi. Yeni Baş katibin özünün də, plenumun da, öz bətnindən ortalığa normal lider çıxara bilməyən o vaxt 18 milyonluq Sov.İKP-nin də çənəsini əzmək üçün əllər gicişirdi. Bir sözlə, xalqın gözü qarşısında partiyanın nüfuzuna son dərəcə ağır bir zərbə endirilmişdi"[9].

Bununla belə, məlumatlı adamların fikrinə görə, K.Çernenko ilk baxışdan göründüyü qədər də sadə deyildi. İ.Laptevin memuarlarında yazdığı kimi, ölkədə partiya aparatının rolu və nüfuzunun gücləndirilməsinə həlledici töhfəni verən məhz bu adam olmuşdu.

"K.U.Çernenko haqqında az yazılıb və az da məlumdur. Aparat işçisi həmişə kölgədə olan maraqsız şəxsiyyət – burada cəlbedici nə var ki? Bununla belə, 75 il SSRİ adlanan ölkəni idarə etmək ixtiyarını əlində saxlayan siyasi partiyanın arxivləri ilə tanış olmaq

fikrinə düşən gələcək tarixçilər təəccüblənəcəklər ki, Konstantin Ustinoviçin Sov.İKP-nin dəhşətli dərəcədə mürəkkəb aparıcı konstruksiyasının inkişafına verdiyi töhfə yalnız İosif Vissarionoviçin gətirdiyi töhfə ilə müqayisəyə gələ bilər. Məhz Çernenkonun sayəsində və əsas etibarilə onun səyləri nəticəsində partiya aparatı nəinki dövlət aparatını, hətta dövlətin özünü də himayəsi altına almış, bunu dərk etmiş və öz mövqeyindən açıq-aşkar yararlanmışdır. Məhz Çernenko Sov.İKP MK-nın ümumi şöbəsini, yəni əslində dəftərxananı, aşağıdan yuxarıya partiya bürokratiyası sistemində əsas şöbə etmişdi. Həmin o şöbə ki, sonralar V.İ.Boldinə, hətta Qorbaçov kimi adamın informasiya blokadasını təşkil etməyə imkan yaradacaqdı. Məhz Çernenkonun vaxtında bütün MK katiblərinin, Siyasi Büro üzvlərinin, o cümlədən də Baş katibin köməkçiləri ümumi şöbənin strukturuna daxil edildilər. Bu da onların ikili tabeliyi və Çernenkonun bütün partiya və dövlət rəhbərlərinə birbaşa təzyiq kanalının yaradılması deməkdi. Nəhayət, məhz Çernenkonun vaxtında "partiya işinin perspektiv planlaşdırılması" kimi "möcüzə" yaranmışdı ki, bu da bütün Sov.İKP-nin, ilk növbədə isə onun rəhbər orqanlarının tam bürokratlaşması demək idi.

Bir daha vurğulayım: ümumi şöbə təkcə "yuxarıda", Sov.İKP MK-da deyildi. Çernenkodan əvvəl respublika, diyar, vilayət partiya komitələrində kargüzarlıq sektorları kimi fəaliyyət göstərən ümumi şöbələr simasını dəyişdi və yeni qüvvə əldə etdi, mükəmməl ümumpartiya strukturunda, indiki deyimlə desək, şaquli xətt boyunca birləşdi. Əslində Sov.İKP-də sırf bürokratik total nəzarət sistemi yarandı. Təsadüfi deyil ki, K.U.Çernenkonun dəfnindən sonra lətifə qaldı: yoldan keçən bir nəfər dəfn mərasiminə baxıb soruşur: "O nə qəhrəmanlıq göstərib ki?". Bu dəm onun arxasından kimsə mənalı-mənalı pıçıldayır: "O, ümumi şöbələri yaradıb!" Real siyasəti və real işi əvəz etmiş bu bürokratik vurnuxma fonunda, Çernenkonun siması getdikcə daha aydın seçilir, sanbalı artırdı. Artdı da! Odur ki, sadə deyildi, heç də sadə deyildi Konstantin Ustinoviç!"[18].

Bu isə yeni Baş katibin ilk addımlarını və dediklərini təhlil edən Qərb mətbuatının yazdıqlarıdır:

Sürpriz: əksəriyyət "lehinə"dir

"Sovet xalqı Konstantin Çernenkonu kommunizm və sülh uğrunda yorulmaz mübariz kimi tanıyır. Çoxillik xidməti dövründə o, əsl liderə məxsus görkəmli keyfiyyətlərə malik olduğunu sübuta yetişmiş və öz biliklərini Sovet İttifaqının iqtisadi və müdafiə potensialının yaradılmasına həsr etmişdir". Bu, ölkənin nominal parlamenti olan SSRİ Ali Sovetinin Kremlə toplanmış 1500 üzvünün eşitdiyi yeni liderin ünvanına səslənən tərifli nitqlərdən biri idi. Siyasi Büronun ən cavan üzvü Mixail Qorbaçov Çernenkonu "Lenin məktəbinin sınaqdan çıxmış lideri", "böyük həyat təcrübəsi, görkəmli siyasi və təşkilatçılıq bacarığı olan" insan adlandıraraq öz şirin və bir qədər əsəbi bariton səsi ilə onu tərifləməkdə davam edirdi. Lakin deputatların Çernenkonun üstün cəhətlərinə əmin olmaq üçün çətin ki, bu sözlərə ehtiyacı vardı. Qorbaçov öz qısa nitqini qurtarar-qurtarmaz, Kremlin tağlı zalı yalnız bir mətləbi ifadə edən şiddətli alqışlardan lərzəyə gəldi: Çernenkonun prezident kürsüsünə namizədliyi bəyənilmişdir.

Bu vəzifə Sibirdə doğulmuş partiya işçisinin, təbliğatçının, fevralda Yuri Andropovun postuna varis olmuş Çernenkonun şəxsi qələbəsi idi. Uzun müddət Çernenkoya hamilik etmiş Brejnev prezident kürsüsünü 13 il gözləmişdi, Andropovda bu 7 ay çəkmişdi. Ancaq 72 yaşlı Çernenko ölkədə üç ən əsas vəzifəni – Kommunist partiyasının Baş katibi, Müdafiə Şurasının sədri, indi isə Prezident postunu cəmi iki aya qazandı. İndi, parlament üzvləri ayaq üstə onu alqışlayanda isə enlikürək, ağsaç Çernenko çoxdan gözlədiyi məqamdan həzz alırdı. O, sağ əlini yuxarı qaldırıb zalı salamladı, sonra əllərini qələbə sevincini yaşayan boksçu kimi başı üzərində birləşdirdi.

Çernenkonun bu vəzifəyə tez bir zamanda seçilməsi ənənələrin varisliyini göstərir: Brejnev və Andropov vaxtilə partiya liderlərinin eyni zamanda Müdafiə Şurasının sədri və Prezident olmalarını zəruri hesab edirdilər. Qorbaçov öz nitqində aydın başa saldı ki, bu iki vəzifənin birləşdirilməsi "xarici siyasət aparmaq üçün mühüm əhəmiyyət kəsb edir". Ancaq yeni sovet liderinin çoxsaylı vəzifələri ilə müqayisədə nüfuz sahibi olub-olmaması məsələsi hələ ki, açıq qalır.

Rəngi qaralmış və şax qamətli Çernenko Kreml sarayının mərkəzi səhnəsində öz yerinə keçən zaman çox qayğılı görünürdü. Onun arxasında Siyasi Büronun qoca və daha nüfuzlu hissəsi durmuşdu: 75 yaşlı müdafiə naziri Dmitri Ustinov, 74 yaşlı xarici işlər naziri Andrey Qromıko və 78 yaşlı Baş nazir Nikolay Tixonov. Post – Andropov dövründəki hakimiyyət bölgüsünün daha bir vasitəsi 53 yaşlı Qorbaçova göstərilən diqqət idi. Andropovun ölümündən sonra Qorbaçovun dövlətdə ikinci adam olması faktı göz qabağında idi. Çernenkonu prezident postuna məhz onun təqdim etməsi faktının özü göstərirdi ki, hakimiyyətin yeni nəslə əvvəlcədən düşünülmüş şəkildə ötürülməsi başlanmışdır.

Ötən iyunda Andropov vəzifə tutandan sonra Çernenkoya da eyni ehtiram göstərilmişdi.

Kənd təsərrüfatı və hüquqşünaslıq sahəsində təcrübəsi olan Qorbaçov 1980-ci ildə Siyasi Büronün üzvü seçilmişdi. Andropovun hakimiyyətdə olduğu qısa müddətdə iqtisadiyyatın yaxşılaşdırılması yollarını öyrənən yüksək səviyyəli komitəyə rəhbərlik etmişdi. Kanadada, Fransada və Qərbi Almaniyada səfərlərdə olmuşdu. Qarşı tərəfə o, açıq və məlumatlı adam təsiri bağışlayırdı. Qorbaçovun adı siyahıda Andropovdan sonra ikinci gəlirdi, lakin çox güman, Siyasi Büro veteranları belə hesab etmişdilər ki, hakimiyyəti İkinci Dünya müharibəsinin axırı üçün yeniyetmə olan bir adama vermək hələ çox tezdir.

Çernenkodan sonra Qorbaçov çıxış etdi. Artıq dazlaşmağa başlayan, əyninə boz "üçlük" geyinmiş, polad sağanaqlı eynək taxan Qorbaçov tələsə-tələsə və ara vermədən, çoxdan hazırlanmış nitqinin qırmızı qovluğa bərkidilmiş vərəqlərini çevirirdi. İki saat bundan əvvəl o, pardaxlanmış taxta tribunaya Çernenkonun prezidentliyə namizədliyini irəli sürmək üçün qalxmışdı, onun öz adı parlament komissiyası sədrlərinin vərəqində idi. Neoklassik salon nahardan sonra mürgü içində idi, Qorbaçovu Xarici məsələlər üzrə komissiyanın başçısı təyin edəndə isə cəmi bir neçə deputat var idi. Seçimin əhəmiyyəti böyük idi, çünki ənənəvi olaraq bu vəzifəni partiyanın ikinci katibləri tuturdular. Bu təyinat Qorbaçova xarici məsələlərdə təcrübə toplamağa şans verirdi. Qərb diplomatı dedi:

"Hər şeydən belə görünür ki, sanki onu aparıcı mövqeyə hazırlayırlar".

...Çernenkonun prezident seçilməsindən bir gün əvvəl Müdafiə Nazirliyinin rəsmi qəzeti "Krasnaya zvezda" liderin hərbi nailiyyətləri haqqında dolğun məlumat verən məqalə dərc etmişdi. Çernenko İkinci Dünya müharibəsi zamanı cəbhədə vuruşmamışdı, lakin "Krasnaya zvezda"da deyildiyi kimi, o, 1930-cu ildə şərqi Qazaxıstanın sərhədlərini qoruyarkən bandit və qiyamçılarla vuruşmuşdu. Məqalə gənc Çernenkonun sərhədçilərlə çəkdirdiyi şəkillə müşayiət olunurdu. Burada həmçinin, qeyd olunurdu ki, Çernenko nəinki "yaxşı at sürən", həm də "tüfəng və pulemyotdan yaxşı atəş açan", "dəqiq qumbara tullayan" olmuşdur...

İki ay keçəndən sonra Çernenko siyasətinin konturları hələ də naməlum olaraq qalırdı. Kommunist Partiyası Mərkəzi Komitəsinin və Ali Sovetin ötən həftə keçirdikləri müşavirələrdə yeni liderin hansı kursu aparacağı haqqında çox az danışılırdı. Çernenko Andropovun başladığı cüzi iqtisadi islahatlardan açıq şəkildə imtina etmirdi, lakin eyni zamanda onları inkişaf da etdirmirdi. O, məktəb islahatı və dövlətin idarə olunmasında xalqın yaxından iştirakına çox diqqət yetirirdi.

Andropov kimi, Çernenko da ABŞ-la münasibətlərdə möhkəm dayanıb fikrini dəyişmədi. Ötən həftə "Pravda" qəzetinə verdiyi müsahibədə Çernenko Ağ Evin bu yaxınlarda dediklərinin sülhməramlı tonuna şübhə ilə yanaşdığını açıqladı, həmçinin, ABŞ administrasiyasının kimyəvi döyüş əməliyyatlarının qadağan olunması haqqında müqavilə bağlamaq kimi təşəbbüslərinə inanmadığını bildirdi. Çernenko elan etdi ki, "yeni sözlər yeni siyasət demək deyildir". O, əmin olduğunu bildirmişdi ki, Böyük Britaniya və Qərbi Almaniya ABŞ-ın yeni nüvə silahlarını yerləşdirməyə başladıqdan sonra Sovet İttifaqının dayandırdığı silahlanmaya dair Cenevrə danışıqları yalnız ABŞ və onun NATO müttəfiqlərinin silahları yerləşdirməzdən əvvəlki "vəziyyəti dəyişmək istiqamətində" tədbirlər gördükdən sonra bərpa oluna bilər. Çernenko xəbərdarlıq etdi ki, sovet siyasəti "müvəqqəti tərəddüdlərə" məruz qalmır və ABŞ-dakı prezident seçkilərinin nəticələrindən asılı deyildir. O dedi: "Bizdə ABŞ-dakı prezident seçkiləri ilə bağlı hansısa "planların cızılma-

sı"na işarələr yalnız kiminsə razılığa gəlməkdən boyun qaçırması cəhdidir"[11].

Beləliklə, gördüyümüz kimi, Qərb müxbirinin məqaləsində Çernenkonun xeyir-duası ilə Qorbaçovun partiyada ikinci adam olması barədə fərziyyə irəli sürülür. Qərb jurnalistlərinin Siyasi Büronun 1984-cü il fevralın 23-də keçirilən iclasında Çernenkonun MK Katibliyi iclaslarının aparılmasının Qorbaçova tapşırılması təklifini irəli sürdüyündən xəbərsiz olmalarına baxmayaraq, bu proqnoz əsassız deyildi. Çernenko həmin tarixi iclası Tixonova kiçik güzəştdən başladı: "Nazirliklər çox vaxt məsələləri Siyasi Büroya Nazirlər Sovetindən yan keçərək çıxarırlar"[12]. Bu təcrübəni qurtarmaq lazımdır. Ölkənin iqtisadi perspektivlərini də Nazirlər Soveti işləyib hazırlamalıdır, ancaq Qorbaçov, Əliyev və Rıjkovun, yəni "gənc" kadrların köməyilə.

Daha sonra Çernenko təklif etdi ki, Katibliyi Qorbaçov aparsın, Baş katib olmayanda isə Siyasi Büronu da. Çernenko, deyəsən, başa düşürdü ki, burada enerjili, cavan, fiziki cəhətdən möhkəm adam lazımdır. Lakin Siyasi Büronun bütün üzvləri bu fikirdə deyildilər. Məsələn, Nikolay Tixonov Baş katibin təklifinə etiraz etdi. Tixonovun şübhələrini bölüşən bəziləri onu dəstəklədi. Baş katibin təklifinin "lehinə" Ustinov danışdı. Tixonovun etirazının məğzi məhz Qorbaçovun şəxsiyyətinə aid idi. Baş nazir onu kifayət qədər bilikli olmamaqda günahlandırdı. Bu, bir-birindən asılı olmayan bir neçə şahid-memuarçı tərəfindən təsdiq edilir: Liqaçov, Vorotnikov, Medvedev. Belə görünür ki, Tixonovun özü partiyada ikinci yerə göz dikmişdi. O, Çernenkonun taxta çıxmasına təzəcə kömək etmişdi, əvəzində isə bu cür nankorluqla üzləşirdi.

"Tixonova etiraz edən Ustinov oldu, – V.Medvedev xatırlayır. – "Qorbaçovun axı Katibliyi aparmaq təcrübəsi vardır, bir də bütün əvvəlki təcrübə göstərir ki, Katibliyi aparanın həmişə hansısa iş sahəsi olub və bu, Katibliyin işinə mənfi təsir göstərməyib"[13].

Belə olan surətdə öz diplomatik təcrübəsindən istifadə edərək Qromıko söz aldı. Yaranmış gərginliyi aradan götürmək üçün o, "nə şiş yansın, nə kabab" təklifini edir:

– Gəlin fikirləşək, indi tələsməsək yaxşıdır. Sonra bu məsələyə qayıdarıq.



H.Əliyevin Bakı aeroportunda yola salınması. 7 dekabr 1982-ci il.



[illegible] Azərbaycanı ziyarət. 7 dekabr 1962-ci il.



Vologdaya səfər. 1-2 iyul 1983-cü il.



H.Əliyev Çerepovets metallurgiya kombinatında. 2 iyul 1983-cü il.



Macarıstanın Baş naziri D.Lazar ilə. İyul, 1983-cü il.



Kremldə Sovet-Macarıstan danışıqları. İyul, 1983-cü il.



Vyetnam səfəri. 26 oktyabr – 1 noyabr 1983-cü il.





H.Əliyev SSRİ-nin ali rəhbərləri ilə. 1983-cü il.



Çexoslovakiya KP MK Baş katibi Q.Qusakın aeroportda qarşılanması. Fevral, 1984-cü il.



H.Əliyev SSRİ Ali Sovetinin Azərbaycandan olan deputatları ilə. Aprel, 1984-cü il.



Əvvəlki səfər, aeroyuya MSSR, Severo-Baykalsk. 7 iyun 1984-cü il.



H.Əliyevin BAM-da Tında şəhəri sakinləri ilə görüşü. 6 iyun 1984-cü il.



Kremldə D.Ortеqanın qəbul edilməsi. 18 iyun 1984-cü il.



Kremldə F.Müllerlə görüşdükdən sonra. 20 iyun 1984-cü il.



Moskva-tərtibat stansiyasında. 30 iyul 1984-cü il.



Moskva, Kreml. 6 noyabr 1984-cü il.



SSRİ Tibb Elmlər Akademiyasına Lenin ordeni təqdim edilməsi. 14 dekabr 1984-cü il.



Altay diyarı. Barnaul. 10-14 fevral 1985-ci il.



Üzərində XII Ümumdünya Gənclər və Tələbələr festivalının rəsmi loqosu olan əsərlərin müəlliminin sərgisi. 16 may 1985-ci il.

Ancaq Çernenko gözlənilmədən qətiyyət nümayiş etdirərək bildirdi:

– Mən bir daha təkid edirəm ki, Katibliyin aparılmasını Qorbaçov yoldaşa etibar etmək haqqında təklifimi dəstəkləyəsiniz.

Siyasi Büro daha bu məsələnin müzakirəsinə qayıtmadı, Katibliyin işinə isə Qorbaçov rəhbərlik etməyə başladı.

Baş katibin M.Qorbaçovu ali partiya iyerarxiyasında qeyri-rəsmi ikinci posta irəli çəkmək qərarı və bu qərarı qəti müdafiə etməsinin səbəbləri haqqında düşünən Sov.İKP MK-nın keçmiş əməkdaşı V.Leqostayev yazır:

"Bu suala cavab tapmaq üçün ilk növbədə gərək öz-özündən soruşasan: 1984-cü ilin fevralında K.U.Çernenkonun, əslində, hansı seçimi vardı? Seçim böyük deyildi. Sov.İKP MK-nın səkkiz katibindən Siyasi Büronun tərkibinə o vaxt yalnız iki nəfər daxil idi: M.S.Qorbaçov və Q.V.Romanov. Ona görə də onlardan birini seçmək lazım idi; MK Katibliyinə rəhbərliyi, məsələn, xarici işlər nazirinə tapşırmaq olmazdı axı. Ona görə də söhbət yalnız iki MK katibinin, həm də Siyasi Büro üzvünün birindən gedə bilərdi. Q.V.Romanova gəldikdə K.U.Çernenkonun Leninqrad Vilayət Partiya Komitəsinin birinci katibinin simasında özünə silahdaş yox, güclü siyasi rəqib görməyə tam əsası var idi. Üstəlik onu öz iradəsinə tabe etmək K.U.Çernenko üçün asan məsələ olmayacaqdı. Onu da nəzərə almaq lazım gəlirdi ki, SSRİ Nazirlər Sovetinin sədri N.A.Tixonov və K.U.Çernenkonun işgüzarlıq keyfiyyətləri haqqında yüksək fikirdə olmayan Sov.İKP Moskva Şəhər Partiya Komitəsinin nüfuzlu birinci katibi V.V.Qrişin Q.V.Romanovu müdafiə edirdilər. Bu səbəbdən partiyada ikinci vəzifəni Q.V.Romanovun tutacağı təqdirdə K.U.Çernenkonun Baş katib vəzifəsində rolu çox güman ki, nominal olacaqdı.

Digər tərəfdən, M.S.Qorbaçov da görünür, K.U.Çernenko üçün tamamilə münasib namizəd deyildi. Onun siyasi çəkisi yavaş-yavaş olsa da durmadan artırdı. Bu artırma ölkədə Siyasi Büro üzvlərinin yaş imkanlarına olan neqativ münasibətlərin də müsbət təsiri vardı. İnsanlar dövlət tribunasında taqətsiz qocaları görməkdən yorulmuşdular, xarici səfərlərdə liderə baxıb xəcalət hissi keçirməmək üçün ölkənin başında gənc, enerjili adam görmək istəyirdilər. M.S.Qor-

başov bu ümidlərə cavab verirdi, ona görə də partiyanın gözündə o tədricən ən yüksək posta mümkün namizədə çevrilirdi. Bununla yanaşı, M.S.Qorbaçovun özü ehtiyatla hərəkət edirdi, həddindən artıq siyasi ambisiyalar nümayiş etdirmirdi və elə görünürdü ki, kənd təsərrüfatına məsuliyyət daşıyan Siyasi Büro üzvü rolundan tam razı idi. Təsadüfi deyil ki, K.U.Çernenkonun Katibliyin aparılmasının M.S.Qorbaçova tapşırılması təklifinə N.A.Tixonov dərhal reaksiya verdi: – Qorbaçov Katibliyin iclaslarını Kənd Təsərrüfatı Nazirliyinin kollegiyasına döndərəcək, oraya ucdantutma aqrar məsələləri çıxaracaq...

Zaman göstərdi ki, Nikolay Aleksandroviç öz proqnozlarında yanılmışdı. Siyasi Büronun ən nüfuzlu üzvləri sırasından M.S.Qorbaçovu D.F.Ustinov dəstəkləyirdi. O, partiyada Q.V.Romanovun rolunu məhdudlaşdırmağı özünə borc bilir, bu addımla sənaye kompleksinə rəhbərlikdə həlledici mövqeləri öz əlində saxlayırdı. Beləliklə, ehtimal etmək olar ki, M.S.Qorbaçovu özünə yaxınlaşdırmaqla yeni Baş katib Siyasi Büroda nüfuzlu Tixonov–Qrişin–Romanov qrupuna qarşı özünün qeyri-formal Çernenko–Ustinov–Qorbaçov ittifaqını qoymağı nəzərdə tuturdu. Əlbəttə ki, bu ittifaqda əsas rol Çernenkoya məxsus olacaqdı. Bu planın həyata keçirilməsi ağır kadr itkilərindən sarsılmış Siyasi Büroda müəyyən tarazlığın yaranmasına ümid verirdi. Bunsuz isə bu orqanın dayanıqlı işləməsinə, deməli, həm də ölkədə siyasi sabitliyə ümid etmək, təbii ki, ağlasığmaz idi.

Gələcək hadisələri bizdən xəbərsiz müəyyən etmiş 1984-cü ilin fevralında yaranmış vəziyyətdən nəticə çıxararaq, söyləmək olar ki, bu vəziyyətdə K.U.Çernenkonun praktik olaraq variantı yox idi. O, cəmi iki namizəddən birini özünə yaxın silahdaş kimi seçməli oldu. Və həmin illərin ənənəsinə uyğun olaraq öz yanında zəif hesab etdiyini saxladı – M.S.Qorbaçovun üzərində dayandı. O, sadəcə olaraq, başqa cür də edə bilməzdi. Bu mənada 80-ci illərin əvvəllərindəki hadisələrin bütün sərt məntiqi partiya və ölkəni qaçılmaz olaraq M.S.Qorbaçovun ağuşuna yönəldirdi"[14].

V.Pribıtkovun sözlərinə görə, "Çernenkonun bu təklifində gizlin səbəb deyil, soyuqqanlı plan üstünlük təşkil edirdi: Qorbaçovu rəqib yox, müttəfiq etmək... O, Qorbaçova əhəmiyyətinə görə partiyada ikinci postu etibar etdi və üstündə də durdu – bu ondan da çətin idi! Bu andan ta Çernenkonun ölümünə qədər Qorbaçov onun sağ əli olacaqdı. Bununla da Qorbaçovun gələcək taleyi həll olunurdu – yuxarıya doğru onun üçün yaşıl yol açılırdı..."[15].

K.Çernenko ölkəni sələfindən də az idarə etdi: bir ildən bir qədər çox. Bu dövr Rusiya tarixşünaslığında durğunluq və həyəcanlı gözləntilər dövrü adlandırılır.

Lakin bəziləri bu fikirlə razılaşmır. Məsələn, RSFSR Nazirlər Sovetinin keçmiş sədri V.Vorotnikov:

"Mürəkkəb, təzadlı ildir. Demək olmaz ki, bu, durğunluq ili idi. Yox. İqtisadiyyatın inkişafına, ictimai həyatın bir qədər fəallaşmasına Y.V.Andropov tərəfindən verilmiş təkan hələ hiss olunan ətalətini saxlayırdı. Əksər müəssisələrdə, tikintilərdə, kənd təsərrüfatında iqtisadiyyatın inkişafı ilə bağlı planlarda nəzərdə tutulmuş göstəricilərə ciddi yanaşılırdı. Məhsulun keyfiyyətini yaxşılaşdırmaq üçün tədbirlər işlənib hazırlanır və həyata keçirilir, həcmi də artırdı.

Bəzi partiya komitələri yaranmış vəziyyətə görə kadrların məsuliyyətini artırmağa, intizamı və qayda-qanunu möhkəmləndirməyə çalışırdılar. Xalq təsərrüfatının bir sıra sahələrində mütəxəssis və alimlərin köməyilə istehsalat sahəsində iqtisadi münasibətlərin təkmilləşdirilməsi istiqamətində eksperimentlər aparılırdı və s."[16].

Həqiqətən, N.Rıjkovun öz kitabında qeyd etdiyi kimi, xalq təsərrüfatında 1984-cü il yanvarın 1-dən uğurla həyata keçirilməyə başlanmış eksperiment genişlənirdi, özü də əvvəldən düşünülmüş kimi, ara vermədən genişlənirdi. Nəticədə eksperimentə cəlb olunmuş müəssisələrdə istehsalın inkişaf sürəti nəzərəçarpacaq dərəcədə artdı. İntizam açıq-aydın gücləndi, təchizatma öhdəlikləri yerinə yetirilirdi. Ötən illərdən fərqli olaraq, məhsulun maya dəyəri aşağı düşür, əmək məhsuldarlığı və bunun nəticəsi kimi, əmək haqqı artırdı...

"84-ün iyulunda, – deyə N.Rıjkov yazır, – Siyasi Büroya Çernenkonun imzası ilə elmi-texniki tərəqqinin sürətləndirilməsi və iqtisadiyyatın bütün strukturlarında onun idarə olunmasının təkmilləşdirilməsinin zəruriliyi haqqında məktub təqdim olundu. Qorbaçovla biz hesab edirdik ki, belə mühüm məsələdə təşəbbüs hətta MK

Katibliyindən də deyil, məhz Baş katibdən gəlməlidir. Bu qədər yüksək imzaya baxmayaraq, məktuba SB-də yalnız oktyabrda baxıldı. Bu yükü yerindən tərpətmək biz düşündüyümüzdən də ağır oldu.

Nəhayət ki, oktyabrda bu məsələ ilə bağlı MK-nın Plenumunu keçirmək barədə Siyasi Büronun qərarı oldu. Bundan əlavə, tarix də müəyyən olundu – 23 aprel 1985-ci il. Məruzəçinin adı açıqlandı – Qorbaçov. Nəzərdə tutulurdu ki, Çernenko giriş sözü söyləyəcək"[1].

V.Vorotnikov öz gündəliyində maraqlı bir yazı – K.U.Çernenkonun Sov.İKP MK Baş katibi vəzifəsində apardığı ilk Siyasi Büro iclaslarından birinin stenoqramını verir.

"Onun çıxışının tezisləri. *Y.V.Andropovun vəfatından sonra Siyasi Büronun ilk iclası. Yerlərdən gələn informasiya göstərir ki, bu günlərdə Siyasi Büronun işini ölkədə və xaricdə layiqincə qiymətləndirmişlər. Birliyi möhkəmləndirmək bizim müqəddəs borcumuzdur. Uğur qazanmaq partiyanın rəhbər rolunu bundan sonra da gücləndirməkdədir. Partiya quruculuğu, rəhbərlik stili və metodlarının təkmilləşdirilməsi məsələləri Siyasi Büronun diqqət mərkəzində olmalıdır.*

Son vaxtlar mən çalışmışam ki, Siyasi Büronun nəzər dairəsində ən mühüm və vacib məsələlər olsun. Xırda himayəçilikdən uzaqlaşmaq.

Katibliyin də işini yüngülləşdirmək, bir çox məsələlərin həllini katiblərə və MK şöbələrinə həvalə etmək lazımdır. Təsərrüfat orqanlarının məsuliyyətini artırmaq. Nazirliklər çox vaxt məsələləri Siyasi Büroya Nazirlər Sovetindən yan keçərək çıxarırlar. Siyasi Büroda ən böyük diqqət, əlbəttə ki, iqtisadi məsələlərə yönəldilməlidir. Çox vaxt işin keyfiyyəti barədə planın yerinə yetirilməsi baxımından mühakimə yürüdürük, ancaq bu faizin nəyin bahasına əldə edilməsi bundan az əhəmiyyətli deyil. İqtisadi nəticələri daha ciddi qiymətləndirmək lazımdır.

Cari məsələləri həll edərkən, təşəbbüsü əldən vermək olmaz. Biz, əslində, XXVII qurultaya hazırlıq mərhələsinə qədəm qoymuşuq. Zəruri olan nədir?

1.12-ci beşillik və 2000-ci ilə qədər əsas istiqamətlərin hazırlanması işini xeyli fəallaşdırmaq.

2. Perspektivə yönəlmiş təkliflər hazırlamaq. Bu işlə N.A.Tixonovun rəhbərliyi altında Siyasi Büronun komissiyası məşğul olmalıdır. Və ən yaxın zamanda əsas konsepsiyalar barədə məsələ Siyasi Büroya çıxarılmalıdır. Bu, həmçinin partiyanın Proqramının işlənib hazırlanması ilə bağlıdır. O, ümumi şəkildə hazırdır.

3. Xalq təsərrüfatının idarə olunması. Müvafiq tapşırıqlar vardır. Axtarış, eksperiment gedir, birliklər təşkil olunur və s. Bütün bu işləri 1985-ci ilədək başa çatdırmaq lazımdır. Xalq təsərrüfatının kompleks idarə olunmasının prinsipial yollarını müəyyən etmək və bunun əsasında razılaşdırılmış təkliflər təqdim etmək lazımdır. Bu, N.A.Tixonovun, M.S.Qorbaçovun, H.Ə.Əliyevin, N.İ.Rıjkovun işidir"[2].

Çernenkonun vaxtında Andropov təmizləmələri davam etdirilirdi və Baş katibin heç də onları dayandırmaq fikri yox idi. Onun vaxtında Kərimov həbs edildi, 1984-cü il dekabrın 13-də Şolokov həbs olunmaq təhlükəsilə üzləşəndə özünü öldürdü – Çernenko ona köməkdən imtina etmişdi.

Bu mənada Moskvanın Kuybışev dairəsi seçicilərinin 1984-cü il martın 2-də Kremlin Qurultaylar Sarayında öz namizədləri – Sov.İKP MK Baş katibi K.Çernenko ilə görüşü səciyyəvidir. Görüşdə bütün Siyasi Büro üzvləri, o cümlədən, H.Əliyev iştirak edirdilər.

Çıxışı zamanı K.Çernenko başa saldı ki, Y.Andropovun neqativ hallarla mübarizə xəttini davam etdirəcəkdir. Baş katibin söylədikləri 13 il ərzində H.Əliyevin respublika fəalları qarşısında, Azərbaycan KP MK-nın müxtəlif plenumlarında dəfələrlə dediklərini xatırladır: "Xüsusilə bunu demək istəyirəm. Partiya və dövlət, bildiyiniz kimi, dövlət vəsaitinin dağıdılması, gözdən pərdə asma və xidməti vəzifədən sui-istifadə, oğurluq və rüşvət kimi biabırçı hallara qarşı mübarizəni gücləndirmişdir. Bu, müvəqqəti kampaniya deyildir. Bu, daimi və danışıqsız aparılacaq xətdir. Burada heç kimə güzəşt yoxdur və olmayacaq da. Bu barədə heç kim xam xəyallara düşməməlidir".

1984-cü ildə KP MK-ların, diyar, vilayət partiya komitələrinin katibləri, o cümlədən, doqquz birinci katib dəyişdirildi. Sov.İKP MK-nın analitik xidmətləri rəhbər işçilərin özlərini düzgün aparmamaları barədə MK-ya daxil olan siqnalların bir qədər azalmasını

məmnuniyyətlə qeyd edirdilər. Halbuki belə məktubların ümumi sayı hələ də çox idi.

Kadrlara qarşı tələbkarlıq yeni Baş katib gələndən sonra bəzilərinin açıq-aydın ümid etdikləri kimi, zəifləmirdi. Bir neçə yüksək vəzifəli nazirlik işçisinin həbsi və məsuliyyətə cəlb olunması belə fikirlərin əsassız olduğunu göstərdi.

Heydər Əliyevə gəldikdə isə, K.Çernenkonun ölkəni idarə etdiyi dövr onun üçün ən məhsuldar və səmərəli illərdən oldu. Bu vaxt üçün o artıq Kremldə yerini kifayət qədər möhkəmlətmişdi və bir çox istiqamətlərdə tamamilə müstəqil fəaliyyət göstərirdi. O öz proqnozlarında yanılmamışdı: Konstantin Çernenkonun onun enerji və işgüzarlığına ehtiyacı var idi, ona görə də hakimiyyət Olimpindəki dəyişikliklər onun mövqeyini sarsıtmadı.

SSRİ-də məktəb təhsili islahatı

1984-cü il yanvarın 4-də bütün mərkəzi qəzetlərdə "Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri" haqqında Sov.İKP MK-nın Layihəsi dərc olundu. Layihə K.Çernenkonun rəhbərliyi altında Sov.İKP MK Siyasi Bürosunun Komissiyası tərəfindən hazırlanmışdı. Bu çox mühüm partiya sənədini əsas işləyib hazırlayan SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Əliyev idi.

Layihədə deyildiyi kimi, islahatın başlıca vəzifələri bunlar idi:

– təhsilin keyfiyyətini yüksəltmək, tədris plan və proqramlarını, dərslikləri və dərs vəsaitlərini təkmilləşdirmək, şagirdlərin həddən artıq yüklənməsini aradan qaldırmaq (bu məqsədlə ibtidai məktəbdə tədrisin müddəti bir il uzadılırdı – 1–4-cü siniflər, tədrisə bir il əvvəl, 6 yaşından başlamaq, orta ümumtəhsil məktəbini isə 11 illik etmək nəzərdə tutulurdu);

– ümumtəhsil məktəbində əmək tərbiyəsi, təlim və peşə yönümü işini kökündən yaxşılaşdırmaq, tədrisin politexnik, praktik yönümünü gücləndirmək, gənclərin ümumi peşə təhsilinə keçməsinə nail olmaq (bu vəzifənin yerinə yetirilməsi üçün yuxarı sinif şagirdlərinin şagird istehsalat briqadalarının tərkibində məktəblərarası tədris-istehsalat kombinatlarında, tədris sexlərində və müəssisələrdə, istehsalat sahələrində işləməsi nəzərdə tutulurdu. Həftədə bir gün bilavasitə iş yerlərində əmək təliminə ayrılırdı);

– müəllimin ictimai nüfuzunu və hörmətini qaldırmaq, müəllim və istehsalat təlimi ustalarının məvacibini artırmaq, onların mənzil-məişət və sosial şəraitini yaxşılaşdırmaq;

– ümumtəhsil və peşə məktəbinin və xalq təhsilinin idarə olunmasını təkmilləşdirmək.

İslahat layihəsi ümumxalq müzakirəsinə çıxarıldı.

1984-cü il aprelin 11-də Kremldə 11-ci çağırış SSRİ Ali Sovetinin birinci sessiyası işə başladı. Sessiya K.Çernenkonu SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri seçdi.

1984-cü il aprelin 12-də sessiyada ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətlərinə dair məruzə ilə H.Əliyev çıxış etdi.

Məruzə quru müddəalar və partiya çıxışlarının çeynənmiş sözçülüyündən uzaq idi. Olduqca canlı, emosional, gözəl rus dilində yazılmışdı və yüksək natiqlik ustalığı ilə oxunmuşdu.

Həmin məruzədən bəzi parçalar:

"Tədrisi məhsuldar əməklə birləşdirmək gənclərimizin sosial püxtələşməsi prosesi üçün müstəsna əhəmiyyət kəsb edəcəkdir. Çünki əməksevərlik tərbiyəsi – insan şəxsiyyətinin başlıca keyfiyyətinin tərbiyəsidir, cəmiyyətin və fərdin həyatı üçün bünövrənin yaradılmasıdır. Bugünki məktəbli hansı istedad sahibi olursa olsun, hansı sənəti seçmək istəyirsə seçsin – əkinçi ya kosmonavt, inşaatçı ya rəssam, metallurq ya həkim – seçdiyi məqsədə doğru yolu hər şeydən əvvəl öz əməyi sayəsində açmalıdır. O, vətəndaş kimi özünü yalnız xalqın, Vətənin rifahı naminə çalışmaqla təsdiq edə bilər. Sosializm – zəhmətkeşlərin cəmiyyətidir və yalnız əmək – istər fiziki, istərsə də əqli olsun – burada insanların həm şərəfini, həm ləyaqətini müəyyən edir".

İslahatda nəzərdə tutulmuş və müəllimlərin ixtisaslarının artırılmasına yönəlmiş tədbirlərə toxunan H.Əliyev, müəllimin ideal portretini yaradır: "Nə vaxta qədər ki, müəllim öyrənir – o yaşayır, nə vaxta qədər ki, müəllim yaşayır – o öyrənir" – bu köhnə həqiqət heç də öz mənasını itirməmişdir. Bir qədər də dərinə gedək: müəl-

lim nəinki zamanla ayaqlaşmalıdır, hətta, əgər bilmək istəyirsinizsə, onu qabaqlamalıdır. O, əsaslarını tədris etdiyi elmin qızğın təbliğatçısı və dərin bilicisi olmalıdır, oradakı ən yeni məlumatlardan xəbərdar olmalıdır...

Lakin tərbiyəçi şagirdlərini yalnız biliklə silahlandırmır. Həm də onlara öz davranışı, həyat tərzi, bütün siması ilə təsir göstərir. Onun intellekt və mədəniyyəti, düzgünlüyü və insanpərvərliyi, onun mənəvi keyfiyyətləri şagirdlər tərəfindən bir etalon kimi qəbul edilir. Buna görə də müəllim, hansı fənni aparmasından asılı olmayaraq, sosializm mənəviyyatının tərbiyəçisi, gənclər üçün yüksək nümunə olmalıdır".

H.Əliyev mədəniyyət xadimlərini xalq maarifinin islahatına öz töhfələrini verməyə çağırır: "Məktəb yazıçılar, rəssamlar, bəstəkarlar, teatr və kino xadimləri ilə görüşləri gözləyir, uşaq və gənclərin mənəvi və vətəndaşlıq təşəkkülünə kömək edən yüksək ideyalı, bədii cəhətdən kamil, məktəb həyatını, müəllimlərin nəcib missiyasını dolğun və düzgün əks etdirən əsərlər gözləyir".

Məruzədə cəmi bir neçə rəqəm səsləndi, lakin onların təsir qüvvəsi böyük idi: "Gələn beşillikdə 7 milyon şagirdlik yeni məktəb, təxminən 800 peşə məktəbi kompleksinin tikilməsi nəzərdə tutulmuşdur. İslahatların həyata keçirilməsi üçün dövlət büdcəsi tərəfindən 11 milyard manat ayrılır, onun 3,5 milyardı təhsil işçilərinin maaşlarının artırılmasına yönəldiləcəkdir".

H.Əliyevin məruzəsi, görənlərin dediyi kimi, sessiya iştirakçılarının böyük marağına səbəb oldu, ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri isə SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə bəyənildi.

Əsas müddəaları hələ Andropovun dövründə işlənib hazırlanmış məktəb islahatına qiymət verən Rusiya politoloqu A.Şubin qeyd edir ki, bu islahat elmi-texniki inqilabın tələblərinə Sov.İKP-nin başlıca cavabı idi.

"Beyinlərin dəyişdirilməsi" iqtisadi sıçrayış üçün etibarlı zəmin yaratmalı idi (yeri gəlmişkən, bu da rəsmi marksizm üçün qiyamçı məntiqdir). Məktəb islahatının konkret yollarını tədrisin fiziki əməklə birləşdirilməsinin zəruriliyi haqqında təsəvvürlər diktə edirdi. İdeyanın özü rejim üçün təzə deyildi, lakin belə geniş şəkildə ilk dəfə həyata keçirilirdi. Artıq bir neçə il idi ki, bəzi məktəblərdə şagirdləri tədris-istehsal kombinatlarına və hami müəssisələrə göndərirdilər. Mütəxəssislər öz işlərini buraxıb şagirdlərə necə işləmək lazım olduğunu başa salmaq məcburiyyətində qalırdılar. Bu, eyni zamanda tədrisin və peşə yönümünün növü sayılırdı. İndi bu sistemin əhatəsini genişləndirmək, məktəbli kütlələrini ixtisası olmayan işçi qüvvəsinə çevirmək istəyirdilər.

İslahatın mahiyyəti məktəbi politexnikləşdirməkdən, 8-ci (9-cu) sinifdən sonra təhsilini ümumtəhsil məktəblərində yox, texniki-peşə məktəblərində davam etdirməli olan şagirdlərin müəyyən hissəsini seçməkdən ibarət idi (şagirdlərin qiymətlərini yüksəltmək yox, ikinci ilə daha çox saxlamaq da tövsiyə olunurdu). Məktəblə sənaye arasında birbaşa istehsalat əlaqələri yaratmaq nəzərdə tutulurdu. Məsələ çox ciddi qoyulurdu...

Təbii ki, gənc nəslin belə "sənayeləşdirilməsi" məktəbdə humanitar fənlərin və gənclərin məktəbdənkənar asudə vaxtının xeyli dərəcədə azaldılması hesabına həyata keçirilməli idi. Formalaşmaqda olan şəxsiyyət növbəti böyük sıçrayışa hazırlaşan maşının güclü məngənələri arasına düşmüşdü. Ədəbiyyat, tarix və digər humanitar fənlərin proqramı qısaldıldı. Məmurların həmişə böyük şübhə ilə yanaşdığı Dostoyevski "bıçaq altına" düşdü. Dövlətə mütəfəkkirlər yox, icraçı-işçilər gərək idi. Gənclər boş-boş gəzməsin deyə onların əmək təlimi və ictimai-faydalı, məhsuldar əməyi üçün lazım olan vaxtın əhəmiyyətli dərəcədə artırılması, həmçinin yay tətilinin müəyyən dərəcədə qısaldılması hesabına hər il əmək təcrübəsinin keçirilməsi nəzərdə tutulurdu"[1].

İslahat həmçinin, tədrisin 6 yaşından başlanması (yəni 11 illik təhsilə keçməklə) və müəllimlərin əmək haqqının 30% artırılması ilə yadda qaldı. Müəllim sənətinin nüfuzu artdı. Məktəb islahatının üzərinə, Çernenko aparatında sınaqdan çıxarılmış daha bir vacib məsələ əlavə olundu – kompüterlərin tətbiq olunması.

Heydər Əliyev həmişə ETİ-nin nailiyyətlərini əks etdirən yeniliklərə diqqətlə yanaşırdı, müvafiq sərəncamların Nazirlər Sovetindən keçirilməsinə və praktiki tətbiqinə kömək edirdi. Biz F.Bobkovun videomaqnitofonlar haqqında söylədiyi əhvalatla artıq tanışıq. Tanınmış Rusiya tarixçi-qafqazşünası **R.N.İvanovun** bizə danışdığı

digər əhvalatı da yada salmaq yerinə düşər. Aşağıda Rudolf Nikolayeviçin xüsusi olaraq bizim kitab üçün yazdığı xatirələri veririk. Onlar sosializmin "son dövr"ünün partiya-hökumət zirvəsində hökm sürən bürokratiya mühitini, sürüdürməçiliyi, hakimiyyət uğrunda gizli çarpışmaları çox gözəl əks etdirir. Bütün bunların nəticəsidir ki, SSRİ qabaqcıl texnologiyaların tətbiqi sahəsində həddən artıq ləngiyir və Qərb ölkələrindən getdikcə daha çox geridə qalırdı.

Heydər Əliyev Sovet İttifaqının dağılmasında iştirak edibmi?

(H.Ə.Əliyev haqqında xatirələr)

Ötən əsrin yetmişinci, xüsusilə də səksəninci illərində planetimiz informasiya aləminə dönmüşdü. O vaxt artıq hər bir müəssisənin, institutun, konstruktor təşkilatının, idarənin (mən daha kitabxana və arxivləri demirəm) məhsuldar işini sənədlərin surətinin operativ çıxarılması ("kseroks"), informasiyanın ötürülməsi və faydalılığı üçün onun miniatürləşdirilməsi ("mikrofilmlər"), həmçinin sənədlərin surətini uzaq məsafəyə sürətli ötürmə aparatları ("telefaks") olmadan təsəvvür etmək çətin idi. Texniki vasitələrin bu üç istiqaməti bütövlükdə "reproqrafiya" termini ilə ifadə olunur. İnformasiyanın işlənməsi proseslərinin keyfiyyətcə yeniləşməsi, əmək məhsuldarlığının artırılması və bütün işçilərin iş vaxtına qənaəti reproqrafiyanın tərəqqisi ilə əlaqələndirilirdi. Reproqrafiya cəmiyyətin informasiya resurslarına geniş imkanlar açırdı. Məsələn, bir saniyə ərzində mətnin, qrafik təsvirin və ya notların surətinin tamamilə dəqiq çıxarılması milyonlarla insanı lazım olan sənədin üzünü köçürməkdən və ya şəklini çəkməkdən xilas etdi. Heç də təsadüfi deyil ki, insanların həyatında "qan tökmədən" inqilab etmiş reproqrafiyanı bəşəriyyətin yazı və kitab çapı kimi ixtiraları ilə yanaşı tuturdular.

Reproqrafiya tədricən hər hansı bir dövlətin inkişaf səviyyəsindən xəbər verən lakmus kağızına çevrildi. Əgər ölkə reproqrafiyanın tərəqqisində irəlidədirsə, deməli, bu dövlət dünyada liderlər sırasındadır, elmi-texniki və sosial-mədəni sahədə öndə gedir. Bu

mütləq meyar bu gün də ədalətli sayılır. Yaponiyanın elmi-texniki və sosial möcüzə, uzunömürlülər və firavanlıq ölkəsi olmasına indi heç məktəblilər də şübhə etmir. Ancaq Böyük Vətən müharibəsindən sonra SSRİ mükəmməl olmasa da, reproqrafiya texnikası istehsal edəndə, mikrofilmlərdən istifadə sahəsində isə iyirmi illik təcrübəyə malik olanda, müharibədənsonrakı Yaponiyanın reproqrafiya barədə heç təsəvvürü belə yox idi.

Sanballı layihə-konstruktor bazası və istedadlı mütəxəssisləri olan Sovet İttifaqı 70–80-ci illərdə, mükəmməl kseroks, telefaks və mikrofilmlər əsasında qurulmuş sistem modelləri yaratmaq və onların istehsalını təşkil etmək sahəsində, heç şübhəsiz, ABŞ-la müqayisədə bərabər şanslara malik idi. Ölkədə reproqrafiyanın inkişafı həyati əhəmiyyətli sahələrin gəncləşməsinə yol açır, Sovet İttifaqını aparıcı və varlı sənaye ölkəsinə çevirirdi. O vaxt hamı anlayırdı ki, reproqrafiya milyardlarla gəlir gətirəcək, ölkəyə valyuta axını olacaqdır. Lakin bu sahədə ABŞ-dan hələ çox da geri qalmadığımız bir vaxtda "böyük" dövlətin tox və mürgü vuran rəhbərləri SSRİ-də reproqrafiyanın inkişafına ciddi əhəmiyyət vermirdilər, hesab edirdilər ki, ölkədə hələ əl əməyinin potensial imkanları tükənməmişdir. Xalq təsərrüfatı üçün reproqrafiyanın maliyyələşdirilməsi "qalıq məbləğlər" adlanan prinsiplə həyata keçirilirdi. Texnikanın işlənib hazırlanmasında və istehsalında qüvvələrin dağıdılması və sistemsizlik hökm sürürdü. Reproqrafiyaya dövlət yardımı göstərilsəydi biz dünyada "reproqrafiya" ölkəsi olacaqdıq.

Reproqrafiya texnikasına tələbat artdıqca onu qismən xaricdən alırdılar, lakin bu "bəxtəvərlik" əsasən müdafiə sahələri və dövlət idarələrinə nəsib olurdu. Yeri gəlmişkən, ölkədə reproqrafiya sənayesinin inkişafı məhz elə bu idarələrdən asılı idi. Reproqrafiya texnikası və onu almaq üçün valyutası olmayan tədris ocaqlarına, kolxozlara, saysız-hesabsız müəssisələrə, xüsusilə də ucqarlarda, reproqrafiyanın imkanları sehrli yuxu kimi görünürdü.

Dünyanın inkişaf etmiş böyük dövlətləri (ABŞ, AFR, Fransa, sonradan Yaponiya) zamanın hökmünə dərhal reaksiya verdilər. Bu ölkələr optika, elektronika, dəqiq cihazqayırma, kimya texnologiyaları və s. kimi sahələrə böyük yatırımlar qoydular və bundan sonra bazarla məşğul olmağa başladılar. Reproqrafiya texnikasının sa-

tış bazarları eyni vaxtda iqtisadi təsir zonalarına çevrildilər. Reprotexnika satışının ən mühüm zonasından biri Sovet İttifaqı, QİYŞ ölkələri və Sovet İttifaqının təsir dairəsində olan ölkələr oldu. Ucuz işçi qüvvəsinə malik olan, yeni və daimi iş yeri arzusu ilə yaşayan "üçüncü dünya" ölkələri sənaye nəhəngi SSRİ-yə reproqrafiya məhsulları göndərən ölkələr olmağa uğurla hazırlaşırdılar.

Durğunluq dövrü qəribə dövrdür. Hakimiyyətdəki bu firavanlıq hələ heç kim tərəfindən qələmə alınmayıb. İnformasiyanın işlənməsi tələblərinə cavab verməyən geridə qalmış texnikaya malik Sovet İttifaqı kimi nəhəng dövlət üçün sonu keçilməz inkişaf yolu hazırlanmışdı, lakin qəti hərəkət etməyə hakimiyyətin qabiliyyəti çatmadı. Yuxarılar özləri üçün qurduqları sinifsiz cəmiyyətdə – kommunizmdə yaşayırdılar, aşağılar isə hər şeylə barışıb "burnunu soxmamaq" prinsipini gözləyirdilər. Beş il üçün birdəfəlik hazırlanmış xalq təsərrüfatı planı dəyişməz, düzəliş bilməyən sənəd idi. Və hətta heç bir yüksək rəhbərin də bu müqəddəs sahəyə qarışmaq ixtiyarı yox idi.

Mən durğunluq dövrünün bu qəribə qanunlarını heç cür anlaya bilmirdim və öz yüksək olmayan səviyyəmdə, bir vətəndaş kimi, dövlət qurumlarının yuxusuna haram qatırdım. Bu "əməllər" arasında mətbuatda çıxışlar və müxtəlif yüksək instansiyalara müraciətlər xüsusi yer tuturdu. Hakimiyyət dəhlizlərində kifayət qədər təpik döyməyimə baxmayaraq, vəziyyəti xilas etməyin mümkünlüyünə olan qarşısıalınmaz inam içimdə çağlayıb çıxış yolları axtarmaqda davam edirdi. Axı, həlli mümkün olmayan problem yoxdur? "Pravda"da reproqrafiya haqqında məqalə dərc etmək fikri də bax elə həmin o vaxt baş qaldırdı. İnsaf xatirinə deyək ki, bu qəzet mühüm dövlət qərarlarının qəbul edilməsi üçün güclü stimulyator idi, lakin belə qlobal problemə dair nüfuzlu dövlət məmuru çıxış etməli idi. Bütün bunlara baxmayaraq, 1981-ci ilin birinci yarısında "Pravda" qəzetinin redaksiyası əlyazmanı məndən qəbul etdi. O vaxt kimin ağlına gələrdi ki, məqalənin işıq üzü görməsi az qala üç il çəkəcəkdir. Bu müddətə iri monoqrafiyalar yazılır, ancaq redaksiya özünü qorumaq xatirinə R.N.İvanovun məqaləsində dövlət əhəmiyyətli fakt və rəqəmlərin açıqlanmadığını təsdiqləyən çoxsaylı resenziyalar əldə etmək üçün üç il qan-tər içində çalışdı. "Pravda"da Sovet İttifaqı üçün reproqrafiyanın inkişafının nə demək olduğunu başa düşən son dərəcə cəsur, inadlı və mütərəqqi bir insan, elm şöbəsinin müdiri M.Y.Korolyov tapıldı. Dövlət idarələrindən ona yaxın rəy almış Korolyov redaksiya heyətindən, sonralar deyildiyi kimi, bu qədər qalmaqallı məqalənin çap olunmasına axır ki, icazə ala bildi. 10 milyon tirajla çıxan "Pravda" qəzetinin 1984-cü il 13 mart tarixli nömrəsində səhər tezdən "Süst start – əsrin "sürətli yazısı" olan reproqrafiya problemləri haqqında" adlı məqalə dərc olundu.

Hələ qayğıkeş sahibini tapmayan yeni sahənin yaranması, dağınıq düşmüş konstruktor qüvvələrinin, istehsal obyektlərinin birləşdirilməsi haqqında fikir məqalənin ana xəttini təşkil edirdi. Məqalə **"Reproqrafiyanın potensial imkanları ona və onun sürətli inkişafına dövlət nəzərləri ilə baxmağı tələb edir"** tezisi ilə bitirdi.

Məqalə yuxarılarda qəzəb doğurdu, çünki SSRİ-nin bəzi görkəmli simaları məqalədə özlərini əyri güzgüdəki kimi gördülər. O vaxtlar şəxsiyyəti məhv etmək üçün psixoloji üsullar fiziki üsullardan çox idi. Məqalənin bilavasitə toxunduğu SSRİ Nazirlər Soveti yanında Hərbi-Sənaye Komissiyasının əli hər yerə çatan əməkdaşlarından biri vəzifə kürsüsünü itirməkdən qorxaraq, hökumət telefonu ilə RSFSR ali və orta ixtisas təhsili naziri İ.Obraztsova zəng vurmuşdu: "Yoldaş nazir! Sizin tabeliyinizdə olan R.N.İvanov bizimlə məsləhətləşmədən "Pravda"da dövlətimizin hərbi potensialını açan məqalə dərc etmişdir. Buna görə SSRİ Nazirlər Soveti R.N.İvanovu dəstəkdən məhrum edir və sizdən bu bəyanatı nəzərə almağı xahiş edir. Yaxın vaxtlarda lazımi orqanlar R.N.İvanovla ciddi məşğul olacaqdır". Bu xəbər ildırım sürətilə geodeziya və kartoqrafiya institutuna, mənim rəhbərlik etdiyim ölkədə yeganə reproqrafiya kafedrasına gəlib çatdı. İş yoldaşlarım məndən uzaq gəzir, salamlaşmırdılar. Mən tam vakuumda qalmışdım. Məsələnin incəliklərini bilmədiyimdən işin nə yerdə olmasını mənə hamılık edən nazir İ.F.Obraztsova danışmağa tələsdim. Lakin ilk dəfə məni nazirin yanına buraxmadılar. Onun köməkçisi düşdüyüm ağır vəziyyəti guya başa düşürmüş kimi, yavaşca dedi ki, mən bir daha nazirin yanına gəlməyim: "İvan Filippoviç sizə çox inanır, təmiz

adam olmağınızı bilir, lakin ona hökumətdən zəng vurublar, xahiş ediblər ki, sizi daha qəbul etməsin. Rudolf Nikolayeviç, rica edirəm, naziri zərbə altına qoymayın və daha onun yanına gəlməyin...".

Məqalə çıxandan iki gün sonra məni gözlənilmədən SSRİ Nazirlər Sovetinə çağırdılar. Məni qəbul edənlər ən yüksək hakimiyyətə malik olan insanlar deyildi, ancaq hər halda "orta səviyyəli" qurumları təmsil edən ağıllı, cəsarətli aparat işçiləri idi. Vətənini sevən mərd və vicdanlı insanların adlarını çəkməyi özümə borc bilirəm: Nazirlər Soveti sədrinin hərbi məsələlər üzrə məsləhətçisi general-leytenant A.A.Nazarov və İşlər İdarəsinin baş referenti S.N.Popov. Hökumət rəhbərləri yox, məhz bu insanlar vəzifələrini itirməkdən çəkinməyərək reproqrafiyanı müdafiə etmək üçün qətiyyət göstərərək dövlət mövqeyində durdular.

"Rudolf İvanoviç, reproqrafiyanın güclü havadarı olmalıdır, yoxsa bu sahə tamamilə məhv ediləcək və bundan sonra onun dirçəlməsi üçün onilliklər lazım olacaqdır. Nazirlər Sovetinə bir müddət əvvəl birinci müavin vəzifəsinə Heydər Əliyeviç Əliyev təyin olunub. O, Siyasi Büronun "cavan" üzvüdür, savadlı, mütərəqqi rəhbərdir. Xoşbəxtlikdən H.Ə.Əliyev Siyasi Büro üzvlərindən yeganə adamdır ki, hələ şənbə "hobbi"si yoxdur, yəni xalq təsərrüfatının inkişafı Dövlət planına düşməyən sahibsiz problemlərlə məşğul olmaq üçün şənbə günləri işə çıxır. Gəlin reproqrafiya problemi barədə ona məlumat çatdırmağa çalışaq, xahiş edək ki, sahibi olmayan reproqrafiyanı öz himayəsinə götürsün. H.Ə.Əliyev sözün həqiqi mənasında dövlət adamıdır və əminik ki, etiraz etməz. Lakin Heydər Əliyeviçi vəziyyətlə mümkün qədər tez tanış etmək lazımdır ki, öz yüksək partiya və dövlət səviyyəsində olduqca bu vacib dövlət məsələsində qayda-qanun yarada bilsin. Yeri gəlmişkən, ***"Pravda"da reproqrafiya barədə məqalənizi Heydər Əliyev böyük diqqətlə oxumuş və onun əsasında hökumət tapşırığı hazırlanması barədə göstəriş vermişdir*** *(seçmə müəlliflindir – **R.İ.**)".*

Aparat işçiləri iddia edirdilər ki, qəzet məqaləsi əsasında hökumət tapşırığı, qoy lap "Pravda" olsun, ittifaq Nazirlər Sovetinin təcrübəsində nadir hadisə idi. Adətən hökumət tapşırığı bir qalaq kağız, müxtəlif məktub, rəy və təkliflər hazırlanmasını nəzərdə tutur-

du. Ancaq H.Ə.Əliyev mərkəzi mətbuatın aktual çıxışına hökumət tərəfindən bu vaxta qədər heç kimin və heç bir vaxt edə bilmədiyi operativ reaksiya vermək bacarığı nümayiş etdirdi.

HT-5206, 16.03.84-cü il. R.N.İvanovun "Süst start" məqaləsinin işıq üzü görməsi ilə əlaqədar, "Pravda", 13 mart 1984-cü il. Martınov N.V., Marçuk Q.İ., Smirnov L.V yoldaşlara. Ölkədə işin vəziyyəti ilə bağlı məruzə təqdim edilsin. H.Əliyev".

"HT"-nin ünvanlandığı hər üç rəhbər işçi Nazirlər Soveti sədrinin müavinləri idi. N.V.Martınov SSRİ Dövlət Təchizat Komitəsinə başçılıq edirdi və xarici avadanlıqların alınmasında valyuta xərclərini nəzarətində saxlayırdı, SSRİ EA-nın akademiki Q.İ.Marçuk Dövlət Elm və Texnika Komitəsinin rəhbəri idi və ölkədə elmi-texniki tərəqqinin inkişafına cavabdehlik daşıyırdı, üçüncü – L.V.Smirnov isə Hərbi-Sənaye Komissiyasının başında dururdu, dövlətin bütün müdafiə kompleksini, yəni müdafiə kompleksinə aid doqquz sahəni idarə edirdi...

Beləliklə, SSRİ-də durğunluq dövrünün qızğın çağında ölkə reproqrafiyası üçün yeni era açılırdı. Bir ay ötdü, daha bir ay keçdi, üçüncü ayın sonu yaxınlaşırdı, lakin bu üç "əjdəha", bir-birilə danışıblarmış kimi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavininin tapşırığına reaksiya vermirdilər. Hər şey və hamı haqqında bütün xırdalıqları bilən aparat işçiləri bu faktı onunla izah edirdilər ki, bu üç rəhbər öz aralarında hər şeyi ölçüb-biçmiş və belə qərara gəlmişdir ki, Əliyevə "Pravda" qəzetindəki məqalə ilə bağlı qərara təsadüfən, özü də hiss etmədən imza atdırmışlar. *"Əliyev Hökumətdə hələ bərkiməyib. O, nəqliyyata baxır, orada da iş başdan aşır, odur ki, qoy öz problemləri ilə məşğul olsun, onun-bunun işinə qarışmasın", – üç "böyük" adamın gəldiyi qənaət belə olmuşdur. Ancaq qanları qaralmış aparat işçiləri hələ də inamlarını itirmirdilər: "Darıxmayın, Rudolf Nikolayeviç, hər şey yoluna düşəcək. Onlar H.Ə.Əliyevi yaxşı tanımırlar. Əliyevlə bacara bilməyəcəklər. O, ağciyərlərdən deyil, "qocaların" sözü ilə oturub durmayacaq! Bir az da gözləyək".*

Düz üç ay keçdi. Hökumətin ikinci şəxsinin tapşırığını icra etmək üçün bu, həddindən böyük zaman kəsiyidir. Nəhayət, ölkədə işin vəziyyətilə bağlı təklifləri gözləmədən, 1984-cü il iyunun 15-

də reproqrafiya barədə "Pravda" qəzetindəki həmin o məqalə ilə əlaqədar yeni, lakin tamamilə başqa istiqaməti vurğulayan "HT" çıxdı. Bu "HT" hakimiyyətin yüksək dairələrində reproqrafiyaya münasibətdə gizli qarşıdurmanın başlanğıcı oldu.

"HT"-11773, 15 iyun 1984-cü il. Baybakov N.K., Antonov A.K, Martınov N.V., Marçuk Q.İ., Smirnov L.V. yoldaşlara. Marağı olan SSRİ nazirlik və idarələrinin iştirakı ilə həmin məsələ ilə bağlı ölkədə bu işin əsaslı yaxşılaşdırılması nəzərdə tutulmaqla Nazirlər Sovetinin qərar layihəsi hazırlansın. H.Əliyev".

H.Ə.Əliyev hələ bir o qədər də ahəngdar səslənməyən reproqrafiya orkestrində birinci skripka rolunu öz köhnə tanışı və həmkarı, bakılı N.K.Baybakovun şəxsində SSRİ Dövlət Plan Komitəsinə həvalə etdi. (A.K.Antonov Elektron Sənayesi Nazirliyinə başçılıq edirdi, digərləri isə bizə məlumdur). Belə addımı heç kim gözləmirdi. Bu, özününkülərə güllə atmağa bərabər idi. Dövlət Plan Komitəsində, əlbəttə ki, reproqrafiya aləmində baş verənlərdən xəbərdar idilər. Üstəlik, onlara məlum idi ki, reproqrafiya sahəsində geridə qalan SSRİ dövləti QİYŞ ölkələrini dünənin texnikasını istehsal etməyə yönəldir. Onu da bilirdilər ki, dünyanın güclü dövlətlərinin üçüncü dünya ölkələrini reproqrafiya texnikasını yığmaq, kütləvi surətdə istehsal edib dünya miqyasında satışa çıxarmaq üçün hazırlaması orada minlərlə iş yerinin açılmasına və bu ölkələrdə SSRİ-nin nüfuzunun azalmasına səbəb olur. Çin, Koreya, Malayziya tez anladılar ki, reproqrafiya onlara iş yerlərinin yaradılması ilə bərabər inkişaf və çiçəklənmə gətirəcəkdir. Odur ki, dərhal üzlərini ABŞ və o vaxt sürətlə tərəqqi edən Yaponiyaya çevirdilər. Dollarlar "çürüməkdə olan imperializmin süqutundan sonra bərqərar olacaq işıqlı gələcək" haqqında ümidverici ideyalardan üstün oldu.

Raket-nüvə silahları sahəsində irəlidə, əhalinin güzəranına və elmi-texniki nailiyyətlərə görə geridə olan SSRİ təklikdə qaldı. İqtisadi böhrandan çıxmaq, duruş gətirmək üçün ən qısa müddətdə rəqabətədavamlı məhsul istehsal etmək, münasib yatırımla tez bir zamanda iqtisadi səmərə verən sahə seçmək zəruriyyəti yarandı. Dünyanın aparıcı dövlətlərinin analoji məhsulundan ucuz və mükəmməl Sovet reprotexnikasının dünya bazarına çıxarılması üçün sıçrayış lazım idi. Reproqrafiya məhz həmin o, xilasedici sehrli çubuq ola bilərdi. SSRİ-dəki intellektual və texniki baza, dövlətin diqqəti sıçrayış etməyə, dünya bazarına minlərlə "kseroks" çıxarmağa, üstəlik, onların köməyilə SSRİ xalq təsərrüfatının bir çox sahələrində əmək məhsuldarlığını artırmağa imkan verirdi.

Məhz bu vaxt nəhəng dövlət aparatının yuxu basmış məmurlarının köməyinə ictimaiyyət – xalqın işinə can yandıran reproqrafiya entuziastları gəldi. Gizli kamera ilə bu yeni prosesi H.Ə.Əliyev və onun kiçik aparatı izləyirdi.

1984-cü il sentyabrın 26–28-də, SSRİ Dövlət Plan Komitəsinin reproqrafiya ilə bağlı hökumət qərarı üçün sahələrdən az qala zorla təkliflər almaq cəhdlərinin uğursuzluğa tuş gəldiyi bir vaxtda, Pyatiqorskda "Maşınqayırma sahəsində reproqrafiyanın metod və vasitələri" adlı ilk Ümumittifaq elmi-texniki konfrans keçirildi. Mavi dağlar diyarına təkcə maşınqayıranlar yığışmadı. "Repro-84"-də xalq təsərrüfatının ən müxtəlif sahələrinin mütəxəssisləri iştirak etdilər. Reproqrafiya ilk baxışdan bir-birilərinə yaxın olmayan müdafiə, xarici işlər və mədəniyyət nazirliklərini bir araya gətirdi. Dəyirmi masa arxasında indi də kəskinliyini itirməyən problemlər diqqət mərkəzinə çəkildi.

Konfransda mikrofilmləşdirməyə və faksimil rabitəyə xüsusi önəm verildi. Deyirlər ki, ən yaxşı təzə yaddan çıxmış köhnədir. Reproqrafiyanın ən qocaman nümayəndəsi olan mikrofilm hələ 1870-ci il Fransa-Prussiya müharibəsi zamanından məlumdur. O vaxt almanlar tərəfindən mühasirəyə alınmış Paris tarixdə ilk dəfə göyərçin poçtunun köməyilə Turda olan hökuməti ilə əlaqə yaratdı. Poçtun özü isə üzərində kiçildilmiş məmlər yerləşdirilmiş plyonkalar idi.

Mikrofilmin yaradılmasından sonra onun inkişaf yolunda möcüzələr az olmamışdır. Onlardan biri bizim üçün xüsusilə mühüm informasiya toplamaqla məşğul olmuş məşhur sovet kəşfiyyatçısı R.İ.Abel ilə bağlıdır. Abeli elektrik stulundan məhz mikrofilmin xilas etdiyi haqqında az məlumdur. Abel həbs edilən zaman aparatura və şifrlər qaldığı mehmanxanada, otağındakı stolun üstündə idi, lakin onun məxfi obyektlərin fotoşəklini və ya rəsmini çəkməsini hələ sübut etmək lazım idi. İstintaq zamanı Abelin ABŞ-ın milli maraqlarına real ziyan vurmasına dəlil tapılmamışdı. Abeli meh-

manxanadan bayıra çıxaranda o, gizli hərəkətlə qalstukunun üstündə olan sıxacı basmış və məxfi obyektlərin şəkli olan mikrofilmin miniatür rulonu izsiz-soraqsız itmişdi.

İndi isə soyuq müharibə dövründə ABŞ-ın SSRİ-yə qarşı aşkar informasiya təxribatına bir nümunə. ABŞ və Yaponiya üçün yeni texniki həllər, əsasən də ixtiralar xüsusi əhəmiyyət kəsb edirdi. Səmərələşdiricilər və ixtiraçılar öz yeniliklərini qeydiyyatdan keçirə bilməyəndə qabaqcıl təcrübə və sənaye təcrübəsi sahə kitabçalarında onların müfəssəl təsvirini verirdilər. Boz kağızda çap olunan bu kitabçalar böyük əhəmiyyət kəsb edirdi, çünki məhz daha dəyərli ixtiralar qeydiyyatdan keçmirdi. Ancaq bu ucuz kitabçaların məhdudiyyət qrifi olmasa da, onlar mağazalarda satılmırdı və dövlət Kitab reyestrinə daxil edilmirdi. Bu kitabçalarda çap olunan informasiyanın digər dövlətin müdafiə qabiliyyətinin artırılmasında istifadə oluna biləcəyini düşünərək, onların SSRİ hüdudlarından kənara çıxarılmasına qadağa qoyulmuşdu. Bir çox səfirliklərin, xüsusilə ABŞ səfirliyinin katibləri pişikotu cövhəri iyləmiş pişiklər kimi, həmin o nazik, boz kağızda çap olunmuş yaraşıqsız kitabçaların axtarışında idilər. Lakin SSRİ "düşmən daim ayıqdır" prinsipi ilə yaşayır və amerikalıları bu mühüm informasiyaya yaxın buraxmaq istəmirdi. Bununla belə, ABŞ da əlini qoynuna qoyub durmamışdı, odur ki, cavab zərbəsi özünü çox gözlətmədi. Orada dəfələrlə kiçildilmiş elə mikrofilmlər yaradıldı ki, adi zərfdə göndərmək üçün nəzərdə tutulan 105 x 148 mm ölçülü plyonkada ABŞ-da çap olunmuş bütün kitabların siyahısını yerləşdirmək mümkün idi. Bu mikrofilmlər-mikrofişlər dünyanın hər yerinə göndərilirdi, lakin xüsusi optika ilə təchiz olunmuş oxu aparatları olmadan informasiya əlçatmaz idi. SSRİ-nin belə mikrofilmlərlə işləmək üçün ABŞ-dan aparat almaq cəhdləri uğursuzluqla nəticələndi. Bəhanə də o oldu ki, guya bu aparatlar strateji avadanlıq siyahısına daxildir. Nəhəng Sovetlər ölkəsi bir anın içində öz tərəqqisi üçün vacib olan ədəbiyyatdan təcrid olundu.

80-ci illərdə – inkişaf etmiş kapitalist ölkələrində nəinki hərbi sahədə və ya dövlət idarələrində, hətta kitabxana və arxivlərdə belə informasiyanı bir neçə saniyə ərzində istənilən məsafəyə və istənilən ölkəyə göndərmək, həmçinin, almaq mümkün olduğu bir

vaxtda uzun illər faksimil rabitə ilə məşğul olan və Minskdə faks istehsal edən zavoda malik SSRİ ümumdünya standartlarına uyğun faksimil vasitələrinin yaradılmasında yubandı.

Nazirlər Soveti Pyatiqorskda keçirilən konfransı diqqətdən kənarda qoymadı. H.Ə.Əliyevin şəxsi göstərişi ilə konfransın işində onun səlahiyyətli nümayəndəsi iştirak etdi. Acınacaqlı olsa da, SSRİ-nin ETDK (akademik Marçuk) və Dövlət Plan Komitəsi (Baybakov) kimi taleyüklü idarələri H.Ə.Əliyevi dəstəkləmədilər və konfransın işində iştirak etməyə etinasız yanaşdılar. Repro-84-ün iştirakçıları bunu narahatlıqla qeyd etdilər və bu barədə H.Ə.Əliyevə məruzə olundu...

Yeri gəlmişkən, H.Ə.Əliyevin xatirəsinə həsr olunmuş bir çox tədbirlərdə H.Ə.Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyərkən N.K.Baybakovun onun görkəmli silahdaşı olduğu haqqında fikirlər tez-tez səslənir. Bu, tarixi yalandır. H.Əliyevin Nazirlər Sovetindən getməsi ərəfəsində yaranmış ağır vaxtda N.K.Baybakov H.Ə.Əliyevin komandasında yox idi və SSRİ Dövlət Plan Komitəsinin sədri kimi ona kömək etmirdi. Və dağılmazdan öncə əsas sahələrdə tərəqqinin zəifləməsi nəticəsində SSRİ-nin dünyada nüfuzunu itirməsinin bir günahı da, heç şübhəsiz, Baybakovun üzərinə düşür. Əgər H.Ə.Əliyev mütərəqqi və cəsarətli dövlət xadimi kimi özü haqqında xoş xatirələr qoydusa, parlaq ulduz olmayan N.K.Baybakov ölkənin dağılması ilə sakitcə yoxluğa çəkildi. Baybakov böyük dövləti itirən yuxulu Kreml "nəhənglərinin" tərəfində idi. Əliyevin Baybakova ünvanlanan dərkənarları da göstərir ki, Əliyev Baybakovun mütərəqqi təşəbbüslərə münasibətini bilirdi. İndi isə Sovet İttifaqının baş iqtisadi orqanını maraqlandırmayan konfransa qayıdaq. Repro–84-də yekdilliklə təsdiqləndi ki, SSRİ-də iri, lakin pərakəndə və heç kim tərəfindən koordinasiya edilməyən mühəndis və istehsalçı qüvvələri artıq fəaliyyət göstərir və SSRİ-nin reproqrafiyanın tərəqqisi istiqamətində sıçrayış etmək imkanları vardır.

Konfrans işinə yekun vurandan sonra oktyabrın 10-da H.Ə.Əliyevin stolunun üstünə ətraflı məktub qoyuldu. Yazıda o cümlədən, göstərilirdi ki, ***"Reproqrafiya üzrə ilk "Repro–84" elmi-texniki konfransı R.N.İvanovun – "Pravda" qəzetinin cari ilin 13 mart***

tarixli nömrəsindəki məqalə müəlliflərinin sədrliyi ilə keçmişdir. Konfransda ölkənin 43 şəhərindən 49 nazirlik və idarənin 170 nümayəndəsi iştirak etmişdir".

H.Ə.Əliyevin adına olan ətraflı yazıda xalq təsərrüfatında reproqrafiya üzrə xüsusi sahə yaradılması, baş konstruktorlar şurasının təşkil edilməsi, ölkədə baş elmi-tədqiqat təşkilatının təsdiq olunması və reproqrafiya üzrə hökumət qərarı hazırlanarkən konfransın tövsiyələrinin nəzərə alınması təklif olunurdu. Artıq 1984-cü il oktyabrın 12-də H.Ə.Əliyevin imzaladığı 20157 nömrəli növbəti "HT" çıxdı. Onun tam mətnini veririk.

"SSRİ Nazirlər Soveti. Moskva, Kreml. Baybakov N.K., Antonov A.K., Marçuk Q.İ., Smirnov L.V. yoldaşlara. SSRİ Nazirlər Sovetinin 1984-cü il 15 iyun (HT-11773) və 1984-cü il 16 avqust tarixli (HT-16412) tapşırıqlarına uyğun qərar layihəsi hazırlayarkən reproqrafiya üzrə 1-ci Ümumittifaq Elmi-Texniki Konfransın tövsiyələrinin müzakirə edilməsini və nəzərə alınmasını xahiş edirəm. H.Əliyev".

1985-ci ilin martında SSRİ-də siyasi rəhbərlik dəyişildi. Baş katib M.S.Qorbaçov seçildi. Hökumətdə də dəyişikliklər gözlənilirdi. Söz gəzirdi ki, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Ə.Əliyevin öz təşəbbüsü ilə himayəsinə götürdüyü reproqrafiyanı onun mexaniki və optika-elektron tərkibi ilə Nazirlər Soveti sədrinin digər, cihazqayırma və ya elektron sahəsinə kuratorluq edən müavininə verə bilərlər. Lakin reproqrafiyanın Əliyevdən alınacağı haqqında şayiələr özünü doğrultmadı. Həyat yoldaşının vəfatı ilə bağlı ailəsindəki matəm mərasimlərindən sonra Əliyevə məlumat verildi ki, reproqrafiya üzrə qərar layihəsi Dövlət Plan Komitəsi tərəfindən hələ də hazırlanmayıb. Bunun bütün günahı əsas məsuliyyət daşıyan təşkilatın – SSRİ Dövlət Plan Komitəsinin üzərinə düşürdü. H.Ə.Əliyev növbəti dəfə "yiyəsiz" reproqrafiya üzərində himayəsini təsdiqlədi, hətta öz köhnə tanışı bakılı Baybakova da yazığı gəlmədi.

1985-ci il iyunun 20-də artıq xüsusi OS-1265 qrifi ilə həmin məsuliyyətsiz dövlət məmurlarına, Dövlət Plan Komitəsinə isə kifayət qədər nadir bir dərkənarla dövlət tapşırığı ünvanlandı:

"SSRİ Nazirlər Soveti. Moskva. Kreml. Baybakov N.K., Antonov A.K., Marçuk Q.İ., Smirnov L.V. yoldaşlara. SSRİ Dövlət Plan Komitəsi SSRİ Nazirlər Soveti qərarının hazırlanmasını həddindən artıq yubandırmışdır. Təcili tədbirlər görülməsini xahiş edirəm. H.Əliyev".

Adı çəkilən idarələrin dəhlizlərini yenə kağız xışıltısı bürüdü. Tabeliklərində olan təşkilatlardan lazım olan sənədləri tələb edən qorxuya düşmüş məmurlar telefon aparatlarını əllərindən buraxmırdılar. Danışırlar ki, bu tapşırıq ölkənin ən "nəhəng" təşkilatlarından olan DETK-nın sədri Q.M.Marçuku "gərgin zəhmətdən" sonra Moskva klinikalarından birində reabilitasiya keçən zaman xəstəxana çarpayısında yaxalayıb. Quri İvanoviçə Nazirlər Soveti üçün materiallar gətiriblər və onları şifahi şərh ediblər ki, bəs, araqarışdıran İvanov öz reproqrafiya hücumunu davam etdirir, Nazirlər Soveti isə onun tərəfini saxlayır, İvanovun əl-qolunu yığan yoxdur, bildiyini edir.

Hökumət qərarı hazırlamaq haqqında tapşırığın üstündən bir il beş gün keçmişdi, lakin çoxdan gözlənilən qərar təcrübəli bürokratların məngənəsinə düşüb Dövlət Plan Komitəsinin divarlarından kənara çıxa bilmirdi. Nazirlər Sovetinin qocaman işçiləri deyirdilər ki, iri sahələr tərəfindən hökumətə hələ belə müqavimət olmamışdı.

Belə bir vəziyyətdə SSRİ Nazirlər Soveti R.N.İvanova H.Ə.Əliyevin adına *"Reproqrafiyanın vəziyyəti və xalq təsərrüfatının reproqrafik texnika ilə təmin edilməsi haqqında"* analitik məktub hazırlamağı tapşırır. Bu yerdə qeyd etmək yerinə düşər ki, mənim arxamda heç bir təşkilat durmurdu, tutduğum vəzifə də – Ümumittifaq mətbuat institutunun sıravi professoru – ölkənin böyük sayda elmi mərkəzləri fonunda nəhəng bir dövlətin Nazirlər Sovetinin mənim arqument və qənaətlərimə inanaraq onlardan istifadə etməsinə heç bir şans vermirdi. H.Ə.Əliyevi haqlı olaraq günahlandıra bilərdilər ki, o, formal olaraq nüfuzlu dövlət institutlarının deyil, ayrıca götürülmüş bir entuziastın göstəricilərini və gəldiyi nəticələri əsas kimi götürür.

Bu arada, 1985-ci il sona çatırdı, lakin aparıcı sahələr mütəxəssis rəyləri təqdim etməyi qəsdən ləngidirdilər. Bir çox təqdimatlar yenidən işlənmək üçün geri qaytarılırdı. Dövlət Plan Komitəsi idarə olunmayan sahələrin əl-qolunu yığışdıra bilmədiyini boynuna

alaraq bunu Nazirlər Kabineti qarşısında etiraf etdi. İş bu həddə çatanda Nazirlər Soveti ölkənin istisnasız olaraq bütün xalq təsərrüfatına yeni, xüsusilə məxfi tapşırıq ünvanladı. Bu, əslində dövlət idarələrinin məsuliyyətsizliyindən cana doymuş Heydər Əliyevin qəlbinin harayı idi. Diqqət yetirək, XM-də (xüsusilə məxfi) konkret icraçılar yoxdur. Baş nazirin birinci müavini sahələrin özünə müraciət edir. Mətn belədir:

"XM-1610, 12 dekabr 1985-ci il. SSRİ Dövlət Plan Komitəsinə, nazirlik və idarələrə. Xahiş edirəm SSRİ Nazirlər Sovetinin qərar layihəsinin hazırlanması üçün zəruri olan təkliflərin təqdim edilməsi sürətləndirilsin. H.Əliyev".

H.Ə.Əliyev hər halda reproqrafiya üzrə birinci hökumət qərarını təsdiq etməyə nail oldu. Bizim geri qalmağımızı tənqid edənlərin və şahidlərin az olması üçün reproqrafiyanın inkişafı barədə məxfiləşdirilmiş qərar 1986-cı il mayın 22-də çıxdı. Əlbəttə, o düşünüldüyündən uzaq idi, Sovet İttifaqına reproqrafiya üzrə qabaqcıl ölkələr sırasına çıxmaq üçün vacib olan nə vardısa kənara atılmışdı, ancaq sənəd reproqrafiya sahəsini müəyyən etdi, onun gələcək və artıq daha sistemli inkişafına təkan verdi.

Bu sətirlərin müəllifinin o vaxt çalışdığı SSRİ Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsi (SSRİ Dövlətnəşrkomu) sistemi bu ideyadan möhkəm yapışdı. 1986-cı il dekabrın 31-də o, SSRİ Nazirlər Sovetinə reproqrafiya, hesablama və təşkilat texnikasının bazasında ölkədə ilk Ümumittifaq elmi-istehsalat və tədris-metodiki mərkəzinin – SSRİ Dövlətnəşrkomunun Reproqrafiya Mərkəzinin yaradılması təklifilə müraciət etdi.

Nəhəng kitabxana və arxiv resursları olan ölkədə ilk dəfə idi ki, dünya tələbinin ödənilməsini də nəzərdə tutan vasitəçi yaradılırdı. Təklif olunurdu ki, Reproqrafiya Mərkəzinə dünyada reproqrafiyanın inkişafını izləmək və bu texnikanın xaricdən alınmasını əlaqələndirmək də daxil olmaqla ölkədə reproqrafiya üzrə baş mərkəz funksiyaları verilsin.

Dövlətnəşrkomun sədri M.F.Nenaşevin imzası ilə məktub elə həmin gün H.Ə.Əliyevə fədakarlığına görə yeni il hədiyyəsi kimi SSRİ Nazirlər Sovetinə göndərildi. H.Ə.Əliyev elə həmin gün reproqrafiya üzrə son "HT"-ni imzaladı.

"HT-371, 31 dekabr 1986-cı il. SSRİ Dövlətnəşrkomun sədri M.F.Nenaşev yoldaşın məktubu üzrə. DETK, SSRİ Maliyyə Nazirliyi, Mossovet. Xahiş edirəm müzakirə edib təkliflər verəsiniz. H.Əliyev".

Əslinə qalsa, artıq ölkə reproqrafiyasının geri qalmasında öz payı olan və bu geriliyin aradan qaldırılması üçün hökumət qərarına mühüm təkliflər verməyən DETK Reproqrafiya mərkəzinin yaradılmasını alqışlamalı idi. Lakin yalnız üç aydan sonra, 1987-ci ilin martında, dərin düşüncələrdən sonra DETK qəti etirazını bildirdi: Dövlətnəşrkom guya lazım olan ixtisaslı mütəxəssislərə malik deyildir.

H.Ə.Əliyev DETK-nın növbəti mürtəce aksiyasını nəzərə almadı və reproqrafiya işində təşəbbüsə mane olmağa imkan vermədi. DETK-nın etirazları ilə tanış olandan sonra 1987-ci ilin martında H.Əliyev Dövlətnəşrkomun Moskvada ilk Reproqrafiya Mərkəzinin yaradılması təşəbbüsünü bəyəndi. Biz o vaxt hələ bilmirdik ki, H.Əliyevin ölkə reproqrafiyasına bu töhfəsi onun son qərarı olacaqdır.

Reproqrafiyaya hər yerdə olan marağı nəzərə alan Əliyevin katibliyi, Nazirlər Sovetindəki reproqrafiya entuziastları ilə birlikdə onun kabinetində miniatür reproqrafiya nümunələrinin sərgisini təşkil etmək qərarına gəldilər. Söhbət qədim əlyazma kitabların rəngli mikrofişlərindən, adi poçt zərfləri ilə göndərilən böyük informasiya həcmli mikrofişlərdən gedirdi. Böyük bir kitabxananın yerləşə biləcəyi mikrofişi saxlamaq üçün yeri olan qəşəng keys şəkilli oxu aparatını nümayiş etdirmək planlaşdırılırdı. Mənə eksponatların yerləşdirilməsi sxemini hazırlamaq üçün Heydər Əliyevin özü orada olmayanda onun kabinetinə baxmağa icazə verdilər. Sərgi yaxın şənbə günlərindən birinə nəzərdə tutulurdu. Lakin H.Ə.Əliyev ağır xəstələndi və uzun müddət işdən ayrıldı.

Sonuncu dəfə mən H.Ə.Əliyevi 1987-ci ilin sentyabrında, o SSRİ XTNS-də Beynəlxalq kitab yarmarkasını açdığı zaman gördüm. H.Ə.Əliyevdən məni cəmi bir neçə metr ayırırdı. Onun nəcib, lakin xəstəlikdən sonra solğun çöhrəsi yaxşı yadımdadır. Bütün xarici görkəmində qeyri-adi yorğunluq hiss olunurdu, lakin baxışları mehribanlıq və dərin intellekt saçırdı. Razılaşdırılmamış şəxsi tə-

mas üçün başqa imkan ələ düşməyə də bilərdi. Bu şəraitdə ona yaxınlaşmağa cəsarətim çatardı, lakin mənə bəlli olmayan hansısa tragizmdən doğan kədərli baxışlarını görüb, sövq-təbii hiss etdim ki, Əliyev Nazirlər Sovetində son günlərini yaşayır. Və səhv etmədim.

H.Ə.Əliyev siyasi və dövlət arenasından getdikdən sonra reproqrafiya işi nəinki tamam unuduldu, hətta sahə özü də dağılmağa başladı. İnkişaf etmiş ölkələrlə yarışa girmək haqqında söhbət belə getmirdi. Ancaq reproqrafiyanın dadı damaqlarda qalmışdı, ona görə də xarici texnikanın alınmasına üstünlük verilirdi. Reproqrafiya texnikasını bizə konversiya edilən valyuta ilə satan artıq ABŞ, Böyük Britaniya və ya Yaponiya deyil, texniki cəhətdən az inkişaf etmiş ölkələr idi. Dünyada gözəl pomidorları ilə tanınan Bolqarıstan indi SSRİ-yə – "QİYŞ-dəki böyük qardaşına" özündə yığılmış "Renk Kseroks" markalı müasir surətçıxaran aparatlar satırdı. Hindistandan (!) ölkəmizə həmin ingilis şirkətinin orada yığılan kseroqrafik "mini nəşriyyatlar"ı sel kimi axırdı. ABŞ və Yaponiya ölkəmizi müxtəlif reproqrafiya texnikası, o cümlədən, portativ telefaks və surətçıxaranla doldurmaq üçün Çin, Malayziya, İndoneziya və Tayvanda var qüvvələri ilə yığma istehsalatı təşkil edirdilər. 90-cı illərin əvvəllərində Rusiya Federasiyasının müəssisə, təşkilat və ofisləri Asiya ölkələrindən olan reprotexnika ilə artıq təchiz edilmişdi. Bizim texnika haqqında yalnız yaşlı nəslin nümayəndələri danışa bilərdi. Hələ bir müddət əvvəl dünyanın qabaqcıl dövlətləri ilə rəqabətə girməyə hazır olan sovet reproqrafiya sahəsi Karfagenə çevrilmişdi.

1987-ci ilin martında bütün dünya mətbuatı Baş katib Qorbaçovun Böyük Britaniyaya səfəri barədə xəbər verdi. Lakin Qorbaçov adəti üzrə Sov.İKP MK Siyasi Bürosu nümayəndə heyətinin başçısı kimi deyil, şəxsi qonaq qismində "dəmir ledi" Marqaret Tetçerin yanına gedirdi. Sovetlər ölkəsinin yarandığı gündən belə şey olmamışdı. Qorbaçovun tarixi "səyahətindən" sonra Böyük Britaniya xarici ticarət əməkdaşlığı və beynəlxalq əlaqələr sahəsində SSRİ-nin prioritet tərəfdaşına çevrilirdi. Dövlətnəşrkomun rəhbərliyi öz növbəsində yeni siyasi tendensiya ilə ayaqlaşmağa çalışırdı və məni Reproqrafiya Mərkəzi üçün ingilis tərəfdaşı tapmağa vəkil etdi. O vaxt mən bütün bunların bədnam "yenidənqurma" ilə birlikdə nəhəng dövlətin dağılmasının başlanğıcı olduğunu hələ lazımınca dərk etmirdim. Xarici iqtisadiyyatın ölkə iqtisadiyyatına kök salması, sonuncunun boğulması ilə birlikdə süqutun birinci mərhələsi idi. Reproqrafiya mərkəzi də yeni iqtisadiyyatın modeli oldu.

SSRİ bazarında o vaxt ölkə ərazisində öz "kseroks"larını satan "Renk Kseroks" firması fəaliyyət göstərirdi. O dövr üçün bu aparatlar qeyri-mükəmməl olan sovet aparatlarını uğurla sıxışdırırdı. Birgə müəssisə yaratmaq ideyasından "Renk Kseroks" ikiəlli yapışdı. Dövlətnəşrkom Moskvanın gur yerində bina ayırır, işçi qüvvəsi və bazara təminat verirdi, ingilislər isə yalnız öz "kseroks"larını gətirirdilər, vəssalam. Heç bir başqa texnologiyadan söhbət getmirdi. SSRİ tarixində ilk dəfə ictimai surətçıxarma mərkəzi qurulurdu, burada SSRİ tarixində ilk dəfə 15 qəpiyə bir səhifənin surətini hazırlamaq olardı. Və heç bir məhdudiyyət siyahısı yox idi. Halbuki təşkilatlarda belə bir surəti çıxarmaq üçün beş-altı viza tələb olunurdu. Əlbəttə ki, bu aşkarlığa doğru böyük irəliləyiş idi, dissidentlərin Reproqrafiya Mərkəzinə axını ara vermirdi, lakin Sovet–Britaniya Reproqrafiya Mərkəzi ölkədə reproqrafiyanın inkişafına heç nə vermirdi. O, ticarəti irəli aparırdı, Britaniya firmalarının nüfuzunu qaldırırdı və ölkənin Qorbaçovsayağı yenidən qurulmasının rəmzi rolunu oynayırdı.

1989-cu il oktyabrın ikinci yarısında Londonun məşhur Lankaster sarayının dəbdəbəli binasında Sovet–Britaniya Reproqrafiya Mərkəzi birgə müəssisəsinin yaradılması haqqında müqavilənin təntənəli imzalanma mərasimi oldu. Mən Londona Reproqrafiya Mərkəzinin baş direktoru qismində gəlmişdim. Sovet tərəfini SSRİ xarici ticarət naziri K.F.Katuşev və SSRİ-nin Böyük Britaniyadakı səfiri L.M.Zamyatin təmsil edirdilər. Özlüyündə kontrakt çox kiçik idi, Lankaster səviyyəsinə layiq deyildi, lakin ingilislər pıçıldaşırdılar ki, Reproqrafiya Mərkəzinin siyasi qiyməti bir çox iri kontraktlardan bahadır. Mərasim bitdi, artıq zalın çıxışında biz L.M.Zamyatinlə yanaşı düşdük, nəzərlərimiz toqquşdu və mən hiss etdim ki, səfir mənə nəsə vacib söz demək istəyir. Hündürboy, yaraşıqlı çal saçları olan diplomatın nəcib sifəti qayğılı görünürdü. Zalın çıxışına yönələrkən, səfir əlinin hərəkətilə mənə işarə etdi ki, oturmaq lazımdır. Və biz qəsdən zaldan çıxanlardan geri qaldıq. Səfirin şəx-

si mühafizəçisi dərhal bizə yaxınlaşdı, lakin L.M.Zamyatin bir söz demədən, yenə əlinin işarəsi ilə onu başa saldı ki, biz təklikdə qalmaq istəyirik. Qədim, qəşəng divana əyləşən Leonid Mitrofanoviç ahəstə dedi: *"Rudolf İvanoviç, heyif ki, Yuri Vladimiroviç Andropov sizinlə tanış deyildi. O, SSRİ-nin tərəqqisi üçün reproqrafiyanın əhəmiyyətini hamıdan yaxşı başa düşürdü"*. Səfirin açıq danışması məni mat qoydu, hətta özümü itirdim də. Mən Leonid Mitrofanoviçə danışmaq istəyirdim ki, Nazirlər Sovetində H.Ə.Əliyev də bunu başa düşürdü, lakin Əliyevə ölkəni fəlakətə düçar edən vəzifəlilər mane oldu. Heydər Əliyeviçin ölkəmizdə reproqrafiyanı dünya əhəmiyyətli rəqabətədavamlı sahəyə çevirmək üçün vaxtı çatmadı. Lakin məlum səbəblərə görə, Londonun Lankaster sarayının zalında belə söhbət mümkün deyildi. L.M.Zamyatinlə həmişəlik ayrıldıq.

Moskvaya qayıdandan sonra, reproqrafiyaya aid müxtəlif instansiyalara göndərilmiş məktubları araşdırarkən, Sov.İKP MK Baş katibi yoldaş Andropova ünvanlanan 1982-ci il 11 dekabr tarixli məktubun surətinə də rast gəldim. Məktub bu ifadə ilə bitirdi: ***"Sizdən artıq dərəcədə xahiş edərdim ki, məni yüksək partiya və dövlət səviyyəsində dinləməyə imkan tapasınız və bu məktubu Sizin Katiblikdən baxılmaq üçün heç yerə göndərməyəsiniz..."*** O vaxt Y.V.Andropovun köməkçilərindən biri mənə zəng vurdu, qaldırılmış problemin mühümlüyü haqqında müsbət rəyini bildirdi. Vəssalam.

Güclü Andropov – Əliyev "reproqrafiya" tandemi üçün cəmi il-yarım çatmadı. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini H.Ə.Əliyev tərəfindən başlanan ölkə reproqrafiyasının tunelin sonunda işıq görünən qısa dövrü, onun gedişilə zülmətə qərq oldu.

Letargiya yuxusuna getmiş SSRİ-də H.Ə.Əliyevdən sonra reproqrafiyaya fikir verilmədi. H.Ə.Əliyevi, onunla birlikdə beynəlxalq nüfuzunu, böyük iqtisadi səmərəsini itirmiş, Çin, Koreya, Malayziya və s. kimi "nəhəng" dövlətlərə uduzmuş Böyük Sovet İttifaqı bir göz qırpımında kağızdan düzəldilmiş ev kimi dağıldı. Günahkarlar barəsində bu günə kimi danışmaq məqbul sayılmır, lakin H.Ə.Əliyev onların sırasında deyildi. O, dövlət arenasını təmiz vicdanla, özü haqqında irimiqyaslı və namuslu rəhbər xatirəsi qoyub tərk etdi.

"Bizim üçün incəsənətin bütün növlərindən ən mühümü kinodur"

Bunu sovet hakimiyyətinin ilk çağlarında V.İ.Lenin bəyan etmişdi. Ədalət naminə qeyd etməliyik ki, həqiqətən ondan sonra dövləti idarə edən rəhbərlər kinematoqrafiyaya ciddi diqqət yetirirdi. Nəticədə 60–70-ci illərdə bu sahədə böyük uğurlar qazanıldı və sovet kinosu dünyada qəbul olundu. Lakin 80-ci illərin əvvəlləri üçün yerli kino istehsalında xeyli problem yığılmışdı. Kinematoqrafiyanın maddi-texniki bazası beynəlxalq səviyyədən çox geridə qalırdı.

1984-cü il aprelin 19-da Siyasi Büroda kinofilmlərin ideya-bədii səviyyəsinin yüksəldilməsi və kinematoqrafiyanın maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı məsələ müzakirə olundu. Bu, Heydər Əliyevin kuratorluq etdiyi sahə idi. O, Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin müvafiq qərarını Siyasi Büro üzvlərinin diqqətinə çatdırdı. Həmin qərarda kinematoqrafiyanın maddi bazasını kinostudiyaların və digər kino müəssisələrinin bərpası və texniki cəhətdən yeniləşdirilməsi, yeni kinoteatrların tikilməsi və s. hesabına möhkəmlətmək nəzərdə tutulurdu.

1984-cü il mayın 18-də Moskvada "Oktyabr" kino-konsert zalında kino işçilərinin Ümumittifaq müşavirəsi öz işinə başladı. Yığıncaq Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin "Kinofilmlərin ideya-bədii səviyyəsinin yüksəldilməsi və kinematoqrafiyanın maddi-texniki bazasının möhkəmləndirilməsi tədbirləri haqqında" qərarının kino təşkilatları tərəfindən yerinə yetirilməsi məsələlərinə həsr olunmuşdu. Heydər Əliyev sovet kinematoqrafçıları qarşısında duran vəzifələr barədə geniş nitq söylədi. Həmin nitq mayın 19-da "Pravda" və "Sovetskaya kultura" qəzetlərində, sonra isə "Literaturnaya qazeta"da *(23 may, № 21)* çap olundu. O dövrün tələblərindən irəli gələrək sovet kinosunun bütün növ və janrları qarşısında duran vəzifələri açıqlayan emosionallıq baxımından parlaq, bədii cəhətdən təsirli, ideoloji cəhətdən dərin məruzə müxtəlif tərkibli kinematoqrafçı auditoriyasına güclü təsir buraxdı.

Yuri Soloduxinlə söhbətdən:

Mənimlə işlədiyi müddət ərzində edəcəyi çıxışlar barədə Heydər Əliyeviç cəmi ikicə dəfə xüsusi narahatlıq keçirib. Birinci dəfə Siyasi Büro ona Leninin anadan olmasının ildönümü münasibətilə məruzə etməyi tapşıranda, ikinci dəfə isə kinematoqrafçılar qarşısında çıxış etməli olanda.

Zənnimcə, ona görə həyəcan keçirirdi ki, öz həmkarlarının çoxundan fərqli olaraq cəmiyyət həyatında, ictimai rəyin formalaşmasında yaradıcı ziyalıların rolunu çox gözəl başa düşürdü.

Heydər Əliyeviçin bilavasitə iştirakı ilə Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin qərarı qəbul olundu. Bu, ciddi sənəd idi. Həmin qərara əsasən kinematoqrafçılara bir çox güzəştlər verilirdi. Filmlərimizin təkcə yaradıcılıq deyil, həm də baxımlılıq, xüsusilə də səmərəlilik sarıdan rəqabətədavamlı olması üçün maddi-texniki bazanın təzələnməsinə xeyli vəsait ayrılmışdı. Həqiqətən də biz bu mənada Qərbdən geri qalırdıq və filmləri texniki cəhətdən zəif istehsal etdiyimiz üçün uduzurduq.

Yüksək səviyyədə qərar qəbul olunmuşdu: kinematoqrafçılara nə əldə etdiklərini əməlli-başlı başa salmaq lazımdır. Hökumət onların bir çox istəklərini yerinə yetirdi və bunun müqabilində də çox şeylər gözləyir. Qərarda əsas ağırlıq SSRİ Nazirlər Sovetinin üzərinə düşürdü, onun mühüm hissəsi maliyyə, maddi-texniki, təşkilati məsələlərlə bağlı idi.

Həmin çıxış Heydər Əliyevə tapşırılmışdı. O da böyük əzmkarlıqla işə girişdi, qarşıdakı görüşə böyük məsuliyyətlə yanaşdı. Məruzəsini beş-altı variantda hazırladı.

Biz onunla dərhal belə bir razılığa gəldik ki, əgər o, müstəsna olaraq SSRİ Nazirlər Sovetinin təmsilçisi kimi danışsa, qərarda yazılanları bir də təkrar söyləsə, bu, çox cansıxıcı olar. Çünki "kinoçu"lar bütün bunları elə qərardan da oxuya bilərlər. Yaxşı olar ki, bütün bu maddi, maliyyə, texniki, təşkilati aspektlər bir kənara qoyulsun, kinoçularla onları narahat edən məsələlər barədə, yaradıcılıqla bağlı söhbət aparılsın.

Doğrudur, bu cür məsələlər bilavasitə Heydər Əliyevin sahəsinə aid deyildi: ortada Sov.İKP MK-nın katibi Zimyanin vardı, Sov.İKP MK-nın mədəniyyət şöbəsi vardı, mədəniyyət naziri Demiçev, Dövlət Kinematoqrafiya Komitəsinin sədri Yermaş var idi. Lakin Suslovun ölümündən sonra (elə onun vaxtında da – ***E.A.***) Siyasi Büronun üzvü səviyyəsində kinematoqrafçılar qarşısında çıxış edən olmamışdı. Odur ki, Heydər Əliyev yaradıcı ittifaqlara da hamilik edən Siyasi Büro üzvü kimi bunu öz üzərinə götürdü.

Onun tapşırığı ilə qəzet və jurnallarda müxtəlif cür məqalələri dərindən araşdırdım, Sov.İKP MK-nın müvafiq şöbələri ilə danışdım ki, iki-üç kino xadimi ilə görüşümü təşkil etsinlər. Onlar siyasətdən uzaq, sadə adamlar idi, odur ki, hər bir şey barədə açıq-aşkar danışırdılar. Bütün bunlar kinematoqrafçıları narahat edən problemlərin dairəsini müəyyənləşdirməyə imkan verdi. Heydər Əliyev də bu məsələlərdən danışdı. Mümkün olan yerdə o öz mövqeyini dəqiqliklə bildirirdi. Harada ki buna imkan yox idi, biz onları belə formalaşdırırdıq ki, burada bir qədər fikirləşməliyik, sizin rəyiniz bizim üçün maraqlıdır və s.

Görüş Yeni Arbatdakı "Oktyabr" kinoteatrında keçirilirdi. Əlaqədar rəhbərlər – Yermaşdan, Şauradan, Stukalindən başqa SSRİ Kinematoqrafçılar İttifaqının bütün rəhbərliyi görüşdə iştirak edirdi. Səhv etmirəmsə, respublikalardan da Kinematoqrafçılar İttifaqının başçıları gəlmişdilər. Bu, ittifaqmiqyaslı tədbir idi. Çoxlu sayda aparıcı rejissor, bütün iri kinostudiyaların direktorları tədbirə dəvət olunmuşdular.

Deyim ki, onu nəfəs çəkmədən dinləyirdilər. Bu sahənin adamları ipə-sapa yatan deyillər. Əgər məmur maraqsız danışsa, ona qulaq asmayacaq, öz aralarında söhbətləşməyə başlayacaq, nümayişkaranə şəkildə boğazlarını arıtlayacaq, köks ötürəcəkdilər. Bunların heç biri baş vermədi.

Heydər Əliyeviçdən sonra çıxış etməyi arzulayanlar çox oldu. Ən parlaq və emosional çıxışı o vaxt hələ çox cavan olan Nikita Mixalkov elədi. O, bütün deyilənləri çox alovlu şəkildə təsdiqlədi. Onun ardınca Rostotski söz aldı.

Görüş həqiqətən də çox uğurlu oldu. Heydər Əliyev bunu hiss etdiyindən məmnunluq duyurdu. Qayıdanbaş o məni öz maşınına əyləşdirdi və soruşdu:

– Hə, necədir? Deyəsən bir şey alındı.

– Məncə, hə.

– Gərək bu boşuna getməsin.

– Kosolapov bizə rəğbətlə yanaşır, gəlsənə Riçard İvanoviçlə danışım, çıxışların əsasında məqalə yazıb "Kommunist"də çap etdirək.

Elə bu cür də elədik.

Ancaq çox təəssüf ki, məncə, bu, onun yaradıcı ziyalılarla ilk və son ünsiyyəti oldu.

Bu, Andropovun zamanında olmuşdu, odur ki, onu qısqanan yox idi".*

Əliyevin çıxışındakı bir çox müddəalar aktuallığını bizim dövrdə də itirməyib. Həmin parlaq nitqdən iki parçanı misal gətirək:

"Kinematoqrafın təcrübəsi göstərir ki, film şəxsiyyətin bütövlüyü, əməllərin xeyirxahlığı, qəhrəmanların mənəvi və intellektual cazibəsi ilə tamaşaçılara təsir göstərir, insanların qəlbinə iz salır... Qəhrəmanın şəxsiyyətinin böyüklüyü, maraqlı olması, onun xarakterinin dərindən açılması – filmin uğurunun, həyatiliyinin və "uzunömürlülüyünün" mühüm şərtləridir... Söhbət uydurulmuş, bir vaxtlar deyildiyi kimi, "çəhrayı", həyatda olmayan, ona görə də tamaşaçının inanmadığı qəhrəmandan getmir. Biz sovet kinematoqrafından sovet adamlarına doğma olan, onlarda öz iş yoldaşlarının, müasirlərinin cizgilərini görə biləcəkləri real müsbət qəhrəman gözləyirik. Sözsüz ki, bu gün ssenariçiyə də, rejissora da, aktyora da belə müsbət obrazı yaratmaq, deyək ki, 30-cu, 40-cı, 50-ci illərdəkindən daha çətindir. İnsanlar mənəvi, intellektual, əxlaqi cəhətdən daha zəngin, həyat isə daha dinamik və mürəkkəb olub. Tamaşaçıların zövqləri dəyişib, tələbləri yüksəlib. Ancaq parlaq, güclü, cazibədar, fəal, cəsur insan olan müsbət qəhrəman ekran üçün çox zəruridir".

Və ya tarixi mövzudakı filmlər haqqında: "Düşünürəm, siz də mənimlə razılaşarsınız ki, tarixi mövzu xüsusi dəqiqlik, son dərəcə diqqət, hətta vasvasılıq tələb edir. Faktlarla işləyərkən, hər şeydən əvvəl, tarixi hadisələrin və şəxsiyyətlərin işıqlandırılması və şərhi zamanı son dərəcə ehtiyatlı olmaq lazımdır. Bu haqda ona görə danışmalı oluruq ki, ayrı-ayrı ədəbi əsərlərdəki kimi, bəzi filmlərdə müəyyən hadisələri və xarakterləri "uydurmaq" faktlara və şəxsiyyətlərə münasibətdə sərbəstliyə gətirib çıxarır".

Sov.İKP MK-nın qərarına gəlincə, Heydər Əliyevin qeyd etdiyi kimi, "qərardan irəli gələn vəzifələr və ideya-bədii yönlü tələblər kinematoqrafiyanın maddi-texniki bazasının möhkəmlənməsinə, onun təşkilati, maliyyə və təsərrüfat məsələlərinin həllinə istiqamətlənmiş geniş tədbirlər kompleksi ilə sıx bağlıdır. Kinematoqrafçıların bu sahədəki bütün arzuları yerinə yetirilmişdir. Belə ki, qərar bu mənada da sovet kinosunun bütün tarixi boyu ən əhatəli, ən irimiqyaslı sənəddir, kinematoqrafın inkişafı üçün möhkəm maddi-maliyyə bazası nəzərdə tutur"[20].

XX əsrin 90-cı illərində Heydər Əliyev artıq müstəqil Azərbaycanın Prezidenti seçilmişdi. Respublikaya tez-tez Rusiyanın kinematoqrafiya ustaları gəlirdi və onlardan çoxu Heydər Əliyevin çıxışını və qərardan sonra sovet kinosunun maddi-texniki səviyyəsinin yüksəlişi üzrə başlanmış böyük işləri razılıq hissi ilə xatırlayırdı.

Ertəsi gün Heydər Əliyev o dövrdə respublikanın Dövlət Kino Komitəsinin sədri işləyən Azad Kərim oğlu Şərifovu Kremlə, öz yanına dəvət etdi. "Onun yanında hansısa nazir olduğundan qəbul otağında məndən bir qədər gözləməyi xahiş etdilər. Bu vaxt kabinetin qapısı açıldı və oradan alçaqboylu, dolubədənli bir adam sanki sıçrayıb çıxdı, çılğınlıqla kabinetə işarə edərək dedi: "Bax, bu, əsl dövlət xadimidir. "Yox" deyəndə də təmkinlə izah edir ki, nəyə görə "yox". "Hə" deyəndə isə o dəqiqə göstəriş verir və hər şey hərəkətə gəlir!"

"Bu kimdir?" – deyə mən köməkçilərdən soruşdum. Dedilər ki, yeni qaz sənayesi naziri Çernomırdindir"[21].

Təəssüf ki, bir ildən sonra, yenidənqurma eyforiyasının qızğın çağında kinematoqrafa himayənin "Əliyev dövrü"nün bir çox nailiyyətləri SSRİ Kinematoqrafçılarının 5-ci qurultayında məhv edildi. O vaxtlar mədəniyyətə Y.Liqaçov və A.Yakovlev hamilik edirdi və Heydər Əliyev çox hallarda vəziyyətə nəzarət etmək imkanından

* Y.Soloduxin səhv edir. Y.Andropov artıq vəfat etmişdi, ancaq K.Çernenko da Heydər Əliyevə eyni etimadla yanaşırdı. Zənnimcə, artıq 1985-ci ilin mayında Heydər Əliyevin bu cür çıxış etməsi mümkün olmazdı. Kinematoqrafçılar qarşısında çıxışı isə güman ki, ya Yakovlev, ya da Liqaçov edəcəkdi.

məhrum edilmişdi. Siyasi Büronun üzvü V.Vorotnikov öz kitabında həmin qurultayı belə xatırlayır:

"Axşam və ertəsi gün ehtiraslar qızışdı. Kinematoqrafın təşkilat formalarının dəyişdirilməsi, kinostudiyaların maddi və yaradıcılıq cəhətdən müstəqilliyi haqqında məsələ qaldırıldı. Özlərini demokratik adlandıran ziyalıların bir sıra təmsilçiləri sosializmin ideologiyasına və təcrübəsinə qarşı, Sov.İKP-nin rəhbər roluna qarşı kəskin çıxış etdilər.

Qurultay üç gün davam etdi. Kinematoqrafçılar İttifaqına L.Qulicanovun əvəzinə E.Klimovu rəhbər seçdilər. İdarə heyəti də bütünlüklə dəyişdirildi. Beləliklə, "gənclər, istedadlılar, odlu-alovlular" qələbə çaldılar. Nəticədə bu qələbə həm onlar üçün, həm də kinematoqrafiyamız üçün çox kədərli oldu. Ancaq qurultay sonralar, bəzi digər yaradıcı ittifaqların qurultaylarında analoji yanaşmaya təkan oldu. Bu "demokratik dalğa" yaradıcı təşkilatları parçaladı. Yalançı azadlıq aktyorların, rejissorların, yazıçı, rəssam və digər mədəniyyət xadimlərinin çoxusu üçün əsl bəlaya çevrildi"[22].

Heydər Əliyev xarici mətbuatın diqqət mərkəzində

Mətbuatla, xüsusilə də xarici mətbuatla ünsiyyət qurmağı sevməyən və bunu bacarmayan əksər partiya rəhbərlərindən fərqli olaraq Heydər Əliyevin KİV nümayəndələri ilə münasibəti həmişə qarşılıqlı şəkildə xoş olub. Hələ respublikada çalışarkən Heydər Əliyev tez-tez sovet və Qərb jurnalist qruplarını qəbul edər, onun mərkəzi mətbuatda dərc olunan müsahibələri isə geniş dairələrin diqqətini cəlb edərdi. Bu mənada, Heydər Əliyevin "Literaturnaya qazeta"nın xüsusi müxbiri ilə 80-ci illərin əvvəlində beynəlxalq aləmdə sensasiyaya çevrilən söhbətini yada salmaq kifayətdir.

Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunandan və Siyasi Büronun üzvü seçiləndən sonra onun adı tez-tez televizor ekranlarında səslənməyə, sovet və xarici mətbuat səhifələrində görünməyə başladı. Belə ki, ölkənin baş informasiya proqramı olan "Vremya" Heydər Əliyevin az qala hər addımını izləyirdi:

"...Bu gün yoldaş Əliyev Kremldə iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə hökumətlərarası Sovet–Yuqoslaviya Komitəsinin 25-ci iclasının keçirilməsi ilə bağlı Moskvada olan Yuqoslaviya İttifaq İcraiyyə Veçesinin sədri Zemlyariçi qəbul etdi".

"Moskvada, SSRİ XTNS-də 5-ci Beynəlxalq kitab sərgi – yarmarkası keçirilir. Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev və Sov.İKP MK katıbi Zimyanin sərgidə olmuşlar..."

"Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, deputat Heydər Əliyev sessiyada "Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri haqqında" mövzusunda məruzə ilə çıxış etdi..."

"Moskvada SSRİ-də Beynəlxalq Gənclər ili keçirilməsi ilə bağlı yığıncaq keçirilmişdir. Komissiyanın sədri, Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Əliyev qeyd etdi ki, Beynəlxalq Gənclər ilinin keçirilməsi kimi xeyirxah məqsədlər ölkəmizdə fəal dəstəklənir..."

"İttifaqlar Evinin Sütunlu salonunda SSRİ Tibb Elmləri Akademiyasının Lenin ordeni ilə təltif olunmasına həsr edilmiş təntənəli yığıncaq keçirilmişdir. Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyeviç Əliyev öz nitqində akademiyanın tibb elminin və xalq səhiyyəsinin inkişafındakı böyük xidmətlərini vurğulamışdır..."

Çox vaxt bu populyarlıq Siyasi Bürodakı həmkarları arasında qısqanclıq doğururdu. Bu cür əhvalatlardan birini Azərinformun keçmiş müxbiri, hazırda İTAR–TASS agentliyinin "Exo planeti" jurnalının baş redaktor müavini **Valeri Calaqoniya** belə xatırlayır:

"Əlbəttə, Xruşşov Stalin repressiyalarını darmadağın edəndən sonra yüksək partiya dairələrində münasibətlər nisbətən yumşaldı. Ancaq qarşılıqlı inamsızlıq və düşmənçilik kommunist rejiminin dərin kök salmış xüsusiyyətinə çevrildi. Tez bir zamanda siyasi çəki əldə edən Heydər Əliyev bunu öz üzərində Siyasi Büronun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olandan sonra hiss etdi. O vaxtlar mən artıq Moskvada işləyirdim və günlərin birində SİTA-nın əsas buraxılışında növbətçilik zamanı Kreml dəhlizlərində-

ki gizli döyüşün istər-istəməz şahidi oldum. Axşam saat yeddiyə yaxın biz, o vaxtlar MK-nı adlandırdıqları kimi, "instansiyadan" Heydər Əliyevin Bolqarıstanın Moskvadakı səfiri Julevi qəbul etməsi barədə məlumat aldıq və onu dərhal teletaypa ötürdük. Saat yarımdan sonra isə belə bir məlumat gəldi ki, Julevi Siyasi Büronun üzvü, Sov.İKP MK katibi Romanov da qəbul edib. Birinci məlumat axşam saat 9-da efirə gedən "Vremya" proqramında səsləndirildi, ikincisini isə proqrama çatdıra bilmədilər.

On dəqiqədən sonra SİTA üzrə növbətçi çox həyəcanlı şəkildə mənə zəng vurdu. "Sizin təcrübənizdə elə şey olubmu ki, Siyasi Büronun bir üzvü o biri barədə məlumatı çıxarmağı tələb etsin?". Qəribə sual idi, ancaq o vaxtlar nələr olmurdu! "Yox, – dedim. – Nə olub ki?" Sən demə, Romanovun köməkçisi SİTA-ya zəng vurub, rəhbərinin adından Əliyevin Bolqarıstan səfirini qəbul etməsi barədə məlumatı çıxarmağı tələb edib. Görünür, Qriqori Vasilyeviç qısqanıb: həmkarının fəaliyyəti haqqında əsas sovet teleproqramı xəbər verib, onu – Romanovu isə arxa plana keçirib. Və bu siçan-pişik oyununu da başqası yox, nəhəng dövlətin liderlərindən biri oynayırdı!

Beşsətirlik məlumatın taleyi hansı kabinetlərdə həll olunurdu, bilmirəm. Yalnız mürəkkəb danışıqların yekunu məlumdur: Əliyevin Bolqarıstan səfirini qəbul etməsi barədə xəbər ləğv edildi.

İş elə gətirdi ki, ertəsi gün mən Heydər Əliyeviçin katibliyində oldum. Onun növbəti xarici səfərinin proqramını əldə etməliydim. Çünki onu işıqlandıracaqdım. Sonra məni Əliyevin kabinetinə dəvət etdilər – o, həmişə qarşıdakı çıxışlarında nəyi əsas götürdüyünü izah edər, detalları şəxsən dəqiqləşdirərdi. Hər şey müzakirə olunandan sonra Heydər Əliyeviç soruşdu: "Hə, de görüm SİTA-da nə baş verib? Nə üçün Julevin qəbulu barədə məlumat "Pravda"ya düşməyib?".

Mən belə bir sual yaranacağını öncədən hiss etmişdim, ancaq heç bir ağlabatan cavab fikirləşə bilməmişdim – Romanovdan gileylənə bilməzdim ki! "Bilmirəm, yalnız şəxsi fərziyyəmi söyləyə bilərəm, – dedim və nədənsə əlavə etdim. – Ancaq aramızda qalsın". Əliyev güldü: "Bilsən ki, bu kabinetin divarları nə qədər sirlər eşidib!". Mən təəvvürümə gətirdim. Xüsusilə də bilirdim ki,

Molotov–Ribbentrop paktı barədə çox şeylər bilən Molotov bu kabinetdə otururmuş.

"Yəqin kimsə fikirləşib ki, əgər qəzetdə bolqar səfirini Siyasi Büronun iki üzvünün qəbul etməsi barədə yan-yana iki xəbər çıxsa, dünyada belə qərara gələrlər ki, Moskva ilə Sofiya arasında münasibətlər qaydasında deyil, – dedim və qəti şəkildə anladım ki, məndən diplomat çıxmaz. Heydər Əliyeviç mənim "versiya"mı mülayim təbəssümlə dinlədi. O, əlbəttə ki, hiylə dolu saray intriqalarından məndən yaxşı baş çıxarırdı və onların səviyyəsinə enməməyi üstün tuturdu.

Bir qədər sonra öyrəndim ki, Romanov Qərbdə "herontokratlar" adlandırılan baş katiblər arasında ölüm hallarının çox olması ilə əlaqədar bütün ciddiliyilə özünü bu vəzifədə görür, güclü siyasətçi və təhlükəli rəqib hesab etdiyi Əliyevə qısqanclıqla yanaşırdı..."

Sonralar Heydər Əliyevə, daha doğrusu, onun KİV nümayəndələri arasında populyarlığına eyni qısqanclığı Mixail Qorbaçov da nümayiş etdirəcək.

1982–1985-ci illərdə Siyasi Büroda təmsil olunan "müsəlman" haqqında Qərb mətbuatı da tez-tez yazırdı. Mən kitabımın qəhrəmanının şəxsi arxivində bir neçə maraqlı məqaləyə rast gəldim. Onların bəzilərindən tərcümə olunmuş parçaları oxucuların diqqətinə çatdırırıq.

Əli Mostofi
"Müsəlman" sovet Siyasi Bürosunda

("Tribun de Jenev", 23 noyabr 1982-ci il)

Yuri Andropovun himayəçisi, Azərbaycan DTK-sının, sonra isə Kommunist Partiyasının rəhbəri Heydər Əliyeviç Əliyev SSRİ islam respublikalarının sovetləşməsinin tipik məhsuludur.

Qərb ölkələrinin islam tədqiqatçıları bir vaxtlar Moskvadan gələn bir informasiyadan heyrətə gəlmişdilər. Adında üç islam kəlməsinin ahəngi səslənən – Heydər, Əli və bir də Əli – (rusca Heydər Əliyeviç Əliyev) insan Sovet İttifaqının Kommunist Partiyasının alî

siyasi instansiyasına – Siyasi Büroya seçilib. Bu, SSRİ-nin fəlakət seysmoqrafiyası üzrə ekspertlərinin qurdun it damına düşməsi barədə fikir yürütmələri üçün kifayət oldu (onlar imperiyanın müsəlman qanadının "püskürməsi" nəticəsində parçalanacağından həvəslə danışırlar).

Lakin 60 il öncə Naxçıvanda şiə ailəsində anadan olduğuna görə Əliyevi müsəlman hesab etmək, həmin məntiqlə Stalini pravoslav xristian kimi qəbul etməyə bərabər olardı. Halbuki bu daha təbii səslənərdi, çünki taleyin hökmü ilə o əvvəldən keşiş olmalı idi.

...30 il ərzində – 1945-ci ildə partiya sıralarına daxil olandan 1976-cı ildə Siyasi Büro üzvlüyünə namizəd seçilənə qədər Heydər Əliyev şəxsən özü İranda, Əfqanıstanda, Türkiyə və Pakistanda vəziyyəti öyrənib (hələ onun Şərqi Almaniyadakı missiyası barədə danışmırıq) öz doğma respublikasında bütün siyasi-inzibati eşelonlardan keçəcək. Cənab Əliyevə Azərbaycan hökumətinin, partiyanın və DTK-nın başında durarkən adları çəkilən ölkələrdə qurulan kombinasiyalar və mövcud qüvvələr barədə hamıdan artıq məlumatlı insan kimi baxırdılar. Müxtəlif vəzifələri ona nəinki partiyaların, hərəkatların və kommunistlərə rəğbət bəsləyən insanların, həm də eyni məqsədə xidmət edən, lakin heç vaxt birincilərlə toqquşmayan bütün paralel qüvvələrin vəziyyətindən xəbərdar olmağa imkan verirdi.

"Əfqan əlaqəsi"

Bununla bağlı yalnız iki qiymətləndirmə anı:

Deyilənə görə o, Əfqanıstandakı kommunist hərəkatının "Xalq" fraksiyasının başçısı cənab Tərakiyə məsləhət görüb ki, "Pərçəm" (Kabulun hazırkı prosovet rejiminin başçısı Babrək Karmal əslən Pərçəmdəndir) fraksiyasından olan dissidentlərlə dil tapsın. Onun adından Bakıdakı kommunist rəhbərliyi ilə öz şəxsi münasibətləri ilə tanınan emissar, ayətulla Xomeyninin Tehranda öz rejimini bərqərar etməsindən bir qədər əvvəl, o vaxt Leypsiqdə yerləşən Tudə İran Kommunist Partiyası rəhbərlərinə Baş katib kimi doktor Kianurini seçməyi məsləhət görmüşdü. Bu həmin Kianuri idi ki, bütün maneələrə baxmayaraq, islam inqilabının əbədi xadimi ola bilmişdi.

Bununla belə, bir həqiqətdir ki, Əliyevin öz ölkəsində məşhur olmasına səbəb onun Azərbaycanda kökü kəsilməyən korrupsiyaya qarşı uğurla mübarizə aparmasıdır. Onun bu sahədəki təcrübəsi sovet cəmiyyətində mənəvi sağlamlığın bərpası üçün elan etdiyi səlib yürüşündə rəisi və dostu Yuri Andropovun da karına gəlmişdi".

Növbəti sitatımız, əvvəllər də xatırlatdığımız keçmiş bakılı **İlya Zemtsovun** qələminə məxsusdur. Bu parça onun "Andropov: siyasi dilemmalar və hakimiyyət uğrunda mübarizə" (Yerusəlim, 1983) kitabından götürülmüşdür.

Hakimiyyətin dinamikası

"...MK-nın noyabr Plenumundan əvvəl Siyasi Büro Andropovun general Əliyevi Siyasi Büro üzvlüyünə namizədlikdən üzvlüyə keçirmək barədə təklifini təsdiq etdi. Bu işdə Andropovun müttəfiqləri Baş katibi müdafiə etməyə razılıq verdilər. Ona görə ki, başa düşürdülər: Azərbaycandan olan katibin təcrübəsi və biliyi olmadan Andropovun sosial islahatlar proqramını yerinə yetirmək mümkün deyildi (bu proqramı o "sosialist qanunçuluğunun möhkəmləndirilməsi" adlandırırdı, ancaq həmin proqram ölkədə "Əliyev islahatları" adı ilə məşhur idi). Əliyev DTK-da cidd-cəhdlə və uğurla işləmişdi. Onun təcrübəsi yenidən uğurla tətbiq olundu: bütövlükdə Gürcüstanda, bir hissəsi isə Baltikyanı respublikalarda. Azərbaycan rəhbəri illərdən bəri "təkmilləşən" icbari və despotik siyasi sistemi dağıtmaq fikrində deyildi. Əgər o istəsəydi belə bunu edə bilməzdi. Çünki Moskva onun hər bir addımını izləyirdi. Əslində o çalışırdı ki, partiyanın maşınına xətər dəyməsin. MK-dan başlayaraq rayon komitələrinə qədər bu maşını çekist prinsipləri ilə bəsləyir və onu polis kadrları ilə idarə etməklə mexanizmlərini təmir edirdi... Əliyev metodlarına müraciət etməklə və onun yaradıcısına arxalanmaqla Andropov sovet iqtisadiyyatının paslanmış mexanizmini "təmir etməyə" ümid bəsləyirdi. Bu mənada Andropovun ümidlərini Siyasi Büronun digər üzvləri – Çernenkonun düşərgəsindən olan opponentləri də bölüşürdülər. Brejnev özü də paytaxta münasibətdə Əliyevin eksperimentini tətbiq etməyi düşünürdü (doğrudur, o, qərara gələ bilmədi).

Siyasi Büroda bir-birinin ardınca partiya aparatına daxil olmuş DTK-nın iki generalına arxayın deyildilər. Siyasi Büro Əliyevi öz sıralarına qəbul etsə də, Andropovun onu Kirilenkonun eks vəzifəsinə – MK katibliyinə təyin etmək ideyası ilə razılaşmadı. Bunun əvəzində Əliyevə Nazirlər Soveti sədrinin müavini vəzifəsini təklif etdilər. Andropov öz yetirməsi üçün ancaq bunu əldə edə bildi... Əliyevin hökumətə daxil edilməsi Andropovu gücləndirdi. Andropovun etimad bəslədiyi insan Tixonovu izləməli idi və bu dayaq, nə qədər qəribə görünsə də, Əliyevin şəxsiyyəti və hətta mənşəyi üzündən məhdud idi.

SSRİ Baş nazirinin birinci müavini böyük potensiala malikdir. O, şərti olaraq dövlət aparatına, bir qədər sənayeyə və bəzən də kənd təsərrüfatına nəzarət edir. Eyni zamanda onun qeyri-formal təsiri formal hakimiyyətini üstələyir. O, mümkün olan hətta potensial Baş nazirdir (Kosıgin də, Tixonov da bu vəzifəyə Baş nazirin birinci müavini vəzifəsindən sonra təyin olunmuşdular).

Ancaq Əliyev milli azlıqların nümayəndəsi olduğundan onun vəziyyəti əlverişli deyil. Partiya "Bütün xalqların atası" – Stalinlə bağlı acı təcrübəsindən dərs götürmüşdür: Baş katib və Baş nazir kimi həlledici vəzifələrə milli azlıqların nümayəndələrini təyin etməmək. Əliyev üçün bu vəzifəyə təyinat onun karyerasının sonu ola bilərdi. Siyasi iqtisadın təşkilində və planlaşdırmada təcrübəsi olmayan Əliyev partiyada yox, dövlət aparatında baş nəzarətçi ola bilərdi.

Con Koqan, Erik Amfiteatrov və Coanna MakQiri
Misilsiz bakılı siyasətçi

("Taym", № 6, 1982)

"Azərbaycan Kommunist Partiyasının şefi, 59 yaşlı Əliyev Heydər Əlirza oğlu uzun müddət rusiyalı olmadan yüksək zirvələrə çatmağın çox çətin olduğunu güman edən Qərb şərhçilərinin diqqət mərkəzində olmamışdı. Lakin keçən həftə onun ikiqat zirvəyə yüksəlməsi kök salmış mənfi fikirləri alt-üst etdi. Heydər Əliyev Sovet İttifaqının Baş naziri vəzifəsinə yüksələn müsəlman ölkəsindən çıxmış ilk insan idi.

Heydər Əliyev hələ 18 yaşında sovet təhlükəsizlik orqanlarına daxil olmuş, 1967-ci ildən 1969-cu ilədək DTK-nın Bakı şöbəsinə rəhbərlik etmişdir. Azərbaycanın partiya lideri kimi o, korrupsiya ilə barışmaz mübariz kimi diqqəti cəlb etmiş, özünün Qafqazdakı kiçicik dağlıq sahəsini məhsuldar kənd təsərrüfatı diyarına çevirmişdir. Əliyev həm də Azərbaycanı qonşu İranın islam fundamentalizmindən mühafizə edə bilmişdir.

Əliyevlə görüş nəsib olmuş Qərb şərhçiləri onu çox cazibədar, nəzakətli, sualları cavablandırmağa həmişə hazır olan bir insan kimi tanımışlar. Bu yaxınlarda Bakıda olan diplomatik nümayəndə heyəti ondan Brejnevin kənd təsərrüfatı siyasətinin iş mexanizmini izah etməyi xahiş edəndə Əliyev gümrah tərzdə dedi: "Bu bizim çoxdan bəri və uğurla Azərbaycanda tətbiq etdiklərimizdir".

Mübahisəli cəhətlərinə baxmayaraq, növbəti məqalə Heydər Əliyevin "Şərq" yönümlü xarici siyasət strategiyasının müəyyənləşdirilməsində SSRİ-nin ali rəhbərliyinə təsirini nümayiş etdirir.

Əmir Tahiri
"Andropovun müsəlman ölkələrinin problemləri üzrə eksperti Əliyevin işi çoxdur"

(İnterneşnl Gerald Tribun", 30 noyabr 1982-ci il)

"Yeni sovet rəhbəri Yuri Andropov Moskvanın müsəlman aləminə itirdiyi təsirin, heç olmazsa bir hissəsinin bərpası üçün hansısa addımlar atmaq fikrindədirmi? Sovet İttifaqı ilə islam dövlətləri arasındakı münasibətlərin inkişafını izləyən müsəlman diplomatları belə hesab edirlər ki, bu, Kremlin bir nömrəli vəzifəsi olmalıdır. Onlar təsdiq edirlər ki, bu problemə rəhbərlik üçün cənab Andropovun seçdiyi adam Siyasi Büroya yenicə və yeganə təzə üzv seçilmiş, dərhal da Baş nazirin müavini təyin olunmuş Heydər Əli Əlizadə, başqa sözlə, Əliyevdir.

1923-cü ildə Sovet Azərbaycanında şiə ailəsində anadan olmuş Heydər Əliyev 1969-cu ildən bəri Kominternin jarqonundan istifadə etsək, "Şərq partiyaları" kimi məşhur olan İrandakı "Tudə" partiyası, Türkiyədəki, İraqdakı, Suriyadakı, Livan və Misirdəki kom-

munist partiyaları ilə əlaqələrə cavabdeh idi. Eləcə də Yaxın Şərqdə fəaliyyət göstərən kürd və türk separatçı qruplaşmaları Əliyevin nəzarəti altında idilər. Onların hamısının mister Əliyevin DTK-nın rəhbəri, sonra isə 20 ilə yaxın partiya lideri olduğu Sovet Azərbaycanının paytaxtı Bakıda nümayəndəlikləri vardır. Moskvadakı Siyasi Büro isə "qardaş partiyalar" daxilində vəzifələrə təyin etmək, bu və ya digər siyasi kursu seçmək məsələlərinin qəti həlli hüququnu ona vermişdir.

Cənab Əliyev Yaxın Şərqin marksist dairələrində "ortodoksal islamın və sovet sosializminin inqilabi ittifaqının" qatı tərəfdarı kimi tanınır. Son 10 ildə onun başçılıq etdiyi bütün kommunist partiyaları əvvəllər dini fanatiklər kimi rədd olunduqları üçün əməkdaşlıqdan lap başlanğıcdan imtina edən iki əfqan kommunist partiyasının yürütdüyü siyasətə zidd istiqamət götürdülər. Bu təşkilatları sovet Kommunist Partiyasının tacik şöbəsi idarə edir.

Ona yaxın olan kürd xadimlərindən birinin bildirdiyi kimi, cənab Əliyev güman edir ki, Qərbi Avropada sülh uğrunda hərəkat nə qədər mühümdürsə, müsəlman ölkələrindəki ortodoksal hərəkat da Sovet İttifaqı üçün o dərəcədə vacibdir.

İş elə gətirdi ki, Leonid Brejnevin son səfəri Bakıya oldu. Burada siyasi nitqinin böyük bir hissəsini SSRİ-nin islam dövlətləri ilə gələcək münasibətlərinə həsr etdi. Lakin müsəlman dünyasında hadisələrin gedişini Moskvanın xeyrinə dəyişmək asan deyil. Cənab Brejnevin Bakıdakı son çıxışı acınacaqlı faktların birbaşa etirafı oldu: 1973-cü ildə sovet müşavirlərinin Misirdən sürgün edilməsi, yaxınlarda Livanda müharibənin başlanması, elə bu arada Əfqanıstandakı ağır məğlubiyyət... Qərbə qarşı ortodoksal hərəkatdan istifadə siyasətinə gəlincə, təqibə məruz qalan İran kommunistlərinin təcrübəsi Moskva üçün heç cür təskinlik ola bilməz. Müsəlman siyasətçiləri və ictimai rəyi tənzimləyənlər bir sıra problemlər sadalayırlar. Həmin problemlər cənab Andropov və cənab Əliyev hadisələrin gedişinin dəyişiləcəyinə ümid edəcəklərindən daha əvvəl həll olunmalıdır. Bu problemlərdən ən başlıcası ərazisində xarici qoşunlar olan yeganə (Livandakı xüsusi vəziyyəti nəzərə almasaq) müsəlman ölkəsi Əfqanıstanın işğalıdır.

Əgər DTK-nın Kabuldakı çevrilişin əleyhinə olması barədə məlumat təsdiqlənərsə, Moskvanın bu məsələ ilə bağlı planları dəyişilə bilər, çünki Andropov da, Əliyev də DTK-nın əməkdaşlarıdır.

Sovetlərin Mengistu Hayle Mariamın Efiopiyadakı marksist rejimini dəstəkləməsi müsəlmanların digər narazılıq mənbəyidir. Polkovnik Mengistu müsəlman eritreyləri sovet silahı və kubalı hərbiçi "müşavirlərin" köməyilə qırmaqda təqsirləndirilir. Lap bu günlərdə o, Ərəb Ölkələri Liqasının üzvü olan islam dövləti Somalini parçalamaq planını irəli sürüb. Müsəlmanlar belə hesab edirlər ki, Moskvanın xəbəri və razılığı olmadan bu məsələ ortaya çıxmazdı.

Digər məsələ Cənubi Yəmən limanı Ədəndə və Sokatra adasındakı sovet hərbi bazalarına aiddir. Axı, marksist rejimli yeganə ərəb ölkəsi olan Cənubi Yəmənin öz qonşusu Səudiyyə Ərəbistanı ilə dəfələrlə sərhəd münaqişəsi olmuşdur.

Moskva Fələstin probleminə münasibətdə də yeni siyasət yürütmək məcburiyyətində qalacaq. Hazırda o, Amerika, İsrail, ərəb təşəbbüslərinə qarşı fəaliyyətlə kifayətlənir. Yeni sovet rəhbərliyi liviyalı Müəmmər Qəddafidən başqa da dostlar axtarmalı olacaq. FAT hələ də Beyrut şokundan özünə gəlməyib, Suriya isə qətiyyətlə Qərblə yaxınlığa cəhd göstərir.

50 milyondan artıq sovet müsəlmanının çox nadir hallarda rəsmi səviyyəyə çıxarılan problemlərinə barmaqarası baxmaq olmaz, çünki islam ictimai rəyi onlarla hesablaşır. İnkişaf etməkdə olan dini təşkilatların təsiri altında "bizim SSRİ-dəki qardaşlarımız üçün daha artıq azadlıq" tələbi problemə çevrilir. Hər şeydən çox sovet müsəlmanlarına islamın müqəddəs yerlərinə ziyarətə getməyə, əvəzində müsəlman ölkələrindən qonaq qəbul etməyə izn vermək tələbi irəli sürülür. Dini təşkilatlar həm də sovet müsəlmanlarının Qahirədə, İranın Qum, İraqın Nəcəf və Pakistanın Lahor şəhərləri kimi iri dini mərkəzlərdə teologiyanı öyrənmələrinə icazə verilməsini təkid edirlər. Təkcə İranda "İmkansızlara siyasət fondu" Sovet İttifaqından olan tələbələrə, müraciət edən olmasa da, 1000 təqaüd ayırmışdır. Digər tələb – Quran məktəblərinin açılması, müsəlmanların müqəddəs yerlərinin və məscidlərin funksiyalarının bərpası, radio və televiziyada dini proqramlara vaxt ayrılması, işə qəbul və xidmətdə yüksəlmə zamanı şərti olaraq "həqiqi dindarlara qarşı so-

vet diskriminasiyası" adlanan təzahürün kökünün kəsilməsidir.

Cənab Əliyev təsdiq edir ki, islam və leninizm "ədalət və hüquq bərabərliyi məsələlərində eyni qayğını bölüşür". Bununla o, böhranlı 20-ci illərdə bolşevik hakimiyyətinin qurulmasına yol açmış və müsəlman xalqlarının çar imperiyasının əsarətindən qurtulmaq arzularına son qoymuş Azərbaycan Müsavat Partiyasının ənənələrini davam etdirir. Bu nəzəriyyəni təzələməklə o göstərir ki, ortodokslar kütlələri etiqad uğrunda "Qərb imperializmi"nə qarşı müqəddəs cihada səfərbər etməlidirlər. Ancaq bəla burasındadır ki, ortodoksal qılıncın hər iki ucu itidir, Əfqanıstan nümunəsində bunun şahidi olmuşuq.

Bəzi sovet nəzəriyyəçiləri bunu bilirlər, ancaq Əliyev qüvvətlənən kimi onların səsi batır..."

Növbəti bölmədə Heydər Əliyevin Siyasi Büronun üzvü kürsüsündə çox fəal və mütəxəssislərin fikrincə kifayət qədər uğurlu fəaliyyətinin xarici siyasət xətti barədə danışacağıq.

İndi isə Qərb jurnalistlərinin Heydər Əliyev fenomeninə münasibəti nöqteyi-nəzərindən ibrətamiz olan daha kiçik bir məqalə:

Qreq Kanin və Coys Barnatan
"Kremlin xoşbəxt döyüşçüsü"
(Newsweek" jurnalı, 9 iyul 1984-cü il)

"Zahiri ilə qaraqabaq və cansıxıcı təsir bağışlayan Kremldə Heydər Əliyev qalibanə təbəssümü ilə şəstlə gəzir. Baş nazirin 61 yaşlı hündürboylu, şux qamətli birinci müavini sovet iyerarxiyasında tez irəli çəkildi, – belə getsə, gələcəkdə daha yüksəyə qalxacaq. Siyasi Bürodakı həmkarları kimi işdə sərt qayda-qanun tərəfdarı olmasına baxmayaraq, onun öz üslubu var. **Moskvada işləyən bir Qərb diplomatı demişdi: "O, Qərbin gözündə yeganə cazibədar insandır** (seçmə bizimdir – *E.A.*)". Siyasi Büronun digər üzvləri, xüsusən də çoxlarının etiraf etdiyi kimi, Konstantin Çernenkonun daha ağlabatan varisi Mixail Qorbaçov da özlərini aparmağı bacarırlar. Bəs onda Əliyevi fərqləndirən özünəməxsusluğu nədədir? O, diqqət mərkəzində oldu-olmadı, həmişə özünü azad, sərbəst aparır, daim xeyirxah və gülərüzdür, hətta xoşbəxt də görünür.

Yalnız axırıncı ildə Əliyev öhdəsinə düşən işlərin yerinə yetirilməsində çox məharət göstərdi. O, geniş əks-səda doğurmuş iki səfər etdi – biri Suriyaya, o biri isə Vyetnama. Fransanın prezidenti Fransua Mitteran iki həftə əvvəl Böyük Kreml sarayını ziyarət edəndə Əliyev bir sırada dayanmış Siyasi Büro üzrə həmkarları Andrey Qromıko və Qriqori Romanovdan seçilərək qonağı qarşılayanlar arasında Çernenkonun yanında durmuşdu. O, üçüncü dünya ölkələrinin dövlət xadimlərini ev sahibi kimi qəbul edirdi. Bu missiya ona əsasən müsəlman respublikası Azərbaycandan olan etnik kökləri baxımından çox yaraşır.

Nəqliyyata rəhbərlik edən şəxs kimi o, BAM-a, yeni Sibir dəmir yoluna səfər etdi və onun bu addımı yüksək qiymətləndirildi. Ötən yazda Ali Sovetdə məktəb islahatı məsələsi ilə bağlı əsas məruzəçi də o idi. Əliyev mədəniyyət məsələlərində əsas (halbuki, mədəniyyət naziri də var), xalq istehlakı malları üzrə Siyasi Büro komissiyasının sədri kimi aparıcı rol oynayır.

Yəqin ən mühümü odur ki, hakimiyyətdəkinin kimliyindən asılı olmayaraq, Əliyev hər bir işdə uğur qazanır. O, əmək məhsuldarlığının yaxşılaşdırılması və korrupsiyaya qarşı uğurlu mübarizə sayəsində Azərbaycanda partiya rəhbəri kimi özünü yaxşı tanıda bilmişdir.

Əliyevin vəzifəsini yüksəltməklə Andropov bəlkə də yalnız Brejnevin arzusunu yerinə yetirirdi. Lakin DTK-nın keçmiş rəhbəri kimi Andropov Əliyevi öyrənmək üçün bütün imkanlara malik idi... Əliyevin Andropovun zamanındakı uğurlarının səbəbi nədə olsa da, onun gələcəyi Andropovun dostu Çernenkonun vaxtında daha parlaq görünür.

...Bəziləri güman edirlər ki, Əliyev 79 yaşlı Baş nazir Nikolay Tixonovun yerini tutmağa ən real namizəddir. Belə fikirlər vardı ki, Andropov bu vəzifəyə Siyasi Büronun yeni üzvü Vitali Vorotnikovu nəzərdə tutub. **Ancaq Çernenkonun hakimiyyətə gəlişi ilə Əliyev bu yerə əsas namizədə çevrilir** (seçmə bizimdir–*E.A.*).

Lakin qeyri-rus mənşəyi Əliyevin Baş katib vəzifəsinə şanslarını azaldır... O, qeyri-rus insanın Kremlin ən yüksək zirvələrini fəth etməsi üçün bütün bacarığından yaxşıca istifadə etdi".

Qalibi tapın

("The economist", February 16 , 1985)

Siz Siyasi Büro heyətinin yarısının adını çəkə bilərsinizmi?

Yeni simalar Qərbə tanışdır: prezident Çernenko özü, Mixail Qorbaçov və onun əsas rəqibi sayılan Qriqori Romanov; çox təcrübəli xarici işlər naziri Andrey Qromıko; 79 yaşlı Baş nazir Nikolay Tixonov. Ancaq Kommunist Partiyasının yüksək təbəqəsinin yeni sovet liderlərini seçən qalan 6 üzvü isə hiss olunmadan bir-birinə qovuşmaq ənənəsinə malikdir.

Ən çox xidmətdə olmuş Siyasi Büro üzvü – Moskvanın partiya bossu Viktor Qrişindir.

1961-ci ildə o, Siyasi Büro üzvlüyünə namizəd (Çernenkodan 16 il əvvəl), 1971-ci ildə isə tamhüquqlu üzvü olmuşdur. Bundan qabaq isə o, indi də sevimli sahəsi olan həmkarlar ittifaqına nəzarət edirdi.

Qorbaçovdan və Romanovdan fərqli olaraq o, keçmişdə sovet liderlərinin yiyələndiyi əzəmətli postu – partiya Mərkəzi Komitəsinin katibi kimi əlavə vəzifəni tutmamışdı. Bu açıq-aşkar çatışmazlığa baxmayaraq, Qrişin köhnə qvardiyanın aparıcı liderlərindən biridir.

Digər iki üzv: Siyasi Büroda iki respublikanın partiya rəhbərləri – Qazaxıstandan Dinmühəmməd Kunayev və Ukraynadan Vladimir Şerbitski. Hər ikisi Brejnevin adamı olsa da, Siyasi Büroda hakimiyyəti ələ keçirmək üçün vacib olan Moskvanın dəstəyindən məhrumdur.

Qalan üçlük Andropovun rəhbərliyi altında irəliləyirdi. Onlar islahatlara daha meyillidirlər.

Azərbaycandan olan DTK rəhbəri Heydər Əliyev öz respublikasında korrupsiyaya qarşı mübarizə aparmış və Siyasi Büronun tamhüquqlu üzvü adına, 1982-ci ilin noyabrında Andropov ölkəyə rəhbərliyi ələ alandan dərhal sonra Baş nazirin birinci müavini vəzifəsinə layiq görülmüşdü. O, uzun müddət mühüm dəmiryol layihəsi olan "Baykal–Amur" (BAM) magistralına nəzarəti həyata keçirirdi.

Vitali Vorotnikov da Andropovun himayəçisi idi. O, 1979-cu ildə Kubaya səfir göndəriləndə sovet siyasətçilərinin əsas axarından sıxışdırılıb çıxarılmışdı. O, Moskvaya 1982-ci ildə qayıtdı və Andropovun rəhbərliyi altında Rusiya Respublikasının Baş naziri oldu.

O və Əliyev Tixonovdan sonra Baş nazir postuna əsas mümkün iddiaçılar hesab olunurlar (seçmə bizimdir – ***E.A.***)".

Əminəm ki, bu və buna bənzər məqalələr təkcə Heydər Əliyevin masasının üstünə gətirilmirdi, həm də onun Siyasi Büro üzrə həmkarlarına təqdim olunurdu. Onlar da özləri üçün müvafiq nəticələr çıxarırdılar. Yuri Petroviç Kamayev xatırlayır ki, Qərb mətbuatında gedən növbəti tərifli məqalə ilə tanış olan Heydər Əliyev acıqlı halda deyirdi ki, bu yazılar ona xeyirdən çox ziyan gətirir. O başa düşürdü ki, öz populyarlığı ilə partiya elitasını, xüsusilə də ölkədə yüksək partiya postuna iddiaçı olanları qıcıqlandırır. Zənnimcə, Qərb jurnalistlərinin ağzından çıxan təmtəraqlı tərifləri Heydər Əliyevin yeni Baş katiblə münasibətlərinə az ziyan vurmamışdı. Təsadüfi deyil ki, M.Qorbaçov SSRİ-nin birinci şəxsi olan kimi, ilk növbədə Heydər Əliyevin mühüm dövlət tədbirlərində mümkün qədər az-az görünməsinə nail oldu, onu beynəlxalq danışıqlar aparmaqdan uzaqlaşdırdı, heç vaxt özü ilə xarici səfərlərə götürmədi.

Onu da deyək ki, 1982–1984-cü illərdə mətbuat, o cümlədən, xarici mətbuat Qorbaçovun özü haqqında, demək olar ki, heç yazmır və ona "taxt-tacın varisi" kimi baxmır. O dövrün fotoşəkillərində də o, Baş katiblərdən kənarda dayanıb. Ancaq Əliyev elə həmin fotoşəkillərdə öz qalibanə "Hollivud təbəssümü" ilə mərkəzdədir.

Hətta Qorbaçovun Böyük Britaniyaya səfərini də sovet KİV-ləri çox xəsisliklə işıqlandırdılar. Qəzetlərin 4-cü səhifəsində səfər barədə çap olunmuş məlumatlarda Qorbaçovun bircə şəkli də verilməmişdi. Y.Klepikova və V.Solovyovun yazdıqları kimi, "əgər onun səfərinin ilk günlərində reportajların başlığı "Qorbaçovun Böyük Britaniyaya səfəri" olurdusa, son üç gündə sərlövhələr gözlənilmədən dəyişirdi – "Sovet nümayəndə heyətinin Böyük Britaniyaya səfəri". Bu, Qorbaçovun dünya mətbuatında "Kremlin şahzadəsi", Siyasi Büroda "second–ranking secretary" № 2" adlandırılmasına qarşı Kremlin açıq-aydın reaksiyası idi. Kreml öncəgörmələrə, xüsusilə də düşmən tərifinə böyük şübhə ilə yanaşmağa adət etmişdi. Ona görə də Qərbin Qorbaçov barədəki komplimentləri onun özünün yox, rəqibi Romanovun xeyrinə işləyirdi"[3]. Necə deyərlər, şərhə ehtiyac yoxdur...

"O, Siyasi Büroda Şərqin nümayəndəsi idi"

1983–1984-cü illərdə kənd təsərrüfatına möhkəm "bağlanan" M.Qorbaçovdan fərqli olaraq, Heydər Əliyev nəqliyyat və rabitə problemləri ilə yanaşı, xarici siyasət və beynəlxalq münasibətlər məsələlərilə də sıx və ardıcıl məşğul idi. Onun ölkə hüdudlarından kənara səfərləri, Kremldə xarici partiya və dövlət xadimləri ilə ikitərəfli görüşləri barədə hesabatlar mərkəzi qəzetlərdə qibtə ediləcək ardıcıllıq və genişliklə işıqlandırılırdı. Və yəqin heç də əbəs deyil ki, Qərb analitikləri Heydər Əliyevi Kremlin "Şərq" siyasətini işləyib hazırlayanlardan və aparıcılarından biri hesab edirdilər.

Rus tarixçisi R.Medvedevin dediyinə görə, SSRİ-nin xarici siyasəti Andropovun vaxtında da ekspansionizm xüsusiyyətlərini qoruyub saxlamışdı:

"Sovet İttifaqı təkcə sosializm düşərgəsi ölkələrini ciddi nəzarət altında saxlamağa cəhd göstərmir, imkan daxilində Asiya, Afrika, Latın Amerikası da daxil olmaqla "üçüncü dünya"da iqtisadi və siyasi təsirini genişləndirməyə çalışırdı. Vyetnam və Efiopiyada, Anqola və Kubada, Nikaraqua və Yəməndə, eləcə də digər ölkələrdə bu cür təsirə nail olmaq və onu təmin etmək çoxlu miqdarda vəsait tələb edirdi..."[24]

"Üçüncü dünya"nın milli elitası hakimiyyətə gələn kimi öz ölkələrində Sov.İKP-yə bənzər partiya yaratmağa tələsir, ilk sovetlər ölkəsinin valyuta ehtiyatlarından və maddi dəstəyindən istifadə imkanı qazanmaq üçün özlərini sosializm qurucuları elan edirdilər.

"Biz Leninin əsl şagirdləriyik" – A.Kosiginlə telefon danışığında Əfqanıstanda "sosialist inqilabı"nın lideri Nurməhəmməd Təraki deyirdi. Eyni zamanda da əfqan inqilabçılarının son xahişlərini yada salırdı: "əksinqilabı" məhv etmək üçün pilotlarla birgə 12 ədəd Mİ-24 vertolyotu və əhalini aclıqdan xilas etmək üçün 300 min ton buğda.

"Kreml xəyalpərvərlərinin" zəif damarını tutan digər "yeni sosialistlər" – Efiopiya və Anqolanın, Liviya və Daqomeyin, Yəmən və Mozambikin liderləri də Moskva ilə eyni tonda danışırdılar. Onlar bilirdilər ki, Kreml öz əhalisinə buğda verməz, ancaq yeni müttəfiqinin sözünü yerə salmaz. Sovet rəhbərlərinin antiamerikan və antiçin komplekslərindən də, onların şöhrət düşkünü olmasından da məharətlə istifadə edirdilər"[25].

Moskva kreditlərin, iqtisadi qarşılıqlı yardım proqramlarının və hərbi təchizatın əvəzinə "üçüncü dünya"nı dünya sosializmi uğrunda üçüncü mübarizə cəbhəsinə çevirməyə çalışırdı və bir müddət buna müvəffəqiyyətlə nail olurdu.

Bu ölkələrin bir çoxunda Kreml siyasətinin Siyasi Büro xətti ilə bələdçisi və kuratoru Heydər Əliyev idi.

Heydər Əliyevin sabiq köməkçisi A.Qavrilovla söhbətdən:

"Mən belə hesab edirəm ki, hətta diplomatik, siyasi mülahizələr nöqteyi-nəzərindən də onu işdən azad etmək olmazdı. O, Siyasi Büroda Şərqin təmsilçisi idi, Şərq bunu yüksək dəyərləndirir və onu özünün səlahiyyətli nümayəndəsi sayırdı. Özü də təkcə sovet Şərqi yox, Türkiyə və Afrika ölkələri də. O, Şərqin nümayəndəsi olmadan heç kimin həll edə bilmədiyi məsələləri yoluna qoyurdu. Onu Şimali Koreya, Vyetnam, Laosun təmsilçiləri ilə görüşə göndərirdilər. Bu anı qiymətləndirmək lazım idi. O, Şərq ölkələrinə ezamiyyətə gedəndə, bir qayda olaraq, müsbət nəticə ilə qayıdırdı, çünki o, danışıqları başqalarından daha asan apara bilirdi. Onun bu potensialından daha çox və daha səmərəli istifadə etmək lazım idi. Əvəzində qısqanclıqlar baş qaldırdı. Elə fikirləşməyin ki, bir adamı başqası ilə əvəz etmək asandır. Bu, mümkün deyil. Xüsusilə də burada milli xarakterin, təmsilçiliyin, genezisin xüsusiyyətləri mövcuddur. Bütün bunlardan istifadə etmək lazım idi. Axı MK-nın heç bir katibi Heydər Əliyeviçin gördüyü işi görə bilməzdi. O, asanlıqla əlaqələr qura bilirdi. Bir yerə gedəndə onun çıxışlarını, qayıdanda isə hesabatlarını mən hazırlayırdım. Odur ki, bunları bilirəm. O isə bir qayda olaraq, müsbət nəticələrlə qayıdırdı".

Y.Andropov kimi, K.Çernenko da Heydər Əliyevin böyük diplomatik potensialını dəyərləndirirdi. Bunun əyani sübutu kimi, onun Çernenkonun Baş katib kimi 1984-cü ildə keçirdiyi mühüm ikitərəfli danışıqlarda iştirakını nümunə göstərə bilərik. Ağır xəstə olduqları üçün nə Y.Andropov, nə də onun varisi ölkəyə qısamüddətli rəhbərlikləri dövründə SSRİ-nin hüdudlarından kənara səfər et-

mədilər, rəsmi nümayəndə heyətlərinin Kremldə qəbulu ilə məhdudlaşdılar. Belə ki, 1984-cü il iyunun 20-də SSRİ Ali Soveti Rəyasət Heyətinin dəvəti ilə Fransa Respublikasının prezidenti F.Mitteran Moskvaya rəsmi səfərə gəldi. Heydər Əliyev partiya və dövlət rəhbərləri (A.Qromıko, V.Kuznetsov, P.Demiçev, İ.Arxipov) sırasında Fransua Mitteranın Kremldə qarşılanması təntənələrində iştirak etdi.

Heydər Əliyev iyunun 21-də yüksək səviyyəli Sovet–Fransa danışıqlarında iştirak edir. Elə həmin gün Fransanın nəqliyyat naziri Ş.Fittermanla görüşür. İyunun 23-də Kremldə F.Mitteranın yolasalınma mərasimində iştirak edir. İyunun 28-də Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun iclasında Fransa Respublikasının prezidenti F.Mitteranın SSRİ-yə səfəri zamanı Fransa nümayəndə heyətinin üzvləri ilə apardığı danışıqların yekunları barədə məlumatla çıxış edir.

1984-cü il oktyabrın 9-da Yəmən Ərəb Respublikasının prezidenti Əli Abdulla Saleh Moskvaya rəsmi dostluq səfərinə gəldi. Yenə də qarşılanma tədbirlərində, eləcə də danışıqlarda K.Çernenkonu nəzərə almasaq, N.Tixonov, V.Vorotnikov, A.Qromıko ilə birgə Heydər Əliyev də var idi. Yeri gəlmişkən, M.Qorbaçovu nə Y.Andropov, nə də K.Çernenko belə tədbirlərə və danışıqlara dəvət etmirdilər. Bu anlar da ehtimal ki, ambisiyalı Mixail Sergeyeviçin yaddaşında iz salmışdı.

SSRİ liderləri Heydər Əliyevi, ölkə daxilində xarici siyasət aksiyalarında iştirakı ilə yanaşı, dəfələrlə mühüm və məsuliyyətli tapşırıqlarla xaricə göndərirdilər. Siyasi Büronun üzvü statusunda ilk xarici səfərini 1983-cü ilin payızında Vyetnama edən Heydər Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində həmçinin, Sov.İKP MK katibi N.Rıjkov, Sovet Qadınları Komitəsinin sədri V.Tereşkova, SSRİ-nin VSR-dəki səfiri B.Çaplin də vardı.

Səfərin xronikasını SİTA-nın materiallarından izləyək:

Oktyabrın 27-də Heydər Əliyev və onun rəhbərlik etdiyi partiya-hökumət nümayəndə heyəti Hanoya gəldi.

Həmin gün Heydər Əliyev hökumət iqamətgahında VKP MK Siyasi Bürosunun üzvü, VSR Nazirlər Sovetinin sədri Fam Van Donqla görüşdü və hər ikisi qısa nitq söylədilər.

Oktyabrın 28-də Heydər Əliyev VKP MK Siyasi Bürosunun üzvü, VSR Nazirlər Sovetinin sədri Fam Van Donqla danışıqlar apardı. Danışıqların yekununa əsasən Sovet–Vyetnam birgə Bəyanatı qəbul edildi.

VKP MK Baş katibi Le Zuan, VKP MK Siyasi Bürosunun üzvü, VSR Dövlət Şurasının sədri Çıonq Tin və VKP MK Siyasi Bürosunun üzvü, VSR Nazirlər Sovetinin sədri Fam Van Donqla görüş oldu.

Axşam VKP Mərkəzi Komitəsi tərəfindən sovet partiya-hökumət nümayəndə heyətinin şərəfinə təşkil edilmiş qəbulda Heydər Əliyev və Fam Van Donq nitq söylədilər.

Oktyabrın 29-da Heydər Əliyev Xo Şi Minin mavzoleyini ziyarət etdi və nümayəndə heyəti adından əklil qoydu. Sonra nümayəndə heyəti Xo Şi Minin ev-muzeyinə gəldi. Heydər Əliyev fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Həmin gün nümayəndə heyəti Sovet İttifaqının köməkliyi ilə Cənub-Şərqi Asiyada 2 milyon kilovat gücündə ən böyük hidroenergetika kompleksinin tikildiyi Xoabin şəhərində oldu. Heydər Əliyev tikintinin rəhbərləri və mühəndisləri ilə söhbət etdi. Sonra bəndə, sol sahildə dolama kanala, mərkəzi dispetçer məntəqəsinə baxdı, sovet mütəxəssislərinin şəhərciyində oldu.

SSRİ nümayəndə heyətinin gəlişi dostluq və əməkdaşlıq haqqında Sovet–Vyetnam Müqaviləsi bağlanmasının beşilliyi ilə eyni vaxta düşürdü. Heydər Əliyevin Vyetnam rəhbərliyi ilə çoxsaylı görüşləri və danışıqları isə şübhəsiz ki, o vaxtlar SSRİ-də böyük əhəmiyyət verilən Sovet–Vyetnam münasibətlərinin inkişafı üçün mühüm əhəmiyyət kəsb edirdi. 70–80-ci illərdə Vyetnam Laos və Kampuçiya ilə birlikdə sovet siyasətinin Cənub–Şərqi Asiyada tərəfdarları olub, Çin və ABŞ-ın ekspansionist cəhdlərinə qarşı aktiv fəaliyyət göstərirdilər.

Vyetnam səfəri çox uğurlu oldu, Heydər Əliyevi böyük ehtiramla qarşılayırdılar. Başda VKP MK-nın Baş katibi Le Zuan olmaqla Vyetnamın bütün rəhbərləri sovet nümayəndə heyətinin şərəfinə təşkil olunmuş qəbulda iştirak edirdilər. Heydər Əliyev Sovet İttifaqı-

nın xarici siyasət məsələləri, aktual beynəlxalq problemlər barədə geniş bəyanatla çıxış etdi. Vyetnama səfərin gedişində onun çıxış və bəyanatları SSRİ-nin başlıca partiya qəzeti olan "Pravda"da ətraflı işıqlandırılır, xarici mətbuatda və radiosəslərdə şərh olunurdu.

Heydər Əliyev Vaşinqton administrasiyasının fəaliyyəti barədə kəskin fikirlər söylədi. Onun sözlərinə görə, dünyanın bir çox regionlarında, o cümlədən, Cənub–Şərqi Asiyada gərginliyin gücləndirilməsində əsas günahkar məhz odur. Vyetnamın ali rəhbərliyi ilə danışıqlar zamanı həmin dövrdə Sovet İttifaqının Asiya qitəsindəki maraqlarının ən ardıcıl davamçıları və bələdçiləri olan üç Hind-Çin dövlətinin – Laos, Kampuçiya və Vyetnamın siyasi ittifaqlarının möhkəmlənməsi məsələsinə xüsusi yer ayrılmışdı. Danışıqların mərkəzində Vyetnama iqtisadi və elmi-texniki yardım göstərmək məsələləri də dururdu.

Oktyabrın 31-də Heydər Əliyev Sovet İttifaqı adından SSRİ ilə Vyetnam arasında uzunmüddətli iqtisadi və elmi-texniki əməkdaşlığın inkişafı proqramını imzaladı.

Təşkil etdiyi qəbulda Heydər Əliyev və VKP MK Siyasi Bürosunun üzvü, VSR Nazirlər Sovetinin sədri Fam Van Donq qarşılıqlı dostluq sağlıqları söylədilər.

"Badin" zalında SSRİ və VSR arasında dostluq və əməkdaşlıq haqqında Müqavilənin beşilliyinə və Böyük Oktyabr Sosialist İnqilabının 66-cı ildönümünə həsr olunmuş təntənəli mitinqdə çıxış etdi.

Sovet nümayəndə heyəti adından VKP Mərkəzi Komitəsinə və VSR hökumətinə xatirə hədiyyəsi – V.İ.Leninin çinidən hazırlanmış barelyefini təqdim etdi.

Hanoyda "Txanqlonq" körpüsündə dostluq bayramında iştirak etdi, VSR hökumətinin sədri və VSR nəqliyyat naziri ilə birlikdə üzərində "Txanqlonq körpüsü – Sovet–Vyetnam dostluğunun obyektidir" sözləri yazılmış xatirə lövhəsini açdı. Sovet və Vyetnam körpütikənləri qarşısında çıxış etdi.

Vyetnam xalq ordusu muzeyinin ekspozisiyasına baxdı, fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Noyabrın 1-də SSRİ-nin partiya-hökumət nümayəndə heyəti

Hanoydan ölkə boyu səyahətə yollandı.

Heydər Əliyev nümayəndə heyətinin başında Xoşimin şəhərinə gəldi. Xo Şi Minin xatirə muzeyində oldu, fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

İxrac edilən malların sərgisində oldu, tanışlıq üçün şəhəri gəzdi.

VKP Şəhər Komitəsinin və Xoşimin Xalq Komitəsinin rəhbərləri ilə görüşdü.

VKP Şəhər Komitəsi və Xoşimin Xalq Komitəsi adından sovet nümayəndə heyətinin şərəfinə verilmiş qəbulda sağlıq söylədi.

Noyabrın 2-də SSRİ və VSR arasında Dostluq və Əməkdaşlıq haqqında Müqavilənin beşilliyi münasibətilə keçirilən mitinqdə çıxış etdi və nümayəndə heyəti adından Xoşimin şəhərinə xatirə hədiyyəsi bağışladı.

Həmin gün Heydər Əliyev Donqnay əyalətindəki Byenxoa iqtisadi zonasında oldu. Bədii Keramika zavodunun, Prokat–Metallurgiya zavodunun, "Vyettxanq" Toxuculuq kombinatının və Xoşimin şəhərində "Başon" tərsanəsinin istehsalat sexlərinə baxdı.

Noyabrın 3-də Heydər Əliyev Şərq dənizinin sahilində yerləşən Vunqtau şəhərində oldu. Burada rayonun Vyetnamın neft-qaz sənayesinin ən böyük bazasına çevrilməsi üzrə proqramı həyata keçirən sovet mütəxəssislərinin köməyilə müştərək "Vyetsovpetro" müəssisəsi yaradılmışdır. Heydər Əliyev sovet və Vyetnam neftçiləri, sonra SSRİ-dən olan mütəxəssislərlə görüşüb çıxış etdi.

Axşam nümayəndə heyəti VKP komitəsi və Vunqtau–Kondao Xüsusi Rayonunun Xalq Komitəsi tərəfindən Sovet nümayəndə heyətinin şərəfinə verilən qəbulda iştirak etdi. Nümayəndə heyəti adından Heydər Əliyev rayon rəhbərliyinə xatirə hədiyyəsi – V.İ.Leninin barelyefini təqdim etdi.

Həmin gün nümayəndə heyəti Xoşimin şəhərinə döndü.

Noyabrın 4-də Hanoyda Sovet-Vyetnam birgə bəyanatı imzalandı. Ertəsi gün bəyanat SSRİ-nin mərkəzi qəzetlərində çap olundu.

Noyabrın 10-da Sov.İKP MK Siyasi Bürosunun iclasında SSRİ partiya-hökumət nümayəndə heyətinin Vyetnama səfərinin nəticələri bəyənildi. Səfərin özü və onun gedişində imzalanmış müqavi-

lələr "Sovet İttifaqının və sosialist Vyetnamının birliyi və qardaşlıq dostluğunun möhkəmlənməsi istiqamətində daha bir mühüm addım kimi" qiymətləndirildi *(SİTA-nın xəbərlərindən)*.

Heydər Əliyevi bu səfərdə müşayiət edən köməkçilər arasında **Yuri Soloduxin** də vardı. O, görüşün maraqlı təfərrüatlarından mənə danışdı.

"1983-cü il oktyabrın sonunda Siyasi Büronun tapşırığı ilə Heydər Əliyev Vyetnama səfər edən partiya-hökumət nümayəndə heyətinə başçılıq etdi. Sovet–Vyetnam münasibətlərinin tarixi ərzində ilk dəfə idi ki, nümayəndə heyətinə Sov.İKP MK Siyasi Bürosunun üzvü rəhbərlik edirdi. Bu vaxta qədər oraya hökumət xətti ilə sədr müavinləri, nazirlər gedirdi, yalnız bir dəfə MK-dan Zimyanin olmuşdu. Siyasi Büronun üzvü, sədrin birinci müavini isə ən yüksək səviyyə idi.

Səfərə ciddi hazırlıq görülmüşdü, böyük həcmdə iş aparılmışdı. Biz həm Şimali, həm də Cənubi Vyetnamda olduq. Onu da qeyd edim ki, bizi yüksək səviyyədə qəbul edirdilər.

Mənə səfərin gedişində on iki çıxış, üstəgəl muzey kitabları üçün dörd rəy mətni hazırlamaq lazım gəldi. Hələ gözlənilməz çıxışlar da olurdu. Odur ki, işimiz çox idi.

Ən ağır işim Heydər Əliyeviçin qarşıdakı Oktyabr bayramı münasibətilə sovet səfirliyi, ticarət nümayəndəliyi işçiləri, mütəxəssislərimiz və b. qarşısında çıxış edəcəyi məruzə və bu söhbətə iki xatırlatma oldu.

Bu, əlahiddə, böyük zəhmət və məharət tələb edən janrdır. O, səfər etdiyin ölkənin dövlət başçısı ilə söhbət zamanı gərəyin olur. Mətnlər təqribən belə yazılır: söhbətin əvvəlində nələrisə vurğulamaq, dəyərləndirmək, hansısa məsələlərə toxunmaq. Sonra, yəqin ki, Vyetnam tərəfi iqtisadi yardımın gücləndirilməsi barədə məsələ qaldıracaq. Xüsusən də gözləmək olar ki, bu qəbildən konkret suallar veriləcək. Bu xahişi biz hansısa çərçivədə yerinə yetirə bilərik, bundan isə, müəyyən dəlillərə əsaslanaraq imtina etmək olar.

Belə xatırlatmaları mütəxəssislər hazırlayır, sonra ondan yığcam, ən əsası da ölçülüb-biçilmiş mətn hazırlamaq lazımdır. Daha elə olmasın ki, mümkün olmayan şeyləri vəd edəsən.

O vaxtlar Moskvadan Hanoya məsafəni qət edən təyyarələr yox idi. Ona görə də adətən yanacaq götürmək və gecələmək üçün Daşkənddə yerə enirdilər. Təbii ki, bizi Özbəkistanın o vaxtkı lideri Şərəf Rəşidov qarşılayırdı. O, Heydər Əliyeviçi protokol qaydalarına əsasən qarşıladı. Sən demə, onlar çox yaxın tanış imişlər, qucaqlaşıb öpüşdülər, Rəşidovun maşınına minib getdilər. Bizi isə qonaqlar üçün hökumət iqamətgahına apardılar. Heydər Əliyev də burada, ancaq o biri qanadda qalırdı.

Bizim üçün artıq süfrə açılmışdı. Şam yeməyi yedik. Sonra mən həmkarlarımla birlikdə Heydər Əliyeviçin təyyarədə nəzərdən keçirib bəzi düzəlişlər etdiyi mətni tamamlamağa getdim. Uzun müddət işlədim. Mən də çox işləyəndə yuxum qaçır, odur ki, sübh tezdən yatağımdan qalxdım, hələ qaranlıq idi. Yataqdan qalxıb üzümü qırxdım, əşyalarımı yığıb bağda gəzməyə çıxdım. Qəflətən Rəşidov qarşıma çıxdı. O, Heydər Əliyeviçi hava limanına yola salmağa gəlmişdi. Salamlaşdıq. O mənim əlimi sıxdı. Onunla gəzişməyə başladıq. Məndən kim olduğumu, əvvəllər harada işlədiyimi soruşdu. Sov.İKP MK-da çalışdığımı söylədim. Sevindi, hiss elədim ki, o, partiya işçilərinə Nazirlər Kabinetində çalışanlardan daha yaxşı münasibət bəsləyir, onlar ona daha yaxın və anlaşıqlıdırlar. O mənə danışdı ki, havalar pis keçdiyindən, aramsız yağışlar yağdığından pambıqla bağlı məsələ çətin olacaq. Ancaq dünən onun Yuri Vladimiroviçlə söhbəti olmuşdu. Andropov narahat idi, Rəşidovsa söz vermişdi ki, Özbəkistan kommunistləri öhdəliklərini yerinə yetirəcəklər.

Sonra bizi yola saldılar, biz Vyetnama uçub gəldik. Bu, çətin və yorucu səfər idi. Heydər Əliyeviç çox gözəl çıxış edirdi. Qabaqcadan nəzərdə tutulmamış daha iki çıxış oldu. Mekonq çayı üzərindəki nəhəng körpünün tikintisində vyetnamlılar qarşısında çıxış etdi. Qabaqcadan hazırlanmış mətn yox idi, sadəcə olaraq vyetnamlılar və bizim səfir bir neçə kəlmə söyləməyi xahiş etdilər. O, alovlu bir nitq söylədi və onu "Amerika imperialistlərinə ölüm!" kimi gözlənilməz şüarla başa çatdırdı. Səfir Çaplin bir qədər narahat olub mənə pıçıldadı: "Yuri Nikolayeviç, bu, lap ağ oldu. Axı bizim amerikanlarla yaxşı münasibətimiz var, biz onu daha da yaxşılaşdırmağa çalışırıq". Sonra Heydər Əliyeviç bizə yaxınlaşıb məmnun-

luqla soruşdu:

– Hə, axırda necə oldu?

Səfir:

– Heydər Əliyeviç, lap ağ olmadı ki?! – dedi.

– Əlbəttə, ağ oldu. Ancaq burada hamısı özümüzünküdür, xəbər verən olmaz. Görün vyetnamlılar necə razıdırlar.

İkinci improvizə olunmuş nitqi isə o artıq Cənubi Vyetnamda etdi. İqamətgahımız Sayqonda olsa da, biz bütün ölkəni dolaşdıq. Bizi Vyetnamın lap cənubunda cənnətməkan bir yerə gətirdilər. Gözəl çimərlikləri, dənizinin suyu təmiz olan yaraşıqlı şəhərcik idi. Yaxınlıqda isə əsasən Bakıdan gələn mütəxəssislərin çalışdıqları neft mədənləri yerləşirdi.

Onlar Heydər Əliyevi görən kimi, hər şeyi atıb, buruqlardan qayıqlarla sahilə üzdülər. Çox təsirli görüş oldu. Azərbaycan dilində salamlaşaraq Heydər Əliyevin əlini sıxırdılar. Onun isə üzündən xoşbəxtlik yağırdı. O, kiçik, ancaq təsirli nitq söylədi. Gah azərbaycanca, gah da rusca danışırdı. Ancaq biz hər şeyi başa düşdük, onlara vicdanla işləməyi, çirkaba bulaşmamağı tövsiyə edirdi. Burada da Bakıda, Azərbaycandakı kimi vicdanla, namusla işləmək lazımdır.

Geriyə yenə də Daşkənddən uçduq, ancaq təkcə benzin doldurmaq üçün enmişdik. Orada Heydər Əliyeviç yenidən Rəşidovla "görüşdü". Ancaq bu dəfə onun məzarı üstündə. Bizim səfərimiz müddətində haqqında indiyədək də fərziyyələr uydurulan hadisə baş vermişdi: Rəşidovu infarkt vurmuşdu, ya da o, intihar etmişdi.

Bu hadisə heç cür Heydər Əliyevin Daşkəndə gəlişi ilə əlaqəli deyildi. Mən canlı şahidəm. Heydər Əliyeviç Şərəf Rəşidovun ölüm xəbərindən sarsılmışdı. O, bunu hələ Vyetnamda olanda eşitmişdi. Hava limanından onun qəbri üstünə gedib çələng qoydu. Oradan çox qəmgin qayıtdı, dərhal da öz küncünə çəkildi. Ona görə də mən bu barədə onunla danışmadım. Onu heç cür bu ölümlə əlaqələndirmək olmaz (sonralar, antiəliyev kampaniyası aparılan dövrdə bəzi coşğun jurnalistlər belə fərziyyələr quraşdırırdılar ki, Rəşidovun "intiharı" Yuri Andropovun Heydər Əliyevə özbək lideri ilə ciddi danışmaq tapşırığı ilə bağlı deyil ki?–*E.A.*). Əksinə, mən şahidəm ki, onlar necə qucaqlaşıb öpüşdülər, görüşdüklərinə necə

sevinirdilər. Mən gördüm ki, Heydər Əliyeviç Rəşidovun ölümündən necə sarsılıb, qəbir üstünə necə kədərlə gedib, necə qəmgin qayıtdı.

Rəşidovun ayağının altını çoxdan qazırdılar və o, bunu bilirdi. Bundan əlavə, Rəşidovu pambıqla bağlı vəziyyət çox narahat edirdi, o isə çox duyğulu, həssas adam idi – yazıçı, qələm əhli idi axı. Düşünürəm ki, nədənsə ehtiyatlanmaq və beyninə güllə çaxmağa əsas yox idi. O, həqiqətən infarkt olmuşdu".

General **Vladimir Medvedev** aradan xeyli keçəndən sonra Heydər Əliyevin Vyetnama səfərini necə hazırladığını xatırlayırdı:

"O vaxt ölkə çoxillik müharibədən təzə-təzə ayılmışdı. Orada qarmaqarışıqlıq, dağıntı çox idi və budur, qəflətən belə bir ölkəyə ali qonaq gəlir. Onun mühafizəsini necə təşkil etməli? Həm də ki, səfərdə geniş proqram planlaşdırılmışdı. Aydın idi ki, bütün ölkəni dolaşmalı olacaqdıq. Elə mən də Heydər Əliyevdən qabaq oraları dolaşdım: elektrostansiyalarda, zavodlarda oldum, kəndlərə getdim, qısası, nəfəs dərmədən, bəzən heç yeməyə belə macal tapmadan bütün ölkəni ayaqdan saldım. İndi o vaxtları xatırlamaq mənim üçün çox xoşdur: o vaxt mən maraqlı insanlarla tanış oldum, ölkəni öyrəndim, oradakı həyatı daxildən araşdırdım.

Öz sahəmə aid məsələlərə diqqət yetirirdim. Təbii ki, hamıdan çox mən yerli nizamsızlıqlara fikir verirdim: zavodlarda, fabriklərdə, hər yerdə külli miqdarda kömür, tullantı qalaqları gözə dəyir, keçidlər yoxdur, hər yerdə çala-çuxur. Bütün bunlar isə təhlükəsizlik üçün potensial maneələr idi. Mən narahat olmağa başladım. Belə yerə Heydər Əliyevi necə apara bilərdim? Məsələn, poladəritmə zavodunda köhnə Marten sobalarının qarşısında metal tullantılarının arasında mərmi aşkara çıxartdım. "Bunlar partlamazlar" – deyə məni inandırmağa çalışır və onları yığışdırmaqdan imtina edirdilər. İndiyədək də inanmıram ki, orada partlamamış mərmi qalmışdı, özü də Marten sobasının yanında!

Heydər Əliyeviç gəlib çıxanda mən ona, əlbəttə ki, mərmilər barədə məlumat verdim və soruşdum ki, zavoda getməkdən imtina etsəniz olmaz? Ancaq imtina etmək, geri çəkilmək Heydər Əliyevin xarakterində deyildi. "Olmaz, – dedi, – bizi orada insanlar göz-

ləyir, getmək lazımdır". O, həmişə belə idi. Yeri gəlmişkən, şəxsi təhlükəsizliyinə o qədər də ciddi yanaşmırdı. Bu, onun üçün əsas məsələ deyildi"[26].

Heydər Əliyevin ikinci xarici səfəri 1984-cü ilin martında oldu. Əslində o, fevral ayına planlaşdırılmışdı, ancaq Y.Andropovun vəfatı ilə əlaqədar bir ay sonraya keçirildi.

SİTA-nın materiallarından:

Martın 10-da Heydər Əliyev Suriya Ərəb Respublikası rəhbərliyinin dəvətilə Moskvadan Dəməşqə qısamüddətli işgüzar səfərə yola düşmüşdür.

Martın 11-də Heydər Əliyev Suriya Ərəb Respublikası Baş nazirinin müavini, xarici işlər naziri Ə.H.Həddamla danışıqlar aparmışdır.

Ə.H.Həddamın onun şərəfinə verdiyi naharda çıxış etmişdir.

Suriya prezidenti H.Əsəd, həmçinin, Suriyanın Baş naziri A.R.Kasma ilə görüşmüşdür.

Martın 12-də Heydər Əliyev Suriya prezidenti H.Əsədlə danışıqlar aparmışdır.

SKP MK Baş katibinin müavini Y.Feysəl başda olmaqla Suriya Kommunist Partiyası nümayəndə heyəti ilə görüş keçirmişdir.

LKP MK Baş katibi J.Haui başda olmaqla Livan Kommunist Partiyası nümayəndə heyəti ilə görüşmüşdür.

Həmin gün "Pravda" qəzetində Heydər Əliyevin Suriyaya səfəri haqqında SİTA-nın müfəssəl məlumatı dərc edildi.

Martın 14-də "Pravda" və "İzvestiya" qəzetlərində Sovet–Suriya kommunikesi dərc olundu. Sənəddə BMT Təhlükəsizlik Şurasının İsrail qoşunlarının Livandan təcili və qeyd-şərtsiz çıxarılması haqqında qətnamələrinin dəstəklənildiyi ifadə olunurdu, Yaxın Şərqdə sülh uğrunda mübarizədə Fələstin amilinin əhəmiyyətindən, Fələstin müqavimət hərəkatının qorunması vacibliyindən danışılır, hər iki ölkənin bütün sahələrdə strateji münasibətlərin möhkəmləndirilməsi uğrunda səyləri qeyd olunurdu.

"Əlbəttə, azərbaycanlılar Kremldə öz adamlarının olması ilə fəxr edirdilər, – deyə Heydər Əliyev haqqında kitabın müəllifləri V.Andriyanov və H.Mirələmov yazırlar. – Digər işlərlə yanaşı,

Heydər Əliyev Sovet İttifaqının islam aləmi ölkələri ilə əlaqələrinə də hamilik edirdi. Bu işdə ona xüsusi ehtiramla yanaşırdılar. O, mühüm diplomatik tapşırıqlarla Misirə, Liviya, Pakistan, İordaniya və İraqa səfərlər etməli olmuşdu.

"1984-cü ildə məni təcili olaraq Dəməşqə yolladılar, – deyə Heydər Əliyev xatırlayır. – Suriyada, DTK-nın xəbər verdiyi kimi, Hafiz Əsədlə onun Suriya məxfi informasiya xidmətinə başçılıq edən qardaşı Rifat arasında qarşıdurma yaranmışdı.

Kreml Suriyada rejimin və ya rəhbərin dəyişdirilməsinə yol verə bilməzdi. Mən təcili Dəməşqə getdim. Xəstəlikdən yenicə ayağa qalxmış Hafiz Əsədlə görüşdüm. Özünü yaxşı hiss etməsə də, onunla görüşümüz səkkiz saat çəkdi. Aradan bir qədər keçəndən sonra o qardaşı Rifatı İspaniyaya sürgün elətdirdi. Beləliklə, problem həll olundu, Siyasi Büro rahat nəfəs aldı".

Uzun illər boyu Suriyada Sovet İttifaqının səfiri Aleksandr Dzasoxov olub, son vaxtlar o, Şimali Osetiyaya rəhbərlik edirdi. Aleksandr Sergeyeviç bizə dedi ki, "Mən Suriya prezidenti Hafiz Əsəddən Əliyev haqqında çox gözəl sözlər eşitmişəm"[27].

1985–1986-cı illərdə Heydər Əliyev haqqında növbəti fəsildə söhbət açacağımız daha bir neçə mühüm xarici səfərlər edəcək. Ancaq elə düşünməyin ki, o qalan vaxtını Kremldəki kabinetində işinə sərf edirdi. O heç vaxt kabinet siyasətçisi olmayıb, həmişə insanlarla canlı, birbaşa ünsiyyəti sevib. Ona görə də SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olanda Moskvadan Vladivostokadək dolaşmışdı, Avropa hissəsində də, Uralda da, Sibirdə də olmuşdu. Hələ onu demirik ki, bütün Baykal–Amur magistralı boyunca getmişdi. Bu barədə ayrıca danışacağıq.

Ucsuz-bucaqsızdır doğma Vətənim

SİTA-nın materiallarından:

1983-cü il iyulun 1-də Heydər Əliyev Voloqda Şəhər Partiya Komitəsi və Şəhər Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin zəhmətkeşlərin nümayəndələri ilə birgə keçirdikləri təntənəli yığıncaqda çıxış etdi. O, şəhər zəhmətkeşlərinin təsərrüfatda və mədəni quruculuq sahəsində nailiyyətlərinə, inqilabi xidmətlərinə və

Böyük Vətən müharibəsində alman faşistləri üzərində qələbənin təmin olunmasına böyük töhfələrinə görə Voloqdanın Oktyabr İnqilabı ordeni ilə təltif olunması barədə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanını oxudu və mükafatı şəhərin bayrağına sancdı. Öz nitqində Heydər Əliyev vilayətin kənd təsərrüfatında, ictimai istehsal sahələrində, nəqliyyatda yaranmış vəziyyəti hərtərəfli təhlil etdi, vilayət və şəhər rəhbərliyinin diqqətini zəif cəhətlərə yönəltdi. O, həmçinin, Sov.İKP-nin xarici siyasət məsələləri, müasir beynəlxalq vəziyyətin xüsusiyyətləri üzərində dayandı.

İyulun 2-də Heydər Əliyev Sov.İKP Voloqda Vilayət Komitəsində partiya, sovet və təsərrüfat fəalları ilə görüş keçirdi. Görüşdə Sov.İKP MK iyun (1983-cü il) Plenumunun qərarlarının, Y.V.Andropovun Plenumdakı nitqində yer almış müddəa və tapşırıqların yerinə yetirilməsinə yönələn praktik işin təşkili məsələləri müzakirə olundu.

Həmin gün Heydər Əliyev Podşipnik və Optik-mexaniki zavodlarında, Kətan kombinatında, "Rodina" kolxozunda, "Snejinka" krujeva birliyində oldu, fəhlələrlə, kolxozçularla, müəssisələrin partiya və təsərrüfat rəhbərləri ilə söhbət etdi.

Heydər Əliyev həmçinin SSRİ-nin 50 illiyi adına Çerepovets Metallurgiya zavodunda oldu, "2000" yayma maşınına, soyuq prokat sexinə baxdı, 5 nömrəli domna sobasının tikintisinin gedişi, onun üçün konstruksiya və avadanlığın göndərilməsi, zavod fəhlələrinin iş və məişət şəraiti ilə maraqlandı.

Vladimir Uxovun xatirələrindən:

"Onunla səfərlərdə olanda, hətta bayram təntənələrinə gedəndə belə xalqla necə işlədiyini görürdüm.

Misal üçün, Heydər Əliyeviç Voloqda vilayətinə orden təqdim etməyə gedəndə orada müxtəlif kollektivlərlə görüşürdü. Maraqlıdır ki, insanlar ona doğru can atır, o da onlarla söhbətləşir, zarafatlaşırdı... O, Siyasi Büronun köhnə rəhbərləri kimi deyildi. Onlar artıq xalqdan uzaqlaşmışdılar, insanlarla rəftarı bacarmırdılar, kağızsız üç kəlməni bir-birinin ardınca söyləyə bilmirdilər. O isə gözəl natiq idi. Baxmayaraq ki, Heydər Əliyeviç rus deyildi, rusların çoxuna nitq mədəniyyətindən dərs deyə bilərdi".

L.Brejnevi mühafizə edən SSRİ DTK-nın generalı Vladimir Medvedev Baş katib vəfat edəndən sonra həm xarici, həm də yerli nümayəndə heyəti başçılarının təhlükəsizliyini təmin edən DTK-nın 9-cu idarəsinin ehtiyat bölməsində işləyirdi. Bu vəzifədə onun ilk tapşırıqlarından biri SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Siyasi Büronun üzvü Heydər Əliyevin Voloqdaya və Çerepovetsə səfərini hazırlamaq idi.

Yeri gəlmişkən, hazırlıq prosesinin özü necə keçirdi? "İzvestiya" qəzetinin müxbiri ilə söhbətində Vladimir Timofeyeviç bu barədə belə xatırlayır:

"Bu prosedur illərlə işlənib hazırlanmışdı. Sistem çox dəqiq, saat kimi işləyirdi. Dayanmalar olmurdu. Adətən planlaşdırılan səfər yerindəki vəziyyətlə tanışlıqdan başlanırdı. Hər şeyi, necə deyərlər, "dişə vurmaq", hadisələrə beyni ölkə liderlərinin başına gələ biləcək xoşagəlməz hadisələrin qarşısını almağa köklənmiş peşəkar baxışı ilə baxmaq lazımdır.

Tanışlıq səfəri, əlbəttə ki, təkcə yerli partiya və sovet rəhbərləri ilə deyil, həm də yerli dövlət təhlükəsizliyi xidməti və milislə, təsərrüfatçılarla görüşü də nəzərdə tuturdu. Səfərin müddəti və proqramı onların hamısı ilə razılaşdırılırdı. Hər kəslə öz sahəsi üzrə.

Misal üçün, hava limanında meydançanı hazırlamaq və ya bizlərdə deyildiyi kimi, "rejimə salmaq" lazımdır. Voloqda aeroportu, düzünü desək, heç indi də ölkədəki ən yaxşı limanlardan sayılmır. O vaxt isə... lap əyalət aeroportu idi. Ancaq əsas o idi ki, hər bir aeroport kimi açıq sahə idi. Postları, o cümlədən, aeroportdan üzü şəhərə doğru postları ağılla müəyyənləşdirmək, qaydalara görə, əvvəlcədən nəqliyyatı seçib, onu yaxşıca yoxlamaq lazım idi. Qonağın gəlişinə bir gün qalmış isə nəqliyyatı bir də yoxlamalıydıq ki, heç kim ona əlavə şeylər qoya bilməsin.

Xüsusi komissiya yığılırdı. Onun tərkibinə mexanik, elektrik, DTK-nın əməliyyat işçisi daxil idi. Nəqliyyatı – əsas maşını, ehtiyat, yük maşınlarını yoxlayıb, hər biri üçün akt tərtib edirdi. Sonra kortejin irəliləyəcəyi yol hazırlanırdı (o bir neçə sahəyə bölünür, onların arasında rabitə razılaşdırılır, ehtiyat yol planlaşdırılırdı). Müşayiət təmin olunurdu. Sonra iqamətgah nəzərdən keçirilirdi: ye-

nə də komissiya (elektriklər, santexniklər, liftçilər, DTK nümayəndələri), yenə də akt. Yemək xidməti ilə – ayrıca söhbət.

O vaxt Voloqdada da belə oldu. Heydər Əliyeviçi hava limanında qarşıladım. Ancaq söhbətimiz iqamətgahda baş tutdu. Nümayəndə heyətinin başçısına protokol üzrə məruzə edirəm: "Sizin gəlişinizə hər şey hazırdır".

Bu da iqamətgahda görüş. Heydər Əliyeviç gülümsünüb, əlimi möhkəm sıxır. Mən, təbii ki, bir qədər həyəcanlıyam, axı, bu ilk görüşdür. Ancaq həyəcanım tez keçib gedir. O soruşur ki, işlərim necədir, yeni vəzifədə necə işləyirəm. Axı o çox gözəl bilirdi ki, mən Leonid İliçlə birgə Bakıya gəlmişdim, orada çox xoş, isti görüşlər olmuşdu. Mən bilirdim ki, Şevardnadze kimi, o da Brejnevin yanında xüsusi nüfuza malikdir. O vaxt o, MK Siyasi Bürosunun tərkibinə Yuri Vladimiroviç Andropovun tövsiyəsi ilə daxil edilmişdi. SSRİ DTK-sının uzun illər boyu əvəzolunmaz başçısı Heydər Əliyevi Azərbaycandakı işindən çox gözəl tanıyırdı – əvvəl respublika DTK-nın başçısı kimi və sonra da respublika Kommunist Partiyasının birinci katibi kimi. Andropov ixtisaslı kadrları seçməyi bacarırdı – onun tövsiyəsi məhz buna əsaslanırdı"[28].

1985-ci il fevralın 13-də Barnaulda (Altay diyarı) Mərkəzi seçki dairəsi seçicilərinin RSFSR Ali Sovetinə deputatlığa namizəd Heydər Əliyevlə görüşü oldu.

Fevralın 14-də "Pravda" qəzeti bu görüşə və Heydər Əliyevin çıxışına demək olar ki, bütün ikinci səhifəni həsr etdi *("Hər şey xalqın rifahı naminə" adlı məqalə).* Heydər Əliyev ölkədə partiyanın təşəbbüsü ilə "inkişaf etmiş sosializmin təkmilləşdirilməsi məsələlərinin həlli istiqamətində böyük və mürəkkəb dönüşün başlanması", iqtisadiyyatın inkişafının ana xətti kimi xalq təsərrüfatının intensivləşdirilməsi və elmi-texniki tərəqqinin sürətləndirilməsinin zəruriliyi barədə bəyanatlarla çıxış etdi.

Buradaca o ilk dəfə olaraq Sov.İKP Siyasi Bürosunun qərarı ilə xalqın rifahının yüksəldilməsinə yönəldilmiş mühüm sənədin – 1986–2000-ci illər üçün xalq istehlakı malları istehsalının və əhaliyə xidmət sisteminin inkişafına dair kompleks proqramın hazırlanması barədə danışdı. Proqram onun rəhbərliyi altında işlənib hazırlanırdı.

Fevralın 15-də "Pravda" və "İzvestiya" qəzetləri Heydər Əliyevin Altayda olması barədə qısa hesabat dərc etdilər. Seçicilərlə görüşlərdən savayı Heydər Əliyev diyarın həyatı ilə tanış oldu, bir sıra müəssisə və idarələrə getdi, ucqar kənd yerlərinə baş çəkdi.

Məsələn, Barnaul Nəqliyyat Maşınqayırma Zavodunda Heydər Əliyev burada həyata keçirilən iqtisadi eksperimentin praktik nəticələri, onun istehsalatın intensivləşdirilməsinə təsiri ilə maraqlanmışdır. O, Barnaul müəssisələrində xalq istehlakı mallarının buraxılması ilə tanış olmuş, şəhər bazarlarının birində, mağazalarda, yarımfabrikat kombinatında olmuşdur. Fəhlələrə göstərilən tibbi xidmətin vəziyyətini öyrənmək üçün hətta Altay Mühərrikqayırma istehsalat birliyinin tibb məntəqəsinə baş çəkmişdir. Daha sonra Heydər Əliyev kəndləri gəzmiş, "Barnaulski", "Novoaltayski", "Magistralnı" sovxozlarının, "Sibirskaya" quşçuluq fermasının rəhbərləri və fəhlələri ilə söhbət etmişdir. Altay universitetində və Barnaul şəhər 42 saylı orta məktəbində olmuşdur. Sonda Heydər Əliyevin diyarın partiya, sovet və təsərrüfat fəalları ilə görüşü olmuşdur.

S.Sultanoğlu yazır: "1985-ci ildə Barnaulda SSRİ Ali Sovetinə seçkilər zamanı Heydər Əliyevin bütün İttifaq boyu translyasiya olunan nitqi (jurnalist səhv edir. Heydər Əliyev RSFSR Ali Sovetinə seçkilərdə iştirak edib – ***E.A.***) əslində natiqlik sənəti salnaməsinə daxil edilməlidir. Heydər Əliyevin **nə** danışdığı əsas deyil. Əsas odur ki, o bunu **necə** danışıb. Mühüm olan odur ki, nitqinin sonunda auditoriya heyranlıqla qışqırışmağa başladı"[29].

Heydər Əliyevlə işləmiş adamlar bu səfər haqqında ən yüksək fikirlər söylədilər. Bu səfər qəhrəmanımızın adını Sibirdə şöhrətləndirdi. Zəhmət adamları ilk dəfə yüksək zümrəyə məxsus sadə və insanlarla ünsiyyətdə səmimi olan, onlarla birgə tövlələri və quşçuluq komplekslərini gəzməkdən çəkinməyən, onların iş və məişət şəraiti ilə ürəkdən maraqlanan, yeri gələndə vilayətdəki kabinetlərdə oturub qalan yerli rəislərin kürkünə birə salan bir rəhbər gördülər. Heydər Əliyev üçün bu, adət etdiyi iş üslubu, rus məmuru üçün isə vərdiş etmədikləri qeyri-adi hal idi. Odur ki, Heydər Əliyevin rusların arasındakı populyarlığı həndəsi silsilə ilə artırdı, xüsusilə də, BAM-a, mübaliğəsiz olaraq, tarixi səfərindən sonra. Ona görə tarixi səfər deyirik ki, SSRİ Nazirlər Sovetinin mövcud

olduğu müddət ərzində yəqin ilk dəfə idi onun səyyar yığıncağı keçirilirdi. Özü də Heydər Əliyevin təşəbbüsü ilə.

Hələ Heydər Əliyevin İttifaq Nazirlər Sovetində işə başlamasına qədər Baykal–Amur magistralının tikintisi üzrə SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin komissiyası yaradılmışdı. Y.Andropov nəqliyyat məsələlərinə hamiliyi Heydər Əliyevə tapşıranda o, bu komissiyaya rəhbərlik etməyə başladı.

BAM sözü bugünki gəncliyə, demək olar ki, heç bir şey demir. Ancaq XX əsrin 70–80-ci illərində bu dəmiryol magistralı SSRİ-nin mühüm tikintilərindən biri idi. Böyük ölkənin hər yerindən, eləcə də Azərbaycandan bura komsomolçu gənclər dəstəsi, həmçinin, bənzərsiz layihənin reallaşmasına töhfəsini verməyi özünə vicdan işi, borc bilən həvəskarlar axışmağa başladı. BAM haqqında mahnılar bəstələndi, şeirlər qoşuldu, kinofilmlər çəkildi. Dövlət proqramı "BAM zonasının mənimsənilməsi" adlanırdı. Magistralın keçdiyi rayonlarda o vaxta qədər kömür, filiz yataqları və digər yataqlar aşkara çıxarılmışdı. Hələ biz külli miqdarda meşə ehtiyatlarından danışmırıq. Belə güman edilirdi ki, BAM magistralı boyunca müasir şəhər və qəsəbələr salınacaq, odur ki, təkcə çoxsaylı tikinti işçiləri ordusuna xidmət etmək yox, həm də sosial sahəni, infrastrukturu inkişaf etdirmək, yollar çəkmək və s. tələb olunurdu. Belə ki, burada işin həcmi böyük idi.

SİTA-nın məlumatından:

1984-cü il martın 23-də Sov.İKP MK Siyasi Bürosunda BAM inşaatçıları kollektivlərinin əsas dəmiryol xəttinin çəkilməsini vaxtından qabaq, Böyük Oktyabrın 67-ci ildönümü ərəfəsində başa çatdırmaq və bütün magistral boyu qatarların hərəkətini nəzərdə tutulduğundan bir il tez açmaq təşəbbüsünə baxıldı. Siyasi Büro bu təşəbbüsə, eləcə də ümumiyyətlə, BAM-ın çəkilib qurtarmasına böyük əhəmiyyət verirdi. İclasda qeyd olundu ki, "qatarların hərəkətinin vaxtından qabaq açılması Sibir və Uzaq Şərqin məhsuldar qüvvələrinin inkişafını sürətləndirəcək, daş kömür, meşə və digər təbii ehtiyatların təsərrüfat mübadiləsinə qoşulmasına xidmət edəcəkdir".

Ancaq Baykal–Amur magistralının tikintisi, xüsusilə də Şimali Muysk tuneli zonasında bir çox çətinliklərlə üzləşdi. Keçmiş yollar

naziri Nikolay Konarevlə görüşüb bu epopeya barədə onu ətraflı sorğu-suala tutdum.

"1984-cü ildə magistralın tikintisi ən yüksək sürətlə gedirdi. Hər şey tikintini təhvil verməyə yönəlmişdi. Qəflətən Şimali Muysk tunelinə dirəndik. Orada belə bir vəziyyət yaranmışdı: Uralarxası yoxuş uzanıb gedir, aşağıda isə tunel. Dağ silsiləsinin zirvəsindən tunelədək hündürlük 1362 metr idi. Kəşfiyyat zamanı bunu necə görməmək olardı. Necə kəşfiyyat aparılıb ki, yeraltı göl aşkara çıxarılmayıb? Bir neçə çay, o cümlədən, Kirenqa çayı da mənbəyini oradan götürür. Orada sağdan da, soldan da nov, qanov. Eni də üç metr. Su saatda 20 kilometr sürətlə axır. Kirenqanın Lena çayına töküldüyü yerin dərinliyi isə 4 metrdir.

Axtarış aparanlar bunu aşkara çıxarmamışdılar. İnşaatçılar dağın altı ilə 15,6 kilometr uzunluğunda dəmiryol tuneli çəkməyə başlayıblar. İki tərəfdən yaxınlaşıblar, ancaq irəli gedə bilməyiblər, çünki hər tərəf sudur. Suyu yalnız tunelə axıtmaq olar. Başqa yol yoxdur. Yol tamamilə çəkilib, yalnız tunelin tikintisi qalıb. Cəmi 160 metrlik məsafəni keçmək lazım idi. Biz BAM-a gedib, hər şeyi yerindəcə aydınlaşdırmağı qərara aldıq".

MK-nın ümumi şöbəsinin müdiri kimi ali partiya yığıncaqlarında tez-tez iştirak edən Anatoli Lukyanov mənimlə söhbətində bunları xatırladı:

"Heydər Əliyeviçin Nazirlər Sovetinə gəlişindən sonra BAM-ın tikintisi ilə bağlı bütün məsələlərin ağırlığı onun üzərinə düşdü. BAM fövqəladə mühüm obyekt idi. Heydər Əliyeviç dəfələrlə bu məsələlər haqqında Siyasi Büroda məruzə etmişdi. Tikintidə getdikcə daha çox çətinliklər üzə çıxırdı. Məlum olduğu kimi, inşaatçılar hər iki tərəfdən Şimali Muysk tunelinə tərəf irəliləyirdilər və orada da ilişib qaldılar. Siyasi Büroda Şimali Muysk tuneli probleminin müzakirəsinin necə keçdiyini, tikintinin dayandırılması qərarının necə çətinliklə qəbul olunduğunu çox yaxşı xatırlayıram.

Bu, çox dramatik məsələ idi. Düşünürəm ki, o, Heydər Əliyeviçin çiynində ağır bir yükə çevrildi.

1984-cü il iyunun 3-də Heydər Əliyev və onu müşayiət edən dövlət komissiyasının üzvləri Moskvadan Bratska uçdular. Sonra qatara minib tikilməkdə olan magistralın bütün trası boyunca yük-

sələn qəsəbə və şəhərlərə tamaşa edərək getdilər. Hər bir yaşayış qəsəbəsini hansısa respublika, diyar və ya vilayət tikirdi. "Əlbəttə ki, Azərbaycanın da öz BAM ünvanı vardı – trasın Qərb sahəsinin 210 kilometrliyindəki Ulkan stansiyası. Orada, tayqa diyarında, gur axan Kirenqanın sahilində qəsəbə salındı – gözəl evlər, məktəb, uşaq bağçası, körpələr evi, tibb məntəqəsi, ictimai satış mərkəzi... Heydər Əliyev hələ respublika Kommunist Partiyası MK-da işləyərkən bu tikinti ilə məşğul olurdu. Vağzalın və digər binaların tərtibatında Azərbaycan memarlığının elementlərindən istifadə etməyi də məhz o məsləhət görmüşdü. Odur ki, bu uzunmüddətli və çətin ezamiyyətdə Heydər Əliyeviç ruh yüksəkliyi duyurdu. Bəli, qarşıda görüləsi işlər çox idi, ancaq artıq başa çatdırılanlar isə hər kəsdə bu böyük işə şəxsən qatıldığı üçün qürur hissi doğururdu"[30].

İyunun 7-də BAM-da işlərin gedişi SSRİ Nazirlər Sovetinin Baykal–Amur magistralının tikintisi üzrə Komissiyasının Tındada səyyar iclasında müzakirə olunmuşdur.

SİTA-nın "Pravda" qəzetində dərc olunmuş məlumatında deyilirdi: "Komissiya magistralı tikənlərin yüksək əzmkarlığını qeyd etmişdir. Bütövlükdə yolun tikintisi yüksək templə aparılır, tikinti-quraşdırma planları ilbəil artıqlaması ilə yerinə yetirilir. Tikilməkdə davam edən BAM, beşilliyin xeyrinə get-gedə daha enerjili işləyir. Baykal–Amur dəmir yolu yaradılmışdır, yalnız ötən il onun vasitəsilə 18,6 milyon ton xalq təsərrüfatı yükü daşınmışdır. Yol boyu, hələ bu yaxınlaradək keçilməz tayqa olan yerlərdə abad, dinamik inkişaf edən qəsəbə və şəhərlər salınmışdır.

Bununla yanaşı, BAM-da işlərin uğurla başa çatdırılmasını ləngidən bir sıra çatışmazlıqlar və həllini tapmayan problemlər tənqidi baxımdan təhlil edildi, çətin dağ-mədən şəraitində tikilən Şimali Muysk və Kodar tunellərinin inşasını sürətləndirmək istiqamətində konkret tədbirlər irəli sürüldü. Lokomotiv, vaqon və yardımçı təsərrüfat obyektlərinin tikintisində, magistralın mühəndis təminatında müəyyən geriliklər müşahidə olunurdu. Baykal tuneli ilə qatarların hərəkətinin açılması üzrə işlər yolverilməz dərəcədə uzadılmışdı. Magistralın kompleks tikintisinin, məhsuldarlığı yüksək olan maşın və mexanizmlərdən, işçi qüvvəsindən daha səmərəli istifadə edilməsinin zəruriliyi vurğulanırdı.

Səyyar komissiyanın işində Amur, Buryatiya, İrkutsk, Yakutiya Vilayət Partiya komitələrinin birinci katibləri, SSRİ nazirləri N.Konarev, İ.Sosnov, SSRİ Dövlettikinti Komitəsinin sədri S.Başilov, SSRİ Dövlət Plan Komitəsi sədrinin müavini V.Biryukov, nazirlik və idarə rəhbərləri, SSRİ Nazirlər Sovetinin, SSRİ Dövlət Plan və Dövlət Təchizat komitələrinin, ÜİHİMŞ və ÜİLKGİ-nin məsul işçiləri iştirak edirdi.

Heydər Əliyevin şəxsi arxivində nadir bir foto mühafizə olunur: o və onun sadiq mühafizəçisi Saşa İvanov komissiyanın səyyar yığıncağının keçirildiyi Şimali Muysk tunelinə yürüş üçün tam hazırlanmış halda hansısa daxmadan çıxırlar. Nazirlər Soveti sədrinin müavininin əynində fufayka – toxunma isti köynək, sıxılı, başında dəbilqə, ayağında isə dizdən yuxarı uzunboğaz çəkmə var. Onunla birlikdə Şimali Muysk tunelində suya, palçığa bəlkə də ömürlərində ilk dəfə belə vəziyyətə düşmüş nazirlər də girməli oldular.

Keçmiş bakılı, hazırda SİTA-nın müxbiri **Valeri Calaqoniya** da Heydər Əliyevlə birlikdə BAM səfərinə yollanmışdı. Sonralar o, çətin səyahət barədə bunları xatırlayırdı:

"Mən SİTA-nın xüsusi müxbiri kimi Heydər Əliyeviçi Siyasi Büronun üzvü və sovet hökuməti başçısının birinci müavini olduğu vaxt ölkə ərazisində və xarici səfərlərdə müşayiət edərkən onunla dəfələrlə görüşməli olmuşam. Onun səbəbinə Anqola, Şimali Koreya, Laos kimi turist vizası ilə səyahət etmək mümkün olmayan ölkələri gəzmişəm. Ancaq ən çox xatirimdə qalan 1984-cü ilin iyununda BAM-a səfərim oldu. O vaxt nəqliyyatın bütün növlərindən – qatar, təyyarə, vertolyot, hətta Şimali Muysk tunelindən çəkilmiş yeraltı yoldakı vaqonetkalardan da istifadə etməli olduq.

Heydər Əliyevi müşayiət edən komanda üzvləri kiçik vaqonlara minəndə ətrafa açıq-aydın xırıltı səsləri yayılırdı. Bu "Zil"lərin yumşaq oturacaqlarına adət etmiş SSRİ yollar naziri N.S.Konarev və onun həmkarlarının oynaqlarının səsi idi. Mədən dəhlizində dizəcən suyun içində biz düz 8 saat, tam iş növbəsini keçirdik. Yuxarıya çıxanda hamı kimi uzunboğaz rezin çəkmələr və sukeçirməyən iş paltarı geymiş Heydər Əliyeviç üzünü Moskvadan gəlmiş yüksək vəzifəli rəisə baxmağa toplaşmış kütləyə tutub yüksək əh-

valla dedi: "Bəs gül-çiçək hanı? Mən bu gün dünya rekordu qazanmışam: dörd naziri yerin altına aparmışam"[1].

Vəziyyətlə yerindəcə tanış olan komissiya üzvləri anladılar ki, bu qədər suyu kənarlaşdırmaq üçün xeyli iş görülməlidir. Bəs nə etməli? Şimali Muysk tunelinin tikintisinin başa çatmasını gözləyək? Ancaq axı o, bir neçə ilə qədər uzana bilər (o vaxt heç kim güman etməzdi ki, tunelin çəkilməsi, demək olar ki, 20 ildən sonra, XXI əsrin əvvəllərində başa çatacaq – ***E.A.***). Dolayı yol çəkilsin? Bu, daha 56 kilometr və əlavə, həm də çoxlu vəsait demək idi. Komissiya üzvlərinin rəyi müxtəlif idi. Bəziləri (o cümlədən, yollar naziri N.Konarev və Heydər Əliyev özü) ikinci varianta meyilli idilər. Digərləri, ən çoxu da SSRİ Dövlət Plan Komitəsinin sədr müavini V.Biryukov isə tunelin tikintisini sürətləndirməyi təkid edirdilər. Çünki dolayı yolun quraşdırılması, onların fikrincə, özünü doğrultmayan böyük xərclər tələb edirdi.

N.Konarevlə söhbətdən:

"– Deyilənə görə, Moskvaya gəlib öz fikrinizi bildirəndə bu variantın ciddi əleyhdarları meydana çıxıb və siz həmin məsələ ilə bağlı geniş yığıncaq keçirmisiniz. Sizinlə nəyə görə razılaşmırdılar?

– Onlar inanmırdılar ki, tunelin tikintisi bu qədər uzana bilər. Baxmayaraq ki, nəqliyyat tikintisi naziri İvan Dmitriyeviç Sosnov onlara demişdi: "Bizim bu qədər suyun öhdəsindən gələcək texnikamız yoxdur, orada böyük bir çay axır". Həmin dolama yoldan sonralar 20 ilə qədər faydalandılar. Axı tuneli yalnız bu yaxınlarda inşa ediblər. Mən bilmirəm onlar bu problemi necə həll etdilər, ancaq lap bu yaxınlarda yoluna qoydular. Belə ki, o dövr üçün bu, ən gözəl çıxış yolu idi.

Lakin qərarımız təsdiq olunmalı, pul almalıydıq. Həmin yığıncaqda, təbii ki, mən çıxış etdim. Dövlət Plan Komitəsindən Viktor Yefimoviç Biryukov mənə etirazını bildirdi, çünki haradansa vəsait tapmaq lazım idi. Heydər Əliyeviç mənim mövqeyimi müdafiə etdi. O vaxtlar hələ Baybakov Dövlət Plan Komitəsinə rəhbərlik edirdi. O başa düşürdü ki, ya BAM-dan imtina edilməlidir, ya da vəsait ayrılmalıdır. Axır ki, anladılar: BAM-ı xilas etmək üçün dolama yol çəkmək lazımdır və 262 milyon rubl vəsait ayırmaq qərarına gəldilər".

Vladimir Uxovla söhbətdən:

"Heydər Əliyev geniş iclas çağırdı. Yadımdadır ki, o vaxt protokolda yazdılar ki, dolama yolun tikintisini məqsədəuyğun saymaq, bu işə vəsait qoymaq, eyni zamanda Şimali Muysk tunelində işləri davam etdirmək lazımdır.

Bu yığıncaqda rəqib qruplar üz-üzə qaldılar. Onların arasında alimlər, nəqliyyatçılar, körpü və keçid işləri üzrə mütəxəssislər də vardı. O, hər iki tərəfin dəlillərini dinlədi, sonra isə yeganə düzgün qərar qəbul etdi və buna hökuməti də inandırdı. Nazirlər Soveti dolama yolun inşasına vəsait ayırdı. Eyni zamanda Şimali Muysk tunelinin tikintisini də davam etdirdilər. Tunelin rəsmi açılışı 2003-cü ilin dekabrında, onun vəfatı günlərində oldu.

– Zaman göstərdi ki, Əliyev haqlı imiş.

– Bizim mübahisələrdən, müxtəlif baxışların toqquşmasından ən əlverişli qərar çıxara bilməyimiz həqiqətən onun xidmətidir".

İyunun 11-də "Pravda" Heydər Əliyevin Baykal–Amur magistralına səfəri barədə qısa hesabat dərc etdi. Hətta bu kiçik protokol məlumatı da Nazirlər Soveti sədrinin birinci müavininin bu səfərdə həyata keçirdiyi işlərin böyük həcmini və sürətini təsəvvür etməyə imkan verir.

SİTA müxbirinin materiallarına müraciət edək:

"H.Ə.Əliyev BAM boyunca Lena stansiyasından Komsomolsk–Amura qədər gedib, əsas dəmir yolunun son kilometrləri quraşdırılan "Taksimo–Vitim" zərbəçi sahəsində oldu, magistral boyunca inşa olunan qəsəbələri, şəhərləri nəzərdən keçirdi, Şimali Muysk tunelinin qurğusu üzrə işlərin gedişi ilə tanış oldu. Mədən dəhlizlərində, lağımlarda o, qazmaçılarla söhbətləşir, onların iş və məişət şəraiti ilə maraqlanırdı. Fəhlələr və mütəxəssislərlə görüş zamanı əsas diqqət BAM kollektivlərinin məsul öhdəliklərinin vaxtından qabaq, Böyük Oktyabrın 67-ci ildönümü gününə qədər sözsüz yerinə yetirilməsini təmin etmək üçün tikinti işlərinin sürətləndirilməsi, magistral boyu bütün istiqamətlərdə qatarların hərəkəti-

nin açılması məsələsinə yönəldildi.

H.Ə.Əliyev nəqliyyat konveyerinin digər bölmələrindəki vəziyyətlə də tanışlıqdan sonra – Lena çayı üzərindəki Osetrovo, Vrangel buxtasındakı Şərq limanlarında, Vladivostok ticarət limanında oldu.

Bratsk DES-də, Lenin Komsomolu adına Gəmiqayırma Zavodunda, Komsomolsk–Amurdakı Y.A.Qaqarin adına Aviasiya Zavodunda, regionun digər müəssisələrində olarkən o, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqi ilə, əmək kollektivlərinin sosial inkişaf proqramları ilə maraqlandı.

H.Ə.Əliyev Qırmızı Bayraqlı Sakit Okean Donanmasının dənizçiləri ilə görüşdü, qayıqəleyhinə böyük "Petropavlovsk" gəmisində oldu. Sakit okean dənizçiləri söz verdilər ki, böyük sovet dövlətinin dəniz sərhədlərini etibarlı müdafiə edəcək, sülhün keşiyində ayıq-sayıq dayanacaqlar.

Xabarovsk və Primorsk vilayətlərinin partiya-təsərrüfat fəalları ilə görüşlər oldu. Bu görüşlər zamanı ictimai istehsalın səmərəliliyinin artırılması, Sov.İKP MK fevral və aprel (1984-cü il) Plenumlarının qərarlarının həyata keçirilməsi üçün ideya-tərbiyə işlərinin gücləndirilməsi məsələlərinə baxıldı *("Pravda", 11 iyun 1984-cü il).*

Nikolay Semyonoviç Konarev bu səfər zamanı Heydər Əliyevlə ünsiyyətini, kitabımızın qəhrəmanının nadir demokratizmini qeyd edərək böyük məmnuniyyətlə xatırlayır:

"O, olduqca sadə adam idi, heç bir kübar şıltaqlığı nümayiş etdirmirdi. Heç vaxt tələb etməzdi ki, onun üçün xüsusi nəsə hazırlasınlar. Ondan heç kim minnətdarlıqdan başqa bir şey eşitməmişdi. Biz bir yerdə dayanmır, yol boyu irəliləyirdik. Əvvəlcə tunelin məsələsini həll etmək üçün ləngidik. Sonra isə yolumuza davam etdik. Gah gedirdik, gah da uçurduq. Komsomolsk–Amur şəhərinə yetişdik. Orada bizi aviasiya zavoduna dəvət etdilər. O vaxtlar bu, müdafiə kompleksinin qapalı müəssisəsi idi. Biz zavoda gələndə direktor Əliyevi təyyarəyə qalxmağa dəvət etdi. Heydər Əliyeviç MİQ–31-ə mindi. O vaxtlar bu, dünyanın ən müasir qırıcı təyyarəsi idi. Mən də təyyarəyə qalxdım. Biz fəxr edirdik, sevinirdik ki, Uzaq Şərqdə belə texnika istehsal edirlər".

Nümayəndə heyəti Moskvaya Vladivostokdan uçdu. Siyasi Büro üzvünə İL–62-də xüsusi salon ayrılırdı. Ancaq Heydər Əliyeviç özünü dartıb kənara çəkilənlərdən deyildi. O, yol yoldaşlarını öz yanına, yemək masasına dəvət etdi.

– Hə, dostlar, bu gün mən masabəyi olacağam.

Və hər kəs haqqında səmimi, xoş sözlər söylədi – deyə Viktor Yefimoviç Biryukov yada salır[2].

1984-cü il iyulun 5-də Heydər Əliyev Siyasi Büroda BAM-a səfərinin yekunları barədə məruzə etdi. SİTA xəbər verir ki, onun məruzəsi əsasında "Sov.İKP MK Siyasi Bürosu müvafiq nazirlik və idarələrin rəhbərlərinə Baykal–Amur magistralının buraxılış obyektlərinin vaxtlı-vaxtında istismara verilməsi üçün tədbirlər görülməsini, texnika, avadanlıq, konstruksiya və materialların ahəngdar çatdırılmasına nail olunmasını, yaşayış evləri və mədəni-məişət təyinatlı obyektlərin tikilməsi planına ciddi riayət edilməsini təklif etdi. BAM zonasında yerləşən təbii ehtiyatların mənimsənilməsində tempin artırılması zəruriliyi, avtomobil yolları şəbəkəsinin genişləndirilməsi və yolların keyfiyyətinin yaxşılaşdırılması, magistralın normal işini təmin edən köməkçi xidmətlərin yaradılması vurğulandı".

Oktyabrın 4-də Heydər Əliyev Siyasi Büroda bir daha BAM-da işlərin gedişi barədə məruzə etdi. Baykal–Amur magistralında əsas dəmir yolu xəttinin vaxtından qabaq çəkilməsinin və qatarların iş hərəkətinin açılmasının böyük siyasi və xalq təsərrüfatı əhəmiyyəti kəsb etməsi xüsusi qeyd olundu.

Heydər Əliyev aşağıdakı rəqəmləri açıqladı: 10 il ərzində magistral boyu böyük həcmdə inşaat-quraşdırma işləri görülmüşdür. Yer yatağına 570 milyon kubmetrdən çox torpaq tökülmüş, 4200-ə yaxın körpü və digər süni qurğu tikilmiş, 5 min kilometrdən çox əsas və stansiya dəmir yolu xətləri çəkilmişdir. Yeni şəhərlər və rahat qəsəbələr tikilir. 400 milyon manat məbləğində ümumi sahəsi 570 min kvadratmetr olan əsaslı yaşayış binaları və xeyli sayda sosial-məişət obyektləri istismara verilmişdir. Bununla belə, Şimali-Muysk tunelinin tikilməsi və magistralın tikintisinin yekunlaşdırılması haqqında məsələyə yenidən baxılmış və müvafiq qərar qəbul edilmişdir.

Oktyabrın 27-də ölkənin bütün mərkəzi qəzetlərində Sov.İKP MK-nın Baykal–Amur dəmiryol magistralının tikintisində və istismarında iştirak edən fəhlələrə, mühəndis-texniki işçilərə və qulluqçulara, həmkarlar və komsomol təşkilatlarına, bütün inşaatçılara müraciəti dərc olundu.

Sov.İKP MK BAM inşaatçılarını əsas dəmir yolu xəttinin qurulmasının başa çatması və qatarların bütün dəmiryol magistralı boyu hərəkətinin açılması münasibətilə təbrik etdi.

Müraciətdə deyilirdi: "Baykal–Amur dəmiryol magistralı haqlı olaraq sovet xalqının böyük nailiyyətləri salnaməsinə yazılacaqdır. Yeni nəhəng nəqliyyat arteriyası ölkəmizin iqtisadiyyatının inkişafında, xüsusilə Şərqi Sibir və Uzaq Şərq regionlarında iri ərazi-istehsalat komplekslərinin yaradılması, zəngin təbii resursların xalq təsərrüfatı dövriyyəsinə qoşulmasında mühüm əhəmiyyətə malikdir".

BAM magistralının nəzərdə tutulduğundan da tez işə salınmasında Heydər Əliyevin və sadiq silahdaşı, yollar naziri N.Konarevin böyük xidməti olmuşdur. Mən növbəti dəfə təəssüflənirəm ki, Rusiya tarixinin salnaməçiləri bu faktdan bilərəkdən yan keçirlər. Ancaq nə etsən də, həqiqət gec-tez üzə çıxacaq.

Son vaxtların məşhur bir faktı buna sübutdur: 2008-ci il iyulun 18-də Baykal–Amur magistralının Anqoya stansiyasında yenidən təmir olunmuş vağzala Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı verilmişdir. Bu münasibətlə Anqoyada təntənəli mərasim keçirilmiş, mərasimdə Rusiya və Azərbaycanın hökumət nümayəndələri, dəmiryol rəhbərləri, eləcə də o illərin əlamətdar hadisələrinin iştirakçıları toplaşmışdılar. 1984-cü ildə BAM-a əlamətdar səfər zamanı komissiya üzvlərini müşayiət edən jurnalist Yevgeni Boqaçov da orada idi. "Rusiyanın dəmir yolları" şirkətinin portalında onun məqaləsi çıxmışdı. Onu ixtisarsız təqdim edirəm:

Heydər Əliyevin BAM-a qayıdışı

"Bu gün – iyulun 18-də Anqoya stansiyasında Azərbaycanın keçmiş prezidenti, bir vaxtlar Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olmuş Heydər Əliyevin şərəfinə memorial lövhənin təntənəli açılış mərasimi olacaqdır.

BAM-çıların yaşlı nəsli, o cümlədən, Anqoyada yaşayıb işləməkdə davam edənlər onu məhz sovet rəhbərlərindən biri kimi yaxşı xatırlayırlar.

1984-cü ilin yayında Aleksandr Bondarın yolçəkən briqadası Vitimə doğru irəliləyəndə, tikilməkdə olan yola dövlət komissiyası gəldi. Komissiyaya Heydər Əliyev rəhbərlik edirdi. İki Mİ–8 vertolyotu düz yolçəkənlərin qarşısındakı torpaq zolağa endi.

Bundan qabaq isə komissiya Severobaykalskda və Severomuyskda olmuşdu. Heydər Əliyevi yollar naziri Nikolay Konarev, nəqliyyat tikintisi naziri İvan Sosnov, Baş BAM tikintisinin rəisi Konstantin Moxortov və tikintinin digər rəhbərləri müşayiət edirdilər. Aleksandr Bondar və onun dəstəsi komissiya üzvlərinə yolçəkən kompleksin necə işlədiyini böyük məmnuniyyətlə göstərdilər, sonra isə heç kəsin gözləmədiyi halda briqadir öz əlcəklərini çıxarıb Heydər Əliyevə verdi:

– Hə, Heydər Əliyeviç, başı əyri mıxı şpala vura bilərsinizmi?

Əl çəkici ali qonağın əlində idi.

– Necə də ağırdır! – Heydər Əliyev heyrətləndi.

O, tələsmədən əsaslı şəkildə mıxı şpala vurmağa başladı, sonra gülümsəyərək montyorlara BAM-ın tikintisində iştirak etməyə imkan yaratdıqları üçün minnətdarlığını bildirdi. Elə zarafat tərzində hamı onu ölkənin baş tikintisindəki uğurlu debütü münasibətilə təbrik etdi.

Mən, rayon qəzetinin gənc müxbiri, milislər ilə tanışlığım hesabına bu məzəli səhnənin şahidi oldum.

Heydər Əliyevlə BAM-ın 781-ci kilometrindəki görüşümü, 16 ildən sonra "Qudok" qəzeti üçün "Mahnı ilə Anqoyadan" oçerkini yazarkən dəfələrlə xatırladım. İrkutskun Ulkan stansiyası kimi, Buryat Anqoyasını da günəşli Azərbaycandan gələnlər tikmişdi. BAM-da belə bir ənənə vardı, hər bir stansiyaya müttəfiq respublikalar və ya Rusiya regionları hamilik edirdi.

Hələ Anqoyaya gəlmək ərəfəsində Severobaykalskda mən keçmiş "AzBAMstroy" TMİ-nin sabiq rəisi, sonralar isə Mülki quruğuların Severobaykalsk distansiyasının işçisi İsrafil Hacıyevlə tanış oldum.

– Ulkanı tikəndən sonra sakitcə evimizə gedə bilərdik, – deyə Hacıyev mənimlə söhbət etdi. – Ancaq Baykala, nədənsə sahibsiz qalmış Anqoyanı tikməyə getdik. 1984-cü ildə Heydər Əliyev BAM-a uçub gələndə mən TMİ-nin rəisi kimi ona dedim: "Anqoyanı istəyirik!". İstəməsəydik, heç kim məcbur edə bilməzdi.

Azərbaycan Kommunist Partiyası MK-sı və hökuməti gənclərin təşəbbüsünü bəyəndilər. Heydər Əliyevin rəyi də böyük rol oynadı. O, həmvətənlərinin Baykal–Amur magistralındakı işinin nəticələrini yüksək qiymətləndirirdi. O vaxt Anqoya stansiyasının yerində yalnız meşə qırılmışdı. 1984-cü ilin sentyabrında Ulkandan ilk desantlar yığma lövhələrdən quraşdırılmış evlər tikməyə, yeni qəsəbəni istiliklə təmin etmək üçün kiçik qazanxana və istilik xətləri quraşdırmağa başladılar.

SSRİ dağılandan sonra azərbaycanlılar Anqoyanı tərk etmədilər. İ.Hacıyevin kollektivi yolun Severobaykalsk şöbəsinə keçdi. 1985-ci ildə sahə ləğv olundu, işlər bütünlüklə yekunlaşdırıldı, ancaq xoş xatirələr qaldı. Azərbaycan layihəçiləri və inşaatçıları BAM-a memarlıq və quruculuq cəhətdən iki gözəl qəsəbə, vağzal kompleksi bağışladılar. Azərbaycandan onlarla ailə əvvəlki kimi yenə də Ulkanda və Anqoyada yaşayır".

"Heydər Əliyev rus dilini incəliklərinə qədər duyurdu"

Bu bölmədə SSRİ Nazirlər Soveti sədrinin birinci müavininə məşhur məruzələrini və çıxışlarını hazırlamaqda köməklik göstərmiş insanların xatirələri toplanıb. Çıxışlar çoxdur. Şərti olaraq onları üç qrupa ayırmaq olar:

Birinci – Heydər Əliyevin hansısa məsələ barədə məruzə etdiyi hökumət yığıncaqlarındakı çıxışları. Belə hallarda materialları, təbii ki, profil üzrə mütəxəssislər hazırlayır, köməkçilər isə mətnə siyasi rəng və bədii forma verirdilər.

İkinci – o, Sov.İKP MK Siyasi Bürosunun iclasında hansısa məsələnin müzakirəsi zamanı çıxış etməyi vacib sayırdı. Bu cür çıxışların layihəsini də köməkçilər hazırlayırdı. Ancaq Heydər Əliyev onları çox dəqiqliklə düzəldirdi, belə ki, Y.Soloduxinin dediyinə görə, "çox tələbkar insan idi".

Üçüncü – ona tapşırılan məruzələr, eləcə də mərkəzi mətbuatdakı konseptual çıxışlar.

Heydər Əliyevin köməkçilərinin və məsləhətçilərinin söhbətləri çox qiymətlidir. Çünki onlar Heydər Əliyevin mətn üzərində iş zamanı yüksək tələbkarlığını, onun sözə, səriştəli şəxslərin dediyinə görə, praktiki cəhətdən mükəmməl bildiyi böyük rus dilinə həssas münasibətini çox gözəl əks etdirir.

Vladimir Uxovla söhbətdən:

"Biz Heydər Əliyeviçlə gündə bir neçə dəfə görüşürdük. Sadəcə görüşmür, iş masasının arxasına keçir, onun rəhbərliyi altında materiallar hazırlayırdıq.

O, sözün yaxşı mənasında vasvası olduğundan, hazırlanan hər bir sənədə, materiala bir neçə dəfə baxırdıq. Məqbul variant hazır olanda Heydər Əliyeviç deyirdi: "Hə, Vladimir Sergeyeviç, indi sənədi hazırlamağa başlayaq?" Çünki hər bir sənədi o, geniş şəkildə nəzərdən keçirir, sonra isə dolğunlaşdırırdı.

– Siz hansı sənədləri hazırlayırdınız?

– Əvvəla, bizə Dövlət Plan Komitəsindən daxil olan müxtəlif dövlət qərar və təkliflərinin layihələrini işləmək tapşırılırdı.

Yadımdadır ki, Voloqda səfərindən qabaq o mənə materiallar hazırlamağı tapşırdı. Sonra isə onların hamısını nəzərdən keçirib, özü mətni yazmağa başladı. Məndən də xahiş etdi ki, çıxışına xüsusi çalar vermək üçün bəzi faktları da əlavə edim.

Bu məqsədlə "İzvestiya" qəzetinin baş redaktoru İvan Dmitriyeviç Laptev Heydər Əliyeviçin yanına gəlmişdi. Sonralar o, SSRİ Ali Soveti İttifaq Şurasının sədri oldu. Heydər Əliyevin söylədiyi bir ifadəni indiyədək xatırlayıram. Voloqda vətəndaşlarını salamlayıb, onlara Andropovun salamını yetirərkən o, təxminən bu sözləri deməliydi: "Yuri Vladimiroviç şimal təbiətini, şimal diyarını ağızdan-ağıza eşitdiklərindən tanımır". Heydər Əliyeviç etiraz etdi ki, "ağızdan-ağıza" sözü onun o qədər də xoşuna gəlmir. Laptev izah etməyə cəhd göstərsə də, Heydər Əliyev sözünün üstündə durdu: "Əlbəttə, mən bu ifadənin mənasını bilirəm. Ancaq bilirsinizmi, onun dilindən bu sözləri işlətmək o qədər də düzgün çıxmır. Siz o sözü dəyişin. Axı siz russunuz, sizin üçün başqa söz işlətmək asan olar".

Özü nə isə təklif etdi: "Gəlin belə deyək: "başqalarının dediklərindən tanımır".

Mətnlər hazırlanarkən o bu sözləri tez-tez işlədirdi: "Axı, sən russan, axı, siz russunuz... sizin üçün asandır axı". Özü də xətrimizə dəymədən səhvimizi düzəldirdi.

– Natiqlik qabiliyyəti onu Brejnev – Andropov epoxasının bir çox digər rəhbərlərindən fərqləndirirdi. Əvvəla, onlar xalqla kağızsız ünsiyyətə girə bilmirdilər. İkincisi də normal, savadlı danışmağı bacarmırdılar...

– Bundan əlavə, o, çıxışlarını şəxsən özü hazırlayırdı. Onun üçün lazımi materiallar yığmaq başqa şey idi, çıxışın mətnini hazırlamaq isə başqa. O, mətni zərgər dəqiqliyi ilə, ən kiçik detallarına qədər işləyib hazırlayırdı.

Bax, burada onun daha bir cəhəti üzə çıxdı. O, texniki detalları xoşlamazdı. Onlardan qaçar, məsələyə daha geniş, əhatəli baxmağa çalışardı.

Misal üçün, dəmiryolçuların böyük ümumittifaq yığıncağı keçirilirdi. Heydər Əliyeviçdən bu sahənin kuratoru kimi çıxış etməyi xahiş etmişdilər. Yollar Nazirliyinin mütəxəssisləri məruzənin böyük layihəsini hazırlamışdılar. Heydər Əliyeviç əvvəlcə özü onu nəzərdən keçirdi, sonra bizə verdi: "Düzgünlük nöqteyi-nəzərindən bir də baxın". Təxminən 200 səhifədən ibarət mətn idi. "Əlbəttə ki, ixtisar eləmək lazımdır! Mən camaatı bu qədər saxlamayacağam ki! Mühaziraçi də deyiləm. Mənə mühazirə yox, insanlarla ünsiyyət lazımdır. Mən onlarla vəzifələr, problemlər barədə danışmalıyam". Aleksandr Stepanoviç Perminov bu məruzənin üzərində çox işləmişdi, hər şey hazır olandan sonra Heydər Əliyev onu oxudu. O, adətən materialları evə də aparırdı. Oxuyub qurtarandan sonra dedi: "Siz hər şeyi dəqiq, savadlı göstərə bilmisiniz. Ancaq təsəvvür edin, yəni mən durub dəmiryolçuları öyrədəcəyəm ki, necə yol salmaq lazımdır? Məgər mən bunu onlardan yaxşı bilirəm?".

Ona məsləhət gördülər: "Siz onlara istiqamət verin, deyin ki, daha qənaətlə işləmək lazımdır". Heydər Əliyeviç etiraz etdi: "Bu, yığıncaqlıq iş deyil. Mən onlara öyrətməyəcəyəm ki, başıəyri mıxları necə vursunlar. Bu işlə Petrov, Sidorov məşğul olur... Mən iqtisadi nöqteyi-nəzərdən çıxış etmək istəyirəm. Və ya nəqliyyatın

ölkə həyatındakı rolundan. Baxın, Andropovun SSRİ-nin 60 illiyi münasibətilə çıxışında nəqliyyatın rolu necə işıqlandırılıb". Başqa sözlə desək, Heydər Əliyeviç texniki detallara uymayaraq, qlobal, konseptual məsələlər qaldırmağı xoşlayırdı.

O, bizə dəfələrlə deyirdi: "Nəzərə alın ki, mən sadəcə təsərrüfatçı deyiləm, həm də siyasi xadiməm. Odur ki, çıxışım sırf təsərrüfat xarakteri daşımamalıdır. Bunun üçün nazir var".

– Başqa sözlə, Heydər Əliyev çalışırdı ki, nitqlərinin, çıxışlarının əsasını siyasət təşkil etsin və yüksək təfəkkür səviyyəsi ilə fərqlənsin.

– Və onlar neqativ faktların sadalanması ilə məhdudlaşmasın. O, həmişə deyərdi: "Çıxışlar konstruktiv olmalıdır". Bax, bu, bəzilərinə çətinlik törədirdi, çünki onlar hələ belə yanaşmaya öyrəşməmişdilər".

Aleksandr Qavrilovla söhbətdən:

– Siz məruzələrə necə hazırlaşırdınız? Misal üçün Heydər Əliyevin məşhur 1985-ci il aprel məruzəsi üzərində kim işləmişdi?

– Demək olar ki, həmin işin koordinatoru mən idim. Bu, çox qeyri-adi məruzə idi. Belə hallarda adətən briqadalar yaradılır. Oraya əsasən Sov.İKP MK-nın işçiləri və mətbuat nümayəndələri daxil edilirdilər. Həmin adamları o özü seçirdi, bəzən isə mənimlə məsləhətləşirdi. O, tutaq ki, kiməsə müraciət edə bilərdi ki, bu və ya digər adamı işə cəlb etməyə icazə versin. Adamları yığandan sonra o mənə təbliğat şöbəsilə əlaqə yaradıb, məruzənin hazırlanmasında bu adamların iştirakını xahiş etməyi tapşırırdı.

Məruzə üzərində iş prosesi belə baş verirdi: Heydər Əliyeviç kollektivlə görüş vaxtını müəyyənləşdirirdi, mən adamlara zəng vurub, onlar üçün buraxılış vərəqəsi hazırlayırdım. Müəyyən olunmuş vaxtda hamı gəlirdi və Heydər Əliyevin kabinetində ilk görüş baş tuturdu. Görüşdə Heydər Əliyeviç bu sənəddə nəyi görmək istədiyini, diqqəti daha çox nəyə yönəltmək lazım olduğunu izah edirdi. Stenoqrafçı onun ağzından çıxan hər kəlməni yazıb, sonra mənə verirdi. Mən onları bir daha təlimatlandırırdım, biz məsləhətləşirdik, hər kəsə ayrıca istiqamət verilirdi.

Biz çox vaxt məruzələri şəhər kənarında, Nazirlər Sovetinin sanatoriya tipli "Sosnı" istirahət evində hazırlayırdıq, orada bütün işlərdən kənarlaşıb, sakitcə işimizi görə bilirdik. Hərəmizin öz otağı vardı. Biz yazırdıq, sonra toplaşıb yazdıqlarımızı uyğunlaşdırır və makinaçıya verirdik. Müəyyən bir hissə hazır olan kimi Heydər Əliyeviç gəlib baxır, nəyisə düzəldir, göstəriş verirdi.

Daha bir xarakterik məqam. Mən bir hissəni hazırlayıb gətirdim. O oxuyub dedi:

– Hər şey yaxşıdır, ancaq rus xalqı haqqında əsl sözləri demək lazım idi. Mən demirəm ki, İosif Vissarionoviçin dediklərini təkrarlayaq. Müxtəlif dövrlər idi, yanaşma tərzi də müxtəlifdir, ümumiyyətlə, plagiat mümkün deyil, həm də lazım deyil. Ancaq rus xalqı barədə böyük millət, ölkənin ürəyi kimi danışmaq, məncə, lazımdır.

O, SSRİ-nin patriotu idi. Əlindən gələni edirdi ki, ölkə əsl ölkə, onu idarə edənlər isə əsl rəhbərlər olsunlar.

Onunla iş prosesində təkcə əmək qabiliyyətinə yox, həm də rus dilini mükəmməl bilməyinə əmin oldum. Mən heyrətə gəlmişdim.

O, çıxış edən zaman aksenti istər-istəməz hiss olunurdu. Bəzən vurğuları düzgün eləmirdi. Üsluba gəlincə – o rus dilini, qrammatikanı mükəmməl bilirdi, vergülləri dəqiqliklə yerinə qoyurdu.

Bəzən o, nəyinsə üzünü köçürməyi təklif edirdi, düzəlişləri tamamilə yerində olurdu. Görünür, o qədər bacarıqlı insan idi ki, bütün bunları kitab, qəzet oxumaqla əxz etmişdi. Siyasi Büronun rus üzvləri onun kimi savadlı deyildilər.

Mətn üzərində çox dəqiqliklə işləyirdi, onun iştirakı olmadan heç bir dəyişiklik ola bilməzdi. O bu işə formal bir şey kimi baxmırdı, onun üçün məruzə və ya çıxışın hazırlanması yaradıcılıq prosesi idi. O, rus dilini bilməsi ilə təkcə yaxın ətrafını deyil, onun çıxışlarının üslubu üzərində işləyənləri də heyran edirdi.

Onların arasında yazıçı, tanınmış jurnalist, çox bacarıqlı insan Georgi Pryaxin də vardı. O vaxtlar o, televiziyada şərhçi, "Komsomolskaya pravda" qəzetinin baş redaktor müavini idi. O da Heydər Əliyeviçin qabiliyyətinə heyran olmuşdu. Milli respublikadan olan insanın rus dilinin incəliklərinə bu dərəcədə bələd olmasına mat qalmışdı.

...Çox vaxt o, mətndən kənara çıxıb, öz sözləri ilə danışır, lap bu günlərdə baş vermiş hadisələri və ya elə zaldaca yaranan fikirləri söhbətinə daxil edirdi.

Buna 1985-ci ildə onunla Altaya səfərim zamanı əmin oldum. Bu səfər qurultay qərarlarının təbliğatı ilə bağlı idi. O, təsərrüfat fəalları qarşısında, müəssisələrdə çıxış edir, vilayətlə tanış olurdu. Barnaulda da partiya-təsərrüfat fəalları yığıncağında mətndən kənarlaşıb gördüyü, bildiyi faktları misal gətirməklə danışmağa başladı.

Bu da onun şəxsiyyətini xarakterizə edən detaldır".

Ümumiyyətlə, Heydər Əliyevin dillərə çox böyük marağı vardı. O, müstəqil olaraq türk dilini öyrənmişdi. Erməni dilini başa düşür, ərəb dilini öyrənməyə cəhd göstərirdi. Azərbaycan DTK-sının keçmiş sədri Ziya Yusifzadə mənə danışırdı ki, Heydər Əliyevin DTK sədrinin müavini təyin olunmasından il yarım qabaq onlar birlikdə Dzerjinski adına kluba dövlət təhlükəsizlik orqanları işçiləri üçün təşkil olunmuş kurslara gedib ərəb dilini öyrənirmişlər. Onlara professor Ələsgər Məmmədov dərs deyirmiş. Çekistlər elə onun dərsliyindən istifadə edirmişlər. Heydər Əliyev sədr müavini olandan sonra, ərəb dili onun çox xoşuna gəlsə də, kursları atmalı olmuşdu.

Akademik R.Saqdeyevin fikrincə, "Heydər Əliyevi Sovet İttifaqının heç bir digər siyasi rəhbəri ilə müqayisə etmək olmaz. O, Azərbaycanda doğulub boya-başa çatsa da, rus dilini əsl ziyalı kimi, Kremlin istənilən rəhbərlərindən qat-qat yaxşı bilirdi".

Azərbaycan jurnalisti Teymur Yəhyayevin "Bir taledə iki ömür" kitabında bununla bağlı çox maraqlı bir epizod misal gətirilir:

"1986-cı ildə mən mərhum dostum Artyom Boroviklə birlikdə Jurnalistlər Evinə getdim. Orada çox maraqlı bir səhnənin şahidi oldum. Məşhur siyasi icmalçılar – Aleksandr Bovin, Tomas Kolesniçenko və Vitali Kobış bir masa ətrafında oturub, nəyisə çox qızğın müzakirə edirdilər. Onların səsi bütün zalı bürümüşdü. Sən demə, onlar SSRİ-nin dövlət xadimlərinin natiqlik qabiliyyətinin səviyyəsini müqayisəli şəkildə təhlil edirdilər. Hamıya yaxşı məlum olan soyadları sadalanırdı – Qorbaçov, Liqaçov, Yakovlev, Medvedev və s. Bovin qəflətən diskussiyaya yekun vurdu: "Kremldəkilərdən rus di-

lində ən yaxşı Heydər Əliyev danışır". Ürəyim fərəhlə döyündü. Özü də deyilən fikir adi insana yox, tanınmış söz sərrafına məxsus idi. Bu rəylə Artyom Borovik də razılaşdı"[33].

Uzun müddət Sov.İKP MK-nın məsləhətçilər qrupuna rəhbərlik etmiş Vadim Peçenev isə "Rusiya minilliklərin civarında" kitabında yazır:

"...Bəzi həmkar yoldaşlarım kimi mən də, necə deyərlər, spiçrayter işləri ilə, yüksək hakimiyyət eşelonundan olan insanlar üçün nitqlərin, çıxışların hazırlanması ilə məşğul olmuşam. Bu işdə təkcə qocalmış, xəstə rəhbərlərin (son dövrdəki Brejnev, Çernenko, bir qədər də Andropov) sırf fizioloji problemləri ilə bağlı olmayan spesifik çətinliklər mövcud idi. Qəribə də olsa, Siyasi Büronun cavan üzvlərinin də rus dilini yaxşı bilməmələri üzündən az problemləri olmurdu (Siyasi Büronun milliyyətcə rus olan üzvləri başqa dilləri heç bilmirdilər). Ölkənin tanınmış parodiyaçıları indiyədək kütləni Qorbaçovun spesifik "rus" dililə əyləndirirlər. Bu mənada Sov.İKP MK-nın bütün spiçrayterləri qeyd edirlər ki, Heydər Əliyev rus dilini Siyasi Büronun digər üzvlərindən daha yaxşı bilirdi. Bu mənada onun üçün çıxışlar, nitqlər hazırlamaqdan ləzzət alırdıq. İlk baxışda bu, adi şey kimi görünə bilər. Ancaq, bir rus kimi, bu mənə çox xoş, siyasi cəhətdən də mühüm amil kimi təsir bağışlayırdı"[34].

Eduard Proxorenko ilə söhbətdən:

" – Heydər Əliyevin çıxışları, sənədlər üzərində işindən nə danışa bilərsiniz?

– Onun üslubu üçün xarakterik o idi ki, o özü də çox işləyirdi. Ancaq "sıfırdan" başlamağı xoşlamırdı, ona ilkin material lazım idi.

Tutaq ki, onun hər hansı vilayətin fəallar yığıncağında edəcəyi çıxışı hazırlayırıq. Köməkçilər çağırılır və onların qarşısına vəzifə qoyulur. Yerlərə gedib baxmaq, hansı konkret problemlər olduğunu öyrənmək, təhlil üçün müvafiq materiallar hazırlamaq lazımdır. Vilayət təsərrüfatının vəziyyəti barədə yerli statistika idarələrindən materiallar toplayırıq. Onları təhlil edirik. Müvafiq nazirliklərdən, idarələrdən materiallar tələb edirik. Bütün bunların əsasında ümumiləşdirici arayış hazırlayırıq.

Heydər Əliyeviç iki saatlığa kabinetinə qapanır. Sonra zəng çalınır. Səsindən hiss olunur ki, acıqlıdır.

– Siz mənə nə vermisiniz? Mən bununla partiya-təsərrüfat fəalları qarşısında çıxış edə bilərəm? Tamamilə konkret vəzifələr lazımdır.

Stenoqrafçı çağırılır. Problemə öz baxışını təsvir etmək üçün o, diktə etməyə başlayır.

– Birincisi, o barədə danışmaq lazımdır ki, Siyasi Büro və Sov.İKP MK filan-filan şeylərin istehsalı məsələsini qarşıya qoyub. Bunun üçün filan-filan şeylər lazımdır. Vilayətdə hansı işlər görülüb? Bax, bu yaxşıdır, bu isə pisdir.

Qısası, hər şeyi dəyişdirib, yenidən ona qaytarırıq. O, yenidən üç-dörd saatlığa kabinetinə çəkilir, qələmlə, karandaşla işləyir, düzəlişlər edir. Beləliklə də sənəd tədricən bütünlüklə cilalanır.

O, hazırladığı hər şeyə – qərara, sərəncama çox tələbkarlıqla yanaşırdı. Başqa sözlə desək, formal arayış onu qane etmirdi. Ona bütün bu materialların əsasında vəzifənin qoyuluşu, təhlil və nəticələr lazım idi.

Sənədlərin hazırlanması zamanı işin böyük bir hissəsini öz üzərinə götürürdü.

Heydər Əliyeviçin səciyyəvi xüsusiyyətlərindən biri də məsləhətləşməkdən utanmaması idi. Bir misal çəkim. Biz hansısa sənədi hazırlayırdıq. O Yevgeni Primakova zəng vurub (Primakov o vaxtlar İqtisadiyyat İnstitutunun direktoru idi) dedi:

– Yevgeni Maksimoviç, mən çox ciddi bir sənəd hazırlayıram. Xahiş edirəm, ona diqqətlə baxıb səhifənin kənarındaca fikirlərini yaz. Bəlkə biz haradasa səhvlər etmişik.

Yadımdadır ki, Primakovun yanına getdim, saat yarım onunla oturduq. O, mətni oxudu, hər şey qaydasında idi.

– Onların arasında çoxdan bəri yaxşı münasibətlər vardı.

– Mənə elə gəlir ki, o, hamıya yaxşı münasibət bəsləyirdi. Şahidi olduğum nümunələri gətirirəm. O, mütəxəssislərlə məsləhətləşməyə ərinmirdi. "İzvestiya"nın baş redaktoru Laptevə də məsləhət üçün üz tutmuşdu. Onu dəfələrlə sənədlərin üslubu cəhətdən işə cəlb etmişdi.

– O vaxtlar, xüsusilə 1985-ci ildən sonra elm adamlarını, iq-

tisadçıları işə cəlb etmək dəbə düşmüşdü. Sənədlərin hazırlanması zamanı Nazirlər Soveti sisteminə daxil olmayan alimlərlə işləmisinizmi?

– Mən sənaye, istehsal problemləri ilə məşğul idim. Hər hansı məsələnin araşdırılmasında mütləq qüdrətli sahə elminin rəyi də nəzərə alınırdı. Axı, elm həm akademik, həm də ümumi və ayrı-ayrı sahələr üzrə olmaqla iki yerə bölünür. Primakova üz tutmaqla biz elmə müraciət etmişdik. Leonid Abalkin hökumət üzvü olana qədər ona da dəfələrlə müraciət olunmuşdu.

Antialkoqol kampaniyası ilə bağlı hər cür surroqatların istifadəsi problemi meydana çıxanda alimlərin iştirakı ilə böyük bir yığıncaq keçirildi. Onlar vəziyyətlə bağlı fikirlərini və mümkün olan nəticələri izah edirdilər.

O, alimlərlə görüşürdü. Özü də şəxsən ünsiyyətə girib söhbətləşirdi. Bu, onun üçün xarakterik cəhət idi".

İvan Laptevlə söhbətdən:

" – Əmək kollektivləri haqqında" məruzəsindən başqa çıxışları üzərində də işləmisiniz?

– Bəli. Onun SSRİ Elmlər Akademiyasındakı çıxışını xatırlayıram. Akademiyaya hansısa mükafat verilirdi. O, elmi-texniki tərəqqinin rolundan, elmin cəmiyyətdəki yerindən, elmi nailiyyətlərdən istifadə bacarığı və bacarıqsızlığı barədə çıxış etdi. Bu, çox sərt mövzu idi. Onunla bir vaxtlar "Literaturnaya qazeta"da iki sütunda "Antitarixiliyə qarşı" adlı məqalə çap etdirmiş Yakovlevin gününə düşmək olardı. Bu məqaləyə görə onu Kanadaya sürgün etmişdilər. Məqaləni əvvəlcə MK-nın iki katibi, bir neçə köməkçi oxumuş və çox bəyənmişdilər. Yakovlev onu dərc etdirdikdən sonra Brejnevə məlumat vermişdilər ki, bu adam partiyanı ziyalılarla dalaşdırır.

Heydər Əliyevin başqa çıxışları da olmuşdu. SSRİ Ali Sovetinə seçkilər daha çox xatirimdə qalıb. Onun namizədliyi Altay vilayətindən verilmişdi. Onun Altay vilayətindəki çıxışını, zənnimcə, çox gözəl hazırlamışdıq. Həm formaca, həm də məzmunca bu, həqiqətən görkəmli siyasətçinin çıxışı idi.

– Məruzələr üzərində iş necə gedirdi? O, mətn üzərində necə işləyirdi?

– Heydər Əliyeviçin rus dilini çox gözəl duyma qabiliyyəti vardı. O, deyək ki, bir sözün altından xətt çəkirdi, çünki onun fikrincə, həmin söz iki mənada başa düşülə bilərdi. Gecə saat on birdə ikilikdə oturmuşuq, həmin sözə sinonim kimi on söz deyir. "Bəlkə belə deyək, bəlkə də belə". Onun çox zəngin söz ehtiyatı vardı. Hər hansı yanlışlığı, qeyri-dəqiqliyi o dəqiqə hiss edirdi.

Bir dəfə belə bir əhvalat baş vermişdi. Biz briqada şəklində Brejnev üçün nəsə yazırdıq. Mətnin bir yerində mən dedim: "O bunları deməyəcək". Köməkçilərdən biri özündən razı halda etiraz etdi: "Nə yazacağıq, onu da oxuyacaq".

Heydər Əliyevə heç bir şeyi təlqin etmək mümkün deyildi. O hər şeyi görürdü. İlkin söhbətdə mövzu ətrafında ümumi vəziyyəti təsvir edirdi, məsələn, insanları narahat edən belə bir problem var. Səndə də bu söhbətdən ideya yaranmalıydı. O razılaşa da bilərdi, razılaşmaya da, bütün mətni yenidən işləyə də bilərdi. Dəfələrlə mətnin üzərinə qayıdırdı. Onu ortalığa çıxarana qədər hər bir cəhətdən işləyirdi. Onun vəziyyəti çətin idi. O, vacib olan heç bir şeydən yan keçə bilməzdi.

Belə bir epizodu xatırlayıram. Andropov eyni zamanda həm Baş katib, həm də Ali Sovetin Rəyasət Heyətinin sədri olanda, Heydər Əliyev məruzə ilə çıxış etdi. Biz ora Siyasi Büro üçün təbliğat naminə deyilən şeyləri əlavə etdik: "Bunu partiya və dövlətin ali maraqları tələb edir". Söhbət vəzifələrin birləşdirilməsindən gedirdi.

Andropov öldü, yerinə Çernenko gəldi. Heydər Əliyev yenə də çıxışa hazırlaşırdı, məncə Leninin anadan olması ilə əlaqədar məruzə idi!* İkimiz də gündüzlər məşğul olduğumuzdan axşamlar işləyirdik. Heydər Əliyev təklif etdi:

– Gəl yazaq ki, bunu partiya və dövlətin ali maraqları tələb edir.

– Heydər Əliyeviç, siz bu sözləri lap bu yaxınlarda işlətmisiniz. Düşünürsünüz ki, onları unudublar? Axı, xalq hər şeyi xatırlayır və bilir.

O, tutuldu, görünür, mənim iradım heç xoşuna gəlməmişdi. Ancaq özünü tez ələ alıb yenidən öz təklifini elədi. Mən ona dedim:

– Nə danışırsınız. Bu ki lap yaltaqlıq oldu, özü də bu sizin xey-

* İ.Laptev səhv edir: həmin məruzə ilə Heydər Əliyev artıq Qorbaçovun zamanında, 1985-ci il aprelin 22-də çıxış edib.

rinizə yox, ziyanınıza olar. Ümumiyyətlə, yaltaqlıq artıq hamının zəhləsini tökür.

O, müəyyən məktəb keçmiş insan kimi, kabinetlərdəki söhbətlərdə çox təmkinli olurdu. Çünki yaxşı başa düşürdü ki, orada hər şey dinlənilir və qeydə alınır. Mən isə bəzən ağına-bozuna baxmadan fikrimi birbaşa deyirdim. O, astaca dilləndi:

– İvan Dmitriyeviç, mən hər şeyi başa düşürəm, ancaq bunu demməsəm, məni başa düşməzlər".

Ölkə boyu səfərlərdə Nazirlər Sovetinin sədr müavinini çox vaxt SİTA-nın müxbiri, keçmiş bakılı və Azərinformun əməkdaşı Valeri Calaqoniya müşayiət edirdi. O, Heydər Əliyevin sözə münasibətini xarakterizə edən bir əhvalatı xatırlayır.

"Heydər Əliyev Kremldəki həmkarlarından yerlə-göy qədər fərqlənirdi. Mühafizəçilərin gözündən yayınıb, düz camaatın arasına gedir, onu heç kimin gözləmədiyi yerlərdə peyda olur, planlaşdırılmış görüşlərin qrafikini pozurdu. Qeyri-adi iş qabiliyyətinə malik idi. Və ən heyrətlisi də o idi ki, öyrənməkdən çəkinmirdi. Yadımdadır ki, gecə yarıya yaxın Kurqanda seçicilərlə görüşdən qabaq (o vaxt o, ilk dəfə RSFSR Ali Sovetinə deputatlığa namizəd göstərilmişdi) Heydər Əliyeviç "Vremya" proqramının şərhçisi Kaleriya Kislovanı və məni yanına çağırmışdı ki, onun çıxışının hansı parçasını qəzetlərə, hansını isə televiziyaya verməyin məqsədəuyğun olduğu barədə məsləhətləşsin.

Söhbət zamanı Kislova gözlənilmədən dedi: "Bağışlayın, Heydər Əliyeviç, "dosuq" sözündə siz vurğunu düz vurmursunuz, "dosuq" deməlisiniz.

"Doğrudan? – Heydər Əliyev təəccübləndi. – Mən hesab edirdim ki, belə də deyirlər. Bundan sonra bilərəm, çox sağ olun". Ertəsi gün Heydər Əliyev xitabət kürsüsündən həmin sözü düzgün tələffüz edərək 15 dəfə təkrarladı (nitqin böyük hissəsi mədəniyyət müəssisələrinin fəaliyyətinə həsr olunmuşdu).

Qorbaçov isə prezidentlik müddətinin sonuna qədər "naçat", "uqlubit" sözlərini təhrif edərək söylədi. Görünür, heç kim onun qələtini düzəltməyə cəsarət etmirdi"[35].

"Xahiş edirəm diqqətlə nəzərdən keçirəsiniz..."

Hər gün SSRİ Nazirlər Soveti aparatına sıravi vətəndaşlardan yüzlərlə məktub daxil olurdu. Onlardan çoxusu "Yol.H.Ə.Əliyevə" ünvanlanmışdı. Bu da təbiidir: axı o, sovet xalq təsərrüfatı kompleksinin "ağrılı" nöqtələrilə məşğul olurdu. Nəqliyyat və rabitə, ticarət və məişət xidməti isə həmişəki kimi bu sistemin "zəif" həlqələri idi. Xalq təhsili və səhiyyə sahəsindəki vəziyyət də arzolunan deyildi. Odur ki, insanlar "Kreml. Heydər Əliyevə" ünvanlı məktublar göndərirdilər. İnanırdılar ki, məktub Heydər Əliyevə yetişsə, o, mütləq bu məsələ ilə məşğul olub problemin həllinə çalışacaq. O da elə "Mən yox, bəs kim?" prinsipi ilə hərəkət edərək, məsələni yoluna qoyurdu.

Vətəndaşların müraciətlərinin hərəkət sxemi belə idi: SSRİ Nazirlər Soveti İşlər İdarəsinin məktublar qrupu böyük həcmli poçtu araşdırır, sahələr üzrə çeşidləyir (nəqliyyatın, məktəbəqədər uşaq müəssisələrinin, ümumtəhsil məktəblərinin, səhiyyə sistemi müəssisələrinin işi ilə bağlı məsələləri), sonra isə daha xarakterik nümunələr Heydər Əliyevin masasının üstünə qoyulacaq geniş arayışda cəmləşdirilirdi. Sədrin birinci müavini arayışla tanış olandan sonra tədbir görülmək üçün onu müvafiq nazirlik və idarələrə göndərirdilər. Bir müddətdən sonra nazirliklər icra barədə hesabat verirdilər.

Heydər Əliyevin şəxsi arxivində işləyərkən Nazirlər Sovetinə daxil olan, məktubların qısa məzmununu əks etdirən xeyli sayda belə arayışlarla tanış oldum. Həmin arayışlar ucsuz-bucaqsız ölkənin coğrafiyasını, bu və ya digər sahədə yığılıb qalmış problemləri əhatə edir. Gəlin qəhrəmanımızla birgə "inkişaf etmiş sosializm" dövrünün çox səciyyəvi sənədlərini nəzərdən keçirək.

Yoldaş H.Ə.Əliyevə

Dəmiryol nəqliyyatının işi ilə bağlı məsələlərə dair zəhmətkeş məktubları

SSRİ Nazirlər Sovetinə daxil olan zəhmətkeş məktublarında Y.V.Andropovun Sov.İKP MK-nın noyabr (1982) və iyun (1983) plenumlarındakı çıxışlarında, xalq təsərrüfatının mühüm sahəsi olan

dəmiryol nəqliyyatında geriləmələri aradan qaldırmaq üçün qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsinə istiqamətlənmiş müxtəlif təklif və arzular öz əksini tapır.

Bununla bərabər məktublarda dəmiryol idarələrinin və Yollar Nazirliyinin işində hələ də mövcud olan çatışmazlıqlar barədə tənqid və iradlar yer alır.

Müəssisələrin fəhlələri həyəcan və ağrı hissi ilə xalq təsərrüfatı yüklərinin daşınması üçün vaqonların ayrılmasında sistematik ləngimələr barədə yazırlar. Bu da müəssisələrin normal işinin pozulmasına, dövlət planı və sosialist öhdəliklərinin yerinə yetirilməməsinə, əmək haqqının aşağı enməsinə və işçi axınına səbəb olur.

Jiqulyovsk Tikinti Materialları Kombinatının (Kuybışev vilayəti) fəhlələri V.B.Kovalyov, A.P.Monaxov və b. yazırlar:

"Sov.İKP MK noyabr (1982-ci il) Plenumu tələb edir ki, Yollar Nazirliyi dəmiryol nəqliyyatının işini əsaslı şəkildə yaxşılaşdırsın, xalq təsərrüfatı yüklərinin daşınmasının sürətləndirilməsini, sənaye müəssisələrinə nəqliyyatın vaxtında və tam həcmdə göndərilməsini təmin etsin. Ancaq bizdə çox az şey dəyişilib. Bu ilin aprel ayında Kuybışev dəmir yolunun Voljsk bölməsi bizə lazım olduğundan 380 ədəd az sementdaşıyan verdi. Nəticədə yalnız bir ay ərzində istehsalçılara nəzərdə tutulduğundan 17 min ton əskik sement çatdıra bildik. Mayın ilk günlərində isə sement yükləmək üçün vaqonların verilməsi işi tamamilə pozuldu. Sizdən xahiş edirik ki, müntəzəm olaraq sutkada 70–80 sementdaşıyan vaqon verilməsinə köməklik göstərəsiniz, yoxsa istehsal yenidən dayandırılacaq. Çünki artıq sementi saxlamağa yerimiz yoxdur və biz inşaatçılar üçün hazır məhsulu vaxtlı-vaxtında yükləyə bilmirik".

Vyatsko–Polyansk Maşınqayırma Zavodunun (Kirov vilayəti) "İj" motosiklinin yan yedəyinin yığımı sexinin fəhlələri Çepurnıx, Şelkovets və digərləri yazırlar:

"Biz sutka ərzində 1300–1400 yedək buraxırıq, bu isə 35–40 vaqon deməkdir. Əgər bizə bir ay vaqon verməsələr, zavod bütünlüklə hazır məhsulla dolur, istehsalat dayanır, götürülmüş sosialist öhdəliklərinin yerinə yetirilməsi işi pozulur. Qorki Dəmir Yolu İdarəsinə, Kazan şöbəsinə, nazirliyimizə müraciət etmişik, ancaq heç bir xeyri yoxdur, vaqonlar yenə də çatışmır. Bu çətin məsələdə bizə köməklik göstərmənizi xahiş edirik".

Arxangelsk vilayəti, Velsk rayonunun Kuvaş meşə məntəqəsinin fəhlələri Kondraşkin, Boykov və başqaları yazırlar:

"Biz uzun zaman səbrlə, təmkinlə ümid edirdik ki, vaqonların verilməsində vəziyyət düzələcək. İndi əmin olduq ki, boş yerə ümid bəsləmişik. Əgər hələ bir neçə il əvvəl bizi 60–70 faiz səviyyəsində vaqonlarla təmin edirdilərsə, indi planın 20 faizindən artıq almırıq. 1983-cü ilin martında açıq-aşkar aşağı salınmış 84 vaqon əvəzinə cəmi 12 vaqon ayrılmışdı. Nəticədə aşağı anbar üçqat yüklənib, odur ki, işləmək mümkün deyil".

Morşansk Kamvol–Mahud İstehsalat Birliyinin (Tambov vilayəti) fəhlələri Anaşkina, Çaşşina və b. məlumat verirlər ki, onlarda hazır məhsulun yola salınmasında çox ağır vəziyyət yaranıb:

"Qablaşdırma sexləri və anbarlar ağzınadək dolub. Saxlanma qaydalarına düzgün riayət olunmadığından 6 minlik kollektivin əməyi heç olur. Cari ilin 7 ayı ərzində Kuybışev Dəmir Yolu İdarəsi tələb olunan 9240 konteyner əvəzinə 4090-nı ayırmağı nəzərdə tutsa da, yüklənmək üçün 3013 konteyner göndərib. Avqustda dəhşətli vəziyyət yaranacaq: yollar idarəsi tələb olunan 1320 konteyner əvəzinə yalnız 450-sini verməyi planlaşdırıb. Biz tikiş, trikotaj və neft-kimya sənayesi zəhmətkeşləri qarşısında onların istehsalat proqramlarında ləngimələrə səbəb olduğumuza görə günahkar sayılacağıq. Xahiş edirik, konteynerlərin ayrılmasında daha sərfəli planlaşdırma aparılmasına köməklik göstərəsiniz".

Bununla yanaşı, vətəndaşlardan səmişin daşımalarının təşkili, səmişin qatarlarının gecikməsi, səmişinlərə həm qatarlarda, həm də vağzallarda yarıtmaz xidmət göstərilməsi, xidmət heyətinin səmişinlərə laqeyd münasibəti, yüklərin xarab olması və itməsi ilə bağlı ciddi çatışmazlıqlar barədə şikayətlər daxil olur.

Məktublarda gediş biletlərinin əldə olunmasında çox vaxt dəmiryol nəqliyyatı işçilərinin süni şəkildə yaratdıqları çətinliklərdən, biletsiz səmişindaşımalardan, digər yaramazlıqlardan da söhbət açılır.

Aktyubinsk vilayətinin Çelkarsk rayonundan olan Böyük Vətən müharibəsi iştirakçısı K.Ulmaqanbetov göstərir ki, vaqon bələdçiləri Daşkənddən Moskvaya gedən qatarlarda rüşvətlə biletsiz səmişin

daşıyırlar, aztapılan malların alverilə, digər yaramazlıqlarla məşğul olurlar.

Donetskdən N.N.Silçenkova, Leninqrad vilayətinin Volxov şəhərindən A.P.Frolova, Moskvadan V.Torxovski, Saratov vilayətinin Engels şəhərindən Y.F.Kuzmenko, Moskvadan Z.N.Şeina da bu barədə yazırlar.

Bir sıra məktublarda sərnişin qatarlarının cədvəlinin dəyişilməsi, keçidlərin, platformaların tikilməsi, dayanacaqların quraşdırılması, dəmiryollararası keçidlərin açılması barədə məsələlər qaldırılır.

SSRİ Nazirlər Soveti İşlər İdarəsinin məktublar qrupu

9.VIII.1983-cü il.

Arayışa Heydər Əliyev dərkənar qoyub.

"Yollar Nazirliyinə (yol. Konarevə)

Xahiş edirəm, zəhmətkeşlərin məktublarında qoyulan məsələlərə baxıb, zəruri tədbirlər görəsiniz.

13 avqust 1983-cü il".

Yoldaş H.Ə.Əliyevə

Dəmiryol nəqliyyatının işi ilə bağlı məsələlərə dair zəhmətkeş məktubları barədə

SSRİ Nazirlər Sovetinə daxil olan zəhmətkeş məktublarında dəmiryol nəqliyyatının işində son zamanlar nəzərəçarpan müsbət meyllər məmnunluqla qeyd olunur.

Bununla belə, zəhmətkeşlər çatışmazlıqların aradan qaldırılması, dəmiryol nəqliyyatının Sov.İKP MK-nın dekabr (1983-cü il), fevral və aprel (1984-cü il) plenumlarından irəli gələn tələblər səviyyəsinə yüksəlməsi üçün mövcud imkan və ehtiyatlardan daha tam istifadə zərurətindən də bəhs edirlər.

Məktub müəllifləri istismar sahəsində, əməyin və istirahətin təşkilində, lokomotiv briqadalarının əmək haqlarının ödənilməsində yol verilmiş ciddi nöqsanlar barədə məlumat verirlər.

Oktyabr dəmir yolunun Murmansk şöbəsinin Kandalakşa lokomotiv deposunun maşinistləri və maşinist köməkçiləri Çurakov, Nikolski, İsakov və başqaları (cəmi 200 imza) yazırlar:

"Depomuzun lokomotiv briqadaları uzun müddətdir ki, gərgin şəraitdə işləyirlər. Çünki xidmət sahəsində yük qatarlarının hərəkəti qənaətbəxş təşkil olunmadığından, qatarlar uzunluğu 166 kilometr olan bir sahədən və 159 kilometrlik ikinci sahədən 12 saata keçirlər. Murmansk şöbəsinin Kandalakşa, Olenya və Apatit stansiyaları və Oktyabr dəmir yolunun Kemsk şöbəsinin Louxi stansiyalarının qatarları qəbul etməməsi, eləcə də yollarda atılmış qatarların olması səbəbindən həmin məsafəni çox zaman göstərilən vaxt ərzində də qət edə bilmirlər. Lokomotiv briqadalarına istirahət günləri müntəzəm və tam verilmir, xeyli əlavə işlər gördürülür. Lokomotivlərin maşinistləri və maşinist köməkçiləri hər ay normadan 50–70 saat, ayrı-ayrı lokomotiv briqadaları isə 100 saata qədər artıq iş görürlər. Maşinistlər və maşinist köməkçiləri öz tarif stavkalarını ödəyə bilmirlər, onları mükafatdan məhrum edirlər. Ağıryüklü və uzunheyətli qatarları sürmək üçün mükafatlar da ödənilmir".

Məktub müəllifləri təsərrüfatsızlıq faktları, minik platformalarının bərbad vəziyyəti, kənarlaşdırma xətlərinin qeyri-qənaətbəxş vəziyyəti, stansiyaların hədsiz yüklənməsi faktları barədə məlumat verirlər.

Leninqraddan P.Paliy qeyd edir:

"Mən bir neçə dəfə Düşənbədən Leninqrada Volqoqrad dəmir yolu ilə getmişəm. Bütün yol boyu ucsuz-bucaqsız Vətənimizin siması olan bu polad magistral, xüsusilə də stansiyaətrafı ərazilər zibillə, hər cür tullantılarla doludur".

Qomel vilayətinin Terexovka qəsəbəsindən T.Y.Klyaus yazır:

"Artıq 10 ildən artıqdır ki, Terexovka stansiyasında əlavə iki xətt çəkiblər, sərnişin qatarlarını birinci yola qəbul eləməyə başlayıblar, minik meydanı və işıqlandırmanı isə nəzərdə tutmayıblar. Qatar dayananda, bilmirsən vaqondan necə enəsən ki, xəndəyə düşməyəsən, gecə vaxtı isə vaqona minməyə də çətinlik çəkirsən. Sərnişinlər çox vaxt vaqonlara minməyə çatdıra bilmədiklərindən stopkranı qırmağa məcbur olurlar. Qomel şöbəsinə, bir ildən sonra isə Belarusiyaya dəmiryol idarəsinə, sonra da Yollar Nazirliyinə şikayət etsəm də, heç bir xeyri olmayıb".

Sərnişin qatarlarının reysə qeyri-qənaətbəxş hazırlanması, antisanitariya vəziyyəti, vaqonların isitmə və su ilə təchizatının yarımazlığı, sərnişinlərə vağzallarda və yollarda xidmətin aşağı səviyyəsi, vaqon bələdçilərinin öz xidməti vəzifələrinə məsuliyyətsiz münasibəti, rüşvətlə biletsiz sərnişin daşımaları barədə şikayətlər daxil olur.

Amur vilayətinin Tında şəhərindən P.F.Losevanın şikayəti bu məzmundadır:

"1983-cü il dekabrın 21-də Moskva–Tında qatarına mindim. Bütün yolu əziyyət çəkdim. Xidmət heyəti sərxoş idi. Sərnişinlər bacardıqları kimi özlərinə xidmət etdilər. Hamı adyalların altında soyuqdan tir-tir əsirdi, çünki vaqonda temperatur -4° idi. 10, 11 və 12 №-li vaqonların sərnişinləri qatarın briqadirinə şikayət etdilər. Ancaq o da vaqon bələdçiləri kimi bərk sərxoş idi. Briqadir də, bələdçilər də bildirdilər: "Kimə istəyirsiniz şikayət edin, hər səfərimizdə bizdən akt tərtib edirlər. Biz də necə işləyirdiksə, eləcə də işləyəcəyik".

Düşənbədən olan Böyük Vətən müharibəsi iştirakçısı V.D.Titarenkonun məktubunda deyilir:

"May ayında Düşənbə – Moskva qatarı ilə yola düşdüm və gördüm ki, uzaq yollara çıxan qatarlarda necə yarımaz şərait var. Vaqonlarda su yoxdur, dözülməz istilikdən nəfəs darıxır, tualetlərə isə hündürdaban çəkməsiz və əleyhqazsız girmək mümkün deyil. Pəncərələr açılmır, vaqonlar cırıldayır. Yemək isə bütün yola çatmır".

Qrafiklərin pozulması və sərnişin qatarlarının gecikməsi barədə də məktublar gəlməkdə davam edir. Bu da təsərrüfata və zəhmətkeşlərə ziyan vurmaqla yanaşı, onların həyəcanlanmasına, işə gecikməsinə, iş vaxtını boş yerə sərf etməsinə səbəb olur.

Stavropol şəhərindən Y.S.Yasonov yazır:

"Qızımın mindiyi 687 №-li Stavropol–Rostov qatarı mənzil başına 6 saat gecikdi. Bu da dəmiryol nəqliyyatında lazımi qayda-qanunun olmamasından xəbər verir. Vaqon bələdçilərinin sözlərinə görə, bu marşrutda gecikmələr adi hal alıb. Qabaqlar qatarlara görə saatları düzəldirdilər. İndi isə belə çıxır ki, Rostov-Dona ezamiyyətə gedirsənsə, bir sutka artıq götürməlisən. Nə vaxtadək belə davam edəcək və buna konkret olaraq kim cavabdehdir?"

Pskov vilayətinin Krasnı Luç qəsəbəsindən Q.T.Rodiçeva şikayət edir:

"Qatarla Bakıya gedirdim. Qatar mənzil başına gecikdi. Ona görə də biz Bakı–Geran qatarına çata bilmədik".

...Vətəndaşlar göndərişlərin vaxtında çatdırılmamasından, baqajın korlanmasından və itməsindən şikayətlənir, qatarların hərəkət cədvəlinin dəyişdirilməsi, keçidlərin tikilməsi, dəmiryol keçidlərinin siqnalizasiya ilə təchiz olunması barədə xahişlərlə müraciət edirlər.

SSRİ Nazirlər Soveti İşlər İdarəsinin məktublar qrupu.

Heydər Əliyev bu icmalı nəzərdən keçirəndən sonra müşayiətçi məktuba bir il qabaqkından daha kəskin dərkənar qoydu:

"Yollar Nazirliyi. T.Konarevə.

Xahiş edirəm, zəhmətkeşlərin məktublarında qoyulan məsələlərə ciddi diqqət yetirəsiniz, dəmiryol nəqliyyatının işindəki çatışmazlıqların aradan qaldırılması üçün zəruri tədbirlər görəsiniz.

Heydər Əliyev

2.VIII.1984-cü il".

Yoldaş H.Ə.Əliyevə

Məktəbəqədər uşaq müəssisələrinin işi ilə bağlı məsələlərə dair zəhmətkeş məktubları barədə

SSRİ Nazirlər Sovetinə daxil olan zəhmətkeş məktublarında Sov.İKP Mərkəzi Komitəsinə və sovet hökumətinə böyüməkdə olan nəslə göstərilən böyük qayğıya görə, xalq təhsilinin təkmilləşməsinə, məktəbəqədər ictimai tərbiyənin və uşaqların məktəbə hazırlığının yaxşılaşdırılmasına görə dərin minnətdarlıq bildirilir.

Bununla belə, uşaqların uşaq bağçaları və körpələr evinə düzəldilməsinə köməklik göstərilməsi xahişi ilə də müraciətlər olunur. Məktub müəllifləri belə hesab edirlər ki, uşaq bağçaları və körpələr evinə tələbatın təmin olunması xalq təsərrüfatında ixtisaslı kadrların əlavə ehtiyatlarından istifadəyə, eləcə də ailələrin maddi rifah

halının yüksəldilməsinə imkan yaradar.

Tatarıstan MSSR-in Brejnev şəhərindən İ.Q.Britvina yazır:

"Ohdəmdə 5 uşaq var. İkisi məktəbdə oxuyur, 3-ü ilə isə mən evdə oturmuşam, çünki onları bir yerə qoya bilmirəm. Şəhər icraiyyə komitəsinə müraciət etsəm də, heç bir cavab almamışam. Uşaqlara görə işləyə bilmirəm. Xahiş edirəm, balalarımı uşaq bağçasına düzəltməkdə mənə köməklik göstərəsiniz ki, mən də işləyə bilim".

Udmurt MSSR-in Şarkan rayonunun Şarkan kəndindən E.R.Knyazeva yazır:

"Mən atasız iki körpə uşaq böyüdürəm. Yarım ildir ki, hər cümə axşamı rayon icraiyyə komitəsinə uşaqlarımı körpələr evinə düzəltmək ümidilə ayaq döyürəm. Ancaq əbəs yerə. Rayon icraiyyə komitəsinin sədri Beryozin yoldaş və sədr müavini Şiloxvostov yoldaş əvvəlcə uşaqları körpələr evinə qoymağı vəd etdilər, sonra isə Şiloxvostov yoldaş dedi: "Körpələr evində yer yoxdur və olmayacaq. Uşaqları evdə tək qoy, çoxları belə edir". Xahiş etdim ki, heç olmasa, müvəqqəti götürsünlər, ona da razı olmadılar. Hər yerdə deyirlər ki, yer yoxdur. Mənə kömək edin".

Uşaqların məktəbəqədər uşaq müəssisələrində saxlanması haqqı barədə də çoxlu məktublar gəlir. Məktublarda həmin haqqın ayrıldığı ümumi gəlirə şəxsi yardımçı təsərrüfatlardan gələn gəlirin daxil edilməsi məqsədəuyğun hesab olunmur. Çünki yardımçı təsərrüfat sahibləri torpaq vergisi ödəyirlər...

Sverdlovsk vilayətinin Pervouralsk şəhərindən L.P.Makurina, Moxova və b. yazırlar:

"Nə üçün uşağın bağçada saxlanması haqqı barədə yeni "Əsasnamə"yə görə ailənin istifadəsində olan torpaq sahəsindən gələn gəlir də ailənin ümumi büdcəsinə daxil edilir? Axı biz sahəyə görə vergi və 1983-cü ildən artırılmış icbari sığorta haqqı ödəyirik. Belə çıxır ki, torpaq üçün ikiqat ödəniş olunur".

Moskva vilayətinin Ozerı şəhərindən olan bir qrup valideyn, Semipalatinsk vilayətinin Blaqodarnoye kəndindən T.F.Solomodenko və başqaları da bu məsələni qaldırırlar.

Uşağın bağçada qalmaq haqqının müəyyənləşdirilməsi üçün çoxsaylı arayışların müddəti və zəruriliyi də zəhmətkeşlərin narazılığına səbəb olur. Valideynlər məktublarında göstərdikləri kimi, bu onlar üçün böyük çətinliklər yaradır, xeyli vaxt alır, çox vaxt uşaq bağçalarına və körpələr evlərinə onların xeyli borcu yığılır.

Bu barədə Tatarıstan MSSR-in Brejnev şəhərindən İ.M.Babayeva, Kiyevdən T.N.Yamnyuk və başqaları yazırlar:

Vətəndaşlar onlardan uşaqlarının məktəbəqədər uşaq müəssisələrində saxlanması üçün tutulan ödəmənin həcmi ilə bağlı SSRİ Maarif Nazirliyinin Təlimatından düzgün istifadə olunmamasından şikayətlənirlər.

Voronej vilayətinin Novoxoper rayonundan Y.İ.Malorodova yazır:

"Məktəbdə 37 il müəllim işləmişəm, 6 ildir ki, təqaüdə çıxmışam və xalça fabrikində çalışıram. 1980-ci ildə Krasnodar şəhərindən oğlum arvadı və iki azyaşlı uşağı ilə yanıma gəldi. Onların mənzili olmadığından, mənsə tək yaşadığımdan yanımda qalırlar. Bir şeyi başa düşə bilmirəm ki, nə üçün uşaqların bağça pulunu hesablayanda mənim təqaüdümü və əmək haqqımı onların əmək haqqına əlavə edirlər? Axı onlar valideyndir, mənsə nənə və öz qazancımı istədiyim kimi xərcləməliyəm".

Rostov vilayətinin Şaxtı şəhərindən L.N.Brit yazır:

"1984-cü il yanvarın 27-də ərim faciəli surətdə həlak oldu. Mən iki azyaşlı uşaqla qaldım. Uşaq bağçasına ödəmək üçün məndən ərimin 1983-cü ildəki əmək haqqı barədə arayış istəyirlər. Ailə başçımızın dəfni ilə bağlı hazırda ailəmiz maddi çətinlik çəkir. Ərimin 1983-cü ilki əmək haqqı nəzərə alınsa, onda uşaqların bağça pulu daha çox olacaq. Uşaqlarım bağçaya gedə bilməyəcək, çünki bizdən artıq 20 rubl almağa başlayıblar. Mənə kömək edin".

Yoxlama zamanı uşaqların məktəbəqədər uşaq müəssisələrində saxlanılması üçün düzgün haqq alınmaması barədə göstərilən şikayətlər təsdiqləndi.

Zəhmətkeşlərin məktəbəqədər uşaq müəssisələrinin işi ilə bağlı məktubları baxılmaq və tədbir görülmək üçün SSRİ Maarif Nazirliyinə və sovet orqanlarına göndərilir.

SSRİ Nazirlər Soveti İşlər İdarəsinin
məktublar qrupu.

Yenə də SSRİ Nazirlər Soveti sədrinin birinci müavininin dərkənarı:

"SSRİ Maarif Nazirliyinə (yoldaş Şerbakova),
SSRİ Maliyyə Nazirliyinə (yoldaş Dementsevə).
Xahiş edirəm, zəhmətkeşlərin məktublarında qaldırılan məsələləri diqqətlə nəzərdən keçirib müvafiq tədbir görəsiniz.
Heydər Əliyev
3 iyul 1985-ci il".

Heydər Əliyevin aşağıda ifadələrini nümunə gətirəcəyim köməkçiləri mənə danışırdılar ki, o, Kremldə işləyəndən İttifaqın hər yerindən məktublar axını xeyli artdı. "Orta hesabla, ölkənin hər yerindən altı minə qədər məktub gəlirdi, – V.Uxov xatırlayır. – Ona hər yerdən yazırdılar. Onun haqqında eşitmişdilər. Xüsusilə də "Literaturka"da çıxan məqalədən sonra o çox populyarlaşmışdı". Bu barədə E.Proxorenko da şahidlik edir: "İnsanlar ona dost, hüquqlarının müdafiəçisi kimi müraciət edirdilər. Məsələ orasında deyildi ki, onların problemlərini məhz o həll edə bilərdi. Onlar sadəcə ona inanırdılar. İnanırdılar ki, bu adam onları başa düşər".

Yoldaş H.Ə.Əliyevə

Ümumtəhsil və texniki-peşə məktəblərinin işi ilə bağlı məsələlərə dair zəhmətkeş məktubları haqqında

SSRİ Nazirlər Sovetinə ünvanlanmış məktublarında vətəndaşlar partiyanın Mərkəzi Komitəsinin işləyib hazırladığı, Sov.İKP MK aprel (1984) Plenumunun və SSRİ Ali Sovetinin təsdiq etdiyi "Ümumtəhsil və peşə məktəblərində islahatların əsas istiqamətləri"ni dərin məmnunluq hissi ilə qarşılayır və Kommunist Partiyası və sovet hökumətinə böyüməkdə olan nəslin tərbiyəsinə göstərdiyi daimi qayğıya görə böyük minnətdarlıq ifadə edirlər. Məktub müəllifləri göstərirlər ki, islahatın həyata keçirilməsi məktəblilərin təhsil keyfiyyətinin yüksəldilməsinin, onlarda ideallarımıza əminliyin, əməksevərliyin, əxlaqi təmizliyin formalaşmasının təmin olunmasına imkan verəcək.

Vinnitsa vilayətinin Mogilyov–Podolsk şəhərindən tarix müəllimi M.T.Semerenko yazır:

"Bir çox müəllim nəsillərinin təcrübəsinə istinadən belə hesab edirəm ki, Sov.İKP MK-nın məktəb islahatı layihəsi öz əhəmiyyətinə görə inkişaf etmiş sosializm şəraitində vahid, əməkçi, politexnik məktəb haqqında Lenin ideyasının gələcəkdə daha da təkmilləşməsidir. Məktəb – hər bir insanın həyat yolunun bünövrəsidir. Biz, müəllimlər də mümkün olan hər şeyi edəcəyik ki, məktəb müəlliminə verilən yüksək qiyməti doğruldaq".

Moskvadan K.İ.Lyulyayeva yazır:

"Məktəb islahatı barədə qərarı böyük məmnunluq hissi ilə qarşıladım. Məktəb təhsilində çoxlu məsələlər yetişib ki, bu, islahatın həyata keçirilməsi ilə həllini tapacaq".

Odessa vilayətinin İliçevsk şəhərindən fəhlə Voloşşuk yazır:

"Mən Sov.İKP MK Plenumunun və SSRİ Ali Sovetinin məktəb islahatı barədə qərarını oxudum və onu düzgün hesab edirəm. Uşaqlar əmək vərdişləri və peşə istiqaməti əldə edəcəklər.

Bununla belə, məktub müəllifləri bir sıra orta və texniki-peşə məktəblərinin işində ciddi çatışmazlıqların mövcudluğu, tədris-tərbiyə prosesinin aşağı səviyyədə olması, müəllimlərin antipedaqoji fəaliyyəti və ləyaqətsiz davranışı barədə də məlumat verirlər.

Poltava vilayətinin Kobelyaki şəhərindən R.A.Pivovarın məktubunda deyilir:

"Oğlumuz 3 saylı məktəbin 7-ci sinfində oxuyurdu. Məktəb direktoru Sıqanenko tez-tez oğlumuzu döyürdü. 1983-cü ilin payızında da direktor öz kabinetində oğlumuzu yumruqla vurmuş, üzü qanamış uşaq döşəməyə yıxılanda isə yenidən başına, sonra isə yuxu arteriyasına zərbə endirmişdir. Sıqanenko başqa uşaqları da döyür. Oğlumuzu 3 saylı məktəbdən Sıqanenkonun arvadı Varavanın coğrafiyadan dərs dediyi 1 saylı məktəbə keçirtdik. İndi də o, oğlumuza əzab verir".

Alma-Atadan V.İ.Survilo şikayətlənir:

"Təkbaşıma 3 uşaq tərbiyə edirəm. Evdə çox az-az olurdum, səhərdən axşama qədər işləyirdim. Kiçik oğluma az diqqət yetirdiyimdən o, Alma-Atadakı çətin tərbiyə olunan uşaqlar üçün 7 saylı internata düşdü. Əmin idim ki, orada onu adam edəcəklər. Ancaq ümidlərim doğrulmadı. Ora düşən ilk gündən ağır şəraitlə üzləşdi.

O, kobud, sərt və daşqəlbli insanların əlinə düşdü. Tərbiyəçi Artyuxova özünü hədsiz dərəcədə yekəxana aparır, oğlumu döyürdü. 1983-cü il sentyabrın 5-də oğlumu bir neçə uşaqla birlikdə tamam lüt vəziyyətdə 5 sutkalığa karsera saldılar. İnternatın direktoru Jurba onları çarpayıları yığışdırmağa məcbur etmiş və uşaqlar 5 sutka sement döşəmənin üstündə oturmuşlar. Həmin vaxt oğlumun 39 dərəcə qızdırması vardı".

Vətəndaşlar öz məktublarında məktəb rəhbərlərinin təsərrüfatsızlığından və sui-istifadə hallarından faktlar gətirirlər.

Poltava vilayəti Kobelyaksk rayonunun Brodşino kəndindən V.V.Onişşenko Brodşinsk səkkizillik məktəbinin direktoru V.F.Andriyevskinin yanlış davranışından və sui-istifadə hallarından söhbət açır. O, məktəbin təmiri zamanı kənar adamlara pul ödənilməsinə yol vermiş, məktəbyanı sahədən yığılmış samanı mənimsəmiş, kolxoz icmasının icazəsi olmadan kolxozda böyük ev almışdır. O, pedaqoji kollektivin üzvləri və qonşularla özünü çox kobud aparır.

Vətəndaşlar yazırlar ki, bəzi məktəb və texniki-peşə məktəbləri bərbad, uçuq-sökük, şagirdlərə dərs keçmək tələblərinə cavab verməyən vəziyyətdədir. Eyni zamanda onların təmir müddəti, yenilərinin tikilməsi uzadılır.

Dağıstan MSSR Rutul rayonunun Cilixur kəndindən S.Mahmudov, Q.Cəlilovun məktubunda deyilir:

"Məktəb 1930-cu ildə ayrı-ayrı sinif otaqları şəklində yaradılıb. Uşaqlar uçuq-sökük, nəm, yarıqaranlıq, məktəb gigiyenasının elementar normalarına uyğun olmayan binada məşğul olurlar. Müəllimlər və şagirdlər dərslərdə qalın paltarlarda oturmalı olurlar. Məktəb emalatxanası, pioner otağı, kitabxana, idman zalı, idman meydançası barədə arzulamağa dəyməz. Bu barədə 1967-ci ildən həyəcan təbili çalırıq, ancaq indiyədək heç bir tədbir görülməyib".

Gürcüstan SSR Tsalsk rayonu Darakoy kəndinin orta məktəb müəllimləri R.S.Nubasaryan, Ş.A.Ağacanyan, K.K.Pilavov yazırlar:

"Məktəbimiz çox köhnədir, qəza vəziyyətindədir. Dərslər bir neçə binada keçirilir, onlardan üçü kirayə götürülüb. Kirayə binalardan biri kənd hamamıdır. Həmin binada döşəmə əvəzinə beton tökülüb. Kəndimiz dağların qoynunda yerləşdiyindən qışı çox sərt

keçir. Uşaqları altı saatdan artıq beton döşəməli siniflərdə saxlamaq olar? Siniflər kiçik, qaranlıqdır. Dəfələrlə Gürcüstan SSR Maarif Nazirliyinə və Nazirlər Sovetinə yeni məktəb binasının inşası xahişilə müraciət etmişik. Ancaq nəticəsi yoxdur. Müəllim kollektivi və 170 şagird ümid edir ki, kəndimizdə yeni tipli məktəb tikiləcək".

...Məktəblər yaşayış yerindən uzaq məsafədə yerləşdiyindən və uşaqların məktəbə getməsi üçün heç bir nəqliyyat olmadığından valideynlər şagirdləri məktəblərə miniklə daşımağı təşkil etmək xahişi ilə müraciət edirlər.

Şagirdlərin təhsili dövründə kənd təsərrüfatı və digər işlərə cəlb olunmasından azad edilməsi barədə valideynlərin təklifləri gəlməkdə davam edir. Çünki bu səbəbdən tədris proqramı yerinə yetirilmir və uşaqlar zəruri bilikləri əldə edə bilmirlər.

Rostov vilayətinin Semikarakorsk şəhərinin üç məktəbinin valideyn komitələri adından Alekseyenko, Kisel və b. yazırlar:

"Artıq sentyabr başa çatır, uşaqlarımız isə hələ bir gün də dərs keçməyiblər. Bazar günü də daxil olmaqla hər gün IV-IX sinif şagirdləri tarlalarda çalışırlar. Uşaqlar yazda tarlalarda, yayda isə əmək düşərgələrində çalışırlar. Nəyə görə onlar özlərinin ziyanına dərs vaxtı da işləməlidirlər?".

SSRİ Nazirlər Sovetinin
İşlər İdarəsinin
məktublar qrupu

Heydər Əliyevin Maarif Nazirliyinin və Texniki Peşə Təhsili üzrə Dövlət Komitəsinin ünvanına kəskin dərkənarından sonra məktublarda qaldırılan məsələlərdən çoxusu, bir qayda olaraq, həll olunurdu.

Nazirlər Soveti sədrinin birinci müavininin köməkçiləri ilə söhbət zamanı mən onları sıravi vətəndaşların ərizələrinə baxılmasında Heydər Əliyev katibliyinin işinin necə təşkil olunması barədə ətraflı sorğu-suala tutdum. Kitabın əvvəlki fəsillərində Heydər Əliyevin əhalinin şikayət və məktublarına çox diqqətlə yanaşdığını qeyd edərək bu mövzuya toxunmuşduq. Bu məsələlərə vasvası münasi-

bəti onu Kremldə işləyərkən də tərk etməmişdi. Zəhmətkeşlərin tələblərinə qayğı ilə yanaşmağı, biganəlik göstərməməyi o öz əməkdaşlarına da aşılamışdı.

Camal Camalovla söhbətdən:

"– Heydər Əliyevlə birgə işlədiyiniz illər sizə işgüzarlıq və insani cəhətdən nə verib?

– Hər şeydən əvvəl, o məni nizam-intizama öyrədib. Mən artıq on beş ildir ki, burada işləyirəm (Moskvada "Lyuks" Qapalı Səhmdar Cəmiyyəti Direktorlar Şurasının sədri – ***E.A.***), heç kim deyə bilməz ki, mən işə gecikmişəm və ya işdən vaxtından qabaq getmişəm, kiməsə kobudluq etmişəm. Kiməsə, azacıq da olsa, yardım etmək mümkündürsə, mən edirəm. Çünki Heydər Əliyeviç həmişə hamıya kömək edib.

– Siz deyirsiniz ki, o, Moskvaya köçəndən sonra Azərbaycandan məktublar gəlməyə başladı.

– Azərbaycandan bir ayda orta hesabla üç yüz məktub daxil olurdu. Hər şeydən yazırdılar. Bir qadını aldadıblar, təhqir ediblər, kimsə günahsız yerə həbsxanaya düşüb, təqaüdçülər güzəştli şərtlərlə "Zaporojets" avtomobili almaqda köməklik göstərməyi xahiş edirdilər, kimsə inəyini oğurlamış qonşusundan şikayətlənirdi. Bir nəfər hətta musiqi aləti almağa yardım istəyirdi. O da hamıya kömək etməyə çalışırdı. Respublika əhəmiyyətli problemlər barədə Kamran Bağırovdan və İsa Məmmədovdan da məktub gəlirdi.

Mən məktubların hamısını oxuyub qısaca xülasə hazırlayırdım – xahiş edənin adı, familiyası, ünvanı, xahişin əsas məzmunu. Məktubların hamısı Heydər Əliyevin əlindən gəlib keçirdi. O, Azərbaycandan gələn məktublara xüsusi diqqətlə yanaşırdı.

Sonra məktublar onun dərkənarı ilə Bakıya göndərilir, orada məsələ həll olunurdu. O, yayda Bakıya gələndə Azərbaycan rəhbərliyi həmin məktublar əsasında nə işlər görüldüyü barədə hesabat verirdi.

1983-cü il dekabrın 11-də qardaşım qəza nəticəsində həlak oldu. Bərk şaxta idi, yollar buz bağlamışdı, maşınlar hərəkət edə bilmirdi. Bunun nəticəsində də qəza baş vermişdi, qardaşımın maşını KamAZla toqquşmuşdu. Mən cəsədi qəzanın baş verdiyi Kaşirsk

şosesindən gətirmək üçün maşın tapa bilmirdim. Sonra da meyidi hava limanına çatdırıb, tabutu yola salmaq lazım idi. Heydər Əliyev Oridnevə göstəriş verdi ki, mənə kömək etsinlər, beləliklə də bütün problemlərimi həll etdim. Bakıya zəng vurdum, hava limanında məni qarşıladılar, Şəkiyə gedib çıxmaq, meyidi aparmaq üçün xüsusi maşın və "Volqa" avtomobili verdilər.

Həmin ağır günlərdə mənə köməklik göstərdiyi üçün mən Heydər Əliyeviçə minnətdaram. Yadımdadır, o mənə deyərdi:

– Heç kimə məqsədli yaxşılıq eləmə. Əlindən gələn köməyi ürəkdən et. Əgər gəlib səndən on manat istəsələr, səninsə cəmisi on manatın varsa, ver onlara.

Mən bu nəsihətləri yadımdan çıxarmıram, çalışıram ki, onlara əməl edim. Ondan aldığım öyüd-nəsihəti hər valideyn övladına verə bilməz.

O deyirdi:

– Təmkinli, səbrli olmaq lazımdır, özündən çıxmaq olmaz. Heç kimə arxayın olma, çalış, hər işi özün gör. Əminsənsə ki, bu işi bacaracaqsan, özün gör".

Vladimir Uxovla söhbətdən:

"Azərbaycandan, elə digər respublikalardan da çoxlu məktublar gəlirdi. Hər cür məktub vardı. Çoxusu şikayət məktubları idi, bilirdilər ki, Heydər Əliyev kömək edəcək.

Azərbaycandan gələn məktublarla Camal Camalov məşğul olurdu. O, rus dilini yaxşı bilirdi. Məktubları rus dilinə tərcümə edib, əsas məzmununu göstərirdi.

Məktubun özünü isə sonradan rus dilində mən tərtib edirdim. Hər barədə yazırdılar. Deyək ki, hansısa rayonda kiminsə keçisini oğurlayıblar. O da bu barədə yazır: "Heydər Əliyeviç, kömək edin". Heydər Əliyev oxuyub, canıyananlıqla başını yellədir: "Bilirsənmi, doğrudan da, belə bir şey ola bilər. Kiminsə keçisini oğurlayıblar, ziyançəkən isə sahə müvəkkilindən heç bir köməklik ala bilmir. Hə, yaxşı, sən bu məktubu filan yerə, filan rayona göndər". Maraqlı məktublar da olurdu, bəlkə də maraqlı yox, bir qədər sadəlövh.

– Camal Camalov danışırdı ki, kimsə musiqi aləti almağa kömək göstərmək xahişi ilə məktub göndəribmiş.

– Səhv etmirəmsə, bu, əvvəllər Azərbaycanda yaşamış türk idi. O, Azərbaycan vasitəsilə məktub göndərərək Heydər Əliyeviçdən ona bayan və ya qarmon əldə etməkdə köməklik göstərməyi xahiş edirdi. Heydər Əliyeviç məktubu özü oxudu, o, türkcə bilirdi və dedi:

"Ona mütləq kömək etməliyik, bu adam oradan məktub göndərib".

O, məndən həmin məktuba xüsusi həssaslıqla yanaşmağı xahiş etdi.

Adətən, hansısa təşkilatlara göndərilən məktubları ya mən, ya da Qridnev imzalayırdı. Heydər Əliyeviç özü belə məktublara imza atmırdı. Biz belə yazırdıq: "Heydər Əliyevin tapşırığı ilə bu məsələlərdə köməklik göstərmək üçün göndərilir".

Azərbaycandan həmin türkə zəng vurdular, bilmirəm, məhz ona lazım olanı tapmışdılar, ya yox, hər halda, musiqi alətini ona göndərdilər.

İkinci bir əhvalat: uzaq bir rayondan, deyəsən, Lənkərandan məktub gəlmişdi. Bu vaxt xarici işlər naziri Qromıkonu hökumət sədrinin birinci müavini təyin etmişdilər. Elə həmin yoldaş da yazırdı: "Heydər Əliyeviç, mən radiodan eşitdim ki, Qromıkonu hökumət sədrinin müavini təyin ediblər. Fikirləşdim ki, bəs sizin işiniz necə olacaq, sizi hara göndərəcəklər?". O düşünürmüş ki, hökumətdə "birinci" yalnız bir nəfər ola bilər. Heydər Əliyeviç dedi: "Həmin insanı sakitləşdirmək lazımdır".

Mən Azərbaycan KP MK-ya məktub göndərdim ki, partiya orqanları vasitəsilə həmin adama məlumat versinlər. "Yaxşı, – dedilər, – eləyərik". Və həmin adama məlumat vermişdilər ki, sən heç narahat olma, Heydər Əliyev öz yerində işləyir.

Demək istəyirəm ki, məktublarla işləyərkən Heydər Əliyev üçün xırda şey yox idi. O, hər şeyə münasibət bildirirdi. Bir də ki o, insanların üzünü, faktları, soyadlarını çox gözəl yadda saxlayırdı. Bir dəfə kimdənsə bayram təbriki gəlmişdi. Belə təbriklər çox olurdu, o isə onların hamısını nəzərdən keçirirdi. Həmin təbriki bir qədər gec çatdırmışdılar. Təbriki göndərən adam orada nəyi isə xatırladırdı. Əlbəttə ki, mən təbrik məktubunu dərhal Heydər Əliyeviçə apardım. O baxıb dedi: "Bu məktub Riqadan gəlib. Bu adam

Bakıda yaşayırdı, sərhədçi idi, bir vaxtlar biz onunla az qala bir evdə yaşayırdıq. Onun ailəsini də yaxşı tanıyıram. Hökmən yadında saxla ki, gələn bayramda biz də onu təbrik edək".

O, hər bir təbriki imzalayırdı. Faksimileni yaxın qoymurdu. Deyək ki, bəzən bayramlarda bizimkilər 400 təbrik məktubu yazıblar. O, 400 məktubun hamısını imzalayırdı. Doğrudur, biz ona birdənbirə hamısını gətirmirdik, deyək ki, 50 məktub gətirirdik. Hamısını imzalayırdı. Onun yaddaqalan imzası vardı, həmişə də eyni cür qol çəkirdi".

Eduard Proxorenko xatırlayır:

"O vaxtlar əhalidən gələn məktublar üzərində iş yaxşı təşkil olunmuşdu. Heydər Əliyeviçə daim böyük məktub seli gəlirdi, o cümlədən də Azərbaycandan. Hər şeydən yazırdılar: mənzilin, suyun olmamasınadək. Şəxsən ona yazırdılar, xahiş edirdilər, şikayətlənirdilər. Əvvəlcə bütün məktubları o özü oxuyurdu. Sonra məktub axını güclənəndə, biz katiblikdə məktubların araşdırılması üzrə xüsusi xidmət yaratdıq, məktublardan xülasələr çıxarıb onları əhəmiyyət dərəcəsinə görə ayırdıq.

Bu işlə əsasən Vladimir Sergeyeviç Uxov məşğul olurdu.

– Heydər Əliyev Azərbaycandan bu qədər məktub gəldiyinə görə qıcıqlanmırdı ki?

– Yox, yox.

– O özü bu işlə məşğul olmaya, köməkçilərinə etibar edə bilərdi. Nəyə görə məktubların hamısını özü oxuyurdu?

– Əgər insan sənə müraciət edibsə, sən necə məşğul olmayasan? O, konkret məktublara görə respublikaya şəxsən zəng vurur, tapşırıqlar verirdi. Özü də mənə elə gəlirdi ki, bu məktublar problemi həll etmək arzusundan daha çox, ürəyini səni başa düşən, səni anlayan və mümkün olsa, kömək edən insana açmaq istəyilə yazılırdı. Düşünürəm ki, ən əsası bu idi. Onun vəzifədən getməsilə məktubların da ayağı kəsildi".

Yeri gəlmişkən, Heydər Əliyev bu məktubların surətini öz dərkənarı ilə müttəfiq respublikaların Nazirlər Sovetlərinə göndərirdi. İcraya nəzarət katibliyin rəisi V.Qridnevin dəqiq işi sayəsində yoluna qoyulmuşdu. Bu da Heydər Əliyevin bütün ölkə boyu nüfuzunun və təsirinin artmasına səbəb olurdu.

"Mənim ürəyim burada qalıb"

Moskvada işləyən vaxtlar Heydər Əliyev məzuniyyətini vətəndə – Azərbaycanda keçirməyə çalışırdı. Bu, ancaq sözdə "istirahət" idi. əslində isə onun sadiq mühafizəçisi Aleksandr İvanovun ifadəsilə desək, o, "daimi qarışıqlıq" içində idi.

"Heydər Əliyeviç gah Makaron fabriki açırdı, gah Dərin Özüllər zavoduna baş çəkirdi, gah da rayonlara yollanırdı. Bir dəfə birbaşa Nabranın qədim məşəsində Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin və ÜİHİMŞ-nin birgə qərarı ilə nəzərdə tutulmuş Azərbaycanın Xəzərsahili boyunca ümumittifaq kurort zonası yaratmaqla bağlı geniş yığıncaq keçirdi. Onu da qeyd edək ki, bu sənədin üzə çıxmasına o özü nail olmuşdu. Bir sözlə, o, istirahət üzünə həsrət idi. Bütün səfərləri işlə bağlı idi. O, xalqın necə yaşadığını görür, çox şeyə əsəbiləşir, bütün səviyyələrdən olan rəhbərləri biabır edirdi. Özü də təkcə Azərbaycanda yox, elə Rusiyanın özündə də".

Heydər Əliyevin məzuniyyətlərinin işgüzar xarakteri barədə Azərbaycan Nazirlər Sovetinin keçmiş sədri Həsən Seyidov mənimlə söhbətində bunları xatırladı:

" – Siz onun Azərbaycana səfəri zamanı hansısa məsələləri həll edə bilirdiniz?

– Şübhəsiz, SSRİ Nazirlər Sovetinin sədr müavini kimi onun qarşısında məsələlər qoyulurdu. O da həmişə kömək etməyə çalışırdı.

– Necə fikirləşirsiniz, o, bura niyə gəlirdi? Bu barədə nəsə deyirdi?

– O həmişə deyərdi: "Mən getsəm də, ürəyim burada qalıb".

Siyasi Büronun üzvü kimi, Heydər Əliyevə qışda ikihəftəlik məzuniyyət düşürdü. Ancaq beş ildə o bir dəfə də olsun bu məzuniyyətdən istifadə etmədi. Məsələ burasındadır ki, qışda Nazirlər Sovetinin sədri istirahətə gedir, bir qayda olaraq, N.Tixonovu, sonralar isə N.Rıjkovu o əvəz etməli olurdu.

Heydər Əliyev məzuniyyətini avqust-sentyabrda götürməyə üstünlük verirdi. Doğrudur, artıq qeyd edildiyi kimi, bunu şərti olaraq məzuniyyət adlandırmaq olardı. Çünki bu beş ildə o, MK-nın yüksək səviyyəli kurortlarına yox, Azərbaycana gedirdi. Yalnız bir dəfə, infarkt keçirəndə yay aylarını Moskvada keçirməyə məcbur olub.

Heydər Əliyevlə birgə onun katibliyi də istirahətə gedirdi. Məsul işçilərdən yalnız, bir qayda olaraq, katibliyin müdir müavini Vladimir Uxov və poçtu qəbul edib qeydə alan qızlar qalırdı.

Vladimir Uxov xatırlayır:

"Mən işə doqquzdan gec gəlmirdim. Çünki artıq saat onda o, Azərbaycandan zəng vura bilərdi: "Sabahınız xeyir, işlər necədir?". Mən dünən gün ərzində baş verənlər barədə məlumat verirdim. O, demək olar ki, hər gün zəng vururdu. Ancaq bəzən deyirdi: "Sabah şənbədir, istirahət elə". Bazar günləri də zənglər olurdu. Bəzən o, həmin günlər günortayadək zəng vururdu. Çünki bu vaxtlar respublika boyu səfərdə olurdu. O, hər dəfə VÇ – xüsusi rabitə telefonu ilə zəng vururdu. Adətən, axşam saat 8-də də onunla VÇ ilə əlaqə yaradırdım. O isə həmin vaxt istənilən yerdə ola bilərdi. Bir dəfə ondan soruşdum: "Heydər Əliyeviç, siz indi haradasınız?". O cavab verdi: "Lənkəran rayonunda". Onun maşınında aparat vardı.

Bir dəfə mən danışıq sifariş verdim. Telefonçu qız mənə xəbərdarlıq etdi: "O, indi açıq zonadadır". Bu o demək idi ki, açıq söhbətlər etmək olmaz. Biz onunla danışırıq, o məndən nəyisə soruşur. Mən deyirəm: "Heydər Əliyeviç, bu suala cavab verə bilmərəm". – "Nə üçün?" – "Çünki siz indi elə zonadasınız ki, açıq söhbətlər aparmaq olmaz". O, heyrətləndi: "Sən bunu necə təyin etdin?". – "Mənə xəbərdarlıq ediblər". – "Nə deyirəm ki, "yaxşı" zonaya keçən kimi mənə zəng vur". – "Yaxşı, iki-üç saatdan sonra zəng vuraram". Başqa sözlə desək, Azərbaycanda istirahətdə olanda da o, bütün vaxtı rayonları gəzirdi. Ondan əlavə, mən oraya məktublar, mühüm, məxfi sənədlər göndərirdim...

O, məzuniyyətdən işə qayıdanda ilk növbədə məni çağırırdı. Gəlib məlumat verirdim ki, hər şey qaydasındadır. "Mən sənə qaytarılası sənədləri gətirmişəm. Yoxla..."

– Siz onları harasa təhvil verirdiniz?

– Bəli, biz onları yenidən gəldikləri yerə qaytarırdıq. Heydər Əliyeviç onları möhürlənmiş vəziyyətdə özü gətirirdi. Mən yoxla-

yırdım, o isə dəqiqləşdirirdi: "Mənə sualın yoxdur ki?". – "Xeyr". Bunlar hamısı etimada əsaslanırdı. Axı o, heç yerdə qol çəkmirdi. "Deməli, sənin lə haqq-hesablaşdıq".

O, hətta xırdalıqları da nəzərə alırdı, Allah eləməmiş, nə isə itə bilər, bütün bunlara isə mən cavabdehəm. O bunu nəzərə alırdı.

Heydər Əliyevin Azərbaycana səfərinin xronikası

1983-cü il avqustun axırı – sentyabr aylarında Heydər Əliyev məzuniyyətini doğma torpaqda keçirdi.

Sentyabrın 5-də M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Şərq xalça sənətinə dair Beynəlxalq simpoziumun açılışı oldu. Heydər Əliyev Azərbaycan Dövlət Rəsm Qalereyasında açılmış Xalça sərgisində oldu. O, həmçinin, Azərbaycan Tarixi muzeyində və İçərişəhərdə xalça bayramında iştirak etdi.

Sentyabrın 24-də Heydər Əliyev böyük Azərbaycan şairi və dramaturqu H.Cavidin 100 illiyinə həsr olunmuş "İblis" tamaşasına baxdı.

Oktyabrın 1-də M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Ü.Hacıbəyov adına Dövlət simfonik orkestrinin Beynəlxalq Musiqi gününə həsr olunmuş konserti keçirildi. Heydər Əliyev konsertdə oldu.

1984-cü il fevralın 22-də Azərbaycan paytaxtı görkəmli sovet bəstəkarı, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan SSR Dövlət mükafatları laureatı, SSRİ xalq artisti Fikrət Əmirovla vidalaşırdı. Heydər Əliyev M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında vida mərasimində və Fəxri Xiyabanda matəm mitinqində iştirak etdi.

Həmin gün Heydər Əliyev SSRİ Ali Sovetinə deputatlığa namizədliyi irəli sürülmüş Bakı – Lenin seçki dairəsinə daxil olan Kirov rayonunda oldu. Həmin gün Heydər Əliyev "Leninneft" və "Orconikidzeneft" neft-qazçıxarma idarələrində, "Bakinski raboçi" və F.Dzerjinski adına Maşınqayırma zavodlarında, Dərin Dəniz Özülləri zavodunda, evtikmə kombinatında, tikilməkdə olan Makaron fabrikində, 5 nömrəli Bakı taksomotor parkında oldu.

Heydər Əliyev 23 nömrəli yeni birləşmiş şəhər xəstəxanasının

heyətilə görüşdü, fəhlə və mütəxəssislərlə söhbət etdi. Sonra Heydər Əliyev Azərbaycan Dəmir yolu işçiləri fəallarının iclasında çıxış etdi və nəhayət, V.İ.Lenin adına Sarayda respublikanın partiya, sovet, təsərrüfat fəalları ilə görüşdü.

Fevralın 23-də V.İ.Lenin adına Sarayda Bakı – Lenin seçki dairəsi zəhmətkeşlərinin SSRİ Ali Soveti İttifaq Sovetinə deputatlığa namizəd, Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevlə görüşü oldu.

Bu, faktiki olaraq Moskvaya gedəndən sonra Heydər Əliyevin respublika zəhmətkeşləri ilə ilk görüşü idi. Buna görə də onun çıxışı ötən ildə görülmüş işlər, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini postunda fəaliyyətinin əsas istiqamətləri barədə bir növ hesabat idi.

Hökumətin nəqliyyat kompleksinin işinin yaxşılaşdırılması, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, işdə dəqiqliyin və mütəşəkkilliyin artırılması istiqamətində görülmüş tədbirlərdən ətraflı danışan Heydər Əliyev qeyd etdi ki, son illərdə ilk dəfə olaraq dəmir yolu nəqliyyatında tərəqqi əldə olunmuşdur. Belə ki, "o nəinki beşilliyin üçüncü ilinin əsas göstəricilərini yerinə yetirmiş, hətta 1981 və 1982-ci illərdə yol verilən geriliyi aradan qaldırmışdır. Yəqin ki, bunun nə demək olduğunu başa salmağa ehtiyac yoxdur, çünki ölkədə bütün yük dövriyyəsinin 50%-i, sərnişin daşımalarının isə üçdə birindən çoxu dəmir yolu nəqliyyatının payına düşür". Sonra Heydər Əliyev BAM-ın tikintisinin gedişindən danışdı və əmin etdi ki, bu ilin sonuna qədər bütün yol boyu qatarların birbaşa hərəkəti açılacaqdır (o vaxt üçün əsas yolun 2.756 kilometri çəkilmişdi, daha 300 kilometr yol çəkmək qalırdı). O, təsərrüfatın intensiv mənimsənilməsi rayonlarında yol şəbəkələrinin, boru və qaz kəmərlərinin sürətlə inkişaf etdirilməsinin zəruriliyindən, avtomobil və çay nəqliyyatının daha da inkişaf etdirilməsindən danışdı.

Bundan əlavə, SSRİ Nazirlər Soveti sədrinin müavini sosial-mədəni sahə, orta təhsil və səhiyyə məsələlərinin – yəni hökumətdə bilavasitə kuratorluq etdiyi sahələrin üzərində dayandı. Məsələn, səhiyyədən danışarkən, Heydər Əliyev qeyd etdi ki, bu gün ən başlıcası onun profilaktik yönümünün yaxşılaşdırılması və əhalinin tibbi

maariflənməsidir. Natiq vurğuladı ki, bu məqsədlə sovet səhiyyəsinin strateji inkişaf proqramı işlənib hazırlanmışdır. Burada bütün ölkə əhalisinin ildə bir dəfə dispanserizasiyasının tətbiq olunması ən əsas aspektlərdən biridir.

Heydər Əliyevin nitqinin geniş xülasəsi "Pravda" qəzetində dərc edilmişdi.

Fevralın 24-də Heydər Əliyev Bakıdan Moskvaya yola düşdü.

1984-cü il sentyabrın 6–7-də Heydər Əliyev Bakının orta və texniki-peşə məktəblərində işlərin gedişi ilə tanış oldu.

Sentyabrın 19-da respublika zəhmətkeşləri Azərbaycan KP MK üzvü, Azərbaycan SSR Ali Sovetinin deputatı, respublikanın rabitə naziri, general-leytenant Hüseyn Rəsulbəyovu son mənzilə yola saldılar. Heydər Əliyev vida mərasimində iştirak etdi.

Heydər Əliyev 1985-ci ildə də gəlib sosial sahənin və səhiyyə sistemində onun təşəbbüsü və himayəsi ilə tikilmiş müəssisələrin açılış mərasimində iştirak edirdi. 1986-cı ildə isə Vətəndə istirahət etmək nəsib olmadı. Çünki sentyabrın 1-də Bakı əvəzinə Heydər Əliyev təcili Novorossiyskə uçmalı oldu. Orada gəmilərin toqquşması nəticəsində "Admiral Naximov" teploxodu batmış, yüzlərlə insan həlak olmuşdu.

Növbəti dəfə – 1990-cı ilin iyulunda o, Bakıya yenə də gələcək. Bu dəfə həmişəlik. Ancaq bu barədə biz romanın digər bölmələrində danışacağıq.

Hələliksə biz 80-ci illərin ortalarında Vətənə qısamüddətli səfərləri zamanı qəhrəmanımızla bu və ya digər dərəcədə ünsiyyətdə olan, eləcə də onun köməyi ilə respublikanın çoxsaylı iqtisadi və sosial problemlərini həll edən insanların xatirələrinə üz tutaq:

Keçmiş Baş nazir **Həsən Seyidovun** fikrincə, Heydər Əliyevi SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu vaxtda respublikanın həyatından ayırmaq olmaz, çünki o, əvvəlki kimi, onun qayğıları ilə yaşayırdı və hər cür köməklik göstərirdi.

Misal üçün, onun köməkliyi ilə o illərdə bir sıra obyektlər, o cümlədən Siyəzən quşçuluq fabriki tikildi, Gəncə avtomobil zavodunun inşasına başlanıldı, bu məqsədlə böyük vəsait ayrıldı. Abşeronda ümumittifaq əhəmiyyətli kurort zonasının yaradılması üzrə layihə işlərinə başlandı, Gənc Tamaşaçılar Teatrı (GTT) yenidən tikildi və s.

H.Seyidov yada salır ki, günlərin birində Moskvada Sənayetikinti bankının sədrinin yanına gedir. GTT-nin bərpası məsələsinin həlli ondan asılı idi. Sədr soruşur: "Siz bərpadan danışırsınız. Ancaq köhnə teatrın yerində heç olmasa bir divar qalıbmı?". Seyidov etiraf edir ki, köhnə binadan, demək olar ki, heç bir şey qalmayıb. "Onda axı bu, faktiki olaraq, yeni tikintidir! – deyə moskvalı məmur üz-gözünü turşutdu. Bir qədər fikirləşəndən sonra əlini yellətdi. – Əgər tikintiyə mən icazə verməsəm və pul ayırmasam, siz onsuz da Heydər Əliyevin yanına gedəcəksiniz. Elə deyil?" – "Elədir", – deyə Seyidov təsdiq etdi. Bankın müdiri dərindən köks ötürüb müvafiq sərəncamı imzaladı.

"Heydər Əliyev Kremldə olanda İttifaq orqanları təmsilçilərinin, nazirlik və idarələrin Azərbaycana münasibəti tamam başqa cür idi. – Seyidov belə deyir. – Çox məsələləri sadəcə, qalmaqalsız, qapıları döymədən, mərhələləri keçmədən həll etmək olurdu. Hamı bilirdi ki, respublikadan gələnlərə nədəsə rədd cavabı verilsə, Əliyev onsuz da işə qarışıb, məsələni həll edəcək.

Heydər Əliyev Moskvaya köçəndən sonra biz istənilən problemi həll edə bilirdik. Misal üçün, yeni göz xəstəxanasının tikintisini götürək. Bunun üçün artıq onun göstərişi vardı. Və ya təəssüf ki, tikintisini o vaxt başa çatdıra bilmədiyimiz Onkoloji mərkəz. O, 1982-ci ildən sonra da, demək olar ki, respublikanın bütün problemlərini həll edirdi.

Həsən Həsənovla söhbətdən:

"– Onun Moskvada işlədiyi dövrdə siz konkret məsələ ilə bağlı ona müraciət etmişdinizmi?

– Azərbaycanla bağlı, demək olar ki, ona müraciət etmək lazım gəlmirdi. O daim bizim işlərimizin vəziyyətilə maraqlanır, kömək edirdi. Bir çox İttifaq rəhbərləri isə onun maraqlandığını bilərək respublikaya münasibətlərini kəskin şəkildə müsbət istiqamətdə dəyişirdilər. Bizim məsələlərimiz çox vaxt mancəsiz həll olunurdu. Bizə digər respublikalardan da üz tutmağa başladılar. Bir çox müttəfiq respublikaların Kommunist Partiyaları MK-nın katibləri, mənim həmkarlarım Moskvada olarkən, onları Heydər Əliyevlə görüşdürməyi xahiş edirdilər. Mən bu xahişləri ona çatdırmağa çalışır-

dım. Həm də o özü bir dəfə mənə demişdi ki, əgər mənim kuratorluq etdiyim sahəyə aid hansısa məsələ ilə bağlı sənə müraciət etsələr, cürətlə onlara mənimlə görüş vəd et, heç bir problem yoxdur. Deyək ki, böyük sosial-mədəni təyinatlı obyektlərin maliyyələşdirilməsi ciddi şəkildə limitləşdirilirdi. Ona görə də bəzi respublikalara, xüsusilə də Orta Asiya respublikalarına mədəniyyət obyektlərinin tikintisində o kömək etmişdi. O vaxtlar belə hesab edirdilər ki, daha çox sənaye müəssisələri və yaşayış binaları tikmək lazımdır. Yadımdadır, Heydər Əliyevin şəxsən iştirakı ilə Qazaxıstanda, Özbəkistanda teatrlar tikildi. Eləcə də Gəncədə "şəhər yük maşınları" adlandırılan tonyarımlıq azlitrajlı avtomobil zavodunun tikintisi ilə bağlı epopeyanı xatırlamaq olar. O vaxt mən MK-nın tikinti və nəqliyyat üzrə katibi idim. Ona görə də bu prosesə bilavasitə rəhbərlik etməli olurdum. Obyektin qurulması qrafiki çox uğurla yerinə yetirilirdi. Mən işlərin gedişi ilə bağlı, demək olar ki, hər gün Heydər Əliyevə məruzə edirdim. İş prosesində doğan bütün suallar paytaxtda çox operativ həll olunurdu. İttifaq rəhbərləri yaxşı bilirdi ki, tikintinin gedişinə Heydər Əliyev nəzarət edir. Hər şey ona doğru gedirdi ki, tezliklə Azərbaycan istehsalı olan yük maşınları meydana gələcək. Bu təkcə nüfuz məsələsi deyildi, bütünlükdə Azərbaycanın sənaye istehsalının strukturunda əsaslı müsbət dəyişikliklərə gətirib çıxara bilərdi. Çox təəssüf ki, əvvəlcə Qarabağ hadisələri, sonra respublika rəhbərliyindəki dəyişikliklər, daha sonra da SSRİ-nin süqutu Azərbaycan üçün bu unikal layihənin həyata keçirilməsini ləngitdi".

Camal Camalovla söhbətdən:

"Heydər Əliyeviç DQMV-nin birinci katibi Boris Gevorkovu bütün məsələlərdə dəstəkləyir və kömək edirdi. O, DQMV üçün çox işlər görmüşdü. Gevorkov Heydər Əliyeviçin yanına çəkinmədən girirdi. Onların arasında çox isti münasibətlər vardı.

Heydər Əliyeviç böyük siyasətçi idi, o bilirdi ki, Dağlıq Qarabağ – Azərbaycanın bir parçasıdır və onun çiçəklənməsi üçün hər şey edirdi. Moskvada işləyərkən o, paytaxta gələn Kamran Bağırovla, Həsən Seyidovla, Qurban Xəlilovla əlavə bir saat danışa bilmək imkanını boş buraxmırdı. Bu, mütləq idi. O, Moskvaya gələn

Azərbaycan KP MK katibləri ilə – kənd təsərrüfatına hamilik edən İsa Məmmədovla, Ramiz Mehdiyevlə görüşmək üçün vaxt tapmağa çalışırdı".

4-cü ordunun keçmiş komandanı Aleksandr Kovtunov mənimlə söhbətində bildirdi ki, Heydər Əliyevə Azərbaycanın Xəzər sahilinin ümumittifaq kurort zonasına çevrilməsi barədə unikal ideyanı həyata keçirməyə imkan vermədilər. "Əgər onu Kremldən uzaqlaşdırmasaydılar, istirahət evləri, pansionat və sanatoriyalar, eləcə də müvafiq infrastrukturun tikintisi üçün Azərbaycana milyardlarla manat vəsait axışardı".

O illərdə AHİŞ-in sədri işləyən Lidiya Rəsulovanın sözlərinə görə, Azərbaycanda ümumittifaq sağlamlıq mərkəzi yaratmaq ideyası Leonid Brejnevin Azərbaycana son səfərindən əvvəl yaranmışdı. Heydər Əliyev bilirdi ki, Siyasi Büronun üzvləri Soçidə, Krımda istirahət edirlər və həmin regionlar bu gəlişlərdən xeyir götürürlər. Ona görə də can atırdı ki, SSRİ rəhbərləri Azərbaycana gəlsinlər, bunun üçün isə burada müxtəlif səviyyəli və dərəcəli nüfuzlu sağlamlıq mərkəzləri tikmək lazım idi.

Söhbət təkcə Abşerondan yox, bütünlüklə Xəzər sahillərindən gedirdi. Buraya Lənkəran, Yalama–Nabran, Abşeron–Zarat zonaları, Qalaaltı daxil idi.

"Heydər Əliyeviç İttifaq orqanlarının, hər şeydən əvvəl, Leonid İliçin razılığını almalı idi, – deyə Lidiya Rəsulova mənə söylədi. – Heydər Əliyeviçin tapşırığı ilə Dövlət Plan Komitəsi, Nazirlər Soveti və AHİŞ Azərbaycanda bizim istifadə etmədiyimiz çoxlu meşələrin, mineral bulaqların olduğu, ildə küləkli və küləksiz günlərin sayı, dəniz suyunun hərarəti, faraş tərəvəzin və meyvələrin olması barədə sənəd hazırladılar. Heydər Əliyev hər şeyi nəzərə almışdı. İlkin hesablamalara görə, böyük miqdarda – bir neçə milyard manata qədər vəsait tələb olunurdu. Biz axı bu sağlamlıq mərkəzlərini infrastruktursuz – su təchizatı, qaz təchizatı sistemləri, yollar və s. olmadan tikə bilməzdik.

Heydər Əliyeviç Baybakovla danışdı, o da dedi ki, əgər ondan soruşsalar, layihəni dəstəkləyəcək. ÜİHİMŞ-in sədri Şalayev, səhiyyə naziri Çazov Azərbaycana göndərildi. Onlar ideyanı dəstək-

lədilər, 1982-ci ildə Xəzər sahilinin ümumittifaq sağlamlıq zonasına çevrilməsi barədə İttifaq qərarı qəbul olundu. Biz dərhal işə başladıq.

İş hələ Heydər Əliyev Moskvaya getməmişdən başlamışdı. Sonra artıq Moskvada olanda və Azərbaycana gələndə Heydər Əliyev ilk növbədə bizimlə birlikdə gələcək obyektlər üçün nəzərdə tutulmuş yerlərə baxdı. Biz də ona artıq tikilmiş yerləri göstərirdik. Belə səfərlərdən birini heç vaxt unutmaram. Əvvəlcə Qalaaltına getdik. O, orada hər şeyi gözdən keçirdi, məlumatları dinlədi. Sonra Zarata yollandıq, oradan da Yalama–Nabrana. Sentyabr ayı idi. O vaxtlar ümumittifaq marşrutu mövcud idi – "Ermənistan-Gürcüstan-Azərbaycan", Yalamada Rusiyadan istirahətə gələnlər çox idi.

Heydər Əliyeviç dedi:

– Gəlin istirahət edənlərə yaxınlaşaq, onlarla söhbət edək.

Çimərlik paltarlarında olan adamlar hökumət maşınlarını görüb təşvişə düşdülər. Mən Heydər Əliyevi təqdim edib onun Siyasi Büro üzvü olduğunu söyləmək istəyəndə, bir qadın məni qabaqladı:

– Biz turist də olsaq, vəhşi deyilik, biz bilirik o kimdir.

Heydər Əliyev onlarla söhbətləşdi, özü də çoxlu təriflər eşitdi.

– Biz cənnətə düşmüşük, burada qoz da var, fındıq da. Bu gün o qədər göbələk, böyürtkən yığmışıq ki! Burada ağ göbələyi tapdalayıb keçirlər.

Heydər Əliyev onlara izah etdi ki, Azərbaycan mətbəxində göbələkdən istifadə olunmur.

– Biz meşəyə gedirik, görürük nə qədər göbələk zay olur. Xeyli göbələk qurutmuşuq, bir xeyli də bişirib yemişik. Dəniz isə ayrı aləmdir. Burada meyvəni, balı bizim qapımıza gətirirlər.

Heydər Əliyev onlarla xudahafizləşib bizim hesabatlarımızla tanış olmağa başladı: hansı işlər görülüb, hansı layihələr hazırdır, bu məqsədlə ayrılan maliyyələşdirmə nə vəziyyətdədir, bu vəsait necə mənimsənilir, işlərin ləng getməsinin səbəbi nədir və s. Hər şey barədə dəqiqliklə sorğu-sual etdi.

– O, İttifaq rəhbərliyində olduğu müddətdə, 1987-ci ilədək bu sahədə nəsə eləmək mümkün olmuşdumu?

– Uzun müddət "Abşeron" mehmanxanasının tikintisini başa çatdıra bilmirdilər. Heydər Əliyev Ləmbəranskini bu işə qoşdu, tikinti başa çatdırıldı. Bilgəhdəki kardioloji sanatoriyanın inşası da yarımçıq qalmışdı. Heydər Əliyeviçin vaxtında sanatoriyanı istismara verdilər. Naftalanda gözəl yeni korpus tikildi. Bütün bunlar dövlət proqramı çərçivəsində icra olunurdu. Doğrudur, proqram yeni tikililəri nəzərdə tuturdu, ancaq bu proqrama daxil olan, tikintisi başa çatdırılası obyektlər vardı, təbii ki, əsas güc köhnə obyektlərin inşasını tamamlamağa, mövcud binaları bərpa etməyə və yeni obyektlərin tikintisinə yönəldilirdi. Heydər Əliyevin Moskvada işlədiyi beş il müddətində bəzi işlər görmək mümkün oldu, ancaq yeni layihələrin icrasına biz təzə-təzə başlayırdıq. Sonra Heydər Əliyevi istefaya getməyə məcbur etdilər və işə nəzarət edən olmadı".

Azərinformun xüsusi müxbiri kimi Heydər Əliyevi həmişə müşayiət edən tanınmış Azərbaycan jurnalisti Vladimir Morozkov Xəzərin sahili boyu əlamətdar səfəri belə xatırlayır:

"...Yığıncaqdan sonra Heydər Əliyev Xaçmazdan Sumqayıta qədər sanatoriya kompleksləri ucaltmaq planlaşdırılan bütün nöqtələri gəzdi. Sonra isə bütün günü günəşin qızmar şüaları altında Bilgəhdən "Şimal" DRES-ədək Abşerondakı istirahət obyektlərini dolaşdı. O, artıq yaxın gələcəkdə unikal Xəzər sahilinin simasının dəyişiləcəyini görür və deyirdi ki, bunlar yeni iş yerləri, böyük həvəslə buraya sərmayə qoymaq istəyən xaricilər üçün beynəlxalq aviareyslərdir. Lakin çox təəssüf ki, Heydər Əliyeviçin uzun illər boyu hazırladığı bu taleyüklü layihənin həyata keçməsinə Qorbaçovun xaos və səfalət gətirən bədnam yenidənqurması mane oldu. Düşünülmüş, ən əsası isə, mərkəzin praktiki cəhətdən maliyyələşdirdiyi nəhəng tikinti isə başlanılmamış qaldı".

Zakir Abdullayevlə söhbətdən:

"1983-cü ilin sentyabrında, mən artıq Xaçmaz rayon partiya komitəsinin birinci katibi işləyəndə Heydər Əliyev Dəvəçiyə gəlməli idi. Mən qarşıdakı səfərdən xəbər tutan kimi, Kamran Bağırova zəng vurub soruşdum: "Mən Heydər Əliyevlə uzun illər bir yerdə işləmişəm, xahiş edirəm, həmin zonaya gedib, onunla görüşməyə icazə verəsiniz". – "Başqa katiblərə görüşməyi qadağan etmişik, ancaq sən gələ bilərsən", – deyə cavab verdi.

Biz görüşdük.

– Heydər Əliyeviç, – dedim, – 150 min xaçmazlının adından Sizi Xaçmaza dəvət edirəm.

– Sözün düzü, mənim proqramım çox gərgindir. Gələ biləcəyəmmi? Söz vermirəm, – deyə o cavab verdi.

İki gündən sonra isə Heydər Əliyev zəng vurdu:

– Sabah MK Bürosunun bütün heyəti və mən sizə qonaq gələcəyik.

Heydər Əliyevlə birlikdə Lidiya Rəsulova, səhiyyə naziri Tələt Qasımov da gəlmişdi. Heydər Əliyeviç bir neçə obyektə baxıb dedi:

– Demə, sən təkcə tələb etməyi yox, işləməyi də bacarırmışsan.

Bilirdim ki, Heydər Əliyev yerdə, xalça üstündə oturmağı çox sevir. O çox məharətlə yerdə bardaş qurub oturmağı bacarırdı. Biz onun üçün meşədə – Nabranda, Dağıstanla sərhədin yaxınlığında istirahət təşkil etdik: xalçaları yerə sərdik, kömürlə samovar qaynatdıq. Bu, onun çox xoşuna gəldi.

Günümüz çox xoş keçdi: axşam düşür, hava qaralırdı. Geriyə iki yolla qayıtmaq mümkün idi, biri dənizin sahili ilə, ikincisi isə Yalamadan Xudata. Yol boyu dənizdən Yalamaya qədər ağaclar elə sıx bitmişdi ki, təbii tunel yaranmışdı. Payızda buranın mənzərəsi çox gözəl olurdu.

Maşınlara minmək vaxtı gəlib çatanda mən xahiş etdim:

– Heydər Əliyeviç, mümkünsə, yuxarı yolla gedək.

– O nə yuxarı yoldur elə?

– Oradan gözəl mənzərə canlanır, onu sizə göstərmək istəyirəm.

Onun mühafizəçiləri, DTK, DAM aşağı yolu hazırlamışdılar. Onlar vəlvələyə, təşvişə düşdülər. Ancaq Heydər Əliyeviç onlara dedi:

– O deyən kimi olacaq, yuxarı yolla gedirik.

Yuxarıda isə camaat yığışıb Heydər Əliyevi gözləyirdi. O, sərhəddə məni qucaqlayıb dedi:

– Afərin! Mən sənin barəndə səhv etməmişəm!"

Yuri Soloduxinlə söhbətdən:

"Heydər Əliyeviçlə Bakıda görüş səhnəsi indiyədək xatirimdədir. 1984-cü ildə o, SSRİ Ali Sovetinə seçiləndə biz seçicilərlə görüşmək üçün təyyarə ilə oraya uçduq.

O mənə dedi:

– Yuri Nikolayeviç, mən indi şəhəri gəzəcəyəm, deyirlər ki, camaat mənimlə görüşmək istəyir. Gəzin, baxın, dinləyin. Axı siz birinci dəfədir ki, bizim şəhərdəsiniz.

O vaxt mən şahid oldum ki, insanlar onu həqiqətən sevirlər. Çünki mənim kifayət qədər təcrübəm vardır və ömür boyu siyasətlə məşğul olmuşam. Ona görə də ayırd edə bilirəm ki, görüşlər, şənliklər nə vaxt komanda ilə təşkil olunur, nə vaxt xalqın ürəyindən gəlir. Qoca nənələr də, babalar da, cavanlar da onunla görüşməyə, ünsiyyətə can atırdılar. Hətta belə sözlər də eşidilirdi:

– Heydər Əliyeviç, qayıdın, sizsiz halımız pisdir.

Bu da Kamran Bağırovun heç xoşuna gəlmirdi.

Başqa sözlə, mən gördüm ki, Heydər Əliyeviç həqiqətən liderdir, rəhbərdir, xalq tərəfindən seçilib, insanlar ona hörmət edir, ona inanırlar. O, ictimaiyyəti birləşdirmək qüdrətinə malikdir".

Milli Məclisin deputatı Fəttah Heydərovla söhbətdən:

"90-cı illərin əvvəllərində Heydər Əliyev Naxçıvana yenicə gələndə onunla aramızda maraqlı söhbət oldu. Mən ona dedim:

– Hüseyn Cavidin abidəsi üzərində iş başa çatmaq üzrədir, mən fraqmentləri görmüşəm. Abidə siz Moskvaya getməzdən əvvəl qəbul olunmuş qərara uyğun qoyulmalıdır. Həmin qərarda həmçinin, Hüseyn Cavidin yubileyinin keçirilməsi, mavzoleyin inşası, bir sıra digər tədbirlər də nəzərdə tutulurdu.

Heydər Əliyev tənəli baxışlarla mənə baxıb dedi:

– Mən gedəndən sonra heç kim bu işlə məşğul olmayıb. Sən də həmçinin.

– Mən məşğul olmuşam, Heydər Əliyeviç, bəzi şeylər eləmək mümkün olub. Ancaq təəssüf ki, siz Moskvaya gedəndən sonra Hüseyn Cavidlə baş-başa üç adam qalıb – Turan Cavid, Rafael Hüseynov və mən. Başqa heç kim onu yada salmayıb.

Əlbəttə, siz bilirsiniz ki, 1981-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Hüseyn Cavidin nəşi Sibirdən Azərbaycana gətirildi və Naxçıvanda torpağa tapşırıldı. Elə o vaxt MK-nın yubileyin keçirilməsi, abidə ucaldılması və s. barədə qərarı çıxdı. Sonra Heydər Əli-

yev Moskvaya köçdü, bu vaxt mən Naxçıvanın mədəniyyət naziri oldum. Böyük şairin yubileyini Heydər Əliyevsiz keçirdik, muzeyini açdıq, abidənin ucaldılacağı yerə daş qoyduq. Sonra isə hər şey yaddan çıxdı. Ancaq mən vaxtaşırı Bakıya gəlir, abidə üzərindəki işin gedişilə maraqlanırdım. Heykəltəraşlar şikayətlənirdilər ki, hər şey hazırdır, onlara isə əmək haqqı ödəmirlər. Xahiş edirdilər ki, kömək edək. Bütün bunları Heydər Əliyevə danışdım.

O, söhbətimi dinləyib, köks ötürdü.

– Bilirsən, mən başa düşə bilmirəm, nə üçün onlar belə hərəkət edirlər. Bakıda işləyəndə respublikadan ötrü nəyəsə nail olmaq üçün Moskvada kabinet qalmırdı ki, qapısını döyməyim. "Azelektroterm", Bakı Məişət Kondisionerləri zavodlarının inşasına, respublikada xalq təsərrüfatının inkişafına dair Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin miqyaslı qərarlarının qəbuluna nail oldum. Burada tamamlanmamış işlərim qaldı, məsələn, Gəncədə Avtomobil zavodunun inşası və bir çox tikintisi başa çatmamış müəssisələr. Baxmayaraq ki, Moskvada mənə doqquz sahənin kuratorluğunu həvalə etmişdilər və mənim də başım gecə-gündüz bu işə qarışmışdı, bununla belə, Azərbaycanda işlərin vəziyyətini nəzərdən qaçırmamağa çalışırdım. Zəng vurur, maraqlanır, məsləhət verirdim. Lakin respublika rəhbərliyindən heç kim yanıma gəlib, nədəsə, heç olmasa, tamamlanmamış işləri başa çatdırmaqda köməklik göstərməyi xahiş etmədi. Heç olmasa, kimsə bu işlərə görə narahatlıq keçirəydi. Kimsə respublikanın qayğıları ilə əlaqədar bu kabinetin astanasına qədəm qoyaydı".

Heydər Əliyev Fəttah Heydərova məşhur neftçi Qurban Abbasovla bağlı maraqlı bir əhvalat danışır. Fəttah Səməd oğlu bu epizodu Heydər Əliyevin ağzından eşitdiyi kimi mənə çatdırdı.

Heydər Əliyevin dedikləri:

"Təkcə Ümumittifaq "Xəzərdənizneftqazsənaye" Birliyinin baş direktoru, Sosialist Əməyi Qəhrəmanı Qurban Abbasov gəldi. Dedi ki, gəldim bir sizə deyim. Mən onu qəbul edib respublikadakı vəziyyət barədə sorğu-sual etməyə başladım. O şikayətləndi: bir işi eləyə bilmirlər, başqa iş alınmır. Mən soruşdum ki, kömək üçün niyə rəhbərliyə müraciət etmirsən. "Müraciət edirəm, – dedi, – hamı vəd verir, ancaq heç bir şey etmirlər".

– Heydər Əliyeviç, böyrəklərim xəstədir, dializlə yaşayıram. Hər on beş gündənbir qanımı təmizləmək üçün xüsusi aparatdan keçirirlər. Deyirlər ki, yapon aparatı qanı ayda, ay yarımda bir dəfə təmizləməyə imkan verir. Əgər imkanınız varsa, kömək edin. Azərbaycan həmin aparatdan alsın. Axı mənim kimi xəstələrdən respublikada yüzlərlədir.

– Sənin deputat bloknotun yanındadır? – deyə soruşdum. – Bu barədə ərizə yaz və mənə ver.

O həmin dəqiqə ərizə yazdı, sənədə dərkənar qoyub köməkçimə göndərdim. Bir həftədən sonra Yevgeni Çazovdan məktub aldım. Məktubda deyilirdi ki, belə tədbirlər beş ilə planlaşdırılır. Azərbaycanın bu beşillikdə bu cür aparatla təminatı nəzərdə tutulmayıb. Azərbaycan o biri beşillikdə nəzərdə tutula bilər. Mən köməkçimdən Çazovu yanıma çağırmasını xahiş etdim.

Çazov gəlib çıxdı. Mən onu qəbul otağında yarım saat gözlətdim. Sonra qəbul etdim, ancaq o, kabinetə daxil olanda yerimdən qalxmadım. Oturduğum yerdə ona əl uzatdım, ancaq oturmağı təklif etmədim.

– Bu nə cavabdır mənə göndərmisən? Qurdan Abbasov dənizdən neft çıxaranda sənin lə mən əmzikdən süd içirdik. O, cəbhəni neftlə təmin edirdi, qələbəyə yardım edirdi, bunun üçün sağlamlığını qurban vermişdir. O, SSRİ Ali Sovetinin deputatıdır, mənə müraciət edərək Azərbaycana bir aparat göndərilməsini xahiş edib. Mən onun ərizəsini sənə göndərirəm, sən isə mənə beşillik planlaşdırma, onun necə tərtib olunması barədə dərs verirsən. Ayıbdır! Mən – Nazirlər Soveti sədrinin birinci müavini kimi sizin sahəyə hamilik edirəm. Azərbaycanı tələb olunan aparatla təmin etmək üçün sizə on gün vaxt verirəm.

O çıxıb getdi. Bir həftədən sonra Azərbaycanın səhiyyə naziri Tələt Qasımov mənə zəng vurur:

– Salam, Heydər Əliyeviç. Sizinlə yoldaş Çazov danışmaq istəyir.

– Buyursun, bizi birləşdir.

– Heydər Əliyeviç, mən sizin göstərişinizə əməl etdim, – dedi Çazov.

O, hansısa respublikadan bir aparatı götürüb özü Bakıya gətir-

miş, quraşdırmışdı və indi də yerinə yetirilmiş iş barədə məlumat verirdi.

– Növbəti göstərişlərinizi gözləyirəm.

– Operativliyə görə sizə təşəkkür edir və xahiş edirəm Moskvaya qayıdan kimi yanıma gələsiniz.

Tələtə isə tapşırdım ki, onu layiqincə qəbul edib hörmətlə yola salsınlar.

Çazov yanıma gəldi. Bu dəfə mən onu qapının ağzında qarşıladım, qucaqlayıb öpdüm, yanında oturub, onun bütün xidmətlərini sadaladım.

– Siz tibb sahəsində görkəmli mütəxəssissiniz, ancaq siz həm də, necə deyərlər, yüksək əyarlı əsil insansınız.

Bax, belə işlər. Başa düşdün? Qurban Abbasov yanıma gəlib xahiş edən kimi, mən onu dərhal yerinə yetirdim. Baxmayaraq ki, gördüyün kimi, bu o qədər də asan məsələ deyildi.

Moskvaya getməyim ucbatından başa çatdıra bilmədiyim işlər hələ də tamamlanmayıb, çox şeylər dağılıb. Niyə? Bax, məni heyrətləndirən budur! Burada çoxlu adamlar var ki, məni sevmirdilər, mənim əleyhimə idilər. Ancaq axı Azərbaycan KP MK-da vaxtilə mənim irəli çəkdiyim adamlar işləməkdə davam edirdilər. Bəs niyə onlar kömək üçün müraciət etmədilər? Görünür, Moskva rəhbərliyindən qorxurdular. Qorxurdular ki, əgər mənim yanıma gəlib, nəsə xahiş etsələr, sabahısı gün onları işdən çıxaracaqlar".

Heydər Əliyevin həmin illərdə Bakının baş memarı işləyən qardaşı oğlu Rasim Həsən oğlu Əliyev qəhrəmanımın ən pis şübhələrini təsdiqləyən bir neçə epizod danışdı. Onun davamçısı hələ Heydər Əliyev respublikanın partiya rəhbəri olarkən həyata keçirilməsinə başlanmış həqiqətən inqilabi ideya və layihələri dondurmağa üstünlük verirdi. Bunlar isə sadəcə qısqanclıqdan irəli gəlirdi.

Rasim Əliyevlə söhbətdən:

"Əslində, mən Heydər Əliyevi istirahət edən görməmişəm. Hətta onun Barvixadakı bağ evinə gedəndə də. Oraya o, işdən sonra, saat on birdən tez gəlmirdi. O, çox yorğun görünürdü. Yalnız gücü ona çatırdı ki, çay içə-içə evdəkiləri soruşur, respublikada nələr olduğu ilə maraqlanırdı. Axı onun bir neçə ideyası vardı ki, onları hələ Bakıda olarkən həyata keçirməyə başlamış, ancaq başa çatdırmağa macal tapmamışdı. O, həmin işlərlə çox maraqlanırdı.

Misal üçün, onun, demək olar ki, tikinti mərhələsinədək gətirib çıxardığı ideyanı sonralar bizim və Moskvanın rəhbərləri yerlə-yeksan etdilər. O, Abşeronda aqroşəhərcik tikmək arzusundaydı. Bu şəhərcik faktiki olaraq şəxsi mülkiyyət əsasında fəaliyyət göstərməli idi. Baxmayaraq ki, o vaxtlar bu cür sözlər işlədilmirdi. Ancaq məsələnin məğzi məhz belə idi. Başqa sözlə, aqroşəhərciyin hər bir ailəsinə təmənnasız istifadə üçün 1–1,5 hektarlıq sahə ayırmaq nəzərdə tutulurdu. Aqroşəhərcik dövlət tərəfindən tikilib Abşeron sakinlərinə verilməli idi. Hətta ərazi də seçilmişdi: neft mədənlərindən aralı, Buzovna qəsəbəsinə dönən yerdən ta uzaqlaradək münbit torpaqlı geniş bir ərazi.

Moskvadan kənd yaşayış məntəqələrinin dizaynı və layihələndirilməsi İnstitutunun direktoru akademik Sokolov dəvət olunmuşdu. O, Heydər Əliyevin tapşırığı ilə hazırlanmış maketi gətirmişdi: şəhərciyin ayrı-ayrı malikanələri və baş plan. Layihəni bəyəndilər. Mənə Bakının baş memarı kimi bu məsələyə nəzarət etməyi tapşırmışdılar. Hələ o vaxt sovet statistikası təsdiq edirdi ki, kənd təsərrüfatının bazar məhsullarının 70%-ni insanlar həyətlərdə, həyətyanı sahələrdə istehsal edirlər. Bu statistika yalnız ölkə rəhbərliyinə məlum idi. Heydər Əliyev belə bir eksperiment aparmaq qərarına gəldi. İnsanların məhsul istehsalında maraqlı olmaları üçün bu sahələri uzunmüddətli icarə şərtilə və ya başqa nə cürsə onlara paylamalı. Onlar da öz məhsullarını kooperasiya vasitəsilə satsınlar.

Ancaq o, Moskvaya köçən kimi, hər şey yarımçıq qaldı. Kamran Bağırovun respublikaya rəhbərliyinin ilk aylarında akademik Sokolov layihənin həyata keçirilməsinə razılıq almaq üçün yenidən gəldi. O vaxt artıq ikinci katib Konovalov idi. Maketə baxmağa hamını, o cümlədən, məni də dəvət etdilər. Müzakirənin gedişində Sokolov yeni rəhbərliyə yenidən məruzə etdi. Bax, onda diskussiya başladı. Kamran Bağırova qədər Konovalov çıxış etdi. Bu ideyanı darmadağın edərək ona siyasi rəng verdi. "Biz neçə illərdən bəri kolxozlar yaradıb, kollektivləşdirmə aparmışıq, siz isə yenidən kapitalizm, yenidən şəxsi mülkiyyət yaratmaq istəyirsiniz?"

O, Azərbaycana qədər Vladimir vilayətində işləmişdi. Mən Vladimirdə olmuş, orada bəzi şeyləri görmüşdüm, odur ki, ona dedim: "Siz Vladimirdə işləmisiniz və çox gözəl bilirsiniz ki, bostan məhsullarının 80%-ə qədərini bazara xüsusi mülkiyyətçilər çıxarırlar. Bu əsasda sizdə nə cür konserv zavodları inşa olunmuşdu! Sizin vaxtınızda orada şöhrəti bütün ölkəyə yayılmış xiyar konservləri istehsal edən zavod tikilmişdi. Bu məhsullar isə şəxsi təsərrüfatlardan, sahibkarlardan əldə olunurdu. Burada isə orazi altı sot yox, hektar yarım olacaq". O, məni dayandırıb, sakitləşdirdi. Kamran Bağırov sözdə guya ki, bizim ideyanın tərəfdarı kimi çıxış etdi. Ancaq buna baxmayaraq, layihəni dərin quyuya saldılar.

– Buradan belə nəticə çıxır ki, hələ sovet sistemi çərçivəsində Əliyev islahatçı, yenilikçi kimi çıxış edirdi. Çünki başa düşmüşdü ki, əgər bazar iqtisadiyyatına keçməsək, bizi açıq gözləyir. Axı digər regionlar respublikaya ət, yağ və südü lazım olandan az göndərirdilər. Ona görə də 80-ci illərin əvvəlində o, talon sisteminə keçməyə məcbur oldu.

– Moskvada o məni sorğu-suala tutanda, ona hər şey barədə məruzə edirdim. Həmin yığıncaq və Konovalov barədə də danışdım. "Heyif ki, əməyin yeni formalarını tapmağın, islahatlar keçirməyin zəruriliyini başa düşmürlər", – deyə o təəssüflənd.

Kamran zəif, qeyri-təşəbbüskar rəhbər idi.

Heydər Əliyevin Moskvaya getməsindən heç bir ay keçməmiş mənim sürücüm, Abşerondan çıxmış sadə bir insan: "Rasim müəllim, – dedi, – Azərbaycan məhv oldu, Heydər Əliyevin Moskvaya getməsilə Azərbaycan məhv oldu". – "Sən nə danışırsan?" – deyə onun ətəyini çəkdim. – "Siz hələ mənim sözlərimi xatırlayacaqsınız". Onun sözləri düz çıxdı.

Bu, özünü nədə göstərdi? Bax, misal üçün, Heydər Əliyev mənə beynəlxalq dərəcəli kompleksin layihəsini yaratmağı tapşırmışdı. Orada otellər, konfrans zalları, sərgi salonları, restoranlar, mağazalar, mini-teatr, idman kompleksi, başqa sözlə, müasir Qərb ölkələrində gördüklərimiz olmalı idi. Kompleks elə tikilməli idi ki, orada hər cür iri beynəlxalq tədbirlər keçirmək mümkün olsun. O, həmin kompleksi Əl Oyunları stadionunun arxasında, dənizdə tikməyi planlaşdırırdı. Özü də tikintini AFR-dən olan mütəxəssislərin

icra etməsi üçün Moskvanın razılığını almağa nail olmuşdu.

Başda nazirlər, bank müdirləri olmaqla alman inşaatçılarından ibarət 18–20 nəfərlik briqada gəldi. Bu, Heydər Əliyevin burada işlədiyi son ildə olmuşdu. O vaxta qədər isə o mənə layihəni hazırlamağı tapşırmışdı. Mən layihəni hazırladım, maket düzəltdim. Bir 30 mərtəbəli dairəvi qüllə, yanında 20 mərtəbəli və daha kiçik 15 mərtəbəli qüllələr. Bir-biri ilə birləşən, bir-birinin qarşısında üç qüllə. Bu yaxınlaradək maketi saxlamışdım. Köçəndə onu sındırdılar, ancaq albomlar indiyədək qalır. O vaxtlar belə şey nə Dubayda, nə də başqa bir yerdə vardı. Almanların nümayəndə heyəti ilə birgə AFR-in məşhur arxitektoru, Bonndakı Millətlər Sarayının müəllifi Karl Kintsel də gəlmişdi. Əvvəlcə iki qüllə düzəltmişdim, üçüncünü onun təklifi ilə düzəltdim. Onunla birlikdə işləməyi nəzərdə tutmuşduq. Çünki tikinti alman texnologiyası ilə aparılacaqdı və kompleksi onlar tikəcəkdilər.

Heydər müəllim layihəni bəyəndi. Düz iki aydan sonra o, Moskvaya köçdü. Maliyyə məsələsi hələ həll olunmamışdı. Maliyyələşdirmə sovet-alman münasibətləri formatında alman tərəfdən olmalı idi. Konovalov Moskvanın təmsilçisi idi. Düşünmürəm ki, Moskva qadağanedici direktivlər versin. Sadəcə olaraq, qısqanclıq yaranmışdı.

– Qısqanclıq niyə? Başa düşmürəm. Axı bu kompleks Kamran Bağırovun hakimiyyəti vaxtı tikiləcəkdi və uğurlar da onun adına yazılacaqdı.

– Mən də çox şeyi başa düşmürdüm. Bircə onu bilirdim ki, layihənin sonrakı müzakirəsi artıq daha aşağı səviyyələrdə aparılır. Birinci dəfə yığıncaq Kamran Bağırovun yanında keçirildi, sonra isə almanları Bakı Şəhər Partiya Komitəsinin birinci katibi Fuad Musayev qəbul etdi. O da mənə layihəni almanlara verməyi əmr etdi. Mənim moskvalı həmkarlarım dedilər ki, belə etmək olmaz, çünki layihənin milyonlarla qiyməti var, o çox novator və maraqlıdır, əmin deyilik ki, onlar həmin layihəni istifadə etməyəcəklər. Buna baxmayaraq, Fuad Musayev layihəni verməyi əmr etdi. Bundan sonra hər şey sakitləşdi.

– 1982-ci ilə qədər Heydər Əliyev müasir Azərbaycanı yaratdı, sənayeni, kənd təsərrüfatını, sosial sahəni inkişaf etdirdi.

Sonra isə infrastruktur layihələr barədə düşünməyə başladı: aqroşəhərcik, beynəlxalq hava limanı, biznes-mərkəzlər. Başqa sözlə, gələcəyi görürdü. Onun gedişindən sonra belə miqyaslı layihələr olmadı?

– Bir dənə də layihə olmadı. Hər şey batıb getdi. Kamran bircə balıq tutmağa gedirdi. Heydər Əliyev bunu mənə Moskvada xatırlatdı. Bir dəfə mən ona respublikada hər şeyin məhv olduğunu deyib şikayətlənəndə o dedi: "Bəs sən necə səs verdin, nə tələb edirdin? Sən və Lidiya Xudatovna. Siz son damlalar oldunuz. Mən özümdən sonra tamam başqa bir adamı qoyacaqdım. Ancaq sizin təkidinizlə fikrimi dəyişdim". Mən güman edirdim: Kamran hündürboy, görkəmli, mavi gözlü, rusdilli idi. Onunla işləmək asan və maraqlı olar, o hər şeyi başa düşər. Elə başqaları da Kamran Bağırovun namizədliyi üzərində dayanmışdılar. Necə deyərlər, ürəkdən istəyirdilər ki, yaxşı olsun, əksinə oldu".

Xüsusi xidmət orqanlarının veteranları Bahadur Hüseynov və Arif Zeynalov kitab üçün mənə iki maraqlı epizod "bağışladılar". Bunlar Heydər Əliyevin öz həmyerlilərinə, hətta ən kiçik məsələlərdə belə necə diqqətli olduğuna əyani sübutdur.

"1983-cü ildə, Heydər Əliyev artıq Moskvada işləyəndə, Bakıda fövqəladə hadisə baş verdi. Laçın rayonunda ağır xəstəyə təcili tibbi yardıma tələsən həkimi aparan vertolyot, əlverişsiz hava şəraitində istiqaməti itirmiş və İran ərazisinə uçmuşdu. Orada onu yerə endirib saxlamışdılar. Heydər Əliyev bundan xəbər tutub, həmin gecə xüsusi rabitə ilə kabinetimə zəng vurdu. O vaxtlar mən Azərbaycanın DTK sədrinin müavini işləyirdim.

O soruşdu:

– Vertolyota nə olub? Bu nə vertolyotdur?

Mən izah etdim ki, bu, Səhiyyə Nazirliyinin vertolyotudur. İçərisində Laçın rayonundakı xəstəyə tibbi yardım göstərmək üçün uçan həkim-mütəxəssislər olub.

Heydər Əliyev dedi:

– Vertolyotu mütləq geriyə qaytarmaq lazımdır. İranlılarla razılığa gəlməliyik. İndi isə xəstənin həyatını xilas etmək üçün dərhal Laçına başqa bir həkim qrupu göndərin.

Mən dedim ki, biz bunun üçün bütün zəruri tədbirləri görürük və yaxın saatlarda Gəncədən oraya başqa bir həkim qrupu uçacaq. Vertolyotun qaytarılmasına gəlincə isə bunun üçün də müvafiq işlər görülür.

– Bu işi mütləq başa çatdırın, – dedi.

Başqa sözlə, hər şeydən çox onu xəstənin vəziyyəti, insan həyatının xilası narahat edirdi.

(B.Hüseynovla söhbətdən).

"1985-ci ildə Moskva ətrafında, Dubravada – DTK-nın istirahət evində dincəlirdim. Azərbaycanın daimi nümayəndəliyindən Bolşoy Teatra Üzeyir Hacıbəyovun yubileyinə iki nəfərlik dəvətnamə vermişdilər. Mənimlə dincələn, orqanlarda çalışan həmyerlim gənc zabiti də özümlə götürmüşdüm. Yerlərimiz onuncu sırada idi. Tədbirin başlanmasına bir neçə dəqiqə qalmış Siyasi Büronun üzvü Heydər Əliyev mədəniyyət naziri Demiçevlə birlikdə zala daxil oldu. Yanımızdan keçəndə o, baxışlarını mənə yönəldib ayaq saxladı. Mən ayağa qalxdım. O soruşdu: "Ezamiyyətdəsiniz?" – "Xeyr, istirahətdəyəm". – "Harada dincəlirsiniz?" – "Dubrava" istirahət evində". – "Maşınınız varmı? Necə qayıdacaqsınız?" Mən cavab verdim ki, nəqliyyat sarıdan hər şey qaydasındadır. Sonra o üzünü Demiçevə tutub dedi ki, bu mənim həmyerlimdir. Mən yalan danışmışdım, əlbəttə ki, biz maşınsız idik. Ancaq bunun nə əhəmiyyəti vardı ki?

O bizimlə səmimi görüşdü və onlar lojaya keçdilər.

(A.Zeynalovun söylədikləri).

Kasparovla Karpovun məşhur "heç-heçə"si

70-ci illərin ortalarında Harri Kasparov öz nəslinin ən reytinqli şahmatçısı oldu. Çoxları gənc bakılının bir-birinin ardınca uğurlar qazandığı beynəlxalq turnirlərdəki parlaq qələbələri xatırlayır. Heydər Əliyev öz sevimlisi üçün hər cür şərait yaradırdı: təzə maşın, təzə mənzil, respublika mükafatları və s. 1980-ci ildə Harri ən cavan beynəlxalq qrossmeyster, 1981-ci ildə SSRİ çempionu, 1982 və

1983-cü illərdə isə nüfuzlu "Oskar" şahmat mükafatının sahibi oldu. Bir sözlə, o, inamla zirvəyə doğru irəliləyirdi.

XX əsrin 80-ci illərinin əvvəlində dünyanın fəaliyyətdə olan çempionu Anatoli Karpov idi. Karpovla oyuna girmək üçün əvvəlcə Korçnoyla turnir keçirilməliydi. Ona qalib gəlib, Smıslovla oynamaq və yalnız qələbə çalandan sonra Karpovla şahmat taxtasının arxasına keçmək olardı.

Korçnoyla Karpov arasında ilk iddiaçılar matçı ABŞ-da Pasadendə olmalı idi.

Taleyin hökmü ilə Viktor Korçnoy SSRİ-nin düşməni idi və Kasparova da oyuna getməyə icazə vermədilər. Təbii ki, mövcud qanunlara görə bunu onun üçün texniki məğlubiyyət hesab etdilər.

Həmin vaxt Heydər Əliyev artıq Moskvada işləyirdi, SSRİ Nazirlər Kabineti sədrinin birinci müavini kimi idmana hamilik edirdi. Azərbaycanın Dövlət İdman Komitəsinin keçmiş sədri Yuri Məmmədovun dediyinə görə "o, mümkün olmayan şeyləri də elədi ki, Kasparov bu oyunu oynaya bilsin. O, hadisələri geriyə çevirdi. Heydər Əliyev Korçnoyun yanına xüsusi adamlar göndərdi və o da oynamağa razılıq verdi. Məncə, oyun Yuqoslaviyada keçirilirdi. Kasparov oyunu uddu, sonra Riqada Smıslovla oynadı. Sonra isə 1984-cü ildə biz yarım il Karpovla Moskvada oynadıq".

Yuri Məmmədov Anatoli Karpovla oyun zamanı Harri Kasparovun komandasının rəsmi rəhbəri idi. Mən Yuri Hüseyn oğlu ilə görüşüb həmin məşhur yarışın təfərrüatını danışmağı xahiş etdim. Axı, qələbəyə bərabər heç-heçəyə Kasparov Heydər Əliyevin mənəvi dəstəyi sayəsində nail olmuşdu.

Yuri Məmmədovun xatirələrindən:

"Yadımdadır ki, biz Moskvaya uçmaq üçün təyyarəyə mindik. Kasparovun əsəbləri çox sakit olduğundan təyyarəyə minən kimi yatır. O, anası və mən uçurduq, komanda artıq yola düşmüşdü. Biz təyyarədən enəndə o birdən məndən soruşdu: "Yuri Hüseynoviç, mən necə oynayacağam?". Mən cavab verdim: "Bilmirəm sən necə oynayacaqsan, ancaq uduzmayacaqsan". O əl çəkmədi: "Axı belə olmur. Xüsusilə də bu cür oyunlarda". Mən isə cavabında "Yaşayarıq, görərik", – dedim. Söylədiklərim peyğəmbərcəsinə düz

çıxdı: o udmasa da, uduzmadı da – oyunu dayandırdılar.

– Orada nə baş vermişdi ki?

– Orada o qədər hadisələr baş vermişdi ki, bir romana çatar. Mən Heydər Əliyevin gizli dəstəyini hiss edirdim. O, bir dəfə də olsun, oyunlara gəlmədi, çünki onun kimə azarkeşlik etdiyi onsuz da məlum idi. Oyunun birinci hissəsi İttifaqlar Evinin Sütunlu salonunda keçirilirdi. Oyuna baxmağa çox adam gəlirdi: Sov.İKP MK-nın şöbə müdirləri, MK katibləri. Vəziyyət mürəkkəbləşəndə (hesab Karpovun xeyrinə 5:2 idi, ona qələbə üçün yalnız bir partiyanı udmaq lazım idi) o tərəf baş sındırırdı ki, Harri uduzsun. Bu vaxt Kamran Bağırovun referenti Bakıdan zəng vurub dedi: "Heydər Əliyeviç xahiş etdi çatdırım ki, Məmmədov oyunla bağlı bütün məsələləri Nikolay Rusakla həll etsin (o, SSRİ Dövlət İdman Komitəsi sədrinin birinci müavini idi) və həm də Məmmədov möhkəm olsun. Heç bir təxribata uymasın". Oyun ətrafında elə intriqalar yaranmışdı ki!

– Deyirdilər ki, Harri Kasparova hətta bizim məşhur ekstrasensimiz Tofiq Dadaşov da kömək edir.

– Elə şey də vardı. Ancaq o əsas deyil. Yadınızdadırsa, hesab 5:3-ə çatanda sonsuz heç-heçələr başladı. Hər iki tərəf bu gərginlikdən möhkəm yorulmuşdu. Karpov tərəfi mənə təklif etdi ki, yarışmanı 3 aylıq saxlasınlar, sonra yenidən davam etdirsinlər. Mən qətiyyətlə etiraz edib dedim: biz buna o vaxt razı olarıq ki, siz yarışı dayandırırsınız və sonra biz hər şeyi sıfırdan, yəni 0:0-dan başlayırıq. Mən buna nail oldum.

Yarışın təşkilat komitəsinin sədri SSRİ-nin mədəniyyət naziri Pyotr Demiçev idi. O mənim oteldəki nömrəmə zəng vurub dedi:

– Niyə inad edirsiniz, yoldaş Məmmədov?

– Tərsliyimi nədə görürsünüz, cənab nazir? – deyə soruşdum.

– Bəs necə, belə bir fikir var ki, uşaqlar bir qədər dincəlsinlər. Ancaq siz etiraz edirsiniz.

– Mən o vaxta qədər etiraz edəcəyəm ki, mənim təklifimlə razı olsunlar.

– Sizin təklifinizlə heç kim razılaşmayacaq, – deyə o, istehza ilə bildirdi və qəflətən soruşdu: – Sizin iki partiya biletiniz var, nədir?

Mən isə cavabında:

– Pyotr Niloviç, mənim bir partiya biletim var, özü də onu mənə siz verməmisiniz – dedim.

– Yaxşı, baxarıq, – deyə əsəbiliklə dəstəyi asdı.

Heydər Əliyevlə mənim birbaşa əlaqəm olmasa da, o bu söhbətdən xəbər tutmuşdu. Heydər Əliyev çox mahir konspirator idi və maraqlı tərəf kimi "aşkarlanmaq" istəmirdi. SSRİ Bədən Tərbiyəsi və İdman üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Nikolay İvanoviç Rusak mənə danışmışdı: görünür, Siyasi Büronun üzvləri mövcud vəziyyəti dar çərçivədə müzakirə etmişdilər. Demiçev də həmkarlarına danışıb ki, Azərbaycan nümayəndə heyətinin rəhbəri Məmmədov tərslik edir. Elə həmin gün məni Sov.İKP MK-ya çağırıb, şöbə müdirindən başlayaraq təlimatçılara qədər əhatəyə alıb inandırmağa çalışdılar ki, mən haqlı deyiləm. Mən isə öz dediyimin üstündə durmuşdum: ya davam etdiririk, ya da istirahətdən sonra oyunu yenidən başlayırıq. Orada da mənə hədə-qorxu gəlməyə, partiya biletini yada salmağa başladılar.

Yadımdadır, bir qədər vaxt keçəndən sonra biz bağ evindən qayıtdıq və məni təcili "Nasional" mehmanxanasına çağırdılar. Artıq gecə yarıdan ötmüşdü. Sabah bizim növbəti partiyamız oynanmalı idi. Mehmanxanada məni FİDE-nin prezidenti Kompomanes və Karpovun nümayəndə heyətinin rəhbəri, Baturinski soyadlı DTK polkovniki gözləyirdi. Biz vəziyyəti iki saat yarım müzakirə etdik. Onlar başa düşdülər ki, bu məsələdə məni fikrimdən döndərmək mümkün deyil, ona görə də təslim oldular: vəssalam, sabah oyunu dayandırırıq və üç aydan sonra yarışı 0:0 hesabdan başlayırıq. Bu, bizim ilk qələbəmiz idi.

Sonra Kasparov özünü yaxşı aparmadı, jurnalistlərə bildirdi ki, əbəs yerə oyunu saxlayıblar, mən Karpovu onsuz da məğlub edəcəkdim. Halbuki həmin gecə mən mehmanxanaya gəlib oyunun heç-heçə ilə nəticələndiyini elan edəndə Harri sevincindən məni duz kimi yaladı.

Burada incə bir məqam var. Mən kim idim ki, Siyasi Büro üzvünə deyəm: partbileti mənə siz verməmisiniz. Ancaq Heydər Əliyevin gözəgörünməyən, gizli dəstəyi mənə bu qarşıdurmada güc və inam bəxş etdi".

Məlumdur ki, A.Karpovun arxasında Pyotr Dolgix və Dövlət İdman Komitəsinin sədri, Qorbaçovun adamı olan Marat Qramov dayanırdı. Yeri gəlmişkən, bu əhvalat da gələcək Baş katiblə Heydər Əliyev arasındakı münasibətlərə sərinlik gətirə bilərdi. Təəssüf ki, sonralar H.Kasparov özünü düzgün aparmadı: Qarabağ separatçılarının tərəfində durdu, öz doğma şəhəri barədə bir silsilə məkrli-qıcıqlandırıcı məqalələr yazdı. Ona atadan da artıq yaxşılıqlar etmiş xeyirxah insanı bir dəfə də olsun yada salmadı. Kasparovun ailəsini yaxşı tanıyan Yuri Məmmədovun dediyinə görə, Qarabağ məsələsində Harriyə qatı antiazərbaycan mövqeyi tutan nənəsinin böyük təsiri vardı. Baxmayaraq ki, şahmatçının doğma xalasının əri azərbaycanlı idi.

Bununla bağlı Yuri Hüseynoviç maraqlı bir əhvalatı yada saldı. 1984-cü ildə Karpovla ilk oyun keçirərkən onlar çox vaxt axşamlar Harri ilə mehmanxananın qarşısında gəzişirdilər. Bir dəfə onlara deputat nişanlı bir nəfər yanaşıb özünü Ermənistanın avtonəqliyyat naziri kimi təqdim edib (Y.Məmmədov onun adını yadda saxlamayıb). O, Kasparovla salamlaşandan sonra bildirib ki, bütün Ermənistan ona azarkeşlik edir, sevinir. Onunla söhbət etmək fikrindədir. Harri Kasparovsa cavabında etinasızlıqla bildirib: "Mənim Ermənistana heç bir aidiyyətim yoxdur. Mənim Vətənim Bakı, Azərbaycandır". Elə həmin dəqiqə də Yuri Məmmədovla oradan uzaqlaşıb. Bax, belə işlər.

Əksinə, Anatoli Karpov daha ağayana hərəkət edərək Ermənistan–Azərbaycan münaqişəsində ölçülü-biçili konstruktiv mövqe tutaraq, Heydər Əliyevə həmişə hörmət və ehtiram bəsləmişdir. Patriarxın ölümündən sonra isə Karpov onu "Yüksək dərəcəli siyasi qrossmeyster" adlandırmışdı.

7 №-li dövlət bağ evinin hasarları arxasında

Heydər Əliyev Siyasi Büronun üzvü seçiləndən və Moskvaya köçəndən sonra ona statusuna görə şəhər kənarında bağ evi verdilər. Partiya elitası üçün salınmış qəsəbədə bir neçə evi göstərdilər. O, Moskva ətrafındakı Odintsovo rayonunda, Siyasi Büronun bir sı-

ra üzvünün, Sov.İKP MK katiblərinin mühafizə olunan bağ evlərinin sıralandığı mənzərəli bir guşənin – Qorki–10-da yerləşən 7 №-li dövlət bağ evinin üzərində dayandı. Qonşuluqda MK katibləri Ponomaryovun, Dolgixin, mədəniyyət naziri Demiçevin bağ evləri idi. Ev geniş idi, daimi yaşamaq və işləmək üçün təmin olunmuşdu. Rublevo–Uspensk şosesi ilə 35 dəqiqəlik yolu vardı.

Heydər Əliyevin qızı Sevil xatırlayır: "Biz atamla və mənim balaca qızım Zərifə ilə Qorki–10-dakı bağ evinin ilk sakinləri idik. Anam bir qədər sonra gəldi. Çünki Bakıda yır-yığışla məşğul idi. O vaxt Moskvada mənim öz evim vardı, ancaq mən atamı tək qoya bilərdimmi? Həm də atam istəyirdi ki, biz hamımız bir yerdə, böyük ailə kimi yaşayaq".

Sonralar Heydər Əliyevə Aleksey Tolstoy küçəsi 15-də mənzil ayırdılar. İndiki yeni tikililərin geniş mənzillərinin heç yanından da keçməyən dörd xudmani otaqdan ibarət idi. Ancaq Zərifə xanımın sevincinin həddi-hüdudu yox idi – nəhayət ki, onun xidməti yox, şəxsi mənzili vardı. Onun bilavasitə rəhbərliyi altında mənzildə yerdəyişmə elədilər, təmir işləri görüldü. Zərifə xanım öz "yuvasını" böyük həvəslə bəzədi, ancaq orada yaşamaq ona qismət olmadı. Heydər Əliyev belə bir qərar çıxardı: bütün ailə Qorki–10-a köçəcək.

"Moskvadakı mənzil Heydər Əliyeviçə hər cəhətdən qeyri-münasib idi – deyə Aleksandr İvanov şefinin bu qərarını şərh edir. – Axı o, səhərlər gəzməyi, idman eləməyi çox xoşlayırdı. Şəhərdə isə hara çıxasan, pilləkənlərdə qaçmayacaqsan ki?! Həm də o, Siyasi Büronun fəaliyyətdə olan üzvü idi, nəzarətsiz gəzməyə icazə verməzdilər. Bir sözlə, onun sağlamlığı, əmək qabiliyyətli olması üçün bağ evində qalması münasib idi".

Heydər Əliyev Moskvaya köçməmişdən bir neçə il qabaq uşaqları artıq orada yaşayırdılar. Sevil SSRİ EA Şərqşünaslıq İnstitutunda, ömür yoldaşı Mahmud Məmmədquliyev SSRİ DTK-sında işləyirdi. Onların Sevilin anasının adını daşıyan Zərifə adlı qızları böyüyürdü. Sonra Əhməd və Azər dünyaya gəldi.

İlham da paytaxtda yaşayırdı. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda oxuyurdu. Sonra həmin institutun aspirantı oldu, 1983-cü ilin əvvəlində Heydər Əliyev Moskvaya köçəndən sonra evləndi. Həyat yoldaşı Mehriban adlı çox gənc bir qız idi. Belə söhbət gəzirdi ki, İlhamın erkən evlənməsinin təşəbbüskarı Zərifə xanım olub. Ehtiyat edirdi ki, cavan, yaraşıqlı oğlan Moskvada kiməsə "ilişə" bilər. Odur ki, məşhur ziyalılar nəslindən olan Paşayevlər – İmanquliyevlər ailəsindən bəyəndiyi qızı oğlu üçün nişanladı. Xoşbəxtlikdən bu elə izdivaclardan oldu ki, xalq arasında "onların kəbini göydə kəsilib" deyərlər. İlhamla Mehribanın birliyi həsəd doğuracaq dərəcədə möhkəm və xoşbəxt oldu. Bu bəxtəvər cütlük Əliyevlər ocağına üç gözəl nəvə, bütövlükdə Azərbaycana isə ibrətamiz, nümunə götürəsi ailə bəxş etdi.

Beləliklə, 1983-cü ilin əvvəlində hər üç ailə Qorki–10-da məskunlaşdı. "Heydər Əliyeviç bütün ailəni bir dam altına cəmləşdirdi və bundan böyük məmnunluq duyurdu, – A.İvanov danışır. – O, ancaq axşamlar kimisə görə bilirdi, heç kimlə başqa ünsiyyəti yox idi. Heydər Əliyeviç də, Zərifə xanım da çox istəyirdilər ki, uşaqlarla birgə olsunlar. Çünki onlara çox bağlı idilər".

Zərifə xanım Moskvada da fəal elmi işlə məşğul olurdu: daim müxtəlif simpoziumlarda, konfranslarda iştirak edir, yığıncaqlarda çıxış edirdi. Öz həmkarları – oftalmoloqlarla məhdud dairədə görüşürdü. Siyasi Büro üzvlərinin arvadlarından yalnız Raisa Maksimovna Qorbaçova ilə yaxınlıq edirdi. Bakı üçün, doğmaları üçün o da əri kimi çox darıxırdı.

Zəhra Quliyeva ilə söhbətdən:

"70-ci illərdə ad günümə oftalmoloqları, o cümlədən, Zərifə xanımı bacısı ilə birgə dəvət edirdim. Zərifə həmişə Sevoçka ilə gəlirdi. Bəzən Gülarə* ilə fortepianoda dörd əllə ifa edirdilər.

Bir dəfə Zərifə xanım mənə dedi:

– Zara, bilirsən, Heydər Əliyeviç məni yalnız bura həvəslə buraxır. Mən axı hər yerə gedə bilmərəm.

Biz hər il yığışırdıq. Onlar Moskvaya köçəndən sonra Zərifə xanım mənə zəng vurub təbrik etdi və soruşdu:

– Zara, siz yenə də toplaşmısınız?

– Yox, Zərifə, – cavab verdim, – biz artıq yığışmırıq.

Əvvəla, o vaxt artıq onun böyük bacısı rəhmətə getmişdi, ikincisi də, Zərifəsiz yığışmağın mənası yox idi. Ağzımızın ləzzəti qaç-

* Gülarə Əliyeva – Zərifə xanımın bacısı, məşhur pianoçu, "Dan ulduzu" ansamblının rəhbəri.

mışdı. O, məclisimizin yaraşığı idi.

Mən zəng vurub soruşurdum:

– Zərifə, necəsən?

– Qəfəsə salınmış quş kimi".

Zərifə xanımın qızı Sevil xatırlayır: "Anam Moskvaya köçəndən sonra Qorki–10-dakı bağa ilk olaraq mərhum Leonid İliç Brejnevin həyat yoldaşı Viktoriya Petrovnanı dəvət etdi. O, bizə nəticəsi Qalya ilə gəlmişdi. Ondan bir qədər əvvəl mənim oğlum olmuşdu və yadımdadır ki, Brejnevin nəticəsi əmziklə yedirtdiyim körpəni necə maraqla nəzərdən keçirirdi. Anam Viktoriya Petrovnaya çox mehribanlıqla yanaşır, diqqət və qayğısı ilə onu ovutmağa çalışırdı. Elə həmin vaxtlarda Brejnevin ünvanına tənqidlər səslənməyə başlamışdı, onun arvadını hökumət bağlarına dəvət etmək özü böyük cəsarət idi".

Rusiya yazıçısı və tarixçisi N.Zenkoviç Zərifə Əliyeva haqqında belə yazır:

"Mən Siyasi Büro üzvlərinin hamısının ömür-gün yoldaşları haqqında bioqrafik məlumatları son dərəcə dəqiqliklə öyrənib müqayisə etdim. Məlum oldu ki, Siyasi Büronun üzvü Heydər Əliyevin həyat yoldaşı onların arasında ən təhsilli, ən savadlıdır. Hətta Sov.İKP MK-nın Baş katibinin arvadı Raisa Maksimovnadan da təhsilli, savadlı. Zərifə xanım təkcə savadı ilə fərqlənmirdi, o, bütöv şəxsiyyət idi. SSRİ-nin siyasi rəhbərliyinin digər üzvlərinin evdar qadınlarından fərqli olaraq, Heydər Əliyevin həyat yoldaşı dünyada tanınırdı. Təkcə Siyasi Büro üzvünün arvadı kimi yox, görkəmli alim, 1983-cü ildən Azərbaycan SSR Elmlər Akademiyasının akademiki, 1977-ci ildən tibb elmləri doktoru, 1978-ci ildən professor, oftalmologiyada yeni istiqamətin banisi kimi.

O, Siyasi Büro üzvlərinin həyat yoldaşları arasında bu cür statusa malik yeganə qadın idi"[36].

Zərifə Əliyeva ilə ünsiyyətdə olan hər kəs ilk növbədə onun anadangəlmə ziyalılığını, əsilzadəliyini və qeyri-adi şirinliyini, mələhətini qeyd edir. Misal üçün, Heydər Əliyevin köməkçisi Yuri Soloduxin özünün Qorki–10-a səfərlərini belə xatırlayır:

"Mən onun bağ evində iki ya üç dəfə olmuşam. Bu, məşhur rus

yazıçısı Qorkinin keçmiş bağından iki kilometr aralıdır. Orada mən, ümumi hesabla iki ilə yaxın vaxt keçirmişəm, çünki hansısa mühüm mətnlərin hazırlanması üçün briqadalar yığanda, adətən, onları keçmişdə M.Qorkinin bağı olan imarətdə yerləşdirirdilər. Qorki öləndən sonra həmin bağ evi XDİK, XX qurultaydan sonra isə Sov.İKP MK-nın İşlər İdarəsi onu öz balansına keçirdi.

Mən Heydər Əliyeviçlə birbaşa işləyəndə də, "Lenin" məruzəsi yazanda da ora gedirdim. Onda artıq məsləhətçilər qrupuna rəhbərlik edirdim. Elə onun ailəsi ilə də o vaxtlar tanış olmuşam.

Gənc, xoşbəxt cütlüyü – İlham və Mehribanı yaxşı xatırlayıram. İlham hələ aspiranturada oxuyanda evlənmişdi. Zərifə Əzizovna mənə deyirdi:

– Yuri Nikolayeviç, bəziləri belə hesab edirlər ki, İlham tez ailə qurub. Ancaq mənim həyat təcrübəm və qızımın təcrübəsi məndə belə bir qənaət yaradıb ki, valideynlər belə işlərə qarışmamalıdırlar...

Sonralar biz İlhamla bir binada, indiki Bolşaya Yakimanka küçəsində yaşayırdıq. O, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirdi, aspiranturaya daxil oldu, sonra həmin institutda seminarlar apardı, kiçik elmi işçi işlədi. Həyatda bu cür sadə və təvazökar cavana rast gəlməmişəm.

Halbuki o vaxtlar onun atası Siyasi Büronun üzvü idi!

Heydər Əliyeviç arvadını çox sevirdi, ona yüksək nəvazişlə, incə hisslərlə yanaşırdı. Mən bütün bunları onların bağ evində olarkən müşahidə etmişəm. İşdə Heydər Əliyeviç, əlbəttə ki, sahib idi. Evdə isə onun sahibəsi vardı və o, məmnuniyyətlə ona tabe olurdu.

Maraqlıdır ki, xidmətçilər də, mühafizəçilər də eyni şeyi təkrar edirdilər: "Evin sahibəsi belə deyib... Evin xanımı bu cür istəyib". Mən bunları eşidir və öz-özümə gülürdüm.

Ər-arvad bir-birilərini gözəl tamamlayırdılar.

Heydər Əliyeviç uşaqlığını, sevgisini tez-tez yada salmağı xoşlayır və hər şeyi necə çətinliklə əldə etdiyini heç vaxt unutmurdu.

– Yuri Nikolayeviç, mən kim idim? Kiçik əməliyyat müvəkkili. O isə nazir qızı! O inad edib deməsəydi ki, "Yaxşısı budur razı olun, yoxsa qoşulub qaçacağam", nikahımız baş tutmayacaqdı".

"İzvestiya" qəzetinin keçmiş baş redaktoru İvan Laptev yada salır ki, bir səhər onun növbəti mənzurə üzərində işlədiyi "Sosnı" istirahət evinə Heydər Əliyev həyat yoldaşı və iki nəvəsi ilə gəldi:

"O bizi tanış etdi. Həyat yoldaşı valehedici bir qadın idi. Mən elə bilirdim o işləmir, ancaq sonralar ondan bu barədə soruşanda Heydər Əliyeviç mənə belə cavab verdi:

– Nə danışırsınız, İvan Dmitriyeviç, o işləyir.

Zərifə Əzizovna çox gülərüz, səmimi, hər şeyin yerini bilən qadın idi və onda anadangəlmə ziyalılıq hiss olunurdu".

Aleksandr İvanovun söhbətindən:

"Bilirsiniz, bu, əsl məhəbbət idi. Misal üçün, biz onunla Anqolaya uçub gəldik. Onun bir adəti vardı: mənzil başına çatan kimi ilk növbədə Zərifə Əzizovnaya zəng vurmalı idi ki, o nigaran qalmasın. İlhamı və ya Sevanı bir yerə yola salanda da eynilə o cür: təyyarə yerə enən kimi, evə xəbər verilməli idi. Hə, biz Anqolaya çatan kimi, təhlükəsizlik zabiti idimi, səfirlik işçisi idimi, bizə yaxınlaşıb dedi: "Xanımınız zəng vurub soruşurdu ki, təyyarə yerə enibmi?". Zərifə xanım özünəməxsus vasitələrlə nə isə öyrənməyə çalışırdı.

O elə şirindilli idi ki! Hamı ilə dil tapırdı. Bağ evində xidmətçilərlə özünü çox sadə aparırdı. Mən ona deyirdim: "Siz mənim işçilərimi korlayırsınız". Növbə ərzində aşpaz, ofisiant, xidmətçi işləyirdi. Zərifə xanım səhər Heydər Əliyeviçi işə yola salıb mətbəxə gəlirdi: "Qızlar, gəlin çay içək". Ancaq o, başqa cür də deyə bilərdi: "Mənə yemək otağına çay gətirin".

– Başqa sözlə, o özünü xanım kimi aparmırdı.

– Onda qətiyyən xanımlıq ədası yox idi. Qızlarla oturub çay içirdi. Bir az yeyib, sonra öz işlərilə məşğul olmağa gedirdi. Ertəsi gün səhər xidmətçilərin yeni növbəsi gəlirdi. O yenə də "Qızlar, gəlin çay içək" deyib, onlarla eyni süfrədə yemək yeyirdi.

– Xidmətçilər onu sevirdilərmi?

– O, hamının sevimlisi idi. Ümumiyyətlə, Əliyevlərə olan məhəbbət bugünə qədər qalıb. Xidmət heyətindən olan insanlar biləndə ki mən Bakıya gedirəm, zəng vurub xahiş edirdilər ki, "Heydər Əliyeviçə salam söylə". O, Siyasi Büronun üzvü olanda sürücülər,

səyyar mühafizə dəstəsi, zabitlər özləri gəlib məhz Əliyevin yanında işləmək istədiklərini bildirirdilər. Heydər Əliyeviçin istefasından sonra "doqquzluğ"un bir çox əməkdaşları məndən xahiş etdilər ki, "onun fotoşəklini əldə etməyə kömək et". O, şəklinin arxasını yazıb hamıya payladı.

Bilirəm ki, çoxları həmin fotoşəkli ən qiymətli xatirə kimi qoruyur, bu adamla tanışlıqdan qürur duyurlar.

– Zərifə xanım həyat yoldaşını işə həmişə yola salırdı?

– Həmişə. Həm də o yola düşən kimi mütləq arxasınca su atırdı. Onlar harada olurlarsa olsunlar, bu, hər gün təkrar olunurdu. Hətta o, ağır xəstələnəndə də, son nəfəsinədək həyat yoldaşının yoluna su atırdı".

Mən Aleksandr Alekseyeviçi Heydər Əliyevin gündəlik iş rejimi barədə sorğu-suala tutmuşdum. Əvvəla, bu çox maraqlı idi, ikincisi də ibrətamiz. Əliyevin mühafizə rəhbərinin sözünü dinləyib, qəhrəmanımın iradəsinin gücünə və spartalısayaq həyat tərzinə heyrətlənməyə (artıq neçənci dəfə!) bilmirsən. Misal üçün, gecə saat neçədə yatırsa, yatsın, o, hər gün səhər saat altıda yataqdan qalxırdı.

A.İvanov xatırlayır ki, "Mühafizə xidməti postdan mənə saat altıya beş dəqiqə qalmış zəng vururdu – onu durquzmağa qıymırdım. "Heydər Əliyeviç, sabahınız xeyir, saat altıdır". – "Çox sağ ol". On dəqiqəyə o artıq hazır idi.

– Heydər Əliyeviç səhər saat altıda dururdusa, neçədə yatırdı?

– "Vremya" proqramı onun yarısında, ona iyirmi dəqiqə qalmış başa çatırdı. Sonra çay içir, bir az söhbət edirdi. Artıq saat on iki olurdu. Ona görə də o, cəmisi beş-altı saat yatırdı. Həm də bu, ən yaxşı halda olurdu, fövqəladə iş çıxmayanda. Qışda hava gec işıqlanır. Odur ki, istirahət günləri bir az çox yatmaq olar. Ancaq o, istirahət günləri də saat yeddidən ayaq üstə olurdu. Mənə postdan zəng vurub məlumat verirdilər ki, "onun otağında işıq yanır".

1983-cü ilin mayına, Heydər Əliyev onun mənzil məsələsini həll eləyənə qədər Aleksandr 7 №-li dövlət bağ evinin ərazisindəki xidməti evdə yaşayırdı. Odur ki, şefin səhər gəzintisini öz gözləri ilə görmüşdü: əvvəlcə Heydər Əliyev bağın ərazisində qırx də-

qiqə gəzişirdi, sonra isə idman forması geyib zalda gimnastika ilə məşğul olurdu. Bir də mütləq üzürdü.

Hətta 20 dərəcə şaxtada da o mütləq havada gəzirdi. Başı, yaxası açıq, iti addımlarla gəzirdi. O, papaq qoymağı xoşlamırdı.

Bəzən şlyapa qoyurdu. O vaxtlar Moskvada şaxtalar 30 dərəcəyə çatırdı. Aleksandr xatırlayır ki, şaxtalı günlərin birində Heydər Əliyeviç evdən şlyapada çıxdı. Zərifə Əzizovna arxasınca gəlib onu dilə tutdu: "Heydər Əliyeviç, papaq gey, soyuqdur axı". Heydər Əliyevin ilk dəfə tüklü papaq geydiyi anı əbədiləşdirən nadir fotoşəkil İvanovda qorunub saxlanıb.

Bir də İvanov xatırlayır ki, onun qaragül dərisindən kepkası var idi, o kepkanı uzun müddət taxdı. Bir də boz şlyapanı Bakıda ikən illərlə geydi. Şlyapa artıq köhnəlib sıradan çıxmışdı. Heydər Əliyev ondan ayrıla bilmirdi, hətta özü ilə Moskvaya da gətirmişdi. Zərifə xanım güc-bəla ilə onu yenisini, bir qədər tünd rənglisini almağa məcbur edə bildi.

Beləliklə, uzun çəkən iş günü üçün əsaslı şəkildə enerji alandan sonra Heydər Əliyev bağ evinin ərazisindən çıxır və səhər saat 9-a yaxın Kremldəki kabinetinə daxil olurdu. O, bəzən bir az tez də gələ bilirdi. Ancaq Moskvada işlədiyi beş il ərzində bir dəfə də olsun heç bir dəqiqə belə işə gecikmədi. Çox heyrətamiz faktdır!..

"Ziyalılar onun ətrafına yığışırdılar"

Hələ Azərbaycanda işləyərkən Heydər Əliyev İttifaqın yaradıcı ziyalılarının nümayəndələri arasında çoxlu dost qazanmışdı. Bu barədə ikinci kitabda bəhs etmişdik. Ölkənin elmi və yaradıcı elitası arasında onun qeyri-adi populyarlığı barədə Heydər Əliyevlə 70-ci illərdən tanış olan akademik Roald Saqdeyev də bəhs edir:

"Heydər Əliyeviç Moskvaya köçdü və mənə nə üçünsə elə gəldi ki, o, süni şəkildə təcrid olunmuş vəziyyətə düşdü. O, Bakıdakı fəaliyyəti ilə respublika rəhbərləri arasında ən görkəmlisi kimi populyarlıq qazanmışdı. Ziyalılar da onun ətrafına can atırdılar. Ən məşhur musiqiçilər və ifaçılar böyük məmnuniyyətlə konsertlər

vermək üçün bir neçə saatlığa Bakıya uçurdular. Onun Mstislav Rastropoviçlə dostluğunu yada salaq. Alimlərlə də eynilə. Düşünürəm ki, bu populyarlıq çoxlarını təşvişə salırdı. Çünki şöhrətpərəstliklə hakimiyyətə can atan bəzi Siyasi Büro üzvlərinin düşündüyü kimi, onlara rəqib ola bilərdi.*

Artıq qeyd etdiyimiz kimi, Heydər Əliyev Nazirlər Sovetindəki fəaliyyəti çərçivəsində Elmlər Akademiyasına, Mədəniyyət Nazirliyinə, Dövlət Teleradio Komitəsinə, yaradıcılıq ittifaqlarına kuratorluq edirdi. O, tez-tez Rusiyanın elm, ədəbiyyat, incəsənət xadimləri ilə görüşür və köməkçilərinin sözlərinə görə, onlarla saatlarla söhbət edirdi. Sonralar, Heydər Əliyev ikinci dəfə Azərbaycana rəhbərlik edəndə, çoxları məmnuniyyətlə Bakıya gəlir, prezidentlə görüş zamanı Moskva görüşlərini, bu və ya digər yaradıcılıq problemlərinin həllində Heydər Əliyevin canıyananlıqla iştirakını minnətdarlıq hissilə xatırlayırdılar.

"O ziyalılara çox kömək edirdi, – A.İvanov təsdiqləyir. – İndi Rıjkov və Liqaçov bütün xidmətləri öz adlarına çıxırlar. Ancaq o illərdə çox şeyin əsası Heydər Əliyeviçin təqdimatı və fəal iştirakı ilə qoyulurdu. Misal üçün, Svetnoy bulvardakı yeni Nikulin sirkinin tikintisi. Və ya götürək, onun infarkt keçirəndən sonra xəstəxanada işləyib hazırladığı səhiyyə sahəsindəki islahatlar layihəsini. Oraya, Miçurinskdəki Mərkəzi Klinik Xəstəxanaya o qədər dövlət maşını gəlirdi ki, bu xəstəxanada indiyədək eyni zamanda bu qədər maşın görməmişdilər".

Ədalət naminə qeyd etməliyik ki, Heydər Əliyev dünyasını dəyişəndən sonra Y.Liqaçov AzərTAc-ın müxbiri ilə müsahibədə, gec də olsa, etiraf etməyi lazım bilmişdi:

"Mən Sov.İKP MK-nın Katibliyinə rəhbərlik edəndə, oraya MK katibləri ilə yanaşı Siyasi Büro üzvlərinin yarısı da (altı nəfər) daxil idi. O vaxt xüsusilə SSRİ Nazirlər Sovetində hamilik etdiyi mədəniyyət məsələləri ilə bağlı H.Ə.Əliyevlə əlaqələrimiz gücləndi... Mədəniyyət, incəsənət sahəsində buna qədərki dövrdə böyük işlər görülsə də, o vaxtlar xeyli problem yığılmışdı. Söhbət mədəniyyətin maddi bazasının sürətli inkişafından gedirdi. O vaxtlar bu məqsədlər üçün külli miqdarda vəsait ayrılmışdı. Sonralar bu, ölkə iq-

* "Xılaskar" sənədli filmindən. AzTV, 2003.

tisadiyyatının və sosial sahənin növbəti beşillik inkişaf planına daxil oldu.

Elə bu anda Heydər Əliyeviç ona xas xüsusiyyətləri göstərdi: inadkarlıq, inandırmağı bacarmaq, necə deyərlər, öz nüfuzundan, təsirindən tam istifadə etmək.

Məlumdur ki, Moskvada böyük mənəvi potensial toplaşıb. Odur ki, Moskva ilə xüsusi məşğul oldular. Sov.İKP şəhər komitəsi və Moskva Xalq Deputatları sovetləri, onların rəhbərləri L.N.Zaykov və V.T.Saykinlə, Sov.İKP MK tikinti şöbəsinin müdiri A.Q.Melnikovla birlikdə biz bir çox teatr və konsert binalarında olduq, bu işə iki gün sərf etdik.

Moskva soveti tamaşa təşkilatlarının binalarını qaydaya salmaq barədə qərar qəbul etdi. Buraya ittifaq nazirliklərini, SSRİ Nazirlər Soveti sədrinin tikinti işlərinə baxan müavini Y.P.Batalini də qoşdular. Bax, onda müvafiq təşkilatlar sovet və dünya mədəniyyətinin fəxri olan kollektivlərin işlədiyi MBAT-ın, Malı Teatrın, Konservatoriyanın, A.S.Puşkin adına Təsviri Sənət Muzeyinin binalarının əsaslı təmirilə məşğul olmağa başladılar. Tretyakov adına rəsm qalereyasının binasının rekonstruksiyasını sürətləndirdilər. Hiss edirdim ki, bu cür iş üslubu Heydər Əliyeviçin ürəyincədir.

O vaxt bütünlüklə ölkədə kənd klublarının tikintisinə ayrılan vəsaiti üç dəfə artırmaq, iri şəhərlərdə onlarla konsert zalları tikmək nəzərdə tutulurdu. İndi, misal üçün, Rusiyada minlərlə klub ağzınagünə qalıb, bir çox kinoteatr binası kommersiya məqsədləri üçün istifadə olunur.

Məhz o vaxtlar mədəniyyət sahəsində ictimai təşkilatlar yaradılmışdı: Sovet Mədəniyyət Fondu, Ümumittifaq Musiqi Cəmiyyəti, Xalqlar Dostluğu Teatrı. Tarix və mədəniyyət abidələrinin mühafizəsi ilə daha böyük əzmlə məşğul olmağa başladılar. Yaradıcı ziyalılar ittifaqlarının, əsasən də SSRİ Yazıçılar İttifaqının sədri, Sosialist Əməyi Qəhrəmanı, görkəmli yazıçı V.V.Karpovun xahişi ilə yaradıcı işçilərin əmək haqqı artırıldı, qonorarları yüksəldildi.

Bir sözlə, Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin, sovet hakimiyyətinin yerli orqanlarının qərarlarına ciddi şəkildə nəzarət olunurdu. Bu işdə Heydər Əliyevin öz qüvvəsinə inam, özünə və kadrlarına xüsusi tələbkarlıqla yanaşı, əməli işlə kömək, partiya

tapşırıqlarını yerinə yetirməyə yüksək məsuliyyət kimi keyfiyyətləri üzə çıxdı"[37].

SSRİ Nazirlər Sovetinin rəhbəri kimi, Heydər Əliyev, hər şeydən öncə, mədəniyyətin maddi bazasını yaxşılaşdırmaq məsələlərini həll edirdi. Köməkçiləri Bolşoy Teatrın təmiri ilə, MBAT-ın yeni binasının tikintisi ilə necə ürəkdən məşğul olduğunu, Yuri Nikulinə Svetnoy bulvarda sirk tikməyə köməklik göstərdiyini, Rolan Bıkova Kino mərkəzi yaratmaqda yardımçı olduğunu və s. çox yaxşı xatırlayırlar. Bu problemlərə Operativ Məsələlər üzrə Komissiyada – "kiçik Nazirlər Soveti"ndə nəzər yetirir, işgüzar yığıncaqlara müvafiq rəhbərləri dəvət edirdi. Bir sözlə, daim bir əlini ölkənin mədəni həyatının "nəbzi" üzərində saxlayırdı. Eyni zamanda, onun üçün əsas məsələ yaradıcı şəxsiyyətə, onun tələb və ehtiyaclarına diqqət göstərmək idi. Bu məsələdə onun üçün xırda şey yox idi. O, vətənin bütün mədəniyyət xadimlərinə, istər rusiyalı olsun, istərsə də azərbaycanlı, ona müraciət edən hər kəsə köməyini əsirgəmirdi. Azərbaycanın xalq artisti Murad Yegizarov həmin məsələ ilə bağlı xatirələrini danışdı:

"80-ci illərin sonunda Moskvaya getmişdim. Şəxsi problemimi həll etmək ümidindəydim. Qarşıma həlledilməz çətinliklər çıxdı və mən Heydər Əliyeviçə zəng vurmağa cəsarət etdim. Mənimlə onun köməkçisi danışdı, bir saatdan sonra isə mehmanxananın qarşısında məni maşın gözləyirdi. Mən onun kabinetinə daxil olanda o, yaxın adamı kimi məni qucaqladı və təbəssümlə soruşdu: "Mən bura köçəndən sonra səhnə ustasının problemini həll etməyə adam tapılmadı?". Onun bu cür sadə davranışı məni heyran qoymuşdu. O, bir anlığa da olsa, hiss etdirmədi ki, mənimlə hansı səviyyəli insan danışır. O, özünü tay-tuş kimi aparırdı: təmkinlə sorğu-sual edir, diqqətlə dinləyirdi. Mən onda fikirləşdim ki, yüksək hakimiyyət eşelonunda bu cür insanlar o qədər də çox deyil. Onları qorumaq lazımdır. Kədərləndim ki, yaşım ötüb. Yoxsa idman hazırlığım olduğundan onun şəxsi mühafizə dəstəsində xidmət etməyi özümə şərəf bilərdim"[38].

Heydər Əliyevin mədəniyyət məsələləri üzrə köməkçisi Aleksandr Qavrilov isə mənə başqa bir epizod danışdı:

"Aktyor Armen Ciqarxanyan ona məktub yazaraq yaşayış şəraitində çətinliklər yarandığını, bir mənzildə faktiki olaraq üç ailə yaşadığını, oğlu evlənsə də, qızı ərə getsə də, onlarla birgə qaldıqlarını bildirir. O vaxtlarsa İttifaqda mənzil məsələsi ən çətin problemlərdən idi. Heydər Əliyeviç mənə tapşırdı ki, Moskva şəhər Soveti sədrinin adına məktub hazırlayım.

– Nə lazımdırsa, hazırlayın, Ciqarxanyanın məktubunu mənim dərkənarımla göndərək.

Mən məktubu hazırladım. Heydər Əliyev onu imzalayıb belə bir dərkənar qoydu: "Nəzərdən keçirib araşdırın. İmkan daxilində köməklik göstərin".

Məktub Moskva şəhər Sovetinə göndərildi.

Üç-dörd aydan sonra Ciqarxanyan mənə zəng vurdu:

– Aleksandr Timofeyeviç, bilirəm ki, bu işdə sizin də xidmətiniz var. İstəyirəm ki, Heydər Əliyeviçə mənim dərin minnətdarlığımı çatdırasınız. Məsələm həll olunub. Xoşbəxtəm. Artıq mənim ayrıca mənzilim var.

Səhv etmirəmsə, onun qızına da, oğluna da ayrıca mənzillər vermişdilər. Armen Borisoviç sevincindən özünə yer tapa bilmirdi".

Xüsusi vurğulamaq istəyirəm ki, sonralar görkəmli sovet aktyoru Dağlıq Qarabağ uğrunda qızışan erməni–azərbaycanlı münaqişəsi zamanı təmkinli, konstruktiv mövqe tutdu, millətçilərin törətdiyi antiazərbaycan kampaniyasında heç vaxt iştirak etmədi.

Heydər Əliyev tanınmış Azərbaycan şairi Fikrət Qocanın həyatını sözün həqiqi mənasında xilas edib. Respublika Yazıçılar İttifaqının birinci katibi bu hadisəni dərin minnətdarlıq hissi ilə xatırlayır. Hələ Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi olanda Heydər Əliyev digər ədəbiyyatçılar arasında ədəbi təxəllüsü Qoca olsa da, gənc, ancaq çox istedadlı olan bu şairi xüsusi qiymətləndirirdi. Tez-tez onu özü ilə respublika boyu səfərlərə çıxan yazıçılar briqadasının tərkibinə daxil edirdi, ona "Azərbaycanın Əməkdar incəsənət xadimi" adı vermişdi. Baxmayaraq ki, Fikrət Qocanın poeziyası novator, o dövr üçün ənənəvi stereotipləri kökündən qıran poeziya idi və buna görə o, dəfələrlə sosialist realizminin "müdafiəçi"ləri olan ortodoksal tənqidçilərdən zərbələr almışdı. 70-ci illərin ortalarında Fikrət artıq populyar nəğməkar-şair olmuşdu. Onun C.Qevare barədə yazdığı "Ünvansız məktub" poeması "Novı mir"də çap olunandan sonra populyarlığı respublikanın sərhədlərini aşdı.

Zərifə xanım dünyasını dəyişəndən sonra qızı Sevil anasının xatirəsinə həsr olunmuş iki mahnı yazdı. Melodiyalarına mətn yazmağı isə məhz Fikrət Qocadan xahiş etdi. Fikrət müəllim Bakıda Sevillə birlikdə mətn üzərində işlədikləri günləri xatırlayır. Axşamlar isə qızı telefonda atasına şairin qələmindən çıxmış sətirləri oxuyurdu. Sonra onun məsləhəti ilə bəzi düzəlişlər edirdilər. Mahnılar üzərində iş 1986-cı ilin əvvəlində başa çatdı və Sevillə Fikrət əsl dost kimi ayrıldılar. Fikrət müəllim yada salır ki, Sevil dönə-dönə ondan nəyə ehtiyacı olduğunu, misal üçün, yaşayış şəraitini yaxşılaşdırmaq lazım olub-olmadığını öyrənməyə çalışıb. Ədəbiyyatçı köhnə binada, uçuq-sökük evdə yaşasa da, cavab verib ki, heç bir şeyə ehtiyacı yoxdur.

Ancaq bir neçə aydan sonra bədbəxtlik şairin qapısını döydü. Həkimlər Fikrət Qocanın ciyərlərində bədxassəli şiş aşkar etdilər. Təcili, özü də Moskvadakı Onkoloji mərkəzdə əməliyyat aparılmalı idi. Ancaq oraya asanlıqla düşmək olardımı? Həmin günlərdə Sevil xanım zəng vurdu. O öz dostundan hal-əhval tutdu. Şair Heydər Əliyevin qızına həqiqəti söyləməli oldu: "İşlərim o qədər də yaxşı deyil".

Çox çəkmədi ki, Sevil ikinci dəfə zəng vurdu: "Atam sizi gözləyir. Təcili Moskvaya yollanın!" Fikrət Qoca Moskvaya uçdu, "Rossiya" mehmanxanasında yerləşdi və öz gücünə "Kaşirka"ya düşməyə çalışdı. Ay-hay! Ona dedilər ki, çoxsaylı analizlər verəndən və müxtəlif bürokratik prosedurlardan keçəndən sonra ən yaxşı halda bir aya xəstəxanaya yerləşə bilər. Fikrət Qoca Sevilin ona Bakıda verdiyi telefona zəng vurmalı oldu. Dəstəkdə Heydər Əliyevin vəfalı mühafizəçisi Aleksandr İvanovun səsi eşidildi: "Biz sizi axtarmaqdan yorulduq. Siz haralardasınız?". Bir saatdan sonra şairi mehmanxanadan götürüb, artıq Onkoloji mərkəzdə hazırlanmış palataya apardılar. Hərtərəfli müayinə başlandı. Bir dəfə şairin müalicə həkimi ehtiyatla dedi: "Ona deyin ki, bizi bu qədər tələsdirməsin". Sən demə, Kremldən hər gün baş həkimə zəng vurub,

tezliklə əməliyyat aparılmasını tələb edirmişlər. Müayinə başa çatandan sonra elə həmin həkim etiraf etmişdi: "O haqlı idi, biz gecikə bilərdik".

Əməliyyat günü Fikrət Qocanı baş həkimin otağına çağırıb dedilər ki, onunla Siyasi Büronun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev danışacaq.

"O mənim əhvalımı yüksəltməyə başladı, söhbətin sonunda zarafat edərək bildirdi ki, həkimlər əməliyyatdan sonra ən azı 16 il yaşayacağına əmin ediblər.

– Bəsindir? – deyə zarafatla soruşdu və ciddiyyətlə əlavə etdi: – Heç nədən qorxma!

– Sizin zənginizdən sonra mən artıq heç nədən qorxmuram, – deyə cavab verdim.

O vaxtdan 22 il keçir, yaşadığım hər il üçün mən bu heyrətamiz insana borcluyam".

Axır ki, Fikrət Qocaya yeni mənzil də nəsib oldu. Onun uçuq-sökük evi yaşamaq üçün yararsız hala düşəndə o, məktubla Azərbaycan Prezidentinə müraciət etdi. İlham Heydər oğlu Əliyev də şairə elə həmin gün Bakının mərkəzində gözəl mənzil ayrılması barədə sərəncam verdi.

Qızğın teatr azarkeşi olan Heydər Əliyev Moskvada da səs-küy salmış premyeraları buraxmamağa çalışırdı. Misal üçün, o, M.Şatrovun pyesi əsasında səhnələşdirilmiş "Qalib gələcəyik!" (məşhur dramaturqla onu şəxsi dostluq münasibətləri bağlayırdı), A.Vampilovun "Ördək ovu" tamaşalarının premyeralarında olmuşdu, dəfələrlə MBAT-ın tamaşalarına baxmışdı.

Bədii teatrın tamaşalarından biri barədə A.Qavrilov maraqlı bir epizod xatırladı. Bir dəfə Heydər Əliyevi "Yelləncəkdə iki nəfər" tamaşasına dəvət edirlər. Bu, hələ teatrın Yefremov (Çexov adına) və Doronina (Qorki adına) teatrlarına bölünməsindən qabaq olmuşdu. O zamanın ölçülərinə görə, bu bir qədər səs-küyə səbəb olan tamaşa idi, orada bəzi sərbəstliklərə, intim xarakterli səhnələrə və s. yol verilirdi. Tamaşa MBAT-ın Stanislavski adına filialında gedirdi.

"Heydər Əliyev mənə dedi:

– Get, bax.

Mən pyesə tamaşa etdim. Sabahısı gün Heydər Əliyeviç mənim rəyimlə maraqlandı.

– Adi tamaşadır, – dedim. – Orada siyasətimizə zidd heç bir şey yoxdur. Ancaq bəzi xırda şeylər var ki, onları heç də bütün rəsmi şəxslər qəbul edə bilməzlər.

– İndi nə deyirsən, gedək, getməyək?

– Heydər Əliyeviç, sizə məsləhət verməkdə çətinlik çəkirəm. Ancaq belə hesab edirəm ki, tamaşaya baxsanız, pis olmaz.

– Mən də elə düşünürəm, – dedi. – Ancaq bunu nümayişkaranə şəkildə etməyəcəyəm. Adi tamaşaçı kimi gedib baxacağam.

– Tamaşaçının gözündən heç nə yayınmaz. Hamı biləcək ki, bu sizsiniz.

– Nə olsun? Əvvəl-axır mən də sıravi tamaşaçı ola bilərəm, ya yox?

Mən də kassadan bilet alıb sıravi tamaşaçı kimi teatra getdim. Nəzəri çox cəlb etməməyə çalışaraq, tamaşaya baxdım və çıxıb getdim.

Ertəsi gün mənə Tabakov zəng vurdu.

– Aleksandr Timofeyeviç, necədir, tamaşa xoşunuza gəldimi?

– Siz mənim teatrda olduğumu haradan bildiniz?

– Aleksandr Timofeyeviç, axı bizim də öz kəşfiyyatımız var. Hə, deyin görək, tamaşa xoşunuza gəldimi?

– Açığını deyim ki, xoşuma gəldi.

– Siz Heydər Əliyeviçə bu cür də məlumat verdiniz?

– Beləcə də məlumat verdim.

– Necə düşünürsünüz, o gələcək?

– Məncə, gələcək.

Əlbəttə ki, mən Tabakovla olan söhbətimizi də Heydər Əliyevə danışdım.

– Siz ona çatdırın ki, siz nəinki mənə məlumat vermisiniz, Heydər Əliyev bu tamaşada heç bir qəbahətli şey görmür və ona çox müsbət yanaşır. Aktyor oyununa gəlincə, mən teatra gələndən sonra öz fikrimi deyəcəyəm.

Mən zəng vurub bu sözləri Tabakova çatdırdım. Bu tamaşa ətrafında müxtəlif söhbətlər gəzirdi, tənqid kampaniyası başlamışdı. Görünür, Heydər Əliyevə də hansısa zənglər olmuşdu. Ona görə də

o, şəxsən əmin olmaq istəyirdi ki, tamaşada hökumət əleyhinə bir şey var, ya yox.

Ona, qeyri-rəsmi də olsa, bildirmək lazım idi ki, tamaşa barədə heç bir mənfi rəy verməyəcək. Çünki həm mədəniyyət şöbəsi, həm də mətbuat tərəfdən ayrı-ayrı adamlara hücumlar olurdu. Sonra hansısa hadisələr baş verdi və Heydər Əliyeviç dərhal teatra gedə bilmədi. Sözün düzü, heç xatırlamıram, o, tamaşaya baxdı, ya yox.

Ancaq Heydər Əliyeviçin diplomatiyası, rəsmi tənqidlə mübahisəyə girişmədən, teatra onun bu hücumları dəstəkləmədiyini anlatmaqda kömək etdi. Belə hallar çox olurdu. Heydər Əliyeviç sakitcə hansısa impulslar verirdi və bir qayda olaraq bu, yaradıcı ziyalılara münasibətdə ölçülü-biçili, ağıllı bir hərəkət olurdu".

Aleksandr İvanovla söhbətdən:

"O, tez-tez teatrlara gedir, sərgilərə, muzeylərə baş çəkirdi. Onun Lev Tolstoyun ev-muzeyini ziyarət etdiyi yadımdadır. O, bunları vəzifə borcu kimi yerinə yetirirdi, çünki Mədəniyyət Nazirliyinə hamilik edirdi. Ancaq çox vaxt onu dəvət edirdilər. O, hətta bir dəfə Gennadi Xazanovun konsertinə də getdi. Xazanov yeni proqramla çıxış edirdi. Bu o vaxtlar idi ki, səhnədə bəzi sərbəstliklərə yol vermək olurdu. Ölkə rəhbərliyinin ünvanına söylənmiş tənqidi fikirlər Heydər Əliyevin xoşuna gəlmişdi. Konsertdən sonra o, Xazanovun yanına gəlib, öz fikrini söylədi. O, həmişə tamaşadan sonra səhnə arxasına artistlərin yanına keçir, onların ustalığına, peşəkarlığına layiqli qiymət verirdi. Hətta xüsusi nüfuzu olmayan Estrada teatrının da səhnəsinin arxasına keçərək Xazanovu uğurlu çıxışı münasibətilə təbrik etdi. O hər il XTNS-də Beynəlxalq kitab yarmarkasına baş çəkirdi. Orada çoxları ona yanaşaraq sərginin keçirilməsi planını müzakirə edir, yeni kitabları göstərirdilər.

Heydər Əliyev sərgilərdə, rəsm qalereyalarında olmağı xoşlayırdı. Çox adam bilmir ki, o vaxt gənc rəssam Şilovun təşəkkül tapmasında onun köməyi olub. Heydər Əliyev Şilovun sərgisində olmuş, Seretelinin emalatxanasına getmişdi. Puşkin adına İncəsənət Muzeyinin təmirinə çox köməklik göstərmişdi. Muzeyin direktoru İrina Aleksandrovna Antonova həmin hadisələri bugünədək minnətdarlıqla xatırlayır.

Onun yanına kim gedirsə getsin, mühəndis, sağıcı və ya nazir, heç vaxt narazı qayıtmırdı. Xahişlərinə əməl olunsa da, olunmasa da. İnsanlar onun kabinetini ruh yüksəkliyi ilə tərk edirdilər, onun ağlı, fərasəti, insanlarla rəftarına valeh olurdular".

Yeri gəlmişkən, Heydər Əliyevin mütləq baş çəkdiyi kitab sərgiləri barədə məşhur Azərbaycan yazıçısı Elçin maraqlı bir əhvalat danışdı:

"Xəyalım məni 1985-ci ilə, növbəti Moskva Beynəlxalq Kitab sərgisinə apardı (həmin sərgilər iki ildənbir keçirilirdi). Onun təntənəli şəkildə açılışında iştirak etmək üçün hökumət üzvləri, görkəmli ictimai xadimlər, yazıçılar pavilyonun qarşısına yığışmışdılar. Yağış çiləyirdi, mərasim isə başlamaq bilmirdi. Heydər Əliyevin gəlişini gözləyirdilər. Yağış güclənirdi. Nazirlər, MK-nın şöbə müdirləri xarici qonaqların istehzalı baxışları altında yağışda islanır, başlarına qəzet tutur, ancaq mərasimi başlamağa cürət etmirdilər. Nəhayət, Heydər Əliyevin maşını yaxınlaşdı. Mən dəqiqliklə xatırlayıram ki, Siyasi Büronun gələcək üzvü, köhnə inzibati-amirlik sistemini kəskin ifşa edən, o vaxt isə yenicə MK-ya şöbə müdiri təyin olunmuş Aleksandr Nikolayeviç Yakovlev axsaya-axsaya yağışın altında maşına doğru qaçdı və yaltaqcasına Heydər Əliyevi qarşıladı.

O dövrdə mövcud olan sistemin bir xarakterik xüsusiyyəti vardı: o adamdan ki qorxurdular, yaltaqlanırdılar, ona görə də onun mənsub olduğu xalqa da uyğun münasibət bəsləməyə məcbur idilər. Stalin dövründə gürcülərə münasibəti yada salaq. Belə misallardan çox çəkmək olar".

Elçin haqlıdır: çox vaxt Heydər Əliyev öz nüfuzu və hörməti hesabına Azərbaycan mədəniyyət xadimləri üçün praktiki olaraq mümkünsüzü mümkün edirdi. Memar Mikayıl Useynovla bağlı belə bir heyrətamiz faktı mənimlə söhbət zamanı Heydər Əliyevin qardaşı oğlu **Rasim Əliyev** danışdı. Rasim Həsən oğlunun emosional söhbətini sözbəsöz oxuculara çatdırıram:

"Bir dəfə Azərbaycan Memarlar İttifaqının sədri mərhum Mikayıl Useynov və Bakı şəhərinin baş memarı kimi mən birinci katib Heydər Əliyevə kiçik bir qeydlə müraciət etdik. SSRİ tarixində ilk dəfə Londonda "Bakının memarlığı" adlı sərgi keçirmək imkanı ya-

ranmışdı. O bizi çağırıb sorğu-sual etdi. Biz bildirdik ki, ingilis memarları ilə şəxsi münasibətlər sayəsində belə bir imkan qazanmışıq. Brejnev ilk dəfə Bakıya gəlib "Bakı – gözəl şəhərdir" deyəndən sonra buraya ingilis, amerikalı memarlar axışdılar. Qırx nəfərə qədər gəlmişdilər. O vaxtadək Bakıya xariciləri ümumiyyətlə, buraxmırdılar. Bakı qapalı şəhər idi.

Onlar qədim tikililərimizi, memarlıq abidələrimizi, əsrin əvvəllərində tikilən evləri görüb heyrətə gəldilər. İngilis memarlarından ibarət qrup İttifaq rəhbərliyinə müraciət edəndə, Useynov da məni dəvət etdi. Çünki o, Memarlar İttifaqının sədri olsa da, maliyyə mənbəyi yox idi.

Heydər Əliyev bizi qəbul edib bunun çox yaxşı, vacib bir iş olduğunu söylədi. Hər cür kömək göstərəcəyini vəd etdi. O, məktubumuzun üstünə Kamran Bağırov, Həsən Seyidov, maliyyə naziri, Elmlər Akademiyasının prezidenti, mədəniyyət nazirinin adına dərkənar qoydu. Orada qeyd olunmuşdu: "Hər cür köməklik göstərilsin".

Bunun əsasında biz məktublaşmağa başladıq. Oriental memarlıqla məşğul olan Robert Çensner gəldi və Bakıya heyran oldu. Yadımdadır ki, İçərişəhərdən qədim Azərbaycan xalçalarından parçalar aldı. Onun Pikadillidə dördmərtəbəli evi vardı. Mən orada olmuşdum. O, xalça parçalarını şüşə çərçivənin altına salıb divardan asmışdı. Sərgi 1985-ci ilə nəzərdə tutulmuşdu. Biz onu iki ilə hazırladıq – maketlər, köhnədən qalma planşetlər, arxiv materialları. Memarlarımızın köhnə və yeni işlərini bərpa etdik, Useynovun bütün əsərlərinin şəklini çəkdik. Böyük bir material topladıq. Sərgi Londonun mərkəzində Britaniya Kral Memarlar Cəmiyyətinin "Haynts" qalereyasında nümayiş etdirilməli idi. İngiltərəyə məlumat verdik ki, bizdə hər şey hazırdır. Onlar isə cavab verdilər ki, sizi qəbul etməyə hazırıq. Kamran Məmmədoviçə müraciət etdik ki, bizə köməklik göstərmək barədə sizə tapşırıq verilib, bu barədə sənəd də var. Ekspozisiyanı Moskvaya, oradan da Londona çatdırmaq lazımdır. O, MK Katibliyinin iclasını açır (nə məni, nə də Useynovu oraya dəvət etməmişdilər) və deyir: "Mən başa düşmürəm, Rasim kimdir, nə istəyir? Onun başına iş qəhətdir?"

Nəticədə mənə bildirirlər: vəssalam, məsələ bitdi. Biz Londona xəbər verdik. Həmin vaxt Qorbaçovun İngiltərəyə səfəri gözlənilirdi. Oradan bizi "atəşə tuturlar": siz nə edirsiniz, niyə ləngiyirsiniz, nə üçün materialı göndərmirsiniz? Biz bir də MK-ya müraciət etdik. Ağzımızdan vurdular: "Bu Rasim "İntelicens servis"in agentidir, nədir? O nə istəyir?" Özü də bunu mənimlə orta məktəbdə paralel sinifdə oxuyan Kamran deyirdi. Biz yoldaş, dost idik. Birdən-birə o, əlçatmaz, ünyetməz olmuşdu. Qısası, Qorbaçovun səfərinə qədər çatdıra bilmədik. Bizi Moskvadan da "atəşə tutmağa" başladılar – SSOD*-dan, XİN-dən. Mən isə deyə bilmirəm ki, birinci katib icazə vermir. 1985-ci il gəldi. Yenidən telefonlar aləmi dağıdır, mən isə heç bir cavab verə bilmirəm. Mikayıl Useynov arıqlayıb, sifəti çəkilmişdi, mən də həmçinin. Yadımdadır ki, İsay Rubençik onun layihələrinin gözəl fotolarını çəkmişdi. Onları saxlamağa yer tapmırdıq. Odur ki, fotoları Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyətinin yeni binasında sərgilədik.

Qəflətən mənə Kamran Bağırovun referenti – Sahib Ələkbərov zəng vurdu: "Sizinlə Kamran Mamedoviç danışacaq".

Bu, 1985-ci il martın sonunda olmuşdu.

– Bura bax, Rasim, sən niyə buradasan?

– Mən harada olmalıyam ki?

– Sən çoxdan Londonda olmalıydın. Burada nə eləyirsən? Ləngimə, qocanı da götür, çünki o sənsiz orada heç bir şey eləyə bilməz, günü sabah Moskvaya uçun.

Buna qədər isə mənə Sov.İKP MK katibi Boris Nikolayeviç Ponomaryovun köməkçisi zəng vurmuşdu. O, xarici əlaqələrə hamilik edirdi. Ona ləngiməyimizin səbəbini izah etdim. Dedim ki, bu bizim səlahiyyətlərimizə aid deyil, xaricə səfər üçün icazəni Mərkəzi Komitədən alırıq.

Qısası, biz öz qüvvəmizlə buradan materialları göndərib, arxasınca da özümüz getdik. Bu, aprelin 2-də olmuşdu. Mən sərginin təşkili üçün çoxlu başqa şeylər də göndərdim. Yüküm çox böyük idi. Moskvada Heydər Əliyeviçə zəng vurdum. O dedi ki, yanına gəlim. Getdim. Məlum oldu ki, Zərifə Əzizovna ağır xəstədir. Mən sərgi ilə bağlı vəziyyətdən, "yuxarıların" badalağından danışdım. O

* SSOD (SDCİ) – Xarici Ölkələrlə Sovet Dostluq Cəmiyyətlərinin İttifaqı.

başını yelləyib "Ay-yay-yay" dedi. "Başa düşürsünüzmü, Heydər Əliyeviç, bu sərginin əhəmiyyəti..."

"Sən mənə sərginin əhəmiyyətindən danışırsan? Sən heç özün başa düşürsən bu nə deməkdir?"

Ayın 11-nə Londona təyyarə biletimiz vardı. Ancaq mən qərara gəldim ki, özüm uçmayım, Mikayıl Useynovu tək yola salım. Dedim ki, mənə mühüm iş tapşırıblar, iki günlük ləngiyəcəyəm. Yeri düşmüşkən, aprelin 18-də onun 80 yaşı tamam olurdu.

Mən ona əsil səbəbi demədim, çünki onun Zərifə Əzizovnaya və Heydər Əliyeviçə necə kövrək hisslər bəslədiyini bilirdim. Əmin idim ki, Zərifə xanımın xəstə olduğunu desəm, o, Londona uçmayacaq. Bu tapşırıq isə dövlət əhəmiyyətli idi.

Bir sözlə, onu yola salıb evə gəldim. Heydər Əliyeviç mənim qərarımdan xəbər tutub soruşdu: "Sən niyə belə elədin?". Cavab verdim ki, Zərifə xanımın xəstə olduğunu bilə-bilə necə uça bilərdim?

O mənimlə razılaşdı.

Aprelin 15-də Zərifə xanım vəfat etdi. Sonra matəm tədbiri, dəfn mərasimi.

Belə bir şey də danışım. Mikayıl Useynovun 80 illiyi ilə bağlı Heydər Əliyeviç bu ərəfədə onun Sosialist Əməyi Qəhrəmanı adına layiq görülməsi barədə məsələ qaldırmışdı. Yadımdadır, o mənə danışırdı ki, "Mən bunu 70 illikdə, sonra 75 illikdə eləməyə çalışdım. Ancaq nail ola bilmədim. Səbəbi isə odur ki, o, partiyanın üzvü deyil, rus deyil, indiyədək bir nəfər də olsun sovet memarı Sosialist Əməyi Qəhrəmanının Qızıl ulduzuna layiq görülməyib. Necə ola bilər ki, ilk dəfə bu ulduz moskvalıya yox, rusa yox, müsəlmana, azərbaycanlıya, üstəlik də partiya üzvü olmayana verilsin?". Bunun əvəzinə ona Oktyabr İnqilabı ordeni vermək istəyirdilər. Mənim Sov.İKP MK-da yaxın dostlarım vardı – memarlara hamilik edən Oleq Koşkin, başqaları. Bu dövrdə hər dəfə axşamlar Memarlar Evində bir fincan qəhvə içməyə yığışardıq və uşaqlar işlərin necə getdiyindən danışardı. Ona görə də mən çox həyəcan keçirirdim. Heydər Əliyevsə inadla istəyinə çatmağa çalışırdı.

Zərifə xanımın dəfnindən sonra, ayın 17-də o məni bağ evindəki kabinetinə çağırdı və dedi: "Rasim, al, "Pravda" qəzetinin 18 aprel sayında fərman dərc olunub. Nəhayət ki, mən ona Sosialist Əməyi Qəhrəmanı adının verilməsinə nail oldum". Təsəvvür edirsinizmi, o, hüznlü günlərdə də istəyinə çatmaq üçün mübarizə aparıb. Bunları sizə danışa-danışa qəhər məni boğur... "Səhər səni hava limanına aparacaqlar. Təyyarəyə min. Mikayıl müəllim yaşlı adamdır, sənsiz ona çətin olar".

Sərgi isə ayın 12-də açılmışdı. Oraya hamı gəlirdi, o cümlədən, Marqaret Tetçer də. Sərgi haqqında yüksək fikirlər söyləyirdilər. Oraya Qərbi Avropanın hər yerindən, Amerikadan memarlar gəlmişdi. Bir çox Britaniya qəzetləri və arxitektura jurnalları sərgi barədə tərifli məqalələr dərc etmişdi. Həmin nəşrlərdən ibarət bir qutunu Bakıya gətirmişdim.

Sərgi 2 aydan çox çəkdi. Ancaq biz orada cəmi 10–12 gün olduq.

Hə, deməli, mən Londona uçdum. Mikayıl müəllim mənə və özünə Şekspir teatrına bilet almışlı. Ona bildirdim ki, Şekspir teatrı təxirə salınır. "Nə üçün?" – "Çünki sizin ad gününüzdür". Yubileyi biz rəssamlar klubunda (onun necə adlandığı yadımda deyil) qeyd elədik. "Axşam yeyib-içmək olacaq" – dedim. Axşam həmin klubda stol açıb, britaniyalı həmkarlarımızı, o cümlədən, İngiltərədə yaşayan həmyerlimiz professor Gəncəvini həyat yoldaşı ilə dəvət etdik. Bu yeganə ingiltərəli azərbaycanlı cütlük idi. Onlar əslən Gəncədən idilər, sonra İrana köçmüşdülər, oradan isə İngiltərəyə. Stolların üstündə güllər, paxlava, şəkərbura, Azərbaycan çaxırı, konyak düzülmüşdü. Onların hamısını mən özümlə Bakıdan gətirmişdim. Dəvət olunanlar 40 nəfər olardı. Ancaq bizdən başqa orada klubun digər üzvləri də vardı, axı bu, qapalı klub idi. Onlar da bizə qoşuldular. Bu vaxt klubun sədri M.Useynova Kral Memarlar Cəmiyyətinin fəxri üzvü adının verilməsi barədə kraliçanın fərmanını oxudu. Sonra isə mən ayağa qalxıb SSRİ Ali Soveti Rəyasət Heyətinin Mikayıl Useynova Sosialist Əməyi Qəhrəmanı adı verməsi barədə fərmanı oxudum. Siz onun halını görəydiniz!

Biz səhərə qədər oturduq, heç kim getmək istəmirdi. Klubdakıların hamısı bizə qoşuldu. Londonda biz belə bir gözəl yubiley keçirdik. Nə mən, nə də Useynov bunu heç vaxt yadımızdan çıxarmadıq".

Aleksandr Qavrilov mənə danışırdı ki, Kremlə Heydər Əliyevin yanına tez-tez Moskvada yaşayan görkəmli azərbaycanlılar gəlirdi. Yaxın dostu Tahir Salahov tez-tez ona dəyirdi. Heydər Əliyev də ona baş çəkir, T.Salahovun bütün sərgilərində olurdu. O həmişə qürur duyurdu ki, həmyerlisi qeyri-adi istedada malik şəxsiyyətdir, rəssamlar iyerarxiyasında yüksək mənsəbə malikdir.

Heydər Əliyev Müslüm Maqomayevlə tez-tez görüşürdü, bəzən sadəcə zəng vuraraq Kremlə dəvət edirdi. Müslüm Tamara Sinyavskaya ilə gəlirdi, onlar kabinetdə çay içib söhbətləşirdilər.

Tahir Salahovla söhbətdən:

– Həmkarlarınız Heydər Əliyevlə ünsiyyətdən sonra onun haqqında nə cür fikir söyləyirdilər?

– Moskvalılar – Kibalnikov, Kerber, Bakıya Azərbaycan mədəniyyət ustalarının Dövlət mükafatına təqdim olunmuş əsərlərinə baxmaq üçün gələnlərin hamısı onu çox yüksək qiymətləndirirdilər.

Təkcə Bakıda yox, Heydər Əliyeviç Moskvaya köçəndən sonra da belə olmuşdu. Onun partiya qurultayının memarlıq sahəsində irəli sürdüyü vəzifələr barədə Memarlar Evindəki çıxışı uzun müddət yadda qaldı, memarlar indi də ondan danışırlar.* Kinematoqrafiya, memarlıq, təsviri sənət, teatr sahəsində onun iştirakı ilə Moskvada qəbul edilmiş qərarlarda müəyyən istiqamətlər verilir, vəzifələr irəli sürülürdü. Bu çox ciddi sənədlər idi. Yaradıcılıq birliklərində onların yolunu bəlkə də otuz illərlə gözləyirdilər. Bu qərarların bəzi bəndləri bu gün də aktuallığını itirməyib.

Heydər Əliyeviç incəsənətin bütün sahələri üzrə belə sənədlərdən hazırlayırdı. Onlarda söhbət maliyyə yardımlarından, təsərrüfat fəaliyyətindən, binaların, mənzillərin alınmasından, mədəniyyət xadimlərinin maddi-texniki təminatının yaxşılaşdırılmasından, əmək haqlarının, qonorarların artırılmasından gedirdi. Bunlar qlobal qərarlar idi. İttifaqlar dirçəlir, incəsənətə maliyyə vəsaiti ayrılırdı. Heydər Əliyeviçin təşəbbüsü ilə səhiyyə, mədəniyyət, nəqliyyat, elm sahələrində xeyli işlər görülmüşdü!

* Görünür, Heydər Əliyevin 1981-ci ilin oktyabrında Moskva memarları qarşısındakı çıxışı nəzərdə tutulur. Bu barədə Rasim Əliyevin növbəti söhbətinə bax.

Bir sözlə, Heydər Əliyeviçin gəlişi ilə bu sahədə işlər yeni vüsət aldı. Bax, elə buna görə də onu bugünədək sevirlər, qiymətləndirirlər. Ona qədər heç kim belə fəallıq göstərməmişdi. Odur ki, o, istefaya gedəndə hamı narahat olmuşdu.

Heydər Əliyev ziyalılarla səmimi idi. O, yaradıcılıq məsələlərinə yanaşmanı daha yüksək səviyyəyə qaldırmaq istəyirdi. İstəyirdi ki, yaradıcı işçilər daha uzun müddətə təmin olunsunlar. Bununla incəsənət aləmində böyük əsərlər yaradılması, elmdə kəşflər edilməsi üçün imkanlar meydana çıxırdı.

Bütün elmi, yaradıcı təşkilatların rəhbərləri onun yanına problemlərini həll etməyə gəlirdilər. Burdenko adına İnstitutun baş həkimi Konovalov, İqor Moiseyev və başqaları... Mədəniyyət xadimləri onun simasında xeyirxah bir insan görürdülər. Bilirdilər ki, əgər məsələ Heydər Əliyevə çatsa, mütləq həll olunacaq.

Başqa sözlə, Heydər Əliyevin yaradıcı ziyalılara Azərbaycanda göstərdiyi hörmət, ehtiram, Moskvada İttifaq miqyasında böyük aksiyalara çevrildi. Onun incəsənət xadimlərinə daxili, sövq-təbii meyli belə düşünməyə əsas verir ki, bəlkə də o özündə yaradıcı bir şəxsiyyəti "məhv edib".

– Heydər Əliyevlə ziyalıların qarşılıqlı meyli Qorbaçov və onun komandası tərəfindən ona qarşı etimadsızlığın güclənməsi səbəblərindən biri deyildimi?

– Deyə bilmərəm. Heydər Əliyev incəsənət xadimlərinə ayrıseçkilik qoymurdu. O, ümumiyyətlə, hamıya kömək edirdi. Ayrı-ayrılıqda kiminləsə qürur duya bilərdi, ancaq hamıya eyni gözlə baxırdı.

Yadımdadır ki, Heydər Əliyeviç bərpa işləri ilə əlaqədar Tretyakov qalereyasına gəlmişdi. Orada böyük xəzinə mühafizə olunur. Mənə danışdılar ki, o zalları necə gəzib, rus miniatür sənəti ilə dərindən maraqlanırmış, suallar verirmiş. O, Tretyakov qalereyasının bərpası üzrə bütün sənədləri imzalamışdı, bir neçə dəfə oraya baş çəkmişdi. Orada ehtiyat saxlancları, xüsusi iqlim şəraiti yaradılmışdı. Bunun səbəbinə əlli–altmış min eksponatı işıq üzünə çıxara bildilər. Onun köməkliyilə Puşkin muzeyində şəxsi kolleksiyalar muzeyi yaradıldı".

Zənnimcə, mütləq iki il geriyə qayıdıb Heydər Əliyevin SSRİ Memarlar İttifaqındakı çıxışını yada salmalıyıq. Mənə hadisələrin əsil mənzərəsini canlandırmaqda Rasim Həsən oğlu Əliyev kömək etdi. Məhz o bu parlaq, indiki ifadələrlə desək, Əliyev "prezentasiyasının" bilavasitə "günahkarı" oldu. Bu hadisə isə aşağıdakı şəraitdə baş vermişdi.

Rasim Əliyevlə söhbətdən:

"Heydər Əliyeviç Leninqraddan bu şəhərin memarlığını dərindən öyrənərək ona vurulub qayıtmışdı. O bilirdi ki, Rastrelli, Rossi. Kvarenqi nəyi inşa edib, Aniçkov körpüsündə Klodt atları nə zaman qoyulub, onlar harada hazırlanıb. O, İsaakiyev kilsəsi, Birja, Rostral sütunları barədə saatlarla danışa bilərdi. O, memarlığı sevirdi, onu incəliklərinə qədər bilirdi. Xeyli sonra, 1981-ci ildə Moskvada Nizaminin yubileyi ilə bağlı tədbirlər keçirilirdi. Onun tapşırığı ilə mən moskvalı memar Maksim Blinkinlə birlikdə Azərbaycan nümayəndəliyinin binasını inşa edirdik. Qəflətən Azərbaycanın Memarlar İttifaqından mənə zəng gəldi.

– Rasim, biz Azərbaycan Kommunist Partiyası MK-nın qərarından çıxarış almışıq. Sən Moskvada memarlıq sərgisinin keçirilməsinə məsul şəxs təyin olunmusan.

Mən çaşıb qaldım. Axı bütün materiallar Bakıda idi. Bunun ardınca MK-dan zəng vurub dedilər ki, Heydər Əliyeviçin tapşırığı ilə tədbir üçün məsuliyyəti mən daşıyıram.

Az müddətdə material Moskvaya, Memarlar Evinə çatdırıldı. Biz sərgini hazırladıq. Bu vaxt, Memarlar İttifaqına rəhbərlik edən Anatoli Trofimoviç Polyanski məni yanına çağırıb dedi:

– Rasim Həsənoviç, burada artıq Özbəkistan, Gürcüstan, Ukrayna günləri keçirilib. Respublikaların məsul rəhbərləri çıxış edib. Ən aşağı səviyyə – Nazirlər Sovetinin sədr müavini olub. Bəs Memarlar İttifaqında toplaşanlar qarşısında sizdən kim çıxış edəcək?

Mən bu barədə bizim Moskvadakı nümayəndəmiz Ənvər Cəlal oğlu Hüseynovdan bir şey öyrənməyə çalışdım. O dedi:

– Elə siz özünüz Bakının baş memarı kimi çıxış edin.

Mən bunu Anatoli Trofimoviçə bildirəndə o, etiraz etdi.

– Sən Bakının baş memarısan, bu, ümumittifaq tədbiri üçün yerli səviyyə deyil. Respublika rəhbərliyindən kimsə çıxış etməlidir.

Mən bunu Ənvər müəllimə söylədim. O mənə çıxış hazırlamağı tapşırdı. Mən Azərbaycan sovet memarlığının inkişafı tarixindən yazdım, hər şeyi mərhələ-mərhələ təsvir etdim və s. Mətni bəyəndilər. Ancaq mən Ənvər Hüseynova dedim:

– Belə alınmayacaq, Bakı ilə danışmalıyıq. Hökumət adamlarından kimsə çıxış etməlidir.

– Sabah Heydər Əliyeviç öz komandası ilə uçub gəlir, – dedi. – Onda söhbət edərik.

Onlar uçub gəldilər. Mən həyəcan içindəydim. Ertəsi gün saat birdə SSRİ Memarlar İttifaqında görüş olmalıdır, ancaq hələ də kimin çıxış edəcəyi məlum deyil. Süleyman Tatlıyevi, Həsən Həsənovu, Həsən Seyidovu dilə tutdum – heç biri məni eşitmək belə istəmədi.

– Məsul şəxs sənsən, özün də çıxış elə.

– Respublikanı təmsil etmək lazımdır, – deyə izah edirəm, onlarsa yaxalarını qırağa çəkirlər.

Neyləməli? Mən qərara gəldim ki, Heydər Əliyevi gözləyim, o yəqin ki, Azərbaycan nümayəndəliyinə gələcək. Polyanski isə məni "topa tutur", tələb eləyir deyim ki, kim çıxış edəcək? Çünki çıxış edənin səviyyəsindən asılı olaraq auditoriya müəyyən olunur. Heydər Əliyevin gəlişinə bir saat qalmış "doqquzluğ"un adamları gəlib bütün kabinetləri yoxladılar, kənar adamları binadan çıxartdılar. Nümayəndəlikdə yalnız Ənvər Hüseynov və köməkçisi qaldı. Məndən də xahiş etdilər ki, gedim. Mən Heydər Əliyevin qəbul otağına açılan dəhlizin qapısı arxasında gizləndim. Hətta siqaret də çəkmədim ki, gözə dəyməyim. Təqribən gecə saat on ikinin yarısında eşitdim ki, Heydər Əliyev öz köməkçiləri, respublikanın digər rəhbərləri ilə dəhlizdən keçir. Onlar qəbul otağına çatanda mən qapını açıb dedim:

– Salam, Heydər müəllim, axşamınız xeyir.

– Sən burada neynirsən? – deyə təəccüblə soruşdu.

– Sizi gözləyirəm.

– Xeyir ola, sən məni bu vaxt niyə gözləyirsən?

– İcazə verin, vəziyyəti sizə izah edim. Vəziyyət çox mürəkkəbdir.

– Get qəbul otağına, orada gözlə.

O öz kabinetinə getdi. Gecə saat birə işləyirdi. Hamı çıxandan sonra məni dəvət etdilər. Kabinetdə Həsən Seyidov və Ənvər Hüseynov qalmışdılar.

– Hə, de görüm nə istəyirsən? Hansı vacib məsələ səni narahat edir?

İzah edirəm ki, Memarlar İttifaqında çıxış etmək lazımdır, artıq sərgi təşkil olunub, restoranda bizim mətbəximiz, çay evimiz fəaliyyətdədir. Ağ zal təxminən 860 yerlikdir. Mən məruzə hazırlamışam, hamıya müraciət etmişəm ki, bu məruzə ilə çıxış etsinlər. Ancaq hamı Bakının baş memarı kimi məni irəli verir. Polyanski isə deyir ki, çıxış edənin səviyyəsi nə dərəcədədirsə, auditoriyanın səviyyəsi də ondan asılı olacaq. Mən isə bu cür toplantıda respublikamı təmsil edə bilmərəm.

– Edə bilməzsən? – deyə soruşdu.

– Xeyr.

– Onlar da təmsil edə bilməzlər? Yəni siz çıxış edə bilməzsiniz?

Hamı susdu.

– Heydər Əliyeviç, biz mütəxəssis deyilik.

– Bəsdirin, – dedi. – Sabah üçün mənim işim başdan aşır. Sizin tədbiriniz neçədədir?

– Gündüz saat 1-də.

– Saat 1-də nahar etməyə ümid edirdim. Yenə də hər şeyi mən eləməliyəm. Yaxşı, özüm çıxış edərəm.

Mən rahat nəfəs aldım. Sanki üstümdən dağ götürüldü.

– Ənvər, öz kabinetinizə gedib zəruri tədbirlər görün.

Təqribən gecə saat birin yarısında Polyanskiyə zəng vurub onu yuxudan oyatdım. Üzr istəyib, xəbər verdim ki, Heydər Əliyev özü çıxış edəcək.

– Nə danışırsınız? Bu, vəziyyəti tamamilə dəyişir. Mən Sov.İKP MK-nı məlumatlandırmalıyam.

Mən məruzəni Heydər Əliyeviçə göstərdim.

– Bunu özün üçün yadigar saxla, – dedi.

Ertəsi gün Heydər Əliyev öz mühafizə dəstəsi ilə gəldi. Onu qarşılayıb zala, oradan da Rəyasət Heyətinə ötürdülər. Mən də Rəyasət Heyətində, ikinci sırada oturmuşdum.

Onun çıxışı üç saatdan artıq çəkdi. Zal ağzınacan dolu idi. İlk sıralarda SSRİ-nin xalq memarları, müxtəlif mükafatların laureatları, ağsaqqallar, sovet memarlığının sütunları, dayaqları əyləşmişdilər. Əvvəlcə onlar Heydər Əliyevə şübhə ilə yanaşdılar, yəni ki, növbəti partiya lideri çıxış edir. Ancaq üç-dörd dəqiqədən sonra zala ölü sükut çökdü. O, memarlıqdan danışmağa başladı. Memarlığın qarşılıqlı əlaqəsindən, Şərq və Avropa sivilizasiyasından, italyan Renessansından, rus klassisizmindən, XIX əsrin əvvəlləri rus memarlıq üslubundan qısaca danışdı. Sonra sovet memarlığına keçdi, bizə, sovet memarlarına dərs verdi ki, necə işləmək lazımdır. Vurğuladı ki, biz insanlara güclü təsir göstərən sovet memarlığının taleyinə, simasına cavabdehik. Bizi yeknəsəqliyə, eynitipliliyə yol verməkdə günahlandırdı. Güclü, ancaq əsaslı, sağlam tənqid gedirdi, ən əsası isə o, düzgün istiqamət göstərirdi. Xatırlayıram ki, o dedi: "Sizin vəzifəniz odur ki, bizə, rəhbərlərə elə memarlıq nümayiş etdirəsiniz ki, biz sizi haradasa dayandıraq, əl saxlamağa məcbur edək. Daha dövlətin qəbul etmədiyi "boz" layihələr təqdim etməyəsiniz". Zal donub qalmışdı, onu nəfəslərini dərmədən dinləyirdilər, sonra isə dayanmadan, özü də ayaq üstə alqışladılar. Bu, əsl triumf, qələbə idi! Sonra hamı Memarlar İttifaqının restoranına və kafesinə getdi. Çəhrayı zalda gözəl süfrə açılmışdı. Qəbulda memarlıq və tikintiyə hamilik edən Sov.İKP MK katibi Dolgix, MK şöbə müdiri Fyodorov, bizim adlı-sanlı memarlar iştirak edirdilər. Həmin memarlar Heydər Əliyevdən bir addım aralanmırdılar. SSRİ Memarlar İttifaqının katibi Zinaida Şişkina hamıya pıçıldayırdı: "Onun yəqin ki, memarlıq təhsili var". – "Ancaq ölkənin heç bir memarlıq institutunda arxitektura bu cür geniş tədris olunmur, – deyə ona etiraz edirdilər, – o bizdən çox bilir, trintoçento dövrü barədə görəsən haradan öyrənib?"

Bu çıxış bütün sovet memarlarında dərin iz buraxdı. Mən ona minnətdar idim, çünki bizlərdən heç kim, elə mən özüm də heç vaxt bu cür çıxış edə bilməzdik. O, qabaqcadan hazırlaşmadan, heç bir kağıza-filana baxmadan danışırdı. Beləcə də bütün auditoriyanı ələ almışdı!"

Heydər Əliyev Azərbaycan mədəniyyət ustalarının konsertlərinə böyük məmnuniyyətlə gedirdi. Bəzi konsertlərdə onun katibliyi-

nin müdir müavini Vladimir Uxov iştirak edirdi. Sonralar o xatırlayırdı:

"...Azərbaycandan gəlmiş artistlərin çıxış etdiyi konsertlərin birində o özü iştirak edirdi. Konsertdən sonra məndən soruşdu: "Hə, necədir, məhz nə sənin xoşuna gəldi?". Dedim: "Artistlər, mənə elə gəlir ki, yaxşıdırlar. Ancaq Azərbaycan dilində mahnılar oxuyan müğənni qız çox xoşuma gəldi. O, populyar rus mahnılarını oxuyanda, o qədər də yaxşı alınmırdı". O mənə dedi: "Sən ki Azərbaycanca başa düşmürsən". Mən: "Əlbəttə, başa düşmürəm, ancaq milli koloriti duyuram. Bax, bu mənim xoşuma gəldi". Beləliklə, Azərbaycan artistləri gələndə biz həmişə onların konsertlərinə gedirdik. Heydər Əliyeviç həmişə bizim rəyimizlə maraqlanırdı".

Rejissor V.Mustafayevin "Moskva. Kreml" filmində tanınmış Azərbaycan pianoçusu Fərhad Bədəlbəyli belə danışırdı:

"Mən, Veronika Dudarovanın idarəsilə Moskva filarmonik orkestri ilə Moskvada verdiyim konserti xatırlayıram. Məşq zamanı qəflətən zalda mülki paltar geymiş adamlar bütün kresloları, qapıları yoxlamağa başladılar. Mən nə baş verdiyini anlaya bilmədim. Məlum oldu ki, Siyasi Büronun üzvü Heydər Əliyev axşam konserтə gələcək. Dudarova az qala huşunu itirdi, bütün müsiqiçilər, o cümlədən də mən həyəcandan özümüzə yer tapa bilmirdik. O vaxtlar Siyasi Büronun üzvləri konsertlərə az-az gedirdilər və onların kütlə arasında hər görünüşü böyük siyasi əhəmiyyətə malik hadisəyə çevrilirdi. Fikirləşdim ki, Heydər Əliyeviç Moskvada məndən qat-qat güclü və maraqlı pianoçuları dinləyə bilərdi. Çünki paytaxtda o vaxtlar dahi Rixter, Gilels çıxış edirdilər. Mən başa düşdüm ki, bu jesti ilə, əlbəttə ki, öz gənc həmyerlisinə mənəvi dəstək nümayiş etdirmişdi".

1983-cü il oktyabrın 15-də Fikrət Əmirovun 60 illiyi münasibətilə Kremlin Qurultaylar sarayında "Min bir gecə" tamaşası göstərildi. Heydər Əliyev tamaşaya Zərifə xanımla birlikdə gəlmişdi.

"...Dərhal səhnə arxasına xəbər yayıldı... Səhnənin xidmət heyəti, texniki və yaradıcı işçilər hörmət və ehtiramla "Əliyev zaldadır" sözlərini ifadə edirdilər.

Fasilə zamanı Heydər Əliyevə yerindən qalxmağa imkan vermədilər: ona müxtəlif məzmunlu işlər və xahişlərlə Bolşoy Teatrın

və Kreml sarayının direktorları, balet elitasının nümayəndələri, bəstəkarlar, rəssamlar yanaşırdılar. Yaxınlaşmağa cürət etməyənlər yaxınlıqda, camaatın arasında durub "Əliyevin özünü" görməyə çalışırdılar"[39].

Artıq qeyd etdiyimiz kimi, Siyasi Büronun üzvləri arasında münasibətlər çox soyuq və sırf işgüzar xarakter daşıyırdı. Heydər Əliyev yalnız Sov.İKP MK-da əvvəlcə ümumi, sonra inzibati şöbənin müdiri işləyən Anatoli Lukyanovla mənəvi əlaqə yarada bilmişdi. 1986-cı ildə onlar birlikdə Yuqoslaviyaya rəsmi səfərə getmişdilər. Elə orada da məlum olmuşdu ki, hər ikisi kitabsevər, Şərq poeziyasının və ədəbiyyatının vurğunu və bilicisidir.

Anatoli İvanoviç özü bu barədə mənə bunları söylədi:

"İnsani cəhətdən Heydər Əliyeviçlə bizim aramızda çox maraqlı münasibətlər yaranmışdı. O öyrənmişdi ki, mən çoxdan bəri, 1948-ci ildən poeziya və ədəbiyyat nümunələri yığıram, böyük fonotekam var. Ona görə də mən Şərq poeziyasını çox gözəl bilirəm. Xarici səfərlərdə olanda biz bu mövzuda uzun-uzadı söhbət etmişdik. Əminliklə deyə bilərəm ki, bu söhbətlər zamanı mən özüm üçün başqa bir Əliyevi kəşf etdim. Ədəbiyyat bilicisini, bütün ədəbi istiqamətləri incədən-incəyə duyan, geniş dünyagörüşə malik bir insanı. Yadımdadır ki, biz Nizamidən danışırdıq. Söhbət fars ədəbiyyatının Azərbaycan ədəbiyyatına, digər türkdilli xalqların ədəbiyyatına nə cür təsir göstərməsindən gedirdi. Rudəki, Nizami, Firdovsi, Hafiz və s. Biz onlarla ad çəkib, əsərlərindən misallar gətirirdik.

Söhbətimiz Sabir haqqında idi. Mən belə hesab edirəm ki, o, Şərqin ən nəhəng şairidir. Biz onunla yaradıcılıq barədə çox geniş söhbətlər aparırdıq. Müasir poeziyadan da söhbət düşdü: Rəsul Rza haqqında, Səməd Vurğunun məndə olan əlyazmaları haqqında. Başqa sözlə desək, çətin bir vaxtda biz özümüz üçün belə bir mənəvi təskinlik aşkara çıxardıq.

Mən çox tez-tez bu məsələyə qayıdırdım. 1988-ci ilin fevralında mən Yerevanda, MK-nın binası qarşısındakı meydanda çıxış eləməli oldum. Oraya on minlərlə adam toplaşmışdı, mitinqlər gedirdi. Qəflətən Heydər Əliyeviçi, daha dəqiq desək, onun yada saldı-

ğı bir şairi xatırladım. Mitinqə toplaşanlara dedim: "Qafqazda bir şair vardı, həm Ermənistanın, həm Gürcüstanın, həm də Azərbaycanın şairi idi – Sayat Nova. Ola bilməz ki, siz onu dinləmək istəməyəsiniz. Yəni siz başa düşmürsünüz ki, bu gün Qafqazın bütün xalqları üçün birlik necə vacibdir?" Biz Heydər Əliyevlə Sayat Nova barədə çox danışmışdıq. Qeyd etməliyəm ki, bu sözlərlə mitinq iştirakçılarını bir qədər sakitləşdirmək mümkün oldu. Sonralar mən Vazgenlə, Şeyxülislamla görüşəndə və biz Qafqaz xalqlarını birləşdirən amili yada salanda mən onlara bir neçə dəfə dedim ki, Sayat Nova haqqında ilk dərin söhbəti mən Heydər Əliyeviçlə etmişəm".

M.Qorbaçov Sov.İKP MK-nın Baş katibi seçiləndən sonra Heydər Əliyevi ədəbiyyat və incəsənət xadimləri ilə görüşlərdən kənarlaşdırmağa başladılar. "Birinci" həmkarının yaradıcı ziyalılar arasındakı populyarlığına açıq-aşkar qısqanırdı. Belə ki, 1986-cı il iyunun 24-də Heydər Əliyev Siyasi Büronun digər üzvləri ilə birlikdə Böyük Kreml sarayında SSRİ yazıçılarının VIII qurultayının açılışında iştirak edirdi. İyunun 19-da isə M.Qorbaçov yazıçıların bir qrupunu Kremldə qəbul edirdi. Ancaq Nazirlər Soveti xətti ilə mədəniyyət məsələlərinə hamilik edən Heydər Əliyevi bu görüşə dəvət etməmişdi. O görüşdə Qorbaçovun "istəkliləri" Y.Liqaçov və A.Yakovlev iştirak edirdilər. Qorbaçov ölkənin aparıcı KİV-lərinin baş redaktorları ilə görüşlər keçirəndə də Əliyev gözə dəymirdi. Və yaxud: 1986-cı il iyunun 30-da Heydər Əliyev müttəfiq respublikaların MK katiblərinin, vilayət partiya komitəsi katiblərinin, müttəfiq respublikaların Nazirlər Sovetlərinin sədr müavinlərinin, maarif və texniki-peşə orqanları rəhbərlərinin yığıncağında iştirak edirdi. Yığıncaqda ümumtəhsil və texniki-peşə məktəbi islahatının həyata keçirilməsi məsələləri müzakirə olunurdu. Bu sahənin həm Siyasi Büro, həm də Nazirlər Soveti xətti ilə kuratoru Heydər Əliyev idi. Hələ onu demirik ki, islahat layihəsinin özü onun rəhbərliyi altında işlənib hazırlanmışdı. Ancaq yığıncağı giriş sözü ilə Y.Liqaçov açdı və özü də apardı. Heydər Əliyevə ağzını açmağa imkan vermədi. Heydər Əliyevin əvəzinə çox vaxt da M.Qorbaçovu müşayiət edərək o bütün mədəni tədbirlərə getməyə başladı. Odur ki, akademik Roald Saqdeyev qəhrəmanımızın Qorbaçovun təqsiri üzündən düşdüyü "süni izolyasiya" vəziyyətindən danışarkən həqiqətdən heç də uzaq deyildi.

Lakin Heydər Əliyevin görünüşündən saçılan parlaq işığı söndürməyə cəhd göstərmək əbəs idi. O, hər hansı yığıncaqda, hər hansı cəmiyyətdə görünən kimi, onunla birgə bu tədbirdə Siyasi Büronun digər üzvləri iştirak etsələr belə, istər-istəməz diqqət mərkəzində olurdu.

Onun yaradıcı ziyalılarla münasibətlərinə gəlincə, istefasından sonra da bu münasibətlər əlacə səmimi və etibarlı idi. Gələcək fəsillərdə biz hələ bu mövzuya qayıdacağıq.

Hələliksə biz qısamüddətli "Çernenko erası" barədə söhbəti bitiririk. Sonrakı iki il yarımı Heydər Əliyev yeni Baş katibin başçılığı altında işləməli, nəhəng ölkə isə hər biri özünəməxsus tərzdə SSRİ-nin dağılmasını yaxınlaşdıran çoxlu qəribə və həm də dramatik hadisələr yaşamalı olacaq. Qorbaçovun "demokratikləşdirmə və aşkarlıq" dövrü başlayırdı.

[1] Семанов С. Юрий Андропов. М., 2003. С. 310.
[2] Медведев Р.Неизвестный Андропов. Ростов-на-Дону, 1999. С. 502.
[3] Грачев А.Кремлевская хроника. М., 1994. С. 86.
[4] Волкогонов Д. Семь вождей. М., 1995, кн.2. С. 187.
[5] Черняев А. Моя жизнь и мое время. М., 1995. С. 449.
[6] Кеворков В. Тайный канал. М., 1997. С. 295-296.
[7] Прибытков В.Аппарат. М., 1995. С. 65-66.
[8] Рыжков Н. Десять лет великих потрясений. М., 1996. С.55-56.
[9] Легостаев В. Гебист магнетический. Завтра, № 5, 2004.
[10] Лаптев И. Власть без славы. М., 2002. С. 41-43.
[11] Time. № 17. April 23. 1984.
[12] Воротников В.И. А было это так... Из дневника члена Политбюро ЦК КПСС. М., 1995. С. 38.
[13] В. Медведев. В команде Горбачева. Взгляд изнутри. М. 1994. С. 17.
[14] Легостаев В. Технология измены. М., 1993. С. 35-37.
[15] Прибытков В.Аппарат. С. 167, 170.
[16] Воротников В. А было это так... С. 34.
[17] Рыжков Н. Десять лет великих потрясений. С. 61-70.
[18] Воротников В. А было это так... С. 38-39:
[19] Шубин А. Золотая осень, или Период застоя. СССР в 1975-1985 гг. М., 2008. С. 291-292.
[20] Литературная газета. 1984. 23 мая.
[21] Зеркало. 2003. 20 декабря.
[22] Воротников В. А было это так... С.100.
[23] Клепикова Е., Соловьев В. Заговорщики в Кремле. М., 1991. С. 231.
[24] Медведев Р. Неизвестный Андропов. С. 356.
[25] Грачев А. Кремлевская хроника. С. 59.
[26] Известия. 2004. 23 декабря. № 239.
[27] Андриянов В., Мираламов Г. Гейдар Алиев. М., 2006. С. 173.
[28] Известия. 2004. 23 декабря. № 239.
[29] С.Султаноглу. Долгая дорога в июнях. Зеркало. 1999. 14 июля.
[30] Андриянов В., Мираламов Г. Гейдар Алиев. Стр. 188.
[31] Эхо планеты. 2007, июнь. № 24.
[32] Андриянов В., Мираламов Г. Гейдар Алиев. Стр. 188.
[33] Яхъяев Т. Две жизни в одной судьбе. Баку. 2007. С. 49.
[34] Бакинский рабочий. 2003. 25 сентября.
[35] Эхо Планеты. 2007. № 24. С. 28-29.
[36] Зенькович Н. Гейдар Алиев. Зигзаги судьбы. М., 2007. С. 512-513.
[37] Лигачев Е. Знаю лично. Бакинский рабочий. 2004. 30 апреля.
[38] Эхо. 2008. 7 мая. № 81.
[39] Светлана Мирзоева. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. Баку, 2004. С. 222.

Üçüncü fəsil

İki il yarım Qorbaçovun komandasında

mart 1985–oktyabr 1987

Qorbaçovu hakimiyyətə kim gətirdi?

Y.Andropovun müşaviri, ad çıxarmış Arkadi Volski sonralar təsdiq edirdi ki, onun şefi, Sov.İKP MK-nın növbəti Plenumunun materialları üzərində işini bitirib onlara bir əlavə yazmışdı: "Sizə məlum səbəblərə görə, bu yaxın zamanlarda mən Siyasi Büro və Sov.İKP MK Katibliyi iclaslarını apara bilməyəcəyəm. Buna görə Siyasi Büro və MK Katibliyi iclaslarının aparılmasını M.S.Qorbaçova tapşırmaq haqqında məsələyə baxılmasını xahiş edirəm"[1]. Bu yazı, Volskinin fikrincə, nə az-nə çox, vəsiyyət mənası daşıyırmış.

Mən Yeqor Liqaçova sual verdim ki, Yuri Vladimiroviç Mixail Qorbaçovu öz varisi kimi görürdümü? Və belə bir cavab aldım: "Mən Andropova xəstəxanada bir neçə dəfə baş çəkmişdim, çünki o zaman mən artıq MK katibi, şöbə müdiri idim və kadrlarla məşğul olurdum. Buna görə də, əlbəttə, hər hansısa yerdəyişmələri onunla razılaşdırmalı idim. Mən onun belə bir niyyətdə olduğunu görmürdüm. Düzdür, mənə demişdilər ki, o, guya 1983-cü il dekabr plenumu ərəfəsində Volskiyə məktub vermişdir ki, Qorbaçovu seçmək lazımdır. Lakin Volski guya bu yazını gizli saxlayıbmış. Çətin ki, Volski Baş katibin yazılı göstərişini gizlədə biləydi. Axı belə olsaydı, sonra başını salamat saxlaya bilməzdi.

– Andropovla Qorbaçovun münasibətləri yaxşı idimi?

– Şübhəsiz. Andropov onunla məsləhətləşir, ona inanırdı. Amma mən heç vaxt eşitməmişdim ki, o, hardasa Qorbaçovun seçilmə-

li olduğunu söyləsin, ya yazsın. Mən isə Yuri Vladimiroviçlə çox vaxt ünsiyyətdə olurdum".

Eyni qənaəti "Xruşşovdan Qorbaçovadək" kitabında Viktor Qrişin söyləyir: "İndi çox yazırlar ki, guya Andropov Qorbaçovu ölkə başçısı vəzifəsində öz xələfi kimi gözaltı edibmiş. O cümlədən, Y.V.Andropovun köməkçisi olmuş A.Volski bu barədə danışır və yazır. Deməliyəm ki, Andropov Qorbaçovu partiya rəhbərlərinin məhdud dairəsinə qatmamış, heç vaxt partiya rəhbəri vəzifəsində ehtimal olunan xələfi kimi adını çəkməmiş, Siyasi Büronun başqa üzvlərindən heç nə ilə fərqləndirməmişdi"[2]. Maraqlıdır ki, Andropovla ən yaxın olmuş şəxslərin məhdud dəstəsinə, Qromıko, Ustinov, Tixonov, Çernenko ilə yanaşı, Qrişin özünü də qatır. O, başqaları kimi, Heydər Əliyevin adını çəkmir.

N.Rıjkov da Andropovun "vəsiyyəti"nin gerçəkliyindən şübhələnir:

"... MK dekabr (1983-cü il) Plenumunda çıxış mətninə onun (Andropovun – ***E.A.***) guya əlavə etdiyi dərkənara istinad edirlər. Məlum olduğu kimi, o, xəstəliyi ucbatından Plenumda iştirak edə bilməmişdi. Çıxışı yazılı şəkildə Mərkəzi Komitə üzvlərinə paylanmışdı.

Amma əgər hər nə olsa da, belə məsələlər Siyasi Büro "özəyi" çərçivəsindən kənara çıxmazdı, illah da ki, MK katibləri ola. Mən çox şübhə edirəm ki, belə bir addımın nəticələrini o, hələ güclü olan Ustinov, Tixonov, Çernenko, Qrişinin müqabilində götür-qoy etməsin. O vaxt elə Qromıko da bu təklifi çətin ki, dəstəkləyəydi. Axı hətta Andropovun ölümündən sonra, Çernenkonun dövründə Qorbaçov partiyanın ikinci şəxsi olanda da, ona Siyasi Büro iclaslarının Baş katib olmadan aparılması rəsmən tapşırılmamışdı"[3].

Amma görün, varislik məsələlərinə gəldikdə, Andropova çox yaxın olmuş V.Kryuçkov nə yazır:

"İllər ötdükcə xatirəmdə Yuri Vladimiroviç Andropovun surəti, xüsusən də həyatının son həftələri, günləri tez-tez canlanır. O, ömrün fiziki hüdudu kimi ölüm haqqında düşüncələri özündən uzaqlaşdırsa da, söz-söhbətlərində, mülahizələrində daima bir nigarançılıq və həyəcan vardı ki, dövlətin, partiyanın aqibəti uzaq yox, yaxın gələcəkdə necə olacaq və o, hansı işləri görməyə macal tapmalıdı. Məncə, onu xüsusən məyus edən partiya və dövlət rəhbəri vəzifəsində varis barədə qərarının, hətta aydın qənaətinin olmaması idi"[4].

Y.Andropovdan fərqli olaraq, K.Çernenko M.Qorbaçovu partiyada ikinci şəxs yerinə qaldırmış və Konstantin Ustinoviçin bir ildən bir az artıq "şahlığ"ı ərzində Qorbaçov öz mövqeyini xeyli möhkəmləndirə bilmişdi.

Birincisi, "qocaların" müqavimətinə baxmayaraq, Mixail Sergeyeviç katibliyin, eləcə də K.Çernenkonun xəstəliyi səbəbindən, Siyasi Büronun da iclaslarında sədrlik etmək imkanı qazanmış, həmin tədbirlərdə, sabiq silahdaşlarının rəyincə, demokratiklik, təfəkkür genişliyi, analitik qabiliyyət və bir çoxlarının qeyd etdiyi kimi, kommunist əqidəsi nümayiş etdirmişdi. "Partiyada önəmliyinə görə ikinci vəzifəni tutan M.S.Qorbaçov, bununla belə təvazökarlıqla kölgədə qalmaqda davam edir, qəzet səhifələrində, telekanallarda tez-tez görünmür, hər hansı ifrat siyasi iddiaları büruzə vermirdi. Bir çoxlarının nəzərində o, kənd təsərrüfatına nəzarət edən və yalnız fövqəladə zəruri hallarda K.U.Çernenkonun "sağ əli" vəzifəsini ifa edən Siyasi Büro üzvü olaraq qalırdı"[5].

İkincisi, 1985-ci ilin əvvəlləri üçün Y.Liqaçovun sayəsində M.Qorbaçov artıq ölkənin bir çox bölgələrində partiyanın təsirli mancanaqlarını əlində möhkəm tutmuşdu. Məsələ ondadır ki, 1983-cü ildə Y.Andropov Tomsk Vilayət Partiya Komitəsinin birinci katibi Yeqor Kuzmiç Liqaçovu Sov.İKP MK partiya-təşkilat işi şöbəsinə müdir təyin etmişdi. Həmin ildə o, MK katibi seçilərək, şöbə müdiri vəzifəsində də saxlanılmış, bu da ona Mərkəzi Komitəni yerli partiya komitələri və rəhbər dövlət qurumları ilə bağlayan çoxsaylı telləri əlində cəmləşdirməyə imkan vermişdi.

Bu barədə "On tələtümlü il" kitabında N.Rıjkov xatırlayır: "Fenomenal dərəcədə fəal, sərt, məqsədyönlü bir insan olaraq o, (Y.Liqaçov – ***E.A.***) yavaş-yavaş boy atan Qorbaçovun əvəzsiz silahdaşı və köməkçisinə çevrildi. Açığını deyim ki, onun Qorbaçov komandasının təşəkkülü və möhkəmlənməsi üçün sən demə, həddən artıq vacib olan belə inadkarlığına bəzən heyrət edirdim.

Partiya-təşkilat işlərinə, yəni partiya kadrlarına rəhbərlik edərək Liqaçov vilayət və diyar partiya təşkilatları rəhbərlərini tədricən

dəyişirdi. Vilayət və diyar komitə rəhbərləri, əsasən, necə deyərlər, yaşa dolmuş, çoxdan işləyən adamlar idi. Həmin yaşlı adamı fəxri fərdi təqaüdə yollayıb başqa imtiyazları da – mənzili, dövlətə mənsub bağ malikanəsini – saxlayırdılar, burada qeyri-qanuni nə vardı ki? Təbii iş idi. Və, bu, məncə, nə kapitalı, nə şəxsi mülkü olanlara, maaşı da adidən adi olanlara qarşı normal münasibət idi.

Yəqin Leonid İliçin silahdaşları, Liqaçovun fəal əməllərindən narazı qalaraq, ürəyində onu qınayırdılar, lakin etirazlarını dilə gətirməyə bəhanə tapmırdılar. Beləcə, tədricən ölkədə Qorbaçovun etibarlı dayağı, onun nəinki mərkəzdə, həm də yerlərdə komandası yaranırdı"[6].

Beləliklə, 1983-cü ildən başlayaraq bir neçə il ərzində vilayət komitələri və müttəfiq respublikaların MK katiblərinin 90 faizə yaxını əvəz edilmişdi.

Siyasi Büronun qalan üzvlərinə gəldikdə, 1985-ci il martın 10-da K.U.Çernenkonun ölüm xəbəri onları müəyyən dərəcədə qəfildən haqlamışdı. Buna bir fakt da sübutdur ki, ali partiya iqtidarının üç nüfuzlu üzvü o vaxt Moskvadan kənarda idi: D.Kunayev uzaq Alma-Atada, V.Şerbitski – daha da uzaq Nyu-Yorkda, Q.Romanov isə məzuniyyətdə, Litvanın Palanqa şəhərində idi.

"1991-ci ilin noyabr-dekabr aylarında Rusiya televiziya kanalları ilə Bi-Bi-Si şirkətinin "İkinci rus inqilabı" filmi göstərilirdi. Bu filmin bir maraqlı epizodunda akademik G.Arbatov üzündə məkrli bir təbəssüm, 1985-ci ilin mart ayında Nyu-Yorkdan Moskvaya Baş katib seçkisinə qatılmaq üçün yola düşən V.S.Şerbitskinin təyyarə uçuşunun qəsdən necə ləngidilməsi haqqında danışır... İndi adətincə işlənən "avqustdan sonrakı" təbirlə demək olar ki, o vaxt Ukrayna rəhbərinin başına bir növ özünəməxsus "Foros" oyunu açmış və onu taleyüklü qərarın qəbul edilməsinə qatılmaqdan məhrum etmişdilər.

Q.V.Romanova gəldikdə o, baş verən hadisədən yalnız saat 23-də, yəni Qorbaçovu K.U.Çernenkonun dəfninin təşkili üzrə hökumət komissiyasının sədri seçmiş Siyasi Büronun birinci iclasından sonra xəbər tutmuşdu. Moskvadan Palanqaya – Romanova Sov.İKP MK ümumi şöbəsinin o zamankı müdiri K.M.Boqolyubov zəng vurmuşdu. O, Konstantin Ustinoviçin vəfat etdiyi, Siyasi Büronun keçirilmiş iclası, qəbul edilmiş qərarlar barədə xəbər vermişdi.

– Sən niyə əvvəlcədən zəng vurmadın? – deyə Romanov öz "Foros"undan soruşdu.

– Mənə deməmişdilər...

Məhz kimin, hansı haqla "deməməsini" araşdırmağın daha mənası yox idi.

Bu minvalla, Çernenkonun vəfatından iki saat sonra yığışmış Siyasi Büro iclasında sonrakı hadisələrin bütün axarını müəyyənləşdirmiş qüvvələr nisbəti belə idi: gördüyümüz kimi, Siyasi Büronun on üzvündən üç nəfər aparıcı şəxs dəvət olunmamış, dördüncüsü – A.A.Qromıko C.Buşun proqnozlarından xəbərdar olaraq, görünür, onları nəzərə almış, beşincisi isə, M.S.Qorbaçovun özü idi"[7].

Beləliklə, Sov.İKP MK Plenumuna azad olunmuş vəzifəyə kimin seçilməsi təklifi barədə qərarı Siyasi Büronun aşağıdakı tərkibi qəbul etməli idi: Heydər Əliyev – SSRİ Nazirlər Soveti sədrinin birinci müavini; V.İ.Vorotnikov – RSFSR Nazirlər Sovetinin sədri; M.S.Qorbaçov – Sov.İKP MK-nın ikinci katibi; V.V.Qrişin – Sov.İKP MŞK-nın birinci katibi; A.A.Qromıko – SSRİ xarici işlər naziri; D.A.Kunayev – Qazaxıstan Kommunist partiyası Mərkəzi Komitəsinin birinci katibi; Q.V.Romanov – Sov.İKP MK katibi; M.S.Solomentsev – Sov.İKP MK nəzdində PNK-nın sədri; N.A.Tixonov – SSRİ Nazirlər Sovetinin sədri; V.V.Şerbitski – Ukrayna Kommunist partiyası Mərkəzi Komitəsinin birinci katibi.

Siyasi Büro üzvlüyünə namizədlər və MK katibləri məşvərətçi səs hüququna malik idilər. 1985-ci ilin mart ayında yeni Baş katibi seçənlərin sırasına əvvəllər mövqeyi çox güclü olan SSRİ silahlı qüvvələri nümayəndəsi daxil edilməmişdi. SSRİ müdafiə naziri D.Ustinov 1984-cü il dekabrın 20-də müəmmalı şəraitdə vəfat etmişdi və onun Siyasi Büroda tutduğu yer boş qalırdı.

"Madam ki, biz D.F.Ustinovun adını çəkdik, – İ.Laptev öz kitabında yazır, – Siyasi Büronun bu üzvünə də bir neçə sətir həsr etmək lazımdır. Mütləq lazımdır, çünki Brejnevin ölümündən sonra məhz o, Sovet İttifaqı marşalı, SSRİ müdafiə naziri, partiya və ölkə başında kimin olacağı haqqında həlledici sözə malik idi. Və mən əmin deyiləm ki, əgər Ustinov bir il də yaşasaydı, 1985-ci ilin mart və aprel aylarında Sov.İKP MK plenumlarındakı hadisələr onun

olmadığı vaxtlardakı kimi cərəyan edərdi. K.U.Çernenkonun Baş katib seçilməsini əvvəlcədən müəyyənləşdirmiş Siyasi Büro iclasından sonra məhz Dmitri Fyodoroviç SSRİ Nazirlər Sovetinin sədri N.A.Tixonova, sonralar A.İ.Volskinin dəfələrlə səsləndirdiyi bu sözləri demişdi: "Eybi yox, Kolya. Kostya (Çernenko – ***E.A.***) bizimçün daha sərfəlidir". Həm də o, Qorbaçovu da "sakitləşdirərək" məlumat vermişdi ki, Kostyaya deyəcək, katiblik iclaslarının aparılmasını məhz Mixail Sergeyeviçə tapşırsın. Sonra bəzi Siyasi Büro üzvlərinin etirazlarına baxmayaraq, elə belə də oldu"*.

Bir sözlə, 1985-ci ilin baharında ölkə üçün həyat əhəmiyyətli qərarı dövlətin ali siyasi rəhbərlərindən ibarət on nəfərlik "divanxana" qəbul etməli idi. O zaman partiyada hökm sürən ənənələr müqabilində MK Plenumunun ona təklif olunan namizədi dəstəkləyəcəyinə şübhə yeri qalmırdı.

* * *

Yeqor Liqaçov özünün "Xəbərdarlıq" adlı kitabında yazır ki, K.Çernenkonun vəfatından sonra Siyasi Büronun martın 10-da axşam keçirilən ilk iclasında yeni Baş katib haqqında məsələ hələ aydınlaşdırılmamışdı və hətta "dəfn komissiyası sədri ətrafında fikir mübadiləsi nə isə tutqun bir xarakter aldı və öz-özünə səngiyib sovuşdu".

Əlbəttə, Siyasi Büroda başqa siyasi fiqura bel bağlayanlar da vardı. Eləcə də hələ mövqeyini müəyyənləşdirməyən, qarşıdakı gecə baş verənləri götür-qoy etmək, siyasi məşvərətlər aparmaq istəyənlər də. Liqaçovun yozumuna inansaq, ertəsi gün hadisələr aşağıdakı minvalla inkişaf etmişdi:

"Saat səkkiz sıfır-sıfırda mən artıq "Köhnə meydan"da idim, necə deyərlər, telefonları "yəhərləmişdim", vida mərasimi keçiriləcək Sütunlu salonda hazırlıq işlərinin gedişatını yoxlayır, MK Plenumu iştirakçılarının Moskvaya gəlib-gəlməməsini dəqiqləşdirirdim və sairə və ilaxır. Təxminən saat 9-la 10 arasında birinci hökumət rabitəsinin Kreml xətti səsləndi. Mən dəstəyi qaldırıb:

– Yeqor Kuzmiç, Qromıkodur... – sözlərini eşitdim.

Sov.İKP MK aparatında işlədiyim iki il ərzində bu, demək olar, Andrey Andreyeviçin nadir zənglərindən biri idi. Məsələ ondadır

ki, biz cari məsələlər üzrə əslində təmasda olmurduq: Qromıko xarici siyasət məsələlərilə məşğul olur, mənim üçün isə başlıca sahə daxili həyat idi. Biz Qromıko ilə Siyasi Büro iclaslarından sonra, Baş katibi "Vnukovo-2" təyyarə limanında yola salanda, ya qarşılayanda dəfələrlə söhbətləşmişdik. Lakin telefon ünsiyyətimiz az olurdu, çünki buna ehtiyacımız olmurdu. Və birdən-birə – Qromıkonun zəngi. Özü də belə bir gündə!

Əlbəttə, mən bu zəngin bugünkü Sov.İKP MK Plenumu ilə, yeni Baş katibin seçilməsilə bağlı olduğuna bir an da şübhə etmirdim. Həqiqətən də Andrey Andreyeviç vaxtı hədər sərf etmədən dərhal mətləbə keçdi:

– Yeqor Kuzmiç, kimi Baş katib seçəcəyik?

Mən anlayırdım ki, belə birbaşa sual verən Qromıko hansı cavab alacağına qəti əmin idi və o, yanılmadı.

– Bəli, Andrey Andreyeviç, – dedim, – məsələ sadə deyil. Düşünürəm ki, Qorbaçov seçilməlidir. Əlbəttə, sizin öz rəyiniz var. Ancaq məndən soruşursunuzsa, mənim mülahizələrim, bax belədir. – Əlavə etdim: – Bilirəm ki, bir çox vilayət komitələri başçıları, MK üzvlərinin əhvali-ruhiyyəsi belədir.

Bu əsil həqiqət idi! Mən bir çox birinci katiblərin ovqatını bilirdim və Andrey Andreyeviçi məlumatlandırmağı zəruri saydım. Qromıko məlumatıma böyük maraq göstərib cavablandırdı:

– Mən də Qorbaçov haqqında düşünürəm. Zənnimcə, bu, ən münasib, perspektivli fiqurdur.

Andrey Andreyeviç düşüncələrini səsləndirirmiş kimi danışırdı və birdən dedi:

– Siz necə hesab edirsiniz, kim təklif edə, onun namizədliyini irəli sürə bilər?

Bu, istiqamətləndirici sualla əvvəlcədən müəyyən və yəqin məlum cavabları olan əsil diplomatik üslub idi. Qromıko bu dəfə də yanılmadı.

– Andrey Andreyeviç, – dedim, – bunu siz etsəydiniz, çox yaxşı olardı.

– Siz belə hesab edirsinizmi? – Qromıko hələ də götür-qoy edirdi.

– Bəli, bu çox yaxşı olardı...

Söhbətin axırında Qromıkonun mövqeyi tam aydınlaşanda o dedi:

– Mən Qorbaçov haqqında təklifi irəli sürməyə, yəqin ki, hazıram. Ancaq siz, Yeqor Kuzmiç, mənə çıxışa yaxşı hazırlaşmaqda kömək edin, zəhmət olmasa, Qorbaçov haqqında daha müfəssəl bioqrafik məlumatı göndərin.

Qromıkonun zəngi çox böyük önəm daşıyırdı. Siyasi Büroda Andrey Andreyeviçin rəyi ilə hesablaşırdılar və onun Qorbaçovun tərəfini tutması Baş katib seçilməsinin nəticəsinə həlledici dərəcədə təsir göstərə bilərdi. Görünür, Siyasi Büro axşam iclasından sonra Qromıko nəinki yaranan vəziyyəti, ümumiyyətlə, tarixi perspektivi əməlli-başlı təhlil edibmiş. Və səhərə yaxın, necə deyərlər, qəti qərara gəlibmiş. Ali siyasi rəhbərlikdən daha kimsə zəng vurduğunu istisna etməsəm də, düşünürəm ki, mənimlə telefon bağlantısı birincisi idi. Qəti qərara gələndən sonra Qromıko bu qərarı haqqında dərhal Qorbaçovun da xəbərdar olmasını istəmişdi. O başa düşürdü ki, Qorbaçova öz niyyətini bildirməyin ən kəsə yolu məndən keçir"[9].

A.Qromıkonun 1985-ci ilin mart ayında Sov.İKP MK Baş katibi vəzifəsinə namizədlik məsələsinin həllində aparıcı fiqur olduğundan başqa memuar müəllifləri də yazırlar. Belə ki, İ.Laptevin fikrincə, "iti zəka sahibi olaraq və SSRİ-də baş verənlərin beynəlxalq vəziyyətə təsirini nəzərə almağı bacararaq, o başa düşürdü ki, sovet dövlətinin birinci şəxslərinin dəfnetmə silsiləsi daha davam edə bilməz. Nüvə silahlı böyük məmləkət sadəcə mövqeyinə görə hər il öz liderlərinə yas saxlaya bilməz.

Qromıkonun özünün ürəyindən hökmranlıq haqqında bir şirin xəyal keçsə də o bu fikri qətiyyətlə rədd etdi. 75 yaş – 50 yaş, hətta 60 yaş da deyil! Andrey Andreyeviç Qorbaçovu qeyd-şərtsiz dəstəklədi və Sov.İKP MK mart Plenumunda onun Baş katib seçilməsi təklifini özü irəli sürdü"[10].

Sov.İKP MK-nın sabiq əməkdaşı V.Leqostayev belə hesab edir ki, bu məsələdə A.Qromıkonun niyyətləri ölkə nüfuzu və imici haqqında təəssübkeşlikdən çox, daha prozaik motivlərə əsaslanırdı.

"1985-ci ilin martında, öncə marşal Ustinovu, ardınca da Baş katib Çernenkonu son mənzilə yola salaraq, 76 yaşlı Qromıko həmin məqamda öz real siyasi çəkisinə görə Siyasi Büro tərkibində "birinci nömrə" olacaq. O, həmin fürsətdən, partiya hərdəmxəyalı və naqqal Qorbaçovu təzə Baş katib məqamına irəli çəkilməyin bahasına özünə SSRİ Ali Soveti Rəyasət Heyəti sədri vəzifəsini qoparmaq üçün istifadə edəcək. Bu sevda baş tutacaq, ancaq Qromıko sonralar acı peşmançılıq keçirəcək və ömrünün sonunadək buna görə özünü günahlandıracaq. "Bu, boşboğazın biriymiş, kişi deyilmiş, həm də ürəyində kin saxlayan" – o, özünün irəli sürdüyü namizəd haqqında belə deyəcək"[11].

Məhz Qromıkonun çıxışının iclasın sakit axarını təmin etməsi istisna olunmur: qocalardan heç kim M.Qorbaçovun namizədliyinin əleyhinə bir kəlmə də demədi. Əksinə, Qorbaçovdan "gözü su içməyən" Nazirlər Sovetinin sədri N.Tixonov Qromıkodan dərhal sonra çıxış edib onun təklifini dəstəklədi. Üçüncü söz alan, bəziləri tərəfindən Mixail Sergeyeviçin rəqibi sayılan V.Qrişin oldu. Sonralar A.Karaulovla müsahibəsində Moskva kommunistlərinin lideri söyləyirdi:

"Hər şeyi Liqaçov, Qromıko, Çebrikov və Solomentsev elədilər (hərçənd mən özümçün başqa bir namizəd görmürdüm). Qromıko çıxış etdi, ardınca dərhal Tixonov, üçüncüsü – mən. Mən də dedim ki, ən münasib namizəd yoldaş Qorbaçovdur, mən onu bir sadə, demokratik və s. insan kimi tanıyıram. Başqa yoldaşlar çıxış etdilər, demək olar, hamısı yekdil oldu, – hər şey həmişəki kimi çox sakit keçdi... Axırda Mixail Sergeyeviç dilləndi: yoldaşlar, bu məsələnin müzakirə edilməsi yetər, başqa təkliflər varsa, buyurun, söyləyin. Lakin başqa təkliflər yox idi"[12].

Vitali Vorotnikovla söhbətdən:

"...Hər şey sakit keçirdi və hansısa mübarizə olduğu, hansısa kabus dolandığı barədə boş söhbətlərin heç bir əsası yoxdur. Axı ümumiyyətlə, nəyin dolanıb-dolanmadığını necə müəyyən etmək olar?

– Amma Liqaçov yazır ki, vəziyyət mürəkkəb idi.

– O mənada ki, Romanovu Baş katib görmək istəyirdilər? Hə, bəlkə də Qrişin istəyirdi. Amma bu açıq təzahür etmirdi. Mənə məlum deyil ki, hansısa qruplaşmalar yaradılsın, kimlərsə hansısa plan-

lar quraşdırsın, heç məktublar, zənglər haqqında da eşitməmişəm. Yeri gəlmişkən, Heydər Əliyev də Qorbaçovun seçilməsini normal qarşıladı".

M.Qorbaçovla Stavropol vilayətində birgə işləmiş V.Kaznaçeyevin fikrincə, "onun (Əliyevin – ***E.A.***) Qorbaçovu dəstəkləməsi daha çox Andropovun xatirəsinə hörmətdən irəli gəlirdi, Əliyev öz yüksəlişilə sonuncuya borclu idi. Şərq ənənələrinə bağlı bir insan kimi, o, arada pərdə saxlamağa ciddi riayət edir və hətta dünyasını dəyişmiş himayədarının hörmətini saxlayırdı. Hərçənd Azərbaycan çəkisti nə Qorbaçova, nə də onu öz tərəfinə çəkməyə çalışan Romanova qarşı nəzərəçarpacaq rəğbət bəsləməyərək soyuqqanlı qalmışdı"[13].

Zənnimcə, həmin məsələdə Stavropol vilayətinin sabiq partiya xadimi səhvə yol verir: Heydər Əliyev, əksinə, M.Qorbaçova əvvəllər rəğbət bəsləmişdi. Əvvəla, onlar 15 il idi ki, tanış idilər, hər ikisi Qafqaz bölgəsində yaşamış və çalışmış və bir-birini az qala həmyerli sayırdılar. İkincisi, Moskvaya köçəndən və bərabər partiya statusu alandan sonra M.Qorbaçov və Heydər Əliyev ailəvi dostluq etmişlər, bunu Heydər Əliyevin özünün və qızı Sevilin söylədikləri təsdiqləyir. Soyuqqanlı, bir qədər özündən müştəbeh Romanovla Heydər Əliyevin heç vaxt belə ilıq münasibətləri olmamışdır.

Beş il ötəndən sonra A.Karaulovla müsahibəsində Heydər Əliyev Qorbaçovun namizədliyini şərtsiz dəstəkləməsinin səbəblərini belə açıqlamışdı:

"– Qorbaçov Baş katib olanda siz onun islahatçı olacağına ümid bəsləyirdiniz?

– Bilirsiniz, o vaxt heç kim onun islahatçı olacağını sanmırdı. Qorbaçov hamıdan cavan idi, partiyada ikinci şəxs idi, hakimiyyət, necə deyərlər, artıq onun əlində idi.

... Çernenkonun ölümündən sonra bizim hamımızı Kremldə topladılar, dedilər ki, Çernenko vəfat edib və hamı razılaşdı ki, onun yerinə Qorbaçov olmalıdır... Və Siyasi Büroda hakimiyyət uğrunda heç bir mübarizə olmadı.

– Amma Liqaçov XIX partiya konfransında...

– O, düz demirdi. Bilmirəm bütün bunları haradan uydurub, axı o vaxt Liqaçov Siyasi Büronun üzvü deyildi, Qorbaçov onu 1985-ci ilin aprelində Siyasi Büroya daxil etmişdi. Sadəcə, hamı bunu unutmuşdur. Hə, bax belə, biz yekdilliklə səs verdik. MK Plenumunda da yekdilliklə. Bircə opponent də olmamışdı, yalandı deyilənlər. Təəccüblüdürmü? Mənim Qorbaçov haqqında çox yaxşı rəyim vardı və mən sidq-ürəkdən, səmimi surətdə, heç bir tərəddüdüm olmadan onun namizədliyini dəstəklədim.

– Siz qorxmurdunuz ki, onun həddən artıq liberal kursu olacaq?

– Mən ona inanırdım: İnanırdım ki, o, partiyamızın ləyaqətli rəhbəri olacaq. Buna görə də ona səs verdim"[14].

Nikolay Rıjkovla müsahibədən:

"Qorbaçovun seçilməsi nisbətən hamar keçdi. Çünki zəmin hazırlanmışdı. Əliyevin ya mənim məhz Qorbaçovun Baş katib olması üçün fəal çarpışdığımızı demək olmaz. "Birinci skripka çalan" biz deyildik, amma əleyhdar olduğumuzu da deyə bilmərəm. Mən 1987-ci ilədək Qorbaçova səmimi surətdə inanırdım. Sonra isə anladım ki, bu bizim gözlədiyimiz adam deyil. O, başdan-ayağa boşboğazlıqla məşğul idi.

Bazar günü axşam saat 9 ya 10 olardı, telefon səsləndi: Çernenko keçinib, bir saat ərzində Kremldə olmalıyıq. Bizə onun ölümünü bildirdilər və bununla əlaqədar bütün məsələləri müzakirə etməyə başladıq. Komissiyanın yaradılması, harada dəfn etmək, necə dəfn etmək. Qromıko birinci olaraq Siyasi Büroda dedi ki, varis haqqında düşünməliyik, elə özü də Qorbaçovu təklif etdi.

– Siz bunu gözləyirdinizmi?

– Ümumiyyətlə, gözləyirdik. Düzü, biz də cana gəlmişdik: iki il yarım ərzində dalbadal Brejnev, Andropov, Çernenko ölürlər. Belə qısa müddətdə üç Baş katib dünyasını dəyişir...

– Yəqin düşünürdünüz ki, bu cavandır, enerjilidir...

– Hə, əlbəttə, müəyyən bir sabitlik arzulanırdı. Və ona görə də həmin təklifin xüsusi əleyhdarları yox idi. Bəlkə Tixonov ürəyində bunu istəmirdi. Lakin o, artıq təklikdə qalmışdı. Qromıko, Tixonov, Qrişin... axı onlar ağsaqqal idilər. Suslov – ölmüş, Ustinov – ölmüş... Odur ki, Tixonov Qromıkonun ayağa qalxdığını görəndə, ardınca əleyhinə getmədi. Hərçənd, bilirəm ki, Tixonov Qorbaçovu

çox da sevmirdi. Sevmirdi deyəndə, o, daha çox özünü sevirdi.

Çernenkonun vaxtında Qorbaçov, əslində, ikinci şəxs idi, katibliyi aparır. Siyasi Büro iclasına gəldikdə isə, həmişə komanda gözləyirdi ki, Konstantin Ustinoviç xəstə olduğundan zəng vurub desin: "Mixail Sergeyeviç, Siyasi Büronu aparın". Yəni Baş katib olmadığı, xəstələndiyi, səfərə çıxdığı zaman onu kim əvəz edəcəyini tənzimləyən bir sənəd yox idi. Hərçənd, vaxtilə münasib sənəd hazırlanmışdı. Orada yazılmışdı ki, Baş katib olmadığı dövrdə Siyasi Büronu Qorbaçov aparır. Tixonov bu sənədi "baltaladı". Mən canlı şahidi olmuşdum. "Axı niyə Qorbaçov? – deyə Tixonov etiraz etdi. – Niyə bir başqası olmasın?". Əlbəttə, özünün adını çəkməsə də, bu nəzərdə tutulurdu. "Nə üçün rotasiya tətbiq edilmir?" Beləliklə, Çernenko vəfat etməyincə, münasib sənəd yox idi. Və hər cümə axşamı Qorbaçov komanda veriləcəyini, ya verilməyəcəyini gözləyirdi.

Onun seçilməsində isə hər şey rəvan keçdi. Ertəsi günü Plenumda da, yenə Qromıko çıxış etdi, yenə də hər şey hamar keçdi. Biz nə təşəbbüskar, nə də zərbəçi qüvvə olmasaq da, müqavimət də göstərmədik".

Şəksiz ki, Sov.İKP MK Siyasi Bürosunun 1985-ci ilin 11 martında keçirilən həmin tarixi iclasında iştirakçıların hamısı çıxış etdi.

Tarixçi C.Həsənlinin mənə çatdırdığı SB-nin ilkin stenoqramına görə, iclasda 17 nəfər iştirak edirdi. Heydər Əliyev altıncı çıxış edən idi. Onun söylədiklərini olduğu kimi xatırladıram:

"...Mənim fikrimcə, Mixail Sergeyeviç Qorbaçovun namizədliyi tamamilə layiqlidir. O, Stavropol diyarında da, Moskvada da işləmiş, həm partiya, həm təsərrüfat quruculuğunda böyük təcrübə qazanmış, böyük siyasi xadim, irimiqyaslı xadim kimi yetişmişdir. O, iqtisadiyyatı və daxili siyasəti yaxşı bilir, təsərrüfat və sosial həyatın bir çox sahələrinə bələd olduğunu göstərir.

M.S.Qorbaçov ölkəmizin zəhmətkeşləri arasında və sosialist birliyi ölkələrində böyük nüfuz qazanmışdır. Bizimlə təmaslara gəldikdə, biz onun dəstəyini, Sov.İKP MK Siyasi Bürosunun və MK Katibliyin gücünü birləşdirmək bacarığını daima hiss etmişik.

Mixail Sergeyeviç sadə, təvazökar, diqqətcildir. Bu bizə onun Baş katib vəzifəsinin öhdəsindən tam gələ biləcəyini inamla deməyə imkan verir. Buna görə də mən irəli sürülən təklifləri bütövlükdə dəstəkləyir və Mixail Sergeyeviç Qorbaçova cansağlığı və işində böyük uğurlar arzulamaq istəyirəm".

Sonralar Qorbaçovla pisləşmiş münasibətlərin səbəbləri üzərində düşünərək, Heydər Əliyev öz dostu və silahdaşı Sabir Hüseynova söyləyəcək:

"Sən bilirsən, axı biz onunla, Qorbaçovla dost idik. Ailəvi dostluq edirdik. Bizim bağ malikanələrimiz yanaşı idi. Zərifə Raisa ilə dostlaşmışdı. Biz axşamlar birlikdə gəzişərdik. Mən çox fikirləşirdim ki, aramızdan hansı "qara pişik qaçıb". Və bunu yalnız bir şeylə izah edirəm. Siyasi Büro kimin Baş katib olacağını həll edəndə, Qorbaçov əmin idi ki, mən hamını qabaqlayıb onun namizədliyini təklif edəcəm. Amma birinci olaraq Qromıko söz istədi... O da Qorbaçovun adını çəkdi... Həmin məqamda onun məzəmmətlə dolu baxışının mənə tuşlandığını gördüm. Yəqin ona elə gəlmişdi ki, qocalardan kiminsə məni təklif edəcəyini gözləyirdim..."

Hər halda, mən güman edirəm ki, bu məqamda kitabımın qəhrəmanı ya tam haqlı deyil, ya da heç haqlı deyil. Sadəcə, həsəd, paxıllıq hissindən tamamilə xalı olan bir insan kimi o, ağlına sığışdırmırdı ki, Qorbaçovun dönüklüyünün səbəbi məhz bir hissdir... Heydər Əliyevin qeyri-adiliyinə, onun parlaqlığına, xalq arasında populyarlığına qısqanclıq, onun natiqlik istedadına paxıllıq. Bu barədə sonrakı fəsildə söyləyəcəyik.

Hələlik araşdırmağa çalışaq ki, Heydər Əliyev Qorbaçovun hakimiyyət uğrunda mübarizəsində həqiqətən onun rəqibi ola bilərdimi? Başqa sözlə, 85-ci ilin martında Baş katib kreslosuna keçməyə onun real şansı vardımı?

* * *

Sonralar Rusiyanın siyasi memuaristikasında Andropovun vəfatından sonra Sov.İKP MK Baş katibi vəzifəsinə Qorbaçova alternativ namizədlər olduğundan çox yazılmışdır. Düzdür, ilk növbədə V.Qrişinin, G.Romanovun, V.Şerbitskinin adları çəkilirdi. Əliyev haqqında yalnız İ.Laptev yazmışdır. O, M.Qorbaçova rəqabət təşkil edə biləcək Siyasi Büro üzvlərini sadalayaraq qeyd edir:

"...Onların az qala hamısı yaşca son həddə yaxın idi. İstisna təş-

kil edənlər Əliyev və Vorotnikov idi. Hər ikisi, necə deyərlər, "keçilməz" sayılırdı. Birincisi, **bəlkə də Siyasi Büronun ən hazırlıqlı və çalışqan üzvü** (seçmə bizimdir – ***E.A.***), öz qafqazlı mənşəyilə təşviş doğururdu. "Kreml dağlısı"nın kölgəsi belə canlarına vəlvələ salırdı. İkincisi, zənnimcə, Siyasi Büroya itaətkarlıqla aşağıdan yuxarı baxan əyalət "obkom" katibi olaraq qalmışdı. Çoxmilyonlu Sov.İKP öz sıralarından heç olmasa bir neçə siyasi fiqur yetişdirmədi ki, onlardan özü və ölkə üçün münasib lider seçə bilsin. Nəticədə seçki seçimsiz oldu".

Heydər Əliyevin öz şəxsi keyfiyyətlərinə görə Baş katib vəzifəsinə seçilməyə ən çox məqbul olduğu haqqında SSRİ sabiq xarici işlər naziri Andrey Qromıko da öz oğluna fikrini bildirmişdir:

"Bizim Siyasi Büroda yalnız üç nəfər nisbətən cavandır – Romanov, Qorbaçov və Əliyev. Sonuncu, qalanlardan daha çox xoşuma gəlir. Onun dövründə Azərbaycan çox sürətlə inkişaf etmişdi, xüsusilə kənd təsərrüfatı sahəsində. Əliyev gözəl təşkilatçı, namuslu və tərbiyəli insandır. Ancaq təəssüf ki, onun namizədliyi istisna olunur...

– Nə üçün, milliyyətinə görəmi?

– Bu məsələdə – hə. Milliyyətinə görə"[15].

Çox-çox sonralar Heydər Əliyev xatırlayırdı:

"Mənim adım xaricdə də hallandırılırdı. Lakin mən əsla bu iddiada deyildim. Əsla. Tixonov, qarşımda üzrxahlıq edirmiş kimi mənə dedi: bilirsiniz, orada ya rus, ya da uzaqbaşı – onun sözləri dəqiq yadımdadır, – ukraynalı, yaxud belarus olmalıdır. Mən ona cavab verdim: Nikolay Aleksandroviç, siz nahaq yerə üzrxahlıq edirsiniz, mən bu barədə heç düşünməmişəm, iddiasında olmamışam, odur ki, arxayın olun".

Lakin şəksiz, mötəbər bir vəzifə sahibinin şəhadətinə görə, hökumət dəhlizlərində bir çoxları Heydər Əliyevin Baş katib seçiləcəyinə ümid bəsləmiş və onun "qeyri-titul" milliyyəti onları heç də karıxdırmamışdı.

Azərbaycan DTK-nın sabiq sədri Ziya Yusifzadə ilə söhbətdən:

"1985-ci ildə Çernenkonun vəfatından sonra Baş katib haqqında məsələ qarşıya çıxdı. Əsasən iki namizəd vardı – Əliyev və Qorbaçov. Həmin dövrdə mən xidməti işlərimlə bağlı Moskvada idim və "Moskva" mehmanxanasında qalırdım. Ertəsi gün səhər Bakıya uçmalıydım. Axşam Heydər Əliyev zəng etdi. Hansı planlarım olduğunu soruşdu. Dedim ki, sabah evə qayıdıram. "Yaxşı, otaqdan heç yerə çıxma, mən azad olan kimi zəng vuracam". Axşam saat 10-a yaxın o zəng vurub dedi: "Aşağıya düş. Mən maşınla gəlib səni götürəcəyəm, bağıma gedəcəyik". Bir qayda olaraq hər dəfə Moskvaya gələndə mən hökmən Heydər Əliyeviçlə görüşürdüm. Bu dəfə biz onunla xeyli söhbətləşdik.

Təkrar edirəm, görüşümüz yeni Baş katibin seçilməsi ərəfəsində olmuşdu. Yadımdadır, SSRİ DTK-nın bir çox rəhbər işçiləri ölkə başında Heydər Əliyevin duracağına ümid bəslədiklərini bildirirdilər. Onlar açıq deyirdilər: əgər o olmasa, SSRİ-ni yaxşı perspektivlər gözləmir.

Mən söhbətimiz əsnasında ona birbaşa elə də dedim: "Heydər Əliyeviç, mən bütün günümü Lubyankada* keçirdim. Və bilirsiniz, DTK-nın bir çox yüksək rütbəli əməkdaşları sizin namizədliyiniz haqqında danışır və Baş katib olmağınızı istəyirlər. Bu fikir DTK-nın dəhlizlərini gəzir".

O, mənə cavab verdi: "Elə bilirsən bu söhbətlər mənim xeyrimədir? Xarici qəzetlər də bu barədə yazır, ən nüfuzlu "Vaşinqton post" və "Nyu-York tayms" daxil olmaqla, türk mətbuatı da. Yəni ki, Əliyev Siyasi Büronun ən nüfuzlu üzvüdür və sairə. Bunun axırı xoşluqla bitməyəcək..." O, sanki fala baxmışdı. Qorbaçovun seçilməsindən əvvəl onların münasibətləri yaxşı idi. Sonra isə Qorbaçov onun simasında özünə rəqib gördü".

Rusiyanın tanınmış jurnalisti Artyom Borovikin rəyinə görə, Heydər Əliyevin həmin günlər hakimiyyət uğrunda mübarizəyə qatılmaq üçün real imkanı vardı.

"Mənim onunla görüşüm Qorbaçovun onu Siyasi Büro tərkibindən kənarlaşdırdığı, SSRİ Nazirlər Sovetindən işdən çıxartdığı vaxtdan az sonra olmuşdu. Həmin zaman o, çox böyük işlər görürdü... nəzarət etdiyi sahələrdən savayı, üstəlik mədəniyyətlə məşğul olurdu. Bu, yalnız Rusiya çərçivəsində yox, bütöv SSRİ miqyasın-

*Lubyanka – Moskvada DTK binasının yerləşdiyi meydan və məcazi mənada, həmin idarənin adı.

da nəhəng bir blok idi. O, çox işlər görmüşdü və bir növ sonralar Qorbaçovun başladığı islahatların sələfi idi.

Mənə həmişə elə gəlirdi ki, Əliyev Moskvada özünü sonadək realizə etməmişdi. Düşünürəm ki, Sov.İKP MK Baş katibi vəzifəsi, SSRİ lideri kreslosu uğrunda mücadilələr baş alanda, Əliyev nahaq yerə bu mübarizəyə fəal qoşulmadı. Zənnimcə, Əliyev tam əminliklə Baş katib ola bilərdi. Belə imkanlar da var idi və mənə elə gəlir ki, o, belə imkanları onun üçün istisna edənlərə nahaq yerə inanmışdı. Mən bilirəm ki, o zaman onunla SSRİ Nazirlər Sovetinin sədri Tixonov arasında söhbət olmuş, hökumət başçısı da ona bildirmişdi ki, Heydər Əliyeviç, sən hər cəhətdən yaxşısan, amma milliyyətcə və məzhəbcə sənin ki bir növ gətirməyib... Mən belə hesab etmirəm. Mən hesab edirəm ki, tariximizdə tez-tez baş verdiyi kimi, rusların, Rusiyanın mənafelərini bu və ya digər milli azlıqların nümayəndələri qat-qat daha aqressiv və ardıcıl qorumuşlar. Mən düşünürəm ki, məsələn, Stalinin Böyük Vətən müharibəsindən savayı bütün əməllərini bir yana qoyub yalnız siyasətinin hərbi tərkib hissəsi nəzərdən keçirilsə, onda, əlbəttə, Stalin tərəfindən Sovet İttifaqının, o cümlədən, Rusiyanın maraqlarını bir başqası onun kimi qoruya bilməzdi. Eyni zamanda İttifaqa başçılıq etmiş bir çox rus liderləri onu sağa-sola satıb sovurardu. Baxın görün, yüz faiz rus olan Yeltsin Rusiyanın başına nə oyun açdı, bəs yüz faiz rus Qorbaçov İttifaqı, Rusiyanı nə günə qoydu? Mənə elə gəlir ki, 80-ci illərin ortalarında Əliyev ölkə sükanı başına keçib bu addımı atmağa cəhd göstərsəydi, tale belə gətirsəydi, əlbəttə, o, Qorbaçov yönümlü deyil, yəqin daha çox çinsayağı islahat yolunu tutacaqdı. Və düşünürəm ki, onda bizim taleyimiz bir qədər başqa cür olacaqdı".*

Əfsus və ya şükür deyək ki, mənim qəhrəmanım heç vaxt mənsəbpərəst olmamış və hakimiyyətə can atmamışdı. Pərdəaltı çəkişmələri və gizli dəstəbazlığı xoşlamamışdı. 1969-cu ildə də belə idi, 1982-ci ildə də, sonralar, üçüncü dəfə, 1993-cü ildə də belə oldu... Amma yenə də, A.Borovik kimi, mən də çox istərdim ki, 1985-ci ildə Heydər Əliyev öz prinsiplərinə rəğmən hakimiyyət uğrunda mübarizəyə qoşulmağa cəhd göstərəydi... Axı, onda, əminəm ki,

* V.Mustafayevin "Moskva. Kreml" filmindən.

Sovet İttifaqının ən yeni tarixində baş vermiş neçə-neçə faciələrin, bəlaların qarşısını almaq olardı. 80-ci illərin sonu – 90-cı illərin əvvəllərinin Azərbaycan tarixi bunca qan-qadalı olmazdı...

Daha bir alternativi – Viktor Qrişini çoxları seçim dairəsində ən zəif figur kimi dəyərləndirirdi. Ələlxüsus ki, Y.Andropovun qısa hakimiyyəti dövründə korrupsiyaya qarşı mübarizə başlananda Moskvanın ticarət mafiyası üzərində məhkəmə prosesləri, xüsusən V.Qrişinin dostluq etdiyi Baş Ticarət İdarəsinin rəisi N.Trequbovun suçlanması Qrişinin nüfuzuna ciddi xələl gətirmişdi.

"Hələ 1984-cü ilin əvvəlində Y.Liqaçov bəyan etmişdi ki, moskvalılar "lovğalanıb, başdansovdu işləyir, küçələrdən qarı yığışdırmağı da bacarmırlar, harınlaşıblar, onlar sibirlilərdən ibrət götürməlidirlər". 1984-cü ilin yayında Liqaçov, MŞK-dan Qrişinin bir neçə işçisinin də daxil olduğu Moskva Vilayət Partiya Komitəsi əməkdaşlarının bağçılıq kooperativinin yoxlanmasını təşkil etmişdi... Xırda pozuntular aşkar edilmiş və məmurları torpaq sahələrini təhvil verməyə məcbur etmişdilər. Sonra "Liqaçovun göstərişilə mətbuatda (xüsusən Nenaşevin redaktorluq etdiyi "Sovetskaya Rossiya" qəzetinin səhifələrində) Moskvada ticarət, əhaliyə kommunal və məişət xidmətində vəziyyəti, Moskva vilayətinin kənd təsərrüfatındakı nöqsanları kəskin tənqid atəşinə tutdular", – Qrişin xatırlayır. Moskva Mebel Satışı İdarəsinin məsul işçiləri arasında həbslər başlandı (idarə direktoru Sosnovski artıq güllələnməyə məhkum edilmişdi).

Bu məqamlar Qorbaçov tərəfdarlarına Qrişini qarmağa keçirib öz havalarına oynatmağa girəvə verə bilərdi. Əgər Liqaçov həmin vəziyyətdə "əzazil müstəntiq" idisə, Qorbaçov vəkil rolunu oynayırdı. Maraqlıdır, 1984-cü ilin payızında Qrişin məhz Qorbaçovu inandırmağa çalışırdı ki, ifşa olunmuş cinayətkarların ona dəxli yoxdur.

N.Boldin xatırlayır:

"Qorbaçov Qrişini sakitləşdirir, deyirdi ki, bu araşdırma şəhər komitəsinin, katiblərin nüfuzuna xələl gətirmək cəhdi deyil, lakin həqiqət aşkara çıxarılmalıdır.

– Təşvişə düşüb, – dəstəyi yerinə qoyaraq Qorbaçov dilləndi. – Çox güman ki, orada heç də hər şey qaydasında deyil. İşi sonadək aparmaq lazımdır.

İşin aparılmasına Y.Liqaçov qatıldı. Tədricən pozuntular, "pripiska"larla bağlı yeni faktlar üzə çıxdı. Liqaçov mənzil inşaatında şişirdilmiş rəqəmlər məsələsini çözələməyə başladı".

Belə şəraitdə Qrişin işə baş qoşmamağı və Qorbaçova züy tutmağı üstün tutdu"[16].

Rusiya memuarçıları və tarixçilərinin iddia etdiklərinə görə, M.Qorbaçovun başqa, ən ciddi alternativi Sov.İKP MK katibi Q.Romanov idi. Ona qarşı qurulmuş, onun köpünü yatızdıran və müəyyən dərəcədə nüfuzuna xələl gətirən təbliğat kampaniyası haqqında biz əvvəl söz açmışdıq.

Lakin 1983-cü ilin yanvar ayında Y.Andropov Q.Romanova Moskvaya köçməyi təklif etmiş, iyun ayında o, Mərkəzi Komitənin inzibati orqanlar şöbəsinə (hüquq-mühafizə orqanları və ədliyyə), müdafiə şöbəsinə (hərbi-sənaye kompleksi, kosmos, qabaqcıl texnologiyalar), maşınqayırma şöbəsinə nəzarət edən MK katibi seçilmişdi.

"Bütün bunlar dəlalət edir ki, Y.V.Andropov gələcəyi düşünərək partiya rəhbərliyinə ölkənin Leninqrad kimi ən böyük müdafiə, sənaye və ictimai mərkəzinin başçısını qatmağı zəruri sayırdı. 1983-cü ilin əvvəlində Leninqrad vilayət partiya təşkilatında 580 minə yaxın kommunist var idi, onların az qala 200 min üzvünü fəhlələr təşkil edirdi. Şübhəsiz, bu, Sov.İKP-nin ölkə miqyasında ən qüdrətli və nüfuzlu təşkilatlarından biri idi. Q.V.Romanov özü, sabiq cəbhəçi, müdafiə kompleksinin bilicisi, elmi-texniki tərəqqi ideyasının qızğın təəssübkeşi olaraq, öz şəxsi keyfiyyətlərinə görə Andropov dövrünün ruhuna cavab verirdi.

Q.V.Romanovun seçilməsilə Sov.İKP rəhbərliyində ikinci şəxs meydana çıxdı ki, M.S.Qorbaçovla yanaşı, onu perspektivli, yəni zaman ötüncə birinci rola iddiaçı olmağa qadir işçi saymaq olardı"[17].

Əsas rəqibini gözü götürməyən və ondan xoflanan Qorbaçov Q.Romanovun Sov.İKP MK katibi təyin olunmasına öz yozumunu vermişdi:

"...Yuri Vladimiroviç Romanovun şəxsi keyfiyyətlərini gözəl bilirdi, bilirdi ki, bu, hökmdarlıq iddialı, dar düşüncəli və riyakar adamdır, görürdü ki, Siyasi Büro iclaslarında ondan nadir hallarda bir ağlabatan fikir, ya təklif gözləmək olar. Və bununla belə 1983-cü ilin iyununda onu Moskvaya keçirərək Plenuma Romanovun MK katibi seçilməsini məsləhət görür.

Məsələ ondadır ki, o zaman ölkənin müdafiə işləri həm dövlət, həm də partiya xəttilə Ustinovun əlində cəmləşmişdi. Yuri Vladimiroviç hesab edirdi ki, belə mühüm sahədə hakimiyyətin bir əldə cəmləşdirilməsi təhlükəlidir, işin və Dmitri Fyodoroviçin özünün maraqları naminə onu (ifrat səlahiyyəti – ***E.A.***) zəiflətmək zəruridir. Lakin məsələ elə çözülməlidir ki, bunu Ustinovun özü başa düşərək qəbul etsin.

Andropov mənə deyirdi:

– Mən istəmirəm ki, Dmitri incisin, çünki o, nəinki mənim dayağım, həm də yoldaşımdır.

Müdafiə məsələləri üzrə MK katibi rəhbərliyin mövcud tərkibindən seçilməli idi. Andropov fərz etdi ki, Ustinovun Romanova qarşı heç bir etirazı olmayacaq. Belə də oldu"[18].

Bəlkə də Qorbaçovun versiyası məntiqsiz deyil, lakin Romanovun xasiyyətnaməsinə ("hökmdarlıq iddialı riyakar adam") inanmaq çətindir. Romanov həqiqətən də belə xislətli olsaydı, o, Qorbaçov kimi əvvəlcədən hakimiyyət dəyişikliyinə hazırlaşar, həmin hərbi-sənaye kompleksinin, Siyasi Büronun digər üzvlərinin dəstəyinə arxalanardı. Ələlxüsus da ki, 1984-cü ilin dekabrında Romanov müdafiə naziri marşal Ustinovun dəfni üzrə dövlət komissiyasına başçılıq etmiş və sonralar Rusiya kommunistlərinin lideri G.Zyuqanovun xatırladığı kimi, "bununla əlaqədar Mavzoleydən qətiyyətli və parlaq nitq söyləmişdi. O məqamda çoxlarına elə gəldi ki, onlar gələcək ölkə rəhbərinin çıxışını dinləyirlər. Lakin görünür ki, M.S.Qorbaçov hələ o vaxt Siyasi Büronun başqa üzvlərini öz xeyrinə kökləyə bilmişdi. Romanov da kənarlaşdırılmışdı..."[19]

Rusiya politoloqu A.Şubinin fikrincə, "Qorbaçovun gücü ən əvvəl onunla şərtlənirdi ki, o, partiya kadrlarına, Romanov, Tixonov və Dolgix isə – təsərrüfat-bürokratik və qismən hərbi kadrlara arxalanırdılar. Tixonov çox qoca idi, Dolgix yalnız öz sahəsinin prob-

lemlərilə məşğul olaraq səlahiyyətindən kənar məsələlərin həllinə nadir hallarda qarışırdı. Sərt xasiyyətilə fərqlənən Romanov təhlükəli adam təsiri bağışlayırdı. İmperatorlarla eyni soyad daşıyanın böyük batalyonları və qətiyyətli xarakteri Çernenkonun kürkünə birə salırdı...

1984-cü ilin ortalarında, Ustinovun səhhəti pisləşdikcə MK Katibliyinin müdafiə şöbəsi naziri kənara sıxışdırmaqdan çəkinmədi. Tədricən Romanovun səlahiyyətli qurumu bilavasitə Baş qərargah rəisi N.Oqarkova üz tutmağa başladı. Eyni zamanda Romanov hərbçilərin siyasi qərarların qəbul edilməsində, mühüm partiya müşavirələrində rolunu artırmağa çalışdı. Dəstək hiss edən hərbçilər müdafiə xərclərinin kəskin dərəcədə artırılmasını tələb etməyə başladılar. SSRİ silahlanma yarışında uduzmalı deyildi.

Hərbçilərin siyasi qurumda rolunun güclənməsi partiya-dövlət elitasında ziddiyyətli reaksiya doğurdu. Nomenklaturanın əsas kütləsi generalların qətiyyətindən qorxurdu. Onsuz da cəmiyyətin hərbiləşdirilməsi həddini aşmışdı. Hərbi Sənaye Kompleksi mülki istehsalatı dağıtmaq təhlükəsi yaradırdı. Eyni zamanda hərbçilərin bir qismi Romanova müdafiə naziri sağ ola-ola nazirlikdə səlahiyyəti ələ keçirən bir bambılı kimi baxırdı. Qorbaçovla Ustinovun münasibətləri saz olduğuna görə, hərbçilərin önəmli hissəsi dinamik və dilavər stavropollunu sərt piterlidən üstün tuturdu...

Eyni zamanda Romanovun hərbi sahədə gur fəaliyyəti onun başına oyun açdı. D.Ustinov hiss etdi ki, onu işindən kənarlaşdırırlar. MK katibi himayədar əvəzinə özünə qüdrətli əleyhdar qazandı"[20].

Üçüncü alternativ kimi Ukraynanın azman lideri, şübhəsiz sanballı və güclü fiqur olan Vladimir Şerbitskinin adı çəkilirdi. Lakin 1985-ci ilin 10 noyabrında, hakimiyyət məsələsi həll ediləndə o, Moskvada yox idi. Təsadüfən, ya qəsdənmi V.Şerbitski hökumət nümayəndə heyəti tərkibində ABŞ-a göndərilmiş və yeni Baş katibin seçilməsindən Nyu-York hava limanında xəbər tutmuşdu.

Beləliklə, Siyasi Büro Mixail Qorbaçovun namizədliyi üzərində dayandı. Bu seçim hansı səbəblərlə diktə olunmuşdu? Axı başqa namizədlərlə müqayisədə onun yeganə üstünlüyü Siyasi Büronun ən cavan üzvü olması idi.

Düşünürəm ki, eyni mülahizələr Azərbaycan KP MK büro üzvlərini Heydər Əliyevə vəcdlə K.Bağırovun namizədliyini "sırımağa" təhrik etmişdi... R.Mehdiyev tərəfindən K.Bağırova verilən səciyyələndirməni xatırladıram, – mən həmin rəyi romanın ikinci kitabında vermişdim: "Büronun başqa üzvlərilə müqayisədə o, daha açıq və ünsiyyətcil idi, özünə qarşı rəğbət doğururdu. Büro üzvlərinin hamısı ona xoş münasibət bəsləyirdi, çünki o, heç kimlə arasını pozmurdu". Eyni keyfiyyətləri də Moskvadakı fəaliyyətinin ilk dövründə "artıqlamasilə" Qorbaçov nümayiş etdirirdi – açıqlıq və sadəlik, yumşaqlıq və diplomatik davranış. Və onun bu keyfiyyətləri çoxlarına xoş təsir bağışlayır və hər birinə elə gəlirdi ki, siyasi uzunömürlülüyünə bir növ təminat verir... Tezliklə necə də yanıldıqlarını başa düşəcəkdilər.

Bununla belə, V.Leqostayevin haqlı mülahizəsinə görə, 1985-ci ildə "partiya və cəmiyyətin bütün əvvəlki durumu sayəsində də elə bir şərait yaranmışdı ki, onun müqabilində Baş katib seçimində konkretlik az adamları maraqlandırırdı. Tamamilə kifayət idi ki, ölkənin siyasi zirvəsinə cavan, yapışıqlı, yüksək savada malik, geniş dünyagörüşlü, danışıq qabiliyyətli bir adam çıxır. Əsas odur ki, onun seçilməsilə axşamlar televizoru qoşub, ekranda bir ayağı gorda olan rəhbərin fiziki əzablarını seyr edərək doğma məmləkətinə görə xəcalətdən yanıb-yaxılmağa ehtiyac qalmırdı. Tarixən işlər belə gətirdi ki, M.S.Qorbaçovun seçilməsi böyük bir milləti illər boyu davam edən siyasi rəzalətdən xilas edirdi və buna görə onun namizədliyinə ümumpartiya və ümumxalq dəstəyi təmin edilmişdi. Fakt fakt olaraq qalır ki, M.S.Qorbaçovun hakimiyyətə gəlişini təmin edən başlıca dəlillər onun dövlətçi müdrikliyi və siyasi məziyyətləri deyil, cavanlığı və yapışıqlığı, üstəgəl olayların fantastik uzlaşması idi ki, bu da uzun müddət siyasi iradə deyil, yalnız ətalət qüvvələri təsiri altında yaşayan mürəkkəb siyasi sistemlərdə mümkündür"[21].

Eyni zamanda Heydər Əliyevin qənaəti ilə razılaşmamaq olmaz: Qorbaçovun seçilməsi əvvəlcədən labüdləşmiş və obyektiv reallıq kimi meydana çıxmışdır. Bu barədə öz kitabında N.Rıjkov da söz açır:

"Mən isə indi də tamamilə əminəm: heç bir başqa qərar ola da bilməzdi... Bəli, Çebrikov, Solomentsev və Qromıko öz mövqelə-

rində möhkəm durdular – və burada Liqaçov haqlıdır. Amma onlar cəmi üç nəfər idi, onlarla bərabər Qrişin və Romanov, Tixonov və (təkrar iclasda) Kunayev oturmuşdular, bu şəxslərin də, zənn etməliyik ki, bizimkindən çox fərqli mövqeləri vardı. Amma məsələ ondadır ki, onlar artıq heç nə edə bilməzdilər. Yalnız susmaq və razılaşmaq qalırdı. Necə olsa da, saray müdrikliyindən məhrum deyildilər. Anlamışdılar ki, onların əyyamı biryolluq ötüb keçib.

Qorbaçovun qələbəsi göydəndüşmə olmadı. Xeyr, bu, iki qüdrətli dayağa söykənən sərrast hazırlanmış tədbir idi. Birincisi, yeni partiya kadrlarının diyar və vilayətlərdə artıq önəmli təsiri... Və bunu Brejnev "qvardiyası"nın sağlam düşüncəli qismi nəzərə alırdı. İkincisi, gözlənilən iqtisadi islahatlara inam, müasir təsərrüfatçılıq təfəkküründə keçmək zəruriyyətinin, iqtisadiyyatı köhnə, korşalmış relslərə qaytarmağın mümkünsüzlüyünün dərk edilməsi idi"[22].

Beləliklə, 1985-ci il martın 11-də Sov.İKP MK-nin növbədənkənar Plenumunda, Çernenkonun ölümündən sonra M.S.Qorbaçov Baş katib seçildi. O zaman onun 54 yaşı vardı, Stavropol diyarında kəndli ailəsində anadan olmuş, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin hüquqşünaslıq fakültəsini və Stavropol Kənd Təsərrüfatı İnstitutunu bitirmişdi.

M.Qorbaçov komsomol-partiya funksioneri yolunu bütövlüklə keçmişdi – ÜİLKGİ Stavropol Şəhər Komitəsinin katibi, komsomolun diyar komitəsi katibi, Şəhər Partiya Komitəsi katibi, Sov.İKP Diyar Komitəsinin ikinci, ardınca birinci katibi, 1978-ci ildə Sov.İKP Mərkəzi Komitəsinin katibi, 1980-ci ildə Siyasi Büronun üzvü olmuşdur.

M.Qorbaçov başda olmaqla ölkə rəhbərliyi fəaliyyətinin başlanğıc mərhələsi (1985–1986-cı illər) sosializmi modernləşdirmək cəhdlərilə səciyyələnir. Söhbət ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsindən gedirdi.

MK mart (1985) Plenumu həmçinin, ali partiya eşelonunun kadr tərkibinin təzələnməsinə təkan verdi. Namizədlik mərhələsini keçmədən Y.Liqaçov və N.Rıjkov Siyasi Büro üzvü seçildilər, V.Nikonov MK katibi oldu. Bir qədər sonra, iyul ayında E.Şevardnadze Siyasi Büroya üzv seçildi, B.Yeltsin və L.Zaykov isə MK katibi vəzifəsini tutdular.

Qorbaçov son illərdə ənənəyə çevrilmiş Sov.İKP MK Baş katibi və SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri vəzifələrinin bir şəxsdə cəmləşməsinə son qoymaq qərarına gəldi. Adı çəkilən sonuncu vəzifəyə A.Qromıko seçildi.

İqtidar Olimpində dəyişikliklər Heydər Əliyev ailəsində baş vermiş faciəvi hadisəylə eyni vaxta təsadüf etdi. Onu həyatında yəqin ən dəhşətli zərbə – istəkli, sevimli ömür yoldaşının vaxtsız vəfatı haqladı, sarsıtdı...

"O, sonadək öz iztirablarını gizli saxladı..."

"Zərifə xanım xəstələnəndə o, son gününədək özünün həqiqi əhvalını, öz iztirablarını gizli saxladı. "Zərifə Əzizovna, işlər necədir?" – deyə soruşanda o, yalnız əlini yelləyirdi ki, əri görməsin: "Sonra, sonra deyərəm".

Bir dəfə xəstəxanada, Heydər Əliyeviç həkimlərlə söhbət edincə, mən onun palatasında idim, birdən məndən soruşdu: "Sən bugün nahar etmisən?" Mən heyrətə gəldim: "Məgər siz indi bunun qeydinə qalmalısınızmı?" Biz bağ mülkünə gəlib çıxanda məlum oldu ki, o, artıq baş aşpaza zəng vurub qınayıb ki, niyə Aleksandrı yedizdirməmiş buraxmısınız. Yəni hətta ölüm ayağında da o, başqalarının qayğısını çəkirdi..."

(A.İvanovun xatirələrindən)

Zərifə xanım həkim idi və həqiqi vəziyyətin nə yerdə olduğunu gözəl bilirdi. Lakin uzun müddət dəhşətli diaqnozu yaxınlarından gizlədirdi. Sonralar onun gəlini Mehriban xanım xatırlayırdı:

"O, dünyasını dəyişdiyi günə bir ay qalar-qalmaz, bir dəfə onunla ikilikdə qalanda etiraf etdi: sənə demək istəyirəm ki, işlərim pisdir. Bu cümlə yadımdadır. Bilirdim, hamımız bilirdik ki, xəstədir, o, xroniki xolesistit haqqında nəsə deyirdi. İndi dərk edirsən ki, bu, nəhəng iradə gücü tələb edirdi. Heç nəyin üstünü vurmamaq, özünü gümrah göstərmək, tox tutmaq, öz iztirablarını, ağ-

rı-acılarını bildirməmək, kaş ki, oğlu, qızı üzülməsin, ilk növbədə, ərini dərd göynətməsin".*

Heydər Əliyev kimi insanın ömür-gün yoldaşı olmaq ağır yük, böyük məsuliyyət idi. Zərifə xanım bu məsuliyyəti tam dərk edirdi. Yəqin bu yaraşıqlı, zərif, mehriban, nurani baxışlı qadını ömrü boyu həsəd izləmişdir. Bəs necə: general, sonra Mərkəzi Komitənin birinci katibi, nəhayət, Siyasi Büronun üzvü, nəhəng ölkənin rəhbərlərindən biri kimi tanınan şəxsiyyətin ömür-gün yoldaşı, yəni indiki təbirlə desək, "birinci ledi" olasan. Bir deyim də var ki, "General arvadı olmaq üçün gərək leytenanta ərə gedəsən". Zərifə Əliyeva kimi... Ərin enişli-yoxuşlu yolları keçincə, onun yanında olasan. Uzun sürən tənhalıq, intizar saatlarına dözəsən, alışasan, çünki ərinin işi-gücü başından aşır.

Cəmiyyətin diqqət mərkəzində olmağından irəli gələn gərginliyə, narahatçılığa, ərinə görə keçirdiyin nigarançılığa tab gətirəsən. Saysız-hesabsız stresslərin püskürtülərini söndürəsən, qadın, ana mehrini, məhəbbətini sipərə çevirib sevdiyin insanı qoruyasan. Və "ulduz" xəstəliyinə yoluxmadan, olduğun kimi, sadə və qayğıkeş, hər hansı insanla rəftarında, ünsiyyətində – insani ucalığında durasan, təbiiliyində qalasan...

Heydər Əliyev rütbəsində, mərtəbəsində olan insanların, əslində, həqiqi dostları az olur. Hakimiyyət zirvəsinə qalxınca, ucalınca insan özünü tənhalığa, təkliyə məhkum edir. Odur ki, Zərifə xanım Heydər Əliyevin yalnız istəkli ömür yoldaşı, balalarının anası deyil, bu sözlər nə qədər adi səslənsə də, ona arxa idi, dayaq idi, vəfadar idi...

O, nəfəs aldığın, lakin gözə görünməyən, nəzərinə çarpmayan hava, oksigen misalında idi. Və birdən, qəfildən yoxluğa, əbədiyyətə qovuşanda, Heydər Əliyev havasının çatışmadığını, nəfəsinin daraldığını hiss etdi...

Aleksandr İvanovla söhbətdən:

"Zərifə xanım həmişə fəal, qıvraq idi və yalnız son günlərində, vəfatına bir həftə qalmış yatağa düşdü. Bütün bunlar, elə bil, bir

* O.Puşkinanın "Röyaya bənzəyən sevgi" adlı televiziya verilişindən.

anın içində baş verdi. O, demək olar ki, yanıb-yaxıldı. Hər şeydən çox gec xəbər tutmuşdular. Zərifə xanım heç özünü düşünmürdü, deyirdi ki, Heydər Əliyeviçə görə qorxur. Öz halı yaman ola-ola, güclə yerisə də, onun yanında özünü şux göstərirdi.

Onu Mərkəzi Kreml xəstəxanasında yerləşdirdilər. Heydər Əliyeviçin təşəbbüsü ilə müntəzəm olaraq konsiliumlar keçirilir, Bloxin və başqa ünlü təbiblər işə qatılırdı. Heydər Əliyeviç dönə-dönə deyirdi ki, hələ onu xilas etməyə imkan var. Konsiliumlardan sonra Çazov, Bloxin, baş onkoloq Trapeznikov ona məsləhət görürdülər: "Filankəsi çağırtdırın, xaricdən filan mütəxəssisi dəvət etdirin". Onun xahişilə Səhiyyə Nazirliyinin 4-cü İdarəsi xaricdən görkəmli onkoloqları dəvət etdi. Yadımdadır, məsələn, Moskvaya məsləhətləşmə üçün Fransadan məşhur onkoloq gəlmişdi.

O (Heydər Əliyev – ***E.A.***), əldən-ayaqdan düşmüşdü. Hər gün işdən çıxıb xəstəxanaya yollanırdı. Zərifə xanım rəhmətə gedəndən sonra da hər gün qəbiristanlığa gedirdi. Qərənfil, qızılgül alardıq. Zərifə xanım dünyasını dəyişdiyi dövr dəhşət idi. Dəfndə o necə yana-yana ağlayırdı...

– O günlər Heydər Əliyev kimi qüdrətli, iradəli bir insanın qara xəbəri necə ürək yanğısı, acizanə məyusluqla qarşılaması çoxlarını sarsıtmışdı. Siz belə olacağını gözləyirdinizmi?

– Gözləyirdim. O, tutalım "Naximov" teploxodunun qəzaya uğramasını ürək ağrısıyla yaşamış, səfərlərində partiyanın yerlərdə yol verdiyi bəd nəticəli əməllərə acımış, dönük çıxmış həmyerlilərinin, sabiq silahdaşlarının, öz yetirmələrinin (onlara "uşaqlar" deyirdi) ona qarşı alçaqlıq edərək şər atmalarını görmüşdü. Bütün bunları ağır keçirsə də, Zərifə Əzizovnanın ölümü qədər yandırmamışdı...

Biz yaşa dolmuş adamlarıq, məhəbbətin nə olduğunu bilirik, amma onların arasındakı ülfət ayrı aləm idi... Mən iyirmi səkkiz yaşımdan onların münasibətlərinin şahidi olmuşam, mənimçün bu etalon idi, qeyri-adi bir örnək idi. Bir yerdə neçə il yaşayasan, uşaqları boya-başa çatdırasan, baba-nənə olasan və bu qədər həssas münasibətləri qoruyub saxlayasan! Zərifə xanım ümumiyyətlə, qeyri-adi dərəcədə cazibədar insan idi. Heç bir fotoşəkil onun nuraniliyini, xoş təbəssümünü, baxışlarını, maneralarını – qadın ecazkarlığı-

nın bütün bu incəliklərini çatdıra bilməz.

O, ərini qarşılayıb bikef olduğunu duyur. Mən hal-əhvalını soruşanda susur, cavab verə bilmir, işarələrlə nəsə bildirir. Ona üz tutanda isə gülümsəyir, deyir: "Heydər Əliyeviç, hər şey normaldır". Zərifə xanım həyat yoldaşına adətən "Heydər Əliyeviç" deyə müraciət edərdi. Halı yaman olsa da, heç vaxt bunu bildirməzdi".

Üstündən neçə il ötəndən sonra Rusiya televiziyasının jurnalisti Oksana Puşkinaya Zərifə xanımın ömür-gün yoldaşına bəslədiyi məhəbbətin misilsiz həssaslığını göstərən heyrətamiz təfsilatı Heydər Əliyev özü söyləmişdi:

"Xəbər veriləndə ki, yanına yollanmışam (adətən, xəbər verirdilər, qardaşı, başqa qohumları daim yanında olurdular), o, yatağından qalxıb əynindəki paltarını sahmanlayar, üzünə, sifətinə diqqət yetirərdi. Ümumiyyətlə, kirşan – boya işlətməzdi, yalnız azca dodaqlarını çalarlayıb əyləşər, yolumu gözləyərdi. Yəni Heydər görsün: onun işləri yaxşıdır, hər şey normaldır. Mənimlə söhbətləşincə heç bir giley-güzarı dilə gətirməzdi. Mənə sonra danışırdılar: mən gedən kimi o, yatağında uzanıb yenə də öz xəstəliyinə qapanarmış...

Bir dəfə mənim hərarətim qalxdı, məlum oldu ki, əsəbilik ucbatından iki tam sağlam dişim hovlanıb. Məni Miçurin prospektində yerləşən həmin xəstəxanaya apardılar, orada Siyasi Büro üzvləri üçün ayrıca palata var. Mən artıq xəstə geyimində onun yanına gəldim. Təşvişə düşdü. "Bu nədir? Niyə belə eləyirsən? Sən yataqda qalmalısan". Dedim ki, heç nə olmaz, azca hərarətim var, məni bir balaca müalicə etmək istəyirlər. Həm də sənin yanında olmaq istəyirəm. Və mənimlə olan həkimlərə o nə desə yaxşıdır? Dedi ki, xahiş edirəm, gedin elə eləyin ki, o tez sağalsın. Mənimki bitib. Bax, belə".

Axşamçağı, keçindiyi gün ərəfəsində o, ərinə "Məndən nigaran qalma, uşaqlardan muğayat ol və yadında saxla ki, mən səni çox sevirəm" – sözləri ilə tamamlanan məktub vermişdi.

Mehriban xanım xatırlayır ki, ömür-gün yoldaşı rəhmətə getdiyi gün Heydər Əliyev evə gəlib "hönkür-hönkür ağlayırdı, bu bir dəfə baş vermişdi və bu, dəhşət idi..."

Müslüm Maqomayevlə söhbətdən:

"Zərifə Əzizovna öləndə onun nələr keçirdiyini təsəvvür etmək çətindir. O fəryadı ömür boyu yadımda qalacaq. Bu, salonda yox, dəhlizdə olmuşdu. Dəhşətli bir fəryad. Biz Tamara ilə ona yanaşdıq, bizə üz tutdu: "O, ölümündən üç-dörd gün əvvəl xəstəxanadan sizə zəng vurmuşdu. Bilin ki, siz onun üçün çox istəkli insanlardınız". O yaman haldaydı. O, Əliyev olmasaydı, sadəcə qol-qanadı sınardı".

Yuri Soloduxinlə söhbətdən:

"Biz onunla bir dəfə də, amma artıq dramatik şəraitdə, xanımını itirdiyi günlərdə görüşmüşdük. Ömür-gün yoldaşının ölümü onun üçün ağır zərbə idi. Mən dəfn mərasiminə gəlmişdim, vida mərasimi Alimlər Evində keçirilirdi, matəm musiqisi səslənir, tabut qoyulub, vidalaşanlar sıralanıb. Mən də növbəyə qoşuldum. Bir qədər aralı Heydər Əliyev qohum-əqrəbasının əhatəsində əyləşmişdi, hamı yas içində idi, onun gözləri yaşarmışdı. Mən yaxınlaşıb gül dəstəsi qoyaraq çıxışa doğru yönəlmişdim ki, birdən məni Saşa İvanov haqladı:

– Yuri Nikolayeviç, Heydər Əliyeviç ona yaxınlaşmağınızı xahiş edir.

Mən ona yanaşıb başsağlığı verdim.

– Yuri Nikolayeviç, belə itki, belə müsibət... Siz ki bilirsiniz, onu necə sevirdim...

Bunu deyir, gözləri dolur. O sarsılmış, birdən-birə qocalmış adam kimi görünürdü".

Süleyman Tatlıyevlə söhbətdən:

"Zərifə xanım çox yaxşı insan idi. Mən Nazirlər Sovetinin İşlər İdarəsinin rəisi olanda onunla tez-tez ünsiyyətdə olurdum: sadə, mehriban qadın idi. Və heç də Heydər Əliyev kimi tələbkar deyildi.

O, rəhmətə gedəndə, Heydər Əliyev məni dəvət edib dəfnin təşkilini tapşırdı. SSRİ Nazirlər Sovetinin əməkdaşları ilə xoş münasibətlərim vardı. Onlar mənə böyük kömək göstərdilər və biz dəfn mərasimini ən yüksək səviyyədə təşkil etdik. Bir çox Siyasi Büro üzvləri, İttifaq nazirlərinin əksəriyyəti gəldi. Onlar xüsusi də-

vət olmadan özləri gəlirdilər. Əklillər qalaq-qalaq, dağ misalında. Müslüm Maqomayev qəbiristanda "Sənsiz"i oxudu. Amma müsəlman adətincə ehsan verilmədi. Olmazdı, axı bura Moskva idi... Hərçənd, evdə hər şey qaydasınca yola verildi.

– Deyirdilər ki, Zərifə xanımın dəfn mərasimi Siyasi Büronun bəzi üzvləri tərəfindən neqativ qarşılanmışdı, yəni ki, niyə Əliyevin xanımını belə hörmət-izzətlə son mənzilə yola salmışlar? Və Qorbaçova hər şeyi çatdırmışlar...

– Bu, paxıllıq idi. Hərçənd, başqasının dərdinə necə paxıllıq etmək olar? O ki qaldı ehtirama, Heydər Əliyevin nə günahı vardı ki, Zərifə xanımla vidalaşmağa Rusiya ziyalıları, görkəmli elm xadimləri, Moskvada yaşayan bütün azərbaycanlılar gəlmişdilər. Elə respublikamızdan da, Heydər Əliyevin qadağasına baxmayaraq, xeyli camaat axışmışdı. Heç kimi xüsusi dəvət etməmişdilər.

Təziyyə qəbiristanlıqda keçirildi. Fikir verdim ki, kənardan duran bir neçə yad qadın baş verənlərdən narazıdır. "Axı bu nədir? Nəyə lazım belə təmtəraq?"

Mərasimdə mərhumənin həmkarları, həkimlər çıxış edir, hamısı onun haqqında çox xoş sözlər deyir, ürək yanğısı ilə danışırdı. Yəqin ki, kənarda pıçıldaşan o qadınlar belə vidalaşmalara, belə səmimi çıxışlara öyrəncəli deyildilər..."

Aleksandr İvanov xatırlayır ki, Zərifə xanımı son mənzilə yola salmağa o zaman hökumət başçısı olan Tixonov, Qromıko, Vorotnikov, Zimyanin, Kapitonov, az qala bütövlüklə "zirvədəkilər" gəlmişdilər. DTK rəhbərliyi də tam heyəti ilə: Çebrikov, Aqeyev, Sinev... Qorbaçov olmasa da, arvadı təşrif buyurmuş, bütün mərasim boyu qalmış, qəbiristanlığa gedənlərə qoşulmuşdu.

"Bəlkə də Raisa Maksimovnanı Zərifə xanımın xatirəsinə göstərilən belə məhəbbət təsirləndirmişdi, – A.İvanov söyləyir, – bu qədər insan axını, əklillər, hər şeyin olduqca təntənəli keçməsi... Çox güman ki, o, gördüklərini ərinə başqa yozumda çatdırmışdı".

Vitali Vorotnikovla söhbətdən:

"...Əliyevin durumunda sonralar müəyyən ciddi iz qoymuş faciəvi hadisə – ömür-gün yoldaşının ölümü baş verdi. Xanımı görkəmli, hörmətli şəxsiyyət – akademik, professor idi. Və ölümü onu

çox sarsıtmışdı. Yadımdadır, vidalaşma Alimlər Evində keçirilirdi. Mən də həyat yoldaşımla birgə vidalaşmağa gəldim. O (Əliyev – *E.A.*), bizim gəlib mənəvi borcumuzu verməyimizdən çox mütəəssir olmuşdu. Həqiqətən, ürək yanğısı keçirirdi. Sanki birdən üzüldü, görünür, ömür-gün yoldaşını çox sevirdi. Və hiss olunurdu ki, arvadının dəfninə həmkarlarının heç də hamısının diqqət göstərmədiyinə görə bir qədər acıyırdı...

– Axı, Raisa Qorbaçova gəlmişdi...

– Hə, ola bilsin gəlmişdi... amma mən belə başa düşdüm ki, heç də hamılıqla gəlməmişdilər. Hər halda Qorbaçov yox idi".

Azərbaycan Milli Məclisinin sosial siyasət şöbəsinin müdiri, professor Adilə xanım Abasova mənimlə maraqlı xatirələrilə bölüşdü. Söhbət gedən illərdə o, Moskvada yaşayıb işləyirdi və bir çox azərbaycanlı kimi, həmin günü Alimlər Evinə getməyi özünə borc bilmişdi.

"Salon dolu idi, – A.Abasova söyləyir, – orada xeyli məşhur insan, dövlət xadimləri, Bakıdan gələn rəhbərlərimizi gördüm. Oturanlar yerləri tutmuşdu, camaat axın-axın Zərifə xanımın cənazəsi yanından keçirdi. Bu izdiham həyətə, oradan da küçəyə axışırdı. Salona girəndə mən bir qədər ləngidim, çünki ətrafda tanış-biliş çox idi, hər biriylə salamlaşmalı idim. Ərim küçədə dayanmışdı, mən isə Alimlər Evinin həyətinə çıxdım. Yadımdadır, orada xeyli adam, əsasən kişilər, üç cərgə boyu sıralanmışdılar. Mən arxa cərgəyə qoşulmalı oldum, Heydər Əliyev çıxdı, həmişəki kimi, qamətli, səliqə-sahmanlı görünsə də, düçar olduğu ağır dərdin yükü halını pozmuşdu. O, birbaşa Alimlər Evinin salonuna yönəlmədən həyətdə cərgələnmiş adamların hər birilə əl tutub görüşməyi vacib bildi. Təsəvvür edirsinizmi? Belə bir ağır məqamda da Heydər Əliyevə xas olan nəzakət, sadə insanlara qarşı heyrətamiz diqqətcillik özünü büruzə verirdi. Mən lap arxada durub düşünürdüm ki, məni görməyəcək. Hay-hay! O, kişilərin üçqat səfini aralayaraq əlini mənə uzatdı... Mən bir neçə kəlmə deyib başsağlığı verdim..."

Tahir Salahovla söhbətdən:

"Zərifə xanımın həyatdan köçməsindən axşam saat doqquz – ona on beş dəqiqə işləmiş xəbər tutdum. Mən Mədəniyyət Nazir-

liyində, nazir müavini Şabanovun yanındaydım. Bu, köhnə Arbat küçəsindədir. Məni tapıb dedilər ki, Əliyev onu mənimlə calaşdırmağı xahiş edib. Hökumət telefonu ilə zəng vurdum, məni Heydər Əliyeviçlə calaşdırdılar. O, Kremldə idi.

– Heydər Əliyeviç, mənə dedilər ki, Zərifə Əzizovna xəstədir, mən sizin dərdinizə şərikəm. Hər şey yaxşı olmalıdır, – dedim. Və birdən:

– Tahir, o, öldü, – səsi kövrəlib qırıldı. – Tahir, o, həyatdan köçdü... Tahir...

– Heydər Əliyeviç, dediyinizə inana bilmirəm...

– Mən özüm də...

Çox gərgin məqam idi. Şabanov da qulaq asırdı.

– Heydər Əliyeviç, nə kömək lazımdır?

– Tahir, çalış ondan maska götür... Yulian Rukavişnikovu özünlə apar. Onu tap, rəhmətlik dəyişməyincə hər işi görün. Nə qədər tez olsa yaxşıdır.

– Narahat olmayın, Heydər Əliyeviç, mən hər şeyi edərəm. Nigaran qalmayın, bircə saata orada olacam.

Mən Rukavişnikovu tapdım, – görkəmli heykəltəraşdır. Onun sənətçiləri vardı ki, mərhumlardan maska götürüb hazırlayırdılar. Niyə o, məhz Rukovişnikovu yada salmışdı? Səbəbini deyim. Vaxtilə Heydər Əliyevin – iki dəfə Sosialist Əməyi Qəhrəmanı kimi – büstü hazırlananda, o mənə zəng vurub dedi:

– Tahir, Moskvaya Ömər Eldarov gəlib. Düşündüm ki, bu iş (büstün yapılması – ***E.A.***) mənsiz mümkün deyil, ona görə bəlkə Ömər Eldarovla görüşüm? Bu harada münasib olar?

Mən Yulian Rukavişnikovun emalatxanasını məsləhət gördüm. Kalinin prospektinin yaxınlığında yerləşirdi. Mən görüşü təşkil elədim, Ömər Eldarov işə qatıldı. İki seans oldu, – Əliyev şənbə və bazar günləri heykəltəraşın qarşısında "poza almağa" macal tapdı. Rasim Əliyev, mən, Yulian Mitrofanoviç də emalatxanada idik. Hər seans iki-üç saat sürürdü.

Həmin vaxtda da o, Rukavişnikovla tanış olmuşdu.

...Biz ölüxanaya yollandıq. Sonra ondan yenə zəng gəldi:

– Tahir, mən qəbiristanlığa yollanıram, imkanın varsa, sən də gəl. Maşının varmı?

– Var. On dəqiqəyə gəlirəm.

Kuntsevodan "Novodeviçye" məzarıstanına yollandım. Mən çatan kimi onlar da gəlib çıxdılar: Heydər Əliyeviç, Süleyman Tatlıyev, Qurban Xəlilov, Tamerlan. Yeri müəyyənləşdirmək üçün gəlmişdilər. Mən onu heç vaxt belə halda görməmişdim. O, daxilən sarsılmışdı. Və bu hal o qədər təbii idi ki, bizlərə də sirayət edirdi. Bunca sarsılacağını gözləmirdik. Sanki onun üçün dünya qopmuşdu. Deyirdi:

– Tahir, yadındamı, o necə insan idi, rəhmdil, mehriban, diqqətcil... Həm ömür-gün yoldaşı, həm dost kimi. Sənin axı yadındadı...

Bunu hamının yanında deyirdi.

Yer təyin etməyə getdik. Bizə qəbiristanlığın təzə sahəsini göstərib yer ayırdılar. Nəzərdən keçirdik. Sonra qəbiristanlığın müdirəsi köhnə sahədə daha bir yer göstərdi, nəticədə Zərifə xanım həmin yerdə torpağa tapşırılacaqdı. Yadımdadır, bizimlə olanlar – Tamerlan və başqaları mənə üz tutdular:

– Tahir, yəqin siz də o yeri seçməyimizi dəstəkləyərsiniz, – qəbiristanlığın yeni sahəsindəki guşəni nəzərdə tuturdular.

– Tahir, sən necə bilirsən? – Heydər Əliyev maraqlandı.

– Heydər Əliyeviç, bəlkə ümumi rəyə xilaf çıxacam, amma mənə elə gəlir ki, ikinci yer daha yaxşıdır.

Sözügedən sahədə Stalinin arvadının, Sobinovun məzarları yerləşirdi. Hiss elədim ki, arada bir gərginlik yarandı.

Heydər Əliyev qəbiristanlığın müdirəsinə üz tutdu:

– Bəs siz nə fikirdəsiniz?

– Sizin yoldaş düz məsləhət verdi. Bu yer təsadüfən boş qalmışdır.

Və o, həmin yeri seçdi. Hərçənd, başqa təklif sürənlər narazı qaldılar.

Zərifə xanımın Bakıda deyil, Moskvada dünyasını dəyişib orada da dəfn olunması Heydər Əliyev üçün ağır psixoloji məqam oldu. Düşünəndə ki, Moskvaya daha yüksək vəzifədə çalışmağa gedəsən, ömür-gün yoldaşının səhhəti qaydasında ola və birdən-birə Moskvada xəstələnib keçinə, qürbətdə torpağa tapşırıla... Bu fikir göynədirdi onu..."

Tahir Salahov özünəməxsus nəzakətlə dəfələrlə mənim də ürəyimdən keçənləri dilə gətirir. Nədənsə mənə elə gəlir ki, yaşlı və sonrakı günlərdə, böyük məhəbbətin xiffəti, əvəzsiz itkinin hədsiz ağrı-acılarına mərhumənin qarşısında istər-istəməz bir günah hissi də qatılırdı. Axı, o, daima səhhətini xərcləyə-xərcləyə, rahatlığını poza-poza işləmiş, ailəsinə istənilənçə diqqət yetirə bilməmişdi... Və Zərifə xanım Moskvada müəyyən mənada "qızıl qəfəs" düşən kimi olmuşdu. Rəfiqələrindən ayrılmış, alışdığı ünsiyyət dairəsindən, yurd-yuvasından perik düşmüşdü... Əzəldən təkbaşına, ərini qorumağa çalışaraq, ailə qayğılarının yükünü daşımış (məişət, övladlarının, sonra da nəvələrinin tərbiyəsi, xırdaca ailə nizamsızlıqları...). Düzdür, Heydər Əliyev ömür-gün yoldaşını guşənişin kimi saxlamır, yeri gələndə, hal əhli arasında onunla olur, hər dəfə məzuniyyətini yalnız ailəsi ilə keçirirdi. Dı gəl, məzuniyyət vaxtı da işindən-gücündən qalmırdı. Ümumiyyətlə, rəsmi xidməti, respublikanın, sonra da ölkənin maraqları, mənafeyi onun üçün birinci yerdə idi. Başqa cürə bacarmazdı, məsuliyyət yükü həddindən artıq idi...

Zərifə xanım dünyasını dəyişəndən sonra isə o, anladı ki, daha heç nəyi geriyə "fırladıb" düzəltmək olmaz və qalan ömrünü bu özündən asılı olmayan günah hissilə yaşamalıdır. Əlbəttə, belə fikirlər ən yaxın adamlarını itirmiş insanların, Heydərlə Zərifə kimi can deyib, can eşitmiş olsalar da, ağlına gəlir, qəlbini göynədir və ağrı-acılarını artırır...

Matəm gününü "Bakı. Nostalji səyahət" adlı məqaləsində Azərinformun, sonra SİTA-nın sabiq müxbiri Valeri Calaqoniya xatırlayırdı:

"1985-ci ildə Heydər Əliyeviçə ağır itki üz verdi – ömür yoldaşı Zərifə xanım, məşhur oftalmoloq, çoxcəhətli istedada malik insan, mehriban ana və evin xanımı dünyasını dəyişdi.

O zaman mənə Əliyevin katibliyinin rəhbəri Valeri Qridnev zəng vurub şefinin gözlənilməz xahişini çatdırdı: mümkündürsə, bir nüsxədə, şəxsən onun üçün ömür-gün yoldaşı ilə vidalaşmanın gedişatını qələmə almalı idim.

Jurnalistlik fəaliyyətim ərzində belə bir mürəkkəb işlə rastlaşmamışdım. Amma mənə elə gəlir ki, bu xahişin mənasını anladım.

O dəhşətli gündə Heydər Əliyeviç dərdə qapıldığından bəzən ətrafda baş verənləri qavraya bilmir, bununla belə, ən əziz insanla bağlı olan hər təfsilatı, o cümlədən, faciəvi vidalaşma çağını da yaddaşında saxlamaq istəyirmiş. Mən bu barədə də bacardığım kimi yazdım, heç kimə göstərməmək məcburiyyətini anlayaraq, özüm yenidən makinada çap etdim. Bircə nüsxədə. Beləliklə, bu azman, iradəli insan mənə yeni baxımdan açıldı..."[23].

İlham Əliyev söyləyirdi ki, atası Zərifə xanımın vəfatından sonra "...uzun müddət özünə gələ bilmirdi. Hər gün məzara baş çəkir, əslində, elə bil yaşamaqdan imtina edir, çünki elə təsəvvür yaranırdı ki, o, bilərəkdən özünü çərlətmək istəyir... İşdən evə az qala axşam saat 11-də, normal həyatdan təcrid olunmuş halda qayıdırdı... Bizim hamımız onun (Zərifə xanımın – ***E.A.***) yoxluğunu hiss edirdik. Onun ölümüylə hər şey dəyişdi".*

Zərifə xanımın vəfatından yeddi gün keçər-keçməz Heydər Əliyev heykəltəraş Ömər Eldarovu Moskvaya dəvət etdi.

"O vaxt nitqi çətinləşmişdi, – Ömər Həsən oğlu mənə söyləyirdi. – Keçirdiyi iztirablardan nəfəsi daralırdı, amma məni yanına dəvət edib dedi: "Mənə artıq çox təkliflər edilib, budur, maska da götürülüb, ancaq hesab edirəm ki, abidəni sən yaratmalısan. İşlə, müddəti məni maraqlandırmır. İlinə çatdırmasaq da, vacib deyil. İşləmək lazımdır, gərək mənim ürəyimcə olsun, qohum-əqraba da bəyənsin. Yəni abidə yaxşı olsun". Və mən işə başladım.

– Niyə heykəl "Novodeviçye"də qoyulmadı?

– Şəxsən Heydər Əliyevin başına gələn əhvalatlara görə. O, ağır xəstələnmişdi, ona baş çəkib görüşürdüm. Abidəni soruşur, deyirdim hazırdır, fotoşəkilləri göstərirdim. Hələ SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olarkən, Heydər Əliyeviç abidənin materiala çevrilməsi üzrə konkret işlərə yardım göstərirdi. O, karxana ilə Azərbaycan üçün beş blok birinci növlü mərmər ayrılması barədə şərtləşmiş, onun xahişilə abidənin materialda təcəssüm olunması üçün bizə ən yaxşı usta verdilər. Çünki çox mürəkkəb fiqur idi. Bu qadın heykəli barmaqları, ayaqqabıları, dabanları daxil olmaqla, bütöv bir kütlə olmalıydı. Bu isə nəhəng kütlə, böyük şırımlar, qat-

* O.Puşkinanın "Röyaya bənzəyən sevgi" verilişindən.

lar deməkdi. Həmin sənətkar Moskvanın seçmə heykəltəraşları ilə əməkdaşlıq edən, Bədaye Akademiyası prezidenti Nikolay Tomskinin şəxsi mərməryonan ustası idi. Biz onun yarım il müddətinə Bakıya gəlib işləməsi haqqında razılığa gəldik.

– Bəs xəstəliyindən və sonrakı yamanlıqlardan sonra Əliyev özü abidə qoydurmaq fikrindən daşınmışdımı?

– Bəli. Əvvəla iş bir qədər uzun çəkmişdi. Heydər Əliyev vəzifədən kənarlaşdırılandan sonra başa düşdü ki, mərmər heykəlin ucaldılması bədxahlara cürbəcür neqativ əməllərə əl atmağa bəhanə verə bilər. Mərməri də sındırmaq çətin iş deyil...

Heykəl artıq hazır idi, doqquz il mənim emalatxanamda qaldı. Hazırda R.Mustafayev adına incəsənət muzeyindədir. Bu, mərmərdən hazırlanmış və "Novodeviçye" qəbiristanlığında qoyulması nəzərdə tutulmuş variantdır. Heydər Əliyeviç o fikirdən vaz keçdi, çünki yəqin nəşin köçürülməsini də artıq qət edibmiş. Zərifə xanım uzaqda qalmasın deyə, cənazəsini vətənə, Azərbaycana apartdırmaq qərarına gəlmişdi.

Moskvada Zərifə xanımın məzarı naxışlı şəbəkə ilə çəpərlənmiş, çərçivəli portreti qoyulmuş, yazı həkk olunmuşdu. 80 santimetrlik sadə başdaşı və portret. Vətən torpağına tapşırılana qədər belə idi son mənzili!..

– Sizdə abidənin müxtəlif variantları vardımı?

– Bəli, son varianta birdən-birə gəlməmişdim. Əvvəla, işin gedişatında anladım ki, fiquru postamentlə birgə, bütövlükdə işləmək lazımdır. İlk dəfə daha alleqorik fiqur yaratmışdım, nağılvari, bir uyumuş gözəl misalında, əlindən də bir gül üzülüb düşmüşdü. Heydər Əliyeviç: "Yox, – dedi. – Portret canlanmalı, oxşarlıq olmalıdır". Odur ki, fiqur dikəlib düzəldi, şax qədd-qaməti cizgiləndi... Rəhmətlik xanım nə qədər həlim təbiətli olsa da, camaat içində özünü necə tutmalı, davranmalı olduğunu bilirdi... Lakin bu variant dərhal yaranmadı".

Zərifə xanım rəhmətə gedəndən bir qədər sonra qızı Sevil anasına həsr etdiyi "Qayıt, sevdiciyim..." mahnısını bəstələyəcək.

"Mən bu melodiyanı Müslüm Maqomayevin yanında çalanda, – Sevil xanım bu sətirlərin müəllifi ilə söhbətində xatırlayırdı, – mənə dedi ki, musiqiyə söz qoşmaq lazımdır və o, mütləq həmin mahnını ifa edəcək. Mətnin müəllifi anamla şəxsən tanış olmuş və çox xoş münasibət bəsləmiş məşhur şair Nikolay Dobronravov oldu. Yadımdadır, ayrı-ayrı misralar bir neçə variantda seçilmişdi və biz atamla hisslərimizi ən dəqiq şəkildə ifadə edənləri seçib saxlayırdıq. İndi bu mahnı mənə ikiqat əzizdir, çünki mənim üçün ana-ata xatirəsinin əks-sədasıdır".

Heydər Əliyev öz sevgilisindən 18 il çox yaşadı. Bu illər boyu neçə-neçə hadisə baş verdi, itkilər, peşmançılıqlar oldu. İstefaya çıxandan sonra o, öz tənhalığına daha çox acıyacaq. Ömrü boyu sevdiyi, səcdə qıldığı və amansız əcəlin ondan vaxtsız ayırdığı gözəl qadınla bağlı itki ağrısı, onun işıqlı və əzablı xatirələri qəhrəmanımı həyatının son günlərinə qədər təqib edəcəkdir. Bir dəfə əmisi oğlu Süleyman Əliyev Moskvaya onunla görüşməyə gəlib yarızarafat-yariciddi ona deyir: "Əmioğlu, gəlsənə səni evləndirim. Axı, tək-tənha, qadın qayğısı olmadan yaşamaq yəqin ki, ağırdı..." O, kədərlə başını yellədir: "Yox, ay Süleyman, Zərifədən sonra heç vaxt evlənən deyiləm. Bu barədə bir də danışma..."

Oksana Puşkina ilə müsahibəsinin sonunda, eyni suala cavab verərkən Heydər Əliyev demişdi: "O, başa düşürsünüz, sözün əsil mənasında dost idi. O, mənim yolumda canından keçməyə hazır idi. Bəli, məhz belə: ömrünü qurban verməyə hazır idi..."

"O, heyrətamiz iradə qüvvəsi nümayiş etdirdi..."

Nə qədər qəribə görünsə də, V.İ.Leninin anadan olmasının 115-ci ildönümündə Heydər Əliyevin parlaq məruzəsindən sonra onun M.Qorbaçovla münasibətləri nəzərəçarpacaq dərəcədə korlanmışdı. Kommunizm dövründə yaşamamış insanlar Kremldə belə bir məruzə ilə çıxış etməyin məruzəçi üçün nə qədər nüfuzlu və əlamətdar hadisə olmasını çətin təsəvvür edə bilərlər.

Məsələn, Roy Medvedev "Naməlum Andropov" adlı kitabında yazır: "1964-cü ilin baharında Andropova Leninin anadan olmasının

ildönümü münasibətilə təntənəli yığıncaqda Sov.İKP MK adından məruzəni oxumaq tapşırılmışdı. Bu, Andropovun bir siyasi lider kimi nüfuzunun artmasına dəlalət edirdi"[24]. M.Qorbaçovun köməkçisi A.Çernyayev bu hadisədən xeyli sonralar öz qeydlərində xatırladırdı ki, yenidənqurmanın "mənəvi atası" A.Yakovlev ona Qorbaçovdan şikayətlənərək deyirdi ki, Baş katib ona etibar etmir, dünya proletariatının rəhbərinin doğum günündə məruzə ilə çıxış etməyə imkan vermir.

Qəribədir: bu qatı antisovetçi və antikommunist (hər halda, o, "Alatoran" adlı kitabının səhifələrində özünü belə təqdim etməyə çalışır) Qorbaçovdan əməlli-başlı incimişdi ki, Baş katib Leninlə və ya noyabr bayramı ilə əlaqədar Kremldə keçirilən tədbirlərdə onu bircə dəfə də rəsmi məruzəçi təyin etməmişdi. Belə çıxır ki, sən bu bayramları tanımırsan, Vladimir İliçi əli qana batmış qəsbkar, Oktyabr inqilabını isə əsil çevriliş hesab edirsən. Deməli, sənin məruzələrin də başdan-ayağa əsil riyakarlıq olacaqdır. Amma yox: o, bütün ölkə qarşısında tribunada özünü göstərmək istəyirdi, hətta əsla xoşlamadığı və inanmadığı mətni oxumaq üçün olsa belə. Yakovlevin riyakarlığı və arsızlığı bu dərəcəyə çatmışdı!

"Yaxşısı budur, bununla bağlı Aleksandr Yakovlevin özünü dinləyək, xüsusən ona görə ki, aşağıda SSRİ-nin sonuncu Baş katibinin söhbətimizin mövzusuna aidiyyəti olan maraqlı xarakteristikası verilir:

"Mənim Mixail Sergeyeviçə qarşı loyallığımın ağlabatan məhdudiyyəti yox idi. Böyük məqsədlər gözümü tutmuşdu. Bəzən nə isə məni narahat edirdi, lakin hər cür cəncəl fikirləri yaxına buraxmırdım. Qorbaçovun kinli adam olması da qarşımı alırdı. Onsuz da qəzetlər yazırdı ki, o yalnız Yakovlevin çalğısı ilə oynayır. Başa düşürəm – belə yazıları oxumaq ona ağır gəlirdi. Axırda Qorbaçov o dərəcədə incidi ki, məni konkret işə getdikcə daha az cəlb etməyə başladı. Yəni, sənsiz də keçinərəm.

Ona xas olan digər cəhəti də unutmaq olmaz. O hər şeydən şübhələnən adamdır. Qorbaçovun səfərə çıxanda məni bir dəfə də olsun öz yerinə qoymamağı, bir dəfə də olsun Katibliyin iclasını aparmağı tapşırmamağı, heç vaxt Lenin və ya noyabr iclaslarında rəsmi məruzəçi təyin etməməyi məndə və dostlarımda təəccüb hissi doğururdu. İdeologiyaya cavabdeh olmağıma baxmayaraq, bu rolda məndən başqa demək olar ki, hamı çıxış etmişdi. Hətta ictimai elmlər və maarif problemləri üzrə iki ümumittifaq müşavirəsində də məruzəçi Yeqor Liqaçov olmuşdu. Ya "Yakovlev öz oyununu oynayır" fikri Qorbaçova təlqin edildiyindən o həmişə məni "yerimdə otuzdururdu", ya da qorxurdu ki, məruzələrdə nəsə artıq söz danışaram. Hərdən ondan birbaşa soruşmaq istəyirdim ki, nə baş verir? Lakin onu "pis vəziyyətdə qoymaqdan" utanırdım.

Bu gün bütün bunlar gülməli səslənir, hətta yada salmağa da xəcalət çəkirsən, o vaxt isə çox xoşagəlməz idi. Səmimi deyirəm, o vaxt Qorbaçovun bu qərarlarını mənə qarşı etimadsızlıq kimi qəbul edirdim, hər dəfə həyəcan keçirirdim, kifayət qədər dərin həyəcan"[25].

Beləliklə, gəlin yadda saxlayaq: rəhbərin doğum günündə məruzə ilə çıxış etmək yalnız ölkənin ən hörmətli və nüfuzlu liderlərinə etibar edilirdi, bu, bir növ, SSRİ-də birinci şəxsə xüsusi yaxınlıq əlaməti idi. 1985-ci ilin aprelində hakimiyyətə gələndən az sonra M.Qorbaçov Heydər Əliyevə münasibətdə belə bir ehtiram əlaməti göstərmişdi. Amma çox güman ki, Kremldəki təntənəli yığıncaqdan sonra buna təəssüflənmişdi.

Tahir Salahovla söhbətdən:

"E.A. – 1985-ci il aprelin 15-də Zərifə Əliyeva dünyasını dəyişdi...

T.S. – Aprelin 22-si isə Leninin doğum günü idi. O, necə də özünü ələ almağı bacarmışdı! Mən bu iclasa televiziya ilə baxırdım və onun xüsusən cəmiyyətin korrupsiyaya qurşanmasına qarşı güzəştsiz mübarizə haqqında tezislə bağlı yeni qiymətləndirmə, yeni intonasiya və perspektivlərin əks olunduğu məruzəsini nə dərəcədə təntənəli və ifadəli tərzdə söylədiyini gördüm.

E.A. – Deyirlər, bu çıxış partiya elitasına çox güclü təsir bağışlamış və Qorbaçovun münasibətinin dəyişməsinin, az qala, başlıca səbəbi olmuşdur, çünki o, Heydər Əliyevin bu cür güclü məruzə ilə çıxış edəcəyini gözləmirdi.

T.S. – Özü də bu, Zərifə Əzizovnanın dünyasını dəyişməsindən cəmi bir həftə sonra olmuşdu. O, heyrətamiz iradə qüvvəsi nümayiş

etdirdi. Mən həmişə demişəm ki, o, ideya adamı idi, lakin bununla belə, heç vaxt özünü zamanın konyunkturuna uyğunlaşdırmırdı".

Açığını deyim ki, mən Heydər Əliyevin məruzəsini oxuyanda Baş katibin nə üçün özünü narahat hiss etməsinin səbəbini başa düşdüm. Həmin günün ertəsi, aprelin 23-də Sov.İKP MK-nın Plenumu olmalı idi. Yeni seçilmiş Baş katib həmin Plenumda "Sov.İKP-nin növbəti, XXVII qurultayının çağırılması və onun hazırlanması və keçirilməsi ilə bağlı məsələlər haqqında" məruzə ilə çıxış etməli idi. Sonradan bu Plenumu "taleyüklü", "dönüş" kimi təşbihlərə layiq görəcək, onu yenidənqurmanın müjdəçisi adlandıracaqlar və bütün bunlar yalnız yarıbayarı düzgün olacaq. Çünki yenidənqurmanın birinci dövrünün (1985–1987-ci illər) strategiyasının əsasını təşkil edən fikirlərin müəllifi mütəşəkkilliyin və əmək intizamının yüksəldilməsi, istehsalın intensivləşdirilməsi və elmi-texniki tərəqqinin sürətləndirilməsi haqqında sıravi məruzə ilə çıxış etmiş Qorbaçov deyil, Heydər Əliyev idi. Yakovlevin təbirincə desək, adamlardan "şübhələnən və tez inciyən" Mixail Sergeyeviç bunu Heydər Əliyevə bağışlamadı.

Heydər Əliyevin şəxsi mühafizə dəstəsinin rəisi A.İvanov xatırlayır ki, Əliyevin çıxışı ərəfəsində qəribə hoqqalara əl atılmışdı. Tədbirə bir neçə gün qalmış ona MK katibliyindən təzyiq göstərməyə başlayaraq, məruzəsini ixtisar etdirməyə və dəyərli parçaları çıxartdırmağa çalışmışlar. Əlbəttə, Heydər Əliyev Baş katibin kefi istədiyinə görə heç bir "rəndələməyə" və "malalamağa" getmədi.

Beləliklə, 1985-ci il aprelin 22-də Kremlin Qurultaylar sarayında V.İ.Leninin anadan olmasının 115-ci ildönümünə həsr edilmiş təntənəli yığıncaq keçirildi. "Lenin ideyalarının və işinin tarixi həqiqəti" adlı məruzə ilə Heydər Əliyev çıxış etdi.

O, sevimli ömür-gün yoldaşını təzəcə dəfn etmişdi. Qəlbini kədər bürümüşdü. Lakin hamının etiraf etdiyi kimi, məruzə çox parlaq idi və SSRİ-nin hüdudlarından çox-çox uzaqlarda da diqqəti cəlb etmişdi. Konseptual və analitik cəhətləri ilə fərqlənən bu məruzədə partiyanın qarşısında duran cari və strateji məsələlərin miqyası və ən başlıcası, onların həll edilməsinin yolları və metodları göstərilirdi.

Məsələn, o demişdi: "Elmi-texniki tərəqqinin sürətini artırmaq, vahid texniki siyasəti daha fəal yeritmək, iqtisadi vasitələri və elm ilə istehsalın inteqrasiyasının təşkilat formalarını möhkəmlətmək lazımdır". O, ticarətin, ictimai iaşənin, mənzil-kommunal təsərrüfatının təşkilindəki nöqsanlar haqqında açıq danışmışdı. O, rüşvətxorluq və möhtəkirlik haqqında, zəhmətsiz gəlirlərə qarşı mübarizə haqqında və eyni zamanda, əməyin ödənilməsində bərabərçiliyə son qoymağın, təsərrüfat hesabının yeni formalarına keçməyin, müəssisələrə daha çox müstəqillik verilməsinin zəruriliyi barədə danışmışdı.

O, nizam-intizamın və mütəşəkkilliyin möhkəmləndirilməsi məsələlərindən danışaraq, demişdi ki, bu mübarizəni "reallığa az təsir göstərən uzun-uzadı qətnamələr qəbul etməklə bitmiş hesab etmək olmaz. Boşboğazlıq adamları çiyrindirir, onlar işgüzar qərarlar, konkret tədbirlər gözləyirlər" *(elə bil fala baxmışdı: boşboğazlıq M.Qorbaçovun xalq ilə və partiya yoldaşları ilə ünsiyyət metodunun fərqləndirici cəhətinə çevrilmişdi).*

Heydər Əliyev öz məruzəsində ölkədə ilk dəfə olaraq rəhbər kadrların yeniləşdirilməsinin zəruriliyini bəyan etmişdi: sözü ilə işi düz gəlməyən, nüfuzları olmayan məmurlardan, meşşanlardan xilas olmaq, həm də qətiyyətlə "xilas olmaq gərəkdir, onları hələ də bəzən yol verildiyi kimi, bir rəhbər kürsüdən digərinə əyləşdirmək lazım deyildir".

O, milli məsələ və milli münasibətlər haqqında, rus dili haqqında, millətlərarası ünsiyyət mədəniyyətinin daha da inkişaf etdirilməsinin, millətçiliyin hər hansı təzahürlərinə qarşı mübarizə aparmağın zəruriliyindən danışmışdı.

Heydər Əliyev beynəlxalq vəziyyəti hərtərəfli təhlil etmiş, SSRİ-nin xarici siyasət fəaliyyətinin əsas istiqamətlərini və prioritetlərini göstərmişdi.

Bir sözlə, sovet xalqı geniş təfəkkürə, aydın məqsədlərə və qənaətlərə, dərin mədəniyyətə malik olan və üstəlik, rus dilində (elə həmin Qorbaçovdan fərqli olaraq) çox gözəl danışan təcrübəli, yetkin bir siyasətçi ilə tanış oldu.

Ertəsi gün M.Qorbaçov heç bir təzə söz demədi, onun nitqinin

bəzi məqamları isə Heydər Əliyevin nitqi ilə müqayisədə daha zəif və "solğun" təsir bağışladı.

Heydər Əliyevin köməkçisi Yuri Soloduxin ilə söhbətdən:

"E.A. – Deyilənə görə, Heydər Əliyevin problemləri ikinci məruzəsindən, Lenin haqqında məruzədən sonra başlanmışdı. O vaxt ona demişdilər ki, sönük və maraqsız çıxış etməli idin.

Y.S. – Əgər belə demək mümkündürsə, sifarişçilərin üç tipi var. Bəziləri deyir: "Mən filan mövzuda çıxış etməliyəm". Onlar yazılmış mətni alıb çıxış etməyə gedirlər.

İkincilər deyir: "Mən filan mövzuda çıxış etməliyəm". Mən mətni hazırlayıram, o, həmin mətni oxuyur, bir balaca düzəliş edib xitabət kürsüsünə yollanır.

Lakin üçüncü tip sifarişçilər də vardı, mənim həyatımda cəmi bir neçə belə adam olub və onlardan biri Heydər Əliyeviç idi. O, bəlkə də, yeganə adam idi ki, mətni hazırlayanlardan sonra ona çox diqqətlə düzəlişlər edir, onu yenidən işləyirdi. O, həm də ali rəhbərlikdə təkəm-seyrək, az adamlardan biri idi ki, onlar məruzədə nələri görmək istədiklərini deyir, bəzən isə əsas tezisləri də özləri ifadə edirdilər.

Andropov, Suslov, Zimyanin və Heydər Əliyev belə adamlar idi. Vəssəlam! Bu insanlar yazılmış mətnə yaradıcı töhfə verirdilər. Lakin Heydər Əliyeviç mətnə qarşı xüsusilə tələbkar idi. Adətən, mətnin yalnız dördüncü və ya beşinci variantlarından istifadə edilir, onlar oxunur və ya çap edilirdi. Variantların sayı heç vaxt bundan az olmurdu.

Lenin haqqında məruzə isə uzun müddət və çətinliklə hazırlanmışdı. Heydər Əliyev çox həyəcanlanırdı, mətn üzərində saysız-hesabsız dəyişikliklər edirdi. Axırıncı mərhələdə məndən soruşdu ki, bu mətni onun çox etibar etdiyi Laptevə göstərsə, incimərəm ki...

Laptev o vaxt "İzvestiya"nın baş redaktoru idi. Yeri gəlmişkən, onun bu vəzifəyə təyin edilməsində məhz Heydər Əliyeviçin böyük rolu olmuşdu.

– İncimərsiniz ki? – Heydər Əliyev məndən soruşdu.

– Əlbəttə, yox.

İvan Dmitriyeviç də az-maz nə isə düzəltdi.

Ancaq burada Heydər Əliyeviçin özünün gözəl natiqlik istedadını da qiymətləndirmək lazımdır. Artistlər kimisə tərif eləmək istəyəndə deyirlər: "O, telefon kitabçasını da elə oxuyur ki, salon ona əl çalmağa başlayır". Heydər Əliyev elə bir istedada malik idi. Mən demək istəmirəm ki, o, pis mətnlər oxuyurdu. Onun üçün yaxşı mətnlər hazırlayırdılar, yoxsa o bizi yanına dəvət etməzdi. Ancaq bundan əlavə, o bu mətnləri böyük bir ustalıqla oxuyurdu.

Yeri gəlmişkən, biz öz aramızda deyirdik ki, rus dilinin ən yaxşı stilisti azərbaycanlı Əliyevdir. Onun heyrətamiz dil duyumu vardı. Bu, fitri istedad idi. O, həm də, əslində, ləhcəsiz danışırdı. Ancaq yazısı danışığından da yaxşı idi.

Deməyə utanıram, amma bəzən o, mənim yazıma da düzəliş edirdi. Belədə mən ona cavab olaraq "Yevgeni Onegin"dən sitat gətirirdim:

Təbəssüm bilməyən dodaq kimi, mən
İçində bir sərfi səhv görünməyən
Rus dilini, düzü, sevməyirəm heç...

Mən bu sözləri bir-iki dəfə sitat gətirdim, amma üçüncü dəfədə o mənə: – Bilirəm, bilirəm, – dedi və sonra özü həmin parçanı oxudu.

Heydər Əliyeviç, adətən, bütün təntənəli yığıncaqların keçirildiyi Sütunlu salonda Leninin yubileyi barədə məruzə ilə çıxış edəndə mən həmişəki kimi səhnə arxasında idim. O, səhnəyə çıxarkən mənə pıçıldadı:

– Sən say, gör neçə dəfə alqışlayacaqlar.

Mən saydım – iyirmi dörd dəfə.

Sonra o, mənə zəng edib təşəkkürünü bildirdi. Mən soruşdum:

– Yaxşı, silahdaşlarınız necə, – qiymətləndirdilərmi?

Heydər Əliyeviç bir qədər susandan sonra dedi: – İclasdan sonra biz hamımız Rəyasət Heyəti üçün nəzərdə tutulmuş otaqda toplaşanda Mixail Sergeyeviç uzun müddət dinmədi, sonra mənə baxdı və dedi: "Hə, gəlin Heydər Əliyeviçi yaxşı məruzə etməsi münasibətilə təbrik edək".

RSFSR Nazirlər Sovetinin keçmiş sədri V.Vorotnikov ilə söhbətdən:

"Heydər Əliyev sarsılmış vəziyyətdə olsa da, – axı həyat yol-

daşının dəfnindən cəmi üç gün keçmişdi, – aprelin 22-də o, Leninin doğum gününə həsr olunmuş yığıncaqda çıxış etdi. Əlbəttə, o, imtina edə bilərdi, lakin hər şey əvvəlcədən qərara alınmışdı. Heydər Əliyeviç həmin yığıncaqda çıxış etdi, özü də yaxşı çıxış etdi. Məruzə çox məzmunlu idi. O, bunu bacarırdı. Onun şərqlilərə xas olan pafosu vardı. Mövzunu sanballı etməyi, hansı məsələ barədə daha yüksək tərzdə danışmağı bacarırdı".

Romanımızın ikinci hissəsində biz Heydər Əliyevin çıxışlara necə hazırlaşması, ən geniş auditoriya üçün nəzərdə tutulan nitqləri hazırlamaq sahəsində çox böyük təcrübəsi olması barədə ətraflı söhbət açmışdıq. Heydər Əliyev artıq 70-ci illərdə İttifaq və beynəlxalq miqyaslı ən tələbkar auditoriya qarşısında, ən nüfuzlu tribunalardan çıxışlar edirdi. Bəs Qorbaçov o vaxta qədər haralarda çıxış etməli olmuşdu? Ucqar əyalətdə, Stavropol diyarında, yerli partiya-təsərrüfat fəalları qarşısında. Heydər Əliyevin bəlağəti və natiqlik məharəti haqqında isə rəvayətlər dolaşırdı. Ona görə də Qorbaçovun təşvişə düşməsi və qısqanması üçün əsas vardı!

İbrahim İsmayılovla söhbətdən:

"– Həmin günlərdə mən Moskvada idim, Azərbaycan Ali Məhkəməsinin sədri və SSRİ Ali Məhkəməsinin Plenum üzvü kimi SSRİ Ali Məhkəməsinin Plenumunun işində iştirak edirdim. O vaxt mən Heydərlə yenidən görüşdüm. Kremlə, onun yanına getdim. Məni qəbul etdi. Yeri gəlmişkən, o, göstəriş vermişdi ki, istənilən vaxt mən zəng edəndə onu calaşdırsınlar. VÇ xətti ilə isə mən, az qala, hər gün ona zəng edir, respublikada baş verən hadisələr barədə ona məlumat verirdim. Həmin görüşdə o, vəziyyəti olduğu kimi mənə danışdı. Onun necə iti yaddaşının olmasını, çıxışlara necə diqqətlə hazırlaşmasını hamı bilir. Heydər mənə söylədi ki, o, məruzəsini başa çatdırandan sonra Qorbaçovun ona münasibəti kəskin şəkildə dəyişmişdir.

Heydər deyirdi ki, bu adam göz qabağında dəyişdi. Bizim əla münasibətlərimiz vardı, ailəvi dostluq edirdik, Raisa Maksimovna Zərifə xanıma baş çəkir, hətta bəzən onlar birlikdə bayram süfrəsi açırdılar. Mənim məruzəmdən sonra isə elə bil onun başına bir qazan qaynar su tökdülər. Sonradan anlamağa başladım ki, mənim bu

dərəcədə hazırlıqlı olmağım onların xoşuna gəlmir. Onlar səviyyəsiz adamları görməyə adət ediblər.

Sonra o, Romanovu, Qrişini və başqalarını xarakterizə etməyə başladı.

O deyirdi:

– Axı bunlar kəmsavad adamlardır. Əksəriyyətində qocalara xas olan düşkünlük özünü göstərir, kağızsız iki kəlmə danışa bilmirlər. Mən isə həmişə heç bir kağızsız-filansız çıxış edirəm. Ona görə də məni gözləri götürmürdü.

O bu sözləri mənə 1985-ci ildə demişdi".

Axırıncı Baş katibin əhatəsindəki ən yaxın adamları – elə həmin Arbatov, Şahnazarov, Çernyayev və başqaları sonralar öz memuarlarında Qorbaçovu kadr məsələlərində az qala mələk kimi qələmə verərək yazacaqlar ki, onların fikrinca, Brejnevə xas olan məkrlilik, intriqalar və başqa keyfiyyətlər guya bu adama xas deyildi. Lakin Əliyevə münasibətdə Qorbaçov məhz məkrli intriqaçı kimi hərəkət etdi. Axı məsələ heç də Əliyevin istefaya göndərilməsində deyil. O vaxt çoxlarını, lap çox adamı istefaya göndərmişdilər. Məsələ ondadır ki, bundan əvvəl məhz nələr baş vermişdi və bu istefaya hansı metodlarla nail olmuşdular. Aşağıda mən bu fikrimi dəlil-sübutlarla, konkret faktlarla təsdiq edəcəyəm.

"Yaşıl ilan"la* mübarizə "dastanı"

Mixail Qorbaçov hakimiyyəti, dövrü, onsuz da zəifləşən sovet iqtisadiyyatı üçün çox vaxt uğursuz, bəzən də məhvedici böyük-kiçik eksperimentlərlə səciyyələnir. Belə eksperimentlərdən biri sərxoşluq və alkoqolizmə qarşı bədnam "mübarizə" olmuşdur. Bu üzdəniraq mücadiləni qismən M.Solomentsevin və xüsusən də Y.Liqaçovun adlarıyla əlaqələndirirlər.

M.Qorbaçovun mətbuat katibi Andrey Qraçovun fikrincə, Qorbaçov Liqaçovu öz yanında məhz ona görə uzun müddət saxlamış-

* "Yaşıl ilan" – burada "içki düşkünlüyü", "sərxoşluq" mənasında işlənir.

dır ki, "özü qatılmaq, ya şəxsi məsuliyyət daşımaq istəmədiyi "ziyanlı işlərdə" istifadə etsin. Hər şeydən əvvəl yenidənqurmanın ilk illəri siyasi və iqtisadi strategiyası üçün eynən ziyanlı olan, partiyanın qoyduğu ölçüləri aşan şəxsi kəndli istixanalarının, parniklərin milis tərəfindən dağıdılması, əhalinin "qeyri-qanuni gəlirləri"nə qarşı mübarizə kimi cürbəcür "təşəbbüslər" Liqaçovun adıyla bağlıdır. Ən başlıcası isə Rusiyada "alkoqolizmin kökünü kəsmək" kimi avantür layihədir ki, gözlənildiyi kimi, tam biabırçılıq və iqtisadi fəlakətlə – araq mafiyasının meydana çıxması, gizli samoqon hasilatının artması, adamların kütləvi şəkildə zəhərlənməsi və dövlət büdcəsində təhlükəli "zədə" yaranması ilə nəticələnmişdir"[26].

Həmin "avantür layihə" üzərində bir qədər ətraflı dayanaq, çünki bilavasitə bizim respublikaya da təsir göstərmiş, Azərbaycanın xalq təsərrüfatına əvəzsiz ziyan vurmuş və kitabımızın qəhrəmanının olmazınca enerji və can yanğısı sərf etdiyi əməli kökündən baltalamışdır.

Hələ Y.Andropovun vaxtında Siyasi Büro, sərxoşluq və alkoqolizmə qarşı mübarizəyə yönəldiləcək MK və hökumət sənədləri paketinin işlənib hazırlanması üçün A.Pelşenin sədrliyilə komissiya yaratmışdı. Sonralar bu işə Siyasi Büro üzvü və Sov.İKP MK nəzdində Partiya Nəzarəti Komitəsinin sədri M.Solomentsev başçılıq etdi. 1984-cü ilin yaz aylarında, yəni artıq K.U.Çernenko dövründə, ölkədə kütləvi sərxoşluğun həqiqətən təşviş doğuran mənzərəsini açıqlayan analitik arayış tərtib edildi. Məsələn, həmin sənəddə göstərilirdi ki, 1983-cü ildə SSRİ-də xalis alkoqolun adambaşı istehlakı 8,3 litrə çatmış, bu da 1940-cı və 1950-ci illərin göstəricilərindən 4 dəfə, inqilabdan əvvəlki Rusiyada qeydə alınan səviyyədən təxminən 2,5 dəfə artıqdır. RSFSR-də bu göstərici daha da yüksək idi – 10,3 litr, Primorsk diyarında 12 litr, Kamçatkada – 14,5 litr, Saxalində az qala 17 litrə çatmışdı. Bu rəqəmlər sırasında samoqon, evdə hazırlanan şərab, texniki spirt və spirt tərkibli mayelərin istifadə olunması nəzərə alınmamışdı. Hesablamalar göstərirdi ki, ölkə əhalisinin spirtli içkilərə adambaşı xərcləri ildə 185 rubl təşkil edərək çörək, ət, süd, ət və süd məmulatlarına aid xərclərin cəmini üstələmişdir.

Ümumi nəticə ondan ibarət idi ki, sərxoşluğun və alkoqolizmin ölkədə yayılmasıyla bağlı yaranmış vəziyyət hansısa məhdud ölçülər götürməklə aradan qaldırıla bilməz. M.Solomentsevlə yanaşı, həmin analitik məktubu Sov.İKP MK katibləri M.Zimyanin, L.Kapitonov, Y.Liqaçov və N.Rıjkov imzalamışdılar.

Bu münasibətlə qəbul olunmuş qanun və qərarların səciyyəsinə 1985-ci ilin yazında cəmiyyətdə körüklənib qızışan köklü antialkoqol əhval-ruhiyyə önəmli təsir göstərmişdi. Sov.İKP Mərkəzi Komitəsinə o günlərdə ölkədə "quru qanun"unun tətbiq olunmasını tələb edən məktublar, kollektiv müraciətlər (bəzən minlərlə imza ilə) axın-axın gəlirdi.

Liqaçov – Solomentsev cütlüyü gur fəaliyyətə başladı. Təcili olaraq qərar layihələri hazırlandı.

"Qərarın yekun layihəsi Qorbaçovun apardığı Katibliyin müzakirəsinə çıxarılanda (mən hələ MK katibi işləyirdim), mənim tüklərim biz-biz oldu, – sonralar Nikolay Rıjkov xatırlayırdı. – Özü də tək mənim yox. Qərarın ana xətti elə əvvəlki kimi qaldı – hər hansı alkoqol içkisi istehsalının məcburi ixtisar edilməsi. Hətta günahsız-ziyansız pivə də siyahıya düşdü. Üstəlik, beşillik boyu nə vaxt nə qədər spirtli içkinin hazırlanmalı olduğu və nə vaxt istehsalın əslində sıfıra endirilməsi ilbəil cizgilənmişdi. Özü də bu maddə may ayında dərc edilən sənədə daxil edilmədi, – yəni məxfi qaldı.

Mən yenə etiraz etdim. Dedim ki, yoldaş Liqaçov və yoldaş Solomentsevin təklif etdikləri yolu düzgün hesab etmirəm, bir daha xatırlatdım ki, ölkəni birbaşa "quru qanun"un qəbul edilməsinə doğru çəkirlər, bu da çağdaş tarixdən məlum olduğu kimi, dünyada heç vaxt və heç yerdə kara gəlməyib; nəticədə samoqon çəkilməsinin xeyli artırılması gözlənilməlidir, çünki qənd ucuz olduğuna görə satışında qıtlıq başlayacaq və əvvəl-axır talon tətbiqi məcburiyyətində qalacağıq"[27].

Məsələ həqiqətən radikal şəkildə qoyulmuşdu: araq və xalq arasında "bormotuxa" adlanan cürbəcür spirt qatılmış çaxırların istehsalını yarısına qədər azaltmaq, sonra da tamamilə dayandırmaq nəzərdə tutulurdu. Likör-araq zavodlarında boşalmış istehsal vasitələri şirələr və spirtsiz içkilər buraxılmasına yönəldilməli idi. Azərbaycan, Gürcüstan və Moldaviyanın üzüm sahələrində çaxırlıq

meynələri süfrə növlərilə əvəz olunmalı, bu da yüz min hektarlarda meynələrin kökündən qoparılıb təzədən başqa üzüm növlərinin əkilməsi demək idi.

Sağlam həyat tərzi uğrunda mübarizə cəmiyyətinin yaradılması, maliyyələşdirilməsi və s. nəzərdə tutulurdu. Ardınca qərar layihəsi Siyasi Büronun iclasına çıxarıldı.

MK Siyasi Bürosunun 1985-ci il 4 aprel tarixli iclasının ilkin stenoramı ilə tanış olarkən, gördüm ki, büro üzvlərinin müzakirəsinə verilən təkliflər heç də hamılıqla birmənalı dəstəklənməmişdi. Belə ki, SSRİ maliyyə nazirinin müavini V.Dementsev bildirmişdi ki, "bir sıra məsələlər diqqətlə baxılmağı tələb edir ki, qərar hərtərəfli ölçülüb-biçilmiş və real olsun. Bu, o cümlədən spirtli içkilər istehsalı ixtisarının həcmləri, müddətləri məsələsinə aiddir". İştirak edənlərin diqqətini araq və üzüm şərabları istehsalının kəskin ixtisarının büdcədə milyardlarla ölçülən itkilərə gətirib çıxaracağına yönəldən (1986-cı ildə gəlirlər 4 milyard rubl, 1987-ci ildə – 7,5 milyard rubl, 1988-ci ildə – 11 milyard rubl azalmalı və s.) nazir müavini bu məsələnin bir də götür-qoy edilməsini xahiş etdi. Və M.Qorbaçovun əsəbi replikasına tuş gəldi:

– Sizin dediklərinizdə heç bir yeni şey yoxdur. Bizim hər birimizə məlumdur ki, əldə olan pulları ödəməyə heç nə yoxdur. Lakin siz xalqı içirtməkdən başqa bir şey təklif etmirsiniz. Odur ki, öz mülahizələrinizi müxtəsər söyləyin, siz Maliyyə Nazirliyində deyil, Siyasi Büronun iclasındasınız.

Ardınca söz alan SSRİ Dövlət Plan Komitəsi sədrinin birinci müavini L.Voronin araq və likör-araq məmulatının ilbəil 30 milyon dekalitr azaldılması əvəzinə daha ağlabatan rəqəmləri təklif etdi.

"Mən bildirmək istərdim ki, spirtli içkilər istehsalının belə ixtisarı həyata keçirilsə, əhalinin əlində olan pulları əmtəələşdirməyə heç nəyimiz qalmayacaq. Ona görə istərdik ki, 11-ci maddədə nəzərdə tutulan tədbirlər bir daha diqqətlə düşünülsün və daha real müddətlər göstərilsin.

Qorbaçov – Biz indiki miqdarda araq və "bormotuxa" istehsalını davam etdirsək, sərxoşluqla mübarizə baxımından heç nəyə nail olmayacağıq.

Voronin – Ancaq əks təqdirdə insanlar qəndi satın alaraq samoqon çəkəcəklər. Ötən il bu vəziyyət bizdən bir milyon ton əlavə qənd istehsal etməyi tələb etdi. Ümumiyyətlə, araq hasilatını ildə təxminən 10 milyon dekalitr azaltmaq real olardı. Odur ki, SSRİ Nazirlər Sovetinin qərar layihəsinin 11-ci maddəsi üzərində işləmək üçün möhlət verilməsini bir daha xahiş edirik.

Qorbaçov – Alkoqolizmə qarşı mübarizə məsələsinin məğzi araq istehsalının ixtisar edilməsidir. Daha bizim "sərxoş" büdcəmizə dözmək mümkün deyil".

Gördüyümüz kimi, yeni Baş katib artıq "atını dəhmərləmişdi". Zəhmətkeşləri "sağlamlaşdırma və ayıltdırma" ideyası Liqaçovun təhrikilə onu o qədər vəcdə gətirmişdi ki, iqtisadi hesablamalardan daha inandırıcı görünürdü. İ.Laptev xatırlayır ki, həmin vaxt bu niyyətlə alışıb yanan Y.Liqaçovla mübahisəyə girişməyə az adam cürət edərdi. "Bəs necə: Yeqor Kuzmiçə etiraz etməyin riskinə gedən az adam tapılardı, o atın belində, özü də ağ atın belində idi. Az məlum olan bir fakt gətirim: Sov.İKP MK qərarının layihəsinə viza qoymaqdan imtina etmiş, az qala Stalin dövründən maliyyə naziri vəzifəsində çalışan Qarbuzov dərhal istefaya çıxdı, SSRİ Dövlət Plan Komitəsi sədrinin birinci müavini həmin qərarla bağlı mübahisəyə girişməyə cəhd edərək az qala partbileti ilə vidalaşacaqdı".

Nikolay Rıjkovla söhbətdən:

"...Siyasi Büro ilk dəfədən qərarı qəbul etmədi. Ukrayna ayağa qalxdı. Yadımdadır, Şerbitski çıxış edirdi: "Nikolay İvanoviç, axı siz şaxtaçı ailəsindənsiniz... Yaxşı, sizin qohumlarınız, ata-babanız şaxtadan çıxıb pivə də içmirdilərmi?" Dedim: "Hökmən içirdilər. Bizlərdə heç vaxt şaxtaçının şaxtadan qalxıb bir-iki parç pivə içməsi qəbahət sayılmayıb. Axı, birincisi, orqanizmi susuzlaşıb, ikincisi, içalatını toz basmış olur". Həmin iclasda qərar baş tutmadı. Deyəsən, Qorbaçovun rəhbərliyilə komissiya yaradıldı. Əliyev də, mən də bu komissiyada idim.

Qanunu yenidən işlənməyə qaytardılar. Biz nə isə etməyə çalışdıq, hansısa düzəlişlər oldu. Yadımdadır, pivəyə aid güzəştə getdik, pivə qaldı. Sonra 1985-ci ilin 17 mayı gəlib çıxdı. Qərar qəbul edildi və sonra bunun nə ilə nəticələndiyini bilirsiniz".

Çaxır – araq məmulatı istehsalının aşağı salınması üzrə radikal ölçülərlə Heydər Əliyevin razılaşmamasını sonralar N.Rıjkov da "On təlatümlü il" kitabında xatırlayırdı:

"Bir neçə gündən sonra Siyasi Büronun iclası keçirildi. Burada "ağır artilleriya" dilə gəldi – Siyasi Büro üzvü N.A.Tixonov və onun birinci müavini Heydər Əliyev spirtli içkilər istehsalının belə kor-koranə endirilməsinin yolverilməz olduğunu sübut etməyə çalışırdılar. Eləcə də pivəni qorumaq istədilər. Amma nə fayda! Təzə Baş katib və onun antialkoqolçu silahdaşları, yeni liderin ətrafında yaranan ruhlanmanı girəvə bilib, "öldü var, döndü yoxdur" deyirdilər.

Nəticədə 1985-ci ilin mayından sentyabr ayınadək MK və SSRİ Nazirlər Sovetinin silsilə qərarları, SSRİ və RSFSR Ali Sovetləri Rəyasət Heyətlərinin dalbadal fərmanları çıxdı"[28].

İ.Laptevin fikrincə, antialkoqol kampaniyasına "ölkənin zəifləyən, həddən artıq gərginləşən, hərbiləşdirilmiş iqtisadiyyatına ən ağır zərbələrdən biri kimi dəyərləndirməkdən başqa qiymət vermək olmazdı. Bu zərbə köhnə zamanlardan "vurmaq" vərdişindən əl çəkə bilməyən minlərlə adamın ölümünə səbəb oldu. Bu zərbə sovet ticarətinin piştaxtalarını tar-mar edərək göstərdi ki, həmin piştaxtalarda səf-səf düzülmüş butulkaların arxasında daha heç nə yoxdur. Bu zərbə, əslində, güclə tənzimlənən pul dövriyyəsini pozdu, ölkə büdcəsini yarımçıq qoydu, xarici istiqrazlar siyasətini, qızıl-valyuta ehtiyatlarının satışını fəallaşdırmağa məcbur etdi. Siyasətdə səhvlər cinayətdən betərdir. Onlar çox vaxt bir növ təsiri ləngidilən bombaya çevrilir ki, bir il, bir əsr sonra da işə düşə bilər.

Bu hay-küylü kampaniyanın başlıca nəticəsi, zənnimcə, spirtli içkilərin gizli istehsal sisteminin vüsət tapması oldu ki, yəqin onilliklərlə kökünü kəsmək olmayacaq. Sadəcə desək, əzəldən bəri Rusiyada "diri" qalan samoqonçəkmə "kosmik" sürət aldı.

Minlərlə qəsəbə, kəndlər üzərində qıcıqlandırıcı göy tüstülər hörükləndi, fəndgir şəhərlilər təzə, unikal texnologiyalar, aparatlar qondardılar, onların qarşısında Ostap Bender öz "taburetovka"sı ilə paxıllıqdan yanıb tökülərdi, – və cecə qoxuyan çaylar ucsuz-bucaqsız ənginliklərimiz boyu axışdı. Maşa nənədən (ya Nyura, Darya, Ulyana nənədən) "yarım litr" ala bilməyən bədbəxt əfəllər isə cürbəcür zəqqutunu iyləməyə, həblərlə başını dumanlandırmağa öyrəşərək, narkomanların və "SPİD"in qabaqcıl dəstəsinə çevrildilər.

Dövlət üçün bu o demək idi ki... o vaxt hələ sanballı pullar milyard manatlarla "qara" kapitala çevrilir, heç yerdə qeydə alınmır, heç bir vergi ilə tənzimlənməyib xəlvətdə qalaraq bir neçə ildən sonra gizli iqtisadiyyatın maliyyə gücünə, rüşvətxorluğun yeminə, ticarəti, bütövlüklə xalq təsərrüfatını sarsıtmaq üçün zorlu alətə dönür"[29].

Xalqını düşünən bir rəhbər kimi Heydər Əliyev üçün antialkoqol kampaniyası böyük zərbə oldu; axı 70-ci illərin sonlarında L.Brejnevə və digər Kreml başçılarına respublikada şərabçılıq sahəsinə miqyaslı vəsait ayrılmasının məqsədəuyğunluğunu inandırmaq üçün nə qədər qüvvə sərf etmiş, diplomatik istedadına əl atmışdı. Hekayəmizin ikinci hissəsinin 7-ci fəslində biz Azərbaycanda üzümçülüyün inkişafı uğrunda mübarizə haqqında ətraflı bəhs etmişdik. Və indi, partiya və hökumət qərarına əsasən, on minlərlə hektarlıq meynəliklər məhv edilməli, şərabçılıq istehsalı yığışdırılmalı, zavodların əksəriyyəti şirə hasil edilməsinə yönəldilməli idi. Əlbəttə, belə bir vəziyyətdə o susa bilməzdi.

Aleksandr İvanovla söhbətdən:

"Antialkoqol kampaniyası ilə bağlı Heydər Əliyeviç Rıjkovla da sərt danışmışdı. Siyasi Büronun iclası Kremldə, üçüncü mərtəbədə aparılırdı, onların kabinetləri isə həmin korpusun ikinci mərtəbəsində idi. Onlar pilləkənlə aşağıya enərkən mübahisəni davam edirdilər. Biz – Rıjkovun mühafizə rəisi və mən də yanlarında idik. Eşidirdik ki, aralarında mübahisə gedir. Heydər Əliyeviç deyirdi: "Belə bir qərarı necə qəbul etmək olardı? Axı mən bu işin yolunda nə qədər əlləşib-vuruşmuşam, üzümçülüyü, şərabçılığı inkişaf etdirmişəm, belə qanunu qəbul etmək olardımı?" O, antialkoqol qanununun əleyhdarı idi və qanundan çox meynəliklərin qırılması, dağıdılması yandırırdı onu. Rıjkov isə cavab verir: "Nə olsun ki, siz səs vermədiyinizə görə mən də səs verməli deyildim? Axı bizim əlacımız yox idi!". Görünür, Rıjkov bu qanunun lehinə səs vermiş, Əliyev isə hiddətlənib onunla yüksək tonda, emosional danışırdı!"

Eduard Proxorenko ilə söhbətdən:

"O, həmişə prinsipial olmuşdur. Misal üçün, antialkoqol kampaniyasını götürək. Axı o vaxt Siyasi Büroda kampaniyanın əleyhinə çıxış etmək üçün gərək böyük cəsarət sahibi olaydın. Qərar qəbul edilib, şərtsiz həyata keçirilib reallaşdırılsa da, o, həmin kampaniyanın neqativ nəticələri haqqında məruzə etməkdən çəkinmirdi.

Qərar qəbul ediləndə biz bunun nəyə gətirib çıxaracağını anlayırdıq. Bunu Əliyev də gözəl başa düşürdü.

Yadımdadır, ÜİLKGİ Mərkəzi Komitəsinin katibi Mişin Əliyevin kabinetindən qəbul otağına çıxanda, alkoqol ticarəti ilə bağlı həmin problemlərlə məşğul olan əməkdaşlarımızdan biri onu qınadı:

– Siz nə edirsiniz? Axı bu büdcədə "dəlik" deməkdir, başa düşürsünüzmü?

– Bizə "piyan" büdcə lazım deyil!

Bu problemə çox dayaz yanaşma, həmin sıxma-boğmanın altdan-altdan samoqon çəkməklə, cürbəcür zəhrimarla bağlı saysız-hesabsız bəlalar doğuracağını anlamamaq idi. Elə də oldu, əlbəttə, bu, ciddi səhv idi.

Rus adamı normal alkoqollu içkilərə öyrəşmişdir. Alkoqol kasadlığı isə ciddi neqativ hallar törədirdi. Cürbəcür zəqqutun "iyləyənlər" peyda oldu, səhhətə ziyan vuran təhlükəli maddələrdən istifadə edilmə halları artdı. Heydər Əliyevin başçılığı ilə antialkoqol kampaniyası nəticələrinin problemləri müzakirə olunduğu bir müşavirə yadımdadır. Söyləyirdilər ki, adamlar dəhşətli məhsullar içməyə başlayıblar, onlar zəhərlənir, narkotik surroqatlara əl atırlar. Bu Heydər Əliyeviçi çox narahat edirdi, dəfələrlə daxili işlər naziri, səhiyyə nazirinin iştirakıyla müzakirə edilirdi. Yadımdadır, Yevgeni Çazov ona kimlərinsə iyi bilinməyəcək samoqon çəkmə üsulunu icad etdiyindən danışırdı.

İş absurd hərəkətlərə gətirib çıxarırdı. Leninqradda uşaq qidalanmasına aid kefiri də satışdan çıxarmışdılar ki, nə var – nə var, tərkibində cüzi miqdarda alkoqol aşkarlanıb. Özü də bu qadağa üç məşhur akademikin təkidilə qoyulubmuş.

Heydər Əliyeviçin layiqli haqqını vermək lazımdır – o, yaradıcı adamlara, alimlərə çox böyük hörmət-izzətlə yanaşırdı. Xatirimdədir, müşavirələrin birində həmin akademikləri nəzərdə tutaraq o deyirdi:

– O adamları inandırmaq lazımdır ki, özləri hər şeyi başa düşsünlər.

Mən onunçün həyatda müşahidə etdiyim bu çeşidli görüntülərdən, uzun növbələrdən, araq almaq üçün talonlar daxil olmaqla materiallar hazırlayır, həmin talonları alıb ona çatdırırdım. O, bütün bunları Siyasi Büroda göstərərək məruzə edir, həmkarlarına iradəli (yalnız inzibati təzyiqə əsaslanan – ***E.A.***) qərarlar qəbul edilməsinin məqsədəuyğun olmamasını sübut etməyə çalışırdı. Lakin bu cəhdlər lazımi anlaşılma tapmır və ona bəslənən münasibətə təsir göstərirdi. O, bütün bu vəziyyətdən məyus olurdu.

Bununla belə, həyat onun haqlı olduğunu təsdiqlədi".

Aşağıda İ.Laptevin "Vlast bez slavı ("Şöhrətsiz iqtidar") kitabından geniş sitat gətiririk. Bəzi parçaları ağrısız oxumaq olmur, illah da ki, o zaman SSRİ Ali Sovetinin Azərbaycandan seçilmiş deputatı olduğuna görə, İvan Dmitriyeviç respublikamızda şərabçılıq sahəsində yaranmış katastrofik vəziyyəti təsvir edir.

"İlahi, nələr baş verdi! Sov.İKP-nin hər nəyə qarşı desən, nəhəng mübarizə təcrübəsi vardı, amma nədənsə bu mübarizə çox vaxt orta əsrlərdən bəlli "ifritə ovu"na çevrilirdi. Kimsə axşamçağı qonaqlıqdan bir balaca kefli halda çıxırdısa, onu tutub sürükləyir, yoxlayır, rüsvay edirdilər. Binəva Sov.İKP üzvü olduqda, partiya biletindən əlini üzür, yaxud ən yaxşı halda, ciddi töhmət alırdı. Vəzifəli şəxsdirsə, "dalından dəyirdilər", bəzi şəhər müəssisələrinin başçıları vəzifəsindən səhərlər ağzından "iy", yəni içki iyi gəldiyinə görə işdən çıxarılmışdılar. Vilayətlərin birində – məncə, Kurqan vilayəti idi – hətta raykom katibi mübarizənin qurbanı olmuşdu!

Belə uğurlu "ov"ların hesabatları mərkəzə bəzən təcili rabitə ilə çatdırılırdı. Qəzetləri, zəhmətkeşlərin sağlamlaşdırılmasına yönəldilən sərt metodları az işıqlandırdıqlarına görə qınayırdılar... Kürsülərdən partiya və hökumətə xalqın adından, əsasən qadınlardan gələn təşəkkürlərə istinad edilir, "ərim ailəyə normal kişi kimi qayıtdı" səpkisində kövrək teleqramlar səsləndirilirdi.

Partiya – sovet sistemimizin törətdiyi möcüzələrdən biri də hər hansı təşəbbüsə, çağırışa, lap əbləhanə olsa da, qoşulub dəridən-qabıqdan çıxmağa hazır adamların mütləq peyda olması idi. Ona görə də, belə canfəşanlıq edənlərin sayəsində saysız-hesabsız "xalq düşmənləri" aşkar edilmişdi. Antialkoqol kampaniyasında da planı artıqlamasıyla yerinə yetirən "zərbəçilər" meydana çıxdı. Əgər qərarda "spirt qatılmış çaxırların kökü – açıq-aydın qeyri-real müddətdə – iki ilə kəsilməlidir" – yazılmışdısa, onlar "bir ilə!" – deyə öhdəlik götürürdülər. Araq həvəsinə bəzi yerlərdə əlüstü – satışın yasaqlanmasıyla – son qoyulurdu. Qərar şampan, "turş çaxır", pivədən yaz keçsə də, ən diribaş mübarizə fədailəri bunu Mərkəzi Komitənin natamam işi sayaraq özlərinin ayrı-ayrı yaşayış məntəqələrində tam "quru qanun" bəyan etdilər.

Partiya rəhbərliyi, ilk növbədə Sov.İKP MK Katibliyi mətbuatda kampaniyanın işıqlandırılmasına sayıqlıqla nəzarət edirdilər. Mən Azərbaycan şampan şərablarının yüksək keyfiyyəti haqqında "Şampan çilərtiləri" adlı bir yazı dərc etdirən kimi dərhal M.S.Solomentsev tərəfindən sərt danlağa məruz qaldım, o dedi ki, məhz şampandan alkoqolizm başlanır, mən də mühüm işə badalaq vururam. Samoqonçəkmənin baş alıb getməsi, toksikomaniyanın get-gedə geniş yayılması haqqında neqativ məlumat vermək də çox çətin idi: senzor buraxsa da, Yeqor Kuzmiç hər şeyə göz qoyur və "müvəqqəti kəm-kəsirlərin" şişirdilməsinə görə danlayıb deyirdi ki, bunlara təsadüf edilsə də, yalnız milisin passivliyi və yerli partiya kadrları tərəfindən "mübarizə"yə layiqincə əhəmiyyət verilməməsi ucbatındandır.

Eyni zamanda, bizlərdən, redaktorlardan kampaniyaya dəstək verən və Qorbaçova təşəkkür bildirən bütün oxucu məktublarının Sov.İKP Mərkəzi Komitəsinə ötürülməsi ərz olunurdu. Belə məktublar ilk çağlarda az deyildi, bəzən lətifələr, "çastuşka"lar misal gətirilir, "cızıq"dan çıxanları da vardı... Onlar katiblikdə, Siyasi Büroda səsləndirilir, yəni ki, baxın, xalq həyatının dərinliklərinə də sirayət edilib, əks-səda doğurulub. Amma get-gedə belə məktublar seyrəkləşirdi, hətta sərxoş ərlərindən cana gələn qadınlar da məktub yazmaqdan əl çəkdilər.

Buna baxmayaraq, mübarizə cəbhəsi genişlənir, itkilər də çoxalırdı. Tək likör-araq zavodları deyil, turş şərab hazırlayan zavodlar da dayandırılırdı. Üzüm məhsulunu təhvil verməyə yer tapılmır, cənub respublikalarda min tonlarla məhsul gün altında qalıb çürüyürdü. Bəlkə də hardasa, Sibirdəmi, Uraldamı üzüm, üzüm şərabları əlüstü satılardı, di gəl, heç kəs bu nemətin oralara daşınmasının qeydinə qalmamışdı. Üzümçülük təsərrüfatları pul-parasız qaldılar.

Qərara alındı ki, onlara çəkilən ziyanın əvəzinə onsuz da pozulmuş İttifaq büdcəsindən kompensasiya verilsin.

Azərbaycanın üç rayonunu SSRİ Ali Sovetində təmsil edən deputat kimi seçicilərin kollektiv məktubuna cavab olaraq respublikaya təyyarə ilə yollandım. Bir neçə şərabçılıq zavodlarında oldum. Orada baş verənlər kütləvi sərsəmlik kimi görünürdü. Üzüm plantasiyalarından dalbadal nəhəng "samosval"lar gəlir, üzümü qəbuledici bunkerlərə boşaldıb tələsik yenidən yüklənməyə qayıdırdılar. Üzümü yüksək məhsuldarlıqlı preslərlə əzib sıxırdılar, şirəsi hamıya yaxşı tanış olan üçlitrlik balonlara tökülürdü, bugün şirə aldığımız qabların o vaxt heç sorağı yox idi. Cecələri daşıyıb zavodların yaxınlığında çöllüyə tullayırdılar. Mal-qara yeminə qatmağa cəhd göstərsələr də, inəklər bundan Şukar babanın* toyuqları kimi keflənirdilər. Bu zavodlarda soyuducular nəzərdə tutulmamışdı, tələmtələsik anqara bənzər anbarlar quraşdırıb gün dəyməsin deyə yüz minlərlə şüşə bankaları oraya yerləşdirdilər. Faydası olmadı. Cənubun bürkülü havasında şirə tez qıcqırmağa başladı, balonlar bomba kimi, anbarları lərzəyə salaraq gurhagur partlayırdı. Zavod həyətlərinə şüşə çilikləri səpələnir, divar, qapı altından bulanıq çəhrayı maye axır, ürəkbulandırıcı iy yayılırdı, işçilər göz yaşı tökürdü. Onlar L.İ.Brejnevin Azərbaycan Respublikasının üzüm və şərab istehsalını mümkünsə artırması barədə xahişini unutmamışdılar. Azərbaycanlılar özləri şərab içən deyil, məlum olduğu kimi, Quran bunu rəva bilmir, lakin Brejnevin göstərişinə əməl edərək, SSRİ-də ən böyük üzümçülük təsərrüfatı massivi yaratdılar – iki milyondan artıq hektar. Bu sırada ixrac edilən növlərin plantasiyaları da vardı, hər il yalnız "Rkatsiteli" növünün daşınmasına bir neçə qatar ayrılırdı. Bunun respublika əhalisinə hansı zəhmətin bahasına başa gəldiyi aydındır. İndi isə neçə illik zəhmətin bəhrəsinin başına ağlasığmaz oyun açırdılar.

* M.Şoloxovun "Oyanmış torpaq" romanının personajı.

Amma hələ bununla da iş bitmədi. Əsil bəla onda başladı ki, Moldaviya, Gürcüstan, Azərbaycan, elə Krım üzümlüklərinin üstünə balta endirildi. Heç bir güzəşt, heç bir istisna olmadan! Görəsən, sahəsi vur-tut 44 hektardan ibarət olan Krımın nadir "Qara doktor" növü salamat qalıbmı, bilmirəm. Onun da məhv edilməli olduğunu bilən Krımın ən ünlü şərabçısı, bütün ömrünü həsr etdiyi əməlin başına gətirilən bəlaya dözməyib intihar etmişdi...

Müttəfiq respublika partiyalarının Mərkəzi Komitələrinin birinci katibləri – K.M.Bağırov (Azərbaycan), D.İ.Patiaşvili (Gürcüstan), S.K.Qrossu (Moldaviya) dəfələrlə Sov.İKP MK Katibliyinin hüzuruna çağırılırdı. Respublika hökumətləri, adətincə, nəzərə alınmırdı. Katiblərin qarşısında eyni sual qoyulurdu: "Nə vaxta qədər sizdə üzümün çaxırlıq növləri süfrə sortlarını üstələyəcəkdir?".

Katiblər dil-ağız etsələr də ki, meynə yazda əkib, payızda torpağı qazıb məhsul aldığın kartof deyil, həssas, nazı çəkilən bitkidir, onilliklər boyu əlləşməlisən, filan-filan işləri görməlisən, hədər idi. Dirənirdilər: "nə vaxta qədər?" Katiblər başqa dəlilə əl atdılar: köhnə, çaxırlıq meynənin qazıb qoparıb yerinə təzəsini, süfrə növünü əkmək zülümdür, nəhəng vəsait tələb edən işdir (qeyd edim ki, ölkədə süfrə növlərinin heç o qədər şitili də yox idi). Vəsaitmi? Hə, lazımdırsa, neynək... Nikolay İvanoviç, axtarın, tapın! Yazıq N.İ.Rıjkov dilə gətirəndə ki, pul yoxdur, yenə də veclərinə almadılar, – Liqaçov sərxoşluq və alkoqolizm üzərində qələbəyə doğru atını çapırdı.

İki-üç həftə keçəndən sonra, MK katibliyinin növbəti iclasında büdcədən, səhv etmirəmsə, 170 milyon rubl ayrıldı. Əsas hissə Azərbaycanın payına düşdü, Gürcüstan sanballı məbləğ aldı, Moldaviyaya 30 milyon çatdı. Üstəlik, S.K.Qrossuya töhmət, özü də şiddətlisindən, verdilər, tək ona görə ki, Moldaviyanın katibi yenə də zarımağa başladı ki, axı respublikada becərilən növlərin tayı-bərabəri yoxdur, axı bu sərvətdir. Hə, sərvətdirmi? Onda al bu töhməti və hamısını kökündən qır! Ayrılan vəsaitdən də heyfsilənmirdilər. 170 milyon nədir ki, sağlam həyat tərzi uğrunda mübarizənin ilk ilində itkilərin miqdarı 70–80 milyard rubl məbləğində hesablanan yerdə! M.S.Qorbaçovun nüfuzu üçün itkilər də eyni nisbətdə hesablanmalıdır"[30].

N.Rıjkov öz kitabında belə rəqəmləri göstərir: 1955-ci ildən başlayaraq 30 il ərzində üzümçülük sahələri üçqat artaraq 1,4 milyon hektara çatmışdır. Sərxoşluğa qarşı mübarizə bayrağı altında üzümlüklərə və şərab zavodlarına hücum başlandı. 1985-ci ildən 1988-ci ilədək, üç ilə ölkədə meynəliklərin sahəsi üçdə bir qismində azalmış, halbuki, hətta Böyük Vətən müharibəsi illərində 20 faiz itirilmişdi.

Təxminən 1000 zavod bağlanmış, ya başqa istehsalata keçirilmişdi.

Azərbaycana səfərindən qayıdan İ.Laptev şərabçılıq rayonlarında yaranmış vəziyyəti ətraflı şəkildə Heydər Əliyevə danışanda müsahibinin hətta sifəti qaralır, uzun müddət özünə gələ bilmir... Ümumiyyətlə, bu naşı və amansız antialkoqol kampaniyası Heydər Əliyevin qəlbində acı izlər qoydu, hələ təzə Baş katib və onun "zirək" züytutanlarıyla xeyli sərinləşən münasibətləri demirik...

Nikolay Rıjkovla söhbətdən:

"Bəzən vəziyyət normal məntiq baxımından çətin izah oluna biləcək absurda gətirib çıxarırdı. Hələ Heydər Əliyev mənim birinci müavinim olanda bir məsələ üzrə onunla təcili məsləhətləşməli idim. Daxili selektor xəttilə mən ondan yanıma gəlməsini xahiş etdim. O, cavabında üzr istəyib yarım saat sonra, apardığı müşavirə bitən kimi gələcəyinə icazə verməyimi xahiş etdi. Yarım saat keçdi, gəldi, maraqlandım ki, hansı təcili problemləri müzakirə edirdi. O deyəndə ki, MK-nın tapşırığıyla kefirin (!) alkoqol içki olub-olmamasını aydınlaşdırırmışlar, heyrətə gəldim. "Liqaçov, – dedi, – Qorbaçovun adından namə göndərmişdi". Ayıqlıq tərəfdan olan bir akademik vardı, Uqarov, ya Uqlov, soyadı yadımda deyil. Deyirlər, o, vaxtilə var-yoxunu içkiyə xərcləyib, axırda zahid olubmuş. Və artıq ikinci məktub göndərib ki, kefir alkoqollu içkidir.

Mən irad tutanda ki cəfəng şeylərlə deyil, ciddi məsələlərlə məşğul olmaq lazımdır, o dedi:

– Özüm də başa düşürəm ki, bu, səfehlikdir. Amma neyləyəsən, MK-nın tapşırığı var, şöbələri də məni rahat oturmağa qoymur. Yeri gəlmişkən, bu həmin məsələ üzrə ikinci tapşırıqdır.

Əliyevə – Siyasi Büro üzvünə belə bir göstərişi yalnız Qorbaçov, yaxud "ikinci" katib verə bilərdi. Odur ki, biz bütün bu həngaməyə son qoymayınca, onun da payına çox başağrısı düşürdü.

Partiya kadrları ilə Liqaçov məşğul olurdu. Solomentsev isə partiyanın başkəsən qılıncıdır. Tutalım ki, bu ayın əvvəlindən 0,2% artıq konyak satılmışdır, iş bitdi, Ticarət Nazirliyinin başı vurulur. Siyasi Büro üzvlərinə dəyməsə də, əli çatmasa da, buna baxmayaraq, onların başağrısı çox olur".

Yenə də lütfkar İvan Dmitriyeviç Laptevin kitabından geniş sitat gətirməkdən vaz keçə bilmirəm:

"Beynəlxalq münasibətlər sahəsində antialkoqol kampaniyasının "uğur"ları daha da təsiredici oldu. Ram ola bilməyən Yeqor Kuzmiç diplomatik qəbulları, səfərləri, ayaqüstü fursətləri və ziyafətləri diqqətsiz qoya bilməzdi. "Dünya Kremldən başlanır və Moskva ilə ayaqlaşmaqla bəxtəvər olacaq" sarsılmaz qayəsindən çıxış edərək, bilmirəm kimin icad etdiyi görkəmli konsepsiyanı car etdi: bizə təşrif buyuran hər kəs prinsiplərimizə hörmət bəsləməlidir. Yəni ki, biz də səfərə çıxanda həmin ölkələrin qanunlarıyla davranırıq. Qoy onlar da sərhədlərimizi keçəndə bizim qanunlarımızla yaşasınlar. Bu konsepsiya həqiqətən də "tarixi" məna daşıyırdı, çünki o vaxtlar, yenidənqurmanın ilk illərində SSRİ-yə, Moskvaya dəstə-dəstə gələn rəsmi nümayəndə heyətləri başçılarının, prezidentlərin, digər ali rəhbərlərin səfərlərini nəzərdə tuturdu.

Taleyin oyununa bax ki, bu konsepsiyanın ilk qurbanı əhalisinin adambaşı içilən çaxırın miqdarına görə dünyada lider olan və ümumiyyətlə, süfrəsi şərabsız keçməyən (hərçənd, xalis alkoqolla hesablansa bizimkilərə tay ola bilməyən!) ölkənin prezidenti, SSRİ-yə rəsmi səfər edən fransız Mitteran oldu. M.S.Qorbaçov onun şərəfinə Kremlin "Qranovitaya palata"sında ziyafət təşkil etmişdi.

Süfrə belə naharların adi standartları üzrə düzəldilmişdi: veriləcək təamların sayına görə 5-6 çəngəl-bıçaq, 5 büllur qab – araq üçün kiçik qədəh, iki dənə daha irisi – ağ və qırmızı çaxır üçün, uzunsov nazik bokal – şampan, fujer – su üçün. Mülki geyimli ofisiantlar qədəhlərə ağ çaxır əvəzinə üzüm şirəsi, qırmızı çaxır əvəzinə – tomat şirəsi süzürdülər...

Şərab butulkalarından şirə (!) süzülməsi vəziyyətin gülünclüyünü daha da artırırdı.

Ziyafət Qorbaçovun nitqilə başlandı və sonunda o, yüksək qonağın sağlığına tomat şirəsi doldurulmuş badə qaldırdı. Fransua Mitteran da eynilə.

Mən ondan beş-altı addımlıqda, bir qədər çəpəki səmtdə əyləşmişdim və Fransa prezidentinin quru dərisi tarımlanmış sifətini (Mitteran artıq ağır xəstəlik keçirirdi) aydın görürdüm. "Qırmızı şərab"ı tamsınanda qaşları azca tərpəşdi. Ofisiant əlüstü onun badəsinə həmin şirədən süzüb tamamladı.

Ziyafət iştirakçılarının hamısında Mitteranın ruscaya çevrilmiş "ziyafət" nitqinin mətni vardı. Nitqi yetərincə kəskin idi; o vaxt A.D.Saxarov hələ Qorki şəhərində, indiki Nijni Novqorodda idi və qonaq dünya ictimaiyyətinin böyük haqsevənin sürgündən qaytarılması və bütün siyasi məhbusların azad olunması haqqında tələbini çatdırırdı. Təkrar edirəm, nitq yetərincə kəskin idi, ancaq bizim fransızcanı bilən "beynəlxalqçıların" sifətləri turşuduğundan duyulurdu ki, Mitteran hansısa yeni, daha sərt kəlamlar səsləndirir. Doğrudan da, sonralar məlum olacaq ki, o, əvvəlcədən paylanan mətndən uzaqlaşaraq mövqeyini daha da kəskinləşdiribmiş.

Əminəm ki, sadəcə tomat şirəsi fransızın yamanca xətrinə dəymişdi. Amma diplomatik təmkin də öz yerində qalırdı, Fransa prezidenti Qorbaçovun şərəfinə sağlıq deyib içərisində tomat şirəsi olan qədəhini qaldırdı... Bütün dəvət olunanlar möhkəmcə "vurdular". Sonra ağ şərab üçün nəzərdə tutulmuş qədəhlərə üzüm şirəsi süzüldü. Məclis kefdə idi...

Belə ziyafətlər dalbadal verilir, qonaqlarımızı heyrətə gətirirdi. Yadımdadır, hətta yaxşı tanıdığım və rusca gözəl danışan Hindistan səfiri T.N.Kaül Hindistanın baş naziri Raciv Qandinin şərəfinə verilən ziyafətdə mənə deyirdi ki, sərxoşluğa qarşı mübarizəmizi hamı dəstəkləsə də, heç kim başa düşmür"[51].

Yalnız üç il keçəndən sonra, "yaşıl ilan"a qarşı mübarizənin perspektivsiz olduğunu dərk edən antialkoqolçular tədricən mövqelərindən geriyə çəkilməyə başladılar.

N.Rıjkov öz kitabında bu məsələnin yenidən gündəmə qoyulduğu MK Siyasi Bürosunun "tarixi" iclası haqqında söz açır:

"Siyasi Büroda işlədiyim beş il ərzində mən sakit keçən, ya çaxnaşmalı, ya gülünc olan müxtəlif iclaslarda iştirak etmişdim. Amma bu dəfəki həmin çeşidlərdən heç birinə oxşamırdı. Qorbaçov mənim təklif etdiyim məsələni gündəmin axırına qoyaraq görünür, ümid bəsləyirdi ki, iclasın sonunda hamı yorulacaq və məsələnin müzakirəsi başdansovdu keçəcək. Lakin hər şey başqa cür oldu. Mən öz məlumat – məruzəmdə yolverilməz inzibatçılıq üzündən uğursuzluğa uğramış, düşünülüb daşınmamış antialkoqol kampaniyasını dayandırmağı, Partiya Nəzarəti Komitəsində müxtəlif səviyyəli rəhbərləri sıxma-boğmaya salmağa son qoymağı, işçiləri buna görə cəzalandırmaqdan əl çəkməyi tələb etdim. Mən deyirdim ki, insanlara mənəvi zərbə, iqtisadiyyata isə böyük ziyan vurulub və Nazirlər Soveti indən belə spirtli içkiləri istehsal və satış həcminə müdaxilə edilməsinə yol verməyəcək.

Mənim mövqeyimi inadla və israrla V.İ.Vorotnikov, L.N.Zaykov, N.N.Slyunkov, V.P.Nikonov müdafiə etdilər. Biz, demək olar ki, antialkoqol kampaniyasının fəallarını amansız tənqid atəşinə tutduq, xalqın, yerli rəhbərlərin başına oyun açmaqdan təxirə salınmadan əl çəkməyi təkidlə tələb etdik.

Artıq dünyasını dəyişmiş Viktor Petroviç Nikonovun çıxışını unutmayacam. O, bizimlə qarşı-qarşıya oturmuş Liqaçov və Solomentsevin ünvanına üzümçülüyün yerlə yeksan edilməsinə görə qəzəbli ittihamlar yağdırırdı.

Liqaçovla Solomentsev, öz növbəsində mövqelərini vəcdlə müdafiə edir, bizi partiyanın qəbul etdiyi qərarlardan yayınmaqda günahlandırırdılar. Siyasi Büronun uzun iclas masasının ətrafında oturanlar açıq-aydın iki düşərgəyə bölünmüşdülər. Müzakirə çığır-bağıra, açıq təhqirlərə, şəxsi atışmalara çevrildi. Bizim opponentlər hirsindən lap tir-tir əsirdilər, az qala əlbəyaxa tutaşacaqdılar. Ənənəvi olaraq, lal-dinməz qalan "bataqlıq" da vardı. Amma Qorbaçovun əksəriyyəti dəstəkləməkdən başqa əlacı qalmırdı.

1988-ci il sentyabrın 10-da şənbə günündə Nazirlər Sovetinin 1989-cu ilin plan layihəsinə baxılan iclası keçirildi, orada alkoqol, yaxud antialkoqol mövzusuna da toxunuldu. Mən hökumətə Siyasi Büronun qərarı barədə məlumat verdim və Nazirlər Soveti ölkənin alkoqol itkilərinə real tələbatını müəyyənləşdirib onların istehsalının təmin edilməsini tapşırdı. Beləliklə, həmin gün üç il davam etmiş "tarixi alkoqol kampaniyası" sona yetdi"[32].

Sərxoşluğa qarşı mübarizənin uğursuzluğu, güman ki, "yenidənqurmaçı"ların ilk məğlubiyyəti oldu. Bu da yeni rəhbərliyin səriştəli olmasına ciddi şübhələr doğurdu, bugünümüzün təbirincə, M.Qorbaçova ümumxalq etimadının reytinqini aşağı saldı. Hərçənd, Qorbaçov burada da özünü itirmədi, fəndgirliklə ictimai narazılığı, Siyasi Büro və hökumət tərəfindən qəbul edilən antialkoqol qərar və qanunlarının əsas havadarı və təşəbbüskarı kimi Liqaçova doğru yönəltdi. Bununla belə, bütövlükdə həmin görünməmiş əməliyyat bütün partiya-dövlət rəhbərliyinin nüfuzuna xələl gətirdi.

Burada istər-istəməz V.Çernomırdinin "İstədik daha yaxşı olsun, gördük həmin şey oldu..." məşhur kəlamı yada düşür.

"Ölkədə onun böyük nüfuzu vardı"

M.Qorbaçov hakimiyyəti dövründə də Heydər Əliyev fəal olaraq ölkə boyu işgüzar səfərlərə çıxır, partiya-hökumət nümayəndə heyətlərinə başçılıq edərək xaricə yollanırdı. Onun hər bir səfəri mərkəzi mətbuatda ətraflı işıqlandırılır, getdiyi yerlərdə isə ali partiya elitasının başqa təmsilçilərinə əsla bənzəməyən bu qəribə insanı uzun zaman xatırlayırdılar.

1985-ci il iyunun 21–23-də Heydər Əliyevin Kazan istiqamətində dəmiryol magistralı boyu işgüzar səfəri oldu. SİTA-nın iyunun 24-də bu barədə mərkəzi qəzetlərdə dərc olunmuş məlumatında deyilirdi: "Vladimir vilayətinin Murom şəhərində Heydər Əliyev Yolötürücüləri zavodunda rekonstruksiya və genişlənmə işlərinin gedişatı ilə tanış oldu. İşlər yekunlaşandan sonra müəssisə sahə üzrə qatarların təhlükəsizliyinə və sürətinə böyük təsir göstərən yol ötürücülərinin ən böyük istehsalçısı olacaqdır. Ölkənin polad magistrallarının bu məhsula böyük ehtiyacı vardır, lakin Murom zavodunun ikinci növbəsinin tikinti müddəti dəfələrlə pozulmuşdur. H.Ə.Əliyevin keçirdiyi müşavirədə yaranmış vəziyyətin düzəldil-

məsi üçün konkret tədbirlər müəyyən olundu...

Heydər Əliyev ritmik işin təmin olunması və bütün istiqamət boyu daşınmaların həcminin artırılmasına yönəlmiş Moskva–Kazan–Sverdlovsk xəttinin elektrikləşdirilməsi məsələsinə böyük diqqət yetirdi. O, Arzamas dəmiryol qovşağında və Qorki vilayətinin Bobılskaya stansiyasında, Kazan yaxınlığındakı Yudino tərtibat stansiyasında və deposunda oldu, dəmiryolçu fəhlələrlə söhbət etdi, əmək və məişət şəraiti ilə maraqlandı. Az qala min beş yüz kilometr uzanmış tikintidə işlərin vəziyyəti Kazanda keçən müşavirədə təhlil olundu. Heydər Əliyev həmçinin Volqa üzərindən avtomobil körpüsünün tikintisində və Kazan çay limanında oldu".

Bundan əlavə, səfər zamanı Heydər Əliyev xalq istehlak malları istehsalının perspektivləri, keyfiyyətinin yüksəldilməsi ilə maraqlandı. O, Muromda "Krasnıy luç" Pambıq – Parça kombinatında və Orconikidze adına zavodda, Tatarıstan Xəz birliyində oldu, Kazanın mağaza və bazarlarını gəzdi. O, V.İ.Ulyanov – Lenin adına Kazan Dövlət Universitetinin professor – müəllim heyəti ilə görüşdü və ali məktəb sisteminin təkmilləşdirilməsi yolları, ali məktəblərin elmi-texniki potensialının səmərəliliyinin artırılması barədə söhbət apardı. Sonra Murom və Kazanın partiya-sovet aktivi ilə görüşlər oldu.

1985-ci il noyabrın 14–17-də Heydər Əliyev Kurqanda olmuşdur. O, Cənub – Ural dəmir yolunun Kurqan qovşağının işilə tanış olmuş, eyni adlı stansiyada, lokomotiv deposunda olmuş, İnqilab və Əmək Şöhrəti muzeyində veteranlarla, dəmiryolçular yaşadığı massivin sakinlərilə görüşmüş, Lenin adına Maşınqayırma zavoduna baş çəkmiş, xalq istehlakı malları sərgisinə getmiş və orada Kurqan sakinləri ilə söhbətləşmişdir.

Heydər Əliyev "Sintez" adlanan tibbi maddə və məmulat kombinatına, həmçinin Kurqan Eksperimental və Klinik Ortopediya və Travmotologiya Elmi-Tədqiqat İnstitutuna təşrif buyurmuş, əfsanəvi təbib G.İlizarovla tanış olmuşdur. Səfərin sonunda Heydər Əliyev Kurqan Vilayət Partiya Komitəsində müşavirə keçirmiş və Kurqan dəmiryol qovşağının hesabat-seçki partiya konfransında iştirak etmişdir.

1986-cı il iyunun 5–7-də Heydər Əliyev Çuvaşiya MSSR-də oldu. Bu dövrdə ona sosial siyasət məsələləri, xalq istehlakı məhsullarının kompleks inkişafı proqramının gedişi ilə sıx məşğul olmaq lazım gəlirdi, ona görə də o, xalq üçün məhsul istehsal edən müəssisələrdə olmağı, mövcud problemlərlə yerində tanış olmağı zəruri hesab edirdi.

İyunun 7-də Heydər Əliyev Çeboksarı Pambıq–Parça kombinatında Çuvaşiya yüngül sənaye işçiləri aktivinin iclasında iştirak etdi.

Aktivdə çıxış edən Heydər Əliyev məlumat verdi ki, yanvarın 1-dən bütün yüngül sənaye müəssisələri tam təsərrüfat hesabı və özünüdoğrultma şərtlərinə keçiriləcəkdir. Bununla əlaqədar o, diqqəti bir sıra problemlərə cəlb etdi: zavod və fabriklərin təchizat vasitələrinin ləng yeniləşdirilməsi, "mühüm xalq təsərrüfatı sahəsini yeni ideyalara həsrət qoymuş" sahə elmi müəssisələrinin, Heydər Əliyevin obrazlı ifadə etdiyi kimi, "xroniki qısırlığı", bir çox yüngül sənaye məhsullarının aşağı keyfiyyəti. Onun çıxışı həmişə olduğu kimi, faktlarla, ümumiyyətlə yüngül sənayedəki, o cümlədən Çeboksarı müəssisələrindəki vəziyyətin dərin, işin mahiyyətinə sirayət edən təhlili ilə zəngin idi.

Heydər Əliyev məhsulun keyfiyyət məsələsini belə şərh etdi: "Bəli, bu gün biz artıq paltarı olanları geyindirməli, ayaqqabısı olanları ayaqqabı ilə təmin etməli oluruq. Ümumi mədəniyyətin artması, moda sahəsində məlumatın olması, dizayn, gözəllik, rahatlıq barədə yeni düşüncənin yaranması səbəbindən bizim yüngül sənayemiz xaricdəki mal istehsalçıları ilə çətin yarışa girməli olur. Gizli deyil ki, hələlik alıcılar çox vaxt "firma" nişanlı xarici mallara üstünlük verirlər. Bəs bizim sovet firmalarının, eləcə də səlahiyyətli nümayəndələri bu zalda toplaşanların professional şərəf–ləyaqəti haradadır? Keyfiyyət ətrafında söhbətdən nəinki tələbatın ardınca gedə bilən, həm də ağlabatan istəkləri formalaşdıran, yaxşı zövq, istehlak mədəniyyəti tərbiyə etməklə insanların arzularını qabaqlayan savadlı iqtisadi fəaliyyətə keçək".

Heydər Əliyev təəssüflə qeyd edir ki, üç il bundan qabaq qəbul edilmiş "Əmək kollektivləri haqqında" Qanun pis işləyir, müəssisə rəhbərləri köhnə üsullarla rəhbərlik edirlər, kollektivlər isə təcrü-

bədə qanunun onlara verdiyi hüquqlardan istifadə etmirlər.

Partaktivdə Heydər Əliyev öz sevimli, nəhayət ki, ümumittifaq səviyyəsində də müzakirə olunmağa başlayan mövzuya toxunmağı unutmadı – zəhmətsiz gəlirlərlə mübarizə mövzusuna: "Rüşvətxorların, oğruların, möhtəkirlərin, cəmiyyət hesabına varlananların ətrafında ümumi nifrət atmosferi yaratmaq, onların cəzanın labüd olmasını bilmələri əmək kollektivinin borcu və hüququdur" ("İzvestiya", 7 iyun 1986-cı il).

Kombinatda olarkən Heydər Əliyev bütün sexləri gəzdi, fəhlə və mütəxəssislərlə xeyli söhbət etdi, Corab–Trikotaj fabrikinin qarşısında isə onu yüzlərlə çeboksarlı qarşıladı. İşçilərin əmək və məişət şəraiti, gələcək perspektivlər, ölkədəki vəziyyət barədə səmimi söhbət getdi.

"Tekstilmaş" istehsalat birliyində Heydər Əliyev zavodun muzeyinə, kitabxanasına, İdman sarayına baş çəkdi, fəhlələrə göstərilən məişət xidmətinin təşkili ilə tanış oldu. Eksperimental və yığma sexlərində, əsas konveyerdə buraxılan və mənimsənilməyə hazırlanan məhsullarla tanış oldu. Nazirlər Soveti sədrinin birinci müavini həmçinin, "Çeboksarets" mağazasında, şəhərin digər mağazalarında, balneoloji palçıq müalicəxanasında oldu. Şöhrət abidəsinin önünə əklil qoydu, Qələbə xiyabanında ağac əkdi. Yekunda Siyasi Maarif Evində vilayət partiya-təsərrüfat fəalları yığıncağı keçirdi.

1987-ci il martın 15-dən 18-nə kimi Heydər Əliyev Volqoqrad vilayətində oldu, zəhmətkeşlərlə bir sıra görüşlər keçirdi. O, Kamışinsk Pambıq–Parça kombinatında, Corab–Trikotaj və Ayaqqabı fabriklərində, Volqoqrad Traktor zavodunda oldu, Mərkəzi bazarı, mağazaları, ictimai iaşə müəssisələrini gəzdi. Təcili tibbi yardım klinik xəstəxanasının kollektivi ilə söhbət etdi, M.Qorki adına dəmiryol stansiyasında oldu, çay vağzalı kompleksinə baxdı, yolunun bir hissəsi yerin altı ilə keçən sürətli tramvayla gəzintiyə çıxdı.

4 saylı internat məktəbin müəllim və şagirdləri ilə görüşdü, orada yaradılmış Döyüş və Əmək Şöhrəti muzeyinə, eləcə də maşınqayıranların tikdiyi uşaq kombinatına, uşaq bağçası və körpələr evinə baş çəkdi.

Politexnik institutunda ali məktəb rəhbərləri ilə ali təhsilin yenidən qurulması problemlərini müzakirə etdi.

Vilayətin partiya, sovet və təsərrüfat fəalları ilə görüşdü. Görüşdə yenidənqurmanın, Sov.İKP MK yanvar (1987-ci il) Plenumunun qərarları işığında sürətləndirmə strategiyasının təcrübədə həyata keçirilməsinin gedişinə nəzər yetirildi.

Həlak olmuş döyüşçülər meydanında Böyük Vətən və vətəndaş müharibələri illərində Volqa istehkamı müdafiəçilərinin qardaşlıq məzarına əklil qoydu, Stalinqrad döyüşü qəhrəmanlarına Mamayev Kurqanda qoyulmuş memorial ansamblı ziyarət edib, "Stalinqrad döyüşü" muzey – panoramına baxdı.

Martın 17-də Heydər Əliyev Volqoqradda yüngül sənaye, xalq istehlakı malları istehsal edən digər sahələrin müəssisələri, ticarət və xidmət sahəsi işçilərinin fəallar yığıncağını keçirdi. Yığıncaqda XXVII qurultayın, eləcə də Sov.İKP MK yanvar (1987-ci il) Plenumunun əhalinin xalq tələbatı malları və xidmətlərlə təminatının daha da yaxşılaşdırılması tələblərinin yerinə yetirilməsi üzrə vəzifələri müzakirə olundu.

Heydər Əliyevin aktivdə çıxışının şərhi "Pravda" və "İzvestiya" qəzetlərində dərc olundu. Heydər Əliyev vilayətdə yüngül sənaye sahəsindəki vəziyyəti müasir tələblər baxımından təhlil etdi, xüsusilə də sosial-mədəni sahədə həll olunmamış məsələləri qeyd etdi. Onun çıxışında dövlət müəssisəsi haqqında Qanunda əksini tapmış əhaliyə müasir xidmət sahəsinin inkişaf etdirilməsi problemi, yeni təsərrüfatçılıq üsullarının məğzi hərtərəfli nəzərdən keçirildi.

Bir qayda olaraq onunla birgə ölkə boyu səfərlərə çıxan köməkçisi **Eduard Proxorenko** mənimlə söhbətində xatırlayırdı:

"Bu səfərlər, yerlərdə nələr baş verdiyini yaxından duymaq zərurəti ilə bağlı idi. Əliyevi buna məcbur edən yox idi. O özü vəziyyətlə bilavasitə tanış olmaq məqsədilə səfərləri planlaşdırırdı.

Səfərlərlə bağlı televiziyada məlumat verilirdi. Bəzən bu 15-20 saniyəlik cüzi materiallar olsa da, önəm daşıyırdı. Onun çıxışlarından hansısa sitatlar gətirilirdi. O, həmin materialları çox diqqətlə izləyir, hər şeyin düzgün əks edilməsinə fikir verirdi.

Əliyev şəxsiyyətinin nüfuzunu Volqoqrad Traktor zavoduna səfəri də göstərir. Mən həyətə gəlmişdim: küçələrə axın-axın camaat çıxmışdı, az qala avtomobili aşıracaqdılar. Mühafizəçilər təşvişə düşmüşdülər. Heydər Əliyeviç isə maşından çıxdı, insanlar ətrafına

tökülüşdülər. Biz qorxduq: iraq olsun, izdihamın içində əzilə bilərdi. Bu, sadə insanların adicə marağı deyil, şəxsiyyətlə ünsiyyətdə olmaq arzusu idi. **Əlbəttə, onun ölkədə böyük avtoriteti vardı. Düşünürəm ki, Rıjkovun belə nüfuzu yox idi** (seçmə bizimdir – *E.Ə.*).

Heydər Əliyeviçi səciyyələndirən daha bir epizod, daha bir cəhət. Məncə, bu, Volqoqradda baş vermişdi. Təbii ki, onun gəlişinə hazırlaşmışdılar. Həmişəki kimi, müəssisələrə baş çəkmə, problemlər. Volqoqrada gəlib hava limanından birbaşa dəmir yoluna üz qoyduq. Orada problemlər vardı, elə yerindəcə konkret baxılırdı.

Ardınca Kamışinə, Pambıq Parça Kombinatına yollandıq. Oraya Əliyevin gəlişinin sorağı çatmış, camaat yola çıxmışdı. Söhbətə başladılar. Onların çörək, ərzaq təminatı ilə bağlı problemləri vardı. Əliyev həmişə xalqla söhbətləşir, hamını dinləyirdi. Məlum oldu ki, hansısa yerli "çoxbilmişlər" camaata tərəvəz becərməyi qadağan etmişlər. Halbuki, buralar pomidor diyarı idi. Məsələ yerindəcə, əlüstü həll olundu. Və bəzi yerli məmurlar da özbaşınalığa görə möhkəm "paylarını" aldılar.

Gəlib çatdıq Kamışinə. Heydər Əliyeviç çıxışına çox ciddi hazırlaşır, söyləyəcəyi sözlərə çox diqqətlə yanaşırdı. Birdən səhər-səhər mənə zəng çaldı:

– Qalx yanıma.

Gəldim gördüm ki, çıxışını da qarşısına qoyub, əyləşib.

– Bilirsən, – dedi, – bu yaramayacaq.

Hərçənd, biz bir aydır hazırlaşırdıq! Yüzlərlə adamın toplaşacağı yığıncağa üç-dörd saat qalır.

– Yaz. Birincisi, Siyasi Büronun işi haqqında. İkincisi, səhiyyə sahəsində vəzifələr haqqında.

Və bu minvalla sıraladı. Cəmi səkkiz-doqquz sətir.

Həmin məsələləri tezcə bir vərəqdə çap etdilər.

O, kürsüyə qalxdı. Mən salonda əyləşib yığışanların reaksiyasını izləyə bilirdim. O, sadə tərzdə Siyasi Büronun necə işlədiyi haqqında danışdı, kim harda oturur, müzakirələr necə keçir. Axı belə təfsilatlar o zaman qapalı idi, halbuki partiya-təsərrüfat aktivi yığışmış, hamısı da partiya üzvü ola-ola Kremldə baş verənləri təsəvvür etmirdi.

Xülasə, Heydər Əliyeviç çox canlı söhbət apardı. Mənə diktə etdiyi plan üzrə az qala yarım saat danışdı.

Bilirsiniz ona necə diqqətlə qulaq asırdılar! Mən salonda oturmuşam, yanımda replika səslənir:

– Bax ey, kağızsız danışır.

Kağızsız o vaxt danışmaq mümkündü ki, mətləbə yaxşı bələd olasan.

– Amma yəqin Siyasi Büro haqqında belə hekayətlər təqdir olunmurdu?

– Hər necə olsa da, bunu öz öhdəsinə götürmüşdü. Bu bir canlı hekayət idi, mən özüm ona maraqla qulaq asırdım. Doğrudan da, Siyasi Büroda fikir mübadiləsinin gedişatı, məsələlərin həlli haqqında ayrıntıları dinləmək maraqlı idi. Həm də o, məhz hansı məsələlərin baxılmasını xırdalamırdı. Bu və ya digər səfər zamanı o vəziyyəti duyaraq heç vaxt mətləbə standart tərzdə yanaşmırdı".

Heydər Əliyevin İttifaq boyu səfərlərinin, xüsusən parlaq çıxışlarının sorağı Kremlə çatırdı və bir dəfə Qorbaçov qısqanclığını gizlədə bilmədi. Bu barədə Azərbaycan KP MK sabiq katibi, hazırda respublika Prezidenti Aparatının rəhbəri **Ramiz Mehdiyev** mənimlə söhbətində öz xatiratını söylədi.

"Bir dəfə, Qorbaçovun vaxtında Heydər Əliyev ölkədə növbəti səfərə çıxmışdı. İnsanlarla görüşür, xalqla ünsiyyətdə olur, həmişəki kimi parlaq çıxışlar edirdi. Onun səfərindən az sonra işlərlə bağlı Moskvaya getməli oldum. 1985-ci ilin iyul, ya avqust ayı idi. Mən paytaxta gələndə, bir qayda olaraq, hər dəfə Heydər Əliyeviçlə görüşərdim. Ya Kremldə, ya da onun bağına yollanardıq.

Söhbət dəqiq yadımda qalıb. Mən ona deyəndə ki, siz səfərinizdə parlaq çıxış etdiniz, televizorla baxıb xalqın sizə necə məhəbbətlə yanaşdığını görürdük, qəzet reportajlarını oxuyurduq və sairə, – o bikef-bikef gülümsündü və söylədi: "Moskvaya qayıdandan sonra Qorbaçova zəng vurdum ki, yerlərdə vəziyyət haqqında məlumat verim. O, Leninqraddan yenicə qayıtmışdı. Mən onun səfərinə yüksək qiymət verib tərifləməyə başladım ki, bəs siz yaxşı çıxış edirdiniz, aktual məsələlər qaldırırdınız, yerlərdə insanlar bunu dəstəkləyir. O, cavabında:

"Nu, çto ya... – dedi. – Vot vı, Qaydar Aliyeviç, vıstupayete, – eto da..."* Əliyev dedi ki, mən onun sözlərində istehza, gizli bir qısqanclıq sezdim. Əliyev populyarlığına, natiqlik qabiliyyətinə, qeyri-formal, kağızsız-filansız vacib məsələlərdən danışmaq, xalqla ünsiyyətdə olmaq bacarığına qısqanclıq..."

Sonralar acıya-acıya etiraf edirdi:

"Mən ömrüm boyu insanların paxıllığını hiss etmişəm. Vəzifələrimdə çox yeyin irəli çəkilir, yaşıma uyğun olmadan, həmişə canbaşla çalışırdım, səmimi davranırdım, hörmət, dəstək, etimad qazanırdım. Ona görə də ömrümün hər bir mərhələsində daima qısqanclıqla qarşılaşır və qısqanclıqdan çox hallarda əziyyət çəkirdim..."**

* * *

Xarici səfərlər, bir qayda olaraq, mürəkkəb şəraitdə keçirdi. Heydər Əliyevi dünyanın uzaq və səbatsız bölgələrinə – Koreya, Anqola, Mozambik kimi ölkələrə göndərirdilər. Baş katib onu seçərək, bilirdi ki, o, imtina etməyəcək, işi yola verəcək və ən çətin danışıqların uğurlu keçməsinə nail olacaq.

SİTA-nın materiallarından:

1985-ci il avqustun 12-də Koreyanın azad edilməsinin 40-cı ildönümünün bayram edilməsində iştirak etmək üçün Heydər Əliyevin başçılıq etdiyi sovet partiya-dövlət nümayəndə heyəti Moskvadan Pxenyana yola düşdü.

Pxenyanda olduqları birinci gün KXDR Administrasiya Şurasının başçısı Kan Sen San sovet nümayəndə heyətinin üzvlərinə "Koreyanın azad edilməsinin 40 ili" yubiley medalları təqdim etdi. Sonra sovet nümayəndə heyəti 1950–1953-cü illərdə həlak olmuş Koreya xalq ordusu döyüşçülərinin abidəsi önünə, həmçinin, Koreyanın azad olması uğrunda döyüşlərdə həlak olmuş Sovet Ordusu əsgərlərinin dəfn olunduğu qəbiristanda əklillər qoydu.

* "Mən hara... Bax, siz, Heydər Əliyeviç, çıxış edirsiniz... bu başqa məsələ.

** V.Mustafayevin "Bır qısqanclığın tarixçəsi" filmindən.

Avqustun 14-də sovet nümayəndə heyətini Koreya Əmək partiyası MK-nın Baş katibi, KXDR prezidenti Kim İr Sen qəbul etdi.

Həmin gün Pxenyanda Koreyanın azad edilməsinin 40 illiyinə həsr olunmuş təntənəli yığıncaq oldu. Heydər Əliyev yığıncaqda Sovet–Koreya münasibətlərinin tarixi və perspektivləri, SSRİ-nin sülhməramlı xarici siyasət təşəbbüsləri, müasir beynəlxalq vəziyyət haqqında böyük nitqlə çıxış etdi. Heydər Əliyevin nitqi "Pravda" qəzetində ixtisarsız çap olunmuşdu *(15 avqust 1985-ci il)*.

Avqustun 15-də Heydər Əliyev Pxenyanda hərbi paradda iştirak etdi, sonra qırx illik yubiley ərəfəsində yeniləşdirilmiş və koreyalılarla çiyin-çiyinə yapon militaristlərinə qarşı vuruşmuş Sovet Ordusu əsgər və zabitlərinin qəhrəmanlığını əks etdirən möhtəşəm "Qurtuluş" abidəsinin açılışında iştirak etdi. Həmin gün başda Heydər Əliyev olmaqla sovet nümayəndə heyəti Kim İr Senin təşkil etdiyi Koreyanın azad olmasının 40 illiyinə həsr olunmuş təntənəli qəbulda iştirak etdi.

Avqustun 16-da Heydər Əliyevin başçılıq etdiyi sovet nümayəndə heyəti KXDR-in Qərb sahillərində yerləşən iri sənaye və liman şəhəri Nampxoya səfər etdi. Şəhər stadionunda sovet qonaqlarının iştirakı ilə zəhmətkeşlərin mitinqi oldu.

Həmin gün SSRİ partiya-dövlət nümayəndə heyətinin başçısı Koreya Əmək partiyası MK-nın Baş katibi Kim İr Sen və ölkə rəhbərliyinin üzvlərinin iştirak etdiyi nümayəndə heyətini qəbul etdi.

Avqustun 17-də nümayəndə heyəti Moskvaya qayıtdı.

Sabir Hüseynovun söylədiklərindən:

"...Görüşlərimiz əvvəllərə nisbətən çox seyrək olsa da, fürsət düşürdü. Çox vaxt mənim təşəbbüsümlə. Amma bir dəfə də onun təhrikilə gözlənilmədən baş tutdu. Heydər Əliyeviçin təklifilə məni Koreyaya onun başçılığı ilə yollanan partiya-hökumət nümayəndə heyətinin tərkibinə daxil etdilər.

...Rəyasət Heyətində Kim İr Sendən sol tərəfdə Kim Çen İr, sağ tərəfdə bizim Heydər Əliyeviç əyləşmişlər. Onun nitqi sinxron olaraq Koreya və ingilis dillərinə çevrilir. Dəfələrlə sürəkli alqışlarla qarşılanır. Təntənəli iclasdan sonra Kim İr Sen bütün sovet nümayəndə heyətini dəm-dəstgahla sahmanlanmış dairəvi salona dəvət

edərək, Sov.İKP MK Siyasi Büro üzvü Heydər Əliyevin Koreyanın ali ordenilə təltif edilməsi haqqında öz fərmanını özü də səsləndirib ordeni onun pencəyinin yaxasına taxdı. Ertəsi günü ali partiya məmurlarından biri nümayəndə heyətinin hər birinə Koreyanın Qələbə ordenini təqdim etdi və mən həmin ordeni Heydər Əliyevlə işlədiyim dövrdə aldığım başqa mükafatlarla birlikdə yadigar saxlayıram.

Həmin gecə Koreya paytaxtının meydanında, Kim İr Senin iqamətgahı yaxınlığında hamımızı heyrətə gətirən füsunkar və əzəmətli məşəlli nümayiş oldu".

Aleksandr İvanovla söhbətdən:

"Bir ölkəyə səfər ərəfəsində protokol işçiləri və "doqquzluq" əməkdaşlarından ibarət qabaqcıl qrup yollanırdı. Məndən mühafizə rəhbəri olduğuma görə soruşurdular: "Heydər Əliyeviç üçün nələr hazırlamalı, çarpayı, yorğan-döşəyi necə olmalıdır? Yemək-içməyi nədən ibarət olsun?" – "Heç nə lazım deyil, o, əvvəlcədən hazırlaşdığınızı görsə narazı qalacaq. Yaxşısı budur ki, trası, tədbirlər keçiriləcək yerləri diqqətlə yoxlayın".

– Bəs yola çıxanda o harada qidalanırdı? Onunla şəxsi aşpazı da gedirdimi?

– Heç vaxt, Vyetnam istisna olmaqla. O da sadəcə məsləhətimizlə hesablaşdığına görə. Mən onu qorxuzdum ki, Heydər Əliyeviç, oralarda itləri yeyirlər. Amma belə baxanda, nə aşpaz, nə xörəkpaylayan aparmışdı özü ilə. Süfrəyə nə gətirirdilər, onu yeyirdi.

Koreyada Kim İr Sen ilk dəfə xarici ölkə təmsilçilərinin sərəncamına özünün nəhəng salonunu vermişdi. İlk gündə ziyafət təşkil etdi, qayıtmazdan əvvəl sovet tərəfi cavab olaraq ziyafət vermək üçün hardasa bir salon tutdular. Kim İr Sen bundan xəbər tutanda "Qəbulu həmin bu zalda keçirin" dedi. Koreyanın tarixində Kim İr Sen tərəfindən rəsmi törənlərə görə kimlərəsə özünəməxsus baş salonun verilməsi görünməmiş hadisə idi. O, Heydər Əliyeviçə sadəcə, demək olar ki, vurulmuşdu. Eləcə Nasir də, Le Zuan da. Anqola lideri Joze Eduardu Duş Santuşla bağlı bir məzəli epizod xatirimdədir. Axı o, Azərbaycan Neft və Kimya İnstitutunun məzunu idi. Heydər Əliyeviç ilk dəfə başqa ölkənin başçısını rusca danışmağa vadar etdi. Yadımdadır, rəsmi hissə qurtarandan sonra Heydər Əliyeviç ona ərklə üz tutdu: "Sluşay, perestan yerundu qorodit, perexodi na russkiy. Tı je şest let jil u menya na Rodine!"*

Anqola lideri gülüb rus dilinə keçdi. Yəqin bu onun təcrübəsində ilk dəfə idi. Onun birinci arvadı rus idi, deyəsən, Sumqayıtda tanış olmuşdular. Və ondan bir oğlu vardı".

1985-ci il noyabrın 30-da MPLA – Əmək partiyasının II qurultayında iştirak etmək üçün Heydər Əliyevin başçılıq etdiyi Sov.İKP nümayəndə heyəti Moskvadan Anqolanın paytaxtı Luandaya yola düşdü.

Luanda aeroportunda Heydər Əliyev KİV nümayəndələri üçün bəyanat verdi.

Dekabrın 2-də Luandada MPLA – Əmək partiyasının II qurultayı açıldı.

Dekabrın 3-də Heydər Əliyev qurultayda geniş nitqlə çıxış etdi.

O, Sov.İKP MK-nın MPLA – Əmək partiyasının II qurultayına təbrikinin mətnini qurultayın Rəyasət Heyətinə çatdırdı və Sov.İKP MK-nın xatirə hədiyyəsini – üzərində V.İ.Leninin əksi olan xalçanı təqdim etdi.

SSRİ o vaxtlar 10 il əvvəl müstəqillik və sosializm yoluna qədəm qoymuş bu Afrika ölkəsinə böyük yardım və dəstək göstərirdi. Anqolada yüzlərlə sovet mütəxəssisi çalışırdı – energetik və liman işçiləri, geoloq və aqronomlar, iqtisadçı və müəllimlər. Mindən çox Anqola vətəndaşı SSRİ-də diplom almış, sovet ali məktəblərində oxumuşdular. SSRİ həmçinin hərbi mütəxəssis və silahla yardım edirdi, çünki CAR Anqolanın cənub rayonlarının bir hissəsini işğal altında saxlamaqda davam edirdi, Vaşinqton isə hökumətə qarşı çıxan UNİTA qüvvələrini birbaşa dəstəkləyirdi. Heydər Əliyev sovet rəhbərliyi adından əmin etdi ki, bu kömək və dəstək davam edəcəkdir.

Dekabrın 4-də Heydər Əliyev Anqola Xarici Dövlətlərlə Dostluq və Həmrəylik Liqasında, həmçinin, rus dilinin öyrənilməsi üz-

* "Bura bax, burax hətərən-pətərən qırıldatmağını, keç ruscaya. Axı sən altı il mənim vətənimdə yaşamısan!"

rə Sovet Mərkəzində oldu. Axşam Heydər Əliyev Anqolada işləyən sovet mütəxəssisləri ilə görüşdü. Anqolaya səfəri zamanı Heydər Əliyev MPLA – Əmək partiyasının sədri, AXR prezidenti Joze Eduardu duş Santuş ilə, Anqolanın digər rəhbərləri ilə danışıqlar apardı.

Dekabrın 5-də Heydər Əliyev Luandadan Moskvaya yola düşdü. Luandadan yola düşməzdən öncə Heydər Əliyev mətbuat üçün bəyanat verdi.

SİTA-nın müxbiri Calaqoniyanın xatirələrindən:

"İlk xarici səfər ən mürəkkəb durumlu dövlətlə bağlı oldu – 1985-ci ilin avqustunda Heydər Əliyev sovet nümayəndə heyətinin başçısı olaraq Koreyanın azad olunmasının 40-cı ildönümünə həsr edilən törənlərdə iştirak etmək üçün Pxenyana gəldi. Kim İr Sen dövründə KXDR xüsusi bir ölkə idi. Hətta dünyadan "dəmir pərdə" ilə çəpərlənmiş sosialist düşərgəsində bunca qapalı dövlət yox idi. "Dayandırılmış zaman qoruğu" – Şimali Koreya beləcə göründü bizə. Kim İr Senin rəsmi vəzifələri – Baş katib, sədr, prezident və bir çox digər səlahiyyətləri olsa da, bütün bunların əhəmiyyəti yox idi, əsas o idi ki, Kim İr Sen Böyük rəhbər sayılırdı. Bu ifadə epitet deyil, peşə mənasını daşıyır: o, sadəcə Böyük rəhbər sifətində işləyirdi.

Mənə onu lap yaxından müşahidə etmək müyəssər oldu, jurnalistlər Kim İr Sen sovet nümayəndə heyətinin başçısı ilə söhbətə başlamazdan içəriyə buraxılmışdı və mən fikir verdim ki, Koreya liderinin sağ yanağında yekə bir şiş qabarır, ona görə rəhbərin ancaq sol tərəfdən fotoşəklini çəkməyə icazə verilirdi.

Ümumi görkəminə gəldikdə, yuvarlaq və hamarlanmış kimi idi və özünün Pxenyanın mərkəzində ucalan 36 metrlik heykəlinə oxşayırdı.

Kim İr Sen bunca yüksək tərkibli nümayəndə heyətinin gəlişinə necə şad olduğundan bir-iki "protokol" kəlməsini dilə gətirib birdən-birə keçid olmadan: "Sizlərdə məhsulla bağlı gözləntilər necədir?" – soruşdu. Elə həmin məqamda bizdən qəbul salonunu tərk etməyi xahiş etdilər. "Bəli də! – dilxor oldum. – İndi-indi səmimi söhbət başlayırdı..."

Sonralar Əliyevin stenoqraf xidmətçisi, hər axşam hesabatlarımı diktə etdiyim nəzakətli Qalya xanım mənə söylədi ki, söhbət həqiqətən də səmimi alınmışdı. Heydər Əliyeviç hər hansı müsahibi ilə, lap Böyük rəhbər olsa da, dil tapmağı bacarırdı. Söhbət əsnasında açılışan Kim İr Sen gileylənirmiş ki, son zamanlarda oynaqları ağrımağa başlayıb, – yaşın yükü özünü göstərir. Heydər Əliyev: "Bunlar xırda şeydir, – deyə onu sakitləşdirir. – Kişi xeylağında əsas ürəkdir, onun motorudur, bir də beyni. Bu cəhətdən sizdə hər şey tam qaydasındadır". Böyük rəhbər bir qədər ruhlanır.

Ən çox baş sındırmalı problem, KXDR İnzibati Şurası başçısı Kim Sen Sanın nəhəng və ciddi mühafizə olunan Qurultaylar sarayında təntənəli yubiley iclasında səsləndirdiyi məruzənin mətnini Koreya tərəfindən "qoparmaq" oldu. Halını pozmayan yerli məmurlardan həmin sənədi haçan alacağımızı aydınlaşdırmaq olmurdu ki olmurdu. Hətta Pxenyandakı SİTA-nın müxbiri həmkarım Jebın onlara xalis Koreya dilində müraciət etsə də. Məruzəni bizlərdən niyə belə səylə gizlətmələrini anlamaq olmurdu. Ola bilsin ki, koreyalı dostlar SİTA-nın məruzənin 40 il əvvəl baş vermiş hadisələri çox özünəməxsus tərzdə yozan rəsmi variantından faydalanmasını istəyirmişlər.

Bizim üzümüzdə məyusluq ifadəsini görən Heydər Əliyeviç maraqlandı ki, problemlərimiz varmı. "Özü də necə!" – birağıza dilləndik. Əliyev vəziyyəti dərhal dəyərləndirib KXDR xarici işlər nazirinə bildirdi: "SİTA tezliklə lazımi sənədləri almasa, mən bu barədə yoldaş Kim İr Seni məlumatlandırmağa məcbur olacam".

Sonra baş verənlər möcüzəyə bənzəyirdi: bir neçə dəqiqə keçər-keçməz məruzə bizə qəşəng qovluqda çatdırıldı.

Fenomenal yaddaşı olan Əliyev bu əhvalatı unutmadı. Həmin ilin dekabr ayında sovet nümayəndə heyətinə başçılıq edərək Anqola Əmək Partiyasının II qurultayı keçiriləcək Luandaya gedəndə, o, sovet səfiri A.Kalininlə ilk söhbətindəcə dedi: "Qurultay, yəqin mürəkkəb, nataraz, çox kağız-kuğazlı olacaq. SİTA-nın vaxtlı-vaxtında lazımi sənədləri almasına diqqət yetirin". Və yarıciddi-yarızarafatla əlavə etdi: "Arnold İvanoviç, nəzərə alın ki, bu göstəriciyə görə səfirliyin iş səviyyəsi haqqında mühakimə yürüdəcəyəm".

Səfir duruxmuş halda candərdi gülümsədi: "Demək, məsələni belə qoyursunuz... Neynək, mən izləyərəm..."

Və sözünə əməl etdi. Qurultay ərəfəsində bütün gecəni yuxusuz keçirib, SİTA-nın xəbər lentinə Anqola prezidenti və Əmək Partiyasının sədri Joze Eduardu Duş Santuşun uzun-uzadı hesabat məruzəsinin məğzini sığışdırmağa çalışdım.

Mətni mənə bütün gecə boyu "Tropiko" otelinin 304-cü otağına sovet səfirliyindən, "çaparlar", məsləhətçi-afrikaşünaslar ruscaya tərcümə etdikcə hissə-hissə çatdırırdılar.

Yeri gəlmişkən, Duş Santuş Bakıda ali təhsil almış, Neft və Kimya İnstitutunu bitirmiş və Azərbaycan paytaxtından təkcə mühəndis diplomunu deyil, ömür yoldaşı, rus qızı Tanyanı da aparmağa müvəffəq olmuşdu. O, həmin Afrika ölkəsinin "birinci xanımı" da olmuş, prezidentə bir oğul doğmuşdu. Lakin sonralar bu izdivac pozulsa da, Duş Santuşun ömür yoldaşı ilə tanış olduğu şəhərə münasibəti dəyişməmişdir. Mən özüm Anqola liderinin Əliyevlə söhbətləşəndə Bakıda keçirdiyi tələbəlik illərini necə hərarətlə xatırladığını eşitmişdim.

Qurultay səksəkəli və əsəbi şəraitdə keçirilirdi. Şəhərdə komendant saatı tətbiq olunurdu. Anqola qiyamçılarının başçısı Jonas Savimbi nümayəndələr yığışdığı sarayı partlatmağa and içmişdi. Duş Santuş məruzə etdiyi zaman – o, sənədi 8 saat oxudu – salonda qəflətən işıq söndü. Araya müdhiş bir sükut çökdü. Zil qaranlıqda qalan adamlar tərpənməyə də qorxurdular. Kağız-kuğazını xışıldatmağa ara verən məruzəçi də kürsüdə duruxub durmuşdu.

Hamı əmin idi ki, bu, Savimbinin planlaşdırdığı təxribatın başlanğıcıdır və indicə partlayış gurlayacaq. Moskva televiziyaçılarının müstəqil işıqlandırma qurğusu olsa da, onu işə salmaqdan ehtiyat edirdilər – yerli təhlükəsizlik xidməti qorxuya düşüb lampaları atəşə tuta bilərdi.

Əliyevin mühafizə rəisi, onunla uzun illər boyu işləmiş Aleksandr İvanov sonralar mənə danışırdı: "Biz ələstü şefi dövrəyə aldıq. Heydər Əliyeviç qaranlığa: "Sənsənmi, Saşa?" – soruşdu. "Bizik", – dedim. "Uşaqlar, azad!" – Heydər Əliyeviç uğundu. – Zənnimcə, bu, sadəcə, texniki nasazlıqdır".

Elə də olubmuş, – Luandanın işıqlandırma sistemində qəza baş vermişdi, bu da Anqola paytaxtı üçün olan iş idi..."

SİTA-nın materiallarından:

1986-cı il iyunun 26-da Heydər Əliyevin rəhbərlik etdiyi Sov.İKP nümayəndə heyəti Yuqoslaviya Kommunistlər İttifaqının XIII qurultayında iştirak etmək üçün Belqrada gəldi.

Heydər Əliyev Yuqoslaviya Kommunistlər İttifaqı MK-nın Rəyasət Heyətinin sədri V.Jarkoviç tərəfindən qəbul edildi.

Həmin gün nümayəndə heyəti "Beko" ticarət-sənaye birliyində, M.Pupin adına Elmi-Tədqiqat İnstitutunda, İvo Lola Ribar adına Maşınqayırma zavodunda, "Beoqrad" Yuqoslaviya univermaqları birliyində və onların ən irisi – "Beoqradjanka"da oldu.

İyunun 27-də Heydər Əliyev Yuqoslaviya Kommunistlər İttifaqının XIII qurultayının işində iştirak etdi.

Həmin gün Heydər Əliyev Smederevoya – Dunay sahilində qədim şəhərə səfər etdi. Şəhərin görməli yerləri ilə tanış oldu, SSRİ-nin texniki dəstəyi ilə tikilmiş Metallurgiya kombinatında oldu.

İcma partiya komitəsinin üzvləri ilə görüşdü.

İ.Broz Titonun xatirə kompleksində oldu və əklil qoydu. Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

YKİ-nin XIII qurultayında iştirak edən nümayəndə heyətlərinin şərəfinə Yuqoslaviya Kommunistlər İttifaqı MK Rəyasət Heyətinin təşkil etdiyi qəbulda oldu.

Heydər Əliyevlə birgə Yuqoslaviyaya gedən Anatoli Lukyanov səfər haqqında mənimlə söhbətində xatırlayırdı:

"1986-cı ildə bizi ikilikdə Yuqoslaviyaya göndərdilər. Səfərimiz ölkənin və ümumiyyətlə, Balkan bölgəsinin həyatında çox mürəkkəb dövrə təsadüf etmişdi, – son qurultayda şiddətli çəkişmələr baş vermiş, kompartiyanın parçalanması, ölkədə millətçi ünsürlərin baş qaldırması ilə bağlı dövr idi. Və burada maksimal dərəcədə Heydər Əliyeviçin müdrikliyi, millətlərarası münaqişələrdə başbilənlik bacarığı özünü göstərdi. Mənim üçün bu səfər çox önəmli və ibrətamiz oldu. Biz yalnız Belqradda deyil, ondan kənarda yerləşən bir neçə müəssisədə olduq, partiya fəalları ilə görüşdük, Titonun qoyub getdiyi irs haqqında hökumət rəhbərləri ilə xeyli söhbətləşdik.

Bizi Heydər Əliyeviçlə orada baş verənlərin doğurduğu nigarançılıq birləşdirdi. Bundan sonra Balkanlarda vəziyyət haqqında geniş məktub tərtib edildi. Söhbət gecələr də yuxumuza haram qatıb iş-

ləməkdən, sənədləri hazırlamaqdan, Moskva ilə danışıqlardan və s. gedir və bu bizi daha da yaxınlaşdırır, sonra bir çox məsələləri birlikdə asanlıqla həll etməyə imkan yaradırdı.

– Həmin məktubun mahiyyəti nədən ibarət idi?

– Başlıcası – Yuqoslaviya Kommunist Partiyasının, ölkə bütövlüyünün qorunub saxlanılmasıdır. Biz anlayırdıq ki, Balkanlar parçalanmaya doğru gedir. Və bu barədə Sov.İKP MK Siyasi Bürosuna məlumat çatdırdıq.

SİTA-nın müxbiri V.Calaqoniyanın xatirələrindən:

"...Sosialist ölkələri liderləri çox vaxt öz xalqlarının tarixi geriləməsinin müqabilində sosial firavanlığın zirvələrinə özləri can atmaqla "əvəzini çıxırdılar". Burada onlar Qərbin ən inkişaf etmiş ölkələrindəki həmkarları ilə tam bərabər yarışa bilərdilər. Məsələn, 14 hektarlıq səfalı parkın ərazisində yerləşən "İosip Broz Tito" memorial mərkəzinə baş çəkib həmin fikrin təsdiqini görmək olar.

Belqradda, Titonun keçmiş iqamətgahı yaxınlığında, "Savva" adlanan Qurultaylar sarayında 1986-cı ilin iyun ayında keçirilən Yuqoslaviya Kommunistlər İttifaqının XIII qurultayı, ölkəni sarsıdan böhrandan çıxış yollarını əlləşə-vuruşa arayırdı. Federasiyanın dağılmasına və onu müşayiət edən qanlı davalara hələ altı il qalırdı. Lakin Sov.İKP elçilərinə başçılıq edən Heydər Əliyev federasiyanın çat-çat sökülməsini aydın görür və bu barədə yuqoslaviyalı həmkarlarına xəbərdarlıq edirdi.

YSFRİ-ni təşkil edən altı respublika o zaman "əvəzedilən rəhbərlik" institutu haqqında razılığa gəldilər. YKİ MK Rəyasət Heyətinin hər "növbətçi" katibinə bir illik hakimiyyət həvalə edilsə də, bu yalnız idarəetmə sisteminin dağılmasını vurğulayırdı. Bu dövlətin banisi İosip Broz Titonun keçmiş malikanələrində isə mərhum rəhbərin xoşladığı rahatlıq, sakitlik, cah-calal hökm sürürdü. Onun ünvanına axışan hədiyyələrin, şəxsi əşyalarının sərgilənməsi üçün xüsusi bina tikilmişdi.

O cümlədən, Titonun təltif olunduğu üç yüz orden və medallar, sovet "Qələbə" ordeni daxil olmaqla, dörd marşal forması, soyuq silah kolleksiyası, tablo və heykəllər, bəzək-düzəkləri nümayiş etdirilirdi.

Amma məncə, Titonun xarakterini ən çox onun ovçu evi açıqlayırdı. Yuqoslaviya baş kommunistinin burada yığılmış ov qənimətləri bir-iki "Qırmızı kitaba" bəs edərdi: şir, pələng dəriləri, qara camış və zebr kəlləsi, Moskva meşələrində vurulan biçarə sığırın uyuğu. Amma bələdçi bizi xüsusi təmtəraqla Balkan dağlarında şəxsən Titonun öldürdüyü nəhəng kürən ayının sərildiyi dərisini göstərdi. "Bu, dünya rekordu idi", – fərəhlə, ehtiramla bildirdi. "Lap dünya rekordumu?" – Heydər Əliyeviç ona üz tutdu. – "İdi... Bu yaxınlarda Çauşesku ondan da böyük ayını öldürmüşdür". – "Deməli, Çauşesku indi dünya rekordçusudur?" – "Bəli", – istehzanı duymayan bələdçi heyfsilənmiş kimi təsdiqlədi.

İki partiya lideri, bax, belə "kommunist yarışı"na girişmişdilər və ikisinin də aqibəti acınacaqlı oldu. Tito artıq ölümündən sonra yaratdığı ölkəni və partiyanı itirdi. Çauşesku isə tələm-tələsik, əslində, istintaqsız, məhkəməsiz sabiq silahdaşları tərəfindən güllələndi. Tarixin acı dərsi".

1986-cı il oktyabrın 25-də FRELİMO Partiyasının sədri, Mozambik Xalq Respublikasının prezidenti marşal Samora Moyzes Maşelin dəfnində iştirak etmək üçün Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev başda olmaqla sovet partiya-dövlət nümayəndə heyəti Moskvadan Maputuya yola düşdü.

S.Maşel Cənubi Afrika Respublikası ərazisində, Mozambiklə sərhədin yaxınlığında təyyarə qəzasına uğrayıb həlak olmuşdu. O zamankı mətbuatda Pretoriyanın bu qəzada əli olduğu, CAR-ın Mozambiklə sərhədi yaxınlığında Mozambik dövlət başçısının təyyarəsini kursundan sapındırmaq məqsədilə güclü portativ radiomayakın quraşdırılması haqqında məlumat yayıldı.

O vaxt CAR rəhbərliyi Mozambik Xalq Respublikası sərhədləri qarşısında daima qoşunlarını artırır və "Mozambik milli müqaviməti" hərəkatının yaraqlılarına hava yolu ilə silah ötürülməsini genişləndirirdi. Pretoriya 10 il boyu Moskva ilə çox sıx siyasi-iqtisadi əlaqələr saxlayan, Afrika qitəsində populyar olan lideri yıxmaq məqsədilə Mozambikdə vəziyyəti gərginləşdirirdi və çox ehtimal ki, S.Maşelin həyatına qəsd etməyə də əl ata bilərdi.

Bütün bu amillər nəzərə alınanda görünür ki, sovet partiya-hökumət nümayəndələrinin Mozambikə səfəri müəyyən risklə bağlı idi və belə bir çətin missiyanı yenə də Heydər Əliyevə tapşırırlar.

Öz adətincə Heydər Əliyev matəm mərasiminə qoşulmaqla kifayətlənməyib bir sıra məmləkət başçıları ilə ölkə üçün faydalı olan görüşlər keçirərək beynəlxalq vəziyyət və ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə etmişdi.

Həmin gün sovet nümayəndə heyəti Yəmən Demokratik Respublikasının paytaxtında dayanacaq etdi. Ədən aeroportunda nümayəndə heyətini Yəmən Sosialist partiyası MK-nın Baş katibinin müavini S.Məhəmməd, YXDR-in baş naziri Y.Naoman, YSP-nin digər rəhbərləri və hökumət üzvləri qarşıladılar. Həmin gün Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyətini Yəmən Sosialist partiyası MK-nın Baş katibi A.əl Beyd qəbul etdi.

Oktyabrın 26-da Heydər Əliyev Maputuya gəldi. Həmin gün onun FRELİMO Partiyasının rəhbərləri və hökumət üzvləri ilə söhbətləri başlandı. Heydər Əliyev Afrika milli-azadlıq hərəkatının tanınmış rəhbəri, dövlət və siyasi xadimi Samora Moyzes Maşelin faciəli ölümü ilə bağlı başsağlığı verdi. Sonra Heydər Əliyev S.Maşelin cənazəsi qoyulmuş Maputu İcraiyyə Komitəsinin binasında oldu və əklil qoydu. O həmçinin, Samora Maşelin həyat yoldaşı Qras Maşel ilə də görüşdü.

Oktyabrın 27-də Heydər Əliyev Maputuda Nikaraquanın vitse-prezidenti S.Ramireslə görüşdü.

Oktyabrın 28-də Heydər Əliyev bir sıra danışıqlar apardı: MPLA – Əmək partiyasının sədri, Anqola Xalq Respublikasının prezidenti J.E. duş Santuş ilə, ADR Nazirlər Soveti sədrinin birinci müavini V.Krolikovski ilə, Efiopiya Müvəqqəti Hərbi Administrasiya Şurasının Baş katibi F.S.Voqderesslə, Kuba Kommunist partiyası MK-nın Siyasi Bürosu və Katibliyinin üzvü Xorxe Risket Valdeslə və b.

Həmin gün S.Maşelin dəfni oldu. Bir çox Afrika dövlətlərinin həmin gün milli matəm elan etməsi Mozambikin dünyasını dəyişmiş rəhbərinin populyarlığından xəbər verir.

Oktyabrın 29-da Heydər Əliyev və onun rəhbərlik etdiyi nümayəndə heyəti Moskvaya qayıtdı.

1986-cı il noyabrın 11-də Laos Xalq–İnqilab partiyasının dəvəti ilə LXİP-nin IV qurultayında iştirak etmək üçün Heydər Əliyev başda olmaqla Sov.İKP nümayəndə heyəti Moskvadan Vyentyana yola düşdü.

Noyabrın 12-də sovet nümayəndə heyətini LXİP MK Baş katibi, LXDR Nazirlər Sovetinin sədri Keyson Fomvihan qəbul etdi. Görüşdə bütün Laos rəhbərliyi iştirak edirdi. Qəbuldan sonra Heydər Əliyev "Sovet–Laos dostluğu tikintiləri"ndən birinə getdi (o vaxt sovet mütəxəssislərinin köməyi ilə inşa edilən obyektləri belə adlandırırdılar), Vyentyanda hospitalla tanış oldu.

Noyabrın 13-də Heydər Əliyev Laos Xalq–İnqilab partiyasının IV qurultayında Sovet–Laos əməkdaşlığının perspektivləri, müasir beynəlxalq vəziyyətin, o cümlədən Asiya–Sakit okean regionundakı durumun xüsusiyyətləri barədə geniş nitqlə çıxış etdi. Onun çıxışı "Pravda" və "İzvestiya" qəzetlərində dərc olundu.

Heydər Əliyev V.İ.Leninin Moskvanın Oktyabr meydanında ucaldılmış heykəlinin büründən hazırlanmış surətini Sov.İKP MK-nın adından LXİP IV qurultayına hədiyyə etdi.

Həmin gün Heydər Əliyev VKP MK Siyasi Bürosunun üzvü, Vyetnam Sosialist Respublikası Nazirlər Sovetinin sədri Fam Van Donqla görüşdü.

Noyabrın 14-də Heydər Əliyev LXDR-də çalışan sovet mütəxəssisləri ilə görüşdü.

Noyabrın 15-də Vyentyanda Heydər Əliyev Kampuçiya Xalq–İnqilab partiyası MK-nın Baş katibi, KXR Dövlət Şurasının sədri Xink Samrinlə danışıqlar apardı.

Həmin gün Sov.İKP nümayəndə heyəti Vyentyanda Laos–Sovet dostluğu adına politexnik texnikumunda oldu, sonra akt zalında dostluq mitinqi keçirildi. İnqilab muzeyində olduqdan sonra Heydər Əliyev Laos–Sovet Dostluğu Cəmiyyətinin fəalları ilə görüşdü. Sonra sovet nümayəndə heyətinin üzvləri Vyentyanda gəzintidə oldular, Laos xalqının tarixi və mədəni abidələri ilə tanış oldular.

Noyabrın 16-da Laosun rəhbəri K.Fomvihan Heydər Əliyevin başçılıq etdiyi sovet nümayəndə heyətini bir daha qəbul etdi, qurultayda çıxışına görə təşəkkürünü bildirdi, yaxşı yol arzuladı. SSRİ Nazirlər Soveti sədrinin birinci müavinini ən yüksək səviyyədə yola saldılar.

SİTA-nın müxbiri Valeri Calaqoniyanın xatirələrindən:

"Laos Xalq–İnqilab Partiyasının 4-cü qurultayına, Vyentyan şəhərinə səfərin də (1986-cı il, noyabr) özünəməxsus koloriti vardı. İclaslar arasında fasilə zamanı Heydər Əliyev qurultaya gələn xarici partiyaların təmsilçiləriləgörüşür və bu protokol səciyyəli tədbirlərə də bir məhrəmlik, hətta yumor çaları qatmağa da müvəffəq olurdu.

Belə ki, Kampuçiya Xalq Partiyasının başçısı Henq Samrini və həmkarlarını o, gözlənilməz nəzəri qənaətilə heyrətə gətirmişdi. "Tropiklərdə sosializm qurmaq şimalda qurmaqdan daha asandır", – deyən Heydər Əliyeviç müsahiblərini qıyqacı nəzərlərlə süzür. Onlar da əllərində "avtoruçka" tutub bu inqilabi fikri dərhal qələmə almağa hazırlaşır. Əliyev sözünə ara verib izah edir: "Palto lazım deyil, papaq lazım deyil, ayaqyalın da keçinmək olar..." Yüksək qonaq şaqqanaq çəkməyənədək söhbət iştirakçıları bu ideya üzərində baş sındırdılar. Onda kampuçiyalılar da candərdi ona qoşulur...

Bugün, üstündən iki onillik keçəndən sonra, düşünürəm ki, Əliyev zarafat şəklində həqiqətən bir maraqlı müşahidəni dilə gətirmişdi. Vyentyanın Qərbə sarı ötəsində yerləşən sosialist ölkələri öz inkişafının son mərhələsində, həyat səviyyəsi baxımından Avropanın "doqqazına" gəlib çıxmışdılarsa, bu onların tropik qurşaqdakı silahdaşları üçün start meydançası olmuşdur. Və bu məqamda müəyyən taktiki üstünlük sezmək olar. Hər halda mənəvi üstünlük".

Beləliklə, beş il boyu Heydər Əliyev Siyasi Büroda sovet xarici siyasətinin "Şərq istiqamətinə" – Asiya və Afrika, Yaxın və Orta Şərq – tam uğurla nəzarət etmişdir. Bu bölgələrin rəhbərləri arasında, görə bildiyimiz kimi, onun böyük nüfuzu vardı. Hətta G.Şahnazarov, yumşaq desək, ona rəğbət bəsləməyən bir şəxs olaraq, sonralar etiraf edirdi ki, Heydər Əliyev xarici nümayəndə heyətlərilə parlaqcasına hökumət danışıqlarını aparmağa müvəffəq olurdu. M.Qorbaçov köməkçisinin "Rəhbərlərlə və onlarsız" kitabından Anqoladakı vəziyyətlə bağlı bir maraqlı epizod. SSRİ bu ölkədə milli–azadlıq hərəkatını fəal dəstəkləyirdi. Sovet silahlarının böyük miqdarda oraya ötürülməsi, üstəgəl Kubanın onminlik ekspedisiya korpusunun "beynəlmiləl" yardımı E.Duş Santuş başda olmaqla Anqola Əmək Partiyasına qələbə çalmağa imkan verdi.

"Moskvada, – G.Şahnazarov xatırlayır, – siyasi və hərbi strategiyanın razılaşdırılması məqsədilə anqolalılarla görüş keçirilməli idi. Sovet tərəfinin təmsil edilməsi Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin müavini Heydər Əliyevə tapşırıldı. Əvvəlcədən keçirilən müşavirədə "beynəlxalqçı" və hərbçilər onu işlə bağlı məlumatlandırdılar. Hazırlaşmağa cəmi ikicə günü ola-ola, o, Anqola təmsilçiləriləsöhbəti şəksiz-iradsız apardı. Onun dərhal problemin məğzini tutmaq, mütəxəssislərin fikrini nəzərə almaq, mövqeyini sərrast açıqlamaq bacarığı mənə təsir bağışladı"[33].

Maraqlıdır ki, çox-çox sonralar, 1991-ci ildə, Heydər Əliyev Naxçıvanda yaşadığı dövrdə, muxtar respublikaya Amerikadan, Mərkəzi Kəşfiyyat İdarəsinin fəaliyyətindən film çəkən ABŞ televiziya şirkətinin çəkiliş qrupu gəlmiş və Naxçıvan Ali Məclisi sədri, keçmişdə – "soyuq müharibə" dövründə MKİ-nin ən başlıca ideoloji rəqiblərindən biri olmuş Heydər Əliyevlə müsahibə aparmışdı.

Xarici siyasət sahəsində Heydər Əliyevin uğurlu fəaliyyətinə baxmayaraq, daha doğrusu, elə bu uğurlara görə qısqanc Baş katib onu tədricən beynəlxalq işlərdən kənarlaşdırmağa başladı. Bu baxımdan rəsmi mətbuatın rəsmi məlumatları düşünməyə zəngin qida verir. SİTA-nın materiallarını vərəqləyək.

1985-ci il oktyabrın 2-də M.Qorbaçov Fransaya rəsmi səfərə yollandı. Bu tarixdən əvvəl və sonralar, Heydər Əliyevin Siyasi Büro üzvü olduğu dövrdə, Sov.İKP MK Baş katibi xaricdə tez-tez qonaq olacaq. Amma, bir dəfə də olsun, Heydər Əliyevi özü ilə səfərə aparmayacaq. Məsələn, Fransa səfərində o, nümayəndə heyəti tərkibinə hökumət sədrinin başqa birinci müavini – İ.Arxipovu daxil etmişdi. Nə üçün? Ağayana və sərbəst davranışlı Əliyevin fonunda Privolnaya qəsəbəsindən çıxan köntöy əyalət bəndəsi sayağı görünəcəyindən ehtiyat edirdimi? Çox güman ki. Ümumiyyətlə, eleqant görkəmli Əliyevin müqabilində digər Siyasi Büro üzvləri uduzurdular.

1985-ci il iyunun 27-də Heydər Əliyev Kremldə Vyetnam KP MK Baş katibi Le Zuanın qarşılanma mərasimində iştirak edirdi. Lakin Vyetnam səfəri nəticəsində bu ölkənin rəhbərləriləgözəl münasibətləri yaranmasına baxmayaraq, o, dövlətlərarası danışıqla-

ra qatılmadı. Sovet hökumətini danışıqlarda Nazirlər Sovetinin sədri N.Tixonov və müavini N.Talızin təmsil edirdilər.

Yaxud Liviya inqilabının lideri polkovnik Müəmmər Qəddafinin Moskvaya səfərini xatırladaq. Heydər Əliyev A.Qromıko və E.Şevardnadze ilə birlikdə rəsmi qonağı Vnukovo hava limanında 1985-ci il oktyabrın 10-da qarşıladılar. Həmin gün Kremldə ali səviyyədə Sovet–Liviya danışıqları keçirilir. Qromıko və Şevardnadze danışıqlarda iştirak edirlər, Əliyev isə bu tədbirdə yoxdur. Qorbaçovun Liviya liderinin şərəfinə Kremldə verdiyi ziyafətdə də o yoxdur, hərçənd buraya hətta hökumət başçısı vəzifəsindən kənarlaşdırılmış qocaman N.Tixonovu dəvət etməyi unutmamışlar. Təzə hökumət başçısı N.Rıjkovun *(onun bu vəzifəyə təyin olunmasına dair SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı 27 sentyabr 1985-ci il tarixində verilmişdi)* birinci müavinlərindən İ.Arxipov təşrif buyurmuşdu. İlk baxışda, xırda təfsilatdır. Lakin çox da əlamətdar təfsilat. Müəmmər Qəddafi ərəbdir, müsəlman aləminin öndəridir. Heydər Əliyev isə Siyasi Büroda bu məzhəblə bağlı millətlərin yeganə təmsilçisidir. Və təbiidir ki, onun ərəb dünyasının nümayəndələrilə danışıqlarda iştirakı son dərəcə məqsədəuyğun olardı.

Lakin dar düşüncəli və iddialı M.Qorbaçov H.Əliyevi siyasi səhnənin önündən sıxışdıraraq belə praqmatik düşüncələrdən uzaq idi. Heydər Əliyev yalnız statist kimi protokol tədbirlərində – oktyabrın 14-də Sovet–Liviya sazişlərinin imzalanmasında və Qəddafinin Vnukovo aeroportundan yola salınmasında iştirak edir.

Başqa bir misal. 1984-cü ilin mart ayında Heydər Əliyev Sovet–Həbəşistan zirvə danışıqlarında iştirak etmiş, Kremldə Həbəşistanın rəhbəri Menqistu Hayle Məriyamla şəxsi söhbət aparmış, onların arasında səmimi, məhrəm ünsiyyət yaranmışdır. Yeni Baş katib tərəfindən Əliyevin bu liderlə danışıqlara cəlb edilməsi təbii olardı. Lakin 1985-ci il oktyabrın 31-də Menqistu Hayle Məriyam Moskvaya işgüzar dostluq səfərilə gələndə, Heydər Əliyev danışıqlara cəlb edilmədi. Qorbaçovun Böyük Kreml sarayında Həbəşistan rəhbəri şərəfinə verdiyi ziyafətə də dəvət olunmadı... Bəli, baş nazir N.Rıjkov və onun birinci müavini İ.Arxipov məclisə təşrif buyurmuşdular. Eyni ayrıseçkilik 1986-cı ilin may ayında Moskvaya Anqola Əmək Partiyasının lideri, ölkə prezidenti Joze Eduardu Duş

Santuş rəsmi səfərlə gələndə təkrarlandı... Yuxarıda Anqola lideri ilə Heydər Əliyev arasında səmimi və çox istiqanlı şəxsi münasibət olduğunu söyləmişdik, ələlxüsus ki, Anqola prezidenti müəyyən dərəcədə "bakılı" idi. Vəziyyətin məntiqinə görə danışıqlar zamanı məhz Əliyev Baş katiblə yanaşı masa arxasında əyləşməli idi. Lakin yenə də o yalnız rəsmi nahar süfrəsi arxasında və dövlətlərarası sənədlərin imzalanmasında seyrçi oldu, İttifaq hökuməti tərəfindən danışıqlara N.Talızin qatıldı.

1987-ci ilin aprel ayında Heydər Əliyevi, Ərəb Sosialist İntibah Partiyasının Baş katibi, Suriya Ərəb Respublikasının prezidenti Hafiz Əsədlə görüş mərasimi və danışıqlardan kənarlaşdırdılar, halbuki Heydər Əliyevin 1984-cü ildə Suriyaya səfəri nəticəsində Hafiz Əsədlə xoş şəxsi münasibətləri yaranmışdı. Aprelin 24-də Kremldə qurulan rəsmi ziyafətdə də Qorbaçovun "rahatsızlığına" səbəb olan Siyasi Büro üzvü, hökumət başçısının birinci müavini (o biri birinci müavinlər unudulmamışdı) görünmədi... Qorbaçov üçün ərəb dünyası liderlərinin Əliyevə bəslədikləri xüsusi rəğbət və hörmət sirr deyildi, onlar üçün o, yalnız sovet rəhbərliyinin yüksək rütbəli üzvü deyil, həm də Şərqi, müsəlman aləmini Siyasi Büroda təmsil edən şəxs idi. Və bu amil də Baş katibin "yerinə qor salır", bədgümanlığını körükləyirdi...

N.Rıjkov da müəyyən mənada Baş katibə "züy tuturdu". 1985-ci il dekabrın 24-də Moskvaya Şimali Koreyanın baş naziri (az əvvəl Heydər Əliyevi həmin ölkəyə səfəri zamanı müşayiət etmiş, danışıqlar aparmış və s.) Kan Sen San gəlir. Yenə də Heydər Əliyevi "qəribliyə salırlar" – hava limanında qonağın pişvazına yollayıb ikitərəfli danışıqlara qatılmasından vaz keçirlər, halbuki zəruriyyət göz qabağında idi. Onun əvəzinə N.Rıjkovun başqa birinci müavini, eyni zamanda istefaya çıxarılmış N.Baybakovu "Qosplan" sədri vəzifəsində əvəz etmiş N.Talızin əyləşmişdir. Eyni vəziyyət Polşa hökumətinin başçısı Z.Messnerin (fevral 1986-cı il), Əfqanıstan Nazirlər Soveti sədri Soltan Əli Keştməndin (aprel 1986-cı il), Sudanın Baş naziri Sadıx Əl-Məhdinin (avqust 1986-cı il), Danimarkanın Baş naziri Poul Şlüterin (həmin ilin oktyabr ayı), Macarıstan Nazirlər Soveti sədri D.Lazarin və sairə xarici rəhbərlərin rəsmi səfərləri zamanı təkrarlanır.

Ümumiyyətlə, 1985–1987-ci illərə aid bütün qəzetləri, rəsmi məlumatları diqqətlə vərəqləyib, izləyib, M.Qorbaçov və ya N.Rıjkov tərəfindən keçirilmiş ikitərəfli görüşlərin heç birində onlarla yanaşı danışıqlar masası arxasında Heydər Əliyevin yer tutduğunu görmədim... Danışıqlara hər dəfə hökumət başçısını digər birinci müavinləri (N.Talızin, İ.Arxipov, sonralar V.Muraxovski, V.Kamentsev) qatılır, Heydər Əliyevə isə yüksək qonaqların qarşılanma – yolasalınması tapşırılır, bəzən də rəsmi ziyafətə qoşulmaq "şərəfi" müyəssər olurdu.

Gərək ki, ən nümayişkaranə ayrı-seçkilik 1986-cı il iyulun sonlarında Türkiyənin Baş naziri Turqut Özal rəsmi səfərlə Moskvaya gəldiyi günlər baş vermişdir. Ölkə rəhbərliyi tərkibində türk dünyasının yeganə nümayəndəsi olan Heydər Əliyevi bu səfərlə bağlı heç bir tədbirə, nə danışıqlara, nə sənədlərin imzalanmasına, nə ziyafətə və s. dəvət etməmişdilər. Azəri türklərinin əfsanəvi və münəvvər övladından xəbərdar olan Turqut Özal başda olmaqla Türkiyə nümayəndə heyətinin üzvləri, "ev yiyəsinin" belə "unutqanlığı"ndan şaşırmış qalsalar da, sovet məmurları yas tutmuş kimi susurdular...

Nikolay Rıjkov da, Heydər Əliyev kimi parlaq şəxsiyyətin beynəlxalq önəmli törənlərdə onun yanında görünməsinə heç də can atmırdı. Onu tədricən artan səylə "gözümçıxdıya" salmağa başladılar.

Yəqin ki, Heydər Əliyev dözməyib Rıjkovdan, ya Qorbaçovdan "mus-mus" deməyin arxasında hansı "mustafa" gizləndiyini açıqlamağı tələb edə bilərdi. Amma mənliyinə sığışdırmırdı, təbii təmkinliyi, abır-həyası sözünü qəribliyə salanlarla ağızlaşmağa qoymurdu.

Həm də, məsul xidmətlərdə çalışan, nizam-intizamı gözləyən bir insan kimi, tabeçilik şəcərəsini pozmağı özünə rəva bilmirdi. Danışıqlara çağırmırlar, demək, lazım bilmirlər. Son nəticədə, bütün bunlar ötəri, keçib gedən şeylərdir, əsas əməldir, amaldır və o, həmişəki kimi, can-başla işini görürdü.

Bununla belə, düşünürəm ki, sabiq dostu və həmkarının dönüklüyü onun izzəti-nəfsinə toxunmaya bilməzdi. O, əvvəl-axır çıxıb getməli olduğunu, Qorbaçovla uyuşmayacağını anlayırdı. Lakin öz

təşəbbüsüylə istefaya çıxmağa tələsmirdi. Əvvəla, elə bir səbəb də yox idi, ikincisi də, özünü işsiz, fəaliyyətsiz təsəvvür edə bilmirdi. Bekar qalmaq onun üçün ölümdən betər idi, – desək, mübaliğə etmərik... Ona görə də nəhəng ölkənin nəqliyyat, sosial problemlərinin ağır yükünü daşımaqda davam edir, hərçənd, çoxdan təsərrüfat rəhbəri çərçivəsini aşmış, dünya miqyaslı böyük siyasi xadim kimi püxtələşmişdi.

Bunu xaricdə etiraf etsələr də, Qorbaçov və onun əlaltıları heç vəchlə görmək istəmirdilər.

Cümə axşamları, saat 11:00-da

"Siyasi Büro" anlamı 1917-ci ilin oktyabr ayında, üsyana siyasi rəhbərlik orqanı yaratmaq zəruriyyətindən meydana çıxmışdır. Lakin bir sabit qurum kimi Siyasi Büro yalnız 1919-cu ilin martında seçilmişdir. Ona qədər kiçik cari məsələlər də daxil olmaqla bütün məsələləri Mərkəzi Komitə həll edir, onun iclasları hətta inqilabi hadisələrin qızğın vaxtında da az qala hər gün keçirilirdi.

MK üzvlərinin sayı 10-20 nəfərdən artıq olmayınca bu mümkün idi. Amma partiya böyüdükcə və MK, yalnız mərkəzi deyil, əyalət müəssisələrindən seçilən işçilərin hesabına genişləndikcə əvvəlki minvalla işləyə bilmirdi. Bax elə o zaman partiyaya MK plenumları arasında rəhbərlik edən Siyasi Büro və Təşkilat Bürosu seçildi və tədricən bütün iqtidar səlahiyyəti bu orqanlarda cəmləşdi.

Sov.İKP MK Siyasi Bürosu, nəhəng dövlətin milyonlarla sakinlərinin ictimai-siyasi, iqtisadi, bəzən şəxsi həyatına da nəzarət edən və tənzimləyən həqiqətən qüdrətli orqan idi. Hətta sovet hökuməti də, bir qayda olaraq, öz qərarlarının layihələrini Siyasi Bürodan alırdı. Eləcə də, SB-nin protokollarına əlavələr şəklində, Ali Sovetin gələcək qərarları – qanun layihələri, fərqlənmiş vətəndaşların, müəssisə, kolxoz, şaxta, fabrik, zavod kollektivlərinin, bəzən də bütöv respublikaların orden və medallarla təltif olunması, fəxri adların verilməsi və s. haqqında qərarlar tərtib edilirdi.

"...Partiya liderlərinin səlahiyyəti həqiqətən də mütləq, az qala məhdudiyyətsiz idi, – N.Rıjkov iddia edir. – Əslində, partiya aparatı o dövrdə dövlət idarəetməsinə möhkəm pərçim olmuşdu. Na-

zirlər Sovetinə çox vaxt Mərkəzi Komitədə hazırlanmış hökumət qərarları imzalanmağa gətirilirdi.

Nazirlər Sovetinin sədri, vəzifəsinə görə, Siyasi Büro üzvü olsa da bəzən yalnız Siyasi Büro iclaslarında formalca hökumətin tabeliyində sayılan Hərbi Sənaye Kompleksinin planları və fəaliyyətindən xəbər tuturdu"[34].

İ.Laptevin söylədiyinə görə, "bir neçə nəfərin iradəsilə nəhəng bir ölkənin taleyinin həll edildiyini təsəvvürə gətirmək indi belə çətindir. Özü də tək bizim ölkənin yox. Şərqi Avropa, Monqolustan, Şimali Koreyadan olan "sinfi qardaşlar", hətta Çin də bu və ya digər şəkildə "Kreml qocaları"nın mövqeyi və rəylərini nəzərə almalıydılar. Onların bir əl işarəsilə, kağız parçasında bircə imzasıyla bütöv bölgələrin, böyük şəhərlərin inkişaf üfüqləri ya açılır, ya qapanır, kimlərəsə milyardlarla vəsait ayrılır, ya kimlərdənsə alınır, "kommunizm tikintilərinə" yüz minlərlə insan göndərilir, qüdrətli ordular hərəkətə gətirilirdi. Sov.İKP qurultaylarının səs verdikləri hər hansı əməl yalnız Siyasi Büronun konkret qərarları vasitəsilə gerçəkləşirdi. Əslində, qurultaylar yalnız Siyasi Büronun göstərdiyi hədəflərə tuşlanırdı. Siyasi Büro haçandan bəri qurultayların da, plenumların da fövqündə durmuşdu"[35].

D.Volkoqonovun "siyasi super–hökumət" adlandırdığı Siyasi Büronun müzakirəsinə saysız-hesabsız məsələlər çıxarılırdı. Həm də bunların çoxu o qədər də önəm daşımır və nazirliklər, idarələr tərəfindən həll edilə bilərdi. Məsələn, minik maşınlarına texniki xidmət, yaxud bir qrup istehsalat qabaqcıllarının mükafatlandırılması haqqında məsələ. Lakin dövlət idarəetməsinin belə ifrat mərkəzləşdirilməsi sovet bürokratiyasını fərqləndirən azara çevrilmişdi və heç kəs bu sahədə islahatlar aparmağa cürət etmirdi, sırf təsərrüfat məsələləri yükündən azad etməyə ilk dəfə Y.Andropov cəhd göstərmişdi.

18 yanvar 1983-cü il tarixində keçirilən Sov.İKP MK katiblərinin müşavirəsində Yuri Andropov bir sıra maraqlı mülahizələrini dilə gətirmiş, o cümlədən, MK-da, Nazirlər Sovetində, nazirliklər və idarələrdə keçirilən müşavirələrin, eləcə də qəbul olunan qərarların sayını ixtisar etmək təklifini bildirmişdir. O, Sov.İKP MK və

sovet hökumətinin müştərək qərarları haqqında da öz fikrini söyləmişdir. Y.Andropovun çıxışından parçalar:

"...Bir sirr deyil ki, bizdə elə təşkilat və müəssisə rəhbərləri var ki, çox vaxtını, bəzən də iş vaxtının yarısından artığını, hətta bütün günü müşavirələrdə keçirirlər. Sual olunur: belə rəhbərlikdən nə fayda? Mən hesab edirəm ki, keçirilən müşavirələrin sayı azaldılmalıdır... İkincisi, əgər müşavirə nəzərdə tutulmuşsa, onu lazımınca hazırlamalı və o, qısa, konkret, deməli, daha səmərəli olmalıdır.

...Mən bol-bol hazırladığımız və qəbul etdiyimiz qərarların miqdarı haqqında məsələ qoymaq istərdim... Qərar layihələrinin hazırlanması da az önəm daşımır. Qərar layihəsi hazırlamaq – oturub preambula yazmaq və maddələri cizgiləmək deyil. Bu iş müəyyən məsələnin dərindən, hərtərəfli öyrənilməsini tələb edir: hansı məqamlar ön plana çəkilir, bunun üçün nə etməli, hansı təşkilatlar cəlb olunmalı, hansı maddi ehtiyatlar səfərbər edilməli, belə ehtiyatlar mövcuddurmu. Bir sözlə, dərin, hərtərəfli iş lazımdır...

İndi müştərək qərarlar haqqında bir-iki kəlmə demək istəyirəm. Yoldaşlar, biz MK və SSRİ Nazirlər Sovetinin birgə qərarlarını həddindən çox qəbul etmirikmi?.. Bəzən elə birgə qərarlar olur ki, onları yalnız Nazirlər Soveti qəbul etməlidir. Lap təzə bir misal. Siyasi Büronun əhaliyə xidmət göstərilməsində ciddi nöqsanlara həsr olunmuş iclasında MK və SSRİ Nazirlər Sovetinin birgə qərarının qəbul olunması nəzərdə tutulurdu. Xatirinizdə olduğu kimi, mən iclasda təklif irəli sürdüm ki, bu qərar SSRİ Nazirlər Soveti tərəfindən qəbul edilsin və mətbuatda münasib xəbər dərc olunsun. Niyə belə təklif irəli sürülmüşdü? Ona görə ki, qərarda sırf məişət, təsərrüfat səciyyəli və Nazirlər Soveti tərəfindən həll olunmalı bir çox məsələlər vardı".

Bircə gün sonra, Siyasi Büronun 20 yanvarda keçirilən iclasında MK və hökumətin ölkə kənd təsərrüfatının yaz əkininə hazırlanması üzrə əlavə tədbirlər haqqında qərarının birgə layihəsi təsdiqlənmək üçün təqdim olunur. Lakin Andropov "ənənəvi" qərar qəbulundan daşınmağı təklif edir, qoy bu sərəncamı hökumət versin, partiya orqanları isə həmin tədbirlərin icrasına nəzarət etsin. Beləliklə, ilk addım atıldı və tədricən birgə qərarlar təcrübəsi səngiyə-səngiyə axırda tamam aradan qaldırıldı. Bununla da Qorbaço-

vun hakimiyyətə gəlişindən xeyli əvvəl partiya və dövlət funksiyalarının ayrılması haqqında ideya gerçəkləşməyə başladı.

Əlbəttə, bir çox məsələlər formal həll edilir və Siyasi Büro, əslində, aparat əməkdaşlarının əvvəlcədən hazırladıqları qərar layihələrini təsdiqləyirdi. Amma bəzən şəxsi mövqeyini dəqiq müəyyənləşdirmək lazım gələndə, necə deyərlər, "həqiqət anı" yetişirdi. Burada Heydər Əliyev, şahidlərin söylədiklərinə görə, heç vaxt susmağı üstün tutmurdu.

Yuri Petroviç Batalin Heydər Əliyevin Siyasi Büro iclaslarında müstəqil davranışına diqqət yetirmişdir:

" – Hökumət hansısa məsələni Siyasi Büro qarşısına çıxaranda, orada süni olaraq gərginlik körüklənirdi. Əliyev belə iclasların dramaturgiyasına, bu və ya digər Siyasi Büro üzvünün qırımına bələd olaraq, həmişə qətiyyətlə, bəzən hətta sərt çıxış edib hökumət mövqeyini müdafiə edirdi.

Yadımdadır, bir dəfə, deyəsən Qorbaçov irad tutdu: "Heydər Əliyeviç, siz burada partiyaçı tərzində davranmırsınız, təsərrüfatçılıq xəttini qoruyursunuz, halbuki siz axı Siyasi Büronun üzvüsünüz". O, heç vaxt söz altında qalmazdı. Dərhal təmkinlə, həm də ləyaqətlə cavab verdi: "Mən... hökumətdə aparıcı mütəxəssislərin iştirakı ilə dərindən müzakirə edilmiş təklifləri müdafiə edirəm. Bizdə aydın mövqe hasil olunmuşdur. Və bu mövqe qəbul edilsə, partiya maraqlarına da cavab verəcək".

Bir sözlə, o, hökumətin mövqeyini möhkəm, inandırıcı və qətiyyətlə müdafiə edirdi. Bu yadımda qalmışdır.

Qorbaçovla onun arasında çox vaxt ziddiyyətlər yaranırdı. Yəqin bu da Qorbaçovun onu istefaya təhrik etməsinin bir səbəbi idi.

– Deməli, Qorbaçov onun simasında rəqibini görürdü?

– Yəqin ki, rəqibini deyil, – Batalin fərz edir, – güclü bir opponentini – bəli, Qorbaçovun xoşuna gəlmirdi ki, Əliyev ona "bəli-bəli" deməyib öz mövqeyi üstündə dururdu"[36].

Siyasi Büro iclasları Kremldə cümə axşamlarında keçirilirdi. İclaslarda Siyasi Büro üzvləri və üzvlüyə namizədlər, həmçinin, Sov.İKP MK katibləri iştirak edirdilər.

Anatoli Lukyanovla söhbətdən:

"O zaman mən Sov.İKP MK ümumi şöbəsinin müdiri idim. Vəzifələrim sırasına yalnız Siyasi Büro üçün bütün sənədləri hazırlamaq deyil, həm də bütün iclas çıxışlarının yazılışı da daxil idi, çünki Andropov elə vəziyyətlə qarşılaşmışdı ki, kimlərsə Siyasi Büroda çıxış edir, hansısa mətləblərə toxunur, onlara tapşırıqlar verilir, sonra isə protokol aparılmadığından icrasına nəzarət etmək mümkün olmur. Andropov birinci olaraq hər bir Siyasi Büro üzvünün söylədiklərini və hansı işi görməli olduğunu nəzarət altına aldı. Yeri gəlmişkən, eləcə də ilk dəfə olaraq Siyasi Büroda baxılan əsas məsələlərin mətbuatda işıqlandırılmasını nəzərdə tutan qayda qoydu. Bu funksiya da mənim öhdəmə düşmüşdü.

– Andropovun və Qorbaçovun vaxtlarında Siyasi Büro iclaslarının aparılma qaydasının necə olduğunu söyləyin. Qorbaçov dövründə onların uzun-uzadı və sözçülükdən ibarət olması doğrudurmu?

– Andropov iş adamı idi. Onun vaxtında Siyasi Büro iclasları maksimum 2-3 saat davam edirdi. Hər şey konkret idi: tapşırıqlar da, çıxışlar da. Emosiyalar minimum dərəcəsində. Qorbaçov da əvvəl müəyyən dərəcədə həmin üslubu gözləməyə çalışsa da, tədricən Siyasi Büro iclasları hansısa bir acı qatmaqarışıqlığa çevrilməyə başladı, əvvəllər münasibətlərin daha ciddi olduğu Siyasi Büroda heç vaxt yol verilmədiyi halda, kimlərəsə "sən"lə müraciət etmək rəva bilindi. Tədricən belə iclaslar Qorbaçovun verdiyi müsahibələrin bir hissəsinə çevrilməyə başladı. Bundan başqa, Andropov qəbul edilmiş qərarlara, danışıqların yekunlarına gəldikdə, olduqca tələbkar idi. Bütün bunlar Siyasi Büroda müzakirə edilirdi. Kimsə xaricdən qayıdırdısa, hesabat yazısını təqdim edirdi, bu məsələyə mütləq baxılırdı. Vəziyyət dəyişəndə və xaricdə cəld hərəkət etməli olanda Siyasi Büro direktiv verirdi. Yeri gəlmişkən, biz Heydər Əliyeviçlə Yuqoslaviyada olarkən belə bir direktiv almışdıq. Atəşlə vurulmuş Cənubi Koreya təyyarəsilə bağlı münaqişənin necə sərt müzakirə olunduğu xatirimdədir. Bütün sənədlər Siyasi Büro iclasında masa üzərinə çıxarıldı. Bax, belə idi Andropovun üslubu. Qorbaçov isə bambaşqa. Deyək ki, onun Maltada, ya başqa yerdə apardığı görüşlər Siyasi Büroda açıqlanmırdı. Hər halda biz

bu görüşlərin yekunları haqqında sənəd almırdıq. Bu isə Siyasi Büronun işində kollegiallığı, kollektivliyi pozurdu.

– Yəni demək istəyirsiniz ki, Andropovun vaxtında problemlər müzakirə edilərkən daha çox demokratiya vardı?

– Bilirsiniz, kimlərsə demokratiyanı sözçülük kimi, o birilər isə kəskin məsələlərin kollektiv həlli kimi başa düşürlər".

RSFSR Nazirlər Sovetinin keçmiş sədri V.Vorotnikov Siyasi Büro iclaslarına hazırlıqdan, harada, necə keçirilməsindən ətraflı bəhs edir:

"Siyasi Büroda müzakirə olunacaq məsələlərin təxmini siyahısına bir rüb, ya yarım il əvvəl baxılırdı. Əlbəttə, bu siyahı çox vaxt əməlli-başlı dəyişilirdi, şərait əlavə məsələlərin həllini tələb edir, onlar Siyasi Büroya çıxarılırdı. Gündəlik və lazımi materiallar (arayışlar, qərarın layihəsi, qeydlər və s.) əvvəlcədən, bəzən iclasa bir həftə, on gün, daha çox hallarda iki-üç gün qalmış paylanırdı. Yazılı qeydlər, təkliflər etmək, ya onları Siyasi Büroda səsləndirmək olardı. Bir çox operativ məsələlər sorğu üsulu ilə həll edilirdi. MK ümumi şöbəsinin xüsusi hazırlanmış əməkdaşları sənədləri feldyeger (iqtidarın xidmətində olan qasid– ***E.A.***) rabitəsi ilə çatdırırdılar. Xüsusi etimadlı sənədlər də olurdu ki, yalnız Baş katibin "işarələdiyi" yoldaşları onlarla tanış edirdilər. Bir qayda qoyulmuşdu: Siyasi Büro üzvlərindən kimsə səsverməyə göndərilən sənədlər ətrafında büroda fikir mübadiləsi aparmağı lazım bilirdisə, həmin məsələ əyani müzakirəyə çıxarılırdı. Bəzən təcili səciyyəli qərarlar hava limanında, teatrda, müşavirədə və s. yerlərdə qəbul edilib səsverməyə qoyulur, ardınca mətni Siyasi Büronun növbəti protokoluna calanırdı.

Siyasi Büro iclasları Kremldə keçirilirdi. Buraya giriş yolu pilləkəndən (Kreml hasarı yanında) üçüncü mərtəbəyə aparırdı. Orada Baş katibin kabineti və Siyasi Büronun iclas salonu yerləşirdi. Siyasi Büro iclasları ənənəvi olaraq həftədə bir dəfə cümə axşamları, saat 11-də başlayırdı.

Siyasi Büro üzvlüyünə namizədlər və Mərkəzi Komitə katibləri, iclas salonuna dəvət olunanlar yığışdıqları ümumi qəbul otağından keçirdilər.

Baş katib kabinetindən çıxaraq qəbul otağından yalnız Siyasi Büro üzvlərinin onu gözlədikləri "Orexovaya komnata"ya (qoz ağacından işlənmiş otaq – ***E.A.***) qədəm qoyur. Burada dəyirmi masa arxasında gündəliyin bəzi məsələləri üzrə qısaca fikir mübadiləsi aparılır, hər hansı mühüm hadisələrlə bağlı məlumatlaşma keçirilir.

Ardınca Baş katib və Siyasi Büro üzvləri iclas salonuna keçir, uzun iclas masası arxasında yer tuturdular. Hər birinin yeri də məlumdur. Sədrlik edənə daha yaxın Siyasi Büro üzvləri, sonra üzvlüyə namizədlər, daha o yana – MK katibləri. "Oturuşma", necə deyərlər, böyük-kiçiklik əsasında, daha doğrusu, bu orqanda bulunmağın uzunluğundan asılı idi.

Andropovun və Çernenkonun vaxtında iclaslar, bir qayda olaraq, uzun sürmürdü, – saat yarım, iki saat, uzaqbaşı üç saat. Fasilələr olmurdu. İclasın gedişatı zamanı çay, qəhvə və buterbrod paylanırdı.

Qorbaçov Baş katib seçiləndən sonra Siyasi Büro iclasları uzandı. Əvvəl 4-5 saat, yenə də fasiləsiz keçirilirdi. Sonra isə, 1987-ci ildən etibarən bir çox iclaslar çox uzun, qaş qaralanadək çəkdiyindən təxminən gündüz saat ikidə nahar fasiləsinə çıxmağa başladılar. Elə buradaca, Kremlin 2-ci mərtəbəsində "Sverdlov" zalının yanındakı otaqda bir süfrə başına yığışırdılar. Nahar adətincə üç təamdan ibarət idi, 20-30 dəqiqə davam edirdi.

İlk çağlarda Qorbaçov Siyasi Büroda olduqca demokratik, yoldaşlıq ab-havası yaradırdı. Diqqətcil, xoş görünüşlü, adamayovuşan idi. Sonralar daha ötkəm, fikirli görkəm aldı, aramla, pauzalarla ərz etməyə başladı. Çıxış edənin sözünü kəsməyi özünə rəva bilir, deyilənlərin məğzinə o qədər də varmırdı. Zaman ötdükcə onun davranışında poza tutmaq, özünəvurğunluq, təmtəraqlı sözlərə meyillilik daha çox yer aldı. O, getdikcə sözçülüyə mübtəla olurdu. Diqqət, ilk çağlarda artan populyarlıq onun izzəti-nəfsini oxşayırdı. Düzdür, iclaslarda hər söz istəyənə imkan verirdi. Amma getdikcə bütün bunlar saxta demokratiya kimi görünürdü – yəni, nə deyirsən de, danış, onsuz da faydası azdır. Bir çox arzu-istəklər elə havadan asılı qalırdı. O, sanki onları eşitmirdi, görmürdü. Diskussiya gedişatında mübahisələr, bəzən də kəskin şəkildə baş verirdi"[37].

Vitali Vorotnikovla söhbətdən:

"– Əliyev Siyasi Büroda özünü necə aparırdı? O, özünün hansısa fərqli baxış nöqtəsini qoruya bilirdimi, ya əksəriyyətin rəyi ilə razılaşmalı olurdu?

– Onun vəziyyəti asan deyildi. Çünki Siyasi Büro tərkibində Nazirlər Sovetinin sədri – Tixonov, ardınca Rıjkov vardı, o isə sədr müavini idi. Biz qayda üzrə oturardıq. Məsələn, sədrlik edən Andropov və ya Qorbaçov olardısa, bu ardıcıllıqla əyləşərdik – sədr, yanında Tixonov, ya Rıjkov, sonra Qromıko, daha sonra mən. Qarşı tərəfdə ikinci katib Qorbaçov, sonralar Liqaçov və Əliyev yer tutardılar. Biz onunla həmişə üzbəüz oturardıq. Ona görə də istər-istəməz müzakirə zamanı baxışardıq, hətta bəzi problemlər üzrə məsləhətləşərdik də. Bu da qarşılıqlı rəğbətə dəlalət edirdi. O, tapşırılan informasiyadan savayı Siyasi Büroda az çıxış edərdi. Siyasi Büroda iştirak edən bəzi yoldaşlar kimi yeri gəldi-gəlmədi, öz erudisiyasını göstərməyə, mütləq öz nöqteyi-nəzərini bildirməyə cəhd etməzdi. Bu baxımdan o təmkinli idi. Və replikalarında hansısa fikir ayrılığı, tutalım, yenidənqurma prosesinə qarşı hansısa gözügötürməzliyi yox idi.

O, Siyasi Büroda çox ölçülü-biçili və ehtiyatla davranırdı. Heç vaxt qəti, kəskin bəyanatlar verməzdi. Axı söhbət 1985, 1986, qismən 1987-ci illərdən gedir. Bizim üçün bu, eyforiya dövrü idi. Biz inanırdıq ki, nəhayət, mühafizəkarlıqdan, təşkilatsızlıqdan yaxa qurtarmaq, yerlərə daha çox səlahiyyət vermək, respublikalara, vilayətlərə, müəssisələrə özləri bildiyi kimi işləməyə imkan yaratmaq olar. Əvvəlki qocaman, xəstəhal baş katiblərin yerinə cavan, fəal, insanları təşəbbüskarlığıyla həvəsləndirən dilli-dilavər gəlmişdi, ondan sanki anbaan ideyalar saçılırdı. Və Əliyev... mən özüm də düzgün istiqamətdə hərəkət etdiyimizi, xalq tərəfindən anlaşılmalı olacağımızı düşünürdük. 1985–1986-cı illərin eyforiyası sənaye, kənd təsərrüfatı sahələrinə də sirayət etmişdi. Bizdə hansısa irəliyə doğru tərpənişlər hələ Andropov dövründə, Brejnevdən sonra başlamışdı. 1983, 1984, 1985, 1986-cı illər müəyyən yüksəliş dövrü idi. Axı, əks–yenidənqurma Siyasi Büroda Yakovlev peyda olandan sonra baş verdi. Yakovlev isə oraya yalnız 1987-ci ildə gəlib çıxmışdı".

V.Vorotnikovun sözlərinə görə, Siyasi Büro üzvlərini namizədlərdən və MK katiblərindən illərlə təşəkkül tapmış çərçivələr fərqləndirirdi. Zahirən adama elə gəlirdi ki, Siyasi Büro iclaslarında müzakirə və qərar qəbul edilərkən hamı bərabərhüquqludur. Amma xeyr! Siyasi Büro üzvlərinin iclasqabağı məşvərətlərə yığışdıqları, öz aralarında "örtülü bazar" qurduqları "Orexovaya komnata" onlarla qalan MK üzvləri arasında hansısa gözəgörünməz çəpər yaradırdı... "Qoz otağı"ndan iclas salonuna keçənlər daha hazırlıqlı, məlumatlı, bəzən də razılaşdırılmış qərarla çıxırdılar. Bundan əlavə, hər bir Baş katibin, o cümlədən Qorbaçovun da "nəzdində" Siyasi Büro üzvlərindən ibarət məhdud, etibarlı şəxslər dəstəsi vardı ki, "gensek" onları yaxınlaşdırır, bəri başdan onlarla məsləhətləşir, ən incə mətləbləri xırdalayır və yalnız sonra Siyasi Büroya çıxarırdı. Yeri gəlmişkən, Andropovun da, Çernenkonun da vaxtında bu məhdud qrupa hökmən Heydər Əliyev daxil olurdu.

Nikolay Baybakovla söhbətdən:

"Heydər Əliyeviç Siyasi Büroda hansısa məsələlərə qatılmaqdan çəkinmirdi. O, əvvəlcədən onun kabinetində müzakirə etdiyimiz nöqteyi-nəzəri müdafiə edirdi. O, birbaşa nəyin yaxşı, nəyin yaman olduğunu deyirdi. Bir qayda olaraq onu dəstəkləyirdilər. Bu və ya digər məsələlərin müzakirəsində hansısa xoşagəlməz olaylar yadıma gəlmir. Siyasi Büroda ona hörmət bəsləyirdilər..."

Aleksandra Biryukova ilə söhbətdən:

"– Qorbaçovun vaxtında Siyasi Büro iclasları necə keçirdi?

– Qorbaçovun vaxtında əvvəl, iki il – iki il yarım ərzində iclaslar işgüzar tərzdə aparılırdı. Bu mənim xoşuma gəlirdi. MK katibi, Siyasi Büro üzvlüyünə namizəd olaraq, mən bu məşvərətlərdə əyani cədvəl, diaqramlar asaraq öz nəzər-nöqtəmi müdafiə edə bilərdim. Siyasi Bürodan əvvəl Qorbaçovun yanına gələr, sözümü deyər, açıqlayardım. Hər şey işgüzar şəkildə. Biz etiraz edə, mübahisə edə bilərdik. O, suallar verər, nəyisə dəstəkləyər, nəyəsə etirazını bildirib deyərdi: "Siz burada yanılırsınız, mən isə bunları belə görürəm".

Amma sonralar, xüsusən Maltaya səfərindən sonra, 1988-ci ilin sonları, ya 1989-cu ilin əvvəlləri idi, elə bil birdən-birə dəyişmişdi. Nəsə baş vermişdi. Dəyişikliklər əvvəlki müzakirələrin olmamasından bilinirdi, o, müzakirə materiallarını əvvəlcədən paylamaqdan vaz keçirdi. İlk illərdə yaranmış kollegiallıq yox oldu".

Bundan əlavə, yoldaşlıq ruhu, korporativ həmrəylik ovqatı da sovuşdu. Qorbaçovla onun əlaltıları Baş katibin bəyənmədiyi Siyasi Büro üzvlərinə "badalaq vurmağa" başladılar. Bu "ənənəyə" M.Qorbaçov hələ K.Çernenko dövründə zəmin yaratmışdı. Onun bu riyakarlığının ağrısını ilkin olaraq sovet hökumətinin qocaman sədri N.Tixonov çəkməli oldu.

Çernenkonun özü olmadığı hallarda Siyasi Büro iclaslarının Qorbaçov tərəfindən aparılması haqqında göstərişindən sonra Qorbaçovla Tixonovun araları dəydiyindən söz açmışdıq. O zaman Tixonov bu təklifin əleyhinə çıxaraq rotasiya keçirilməsini təklif etmişdi. Bundan da əvvəl Qorbaçov Nazirlər Sovetini saymayaraq kənd təsərrüfatı ilə bağlı bir sıra məsələləri Siyasi Büro vasitəsilə həll etməyə cəhd göstərəndə hökumət başçısı dəfələrlə narazılığını bildirmişdi. O, Qorbaçovu qınayırdı: "Siz bələd olmadığınız məsələlərə girişməyin. Nə üçün hazırlanmamış məsələləri Siyasi Büroya çıxarırsınız? Biz hələ hökumətdə müzakirə etməmiş çıxarırsınız..."

"Heyfini çıxmağı qət edən Mixail Sergeyeviç (hələ Çernenkonun dövrü idi) N.Tixonova, başı çıxmadığı meliorasiya məsələləri üzrə Plenumda məruzə etməyin tapşırılmasına nail olur. Qorbaçov bildirmək istəyirdi ki, madam sən mənim sərištəsiz olduğumu car edirsən, biz də təsərrüfat məsələsini hökumətə tapşırırıq, sən də məruzə et. Tixonov kağızdan göz çəkmədən məruzəni oxuyanda, bu işdən az baş açdığı bilinirdi. Məsələ çox zəif səsləndi və lazımi effekt törətmədi. Qorbaçov ona göstərdi ki, kənd təsərrüfatı da başbilənlik tələb edən sahədir".

(V.Vorotnikovla söhbətdən)

Təbii ki, Tixonov "köhnə qvardiya"nın təmsilçisi olaraq Qorbaçov tərəfindən zərbə alanlardan birincisi oldu. 27 sentyabr 1985-ci il tarixli SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanıyla vəzifəsindən azad edildi və təqaüdə göndərildi. Həmin fərmanla N.Rıjkov hökumət başçısı təyin edildi.

Beləliklə, Heydər Əliyevə ümid bəsləyənlərin, onun hökumət rəhbəri olmasına havadarlıq edənlərin gözləntiləri özünü doğrultmadı. Şübhəsiz ki, Y.Andropovun Heydər Əliyevi SSRİ

Nazirlər Sovetinin başında görmək niyyəti olsa da, ömrü vəfa etmədi, K.Çernenko bu addımı atmağa cürət etmədi, M.Qorbaçov isə daha üzüyola və xalq içində daha az populyar olan rəhbərə üstünlük verdi...

Bu məqamdan etibarən Siyasi Büroda Heydər Əliyevə qarşı mütəmadi "ilişmələr" və iradtutmalar başlandı. Bu haqsızlıqları mənimlə söhbətində sabiq yollar naziri N.Konarev hiddətlə xatırlayırdı:

"Bu Liqaçov, Qorbaçov kampaniyası onunla bir cürə nataraz davranmağa başladı. Amma Heydər Əliyeviç heç vaxt şikayətlənmir, müəyyən dərəcədə güzəştə gedir, belə münasibətə dözürdü. Hərçənd, belə rəftar ona tamamilə layiq deyildi. Məsələn, Siyasi Büroda, ya Nazirlər Soveti iclasında fikir mübadiləsi aparılır. Birdən-birə Liqaçov tamamilə nəzakətsiz tərzdə "Siz nə danışırsınız?" deyə Heydər Əliyeviçin sözünü kəsə bilərdi".

Bu barədə Sov.İKP MK-nın sabiq katibi A.Biryukova da xatırlayırdı:

"Qorbaçov Heydər Əliyeviçin sözünü kəsə bilərdi. Yaxud həlli müşkül olan, ya uzun zaman baş tutmayacaq məsələlər haqqında sual verirdi: "Niyə siz bunu həll etmirsiniz?". Yəni vurğulamaq istəyirdi ki, guya o, pis işləyir. Burada Yakovlev də çox fərqlənirdi".

Nəhayət, ən ağır "zərbə"ni ona 1987-ci ilin may ayında Qorbaçov vurdu. Siyasi Büro iclası ərəfəsində, axşamüstü Heydər Əliyevə Sov.İKP MK-nın yüngül sənaye üzrə şöbə müdiri zəng vurub fakt qarşısında qoyur: sabah siz Siyasi Büroda xalq istehlakı malları istehsalının və xidmət sahəsinin inkişafına dair kompleks Proqramın yerinə yetirilməsi haqqında məruzə etməlisiniz. Adətən, belə hallarda bir həftə, iki həftə əvvəl xəbər verərdilər, axı belə çıxışlara ciddi hazırlaşmaq gərək idi. İndi isə bir gün də qoymamışdılar. Bir yuxusuz gecə qalırdı...

O, MK katibi Biryukovaya zəng vurub təəccübünü bildirir...

Aleksandra Biryukova xatırlayır:

"Bu, Qorbaçovun iş üslubu idi. Bu, əslində, əməlli-başlı "badalaq" idi. Proqram bir ildən artıq idi ki, hazırlanırdı. MK-da onun üzərində Rıjkov, Nazirlər Sovetində Əliyev çalışmışdılar. Həmkar-

lar İttifaqını oraya da, buraya da dəvət edirdilər. 1986-cı ildə Proqram təsdiqlənmiş, onun reallaşdırılması başlanmışdı.

Qorbaçov hər şeyi əvvəlcədən planlaşdırmağı, insanların yaxşı hazırlaşmasına imkan verməyə vərdiş etməmişdi.

Yəqin saat yeddi olardı, o, Əliyevə zəng vurdu. Yadımdadır, axşam saat səkkizə işləmiş Heydər Əliyev mənimlə zəngləşib soruşdu:

– Aleksandra Pavlovna, sabah Siyasi Büroda nə olacağı sizə məlumdurmu?

Dedim ki, indicə gündəliyi almışam (ən yaxşı hallarda bir, iki sutka əvvəl çatdırılırdı). Biz, MK katibləri, daima Siyasi Büro işinə qatılırdıq.

Heydər Əliyev bunun nə ilə bağlı olduğunu, Qorbaçovun məni çağırıb-çağırmadığını soruşdu. Dedim çağırmayıb. Bir onu bilirdim ki, kimsə mağazalarda alınası bir şey olmadığı haqda ona şikayətlənib, Qorbaçov da özündən çıxaraq Siyasi Büronun gündəliyinə Proqramın reallaşdırılması üzrə hesabatı daxil edib".

Heydər Əliyev köməkçilərilə bütün gecəni oturub, çalışıb, ertəsi günü Siyasi Büroda özünütənqid ruhlu məruzə ilə çıxış edərək, əslində, ali partiya iqtidarı tərəfindən Proqramın həyata keçirilməsi işinin qeyri-qənaətbəxş olması haqqında qərarını bəri başdan müəyyənləşdirmişdi...

Burada haşiyə çıxıb həmin proqramın məğzi və qarşıya qoyduğu vəzifələr haqqında oxucuları məlumatlandırmaq yerinə düşərdi.

Bu miqyaslı sənədin tam adı belədir: "1986–2000-ci illər üçün xalq istehlakı malları istehsalının və xidmət sahəsinin inkişafına dair kompleks Proqram".

Heydər Əliyevin Siyasi Büroda məruzəsindən:

"Mallar və xidmətlər üzrə Proqram layihəsi Sov.İKP 26-cı qurultayının qərarları, MK Plenumunun (1985-ci il) göstərişləri, ölkənin sosial-iqtisadi inkişafı üzrə vəzifələrə uyğun olaraq işlənib hazırlanmışdır. O, qarşıdakı 15 il ərzində sovet adamlarının rifahının ardıcıl artırılmasını təmin etməlidir.

...Xatırlatmaq istəyirəm ki, Proqram layihəsinin bilavasitə hazırlanması 1983-cü ilin sentyabrında MK Siyasi Bürosunun bu məsələ üzrə xüsusi qərarı qəbul edildikdən sonra başlandı. Bu iş SSRİ

Dövlət Plan Komitəsi tərəfindən müttəfiq respublikaların Nazirlər Sovetləri, SSRİ nazirlikləri və idarələri, ÜİHİMŞ və ÜİLKGİ Mərkəzi Komitəsi ilə birgə aparılırdı. Proqramın işlənib hazırlanmasına rəhbərlik və nəzarət üçün Rıjkov, Kapitonov, Arxipov, Baybakov, Marçuk və başqa yoldaşların daxil olduğu (19 nəfər) komissiya yaradılmışdır.

Proqramın hazırlanması gərgin, mürəkkəb keçirdi. Komissiya müntəzəm olaraq Proqramın işlənməsinin gedişatını, nazirliklərin və idarələrin təkliflərini, bu proqrama aid MK və Nazirlər Sovetinin qərar layihələrini nəzərdən keçirirdi".

Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 16 oktyabr 1986-cı il tarixli 1238 saylı "Sosial inkişafın idarəedilməsinin təkmilləşdirilməsi haqqında" Qərarına uyğun olaraq bu sosial proqramın həyata keçirilməsinə nəzarət etmək məqsədilə **Nazirlər Sovetinin Sosial İnkişaf üzrə Bürosu** yaradılmışdır. Bir çox İttifaq nazirləri və dövlət komitələri sədrlərinin qatıldığı Büronun sədri vəzifəsində Heydər Əliyev təsdiqlənmişdi.

Büronun qarşısında planlaşdırmanın, təsərrüfat mexanizminin və sosial kompleksin çoxsaylı sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı həqiqətən də intəhasız vəzifələr qoyulmuşdu.

Nazirliklərin və idarələrin Kompleks proqramın yerinə yetirilməsi üzrə fəaliyyətinin əlaqələndirilməsinə və nəzarət olunmasına xüsusi diqqət yetirilirdi. Eyni zamanda Büroya geniş hüquq və səlahiyyət verilirdi.

Sosial inkişaf üzrə təkliflərin hazırlanması, bu sahədə elmi araşdırmaların əlaqələndirilməsi məqsədilə SSRİ Elmlər Akademiyası, hökumət nəzdində Xalq Təsərrüfatı Akademiyası, elmi-tədqiqat institutların, nazirlik və idarələrin layihə təşkilatlarından alim və mütəxəssislər daxil olmaqla büronun **Elmi Şurası** yaradılmışdır.

Büronun tərkibinə sədr və onun üç müavinindən başqa təxminən iyirmi müxtəlif yönəmli nazirlik, dövlət komitələri, idarələrinin rəhbərləri – mədəniyyət nazirindən tutmuş Dövlət Təchizat Komitəsi və Dövlət İnşaat Komitəsinin başçıları daxil edilmişdir.

Yeri gəlmişkən, Heydər Əliyev Sosial İnkişaf Bürosuna rəhbər təyin edilsə də, digər sahələrə – nəqliyyat və rabitəyə kuratorluqdan azad edilməmişdi. Yalnız bir il sonra, 1987-ci il sentyabrın 5-

də həmin məsələlərə baxmaq hökumət sədrinin müavini G.Vedernikovun öhdəsinə verilmişdi.

SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin
5 sentyabr 1987-ci il tarixli 56 saylı
iclas protokolundan
ÇIXARIŞ

"... SSRİ Nazirlər Soveti sədrinin müavinləri (yol.Rıjkov, Smirtyukov, Əliyev, Vedernikov) arasında vəzifə bölgüsünün qismən dəyişdirilməsi haqqında.

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini yol.H.Ə.Əliyevin diqqətini SSRİ Nazirlər Sovetinin Sosial İnkişaf üzrə Bürosuna rəhbərlik üzərində cəmləşdirmək zəruriyyətindən çıxış edərək, SSRİ Nazirlər Sovetində nəqliyyat və rabitə məsələlərinin baxılması SSRİ Nazirlər Soveti sədrinin müavini yol.G.G.Vedernikovun öhdəsinə verilsin.

SSRİ Nazirlər Sovetinin sədri N.Rıjkov".

Heydər Əliyevin köməkçisi E.Proxorenko ilə söhbətdən:

"SSRİ-də Mərkəzi İstehlak Birliyinin çox qüdrətli, demək olar ki, ölkənin yarısını yedizdirən kooperativ sistemi var idi. Sovet dövründə vilayət mərkəzlərində, respublikaların iri sənaye şəhərlərində əhalinin mallarla, məişət xidməti ilə təmin edilməsi Ticarət Nazirliyinin səlahiyyətində idi. Qalan yerlərdə – kiçik şəhərlərdə, kəndlərdə isə istehlak kooperasiyası Mərkəzi Birliyin əlində idi. Respublikalarda da istehlak birlikləri var idi. Onlar da əhalini təmin edirdilər. Əhali təminatına ehtiyatlar ayrılanda, onların yarısı İttifaq və münasib respublika ticarəti vasitəsilə yayılır, qalan yarısı da kooperasiya vasitəsilə əhaliyə çatdırılırdı.

Lakin hələ o vaxtlar bazar münasibətlərindən, bazar mexanizmlərindən faydalanmaq zəruriyyəti yetişmişdir. Yenidənqurma başlananda siyasətdə, iqtisadiyyatda, sosial sahədə yanaşmaların dəyişilməli olduğu anlaşıldı. Mərkəzi Komitədən "Kooperativlərin inkişaf etdirilməsi haqqında" geniş sənəd, qərar layihəsi daxil oldu. Siyasi Büroda, hökumət arasında ciddi işlər aparıldı, kooperativlərə digər

ailə üzvlərinin, təqaüdçülərin qatılması üzrə Macarıstanın təcrübəsi öyrənildi.

Elə o vaxt çox vacib sənədin – "1986–2000-ci illər üçün xalq istehlakı malları istehsalının və xidmət sahəsinin inkişafına dair kompleks Proqram"ın hazırlanması qət edildi.

Bu ciddi iş 1985-ci ildə başlanmışdı. Heydər Əliyeviç on beşədək hökumət, MK və Ali Sovetin birgə qərarlarını ehtiva edən bu miqyaslı sənədin hazırlanması üzrə Siyasi Büronun komissiyasına başçılıq edəndə, bu sənəddə 2000-ci ilədək yüngül sənaye mallarının bütün növlərinin – paltar, ayaqqabı, məişət cihazları istehsalının artırılması proqramı sərrast cizgilənmiş, planlaşdırma, iqtisadi həvəsləndirmənin təkmilləşdirilməsi üzrə tədbirlər nəzərdə tutulmuşdu. Proqram üzərində bir ildən artıq iş aparılmışdı. Sonra sənəd Siyasi Büroda bəyənilmiş və gerçəkləşməyə başlamışdı. Vaxtaşırı bu məsələlərə Siyasi Büroda baxılır, mütəmadi olaraq sosial inkişaf üzrə Büro iclaslarında müzakirə edilir, nazirliklərin hesabatı dinlənirdi.

Və bütün bu nəhəng işlərə Heydər Əliyeviç rəhbərlik edirdi. Demək olar, bütün nazirliklər, Dövlət Plan Komitəsi, elm fəaliyyətə qoşulmuşdu. Proqramın reallaşdırılmasına ən müxtəlif nazirliklər, məsələn, yalnız Yüngül Sənaye deyil, Maşınqayırma Nazirliyi də qatılırdı, axı, avadanlıq istehsal olunmalı idi, – Maliyyə Nazirliyi də, – vəsait, valyuta ayırmalı idi və s. Maliyyə Nazirliyi adətincə "pul yoxdur" deyir. Deməli, avadanlıq çatışmır. Madam ki, çatışmır, müdafiə sənayeçiləri cəlb olunmalıdır. Onlara tapşırılır: "Təkliflərinizi verin – əlinizdən nə gəlir". Müdafiə sənayesi o zaman çox qapalı sahə olsa da, hərbi sənaye kompleksini də işə salırdılar.

Yalnız yüngül sənaye üçün yüngül maşınqayırma və işə maşınqayırması nazirliklərinin, müdafiə nazirliklərinin müəssisələrində ən müasir avadanlıq istehsalının təşkili məqsədilə iyirmidən artıq lisenziya alınmışdı.

Yaponiyadan tikiş maşınları istehsalı üçün lisenziya alınmış, Azov zavodunda istehsalat xətti quraşdırılmışdı. Corabtikən avtomatlar buraxan Tula zavodu üçün "Jakkard" maşını istehsalı məqsədilə lisenziya alınmış, həmin dəzgah "Jakkard" parçası toxuyurdu. Yəni bunlar çox geniş həcmli iş idi. Dəfələrlə, saatlarla müza-

kirələr, mübahisələr aparılırdı. Axı ölkədəki resurslar o qədər bol deyildi ki, bütün vasitələr proqramın reallaşdırılmasına yönəldilsin. Ona görə də nəzərdə tutulanların daha yaxşı gerçəkləşdirmə variantları araşdırılırdı".

İki ilə yaxın Heydər Əliyev bilavasitə kompleks Proqramın həyata keçirilməsi ilə məşğul olur, – respublika və ümumittifaq müşavirələri keçirir, Mərkəzi Komitə və İttifaq hökumətinin müvafiq qərarlarını hazırlayır (bu müddət ərzində onların sayı 17-yə çatmışdı!), mütəxəssislərlə birgə yüngül sənaye iqtisadi mexanizminin təkmilləşdirmə yolları, müəssisələrin iqtisadi metodlarla idarəedilməsinin inkişafı, iri, orta və kiçik müəssisələrin yüngül sənaye sistemində rasional uzlaşdırılması haqqında düşünür. Üstəlik, müəssisələrə yollanır, yerlərdə mövcud olan problemlərlə tanış olur, respublikalararası topdansatış yarmarkalarına baş çəkir...

O zaman Azərbaycan toxuculuq mallarının təchizi və satışı ilə bağlı birliyə başçılıq etmiş Qəndab Səfərova belə yarmarkaların birini xatirində saxlayır. Əvvəla, Heydər Əliyevlə görüşüb söhbətləşmək, ünsiyyət imkanı tapdığına görə. İkincisi də – bu hadisədən sonra Azərbaycan toxuculuq sənayesində rekonstruksiya və modernləşdirməyə doğru əsaslı dönüş baş vermişdi.

Qəndab Səfərova xatırlayır:

"Birliyimizin vəzifələri sırasına respublikada buraxılan toxuculuq mallarına əhalinin ehtiyacını müəyyənləşdirmək, eləcə də onların keyfiyyətinə nəzarət etmək daxil idi. Respublika müəssisələri ipək, pambıq iplikli, kamvol – mahud parçalar buraxırdılar. Düzü, avadanlığın texniki və texnoloji baxımdan köhnəldiyindən məhsul keyfiyyətcə o qədər də ürəkaçan deyildi.

Hər müəssisənin məhsul nümunələrinin təqdim edilməsi və sərgilənməsi, ardınca da müqavilə bağlanılması üçün öz guşəsi ("boks"u) vardı. Və bir gün bizə xəbər verdilər ki, yarmarkaya SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev yüngül sənaye naziri Tarasov, nazir müavini Saruxanov və başqa məsul şəxslərlə gələcək. Əlbəttə, sevincimiz yerə-göyə sığmırdı, çünki bu mötəbər nümayəndə heyətinə bizim Heydər Əliyeviç başçılıq edirdi.

Adətən, yüksək vəzifəli qonaqlar əvvəl Baltikyanı respublikaları, Rusiya, Ukrayna, Belarusiya, Qazaxıstan müəssisələrinin sərgilərini gəzib bizim tərəfə yönəlirdilər. Amma bu dəfə Baltikyanı respublikaların buraxdığı parçaları nəzərdən keçirib (o tərəflərdə istehsalat mədəniyyəti həmişə yüksək səviyyədə olmuşdur), birbaşa bizim "boks"a üz tutdular. Yəqin kimlərsə nümayəndə heyətinin başçısına xalq istehlakı malları istehsalında onlarla bizlər arasında kəskin fərqi göstərmək niyyətindəymiş...

Əlbəttə, bizim parçalarda naxışların bulanıq, ala-bula görünməsi, hələ keyfiyyətini demirəm, Heydər Əliyevin nəzərindən yayınmadı. O, Azərbaycan Yüngül Sənaye Nazirliyinin məsul təmsilçisinə bəzi suallar vermək istədi. O vaxt nazir müavini olan Xəlilov yerində olmadığından Heydər Əliyeviçin suallarını mən cavablandırmalı oldum. Mən söylədim ki, Moskvaya, yarmarkaya yollanmazdan əvvəl respublikanın toxuculuq müəssisələrinin hamısına baş çəkmişəm. V.Lenin adına ən böyük Pambıq – Parça kombinatında təmir on illər boyu aparılmamış, avadanlıq isə az qala Hacı Zeynalabdin Tağıyevin dövründən qalandır və çənlərin içinə tavandan palçıq topaları qopub düşür. Bu da parçalar üzərindəki boyaların keyfiyyətinə təsir göstərir. Avadanlığa gəldikdə, bizə hansısa dəzgah, hacat göndərilsə də, bir qayda olaraq, təzəsi deyil, istifadə edilmiş olur.

Heydər Əliyeviç məni diqqətlə dinləyib yüngül sənaye naziri Tarasova üz tutdu və vəziyyətə uyğun olan tərzdə, kəskin ahəngləː "Mən sənə demişdim, təkrar edirəm: araşdır!" – tapşırdı.

Həmin axşam məni mehmanxanada tapıb təcili olaraq respublika toxuculuq sənayesinin avadanlığa tələbatı haqqında arayış yazmağı xahiş etdilər. Mən Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini Şeqlova zəng vurub vəziyyəti bildirdim. O, sevincək olub dedi ki, sabah səhər təyyarə ilə arayış yollayacaq. Elə də oldu. Ertəsi gün mən sənədi SSRİ Yüngül Sənaye Nazirliyinin təmsilçilərinə çatdırdım.

Yarmarkadan az sonra V.Lenin adına kombinat təmirə görə işini dayandırdı, təmir dövründə orada təzə avadanlıq quraşdırıldı. Bundan başqa, Şəki İpəkçilik Birliyində enli parçalar istehsalı üçün (əvvəllər 90 santimetrdən enli olmayan parçalar buraxırdıq) xarici dəzgahlar quruldu, başqa toxuculuq müəssisələri də yenidən təchiz edildi".

1987-ci ilin əvvəlində, ötən il ölkənin iqtisadi və sosial inkişafı üzrə dövlət planı və dövlət büdcəsinin yerinə yetirilməsinin yekunları müzakirə edildiyi hökumət iclasında uğurlar sırasında Heydər Əliyevin kuratorluq etdiyi sosial sahədə tərəqqi qeyd olundu.

İclas haqqında SİTA-nın hesabatında deyilirdi: "... Maarif, səhiyyə və sosial təminat işçilərinə əmək haqqının artırılması üzrə tədbirlər görülmüşdür. İctimai istehlak fondlarından əhaliyə ödənişlər və imtiyazlar verilməsi artmışdır. Pərakəndə satış üzrə əmtəə dövriyyəsi 6,4 faiz, ödənişli xidmətlərin həcmi – 10,2 faiz artmışdır. Mənzil və xüsusən sosial-mədəni inşaatın miqyasları xeyli genişlənmişdir".

Bununla belə, Siyasi Bürodakı məruzəsində Heydər Əliyev özü 1986-cı və 1987-ci ilin əvvəlində proqram icrasının gedişini yetərincə tənqidi qiymətləndirmişdi:

"Xalq istehlak malları nomenklaturu üzrə Proqram tapşırıqlarının yerinə yetirilməməsi xüsusi narahatlıq doğurur. Proqram müstəvisində 41 məmulat növündən yalnız 13 növü hasil edilmişdir. Həm də tapşırıqların yerinə yetirilməməsi kütləvi xarakter daşıyır. Mərkəzi Statistika İdarəsinin qeydiyyata aldığı 1200 məmulatdan praktiki olaraq hər ikincisi üzrə planlar yerinə yetirilməmişdir.

Bəzi malların buraxılışı hətta 1985-ci illə müqayisədə azalmışdır.

Kompleks Proqramın icrasına görə "A" qrupu sahəsinə aid nazirliklər və idarələr böyük məsuliyyət daşıyırlar. 1986-cı ildə 18 nazirlik plan tapşırıqlarının yerinə yetirilməsini təmin etməmişdir. Proqramda nəzərdə tutulan 28 məmulat növündən 18-i üzrə tapşırıqlar yerinə yetirilməyib.

Cari ildə vəziyyət daha da pisləşmişdir. Əslində, bir sıra ən vacib mədəni-məişət və təsərrüfat təyinatlı mallar istehsalı üzrə tapşırıqlar boşa çıxarılmışdır.

Müttəfiq respublikalarda xalq istehlakı malları istehsalına lazımi diqqət yetirilmir. Proqramdan irəli gələn mal buraxılışının ortalama illik artım sürətinə 11 müttəfiq respublika gəlib çatmamışdır. İllik planın öhdəsindən Özbəkistan SSR, Gürcüstan SSR və Azərbaycan SSR gələ bilməmişlər.

Əhaliyə 1,8 milyard rubl məbləğində xidmətlər göstərilməmişdir. 8 müttəfiq respublika ödənişli xidmətlər üzrə Proqram tapşırıqlarını yerinə yetirməmişdir.

Əhalinin sifarişlərilə yaşayış binalarının təmiri və tikintisində xüsusən uğursuz vəziyyət yaranmaqdadır. 1986-cı ilin bu xidmətlər üzrə planı 81 faiz, 1987-ci ilin birinci rübündə isə 83 faiz yerinə yetirilmişdir...

Beləliklə, ötən dövr üzrə işin yekunları, kompleks Proqramın gerçəkləşdirilməsində ciddi qüsurlar və kəm-kəsirlər olduğunu, Proqramın bir sıra tapşırıqlarının, həmçinin, Sov.İKP MK və SSRİ Nazirlər Soveti qərarlarının yerinə yetirilməsinin qeyri-qənaətbəxş olduğunu göstərir".

A.Biryukova ilə müsahibə apararkən mən ondan müzakirənin necə getdiyini xatırlamasını xahiş etdim.

"...Onun məruzəsindən sonra kəskin tənqid baş aldı. Yakovlev, Talızin (çox "dərinə getməsə" də, – axı özü "Qosplan"da bu Proqramla məşğul olurdu, həm də rəis əleyhinə olanda, Talızin də əleyhinə, lehinədirsə, o da lehinə çıxış edəcəkdi) danışdılar. Şerbitski söz aldı, – tənqidi çıxış etsə də, zənnimcə, obyektiv danışdı. Belarusiya MK-nın birinci katibi çox ciddi çıxış etdi, Qazaxıstan, Özbəkistan KP Mərkəzi Komitələrinin "birinci"ləri danışdılar, hərçənd, elə bir ucdan nəsə xahiş edirdilər.

Mən MK adından çıxış etdim. Heç vəchlə tənqidə əl atmadım, çünki bu, həm də mənim proqramım idi, biz onu Heydər Əliyeviçlə hazırlamışdıq. Mən onu dəstəklədim, dedim ki, bir çox işlər düzgün aparılır, Heydər Əliyeviç bəlkə bu barədə söz açmağı rəva bilməyib, mən isə bildirdim ki, biz Qərbdən yüngül sənaye üçün böyük miqdarda avadanlıq almadan keçinə bilmərik. Xatirimdədir, xarici avadanlıqdan istifadə etdiyimiz təqdirdə nələr əldə ediləcəyini açıqlayan diaqramlar da asıb göstərmişdim.

Siyasi Büro belə qənaətə gəldi ki, proqram zəif, qeyri-qənaətbəxş yerinə yetirilir (aparılan işlər yox, məhz proqramın icrası) və müzakirənin yekunları üzrə təklif və qərar layihəsinin hazırlanmasını tapşırdı".

Heydər Əliyevin sosial məsələlər üzrə köməkçisi E.Proxorenko xatırlayır ki, Proqramın Siyasi Büroda müzakirəsi, xüsusən müzakirənin tonu Əliyevə ağır təsir bağışlamışdı. Eduard Qriqoryeviç əmindir ki, bu əhvalat üç gündən sonra (iclas mayın 7-də keçirilmişdir) baş vermiş şiddətli infarktı törədən səbəblərdən biri olmuş-

dur. Məhz buna görə də mən bu epizod üzərində ətraflı dayanmağı lazım bildim.

A.Biryukova mənə söyləmişdi ki, ona qarşı oxşar "qurama"ya Qorbaçov 1989-cu ildə, xalq deputatları qurultayı zamanı əl atmışdı. Qurultayda dava-dərmanla bağlı ölkədə yaranmış bərbad vəziyyət bir çox tənqidlərə məruz qalır. Fasilədən sonra Biryukovanın kabinetində (həmin vaxtlar o, Heydər Əliyevin yerini tutmuşdu və həmin kabinetdə işləyirdi) birbaşa rabitə xəttilə Qorbaçovdan zəng gəldi.

– Sabah saat 11-də siz Siyasi Büroda ölkənin dərman preparatları ilə təmin edilməsi haqqında məruzə edəcəksiniz. Niyə belə vəziyyət yaranmışdır?

Aleksandra Pavlovna sözünə davam edir:

"Əvvəllər mənə yaxşı münasibət bəsləyirdi, amma mən, heyhat ki, "züy tutmağı" bacarmırdım, həmişə düzünü deyirdim. O, haqsız olanda, bunu sübut etməyə çalışırdım.

– Mixail Sergeyeviç, – dedim, – bu məsələ mənlik deyil. Dərman preparatları və kimya ilə Vladimir Kuzmiç Qusev məşğul olur. Mənim sahəm isə səhiyyədir. Mən dərman istehlakçısıyam.

– Məruzəni siz edəcəksiniz. Qusev ezamiyyətdədir.

Mən səhiyyə nazirini, mütəxəssisləri dəvət edib hazırlaşmağa başladım. Hamımız gecə Kremldə qaldıq. Çox yaxşı hazırlaşmaq lazım idi, Siyasi Büroda məruzə məsuliyyətli iş idi. Ələlxüsus da ki, Qorbaçov deputatlar qurultayı komitə sədrlərinin hamısını, respublika kommunist partiyaları mərkəzi komitələrinin birinci katiblərini dəvət etmişdi.

Mən səhər saat yeddiyədək hamını saxladım, sonra buraxdım, özüm isə, məruzə çap edilənə qədər soyuq duş qəbul etdim.

Siyasi Büroda çıxışımın lap əvvəlində, bir-iki dəqiqə keçər-keçməz Qorbaçov sözümü kəsdi:

– Siz, hökumət olaraq, əczaçılıq sənayesi sahəsində düzgün siyasət aparmırsınız.

Mən isə Ümumittifaq Həmkarlar İttifaqı Mərkəzi Şurasının nümayəndəsi kimi, Nazirlər Sovetinin iclaslarına tam 18 il olmasa da, ən azı 16 il gedirdim. Odur ki, Qorbaçov "qeyri-düzgün siyasət"dən deyəndə, cavab verdim:



«Səhiyyə–85» sərgisinin açılışında. 28 may 1985-ci il.

H.Əliyev Kazan universitetinin fəxri qonaqları kitabına ürək sözlərini yazır. İyun, 1985-ci il.

Kazan səhəl əli məktəbi şagirdlərinin görüşü. 1985-ci il, iyun ayı.

Üçüncü katib Le Zuanın Moskvaya səfəri. 28 iyun 1985-ci il.

H.Əliyev Kurqan şəhərində. 14-17 noyabr 1985-ci il.

Kurqan şəhərinin sakinləri ilə improviza edilmiş görüş.



Beynəlxalq Gənclər ilinin keçirilməsi üzrə Komissiyanın iclası. 31 yanvar 1986-cı il.



Beynəlxalq Gənclər ilinin keçirilməsi üzrə Komissiyanın iclası. Sağda – Sov.İKP MK katibi B. Ponomaryov.

H.Əliyev Sov.İKP XXVII qurultayında çıxış edərkən. 27 fevral 1986-cı il

Sov.İKP XXVII qurultayında.
H.Əliyev birinci sırada, M.Qorbaçovdan solda.



1 may 1986-cı il. Dövlət rəhbərlərilə yadigar çəkdirilmiş fotoşəkil.



SSRİ Neft-Kimya Sənayesi Nazirliyində
xalq istehlakı malları sərgisində. İyun, 1986-cı il.



Çeboksarı şəhərindəki pambıq-parça zavodunda. 6 iyun 1986-cı il.



Çeboksarı «Tekstilmaş» İstehsalat Birliyinin yeməkxanasında. İyun, 1986-cı il.



H.Əliyev «Çeboksarets» mağazasında.



H.Əliyev xalqla təmasda olmağı həmişə xoşlayırdı.



İ.Broz Titonun xatirə kompleksinin önünə əklil qoyulması. İyun, 1986-cı il.



H.Əliyev İ.Broz Titonun xatirə kompleksində olduqdan sonra fəxri qonaqlar kitabına ürək sözlərini yazır. İyun, 1986-cı il.



H.Əliyevlə A.Lukyanovu şərq poeziyasına məhəbbət dostlaşdırdı.



Belqrad şəhərində univermaqda. İyun, 1986-cı il.



Heydər Əliyev Vaşinqtona səfərindən sonra aeroportda qarşılanması. İyun, 1986-cı il.

– Mixail Sergeyeviç, düzgün siyasət aparmayan biz deyilik. Düzgün olmayan siyasəti yeridən bizim hökumət deyil. Sizin də üzvü olduğunuz sabiq Siyasi Büro və sabiq hökumət illər boyu qeyri-düzgün siyasət aparmışlar. Çünki "SEV" (Qarşılıqlı İqtisadi Yardım Şurası, QİYS – *E.A.*) üzrə bütün sazişlərdə, sənədlərdə yazılmışdır ki, biz, SSRİ olaraq, çoxtonnajlı kimyəvi məhsulları hasil edəcək, "xırda-xuruş" sayılan sahələrə qatılan farmasiyanı isə QİYS ölkələri, o cümlədən, ADR, Bolqarıstan, Polşa, Rumıniya, Macarıstan buraxacaqlar. Ötən on beş il ərzində Sovet İttifaqı əczaçılıq sənayesinə milyard dollardan az vəsait qoyduğu halda, biz QİYS ölkələrinə 20 milyard dollar maya qoymuşuq. İndi onlar tədarükü dayandırıb hesablaşma tələb edirlər.

O, dinmədi. Hamı susdu. Ağır sükut, yəqin ki, yarım dəqiqə sürdü...

Bundan sonra o mənə münasibətini dəyişdi, daima "ilişməyə" başladı. Amma orada, Siyasi Büroda, mənim üçün artıq fərqi yox idi, elə sıxma–boğma başladı ki, gah bu, gah o..."

Qorbaçovun bütün ideyaları və eksperimentlərinə baxmayaraq, ölkə iqtisadiyyatı get-gedə daha gur taqqıltıyla çat verir, sökülüb dağılırdı... Baş katib isə, SSRİ-də xalq təsərrüfatının inkişafının doğru-dürüst strategiyasını müəyyənləşdirmək əvəzinə, daha artıq səylə günahkarları axtarırdı. Tezliklə "konservator"lar adlanan, Brejnev-Andropov dövründə işləmiş partiya rəhbərləri ittiham hədəfinə çevriləcəklər. "Yenidənqurma"nın bütün uğursuzluqlarını onların ayağına yazmağa çalışacaq və necə deyərlər, daşa basacaqlar... Onların sırasına bizim qəhrəmanımız da düşəcək...

Heydər Əliyev və sovet səhiyyəsi

Aleksandr Qavrilovla söhbətdən:

"– Heydər Əliyeviç bir çox sahələrə kuratorluq edirdi. O, öz fəaliyyətində hansısa istiqamətə üstünlük verirdimi?

– Mən səhiyyəni qeyd edə bilərdim. Bu sahə həmişə onun xüsusi diqqəti altında olub. O, hesab edirdi ki, prioritetlər sırasında bi-

rinci yerdə dəmir yol nəqliyyatı, ikincidə – səhiyyə olmalıdır. Daha sonra mədəniyyət, yüngül sənaye və s.

Svyatoslav Fyodorovla bağlı bir epizodu misal gətirim. O, oftalmoloji araşdırmaları ilə bağlı Əliyevə müraciət edib dəstək istəmiş, Volqaboyu səfərə çıxıb, eyni zamanda insanları səyyar şəraitdə müalicə etmək üçün laboratoriya verilməsini xahiş etmişdi. Fyodorovun institutu hələ yox idi, nəsə olsa da, rüşeym halında, çox məhdud imkanlara malik idi. Fyodorovu tanımaq istəmirdilər, dəstəkləmirdilər, onun ideyalarını xam xəyal sayırdılar.

O, Heydər Əliyeviçə müraciət etdikdən sonra, Əliyevin binagüzarlığı ilə sovet hökumətinin qərarı hazırlandı və qərarın sayəsində Fyodorova böyük yardım göstərildi. Əliyev əvvəl Rıjkovun yanına gedib problemi açıqlamış, onu inandırmışdı ki, bu dəstəklənməli istiqamətlərdən biridir. Rıjkov məsələni Nazirlər Sovetinə çıxarmağı təklif etmiş, ardınca sanballı qərar qəbul olunmuşdu.

Fyodorovun sonralar vüsət verdiyi hərəkatın inkişafına – yəni əhaliyə kütləvi və əngəlsiz oftalmoloji xidmətin genişləndirilməsinə gəldikdə, demək olar ki, onun başlanğıcında Heydər Əliyeviç Əliyev durmuşdu.

Səhiyyə qarşısında bütün ölkənin dispanserləşdirilməsi ən vacib vəzifə kimi qaldırıldı. Bu təşəbbüsün qaynaqları da Heydər Əliyeviçlə bağlıdır. O, diaqnostika mərkəzlərinin yaradılmasına, dispanserləşdirmə aparılmasına fəal yardım göstərmişdi. Bu əməllər Uzaq Şərqdən, Sibirdən, yəni heç bir iş görülmədiyi bölgələrdən başlanmışdı".

Həqiqətən, hələ 1984-cü ilin dekabr ayında əhalinin bütövlükdə dispanserləşdirmə ideyası Heydər Əliyev tərəfindən bütün ölkə miqyasında səsləndirilmişdi. Dekabrın 14-də SSRİ Tibb Elmləri Akademiyasına Lenin ordenini təqdim edən Heydər Əliyev İttifaqlar Evinin Sütunlu salonunda təntənəli iclasda fundamental təbabətin və sovet səhiyyəsinin vəzifələri haqqında geniş nitq söyləmişdi.

Ədəbi baxımdan sərrast, zəngin məzmunlu nitqin əsas məqamları "Pravda", "İzvestiya", "Sovetskaya Rossiya" qəzetlərində *(15 dekabr 1984-cü il)* açıqlanmış, tam mətni isə "Meditsinskaya qazeta"da *(19 dekabr 1984-cü il)* verilmişdi.

Bax, elə o vaxtlarda Heydər Əliyev bu ideyanı geniş tibbi ictimaiyyətin yanaşması vasitəsilə sınaqdan keçirmişdi.

Onun nitqindən çıxarışlar:

"...Ömür davamlığının daha da uzadılması, ürək-damar xəstəliklərinin azaldılması, yeni nəslin sağlamlığının möhkəmləndirilməsi, xəstəliklərin erkən diaqnostika və müalicəsi üzrə daha kamil metodların tətbiqi problemləri tibb elminin, səhiyyə orqanlarının və digər sosial təsisatların birgə səylərini tələb edir. Nəzəriyyə, metodologiya və sosiologiyanın fundamental məsələlərinin işlənməsi önəmli dərəcədə yüksək səviyyəyə qaldırılmalıdır.

Bu problemlərin həllinin magistral yolu – elmi araşdırmaların, bütün səhiyyə sistemi işinin intensivləşdirilməsi, onun keyfiyyətinin yüksəldilməsi, elm və texnika nailiyyətlərinin daha sürətlə mənimsənilməsi və ilk növbədə bizim artıq malik olduğumuzdan rasional faydalanmasıdır...

Sosialist cəmiyyətində sağlamlığın qorunmasının təməl prinsipi profilaktikadır. Partiyanın irəli sürdüyü vəzifə – bütün əhalinin ilbəil dispanserləşdirilməsinin mərhələ-mərhələ tətbiq edilməsi bu məqsədə səmərəli xidmət etməlidir.

...Sosialist sivilliyi anlamı, insanın ümumi mədəniyyətilə yanaşı, yüksək fiziki mədəniyyəti, sanitar-gigiyenik mədəniyyəti nəzərdə tutur. Buraya həm də asudə vaxtın rasional təşkili, elmi baxımdan əsaslandırılmış qidalanma sistemi, salelı tələbatın formalaşması, öz sağlamlığına... xüsusi bir ictimai sərvət kimi yanaşma daxildir. Həmçinin, tibbi biliklərin təbliğinin ciddi şəkildə yaxşılaşdırılması haqqında düşünmək lazımdır"[28].

Bunlar sadəcə xoş arzular deyildi. Tezliklə Heydər Əliyevin söylədikləri vəzifələr SSRİ-də yerinə yetirilməyə başladı. Yaxşı ki, Rusiyada kitabımızın qəhrəmanı tərəfindən bu problemin həllinə verdiyi töhfələri yad eləyənlər var. Ötən əsrin 90-cı illərində SSRİ Səhiyyə Nazirliyinin 4-cü Baş İdarəsinin sabiq həkimi, hazırda Rusiya Səhiyyə Nazirliyinin Pulmanologiya üzrə Elmi-Tədqiqat İnstitutunun rəhbəri, akademik Aleksandr Qriqoryeviç Çuçalinlə tanış olmuşdum. Onun mənə söylədiklərindən:

"Mən Heydər Əliyeviçə səhiyyə üçün, tibb elmi üçün gördüyü işlərə görə təşəkkür etmək istərdim. Onun adıyla iki böyük hadisə bağlıdır. Birincisi, o, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu zaman, sovet elminin inkişafında çox mühüm rol oynamış "Elm haqqında" qərar hazırlanmışdı. Yenə də Heydər Əliyevin təşəbbüsü ilə hazırlanmış və qəbul edilmiş ikinci vacib qərar SSRİ-də diaqnostik mərkəzlərin yaradılmasına aid idi. Bugün mövcud olan və yaşadığımız çətinliklərə baxmayaraq, saxlaya bildiyimiz səhiyyə bir çox baxımdan həmin bu dayaq diaqnostik mərkəzləri sayəsində qalmaqdadır. Və təbii ki, Rusiya elmi Heydər Əliyeviçə təşəkkür edir. O, həmişə alimlərə, diskussiyalara, axtarışlara açıq olmuşdur, alimlər də hörmət və məhəbbətlə ona cavab verirdilər. Ümumiyyətlə, ürəyimə xilaf çıxmadan deyə bilərəm, o, görkəmli şəxsiyyətdir".

Yeri gəlmişkən, Heydər Əliyev özü də bilmədən Rusiyanın gələcək prezidenti Boris Yeltsinin haçansa dadına çatacaq nəcib əmələ zəmin yaratmışdı. Bir dəfə onun qəbuluna R.Akçurin başda olmaqla kardiocərrahlar gəlib şikayət edirlər ki, onlara açıq ürək üzərində cərrahiyyə əməliyyatı aparmağa icazə vermirlər. Dörd saat sürən söhbət ərzində onlar bu problem haqqında danışır, nəzəri baxımdan çalışdıqlarını, praktik cəhətdən isə yolun bağlandığını bildirirlər. Bir müddət keçəndən sonra Heydər Əliyev həkimləri dəvət edib yenə də bir neçə saat söhbətləşir. Nəticədə ürək cərrahlarına praktiki iş üçün icazə verilir, sovet kardiocərrahiyyəsinin yeni istiqaməti üçün maddi baza yaradılması ilə bağlı məsələ həllini tapır. On ildən sonra Akçurin B.Yeltsinin ürəyi üzərində uğurlu əməliyyat aparır...

Aleksandra Biryukova ilə söhbətdən:

"Mən hələ Həmkarlar İttifaqının Mərkəzi Şurasında işlədiyim vaxt hərdən Heydər Əliyeviçin yanına gəlməli, sosial sığortalama ilə bağlı məsələləri həll etməli olurdum. O, hökmən hər şeyi diqqətlə dinləyir, hətta:

– Yaxşı, bəs biz nə çarə qılacağıq? – deyə, "biz" kəlməsini işlədirdi.

– Biz bir mövqe aydınlaşdırıb üstündə durmalıyıq, – deyirdi.

Yəni hökumətin Rəyasət Heyətinə hansı mövqe ilə getməliyik. Deyək ki, təbabətin inkişaf etdirilməsi ilə bağlı sosial sığortaya ayrılan vəsait artırılmalıdır. Həmkarlar İttifaqının həmişə sosial sığorta hesabına bolluca pulu olardı və həmin vəsait ixtiyarımızda idi. Mən özüm də sosial sığorta büdcəsini aparırdım.

Heydər Əliyeviç heç vaxt işimizə qarışmır, heç vaxt "komandanlıq" etmirdi. O bilirdi ki, Həmkarlar İttifaqı dövlət içində dövlətdir. Amma bununla belə, kənarda qalmırdıq, deyək ki, Sklifosovski adına klinikaya, Travmotologiya İnstitutuna yardım etməli olurduq, – mən həm də əmək mühafizəsi sahəsinə baxırdım. Tutaq ki, bir qəza baş verib, – kimsə iş vaxtı hündür yerdən yıxılıb əzilmişdir. Sklifosovski İnstitutuna başqa vilayətlərdən, respublikalardan çoxlu xəstələr gətirirdilər. Belə hallar müqabilində yetərincə yerlər lazım idi, bu da böyük xərclər tələb edirdi. Və Maliyyə Nazirliyinin Nəzarət–Müfəttişlik İdarəsi sosial sığorta büdcəsini necə istifadə etdiyimizi yoxlayır, vəsaitin düzgün hədəfə yönəldilməməsinə mütləq fikir verirdi, – məsələn, sosial sığortaya dəxli olmayan filan təşkilata biz nə üçün pul köçürmüşük. O vaxtlar tutaq ki, yüz min rubl böyük məbləğ sayılırdı. Mən də sosial sığorta büdcəsi üçün bu pulun dənizdə bir damla olmasını nə qədər sübut etməyə çalışsam da, kar eləmirdi, halbuki həmin büdcə 40 milyard rubla çatır və Müdafiə Nazirliyinin büdcəsini də ötüb keçirdi. Yuxarıda söylədiyim "dəniz damlası" isə institut üçün hansısa aparatura, avadanlıq, preparat almaq imkanı demək idi...

Və Nəzarət–Müfəttişlik İdarəsinin danlağından yaxa qurtarmaq üçün mən Heydər Əliyeviçə üz tutub problem haqqında danışırdım, hökumətin bu işə necə baxacağını öyrənmək istəyirdim. Hansısa sənədi imzalamaq üçün nadir hallarda ona təqdim edirdim, çünki "babalı"nı onun öhdəsinə ötürmək istəmirdik. Sadəcə, Travmotologiya İnstitutuna, ya "Sklifosovski"yə, yaxud xəsarət almış çoxsaylı xəstələri yerləşdirdiyimiz başqa bir klinikaya vəsait keçirərkən razılığını soruşurdum.

O, bu işlərə çox diqqətlə yanaşır və həmişə deyirdi:

– Siz mənə istinad edə bilərsiniz.

O, səhiyyə kuratoru olduğuna görə mən ona hansısa imkanımız olduğu haqqında ərizə yazırdım, o da "Razılaşdırılmışdır", "Razı-

yam", "Məqsədəuyğun sayıram" kimi dərkənar qoyurdu. Daha çox "dəstəkləyirəm" yazırdı. Beləliklə, biz bir çox səhiyyə ocaqlarına avadanlıq almaqda yardım göstərdik".

SİTA-nın materiallarından:

1985-ci il martın 7-də Siyasi Büroda tibbi praktikada ürək xəstəliklərinin cərrahiyyə yolu ilə müalicəsində elektrostimulyasiya metodunun daha geniş tətbiq edilməsi üzrə Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış tədbirlər bəyənilmişdir.

Bu məqsədlə ölkənin iri şəhərlərinin xəstəxanalarında ixtisaslaşdırılmış şöbələrin təşkili, ölkədə elektrokardiostimulyatorlar buraxılışının artırılması, onların istehsalı üçün əlavə istehsalat sahələrinin yaradılması, müvafiq tibbi kadrlar hazırlanmasının yaxşılaşdırılması planlaşdırılırdı.

1986-cı il aprelin 24-də "Göz mikrocərrahiyyəsi" sahələrarası elmi-texniki kompleksinin təşkili haqqında Heydər Əliyevin təklifi baxıldığı Siyasi Büro iclası keçirilmişdir.

Beləliklə, Heydər Əliyeviçin "ayağı yüngül" olmuş, S.Fyodorovun məşhur institutunun təməl daşının qoyulmasına zəmin yaradılmışdır.

1987-ci ilin may ayında Heydər Əliyev geniş infarkt mərəzinə məruz qalmışdı; bir qədər özünə gələndən sonra o, birbaşa palatada müşavirələr keçirməyə başlayır, bu da Mərkəzi Kreml xəstəxanasında görünməmiş hadisə idi... Əliyevin köməkçiləri xatırlayır: hələ zəif halda, səhhəti düzəlməmiş vəziyyətdə o, xəstəxananın baş həkimi Y.Çazovla, birgə işlədikləri layihənin bu və ya digər məqamları ətrafında mübahisələr aparırmış...

Cəmi iki ay keçdikdən sonra, **1987-ci il avqustun 15-də** mərkəzi qəzetlərdə Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin "On ikinci beşillikdə və 2000-ci ilə qədər olan dövrdə əhalinin sağlamlığının qorunması və SSRİ səhiyyəsinin yenidən qurulmasının əsas istiqamətləri" layihəsi dərc olundu. Sovet səhiyyəsinin köklü surətdə yenidən qurulmasının əsasını müəyyən edən bu irimiqyaslı sənədi hələ xəstəlikdən tam sağalmayan Heydər Əliyev sözün tam mənasında xəstəxana palatasında hazırlamışdı.

Layihənin birinci bölməsi "Sovet səhiyyəsinin baş xətti olan profilaktikanın səmərəsini artırmaq" adlanırdı. Layihədə profilaktika anlayışı dedikcə qlobal və müasir başa düşülürdü: təkcə əhalinin kütləvi dispanserləşdirilməsinin keçirilməsi kimi yox (baxmayaraq ki, bu da mühüm maddə idi), həm də təbiətin qorunmasının kompleks tədbirləri, müəssisələrdə sanitariya-gigiyena normalarına riayət olunması, əl əməyi və ağır fiziki əməyin payının azaldılması, emal prosesləri, ərzaq məhsullarının saxlanılması, daşınması və satılması üzərində sanitariya-gigiyena nəzarətinin sərtləşdirilməsi, qidalanma mədəniyyətinin yüksəldilməsi, insanın sağlam həyat tərzinin formalaşdırılması və s. kimi anlaşılırdı. Bu bölmədə əhalinin, xüsusilə böyüməkdə olan nəslin sağlamlığının qorunmasına münasibətdə çox məqamlar proqressiv, hətta inqilabi idi, məsələn, məktəbəqədər müəssisələrdə sağlamlığın möhkəmləndirilməsinin yeni müasir üsullarının tətbiqi, orta təhsil müəssisələrində bədən tərbiyəsi və idmanla gündəlik məşğul olunması, zəifləmiş və tez-tez xəstələnən uşaqlar üçün xüsusi sanator tipli müəssisələrin təşkili və s.

İkinci bölmə də az əhəmiyyət kəsb etmirdi – "Səhiyyənin əsas vəzifəsi – əhaliyə tibbi yardımın keyfiyyətini yüksəltməkdir". Burada o cümlədən, hər respublikada, vilayətdə, diyarda mürəkkəb və yüksək səmərəli müasir avadanlığın və tibbi texnikanın cəmləşdiyi diaqnostika mərkəzləri şəbəkəsinin təşkil edilməsi, həmçinin bütün respublikalarda onkoloji mərkəzlərin yaradılması nəzərdə tutulurdu.

Digər bölmələrdə müasir şəraitdə tibbi kadrların hazırlanması və işinin təşkili məsələsinin yenidən qurulması, tibb elminin rolunun nədən ibarət olması, səhiyyə sahəsinin idarə olunmasını necə və hansı istiqamətlərdə təkmilləşdirmək və s. nöqtəbənöqtə təhlil olunurdu. Səhiyyə sahəsində elə bir istiqamət, elə bir məsələ qalmadı ki, layihədə öz əksini tapmamış olsun. Özü də bir çox istiqamətlər üzrə bu gün də aktuallığını itirməyən cəsarətli, perspektivli təkliflər irəli sürülürdü. Layihədə, məsələn, təklif olunurdu ki, tibbi ETİ-lərdə işin son nəticəsinə konkret töhfəsindən asılı olaraq elmi işçilərin əməyinin ödənilməsi diferensiallaşdırılsın, rəhbərlərə isə yerinə yetirilən işlərin həcmini genişləndirərkən əməkdaşların əmək haqlarına əlavələr etmək hüququ verilsin. Layihədə elmi

mərkəzlərdə və aparıcı ETİ-lərdə təcrübi-eksperimental istehsalatın təşkil olunmasının məqsədəuyğunluğu qeyd edilmişdir.

Mütəxəssislərin fikrinə görə, bu, yenidənqurmanın "erkən dövrü"ndə ən önəmli sənədlərdən biri olmuş və sovet səhiyyəsinin ümumi durumuna çox müsbət təsir göstərmiş, onun maddi-texniki bazasının sürətli inkişafına, tibbi ocaqların qabaqcıl avadanlıq və texnologiya ilə təmin edilməsinə təkan vermişdir. Və bunda da Heydər Əliyevin danılmaz tarixi xidməti vardır.

Beynəlxalq gənclər ili

1985-ci il yanvarın 14-də Kremldə SSRİ Ali Soveti Rəyasət Heyətinin iclası keçirilmişdir. SİTA-nın məlumatından:

"1985-ci il Birləşmiş Millətlər Təşkilatı tərəfindən Beynəlxalq Gənclər günü elan edilməsi münasibətilə SSRİ Ali Soveti Rəyasət Heyəti Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin sədrliyi ilə SSRİ-də Beynəlxalq Gənclər gününün keçirilməsi üzrə komissiya yaratmışdır".

İşləri başından aşsa da, partiyanın yeni tapşırığı Heydər Əliyevin ürəyincə oldu. O, gənclərlə işləməyi xoşlayırdı, yeni nəslin problemlərinə canıyananlıqla yanaşırdı, odur ki, komissiya yaradılmasından faydalanaraq bu sahədə yığılmış bir sıra məsələləri həll etmək istədi. Komissiya iclasları demək olar ki, aybaay keçirilirdi. Son dərəcə işgüzar ovqat yaranmışdı, ona görə də bir il ərzində xeyli məsələlər yola verildi.

1986-cı il yanvarın 31-də Heydər Əliyev Beynəlxalq Gənclər ilinin keçirilməsi üzrə komissiyanın yekun iclasında məruzə ilə çıxış etdi.

O, 1985-ci ildə gənclərin rifahı, iş şəraiti və təhsilinin yaxşılaşdırılması, gənclərin aktual problemlərinin həlli istiqamətində görülən işlərdən danışdı. Belə ki, 1985-ci ildə təhsilin maddi bazasının möhkəmləndirilməsinə xərclənən vəsaitin miqdarı 2,7 milyard manat təşkil etmişdir. Yüzlərlə ümumtəhsil məktəbi, texniki-peşə məktəbi, məktəbəqədər müəssisə tikilmiş, iki yeni ali məktəb və

34 orta ixtisas məktəbi açılmışdır. Sosial proqramı həyata keçirən Sov.İKP MK və SSRİ Nazirlər Soveti yeni evlənənlərə mənzil şəraitinin yaxşılaşdırılması və təsərrüfat təminatı üçün kreditlərin verilməsini, uşaqlara görə əlavə ödənişləri, həqiqi xidmətdə olan hərbi qulluqçuların uşaqlarına müavinətlərin məbləğinin artırılması və s. nəzərdə tutan qərarlar qəbul etmişdir. Minlərlə oğlan və qız təsərrüfat, partiya və sovet rəhbər işlərinə irəli çəkilmişlər. Fəaliyyəti müddətində komissiya 31 mərkəzi nazirlik, idarə və təşkilatın məlumatını dinləmişdir. Müzakirələrin nəticəsi olaraq SSRİ Nazirlər Soveti tərəfindən 11 qərar və göstəriş qəbul edilmiş, nazirlik və idarələrə gənclərin problemlərinin həlli ilə bağlı 70-dən çox konkret tapşırıq verilmişdir.

Ümumtəhsil və peşə məktəbinin islahatı məsələləri komissiyanın əhatə dairəsində olmuş, məktəblərin kompüterləşdirilməsinə daha çox fikir verilməyə başlanmışdır.

"Bizim komissiya, – Heydər Əliyev vurğulayırdı, – nazirliklərdən, idarələrdən, yerli hakimiyyət orqanlarından, müəssisələrdən praktiki əməllər tələb edir. Məsələn, gənclər üçün dəbə uyğun, baha olmayan mallar buraxılması, gənc ailələr üçün kooperativ yaşayış komplekslərinin tikilməsi, texniki yaradıcılıq evləri, klublar, gənclər kafeləri, idman qurğuları yaradılması və s. Komissiya müvafiq təşkilatlar qarşısında vəzifələr qoyur və ardınca görülən işlər haqqında hesabatlarını dinləyir"[39].

Bundan başqa, Heydər Əliyevin rəhbərliyi ilə miqyaslı tədbirə – Moskvada Ümumdünya Gənclər və Tələbələr festivalına fəal hazırlıq aparılırdı.

"Moskovskie novosti" qəzetinin 11 iyul 1985-ci il tarixli sayında Heydər Əliyevin qarşıdakı festivala həsr olunmuş "Partiya gəncliyə inam bəsləyir" adlı geniş məqaləsi dərc olunur. Bu məqalənin müəyyən məqamları indi də öz aktuallığını itirməmişdir. Məsələn: "Gənc nəslin bütün ictimai və dövlət işlərinə qatılmasını fəallaşdırmaq, bəşəriyyət qarşısında duran sosial, iqtisadi, mədəni və ekoloji vəzifələrin həllinə gəncliyin töhfəsini artırmaq lazımdır. Və ən başlıcası, sülh, qarşılıqlı anlaşma və əməkdaşlıq uğrunda mübarizədə gənclərin rolu artırılmalıdır. Lakin bəşəriyyətin gənclərdən bunları gözləməyə yalnız o vaxt haqqı olar ki, onların ehtiyaclarına ən

ciddi diqqət yetirilsin. Bu həqiqəti sonadək dərk etmək vacibdir: bütün dünya problemləri gəncliyin maraqlarına toxunur və heç biri gəncliyin iştirakı olmadan həll edilə bilməz"[40].

27 iyul 1985-ci il. Heydər Əliyev Moskvada XII Ümumdünya Gənclər və Tələbələr festivalının təntənəli açılışında iştirak edir. Bu bayrama dünyanın 150 ölkəsindən 20 min nəfərdən artıq elçilər axışıb gəlmişdi. Mütəxəssislərin rəyinə görə, festivalın təşkili və gedişatı, texniki kamillik və yüksək təşkilatçılıq səviyyəsilə fərqlənirdi. Burada Heydər Əliyevin Azərbaycanın rəhbəri vəzifəsində işlədiyi dövrdə əldə etdiyi təcrübə çox karına gəlmişdi. Öz yurdunda o belə çeşidli, vüsətli törənlərin keçirilməsinə çoxsaylı təşəbbüslər göstərmişdi.

XII Ümumdünya Gənclər və Tələbələr festivalı, festival hərəkatı tarixində gənclərin ən geniş əhatəli beynəlxalq görüşü kimi yadda qalmışdır.

Çernobıl müsibəti

Andropov dövrünün acınacaqlı rəmzi 1 sentyabr 1983-cü ildə sovet qırıcı təyyarəsi tərəfindən 269 sərnişin daşıyan Cənubi Koreya laynerinin atəşlə məhv edilməsi olmuşdusa, Qorbaçov "era"sının da müdhiş simvolu, XX əsrin ən böyük nüvə qəzası kimi qiymətləndirilmiş Çernobıl atom elektrik stansiyasında baş vermiş qəza oldu.

Ötən əsrin 50–60-cı illərində SSRİ məkanında çoxsaylı nüvə silahı sınaqları keçirilmiş və onlar planetin ekoloji vəziyyətinə və milyonlarla insanların səhhətinə sağalmaz yaralar vurmuşdur. Sınaqların sayına görə ABŞ qabaqda olsa da, Sovet İttifaqında tarixdə ilk dəfə olaraq atom silahının real istifadəsi ilə hərbi təlim keçirilmişdi. Bu tədbir 14 sentyabr 1954-cü ildə Orenburq vilayətindəki Totsk poliqonunda, məşhur marşal G.Jukovun rəhbərliyi altında keçirilmişdi. Həmin dəhşətli hadisəni general-polkovnik Dmitri Volkoqonov belə xatırlayır:

"Yelşanka-2, Orlovka, İvanovka, Maxovka kəndlərinin əhalisi (cəmi 1633 ailə) öz ev-eşiyindən 3-4 günlük köçürülürdü... Öldürücü silahın təsir gücünə isə 40 baş iri mal-qara (inəklər, atlar, dəvələr) və 300 qoyun məruz qalmalıydı. TU-4 təyyarəsindən 9 min metr hündürlüyündən atılan atom bombası Yer üzərinə 350 metr qalmış partlamışdı. Burada əvvəlcədən çoxsaylı sığınacaq, blindaj, səngər qazılmış, evlər quraşdırılmış və heyvanatla "məskunlaşdırılmışdı". Hər yerdə hərbi texnika yerləşdirilmişdi. Real bomba real müharibədə ola biləcək real obyektlər üzərində sınaqdan keçirilməli idi. Partlayışdan sonra qoşunlar tanklarda, zirehli maşınlarda partlayışın episentrindən keçdilər..."[41].

Yalnız 40 il sonra Orenburq çöllərində o dəhşətli partlayışdan ziyan çəkənlərə imtiyazlar verilməsi qərara alındı...

SSRİ-də radioaktiv çirklənmə törədən lokal qəzalar da baş verirdi. Belə ki, 1957-ci ilin oktyabr ayında Çelyabinsk vilayətində nüvə silahı üçün plutonium hasil edən kombinatda radioaktiv məhsul anbarını dağıdan güclü partlayış baş vermişdi. Nəinki zavodun ərazisi, yaxınlıqda yerləşən dustaqlar düşərgəsi, eləcə də ətrafdakı kəndlər ağır zəhərlənməyə məruz qaldılar.

20 il sonra, 1978-ci ilin oktyabr ayında Kolquyev adasının şimal-qərb səmtində təmir edilən atom sualtı gəmilərindən radioaktiv tullantıları daşıyan barj 45 metr dəniz dərinliyində batmışdı...

Bu və digər qəzalar haqqında dünya xəbərsiz qaldı, – SSRİ o vaxt xarici aləmdən "dəmir pərdə" ilə ayrılmışdı. Lakin 1986-cı ildə, bütün cəhdlərə baxmayaraq, baş vermiş qəzanın miqyası haqqında həqiqəti ört-basdır etmək mümkün olmadı. Hərçənd, Qorbaçovun aləmə bəyan etdiyi "aşkarlıq"dan ağızdolusu dəm vururdular.

70-ci illərdə SSRİ-də atom elektrik stansiyalarının inşaat proqramı qəbul olunmuşdu. Ən iri sənaye mərkəzləri ətrafında AES-lərin tikilməsi nəzərdə tutulurdu; Leninqrad, Kiyev, Sverdlovsk və s. şəhərlərin yaxınlığında reaktorlar işə salındı.

Belə bir AES Moskvaya da "qonşu" olmalıymış. Rusiya jurnalisti Y.İzyumov yazır ki, "Hərbi Sənaye Kompleksi rəhbərliyinin güclü dəstəyi sayəsində iş gəlib Siyasi Büro qərarına çatmışdı. Hamı da tərəfdar çıxırdı, – akademik Aleksandrov məsələnin müzakirəsində çıxış edərkən bəyan etdi ki, stansiyanın təhlükəsizliyi elə yüksəkdir ki, onu lap Qızıl Meydanda da tikmək olar. Bircə Qrişin, bu elmi avantüranın xətalı olduğunu tam anlayaraq etirazını bildirdi və layihənin rədd edilməsinə nail oldu. D.F.Ustinovla və höku-

mət başçılarıyla münasibətlərinin pisləşməsi bahasına... Amma moskvalıların başı üzərində atom "Damokl qılıncı"nın asılı qalmaması məhz onun şəxsi xidmətidir"[42].

Heydər Əliyev atom elektrik stansiyalarına çox da "bel bağlamırdı" və təxminən elə o dövrdə Azərbaycanda AES inşaatının yasaqlanmasına nail oldu, hərçənd, Bakının yaxınlığında artıq hazırlıq işləri aparılırdı.

DTK veteranı Pərviz Hətəmzadənin söylədiklərindən:

"80-ci illərin əvvəllərində Zaqafqaziyada Ermənistandan sonra ikinci AES-in inşa edilməsi ideyası yarandı. Üçüncüsü, Gürcüstanda tikiləcəkdi. Artıq Ələt rayonunda ilkin baza tikilmiş, işlərə 8 milyon rubl vəsait xərclənmişdi. Biz onda MK-nın birinci katibinə, həmçinin SSRİ DTK 6-cı idarəsinə məktublar göndərdik ki, bu rayonda AES yerləşdirmək olmaz, qrunt sularının səviyyəsi düzgün hesablanmamışdır. Zəlzələ baş versəydi, AES 7 bal təkan gücünə də tab gətirməzdi. Bizlərdə vəziyyəti araşdırıb burada AES inşaatının məqbul olmamasını əsaslandıran tanınmış mütəxəssis geoloqlar vardı. Həmin sahədə artıq yeraltı sular üzə çıxmağa, bitkilər cücərməyə başlamışdı. Həm də rayon seysmik baxımdan səbatsızdır. Sonra Heydər Əliyev işə qarışıb Azərbaycan DTK-nın rəyini dəstəklədi.

O vaxt biz artıq Moskvaya yollanıb xüsusi təlim keçmişdik, – gələcək AES-in mühafizəsində bizim bölməmiz çalışmalıydı. Hətta vəzifələr cədvəli də hazırlanmışdı".

Azərbaycan DTK-nın sabiq sədri Ziya Yusifzadə ilə söhbət edərkən, 80-ci ilin ortalarında Azərbaycan çekistləri tərəfindən "atom həngaməsi"nin qarşısının alınması haqqında təfsilatı bölüşməyi xahiş etdim.

" – Mən eşitmişdim ki, məhz sizin təhrikinizlə Heydər Əliyev Azərbaycanda atom elektrik stansiyası tikintisinin dayandırılmasına nail olmuşdur. Zəhmət olmasa, bu barədə söyləyin.

– Azərbaycanda AES inşaatı məsələsi 1984-cü ildə ortaya çıxdı. Sentyabrda Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin müvafiq qərarı qəbul olundu. 1985-ci ildə daha bir qərar, bu dəfə Azərbaycan KP MK, respublika hökuməti və SSRİ Energetika və Elektrifikasiya Nazirliyinin birgə qərarı qəbul edildi.

Bunun ardıqca təhqiqat işləri başlandı. Atom stansiyasını Salyan rayonunda, Pirsaat çayının vadisində tikmək nəzərdə tutulurdu. Hər biri 4 min meqavatt gücündə dörd enerji bloku qurulmalıydı. Birinci blokun işə düşməsi 90-cı illərin əvvəlinə təsadüf etməli idi.

"Atomenerjilayihə"nin Rostov filialı tərəfindən hazırlanmış (layihə müəllifi Dyomin) layihəyə görə, həmin rayonda yeraltı suların dərinlik səviyyəsi 15-17 metr kimi düşünülürdü.

Məsələnin müstəsna əhəmiyyətini nəzərə alaraq, biz 1986-cı ildə energetika və geologiya sahəsində görkəmli mütəxəssislərimizi bu işə cəlb etdik. Onlar araşdırma işləri apardılar. Təxminən iki ay bizim qeyri-rəsmi tapşırığımızla məşğul oldular. Nəticədə məlum oldu ki, layihədə ciddi səhvlərə yol verilmişdir. 1984-cü ildə oralar heç bir bitkisi olmayan quru çöllük idisə, 1986-cı ildə həmin sahəni ot-alaq basmışdı. Və bizim qaynaqlar aşkarladı ki, yeraltı suların yataq dərinliyi 15-17 metr deyil, cəmi 7-8 metrdir. Bundan başqa, layihə stansiyanın seysmik dözümlülüyünü 7-8 bal hüdudlarında müəyyənləşdirmişdi. Lakin boy atmış gur qanqallığı və yeraltı sular yatağının dayazlıqda olmasını nəzərə aldıqda, aydın idi ki, stansiya çətin ki, 7 bal zəlzələyə tab gətirsin. Bir sıra başqa əlverişsiz amillər də qeyd olunurdu. Xülasə, məlumat narahatlıq doğurdu.

Bu informasiyanı alan kimi mən ilk növbədə Heydər Əliyeviçə telefonla zəng vurdum. Mütəxəssislərimizin aşkar etdikləri amilləri ona bildirdim. O, bir qədər susub soruşdu:

– Sən Moskvada nə vaxt olacaqsan?

– Yaxın bir ayda səfərim gözlənilmir. Amma Mərkəzdən icazə alıb iki-üç gündən sonra yola düşə bilərəm.

Moskvaya getdim. Heydər Əliyevlə görüşüb mütəxəssislərimizin hazırladığı arayışı göstərdim. Heydər Əliyeviç onu diqqətlə nəzərdən keçirib:

– Bilirsən nə var, – dedi. – Qayıt və hər şeyi ətraflı şəkildə Azərbaycan KP MK və SSRİ DTK rəhbərliyinin ünvanına çatdır.

Heydər Əliyev aparat işlərinin Allahı idi. O, elə etdi ki, həmin rəy onun tərəfindən deyil, respublika adından səsləndirilmiş olsun.

Və 1986-cı ildə, onun köməyi ilə AES inşaatı dayandırılmış, sonra isə tamam yığışdırılmışdır. Hesab edirəm ki, bu, Heydər Əliyevin öz xalqı qarşısında ən əhəmiyyətli xidmətlərindən biridir".

Çernobıl AES-də qəza 26 aprel 1986-cı ildə baş vermişdi. Lakin Siyasi Büro üzvlərinə bu hadisə barədə yalnız iki gün sonra, qəza haqqında dünyanın ən böyük radiostansiyaları haray salandan sonra xəbər vermişdilər...

Heydər Əliyevin "BBS" televiziya xidmətinə verdiyi müsahibədən (1991-ci il):

"Bu, açığını deyim, sovet rəhbərliyi, ölkənin partiya-dövlət rəhbərliyi üçün böyük rüsvayçılıqdır. Mənim qəti fikrim belədir. Partlayış şənbə günü baş vermişdi. Mən şənbə günü işdə idim, yeri gəlmişkən, bütün şənbə günlərində işləmişəm. Hardasa günün axırlarında təsadüfən xəbər tuturam ki, atom stansiyasında partlayış baş verib. Nazirlər Sovetinin İşlər İdarəsinin müdiri Smertyukovdan soruşdum ki, nə baş verib. Mənim, Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini ola-ola heç nədən xəbərim yoxdur. O deyir ki, bəli, Çernobılda atom stansiyasında nə isə olmuşdur. Deyir, oraya Nazirlər Soveti sədrinin müavini Şerbina uçub. Görək, nə olacaq. Hə, bazar günü mən işləmirdim, təbii ki, bir şey bilmirdim.

Bazar ertəsi səhər-səhər Qorbaçov birdən Siyasi Büronu toplayır, həm də iclası adətən keçirdiyi yerdə deyil, öz kabinetində aparır. Ertədən, saat 10-11 radələrində zəng vurmuşdular. Çox qısaca informasiya olmuşdu. Bu iclas həm də ona görə çağırılmışdı ki, bizdə məlumat olmadığı halda, artıq İsveç, Polşa, Almaniya, bəzi başqa Avropa ölkələrindən radiasiya şüalanması haqqında xəbərlər gəlmişdi. Və deməli, bu, artıq dünya ictimaiyyətinə bəlli olmuşdu. Demək, məhz onda o (Qorbaçov – ***E.A.***) iclas çağırmışdı.

Xəbərlər qırıq-qırıq idi. Amma biz hiss elədik ki, faciə baş vermişdir. Təcili tədbirlər görülməlidir. Və bir məsələ ortaya çıxdı ki, xalqa informasiya verilməlidir. Bilirsiniz, mən burada hansısa bir qəhrəman donunda çıxış etmək istəmirəm. Məni düzgün başa düşün. Amma mən çıxış edib dedim ki, bu məsələ üzrə təxirəsalınmaz, özü də həqiqətə uyğun informasiya verilməlidir, çünki bu barədə artıq bütün Avropa xəbərdardır. Onda mənim sözümü Liqaçov kəsdi.

"Siz nə istəyirsiniz? Hansı informasiya? Bu nə deməkdir?"

"Axı belə olarmı? – dedim. – Mən istəyirəm ki, gerçək informasiya olsun. Biz bu faktı gizlədə bilmərik". Deməliyəm ki, Aleksandr Nikolayeviç Yakovlev eynən mənim kimi çıxış etdi. Amma bu məsələni burcutdular və sonra heç də dolğun olmayan informasiya yayımlandı...

Bir müddət keçəndən sonra biz Yakovlevlə söhbətləşəndə o, Liqaçovun hərəkətlərindən narazılığını bildirərək mənə dedi: bax, görürsünüz də, tək biz sizinlə doğru informasiyaya tərəfdar çıxdıq. Amma o vaxt Liqaçov, görünür, daha çox sözükeçən adammış..."

Bu mövzuyla bağlı Ukrayna yazıçısı Boris Oleynik sonralar xatırlayırdı:

"Bu, çox önəmli detaldır. Qorbaçov özü Ukraynaya gəlməyə qorxurdu, amma Şerbitski 1986-cı il 1 May paradından daşınmaq və heç olmasa uşaqları evakuasiya etdirmək istəyəndə, Qorbaçov onu hədələmişdi ki, sən çaxnaşma yaydığına görə partiyadan qovulacaqsan. Və Allaha şükür ki, Siyasi Büroda Ukraynada baş verənlər haqqında öz bəyanatı ilə bu "xadimi" sadəcə qəza yox, faciə olduğunu boynuna aldıra bilən Heydər Əliyeviç Əliyev vardı. Qlobal faciə. Və bu mövqeyə görə Azərbaycan prezidentinə minnətdarıq".*

V.Vorotnikovla söhbətdən:

"Əsil həqiqəti heç kim bilmirdi, çünki Çernobıldan aldığımız ilk informasiya baş verənlərə müvafiq deyildi. Siyasi Büro aprelin 28-də yığışdı. Onda ilk məruzədə bildirdilər ki, reaktor salamatdır, heç bir qorxulu şey yoxdur, hər şey yola verilə bilər. Yalnız günün ikinci yarısında həqiqi vəziyyət məlum oldu. Siyasi Büronun operativ qrupu yaradıldı, mən tərkibinə daxil idim. Yakovlevə mətbuat üçün informasiya hazırlamaq tapşırıldı. Lakin Yakovlev ayın 29-da KİV üçün heç bir məlumat vermədi, bunu yalnız aprelin 30-da etdi. Beləliklə, ilk üç gün itirildi, çünki vəziyyətdən baş açmaq olmadı. Şerbina Uzaq Şərqdə, Sibirdə idi. Oradan təyyarə ilə uçmalı, Çernobıla yol qət etməli idi. Bu da bir sutkadan artıq vaxt apardı.

Xalqdan nəyisə bilərəkdən gizlətmək niyyəti yox idi. Amma faktiki olaraq belə çıxdı ki, Yakovlev informasiyanı bir sutka yubatmışdır.

---

* V.Ağayevin "Xilaskar" filmindən. AzTV. 2003.

– Daha informasiya tam dolğun idimi?

– Elə də yox. Amma artıq aydın oldu ki, reaktor dağılmış, içindəki ərintilər yalnız yuxarıya deyil, aşağıya da sezilir. Bütün bunlar aprelin 28-də, günün axırında məlum oldu. 29-da belə informasiya verilə bilsə də, yalnız ayın 30-da üzə çıxdı, bir sutka gecikməklə. Lakin xüsusi bir bəd niyyət olmamışdır. Bu stansiyanın direktoru Bryuxanov hamını yanlış məlumatlandırmağa cəhd edən ilk şəxs oldu, hərçənd, güman ki, onun özünə də hər şey aydın deyildi, çünki onlar özləri də reaktora gedib yaxınlaşa bilməmişdilər. Onlar reaktor idarə edilən şöbədə idilər, haçandan haçana özlərini reaktora yetirəndə nələr baş verdiyini görmüşlər..."

Hər necə olsa da, hazırda Siyasi Büro iclaslarının xəlvətdən üzə çıxarılan və xalqa çatdırılan materialları göstərir: həm Qorbaçov, həm onun bəzi həmkarları tam informasiya yayımlanmasına şübhə ilə yanaşır, onu dozalaşdırmağı təklif edirdilər. Siyasi Büronun yalnız iki üzvü – A.Yakovlev və H.Əliyev – bunun əleyhinə çıxaraq tam aydınlıqla üst-üstə gələn mövqelərini bildirmişlər.

Demək, qəza şənbə günü, 26 apreldə baş verir. Lakin Siyasi Büro yalnız iki gün sonra, bütün dünya SSRİ-də dəhşətli faciə haqqında bar-bar bağıranda çağırılır. Həmin gün partiya rəhbərliyinin üzvləri, məlumatın təcili yayımlanması zəruriliyini anlasalar da, yekdil fikrə gələ bilmirlər. Bəs informasiya necə, hansı ölçüdə olsun?

Aprelin 29-da Qorbaçov Siyasi Büronun növbədənkənar iclasını çağırır. Yenə də eyni sualı verir:

– Əhali ilə və beynəlxalq ictimaiyyətlə necə işləməliyik?

Rəylər yenə də haçalanır. A.Qromıko "qardaş ölkələrə" daha çox məlumat, Vaşinqton üçün isə kəm-kəsirlə, dozalarla verilməsini təklif edir. Y.Liqaçov deyir ki, mətbuat konfransı təşkil etməyə bəlkə də lüzum yoxdur. Tarixçi D.Volkoqonovun fikrincə, "yalnız A.N.Yakovlev və H.Ə.Əliyev açıq-aydın mövqedədirlər – xarici jurnalistlərə və öz xalqımıza dolğun informasiya verilməlidir".

Nəticədə Siyasi Büroda "SSRİ Nazirlər Sovetindən" 19 sətirlik məlumat mətni təsdiqlənir, həm də burada baş verən bəlanın ölçüləri xeyli kiçildilir. Baş katib sonralar da Çernobıl üzrə məlumatı məzmunca və həcmcə süzüb sıxmağa çalışmışdı. Belə ki, 5 may 1986-cı il tarixli Siyasi Büro iclasında o, göstəriş verir: "Daha geniş informasiya Ukraynada yerli kanallarla verilməlidir. İttifaq kanalları ilə faktoloji (?!) informasiya verilsin. Xarici aləmə verilən məlumatın çərçivələri bəlkə də genişləndirilməlidir. Rəqib bizə elə suallar verir ki, bizi bütövlükdə dəyərləndirə, eyni zamanda da bizə qara yaxa bilsinlər"[43].

Çernobıl Qorbaçovun xislətindəki bir çox cəhətlərə güzgü tutdu: onun qətiyyətsizliyini, səbatsızlığını, həqiqətdən (acı olsa da) xoflandığını, bərk ayaqda məsuliyyətdən yayınmağını, öz xalqı ilə açıq danışmağa, ən başlıcası – xalqın dərdinə can yandırmağa qadir olmadığını göstərdi...

O, hətta N.Rıjkovun çox təhrik və təkidlərinə baxmayaraq, Kiyevə də getməyə cürət etmədi... Heydər Əliyev haqqında belə davranışı təsəvvürə gətirmək də mümkün deyil.

"Admiral Naximov"un faciəsi

Heydər Əliyevin Moskvada, ölkənin ali rəhbərliyi tərkibində işlədiyi illər çoxsaylı insan qurbanları aparmış qəzalara təsadüf edir. Praktiki olaraq, bütün bu bəlaları araşdırmaq onun başçılıq etdiyi hökumət komissiyalarının öhdəsinə düşürdü, bu da onsuz da qayğılarla dolu həyatına gərgin hadisələrin ağrı-acısını qatırdı.

"Qəzavü qədər sanki Qorbaçova da, məmləkətə də xəbərdarlıq edirdi. "Admiral Naximov" gəmisi Qara dənizin dibinə qərq olur. Volqa çayında bir körpünün gəmikeçilməz "qanadı" altından keçməyə cəhd edən "Aleksandr Suvorov" səmişin gəmisinin üst göyərtələri körpüyə çırpılır... Ufa yaxınlığında qarşı-qarşıya gələn iki səmişin qatarı alışan qaz məşəlində yanırlar... Arzamas ətrafında partlayıcı maddə daşıyan vaqonlar alt-üst olur, od püskürüb ətrafda hər şeyi külə çevirir... Çernobıl fəlakəti onilliklər, bəlkə də əsrlər boyu dirçələ bilməyəcək ölü torpaq zonası törədir... Dövlət sərhədini maneəsiz uçub keçən hava dələduzu M.Rustun təyyarəsi gəlib Qızıl Meydana qonur... "Komsomolets" adlı sualtı gəmi batır... Ermənistanda baş vermiş dəhşətli zəlzələ Spitak şəhərini, ətrafdakı qəsəbələri yerlə-yeksan edir... Şaxtalarda dalbadal baş verən qəza-

lar... XX əsrin 80-ci illərində bizim ölkənin, torpaqlarımızın başına gələnlər nə idi? Bu, hansısa qanunauyğunluqla izah olunur, yoxsa doğrudan da, Allahın səbri tükənmiş və haçansa allahsız şurəvilər ona kəc baxdığı kimi, o da sovet məkanından üz döndərmişdir..."[4].

"Aleksandr Suvorov" teploxodu 1983-cü ildə Volqa çayında, Ulyanovsk rayonunda qəzaya uğramışdı. Körpünün altındakı nəzərdə tutulan keçidə yönəlmək əvəzinə gəmi, ölçüləri bir metr yarım kiçik olan keçidə girmişdi. Nəticədə sükan və kapitan köşkləri, habelə kinoseansların, diskotekaların keçirildiyi yüngül tipli üst tikili sökülüb süpürülmüşdü... Üst tikilidə həmin vaxt toplaşmış çoxsaylı səmişinlərin, demək olar ki, hamısı həlak olmuşdu... Növbədə çalışan gəmiçilərin hamısı əzildiyinə görə teploxod bir müddət idarəsiz hərəkət etmişdi. Aşağıda işləyən mexaniklər şaqqıltı, gurultu eşidərək, maşını dayandırır, gəmi daha 250 metr irəliləyərək dayanır. Volqaboyu gəzinti səfərinə çıxmış teploxod təxminən 200 nəfər daşıyırmış, onlardan 76 nəfəri həlak olmuşdu.

Siyasi Büro üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin rəhbərliyilə hökumət komissiyası yaradılmış, tərkibinə ziyan çəkmiş, həlak olmuş adamların doğma yerlərinə aid bir sıra vilayətlərin partiya rəhbərləri, Sosial Təminat Nazirliyi və çay nəqliyyatı işçiləri qatılmışdı. Heydər Əliyevlə faciə yerinə getmiş, onun katiblik müdirinin müavini Vladimir Uxov yuxarıdakı təfsilatı və başqa ayrıntıları mənə söyləmişdir.

Vladimir Uxovla söhbətdən:

"Yaxşı yadımdadır, o, məni çağırıb dedi: "Belə bir qəza baş verib, təcili uçmalıyıq. Bir saatdan sonra "Vnukovo-2" hava limanında olmalıyıq. Mən indi evə dəyəcəm, sən isə birbaşa oraya yollan". Mən yanımda saxladığım "keys"i götürüb QUM-a (Dövlət Univermağı – ***E.A.***) qaçdım, iki köynək, sabun, diş fırçası alıb qablaşdırdım və aeroporta üz tutdum. Oraya yenicə çatmışdım ki, onun maşını gəlib çıxdı. Bizə xüsusi təyyarə sifariş edilmişdi.

Ulyanovska gələn kimi qəza yerinə yollandıq. Orada hələ də dəhşətli fəlakətin izləri görünürdü. Ayaqqabının içindən görünən üzülmüş ayaq hissələri, göyərtə üzərində hələ yuyulmamış qan şırnaqları. Və öz doğmalarını soraqlaşa-soraqlaşa axtaran insanların halından yaranan müdhiş atmosfer... İşə bax ki, aşağıda olanlar salamat qalmış, yuxarıda olan, tutaq ki, bir uşaq əcələ tuş gəlmişdi. Həlak olanlar da sulara qərq olmuş, onları axtarmaq, çıxarmaq gərək idi. Orada artıq dalğıclar işləyirdi.

Tezliklə qohumlar axışıb gəlmişdilər. Hər ölənin bir-iki gələni vardı. Hamı yerbəyer edilməli, həlak olanların cəsədləri tapılmalı, tanıdılmalı, yola salınmalı... Həm də yay vaxtıdır, bürküdür, meyitlər tez çürüməyə başlayır. Və məhz belə çətin məqamlarda Heydər Əliyev öz xarakterini göstərirdi. Arxayın vaxtlarda yox, qəti və təcili tədbir tələb olunduğu məqamlarda. Belə vaxtda düşünüb – daşınmağa yer qalmır, sərrast sərəncamlar lazımdır. O soruşur: "Meyitləri yerləşdirmək üçün neçə refrijerator lazımdır?" Ona məruzə ediblər, axşama söz verirlər. "Bizə axşama yox, üç saat ərzində lazımdır. Axtarın, tapın". Sonra biz bütün bu işlərə nəzarət edirdik. Mən hər bir şəxsi qeydiyyata almaq üçün xüsusi bloknot saxlayırdım. Tabut çatışmırdı. Tezliklə bu işi də yola verdik. Əfsuslar olsun ki, bir neçə nəfərin kimliyini aydınlaşdırmaq mümkün olmadı, bədənləri parça-parça idi...

Heydər Əliyeviç operativ tərzdə, bəzi hallarda çox sərt hərəkət edirdi. Yadımdadır, refrijerator – vaqonlardan biri işləmirdi, içəridən çürüyən meyit iyi gəlirdi. Və Heydər Əliyev bu işə cavabdeh olan məmurları möhkəm danladı, o cümlədən, RSFSR hökumət sədrinin müavini Demçenkonu da təcili ölçü götürmədiyinə görə qınadı, – burada hər bir iş cədvəl üzrə deyil, mümkünsə tez görülməliydi.

Orada bir neçə gün qaldıq. Heydər Əliyev bütün təşkilati işləri aparırdı. Səhər ertədən – qəza yerində işlərin gedişatına diqqət yetirir, komissiya üzvlərinin məruzələrini dinləyirdi. Komissiyaya daxil edilən bəzi vilayət rəhbərləri cənazələrin daşınmasını, insanların çəkdiyi ziyanın ödənilməsi və s. işləri təmin etməliydilər. Oraya sosial təminat naziri Domna Pavlovna Komarova da gəlmişdi, onun da öhdəsinə ağır yük düşmüşdü... Elə yerindəcə hesablama sənədləri yazılır, imzalanır və s. Həm də hamının yemək-içməyi təmin olunmalı idi.

Heydər Əliyevin vəzifəsinə hökumət baxımından qəza səbəblə-

rinin araşdırılması və aşkarlanması daxil idi. Necə olmuşdur ki, nazirlik sərnişin gəmisində bu dərəcədə səriştəsiz kapitanın işləməsinə yol vermiş, onun da ucbatından gəmi körpü altından keçərkən lazımi keçidi çaş salmış ola? Sükan arxasında duran nə cür, necə şturman idi, kapitanın böyük köməkçisi kim idi?.. Əlbəttə, günahkarlar, təhlükəsizlik tələblərinin yerinə yetirilməməsi baxımından aşkar edilməli idi. Amma söhbət cinayət məsuliyyətinə cəlb etməkdən getmirdi, bununla prokurorluq məşğul olurdu. O, hesabat məktubu hazırlayıb ardınca hökumət qarşısında müvafiq məruzə etdi.

Həmin ekstremal günlərdə onun gözəl təşkilatçılıq qabiliyyəti üzə çıxdı. Axı Heydər Əliyeviç hər bir işin mütəxəssisi deyildi. Mənim dənizçi təhsilim olsa da, qarışmırdım, çünki rəsmən yalnız onun köməkçisi idim. O, hamını dinləməyi vacib bilir, daha sonra, axşam məni sorğu-suala tuturdu; bəs bu nədir, necədir, düzdürmü, düz deyilmi...

O, əzab çəkmiş, bəlaya düçar olmuş adamlara, fəlakətdən sağ çıxanlara qarşı rəhmdilliklə, mərhəmətlə yanaşırdı. Hər məruzədən sonra biz qəza yerinə yollanırdıq; o, işlərin gedişilə maraqlanır, günün ikinci yarısında həlak olanların qohumları ilə görüşürdü.

İkinci qəza daha da dəhşətli idi. Bu, 1986-cı ilin 31 avqustunda baş vermişdi. Novorossiysk körfəzindən çıxan "Admiral Naximov" gəmisi, 30 min ton taxılla yüklənmiş "Pyotr Vasev" teploxodu ilə üzləşir... Hər iki gəmi ən yeni naviqasiya texnikası ilə təchiz olunmuşdu. Amma heç bu texnikaya da ehtiyac yox idi, apaydın, ulduzlu bir gecə idi...

– Bəs onlar nədən toqquşmuşdular?

– Ona bais "insan amili"dir, yəni cinayət həddinə çatan səhlənkarlıq. Qaydalara görə, bu gəmilər sol yanları səmtindən bir-birinə yaxınlaşıb aralanmalıydı, avtomaşınlar kimi. Amma bir-birilərini gördükləri üçün ayrı cürə şərtləşmişlər. "Pyotr Vasev"in kapitanı deyir: "Mən sənə yol verərəm, keçərsən". "Naximov"un kapitanı aşağıya, öz kayutasına enir. Kapitan köşkündə danışıqları aparan şturman Çudnovski qalır. O, "Vasev"ə xəbərdarlıq edir: "Biz sizinlə toqquşa bilərik!". "Vasev"in kapitanı: "Eybi yox, sən keç, keç", – deyir. Onlar yaxınlaşmaqda davam edir. "Vasev"in kapitanı öz körpücüyündə, qarşısındakı cihazların hamısı saz işləyir, kapitan onlara baxaraq hərəkəti izləyir. Bəs onun ağlına nə gəlir, nədən sakitcə ötüşəcəklərini zənn edir, "Naximov"un arxasından yan keçə biləcəyini düşünür? Bu, bir növ dəlibaşlıqdır, o, cihazlarının doğrudürüstlüyünü sınamaq fikrinə düşübmüş... Yuxarıda olan şturman kapitana "toqquşma təhlükəsi var", – deyə dil-ağız eləsə də, "hərəkət səmti azca çevrilsə hər şey normal olacaq", – desə də, kapitana kar eləmir: "Görürəm, bilirəm. Mənə dərs vermə..." Hərəkəti davam etdirir. Amma yəqin hətta cihazların göstəricilərindən də toqquşmanın qarşısıalınmaz olduğunu anlayıb, əvvəl sürəti səngidir, sonra "stop", ardınca geriləmə əmrini verir... Lakin gəmi böyük inersiya gücünə malik olduğundan "Naximov"a doğru şığımaqda davam edir... "Naximov"un şturmanı təşvişə düşərək gəmini sol tərəfə çevirməyə başlasa da, bunu xırda, kiçik tərpənişlərlə edir, nəticədə "Vasev", demək olar ki, "Naximov"u böyründən baltalayır...

– Bəs bu qədər insan tələfatı nədəndir?

– "Naximov" köhnə gəmi idi. O, üzmək vaxtını başa çatdırırdı. Bəlkə bir ili qalırdı, sənədlərin müddətini uzatmışdılar. Gəmi sahil boyu Odessadan Batuma gedirmiş. Məncə, Odessa–Yalta-Novorossiysk–Suxumi–Batumi və əks istiqamətdə reyslərə yollanırdı. Ekipajla birgə gəmidə təxminən 1240 nəfər vardı. Hamısı da, təbii ki, suların cənginə keçdi... Bir qismini xilas etdilər. Teploxodun özü isə yeddi dəqiqəyə batdı.

Köhnə gəmi idi, dəhlizləri də dar. İş günü sona yetirdi, sərnişinlər dincəlir, növbədən yorğun-arğın gələn dənizçilər də başını yastığa qoyub yatırdılar. Toqquşma gecə çaat ona yaxın baş vermişdi. Və qəza baş verəndə adamlar kayutadan eşiyə atılaraq, tökülüşərək, bir-birinə ilişir, sərnişinlər hara qaçacaqlarını bilmirdilər. Üstəlik işıqlar da sönür, bu da araya düşən çaxnaşmanı betərləşdirir. Gəmidə bir neçə mərtəbə vardı, göyərtələr qatbaqat. Bu qalmaqalda bəziləri üzə çıxa bilməmişdilər..."

"Admiral Naximov" teploxodunda baş vermiş faciə nəticəsində yüzlərlə insan həlak oldu. Lakin bu faciə ilə bağlı iki gündən sonra "Pravda" və "İzvestiya" qəzetlərində yalnız bir neçə quru cümlə çap edildi:

"Sov.İKP Mərkəzi Komitəsi, SSRİ Ali Soveti Rəyasət Heyəti, SSRİ Nazirlər Sovetindən.

Avqustun 31-də gecə Novorossiysk yaxınlığında yük gəmisi ilə toqquşması nəticəsində "Admiral Naximov" sərnişin gəmisi batmışdır. İnsanları xilas etmək üçün tədbirlər görülmüşdür. Zərərçəkənlərə lazımi yardım göstərilir. İnsan tələfatı vardır. Qəzanın səbəblərini araşdırmaq üçün Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev yoldaş başda olmaqla hökumət komissiyası yaradılmışdır". Vəssalam: nə həlak olanların ailə üzvlərinə baş sağlığı verildi, nə də ölkədə matəm günü elan edildi.

Qəzadan yalnız altı gün keçəndən sonra – 1986-cı il avqustun 5-də qəzetlərdə Sov.İKP MK, SSRİ Ali Soveti Rəyasət Heyəti və SSRİ Nazirlər Soveti adından başsağlığı dərc olundu. Cəmi bir cümlə: "Admiral Naximov" sərnişin gəmisinin qəzaya uğraması nəticəsində insanların faciəli ölümü ilə bağlı Sov.İKP MK, SSRİ Ali Sovetinin Rəyasət Heyəti və SSRİ Nazirlər Soveti həlak olanların ailəsi, qohumları və yaxınlarına dərin hüznlə başsağlığı verir". Ölkənin ali rəhbərlərindən heç kəs: nə Baş nazir N.Rıjkov, nə M.Qorbaçov Novorossiyskə getməyə ürək etmədilər. Həlak olanların yaxınlarının bütün ağrı və qəzəbinin qarşısında Heydər Əliyev durdu. Və onun iki həftə ərzində Novorossiyskdə gördüyü işi mübaliğəsiz qəhrəmanlıq adlandırmaq olar.

Sentyabrın 4-də "Pravda" qəzetinin sonuncu səhifəsində dənizçilərin, sərhədçilərin adamları necə xilas etdikləri barədə yazı dərc olundu. Həmin məqalədən bir neçə parça: "Körpüdə növbə çəkən miçman A.Qusev növbətçinin məlumatını döyüş həyəcanı kimi qəbul etdi: "Limanın on beş kilometrliyində "Admiral Naximov" gəmisi fəlakətə uğramışdır. Kömək lazımdır..."

Altı dəqiqədən sonra sərhədçi kateri tam sürətlə Semes buxtasının dalğaları ilə şütüyürdü. Daha 11 dəqiqədən sonra dənizçilər qəza nöqtəsində idilər. Lakin adətən parlaq işıq saçan gəmi yox idi. Batmışdı. Təxminən səkkiz yüz metr aralıda sərnişin gəmisi ilə toqquşan "Pyotr Vasev" yükdaşıyan gəmisinin qara kölgəsi görünürdü.

Sərhədçilər gördüklərindən əvvəlcə özlərini itirdilər. Dalğaların üstündə, taxta-tuxta, çəllək və başqa tullantıların arasında yüzlərlə insan üzürdü. Bəzilərini suyun üzərində xilasetmə kəmərləri, o birilərini gecənin qaranlığında yanıb-sönən işıqları olan xırda sallar saxlayırdı, hələ gücdən düşməmiş bir başqaları isə özləri üzürdülər.

Bir qədərdən sonra qəza rayonuna 60-dan çox kater, qayıq, xırda gəmi gəldi. Kapitan köməkçisi V.Belovolun idarə etdiyi losman kateri də onların arasında idi. O, gəmilərin toqquşması barədə xəbəri birincilər sırasında almışdı. Və fırtına haqqında xəbərdarlıq almasına, küləyin bərkiməsinə baxmayaraq, balaca gəmi dalğaların qoynuna atıldı. Onun göyərtəsinə 84 sərnişin və batmış gəminin ekipaj heyəti üzvlərini qaldırmaq mümkün oldu...

Bəli, xilasedicilər qüvvələrini əsirgəmədən hər bir nəfərin həyatı uğrunda mübarizə aparırdılar. Lakin qurbanlarsız ötüşmək mümkün olmadı. Burada bir çox səbəblər öz sözünü dedi. Fəlakət gecə vaxtı, açıq dənizdə baş vermişdi. "Admiral Naximov"un böyrünə dəymiş zərbə gözlənilməz və o dərəcədə güclü olmuşdu ki, təxminən doxsan kvadratmetr ölçüdə dəlik əmələ gəlmişdi.

Əlbəttə, indi hamını bir sual maraqlandırır: bu necə baş verə bilərdi? Nə üçün aralarında rabitə olan, bir-birinin işıqlarını görən iki gəmi vaxtında aralana bilmədi? Məsələni araşdıran istintaq orqanları israr edirlər: səbəb – hər iki gəmi kapitanının gəmiçilik təhlükəsizliyi qaydalarını pozmasındadır.

Dünən hökumət komissiyasının sədri, Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev xilasedicilərlə görüşmüş, xəstəxanada qəza vaxtı zərərçəkənlər və onların qohumları ilə söhbət etmişdir".

(K.Aksyonov. "Pravda", 4 sentyabr 1986-cı il).

"İzvestiya" qəzeti isə həmin günlər yazırdı:

"Semes buxtasında baş vermiş gəmi qəzasının nəticələrinin ləğv olunması üzrə əslində şəhər – qərargaha çevrilmiş Novorossiysk gərgin günlər yaşamaqda davam edir.

Adi, gündəlik işlər sanki arxa plana çəkilib, əsas vəzifə – zərərçəkənlərə, onların qohumlarına yardım etməkdir. Xilas olanların çoxu artıq dağılışıb evlərinə gedib. Novorossiyskdə xəstələr və batan "Admiral Naximov" gəmisindən olan əlliyə yaxın turist qalıb. Onlar getmirlər – qohum və yaxınlarının axtarışını aparan dalğıcların işi haqqında məlumat gözləyirlər. Bundan başqa, xilas etmək mümkün olmayan sərnişinlərin 400-dən çox qohumu şəhərə gəl-

mişdir. Onlarla iş aparmaq üçün hökumət komissiyasının tərkibindən məsul şəxslər ayrılmışdır, Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev həlak olmuş turistlərin qohumları ilə gündə iki dəfə görüşür..."

(A.Derqaçov. "İzvestiya", 4 sentyabr 1986-cı il).

Sentyabrın 4-də SSRİ Xarici İşlər Nazirliyinin mətbuat mərkəzində keçirilən mətbuat konfransında Sov.İKP MK təbliğat şöbəsi müdirinin birinci müavini A.Vlasov çıxış etdi.

Bu barədə SİTA-nın məlumatında deyilirdi: "Gəmidə 1.234 nəfər olub – 888 sərnişin və 346 heyət üzvü. Gəmi "Pyotr Vasev" yükdaşıyan gəmisi ilə toqquşan zaman Novorossiysk limanının 14–15 kilometrliyində, sahildən 3,5 kilometr aralıda olub. Gəmi aldığı zədə nəticəsində 7–8 dəqiqədən sonra batmışdır.

Ekstremal şəraitdə – qaranlıqda, küləkdə və dalğalı dənizdə – xidmətlərin birgə səyi nəticəsində 836 adamı xilas etmək mümkün olmuşdur. Xilasetmə işləri üçün cəmi 60 üzən vasitə, 20 vertolyot və 80 dalğıc cəlb olunmuşdu. Bu günə qədər həlak olanların 116 nəfəri sudan çıxarılmışdır. Həlak olanların ailələrinə yardım göstərilməsi haqda hökumət qərar qəbul etmişdir".

"İzvestiya" qəzetinin müxbiri A.Derqaçov növbəti oçerkində yazırdı: "Dövlət nəinki şəhərlərarası danışıqların, teleqramların ödənilməsini, hətta hər iki tərəfə yol xərclərini, mehmanxanada yaşamanı, gündəlik ödəmələri, pulsuz xidmətlərin göstərilməsini də öz üzərinə götürdü. Həkimlər də daimi növbə çəkirlər...

Bu diqqət müəyyən mənada insanların dərdini nisbətən yüngülləşdirir, ən çətin dəqiqələrdə özlərini ələ almağa kömək edir.

– Bizim sizinlə bu söhbətlərimiz asan deyildir, lakin onlar ona görə lazımdır ki, biz işimizdə sizin bütün iradlarınızı nəzərə alaq. Suallarınıza cavab olaraq əvvəl dediklərimi bir daha təsdiqləmək istəyirəm – axtarışları indi hələ itkin düşmüş turistlər və "Admiral Naximov" gəmisinin heyət üzvlərinin hamısı tapılmayana qədər davam etdirəcəyik".

("İzvestiya", 5 sentyabr 1986-cı il).

Aleksandr İvanovun xatirələrindən:

"Heydər Əliyeviç artıq məzuniyyətdə idi, biz Bakıya, istirahət etməyə getməliydik. Öz müavinimi buraxdım, Bakıya özümlə bir nəfər aparırdım, bütün briqadanı aparmağın mənası yox idi.

Birdən gecə saat 3-də mənə müavinim zəng vurur: "Saşa, dəstəyi Heydər Əliyeviçə verirəm". Mən də yuxulu-yuxulu nə baş verdiyini anlaya bilmirəm. Heydər Əliyeviçin səsini eşidirəm: "Saşa! Maşını çağır, mən Kremlə yollanıram".

Maşında mənə deyir: "Anapaya uçuruq. O tərəflərdə Ulyanovskda olan hadisəyə oxşar əhvalat baş verib. İki-üç günlük oraya gedirik". Amma "iki-üç gün", sən demə, az qala iyirmi gün uzanacaqmış...

Kremlə gəldik. Qəza xəbəri, məncə, gecə saat 10–12 radələrində çatdırılmışdı. Bu müddət ərzində hökumət komissiyası təşkil edilmiş, Heydər Əliyeviç də onun sədridir. Təyyarə hazırdır. Bütün operativ – hökumət qərargahı "Vnukovo-2"-yə yollanır... Anapaya uçuruq (Novorossiyskdə münasib uçuş-eniş zolağı yox idi).

Anapada bizi Krasnodar Diyar Partiya Komitəsinin birinci katibi qarşılayır, oradan "Çayka" maşınında birbaşa Novorossiyskə yollanırıq. O, ilk növbədə xəstəxanalara baş çəkir. Yadımdadır, palataların birində üzü yanıq bir qadın yatırdı. Heydər Əliyev təəccüblənir: "Axı, yanğın-filan olmamışdı". Ətrafdakılar gülümsəyirlər: "Gəmidə boya dağılıb sifətinə sıçramış, o da benzinlə silmək istəmişdi". Heydər Əliyeviç qadını qucaqlayıb zarafatla qınayır: "Axı bizi niyə qorxuzursan? Sən elə üzü boyalı da qəşəng olardın..." Bir sözlə, bəlaya uğrayanlara bacarınca ürək-dirək verirdi. Sonra faciə baş verdiyi yerə yollandıq. Əlbəttə, dəhşət idi. Katerlə sulanın qoynundakı əcəl izlərinə yaxınlaşdıq. Asılı kameranı dənizin dibinə salladıb, batmış gəmini göstərdilər. Yuxarıda isə yardımçı gəmilər düzülmüşlər. Hərəsinin öz vəzifəsi var. Bir gəmidən o birisinə keçirik, bizi hərbi katerdə ora-bura çatdırırlar; dalğıcların barjına qalxırıq, ardınca daha hansısa gəmilərə...

Xilas edənləri harda mümkündürsə yerləşdirmişdilər. Şəhər böyük deyildi, o vaxt çox da abadlaşdırılmamışdı. Bütün xəstəxanalar, mehmanxana və yataqxanalar işə qatılmışdı. Heydər Əliyeviç xilas edilənlərin hamısına baş çəkib görüşdü, hər hansı yardım göstəriləcəyinə söz verdi. Axşama yaxın qara xəbəri alan qohum-əqrəba şə-

hərə axışmağa başladı. Heydər Əliyev hamısını yerli kluba dəvət etməyə tapşırıq verdi ki, görüşüb söhbətləşsin.

Qəti əmr də verdi: "Mənim yanıma gələn insanları dərhal buraxın, hansısa məsələ varsa, qoy danışsınlar". Hamını istisnasız qəbul edirdi.

Bir arvad şikayətlənirdi ki, ölüm haqqında şəhadətnamələri düzgün doldurmurlar. O, şəhadətnaməni alıb Səhiyyə Nazirliyi nümayəndəsinə üz tutdu: "Siz yazırsınız ki, ölüm suda boğulduğundan baş vermişdir. Yaxşı, bir-iki il nə baş verdiyi yadda qalacaq, on il ötəndən sonra isə onun qohumları deyəcək ki, filankəs sərxoşluğunun güdazına gedib". Elə oradaca ölüm haqqında şəhadətnamələr geriyə qaytarıldı, Heydər Əliyevin göstərişilə müvafiq şəxsin məhz Novorossiyskdə gəmi qəzası nəticəsində həlak olduğu göstərilməklə təzə sənədlər verildi.

Ertəsi günü maşınla şəhər partiya komitəsinə yaxınlaşanda gördük ki, bir yaşlı kişi qarşımıza doğru qaçır: "Qeydar Alieviç, Qeydar Alieviç! Sınoçek!". Milis də onu saxlamağa çalışır. Mən maşından düşüb irəliyə çıxdım, qocanı onun yanına gətirdim.

Yazıq kişi dərdindən üzülürdü, az qala diz çökəcəkdi qarşısında: "Esli vı ne reşite, nikto ne reşit!"* Sən demə, bu yaxınlarda Leninqradda rəhmətə gedən arvadını dəfn edibmiş, qızı isə bu nəhs dəniz səyahətində imiş... Qızın meyidi tapılmış, tanınmış, Leninqrada aparılmışdı, qoca ata onu anasının yanında torpağa tapşırmaq istəyirmiş, amma hansısa məmur buna yol verməyib: "Apar başqa qəbiristanlığa!". Qoca yenə Novorossiyskə qayıdıb Heydər Əliyeviçə pənah gətirmişdi. O, Əliyevin adamların xilas edilməsində necə canla-başla çalışdığını görüb ona bel bağlamışdı...

Heydər Əliyev qocanı dinləyib dedi: "İndi bir şey fikirləşərik". Şəhər komitəsində xüsusi rabitə xəttilə Leninqrad Vilayət Partiya Komitəsinin birinci katibinə telefon açdı. Dedi: "Mən məsələnin həll olunmasını tələb edirəm və bu işlə məşğul olan o alçaq raykom işçisinin layiqincə cəzalandırılmasını təkid edirəm!".

Belə hallar nə qədər olmuşdu!

Novorossiyskdə Heydər Əliyeviç "Briqantina" adlanan bir bekara mehmanxanada qalırdı. Adi otaq, lyuks-filan deyildi. Mənə tapşırmışdı ki, qidalanma, yaşayış ödənişləri üzrə qəbzlərin hamısını səliqə ilə yığıb saxlayım.

Şam yeməyinə gələndə ona üz tutdular: "Heydər Əliyeviç, bizlərdə gələnləri "pelmen"lərə* qonaq etmək adətdir". – "Mənə heç nə lazım deyil, heç bir qonaqlıq – filan, – mənə üz tutdu. – Sən mənim nə yediyimi bilirsən. Sifariş elə, gətirsinlər".

Orada bütün məsələlər onun nüfuzu sayəsində yola verilirdi. Əlbəttə, dəhşətli dərəcədə üzülürdü. Qayıdanda tanımaq olmurdu. Üç həftə dalbadal – bir an da dincini almağa macal yox idi...

Günlərin bir günü küçədə ona bir oğlan yanaşıb nəsə izah etməyə başladı. Mən, təbii ki, dərhal yaxınlaşdım, məlum oldu ki, teploxod kapitanının oğludur, başqa şəhərdən gəlib. Heydər Əliyeviç ona yavaşca məsləhət gördü: "Buralardan tez uzaqlaş. Mən susacam, kimliyini deməyəcəm ki, başına bəla gəlməsin. Bura sənin yerin deyil. Gəlməyə necə cürət eləmisən! Camaat səni parçalamayınca aradan çıx!".

AzərTAc-ın müxbiri ilə müsahibəsində 1971–1987-ci illərdə Ukrayna KP MK katibi olmuş Yakov Poqrebnyak o ağır günlərdə Heydər Əliyevlə əməkdaşlığını belə xatırlayırdı:

"Şəxsi və qeyri-şəxsi dərdləri ilə yanaşı Heydər Əliyevin üzərinə "Admiral Naximov"la bağlı faciənin ağrı-acısı düşdü, bu bəlanı ürəyinə saldı. Qəza nəticəsində ziyan çəkənlərə yardım göstərilməsi üzrə hökumət komissiyasının başında durdu. Mən isə Ukrayna KP MK katibi olaraq, Ukrayna qrupuna rəhbərlik edirdim, – həlak olanlardan 280 nəfəri Ukraynadan idi. Mən aeroportda Heydər Əliyevi qarşılayanda o: "Bugünkü görüşümüz o qədər də xoş deyil", – dilindən qaçırdı.

İşgüzar geyimdəydi, – əynində sərbəst oturan tünd bozumtul gödəkçə, köynək, qalstuk. Hər gün saat 18:00 radələrində Əliyev başda olmaqla komissiya şəhər sovetinin klubunda Novorossiyskə gələn dərdli qohumları axtarışların gedişatı haqqında məlumatlandırırdı. Dördüncü gün gələnlərin sayı 900 nəfərə çatmışdı! Heydər Əliyevlə mən, demək olar ki, hər gün cənazələr daşındığı dəmiryol terminalına yollanırdıq. Gözümüzün qabağında ölüləri geyindi-

* "Siz həll etməsəniz, heç kəs həll etməyəcək!"

* Pelmen – düşbərədən böyük xəmir xörəyi.

rib refrijeratorlara yükləyirdilər. Dənizdə batan bədbəxtlərin sifətləri dəhşətdən ayri-üyrü qalmışdı... Əliyev qaşqabaqlı var-gəl edir, dönə-dönə: "Görünür, bu yara ürəyimdə ömürlük qalacaq!" – deyirdi. Doğrudan da, az bir müddətdən sonra o, infarkt keçirdi...

Oksigen şlanqı suların altında sökülmüş arakəsməyə ilişib tıxandığına görə bir dalğıc həlak olandan sonra Heydər Əliyev gözləri yaşarmış halda axtarışların dayandırılmasını bildirsə də, öz əzizlərini heç olmasa layiqincə torpağa tapşırmağı arzulayan qaragün insanların dərd-səri komissiyanı bu fikirdən daşınmağa məcbur etdi. Əliyevin səhnədən salona enərək, bir axsayan ağbirçək qadına yaxınlaşdığını, onu qucaqlayıb öpdüyünü gördüm. Sonra öz xalasının yanında duran 15 yaşlı bir oğlana (onun ata-anası həlak olmuşdular) üz tutdu: "Olan olub, başa düş... Biz əlimizdən gələni edəcəyik ki, sən ali məktəbi bitirəsən, sənə təqaüd təyin edəcəyik..."

Biz, Heydər Əliyevin adi ikinəfərlik otaq tutduğu "obkom" mehmanxanasında səhər və şam süfrəsində qidalanırdıq. Axşamlar, stressi sovuşdurmaq üçün bir qədəh konyak içərdi. Faciə haqqında fikirlərdən ayrılmaq üçün başqa mövzular axtarırdıq. Yadımdadır, söhbət əsnasında Heydər Əliyeviç ittifaq büdcəsinin tərtib edilməsindən söz açaraq deyirdi: ölkə yalnız xammal ixracı hesabına yaşamalı deyil, belə olmamalıdır, heyfsilənirdi ki, SSRİ-nin iqtisadi inkişafı üzrə əməlli-başlı proqramı yoxdur.

Qəza qurbanlarının axtarışları sona yetəndə üzgünləşmiş, sınıxmış Heydər Əliyev səlahiyyətlərini mənim öhdəmə verdi, Moskvaya yola düşəndə tapşırdı: "Əlinizdən gələni eləyin ki, heç olmasa insanların dərdini birtəhər azaldasınız!".

Heydər Əliyevin məruzəçisi Camal Camalovun qənaətinə görə, Zərifə xanımın vəfatı, vəzifə ilə bağlı fədakar zəhmət, Novorossiyskə və Ulyanovska bu iki dramatik, üzüntülü ezamiyyət öz sarsıdıcı təsirini göstərmişdi.

"Hər iki səfərdə Heydər Əliyeviçi onun ilk şəxsi həkimi, indi rəhmətlik Lev Kumaçov müşayiət etmişdi, – Camal müəllim xatırlayırdı. – Novorossiyskdən sonra 44 yaşlı Kumaçov infarkt ucbatından xəstəxana yatağına düşdü. Hətta həkim də belə gərginliyə, üzləşməli olduqları böyük fəlakətin acılarına tab gətirməmişdi".

Vladimir Uxovun xatirələrindən:

"Kapitanların səfehliyi ucbatından 423 nəfər bada getdi. Biz xilasedici işləri izləyirdik, bu zaman bir dalğıcımız həlak oldu, sonra-sonra anladıq ki, qalanlarını üzə çıxarmaq mümkün deyil, çünki kimi göyərtədə pərçim olmuş, kimi əlçatmaz "otsek"də (qapalı guşə – *E.A.*) ilişib qalmışdı. Beləcə, bəziləri üçün gəmi qardaşlıq məzarına çevrilmişdi.

Zənnimcə, Novorossiyskə ölkənin hər tərəfindən 1000-dən artıq adam axışıb gəlmişdi. Teploxod sərnişinləri arasında belaruslar da, ermənilər də, ukraynalılar da, həmçinin, ölkənin şimal vilayətlərindən istirahətə gələnlər də vardı. Gələn qohumları yerbəyer etmək, yedizdirmək lazım idi. Və hər axşam Heydər Əliyeviç Dənizçilər Evində bu insanlarla görüş təşkil edirdi.

Komissiyanın gərgin fəaliyyətinə baxmayaraq, çoxsaylı giley-güzar da olurdu, çünki insanlar bir möcüzə arzulayırdı, bəziləri öz yaxınlarının nicat tapa biləcəyinə hələ də ümid bəsləyirdilər. Amma görürdün ki, xilasedicini nəsə ləngidir, məsələn, sualtı izləmə kateri hələ gəlib çıxmayıb. Mən Heydər Əliyeviçin bütün tapşırıqlarını yazırdım ki, axşam yerinə yetirilənləri yoxlayım. Ertəsi günü isə işlərin bu mərhələsi "arıtlanırdı", o, hamıdan çox ciddi məsuliyyət tələb edirdi. Orada bir sıra nazirlər, o cümlədən, SSRİ dəniz donanması naziri, Qara dəniz donanmasının komandanı iştirak edirdilər.

Axşam isə, necə deyərlər, dərd üstə dərd gəlir, ürəyi göynədirdi. Qəza qurbanlarının mindən artıq qohumu, yaxını... Zal ağzınacan doludur. Hər kəsin öz dərdi, öz sualı, öz harayı. "Mənim balam sağ qalmalıdı... Heydər Əliyeviç, xilasetməni təşkil edin... filan yer, filan göyərtə..." O, heç kimin sözünü kəsmirdi, hərçənd çoxları eyni şeyləri deyirdilər. Hər birinə ürəyini boşaltmağa macal verir, vəd edirdi: "Baxarıq... Cəhd göstərərik... Çalışarıq..."

Camaat başıhovlu idi. Bütün bu dərd-sər də onun üzərinə yeriyirdi. Hətta hamı dağılışandan sonra küçəyə çıxanda onu rahat qoymur, başına toplaşırdılar. Axı, min nəfərin hər birini dərhal qəbul etmək olmurdu, kimlərsə kənarda qalırdı. Və o, yenə də söhbətləşir, dinləyirdi, dərdləşirdi.

...Bax, bu "Naximov"un qəzası, görünür, onun səhhətinə təsir göstərmiş, həmin günlər şəxsən çox ağrı-acılar yaşamışdı...

– Komissiyanın işini sonra necə dəyərləndirdilər?

– Heydər Əliyeviçin bu işinə rəsmi qiymət verilmədi. Amma o, nəhəng zəhmət sərf etmişdi. O vaxt artıq Qorbaçov Baş katib idi. Mən onun bir neçə zənginin şahidi olmuşdum. Son zənglərindən biri yaxşı yadımdadır, – mən yaxınlıqdaydım. Qorbaçov gəlmək istəyini bildirib işlərin necə getdiyi ilə maraqlandı. Axırda dedi: "Heydər Əliyeviç, mən orda necə iş apardığınızı bilirəm, odur ki, gəlməyəcəyəm, hesab edirəm ki, siz hər şeyi başa çatdıracaqsınız". O, məncə, cənub tərəflərdən zəng vurmuşdu, oralarda istirahət edirdi. Yəni lap yaxın yerlərdə, rahatca gələ bilərdi. Amma... "Madam ki, işlərin necə getdiyini, sizin hər şeyi necə lazımdı, elə də etdiyinizi bilirəm, mənim gəlməyimə artıq ehtiyac qalmır".

Bəs necə, Baş katib belə "xırda" məsələyə görə öz istirahətini poza bilərdimi?! May ayında o, Çernobıla getməyə cürət etmədi, sentyabrda Novorossiysk bəlasını görməkdən yayındı. Bir ildən sonra, yalnız Rıjkovun təkidi, təhriki ilə zəlzələnin alt-üst elədiyi Spitaka təşrif buyurdu...

"Rahatca mövqedir – başqalarının dərdindən uzaq – iraq olmaq, – V.Andriyanov və H.Mirələmov öz kitablarında yazırlar. – Bircə kövrək, ürəyinazik şairlər əmindir ki, "dərd-sərin özgəsi yox" (Konstantin Simonovun dediyi kimi). Və siyasətçilər – siyasətbazları demirik! – eyni cür düşünürlər. Həmin yay günləri, avqustun 20-dən sentyabrın 20-dək Qorbaçov istirahətdə idi. Moskvaya qayıtmazdan əvvəl Kuban vilayətinə, Stavropola da baş çəkdi, elektoratla deyə-gülə salamlaşdı. Nikolay İvanoviç Rıjkov isə, Ukrayna, Belarusiyanın rəhbər şəxslərilə Çernobıl fəlakətilə, bilavasitə Çernobıl zonasında məşğul olurdu; Heydər Əliyeviç Əliyev Novorossiysk bəlasının yükünü daşıyırdı..."[45].

Çox sonralar N.Rıjkov bir sıra sualların cavabını düşünürdü: "Nədən Qorbaçov belə qəribə şəxsi passivlik göstərirdi? Niyə o, od-alovla haqlanmış Çernobıla axır ki, qədəm qoymadı? Niyə o, "qaynar nöqtələr" həqiqətən də qaynaşanda oralara yollanmadı? Nə Qarabağa, nə Tiflisə, nə Sumqayıta, nə Bakıya, nə Vilnüsə...

Axı o, hakimiyyətinin ilk günlərindən səylə, özü də səmərəsiz olmadan, özünün "xalqın istəklisi" obrazını yaradırdı. İnsanların arasına gedir, onlarla birbaşa küçələrdə söhbətləşir, hərçənd, bu əhval – pürsanlıqlar tezliklə öz maqnitofon yeknəsəkliyilə bezikdirdi. O, mətbuat konfranslarından çəkinmirdi. Özünə tuşlanmış teleobyektivlər qarşısında xoşhallanırdı. Hamının xoşuna gəlməyi istəyir və bacarırdı.

İndi isə bir iş baş verən kimi – kolluqda daldalanır... Axı hər kəsə aydındır ki, onun qoy lap qısaca, bir neçə saatlıq elə həmin Çernobılda gözə dəyməsi nə qədər rəğbət doğura bilərdi! Elə çernobılçıların özünə necə ürək-dirək verərdi! Bax, elə Qorbaçova "vurğun" olan "dəmir" iradəli Marqaret Tetçer Böyük Britaniyada baş verən fövqəladə hadisələrin heç birindən yan keçmədi: təyyarə qəzası yeri, yaxud Belfastın gülləbaran edilmiş küçəsi olsun – hər yerdə onun zərif fiquru peyda olurdu. Onun, qadın xeylağının!"[46]

1996-cı ildə Moskvada "Sonuncu Baş katib" adlı maraqlı bir kitab çıxdı. Müəllifi vaxtilə Qorbaçovla Stavropolda, sonralar paytaxtda işləmiş Viktor Kaznaçeyevdir. O, Qorbaçov xislətinin bariz göründüyü iki hadisədən söz açır. Birincisi – müəllif Pyatiqorsk Şəhər Partiya Komitəsinin birinci katibi olduğu dövrə aiddir. Şəhərin üzərinə misli görünməmiş şiddətli dolu yağır. Zirzəmiləri su basır, bəzi binalar dağılır, şəhərə 10 milyon rubl məbləğindən artıq ziyan vurulub. Kaznaçeyev Qorbaçova zəng vurub vəziyyəti təsvir edir. "Xəttin o başında arxayın səsini eşidəndə necə də heyrətə gəldim, necə də hiddətləndim: "Əşşi, həyəcanlanma, vurnuxma, qorxulu bir şey yoxdur, çox şeyləri təbiətin ayağına yazmaq olar..."

İkinci hadisə zəlzələ ilə bağlıdır. O zaman Qorbaçov xanımıyla Bolqarıstanda idi. Bəladan xəbər tutan kimi, Mixail Sergeyeviç dərhal zəng vurur: "Bura bax, orda mənim evim çoxmu ziyan çəkib?". Onun ilk sualı məni elə sarsıtdı ki, güclə özümü ələ ala bildim: "Yox, – dedim, – Allaha şükür, sizin evinizə heç nə olmayıb, amma başqaları yaman gündədir, ətraf xarabazardır..." O, artıq nəzərəçarpacaq dərəcədə söhbətə marağını itirdi, qırıq-qırıq, rabitəsiz cavab verir, görünür, dəstəyi əliylə qapayıb kimləsə məsləhətləşirmiş, sonra ötkəmləşmiş səslə bir neçə mənasız, gecikmiş göstərişlər verib dedi ki, qoy ruhdan düşməsinlər, tez də söhbəti başa vurdu.

O, Bolqarıstandan qayıdandan bir ay sonra eşitdim ki, onun şəxsi sərəncamı ilə, binanın uçulması bəhanəsilə Qorbaçov mülkünün əsaslı təmiri və yenidən qurulması aparılır"[47].

Moskvaya qayıdandan sonra Heydər Əliyev öz sədaqətli köməkçisi V.Uxovun yardımı ilə ətraflı məktub hazırlayıb Siyasi Büroda hesabat verdi.

"Əsas nəticə: qəzanın səbəbi donanma işinin pis təşkil olunmasındadır, – Vladimir Sergeyeviç söyləyir. – Nəticədə dəniz donanması naziri Timofey Borisoviç Qujenko bəri başdan özü ərizə (işdən azad olunması barədə – ***E.A.***) yazdı, hərçənd məsələyə birbaşa dəxli yox idi, amma öz vəzifəsində qalmağını rəva bilməmişdi. Nazir müavini Qoldobenkonu da, nazirlik kollegiyası üzvü, dənizçilik təhlükəsizliyi üzrə Baş idarə rəisini də işdən azad etdilər. Qara Dəniz Gəmiçilik İdarəsinin rəisi Lukyançenko Stanislav Aleksandroviç vəzifəsindən azad edildi, ardınca da, zənnimcə, partiyadan çıxarıldı".

Bir qədər sonra məhkəmə keçirildi. Hər iki kapitan və "Admiral Naximov"un şturmanı müqəssir sayıldılar. Sonuncusu öz ölümüylə cəzasını qabaqladı. Kapitanlar uzun müddətə azadlıqdan məhrum edildilər – 10 və 12 il. Hərçənd həlak olanların qəzəblənmiş qohumları "dəlibaş"lara ən ağır cəza verilməsini tələb edirdilər.

... Novorossiysk faciəsindən bir ay sonra, oktyabrın 3-də Bermud adaları yaxınlığında sovet sualtı gəmisində yanğın baş verdi. 1987-ci ilin avqustunda Rostov–Moskva qatarı qəzaya uğrayır, noyabr ayında Qorki dəmiryol xəttində sərnişin qatarı yük qatarı ilə toqquşur, üç gün sonra isə Tiflis yaxınlığında daha çox qurbanlar aparan qatarların toqquşması baş verir...

1986–1988-ci illər texnogen qəzalar, təbii fəlakətlərlə "məhsuldar" olmuşdu. Sanki göylərin, onsuz da Qorbaçovun dağıdıcı "islahatları" sayəsində heydən düşmüş sovet dövlətinə qəzəbi tutmuşdu. Elə o vaxtlar da Qorbaçova xalq arasında "meçeniy" ("damğalanmış" – ***E.A.***) ayaması yapdılar ki, bununla böyük məmləkətin "antixrist" ("dəccal", "laməzhəb" – ***E.A.***) tərəfindən idarə olunmasına eyham vurulurdu. Boris Oleynik isə kəskin boyalarla, rəmzi mənada şişyan "Zülmətin knyazı" kitabını yazdı. Kitaba və kinayəli ayamaya münasibət fərqli olsa da, düşünürəm ki, mənim respublikam üçün "Qorbaçov" soyadının əbədi olaraq Qanlı Yanvar qırğını ilə uzlaşacağı danılmaz həqiqətdir.

Qorbaçov və kadr siyasəti

"Taxta çıxma"sından az sonra M.Qorbaçov Siyasi Büroda "favoritizm" ənənəsinin əsasını qoydu. Əvvəlki Baş katiblər ali rəhbərlikdəki öz həmkarlarından birinə az, digərinə çox rəğbət bəsləsələr də, simpatiya və antipatiyalarını çox da büruzə verməməyi üstün tutardular. Çünki bilirdilər ki, bu – parçalanmaya doğru aparan yoldur.

Qorbaçovun vaxtında başqa cür oldu. Hakimiyyət başında olduğu qısa müddət ərzində o, gah Y.Liqaçovu, gah A.Yakovlevi, gah V.Medvedevi "əzizləyib", Siyasi Büronun başqa üzvlərinin rəyini qəribliyə saldı və bütün ciddi problemləri xüsusən "məhrəm" şəxslərin məhdud dairəsində həll etməyə üstünlük verdi. İş o yerə çatırdı ki, Baş katibin köməkçiləri A.Çernyayev, yaxud G.Şahnazarov siyasi qərarların, bəzən də taleyüklü qərarların qəbul edilməsinə bu və ya digər Siyasi Büro üzvündən daha çox təsir göstərə bilirdilər.

G.Şahnazarovun vəfatından sonra "Svoboda" radiosu jurnalist Vladimir Baburinin apardığı verilişi yayımladı. Həmin verilişdə öz dostu və həmkarını xatırlayan Qorbaçov Fondunun əməkdaşı Anatoli Çernyayev deyirdi:

"Hesab edirəm ki, o, ən başlıca işlərdə Qorbaçovun ən istedadlı silahdaşı idi... Qorbaçov bir çox məsələlərdə – yalnız beynəlxalq, daxili məsələlərdə deyil, həm də – kadrlarla və s. bağlı incə problemlərdə ona üz tutardı. Şahnazarov olmadan ən vacib məsələlər çözümləndiyi heç bir məhrəm dairəli müşavirə keçirilməzdi".

Qorbaçov komandasının digər üzvü Vadim Medvedev bu faktı öz kitabında təsdiqləyir. O yazır ki, artıq 1985-ci ilin sonlarında Şahnazarov məhrəm şəxslər sırasında "konseptual məsələlər üzrə fikir mübadiləsi" aparılacaq və müəyyən "yanaşmalar" işlənilәcək bütün məşvərətlərə qatılırdı.

Qorbaçova vilayət partiya rəhbərlərinin dəstəyini təmin etmiş Y.Liqaçova gəldikdə, yeni Baş katib ona "borclu qalmayıb" dərhal

MK aprel Plenumundan sonra ali partiya funksionerləri sırasında onun statusunu yüksəltdi.

Bu barədə Yeqor Kuzmiç özü belə xatırlayır:

"...1985-ci ilin may bayramlarından sonra, MK aprel Plenumundan bir neçə gün keçəndən sonra Qorbaçov mənə zəng vurdu:

– Yeqor, mən altıncı kabinetə köçürəm, sən isə buraya, ikinciyə keç. Sən Katiblikdən yapışmalısan, təşkilat şöbəsini başqasına ötürərik. Fikirləş – kimə?

Tezliklə Qorbaçov bu məsələni Siyasi Büroya çıxartdı və mənə rəsmi olaraq Sov.İKP MK Katibliyinin, Baş katib olmadığı hallarda isə Siyasi Büro iclaslarının da aparılması tapşırıldı. Mən altıncı "podyezd"dən birinciyə köçüb, "Suslovun kabineti" kimi tanınan, beşinci mərtəbədə 2 saylı kabinetdə məskunlaşdım"[48].

Eyni zamanda Qorbaçov Baş katib olandan az sonra özünün seçilməsini təmin etmiş "köhnə qvardiya" təmsilçilərini "dənləməyə" başladı. İlk zərbə Q.Romanovun payına düşdü.

"M.S.Qorbaçovun Baş katib vəzifəsini tutan kimi ilk növbədə Leninqrada yollanmasının səbəbi yetərincə tez aydınlaşdı. Səfər zamanı Leninqrad partiya təşkilatının tam loyallığından əmin olan, Neva sahillərindəki şəhərin sakinləri tərəfindən dəstəkləndiyini hiss edən Baş katib fürsəti fövtə vermədən özünün ən yaxın siyasi rəqibi – Q.V.Romanovu rəhbərlikdən sıxışdırmağa başladı. Onun adı qəzet səhifələrindən yox oldu; Sov.İKP Mərkəzi Komitəsində özü bilavasitə hazırlanmasına qatıldığı elmi-texniki tərəqqi üzrə iyun ayında keçirilən böyük müşavirəyə çağırılmadı. Nəhayət, 1985-ci il iyulun 1-də rəsmi məlumat yayımlandı: Sov.İKP MK Plenumu Q.V.Romanovun, səhhətinin vəziyyəti ilə bağlı təqaüdə çıxmasına görə Siyasi Büro üzvü və Sov.İKP MK katibi vəzifələrindən azad olunması haqqında xahişini yerinə yetirdi.

Q.V.Romanovun kənarlaşdırılmasının bütün təfərrüatları mənə məlum deyil. Onu bilirəm ki, bu əməlin gerçəkləşməsində Y.Liqaçov fəal rol oynamışdı, – o vaxt Baş katib xoşagəlməz işləri Liqaçovun əli ilə yeritməyi üstün tuturdu. Eləcə də bilirəm ki, Liqaçov üçün Q.Romanovun istefaya göndərilməsinin təşkili müəyyən problemlər yaradırdı: zənnimcə, Liqaçov bu "əməliyyatı" əxlaqi – mənəvi baxımdan xətərsiz saymırdı. Ona görə də dəfələrlə köməkçilərindən yerli partiya işçiləri və MK aparatı tərəfindən münasibətin necə olduğunu soruşur, arıtlayır, sanki öz hərəkətlərinə bəraət qazandırmaq istəyirdi.

M.S.Qorbaçov hakimiyyətinin ilk ayları ilə bağlı bu epizodu, heç də hansısa siyasi xadimləri təmizliyə çıxarmaq, o birilərini qaralamaq üçün xatırlamıram. Zaman və xalq mənsiz də onların həqiqi qiymətini verəcək. Q.V.Romanov əhvalatı ilə bağlı başqa mətləb haqqında demək istəyirəm. Seçilməndən sonra yeni Baş katib ilk addımlarında öz şəxsi hakimiyyətini səylə möhkəmləndirməyə başladı, bu məqsədə çatmaq naminə asanlıqla, tərəddüdsüz, şəksiz hər hansı mövcud olan – partiya, hüquqi, əxlaqi normaların üstündən adlayıb keçdi. Əlbəttə, siyasət bütün zamanlarda və bu gün də şərəf məsələlərində çox da vasvası olmayan adamların məşğuliyyəti olaraq qalır. Lakin xəyanətkarlıq, böhtan, mətbuatda qarayaxma, əxlaqi və insani normaların tapdanması yenidənqurma illərində olduğu miqyaslara, deyərdim ki, bizlərdə çox onilliklər boyu çatmamışdır.

Partiya yoldaşlığı baxımından Q.V.Romanova qarşı kollektiv səylə tutulan divanın əxlaqsızlığı onun rəhbərlik tərkibindən çıxarılması deyil, uzun müddət Siyasi Büro və Sov.İKP MK Plenumu üzrə özünə yoldaş saydığı adamların qarşısında söz demək imkanı verilməməsi idi"[49].

Doğrudan da, Siyasi Büro iclaslarının ilkin stenoqramlarını nəzərdən keçirərək, heyrətlənirsən ki, bu ali partiya qurumunun üzvləri öz həmkarlarını necə də asanlıqla, əslində, müzakirəsiz-filansız "səhhətinin durumu ilə bağlı" standart bəhanə ilə təqaüdə yollayırdılar...

Sov.İKP MK Siyasi Bürosunun
29 iyun 1985-ci il tarixli iclasının
STENOQRAMından

"Qorbaçov – Səhhətinin pisləşməsi ilə bağlı Siyasi Büro üzvü və Sov.İKP MK katibi vəzifələrindən azad edilməsi və təqaüdə göndərilməsi haqqında Q.V.Romanovun ərizəsi daxil olmuşdur. O, dünən mənim yanımda olub. Belə şərtləşdik ki, Plenumun işlədiyi

müddət ərzində o, məzuniyyətini davam etsin. Düşünürəm ki, Qriqori Vasilyeviçin xahişini yerinə yetirmək lazımdır.

Yoldaşların sualları və başqa mülahizələri yoxdurmu?

Siyasi Büro üzvləri – yoxdur".

Elə buradaca Qorbaçov Sov.İKP MK-nın tikinti məsələləri üzrə katibi vəzifəsinə Boris Yeltsinin seçilməsini təklif edir. Maraqlıdır ki, Yeltsinin namizədliyinə etiraz etməyə cəhd göstərən yeganə adam Nikolay Tixonov olur.

Nazirlər Sovetinin sədri öz tərəddüdünü bildirir:

" – Bəs o, təzə rolda özünü necə göstərəcək? – və ardınca hökumət başçısının replikası: – Nə isə mən onu başa düşə bilmirəm..."

Buna baxmayaraq Qorbaçov özünün gələcək "mərdüməzarı"nın namizədliyində israr edir və bunu Siyasi Büronun qərarıyla sənədləşdirməyi təklif edir. Heç bir etiraz edən yoxdur.

Q.Romanovun istefasının təfsilatını V.Vorotnikov belə xatırlayır:

"Baş katibin təklifi ilə Siyasi Büroda MK təşkilat şöbəsi müdiri vəzifəsinə Q.P.Razumovski təsdiqlənir.

İkinci məsələ. Q.V.Romanov haqqında (o özü Siyasi Büroda yox idi) Qorbaçov qısaca məlumat verdi. Dedi ki, "Qriqori Vasilyeviçlə ətraflı söhbət olmuşdur. O, özünün müəyyən nöqsanlarını boynuna alsa da, vəziyyəti tam adekvat dəyərləndirmir. Nəticədə bir qədər düşünüb-daşındıqdan sonra Romanov Siyasi Büroya işdən azad olunması xahişiylə ərizə yazdı".

Elə bir xüsusi müzakirə olmasa da, bəzi yoldaşlar replikalarla Romanovun istefası haqqında təklifi dəstəkləyirlər.

Düşünürəm, hamı anlayırdı ki, onlar ikilikdə Siyasi Büroda yola gedə bilməyəcək. Bu, əslində, Qorbaçovun Siyasi Büro tərkibinin "təmizlənməsi" üzrə ilk addımı idi. Və bizim cavan Baş katibə ilk güzəştimiz"[50].

"Həyat və islahatlar" kitabında M.Qorbaçov bu hadisəyə cəmi bir abzas həsr etmişdir:

"Romanovla görüşüb yetərincə açıq-aydın bildirdim ki, onun üçün rəhbərlikdə yer yoxdur. O, bunu incikliklə qarşılasa da, etiraz etməli bir şey yox idi. Mən dedim ki, işi Siyasi Büroda müzakirəyə çıxarmamağa üstünlük verirəm, yaxşısı budur hər şey könüllü həll olunsun, Romanov ağlamsınsa da, axır-axırda bu təklifi qəbul etdi. Plenumda onun haqqında məsələ sakit həll edildi, o, MK üzvü olaraq qaldı"[51].

Maraqlıdır ki, iki il sonra Heydər Əliyevi aradan götürməyi qət edərək Qorbaçov yenə də sınanmış fəndə – kütləvi informasiya vasitələrində dezinformasiyaya əl atdı, daha dəqiq desək, Heydər Əliyevin guya qocaman Baş katib Brejnevə brilyant qaşlı üzük bağışlaması haqqında uydurmaya yol açdı. Biz bu barədə sənədli romanımızın ikinci kitabında bəhs etmişdik. Gördüyümüz kimi, "durğunluq" dövründə də, "yenidənqurma" dövründə də sovet nomenklaturası rəqiblərlə nalayiq, amma sınanmış üsulla – şər atmaqla, qara yaxmaqla haqq-hesabı çürütməyə üstünlük verirdi.

1985-ci il iyunun 29-da Siyasi Büroda çıxış edərək qarşıdakı Sov.İKP MK Plenumu və Ali Sovet sessiyası məsələlərini açıqlayaraq, M.Qorbaçov 1977-ci ildən bərqərar olmuş Sov.İKP MK Baş katibi və Ali Soveti Rəyasət Heyətinin sədri vəzifələrinin bir şəxs tərəfindən aparılmasının əleyhinə olduğunu bildirdi.

"...Ölkədə islahatların nəhəng vüsət tapdığı mərhələdə Baş katibin partiya işləri üzərində diqqətini cəmləşdirməli" olduğunu vurğulayaraq o, plenuma və sessiyaya SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsinə A.A.Qromikonun məsləhət görülməsini, Sov.İKP MK Baş katibinin isə Rəyasət Heyətinə üzv seçilməsini təklif etdi.

Ardınca o, E.Şevardnadzenin xarici işlər naziri vəzifəsinə məsləhət görülməsi haqqında təklifini irəli sürdü. Müdafiə sənayesi məsələləri üzrə MK katibi vəzifəsinə L.Zaykov, tikinti məsələləri üzrə MK katibi vəzifəsinə B.Yeltsin məsləhət görüldülər.

İyulun 1-də keçirilən MK Plenumu bu şərtləşmələri bəyəndi. İyulun 2–3-də keçirilən SSRİ Ali Sovetinin sessiyasında A.Qromiko SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sədri seçildi. İyulun beşində Siyasi Büro iclasında Qorbaçovun təklifi ilə A.Yakovlev MK təbliğat şöbəsinin müdiri vəzifəsinə təsdiqləndi.

V.Vorotnikov qeyd edir ki, bundan əvvəl, Baş katib Yakovlevi MK aparatına götürəcəyi barədə Siyasi Büroda bir kəlmə də deməmişdi. Bir çoxları üçün bu yerdəyişmələr, istefalar, təyinatlar göz-

lənilməz olmuşdu. Xüsusən də yeni xarici işlər naziri Şevardnadzenin namizədliyi.

Ondan əvvəl ölkənin baş diplomatı kreslosunda bir çərək əsrdən də çox oturmuş Qromıko vaxtilə "Stalin çağırışı" dalğasında gələn az qala ən cavan səfir olmuşdu. O, İ.Stalini Tehran, Yalta və Potsdam səfərlərində müşayiət etmiş, BMT Nizamnaməsi müəlliflərindən biri, ümumiyyətlə, XX əsrin ikinci yarısında dünya siyasətinin ən nüfuzlu fiqurlarından biri olmuşdur.

"Brejnev rejiminin son illərində, xüsusən, Suslovun ölümündən sonra, əlacsız xəstə olan Andropovun, yarıcanlı Çernenkonun dövründə Qromıko, şübhəsiz, Kremldə ən nüfuzlu siyasi fiqur idi. Onun başçılıq etdiyi XİN-in mövqeyinə hansısa məsələdə irad tutmaq heç kimin ağlına gəlməzdi. Qromıkonun imzaladığı sənədlər avtomatik olaraq Siyasi Büronun qərarları, Ali Sovetin fərmanları kimi qüvvəyə minirdi. Nazirin özü isə bu dövrdə öz siyasi "saatı"nı yalnız hərbçilərlə tutuşdurardu"[52].

Bununla belə, "o, Qorbaçova elə züy tutur, onu elə dəstəkləyirdi ki! – A.Biryukova söyləyir. – Qromıko çox nadir hallarda Qorbaçova etiraz edirdi. Həm də, şübhələrini bildirsə də, onları çox diplomatik formada ifadə edirdi. O, dünyasını dəyişdi və Qorbaçovun ölkəni haraya gətirib çıxartdığını görə bilmədi. Zənnimcə, o, ölkənin hər hansı nüfuzunu itirməsinin şahidi olsaydı, bağrı çatlayardı... Axı mən vaxtilə Qromıko ilə, sovet nümayəndə heyətinin üzvü kimi BMT-nin Baş Assambleyasına gedirdim. O çıxış edəndə, salonda iynə atsan yerə düşməzdi. Hamı Qromıkonun nə deyəcəyini eşitməyi özünə borc bilirdi. Hələ nə qədər hüzuruna gələnlər vardı! Qromıko hər gün 12–15 nümayəndə heyəti başçılarını qəbul edirdi... Qromıko Şevardnadzenin xarici işlər naziri təyin edilməsinin əleyhinə idi. Lakin Qorbaçova etiraz etməyə qətiyyəti çatmadı".

SSRİ DTK-nın sabiq sədri Vladimir Kryuçkovun fikrincə, "Qromıko xarici işlərdə həddindən artıq möhkəm və ardıcıl, Qərbin nəzərində "güzəştə getməz" idi, o, üzüyola nazirlə əvəz edilməli və sonuncunun vasitəsilə beynəlxalq işlərdə "yeni təfəkkür" deyilənlər reallaşdırılmalı idi"[53].

Zaman ötdükcə Qromıko öz seçimi, Qorbaçovun partiya lideri vəzifəsinə seçilməsi haqqında təklifi irəli sürdüyünə görə peşmançılığını bildirməyə başlamışdı. Ömrünün sonunda o, artıq buna görə açıq heyfsilənir, çox böyük səhv etdiyini, Qorbaçov sandan yanıldığını düşünürdü.

"1988-ci ilin yanvar ayında SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanıyla mənə ordu generalı hərbi rütbəsi verilmişdi, – V.Kryuçkov xatırlayır. – Fərmanı A.A.Qromıko imzalamışdı. Andrey Andreyeviç mənə zəng vurub səmimi təbrik etdi.

Qromıkonun təmkinli xasiyyəti nəzərə alınsa, aramızda qeyriadi açıq söhbət oldu. Andropovu, Ustinovu xatırladıq. Andrey Andreyeviç dedi ki, onların simasında dostlarını, məsləkdaşlarını itirib. Xüsusən, Yuri Vladimiroviç haqqında yüksək fikrini söylədi.

Söhbət əsnasında dilindən qaçırtdı ki, yəqin təqaüdə çıxmalı olacaq, amma qəlbən nigarandır. "Dövlətin aqibəti məni qorxudur... 1985-ci ildə, Çernenkonun ölümündən sonra yoldaşlar mənə partiya işində qərar tutmağı, Sov.İKP MK Baş katibi vəzifəsinə keçməyə razılıq verməyi təklif edirdilər. Partiya vəzifəsinin mənlik olmadığını düşünərək imtina etdim. Bəlkə bu mənim səhvim idi", – deyə sözünü tamamladı.

Mən diqqətlə qulaq asır, ölkədə heç də hər şeyin rəvan getmədiyini anlayırdım.

"Yakovlev və Şevardnadze – onlar Qorbaçovla birgə haraya gedib çıxacaqlar?" – mənim üçün bir qədər gözlənilməz halda Qromıko dilləndi.

Mən cavab verdim ki, bir çox şeylər həqiqətən narahatlıq doğursa da, hələ ki, vəziyyəti düzəltmək olar.

Cavabında: "Bunu kim və necə edə bilər?" – məncə, həyəcanla dolu sözlərini eşitdim. Belə tərəddüdləri müxtəlif şəxslərin dilindən get-gedə daha çox eşitmək olardı. Qorbaçov haqqında ayrı-ayrı neqativ söyləmələr zaman ötdükcə yeni keyfiyyət alır, onun tam danılmasını əks etdirirdi.

Qorbaçovla Qromıkonun münasibətləri də tədricən gərginləşir və elə məqam gəlib çatdı ki, Qorbaçov bütün davranışıyla onunla daha işləyə bilməyəcəyini göstərməyə başladı.

Qromıkonun bu və ya digər qərarın Sovet dövləti üçün arzuolunmaz nəticələrə gətirib çıxara biləcəyi haqqında hər bir xəbərdarlığı Qorbaçov tərəfindən acıqlanmaqla, şeşələnməklə qarşılanırdı[54].

Sov.İKP MK Siyasi Bürosunun
29 iyun 1985-ci il tarixli iclasının
STENOQRAMından

"**Qorbaçov** – İndi qarşıda bir məsələ durur: kimi xarici işlər naziri vəzifəsinə irəli sürmək. Biz, ikinci Qromıkonu – onun təcrübəsi, xarici siyasət problemləri üzrə biliciliyi ilə – tapa bilmərik. Amma Andrey Andreyeviç özü də diplomatiyada öz yolunu indi malik olduğu bu təcrübə, bu biliklərlə başlamamışdı... Mən Andrey Andreyeviçlə kimin xarici işlər naziri vəzifəsinə irəli sürülməsi barədə söhbətləşmişəm. İxtisaslaşmış diplomatlarımız çoxdur. Korniyenko təcrübəli işçidir. Maltsev ona nisbətən bir qədər zəifdir. Çervonenko həm partiya, həm diplomatik işdə çalışmışdır. Dobrının nəzər dairəmizdədir. Amma yenə də fikirlərimiz başqa səmtdə cərəyan etdi. Nazir vəzifəsinə sanballı fiqur, bizim sizinlə heyətimizdən olan, yaxşı tanıdığımız və inam bəslədiyimiz şəxs olmalıdır... Nəticədə belə fikrə gəldik ki, Eduard Amvrosiyeviç Şevardnadzeni məsləhət görək. Mən onunla danışmışam. O, cavab verdi ki, hər şeyi gözləyə bilərdi, amma bunu yox. Bu, formalaşmış, prinsipial, partiya maraqlarını anlayan bir xadimdir. Eduard Amvrosiyeviç özü mətinləşmiş, təmkinli, problemlərin həllinə yol tapmağı bacaran insandır.

Belə bir mühüm məqam da nəzərdə tutulmalıdır: bizim ölkəmiz çoxmillətlidir və bu cəhət mərkəzi partiya orqanlarının tərkibində də öz əksini tapmalıdır.

Yoldaşlar, əminəm ki, bu düzgün qərardır. Siz buna necə yanaşırsınız?

Qromıko – Dəstəkləməyi təklif edirəm. Yol.Şevardnadze – rəhbərlik edən mərkəzin üzvüdür. Bu, xarici işlər naziri üçün vacibdir.

Qorbaçov – XİN-lə layiq olduğu kimi rəftar edilməlidir...

Qromıko – Lenin deyirdi ki, XİN Mərkəzi Komitənin şöbəsidir.

Ponomaryov – Beynəlxalq vəziyyət də güclü rəhbər tələb edir...

Qorbaçov – Əminəm ki, xarici işlər naziri vəzifəsinə yol.Şevardnadzeni irəli sürərək düzgün hərəkət etmiş olacağıq.

Liqaçov – Dəstəkləyirik.

Qorbaçov – Həm şəxsi keyfiyyətləri, həm də xarici işlər naziri olması məsləhət görüldüyünə görə yol.Şevardnadzenin Siyasi Büroya namizədlikdən üzvlüyə keçirilməsi məqsədəuyğundur.

Qromıko – Bu yaxşı qarşılanacaq.

Qorbaçov – Demək, yoldaşlar, necə hərəkət edək?

Siyasi Büro üzvləri – Dəstəkləyirik".

Professional diplomatların rəylərinə görə, E.Şevardnadze özü üçün yeni fəaliyyət sahəsinə çətinliklə qatılır və ciddi səhvlərə yol verirdi. Heydər Əliyevdən fərqli olaraq, xudpəsənd və təkəbbürlü gürcü başqalarından öyrənməyi, həmkarlarıyla əməlli-başlı məsləhətləşməyi xoşlamır, problemlərə "atüstü" yanaşır, bəzən nəticələri götür-qoy etmədən tələsik qərarlar qəbul edirdi. Təəssüf ki, xarici siyasət meydanında o, nə "mətinləşdiyini", nə "təmkinliyini", nə də "prinsipiallığını" göstərə bildi. "Qızılgül inqilabı"ndan sonra şərəfsiz istefaya çıxan, amerikalılardan umu-küsülü qalan Şevardnadze gileylərini dilə gətirdi: bəs onlar niyə məni güdaza verdilər, axı mən onların hər buyruğuna əməl etmişdim...

"Çoxları o zaman xatırladılar ki, məhz SSRİ xarici işlər naziri Şevardnadzenin fəal iştirakıyla Qorbaçov birtərəfli qaydada mövqelərini Qərbə birbəbir təhvil verir, elə o vaxtlar, yenə də birtərəfli şərtlə, Bering boğazı rayonunda strateji və iqtisadi baxımdan mühüm akvatoriya Amerika Birləşmiş Ştatlarının ixtiyarına verilmişdi"[55].

Bu, yəqin ki, Qorbaçovun ən uğursuz təyinatlarından biri olmuşdur. Hərçənd, hələ Boris Yeltsinin yüksəlişi ilə bağlı əhvalat da baş vermiş və bu da Qorbaçovun kadr məsələlərində tam səriştəsizliyini göstərir. Tək kadrlarmı?..

B.Yeltsinin Moskva Şəhər Partiya Komitəsinə birinci katib təyin edilməsi ilə bağlı ayrıntıları N.Rıjkov xatırlayır:

"...85-ci ilə qayıdaq. Bir dəfə axşamçağı Baş katibdən birbaşa telefon bağlantısı səsləndi (mən hələ MK-da işləyirdim). O, təcili yanına gəlməyimi xahiş etdi, bir neçə dəqiqədən sonra orda oldum. Qorbaçovla Liqaçov kabinetdə var-gəl edərək, nəyisə müzakirə edirdilər. İlk kəlmələrdən anladım ki, söhbət Qrişinin dəyişdirilməsindən gedir.

– Sən axı bilirsən ki, paytaxt rəhbərliyini möhkəmləndirmək vaxtı yetişib. Biz Yeqorla Moskva Şəhər Partiya Komitəsinə birinci katib namizədliyini götür-qoy eləyirik. Səninlə məsləhətləşmək istərdik, – Qorbaçov mənə üz tutdu.

– Ümidvaram ki, artıq təkliflərniz var?

– Bəli. Bizə o yer üçün möhkəm və mübariz bir yoldaş gərəkdir. Yeqor Kuzmiçlə fikrimiz odur ki, bu, Yeltsin olmalıdır. Sən onu tanıyırsan, rəyin necədir?

Açığını deyim ki, ona qədər mən bu kadr məsələsi üzərində çox da düşünmürdüm, özümün iqtisadi qayğılarım bəs eləyirdi. Amma belə bir təklifə mən müsbət yanaşa bilməzdim. Bu təklif mənə görə nəinki gözlənilməz, həm də anlaşılmaz idi, təəccüb və heyrət doğururdu.

– Bəli, mən Boris Nikolayeviçi tanıyıram və hesab edirəm ki, o bu rola qətiyyən yaramır. Unutmayın ki, söhbət nəhəng paytaxt təşkilatından gedir, burada çoxsaylı zavod fəhlələri, ölkənin əsas elmi və yaradıcı elitası cəmləşib. Moskvaya ağıllı, çevik, mədəni rəhbər gərəkdir. Yeltsin isə başqa biçimli adamdır: peşəcə qurucu olsa da, təbiətcə qırıcıdır. O, çox odun qıracaq,* görərsiniz! Ona böyük ixtiyar vermək olmaz. Siz onu Sverdlovskdan Moskvaya, Mərkəzi Komitəyə keçirməklə artıq bir səhvə yol vermisiniz, daha birinin, özü də xatalısının üstünə gəlməyin.

Mənim dəlillərim kar eləmədi. Onlar artıq qərara gəlmişdilər. Və mənə:

– Sizi inandıra bilmədim, – demək qalırdı. – Siz buna görə peşiman olacaqsınız. Dizinizə döyəcəksiniz, amma gec olacaq!

Beləcə də ayrıldıq. Hərə öz fikrində qaldı. Mən bu söhbət haqqında heç yerdə, heç vaxt yazmamışdım. Amma bir neçə ay bundan əvvəl Qorbaçov televiziyada çıxışında bildirdi ki, Yeltsinin MŞK-yə təyin edilməsinə qarşı çıxan və bizə xəbərdarlıq edən yeganə adam Rıjkov idi. Lakin biz ona qulaq asmadıq"[56].

M.Qorbaçovun daha bir favoriti A.Lukyanov idi. Onunla gələcək Baş katib Moskva universitetinin eyni fakültəsində eyni vaxtda təhsil almışdı. Moskvaya köçən və Sov.İKP rəhbərliyində öz yerini az-çox möhkəmləndirən Mixail Sergeyeviç tələbə sinifdaşını Mərkəzi Komitənin ümumi şöbə müdirinin birinci müavini vəzifəsinə – partiya aparatında aparıcı yerlərin birinə – yeritdi.

Qorbaçov Baş katib seçilən kimi Lukyanov ümumi şöbənin müdiri oldu. İndi o, Qorbaçovun qəbuluna gedib-gələnləri və ona ünvanlanan məlumatı "arıtlayır" və Sov.İKP MK siyasətinə, deməli, ölkə həyatına da böyük təsir göstərmək imkanı qazanır. 1987-ci ildə o, MK katibi, ardınca Siyasi Büro üzvlüyünə namizəd seçilir.

"Amma bunları sadalamaq hələ heç nə demək deyil. Qorbaçov Lukyanovu Sov.İKP Mərkəzi Komitəsinin inzibati orqanları şöbəsinin rəhbəri etdi, bu da indiki təbircə, SSRİ-nin bütün güc strukturları, ədliyyə və məhkəmə üzərində nəzarət demək idi. Bu vəzifə o qədər önəmli idi ki, heç bir Baş katib onu bilavasitə kuratorluğundan buraxmır, inzibati şöbəni heç vaxt katib olanlara həvalə etməyərək adi müdir səlahiyyətli işçiləri təyin edirdi. Hazırki faktı Qorbaçovun Lukyanova nə dərəcədə etimad göstərdiyini sübut edir.

Sonra hamının televiziya vasitəsilə müşahidə edə biləcəyi hadisələr baş verir: Qorbaçov Baş katib vəzifəsini SSRİ Ali Soveti Rəyasət Heyəti sədri vəzifəsilə öz əlində cəmləşdirir, Lukyanovu özünə müavin məsləhət görür, yəni əslində bütün Sovetlər sistemini ona tapşırır. "Prezident dövləti – SSRİ"nin təşəkkül etdiyi qaynağın başında məhz Lukyanov durmuşdu. Və bu əbəs deyildi. Qorbaçov prezident seçildikdən sonra o, Lukyanovu inamla Ali Sovetin sədri vəzifəsinə gətirir. Fikir verin: Rəyasət Heyəti sədri deyil, Ali Sovet sədri yerinə. Misilsiz bir karyera. Amma görünür, "heç bir savab iş cəzasız qalmır" kəlamında bir danılmaz həqiqət varmış"[57].

Bir neçə il ötəcək və A.Lukyanov başqa "qəsdçilər"lə birgə "dövlətə qarşı xəyanət" ittihamı ilə "Matrosskaya tişina"nın istintaq təcridxanasına salınacaq. Amma əslində Anatoli İvanoviç ölkəyə qarşı deyil, öz sabiq himayədarına qarşı "xəyanət" etmişdi, çünki anlamışdı ki, "patron"u Sovet İttifaqını uçuruma doğru sürükləyir.

1985-ci ilin payızında Qorbaçov daha bir opponenti ilə, hökumət başçısı N.Tixonovla üzülüşməyi qət edir. Baş katib ona qarşı

* Burada "odun qıracaq" məcazi məna, "naşı iş görmək" mənasını daşıyır.

çoxdan kin saxlayırdı. Təbii ki, öz memuarlarında Qorbaçov əhvalata başqa don geyindirib daha nəcib niyyətlərlə əlaqələndirir:

"Tixonovun təqaüdə getməsi haqqında məsələ asanlıqla həll olunmadı. Baxanda, hər şey aydın idi: insan 80 yaşını haqlayıb, hökumət başında – ələlxüsus, islahatlar yoluna qədəm qoyan hökumət ola – canında təpəri, ömür möhləti olan, gələcəyə baxmağı bacaran adam olmalıdır. Tixonov isə dünənki deyil, daha çox srağagünki Stalin dövrünün adamı idi. Lakin onun bu barədə öz fikri vardı. Əmin idi ki, onun köməyi olmadan keçinməyəcəklər və ilk söhbətimizdə o, "yeni maraqlı şəraitdə işləməyə" hazır olduğunu bildirdi.

Mən nəzakətlə bu təklifdən vaz keçdim və əsasən qarşıdakı islahatların çətinliklərini, ölkəyə xidmət etmiş veteranların sağlamlığına qayğı göstərmək zərurətini vurğulayaraq, dolayısı başa saldım ki, o, təqaüdə çıxmalıdır. Burada məlum oldu ki, Tixonov hər halda işin belə yekunlaşmasına hazırmış"[58].

1986-cı il fevralın 18-də "köhnə qvardiya"nın daha bir üzvü – V.Qrişin təqaüdə yola salındı. K.Rusakov da eynilə. V.Qrişinin kənarlaşdırılmasının səbəblərini araşdıran, onunla birlikdə 10 il şəhər komitəsində işləmiş Y.İzyumov yazırdı:

"Bəli, yaşı 70-i aşan Viktor Vasilyeviç ən yaxşı illərində olduğu kimi deyildi. Amma həlledici məqam bu olmadı. Qrişinin müstəqilliyi, möhkəmliyi, Qorbaçovun rəhbərliyə qatdığı əyalət katiblərinə tənqidi münasibəti, düşünülməmiş, bəzən də, onun fikrincə, sadəcə axmaq hərəkətlərə kəskin qiymət verməsi onların boğazında sümük olub qalmışdı.

Qrişinin kənarlaşdırılması Qorbaçova lazım idi. Həm onun qisasçılığı, ürəyində kin saxladığına görə, həm də Mixail Sergeyeviçin Viktor Vasilyeviçin qarşısında nüfuz sahibi olmadığı və ola bilməyəciyinə görə: o, heç vaxt başını itirib Qorbaçovun ardınca sevinə-sevinə qaçan kütləyə qoşulan deyildi. Qrişin həmişə Qorbaçovun əsil qiymətini bilirdi, Moskva "ağa"ları Qafqaza, Minvodı yaylağına gələndə onların qarşısında nökərlik etdiyini çox görmüşdü. Qorbaçov da bu münasibəti duyurdu"[59].

Həmin ilin dekabr ayında Qorbaçov Qazaxıstan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi D.Kunayevi vəzifəsindən kənarlaşdırmağı qərara alır. V.Vorotnikov öz gündəliklərində yazır ki, Siyasi Büronun 11 dekabr 1986-cı il tarixli iclasında Qorbaçov Kunayevlə bu ərəfədə apardığı söhbətdən xəbər verir. Onun sözünə görə, Kunayev guya Nazarbayevi neqativ ruhda səciyyələndirərək, birinci katibin ruslardan seçilməsini məsləhət görübmüş. İstefa haqqında xahişini yola vermək, Qorbaçovun təklifiylə Qazaxıstan KP MK Plenumuna Q.Kolbini məsləhət görmək qərara alınıb (Kolbin Sverdlovskda, Gürcüstanda işləmiş, Qazaxıstana təyinat aldığından əvvəl Ulyanovsk Vilayət Partiya Komitəsinə başçılıq etmişdi). Bu seçimin nəyə gətirib çıxartdığı və Heydər Əliyevin həmin məsələylə bağlı mövqeyindən qarşıdakı fəsillərdə söz açacağıq.

Çox sonralar **Vitali Vorotnikov** acıyaraq etiraf edirdi:

"1984–1985-ci ilin başlanğıcında Qorbaçov məni məharətlə öz "arabasına" qoşdu. Bu arabanı Liqaçov, Rıjkov, Nikonov, Çebrikov və başqalarından ibarət "qoşqu" can-başla çəkirdi. Sonra, zaman ötdükcə, hakimiyyət başına çıxmağa nail olaraq, o əvvəl açıq-aydın rəqiblərini aradan götürdü, ardınca bir az da yerini bərkidib, sabiq müttəfiqlərini bir-bir "dənləməyə" başladı. 1988-ci ilin mart ayından sonra, yeni "məsləkdaş"lar komandası düzənlənəndə bu arıtlama xüsusilə nəzərə çarpırdı. Mən də bu vəziyyəti hiss etdim. Onun mənə münasibəti dəyişməyə başladı. Əvvəlki səmimi dostcasına söhbətlərdən, məsləhətlərdən əsər-əlamət qalmadı. Nəticədə, öz "vəd"inə əməl edərək, 1988-ci ilin sentyabrında o, məni fəndgirlıklə RSFSR Nazirlər Sovetindən Ali Sovetə tolazladı və əslində, konkret işlərdən uzaqlaşdırdı. Katibliyi əlinə keçirərək, daha doğrusu, bu orqanı ləğv edərək, o, Liqaçovu da "yıxdı". Sonuncu olaraq 1990-cı ildə, Qorbaçov hakimiyyətinin təsdiqlənməsinə xeyli xidmətlər göstərmiş və ona hamıdan davamlı inamı bəsləyən Rıjkovu istefaya yolladı. Baş katib, 1985-ci ilin martında işə başladığı adamların hamısını beləcə satdı. MK Siyasi Büronun kadr siyasətində "yeni təfəkkürü" onun Baş katibi beləcə gerçəkləşdirdi"[60].

Qorbaçovun köməkçisi Çernyayev də, Liqaçov da, başqaları da yazırdılar ki, yeniləşmə və yenidənqurma dövrü kütləvi kadr dəyi-

şiklikləri tələb edirdi, guya ona görə də "gensek" ali mərtəbədən başlamış, konservatorları, Brejnev–Andropov dövrünün qocalarını aradan götürmüşdür. Yəni kütləvi kadr dəyişmələri obyektiv zərurətdən irəli gəlirmiş. Bu yalnız qismən həqiqətə uyğun ola bilər. Romanova, Qrişinə, Kunayevə, Qromıkoya, sonralar Əliyevə gəlincə, Qorbaçov onları istefaya ona görə göndərirdi ki, onun ağzına baxımırdılar, öz yüksəlişlərinə görə ona borclu deyildilər. Qorbaçovun rəyi ilə heç də həmişə üst-üstə gəlməyən öz fikirlərini deyə bilərdilər və deyirdilər. Sözarası, Y.Liqaçovun və V.Medvedevin "yuxarılara" çəkdikləri adamların sırasında mühafizəkarlar, tamamilə səriştəsiz, simasız bəndələr az deyildi. A.Çernyayev də xatirələrində bu barədə yazır:

"Sonralar bilindiyi kimi, mənim şübhələrim özünü doğrultdu: "təzələrin" əksəriyyəti, hətta çox cavanları da, yenidənqurmaya qadir olmayan "fərsiz" çıxdılar, çoxları isə hətta Qorbaçovun qızğın əleyhdarlarının dəstəsinə qoşuldular"[61].

Təsadüfi deyil ki, iqtidarın ali eşelonunda Əliyev, Baybakov, Vorotnikov kimi rəhbərlər qalınca, ölkədə işlər pis getmirdi, onlar praktiki işin bütün yükünü daşıyırdılar. Həm də Qorbaçova "yeni təfəkkür"dən arxayınca dəm vurmağa və xarici ölkələri gəzməyə imkan verirdilər... Onlar vəzifələrini tərk edincə yerlərini Vadim Medvedev kimi reallığı düzgün dəyərləndirməyi bacarmayan, konkret işi bilməyən naqqallar və diletantlar tutdular.

Liqaçova və Yakovlevə gəldikdə, bu iki adamın Qorbaçov əyanlarına qatılması ilə Heydər Əliyevin vəziyyəti ciddi dərəcədə çətinləşdi. Adlarını çəkdiyim bu iki nəfər sonralar mənimlə söhbət edərkən Siyasi Bürodakı sabiq həmkarlarına aid gecikmiş etiraflar, xoş dəyərləndirmələr söyləsələr də, 80-ci ilin ortalarında Heydər Əliyevin qanını çox qaraltmışdılar. Odur ki, hər ikisinə diqqət yetirib bu şəxsiyyətlərə öz həmkarları, həmçinin, tabeliklərində işləmiş adamların söylədiyi səciyyələndirmələri dinləməyə dəyər.

A.Yakovlevlə M.Qorbaçov 1983-cü ildə, Sov.İKP MK katibi vəzifəsində olarkən Kanada səfərində tanış olmuşdu – birincisi həmin ölkədə səfir idi. O, "Nyu-York tayms" qəzetinə sonralar verdiyi müsahibəsində dediyi kimi, Kanadada onlar "bütün işlər barədə çox açıq söhbət aparmışlar". Lakin SSRİ-yə "yenidənqurmanın atası" yalnız Andropovun ölümündən sonra qayıda bilmişdir. O, on bir il vətənində yaşamamış və qayıdan kimi Baş katibin "gizli" müşavirindən əsas ideoloji başbiləninə çevrilərək sürətli karyera qazanmışdı.

Sovet kəşfiyyatının sabiq şefi V.Kryuçkovun şəhadətinə görə, Yuri Vladimiroviç Andropov Yakovlev haqqında yetərincə xoşagəlməz fikirdə idi. Kryuçkovla bir söhbətdə Andropov (Baş katib olarkən) bu adamın qeyri-səmimi olmasını vurğulamış ("əslində, onun nə düşündüyündən heç nə anlamaq olmur!") və Yakovlevin sovet dövlətinə münasibətinin qüsursuz, təmiz olduğuna böyük şübhələrlə yanaşdığını bildirmişdi.

"Ardınca da Andropov dedi ki, Yakovlev artıq on ildir ki, Kanadada işləyir və onun Moskvaya qayıtmağa çağırılması vaxtı yetişib. "Yeri gəlmişkən, – Yuri Vladimiroviç əlavə etdi, – elə adamlar var ki, Yakovlevin Moskvaya qayıtması üçün çox əlləşirlər, odur ki, qoy sevinsinlər".

"Əlləşənlər"in sırasında, Andropovun sözünə görə, hələ Brejnevin dövründə Yakovlevin Moskvadan mümkünçə uzaq bir yerə səfirlik işinə yollanmasında əli olan Arbatov, "indi nədənsə bu fırıldaqçısız keçinə bilmir"[62].

A.Yakovlev özünün Kanadaya səfir təyin edilməsini, azadfikirliliyinə görə ölkədən bir növ qovulması kimi yozmağa meyilli idi. Amma bu "sürgünlük" də olsaydı, həddindən artıq şərəfli və rahat "sürgünlük" idi. Məsələn, Q.Razumovski Siyasi Büro üzvlüyünə namizəd, MK katibi vəzifələrindən Şanxay şəhərinə yalnız konsul müşaviri vəzifəsinə layiq görülmüşdü. MK təbliğat şöbəsinin üç sabiq müdiri, yəni birinci müavindən daha yüksək rütbəli şəxslər – A.Kapto, B.Stukalin və Y.Tyajelnikov sosialist ölkələrində səfir vəzifəsində çalışmışlar.

A.Yakovlevin "Alatoran" adlı qalın kitabını mütaliə edəndən sonra, mən bu siyasətçinin xarakterində iki cəhəti fərqləndirdim. Birincisi, əxlaqi vəzzariyyətçilik, doğulduğu, yaşadığı ölkənin və yarım əsrə qədər üzvü olduğu partiyanın ciddi və güzəştsiz hakimi rolunu oynamaq cəhdi.

Əlbəttə, inandığın idealların əslində yanlış olması yaman işdir. Həmin ideallara inanmayaraq ümumi xora "züy tutmaq" ondan da

betərdir... Bu artıq utanmazlıqdır. A.Yakovlev öz kitabında belə utanmazlığı açıqca nümayiş etdirir. Burada onun əsas opponenti Y.Liqaçovun qeydi yerinə düşər: "İllər ötdükcə siyasətçilərin baxışları dəyişə bilər. Lakin əvvəla, öz keçmiş nöqsanlarını tamamilə danmaqdansa, onları vicdanla boynuna almaq lazımdır"[63].

Sov.İKP MK Mərkəzi Komitəsində işlədiyi zaman xalqa sırınan kütləvi yalana verdiyi töhfələr haqqında Yakovlevin etiraflarından bir "havacat"a fikir verin:

"Bugün deyirlər ki, Yeltsinin vaxtında ölkə korrupsiyaya batıb qalmışdı, amma burada təzə bir şey yoxdur. Brejnev dövründə də korrupsiya daha az deyildi, lakin bundan agah olan adamlar çox deyildi, bu dövlət sirri sayılırdı. Oğurluq, təsərrüfat pozğunluğu, milli ehtiyatların xərclənməsi hesabına saysız dəlik-deşiklərin yamaqlanması get-gedə sistemin kəskinləşən böhranını daha aydın göstərirdi. Başdan-başa yalan, gəlişigözəl informasiya. Hamı uğurlar haqqında fəndgir məlumat yazmağa çalışırdı: ah, biz necə də möhkəm işləyirik, necə gözəl nəticələr əldə edirik! Və yalan nə qədər çox olurdusa, karyeranın təməli də möhkəm olurdu.

Mən də belə çeşidli məktublar imzalayırdım. Təbliğat-təşviqat işləri haqqında məruzələr xüsusən gülünc görünürdü. Biz xəbər verirdik ki, filan qədər təbliğatçı, təşviqatçı gecəbəgündüz filan bölgədə, ya bütövlükdə ölkədə çalışır, onların insanlara təsirini bildirirdik. Amma partiya işçilərindən heç biri öz gözüylə bir canlı təşviqatçı da görməmişdi. Hə, bəzən bizə, MK işçilərinə hansısa kitabxana müdirini ya komsomol işçisini göstərirdilər, – baxın, budur təşviqatçılar. Hamı bunun yalan olduğunu bilirdi. Amma həqiqət kimi qarşılayırdı.

Absurd teatrı idi: bəzən faciəvi, bəzən də komik repertuarla...

Bir misal. Mən öz əlimlə, heç kimdən soruşmadan, yüksək ordenlərə təqdim olunanların sırasına qəzetlərin baş redaktorları, digər kütləvi informasiya vasitələri rəhbərlərinin adlarını özü də tutaq ki, kartof, tərəvəz, taxıl becərilməsində, ət istehsalı, süd sağımı sahəsində uğurlara görə təltif olunma ilə bağlı yazıb calayırdım. Bir dəfə, zarafat xətrinə öz müavinim Georgi Smirnovu mayaotu* becərilməsinə görə təltif olunanların siyahısına qatdım. O, spirtli içkiləri xoşlayırdı. Qırmızı Əmək bayrağı ordeni aldı. Bax belə şuluqluq edirdik..."[64].

Yakovlevin kitabının belə və bir çox başqa, böyük ölkənin keçmişinin başdan-ayağa gözdən salındığı səhifələri oxuyarkən, mən istər-istəməz "yenidənqurmanın atası"nın tutduğu mövqeyi doğma respublikasının yaxın keçmişinin düşünüb-daşınmadan danılmasını, populistcəsinə qaralanmasını qəbul etmədiyini artıq 90-cı illərdə dönə-dönə bəyan edən Heydər Əliyevin nəzər nöqtəsilə müqayisə edirdim.

1997-ci ilin yanvar ayında jurnalist briqadasının tərkibində Azərbaycan Prezidentini Fransaya rəsmi səfəri zamanı müşayiət edirdim. O, Qərb jurnalistləri ilə dönə-dönə həvəslə ünsiyyətdə olurdu. Onlardan biri Heydər Əliyevə bir "solaxay" sual verdi ki, Siyasi Büronun sabiq üzvü kimi o, öz keçmişinə necə münasibət bəsəyir. O vaxtlar çoxları öz tərcümeyi-halına bəzək-düzək vurub özlərini az qala anadangəlmə dissident və kommunist rejiminə qarşı mübariz kimi qələmə verməyə çalışırdılar. Ona görə prezidentin səmimi cavabı Qərb qələm sahibləri tərəfindən böyük hörmətlə qarşılandı.

"Bütün keçmiş fəaliyyətimlə fəxr edirəm, – Heydər Əliyev cavabında dedi. – Mən Sovet İttifaqında olanların hamısına qara yaxmağın, şər atmağın əleyhinəyəm. Mən Kommunist Partiyasına vicdanla xidmət etmişəm, eləcə də vicdanla 90-cı ildə onun sıralarından çıxmışam... SSRİ-nin dağılması qanunauyğun tarixi proseslərin nəticəsidir. Bu baş verməliydi və bugün mən İttifaqın hər hansı formada bərpasının əleyhinəyəm. Bəli, keçmişdə mən Sovet İttifaqını möhkəmləndirmişəm və hesab edirəm ki, o, öz tarixi rolunu oynamışdır. Faşizmin məğlub edilməsi, bu əjdaha üzərində qələbədə Sovet İttifaqı nəhəng rol oynamışdır. Və heç nəyi unutmaq lazım deyil. Bizim əsrimiz mürəkkəb olmuş, birmənalı olmamışdır, bəlkə bu prosesləri incələyərək gələcək tədqiqatçılar daha obyektiv olacaqlar..."

Bax, həmin obyektivliyi, doğruçuluğu mən "Alatoran" kitabında tapmadım. Nəhayət, hər kəs öz əqidəsinə görə hərəkət edə bilər, müxtəlif adamların nəzər nöqtələri daban-dabana zidd ola bilər. La-

* Mayaotu–rusca "xmel", bu sözün başqa mənası "keflilik", "sərxoşluq"dur.

kin kompartiyanın rəhbərlərindən biri olaraq, A.Yakovlev uzun zaman həqiqi baxışlarını gizlətmiş və yalnız həmin partiyadan rüsvayçılıqla çıxarıldıqdan sonra səsləndirmişdi. Öz kitabında Aleksandr Nikolayeviç bu barədə təmtəraqla yazır: "Əgər mən 1943-cü ildə, Vətənimin dəhşətli günlərində partiyaya səmimi-qəlbdən daxil olmuşdumsa, 1991-ci ildə onu şüurlu şəkildə tərk etmişəm"[65].

Yenə də sözünə haram qatır: tərk etməmiş, kənara atılmışdır... Özü-öz xoşuyla getməmişdir, "göndəriblər". Həm də KİV kanallarıyla A.Yakovlevin Sov.İKP sıralarından "Sov.İKP Nizamnaməsinə zidd olan və partiyanın parçalanmasına yönəldilən hərəkətlərinə görə" xaric edilməsi haqqında rəsmi xəbər yayımlanmışdı.

Yenə də hadisələri qabaqlaya bilmiş və partiyadan öz qərarıyla çıxmış Heydər Əliyevlə paralel görüntüyə gəlir. Həm də o, öz qəti hərəkətini, görk olsun deyə, Rusiyanın aparıcı KİV kanalları ilə dünyaya bəyan etmişdi. Sonralar bu barədə bəhs edəcəyik.

Şahidlərin və həmkarlarının göstərdiyi kimi, A.Yakovlev sovet respublikalarında separatizmi şövqləndirirdi. Dağlıq Qarabağ münaqişəsində isə bədnam "boz kardinal" rolunu oynamışdı.

Vaxtilə Sov.İKP MK aparatında işləmiş G.Züqanov xatırlayır:

"Bir dəfə həmkarlarımızla Orta Asiyadakı vəziyyət üzrə ətraflı arayış məktubu hazırlayarkən Özbəkistana xüsusi diqqət yetirdik. O vaxt vəhhabilik, islam təməlçiliyi kimi anlayışlar hələ işlədilməsə də, biz milli zəmində qızışan çəkişmələri yetərincə əsaslı təsvir etdik və proqnozumuz həyəcanlı səslənirdi: qatmaqarışıqlar istisna olunmur, buna görə cüzi təkan da bəs edəcək, təcili ölçülər götürülməlidir. Bu məktub birbaşa Yakovlevin masasının üstünə qoyuldu və cavab yubadılmadı, belə səslənirdi – çaxnaşma salmayın! 1989-cu ilin qış çağı idi, iyun-avqust aylarında isə Fərqanə vadisində qanlı etnik iğtişaşlar baş verdi, ardınca zəncirvari – Qırğızıstanın Oş vilayətində qırğın törədildi. 1990-cı ilin fevralında Düşənbədə də çoxsaylı insan qurbanlarına səbəb olan çaxnaşmalar püskürdü"[66].

Oxşar situasiyalarda A.Yakovlevin qəribə mövqeyindən Y.Liqaçov da öz memuarlarında söz açır:

" – Biz bu gün nədənsə çox əsəbiləşirik. Dəyərmi?.. Normal yenidənqurma prosesi gedir. Bu, keçid dövrünün qaçılmaz çətinlikləridir və belə həyəcanlanmaq lazım deyil.

Bir dəfə Siyasi Büroda kəskin etiraz etdim:

– Bizi sakitləşdirmək, "layla" oxumaq lazım deyil. Bu masa arxasında ağciyərlər yoxdur. Ölkədə böhran vəziyyəti yetişməkdədir.

Amma Yakovlev hər şeyi "malalamaqda" davam edirdi. Bütün kəskin hallarda belə olurdu: istər sağçı – radikal (antisovet) KİV-lər, istərsə Litva haqqında məsələlərdə. Onun mövqeyi bu idi – əsəbiləşməmək! Və köhnə vodevil mahnısını xatırladırdı: "Hər bir şey yaxşıdır, gözəl markiza!". Gah orda, gah burda hər şey artıq, necə deyərlər, od-alov içində yanır, Aleksandr Nikolayeviç də öz bayatısını çağırırdı: "əsəbiləşmək nəyə gərək...". Bu nə demək idi? Real həyatdan kənara çəkilib durmaqmı? Siyasi uzaqgörənliyin olmamasımı? Yaxud əksinə, uzaq hədəfi güdən say-hesabmı? Güman ki, sonuncusu idi. Açığını deyim, güclü siyasi radikalizm müqabilində ən böhranlı vəziyyətlər ərəfəsində onun "layla" oxuması məni heyrətləndirirdi.

Deyə bilərəm ki, bir çox prinsipial hallarda Mixail Sergeyeviç, deyək ki, öz mövqeyini yəqinləşdirəndə, son nəticədə Yakovlev yanaşması üstün gəlirdi, "boz kardinal" öz fikrini yeridə bilirdi"[67].

SSRİ DTK-nın keçmiş şefi V.Kryuçkovun kitabından əlamətdar bir mülahizə:

"Məhz Yakovlev Baltikyanı bölgədə, Qafqazda vəziyyətin səbatsızlaşdırılmasında az qala həlledici rol oynamışdı. O, Baltikyanı respublikalarda hər vəchlə millətçilik, separatçılıq ovqatına həyanlıq edir, onların ayrılmasına yönəldilmiş təmayülləri dəstəkləyirdi. O, Qafqazda Ermənistana "rəğbət" bəsləyir, əslində isə Azərbaycana qarşı çıxışlara təhrik edir, Qarabağ problemi ətrafında vəziyyəti qızışdırırdı. **Ümumiyyətlə, Azərbaycan haqqında həmişə açıq-aydın qərəzlə söylənərdi** (seçmə bizimdir – ***E.A.***).

Orta Asiya respublikalarına Yakovlev əslində nəsə bir yad toplum kimi baxırdı. "De görüm, nəyimizə gərəkdi Qırğızıstan?" – deyə o, hiddətlənirdi, xatırladanda ki, bu, Rusiya üçün qardaş xalqdır, həqarətli təbəssümlə cavab verirdi"[68].

Hətta Qorbaçovun məsləkdaşları da, o cümlədən, Vadim Medvedev kimiləri, sonralar Yakovlevdən üz döndərmişdilər.

"Hərçənd mən onda da, sonralar da Yakovlevin emosional – publisistik səciyyə daşıyan və fundamentallıq və dərinliklə seçilmə-

yən radikal – liberalizminə qarşı tənqidi münasibətimdən daşınmırdım. Onun gəlişigözəl kəlamlara və pərdəarxası siyasi gedişlərə meyli heç vaxt mənim xoşuma gəlməmişdi"[69].

Yakovlevdən fərqli olaraq, Y.Liqaçov partiyanı bütün biçimlərində – zavod partiya özəyindən Mərkəzi Komitəyədək – yaxşı tanıyırdı; o, bir çox yerli partiya işçilərini, xüsusən, vilayət komitə katibləri səviyyəsində şəxsən tanıyır və onlara arxalanırdı. Təbii ki, Yakovlevlə bir sıra vacib siyasi məsələlərdə onlar ayrılırdılar.

"Ümumiyyətlə, Yeqor Kuzmiçin iş üslubunda qarşısında çözülməz məsələ olmadığını düşünməyə öyrəşmiş güclü bir vilayət rəhbəri duyulurdu, – V.Leqostayev qeyd edir. – Son nəticə yalnız göstərilən səylərin ölçüsündən, ya da uzaqbaşı Mərkəzin dəstəyindən asılıdır. Lakin ölkə vilayət deyil, burada keyfiyyətcə başqa qanunauyğunluqlar və ilgilər hərəkətə gəlir. Ən başlıcası odur ki, indi mərkəz sən özünsən, ona görə də heç kimdən yardım istəyə bilməzsən. Yeqor Kuzmiç hər dəfə vilayət ölçülərilə düşünməkdən ayrıla bilmirdi. Belə hallarda o, qolaylanıb "kökündən vururdu" və MK şöbələrində onun haqqında ürəklərində: "Öz vilayətindəki kimi at oynadır", – deyirdilər"[70].

Bir çox memuar yazanlar onu mühakimələrində ötkəm və kəskin, "kompleks"lərdən, refleksiyadan xali olan, rəhbərlik metodlarında avtoritar, praktiki hərəkətlərində sərt və təpərli olan şəxs kimi təsvir edirlər. Mən bu səciyyələndirmələrə – şərtsiz saleh və dürüst, lakin tamamilə bəsarətsiz adam – sözlərini əlavə edərdim. Misal üçün, Qorbaçovun və bütövlüklə, SSRİ-nin "axırına çıxan" Boris Yeltsinin iqtidara gətirilməsi tarixçəsini götürək. Məhz Yeqor Kuzmiç Yeltsini Sverdlovskdan Mərkəzi Komitənin tikinti şöbəsinə müdir vəzifəsinə keçirilməsinə təkid etmiş, sonra MK katibi kreslosuna, ardınca Moskva rəhbəri "taxtı"na doğru yeritmişdi.

Y.Liqaçovla görüşərkən ona belə bir sual vermişdim:

" – Bəs necə olmuşdu ki, siz Yeltsini "çəkib çıxarmış", özünüzü başağrısına düçar etmişdiniz?

– Bu, Andropova xəstəxanada baş çəkdiyim günlərin birində, ölümünə lap az qalmış olmuşdu. Yuri Vladimiroviç dedi: "Yeqor Kuzmiç, deyirlər, Yeltsini Moskvaya gətirmək lazımdı. Siz Sverdlovska yollana, orada qalıb ona bir baxa bilməzdinizmi?".

Elə o vaxt vilayətdə partiya konfransı hazırlanırdı. Konfransa yollandım. Tədbir iki gün davam etdi, səfərim üç gün çəkdi. Bütün bu vaxt biz bir yerdəydik. Həmin günlərdə o, bir dəfə də olsun qədəhə gözucu da "baxmadı". Yəqin mənim alkoqola münasibətimi bilirmiş. Onun ikinci katibi və başqa yoldaşlar isə mənə heç nə demədilər. Amma mən indi onları günahlandırmaq istəmirəm. Onlar sonralar mənə etiraf etmişdilər:

– Yeqor Küzmiç, onun möhkəm içdiyini sizə bildirsəydik, o, indinin özündə də Uralda işləyəcəkdi. Sərxoşluğa qarşı sizin münasibətinizi bilirdik. Biz isə onun buradan getməyini istəyirdik.

Sözün qısası, mən Sverdlovskda görünən kimi (bəlkə də bu əvvəlcədən planlaşdırılmışdı), harda olurdumsa, adamlar dərhal başıma yığışıb Yeltsini vilayətdən ayırmamağı xahiş edirdilər, – teatrda, antrakt zamanı da, "Uralmaş"da da... O, Uralda özünü yaxşı tərəfdən göstərmişdi.

Moskvaya qayıtdım, hər şeyi çatdırdım. Amma Yeltsin MK-ya bu səfərdən yalnız iki il sonra, həm də ancaq şöbə müdiri vəzifəsinə götürüldü".

Y.Liqaçov, Siyasi Büroda Heydər Əliyevi qınayanların "qabaqcıl"larından olacaq və öz kobudluğu, köntöylüyü ilə ona çox ağrıacılar verəcək. Qeyd edək ki, Yeqor Kuzmiçin ifratçılığı onun özünü də çox pis vəziyyətlərə uğratmışdı. Məhz Liqaçov, təbii ki, ali rəhbərliyin təhriki ilə Özbəkistanda "pambıq işi"nə rəvac vermiş, necə deyərlər, öz əlilə Qdlyan və İvanov kimi dönük əlaltıları bəsləmişdir ki, axır-axırda üzünə durub onu aləm qarşısında rüşvətxorluqda günahlandırmışlar. Yaxud antialkoqol kampaniyasını götürək. Siyasi Büro üzvlərinin demək olar ki, hamısı bu həngaməni dəstəklədiyi halda, axırda Liqaçovu güdaza vermişdilər. Deyilənə görə, o, SSRİ XİN-in uzun müddət yüksək vəzifəli işçilərin övladları üçün seçmə "inkubator" kimi fəaliyyət göstərən Diplomatik Akademiyasında da qayda-qanun yaradılmasına çalışmış və bununla da özünə və MK katibliyinə xeyli səlahiyyətli bədxah qazandırmışdır"[71].

Qorbaçovun dövründə, bax, belə müxtəlif çeşidli və əl atılan vasitələrin çoxunun da fərqinə varılmayan bir "məclis"ə düşmüşdü ki-

tabımızın qəhrəmanı. Sonralar o, əbəs yerə demirdi ki, Siyasi Büro tərkibində olması hansı məqamdasa onda "ikrah" hissi doğurmuşdu.

"O, qulaq asmağı əsla bacarmırdı..."

M.Qorbaçovun dayaz "operetta" fiquru heç cürə həqiqi faciəyə "boy vermir". Hətta siyasi bioqrafiyasının ən dramatik məqamları belə farsa oxşayır: həm dağılan İttifaqı tələm-tələsik, əlimyandı saxlamaq cəhdləri, həm Qorbaçov cütlüyünün Foros imarətində qəribə "dustaqlığı", həm də onun bir neçə saat ərzində B.Yeltsin tərəfindən kobudcasına Kreml sarayından qovulması. Sonralar onun haqqında yalnız opponentləri deyil, yaxın keçmişdəki dostları, silahdaşları da həqarətlə yazmış, hətta yenidənqurmanın "mənəvi atası" A.Yakovlev də xatirələrində öz himayədarına "təpik atmağı" lazım bilmişdi...

Hər halda belə bir adamın rəhbərliyi altında Heydər Əliyev az qala üç il işləməli olmuşdu, ona görə də Qorbaçovun tərcümeyi-halında bəzi faktlara toxunmağı, onunla müxtəlif dönəmlərdə ünsiyyətdə olmuş, ya əməkdaşlıq etmiş siyasətçilərin söylədiyi rəyləri dinləməyi lazım bilirəm. Qəribədir: bu səciyyələndirmələrdə, hətta neytral adamların qələminə mənsub olsa da, pozitiv cəhətlər azdır. Məsələn, dəfələrlə əvvəllər istinad etdiyimiz, okeanın o tayında məskunlaşmış siyasətşünaslar Klepikova və Solovyov kimiləri. Baxın, gələcək Baş katibin tələbəlik illərindən onlar hansı ayrıntıları "çözələyib" çıxarmışlar:

– "Qorbaçovun həmkursları yekdilliklə qeyd edirlər ki, o, ilk universitet ilində az qala komik təsir bağışlayırdı. Yoldaşları onun əyalət ədalarına, köntöylüyünə, açıq-saçıq mənsəbpərəstliyinə, heyrətə gətirən nadanlığına, ruscada "axsamağına" lağ edirdilər.

Tələbə məclislərində, – həmkursları xatırlayır, – hamı möhkəm içib keflənsə də, tək o, demək olar ki, boğazını islatmayıb ayıq qalırdı. Ertəsi günü isə siyasi mövzularda kefli söhbətlər haqqında dekanatda xəbər tutub tələbələri sorğu-suala çəkirdilər. Ona görə yoldaşları onun çuğulçuluğundan şəklənmişdilər, xüsusən o, praktika keçmək üçün Lubyankanı seçəndə.

Qorbaçovun sinif yoldaşı Lev Yudoviç xatırladırdı ki, bəzi tələbələr, Qorbaçovun "kosmopolit"lərə qarşı mübarizə kampaniyasına fəal qoşulduğuna və şəxsi işlərə baxılmasında canfəşanlıq göstərdiyinə görə ona kəskin nifrət bəsləyirdilər. Komsomol, ardınca da partiya iclaslarında bu çalışqan stalinist yəhudi mənşəli professor və tələbələrin, o vaxtın təbirincə, "paxırını açır", komsomoldan, ya partiyadan çıxarılmalarını, universitetdən xaric edilmələrini tələb edirdi. Stalinin ölümündən sonra siyasi "ilıq havalar" başlayanda və Xruşşov imperiyanı "destalinizasiya" kursuna "yönəldəndə" Qorbaçova köhnə əlaqələri yaramadı. İndi həmin əlaqələr daha çox onun adına xələl gətirirdi, tələbəlik vaxtında "xalq düşmənləri"nin ifşa edilməsində göstərdiyi canfəşanlıq kimi. Universiteti bitirəndən sonra o, Moskvada özünə yer eləyə bilmədi və arvadıyla birgə öz yurduna qayıtmalı, hər şeyi təzədən başlamalı oldu. "Destalinizasiya" onu çaş-baş saldı, bütün kartlarını qarışdırdı, söykənəcəksiz qoydu"[72]. Bu müəlliflərin yazdıqlarının yarısı yalan olsa da belə, cavan Qorbaçovun portreti yenə də həddindən artıq xoşagəlməz alınır.

Qorbaçov cütlüyünün Stavropol mahalındakı həyatını hamıdan ətraflı onun sabiq həmkarı Viktor Kaznaçeyev təsvir edir. O, uzun illər Qorbaçovla işləyərək, onun xidməti dönərgələrini təkrarlamış, əvvəl Stavropolun komsomol və partiya təşkilatlarında kresloları dəyişə-dəyişə şəhər komitəsinin birinci, diyar komitəsinin ikinci katibi vəzifəsini tutmuşdur. M.Qorbaçov həmyerlisini Moskvaya çəkib çıxarır, yüksək vəzifəyə təyin edir. 1985-ci ildən Kaznaçeyev Texniki-Peşə Təhsili üzrə Dövlət Komitəsinin sədri, 1988-ci ildən isə Rusiya Federasiyasının sosial təminat naziri olur. Sonuncu Baş katibin kitabın müəllifinə hansı yamanlıq etdiyini bilmirəm, amma Mixail Sergeyeviçin portreti onun təsvirində qara tonlarla işlənib.

Stavropolda Moskva Universitetinin cavan məzununun karyerası yeyin yeridi. Şəhər komsomol komitəsinin katibi, sonra diyar komsomol komitəsinin ikinci katibi... Kaznaçeyev yazır ki, hələ o vaxtlar Qorbaçov rəqiblərini aradan götürməyə çalışırmış:

"Az-çox qabiliyyətli bir rəhbər işçi Qorbaçovun yanında görünürdüsə, dərhal onun adına "kompromat" tapılır, ya da onu başqa

vəzifəyə, daha yüksək olsa da, hökmən ucqar bir rayona azdırırdılar, təki gözdən iraq olsun"[73].

60-cı illərin əvvəllərində onu partiya işinə keçirirlər. Mixail Sergeyeviçin bütün sonrakı karyerasına görə minnətdar olmalı bir şəxsiyyət ona himayədarlıq edir. Həmin adam Stavropol Diyar Partiya Komitəsinin birinci katibi Fyodor Davıdoviç Kulakov idi. Kulakov Moskvaya keçirilməndən sonra Qorbaçov Stavropol diyarında birinci olur.

"Sonuncu Baş katib" kitabında Qorbaçov tərəfindən dəm-dəstgahlı "istirahət industriyası" yaradılmasından ətraflı bəhs edilir; həmin "industriya" onun əsas qayəsinə çevrilir. Hər şey Qorbaçovun Kremlin saray təbibi Y.Çazovla tanışlığından başlayır.

Çazov Stavropola təşrif buyuranda diyarın partiya başçısı bütün işlərini atıb bir neçə günlük şəhərdə görünmürdü. Onun sanatoriya parkının xiyabanında qonaqla gəzdiyini, şirin-şirin söhbətləşdiyini görmək olardı. Çazov sədaqətli dostluq oyununun şərtlərini qəbul etdi: Moskvadan Qorbaçov üçün ən yaxşı, bahalı dava-dərman göndərilirdi. Məhz Çazov Qorbaçovu inandırmışdı ki, hər şeyi elə təşkil etmək lazımdır ki, ölkənin ali rəhbərliyi istirahətini Stavropol diyarında keçirməyə çalışsın. Hər ikisi "rəhbərlik" deyəndə ilk növbədə Andropovu nəzərdə tuturdular – Çazov onun komandasına daxil idi. DTK-nın 9-cu idarəsinin inşaatçı qüvvələri sayəsində qısa müddətdə Kislovodskda dəbdəbəli dövlət bağ malikanəsi ucaldılmışdı.

Andropov Çazovun təhrikilə Stavropol diyarına yol açdı. İndən belə Qorbaçov cütlüyü öz məzuniyyətini Andropov cütlüyünün istirahət vaxtına uyğunlaşdırır və bir yerdə dincəlirdilər.

Partiya elitası üçün bağ saldıran, mülk tikdirən Qorbaçov özünü də unutmamışdı: yerli canişin və onun xanımı üçün təmtəraqlı şəhəryanı xanəgah tikilmiş, Stavropoldakı "İnturist" isə əslində onun yalnız lazımı, "sərfəli" adamları qəbul etdiyi iqamətgaha çevrilmişdi.

Sonralar Mixail Sergeyeviçin cah-calala aludəçiliyi haqqında Baş katibin mühafizə rəisi V.Medvedev **"Çelovek za spinoy"** ("Arxadakı adam") adlı kitabında söz açacaq. Yeri gəlmişkən, Qorbaçov bu cəhətdən kitabımın qəhrəmanına daban-dabana zidd təbiətli idi.

Heydər Əliyev təbiətcə Andropov kimi gözütox insandı, həm də DTK-da xidmət etməsi ona asketizm ruhu, hakimiyyətin zahiri dəbdəbəsinə, verdiyi imtiyazlara etinasızlıq aşılamışdı. O, illər boyu adi xidməti bağında yaşamış, mülkünü təzələməyə, modernləşdirməyə heç bir cəhd göstərməmişdi. Zuğulbada nəhayət, qonaq evi tikildikdə isə orada bircə gün də qalmamışdı. Hətta Siyasi Büro üzvü olaraq Bakıya istirahətə gələndə də. Ona görə də "yenidənqurma"çı KİV-lərin ona qarşı yol verdikləri haqsız iradlar bizi daha çox yandırır. H.Əliyevin guya Brejnev üçün tikdirdiyi Bakıdakı Qonaq Evi haqqında 80-ci illərdə bütün mərkəzi qəzetlər car çəkdiyi halda, Qorbaçovun Stavropol diyarında inşa etdirdiyi dəm-dəstgahlı dövlət bağlarını heç kəs Baş katibə irad tutmurdu.

V.Kaznaçeyevin kitabında gətirdiyi maraqlı bir faktı, yəqin çoxları indi unutmuşdur: "Bir neçə il əvvəl, dövlətimizdə şaxələnmiş mafioz qurumlarının mənşəyini araşdıran iqtisadçı professor Tatyana İvanovna Koryagina bəyan etmişdi ki, onlar Stavropol diyarında Qorbaçov hakimi-mütləq olduğu dövrdə yaranmışlar. Beləliklə, gizli iqtisadiyyatı araşdıran tanınmış alim əslində, dövlət başçısını korrupsiyada, Şimali Qafqaz mafiyasıyla əlaqədə olmaqda ittihamlandırmışdı...

Koryaginaya qarşı SSRİ prezidentinin şərəf və ləyaqətinin təhqir edilməsi faktı üzrə cinayət işi qaldırılmışdı. Lakin yarım ildən sonra işə xitam verilmiş, istintaq Tatyana İvanovnanın sözlərində böhtan ünsürü tapmamış, beləliklə də tanınmış alimin bəyanatının doğru olduğunu təsdiqləmişdi"[74].

Bununla belə, Stavropol mahalının cavan, təpərli "ağa"sı, görünür, Andropovun xoşuna gəlmişdi. Bir dəfə əks-kəşfiyyat rəisi V.Kevorkovla söhbətində Andropov, ölkə həyatına düzəlişlər gətirilməsi zərurətini dərk edən cavan kommunistlər nəsli yetişdiyini söyləmişdi. Artıq haradasa, bir əyalət içində bərbad kənd təsərrüfatının yenidən qurulmasının ağır yükünü öhdəsinə götürə biləcək lider formalaşmışdır. İlk növbədə xalqın çörəyini vermək lazımdır...

"Onda mən ilk dəfə "yenidənqurma" kəlməsini eşitdim, – Kevorkov yazır. – O mənada ki, dünya lüğətinə qatılacaqdı: əvvəl ikinci dünya fövqəldövlətinin dirçəlişi, sonralar isə dağılmasının başlanğıcından xəbər verən ifadə kimi...

Bu söhbətdən çox əvvəl mən dəfələrlə şahidlərdən eşitmişdim ki, Andropov Jeleznovodsk rayonunda, müalicəvi sularda payız məzuniyyətini keçirdiyi zaman Stavropol Diyar Partiya Komitəsi katibi daima onun qeydinə qalarmış. Onları tez-tez sanatoriya xiyabanında gəzişəndə görərmişlər. Mən bilirdim, Andropov hətta gəzintiyə ayırdığı vaxtını da hansısa ümid bəsləmədiyi bir adama hədər yerə sərf etməzdi.

– Bu, əsl tapıntıdır, – Andropov sözünə davam edirdi. – Əla təşkilatçı, kənd təsərrüfatını gözəl bilir, uzun müddət əkin-biçində çalışmış, ordan da partiya işinə keçmişdir. Əqidəli, ardıcıl və cəsur kommunistdir. Bir sözlə, indi gərəkli olan – torpaqdan gələn partiya təşkilatçısı...

Andropov yüksək zəka sahibi olaraq hansısa tərbiyəvi istedaddan məhrum idi, çünki insanları tanımaqda daltonizmə uğramışdı"[75].

Düzdür, DTK sədrinə "ayaq açmış" N.Yakovlev öz qeydlərində yazır ki, Stavropolun birinci katibi Andropovu sözün həqiqi mənasında təngə gətirməklə istədiyinə nail olmuş və Andropov heç də ona "qəmiş" olan Qorbaçovdan məmnun deyilmiş:

"Əhvalat onun (Andropovun – ***E.A.***) Kislovodskdan – növbəti məzuniyyətindən qayıdandan sonra olmuşdu. Gümrahlaşmış, şuxlaşmış Sədr kefi duru halda xırda-xuruş şeylərdən danışırdı. Dağlar qoynunda, günəş altında dincəlmək gözəl olsa da, həyat heç vaxt tam səadət bəxş etmir, daima bir əngəl mane olur. Bu dəfə də, Andropovun Qafqaza dincəlməyə getdiyi hər səfərində olduğu kimi, Stavropol diyar komitəsinin zəhlətökən katibi mane oldu. Andropov dövlət bağında görünən kimi, həddindən artıq diribaş katib peyda olur, təşrif buyurmuş Moskva hökmdarı ilə öz düşüncələrini bölüşdürürdü. O, lap kölgə kimi Sədrin arxasınca sürünürdü. Beləcə, mən ilk dəfə M.S.Qorbaçov haqqında eşitdim. Məzuniyyəti korlayıb əyalət partiya məmuruna dözmək nəyə gərəkdir? – mənim bu təbii sualımı cavablayan Sədr köks ötürüb söylədi ki, bu bəndə tezliklə Moskvaya köçəcək. Sov.İKP MK katibi vəzifəsinə can atır, ondan aşağısına razı deyil. "Yəni belə vacibdi?" – dedim. "Neyləyəsən, – Yuri Vladimiroviç məyus-məyus dilləndi. – O, mühəndis Brumsun bağındakı eyvanda, palmaların altında stulları ələ keçirməyə çalışan Fyodor–ata kimi sürünür və başını ustufca araukariyanın gövdəsinə çırpır..." Mən "12 stul"u* yada salıb Sədrin tonunda davam etdim: "Onda satmayın stulları ona!" – "Nə danışırsınız! – Yuri Vladimiroviç zarafatla əllərini mənə sarı yelledi. – Mən cəhd edəndə o, cavabında kəlləsini elə dəhşətlə drasenaya** çırpdı ki! Nəticələri görəcəksiniz", – deyə sözünü müəmmalı bitirdi.

Az sonra televizor ekranında Qorbaçov görüntüyə gələndə, mən Andropovun zarafatını yada saldım. Bəli, DTK Sədri kreslosunda əyləşən idealist dərindən inanırdı ki, əgər xışdan, illah da ki, kombaynдan ayrılan bir kimsə yöndəmsiz danışırsa, vurğuları dəhşətli dərəcədə düzgün qoymursa, demək, o, anadangəlmə sosialist təmayüllüdür. Bu da Rusiya ziyalısının "allahyar kəndliyə" bəslədiyi inamın müasir versiyası"[76].

Hərçənd, o zaman Sov.İKP MK məsləhətçilər qrupunda çalışmış Vadim Alekseyeviç Peçenev iddia edir ki, Qorbaçovun MK katibi vəzifəsinə təyin olunmasında əsas rolu Andropov deyil, M.Suslov oynamışdır:

"...Sov.İKP MK Siyasi Bürosunda mühüm kadr məsələləri həllinin mexanizminə bələd olan adamlara məlumdur ki, mövcud olan "iş və ixtiyar" bölgüsü üzrə Stavropoldan kadrların irəli sürülməsi ilk növbədə M.A.Suslovun səlahiyyətində idi, – o, vaxtilə həmin diyara rəhbərlik etmiş və ümumiyyətlə, bu dövrdə Baş katibdən sonra Sov.İKP MK-da faktiki olaraq ikinci katib (və ikinci siyasi fiqur) kimi, xüsusən, vacib partiya kadrları məsələlərinin həllində aparıcı rol oynayırdı.

Düşünürəm ki, M.Qorbaçovun Moskvaya yeridildiyi halda da əsas rolu Andropov deyil, Suslov oynamışdır. Uzun illər Qorbaçovun köməkçisi olmuş Valeri Boldinin xatirələrində yazdığı kimi, təsadüfi deyil ki, o, həmişə Mixail Andreyeviç Suslova heyranlıqla yanaşmışdı"[77].

Deməli, 1978-ci ildə Qorbaçov paytaxta çağırılır və Mərkəzi Komitənin 11 katibindən biri təyin olunur. Bu vəzifədəki fəaliyyətini xatırlayan sabiq Siyasi Büro üzvü V.Qrişin yazacaq:

"9 ilə yaxın mən onu Siyasi Büro, MK katibliyinin iclaslarında görür, Moskva şəhərinin kənd təsərrüfatı məhsullarıyla təmin edil-

* "12 stul" – İ.İlf və Y.Petrovun məşhur satirik romanı nəzərdə tutulur.

** Drasena – həmişəyaşıl cənub bitkisi.

məsi məsələləri ilə bağlı görüşürdüm. 1985-ci ildə Baş katib vəzifəsində işə başladıqda göstərdiyi fəallıq, əvvəlki rolunda əsla özünü göstərmirdi. İclaslarda, bir qayda olaraq, o, susur, Baş katibin sözünü təsdiqləyir, bütün təkliflərlə razılaşırdı. Mən onun dilindən heç vaxt hansısa bir yenilikçi təklif, hansısa məsələ üzrə bir narazılıq eşitmədim. Siyasi Büroda kənd təsərrüfatı üzrə çıxış etdiyi hallarda da, bir qayda olaraq, çıxışları sönük, səthi olurdu, cavabdeh olduğu sahədə işin kökündən yaxşılaşdırılması üzrə heç bir təklif irəli sürmürdü. Belə təsir yaranırdı ki, o, heç kimlə münasibətlərini korlamaq istəmirdi"[78].

Sovet xüsusi xidmətlərinin veteranı N.Leonovun söylədiyinə görə, "biz yaşı ötmüş, heydən düşmüş xəstəhal, ölüvay rəhbərlərin əlindən o qədər bezikmişdik ki, ilk çağlarda ən azı ilə qane olmağa hazır idik: təki rəhbər sap-sağlam olsun... Ölkə yeni lideri qəliz təsəvvür edirdi və onun haqqında az məlumatlı idi. Mənim başımdan isə bir fikir çıxmırdı ki, məhz Qorbaçov partiyanın kənd təsərrüfatı proqramına cavabdeh idi və o proqram sabun köpüyünə döndü, heç kim də onu xatırlamadı. Axı biz 1984-cü ildə xaricdən rekord ölçüdə taxıl almağa məcbur olmuşduq – 54 milyon ton. Əcəb də rekorddur! 1985-ci il üçün xaricdən alınacaq taxıl planı 40 milyon ton təşkil edirdi. Bu, Qorbaçovun intellektual və təşkilatçılıq qabiliyyətinin yeganə praktiki sınağı idi. Və o, bunun öhdəsindən qətiyyən gələ bilmədi. Lakin bu, az adamı düşündürürdü. Bizim vətəndaş yetkinliyimizin aşağı səviyyəsini göstərən sosial psixologiyamız, bax, belədir. Biz, yeniliyin hökmən daha yaxşı olması düşüncəsi ilə deyil, bezikdiyimiz köhnəliyə acıq vermək üçün sevinirik"[79].

Rusiya kommunistlərinin gələcək lideri, o vaxtlar isə Mərkəzi Komitənin əməkdaşı G.Zyuqanov öz kitabında yenidənqurmanın erkən dövrünə aid bir epizodu xatırlayır:

"Bir dəfə məni yerli yoldaşlar (Stavropol diyarında– ***E.A.***) axşamçağı təbiətin qoynunda dost məclisində oturmağa dəvət etdilər. Yerli-yataqlı, məhrəmanə söhbət başlandı və təbii ki, axırında onların məşhur həmyerlilərindən söz düşdü. Qorbaçov artıq neçə ay idi ki, ölkəyə rəhbərlik edirdi. Gördüm ki, araya sükut sökdü. Axı, adətən özününkülərindən, həmyerlilərindən kimsə yuxarılara qalxanda, adamlar sevinər, fəxr edərlər. Mən heyrətə gəlincə birdən eşitdim: "Hər şeyi bada verəcək. Biz ki onu iş başında görmüşük, necə "sürdüyünü" bilirik, heç nəyə cavabdeh olmağı xoşlamasa da, amma intriqa fırlatmaqda, işi naqqalıqla batırmaqda ustadır..."

Öz yurdunda, el içində onun ayaması vardı: "Mişka–konvertik" və "Mişka–şaşlıçnik". Məncə, birincisi izahatsız da aydındır, ikincisi haqqında isə deyə bilərəm ki, "əziz Mixail Sergeyeviç" yüksək qonaqları təmtəraqlı qəbul etməyi xoşlayar, həm də kababları hökmən özü bişirərdi"[80].

Qorbaçovun istefası və İttifaqın dağılmasından sonra onun həmkarları, opponentləri, silahdaşları xatirələr yazmağa başladılar. Əlbəttə, SSRİ-nin birinci və sonuncu prezidentinin fiquruna xeyli diqqət yetirilirdi. Hərçənd, xasiyyətnamələrin əksəriyyəti ürəkaçan deyildi. Bəzilərini misal çəkək.

Valeri Leqostayev:

"Partiya onu zəif tanıyırdı. O da partiyanı az tanıyırdı, çünki əvvəllər partiya rəhbəri kreslosunda oturaraq kənd təsərrüfatı işləriylə məşğul olurdu. Ordu onu heç tanımırdı, eynilə o da ordu mühitini, onun ehtiyac və maraqlarını bildiyini deyə bilməzdi. Son nəticədə bu, M.Qorbaçovla ordu arasında özgələşməyə gətirib çıxardı və SSRİ xalq deputatlarının III qurultayında onun ünvanına ordu adından irad səsləndi: "Prezident yalnız ziyalılar, kooperatorlarla deyil, dövlətin müdafiəçiləri ilə də görüşməlidir". Eləcə də təzə Baş katib hüquq-mühafizə orqanları və dövlət təhlükəsizlik orqanları sistemlərinə zəif bələd idi. Eynilə bu orqanların əməkdaşları Baş katibi onların xidməti və həyati problemlərindən başı çıxan adam saya bilməzdilər.

Seçilməsindən əvvəl M.S.Qorbaçov iri sənaye mərkəzlərində işləməmiş, ona görə də, güman ki, çoxminli fəhlə kollektivlərinin psixologiyasını, həyati dəyərlər sistemini, əhvali-ruhiyyəsini, siyasi tələbatını tam-dolğun təsəvvür etmirdi. Onun təcrübəsi əsasən Stavropolun özünəməxsus mühitində, əksər dərəcədə aqrar, kurort və ticarət sahələrində çalışan, dolanışığı yetərli olduğundan bəlkə də əsil sahibkarlıq problemləri ilə qayğılanan əhalinin yaşadığı diyarda təşəkkülünü tapmışdı. Qeyd edilməlidir ki, Qorbaçov müttə-

fiq respublikalarda iş təcrübəsinə malik deyildi və ona görə təəccüblü deyil ki, Qorbaçov rəhbərliyinin rəsmən etiraf edilən səhvləri sırasında ilk növbədə SSRİ-də millətlərarası münasibətlərin mürəkkəbliyinin düzgün qiymətləndirilməməsi olmuşdur. Nəhayət, əlavə edək ki, yeni Baş katib əvvəllər heç vaxt beynəlxalq fəaliyyətlə məşğul olmamış və böyük bir məmləkətin lideri olaraq beynəlxalq meydana çıxaraq, öz sələflərinin ölkə adından imzaladığı sazişə və öhdəliklərə görə cavabdehlik duymadan, asanlıqla və inamla, hətta həmin asanlıq heç də özünü tam doğrultmasa belə, hərəkət edirdi. "Vaşinqton post" qəzetinin 18 fevral 1990-cı il tarixli sayında D.Remnik yazırdı ki, "prezident Mixail Qorbaçov dövründə sovet xarici siyasəti, əslində beş il davam edən güzəştlər, yenidən dəyərləndirmələr və geriləmələr silsiləsi idi ki, Qərb bunları indi rəhmətlik lider Leonid Brejnevin vaxtında yalnız arzulaya bilərdi""[81].

Valentin Falin:

"M.Qorbaçovun bir partiya və ölkə rəhbəri kimi ən tünük yeri sərrast, olduqca vacib bütün ünsürləri uzlaşdırılmış proqramın, ilk növbədə xalq təsərrüfatçılıq işlərində möhkəm planın olmaması idi"[82].

Nikolay Baybakovla söhbətdən:

"Mən Qorbaçovu yaxşı tanıyırdım. Dövlət Plan Komitəsinin sədri işlədiyim vaxtlarda o, Stavropol diyar partiya komitəsinin birinci katibi idi. Bir dəfə onu yanıma çağırdım, o, gəlib çıxdı. Ona dedim: "Uzun müqəddiməsiz sənə kənd təsərrüfatı üzrə müavinim vəzifəsini təklif etmək istəyirəm". O, od tutmuş kimi, yerindən sıçrayıb: "Siz nə danışırsınız, Nikolay Konstantinoviç! – dedi. – Mən belə bir işin öhdəsindən gələ bilərəmmi?". Xülasə, imtina etdi. Amma sonra birdən Sov.İKP Mərkəzi Komitəsinin kənd təsərrüfatı üzrə katibi oldu və hakimiyyəti ələ keçirmək üzrə öz xəttini hazırlamağa başladı".

Gennadiy Burbulis, RF sabiq dövlət katibi:

"Qorbaçov dəfələrlə özünün hətta ən yaxın silahdaşlarına qarşı nadir siyasi arsızlıq göstərirdi. Onun əsas dayağı olmuş adamlarla necə rəftar etməsi məni dərindən göynədir. Mən dəfələrlə Aleksandr Nikolayeviç Yakovlevlə söhbətləşmişdim... amma o görüşlər olmasa da, əminəm ki, yenidənqurmanın məfkurəvi zəmini və hər bir normal insanın ondan aldığı valehedici təsir yalnız müəlliflər kollektivi tərəfindən yaradılmışdı. Lakin Qorbaçovun bu müştərək məhsulla bölüşməkdən inadla yayınması və yanındakı istedadlı, savadlı (bəlkə də daha ağıllı – burada incikliyə səbəb olacaq nə var ki?) adamları gözü götürməməsi – onun təmsil etdiyi kommunist hakimiyyət doktrinasının daha bir ağır mirasıdır. Ayrı-ayrı dövrləri götürərək Qorbaçovun necə də kadrları nataraz yerləşdirdiyini, onun irəliləməsini təmin etmiş adamlarla necə də etinasızlıqla ayrıldığını göstərmək olar"[83].

Vladimir Kryuçkov:

"O, İttifaqa dəyən zərbələrə, hardasa başlayan kəskin beynəlxalq münaqişəyə, bu və ya digər sosialist ölkəsində yaranmış ağır vəziyyətə yetərincə sakit reaksiya verə bilərdi. Amma ona qarşı hər hansı irad, tənqid, illah da ki, kəskin, sərt ifadəli tənqid səslənsəydi, onda – bağışlayın, bu ağ oldu! Öz rəhbərini qorumayan yoldaşları tənbeh etməklə ələstü kəskin reaksiya verirdi. Belə hallarda incikliyi yerə-göyə sığmırdı. Sağdakılar da, soldakılar da öz payını alırdı"[84].

Yeqor Liqaçovla söhbətdən:

"Qorbaçov cürbəcür tərifləri çox dəstəkləyirdi. Mən bir əhvalatı danışacam. Qorbaçov xaricdən qayıdanda, çox vaxt mənə yaxınlaşıb, hamı eşitsin deyə, ucadan:

– Yeqor, dünən Milandan yola düşmüşəm, – deyirdi. – Bütün Milan məni yola salırdı.

Mən də həmişə cavab verirdim:

– Mixail Sergeyeviç, Volqaya, ya Sibirə səfər etsəniz, yaxşı olardı.

– Yeqor, sən yenə həmin havanı çalırsan.

– Bəli, çalıram.

Oralarda onu başqa cür qarşılayardılar. Amma Roma, Milan pişvazına çıxanda, kefi saz olurdu. Orada ölkəni satdığına görə belə qarşılanırdı..."

Roy Medvedevlə söhbətdən:

"...Qorbaçovla danışmaq mümkün deyildi, o, heç kimə qulaq asmırdı. O, dialoq, disput aparmağı bacarmırdı. Bu, özünümüdafiə reaksiyası idi. O, zəif əyalət lideri idi, Azərbaycandan, Gürcüstandan gəlməmişdi ki, – oralarda insan beş il rəhbərlik etdiyi müddətdə bütöv bir dövlətin başında duraraq lider seriştəsini əxz edir. O, kurort məskəni, hər şeyi öz qaydasında olan, iqtisadi vəziyyəti əla olan və heç nə üzərində baş sındırmalı olmadığı Stavropol diyarından gəlmişdi. Siyasi Büro üzvlərini "Minvod"da qarşıla, sanatoriyada yerbəyer elə... Hər biriylə söhbətləş, ünsiyyət bağla. Yəni Qorbaçova şirin dil tökmək lazım idi. Mən bir çox şeyləri qətiyyən anlamırdım, Qorbaçovla ünsiyyətdə olaraq heç nədən baş açа bilmirdim.

Əliyevə aidiyyəti olmasa da, Qorbaçov üslubunu səciyyələndirən bir misal gətirim. Mən Qdlyanın işi – ali iqtidar eşelonu sistemində rüşvətxorluqla bağlı komissiyaya başçılıq edirdim. Xalq deputatları qurultayının mandatı var əlimdə. Belə şeylər əvvəllər heç vaxt olmamışdı. Bu, hakimiyyətin, Qorbaçovun Ali Sovetə güzəşti idi. Bütün idarələr, prokurorluq, DTK, Partiya Nəzarəti Komitəsi R.Medvedevin komissiyasına hər hansı məxfilik dərəcəsi olan, hər hansı dairə ilə məhdudlaşan sənədləri təqdim etməli idi. MK arxivlərində mənə sənədləri heç olmasa oxumağa verirdilər.

Mən bu həcmdə sənədlərin öhdəsindən gələ bilmirdim. Yardım üçün mənə istefaya çıxmış hərbi prokuroru təhkim etdilər, o da bu işi aparırdı. O, mənə rüşvətxorların siyahısını, o cümlədən, özbəklərdən Qorbaçovun özünə aid üç geniş ifadə təqdim etdi. Mən Baş katibə məxfi məktub yazıb, zərfi möhürləyib köməkçisi marşal Axromeyevin vasitəçiliyi ilə ona ünvanlayıram. Axromeyev yazını Qorbaçova çatdırır.

Sonra da Baş katibin köməkçisi mənə zəng vurub təxminən belə deyir:

– Bazar günü, Qorbaçovun vaxtı olsa, sizin görüşünüz olacaq. Saat 12-də Kremlə gələ bilərsiniz. Sizin üçün 12 dəqiqə vaxt ayıracaq.

Ali Sovet deputatlarının da öz mənliyi var. Mən Kremlə getməli, Qorbaçova onun özünə qarşı olan sənədlər haqqında söyləməliyəm. Bəs niyə o mənim qarşımda şərt də qoymalıdır – 12 dəqiqə?.. Getmədim. Sonra məndən soruşdular:

– Niyə gəlmədiniz? Axı, o, sizi gözləyirdi...

Başqa əhvalat. O, hansısa sənədi hazırlayırdı, məni, bir də kimisə çağırıb deyir:

– Bu məsələnin həllinin üç variantı var. Bax, bu birinci variant, bu ikinci, bu üçüncü...

Otuz dəqiqə danışır, sonra özü də nəticə çıxarır:

– Bax, bu variant, yəqin ki, bizə daha çox yarayır. Sağ olun. Xudahafiz.

Bax, belə həll eləyirdi məsələləri. Onunla danışmaq tamamilə faydasız idi, çünki onsuz da məsləhətinizə qulaq asmayacaqdı.

Hətta Stalin hamıya çıxış etməyə macal verir, axırda isə özü çıxış edib qəti qərara gəlirdi. Heç vaxt Siyasi Büronu öz çıxışı ilə başlamazdı. Həmişə soruşardı: "Siz nə fikirdəsiniz?". Sonra beynində bu informasiyanı cəld çək-çevir edərdi. Və öz rəyini bildirərdi. Hətta çox vaxt Siyasi Büroda kiminsə söylədiyini təkrarlayar, amma bu artıq Stalinin qərarı sayılardı. Qorbaçov isə dinləməyi bacarmırdı".

Valentin Falin xatırlayır ki, Brejnevin sabiq köməkçisi A.Aleksandrov–Agentov "yenidənqurmanın atası" ilə bir il işləyəndən sonra Falinə demişdi: "Qorbaçova nə məsləhətçi, nə də məsləhətlər lazım deyil. Mən özümü pərsəng hiss etmək istəmirəm və çıxıb gedirəm". A.Aleksandrov – Agentovun vəfatından sonra işıq üzü görmüş xatirələrində həmin qərarının səbəbləri açıqlanır:

"Onun (Qorbaçovun) insanlarla təmaslarını müşahidə edərək bu qənaətə gəlirdim ki, zahiri açıqlıq və xeyirxah görünüş daha çox vərdiş edilən maskadır, arxasında isə insanlara qarşı həqiqətən isti və mehriban münasibət yoxdur. Batinində həmişə soyuqqanlı bir təmənna durur. Bu isə xoşagələn şey deyil.

Və ikincisi. Əfsuslar olsun, mən əmin oldum ki, Qorbaçova böyük rəhbər üçün çox ciddi bir naqislik xasdır: məlum oldu ki, o, qətiyyən öz müsahibini dinləməyi (daha doğrusu, eşitməyi) bacarmır və bütün fikri-zikri özü söylədiklərinə yönəldilmişdir. Hətta

ona informasiya ərz ediləndə də bu cəhət özünü büruzə verirdi və bu da, razılaşarsınız ki, işin xeyrinə deyildi. Monoloq, yalnız monoloq..."[85].

Bu barədə A.Yakovlevin "Alatoran" kitabında da deyilir:

"O, şübhəsiz, emosional vergili, bir çox baxımdan, aktyorluq istedadına malik bir insandır. Onun özünəməxsus yapışıqlığı var, xüsusən dar çərçivə daxilində söhbətlərdə. Bu cəhəti çoxları, həm də yaltaqlıq niyyəti olmadan qeyd edirdilər. İstəyəndə müsahibini maraqla dinləməyi bacarırdı. Elə bir səy göstərmədən özünü müsahibin yerinə qoymağı, hətta deyək ki, onun nəzər nöqtəsini qəbul etməyi də bacarırdı. Yetərincə asan inandıra bilirdi. Lakin bu, uzun-uzadı sözçülüyə meyl, məsləhət-məşvərəti qulaqardına vurmağa başlamayınca davam edirdi"[86].

Nikolay Rıjkov:

"Qorbaçov təbiətcə, xasiyyətcə əsil dövlət başçısı ola bilməzdi. Bunun üçün lazımi keyfiyyətlərə malik olmayaraq, o, ümumiyyətlə, hakimanə qərarları qəbul etməyi xoşlamayıb onları uzun-uzadı götür-qoy etməyə üstünlük verir, çoxsaylı rəyləri dinləyir, mübahisə edir və bununla belə qəti qərar bildirməkdən asanlıqla və həvəslə yayınır, özünün "hə" və "yox"larını söz cəngəlliyində "əridirdi". O, heç vaxt bu və ya digər yanlış qərarın məsuliyyətini öhdəsinə götürmədən, qərarın guya kollektiv, kollegial şəkildə hasil olunması arxasında gizlənirdi. Lakin kollegiallıq yalnız yenidənqurmanın ilk illərində vardı. Sonralar isə kollegiallıq uğrunda artıq "dalaşmaq" lazım gəlirdi. Amma həm birinci, həm ikinci halda da qərarların qəbul edilməsi və yerinə yetirilməsinə görə şəxsi cavabdehliyi öz üzərinə götürməyə qadir və hazır olmaq əsl liderin ayrılmaz məziyyətləri olmalıdır. Əfsus ki, Qorbaçovda onlardan əsər-əlamət yox idi. Onun təbiətinin kompromiss mahiyyəti bir çox hallarda prinsipsiz üzüyolalığa çevrilirdi – təki qarşı-qarşıya duran qüvvələrin arasından sivişib keçmək, hər iki tərəfi razı salmaq, təki növbəti populist gedişi baş tuta... Və bütün bunlar əsas məqsədə – özünü hakimiyyət Olimpində, belə siyasət ucbatından həmin hakimiyyət get-gedə daha çox nominallaşsa da, qoruyub saxlamağa yönəldilmişdi"[87].

Qorbaçovun şəxsi mühafizəsinə bir neçə il başçılıq etmiş Vladimir Medvedevin "Arxadakı adam" kitabında Qorbaçov cütlüyünün ətraflı portreti təsvir edilir. Müəllif ara-sıra təzə Baş katibi əvvəlki "ağa"sı ilə, Viktoriya Brejnevanı isə Raisa Titarenko ilə müqayisə edir və bu müqayisə Qorbaçovun və onun xanımının xeyrinə deyil. Vladimir Timofeyeviçin sözünə görə, Brejnevin hüzurunda o özünü heç vaxt nökər kimi hiss etməmiş, cangüdənliyi bir növ ailə qayğılarına qatılan peşə sayırmış. Qorbaçov ailəsinə gəldikdə isə, V.Medvedev və həmkarları az qala hər gün insanı alçaldan rəftarla üzləşirmişlər: "Onun təkəbbürlü soyuqluğu, qapalılığı, qəfildən cırnamaları və Xanımın yekəxana ədaları və kaprizləri... Xalqa hamılıqla hörmət izhar etmək konkret bir insana hörmət bəsləməkdən daha asan və rahatdır. Özünü demokrat bəyan etmək demokrat olmaqdan asandır. Bütün xalqın əvvəl təəssüflə, sonra da əsəbiliklə izlədiyi bir şəxsin ikiləşməsini mən əl boyda məsafədən müşahidə edirdim. Sözlə əməl arasında tamam uyğunsuzluq. Bunu hər gün görmək böyük zülmdür"[88].

Nəhəng bir ölkənin başında duran kimi Mixail Sergeyeviç özünün mənzil, bağ işlərini düzəltməyə başlayır. Biz Brejnevin onilliklərlə idarəçiliyi dövründə özü üçün heç nə, bir kvadratmetrlik də əlavə sahə tikdirmədiyini qeyd etmişdik. O, Krımda Livadiyada, Xruşşov üçün hələ 50-ci illərdə tikilmiş bağ mülkündə dincələrdi. "Zareçye"də* yaşayırdı, oradakı bağ mülkünü həmin yerdə, həmin hasar çərçivəsində azacıq təzələmişdilər. Sonuncu Baş katibinki ayrı aləm idi. O, hakimiyyətə gələn kimi Qara dəniz sahilində, Forosda özünə bağ imarəti yapdırmağı qət edir.

"Bağ adı ilə Foros sarayının necə tikilməsi haqqında məqalələr kifayət qədər idi, – V.Kaznaçeyev yazır. – O vaxt Krımda inşaat işləri dayandırılmışdı. Bütün vəsait Baş katibin möhtəşəm tikintisinə yönəldilirdi. Minlərlə əsgər çalışırdı. Bu qaç-qovda tələfat da olurdu. Dünyanın hər yerindən bahalı tikinti materialları gətirilir, Nikitski bağından qiymətli bitkilər torpaqdan çıxarılıb əkilirdi. Çox qədim ağac və kollar qırılırdı, kilometrlərlə yeraltı kommunikasiyalar çəkilirdi, vertolyot meydançası tikilir, ən bahalı kosmik rabitə qurulurdu"[89].

* Moskva ətrafında yer adıdır.

"Bu yerin kim tərəfindən seçilib bəyənildiyini deyə bilmərəm, – yazır V.Medvedev. – Zahirən mənzərə baxımlı deyil – yalçın qayalar, yaşıllıqsız, otsuz, belədən-belə vurub keçən küləklər. Təbiəti dəyişməyə, ram edilməsinə nəhəng qüvvələr, xərclər sərf olundu. İmarət hazır olanda, Livadiya sarayı onun müqabilində "zoluşka" kimi göründü.

Foros bağ mülkü hazır olandan bir il sonra daha birini, yenə Qara dəniz sahilində Pitsunda yaxınlığındakı Müser qəsəbəsində tikdilər.

Bu, əzəmətli kaşanə idi, hər üç mərtəbədə böyük-böyük, salxımvari çılçıraqlar asılmışdı. Bağdan sahilədək qayalığı yarıb tunel çəkdilər. Bütün bunları Stalinin keçmiş bağının yaxınlığında quraşdırdılar və yeni tikilinin yanında Stalin malikanəsi lap dilənçi kökündə görünür.

Üçüncü bir mülkü də paytaxt ətrafında, Arxangelskoye rayonunda, Moskva çayı sahilində inşa edildi. Əvvəlki iki mülk kimi, bunu da Qorbaçov Baş katib olan dövrdə tikməyə başlayıb çox qısa bir müddətdə başa çatdırdılar... Qorbaçov yalnız özü üçün mümkün olanları həyata keçirdikdən sonra başqalarının imtiyazlarına qarşı mübarizəyə girişdi..."[90].

M.Qorbaçovun maraqlı psixoloji portretini mən sabiq Siyasi Büro üzvü Vitali Vorotnikovun gündəliklərində tapdım. Sonuncu Baş katibin tək Heydər Əliyevlə deyil, onun "şahlığı"na xeyir-dua vermiş digər rəhbərlərlə münasibətlərinin dəyişməsini anlamağa kömək etdiyinə görə həmin yazını burada az qala bütövlüklə gətirirəm.

"O, Sov.İKP MK Baş katibi vəzifəsində fəaliyyətini demokratik tərzdə, iddiasız, təşəxxüssüz, qaçhaqaçsız başlamışdı. Nümayişkaranə kollegiallıq, etibarlı adamların dar dairəsində məsləhət-məşvərət. Siyasi Büroda müzakirələri təzyiq göstərmədən aparır, danışmaq istəyənlərin hamısını diqqətlə dinləyirdi. Problemlər tələsmədən araşdırılırdı. Axırda müzakirəyə yekun vurulur, irəli sürülən təkliflərə, səsləndirilən qeydlərə qiymət verilirdi. "...Atüstü rədd etməməli, bir daha düşünüb-daşınmalı, işləməli". Eyni zamanda ifrata varan mülahizələri qəribliyə salmadan, konfliktli maneələrdən bacarıqla yayınaraq, o, fərqli mövqelərin qovuşan nöqtələrini, kompromisləri tapır, mübahisə edən tərəfləri sakitləşdirirdi. Qiymət verməkdə çətinlik çəkəndə qərarı təxirə salırdı. Amma son nəticədə özü dəstəklədiyi ideyanı yeridir, yaxud lazımi məqamda bu və ya digər tərəfə çəkilməyə imkan verə biləcək ortancıl mövqeyi tuturdu.

Bu keyfiyyət zaman ötdükcə inkişaf edirdi. Mübahisə edənlərin fikir ixtilafı da olmadığı prinsipial mövqeyi dəstəkləməklə zahirən tədbirlilik, qətiyyət nümayiş etdirərək, o, eyni zamanda bir növ variantları, detalları, problemin mahiyyətini götür-qoy edir, dəyərləndirir, kompromis məntiqinin əsaslandırılmasında heyrətamiz fəndgirlik göstərirdi. Lakin manevr edərək, Qorbaçov həmişə qapını yanaçıq qoyurdu, – birdən geriləmək lazım gələrsə. Yəni ki, "axı bu barədə də söz getmişdi".

Onun söz axınında, qəliz, qarışıq quruluşlu cümlələrlə, cürbəcür dəlillər, avtoritetlərə, öz təcrübəsinə istinad etməklə müsahiblərini müttəfiqlərinə çevirmək bacarığı, məsələni elə dolaşığa salmaq ki, hər əks-tərəf Baş katibin məhz onu dəstəklədiyinə inanmağa başladığı hala gətirib çıxarmaq qabiliyyəti unikal idi. Qeyd etmək lazımdır ki, bu və ya digər ideyaları dinləyəndə, o, real, ya konyunktur vəziyyəti nəzərə alaraq, ona yetərincə aydın olmayan, ya tezliklə səmərə vəd etməyən təklifləri rədd edir, ya əngəlləşdirirdi. Opponent öz mövqeyini müdafiə etməyə cəhd göstərdiyi halda, Qorbaçov sərt də olurdu, kəmhövsələ də, dözümsüz də. Hərçənd, bu keyfiyyətlərini də çox ayrı-seçkiliklə, yalnız xatasız "otuzdura" biləcəyi adamlara qarşı göstərirdi.

Bir müddət ört-basdır etdiyi şöhrətpərəstliyi, xudbinliyi, intriqabazlığı hətta zahirən də nəzərə çarpmağa başladı. O, Siyasi Büroda, partiya aktivi ilə bir sıra müşavirələrdə, ardınca kəndli, fəhlə, kütləvi informasiya vasitələri təmsilçiləri, hətta yaradıcı ziyalılar qarşısında qoyduğu məqsədlərinə nail olmaqda inadkarlığını daima nümayiş etdirir, öz prinsipiallığını, "axıracan duracağını" bəyan edir. Hər şey, əlbəttə ki, sözdə.

Bu zahiri cəsarət və qətiyyəti nədənsə neytral, kompromis mövqe axtarışları izləyir, bu da bir çox hallarda qətiyyətsizlik, "ağciyər-

lik"lə, bəzən də aşkar dönüklüklə qovuşur. Hətta əvvəlki xeyirxah-xoşsimalı davranış manerası vəzzəriyyət oxumağa, nəsihətçiliyə, başqalarına "dərs vermək" azarına çevrilir. Onun sözçülüyü dözülməz cansıxıcı şəkil alır. O, başqalarını az eşidir, öz naqqallığından feyziyab olur, erudisiyası ilə öyünür. Çıxışlarında xarici, qəliz, ruscaya çətin çevrilə biləcək terminlər, ifadələr get-gedə daha çox səslənir. Bunlar da auditoriyanı çaş-baş salır.

...Ünsiyyətdə, rəsmi məşvərətlərdə Qorbaçov artıq fəal emosiyalı partiya silahdaşı deyil, özündən müştəbeh liderdir. Nitqində ləngər, sözündə ötkəmlik, səciyyəvi poza və jestlər, "çoxmənalı" pauzalar nəzərə çarpır. Öz "alın yazısı"nın, ölkədə və onun hüdudlarından kənarlarda öz çəkisinin və nüfuzunun duyumu rəhbər obrazını formalaşdırır. Düzü, bəzən cızıqdan da çıxır: kəmhövsələlik, qısqanclıq özünü büruzə verir. Lakin tez də özünü ələ alır, yenə də təmkin, təkəbbür, lovğalıq.

Xasiyyətcə bədgüman, səbatsızdır. Tələm-tələsik nəticə çıxarmadan, öz rəqibini yanında saxlamağı bacarsa da, əlinə fürsət düşəndə onunla haqq-hesabı çürüdəcək.

Kadrların seçimində ağına-bozuna baxmır. İnsanları asanlıqla özünə yaxınlaşdırır, eləcə də asanlıqla, çox vaxt yetərincə əsası olmadan başından eləyir. **Kimsə onun mövqeyi, çıxışı, hərəkəti haqqında xoşagəlməz söz deyibsə, bağışlayan deyil. Bunları yadda saxlayır və həmin insanlarla tərəddüd etmədən vidalaşır** (seçmə bizimdir – *E.A.*). Əslində, onun tərəfindən Dolgix, Dobrınin, Çebrikov, Nikonovun istefaya göndərilmələrinin səbəbləri sonadək aydın deyildi. Vaxtilə öz komandasına səfərbər etdiyi adamlara qarşı – Talızinə, Biryukovaya, Razumovskiyə, Solovyova qarşı bir qədər sonra bunca etinasızlıqla yanaşmağa başladı. Bəzən Lukyanovun, Zaykovun, Baklanovun ünvanına sərt təpinmələrə yol verirdi. Amma Yakovlevdən, Medvedevdən, Şevardnadzedən daima muğayat olurdu.

Ümumiyyətlə, yoldaşlıq duyğusu Qorbaçovda yalnız zahiri əlamət idi. Gah birini, gah o birisini özündən o yana itələyərək o vicdan əzabı çəkmir, sabiq dostlarını biryolluq yaddaşından silib atır.

Həddən ziyadə diqqət və ehtiramın xarici təzahürlərinə aludədir. O, populyarlıq, şöhrət şöləsində sözün əsl mənasında "çimirdi". Komfortu, qulluğu xoşlayır, öz nüfuzunu güdür, özünü, xüsusən də xaricdə, təqdim etməyi bacarır. Protokolu effekt yaratmaq niyyətilə tərtib edir və eləcə də effektlə, yolüstü maşından çıxıb xalqın arasında zühur edərək onu pozur. Beləliklə, sadə, insanlara yovuşan müasir lider rolunu oynayır. Bir çox hallarda, xüsusən kiminsə qarşısında borclu çıxanda, daha güclü liderlərin təsiri altına düşür. Və borcunun əvəzini çıxaraq, hissə qapılıb nəinki öz şəxsi nüfuzunu, həm də ölkənin iqtisadi və siyasi maraqlarını qurban verir""[1].

Qorbaçovun siyasi portretinin ən əlamətdar cizgilərindən biri də odur ki, sözdə ölkədə ən geniş demokratik islahatların təşəbbüskarı və ilhamçısı kimi görünərək, o, öz siyasi həyatının başlanğıcından 1991-ci ilin dekabr ayındakı şərəfsiz sonluğunadək bir dəfə də olsun həqiqi alternativ seçkilərdən keçməmişdir. Onun "demokratiya uğrunda savaşı"nın bu cəhətinə bütün dünyada icmalçılar dəfələrlə diqqət yönəltmişlər. Amerikanın "Vaşinqton post" qəzeti 22 noyabr 1990-cı il tarixli sayında qeyd edir: "Paradoksaldır ki, Şərqi Avropada qismən özü rəvac vermiş ötənilki dəyişikliklər nəticəsində sovet prezidenti böyük Avropa rəhbərlərindən yeganəsidir ki, heç vaxt həqiqi seçkilərdə qalib çıxmamışdır. O, SSRİ xalq deputatlığına Sov.İKP siyahısı hesabına keçmiş, prezidentliyə isə qurultay tərəfindən simvolik müxalifət olduğu halda seçilmişdir".

Heydər Əliyev və Mixail Qorbaçov

Onların qiyabi tanışlığı sabiq SSRİ partiya rəhbərlərinin Azərbaycanda gedən proseslərə – rüşvətxorluğa, kadrlar sahəsində durğunluğa, qohumbazlığa və s. qarşı mübarizəyə göstərdikləri böyük maraqdan başlamışdır. Sonralar Qorbaçov etiraf edirdi ki, daha dolğun məlumat almaq məqsədilə hətta Azərbaycanda çıxan qəzetlərə abunə yazılıbmış.

Şəxsi tanışlıqları 1970-ci ilin oktyabr ayında, Sovet Azərbaycanının 50 illiyi bayram ediləndə olmuşdur. Görünür, bir-birinə də xoş təsir bağışlamışlar.

1972-ci ildə Heydər Əliyev ailəsilə Pyatiqorskda sanatoriyada dincəlir. Bunu eşidən M.Qorbaçov diqqətini əsirgəmir, zəng vurur, istirahətin, müalicənin gedişatıyla maraqlanır, bir dəfə də həyat yoldaşıyla Əliyevlərə baş çəkir. Maşınla dağlara, Teberdaya qalxmağı, yol boyu da məhrəmcəsinə söhbətləşməyi təklif edir. Bu səfər hər ikisinin yadında qalır, daha yaxın və hətta məhrəmanə münasibətlərə təməl qoyur.

"Heydər Əliyeviç mənim xoşuma gəldi, – M.Qorbaçov xatırlayır. – O, çox adamayovuşan, çox qabiliyyətli, ən ali və eyni zamanda ən sadə səviyyədə dialoq aparmağı bacaran insandır. Bu, mənə də yaxın olan cəhətlərdir, odur ki, biz onunla dil tapdıq".*

Moskvada işlə bağlı olaraq Heydər Əliyev F.Kulakovdan sonra kənd təsərrüfatı üzrə MK katibi olan M.S.Qorbaçovun yanına gedir, respublikanın problemlərini onunla müzakirə edir və ədalət naminə deməliyik ki, həmişə anlaşma tapırdı.

Maraqlıdır ki, Sov.İKP MK kənd təsərrüfatı üzrə katib məsələsi həll edilərkən, bir neçə namizədlik, o cümlədən, Stavropol Diyar Partiya Komitəsi sahibinin namizədliyi vardı və L.Brejnev bu barədə Heydər Əliyevin fikrilə maraqlanır.

Heydər Əliyev xatırlayırdı: "Mən Mixail Qorbaçova müsbət xasiyyətnamə verdim. Dedim ki, siz onu Moskvaya, Mərkəzi Komitənin kənd təsərrüfatı üzrə katib vəzifəsinə götürsəniz yanılmazsınız. Və o, hələ Brejnevin vaxtında Siyasi Büroya üzv seçiləndə Brejnev yenə məndən soruşmuş və mən yenə onun namizədliyini dəstəkləmişdim".

Əvəzində, bir neçə il sonra Heydər Əliyevi Moskvaya keçirib Siyasi Büro üzvü seçilməsi haqqında ideya ortaya çıxanda qısqanc Qorbaçov öz "dostu"nun namizədliyini dəstəkləmək üçün əlini əlinə də vurmadı. Əksinə, öz etirafına görə, bu seçimin nə ilə diktə olunduğunu bilmək üçün Andropovu sorğu-suala tuturmuş.

Bununla belə, Andropovun qısa hakimiyyəti zamanı, K.Çernenko dövründə də onların münasibətləri saz idi, hər halda zahirən: müxtəlif partiya tədbirlərində onlar yanaşı oturmağa çalışır, rəsmi fotoşəkillərdə də, demək olar ki, həmişə bir-birinə yaxın görünürlər.

* Burada və ardınca sitatlar V.Mustafayevin "Bir qısqanclığın tarixçəsi" filmindən gətirilir.

"Biz dost idik, – Qorbaçov həvəslə boynuna alır. – çox fəal əməkdaşlıq edirdik. O, məni çox fəal dəstəkləyirdi. Bu, ciddi, etibarlı insan idi. O, yenidənqurma və demokratik prosesi hərarətlə, səmimi surətdə dəstəkləyənlərdən idi".

Bəli, bu gecikmiş etiraf da qənimətdi...

Aleksandr İvanovun söylədiklərindən:

"Heydər Əliyeviç Qorbaçovun necə qeyri-səmimi olduğunu mənə sübut etmişdi. 1987-ci ilin oktyabr ayında, onun Kremldəki kabinetini boşaldanda, o mənə öz şəxsi seyfindən bir kağız göstərdi. Bu xüsusi Kreml bloknotundan yazılı bir vərəq idi. Heydər Əliyeviç dedi ki, Zərifə Əzizovnanın başına bəla gələndə, Qorbaçov ona Siyasi Büroda həmin bu nəməni veribmiş: "Burnunu sallama, dostum, bizi böyük işlər gözləyir". Bu, Qorbaçovun yazdığı dəqiq sözlərdir.

O vaxt Zərifə xanım artıq əlacsız xəstə idi. Qorbaçov bu vəziyyətdən xəbərdar idi və beləcə, Heydər Əliyeviçə ürək-dirək vermək, ruhlandırmaq istəmişdi. Sonra aralarında nəsə baş verdi".

Heydər Əliyevin etirafına görə, onların münasibətləri "Qorbaçov Sovet İttifaqının rəhbəri olandan sonra kəskin surətdə dəyişdi", hərçənd, yeni Baş katibin namizədliyini fəal dəstəkləmiş Heydər Əliyev ona xoş münasibətində davam edirdi. Bu dəyişmənin səbəblərini qismən öz xatirələrində N.Rıjkov açıqlamışdı.

"Qorbaçovun "haqqını" verməliyik: o, həmişə məlum zaman kəsiyində məhz ona gərəkli adamları başına yığırdı. O vaxt – ümidlərlə dolu 85-də, ona düşünən, dəyişikliklərdən xoflanmayan adamlar lazım idi. Amma eyni zamanda bu insanın daxilində bir iblisanə satqınlıq yuva salmışdı. Bu keyfiyyət, məncə, onun təbiətinin üzvi hissəsidir. O, nəinki bizim də, bütün xalqın da inam bəslədiyi və bizi onun ardınca getməyə vadar etdiyi ideallara qarşı, həm də öz silahdaşlarına qarşı xəyanət edirdi. Vaxt-vədə yetişəndə onları işlənmiş material kimi kənara tullayırdı.

"Erkən" Qorbaçovun bütün silahdaşları bir neçə ildən sonra birbəbir partiya, ya dövlət meydanından onun əlilə kənarlaşdırılmışlar. Hamısı da cürbəcür siyasi damğalarla. Hələ onu demirəm ki, onun

ətrafında damğa yapmağı bacaran əlaltıları da vardı. Baş katibə verilib uzadılan tarixi möhlət, sən demə, partiyanın ləğv edilməsi, ölkənin dağıdılması və bu amal və əməllərə qarşı duran xadimlərin kənarlaşdırılması üçün imiş"[92].

İvan Laptevlə söhbətdən:

" – Qorbaçov Baş katib seçiləndən sonra onun Əliyevlə münasibətləri nə üçün pisləşməyə doğru yönəldi? Deyirlər, burada onun müşavirlərinin, eləcə də Liqaçovun və Yakovlevin rolu olmuşdur.

– Nə Liqaçov, nə Yakovlev Əliyevlə çəkişə bilməzdi. Əliyev Siyasi Büro üzvü olaraq qat-qat üstün idi. O ki qaldı kobudluğa, Liqaçov həmişə, belə deyək, çox emosional ifadələrlə danışırdı.

Partiya idarəetməsinin ierarxik quruluşu özü-özlüyündə Siyasi Büro üzvünü əlçatmaz, danılmaz edirdi. Bu, Siyasi Büro içindəki münasibətlər problemidir. Birincisi, orada heç kim zahirən heç nəyi üzə vurmaz. Heydər Əliyeviç özü də orada heç kim haqqında heç bir bəd söz deməmişdi. Yalnız bircə dəfə qonşu respublikanın rəhbərlərindən biri haqqında: "Bəs nə? O, elə eksperimentlərlə yaşayır. Birini qurtarmadan, o birisini başlayır, hər şey üçün də pul qoparmağa çalışır..." – sözlərini söyləmişdi.

O, heç kimlə "xəncər-bıçaq" ola bilməzdi. Burada, məncə, vəziyyət başqadır. O, Andropova yaxın idi. Qorbaçov da Andropovun ona himayədarlıq etdiyini sanırdı. Yuri Vladimiroviç həqiqətən də ona dəstək verirdi. Amma Əliyev Andropov üçün artıq bel bağlamalı fiqur idisə, Qorbaçov hələ boy atırdı. Çernenko Baş katib olanda, onun da Əliyevlə bağlı heç bir əndişəsi yox idi. Və qocaların bütün böyük dəstəsi, Tixonov, Ponomaryov kimiləri Əliyevi Qorbaçovdan daha çox qavrayırdılar. Bu da, yəqin hansısa qısqanclığa səbəb olurdu".

Bəli, yəqindən yəqin... Buna baxmayaraq, zənnimcə, Qorbaçov həqiqətən də Əliyevə rəğbət bəsləmiş, onun təşkilatçılıq istedadını, işgüzarlığını, ümumi işə sədaqətini yüksək qiymətləndirmişdir. Bundan başqa, hamının etiraf etdiyi kimi, Heydər Əliyev "ağır yük daşıyan" olaraq SSRİ Nazirlər Sovetində problem və vəzifələrin nəhəng yükünün öhdəsindən uğurla gəlirdi. Qorbaçov Əliyevi ən ekstremal hallarda sınaqdan keçirib anlamışdı ki, bu adama bel bağlamaq olar. Təsadüfi deyil ki, o, Əliyevi yalnız 1987-ci ilin sonunda, onu Baş katib seçmiş Siyasi Büronun bir çox digər üzvləri xeyli əvvəl siyasi səhnəni tərk edəndən sonra istefaya göndərmişdi.

Düşünürəm ki, İvan Dmitriyeviç Laptev tam haqlı deyil. Qorbaçovun yaxın əhatəsi onun Əliyevə münasibətinin dəyişməsində böyük rol oynamışdır. B.Yeltsinin, A.Çernyayevin, Y.Şahnazarovun Heydər Əliyevə necə münasibət bəslədiklərini bilmək üçün onların xatirələrini oxumaq kifayətdir.

Boris Yeltsin "Tapşırılan mövzu üzrə etiraf" ("İspoved na zadannuyu temu") kitabında Qorbaçovu, Heydər Əliyevi istefaya göndərilməyə necə israrla təhrik etdiyindən dəm vururdu. Hətta öyünürdü ki, Baş katibi bu addımı atmağa birinci olaraq o vadar edibmiş (maraqlıdır ki, kitabın sonrakı nəşrlərində Heydər Əliyev artıq müstəqil Azərbaycana başçılıq etdiyi və hörmət-ehtiramla Moskvada qarşılandığı zamanlarda B.Yeltsin həmin nadürüst təfsilatı mətndən çıxarmağı üstün tutmuşdu).

Digər tərəfdən, köməkçilərin Qorbaçova təsir dərəcəsini nəzərə alaraq, onların Siyasi Büroda Brejnev – Andropov "qvardiyası"nın sonuncu təmsilçisi ilə Baş katibi üzülüşdürmək üçün necə dil tökdüklərini təsəvvür etmək olar. Mixail Sergeyeviç yetərincə zəif iradəli siyasətçi idi və məsləhətçilərinin rəyindən asılı idi. Bu fərziyəni mənimlə söhbətində çox məlumatlı və o vaxtlar "gensek"ə yaxın olmuş bir şəxs təsdiqlədi.

Anatoli Lukyanovla söhbətdən:

"Qorbaçov iş başında olduğu vaxt uzandıqca onun Andropova qarşı, eləcə də Andropovun irəli sürdüyü kadrlara qarşı qısqanclığı daha çox özünü büruzə verirdi.

– Onların iş keyfiyyətlərindən asılı olmayaraq?

– Zənnimcə, Andropov Qorbaçovdan bir baş uca dururdu. Ona görə də önəmli dərəcədə Yuri Vladimiroviçin ölümündən sonra Əliyevin arxasınca boylanan kölgəsi Qorbaçovu rahat qoymurdu. Bəlkə Heydər Əliyeviçin Qorbaçovla şəxsi münasibətlərinin bir çox məsələləri bununla bağlıdır. Digər tərəfdən, hesab edirəm ki, bu məqam çox-çox başqa problemlərin şərhi üçün də önəmlidir.

...Qorbaçovun Heydər Əliyeviçin xəstələnməsinə necə münasibət bəslədiyini mən bilirəm. Əliyevlə xəstə olduğu zaman söhbət

etmişdim. Respublika Kommunist Partiyası Mərkəzi Komitəsinin sabiq birinci katibi sabiq komsomol işçisinin diletantlığı ilə qarşılaşmışdı.

Bundan başqa, Qorbaçovun ən yaxın məşvərətçisi Yakovlev idi. Onun isə təhlükəsizlik orqanlarında haçansa xidmət məktəbini keçmiş hər hansı adama müvafiq münasibəti vardı. Eləcə də Çernyayevin. Bu adamlar hesab edirdilər ki, kimsə hansı dərəcədəsə dövlət təhlükəsizliyi ilə əlaqədar olmuşsa, bu onu mənfi cəhətdən səciyyələndirir. Hərçənd, məsələn, mənim nöqteyi-nəzərimdən, həmin adamlar əksəriyyətcə ən əvvəl dövlət mənafelərinə riayət edirdilər. Beləliklə, mənə elə gəlir ki, hər şey müşavirlərdən qaynaqlanırdı".

Digər tərəfdən, əlbəttə ki, arada qısqanclıq da vardı. Bəs necə: baş nazir müavini, sırf təsərrüfatçı vəzifəsində, nəqliyyat, sosial sahədə "otura-otura" bu qədər populyarlıq qazanasan! Ziyalılar da ona pənah gətirir, mətbuat da başına yığışır, hələ sadə camaatı demirik. Çıxışlarına da söz ola bilməz, hər hansı, ən hazırlıqlı auditoriyanı belə cəlb etməyi, ələ almağı bacarır... Bu nə deməkdir? Məmləkətin bir hökmdarı olmalıdır, qalanların hamısı isə statist, icraçı, əlahəzrət rəhbərin imicini təmin edənlərdir! Əlbəttə, Heydər Əliyev bunu anlayır və "oyun qaydaları"nı gözləməyə çalışırdı. Lakin genetik xarizmasına, zəhminə görə ona "züy tutan" rolu heç cürə yaraşmırdı.

Jurnalist F.Burlatskinin qısqanclıq haqqında maraqlı bir mülahizəsinə rast gəldim: "Qısqanclıq – sırf apparat anlamı, "paxıllıq" sözünün bürokratik sinonimidir. İnzibati "şəcərənin" eyni qatında duranlar diqqətlə göz qoyurlar ki, onların həmkarı qabağa düşməsin. Ona görə də onları iş yoldaşlarının hər bir çıxışı, xüsusən, mətbuatda, televiziyada, geniş partiya və xalq toplantıları qarşısında çıxışları yamanca yandırır"[93].

Sov.İKP MK sabiq məsul işçisi V.Peçenevin sözlərinə görə, "Qorbaçovun bariz cəhətlərindən biri, "çoxbilmişlərə" (onun öz kəlməsidir), onu (hər hansı məqamdasa!) bilik, təcrübə, zəka baxımından üstələyən adamlara qarşı gizlədə bilmədiyi gözügötürməzlik idi. Rusiyanın tanınmış jurnalistlərindən biri, M.Lomonosov adına MDU-da həmkursu olmuş qələm sahibi onun haqqında bəlkə

acı, lakin sərrast sözlər yazmışdı: "Mixail Sergeyeviç ölkənin ən yaxşı universitetində oxumuşdur. Xüsusi bir fərqlənməsi olmadan onu bitirmişdir. Və oradan aydın bir qənaətlə çıxmışdır: ondan qat-qat ağıllı olan adamlar çox bol imiş". Heydər Əliyev belələrindən biri idi və bir çox şərqli adamlara xas olan nəzakətlə bunu Qorbaçovla ünsiyyətdə nə qədər üzə vurmasa da, atalar deyən kimi, cidanı çuvalda gizlətmək olmaz..."[94].

İctimaiyyətin qarşısında sabiq dostuna və silahdaşına qarşı münasibətini dəyişməsinə bəraət qazandırmaq üçün M.Qorbaçov öz memuarlarında yazır:

"Şübhəsiz ki, Əliyev böyük siyasətçidir. Ağıllı, iradəli, ölçübiçən. Əvvəllər onun Azərbaycanda fəaliyyətini izləyərək, mən onun korrupsiyanın, kölgə iqtisadiyyatının inamlı düşməni olduğuna şübhə etmirdim. O, respublikada inkişafın bir çox məsələlərinin, xüsusən, kənd təsərrüfatına aid olanların həllinə əzmkarlıqla qatlaşdı, bir sıra proqramları reallaşdırdı və bütün bunlar onun xeyrinə işləyirdi.

Lakin tədricən, Azərbaycan işlərinə daha dərindən nüfuz edərək mən anladım ki, baş verən dəyişikliklərin əsasında çox fərqli mənalı motivlər dururmuş. Bəzən eşidirsən ki, siyasi fəaliyyətin dəyərləndirilməsində daxili motivlərin əhəmiyyəti yoxdur, yəni yalnız obyektiv nəticə vacibdir. Əsla belə deyil. Bütün təcrübəm onu göstərir ki, motivlər, ələlxüsus, çox da saleh olmayanda, həmişə nəticəyə təsir edəcəkdir. Respublika idarəetmə strukturlarına "metastazlar kimi" daraşmış, Əliyev tərəfindən rüşvətxorluğa və işlərin bərbad hala salınmasına görə qovulmuş köhnə rəhbərlər klanı əvəzinə başqa bir, "Naxçıvan" qrupu adlanan klan yeridilməyə başladı. Əvvəlki kimi, az qala onuncu nəslinə qədər qohumluq əlaqələri üstünlük təşkil edirdi. Beləliklə, klan prinsipinə əsaslanan möhkəm dayaq yaratmış Əliyev respublikaya başçılıq, rəhbərlik deyil, güc təzyiqi metodu vasitəsilə hökmranlıq edirdi. Qaldı ki, müxtəlif məşvərətlər, toplantılar, manifestasiyalar, mətbuatla, xalqla görüşlər və sairə demokratik atributlar, idarəetmə məğzini və üsullarını əsla dəyişməyən dekorlar idi"[95].

Bir rus deyimi var: xəstə başdan sağlam başa yozmaq. Demokratiyanın imitasiyası məhz qorbaçovsayağı yenidənqurmanı fərqlən-

dirən cəhət idi. Əvvəlki fəsildə sonuncu Baş katibin həmkarları, zənnimcə, bu barədə yetərincə öz qənaətlərini bildirmişlər. O ki qaldı Heydər Əliyevin 70-ci illərdə guya başına yığdığı "Naxçıvan klanı"na, biz bu barədə də kifayətcə əsərimizin ikinci kitabında bəhs etmiş və "havadan" deyil, faktlar əsasında sübut etmişik ki, həmin illərdə respublika rəhbərliyinin ali qatında yurdumuzun ən müxtəlif bölgələrinin yetişdirmələri və yalnız iki, ya üç nəfər Naxçıvan təmsilçisi vardı. Bunun müqabilində – Qorbaçov Stavropol diyarından öz ardınca oradan, Şimali Qafqazdan tanış-bilişlərini çəkib yüksək vəzifələrə təyin edirdi. Diyar partiya komitəsinin katibi Muraxovski Dövlət Aqrar–Sənaye Komitəsinin başına keçdi, başqa katib – Kaznaçeyev ölkənin sosial təminat naziri oldu, qonşu Rostov vilayətinin partiya rəhbəri Vlasov SSRİ daxili işlər naziri yerini tutdu, Krasnodar Diyar Partiya Komitəsinin başçısı Razumovski Mərkəzi Komitədə partiya-təşkilat şöbə müdiri vəzifəsinə keçirildi. Bu siyahını davam etdirmək də olar.

Əliyev–Qorbaçov münasibətlərinin soyuqlaşmasının həqiqi səbəblərini araşdıraraq, mən öz müsahiblərimdən ən fərqli versiyalar eşitdim.

Məsələn, Yevgeni Primakovun rəyi budur:

"...Bilirsiniz, daxilən Şevardnadze və Əliyev arasında nəhəng bir rəqabət var idi. Bu, hələ onların katiblik dövründən başlamış və Moskvada davam etmişdir. Onlardan kim birinci olaraq Siyasi Büro üzvü olacaq?.. Birinci Əliyev oldu. Və bu, ədalətli idi. Qorbaçov isə Şevardnadzeyə bel bağladı. Bəlkə hər şey elə buradan başlamışdır?".

Sov.İKP MK-nın sabiq katibi Aleksandra Biryukovanın fikrincə, "Qorbaçov Əliyevdən xoflanırdı, xüsusən, onun orada, Stavropolda hansısa əməlləri haqqında söz gəzməyə başlayanda. Axı, Əliyev DTK-da işləmişdi... Andropovun müavini Çebrikov da təsadüfən işdən çıxmamışdı. O da ağıllı bir insan olaraq heç vaxt Qorbaçovun qılığına girməzdi. Çebrikov deyirdi: "Mən belə şəraitdə işləməyəcəm". Qorbaçov ondan əvvəl işləmiş adamlardan qorxur və aradan götürürdü".

Vitali Vorotnikov Əliyevin istefasında İttifaqın hökumət başçısı N.Rıjkovun əli olduğu barədə versiya irəli sürür:

"Hərçənd, mən bunu duymasam da, görünür, onunla Qorbaçovun arasında hansısa neqativ məqamlar yaranmışdı. Bəlkə də bu Rıjkovun gəlişi ilə bağlı idi. Rıjkov ətrafındakı kadrları artılamağa başladı. Əlbəttə, Əliyev Rıjkovdan daha böyük fiqur idi. Və bu da, yəqin təsirini göstərmişdir".

Halbuki, "Heydər Əliyeviç Qorbaçovu da qane etmirdi, – Yuri Soloduxin qeyd edir. – Niyəsini demək çətindir. Amma bir səbəb göz qabağındadır. Heydər Əliyeviç Andropovun adamı idi. Mənə elə gəlir ki, Qorbaçov olduqca "kompleksə" məruz qalmış şəxsiyyət idi, psixoanalitiklər ondan dissertasiyalar yaza bilərdilər. Bu böyük yüksəkliyə qaldırılmış, həm də çox iddialı bir əyalət adamı idi, onunla rəqabət edə biləcək heç kəsi gözü götürmürdü. Heydər Əliyeviç isə parlaq bir insandır. Düşünürəm, onların münasibətlərinin baş tutmamasında bu az rol oynamamışdır".

Vladimir Medvedev və Oleq Sıqanovla söhbətdən:

"V.M. – Çernenkonun vaxtında Siyasi Büro Əliyevi baş nazir təyin etmək istəyəndə Qorbaçov əleyhinə çıxdı. Məni burada bir çox ciddi və önəmli fikir maraqlandırdı: Leonid İliç Heydər Əliyeviçə gözəl münasibət bəslədiyi halda, Əliyev Qorbaçovun təzyiqi altında çıxıb getməyə məcbur olur. Həmin o Qorbaçov dövründə nə baş vermişdi? Uçqun. Çünki "iki qoçun başı bir qazanda qaynamaz".

– Yakovlev mənə deyirdi ki, Əliyev Moskva həyatına uyuşmadı.

V.M. – Müəyyən mənada elədir. O, Moskvaya, dost-tanışı olmadığı bir mühitə gəlmişdi. Həm də çoxları onun Brejnevə, Andropova yaxınlığına görə həsəd aparırdılar. Həm paxıllıq edir, həm də qorxurdular.

– Bəlkə burada onun başqa millətdən olması rol oynamışdı?

V.M. – Xeyr, o vaxt milliyyət məsələsi ortaya qoyulmurdu. Onu Brejnevin irəli sürüb yüksəltdiyi adam kimi dəyərləndirirdilər. Axı respublikalardan kim var idi Siyasi Büroda? Heç kim. Tək Əliyev idi. Ona görə onlar üçün yad idi.

O.S. – Mənə elə gəlir ki, sizin sualınızda müəyyən məntiq var. Siyasi Büroda ona pis yanaşırdılar. Birincisi, hamı bir-birini tanıdığı halda təzə bir adam meydana çıxır. Özü də, rus olmayan. Bu daima şüuraltı duyulurdu. Üstəlik, Əliyev onların bütün sirlərindən

agah idi, bu da kimin xoşuna gələ bilərdi? Həm də Brejnevin, Andropovun əzizlədiyi adam. ...Andropovun vaxtında çəkinib dözürdülər. Ancaq vaxt gəldi ki, "artıq bəsdir", – dedilər. Həm də atalətdən donub qalmış bu bəndələrin fonunda o, enerjili-təpərli görünürdü: hansısa ideyalarla təşəbbüs göstərir, ölkə boyu tez-tez səfərlərə yollanır, xalqla ünsiyyətdə olur..."

Gəlin indi Heydər Əliyevin istefasının səbəbləri haqqında Aleksandr Yakovlevin mənə söylədiklərinə diqqət yetirək. Bu hadisələrdə öz rolu haqqında o, təbii ki, söz açmağı rəva bilməmişdi.

"Görünür, Qorbaçov onunla işləmək istəmirdi. Axı, Əliyev sözün düzünü deyən, müstəqil adamdı. Həm də güman edirəm, burada Şevardnadze də hansısa rol oynamışdır. Onlar üçü də – Əliyev, Şevardnadze, Dəmirçyan – Zaqafqaziyaya rəhbərlik edən zaman onlardan ən güclü şəxsiyyət Əliyev sayılırdı. O, daha ağıllı, daha güclü idi, respublikanı daha möhkəm saxlayırdı. Ona görə də onlar, əlbəttə, dost ola bilməzdilər".

Yeqor Liqaçovla söhbətdən:

"Mən açıq ürəklə demək istəyirəm ki, Əliyevin Nazirlər Soveti sədrinin birinci müavini və Siyasi Büro üzvü vəzifələrindən azad edilməsi qərarını mən yeganə motivdən çıxış edərək dəstəkləmişdim: o, infarkt keçirmişdi və onun üçün işləmək çətin idi. Heç bir başqa səbəblərdən xəbərim yox idi. Mən bundan kənarda qalmışdım. Yəqin ki, orada başqa motivlər də vardı. Amma mən hesab edirdim ki, belə ciddi xəstəlik keçirmiş bir insan üçün gündə on beş–on yeddi saat işləməli, ölkə boyu və dünya boyu səfərlərə çıxmalı olduğu Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində qalmaq çox çətin olardı".

Nikolay Rıjkovla söhbətdən:

" – Əliyevi istefaya göndərmək qərarına gələndə sizinlə məsləhətləşmişdilərmi?

– O xəstələnəndə məsləhətləşmişdilər.

– Xəstəliyə qədər onun azad edilməsi niyyətini sezdirən hansısa işarətlər olmuşdumu? Belə söhbətlər yadınızda qalıbmı?

– Söhbətlər yox idi, amma atmosferin gərginləşməsi duyulurdu. Mənə elə gəlir ki, burada Qorbaçovun ən yaxın adamları – Yakovlev, Şahnazarov, Medvedev – "yenidənqurma"çılar komandası öz rolunu oynamışdı. Onlar hesab edirdilər ki, Heydər Əliyeviç Brejnev əyyamından qalmadır, belə kadrlarla yeniliyə, yenidənqurmaya doğru getmək olmayacaq. Təəssüf ki, biz də "hərifləndik", biz onda çox şeyləri anlamırdıq. Haçandan-haçana başa düşdük ki, bu adamlar Qorbaçovu haraya aparacaqlarını, onu və onunla birgə bütün ölkəni hansı səmtə sürükləyəcəklərini gözəl dərk edirmişlər. Və tamamilə aydındır ki, Əliyev yaşca böyük, Brejnev vaxtında müəyyən mövqe tutmuş bir insan kimi, birinci zərbəyə məruz qaldı. Ardınca ikinci zərbəni Dolgix aldı, o, təxminən bir il sonra işdən çıxdı. Üçüncü zərbə Rıjkovun payına düşdü. Məni 1990-cı ildə hamılıqla vurub-yıxdılar...

Öz fikri olan, onlara etiraz edə bilən adamları mürəxxəs etdirirdilər. Sadəcə "köhnə qvardiyanı", maneçilik törədə bilənləri dənləmək lazım idi. 1989-cu ildə mən etirazlarımı bildirməyə başlayanda həmin Aleksandr Nikolayeviç, – indi-indi bu adamları tanıyıram, – dedi: "Bax, görürsünüz, kimdir yenidənqurmanın kürəyinə bıçaq saplayan! Bu, Rıjkovdur".

Mənə qarşı hücum başlandı...

Heydər Əliyeviç 62 yaşında, mən 60 yaşımda istefaya çıxdıq. Bizləri "vururdular". Çünki bilirdilər ki, öz mövqeyimiz, öz düşüncəmiz var: ölkəni dağıtmağa qoymayacağıq.

– Əliyevin istefasından iyirmi gün keçər-keçməz Qarabağ ətrafında hadisələr başladı. Parisdə akademik Aqanbeqyan DQMV-ni Ermənistana qatmaq ideyası ilə çıxış etdi. Burada Şahnazarovun rolu yoxdurmu? Axı onlar Əliyevin vaxtında Qarabağ haqqında danışmaqdan da qorxurdular...

– Əlbəttə, Şahnazarov böyük rol oynamışdı. O, Qorbaçovun köməkçisi olaraq kələfin ucunu öz əlində saxlayırdı. Öz aramızda, mən bir dəfə Qorbaçova dedim: "Ya siz elə köməkçi saxlayın, qoy dinməz-söyləməz oturub qulaq assın, ya da ona xəbərdarlıq edin. Bizə dəqiq məlumdur: burada indi Azərbaycan haqqında nə danışırıq – yarım saatdan sonra Yerevanda xəbər tuturlar. Bu necə olur?"

Odur ki, tamamilə aydındır: Əliyev aradan götürülməli idi.

– Bəs Liqaçovun doğrudanmı Əliyevi "gözü götürmürdü?"

– Bəli, o, Əliyevi xoşlamırdı. Bilirsiniz, onlar bizləri – "sov-

min"çiləri* ümumiyyətlə, xoşlamırdılar. Bu adamlar üçün bir qayda vardı: "Belə lazımdır – vəssalam". Mən deyirəm filan işi görmək olmaz, imkan yoxdur, dirənirlər ki, "yox, lazımdır". Əlbəttə, münaqişələr qurtarmaq bilmirdi. Amma başlıcası da o idi ki, onlar heç nəyə cavabdeh deyil, pisdirsə – günahkar hökumətdir, yaxşıdırsa – onların xidmətidir. Buna görə, əlbəttə, Heydər Əliyeviçin üstünə cumurdular. Mənə ondan daha çox təpinib diş qıcıdırdılar. Axı hər necə olsa, Nazirlər Sovetinin sədri idim, müavin deyildim. Müavini qısnamaq daha asan idi".

Vladimir Uxovla söhbətdən:

"– Əliyev kimi adamlar onlara mane olurdumu?

– Bəli, olurdu. Hətta artıq təqaüdə çıxmış, lakin MK tərkibində qalmış Tixonova getməsi haqqında ərizə yazmağı təklif etmişdilər, çünki Mərkəzi Komitəyə təzə adamları götürmək istəyirdilər.

– Axı Əliyev onlara mane olmurdu, əksinə, kömək edirdi, o boyda işin yükünü çəkirdi. Belə adamları atarlarmı?!

– Söykənməli olmayarlarsa. Amma məncə, o vaxtlar Qorbaçova sərbəst hərəkət meydanı lazım idi. Buna görə də hər bir ciddi etiraz edə bilənlə konflikt yaranırdı.

– Ona təzə adamlar, yəni üzüyola bəndələr gərək idi?

– Təzə adamı qəbul edirdilərsə, deməli, onlara boyun əyməliydi...

– Bax, elə ən başlıcası budur. Axı Əliyevi yüksəldən Qorbaçov deyildi, onlar o vaxt bərabər statusa malik idilər.

– Bəli. Hərçənd, o, əlbəttə, yenidənqurmanı dəstəkləmişdi. O, Siyasi Büronun, hökumətin qərarlarına həmişə hörmətlə yanaşmışdı. Sədrin sözünə böyük hörmətlə yanaşırdı. O, Rıjkovun mövqeyilə razılaşmaya da bilərdi, amma həmin qərarın yerinə yetirilməsi üçün əlindən gələni əsirgəməzdi. Çünki Rıjkov sədr idi. Çünki özü də tabeliyində olanlardan eyni yanaşmanı tələb edirdi. O, prinsipial insan idi. Çənə döyməyi xoşlayan Qorbaçov üçün Əliyev yəqin uyarlı deyildi. Bununla yanaşı, belə adamlardan yeni keyfiyyətdə, yeni şəraitdə istifadə olunsaydı, onlar səhvlərin qarşısını ala bilərdilər..."

* Yəni hökumət adamlarını.

İvan Laptevlə söhbətdən:

"Daha bir mülahizə. Mənə elə gəlir ki, onu MK və hökumət aparatı çox da sevmirdi. Çünki o, konkret, operativ, canlı iş və müsbət nəticə tələb edirdi. O, işçiləri **yükləyirdi.** Özü də bu cür işləyir və hesab edirdi ki, başqaları eynilə onun kimi çalışmalıdır. Nazirlər Kabinetinin işçiləri isə ölçülü-biçili yaşayış tərzinə öyrəşmişdilər, bazar günlərində bağ mülkünə, balıq ovuna yollanmağı xoşlayırdılar, ona görə də Əliyevin təzyiqi müqavimət törədirdi. "Axı nə olub, nə xəbərdi? Rahatca yaşayırdıq..." Aparatın münasibəti nəhəng qüvvədir. Aparat nəyi istəsən burcuda bilər, hər hansı rəyi yarada bilər. Bürokratik kütlə öz ətrafında müəyyən mühit yaradır və hətta Baş katib də həmin ab-havada yaşamalıdır. Bizim dövlətimiz o vaxtda da, indi də bürokratik dövlətdir, ona görə də bürokratizm ruhu yalnız hərəkətlərdə deyil, mühitin özündə, hər kəsin necə yaşamasında, necə çalışmasında, başqalarının buna necə yanaşmasında təzahür edir".

Həmin mətləblərə Heydər Əliyevin məruzəçisi Camal Camalov mənimlə söhbətdə toxunur:

"Nazirlər Sovetinin şöbə rəisləri şənbə günləri müşavirələrə gəlməyi və hansısa məsələləri həll etməyi xoşlamırdılar. Məsələlər də həmişə olurdu, – deyək ki, Rusiya üçün əzəli-əbədi nəqliyyat məsələsi. Bəlkə də həmin rəislər ondan şikayətlənirdilər. Hər halda, onların narazılığı getdikcə artırdı – haradansa gəlib bizi rahat qoymur, elə hey işlədir. Əvvəllər axşam saat altıda rahatca çıxıb gedirdilər evlərinə, indi isə doqquza qədər oturmalı, şənbə günlərində də işə gəlməlidirlər. Bunu qəbul etmirdilər. Və bu cəhət də onun istefasını səbəbləndirə bilərdi".

Heydər Əliyev özü A.Karaulovla müsahibəsində istefaya çıxmasının səbəblərini açıqlayırdı:

" – Bir siyasi xadim istefaya gedəndə qəzetlərdə həmişə yazılır ki, filankəs özü "sağlamlıq durumuna görə" təqaüdə buraxılmasını xahiş etmişdir. Lütfən, istefaya çıxmağınızın həqiqi səbəblərini...

– Əsil səbəbləri yalnız səhhətimlə bağlı deyil, hərçənd, əlbəttə, mən doğrudan da, xəstələnmişdim. Məsələ ondadır ki, işimin

son dövründə mən Qorbaçov tərəfindən özümə qarşı bədxah münasibət duyurdum. Bu, bir çox məqamlarda sezilirdi. Mən can-başla çalışırdım, heç bir nöqsana yol vermədiyimi hiss edirdim, Qorbaçov isə subyektiv ovqata köklənmişdi, vəssalam.

– Bu nə deməkdir?

– O, əvvəl olduğu kimi deyildi.

– Və siz necə çıxıb getdiniz? Böyük söhbət, səsvermə – filan oldumu?

– Heç bir söhbət, ələlxüsus, səsvermə olmadı. Sadəcə, Qorbaçov məni yanına çağırdı – kabinetində daha iki nəfər vardı – və dedi: sən getməlisən. Cavab verdim: əgər Baş katib mənim işləməyimi istəmirsə, gedərəm.

– Siz təəccübləndinizmi?

– Çox təəccüblənmişdim. O, səbəblərini deməsə də, mən artıq hər şeyi hiss etmişdim. Xəstələndiyim zaman heç kim mənə baş çəkməmişdi. Rıjkovdan başqa. Axı bu da münasibət göstəricisidir..."[96]

Roy Medvedevlə söhbətdən:

"Andropovdan sonra gələn Çernenko, ümumiyyətlə, rəhbərlik etmirdi və Tixonov onun üçün tam adekvat fiqur idi, – bu, ölkə üçün itirilmiş il oldu.

Sonra isə Qorbaçov bütün məziyyətləri və daha çox naqisliklərı ilə gəldi. Və anladı ki, Əliyev güclü şəxsiyyətdir.

– Axı deyəsən onlar dostluq edirmişlər...

– Onların arasında heç bir aydın ülfət, heç bir dostluq olmamış, ola da bilməzdi, çünki Qorbaçov qapalı, "üstüörtülü", kəmdəyərlilik kompleksinə yoluxmuş bir adam idi. Və ilk addımlardan, Əliyevlə ilk söhbətlərdən, görünür, sövqi-təbii (bunu özü-özünə də etiraf edə bilmirdi) duymuşdu ki, Əliyev çox güclü bir şəxsiyyətdir.

– Nə mənada güclü – intellektual baxımdan, yoxsa daha yuxarılara qalxmağa qadir olması baxımından?

– Daha yuxarılara artıq qalxa bilməzdi. Çünki azərbaycanlı idi. Baxmayaraq ki, Nazirlər Soveti sədri vəzifəsinə o nəinki iddiaçı ola biləcək, hətta ən yaxşı namizəd idi. Rıjkov zəif şəxsiyyətdir, o, xeyirxah təbiətli, saleh, yaxşı adam, "Uralmaş" zavodunun gözəl direktoru idi. Amma zəifdir. Biz xalq deputatları seçildikdə onun diskussiyalarını izləyirdik, mən həmişə onu Sobçaka, başqalarına qarşı dəstəkləyirdim. Lakin o, haqlı olanda belə, diskussiyalarda uduzurdu. Halbuki, madam ki, parlamentimiz var, avtoritar rejimdə deyilik, sən mübahisə etməyi, öz nəzər nöqtəni qorumağı bacarmalısan.

Belə hallarda Qorbaçov öz opponentinə söz vermədən vəziyyətdən çıxırdı. Qorbaçov sadəcə tərəf – müqabilini ağzını açmağa qoymurdu. Mərkəzi Komitənin başqa katibləri isə... Mən soyadını deməyəcəyəm, onlardan biri zaldan ünvanına təhqiramiz sözlər səsləndə, dayanıb-duruxdu, sonra da sanki mexaniki olaraq kürsünü tərk edib getdi... Yəni onlar açıq diskussiyalara öyrəşməmişdilər.

– Bu barədə Əliyev də xatırlayır. 1986-cı ildə Sov.İKP qurultayında böyük jurnalistlər dəstəsi qarşısında çıxış etmək lazım gəlir. "Onlar, – deyirdi, – çaş-baş qaldılar, jurnalistlərlə açıq ünsiyyət olmadığına görə məni göndərdilər".

– Nazirlər Sovetində söhbət aparmağı bacaran yeganə adam Əliyev idi. Məsələn, baxın, – Puqo, Siyasi Büro üzvü, Partiya Nəzarəti Komitəsinin sədri, sonralar daxili işlər naziri. Bir dəfə onu başçılıq etdiyim ali iqtidar sıralarında korrupsiya məsələsini araşdıran parlament komissiyasına dəvət etmişdim. Onun opponenti Qdlyan idi. Qdlyan sözə başlayıb nəsə sərt ifadələr səsləndirən kimi Puqo dedi:

– Madam ki, Siyasi Büro üzvüylə belə təhqiramiz danışırlar, mən burada iş görə bilmərəm.

Çıxıb getdi. Axı bu parlament komissiyasıdır, burda müxtəlif adamlar var, onlar necə istəyirsə, çıxış edə bilərlər, sən cavab verməyə hazır olmalısan. Rıjkov buna qətiyyən qadir deyildi. 1986-1988-ci illər şəraitində, aşkarlıq vaxtında, o, özünü itirmişdi və ölkəni idarə edə bilmirdi. Hələ 1985-ci ildə Qorbaçov bunu anlamalıydı, amma Rıjkovun zəifliyi ona sərfəliydi. O, güclüləri aradan götürmək, daha zəifləri cəlb etmək prinsipi ilə adamları dəyişirdi.

Ona görə də Əliyevi birdən-birə "istefa" siyahısına qatmışdı.

– Əliyevin istefasına ətrafdakılar hazır idilərmi?

– Şəxsən mən bunu gözləmirdim. Çoxları isə hətta fərqinə varmadılar. O vaxt geniş təzələnmə gedirdi və həmin siyahı yetərincə uzun idi. Xalq tərəfindən bu dəstəklənirdi – köhnələri götürmək, tə-

zələri gətirmək. Heç kim də anlamırdı ki, axı təzələr yoxdu. Təzələr, işə qadir adamlar hazırlanmalı idi. Bu, məsələnin həlli deyil. Çox şeylərdən sonralar agah olduq. Məsələn, müdafiə naziri Sokolov gedir, əvəzinə Yazov gəlir. Biz də bilirdik ki, Qorbaçova beş namizəd təklif edilmiş, onların sırasında Yazovdan qat-qat güclü adamlar vardı. Yazov orduda kadrlarla məşğul idi. O, bəzi başqa namizədlər qədər orduda nüfuz sahibi deyildi. Qorbaçov isə ona əlverişli olan seçimi etmişdi. O, başa düşmürdü ki, yenidənqurma komandanın gücləndirilməsini tələb edən prosesdir. Qorbaçov özü bütün bunları həyata keçirmək üçün həddən artıq zəif adam idi. Əliyevi öz yerində saxlamaq lazım deyildi, onu daha yuxarıya yeritmək lazım idi, çünki Qorbaçovun məhz güclü şəxsiyyətlərə ehtiyacı var idi. Əliyev isə onunla heç vaxt hakimiyyət davasına qalxan deyildi..."

Mübarizəyə qatılmasa da, "yenidənqurma"ya, daha doğrusu, yenidənqurmanın aparıldığı metordlara qarşı narazılıq onun varlığında get-gedə nəzərəçarpacaq dərəcədə artırdı. O, komanda adamı idi və komanda oyunu qaydalarına ciddi riayət edirdi. Heyhat, fikir ixtilafları ara-sıra ortalığa çıxmaqda idi.

Yenidənqurma, yaxud şirin röyaların acı sonluğu

1985-ci il aprelin 23-də yeni siyasətin tarixi rəmzinə çevriləcək Sov.İKP Mərkəzi Komitəsinin Plenumu keçirildi. Ardınca aprel Plenumunun kursu dillərə düşdü. Plenum növbəti, XXVII partiya qurultayı çağırılması məsələsinə baxdı. M.Qorbaçov məruzə ilə çıxış etdi. Bu məruzə adətən yenidənqurmanın proqram sənədi sayılsa da, əslində, prinsipcə heç bir yeni, xüsusilə, inqilabi məna daşımırdı. Söhbət əsasən iqtisadi artımın sürətləndirilməsindən gedirdi. "Yenidənqurma" anlamı praktiki olaraq işlədilmirdi.

"İndi deyirlər ki, "yenidənqurmanın arxitektoru" guya Qorbaçov olmuşdur, – Rıjkov qeyd edir. – Düzdür, son iki-üç il təkidlə iddia edirlər ki, bizdə həmçinin "yenidənqurmanın prorabı" da olubmuş. Məncə, "dağıdılmanın prorabı" demək yerinə düşərdi. Bu adla da tarixdə qalacaq. Yenidənqurmanın həqiqi müəllifi isə Tarix idi. Tarixin öz sifəti, siması olmur. Onun siması səhnəyə çıxardığı, öz adından danışmaq və hərəkət etmək fürsəti verdiyi insanlardır. 1985-ci ildə tarixin gərdişi Qorbaçovu irəli çıxardı və o məqamdan etibarən Sovet İttifaqı adlanan ölkədə baş verən bütün hadisələr əsasən onun adıyla bağlanır. Və onlara görə, onların nəticələrinə görə cavabdehliyi gələcək nəsillər başqa birisinə deyil, məhz Qorbaçova ünvanlayacaqlar – beladir qoca Tarixin adəti: hər şeyi bir konkret şəxsiyyətin üzərinə atmaq, qələbələri də, məğlubiyyətləri də, yanlışlıqları da, uğurları da onun ayağına yazmaq..."[97].

25 fevral 1986-cı il. Moskvada Sov.İKP XXVII qurultayı açılır. M.Qorbaçovun söylədiyi siyasi məruzədə vəziyyətin təhlili şərhi və inkişafın prinsipial perspektivlərinin müəyyən edilməsi vəzifələri ön plana çəkilmişdi. "Yenidənqurma" termini qurultayda yalnız partiya fəaliyyətinə və kadr işlərinə şamil edilərək işlədilmişdi.

XXVII qurultayın qətnaməsində 70-ci illər – 80-ci illərin əvvəllərində sosial-iqtisadi inkişafda ortaya çıxmış çətinliklər və neqativ proseslər haqqında deyilirdi. Qorbaçovun komandası "durğunluq"dan çıxışı iqtisadiyyatın intensiv inkişaf yoluna keçirilməsində, elmi-texniki tərəqqinin sürətləndirilməsində, xalq təsərrüfatının köklü texniki rekonstruksiyasında görürdü. Bununla belə, prinsipcə heç bir yeni, həqiqətən, konstruktiv fikir irəli sürülməmiş, təsərrüfat mexanizminin yenidən qurulması, idarəetmənin təkmilləşdirilməsi, intizamın möhkəmləndirilməsi və s. haqqında ümumi sözlər səslənmişdir.

İkinci bölmənin 6-cı maddəsində deyilirdi ki, "qurultay fəal, bütövlüklə sosial siyasətin aparılmasına, 12-ci beşillik və perspektiv üzrə nəzərdə tutulmuş xalq rifahının yüksəldilməsi proqramının gerçəkləşdirilməsinə birinci dərəcəli önəm verir... Mərkəzdə və yerlərdə partiya, dövlət və təsərrüfat orqanları bazarın keyfiyyətli mallar və xidmətlərlə təmin edilməsi məsələlərinə münasibəti kökündən dəyişməli, xalq istehlakı malları istehsalının və xidmət sahəsinin inkişafına dair kompleks Proqramın qeyd-şərtsiz yerinə yetirilməsini təmin etməli, hər respublika, diyar, vilayətin, xalq təsərrüfatının hər bir sahəsinin, əmək kollektivlərinin bu ən vacib vəzifənin həll edilməsinə töhfəsini artırmalıdırlar".

Bütün bu məsələlər SSRİ hökumət başçısının birinci müavini

Heydər Əliyevin bilavasitə nəzarət etdiyi sahəyə daxil idi.

XXVII qurultayın qətnaməsinə hələ on-on beş il öncə Azərbaycanda səsləndirilmiş və həyata keçirilmiş fikirlər qatılmışdı.

Məsələn: "Yaxın zamanlarda müftəxorlara, sosialist əmlakını talan edənlərə, rüşvətxorlara qarşı yönəldilən əlavə tədbirlər yerinə yetirilsin". Yaxud: "Tənqid və özünütənqid səngiyən yerlərdə partiya işi deformasiyaya uğrayır, arxayınçılıq və cəzasızlıq şəraiti yaranır, bu da işlərdə durğunluğa, işçilərin tənəzzülünə gətirib çıxarır. Partiyada nəzarətdən kənar, tənqid üçün qapalı təşkilatlar olmamalıdır".

Və nəhayət:

"Bir sıra təşkilatlarda kök salmış məsuliyyətsizlik və günahların üstündən keçmək inersiyasına qarşı, partiya, dövlət intizamı, etika və əxlaq pozuntuları faktlarına qarşı mübarizə gücləndirilməlidir... Partiya bizə yad olan proteksionizm praktikası ilə, işçilərin şəxsi sədaqət və qohumluq əlamətlərinə görə irəli çəkilməsilə barışmayacaq". Bütün bu göstərişlər Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan partiya təşkilatının həyat və fəaliyyət norması idi.

Martın 6-da Siyasi Büro tərkibini, Mərkəzi Komitənin Katibliyini seçmiş, Partiya Nəzarəti Komitəsinin sədri təyinatını təsdiqləmiş Sov.İKP MK Plenumu keçirilmişdi.

Qismən təzələnmiş **Siyasi Büronun tərkibi** belə idi:

M.Qorbaçov, H.Əliyev, V.Vorotnikov, A.Qromıko, L.Zaykov, D.Kunayev, Y.Liqaçov, N.Rıjkov, M.Solomentsev, V.Çebrikov, E.Şevardnadze, V.Şerbitski.

Siyasi Büro üzvlüyünə namizədlər:

P.Demiçev, V.Dolgix, B.Yeltsin, N.Slyunkov, S.Sokolov, Y.Solovyov, N.Talızin.

Sov.İKP MK katibləri:

M.Qorbaçov – Baş katib, A.Biryukova, A.Dobrınin, V.Dolgix, Z.Zaykov, M.Zimyanin, Y.Liqaçov, V.Medvedev, V.Nikonov, G.Razumovski, A.Yakovlev.

Plenum Partiya Nəzarəti Komitəsinin sədri vəzifəsinə M.Solomentsevi təsdiqlədi.

Əlamətdar faktdır ki, bir neçə il sonra, B.Yeltsin gözdən düşmüş, öz fitnə-fəsadının torunda dolaşıb qalmış M.Qorbaçovu siyasi "nokauta" tolazlayanda, sonuncu Baş katibin yanında yuxarıda adları sadalanan silahdaşlarından heç biri qalmayacaqdır.

Partiya forumunun keçirildiyi zaman sonralar Heydər Əliyevin mənə və "Svoboda" radiosundan həmkarına söylədiyi maraqlı bir epizod baş vermişdi. Siyasi Büro üzvlərindən sovet və xarici jurnalistlərlə qurultayın mətbuat mərkəzində görüşmək tək onun öhdəsinə düşmüşdür. Çaşdırıcı sualları cavablandırarkən onun göstərdiyi səmimiyyət və açıqlıq Baş katibin ürəyinə yatmamışdı.

Heydər Əliyevin söylədiklərini olduğu kimi yazıram:

"Mən DTK-da işlədiyim vaxt, sonra MK katibi olanda da daim onun tərəfdarı olmuşam ki, biz öz həyatımıza, cəmiyyətimizə çox ayıq, obyektiv yanaşmalı, bər-bəzək verməməli, eybləri və nöqsanları görməliyik.

O quruluşun, o ideologiyanın əsas bəlası hər şeyin ideal şəkildə təqdim edilməsi idi, hər şey yaxşıdır, gözəldir və s.

Sonra biz aşkarlıqdan danışdıq. Qorbaçovun iki anlayışı vardı – "aşkarlıq" və "yenidənqurma". Mən isə bu aşkarlığı hələ 69-cu ildə tətbiq etməyə başlamışdım. Nə üçün? Ona görə ki, təkrar edirəm, öz quruluşumun, öz dövlətimin inamlı təəssübkeşi olaraq, mən həm də neqativ hissəni də görürdüm və onu düzəltmək istəyirdim. Bu uzun əhvalatdır...

İndi isə 1986-cı ilə keçirəm. 27-ci partiya qurultayı keçirilir. "yenidənqurma", "aşkarlıq" və s. şüarlar artıq səslənməkdədir. Siyasi Büro üzvləri sərəncam vermişlər ki, qurultay zamanı xarici müxbirlər üçün mətbuat konfransı olacaq və bu konfransı keçirməyi mənə tapşırdılar. XİN-in ağzınacan dolu mətbuat mərkəzi xatirimdədir, mənim şəxsiyyətimə maraq böyük idi. Yaxşı, o vaxt nələr baş verirdi? "Pravda"da açıq yazırdılar ki, bizdə "gizli bazar" var, rəsmi şəkildə də bəyan edirdilər ki, belə şey yoxdu. Mən hətta bir qadının soyadını xatırlayıram – Samolis... o, səs-küy qoparan bir məqalə yazmışdı.

Mən isə gəlib Siyasi Büro üzvü olaraq ondan da çox şeyləri ağartdım. Sonra ertəsi günü bütün bunları televiziya yayımladı, məni Qorbaçov da, başqaları da qınadı: "Sən həddindən artıq kəskin,

açıq-saçıq çıxış elədin...". Bilirsiniz, bir əqidəli kommunist kimi, mən nöqsanları, onların aradan qaldırılmamasını görürdüm, bunun da tədricən quruluşumuzu uçuruma apardığını anlayırdım. Və müvafiq olaraq inancım o yönümdən dəyişirdi ki, yəqin daha belə olmaz. Lakin görəndə ki, bu yenidənqurma, bütün bu tədbirlər də nəticə vermir, belə qənaətə gəldim ki, bu dövlətin mahiyyəti dəyişilməlidir..."

Heydər Əliyev və Qorbaçovun Baş katib vəzifəsində fəaliyyət göstərdiyi ilk dövrdə onunla işləmiş Siyasi Büronun başqa üzvləri XXVII qurultayın bəyan etdiyi yenidənqurma kursunu birmənalı dəstəkləsələr. İslahatların guya ali partiya aparatının müqaviməti ucbatından yerində saydığı haqqında sonralar səsləndirilən fikirlər əslində mif idi və SSRİ-də ən səbatlı siyasi ənənələrdən birinə – bütün günahları sələflərinin üstünə yıxmaq adətinə uyğun idi. "Sov.İKP MK aparatında işləyincə gələ bildiyim qənaətlərə görə, – V.Leqostayev öz kitabında yazır, – belə bir müqavimət nə 1985-ci, nə 1986-cı, nə də hətta 1987-ci ilin birinci yarısında olmamışdı. Əksinə, Sov.İKP komitələrində də, rəhbər dövlət orqanlarında da islahatların zəruri olması tam dərk edilir və onlara müntəzirlik ifadə olunurdu"[98].

E.Axundova və İ.Nəcəfovun "Naşirin qətli" kitabından:

Əliyev əmin idi ki, "bir şeyin kökündən dağıdılmasından" əvvəl uzunmüddətli islahat strategiyası hazırlanmalı, nəhəng ölkənin haraya, hansı istiqamətdə gedəcəyi anlaşılmalıdır. Yalnız gözəl və Qərbin çox xoşuna gəldiyi şüarlar deyil, ciddi, düşünülmüş konsepsiya lazımdır.

Bax, məhz elə bu yox idi. Olanlar uzun-uzadı naqqallıq, boşboğazlıq idi. Qorbaçov aramsız çərənləyirdi. Saatlarla danışır, çağırılmış bayatılar deyir, heç kəsə öz sözünü deməyə imkan vermirdi. Əliyev islahatların söz axınında batırıldığını, xalq təsərrüfatının çeşidli sahələrində böhran əlamətlərinin sürətlə dərinləşməsini, Baş katibin kadr siyasətində necə ciddi səhvlərə yol verməsini nigarançılıqla izləyir və başa düşürdü ki, belə hal uzun sürə bilməz.

Əliyevi xüsusən millətlərarası münasibətlərdə yaranan vəziyyət narahat edirdi. O bilirdi ki, bu çox incə, kövrək sahədir və Qorbaçovun kobud səhvləri bir sıra müttəfiq respublikalarda münaqişələr törədə bilər. Belə ki, 1986-cı ilin dekabrında Alma-Atada baş vermiş acınacaqlı hadisələrdən əvvəl o, həmin respublikaya rəhbər təyin olunması məsələsində Qorbaçovu yanlış seçimdən daşındırmağa çalışmışdı: yaxşı, sizə elə gəlir ki, Kunayev qocalıb, vəzifəsində oturası vaxt ötüb keçib, daha rəhbərliyə qadir deyil. Gəlin düşünək, onu yerlilərdən kimlə əvəz etmək olar. Yerli kadrlardan! Heç bir halda respublika rəhbərliyini zorla ruslaşdırmaq olmaz... Baş katib isə "qazax millətçiliyi" deyə-deyə bəhanə gətirirdi. Sonra da Alma-Ataya vaxtilə Qafqazda birgə əməkdaşlıq etdiyi dostu Kolbini göndərmişdi. Xalqın əhvali-ruhiyyəsini anlamaq, öz səhvini boynuna almaq əvəzinə Qorbaçov bilərəkdən vəziyyətin kəskinləşdirilməsinə gətdi.

O, müsəlman əhalisinin çoxluq təşkil etdiyi respublikalara qarşı aşkarcasına kəc baxırdı. Və onları millətçilikdə ittiham edirdi. Eyni zamanda Abxaziyada, Dağlıq Qarabağda qızışdırılan millətçilik və separatçılıq həvəslərinə "canıyananlıqla" yanaşırdı. Əliyev Baş katibin kabinetinə "erməni ictimaiyyətinin təmsilçiləri"nin gen cığır açdıqlarını görürdü. "Miatsum" ideyalarına "yaşıl işıq" məhz Kremldə və məhz Qorbaçovun xeyir-duası ilə, əzizlədiyi köməkçisi, qatı millətçi Şahnazarovun "binagüzarlığı" ilə verilmişdi... Həmin bu saray "vəziri" idi Əliyevə qənim kəsilən! Həm onu gözü götürməyən, həm də ondan xoflanan. Çünki yaxşı bilirdi: Əliyev Kremldə ixtiyar sahibi olunca, Qarabağı onlar dəvə boynunun ardını görmədiyi kimi görməyəcəklər!

90-cı illərin sonlarında Moskvada Qorbaçovun köməkçisi Çernyayevin gündəlikləri çap olunacaq. Və Əliyev həmin kitabda çoxdankı şübhələrini təsdiqləyən maraqlı bir epizodun təsvirini oxuyacaq. 1988-ci il idi, Dağlıq Qarabağ ətrafında hadisələr hələ təzə-təzə qızışmağa başlayırdı. Qorbaçovun hüzuruna Şahnazarov gəlir. Baş katibin köməkçisinin həmin gün 64 yaşı tamam olurmuş. Qorbaçov onunla qucaqlaşıb öpüşür, sonra Azərbaycanda, Ermənistanda vəziyyət haqqında sorğu-suala tutur. "Bəs Əliyev necə, nə təhər?.." Sual o mənada verilir ki, Əliyev Zaqafqaziyada hadisələrin gedişatına təsir edə bilərmi? Şahnazarov öz ağasını xatircəm edir. "Altından qazırıq, – deyir. – Belə ki, Rəşidovun "işi"ndən də gurultulu olacaq..."

Qazaxıstan KP MK-nın birinci katibi vəzifəsinə Kolbinin təyin edilməsi haqqında məsələ baxıldığı Siyasi Büronun iclasında heç kim səsini çıxarmadı. İclasdan sonra Əliyev Qorbaçovun kabinetinə gedir. Heydər Əliyev sonralar bu söhbəti belə xatırlayırdı:

"Siyasi Büronun iclasında heç kim heç nə demədi, lakin iclas sona yetəndə mən ordan qəbul otağına çıxıb Qorbaçovun kabinetinə girdim. Girdim və dedim: "Bilirsiniz, Mixail Sergeyeviç, mən orada nəsə etiraz etmək istəmədim, çünki gördüm ki, şərait elə deyil ki, danışmağa yer olsun. Amma sizə demək istəyirəm ki, mən hər halda milli psixologiyadan baş açıram. Siz səhvə yol verirsiniz. Kolbin pis adam deyil. O, Ulyanovskda vilayət komitəsinin birinci katibi olmuş, babat da işləmiş, hərçənd, gözə toz üfürməklə də məşğul olmuşdur, bu hamıya məlumdur. Siz onu Rusiyanın ən böyük vilayətinə təyin edə bilərsiniz və o işə qatlaşacaq, amma Qazaxıstana Kolbin... – bu baş tutmaz. Nəzərə alın ki, səhvə yol verirsiniz". O, məni kinli-kinli, narazı halda süzdü: "Yaxşı, baxarıq". Bununla da mən öz borcumu yerinə yetirdim".*

Məlumat qovluğundan:

1986-cı ilin dekabr ayında Alma-Atada milliyyətcə rus olan Kolbinin respublikaya növbəti partiya canişini təyin olunmasından hiddətlənən qazaxların etiraz nümayişi keçirildi. Asayişi bərpa etməyə çalışan milislə və qoşunlarla toqquşmalarda 7 milis işçisi daxil olmaqla 28 nəfər həlak oldu, 200 nəfər yaralandı və xəsarət aldı.

Təntənə ilə bəyan edilmiş aşkarlığa rəğmən, Qorbaçov MK təbliğat şöbəsinə SİTA kanalları ilə Qazaxıstan paytaxtında ictimai asayişi pozmağa cəhd göstərən azsaylı "dələduz millətçi ünsürlər" haqqında malalanmış məlumat yayılması barədə göstəriş verdi. Halbuki, müstəqil ekspertlərin rəyinə görə, nümayişlərə on minlərlə adam qatılmışdı.

Və bu, dağılmanın zəncirvari reaksiyasının başlanğıcı idi...

* * *

Qorbaçovun ilk şüarı – sürətləndirməyə çağırış xalq tərəfindən qəribliyə salınandan və istehzalı atmacalarla qarşılanandan sonra

* V.Ağayevin "Xilaskar" filmindən. AzTV. 2003.

"yenidənqurma" termini ortaya çıxdı. Bu kəlmə, xüsusən Qərbdə, çox populyar olsa da, qorbaçovsayağı yenidənqurmanın nə olduğundan az adam baş açırdı.

"...Yenidənqurmanın bütün illəri üçün iqtisadi dolaşıqlıq səciyyəvidir. Əvvəl Qorbaçov "sürətləndirmə" siyasətini car etdi. 1986-cı ildə bu kəlmədən çox işlədilən söz yox idi, – ona addımbaşı, hər qəzet səhifəsində rast gəlinirdi. Bəs nə sürətləndirilməli idi? Bununla yanaşı, biz haraya gedirdik? Bu suallara cavab yox idi. Elmi kommunizmin çoxsaylı başbilənləri və şərhçiləri məqalələrdə, kitablarda "sürətləndirmə konsepsiyası"nı hallandırırdı, amma özün anlamadığını başqalarına anlatmaq olardımı?

Yaxud başqa bir şüar: "Daha çox sosializm!". Nədən daha çox, nə qədər? Hansı arşınla ölçüləsidir bu sosializm?

Bu, adicə piar aksiyası, söz güləşdirməsi idi. Onların daima təkrarlanması ucbatından, yenidənqurmanın bizim nə istəməyimiz, ona necə nail olacağımız, bundan sonrakı addımlarımız və s. barədə mərhələ-mərhələ bölüşdürülən iqtisadi konsepsiyanın, sürətləndirmə strategiyasının mövcudluğu barədə təsəvvür yaranırdı. Təbii ki, belə bir şey yox idi. Dövlət baxımından isə Qorbaçovun ümumiyyətlə heç bir məqsədi və planı yox idi. O, iqtisadiyyat tarixini bilmir və görmürdü ki, onun siyasəti nəinki uzunmüddətli perspektivdə, nəinki bir-iki il irəlidə, hətta ən yaxın aylarda nəyə gətirib çıxaracaq. Onun rəhbərliyi ucbatından ölkə zəruri modernləşmədən durğunluq dövründə olduğundan daha çox uzaqlaşdı, insanların yaşayışı isə daha da pisləşdi"*.

SSRİ DTK-nın sabiq başçısı V.Kryuçkov Yanoş Kadarla "yenidənqurma" anlamının mənasını incələməyə çalışdıqları bir söhbəti xatırlayır:

"Macarıstan lideri mülahizə edə-edə soruşurdu ki, bu qəliz ifadənin arxasında nə durur: "Yenidən qurmaq – yəni təkmilləşdirmək, ya hər şeyi yenidən qurmaq?". Axırda o, acı istehzasını gizlətmədən: "Qorxuram ki, biz hamımız dolaşıqlığa düşəcəyik", – dedi.

Bizlərdə "yenidənqurma" məfhumunu cürbəcür yozurdular: hər şeyi dağıdıb yenidən yaratmaq; dağıtmadan kökündən təkmilləşdirmək, idarəetmə qurumlarını dəyişdirmək, desentralizasiya (mərkəzi

orqanların bəzi vəzifələrinin yerli orqanlara verilməsi) tətbiq etmək, plan əsaslarından imtina etmək və s.

Yenidənqurmanın heç bir proqramı yox idi. İnsanlar bu qəliz şüarın nədən ibarət olduğu üzərində baş sındırırdılar. Haraya gedəcəyimizi, hansı hədəfi izlədiyimizi, hansı konkret cari və perspektiv vəzifələri həll etməyimizi aydınlaşdırmaq cəhdləri Qorbaçovun qəliz sözçülüyünə, ya kar sükut divarına dirənib qalırdı. Bircə Qorbaçovun "yeniləşmə yoluyla irəliləmək, yenidən qurmaq, dəyişmək" çağırışları bol-bol səslənirdi.

Qorbaçovun nə məqalələri, nə çoxsaylı çıxışları, nə də yenidənqurma məsələləri üzrə qalın-qalın əsərləri bu məsələyə aydınlıq gətirmir, əksinə, daha da dolaşdırırdı. Yenidənqurma isə get-gedə daha bariz şəkildə profanasiya* səciyyəsi daşıyırdı"[100].

Y.Liqaçovla görüşdükdə mən 80-ci illərdə onun və Siyasi Bürodakı həmkarlarının "yenidənqurma" anlamını hansı mənada düşündükləri ilə maraqlandım. Yeqor Kuzmiç həvəslə öz mövqeyini açıqladı:

"Demək, yenidənqurma haqqında. Kimlərinsə səngərlərin bu tərəfində, kimlərinsə o tayında qalmasına səbəb olan sərhəd haradan keçirdi? Öz nəzər nöqtəmi söyləyirəm. Mən və partiya yoldaşlarım ümumiyyətlə hamı kimi, yenidənqurmanı zəruri hesab edirdik. Çünki nəhəng uğurlar əldə edəndən sonra biz ciddi dərəcədə, xüsusən, elmi-texniki tərəqqi ilə bağlı məsələlərdə geriləməyə başladıq. Özü də Qərbdən sürətlə geriləməyə. Bundan başqa, cəmiyyətdə partiyadaxili və sosialist demokratiyası inkişafının ciddi ölçüdə səngiməsi başlandı.

Mərkəzlə respublikalar arasında ziddiyyətlər ortaya çıxdı. Ağlasığmaz mərkəzləşdirmə vardı. Ali rəhbərlik milli respublikalarda milli ziyalılar yetişdiyini, müxtəlif sahələrdə səriştəli kadrların meydana çıxmasını, rəhbərlərin boya-başa çatmasını nəzərə almırdı. Və bir sıra hüquqlar, funksiyalar respublikaların öhdəsinə verilməli idi. Onda ölkə də daha dinamik inkişaf edərdi.

Bunların hamısı bütövlükdə bizi yenidənqurmaya qatlaşmağa məcbur edirdi. Lakin onu biz necə düşünür və Qorbaçov öz kompaniyasıyla necə düşünürdü?

* Profanasiya – nəyisə təhrif etmək, korlamaq, hörmətdən salmaq.

Biz onu sistemin dağıdılması və demontajı kimi deyil, öz çərçivəsində islahat edilməsi şəklində təsəvvür edirdik. Bu barədə birinci olaraq Yuri Vladimiroviç Andropov söz açmışdı. O deyirdi ki, biz dəyişiklikləri varisliklə uzlaşdırmaqla yerinə yetirməliyik.

Qorbaçov isə Kremli tərk etməzdən üç gün əvvəl Ted Koppola verdiyi müsahibəsində demişdir ki, bu sistem islahatlıq deyil, ona görə də sökülməlidir. Beladirsə, demək, yeni sistemlə əvəz olunmalıdır.

Bax, elə aramızdakı ziddiyyət burasında idi ki, nəticədə məni o vaxt "konservator" adlandırmışdılar".

Azərbaycan KP MK sabiq katibi Həsən Həsənovun problemə öz baxışı var və o, fikirlərini mənimlə bölüşmüşdür.

"Müəyyən paralellər aparmaq olar: Heydər Əliyevin ifasında yenidənqurma və qorbaçovsayağı yenidənqurma nə idi? Qorbaçovcasına aşkarlıq və Əliyevcəsinə aşkarlıq, Qorbaçovun kadr siyasətində islahatları və Əliyevin kadr siyasəti nədən ibarət idi? Əliyev özünün düşündüyü yenidənqurmanı başlayaraq, dəqiq mənəvi-əxlaqi və siyasi meyarlar, aydın və sərrast fəaliyyət strategiyası və etibarlı taktikaya arxalanırdı. Qorbaçov isə uzun-uzadı nitqləri ilə ictimaiyyəti çaş-baş qoyurdu, heç kim "insan sifətli sosializm" formulunu sonadək anlamırdı, "yeni təfəkkür" anlayışını isə hərə özü bildiyi kimi yozurdu. Təsadüfi deyil ki, Qorbaçovun yenidənqurmanın dəstəklənməsi haqqında xalqa çağırışına cavab olaraq məhz onun şəxsiyyətinə qarşı ən radikal münasibət bəsləyən təşkilatlar başqa cürə yox, "Yenidənqurmaya dəstək üzrə Xalq Cəbhəsi" adlanırdı. Xalq aşkarlıq arzulayırdı, əvəzinə kollektiv və kütləvi dedi-qodu sistemi aldı, xalq demokratiya arzulayırdı, əvəzinə anarxiya və dərəbəylik gördü, xalq iqtisadi islahatlar umurdu, əvəzinə iqtisadi böhrana düçar oldu.

Qorbaçov dövründə sağlam ictimai rəyin formalaşması ictimai şüurdan alət kimi faydalanmaqla əvəz olunmuşdu, cəmiyyətdə parçalanma, qarşıdurma baş verirdi. Qorbaçovun vaxtında yeridilən siyasət və onun təbliğinin təşkili arasında uyğunsuzluq ortaya çıxmışdı. Əliyevin təqdirində onlar bir-birilə qovuşmuşdu. Əliyev tərəfindən kadrlara sabit və ardıcıl münasibət vardı, Qorbaçov tərəfindən isə xəyanətkar kəmfürsətlik özünü göstərirdi, Əliyev xarakteri sa-

bitliklə fərqlənir. Qorbaçov isə qətiyyətsizlik və qərarsızlığı ilə "seçilirdi". Əliyevin gerçəkləşdirdiyi yenidənqurma, aşkarlıq və kadr siyasəti Azərbaycanın yüksəlişinə və sabitliyinə gətirib çıxardı, Qorbaçovun yenidənqurması, aşkarlığı və kadr siyasəti nəinki başçılıq etdiyi və gec-tez dağılmalı ölkənin dağılması, ən başlıcası, tam iqtisadi tənəzzül, bir çox əxlaqi dəyərlərin pozulması, cəmiyyət içində və xalqlar arasında qarşıdurmalar, qanlı çaxnaşmalar və sadəcə silahlı çaxnaşma deyil, hətta respublikalar arasında açıq müharibə ilə nəticələndi. Və sonuncunu öz timsalımızda yaşadıq..."

* * *

Bütün tərəddüd, şübhələr və mübahisələrə baxmayaraq, nəticədə radikal iqtisadi islahatlara keçmək qərarı üstün gəldi. 1987-ci ildə, iyun ayının axırında MK Plenumu əsaslı iqtisadi islahatın keçirilməsinə yönəldilən kursu bəyan etdi; onun ana xəttini "inzibati-amirlik" idarəetmə üsullarının iqtisadi vasitələrlə əvəz olunması təşkil edirdi. Plenum ərəfəsində islahat üzrə ən mühüm dövlət hüquqi aktlarının layihələri hazırlanmış, Plenumdan sonra isə onlar SSRİ dövlət müəssisəsi haqqında Qanun və Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin on birgə qərarı şəklində dərc edilmişdir.

Əlbəttə, Plenum sənədlərində hər şey nəzəri baxımdan əsaslandırılmış və əlaqələndirilmişdir. Lakin təcrübədə işlər islahat müəllifləri düşündükləri kimi getmədi. Bir neçə il sonra həmin dövrü xatırlayan Qorbaçov "Şpigel" jurnalına verdiyi müsahibəsində dövlət müəssisələrinin islahat gedişatında vəziyyətini nəzərdə tutaraq qeyd edirdi: "Biz onları köhnə idarəetmə sistemindən bir növ çıxartmış olduq, amma yeni, tənzimlənən bir sistem də yaratmadıq. Və hər şey pozulmağa başladı".

İslahat müəlliflərindən biri öz kitabında yazır:

"İslahat aparılması planı çətin axtarışlarda, fikir toqquşmalarında yaranırdı. 60-cı illərin ortalarında keçirilən islahatın acınacaqlı təcrübəsi nəzərə alınaraq, bu dəfə xalq təsərrüfatının ilk özəyinin yeni iş metoduna keçirilməsi başlanğıc məqam kimi seçilmişdi. Keçmişdə islahatları "yuxarı mərtəbələrdən" başlamaq cəhdləri alınmırdı, ilk növbədə öz hüquqlarını özləri məhdudlaşdırmalı olan idarəetmə orqanları tərəfindən şiddətli müqavimətlə rastlaşırdı.

Niyyət ondan ibarət idi ki, aşağı təsərrüfat qatlarında yeni iqtisadi qurumların istehkamları yaradılsın və ardınca, onlara söykənərək, iqtisadi mexanizm daha yuxarı müstəvilərdə yenidən qurulsun. İslahat müəlliflərinin fikrincə, təsərrüfat islahatı üzrə bütün başqa qərarların qəbulunda və yerinə yetirilməsində aparıcı konstruksiya və bir növ kamerton SSRİ Ali Sovetinin 30 iyunda (1987-ci ildə – *E.A.*) qəbul etdiyi müəssisə haqqında Qanun olmalıdır. Qanunun 1 yanvar 1988-ci ildən qüvvəyə minməsi qərara alınmışdı.

Eyni zamanda tədricən istehsal vasitələrinin topdansatışına keçmək, maliyyə-kredit sistemini yenidən qurmaq və 1989-cu ilin əvvəlindən tətbiq ediləcək qiymətqoyulma islahatının hazırlanması nəzərdə tutulurdu. Düşünülürdü ki, yeni təsərrüfatçılıq metodları əvvəl sahə nazirliklərini iriləşdirməyə, sonra da tədricən ləğv edilməsinə imkan verəcək. Eyni zamanda partiya orqanları tədricən iqtisadi idarəetmə funksiyalarından azad olacaqdılar"[10].

Amma hər şey islahatçıların düşündüyü kimi olmadı. Misal üçün, "Dövlət müəssisəsi haqqında" Qanunu götürək. Qanun qüvvəyə minəndən sonra orada direktorları daha təyin etmir, seçirdilər, müəssisələr də yalnız nominal olaraq, şərti şəkildə "dövlət" nisbəsini daşıyırdılar. Heç kim əməlli-başlı izah edə bilmirdi ki, dövlət müəssisələri dövlətə, dövlət də onlara nə borcludur. Müxtəlif yerlərdə, müxtəlif müəssisələrdə, nazirliklərdə qanunu fərqli şəkildə tətbiq edirdilər, dövlət isə bu prosesə artıq nəzarət etmək halında deyildi...

Kooperativ hərəkatının inkişafı da düşünüldüyü kimi getmədi. Hərçənd, ideyanın özü, xüsusilə ictimai iaşə və ticarət sahəsində şəxsi təşəbbüsün aşılanması yaxşı və gərəkli idi. Həm də 1987-ci ilin yay və payız aylarında, xəstəxanada olarkən, sonra isə artıq işə çıxdıqda Heydər Əliyev həmin problemlərlə çox məşğul olmuş, müvafiq sərəncamlar qəbul etmiş, kooperativ hərəkatının hansı istiqamətdə inkişaf etdirilməsinin zəruri olduğunu öyrənmək üçün yerlərə yollanmışdı. Bu barədə onun sosial məsələlər üzrə köməkçisi Eduard Proxorenko xatırlayır:

"Əvvəl tullantıların yığılması və emalı üzrə kooperativlərin yaradılmasına icazə verildi. Ayrı-ayrı bölmələr üzrə bir neçə qərar çıxardıq. Sonra ictimai iaşə sahəsində əslində özəl təşəbbüskarlığa

yol açan qərar dərc olundu. Moskvada ilk özəl kafe açıldı. Bu barədə məbuatda çox yazırdılar. Heydər Əliyeviç təklif etdi:

– Gəl oraya baş çəkək, bir baxaq görək.

Gəldik. Əvvəl "Varşava şosesi"nin çıxacağında "Solneçnıy" adlanan motelin direktoru işləmiş sahibkara üz tutub soruşur:

– De görüm, sən orada oğurluq edirdinmi?

– Əlbəttə...

– Bəs indi?

– İndi oğurluq nəyimə lazımdı ki?

– Orada nə qədər qazanırdın? – Əliyev maraqlanır.

Kafe sahibi hansısa gülünc bir məbləği səsləndirir. Kooperativlər üçün isə güzəştli vergi şamil edilmişdi – 5%, halbuki istehlak kooperasiyasının özü üçün gəlirdən alınan vergi 35% təşkil edirdi. Bu güzəşt tutarlı stimul idi.

Biz onda bir sıra kooperativlərə baş çəkdik. Sonuncusuna onun ərizə (işdən çıxmaq barədə – ***E.A.***) yazmağa məcbur edildiyi gün getməyə hazırlaşırdıq. Cəmi üç-dörd müxtəlif kooperativə baş çəkdik. O, kooperatorlarla çox təəssübkeşliklə söhbət edirdi. Əliyev istehsalat kooperativlərini uğurlayırdı. Xatirimdədir, yumşaq mebel hazırlayan, iki qardaşın təşkil etdiyi kooperativ sahibləri hər şeyi ona açıq söyləyir, hələ ki heç nə qazanmadıqlarını bildirib gələcəyə ümid bəslədiklərini deyirdilər".

Təəssüf ki, Heydər Əliyevi az sonra istefaya yola saldılar, SSRİ Nazirlər Soveti nəzdində dövlət müşaviri təyin etsələr də, artıq bu və digər həvalə edilmiş sahələrə nəzarət edə bilmədi. Halbuki sovet kooperativlərinin hərəkatı ən istənilməz ssenari üzrə cərəyan etdi.

"...Görün nə oldu. "Xalqın içindən çıxan" kooperatorlar "piraşki" bişirməklə, papaq tikməklə və sairə xırda-xuruş işlərlə məşğul oldu, gəlirləri bekara olsa da, icra orqanları məmurlarının tərəfindən qoparılan pullar qalxdıqca qalxdı. Və kooperativ hərəkatının bu yönümü tezliklə cırlaşıb yarıgizli, "kustar" məşğuliyyətə çevrildi; camaat "özü üçün" sərbəst zəhmətlə öz güzəranını yaxşılaşdıra bilmədi.

Daha fəndgir işbazlar – alverçiliyə, dəllallığa qoşuldular, bu da dövlət müəssisələrinin məhsullarına inhisar şəraitində aşağı qiymət qoyulduğu və aramsız qıtlıq vəziyyətində dərhal varlanmağa imkan verirdi. Nəticədə qiymətlər qalxdı, xalqın dolanışığı pisləşdi və ümumiyyətlə, kooperatorlara qarşı davamlı gözügötürməzlik doğurdu.

Ən dəhşətlisi isə odur ki, "Kooperasiya haqqında" qanun oğurluğa çox əlverişli zəmin yaradır, dövlət müəssisələri ətrafında şəxsi mənafe güdən əməliyyata yol açırdı, – onların həndəvərində tezliklə cürbəcür kooperativlər topalaşdı ki, yeganə məqsədləri əslində dövlətə mənsub olacaq gəliri çırpışdırıb şəxsi cibişdanlara ötürmək idi.

Bu, belə baş verirdi. Tutaq ki, zavod hansısa qurğunu quraşdırmalıdır. Dövlət normativləri və tarifləri üzrə bu işə üç gün və beş yüz rubl sərf olunmalı, zavod fəhlələri də həmin müddətə və həmin pula bu işi görürlər. Eyni zamanda direktor öz təşəbbüsü, ya sex rəisinin təzyiqi ilə kooperativlə artıq icra olunmuş həmin işin görülməsi üzrə, amma indi 10000 rubl ödəmək şərtilə, müqavilə bağlayır; yarısı direktorun payına, yarısı da "kooperatorun": sonuncunun kooperativi bir özündən, arvadı və qayınanasından ibarətdir. Bir sövdə sayəsində özlərinə avtomaşın, ikisi sayəsində mənzil ala bilirdilər.

Belə zavodlar, belə sex rəisləri və "görülən işlər" ölkə boyu minlərlə vardı! İri müəssisələrin, kooperativlərin, cürbəcür mərkəzlərin bir-birinə calaşması baş alıb gedirdi. Gələcəkdə, xalq əmlakının tamamilə sahibkarların əlinə keçdiyi mərhələdə kooperativ dövründə yaradılmış əlaqələr, oğurluq təcrübəsi və yığılmış pullar çox kara gəldilər..."[102].

Heydər Əliyevdən sonra Nazirlər Sovetində sosial sahəyə cavabdeh olan Aleksandra Biryukova kooperativlərə mənfi münasibət bəsləyirdi. Mənimlə söhbətdə o, bunun səbəblərini açıqladı:

"Qorbaçov xalqın gözündə xoş görünməyə çox çalışırdı. Məsələn, nə üçün bir çox mallar yoxa çıxmışdı? Bu sahədə ziyankarlıq, sabotaj, kolbasaların zibilliyə aparılıb atılması və s. bir yana qalsın, biz topdansatış qiymətlərinə yenidən baxsaq da, pərakəndə satış qiymətlərinə baxmamışdıq. Müəssisələrin heç nəyi qalmırdı. Dövriyyədən alınan vergi dövlətə çatırdı. Seçilmiş direktorlar peyda olmuşdu, – işi yaxşı bilənləri deyil, daha az danlayanları, dağıntılara göz yumanları seçirdilər.

Qaldı bu kooperativlər. Məni "antikooperatorçu" adlandırırdılar. Amma hesab edirdim ki, belə kooperativlər kooperativ hərəkatını gözdən salır, dövlətçiliyimizin altını qazır. Əgər sən kooperatorsan, müəssisələrdə olan qanunlar sənə də şamil edilməlidir. Əgər müəssisənin qiyməti on iki rubl olan malı qırx rubla buraxmağa haqqı yox idisə, kooperativə ixtiyar verilmişdi və o, istədiyi qiyməti qoyurdu. Mallar kasad olduğundan adamlar hamısını alırdı, kooperativ də 400, 500, 1000, hətta 10000 faiz qazanırdı. Məsələn, kompüter alverilə qazandığından 1,3 milyon rubl üzvlük haqqı gətirən Tarasov kimi. Köhnə, işlənmiş kompüterləri bolluca alıb gətirib burada tamamilə başqa qiymətlərə satırdı.

Axı belə şey olmamalıydı. Biz onda, ya tamam başqa qiymətqoyulması siyasəti yeritməli, ya da Qərbdə olduğu kimi, məhdudiyyətlər qoymalıydıq: sənin rentabelliyin (məsrəf – gəlir nisbəti) 20%-dən artıq olmamalıdır. Bundan artıq qazandığını dövlətə ver.

Ən başlıcası – kooperativləri müəssisələrdə yaratmaq olmazdı. Müəssisə və kooperativ direktorları sövdələşirdilər. Məsələn, tikiş fabriki büsthalter buraxır, 12% rentabellik əldə edir, ardınca həmin büsthalteri kooperativə satır, kooperativ də onlara bir qızılgül calayır. Fabrikdə bu malın qiyməti 7-10 rubl olduğu halda, kooperativ onu 38-40 rubla sırıyırdı. Və bütün gəlir onda qalırdı. Üstəlik mənfəət anlayışı yox idi, onun rentabelliyini heç kim saymırdı. Kooperator yüksək maaş verir, işçiləri öz yanına tovlayıb cəlb edirdi. Eyni hal başqa sahələrdə, metallurgiya, metal emalında da mövcud idi. Əsasən, xalq istehlakı malları hesabına varlanırdılar".

1988-ci ildə fəaliyyət göstərən kooperativlərin sayı 14 minə çatmışdı. 1989-cu ildə bu rəqəm az qala altı dəfə artdı. Kooperativlərdə əmək haqqının hədsiz artması, kooperativ kanallar vasitəsilə nağdsız haqq-hesabdan nağd hesaba nəhəng pul məbləğlərini nəzarətsiz keçirmək imkanı kooperatorların və gizli iqtisadiyyat işbazlarının əlinə milyardlarla dövlət pullarını ötürməyə yol açdı... 1988-ci ildə dövlət tərəfindən dövriyyəyə buraxılan kağız pulların miqdarı 1987-ci ilə nisbətən ikiqat və əvvəlki, on birinci beşilliyin ortalama illik göstəricisinə nisbətən dördqat artmışdır. Bu emissiya "püskürtüsü" önəmli dərəcədə kooperativ və gizli iqtisadiyyat sektorlarının pullarla doluşdurulması ilə bağlı idi. 1988-ci ili Sovet cəmiyyətindəki kriminal qurumların Sov.İKP MK Baş katibinin tərəfində siyasi mübarizəyə geniş şəkildə qatıldığı sədd hesab etməyə tam əsas var. Onların ümumi şüarını "Qaz vur, qazan dolsun, təki Qorbaçov olsun!" kimi ifadə etmək olar.

Nəticə olaraq, 1988–1989-cu illərdə valyuta böhranı başlandı, 90-cı illərdə ölkə bu böhranın yekun məqamına yuvarlandı. 1985-ci ildə ölkənin əslində yox dərəcəsində olan xarici borcu 1987-ci ildə 39 milyard dollara, 90-cı ilin sonunadək, müxtəlif hesablamalara görə, 60-65 milyarda çatdı (bu borcun xidməti ilə bağlı ödənişlər isə SKV ölçüsü ilə ixracın 23 faizini təşkil etdi). 1991-ci ildə xarici borcun miqdarı az qala 120 milyard dolları haqladı...

V.Leqostayevin fikrincə, "o illərin ən mühüm səhvi ondaydı ki, iqtisadiyyatın yenidən qurulmasına MK-da, partiyada, cəmiyyətdə siyasi səbatsızlıq şəraitində başlamışdılar. Daha doğrusu, bu, səhv deyil, siyasi məsuliyyətsizliyin ən ifrat formasıdır.

İqtisadiyyat əslində, siyasi mübarizə meydanına çevrilmiş, tərəflərin biri, özünü islahatçı adlandıranların hər növbəti uğursuzluğunu acı sevinclə izləyərək bir növ "mariqda durmuş", "islahatçılar" isə cürbəcür mühafizəkarlar, bürokratlar, məmurlar və sairə "yenidənqurma düşmənləri" tərəfindən guya gizlicə onlara əngəllər törətdiyindən xalqın qarşısında ahu zar etməyə başladılar. Öz opponentlərinə əlavə girəvə verməmək üçün islahat icraçıları, qeyri-populyar tədbirlərin həyata keçirilməsini hər vəchlə təxirə salır, bu da iqtisadi vəziyyəti daha dolaşıq, çıxılmaz edirdi. Beləliklə, siyasi maraqlar iqtisadiyyatın müqabilində aparıcı mövqe tutdular"[113].

SSRİ Nazirlər Sovetinin sabiq sədri N.Rıjkov yenidənqurmanı üç mərhələyə bölür və hesab edir ki, yenidənqurma düşünüldüyü şəkildə baş tutmamış, çünki xəyanət qurbanı olmuşdur.

Yenidənqurma "ideyası ona görə meydana çıxmışdı ki, 70-ci illərin ikinci və 80-ci illərin birinci yarısında vəziyyət köklü dəyişiklikləri tələb edirdi və ilk növbədə – iqtisadiyyatda. Gələcək dəyişikliklərin küləyi təkidlə qapını döyürdü. Bu nəfəsi duymamaq heç bir islahat, hətta obyektiv baxımdan qaçılmaz yeniləşməni istəməyənlərlə razılaşmaq demək idi.

Gəlin 85-ci ilə qayıdaq. Xalqın əksəriyyəti yenidənqurmanı

dəstəkləyir, onun ideyalarına inanırdı. O, insanlar tərəfindən daha yaxşı yaşayışa bir ümid kimi qarşılanmışdı. Mənim fikrimcə, – bu barədə çox düşünüb daşınmışam – yenidənqurma rəsmi olaraq altı il – 1985-ci ildən 1991-ci ilədək davam etmişdir. Yenidənqurmanın müqəddiməsi, yazdığım kimi, Andropovun 83–84-cü illərdə iqtisadiyyat sahəsində atdığı addımlar idi. Amma rəsmən – altı ildir. Bu illəri mən üç mərhələyə bölərdim.

Birinci mərhələ – 85–87-ci illər, – yenidənqurmanın pərvərişi, təxirəsalınmaz dönüşlərə bəslənən ümidin doğurduğu kütləvi eyforiya.

İkinci mərhələ – 88–89-cu illər – xəyallardan ayılma və qarşıda qoyulmuş hədəf və vəzifələrin uzunmüddətli əlçatmazlığından doğan peşimançılıq.

Üçüncü, sonuncu mərhələ – 90–91-ci illər – yenidənqurmanın can çəkişməsi və ölümü...

Qorbaçovun öz işinə girişməməsini anlamaq üçün mənə yenidənqurmanın ilk üç ili lazım oldu. Şəxsi keyfiyyətləri və həyat təcrübəsi inkişafının dönüş mərhələsini yaşayan böyük məmləkətə rəhbərlik etməyə imkan vermirdi. İndi o deyir ki, yenidənqurmanın nə ilə bitəcəyini bilirmiş (özü sonralar etiraf etmişdi). Guya o vaxt hər şeyi açıq deyə bilmirdi, çünki bəzi Siyasi Büro üzvləri və MK katibləri (onlara mən özümü də aid edirəm) ona ölkənin başına gətirdiyi oyuna yol verməzdilər. Belə isə ona əfv yoxdur və heç zaman olmayacaq, o, əbədi olaraq yenidən zühur etmiş Kain* kimi qalacaq. Səhvləri bağışlamaq olar, fəqət əvvəlcədən düşünülmüş xəyanət bağışlanmazdır"[102].

Heydər Əliyevi necə kənarlaşdırdılar

Heydər Əliyevi beynəlxalq işlərdən kənarlaşdıran Qorbaçov öz əlaltıları ilə onu bilavasitə kuratorluq etdiyi sahədən də sıxışdırmağa başladı. Biz Mixail Sergeyeviçin onu ziyalılara, jurnalistlərə necə qısqandığından bəhs etmişdik; statusuna və xidməti vəzifəsinə görə Heydər Əliyevin aparmalı olduğu müşavirələrin Y.Liqaçov tərəfindən aparılmasını da yada salaq.

Tomsk Vilayət Partiya Komitəsinin sabiq katibi, Andropovun ölümündən iki ay qabaq Mərkəzi Komitəyə təşkilati məsələlər üzrə katib vəzifəsinə gətirilib kadr məsələlərinin tapşırıldığı Yeqor Kuzmiç Liqaçov, müsahiblərimin xatırladığı kimi, enerjili, güzəştsiz, yoldaşları ilə davranışında kobudluq dərəcəsinə çatan sərt rəftarlı rəhbər idi. Bir sözlə, öz danılmazlığına və başbilənliyinə əmin olan vilayət "ağa"sının tipik nümunəsi.

Liqaçovla işlə bağlı rastlaşan bütün adamlar qeyd edirlər ki, onun iş üslubunda əyalət başçısı olduğu duyulurdu, onda strateji təfəkkür genişliyi çatışmırdı. Ümumiyyətlə, Qorbaçovun Siyasi Bürodakı komandasında dövlət quruluşu və təzələnməsi problemlərinin bütün mürəkkəbliyini dərk edən, arxasında milyonlarla insanların taleyi duran qərarları qəbul etməyə qadir miqyaslı şəxslərin kəskin kasadlığı duyulurdu. Onlar hər şeyə həddən artıq dayaz və səthi yanaşır, daha təmkinlə, ölçülü-biçili yanaşmağa çağıranlara isə dərhal "konservator" damğasını yapışdırırdılar.

Heydər Əliyevin Yeqor Kuzmiçlə münasibətləri, necə deyərlər, bəri başdan tutmadı, onlar xasiyyətcə, mentalitetcə, iş üslubu və metodları etibarı ilə çox fərqli insanlar idi. Biri şərqlilərə xas olan nəzakət sahibi, adamayovuşan, o birisi kobud və yöndəmsiz, biri hərəkətlərini, təkliflərini ölçüb-biçən, nəticələrini görməyi bacaran, o birisi isə təpərinə güvənən və bəsarətsiz, biri səriştəli mütəxəssislərin rəyi ilə hesablaşmağa vərdiş edən, o birisi özündən müştəbeh və ağına-bozuna baxmayaraq hökmünü yeridən (antialkoqol kampaniyasında tutduğu mövqe buna bariz misaldır)... Müqayisələri davam etdirmək olar. Aydındır ki, belə bir adamın Qorbaçov əyyamında yüksəlişi Heydər Əliyevə heç bir ürəkaçan şey vəd etmirdi.

Y.Liqaçova, Mərkəzi Komitənin ikinci katibi kimi, başqa sahələrlə yanaşı, partiyanın ideoloji işi ilə bağlı məsələlər tapşırılmışdı. O, öz köməkçilərilə ilk görüşündə bu təyinatı açıqlayaraq bəyan etmişdi: "Mən öz ideoloji fəaliyyətimi məktəbdən başlayacağam, sonra təbabətlə məşğul olacağıq". Onun inadına söz ola bilməz, o, öz xəttini təkidlə yeridərək, hökumətdə həmin məsələlərə kuratorluq edən Heydər Əliyevə öz müdaxilələri və qərarsızlığı ilə mane-

* Musəvi və İsəvi icmalarda qədim dini rəvayətdən gələn və namərdliyi, xəyanətkarlığı təmsil edən, doğma qardaşını qısqanclıqdan qətlə yetirən şəxs.

çilik törədir və hökumətlə MK işlərində lüzumsuz parallelizm yaradırdı.

Yuri Soloduxinlə söhbətdən:

"Biz Heydər Əliyeviçlə o dövrdə bir neçə dəfə görüşmüşdük. Və o mənə açıq deyirdi ki, "yerinə düşməyib", onu aralı saxlayırlar. Amma bədxahlarından yalnız birinin – Liqaçovun adını çəkirdi.

– Hiss edirəm ki, mənə qarşı köklənib, – bir dəfə dilindən qaçırdı. – Daima tənqid edir, mənim işlərimə qarışır.

Bunu faktlarla təsdiqləyə bilərəm. Yadımdadır, çətin qış vaxtı idi, Uraldan şərqə sarı gedən eşelonlar qarda ilişib qalır, yüklər mənzil başına çatdırılmır, nəticədə müəssisələrin işində səngimələr baş verir, əhali ərzaq almırdı. Bu məsələ üzrə selektor müşavirəsi keçirildi.

Mən həmin müşavirəyə qatılmış, ona mətn hazırlamışdım.

Selektor məntəqəsi Moskvada Mərkəzi teleqrafın binasında yerləşirdi. Liqaçov təşrif buyurdu, loru dildə desək, Əliyevi yerindən tərpəşdirib başladı selektorla özü komandalar verməyə. Otaqda nazir, müavinləri, Yollar Nazirliyinin kollegiyası hamılıqla, hökumətdən də daha kimsə vardı. Mərkəzi Komitədən bir Liqaçov, bir də nəqliyyat və rabitə şöbəsinin müdiri, deyəsən, Simonov gəlmişdi.

Selektor müşavirələri – nadir tədbir, fövqəladə hadisələrdir. Müşavirə MK katibliyinin qərarıyla keçirilirdi. Onun aparılması SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Siyasi Büro üzvü, bu sahəyə cavabdeh olan bir şəxs kimi Heydər Əliyevə həvalə edilmişdi. Liqaçov isə müşavirəyə MK partiya-təşkilati işlər şöbəsinin müdiri kimi gəlmişdi.

Müşavirədə yalnız dəmir yollarının rəisləri deyil, vilayət komitələrinin birinci katibləri, vilayət icraiyyə komitələrinin sədrləri iştirak edirdilər. Liqaçov formal baxımdan burada sadəcə iştirak etməli idi, müşavirəni aparmaq isə Əliyevə tapşırılmışdı.

Hamı stol arxasında oturur, hərənin qabağında mikrofon. Yanlarında da dinamiklər quraşdırılıb, yəni ölkənin müxtəlif regionlarından gələn cavablar aydın eşidilir. Sual vermək, söhbətə qarışmaq olar və s.

...Əliyev müşavirəni açdı. Qısa giriş nitqi söylədi. Yollar naziri Konarevə söz verildi. Ardınca dəmir yol rəisləri çıxış etməyə başladılar. Elə bu vaxt Liqaçov araya təpildi: replika atmağa, vilayət rəhbərlərini "silkələməyə" başladı, yəni əslində sükanı ələ keçirdi. Əliyev çox nəzakətli insandı, o nə isə deyə də bilərdi, amma onda açıq höcətləşmə baş verərdi, bunu da Əliyev özünə rəva bilməzdi.

Heydər Əliyev müşavirədən bikef qayıtdı.

– Bax, görürsən də, – mənə üz tutdu. – Amma bilirəm ki, o, daha yuxarıdan razılıq olmadan, özünü belə aparmazdı. Bu – əks-sədadır".

Liqaçovun nataraz davranışından Heydər Əliyevin başqa bir köməkçisi Aleksandr Qavrilov da danışdı:

"Qorbaçovun gəlişilə dərhal Heydər Əliyeviçə qarşı münasibətin dəyişməsi hiss olundu. Bu, iki adam tərəfindən – Qorbaçov və Liqaçovdan yayılırdı. Liqaçov elə xudpəsəndliklə davranırdı ki, guya ondan başqa heç kəs yoxdur. O vaxt Sov.İKP MK ikinci katibi olaraq əslində ideologiyadan başqa bütün məsələlərə baxırdı, elə ideologiyanı da "basmarlamaq" istəyirdi.

Məsələn, Heydər Əliyeviç Nazirlər Soveti çərçivəsində texnikipeşə məktəbi şagirdlərinin işlərinin sərgisini keçirmək təşəbbüsüylə çıxış edir. Və o, ekspozisiyanı hazırladıqda bir çox maraqlı işləmələr üzə çıxır. Lakin sərginin tam hazır olmasına az qalmış Liqaçov sərəncam verir ki, sərgi MK və şəxsən onun himayəsi altında keçirilsin...

Yaxud: Kremldə inşaat işlərinin panoram – sərgisi. Ümumittifaq müşavirəsi keçirilərkən onun çərçivəsində bir sıra inşaat layihələrini – əmələ yetirilənləri də, kağız üzərində qalanları da sərgiləməyi qərara almışdılar. Heydər Əliyev bütün bunları diqqətlə, səylə hazırlamışdı. O, bütün qaralama işləri bitirdikdən sonra Liqaçov yenə sərəncam buyurmuş və tədbirin keçirilməsini öz əlinə almışdı. Heydər Əliyeviç isə bir növ kölgədə qalmışdı.

Yadımdadır, ekspozisiyanı seyr edərkən Liqaçov Heydər Əliyeviçə üz tutdu:

– Hə, danışın görək.

Heydər Əliyeviç inşaat nazirinə söz verdi. O da izahat verməyə başladı. Heydər Əliyeviç nəsə əlavə etmək istəyəndə Liqaçov yekəxanalıqla sözünü kəsdi:

– Sən niyə mane olursan? O danışırsa, qoy danışsın, sən işə qarışma.

Axı necə də qarışmasın, axı bütün bunları özü hazırlamışdı!

Liqaçov hədsiz dərəcədə kobud adam idi. Mən orada idim və MK ikinci katibinin yerinə xəcalət çəkdim.

Qorbaçov Əliyevə münasibətini Liqaçov vasitəsilə sezdirirdi. Heydər Əliyeviç, Liqaçov peyda olanda, artıq hökumət sədrinin birinci müavini, Siyasi Büro üzvü idi. Və Liqaçov özünün indi daha üstün olduğunu vurğulamağa çalışırdı".

Azərbaycanın partiya rəhbərliyi iqtidar olimpində Heydər Əliyevə qarşı münasibətin dəyişməsini hiss etməyə bilməzdi və özü üçün müvafiq nəticələr də çıxarmışdı. O zaman Kamran Bağırov artıq respublikanın "yiyəsi" kreslosunda rahatlanmış, "qol-qanad" açmış və onun fikrincə, Heydər Əliyevin ifrat himayədarlığından azad olmağı qət etmişdi. MK sabiq şöbə müdiri Zakir Abdullayev mənə söyləyirdi ki, "Kamran rəsmi şəkildə Sov.İKP Mərkəzi Komitəsinə şikayətlənmişdi ki, o, hər addımını Heydər Əliyevlə razılaşdırmalı olur, belə işləmək mümkün deyil və s. Və Heydər Əliyeviçə xəbərdarlıq etmişdilər ki, respublikanın işlərinə qarışmasın. Kamranın şikayəti müəyyən dərəcədə Heydər Əliyeviçin istefasında rol oynamışdı".

Əlbəttə, bütün az-çox mühüm kadr təyinatları Heydər Əliyevlə məsləhətləşmə olmadan keçinmirdi. Misal üçün, Albert Salamovun xatirəsini gətirək:

"1985-ci ildə məni ikinci şöbənin rəisi, sonralar 1992-ci ildə faciəvi həlak olan Rafiq Sadıxovu isə beşinci şöbəyə rəis təyin etdilər. Bizi Kamran Bağırov dəvət etdi. Onu MK inşaat şöbəsinə başçılıq etdiyi dövrdən tanıyırdım. Lakin Heydər Əliyevdən sonra Mərkəzi Komitənin birinci katibi olan kimi, o, nədənsə bütün dostlarından, təmaslardan uzaqlaşdı və özünü ifrat dərəcədə rəsmi aparırdı.

Bizi dəvət edib dedi:

– Təbrik edirik, siz şöbə rəisləri təyin olunmusunuz. Heydər Əliyeviç şəxsən sizi məsləhət görmüşdür.

1985-ci ildi, Heydər Əliyeviç Kremldə işləyir. Lakin hətta Moskvadan da o respublikada və DTK-da işlərin vəziyyətilə maraqlanırdı. Yəni DTK kollektivi onun yetişdirməsi idi və o, daima Komitəyə diqqət yetirirdi".

K.Bağırovun ifrat nəzarət kimi yozduğu diqqət respublikanın yeni rəhbərini cırnadırdı. Ramiz Mehdiyev də xatırlayır ki, K.Bağırov həqiqətən Moskvaya yollanıb Sov.İKP Mərkəzi Komitəsinə Heydər Əliyevin öz himayəsilə ona təzyiq göstərdiyindən, kadr siyasətinə qarışdığından və s. şikayətlənmişdi.

Ramiz Mehdiyevlə söhbətdən:

"Bu hadisələrdən çox əvvəl öz seçimimizdə yanıldığımızı bilirdim. Kamran Bağırovla onun MK birinci katibi seçildiyindən lap bir neçə gün sonra söhbətləşərkən, anladım ki, bu, kadr korpusunun birləşməsinə yönəldilmiş xətti apara, Heydər Əliyev kursunu davam etdirə biləcək adam deyil. Mən bu barədə Heydər Əliyeviçin özünə 1983-cü ilin martında demişdim. Hələ şöbə müdiri olaraq Moskvaya hansısa müşavirəyə yollandım və Heydər Əliyevə Kremldə baş çəkdim.

Biz işlərin vəziyyəti, respublikadakı şərait haqqında söhbət etdik. Və onda Heydər Əliyevə dedim:

– Biz Kamranda yanılmışıq.

Məsələ ondadır ki, dekabr ayında, Əliyevin Moskvaya getməsindən üç-dörd gün sonra, Bağırov məni yanına çağırıb kadrlar haqqında söhbətə başladı: "Bəs filankəs necə təyin olunmuşdu? Bəs filan adam Heydər Əliyevin nəyidir, bəs bu birisiylə münasibətləri necə idi?.." Əslində, Əliyevin kadr siyasətini tənqidi şəkildə araşdırmağa başladı. Bir sıra MK Büro üzvlərinə qarşı bəd münasibətini bildirdi. Və mən onda daxilən eymədim: əgər o, belə şeylərdən başlayıbsa, xeyir gözləmə.

Mən səhv etdiyimizi deyəndə, Heydər Əliyev mənə heyrətlə baxdı:

– Nə danışırsan, ağlın çaşıbmı?

– Xeyr, Heydər Əliyeviç...

Və Kamran Bağırovla söhbətimin məğzini ona söylədim.

O, fikrə getdi. Sonra:

– Əgər belədirsə, sən haqlısan, – dedi. – Görünür, biz doğrudan da səhv etmişik. Məndən sənə məsləhət: çalış Kamranla münasibətlərini pozma, Büroda onun ünvanına tənqidlə çıxış etməyin rəva deyil. Hansısa problem, ya suallar ortaya çıxsa, qəbuluna get və təkbətək bütün düşündüklərini de.

Mən də bu məsləhətə əməl etdim.

Yəni Heydər Əliyev yenə də respublikanın maraqlarını, Kamrana kömək göstərmək lazım olduğunu düşünürdü ki, o, duruş gətirə bilsin və Azərbaycana layiqincə rəhbərlik etsin.

O özü imkan daxilində respublikaya yardım göstərməyə çalışırdı. Kamran isə bu dəstəyin, bu etimadın qədrini bilmədi. İş o yerə çatırdı ki, hələ Heydər Əliyev Moskvada vəzifə başında olanda, o, Sov.İKP Mərkəzi Komitəsinə yollanıb şikayətlənirdi: bəs görürsünüz, Heydər Əliyevin əhatəsi məni işləməyə qoymur, daima onu respublikadakı vəziyyətdən məlumatlandırır, mənə badalaq vurur... Yəni öz zəifliyini, təşəbbüssüzlüyünü, siyasi iradəsizliyini ətrafdakı hansısa qüvvələrin uydurma fitnə-fəsadı ilə pərdələmək istəyirdi. Bir sözlə, o, respublikanın həqiqi rəhbəri ola bilmədi ki bilmədi. Zaman göstərdi ki, onun buna görə lazımi keyfiyyətləri yox idi. Xalq Heydər Əliyev kimi azman dövlətçidən sonra onu qavramırdı. Bağırov özü də buna xeyli əsas verirdi..."

Respublika Nazirlər Sovetinin sabiq sədri Həsən Seyidov hesab edirdi ki, Yeqor Liqaçovun 1985-ci ildə Azərbaycana rəsmi gəlişini Heydər Əliyevin yetişdirdiyi kadrların tədricən kənarlaşdırılmasının başlanğıcından xəbər verən dönüş məqamı saymaq olar.

"Yadınızdadırmı, 1985-ci ildə Bakı hesabat-seçki konfransına Liqaçov gəlmişdi. O, elə o vaxtdan Heydər Əliyevə qarşı "köklənmişdi". Hətta Nazirlər Sovetində keçirilən fəallar yığıncağında o, öz çıxışını əsasən iqtisadiyyat məsələlərinə həsr etmişdi. Respublika haqqında danışır, amma Mərkəzi Komitəni deyil, Nazirlər Sovetini tənqid edirdi. Heydər Əliyevi, əlbəttə, birbaşa qınamırdı, amma çıxışından duyulurdu ki, bu – respublika partiya təşkilatının keçmiş fəaliyyətinin tənqididir. O deyirdi ki, mənzil, məktəb tikintisi pis gedir, bir sözlə, heç bir yaxşı şey tapmayıb, respublika iqtisadiyyatını tənqid edərək, bunun Heydər Əliyev irsi olduğuna eyham vururdu.

Moskva rəhbərinin çıxışının belə qərəzli təmayülü məni ona arayış yollamağa vadar etdi. Bizdə sosial islahatların proqramı vardı. Üç beşillik ərzində bu məqsədlərə 4,2 milyard rubl məbləğində vəsait xərclənmiş, bu da əvvəlki 15 ilin həcmini az qala iki dəfə üstələyirdi. "Son 15 il ərzində Azərbaycan SSR-də sosial-mədəni quruculuğun bəzi aspektləri haqqında" adlı sənədi Liqaçova göndərdim, bilmirəm ona çatdı, ya köməkçilərində qaldı. Həmin arayışın bir nüsxəsini də Heydər Əliyeviçə çatdırdım.

– Liqaçovun gəlişindən sonra Əliyevə münasibət dəyişmişdimi?

– Sov.İKP MK tərəfindən təzyiqin artması duyulmağa başladı. Görünür, onu kənarlaşdırmaq üçün bəhanə axtarırdılar. Liqaçov, Qorbaçov Kamran Məmədoviçə çox güclü təzyiq göstərirdilər. Bəlkə Heydər Əliyeviç bundan xəbər tutmuşdu.

– Nə mənada "təzyiq göstərirdilər"?

– Onlar istəmirdilər ki, Əliyev belə fəal kömək göstərsin, respublikanın işlərinə müdaxilə etsin. Heydər Əliyeviç isə bir vətənpərvər kimi, kənarda qala bilməzdi. Bax, elə bu onların xoşuna gəlmirdi".

Azərbaycan Prezidenti İşlər İdarəsinin arxivində mən Sov.İKP MK Siyasi Bürosunun üzvü, MK katibi Y.Liqaçovun 1985-ci ilin 20 dekabrında respublika partiya və sovet fəallarıyla görüşünün, eləcə də 21 dekabrda 46-cı Bakı partiya konfransında çıxışlarının stenoqramlarını tapdım.

Çıxışları tənqidi yönümüylə yetərincə səciyyəvidir. Yəqin Yeqor Kuzmiç* respublikaya çox hazırlıqlı təşrif buyurmuşdu və onu narahat edən yalnız Azərbaycan partiya təşkilatının işindəki zəif cəhətlər deyildi. Başlıca hədəf – respublikaya Heydər Əliyevin başçılıq etdiyi əvvəlki dövrü neqativ şəkildə təqdim etmək idi.

Liqaçovun 20 dekabr 1985-ci il tarixli çıxışından:

"...Siz verdiyiniz səmərədən qat-qat çox vəsait alırsınız...

...Sizdə açıq-aydın uğursuz vəziyyət yaranmış, neft hasilatı üzrə beşillik tapşırıqlar yerinə yetirilməmişdir...

* Yeri gəlmişkən, nəyə görəsə onun öz adından xoşu gəlmirdi və o ətrafdakılardan onu "Yuri Kuzmiç" kimi çağırmağı tələb edirdi.

...Bax, mənə verilən göstəricilər sadəcə sübut edir ki, bu məsələdə işləriniz (məhsul keyfiyyətinin yaxşılaşdırılması – ***E.A.***) yaxşı getmir, xüsusən, neftçıxarma avadanlığı istehsalında. Bakı zavodunun buraxdığı "kaçalka" dəzgahlarının 20 faizdən çoxu qəbuldan əvvəl zay sayılır, Keşlə maşınqayırma zavodu aqreqatlarının, Qasımov adına zavodun nasos qurğularının yarısı da...

Mənə köhnəlmiş məhsul buraxan müəssisələrin bütöv bir siyahısını və 10–15 ildən bəri məhsulun təzələnməməsi barədə arayış vermişdilər.

...Suvarılan torpaqlarda becərilən bir çox, bəlkə də hər növ kənd təsərrüfat bitkisi üzrə sizdə məhsuldarlıq bütövlükdə İttifaq üzrə, yaxud qonşu respublikalarda olduğundan aşağıdır.

...Siz sosial məsələlərlə çox ciddi məşğul olmalısınız, siz qeyri-obyektiv (səbəblərə görə – ***E.A.***) bir sıra göstəricilərdə geridə qalmısınız"[105].

1979-cu il dekabrın 22-də leytenant Şmidt adına (indiki Səttarxan adına) zavodun mədəniyyət sarayında keçirilən Azərbaycan neftmaşınqayırma sənayesi işçilərinin mitinqində çıxış edən Heydər Əliyevin səsləndirdiyi faktlar Qorbaçov elçisinin sonrakı iradlarını təkzib edir:

"Soyuzneftemaş" birliyinin məhsulu dünyanın 34 ölkəsinə ixrac edilir. IX və X beşilliklər ərzində neftmaşınqayırma istehsalının həcmi təxminən 3 dəfə, əmək məhsuldarlığı 2,3 dəfə artmışdır. On il ərzində sahənin rekonstruksiya və modernləşdirilməsinə vəsait qoyuluşu 110 milyon rubl təşkil etmişdir. 9 zavod, 26 sex köklü şəkildə avadanlıqla təmin olunmuş, 22 mexanikləşdirilmiş istehsalat xətti tətbiq edilmişdir.

IX və X beşilliklər ərzində 600-dən artıq yeni müasir neftçıxarma və qazma geoloji-kəşfiyyat avadanlıq növləri istismara verilmiş, 246 növ köhnəlmiş konstruksiyalar istehsalatdan götürülmüşdür. Neft-mədən avadanlığının 45 faizi Keyfiyyət nişanına layiq görülmüşdür".

Bu nailiyyətlər haqqında Liqaçovu məlumatlandırmayıb, itaətkarlıqla diqqəti nöqsanlar üzərində vurğulamışdılar. Ümumiyyətlə, Yeqor Kuzmiç, demək olar ki, respublika həyatının hər sahəsində bir "qəmbərqulu" görmüşdü; istər mənzil inşaatı, xidmətlər sahəsi olsun, istər ticarət və sairə. İdeoloji məsələlərə gəldikdə, onun fikrincə, "mədəni həyatda hər şey öz qaydasında deyil: kinoteatrlarda xarici filmlər həddindən artıqdır, teatr və muzeylərə davamiyyət nəzərdə tutulduğundan ikiqat azdır" (?!).

Dinə qarşı mübarizə də dilə gətirilmişdir: "Bizə çatdırmışdılar ki (maraqlıdır, kimdir o "çatdıranlar"? – ***E.A.***), dini situasiyada heç də hər şey yaxşı deyil. Zaman-zaman dini vəziyyət daha da kəskinləşir. Yoldaşlar deyirlər ki, məişətlə, milli ənənələrlə və keçmişin qalıqlarıyla sıx bağlı olan islam əhalinin müxtəlif qruplarına nəzərəçarpacaq təsirini saxlamaqdadır. **Burada sizdə bir növ dinc yanaşı yaşamadır** (seçmə bizimdir – ***E.A.***). Biz belə yanaşı yaşamanın əleyhinəyik... Bu, bizim siyasət deyil. Ələlxüsus da ki, islam sizin respublikaya qarşı daha fəal işləməyə başlamışdır"[106].

Xülasə, tamamilə sübutsuz-dəlilsiz, demaqoqcasına təpinmələrlə respublika partiya təşkilatının mədəni siyasət və ideologiya sahəsində gördüyü nəhəng işlər üzərindən qara xətt çəkmək cəhdi göstərilmişdir.

Liqaçovun üzümçülük sahəsi ilə bağlı söylədiyi dəyərləndirmələr üzərində ayrıca dayanmaq istəyirəm, – burada o, respublikanın sabiq partiya rəhbərliyinin ünvanına birbaşa hücumlara yol verir.

"Hələ 1972–1975-ci illərdə sərxoşluq və alkoqolizmə qarşı mübarizə üzrə iki qərar çıxmışdı. Orada dəqiq və aydın yazılmışdı: spirt qatılmış çaxırların istehsalı azaldılmalı və alkoqolsuz içkilərin istehsalı xeyli yüksəldilməlidir. Sizdə hər şey tərsinə olmuşdur. Siz üzümçülüyü bütövlüklə çaxır istehsalına yönəltdiniz. Hansı əsasla? Üzüm məhsulunun 94%-i çaxır məmulatına gedir. Və buna bir milyard yarım vəsait qoyulmuşdur. İndi isə daha əllisi də üstünə qoyulmalıdır, məhsul insanın zəhərlənməsinə deyil, həqiqətən də qidalanma məqsədlərinə sərf olunsun...

...Təbii ki, sizləri mərkəzdən bəzi yoldaşlar (!) təhrik edirdilər. Mən bu barədə də demək istəyirəm. Biz bütün bu günahı sizin üstünüzə yıxmaq istəmirik... Qəribədir ki, respublikada əvvəlkitək qarşıdakı beşillikdə də çaxır hasilatına imkan tapmağa cəhdlər göstərilir. Bizdə indi anbarlar araq və çaxırla doludur. Həm də istehlakın ən kəskin ölçüdə azalması araq üzrə, çaxır üzrə deyil, şampan şərabı üzrədir. Qərar çıxandan sonra şampana tələbat 40% aza-

lıb. Şampan şərabı isə Azərbaycanda hasil olunur. Biz də bütün anbarları, mağazaları doldurmuşuq. Gəlin çalışaq ki, süfrədə daha çox təzə dərilmiş, qurudulmuş, konservləşdirilmiş üzüm olsun..."[107].

Qəribə yanaşmadır: bir xoşagəlməz halın səbəblərinə qarşı deyil, nəticələrinə qarşı mübarizə aparmaq, özü də atüstü hücumlarla, qadağalar qoymaqla.

Yuxarıda biz Liqaçovun belə ağına-bozuna baxmadan canfəşanlıq göstərməsinin "bəhrələri"ndən bəhs etmişdik.

Onun 46-cı Bakı şəhər partiya konfransındakı çıxışı da belə tənqidi havacat üstə köklənmişdi. 13 il Heydər Əliyevin vurduğu hədəfi – zəhmətlə qazanılmamış gəlirlərə, talançılığa qarşı mübarizə məsələsinə toxunaraq, Liqaçov respublikanın bu sahədə əldə etdiyi uğurlardan yan keçmişdi. Onun fikrincə, hər şey yalnız mərkəzin işarəsilə indicə başlamış və Bakı kommunistləri "talançılığın, alverin, rüşvətxorluğun, zəhmətlə qazanılmamış hər cürə gəlirlərin kökündən kəsilməsi üzərində fəal çalışmalıdır"[108].

Ramiz Mehdiyevlə söhbətdən:

" – Sov.İKP MK xəttilə aparılan yoxlama nə idi? Həsən Seyidov söyləyirdi: "Respublikaya Moskvadan müstəntiqlər qrupu gəlmişdi. Onlar Özbəkistanda tapdıqlarını burada da tapmaq və eləcə də səs-küylü "pambıq" işini açmaq niyyətindəydilər. Heydər Əliyev hələ Siyasi Büronun üzvü idi. Və ona, əlbəttə, bu yoxlama bərk toxunmuşdu.

– Seyidov səhv etmişdi: bu Vəzirov dövründə, Moskvada Heydər Əliyevi sonadək "ifşa etmək" qərarlaşdırılanda olmuşdu. Hərçənd, Özbəkistanda "pambıq" işi başlayandan sonra biz Azərbaycana qarşı da miqyaslı hücum aparıldığını görürdük. Sov.İKP Mərkəzi Komitəsindən dabanbasma yoxlama qrupları gəlir, "pripiska" faktları, respublikanın sabiq baş prokuroru Qamboy Məmmədovun uzun-uzadı şikayətnamələrdə söylədiyi iftiraların təsdiqini axtarırdılar. Ermənilər də çoxsaylı şikayətnamələr təşkil edib Heydər Əliyev dövründə guya sıxışdırıldıqlarını bəyan edirdilər. Qanuni olaraq cəzalandırılan cinayətkarlar da bu "ahu zara" qoşulmuşdular.

Xatirimdədir, MK Bürosunda biz Şamxor rayonunda vəziyyəti müzakirə edirdik və o vaxt raykomun birinci katibi Əjdər Əsədov işdən azad olundu. Halbuki, formalca səbəb başqa idi: Şamxor rayonunun kəndlərinin birində gecə vaxtı, xəlvətcə Andranikin heykəli quraşdırılmışdı. Əlbəttə, məsələ araşdırıldı, heykəli söküb yığışdırdılar. Amma raykom katibini cəzalandırmaq lazım gəlmişdi. O vaxt, yadımdadır, bir çox adamları sorğu-suala çəkərək raykom katibinə və müvafiq olaraq yuxarı iqtidara qarşı "kompromat" qurdalayıb çıxarmağa çalışdılar. Lakin insanlar praktiki olaraq saxtalaşdırma faktlarını təsdiqləmir, birinci katib Əsədov da saleh adam olaraq təzyiqə və hədə-qorxuya uymadı".

Azərbaycan DTK sədrinin sabiq müavini **Bahadur Hüseynov** Əliyev kadrlarının "süpürülməsi" üzrə başlanmış kampaniyanın ilk "qurbanlarından" oldu. Sonralar o xatırlayırdı:

"Liqaçov Bakıya gəldiyi günlərdə biz onunla Neft Daşlarına səfər etmişdik. Onun gəlişi Çekistlər gününə təsadüf etdi.

Bu münasibətlə Opera və Balet teatrında təntənəli yığıncaq oldu. Həmin gün Liqaçovun iştirakıyla K.Bağırovun yanında müşavirə keçirilirdi.

– Burada çekistlərdən kimsə varmı? – Liqaçov soruşur.

Kamran Bağırov da məni görməzliyə qoyub öz cangüdənini göstərir. Axı mən DTK-nın sədr müaviniydim, ilk növbədə məni təqdim etməliydi.

Mən qəti əminəm ki, bu adamları, o cümlədən, məni də Heydər Əliyevin respublikada möhkəm qərarlaşmış nüfuzunu zəiflətmək üçün kənarlaşdırmışlar. Çox güman ki, Bağırov və başqaları düşünürdülər ki, biz burada öz yerlərimizdə işləməkdə davam edincə Əliyevə informasiya çatdırılacaq. Axı hansı informasiya? Heydər Əliyev doğma xalqının təmsilçisi idi. O, öz respublikasına qarşı bir əmələ yol verərdimi?

Onun irəli çəkdiyi adamların işdən çıxarılmasına bais Liqaçov və Bağırov olmuşlar, hərçənd sonuncu özünü bizim qalmağımızı istəyən kimi göstərirdi. Amma bu açıq-aydın ikiüzlülük idi. Axı sən birinci katib ola-ola rəyinə qulaq asmırlarsa, sən necə rəhbərsən?

Liqaçov gedəndən sonra mənə təqaüdə çıxmağı təklif etdilər. Bu zaman Yusifzadə Moskvadaydı, ona göstəriş verdilər ki, Hüseynovu işdən azad et. Mən hiss elədim, bu, Heydər Əliyevlə bağlıdır,

raport yazıb çıxdım. Halbuki Kamran Bağırovla can-başla işləyirdim, ürəkdən köməklik göstərirdim, axı onu Heydər Əliyev təyin etmişdi".

Bahadur Hüseynovun hekayətini respublika Ali Məhkəməsinin sabiq sədri **İbrahim İsmayılov** təsdiqlədi – o da həmin "çıxarışlara" hədəf olmuşdu.

"Bizdə Sov.İKP MK səviyyəsində yoxlama aparılırdı. Əliyev hələ Moskvada işləsə də, artıq onun "altını qazırdılar". Heç bir kəm-kəsir tapmadılar. Onların əllərində hansısa bir sərsəm anonim ərizə vardı, yoxlama nəticələri üzrə təsdiqlənmədi. Onda işi araşdırmaq üçün Liqaçov özü gəldi. İşdən çıxmalı olacaq yüksək vəzifəli partiya məmurlarının siyahısı tərtib edildi. Mən də bu siyahıya düşdüm. Liqaçova bildirdilər ki, yoxlama materiallarına görə İsmayılovun işində heç bir nöqsan tapılmamışdır.

– Hər necə olsa da, çıxarın, – Liqaçov buyurur. – O, naxçıvanlıdır, Heydər Əliyevin adamıdır.

Elə onda məni Kamran Bağırov çağırıb istefa haqqında ərizə yazmağımı tələb etdi.

– Bu, Qorbaçovun göstərişidir. O, tələb edib ki, işdən çıxasınız. Bu nə məndən, nə də Heydər Əliyevdən asılıdır. Siz yaxşı işləyirsiniz, sizdə heç nə tapmayıblar. Amma indi biz sizi qoruya bilmərik.

– Kamran Mamedoviç, – dedim, – məni öz qərarınızla işdən azad edin. Hansı əsaslandırma istəyirsinizsə tapın, mən isə sonra ona qarşı iddia irəli sürəcəm...

– Siz elə bilirsiniz ki, onlar buna gedərlər? Onlar məni işdən daha tez çıxararlar ki, Azərbaycanda Sov.İKP Mərkəzi Komitənin xəttini yeritmirəm.

Mənə istefa haqqında ərizə yazmağı təklif edəndə, mən hökumət telefonu ilə Heydər Əliyevə zəng vurdum. O dedi: "Yanıma gəl". Mən təcili olaraq təyyarə ilə Moskvaya uçdum. Onunla görüşdüm. Məni dinləyib dedi: "Ərizə vermə. Qoy onlar əsaslandırma tapsınlar və özləri səni işdən azad etsinlər. Onda biz burada bu məsələni qaldırarıq. Əgər sən özün ərizə yazsan, biz heç nə edə bilmərik. Mən bilirəm, bu yolla mənim altımı qazırlar, bu təsadüfi deyil. Amma sən möhkəm dur!".

Mən ürəklənib qayıtdım, dedim ki, ərizə verməyəcəm. Bağırov yanıma adam göndərməyə, dilə tutmağa, təzyiq göstərməyə başladı. Bir müddət ötəndən sonra bezikdim və istefaya çıxdım.

Sonra inzibati şöbənin müdiri Sabir Hüseynovu, daxili işlər naziri Cəfər Vəliyevi, kənd təsərrüfatı naziri Məmməd Əsgərovu, respublika prokuroru Abbas Zamanovu, bir çox raykom katiblərini işdən azad etdilər. Cəmi üç yüz nəfəri. Pambıq, üzüm yığımı üzrə planların yerinə yetirilməsini yoxlamağa başladılar. Anonim məktublar təşkil etdilər. Bu "arıtlamanı" Bağırov başladı, Vəzirov isə tamamladı. Bütün bunlardan sonra da Heydər Əliyev xəstələndi, "onun" kadrlarının zorla dəyişdirilməsi ona ağır təsir etmişdi".

Ramiz Mehdiyevlə söhbətdən:

" – Müsahiblərimdən bəziləri xatırlayır ki, Liqaçov Bakıya Əliyevin kadr siyasətini, respublikadakı iqtisadi vəziyyəti yoxlamağa gələndə, guya Bağırova istefaya göndəriləcək adamların siyahısını da gətiribmiş. Belə şey olubmu?

– Siyahı haqqında heç nəyi konkret deyə bilmərəm. Heydər Əliyevin yetişdirdiyi, ona sadiq olan və respublikada yetərincə möhkəm mövqe tutan kadrların dəyişdirilməsində Liqaçovun da təşəbbüskarlıq göstərməsi faktdır. Belə niyyətlər vardı. Bunu gizlətmək mümkün deyildi. Siyahı haqqında deyə bilmərəm, görməmişəm və MK Bürosunda bu barədə heç bir söhbət getməmişdi. Amma Moskvanın respublikada vəziyyəti "laxlatmağa" başladığını Büro üzvlərinin hamısı duyurdu.

Sonralar, 1988-ci ilin mart ayında Kamran Bağırov Moskvadan qayıdıb məni çağırdı:

– Bilirsən, mən Moskvada Siyasi Büro səviyyəsində yoldaşlarla görüşdüm. Mənə birbaşa göstəriş verildi ki, Mehdiyev MK katibi vəzifəsindən azad olunmalıdır.

– Bəs səbəbi nədir? – maraqlandım.

– Deyirlər, o, Heydər Əliyevin yaxın adamı, onun kadrıdır, tez-tez onunla əlaqə saxlayır, telefon söhbətləri aparır...

Mən birbaşa sual verdim:

– Bəs onlar demədilərmi ki, siz də Heydər Əliyevə yaxınsınız, onun kadrısınız, üstəlik MK-nın birinci katibisiniz? Belə halda siz

də mənimlə bərabər aradan götürülməlisiniz...

– Mən sənə xəbərdarlıq etdim.

Belə söhbət oldu.

Liqaçov 1985-ci ilin sonlarında birinci dəfə Bakıya səfəri zamanı, MK Bürosundakı görüşdə və ardınca Bakı partiya konfransında respublikada ciddi əyintilər olduğu, şişirdilmiş rəqəmlərə yol verildiyi haqqında danışdı, Azərbaycanda guya kök salmış yerlibazlığı, kadr siyasətini tənqid etdi. Yəni vəziyyəti qara rənglərdə təqdim etməyə çalışırdı. Hiss olunurdu ki, o, Heydər Əliyevə qarşı çox neqativ tərzdə köklənib və bu münasibəti respublikada işlərin vəziyyətinə şamil edirdi".

Azərbaycan DTK-nın sabiq sədri Ziya Yusifzadə də Liqaçovun Heydər Əliyevin adı ətrafında mənfi imic yaradılmasında mənfi rolunu mənimlə söhbətində qeyd edirdi:

" – Siz öz çıxışlarınızın birində guya Liqaçovun seyfində saxlanılan, Heydər Əliyevin əleyhinə yazılmış anonim məktubları xatırlamışdınız. Məktubların mətni necə idi?

– Cürbəcür. Onları bir qayda olaraq imzasız yazıb Moskvaya yollayanlar rüşvətxorluğa, sosialist qanunçuluğunun ciddi pozuntuları, xidməti vəzifəsindən sui-istifadə etdiklərinə və başqa hüquq pozuntularına görə vaxtilə Heydər Əliyev tərəfindən tutduqları yüksək vəzifələrdən azad edilmiş, bir sıra hallarda isə cinayət məsuliyyətinə cəlb olunmuş adamlar idi. Yeri gəlmişkən, Əliyevin korrupsiyaya qarşı mübarizəsi Moskvada müəyyən dairələrin narazılığına səbəb olmuşdu. Yaxşı ki, bu məsələdə Heydər Əliyeviçi Andropov dəstəkləyirdi.

80-ci illərin ortalarında Liqaçov Qorbaçovun ən yaxın adamlarından idi. Mərkəzi Komitənin partiya-təşkilat işi şöbəsinin müdiri, sonralar katibi olaraq, o, kadr işlərinə nəzarət edirdi. Ona görə Heydər Əliyevə aid bütün materiallar Liqaçovda saxlanılır, sonra isə Partiya Nəzarəti Komitəsinə – Boris Puqoya verilmişdi. Çox sanballı, ədalətli adam idi. Biz 1980-ci ildə bir yerdə təsdiqlənmişdik – mən Azərbaycan DTK sədri vəzifəsinə, o isə Latviya SSR DTK sədri vəzifəsinə. Puqo Heydər Əliyevi yaxşı tanıyır və ona hörmət bəsləyirdi. Puqo bir məhrəm söhbətdə Əliyevə çatdırmışdı ki, ona aid şikayətlər, anonim məktublar və s. var. Amma qoy ürəyinə salmasın, bütün bunlar cəfəngiyat, iftiradır, buna fikir verməyə dəyməz.*

1985-ci ilə qədər Əliyevə qarşı anonim məktublara məhəl qoymurdular, 1986-cı ildən etibarən onları yığmağa başladılar. Liqaçov bütün "solaxay" məsələlərdə Baş katibin "müvəkkili" idi. Və Qorbaçovun buyruğu ilə Əliyevə qarşı "dosye"ni "bəsləməyə" başladı. 1985-ci ildə Azərbaycana gələndə də Əliyev dövrünə şamil edilə biləcək kəm-kəsirlər aramaqdan usanmadı... Günahsız Qonaq evini də bir ucdan hallandırırdı: yəni bu nədir, nə kaşanədir Brejnev üçün yapmısınız! 1988-ci ildə yenə də Qorbaçovun "fitvası" ilə respublikada iqtisadi fəaliyyətin yoxlanılması məqsədilə Azərbaycana 1500 nəfərdən ibarət (!) operativ-istintaq briqadası göndərilir. Burada özbəkistansayağı "pambıq" işi yapmağa can atırdılar. Hərçənd, bütün səylərinə baxmayaraq, bir şey hasil etməyə müvəffəq olmadılar".

Əliyevin bədxahlarının Moskvaya göndərdikləri iftiralar haqqında "Vlast" ("Hakimiyyət") jurnalının müxbirinə verdiyi müsahibədə SSRİ Nazirlər Sovetinin İşlər İdarəsinin sabiq müdiri Mixail Smirtyukov xatırlayırdı:

"Ona qarşı cürbəcür imzasız da, imzalı da xeyli məktub gəlirdi. Əvvəl onlar haqqında Tixonova söylədim, o isə: "Bura bax, – dedi, – onları neyləyirsən elə, mən bununla məşğul olmaq istəmirəm". Mərkəzi Komitədə dedilər ki, onların özündə də belə məktublar çoxdur. Onda mən getdim Heydər Əliyeviçin yanına. Bəzilərini verdim oxusun. O, oxuya-oxuya deyirdi: "Düzdür, bunu mən tutdurmuşam. Bunu da biz dama basmışıq. Bax, bu julikdir. Bu filan-filandır. Bunu isə qovmuşuq. Bu birisini vəzifəsindən çıxarmışıq. Hər şey düzdür". Dedim onda məktublar sizdə qalsın. Etiraz elədi, yox, lazım deyil, götür onları, nəyimə gərəkdir, dedi. Bu, mənim ürəyimə yatdı. Başqası bəlkə onları alıb məhv edərdi, o isə: "Nə

* "Naşirin qətli" kitabında (Bakı, 2001) biz İ.Nəcəfovla Heydər Əliyevin Azərbaycana qayıtmasını əngəlləmək məqsədilə ona siyasi və psixoloji təzyiq göstərilərkən Boris Puqonun da Əliyevə qarşı "dosye"dən bir vasitə kimi istifadəyə məcbur edilməsindən söz açmışıq.

istəyirsən, elə", – deyə-deyə qaytarırdı yazıları, sonra isə, özü söylədiyi kimi, onu Qorbaçov yanına çağırıb deyibmiş ki, çox sayda cürbəcür məktublar gəlir, "Biz onların yoxlanılması üzrə komissiya yaradaq, yoxsa sən özün istefaya çıxasan?". Əliyev müqavimət göstərsə də, onu sıxışdırıb kənarlaşdırdılar"[109].

Qorbaçovun təzə favoritləri ilə mürəkkəb münasibətlərə erməni millətçiliyi amili də qarışırdı. Dağlıq Qarabağ ətrafında münaqişənin səbəbləri incələnən çoxsaylı, o cümlədən, xarici araşdırmalar inandırıcı surətdə sübut edirlər ki, ötən əsrin 80-ci illərində separatist kampaniyanın təşəbbüskarları muxtar vilayətin hüdudlarından kənarda yaşayan ermənilər, həmçinin, onların Qərbdəki havadarları olmuşdur. Əminəm ki, Qorbaçov cütlüyü Parisdə olarkən onların varlı "fransız" ermənilərilə görüşü heç də təsadüfən təşkil edilməmişdi. Bu barədə tanınmış Azərbaycan jurnalisti A.Şərif yazırdı:

"O illərdə şayiələr gəzirdi, elə müxtəlif qəzetlərdə də açıq sezdirilirdi ki, Parisdə olarkən "birinci ledi" erməni antikvarları ilə görüşmüşdü. Və hər şeydən göründüyü kimi, onların "diqqəti"ndən razı qalmışdı. Onlar da "birinci xanım"ın lütfkar canıyananlığından razı qalmışdılar. Lakin zaman ötdükcə Parisdə narahat olmağa başladılar. Az sonra Moskvaya milliyyətcə erməni olan Fransanın məşhur antikvarı gəlir və "yuxarılarda" kimləsə görüşməyə yol axtarır. Sonra gözlənilməz əhvalat baş verir: məlum olur ki, səhər ertədən antikvar rəngi bilinməyən "Jiquli" maşınına minib harasa yollanır. O vaxtdan izi-sorağı qalmır. Hərçənd, səsli-küylü axtarışlar başlanır. Təxminən bir həftə sonra Moskva yaxınlığında bir çayın qolunda paytaxt milisi naməlum bir kişinin meyidini tapır. Parisdən antikvarın bacısı çağırılır, o da hansısa xaldan öz qardaşını tanıyır. Bu hadisə ilə əlaqədar hətta Yerevanda hansısa bəxşişləri qaytarmaq tələbi ilə mitinqlər keçirilirdi. Ermənistandan deputat olan rəssam İgityan isə SSRİ Ali Sovetinin televiziya ilə yayımlanan sessiyasında çıxış edərək M.Qorbaçova üz tutub deyirdi: "Axı siz söz vermişdiniz..." Qorbaçovun ermənilərdən kimə, haçan, nə vəd etdiyi sirr olaraq qaldı..."[110].

İngilis jurnalisti Tomas de Vaalın "Qara bağ" adlı çox maraqlı kitabında Heydər Əliyevin kənarlaşdırılmasında erməni separatçılarının birbaşa əli olduğuna şəhadət verilir.

T.de Vaalın sözünə görə, "parlaq siyasi təşkilatçı və amansızcasına sərt etməni millətçisi" İqor Muradyan Heydər Əliyevin Kremldə Qarabağın ayrılmasının əsas əleyhdarı olaraq bütün prosesi dayandıra biləcəyini düşünərək, Əliyevin şərlənməsinə yönələn kampaniyanı qızışdırmışdır.

T.de Vaal yazır: "Muradyanın ən cəsarətli ideyalarından biri bundan ibarət idi: öz dostu, eynilə erməni millətçilik hərəkatının fəal iştirakçısı olanla birgə o, Əliyevə qarşı Azərbaycan SSR Cinayət Məcəlləsinin 67-ci maddəsi – "milli ləyaqətin alçaldılması" – üzrə cinayət işi qaldırmışdı. İş uduzulsa da, amma yəqin az da olsa Əliyevin Siyasi Bürodan çıxarılmasında rol oynamışdı. 1987-ci ilin yayında Əliyevi guya səhhəti ilə bağlı vəzifəsindən kənarlaşdırmışlar və həmin ilin oktyabr ayında o, rəsmi olaraq Siyasi Büro tərkibindən xaric edilmişdi. Deyirlər Ermənistan Kommunist Partiyasının rəhbəri Dəmirçyan SSRİ ali partiya rəhbərliyində öz opponentinin siyasi karyerasının süqutuna çox şad olubmuş. Muradyanın sözlərinə görə, 1990-cı ildə ümumi tanışları ona Dəmirçyanın "tərifini" çatdırmışdı: "Biz ən başlıca işi – Heydər Əliyevin hərəkatın (Dağlıq Qarabağın ayrılmasına yönəldilən hərəkat nəzərdə tutulur. – ***E.A.***) başlanğıcından əvvəl aradan götürülməsinə nail olmuşuq. Bu çox vacib idi"[111].

Əliyev başa düşürdü ki, ona qarşı qurulan fəsad sonluğa yaxınlaşır və əvvəl-axır onu vəzifəsindən çıxmağa məcbur edəcəklər. Ona görə də hansısa əks-tədbirlər görməyi qərara aldı. Bununla bağlı Heydər Əliyevin qızı **Sevil xanımın** mənə söylədiyi təfsilat yerinə düşər:

"O dövrdə Qorbaçov onu Siyasi Bürodan uzaqlaşdırmaq, istefaya göndərmək istəyirdi. Atamı da yalnız bu yolla (yəni səhhətinin pozulmasına gətirib çıxarmaqla – ***E.A.***) kənarlaşdırmaq olardı. Başqa təqdirdə Qorbaçov nəyə "ilişə" bilərdi ki? Atam heç vaxt bir bəhanəyə yol vermirdi. Yadımdadır, bizə deyirdi ki, elə-belə asanlıqla təslim olmayacaq. Bir dəfə onun bağ malikanəsinə Kamran Bağırov gəlmişdi, atam ona deyirdi: "Belə getsə, onlar məni istefaya çıxmağa məcbur etsələr, mən təqaüdə getməyəcəyəm. Mən elə-belə təslim olmayacam. Mən onu ifşa edəcəm, elə dəlillər təqdim edəcəm ki, bu bir partlayış olacaq". Təsəvvür edirsinizmi? Əliyev

bütün dünyada qazandığı nüfuzu sayəsində nələr edə bilərdi?

Təbii ki, evimiz gizlincə "dinlənirdi", yüz faiz. Orada hansı adamlar içində yaşadığımızı, xidmətçilərimizin hansı yuvanın quşu olduğunu söyləyəsəm, bu ayrı söhbət olar... Onların hamısı DTK əməkdaşları idi. Hər şeyi qeydə alırdılar, bütün söhbətlərimizi, gəliş-gedişlərimizi, sonra da lazımi yerə çatdırırdılar. Zənnimcə, bizim gəlmə, qeyri-rus olmağımız da öz rolunu oynayırdı. Ona görə də bizə daha çox göz qoyurdular.

Daima gizlincə "dinləyirdilər". Ona görə atamın Kamran Bağırova dedikləri, onun bizə söylədikləri Qorbaçova tam məlum olurdu. Atam da bunu bilirdi. Bir dəfə məndən xahiş elədi: "Mənə sadə bayka*dan köynək al". Baş açmadım, nəyinə gərəkdi. Sonra özü izah elədi: "Əgər o məni təqaüdə göndərmək istəsə, zavoda fəhlə kimi işləməyə gedəcəm. Sadəcə fəhlə. Bu da qeyri-adi hal olacaq. Ona görə də baykadan sadə köynəklər lazımdır mənə..." O, Bağırova belə deyəndə, təşvişə düşdüm: axı niyə atam ona bu sözləri deyir?

– Bəlkə o, qəsdən belə eləyirdi? Bəlkə istəyirmiş ki, sonadək getməyə hazır olduğunu orada, "yuxarılarda" bilsinlər?.. Və müvafiq nəticə çıxarsınlar?

– Hər şey ola bilər. Atamın qətiyyətli qırımı nəzərə alınanda, onu dinc yolla təqaüdə göndərməyin yeganə metodu – onu asılı, əlacsız vəziyyətdə qoymaq idi. Odur ki, fikrimcə, infarkt öz-özünə baş verməsin".

Hekayətimin qəhrəmanının qəlbini göynədən haqlı və acı inciklik idi: əgər sən mənimlə işləmək istəmirsənsə, bunu açıq de, birbaşa de. O, özü M.Qorbaçova həmişə səmimi münasibət bəsləmiş, sidq ürəklə Baş katibin nüfuzunu dəstəkləməyə çalışmış, Qorbaçovun yenidənqurması yolunda, necə deyərlər, "külüng çalmış"dı... Əvəzində isə dönüklük və xəyanət görəcəkmiş...

Neçə il əməkdaşlıq etmişlər, ünsiyyətdə olmuşlar, ülfət bağlamışlar, ailəvi yaxınlıqları da yaranmışdı. Sonralar Heydər Əliyevlə yolları ayrıldı, o kimlərisə qane etmədi. Olan işdir. Belə halda da "örtülü bazar" yerinə açıq danışmaq, necə deyərlər, əyri oturub, düz danışmaq olardı. Xeyr, sonuncu Baş katib saman altından su yeritməyi, etinasızlıqla, yekəxanalıqla sancmağı, alçaltmağı, badalaq vurmağı üstün tutdu. Bir niyyətlə – Əliyev dözməyib özü istefaya çıxacaq. Ona görə hesab edirəm ki, Sevil xanımın şərhi məntiqsiz deyil. Sağlam, iş qabiliyyəti başqalarına örnək ola biləcək Əliyevi təqaüdə yola salmaqdan sadəcə qorxurdular, – onun populyarlığı həddindən artıq idi. Deməli, belə çıxır ki, infarkt baş verməsə də, onu uydurmalı olacaqmışlar.

"Qəribə" infarkt

Heydər Əliyevin doğmaları və yaxınlarının xatırladıqlarına görə o, çox sağlam, idmanı, fiziki məşqləri sevən adam idi; qaçış məşqlərini, piyada gəzməyi, üzməyi xoşlayırdı. Bəlkə də idman yeganə "xobbi"si idi. Qızı Sevil xanım xatırlayır ki, Moskva yaxınlığında, Barvixada ailəvi istirahət etdikləri günlərdə atası xizək sürməklə məşğul olardı:

"Orada bir qadın məşqçi vardı, atama təlimat verirdi. Və o, Siyasi Büro üzvü seçiləndən sonra, Moskvaya köçdüyü vaxtda da səhərlər idmanla məşğul olmağa davam edirdi, bağın ərazisində yeyin addımlarla xeyli müddət gəzinirdi. Təlimatçı qadın, müalicəvi bədən tərbiyəsi üzrə həkim də diqqətlərini əsirgəmirdilər. Dördüncü idarə onun səhhətinə ciddi nəzarət edirdi. O, idmanla həkimin, tibbi personalın nəzarəti altında məşğul olurdu. Nəbzini, qan təzyiqini yoxlayırdılar. Və belə adam birdən-birə infarktla necə yatağa düşə bilərdi? Özü də tək-tük adam sonra dirçələ biləcək infarktla!

İnanın, mən elə-belə, nahaqdan demirəm, mənim buna əsasım var.

– Sizin şərhinizə qüvvət verən bir fakt diqqətimi cəlb edir: atanızla işləmiş və sağ qalmış bütün Siyasi Büro üzvləri mənimlə görüşməyə razılıq vermişdilər. Amma 4-cü idarənin sabiq başçısı Yevgeni Çazov qəti imtina etmişdi. Bir də Vladimir Kryuçkov. Deməli, gizlətməli nəsə varmış...

– Bəli, onların bu işdə əli ola bilərdi. Başa düşürəm, bu faktı sübut etmək çətindir, amma susmaq, göz yummaq da olmaz.

– Xüsusilə də ki, Siyasi Büroda belə "təcrübə" də vardı – Siyasi Büro üzvlərinin qəribə infarktlar silsiləsindən, dalbadal ölümlərindən çox-çox yazılıb...

* Bayka – xovlu yun və ya pambıq parça.

– "Yuxarı"ya gəlib çıxan adam sanki kiminsə pəncələri arasına düşürdü. Və azadlıqdan əsər-əlamət qalmırdı. Bəli, yaşayış şəraiti, rahatlıq-filan vardı, amma yaşadıqca da daim düşünəsən ki, evində yır-yığış eləyən qulluqçu qadın səni pusur, hər yerdə mikrofonlar quraşdırılıb... Bunlar cana gətirir, əsəbləri tarıma çəkir...

Mən əminəm: atamın xəstəliyi Qorbaçovun xəbəri ola-ola və onun təşəbbüsüylə törədilmişdir. Onun razılığı olmadan heç kim belə alçaq əmələ əl atmağa cürət etməzdi. Bu, onu kənarlaşdırmağın yeganə yoluydu, çünki sağlam Əliyevlə Qorbaçov heç vaxt baca bilməzdi. Atam heç vaxt barışmazdı və öz xoşuyla təqaüdə çıxmazdı. O, sonacan mübarizə aparmaq əzmindəydi".

Aleksandr İvanovla söhbətdən:

" – Heydər Əliyeviç öz səhhətinə necə yanaşırdı?

– Bu ayrıca mövzudur. Xaricə ezamiyyətə yollananda, mən ona nümayəndə heyətinin siyahısını təqdim edirdim. Heydər Əliyeviç onu nəzərdən keçirib soruşurdu: "Bəs Kumaçov niyə daxil edilib?". Kumaçov şəxsi həkimi idi. "Mən ki xəstə deyiləm". Xasiyyətinə bələd idim. Başlayırdım dilə tutmağa: "Heydər Əliyeviç, siz, şükür, sağlamsınız, möhkəmsiniz. Amma nümayəndə heyətində İvanov, Petrov var, onlar çox da sağlam adam deyil, uçuş uzun çəkəcək, iraq olsun, bir şey ola bilər onlara..." Çətinliklə həkimi nümayəndə heyətinə qatmağa razılığını alırdım.

– Mənə də 90-cı illərdə Heydər Əliyevlə xaricə getmək nəsib olanda, bu cəhətə heyrətlənirdim. Bəzən böyük heyətlə uzaq ölkələrə uçurduq, müxtəlif adamlar olurdu, yolda fövqəladə hallar da baş verirdi, amma Heydər Əliyeviç bir dəfə də olsun təyyarəyə nə həkim, nə də şəfqət bacısı götürməmişdi.

– ...Məsələn, diş ağrısı tuturdu, stomatoloqun yanına getməliydik, poliklinika Qranovski küçəsində yerləşirdi, biz isə, Əliyevin həkimin yanına getdiyini görməsinlər deyə, maşını həyətə sürdürürdük...

– Akademik Çuçalin söyləyirdi ki, infarktla bağlı onu müalicə edərkən ambulator dəftərçəsinə baxıb heyrətə gəlibmiş: orada bir dənə də yazılı qeyd yoxmuş...

– Tamamilə sağlam adam idi. Sağlam adamların hamısında olduğu kimi, onun da özbaşına müalicədən, dava-dərmandan faydalanmaqdan xəbəri yox idi. Buna xaricdə baş verən bir xırda əhvalat dəlalət edir.

Laosa getmişdik. Bir dəfə mehmanxanada paltarını dəyişəndə, pencəyini asılqandan götürərkən barmağı nəyəsə ilişir, yaralanır... Xırdaca çat olsa da, qan çıxır, Lyova Kumaçov da (şəxsi həkimi) Laosda "boğazını islatmaqla" məşğuldu. Mehmanxana otağının yanında duran mühafizəçilər mənə xəbər verir ki, Heydər Əliyeviç səni çağırır. Getdim otağa, mənə üz tutur: "Lev hardadı, nəsə gözümə dəymir?". Gördüm ki, barmağı qanayıb. Balaca yaradır. Dedim: bu saat onu gətirərəm. Levi tapıb silkələdim, birtəhər otağın qapısına qədər gətirib aralanmaq istədim. Gördüm yox, Levin işləri xarabdır. Onun kiçik tibbi çamadanından plastır, "zelyonka" götürüb girdim Heydər Əliyeviçin otağına...

– O, həkimin içki məsələsində həddini aşdığını bilirdimi?

– Bəs necə. Yol verməsə də, hər dəfə izləmək də olmur axı. Barmağının zədəsinə "zelyonka" sürtdüm, üstündən dəri rənginə uyğun plastır yapışdırdım. Laosda üç gün həmin plastırla gəzdi... Qayıdanbaşı müavinim məni əvəz etdi. Bir sözlə, Heydər Əliyeviç həmin dolağı altı gün barmağında gəzdirdi. Mənim iş növbəm gəlib çatdı. Bütün günü kabinetdə oturduğundan onu görmədim. Evə yollanırıq, yenə gözümə o plastır dəydi...

– Barmağınıza nə olub? – soruşdum.

– Necə "nə"? Özün deyildin bunu yapışdıran?

– Axı bu haçanın işidir, Laosda...

– Bilmirəm neyləməliyəm...

– Qoyun, qoparım.

Plastırın yerində ağ ləkə göründü... Bu əhvalat Zərifə xanımın vəfatından sonra olmuşdu".

Eduard Proxorenkonun sözlərinə görə, Heydər Əliyeviç "çox enerjili, mütəhərrik" adam idi. Möhkəm, sağlam kişi idi. O, dəhliz boyu yeriyəndə, onunla ayaqlaşmaq olmurdu".

İvan Laptevin dedikləri də bunları təsdiqləyir:

"Heydər Əliyev səhər saat altı radələrində yerindən durar, qaçışla məşğul olar, üç xovlu məhraba islanınca qaçar, gimnastik hərəkətlər edərdi. O, cismən təlimlənmiş, bərkimişdi, əli də, belə deyim ki, etibarlıydı".

Aleksandr Borodkinlə söhbətdən:

"Mən 1987-ci ilin mart ayında Heydər Əliyeviçin şəxsi həkimi oldum. Məndən əvvəl ona doktor Kumaçov qulluq edirdi. 4-cü idarədə ölkə rəhbərliyinə xidmət edən şöbə vardı. Əliyevlər ailəsilə mən işləyirdim, heç bir başqa həkim cəlb olunmurdu. Amma qayğılar yetərincə idi, çünki mən uşaqlara, nəvələrə görə də cavabdeh idim. 1987-ci ilin martında Volqoqrada ilk birgə ezamiyyətə yollandıq...

– Zəhmət olmasa, onunla ünsiyyətdən aldığınız ilk təəssüratınız barədə...

– Əvvəllər aramızda bir qədər ehtiyatlı münasibət vardı. Bizi bir birimizə təqdim edəndə, Heydər Əliyeviçin qarşımda qoyduğu birinci vəzifə uşaqlarına, nəvələrinə qayğı göstərmək oldu. Özü haqqında heç nə demədi. "Əlbəttə, siz mənimlə olacaqsınız, amma ailəmə də yardım göstərməlisiniz". Mən onun xəstəlik tarixçəsi, müayinə nəticələri ilə tanış oldum. Az əvvəl dispanserizasiya yoxlamalarını keçmişdi...

– O vaxt nigarançılıq doğura biləcək bir məqam nəzərinizə çarpmışdımı?

– Öz yaşına görə o tamamilə sağlam adam idi. Heç bir problemi, heç bir şikayəti yox idi. Həm də sonra, ezamiyyətdə mən onun iş qabiliyyətinə yalnız heyrətlənə bilirdim. Səfərlərdə şəxsi həkim həmişə hardasa yaxınlıqda olur. Heydər Əliyeviç hara yollanırdısa – zavodamı, başqa obyektəmi – mən yanındaydım. Volqoqradda geniş rəsmi proqram hazırlamışdılar – Mamay dağı, zavodlar, daha nələr, nələr. Orada səhərdən gecə düşənədək işə qatlaşırdı. Camaat da maraqla mənim dava-dərman daşıdığım çamadana təəccüb və maraqla göz dikirdi. Mən izdihamı aralayıb bir anlığa yanına keçə bildim: "İşlər necədir? Səhhətiniz, əhvalınız? Bir problem yoxdur ki?". Aprel ayı az-çox sakit keçdi..."

Heyhat ki, "əsil kişilərin azarı" – infarkt, özü də ən ağır formada, bir aydan sonra onu haqlayıb xəstəxana yatağına saldı... Qalan ömrü boyu "infarktmı olmuşdu?" sualı onu düşündürəcək, həqiqəti öyrənməyə çalışacaq.

Səhər süfrəsindən sonra özünü pis hiss etmişdi. Adətincə, səhərlər evdə qidalanardı. Bu dəfə Kremldə çay-çörəklə kifayətləndi. Az sonra halı dəyişdi... Növbətçi həkimi iynə vurdu... O necə iynə idi? Niyə iynədən sonra halı daha da pisləşdi, xəstəxanaya aparılarkən yolda huşunu itirib, haçandan-haçana, iki gündən sonra özünə gəldi?

Və Kremlin baş təbibi Yevgeni Çazovun, hələ ağrı şokundan özünə gəlməmiş Əliyevi istefa haqqında ərizə yazmağa təhrik etməyi, dilə tutmağı... – bu yersiz canfəşanlıq təəccübdən çox şübhə doğurmurdumu? Suallar əvvəlkitək cavablardan çoxdur. Lakin bəzilərinə bir cavab tapmağa çalışacağıq.

Yeri gəlmişkən, son onilliklərdə dərc olunmuş memuarlar dünyada "ən yaxşı təbabət", xüsusilə "Kremlin keşiyində duran" sovet təbabəti haqqında yayılan stereotip təsəvvürləri təkzib edir. 4-cü idarənin həkimləri bir çox hallarda böhranlı məqamlarda öz yüksək vəzifəli pasiyentlərinin dadına çatmağa heç də tələsmir, onların səhhəti haqqında yanlış məlumat verir, bəzən də onların "nazı ilə oynayırdılar". Baş katib Brejnevi, onun illər ötdükcə uyuducu dərmanlardan artan asılılığını yada salaq.

L.Brejnevin köməkçisi Qolikov xatırlayır:

"...Andropov uşaqları (mühafizəçiləri – *E.A.*) hədələmişdi: – Onda həblər (uyuducu dərmanlar) tapılsa sizi işdən qovacam.

Görünür, həkimlər məsləhətləşib ona iki-üç həb verməyi qərarlaşdırdılar, qalanları isə, bir həkimin mənə dediyinə görə, aldadıcı, boş dərmanlar imiş. Amma kim bilir, bunların içində nə var idi? Cəmi beş həb çıxırdı, hamısı narkotik sayılmasa da, kimsə ona xarici, güclü təsirli həblər sırıyırdı. Deməli, hər halda zəhər ona yol tapırmış... Güclü təsirli vasitələr. Onlar idi onun axırına çıxan.

Əminəm ki, Leonid İliç infarktdan ölməyib. Onu həmin zəqqutunla çərlədiblər. Bu Çazovun, başqa həkimlərin nəzərindən yayınıb, yaxud onun halı artıq onları çox da narahat etmirdi..."[11]

Brejnev mühafizəsinin əməkdaşı Vladimir Medvedev xatirələrində təsdiqləyir ki, Y.Çazov Baş katibin uyuducu dərmanları məhdudiyyətsiz sayda qəbul etməsinə barmaqarası baxırdı. Üstəlik, Brejnevin şəxsi həkimi, prinsipial və vasvası adam olan Mixail Kosarev Baş katibə növbəti həb payını verməkdən imtina edəndə Brejnev Kreml xəstəxanasının rəisinə zəng vurmağı tələb edirdi. Çazov itaətkarcasına əlavə həblərə icazəni imzalayırdı. Nə üçün? –

V.Medvedev haqlı sual verir.

"Kresloşunu itirməkdən qorxurdu? Bəs Kosarev niyə qorxmurdu? Onun üçün Hippokrat andı, həkim şərəfi, sadəcə və konkret desək, xəstənin səhhəti və təhlükəsizliyi vəzifə və titullardan üstün idi".

Baş saray "loğmanı" Baş katibi haqlayan əcəli də nəzərindən qaçırdı. Elə onun ölümünə də çox məhəl qoymadı.

V.Medvedevin şəhadətinə görə, Leonid İliç qəfildən keçinmiş – yuxuya gedib oyanmamışdı. Mühafizəçilər qırx dəqiqə ərzində onu dirçəltməyə çalışmışlar...

"Qəribədir, – V.Pribıtkov bununla bağlı heyrətlənir, – bağ iqamətgahında nə tibb məntəqəsi, nə də növbə çəkən tibb bacısı vardı... Özü də 1975-ci ildə Leonid İliç geniş infarktdan sonra möcüzəvi tərzdə o dünyadan qaytarıldığı halda, o, əslində, hər bir anda keçinə bilərdi..."[113]

MK beynəlxalq şöbəsinin əməkdaşı A.Çernyayevin şəhadətinə diqqət yetirək:

"Axşamçağı, Siyasi Büro yığıncağından sonra Ponomaryov müavinlərini yanına çağırdı. Hər şeyin necə baş verdiyini söylədi. Andropovun Baş katib vəzifəsinə məsləhət görüldüyünü bildirdi. Təbabəti, Çazovu söydü: "Fərsiz həkim, hiyləgər və rüşvətxor. Təşkilatçılığı da heç nə. Reanimasiya yalnız iyirmi dəqiqədən sonra gəlib çıxıb. İşə baxın!"[114].

V.Medvedevin xatirələrinə görə, reanimasiya briqadası Brejnevin bağ mülkünə mühafizəçilər onu yatağında keçinmiş halda gördüklərindən qırx dəqiqə sonra gəlmişdi. Artıq bir çarə qılmaq gec idi.

Düşündürücü haldır ki, SSRİ partiya-dövlət rəhbərliyində bir çox ali rütbəli şəxslər qəfildən, sonadək aydınlaşdırılmamış şəraitdə dünyasını dəyişmişlər. M.Qorbaçovun himayədarı Fyodor Kulakovun ölümünü misal çəkək.

"70-ci illərin ikinci yarısında Kreml isteblişmenti (seçmələri – *E.A.*) ilə bu və ya digər əlaqəsi olanlar və o vaxt Moskvada görüşdüyümüz şəxslərin hamısı Kulakovun müstəqilliyi və prinsipiallığı haqqında danışırdılar.

O zaman Brejnev ağır xəstə idi və ölümcül halı bir neçə il uzansa da, 76–77-ci illərdə söz gəzirdi ki, onu hörmət-ehtiramla təqaüdə göndərməyə, yerinə Kulakovu təyin etməyə hazırlaşırlar.

Moskva şayiələrinin başqa, sonrakı variantına görə, Brejnevi yenicə tutduğu SSRİ Ali Soveti Rəyasət Heyəti sədri vəzifəsində saxlayıb Baş katib vəzifəsini Kulakova verməliymişlər. Sonralar, xaricdə olarkən, bu şayiələrin artıq dünya mətbuatına da sızdığının şahidi olmuşduq.

Kulakovun kimlərinsə saydığı, kimlərinsə umduğu yüksəlişi baş tutmadı... 1978-ci ilin 16 iyulundan 17 iyula keçən gecəsində Fyodor Kulakov, SİTA-nın verdiyi xəbərə inansaq, "kəskin ürək çatışmazlığından, ürəyi dayandığına görə" vəfat etmişdir. Eyni zamanda DTK şayiə yaymışdır ki, kəndli övladı Fyodor Kulakov hakimiyyəti elə keçirməyə yönəldilmiş uğursuz cəhdindən sonra antik əsatirdə olduğu kimi, özünün şah damarlarını kəsmişdir.

Kulakovu yaxından tanıyan adamlar hər iki xəbəri təkzib edərək, deyirdilər ki, rəhmətlik sap-sağlam idi, başağrısının, soyuqdəymənin nə olduğunu bilmirdi və sarsılmaz optimist idi. Kremlin baş həkimi Yevgeni Çazov başda olmaqla yeddi təbabət "ulduzu"nun imzaladığı xüsusi komissiyanın müfəssəl və eyni zamanda dolaşıq hesabatı əks reaksiya doğurdu; öz həmkarının dəfninə Brejnevin, Kosıginin, Suslovun və Çernenkonun gəlməmələri şübhələri daha da artırdı... Öz fikrindən daha çox ümumi rəyi ifadə edən Pyotr Eqides xatırlayır: "...Və birdən-birə Kulakov keçindi, öldü, qeyb oldu, – halbuki möhkəm, tökməbədən kişi idi. Və, əlbəttə ki, məni belə bir güman rahat buraxmır ki, o, Kreml mafiyasına "pərsəng" olmuş və onu Oruelldə* olduğu kimi, "buxarlandırmışlar"..."[115]

Ali siyasi və hərbi rəhbərliyin üzvləri bir çox hallarda dünyadan vaxtsız köçürdülər. Kimsə axşamçağı, tamamilə sağlam, gümrah halda ev-eşiyinə qayıdır, ertəsi gün mühafizəçilər yatağında ölüsünü tapırdılar... Belə ki, aprelin 26-da işə yollanmalı olan SSRİ müdafiə naziri, Sovet İttifaqı marşalı A.Qreçko bir daha otağından çıxmamışdı. Sov.İKP MK-nın sabiq məsul işçisi, "Maqnetik "qebist" adlı maraqlı publisistik qeydlərin müəllifi V.Leqostayev istehza ilə yazır:

* Oruell – totalitar cəmiyyət haqqında "1984" adlı kəskin satirik ruhlu fantastik romanın müəllifi.

"Bax, beləcə, çoxmilyonlu dövlət təhlükəsizliyinin mühafizəsi altında yaşayırdıq, dövlət üçün aparıcı siyasi fiqurlar sakitcə, çöl siçanı kimi həyatdan köçürdülər. Bildiyimə görə, heç bir ciddi rəsmi araşdırmalar aparılmırdı. Əslinə baxsan, nəyi də araşdırasan, öldü öldü də, olan işdir..."[116]

1984-cü ilin dekabr ayında Varşava müqaviləsi iştirakçıları olan ölkələrin silahlı qüvvələrinin hərbi manevrlərindən az sonra birdən dörd müdafiə nazirini əcəl haqlayacaq, 2–20 dekabr arasında ADR milli müdafiə naziri, ordu generalı Hofman, MXR müdafiə naziri, ordu generalı Olax, ÇSSR müdafiə naziri, ordu generalı Dzur və 20 dekabr günündə SSRİ müdafiə naziri, Sovet İttifaqı marşalı Ustinov vəfat edəcəklər.

Marşalın ölümü o qədər gözlənilməz və müəmmalı oldu ki, hətta bir sıra ali sovet rəhbərlərinin xəstəlikləri və ölümləri səbəblərinə tibbi nəticələr yazmaqda püxtələşmiş SSRİ Səhiyyə Nazirliyi nəzdində 4-cü idarənin rəisi akademik Çazov da aciz qalacaq: "Ustinovun ölümü müəyyən dərəcədə anlaşılmaz olaraq xəstəliyinin səbəbləri və səciyyəsinə aid bir çox suallar ortaya qoymuşdur". Yeri gəlmişkən, məlumatlı bir şəxsin, Baş katib Çernenkonun köməkçilərindən biri olmuş Vadim Peçenevin sözlərinə görə, həmin bu Çazovun "Səhhət və hakimiyyət" kitabı "dezinformasiyanın miqdarına görə rekord" vurmuşdur.

Bəs Mixail Suslovun ölümü ilə bağlı müəmmalar? Məlumdur ki, o həkimlərə etibar etmirdi və onlarla təmasları imkan daxilində məhdudlaşdırırdı. Sanki ürəyinə nəsə damıbmış. 1982-ci ilin əvvəlində təbiblər onu dilə tutub Kreml xəstəxanasında adi dispanserizasiya məqsədilə yatızdırmağa nail olmuşdular. Bu səfər ona baha başa gəlmişdi: müayinə zamanı o, çoxları üçün gözlənilməz halda dünyasını dəyişmişdi.

Hətta Y.Andropovun ölümü ətrafında sonralar cürbəcür şayiələr gəzirdi; sovet xüsusi xidmətlərinin sabiq əməkdaşı, xaricə qaçmış Oleq Kalugin 10 il sonra "Andropov çoxlarını qorxuzmuşdu" məqaləsində yazırdı:

"Andropovun ölümündən sonra Moskvadan qayıdan Leninqrad DTK-nın agenti xəbər verirdi: "SSRİ Səhiyyə Nazirliyinin 4-cü Baş İdarəsi ilə bağlı olan I Tibb İnstitutunun personalı arasında Sov.İKP MK Baş katibinin ölümünün müəmmalı olduğu haqqında söz-söhbətlər dolanır. Bir sıra mütəxəssislərin fikrincə, Baş idarədə elə adamlar var ki, Andropovun xəstəliyinin erkən mərhələsində qəsdən qeyri-düzgün müalicə kursu aparmışlar, bu da nəticədə onun vaxtsız vəfatına gətirib çıxarmışdır. Sonrakı mərhələlərdə ölkənin aparıcı mütəxəssislərinin bütün gördükləri tədbirlərə baxmayaraq, bir çarə qılmağa aciz idilər. Andropovu "müalicə" etmiş adamlar, onun başladığı pozitiv dəyişiklikləri və islahatları, o cümlədən, "Kreml payok"larını ləğv etmək niyyətini, partiya işçilərini şəxsi təvazökarlığa çağırışlarını, Lenincəsinə kommunist ideallarına üz tutmasını bəyənməyən Moskvadakı partiya aparatçılarının... bir qismi ilə bağlı idilər. SSRİ Dövlət Plan Komitəsinin bir sabiq məsul işçisi yuxarıda deyilənləri təsdiqləyib əlavə etmişdir ki, Andropovu "aradan götürmüşlər"[117].

Çox ehtimal ki, bunlar boş uydurmalardır, hərçənd, əsil həqiqəti heç kim bilməyəcək. Nahaqdan deyilmiş ki, 1983-cü ilin yayında Moskvaya Andropovun və DTK təmsilçilərinin təkidilə amerikalı mütəxəssis, professor A.Rubin dəvət olunmuşdu. Andropovun sabiq həmkarları, görünür, "kremlyovka"nın həkimlərinə, xüsusən də Y.Çazova bel bağlamırdılar.

Baş "saray həkimi" və onun həmkarlarının müdaxiləsindən sonra K.Çernenkonun xəstəliyinin ağırlaşması ilə bağlı təfsilat daha qəribə və müəmmalı görünür. Konstantin Ustinoviçin köməkçisi və yaxın adamı olmuş Viktor Pribıtkov öz kitabında bu ayrıntıları təsvir edir.

Birinci əhvalat 1983-cü ilə, hələ Andropov Baş katib, Çernenko isə partiyada ikinci şəxs olduğu vaxta aiddir. O, öz "şefi" ilə Krımda dincəlir, özünü yaxşı hiss edirmiş. SSRİ DTK sədri V.Fedorçuk özü dənizdə ovladığı stavrida balığından Konstantin Ustinoviçə pay gətirir... Gecə K.Çernenkonu ağır zəhərlənmə səbəbilə təcili Moskvaya aparırlar.

"Paytaxta qayıdan kimi, ölkənin ən baş təbibi, akademik Y.İ.Çazovdan soruşuram:

– Onun başına nə gəlib?

O, nədənsə baxışlarını yayındırır. Qısnayıb dilindən bu etirafı qoparıram:

– Virus yoluxmasıdır...

– ?!

Nə qədər çalışsam da, bir ağlabatan aydın cavab eşitmədim..."[118]

Andropovdan sonra Çernenko Baş katib olur. Bir dəfə Pribıtkovu çağırıb deyir:

– Hazırlaş. "Sosnovı bor"a ("Şam meşəsi") gedirik. Çazovla Qorbaçov çox məsləhət görürlər. Dağ havası. Tər-təmiz...

Onun astmadan əziyyət çəkdiyini bilən köməkçi təəccüblənib etiraz etmək istəyir: axı bu dəniz səviyyəsindən min metr yüksəkdir, ziyan olmazmı? Lakin Konstantin Ustinoviç fikrindən daşınmır: "Yaxşı kurortdur. Yevgeni İvanoviç və Mixail birağıza tərifləyirlər".

Lakin "Sosnovı bor"da Çernenko cəmi on gün qalır. Halı yamanlaşır, ölkənin baş təbibi və onun köməkçisi Çuçalin yalnız təcili "katalka" (xəstə arabası) lazım olduğunu biləndə gəlib çıxırlar...

"Xəstəni yoxlayandan sonra baxışlarımda lal sualımı oxuyan Çazov müəmmalı şəkildə:

– Baxanq... – dedi. – Kurortu dəyişmək lazımdır.

– Yevgeni İvanoviç, bəs niyə onu buraya yönəltmişdiniz? Axı özünüz məsləhət görmüşdünüz, – deyə vətən təbabətinin ulduzuna konkret sual verdim. Çaşdı, yenə baxışlarını yayındırdı, heç nə demədi.

...İndi bəd fikirlərdən, daha doğrusu – şübhələrdən necə yaxa qurtarasan! Bilmirəm... Mən onları o vaxt da qova bilmədim, indi də bacarmıram. Qəlbimi bir sual göynədir – Çernenko kimə bu qədər mane olurdu? Onu təcili aradan götürmək kimə lazım idi? Hələ o vaxt, xəstə Andropov sükan arxasında durduğu (daha doğrusu, uzandığı) zaman... Bəlkə... Yox, bu gümanı ağartmayacağam. Amma ehtimal edirəm ki, "iddiaçı" daha bir il də itirmək istəməyib, hakimiyyət hərisliyi səbrini üzürmüş, Andropovdan dərhal sonra "taxta çıxmağa" can atırmış... Di gəl, Çernenko, DTK-nın sabiq sədri və sabiq daxili işlər naziri Fedorçukun əlindən aldığı "səxavətli" bəxşişə baxmayaraq, möcüzəvi şəkildə dirçəldi. Qorbaçov sinə getdiyi vəzifəni ələ keçirən kimi, Fedorçuku işdən kənarlaşdırıb siyasi yoxluğa vasil etdi. Sanki əsas şahidi gizlətməyə çalışırmışlar"[119].

Ukrayna şairi və ictimai xadimi Boris Oleynik Azərbaycan jurnalistlərinin "Heydər Əliyevin infarktı müəyyən qəsd nəticəsi ola bilərdimi?" sualını belə cavablandırmışdı:

"Mixail Sergeyeviç Siyasi Büro üzvlərinin səhhəti ilə çox maraqlanırdı, ona görə sizə deyim ki, bu da istisna olunmur. Bilirsiniz, mən axı qəzetlər vasitəsilə həmin Qorbaçovla diskussiyalar aparırdım, mənim çox səs-küy salmış kitabım da çıxıb. Yadımdadır, əleyhdarlarım da, tərəfdarlarım da çox idi. Sonra da mən "Kremlyovka"nın baş həkimi Çazovla diskussiya aparmışdım. O, bir dəfə dilindən qaçırdı: "Məni nəsə qəribə "ölhaöllər" silsiləsi heyrətləndirirdi. Deyək ki, Brejnev ölür, Andropov gəlir, bir, iki... və çıxıb getdi... Çernenko da gəldi-getdi..."

Mən sonra ona cavab vermişdim: "Əziz və hörmətli Yevgeni İvanoviç, siz özünüz xoşbəxtlikdən salamat qaldığınız qəzaya uğramasaydınız, bu dabanbasma ölümlərin təsadüf olduğuna inana bilərdim. Sizi aradan götürmək istəyirdilər ki, sonra bunların bəzən necə baş verdiyini söyləməyəsiniz". Bəli, istisna olunmur... O (Mixail Qorbaçov – ***E.A.***) hakimiyyətə... (pauza) üzərindən keçərək gedirdi. Mən Heydər Əliyeviçi bir sağlam, azman kişi kimi görüb tanıyıram, o, daima kabinetlərdə oturan adam deyildi. Tez-tez təmiz havaya çıxardı və onun taleyi, onun peşəsi ekstremal vəziyyətlərin labüdlüyü ilə bağlı idi, o da şərəflə bu sınaqlardan çıxırdı. Həm də Siyasi Büro üzvləri normal dava-dərman, xidmətlə təmin edilmişdilər və birdən-birə belə iş baş verir... Odur ki, çox mümkündür, çox mümkün..."*

Hökumət tibbi xidməti sahəsində 30 ildən çox çalışmış cərrah Praskovya Moşentseva "Kreml xəstəxanasının sirləri" kitabında bir əlamətdar eyhamı da dilə gətirir: "Kreml xəstəxanasının tarixində çox məchul, müəmmalı və hətta faciəvi məqamlar var".

Düşünürəm ki, belə açılmamış müəmmalardan biri də Heydər Əliyevin gözlənilməz infarkt bəlasına düçar olmasıdır.

Heydər Əliyevin doğmaları, yaxınları, həmçinin, köməkçilərinin xatirələri 1987-ci ilin o nəhs 11 may gününün təfsilatını təsəvvürdə canlandırmağa imkan verir.

* V.Ağayevin "Xilaskar" filmindən. AzTV. 2003.

Aleksandr Qavrilov:

"Hər il ad günü ərəfəsində və bayramlar münasibətilə onun yanına gəlir, zəng edir, teleqramlar yollayırdılar. Amma 1987-ci ildə Heydər Əliyeviçi praktiki olaraq nazirlərdən heç biri təbrik etmədi, ən ümdəsi, nə Qorbaçov, nə də Liqaçov yada salmadılar. Nazirlərdən cəmi ikisi ad gününü yada salmışdı, – o cümlədən, Nikolay Semyonoviç Konarev. İnsafən, Konarev müstəsna dərəcədə saleh adamdır. O, Əliyevə böyük hörmətlə yanaşır, necə ki, Heydər Əliyeviç də onun xətrini istəyirdi.

Amma, görünür, Heydər Əliyeviçin ətrafında artıq müvafiq atmosfer yaradılmışdı. Qorbaçovun təbrik etmədiyi məlum olan kimi, bütün yuxarıdakılar da bu yolu seçdi.

Əlbəttə, Heydər Əliyeviçi bu çox ağrıtdı. Axı o həmişə onları ad günü münasibətilə təbrik edərdi, bu bir ənənə idi, həm telefon zəngi, həm teleqram.

Ertəsi gün işə gələndə rəngi-ruhu soluxmuşdu. Dedi ki, dünən Qorbaçov onun maşınına zəng vurub və təbrik edib. Kaş ki, elə olsun. Günün axşamını gözləyəsən ki, haçandan-haçana təbrik edəsən? Budurmu ədəb-ərkan?

Liqaçov haqqında heç nə demədi.

Təbii ki, Heydər Əliyeviç bir istiqanlı, qürurlu adam kimi, çox incimişdi. Onu sırf insani baxımdan anlamaq olardı. Belə şeylər çox göynədir. Ona görə də, zənnimcə, ayın 11-də başına bu iş gəldi. Həkimlər onu "Təcili yardım"a xərəkdə aparmaq istəyəndə "yox, özüm" deyərək maşına sarı getdi. Bunun yeri deyildi, olmazdı, amma Heydər Əliyev əsil kişi xarakterli adam idi, yəni mən kişi olaola xərəkdə aparılım?!"

Vladimir Uxov:

"Bu, onun kabinetində baş verdi. Nədənsə halı pisləşdi, başı gicəlləndi, divan üstə uzandı. Sonra, xatirimdə deyil, kiməsə həkim çağırmağı tapşırdı. "Təcili yardım" çağırdılar. Bu məntəqə yaxınlıqda, Romanov dalanında idi, tez gələ bilərdilər. Briqada xərəklə daxil oldu.

Mən qəbul otağında idim. Qapı açıldı, o çıxdı, ardınca əllərində xərək tutmuş həkimlər. O, yerişini yavaşıtmadan, adi addımlarla gedirdi. Dəhlizə üz qoydular. Bilmirəm, belə halda o necə aşağıya düşə bildi. Xərək təklif ediləndə imtina etmişdi. O, öz zəifliyini göstərmək istəmirdi, bu onun təbiətinə xas idi".

Aleksandr İvanov:

"Mayın 10-da onlar adətincə ailəvi süfrə başına yığışmışdılar. Ertəsi gün Heydər Əliyeviç həmişəki qaydada durmuşdu: saat 6-da oyanış, gəzinti, fiziki məşq. Özünü normal hiss edirdi. İşə saat ona işləmiş çatdıq, yaxşı yadımdadır. Bizdə növbədəyişmə oldu. Mən müavinimi yerimə əvəz qoyub evə yollandım. Bir qədər sonra zəng vurdular ki, Heydər Əliyeviçi xəstəxanaya apardılar. Cumdum maşına, birbaşa oraya, Miçurin prospektinə götürüldüm. Sonra Heydər Əliyeviç özü mənə əhvalatın necə baş verdiyini söylədi. Deyir, kabinetdə oturub kağız-kuğazla məşğul olurmuş, kimlərsə hələ də zəng vurub ad günü münasibətilə təbrik edirmişlər. Birdən isti vurur onu. Adətincə, masa arxasında pencəyini soyunub köynəkliqalstuklu oturub işləyərdi. Pencəyi də arxadakı standart asılqandan asardı.

"Sonra, – deyirdi, – qalstuku azca boşaltdım, Viktoru (mənim müavinimi) çağırmaq istəmədim, gedib divanda uzandım. Hiss elədim ki, halım get-gedə pisləşir. Ayaqqabılarımı çıxartdım, ayaqlarımı uzatdım, sinəm od tutub yanır, toxdamır ki, toxdamır. Zəng vurdum. Qridnev gəldi". Qridnev qayğıkeş adam idi, həm də Heydər Əliyevə böyük rəğbətlə yanaşırdı. Valeriy Arkadyeviç deyir: "Bu saat həkim çağıraram". Nazirlər Soveti üzrə növbətçi həkimi dəvət edirlər. Qadın həkim gəlir, kardioqram yazdırır. Göstəricilər pisdir. Həkim onu dilə tutur: "Heydər Əliyeviç, sizə stasionara, xəstəxanaya getmək lazımdır". – "Yox, iynə vurun, ya da başqa çarə tapın, mən heç yerə getməyəcəyəm". Həkim israrlıdır: "Mən "Qranovski"yə çatdırmalıyam (Qranovski küçəsində Çazovun başçılıq etdiyi 4-cü İdarənin qərargahı yerləşirdi)".

Bir az sonra "Qranovski" küçəsindən reanimasiya qurğulu böyük ZİL maşınında həkimlər gəldilər. Onlar Əliyevi dilə tutub inandıra bildilər ki, belə iynə stasionar şəraitində vurulmalıdır. O, razılaşır. Onu xərək üstə uzandırmaq istəyirlər. Yerindən dik qalxır. Hamı heyrətə gəlir... O özü ayaqqabılarını, pencəyini geyir, plaşını götürüb kabinetdən çıxır. Liftə qədər otuz metrlik yol gedir, liftə

minir, maşına çatır və yalnız onda xərəyə uzanır... Mən özümü xəstəxanaya yetirəndə, onu artıq gətirmişdilər, huşunu itirmiş halda idi.

...Sonra Heydər Əliyeviç mənə danışırdı ki, ürəktutması zamanı da, iynə vurulanda da nəsə qəribəliklər baş verdi, – iynəni hər halda kabinetində vurmuşdular. Sonralar, Azərbaycanda o dəfələrlə eyham vurmuşdu ki, başına gələnlər Baş katiblə münaqişəsinin nəticəsidir və 4-cü İdarə təbiblərinin əməlləri partiya rəhbərliyinin buyruğuna uyğun idi.

O gün növbədə olan ofisiant qadınlar 100 faiz yoxlanmışdılar. Lakin xüsusi mətbəxin işi başqa şöbənin nəzarəti altındaydı. Bu indinin işidir ki, köhnə əlaqələrimdən faydalanaraq hər hansı məlumatı ala bilərəm, o zamanlar isə nəhəng həngamə işləyirdi – kimi tras boyu hərəkətə cavabdeh idi, kimi – xüsusi mətbəxə, kimlərsə Siyasi Büro üzvlərinin səhhətinə. İşin nə yerdə olduğunu bilmək üçün oraya yol tapmaq mümkün deyildi".

Heydər Əliyevi müalicə edən həkimlə apardığım ətraflı söhbət zamanı o, infarktın "sifarişli" xarakteri haqqında fərziyyəni qəti rədd etdi.

"Bizim kabinetlərimiz Qranovski küçəsində (indiki Romanov dalanı) yerləşirdi, – Aleksandr Borodkin xatırlayır. – Poliklinika da oradaydı. Təbii ki, heç yerə gedəsi olmadığımız halda orada qalırdıq. Zəruri hallarda bizi harada tapacaqlarını dəqiq bilirdilər. Kremlədək yol da uzun deyildi. Kremlin özündə öz xidməti olan tibb məntəqəsi vardı.

Mayın 11-də, saat on bir–on iki radələrində təhkim olunmuş cangüdəni, deyəsən Kolıvagin zəng çaldı.

– Heydər Əliyeviçin halı pisdir, gəlin.

Bizə fövqəladə hallarda maşın verirlər. Mən gəlib çatanda kabinetində artıq Kreml tibb məntəqəsindən həkimlər vardı, elə bu vaxt da "təcili yardım" gəldi. Kreml təbibləri elektrokardioqram götürəndə, infarktın əlamətləri aşkarlandı.

"Təcili yardım" dərhal onu Miçurin prospektinə apardı. Mən də onlarla getdim.

– Ola bilməzdi ki, gəlişinizdən əvvəl ona vurulan iynələr geniş infarkta rəvac versinlər?

– Yox. Ona ağrını sakitləşdirən preparat vurmuşdular. Üstəlik, damar spazmalarını sovuşduran spazmalitik. Bu, infarkt hallarında adi praktikadır. Vəssalam. Məndə yazılı qeydlər vardı. O, onları özüylə götürdü.

İlk vəzifə ağrını kəsmək, spazmaları dayandırmaq, xəstəxanaya çatdırmaqdı. Orada isə müalicə başlanır. Təbii ki, onun halı pisləşirdi – ürək əzələsinin fəallığı birdən xeyli azalır, beynin qan təminatı pozulur; zəiflik, ürəkkeçmə və s. baş verir. Bu, kollapsdır, kardiogen şokdur.

– Deyirlər, o bir neçə gün huşsuz qalmışdı.

– Nağıldı. Amma doğrudan da, çox ağır vəziyyətdə idi. Üç həftəni gecə-gündüz onun yanında keçirdim.

Biz onu Miçurin prospektində yerləşən 4-cü İdarənin Birləşmiş xüsusi xəstəxanasına gətirdik. Orada ali rəhbərlik üçün şöbə vardı. 6-cı mərtəbədəki blokda idi Heydər Əliyeviç. Müəyyən edildi ki, onda kəskin, geniş ölçüdə "infarkt miokard" baş verib (miokard əzələsinin üzülüb qırılması – *E.A.*), vəziyyəti olduqca ağırdır. Yəni əslində miokard əzələsindən heç nə qalmamışdı. Dərhal müalicə əməliyyatı başlandı. O zaman üçün ən müasir dərmanlar təyin olunur, gündə iki-üç dəfə konsiliumlar aparılır, bəzən gecə vaxtı da lazımi mütəxəssislər çağırılırdı. Müalicə çox səhih aparılırdı".

Aleksandr İvanovun dediyinə görə, vəziyyət o yerə çatmışdı ki, hətta Heydər Əliyevin ailəsini, yaxınlarını onun sağala bilməyəcəyi sonuclarına hazırlayırmışlar. "On günə yaxın Heydər Əliyeviç hərəkətsiz yatıb qaldı. Amma tam ayıq. Sonra hansısa göstərişlər verməyə başladı. Seva İlhamla gecə-gündüz onun yanındaydılar, ona yardım göstərirdilər.

Sonra yavaş-yavaş, az-az gəzməyə başladı. Bir addım, iki addım... Mənim bloknotumda bütün bunlar yazılıb, Heydər Əliyeviç yeriməyə nə vaxt başlayıb, neçə addım atıb. Mən ona dəstək verirdim. Dəhlizə çıxmağa, həyətə düşməyə başladıq. Həkimlər deyirdilər ki, ona fiziki hərəkət lazımdı, yalnız bu təqdirdə bərkiyə bilər, o da, zorla olsa da, əməl edirdi..."

Sevil xanım mənimlə söhbətində xatırlayırdı:

"1987-ci ilin 11 mayında baş verənlər bizim üçün şok oldu. Çünki atam çox sağlam adam idi. O mənim altı yaşlı qızımı az qala tavana qədər atıb-tuturdu... Çox idmansevər idi: qaçırdı, üzürdü. Odur ki, infarkt xəbəri göy gurultusu kimi oldu. Bir həftə ərzində nəticənin necə olacağını bilmədik. Bizə sonra deyirdilər ki, belə infarkt keçirənlərdən tək-tük adam sağ qalır.

Xəstəxanadan çıxmırdıq. Mən həkimlərə yalvarırdım ki, düzünü desinlər: "O, bundan sonra tam dolğun, fəal həyata qayıda biləcəkmi?.." İlk günlərdə bizi onun yanına buraxmırdılar. Ümumiyyətlə, bu əhvalatda çox şeylər müəmmalı qalır. Məndə indiyədək belə hissiyyat yaşayır ki, hər şey fitnəkarlıqla törədilmişdir. Çünki bunun öz məntiqi var.

– Onlar bunu necə yerinə yetirə bilərdilər? Hansı ehtimallarınız var?

– O, adətən, səhərlər evdə qidalanardı. Həmin gün isə iş yerində nahar edib. Yarım saatdan sonra halı xarab olub. Sonra hansısa həkimlər qrupu gəlib, onu dərhal xəstəxanaya aparıb... İş yerində ona iynə vurublar. Zənnimcə, hər şey elə həmin iynəyə görə baş verib.

Onu müalicə edən həkimlər ona yaxşı baxırdılar. Sonra o həkimlərdən bəziləri qəribə şəraitdə dünyadan köçmüşlər. Birini evin girəcəyində güllə ilə vurmuşlar, o birisi cavan yaşında ölmüşdür. Bu da müəmmalı əhvalatdır.

Atam sağalmağa başlayanda və ona hansısa testlər, sınaq tapşırıqları veriləndə, sıravi həkimlər baş barmaqlarını yuxarı qaldırıb göstərirdilər, yəni sizdə hər şey normaldır. Müalicə edən həkimlər isə rəngləri qatılaşdırıb qorxuzurdular. Bizə də deyirdilər: "Bütün nəticələr hazır olduqda, konsilium keçiriləcək. Qardaşınızla gəlin, məşvərətdə iştirak edin". Bu dəvətin məqsədi o idi ki, biz atamızı işini davam etdirməsindən daşındıraq. Kreml xəstəxanasının baş həkimi Yevgeni Çazov bir dəfə atamın yanına gəlib onu dilə tutanda, atam onu yerinə otuzdurmuşdu. Demişdi: bilirsiniz, sizin işiniz məni müalicə etməkdi, bundan sonra necə yaşayacağımın, işləyib-işləməyəcəyimin sizə dəxli yoxdur. Bu mənim öz işimdir.

Təsəvvür edirsinizmi, həyatının mənasını zəhmətdə, fəaliyyətdə görən adama deyəsən ki, sən işə-gücə yaramırsan, get, dincəl..."

Aleksandr Borodkinlə söhbətdən:

" – O, özünü necə aparırdı? Bəzi xəstələr qorxuya düşür, başqaları bədbinliyə qapılır, acizləşir...

– Heydər Əliyeviç ağrılardan, təngnəfəslikdən gileylənsə də, bu təbii idi. Onun psixoloji ovqatına gəldikdə, əlbəttə, infarkt onun üçün şok oldu, az qala fəlakət oldu. Sıxıntı keçirirdi. Bu, uzun çəkdi, təxminən yarım il. Onunla söhbətləşmək, ürək-dirək vermək lazım gəlirdi.

Əvvəl o hər şeyin itirildiyini, daha işləyə bilməyəcəyini düşünürdü. Onda biz rejimi genişləndirməyə, açıq havaya çıxmağa başladıq (əlbəttə, münasib tibbi xidmətlər yanımızdaydı); ona daha çox hərəkət etməyi məsləhət gördük.

– Deyilənə görə, o özü də qeyri-adi iradə gücünü göstərirdi.

– Hətta həddini aşmasın deyə, onu dayandırmalı olurduq. Onda tezliklə sağalmağa böyük istək, böyük əzm yaranmışdı. Tezliklə yazı-pozuyla məşğul olmağa başladı. Əməkdaşları sənədlər gətirir, məruzə – məlumat verirdilər. Bu təxminən iki-üç həftədən sonra başlandı. O, palatada müşavirələr də keçirirdi...

– Bəs siz buna necə icazə verirdiniz?

– Biz çığır-bağır salırdıq ki, belə şeylər olmaz, amma nə fayda! Müşavirəyə şərt qoyurduq, vaxtını məhdudlaşdırırdıq. Heç olmasa bu yolla ifrat fəallıqdan çəkindirməyə çalışırdıq".

Heydər Əliyevin ömrünün bu səhifələri haqqında məlumat azdır. Özü xəstəlikləri haqqında danışmağı xoşlamazdı və klinikadan çıxandan sonra keçirdiyi infarktı tezcə unutmağa çalışırdı. "Naşirin qətli" kitabı üzərində işlədiyimiz zaman mənə və şərikli müəllifim İsa Nəcəfova SSRİ Səhiyyə Nazirliyi 4-cü İdarəsinin sabiq məsləhətçilərindən biri Aleksandr Qriqoryeviç Çuçalinlə xoş təsadüf nəticəsində tanış olmaq nəsib oldu. Hazırda akademik Çuçalin Rusiya Səhiyyə Nazirliyinin Pulmanologiya üzrə Elmi-Tədqiqat İnstitutuna başçılıq edir və tək ümumrusiya deyil, dünya şöhrətli alimdir. Məsləhətçi olaraq o, dəfələrlə Heydər Əliyevin xəstəliyi ilə bağlı konsiliumlara qatılmışdır. Bir müddət hətta Əliyevin müalicə həkimi olmuşdur.

2000-ci ilin oktyabr ayında akademik Çuçalin bir neçə günlüyə Bakıya gələndə biz ondan öz xatirələrini bölüşməyi xahiş etdik.

"Heydər Əliyeviç klinikaya köks qəfəsini didib-dağıdan dəhşətli ağrı keçirdiyi halda gətirildi. Tibbi dildə buna kardiogen şok deyirlər. Belə vəziyyətdə insanlarda nitqə də, şüura da, psixik duruma da təsir edən cürbəcür dəyişikliklər baş verə bilər. Lakin Heydər Əliyeviç dəhşətli ağrıya baxmayaraq özünə nəzarət edirdi. Onda vahimə yox idi, o, depressiyaya, bədbinliyə uğramamışdı. Əksinə, bütün dönəmlərində həkimlərlə çox fəal əməkdaşlıq edir, onlara inanır, yardımçı olurdu. Və bununla da işimizi xeyli asanlaşdırmışdı.

Heydər Əliyeviç atletik qamətli, güclü, boy-buxunlu, fiziki baxımdan inkişaf etmiş kişidir. O heç vaxt xəstələnməmiş, onun tibbi dəftərçəsində əslində azar-bezar haqqında qeydlər yox idi. Bununla yanaşı, o, ömür yoldaşının səhhətinə çox diqqətcil yanaşır, qızının, nəvələrinin sağlamlığına qayğı göstərirdi. Bizim hamımızı Heydər Əliyeviçin öz xanımına qarşı həssas münasibəti heyrətləndirirdi. Zərifə xanım xəstələnəndə o, onkologiya sahəsində ən yaxşı tibbi qüvvələri cəlb etmişdi. İşləri aşıb-daşdığına baxmayaraq, bütün konsilıumlarda iştirak edir, xəstəliyin gedişatındakı bütün incəliklərinə diqqət yetirirdi. Öz səhhəti ilə isə heç vaxt məşğul olmurdu, baxmayaraq ki, o zaman 4-cü İdarə çərçivəsində sərt dispanserizasiya sistemi var idi. Amma belə sərt sistem olduğu halda da xəstəliyi proqnozlaşdırmağa əsas verə biləcək hansısa əlamətlər yox idi. Ona görə Əliyev üçün bu infarkt tamamilə gözlənilməz oldu. Bununla belə, o, böhranlı vəziyyətin sınağından çox ləyaqətlə çıxdı. Kəskin dönəmdən çıxandan sonra həyatının başlıca qayəsi sıraya, sağlam yaşayışa mümkünsə tez qayıtmaq oldu. Zənnimcə, onun həyat eşqi, sağalmaq əzmi, bunca ağır diaqnoza baxmayaraq, hər şeyin uğurlu sonluqla qurtarmasının əsas rəhni olmuşdur.

Və sonda. Məni bir həkim kimi onun Azərbaycana qayıdışla, qaynar siyasi fəaliyyətə qatlaşmaqla bağlı sonrakı reabilitasiyası heyrətə gətirdi. Xüsusən, o baxımdan ki, nəhəng fiziki və psixoloji gərginliyə baxmayaraq, o uzun müddət ümumiyyətlə, hər hansı həkim nəzarəti olmadan davranırdı. Yəqin bu, tibbi baxımdan misilsiz hadisədir".

Xəstəxanaya Heydər Əliyevin yanına vaxtaşırı hökumət işlərilə bağlı gələnlərin sırasında olan Katibliyinin müdir müavini **Vladimir Uxov** xatırlayır:

"Onun palatasında qonaqları qəbul etmək üçün geniş otaq (orada müşavirə də keçirtmək olardı) və işləmək üçün kabinet vardı. Heydər Əliyeviçin halı yaxşılaşan kimi mən ona rəsmi sənədləri baxılmaq və viza qoyulmaq üçün daşımağa başladım. Adətən axşamlar, saat səkkiz radələrində gəlirdim. Onun özünəməxsus reabilitasiya sistemi vardı. Saşa, ya Viktorla gəzintiyə çıxardı. Mən də oturub gözləyərdim. Qayıdanda mənimlə salamlaşıb ya şirə içər, ya dərman qəbul edərdi. Bir-iki dəqiqədən sonra əyləşib işlərlə məşğul olardıq. İdarə işlərinin gedişatı ilə maraqlanar, gətirdiyim sənədləri nəzərdən keçirərdi. Bu, ən azı saat yarım vaxt aparardı. Mən səhhətilə maraqlananda heç vaxt şikayətlənməzdi: "Sən ki görürsən, səninlə söhbətləşirəm, işləyirəm". Yaxud: "Mən artıq gəzinirəm. Uşaqlar isə dalımca qaçır..." Ay yarım–iki ay belə davam etdi. Mən müntəzəm olaraq yanına gedirdim. Çünki o vaxt katibliyin müdiri də xəstələnmişdi. Bundan əlavə məncə, o, sosial məsələlər üzrə iki, ya üç müşavirə keçirmişdi".

Həmin "xəstəxana" müşavirələrini **Aleksandr Qavrilov** da yada salır:

"O inanmırdı ki, ona qarşı haqsız münasibət ola bilər. Özü xidmətinə olduqca vicdanlı yanaşır və hesab edirdi ki, heç nəyə baxmayaraq, işləməli, işləməli, işləməlidir.

Bir az özünə gələndən sonra xəstəxanada müşavirələr keçirməyə başladı. Müxtəlif mövzularda – yüngül sənaye, mədəniyyət, səhiyyə məsələləri. Mən yanına gedirdim, materiallar hazırlayırdım. Maraqlı bir detal – o, həmin müşavirələrə Çazovu da dəvət edər, tənqid də edərdi. Çazov o vaxt 4-cü İdarənin rəisi, səhiyyə naziri idi. Çazov onu müalicə edir, Əliyev isə onu tənqidə məruz qoyur. Sadəcə, Heydər Əliyeviç əmin idi ki, dedikləri və elədikləri haqlıdır. Doğrudan da, tənqidi ədalətli idi. Onda əsla özünümüdafiə instinkti yox idi. Müşavirədə Səhiyyə Nazirliyinə filan-filan işləri görməli olduğunu deyirdi. Və bütün bunlar çox emosional səslənirdi. Bu, əlbəttə ki, yuxarıdakıları cırnadırdı. O elə bilirdi ki, onlar onun

səylərinin qədrini biləcək, amma əksinə, bu ona qarşı münasibəti daha da korladı".

...Heydər Əliyev bütün yayı xəstəxanada keçirdi. Sentyabrda işə çıxmağa başladı, axşamlar isə Miçurin prospektinə qayıdırdı. Bəzən bazar günlərində ailəsilə görüşmək üçün bağa getməyə icazə verirdilər.

"Özünü hər necə hiss eləsə də, öz fəallığını bərpa etməyə çalışırdı, – A.İvanov xatırlayır. – Hər halda bundan sonra da özünü, öz təcrübəsini işə həsr etməyə çalışırdı. Buna can atırdı. Və həkimlərin göstərişlərinə dəqiqliklə riayət edirdi.

Siyasi Büroda söz gəzirdi ki, o yorulur, – əksinə, o yorulmaq bilmirdi, işləməyə can atırdı, təqaüdə çıxmaq vaxtı çatdığı haqqında eyhamları təkzib etməyə çalışırdı.

– Yadınıza düşmürmü, xəstəxanada kimsə onu təqaüdə çıxmağa vadar etməyə çalışırdımı?

– Çalışırdılar... Onlar İlhamı da çağırıb istefaya getməyin zəruri olduğunu atasına inandırmağa təhrik edirdilər. Ona daha çox Çazov təzyiq göstərirdi. İndi Trapeznikov və başqa akademiklər istədiklərini deyə bilərlər. O vaxt isə onlar qorxurdular, onlar üçün Çazov ən böyük ixtiyar sahibi, Siyasi Büro üzvləri ilə bağlı bütün məsələləri həll etməyə qadir adam idi. Heç bir akademik öz rəsmi nəticəsini, rəyini onsuz verməzdi.

Heydər Əliyeviç mənə deyirdi:

"Onlar iddia edirlər ki, mən əmək qabiliyyətini itirmişəm, bu xəstəlik təsirsiz qalmayacaq. Deyirlər ki, axı siz hətta çətinliklə yeriyirsiniz". Yəni metodik surətdə ərizə yazmaq fikrinə vadar edirdilər... Bilirəm ki, İlhamla da bu mövzuda söhbətləri olmuşdu.

– Barı müalicəsini normal aparırdılarmı?

– Bəli. Hərçənd, dəhşətli haldaydı. Mən, huşu qayıdandan bir gün sonra növbədə idim. Gözümdən yaş axır, o da mənə:

"Saşa, ağlama, – deyir. – Biz qayıdacağıq..." Heydər Əliyeviç məqsədyönlü, həyata sarsılmaz inam bəsləyən insan idi".

E.Axundova və İ.Nəcəfovun "Naşirin qətli" romanından parça:

"Təxminən 10 gündən sonra həkimlər dedilər ki, böhran keçib getdi. Heydər Əliyev yavaş-yavaş sağalmağa üz qoydu. Kreml funksionerləri isə 4-cü idarə məmurlarıyla birgə vaxtaşırı İlhamı hansısa müəmmalı söhbətləşmələrə çağırmağa başladılar.

Bir dəfə hansı məmursa ondan soruşur:

– Siz bilirsinizmi ki, atanıza daha işləmək olmaz?

– Nə üçün? – İlham təəccübləndi.

– Çünki onun səhhəti ciddi şəkildə pozulub.

– Axı o günü sabah işə çıxmayacaq ki, – oğul haqlı etirazını bildirir. – Müalicə olunar, dincələr. Sonra isə özü bir qərara gələr.

– Burada qərara gəlməsi heç nə yoxdur, – məmur israrla davam edir. – Onun işi gərgindir, əsəbidir, daima nəhəng ölkənin bir küncündən o birisinə yol ölçməklə bağlıdır... Ona çox ağır olacaq.

İlham dözmədi:

– Siz məndən nə istəyirsiniz?

– Atanızla söhbət edə bilməzdinizmi? O, həyat tərzini dəyişməlidir.

– Onun işləyib-işləməməsini müəyyənləşdirmək mənim işim deyil. Eləcə də sizin.

– Yaxşı, özünüz bilin...

Sonralar da İlhamı dəfələrlə belə söhbətlərə dəvət etmişdilər.

Bir dəfə növbəti təbabət məmurunun səsindən hədə sezildi. Yəni siz, Əliyevin övladları atanızı inandıra bilməsəniz, bu onun üçün faciəvi nəticəylə qurtaracaq.

Axırda İlhamın atasına təsir göstərəcəyinə (guya bu mümkün imiş!) razılığını ala bilməyib, 4-cü İdarənin rəhbərliyi pasiyentin özünü "tovlamağı" qərara aldı.

Növbəti konsiliumda professorlardan kimsə dedi:

– Bilirsiniz, Heydər Əliyeviç, sizi müalicə edirik, hər şey hələlik normal gedir. Amma siz əvvəlki həyat tərzinə qayıdan kimi səylərimiz puç olacaq...

Əliyev xeyli susdu. Bildi ki, hansı hədəfi güdürlər. Baş kardioloq Çazova nəzər saldı. Yevgeni İvanoviç o vaxt 4-cü İdarəyə başçılıq edir və demək olar ki, daima konsiliumlarda iştirak edirdi. Əliyev isə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi, digər sosial sahələrlə birgə səhiyyəyə də kuratorluq edirdi. Çazovu yaxşı tanıyırdı, – baş təbib tez-tez öz idarəsinin çoxsaylı problemləriylə bağ-

lı hüzuruna gəlirdi. Əliyev də kömayini əsirgəmirdi. Belə ki, aralarında rəvan, hörmətcil münasibətlər yaranmışdı.

– Yevgeni İvanoviç, siz məni hələ nə qədər müalicə edəcəksiniz?

– Bir ay, ya ay yarım.

– Eləyin. Sonra isə bir də yoxlamadan keçərik. Əgər orda da desəniz ki, mən işləyə bilməyəcəm, – siz axı bunu nəzərdə tutursunuz? – mən, əlbəttə, intihar etməklə məşğul olmayacam.

Bir neçə gündən sonra Kreml "ağa"ları tərəfindən xəstəxanaya göndərilən 4-cü İdarə məmurlarından kimsə yenə "halal istirahət"ə getməkdən söhbət açır. Lakin Əliyev mükaliməyə varmadan onu palatadan rədd edir:

– Səni göndərənlərə de ki, onların məsləhətlərinə ehtiyacım yoxdur! Və xahiş edirəm, bir də mənimlə bu mövzuda danışmayın!".

Burada kitabımızın səhifələrində adı-soyadı tez-tez çəkilən Yevgeni İvanoviç Çazov haqqında bir haşiyə çıxmalıyıq. Çazov Kiyev Tibb İnstitutunu bitirmiş, 1953-cü ildə Moskvada 1-ci Moskva Tibb İnstitutunda adicə klinik ordinator kimi işləmişdir. On il ərzində "özünə gün ağlamış", karyera pilləkəni ilə yeyin qalxaraq SSRİ Tibb Elmlər Akademiyası terapiya üzrə ETİ-nin direktoru vəzifəsini icra edən kimi fəaliyyət göstərmişdir. Andropovun bioqrafları yazır ki, məhz Çazov Yuri Vladimiroviçə 1966-cı ildə təqaüdə çıxmaqdan yaxa qurtarmaqda yarımış (ağır xəstəlikdən sonra həkimlər Andropovun əlilliyə keçirilməsi haqqında məsələ qaldırmışdılar); konsiliumda onun səhhəti haqqında əlverişli rəy vermişdi. Andropov Yevgeni İvanoviçə borclu qalmamışdı, – 1967-ci ilin yanvar ayında Çazov oxucuya məlum olan 4-cü İdarənin başçısı kreslosunda əyləşib Kreml tibbi xidmətinin, "həkimlərin hakimi" oldu.

"...Görünür, onların konsiliumdakı tarixi görüşündən etibarən, Çazov ömürlük Yuri Vladimiroviçin şəxsiyyətinə valeh olmuşdu, – V.Leqostayev yazır. – Onların arasında dostluq yaranmış, nəticədə Çazov tezliklə Hippokrata sədaqətli xidməti ilə yanaşı, SSRİ rəhbərləri və onların ailələri dairəsində əslində DTK başçısı Andropovun xəfiyyəsi rolunu uzlaşdırmağa başladı.

Çazov agent rolunda DTK-nın məxfi mənzillərində Andropovla görüşür, onunla birgə xüsusən qəliz siyasi düyünlərin açılma yolunu araşdırırdı. Baş saray təbibi rolunda isə o, Brejnev dalğasından olan, Çernenko daxil edilməklə, bütün sovet rəhbərlərinin azar-bezarları və ölümü haqqında rəsmi tibbi rəyləri imzalayırdı. Məni bu tibbi açıqlamalarda həmişə bir cümlə məzələndirirdi: "Meyit yarıldıqda diaqnoz bütövlüklə təsdiqlənmişdir". Lənət şeytana, hünəri vardı təsdiqlənməsin! Ümumiyyətlə, Çazovun vaxtında Kreml xəstəxanasında ən böyük sirləri ört-basdır etməyi və ən gözlənilməz diaqnozları təsdiqləməyi bacarırdılar"[120].

L.Brejnevin köməkçisi V.Qolikov Çazovu belə səciyyələndirirdi:

"...Müdhiş bir fiqurdur, həkim yox, Allah bilir kimdir, yoxsa Leonid İliçin bu cür müalicəsinə və ölümünə yol verməzdi. Onu bilavasitə müalicə edən Kolya Rodionov sağ qalmadı, öldü. Suslovun da həkimi öldü. Odur ki, düşünməyə əsas var. O, bütün informasiyanı DTK-ya daşıyırdı. Və orada xəstənin necə müalicə edilməsi, hansı tövsiyə verilməsi qərarlaşdırılırdı"[121].

Bu incə mətləb haqqında sonralar "Xəbərdarlıq" kitabında Yeqor Liqaçov düşünürdü:

"...Bizdə haçandan bəri Sov.İKP MK Baş katibinin səhhətinin durumu mövzusu yasaq sayılırdı. Ümumiyyətlə, nə partiyanın, nə də MK üzvlərinin Baş katibin səhhəti haqqında məlumatlandırılmamasını mən daxili partiya demokratiyasının ciddi pozuntusu sayıram. O zamanlar mövcud olan partiya-dövlət idarəetmə sistemi nəzərə alındıqda isə demokratik prosedurların bütövlükdə pozulmasından söhbət gedə bilər. Bütün inkişaf etmiş ölkələrdə liderin sağlamlıq durumu ictimaiyyətin xüsusi maraq hədəfidir və burada heç bir sirr ola bilməz. Bu barədə hər hansı şayiələr dərhal və qəti təkzib edilməlidir. Şayiə varsa, təkzib isə yoxsa – bu artıq qeyri-normaldır.

Belə qayda bütün sivil ölkələrdə çoxdan bərqərar olub. Halbuki bizdə vəziyyət bambaşqa idi.

Çernenkonun tibbi yoxlama nəticələri yeddi qıfıl arxasında saxlanan sirr idi, üstəlik, hər şey elə qurulurdu ki, onun səhhət duru-

mu mübarək şəkildə təqdim edilsin. Digər tərəfdən, Baş katibi hər bir Siyasi Büro üzvünün səhhət durumu haqqında məlumatlandırırdılar, bu baxımdan o, necə deyərlər, işdən yüz faiz xəbərdar idi... Akademik Y.İ.Çazov Konstantin Ustinoviçə yalnız Siyasi Büro üzvlərinin deyil, həmçinin MK üzvləri və nazirlərin tibbi müayinəsində aşkarlanmış bütün norma pozuntuları barədə xəbər verirdi. Siyasi Büro üzvlərinə gəldikdə, o vaxt belə bir qayda vardı: onların ailələrinə 4-cü İdarə ev həkimləri təhkim edirdi. Onlar müalicədən daha çox sağlamlığı izləyir və lazım olanda məsləhətçiləri cəlb edirdilər. Beləliklə, Çazov ali siyasi rəhbərlik üzvlərinin hamısının tibbi problemlərini bilir və ən yuxarılara məruzə edirdi"[122].

Bəli, partiya "ağa"larının səhhəti çox vaxt karyera intriqalarının alətinə çevrilir və Çazov bu fırıldaqlardan gözəl baş açırdı. Əvvəl Andropovu, sonralar Çernenkonu, Qorbaçovu öz pasiyentlərinin səhhəti haqqında məlumatlandırır və onlardan müvafiq təlimat alırdı. Çox güman ki, bəhs etdiyimiz məsələdə də oxşar təlimat alıbmış, əks təqdirdə heç vaxt Heydər Əliyevi istefaya çıxmağa yönəltməyə cürət etməzdi. Sonralar, V.Mustafayevin "Bir qısqanclığın tarixçəsi" filmində Heydər Əliyev öz qənaətini bildirəcək: "Mən tamamilə əminəm ki, bu, Qorbaçovun göstərişilə edilmişdir".

Aleksandr Borodkinlə söhbətdən:

" – Əliyevlə Çazov bir-birinə necə münasibət bəsləyirdilər?

– Mənə elə gəlirdi ki, apalarında tarazlı münasibət vardı. Bəzən olur ki, həkimi, ya məsləhətçini xəstənin gözü götürmür. Onların aralarında belə şey yox idi.

– Konsiliumlarda Əliyev nə vaxt işləyə biləcəyini soruşurdumu?

– Bəli. Ona deyirdilər ki, reabilitasiyaya bir müddət gərəkdir, o, işləyə biləcək, amma bunun üçün ən azı yarım il–bir il lazımdır ki, rejimə öyrəşə bilsin. O isə elə birdən-birə olmasını arzulayırdı. Və artıq sentyabrda Kremlə gedib-gəlməyə başladı. Güzəştli rejimdə, ardınca tam "yüklənmə" ilə çalışırdı. Lakin ürək çatışmazlığı hələ də qalırdı. Özünə zor gəlib işləyirdi. Məncə, var gücüylə işləmək onun təbiətinə xas idi. Hansı söz-söhbətin getməsi, hansı qərarların qəbul edilməsi ikinci dərəcəli məqamlar idi".

Hər halda, bu "qəribə" infarktla və nəticələrilə bağlı hansısa sözüyarımçıqlıq, uyğunsuzluq təəssüratı qalmaqdadır. Görünür, Heydər Əliyev özü də bu qənaətdə idi.

Yuri Petroviç Batalin onunla Moskvada son görüşlərindən birini xatırlayır:

"Bu, onun istefasından sonra, Miçurin prospektindəki xəstəxanada olmuşdu: həmişəki kimi, səmimi salamlaşdıq, söhbətləşdik. O vaxt Heydər Əliyevin görkəmi ürəkaçan deyildi – nəzərəçarpacaq dərəcədə arıqlamış, üzgün görünürdü. Biz kənara çəkilib əyləşdik. O, yaddaşımda həkk olunan bir cümlə işlətdi. Dəqiq deyə bilmərəm, mənası belə idi: hər necə olsa da, onlar məni məhv etmədilər, mən sağ qala bildim, bundan sonra dirçələcəyəm. Danışığından bilinirdi ki, söhbət yalnız fiziki sağlamlığından getmir. Şayiələrə görə, onu aradan götürmək istəsələr də, bacarmamışdılar.

Bir sual yerinə düşər: artıq istefaya çıxmış Əliyev kimə belə güclü maneçilik törədirmiş? Moskvadakı mütləq hakimlərəmi? Əliyev Qorbaçovun, Yakovlevin iç üzünü tanıyırdı, onlara qarşı çıxış edirdi. Amma çox ehtimal ki, burada iş gizli pusqu, qulaqasma və bu kimi hoqqalarla məhdudlaşırdı. Azərbaycanda hakimiyyətə can atan qüvvələrəmi? Əliyev dəfələrlə, o cümlədən, Moskvadakı erməni dost-tanışlarına, məsələn, SSRİ neft-qaz sənaye müəssisələri inşaatı nazirinin müavini Arakelyana deyirdi: "Mən o dövrdə Azərbaycanda olsaydım, heç bir "Qarabağ", heç bir "Sumqayıt" baş verməzdi"[123].

Neçə il sonra Aleksandr İvanov "Versiya" qəzetinin müxbirinə verdiyi müsahibədə öz ehtimallarını söyləmişdi:

"1993-cü ildən, Azərbaycana hakimiyyət başına gələndən sonra Əliyev öz kanallarıyla xəstələnməsinin əsil səbəblərini və nəticələrini araşdırmağa başladı. Təbii ki, Qorbaçovla münasibətləri düzəlmədi – Əliyev ona o əhvalatı və 90-cı ildə Bakıya qoşunların yeridilməsini bağışlaya bilmədi.

Amma bu vaxt tamamilə müəmmalı hadisələr baş verməyə başladı. "Qəribə" infarkt haqqında məlumatı olanlar birbəbir öldürdülər. Birincisi, katibliyinin müdiri, sonralar Çernomırdinlə işləmiş Valeri Qridnev oldu. O, Kutuzov prospektində, tağın yaxınlığında avtomobil qəzasına uğrayır. Ardınca Miçurin prospektində, DTK-nın

elit yaşayış binasının girəcəyində 1987-ci ildə reabilitasiya dövründə Əliyevə təhkim edilmiş, onun müalicəsi ilə məşğul olmuş həkim Dmitriy Neçayev qətlə yetirilir. Bir qədər sonra, 80-ci illərin sonlarında həmin xəstəxanaya başçılıq etmiş həkim Dmitriy Şerbatkin özünü pəncərədən atır. Deyirdilər, onun ailə və iş yeri ilə bağlı bir problemi yox idi, MKX həkimlərinin hamisi imtiyazlı təbəqə idi"[13].

Azərbaycan Xalq Cəbhəsinin sabiq fəal üzvü, sonralar Dövlət Gömrük Komitəsinin sədri olmuş Tahir Əliyev mənə söyləyirdi ki, o, etibarlı adamlardan xəstə Əliyevə qarşı sui-qəsd hazırlandığından xəbər tutubmuş və bu məlumatı məşhur geoloq Fərman Salmanovla bölüşmək qərarına gəlib. Fərman Qurban oğlu mənimlə söhbətində Tahir müəllimin sözlərini təsdiqləyib dedi ki, həmin informasiyanı o vaxt lazımi yerlərə çatdırmışdı. Görünür ki, onlar sui-qəsd təşkilatçılarının xoflandırılmasına nail olmuş və qəsdçilər əməllərini təxirə salmışlar. Heydər Əliyevə qarşı sui-qəsd cəhdi haqqında sonralar öz müsahibələrində tanınmış telejurnalist Andrey Karaulov da söz açmışdı.

Göründüyü kimi, bu tarixçədə hələ çox qaranlıq nöqtələr var və hətta Heydər Əliyev kimi parlaq çekist də bu müəmmanı sonadək açmağa müvəffəq olmamışdı.

Aleksandr İvanov xatırlayır ki, Azərbaycanda Heydər Əliyevin xəstələnməsi bir çoxları üçün həqiqi "şok" olmuşdu. Moskvaya, xəstəxanada ona baş çəkmək üçün demək olar, bütün respublika rəhbərliyi – Kamran Bağırov, Həsən Seyidov, MK katibləri gəlirdilər.

"İşdən kənarlaşdırılandan sonra isə, – A.İvanov deyir, – vəziyyət tamam dəyişdi. İstefadan sonra həmin adamlar görünmədi, gələn bircə Ramiz Mehdiyev idi. Rütbəsi daha aşağı olanlardan Lidiya Xudatovna Rəsulova, Zeynəb Xanlarova, sonra Cəlilabadın birinci katibi Qurbanov... o, sadəcə göz yaşı tökür, Əliyevi görmək istəyirdi, mən də onu içəriyə buraxdım..."

Mərkəzi Kreml xəstəxanasında da, sonralar Əliyev reabilitasiya dövrünü keçirdiyi Moskva ətrafındakı Barvixada da sədaqətli Tahir Salahov ona baş çəkməyi unutmurdu.

"Heydər Əliyeviç xəstələnəndə, xəstəxanada yanına getdim, – Tahir Teymur oğlu xatırlayır. – Zəngləşib baş çəkdim. O, artıq yataqdan qalxmışdı, lakin görkəmi yaxşı deyildi, rəngi soluxmuş, zəifləmiş haldaydı. Biz əyləşdik, Heydər Əliyeviç 11 mayda başına gələnləri söylədi. Mən ona ürək-dirək verdim.

– Heydər Əliyeviç, bütün bunlar keçib gedər. İnfarktdan müalicə olunanlara nə qədər misal var...

Zarafat etməyə çalışırdım ki, eyni açılsın. Görünür, gəlişim, sərbəst ünsiyyətim ona xoş idi. Bilirsiniz, olur ki, insanlar axı vəzifə borcuna görə də gəlirlər... Məndən savayı, deyəsən, yaxınlardan kimsə vardı.

Haçansa televiziyadan eşitdim ki, o xəstə olanda heç kəs yanına gəlmirdi. Bu, düz deyil. Elə çıxır ki, guya birdən-birə hamı Heydər Əliyeviçdən üz döndərmişdi".

"Onun xəstəliyi yalnız bəhanə idi"...

İlk dəfə xəstəlikdən sonra geniş auditoriya qarşısında Heydər Əliyev 1987-ci il sentyabrın 8-də göründü. O, Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində keçirilən VI Beynəlxalq kitab sərgi-yarmarkasının açılışında iştirak etmişdi. Həmin tədbirə 103 dövlətdən üç mindən artıq firma qatılmışdı.

Elçin yazıçı qələmilə Heydər Əliyevin başına gələn dramatik metamorfozanı emosional və parlaq cizgilərlə təsvir edir:

"1987-ci ildə, Heydər Əliyev xəstələnərkən Qorbaçovun get-gedə dekorativləşən ətrafından qeyb olanda, Bakıda obıvatel dedi-qodusundan tutmuş, müxtəlif məlumatlı və kəm məlumatlı xadimlərin səsləndirdiyi proqnozlaradək cürbəcür şayiələr dolaşmağa başladı. Həmin payız günlərində mən Moskva Beynəlxalq kitab yarmarkasında iştirak edirdim və onun açılışında Heydər Əliyev xəstəlikdən sonra ilk dəfə camaat qarşısında göründü. Arıqlamışdı. Ağır xəstəlik keçirdiyi hiss olunurdu və mən ona baxarkən, 70-ci illəri–80-ci illərin əvvəllərini, onun heç bir konspekt olmadan geniş və ehtiraslı nitqlər söylədiyini xatırlayırdım.

Heydər Əliyevin Şuşada Vaqifin məqbərəsini ziyarət etməsini

yadıma salıram. O, başıaçıq, quşbaşı yağan qar altında yeriyir, addımları geniş və mətindir. Adama elə gəlirdi ki, sonralar dillər əzbəri olan Brejnevin söylədiyi "Azərbaycan geniş addımlarla irəliləyir" kəlamı məcazi mənada deyil, lap gerçək mənada və məhz Əliyev haqqında deyilmişdir.

Və o zaman Moskvada, xəstəliyin üzdüyü Heydər Əliyevə baxarkən, mən düşündüm ki, amansız sistem bu dəfə təbiətin özüylə sövdələşib və Heydər Əliyevdən öz bacını almışdır..."

Və yenə də, bədxahların bütün cəhdlərinə və proqnozlarına baxmayaraq, amansız mərəzin üzdüyü, lakin əyə bilmədiyi, bundan sonra da öz vəzifəsində çalışmaq əzmində olan Heydər Əliyev sentyabrın ilk günlərində Kremldəki kabinetinə qədəm qoydu. O, iş başında daha bir ay 20 gün keçirəcək. "Kreml beşilliyi"nin bu sonuncu zaman kəsiyi bir-birini izləyən peşmançılıqlara çevriləcək, çünki o günlərdə (və istefadan sonrakı günlərdə) hələ dünən hökumətdə və Siyasi Bürodakı qüdrətli həmkarından çoxları nadir arsızlıqla üz döndərməyə tələsəcək, kimi öz soyuqluğu və laqeydliyi, kimi də açıq-saçıq kin-küdurətiylə Baş katibə öz loyallığını və onun Əliyevə qarşı qərəzli münasibətilə həmrəyliyini nümayiş etdirəcəklər. Hələ, necə deyərlər, xoruz banlamamış üç dəfə "sabahınız xeyir" deyəcəklər...

Heydər Əliyevin istefası ərəfəsində baş verənlər və onun Nazirlər Sovetində işlədiyi son ay haqqında mən müsahiblərimdən ətraflı məlumat almağa çalışdım.

Camal Camalovla söhbətdən:

"Heydər Əliyeviç Kremldə işini yenidən davam etdirəndə, onlar Çazovun başçılığıyla onun səhhətinin dəyərləndirilməsi üzrə komissiya yaratdılar.

O, xəstəxanadan soluxmuş, sınıxmış halda çıxmışdı. Amma işləmək əzmiylə. İstefa haqqında fikri yaxın buraxmırdı. İlk günlər, əlbəttə, ağır başa gəlirdi. 4-5 saat işlədikdən sonra hiss olunurdu ki, kabinetdə qalmaq onun üçün çətindir, rəngi-ruhu dəyişir, nəfəsi daralırdı. Kondisioner də yox idi. Bəli, Kreml kabinetlərində tavanlar uca, divarlar "Kareliya ağcaqayını" ilə örtülmüş, işıq bol idi. Amma məncə, hava kondisionerlə saflaşdırılmalı idi. 1987-ci ilin sentyabr ayı bürkülü keçirdi, odur ki, nahardan sonra hava ağırlaşırdı. Bəzən saat 4-dən sonra o, Rıjkovdan icazə alıb evə yollanırdı.

O, gedən kimi zəng vururdular, Rıjkov da, başqaları da, mən bütün bu bağlantılar haqqında Heydər Əliyeviçə xəbər verməliydim.

İşdən gedəndə telefonları mənim otağıma calayırdı. Bu, hökumət rabitəsi idi, Baş katibdən tutmuş başqa xətlərədək.

Katibliyin işçiləri də bu müəmmalı zənglərə görə təəccüblənirdilər: "Onlar qəsdənmi zəngi zəngə calayırdılar?".

Bu zənglər də yaralı yerə toxunurdu. Hər şeydən vəziyyəti gərginləşdirmək niyyəti, hansısa saxta oyun duyulurdu.

– Heydər Əliyeviç yerindədir?

– Xeyr, – cavab verirık, – getmişdir.

– Gəlməyəcək?

– Xeyr, bu gün olmayacaq.

Guya hökumət başçısı Əliyevin getdiyini bilmirdi. İnanmıram mən Rıjkova. Axı onlar özləri ona müxtəsər, altısaatlıq iş qrafikilə işləməyə icazə verilməsi haqqında ərizə yazmağı təklif etmişdilər. O, xəstəxanada yatanda, kimsə ona Siyasi Büroya məktub yazmağı məsləhət görmüşdü: "Xahiş edirəm, səhhətimin durumuna görə mənə güzəştli rejimdə işləməyə icazə verəsiniz".

Məncə, belə bir kağızı yollamışdı da. Sonra öyrənmişdi ki, Siyasi Büro üzvləri onun xahişini narazılıqla qarşılamışlar.

– Axı bu insaniyyətdən uzaqdır. O, beş il on nəfərin əvəzinə "külüng çalıb", bircə dəfə müvəqqəti olaraq rejimi azca yumşaltmaq istəmişdi...

– Siyasi Büro üzvlərinin yazışmalarını viza qoyulması üçün daşıyan xidmətçilərdən biri ona demişdi: "Heydər Əliyeviç, siz nə iş görmüsünüz? Nəyinizə lazım idi bu? Axı bu kağızdan sizə qarşı istifadə edəcəklər".

Lakin xəstəlik yalnız bəhanə idi. O, ikicə aya sağala bilərdi. Onlar da elə bundan qorxurdular. Nə qədər ki o, Siyasi Büro üzvü idi, Qorbaçov ölkəni belə tezliklə dağıda, Qarabağ çaxnaşmalarına rəvac verə bilməyəcəkdi.

O, işə sentyabrda çıxmışdı, oktyabr ayında isə artıq MK Plenu-

mu çağırıldı və onu istefaya çıxmağa məcbur etdilər. Çünki gözəl başa düşürdülər: Əliyev əslində səhhətini qaydaya salmışdır. Oktyabrda o tamam başqa adam idi. İlk günlər, sentyabrın 10-dan 15-dək ağır keçsə də, ayın axırı və oktyabrın əvvəlində o tam qüvvə ilə çalışırdı. Hamını ən çox heyrətləndirən onun belə tez normal duruma qayıtması, işə qatılması idi. Heç kim bunu gözləmirdi. Onlar hamısı, o cümlədən, Çazov da, elə bilirdilər ki, Heydər Əliyeviç tab gətirməyəcək. Mən Çazova hörmətlə yanaşa bilmərəm. Heydər Əliyeviçi istefaya çıxmağa təhrik edən komissiyaya başçılıq edərək, Çazov Qorbaçovun buyruğuna əməl edirdi. Lakin Heydər Əliyeviç möhkəm durdu. Onda onlar fəndə əl atdılar: qısaldılmış iş günü haqqında xahişnamə yazmağı təklif etdilər. O da yazdı..."

Aleksandra Biryukova ilə söhbətdən:

"Biz onun gedəcəyini bilmirdik. Bilən olsaydı da, bu, dar dairə idi. Yəqin ki, Liqaçov, Qorbaçov və bəlkə də Rıjkov. Mən düşünürəm ki, Nikolay İvanoviç Əliyevin tərəfindəydi, gözləməyi, işlərinin necə gedəcəyinə baxmağı təklif edirmiş; yəni o, özünü pis hiss etsə, özü də istefaya çıxmaq qərarına gələcək. Lakin Qorbaçov artıq atını dəhmərləmişdi və hər şey belə başa çatdı".

V.Mustafayevin "Bir qısqanclığın tarixçəsi" filmində Qorbaçov "Heydər Əliyevin Kremldən getməsi nə ilə bağlı idi?" sualını cürbəcür cavablandırır:

Birinci cavab variantı:

"Hər halda, onun getməsi səhhətinin vəziyyəti ilə bağlı idi. O vaxt ağır xəstəlik keçirmişdi".

İkinci cavab variantı:

"Yeniləşmə vaxtı yetişmişdi və sizə deyim ki, respublika tərəfindən nəhəng təzyiq vardı, nəhəng təzyiq. Çoxları hesab edirdilər ki, buradakı mövqeyi ilə, Moskvada qalmaqda davam edərək, o, respublikaya maneçilik törədir (?!)".

Üçüncü cavab variantı:

"Və mən də belə qənaətə gəldim..."

Respublikadan uydurma "təzyiqə" gəldikdə Heydər Əliyev haqlı olaraq deyirdi: "Bu, əlbəttə, absurddur. Respublika Sov.İKP MK-sına heç bir təzyiq göstərə bilməzdi. Xüsusilə də, respublika rəhbərliyində Qorbaçova mənim kənarlaşdırılmağım üzrə təzyiq göstərə biləcək qüvvələr yox idi".

O ki qaldı imzalı-imzasız şikayətlərə, onlar həqiqətən Azərbaycandan çox gəlirdi. O cümlədən, Heydər Əliyevin "kiçik vətəni" Naxçıvandan. Bir dəfə Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi Kamran Rəhimov Moskvada, Kremldə onunla görüşə gəldiyi zaman Heydər Əliyev ona incikliklə deyibmiş: "Kamran, Azərbaycandan mənim haqqımda böhtannamələr gəlir, Şevardnadzenin ünvanına isə yalnız təşəkkür teleqramları. Belə olarmı? Axı mən respublika üçün çox işlər görmüşəm".

K.Rəhimov cavab verir: "Heydər Əliyeviç, mən bunun səbəblərini bilmirəm, amma Azərbaycan xalqı sizin haqqınızda pis yaza bilməz. Çünki Azərbaycanın heç bir rəhbəri respublika üçün sizin etdiyiniz qədər iş görməmişdir".

"Qayıdandan sonra, – Kamran Rəhimov mənə danışırdı, – mən bu sualın cavabını axtarmaqla məşğul oldum. Və məlum oldu ki, Naxçıvan sakinləri Sisyana, Yerevana, Dilicana ticarət etməyə gedərkən ermənilər mehmanxanalarda onların pasportlarını alıb adlarını, soyadlarını, hətta sənədlərinin nömrələrini köçürərək onların adından iftira, uydurma dolu məktublar yazırmışlar...

1988-ci ilin martında Dəmirçyan Yerevanda Teatr meydanında çıxış edərkən partiyaçı donunu atıb iç üzünü başı qızışmış millətinə göstərmişdi: "Qoy erməni xalqı düşünməsin ki, mən ona düşmənəm. Mən də sizinləyəm. Mən də sizi dəstəkləyirəm. Erməni xalqının iki düşməni var – Mustafa Kamal Atatürk və Heydər Əliyev. Mustafa Kamal Atatürk ölmüşdür, Heydər Əliyev isə bütün vəzifələrindən kənarlaşdırılmışdır. Lakin nə qədər ki, o sağdır, biz problemlərimizi həll edə bilməyəcəyik. Onu fiziki yolla aradan götürmək lazımdır".

Bu, artıq konfliktin başlandığı dövr idi".

Doğrudan da, Qorbaçov Baş katib seçildikdən az sonra Moskvaya Azərbaycanın müxtəlif bölgələrindən axın-axın əcayib məktublar "yağdırıldı": guya sıravi zəhmətkeşlərin, respublika sakinlərinin adından Siyasi Büronun üzvü, Heydər Əliyevin ünvanına, onun Azərbaycan KP MK birinci katibi vəzifəsindəki fəaliyyətinə aid kəskin tənqid səsləndirilirdi. Əcayiblik ondan ibarət idi ki, bu

böhtannamələrin çoxu sanki bir-birini təkrarlayırdı, mətnləri surət köçürən kağızla tirajlanmışdı. "Elm həqiqətdir" (Bakı, 1999) kitabında akademik Cəlal Əliyev belə "qarayaxma" yazıların "hasilat" mexanizmini açıqlayır:

"Bakıda gözdənsalma kampaniyasının "başbilənlər mərkəzi"nin vaxtaşırı yığışdığı və Heydər Əliyevin "mənəvi məhvi" üzrə konkret planların hazırlandığı gizli mənzillərin təşkili tarixçəsini götürək. 1986–1987-ci illərdə sabiq İttifaqın mərkəzi direktiv orqanlarının ünvanına əsasən imzasız məktub yağmuru yağdı və bu yazılarda Azərbaycanın "sıravi" vətəndaşları həqarət və hiddətlə respublikada "Əliyev hakimiyyətinin" "qara dövrü"nü damğalayırdılar. Çox səylə yoğrulub-yapılmış, mətbəə üsulu ilə çap olunmuş (?!) "risalə"lərdən birini, demək olar ki, eyni gündə ucsuz-bucaqsız ölkənin müxtəlif yerlərində Siyasi Büronun bütün üzvləri, müttəfiq respublikalar KP MK birinci katibləri, vilayət, diyar komitələri katibləri, İttifaq nazirlikləri və idarələrinin rəhbərləri, deputatları almışdılar. Heç şübhəsiz, bütün bu böhtannamələr eyni "beyin mərkəzində" tərtib edilirdi".

Bəzi məktubların altında həqiqi ad və soyadlar yazılmış, ara-sıra imzalar qoyulmuş, hətta göndərənlərin pasport göstəriciləri də vardı. Məktublardan tək-tükü Heydər Əliyevin özünə çatdırılırdı, təbii ki, o da yazılanları nəzərdən keçirirdi. Bir məktub onu xüsusən heyrətləndirmişdi. Çünki Naxçıvanın Culfa rayonundan, köhnə tanışı Səfər müəllim tərəfindən imzalanmışdı. Aralarında həmişə xoş, səmimi münasibət olmuşdu, odur ki, bu adamın dönüklüyü Heydər Əliyevi yaman ağrıtmışdı. Bir müddət keçəndən sonra Moskvaya, Heydər Əliyevin yanına Nehrəm kəndindən bir həmyerlisi baş çəkir. Heydər Əliyev Səfər müəllimin məktubu haqqında söyləyib istehza ilə əlavə edir: "Nədənsə çoxdandı mənim ünvanıma ondan məktub gəlmir. Bəlkə kağızı qurtarıb? Qoy desin, mən ona kağız da, qələm də yollayaram..." Nehrəmli qonaq Moskvadan qayıdıb Səfər müəllimi soraqlaşıb tapır. O, Culfa rayonunun Bananiyar kəndində Mədəniyyət evinin direktoru vəzifəsində işləyirmiş. Nehrəmli ona möhkəm təpinir: "Sən niyə özünü də, bizi də rüsvay eləyirsən, Moskvaya belə murdar məktublar yazırsan?". Səfər müəllim suçlandığının səbəbini bilib heyrətə gəlir. Axı o Moskvaya heç bir məktub yazmamış, Heydər Əliyevdən də heç vaxt şikayətlənməmiş, bu adamdan yalnız yaxşılıq görmüşdü... İndi də nehrəmli heyrətlənir. "Bu necə olan işdi?! Axı məktubda imzan da var, pasportunun göstəriciləri də. Özüm öz gözümlə görmüşəm!" Xülasə, Səfər kişi fikrə gedir, baş sındırır ki, kimdi onu belə güdaza verən. Xatırlayır ki, iki ay əvvəl Yerevana səfər edəndə, mehmanxanada qalarkən pasportunu qeydiyyata vermişdi. Onda Səfər kişi barmağını dişləyir: görünür, mehmanxana inzibatçıları fənd işlədib, pasportunun surətini köçürüb və həmin böhtannaməyə imzasını, filanı calayıblar.

Başqa, buna bənzər hadisələr haqqında eşidəndə ehtimalından tam əmin oldu. Tutalım, kimsə Ermənistana öz bağ-bostanından meyvə-tərəvəz satmağa yollanır, bir-iki gün yerli mehmanxanada qalır, qayıdır... Sonra da Moskvaya heç nədən xəbəri olmayan naxçıvanlı, qazaxlı, ya ağdamlının adından növbəti "donos" göndərilir... Bax, beləcə, fəndgirliklə erməni millətçiləri Azərbaycanın "hiddətlənmiş vətəndaşları" adından qondarma yazılar axını təşkil etmişdilər. Bu, az qala "detektiv" əhvalatı mən Naxçıvan Muxtar Respublikasına səfərlərimdən birində Culfa rayonunun Ərəfsə kəndinin ağsaqqallarından eşitmişdim.

Şikayətlərin sırasında əməlli-başlı rəndələnmiş yazılar da, məsələn, respublikanın sabiq prokuroru Qamboy Məmmədovun 80 səhifəlik (?!) sicilləməsi də vardı. Q.Məmmədov bu "əsər"ini Siyasi Büro üzvlərinin hamısına şəxsən göndərmişdi. Heydər Əliyevin istefası ərəfəsində bu çox yerinə düşmüşdü. Bu faktı mənim bütün keçmişdə yüksək vəzifə tutmuş müsahiblərim xatırlamışdılar. O cümlədən, Aleksandr Yakovlev və Nikolay Rıjkov.

Mənimlə söhbət zamanı A.Yakovlev özünü elə göstərməyə çalışırdı ki, guya sabiq prokurorun şikayətnaməsindən sonra Heydər Əliyevi inzibati zərbələrdən az qala xilas edibmiş. Onun dolaşıqlı hekayətində Heydər Əliyev çaş-baş qalmış, sınmış kimi, özü isə alicənablıq mücəssəməsi kimi görünürdü. Gəlin, "yenidənqurmanın atası"nı dinləyək:

"...Və bir dəfə, 1986-cı və ya 1987-ci ildə mənə Azərbaycan-

dan 80 səhifədən də artıq məktub çatdırılır. Azərbaycanın prokuroru Məmmədov respublikada törədilən pozğunçuluqları birbəbir sadalayır. Məktubda da Qorbaçovun dərkənarı: "Araşdırılmasını xahiş edirəm". Bəs mənə niyə?

Görünür, ona görə ki, bütün bu köhnə çəkişmələrə qatılmamışdım. Əliyevlə aramızda tamamilə normal münasibət yaranmışdı. Sonradan aramızı vurmuşdular (?!).

Nələr yox idi o məktubda! Ömür yoldaşı haqqında da, yəni qeyri-qanuni yolla dissertasiya müdafiə edibmiş, övladları haqqında da, korrupsiya haqqında da. Mənə isə Əliyev demişdi ki, Azərbaycanda rüşvətxorluğa son qoymaq üçün əvvəl bütün məmurlar uzaqlaşdırılmalı, sonra təzə seçilənlərin yarısı, bir ildən sonra qalan yarısı uzaqlaşdırılmalıdır və yalnız bundan sonra bəlkə də bürokratların, məmurların kiçik bir qismi oğurluqdan əl çəkdi. Mənim maliyyə işlərindən başım çıxmadığına görə bunu Sov.İKP MK nəzdində Partiya Nəzarəti Komitəsinin sədri Puqoya tapşırdım.

Bir neçə ay keçir. Puqo mənə zəng vurur:

– Aleksandr Nikolayeviç, aşkarladığımız sənədli material əsasında heç nə etməmək də, türməyə basmaq da olar. Orada hər şey üçün material var. Hər şeyə tüpürüb unutmaq da, cinayət işi açmaq da olar...

– Sən onu çağır, – dedim, – söhbətləş, hər şeyi söylə. Amma nəzərə al ki, sən bu işi söhbətlə də bitirmisən. Siyasi Büroya məlumat verərik ki, söhbət aparılıb, filan fakt təsdiqlənib, filan fakt – yox. Hesab edirik, işi burada qapatmaq lazımdır.

Bir qədər sonra Puqo yenə zəng vurur.

– Aleksandr Nikolayeviç, o özünü çox davakar aparırdı. Hər şeyi inkar edir. Bəs neyləyək?

Mənim də bu "türmə" işlərilə (?!) məşğul olmağa heç həvəsim yox idi.

– Ona de ki, yanıma gəlsin.

Əliyev gəlib çıxdı, nəsə acıqlı, üzgün halda:

– Bütün bunlar haqsızlıqdır, – qımıldandı.

Hətta əvvəlki Əliyevə oxşamır. Söhbətə başladıq, bir qədər toxtadı.

– Bilirsən nə var, – dedim, – biz sənə heç bir pislik etmək istəmirik. Sən sakitləş. Heç bir dəhşətli şey olmayacaq. Hər halda, bizim məruzəmizdə. Sonrasına gəldikdə isə... Sən özün Siyasi Büronun üzvüsən, işin minvalına bələdsən. Biz heç nə təklif etməyəcəyik. Bir onu deyəcəyik ki, səninlə danışmışıq və bununla da məsələyə son qoymuşuq.

Deyəsən o, nəticənin normal olacağına inandı. Təşəkkür etdi və biz ayrıldıq. Məktub tərtib etdik ki, araşdırma aparılıb, filan fakt təsdiqlənib, filan fakt təsdiqlənməyib və bununla işə son qoymağı mümkün sayırıq.

Bir il keçdi. Və birdən mənə Qorbaçov zəng vurur.

– Heydər Əliyeviç istefa haqqında ərizə yazıb. Özünü pis hiss edir, səhhətinə istinad etdi. Siyasi Büro üzvləri onun işdən azad edilməsinə köklənibər...

Azad etdilər və o sanki qeyb oldu. Bizdə belədir də: azad edilən kimi insan yox kimidir".

Bu əhvalatı Nazirlər Sovetinin sabiq sədri N.Rıjkov tamamilə başqa cür xatırlayır. Yakovlevdən fərqli olaraq, o, öz xidmətlərini şişirtmir və Əliyev haqqında qat-qat artıq hörmətlə söz açır.

Nikolay Rıjkovla söhbətdən:

"O, xəstəxanadan çıxandan sonra vəzifədən gedəcəyini yəqin bilirdi. Və həmin bu məqamda qalın bir "dans" gəlib çıxdı.

Yadımdadır, paket şabalıdı rəngli kağıza bükülmüşdü. "Siyasi Büro üzvü N.Rıjkova və s." Sonra bildim ki, tək mən deyil, Qorbaçov, Yakovlev də belə paketlər almışdılar. Siyasi Büro üzvlərinin hamısına göndərilməsini bilmirəm, amma tək mənə ünvanlanmadığı dəqiqdir. "Qəmbərqulu" ilə dolu olan cızma-qara səhv etmirəmsə, yüz səhifədən artıq idi. Onun haqqında nələr yazılmamışdı orada! Az qala anadan olmasından üzü bəri bütün həyat izlənirdi: nə vaxt hansı idarələrdə işləyib, hansı işlər görmüşdür.

Mən ona təklif etdim: "Heydər Əliyeviç, gəlin elə indi danışaq, ələlxüsus da ki, məndə bax belə bir sənəd var". İstirahət otağına keçib seyfi açdım. Mən məktubu heç yerə verməmişdim, məndə qalırdı. Paketi çıxartdım. Dedi: "Bilirəm. Bunu filankəs yazıb hamıya yollamışdır". Düzünü deyim, mən "atüstü" göz gəzdirmişdim.

Bütün günü işlədiyin halda vaxt varıydı ki, oturub oxuyasan. Dedim: "Atüstü oxumuşam". – "Hə də, vaxt itirməyin". Danışmağa başladı. Orada yazılanlar da başdan-ayağa çirkab idi. "Burada, – dedim, – bir neçə belə məqam var. Məsələn, yazırlar, arada da belə söz-söhbət gedir ki, Brejnev sizdə (Azərbaycanda – ***E.A.***) olanda, siz ona hansısa brilyant qaşlı üzük bağışlamısınız. O, sizdə çıxış edəndə, daha doğrusu, Rəyasət Heyətində əyləşdiyi zaman televizora baxırdım, – barmağındakı üzüyü fırladırdı. Projektorların işığı altında şüaları şimşək kimi parlayırdı".

"Nikolay İvanoviç, mən bu barədə eşitmişəm".

"Burada da eyni şey yazılıb". O, mənimlə söhbətə hazır idi. Əlində bir qovluq vardı, oradan jurnal çıxardı, yadımda deyil, rus və ya Azərbaycan dilindəydi. Fotoşəkli göstərir: Brejnevin təyyarəsi, trap. Trapdan on metr aralı Brejnev, Əliyev, sizin Ali Sovetin, ya Nazirlər Sovetinin sədri, yadımda deyil, addımlayırlar. Arxada da Brejnevin adyutantı, deyəsən, general Udoviçenko idi. Heydər Əliyeviç mənə üz tutur: "Nikolay İvanoviç, fotoşəkli görürsünüzmü?" – "Görürəm". – "Diqqətlə baxın. Mən onu qarşılamışdım. Təyyarə salonuna daxil olmuşdum, bəli, axı yüksək qonağın pişvazına çıxmalı, "xoş gəlmisiniz" deməli idim və s. Baxın, diqqətlə baxın". Doğrudan da, Brejnevin barmağında üzük gözümə dəyir.

O (Əliyev – ***E.A.***) deyir: "Siz ki, məni tanıyırsınız, məgər mən qeyri – normal adamam ki, təyyarəyə qalxıb: "Leonid İliç, buyurun, sizi Azərbaycan torpağına dəvət edirəm" deyən kimi götürüb üzüyü barmağına taxım?.. Axı, bu, gülüncdür".

"Yaxşı, – dedim, – bəs bu "qəmbərqulu"nu neyləyək?" – "Nikolay İvanoviç, nə istəyirsiniz eləyin".

Qorbaçovla növbəti dəfə görüşəndə mən həmin qovluğu çıxardım. "Mixail Sergeyeviç, sizə bu qovluq məlumdur?" – "Bəli, mən də almışam". – "İndi bəs necə olsun?" – "Nikolay İvanoviç, nə istəyirsən, elə". – "Mən bu qovluğu heç hara verməyəcəyəm, yadigar saxlayacağam, vəssalam". Sonralar, yadımda qalmayıb, deyəsən, arxivə təhvil verdim. Orada gətirilən faktların yoxlanması haqqında heç bir tapşırıq verməmişəm. Bəlkə eyni surətləri almış Qorbaçov, ya Yakovlev araşdırma aparılmasını tapşırmışlar.

– Tapşırmışlar, çünki Azərbaycana qayıtmaqdan daşındırmaq niyyətilə Əliyevə zəng edəndə, Puqoda saxlanılan materialla hədələmişdilər.

– ...Artıq Əliyev haqqında qərar qəbul ediləndə bizə dedilər ki, o özü ərizə verir. Heydər Əliyeviç mənə zəng vurdu. "Nikolay İvanoviç, olarmı gəlim?" Gəldi. Üç saata yaxın oturub söhbətləşdik. O, artıq bilirdi, mən də hər şeyi bilirdim. Amma axı normal münasibətlərimiz vardı. O, gözəl başa düşürdü ki, bu mənim təşəbbüsüm deyil.

– Sizin yanınıza gələndə əhvalı necə idi?

– Deməzdim ki, çaşqın idi, əksinə, özünü müdafiə edirdi. Anlayırdı ki, bəlkə bu sonuncu belə ətraflı söhbətimizdir. O, özünü müdafiə etsə də, normal, ləyaqətlə davranırdı. Əlbəttə ki, respublikadakı yeni rəhbərlikdən söz düşdü. O, öz davamçılarından çox da razı deyildi.

– Qorbaçova qarşı incikliyi duyulurdumu? Sizə bu barədə bir söz deməmişdimi?

– Bəli. Deyirdi: "Mən başa düşmürəm nə üçün belədir. Məgər mən pis işləyirdim? Niyə?" Əslində, o haqlıydı. İnfarkta görə işdən çıxarılmağa qalsa, onda gərək Siyasi Büronun yarısı çıxarılaydı. Qrişin bir, ya iki infarkt keçirsə də, hələ xeyli müddət işləmişdi. Kosıgin də infarkt keçirib işləmişdi. Səhhətləri imkan verirdisə, nə olsun, qoy işləsinlər... İncikliyi var idi...

– Bəs siz nə deyirdiniz, nə cavab verirdiniz?

– Nə deyə bilərdim? Birgə işləməyimizə, normal çalışdığımıza görə təşəkkür etdim, mən ondan razı idim. Amma o, artıq ərizəsini imzalamışdı, çıxış yolu yox idi.

Görüşümüzün sonunda ona qarşı insafsızlığın ölçüsünü göstərən bir məsələ ortaya çıxdı. Bir qədər əvvəl qərara alınmışdı ki, "Prezident – otel"lə üzbəüz binada onun oğlunamı, qızınamı, yadımda qalmayıb, – mənzil verilsin. Bina inşa edilincə, Əliyevin başına bu nəhs əhvalat gəlir və mənzili də verməkdən imtina edirlər. "Nikolay İvanoviç, bu nə münasibətdir? Belə olarmı?" Ertəsi gün mən MK işlər idarəsinin rəisi Nikolay Kruçinaya zəng vurdum (o, 1991-ci ildə pəncərədən özünü atmışdı). Biz yaxından tanış idik, bizi eyni ildə Mərkəzi Komitəyə keçirmişdilər, mən Uraldan, o, deyəsən, Qazaxıstandan idi.

"Nikolay, – dedim, – bura bax, dünən Heydər Əliyeviç yanımdaydı, siz guya qərar çıxarmısınız ki, vəd etdiyiniz mənzili verməyəsiniz". Mən isə bilirdim ki, Heydər Əliyeviçə onun xahişilə doğrudan da söz vermişlər, mənzil də ayırmışlar. Gördüm, nəm-nüm eləyir. "Qulaq as, Nikolay, sən ki normal mujiksən, nə oyundu çıxarırsınız? Məgər bu mənzilə görə Moskva dağılacaq? Əgər Əliyevə Siyasi Büro üzvü kimi Mərkəzi Komitədə mənzil verə bilmirsiniz, onda xahiş edirəm, o mənzili mənə ver, yəni şəxsən mənə yox, Nazirlər Sovetinə". MK ilə hökumət arasında qarşılıqlı haqq-hesab vardı. Tutaq ki, təzə nazir gəlib, mənzilimiz yoxdursa, Mərkəzi Komitədən alırıq. Onlarda yoxdursa, bizdə varsa – veririk. Telefonla dedim: "Çox xahiş edirəm, şahidi ol". Hökumətin işlər rəisi Smertyukova telefon açıram: "Bura bax, Mixail Sergeyeviç, mən birinci hökumət rabitəsilə Kruçina ilə danışıram. Siz Əliyevə qarşı nə hoqqa çıxarırsınız? Bu nə oyundu?" – "Nikolay İvanoviç, biz deyil, onlar oyun çıxarırlar". – "Bilirsən, Nikolay, mən səndən xahiş edirəm, mənzili ver. Sənə lazım olarsa, əvəzinə mənzil qaytararıq". – "Nikolay İvanoviç, – cavab verir, – bu nə sözdür, biz hər dəfə bir-birimizə mənzil vermirikmi?" – "Nikolay, – dedim, – sənə dalını gizlətmək lazımdırsa, mən Nazirlər Soveti adından qəbz imzalayaram ki, filan qədər kvadratmetr qaytarılacağına təminat veririk..." – "Nə danışırsınız, Nikolay İvanoviç! Mən sizdən qəbz alarammı? Anladım, hər şey yerinə yetiriləcək".

Xülasə, mənzili qoruya bildik. Sonra Heydər Əliyeviçə zəng vurdum. Dedim: "Bax, belə söhbət oldu. Odur ki, qanını qaraltma, mənzil veriləcək".

Bu da onların Əliyevə qarşı insafsız münasibətinin nümayişi idi".

Mənzil əhvalatı, doğrudan da, hiddət doğurur. Eyni zamanda N.İ.Rıjkovun həssas və nəcib insan olduğunu göstərir.

Heydər Əliyev özü respublikada, sonralar Moskvada işlədiyi zaman daima tabeliyində çalışanlar üçün, əmək qabaqcılları, elm və sənət xadimləri üçün növbədənkənar mənzil ayrılmasını təmin etmiş, onların ailələrinin yaşayış şəraitini yaxşılaşdırmaq üçün köməyini əsirgəməmişdi.

Ona görə də yuxarıda xatırladığımız və yaxşı ki, baş tutmamış mənzil "oyunu" bürokratik aparatın arsızlığını və laqeydliyini göstərir. Partiya, ya dövlət elitasının nümayəndəsi vəzifəsini tərk edən kimi, aparat dərhal onun qarşısında qapıları bağlayır, adını "arxiv" siyahısına köçürürdü.

İndi Heydər Əliyev üçün ən acı məqama – istefa ərəfəsində Qorbaçovla son söhbətinə keçək. Həmin söhbət oktyabrın 19-da, SSRİ Ali Sovetinin sessiyası keçirilən vaxta təsadüf edir. Heydər Əliyevin şəxsi mühafizə rəisi Aleksandr İvanovun sözünə görə, nahardan sonra Heydər Əliyev kooperativlərin işi ilə tanış olmaq məqsədilə "Kropotkinskaya" metrostansiyasının yanındakı özəl kafeyə, ardınca ayaqqabı və mebel hazırlayan sexlərə yollanacaqdı.

"Bu vaxt Valeri Arkadyeviç Qridnev zəng vurdu. Heydər Əliyeviç mənə üz tutdu: "Kremlə gedirik". Mən DAM-a, milisə müvafiq komanda verirəm: "Marşrutu dəyişirik, Kremlə yollanırıq". Kreml həyətinə daxil olub Böyük Kreml sarayına tərəf – sessiya orada keçirilirdi, – dönürük. Heydər Əliyeviç liftlə Siyasi Büro üzvlərinin kabinetinə qalxdı. İclas sona yetmişdi və onu gözləyirdilər. Aşağıda dörd maşın dayanmışdı. Kimlərin olduğu bilinmirdi. "Təhkim olunanların" otağına qalxanda, anladım ki, kabinetdəkilər Qromıko, Liqaçov, Qorbaçov və Rıjkovdur. İyirmi dəqiqə keçər-keçməz Heydər Əliyeviç aşağıya düşür. Rəngi-ruhu kağız kimi ağappaqdı. Nəsə baş verib. Məndən soruşur: "Saşa, uşaqlar hardadı?". Öz uşaqlarını deyirdi. "Gedək xəstəxanaya. Yolüstü Sevanı, İlhamı və Mahmudu soraqla". Bütün yolboyu susdu. Son zamanlar "Mayak"a qulaq asmağı xoşlayırdı. Maşında radionu qoşsam da, məhəl qoymadı. Miçurin prospektinə çatdıq. Xəstəxananın 6-cı mərtəbəsində ona palata ayrılmışdı. Soyunmasına kömək edib İlhama, Sevaya və Mahmuda zəng vurub dedim ki, yubanmadan xəstəxanaya gəlsinlər. Palatada mənə üz tutdu: "Bilirsən, məni ərizə yazmağa məcbur etdilər". Uşaqlar gəlib çıxdılar – Seva, İlham və Mahmud, bu vəziyyətdə nə etməli olduqlarını düşünüb-daşındılar.

Bir sözlə, istefa ilə bağlı vəziyyəti hamılıqla götür-qoy etdilər. Övladları dedilər: "Madam ki, səni istəmirlər, çıx get. Nə üçün zorla dirənməlisən?".

O, artıq ərizə yazdığını dedi.
Ertəsi gün Plenumda ərizəsini səsləndirdilər".

Sevil Əliyeva ilə söhbətimdən:

"Qorbaçov ondan istefaya çıxmasını tələb edəndə, atam bizimlə məsləhətləşməyi qərara aldı. "Mən neyləyim? İndi səhhətimin vəziyyətinə görə mən onlardan asılı qalmışam". Atam o vaxt həm də həkimlərdən asılı olduğuna görə xoşluqla çıxmağı üstün tutdu. Bizə söyləyirdi: "Mən Qorbaçova ərizəmi gətirəndə elə sevindi ki! Məni qucaqlayıb öpdü, "spasibo" da dedi".

Süleyman Tatlıyevin xatirələrindən:

"1987-ci ildə o, xəstə olduğu zaman, mən həyat yoldaşımla Moskvada idim. Heydər Əliyevə xəstəxanada baş çəkdim. O, artıq istefaya çıxmışdı, çətin dövr keçirirdi. Söhbətləşdik. O, respublikadakı vəziyyətlə maraqlanırdı. Mən hər şey haqqında məlumat verirdim, vəziyyətin çox ağır olduğunu, erməni millətçilərinin baş qaldırdığını söyləyirdim... O, belə cəhdlərin qarşısını vaxtlı-vaxtında almağı bacarırdı.

– Qorbaçovla münasibətlərinə toxunmadımı?

– Çox xırdalamırdı. Amma söhbətin gedişindən anladım ki, Qorbaçov onun işə davam etməsini istəmirdi. Mən əminəm ki, Qarabağ problemi ermənilərin təhrikiylə Qorbaçov tərəfindən körükləndirilmişdi. Amma bunun üçün Əliyev aradan götürülməliydi. Əliyev birinci katib olanda da, sonra SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olanda da ermənilər dəfələrlə Qarabağın Ermənistana birləşdirilməsi haqqında məsələ qaldırmışdılar. Xüsusən, Heydər Əliyev Moskvaya gedəndən sonra fəallaşmışdılar. Lakin Əliyev Kremldə olduğu zaman heç nəyə nail ola bilməzdilər. Ona görə Əliyevin istefası bir çox cəhətdən məhz bununla bağlıdır, onun xəstəliyi isə yalnız bəhanə olmuşdur..."

Siyasi Büroda xəstələnmiş, infarkt keçirmiş həmkarlara bir çox hallarda olduqca laqeyd, hətta amansızcasına yanaşırdılar. Hələ özünə gəlməmiş, yataqdan qalxmamış silahdaşlarını dilə tutub istefaya çıxmağa təhrik edir, buna nail olan kimi də, SSRİ Nazirlər Sovetinin sədri A.Kosıginin başına gəldiyi kimi, "siyahıdan pozurdular".

Rusiya televiziyasının bir verilişində bu əhvalatdan bəhs edilirdi:

"Kosıgin infarktdan sonra azca özünə gələndə ona Çernenko zəng vurdu:

– Siyasi Büro və şəxsən yoldaş Brejnev hesab edirlər ki, siz səhhətinizin durumuna görə istefaya çıxa bilərdiniz.

Kosıgin haqlı sual verir:

– Bəs niyə Brejnev özü zəng vurmayıb?

– O da naxoşdur, – Çernenko cavab verir.

Elə həmin gün Aleksey Nikolayeviç istefa haqqında ərizə yazır. Ərizə də yubanmadan qəbul olundu.

Dərhal mühafizə xidməti götürülür, "vertuşka", "VÇ" (hökumət rabitə xətləri – ***E.A.***) kəsdirilir, bircə şəhər telefonu saxlanılır. Bu, Kosıginə ağrı-acı vermişdi".

Sonralar Pyotr Şelest xatirələrində yazacaq:

"Dekabrın 18-də (1980-ci il – ***E.A.***) mən xəstəxana qeydiyyatından çıxıb saat 15-də oradan getdim. Kosıgin həmin gün saat 12-də vəfat etdi, yəqin bir gün əvvəl yanına gələn və tutduğu bağ mülkünü nə vaxt boşaldacağı ilə maraqlanan "elçilər" buna bais olmuşdular"[125].

Kosıginin vəfatını dərhal elan etmədilər. Dekabrın 19-da ölkə Brejnevin doğum gününü qeyd edirdi və Siyasi Büroda bayramı istefaya çıxmış hökumət təsərrüfatçısının ölüm xəbərilə pozmamaq qərarına gəlmişdilər. Xalq sabiq Baş nazirin ölümündən yalnız 21 dekabrda xəbər tutdu. Yeri gəlmişkən, Kosıginin cənazəsi Sovet Ordusu Evində tabutda qoyulmuşdu, halbuki mərhumun statusuna görə vidalaşma İttifaqlar Evinin Sütunlu salonunda keçirilməli idi.

Siyasi Büronun sabiq üzvü Viktor Qrişin Andrey Karaulovla müsahibəsində Kosıginin istefasının başqa versiyasını söyləmişdi.

"Onda infarkt miokard, özü də geniş infarkt baş vermişdi. Çazov mənə deyirdi: heyrətamizdir ki, insan necə sağ qalıb, onda ürək əzələsi yerinə, Çazovun təbirincə, bircə "otonka"* qalıb. Kosıgin özü vəziyyətini pis dəyərləndirsə də, çox fəal idi. İş onunla bitdi ki, Səhiyyə Nazirliyinin 4-cü İdarəsi (əlbəttə, Brejnevin məsləhəti-

* Otonka – burada "tor", "pərdə" mənasında.

lə) Siyasi Büroya rəsmi təqdimat çatdırdı ki, o (Kosıgin) daha işləyə bilməz..."[128].

Kosıginin tələm-tələsik və amansızcasına istefaya göndərilməsi Heydər Əliyevi acıtmış və heyrətləndirmişdi. Sonralar o mənə və V.Toltsa söyləyirdi:

"Həmin günlərdə mən Bakıdan uçub Sov.İKP MK Plenumuna gəlib çıtdim ki, Aleksey Nikolayeviç ağır infarktla Kreml xəstəxanasına düşüb. Məlumatlı adamlar dedilər ki, Kosıginə "yuxarılar" istefa ərizəsini yazdırmağa çalışırlar. Günü sabah Plenumdur, ardınca bu məsələni qanuni həll etməli olan sessiyadır. O isə etiraz edir və ərizə yazmaq istəmir. Mən Siyasi Büro üzvlərindən ən işgüzar, bir çox məsələləri müdaxiləsi ilə yola verə bilən adam kimi Kosıginə hörmət bəsləyirdim. Odur ki, onun ağır xəstələnməsi xəbəri məni kədərləndirdi. Şübhələrimi heç kimlə bölüşə bilmirdim, hər şeyi içimdə saxlayır, öz-özümlə danışırdım: "İlahi, axı niyə belə amansızlıq olmalıdır? Yaxşı, xəstəxanadan çıxardı, azca dincələrdi, sonra da qərara gələrdiniz". Di gəl, sessiyada Kosıgini tutduğu vəzifədən azad etdilər. Deputatlara tələsik ərizəsini oxudular, tələsik də səs verdilər. Elə tələsirdilər ki, guya bu istefadan nəhəng ölkənin aqibəti asılıydı... Beş gündən sonra isə Aleksey Nikolayeviç xəstəxanada keçindi. Əminəm ki, onunla belə etinasızlıqla rəftar edən həmkarlarına qarşı inciklik dramın sonluğunu sürətləndirmişdi".

Vitali Vorotnikovla söhbətdən:

"Qorbaçov Plenumda Əliyevin vəzifəsindən azad olunması haqqında təklif irəli sürdü. Deyəsən, Əliyev sentyabr və ya oktyabr ayında işə çıxmışdı və Siyasi Büronun hansısa müşavirə, ya iclasında görüşdüyümüz zaman aldığım təəssürat xatirimdədir. Görkəmi yaxşı deyildi, arıqlamış, yorğun-arğın, nəsə bezikmiş kimi görünürdü. Plenumda Qorbaçov fasilə zamanı Siyasi Büro üzvlərini, MK katiblərini yığdı və dedi: "Mənim Heydər Əliyeviçlə söhbətim olmuşdur. O, ağır xəstədir, ona vəzifələrini icra etmək çətindir. Onun qarşısında məsələ qoydum ki, təqaüdə çıxmaq lazımdır. O əvvəl bunu qəbul etmədi. Söhbətimiz asan deyildi, lakin sonra o hər şeyi anladı və ərizə yazdı. Və mən onun müraciətinin dəstəklənməsini xahiş edirəm".

Onun özü Plenumda yox idi, ya çağırmamışdılar, ya da özü gəlməmişdi. Ümumiyyətlə, belə bir ənənə vardı: sənin azad olunmağın haqda məsələ həll edilirsə və özün ərizə yazmısansa, oraya gedib cürbəcür söhbətlərə qulaq asmağın nəyinə gərəkdi? Odur ki, gəlməmişdi.

– Ona qarşı hansısa iradlar irəli sürülürdü?

– İşlə bağlı iradlar yox idi. Səhhət durumu baxımından – o vaxt vəziyyəti ağır idi. Amma başqa variant da ola bilərdi: onu məzuniyyətə buraxmaq, bir-iki ay reabilitasiya keçməyə imkan vermək olardı. Sonra isə yenə bu məsələyə qayıtmaq. Lakin komanda dəyişirdi və məncə, bu başlıca amil oldu. Onun mövqeyi Şevardnadzenin mövqeyindən fərqlənirdi. Düşünürəm ki, burada, yəqin Rıjkovun da əli vardı, ona yanında elə adamları qoymaq lazım idi ki, onlarla işləmək daha asan olaydı. Yəni yeri gələndə üstünə səsini qaldırmaq, yerində otuzdurmaq da mümkün olaydı, – Əliyevə qarşı belə şeylər keçməzdi".

21 oktyabr 1987-ci il tarixli Sov.İKP MK Plenumunun stenoqramından:

"Qorbaçov – *İndi ikinci məsələ. Təşkilati. Heydər Əliyeviç Əliyev ağır infarkt keçirmişdir. Səhhətinin durumuna görə Siyasi Büro üzvü kimi öz vəzifələrini icra edə bilmir. Təklif var ki, təqaüd təsbit edilsin. O, SSRİ Nazirlər Soveti nəzdində Dövlət müşaviri vəzifəsində təsdiqlənsin. Moskvada, Siyasi Büroda o, fəal işləmişdir.*

(Səs verirlər. Qəbul olunur)".

Bax, beləcə, Heydər Əliyevin beş il ərzində çəkdiyi nəhəng zəhmətə bircə "fəal" kəlməsi ilə qiymət verilmişdi... Neynək, necə deyərlər, buna da şükür. Yoxsa Q.Romanov kimi, mənfi səciyyələndirmə ilə siyasi yoxluğa məhkum etdirə də bilərdilər. Qorbaçov buna cürət etmədi, hər halda Əliyevin partiya həmkarları arasında nüfuzu həddindən artıq yüksək idi. Və yəqin "gensek" "ağ eləmək"dən çəkinmişdi.

Əlamətdar məqamdır ki, həmin Plenumda B.Yeltsinin Qorbaçov siyasətinə qarşı səs-küyə səbəb olmuş demarşı, ardınca da Rusiyanın gələcək prezidentinin kütləvi "döyülməsi" baş vermiş və qalmaqal Qorbaçova baha başa gəlmiş, əslində, onun süqutunun başlanğıcı olmuşdur.

"Qorbaçov Yeltsinin simasında özü-özünə müxalifət yaratdı, – V.Vorotnikov yazır. – O, rəqibini nə qədər çox qısnayırdısa, o qədər də Yeltsinin nüfuzu yeyin artırdı. Boris Nikolayeviçin təkəbbürü, xudpəsəndliyi, sərt qırımı, şöhrətpərəstliyi nəzərə alındığı təqdirdə həmin "döyülmə" tamaşası Qorbaçova böyük ziyan vurdu. Burada Qorbaçovun fəndi mənfi təsir doğurdu. Yeltsin "cin atı"na mindi"[127].

Heydər Əliyevin köməkçisi Eduard Proxorenkonun söylədiyinə görə, oktyabr ayı gəlincə, onun "şefi" öz iş qabiliyyətini tam bərpa etmişdi.

"O, çox möhkəm adam idi. Təbii ki, infarktdan sonra bir müddət ağrıdı. Amma artıq oktyabr ayının sonlarında Heydər Əliyeviç tam rejimdə işləyirdi. Axı biz onunla həmin günlər kooperativləri gəzib dolanırdıq, bu da hər şeydən savayı, təpər tələb edir. Səhərdən sessiya iclasında oturasan, sonra da nəfəsini dərmədən kooperativlərə yol ölçəsən...

Odur ki, onun getmək niyyətinə dəlalət edən heç bir işarət yox idi. Əksinə, ciddi tədbirlər, bölgələrə səfərlər planlaşdırılırdı.

Beləliklə, onun istefası tamamilə gözlənilməz oldu.

Deyəsən, həmin günün axşamı, ya ertəsi günün səhəri bizi başına yığdı, vidalaşdı. İstefanın səbəblərinə toxunmadan, sadəcə: "Mən gedirəm", – dedi. Biz gözəl bilirdik ki, elə-belə getməzlər, xüsusilə də, buna əsas verə biləcək heç bir zahiri səbəb yox idi.

– Əməkdaşlarınız bu hadisəni necə qarşıladı?

– Çox acıyırdıq. Artıq normal iqlim yaranmışdı. Axı biz, aparat adamları, hər şeyə alışmış, müəyyən intizama öyrəşmişdik və birdən-birə hamımızı kənara atdılar, məlum deyil, bundan sonra kimin işi necə olacaq. Biz gözəl anlayırdıq ki, Siyasi Büro üzvünün, birinci müavinin istefası nə deməkdir, bunun arxasında hansı motivlər var, bunun ardınca nələr baş verə bilər...

Onun yerinə "Qosplan"dan Talızin gəldi. Ləyaqətli adam idi. Yeri gəlmişkən, Heydər Əliyeviçlə çox yaxşı münasibətləri vardı. O, ən əvvəl, alim, texniki elmlər doktoru, ziyalı, çox sadə, adamayovuşan şəxsiyyət idi. Əliyev Talızini geniş biliklərinə görə yüksək qiymətləndirirdi. Və biz onunla işləməyə başladıq. Lakin onun bu vəzifədə qalması uzun sürmədi. Sonra Biryukova gəldi, ardınca Şerbakov, beləliklə kadrların "atlanbac" oyunu başlandı..."

Məşhur Azərbaycan yazıçısı **Elçin** xatırlayır:

"XTNS"-da kitab yarmarkası bağlanandan sonra mən və ümumittifaq miqyasda milli ədəbiyyatımızın tanıdılmasında çox xidmətlər göstərmiş, "Drujba narodov" jurnalının baş redaktoru Sergey Baruzdin ADR Yazıçılar İttifaqının dəvətilə Şərqi Berlinə yollandıq. Məhz orada Heydər Əliyevin Siyasi Büro üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrindən azad olunması xəbərini eşitdik. Bax, elə o vaxt Baruzdini müşahidə edərək, bu hadisəyə ikiüzlülük içində çürüyən "sovet cəmiyyətinin" münasibətinin necə olacağını anladım. Səfər boyu Heydər Əliyevi ağızdolusu tərifləyən Baruzdin birdən-birə baxışlarını tam əksinə dəyişib onu tənqid etməyə, şovinistik bir istehza ilə qarasınca danışmağa başladı. Kəskin dönüş siyasi küləklərin dəyişməsindən xəbər verirdi.

Berlindən qayıdaraq düşünürdüm ki, indi ilk növbədə ermənilər hücuma keçəcəklər. Təəssüf ki, gümanlarım doğru çıxdı. Heydər Əliyev elə böyük nüfuz sahibi idi ki, hətta erməni-daşnak irqçiliyi də onun öhdəsindən gələ bilmirdi".

Rusiya jurnalisti Oleq Sıqanov "Əliyevlərin taleyi və zamanı" məqaləsində yazırdı:

"...Mən dönə-dönə bir nəticəyə gəlirəm: Heydər Əliyevin 80-ci ilin sonlarında Kreml rəhbərliyi aparatından sıxışdırılması bütün son sovet islahatlarına sarsıdıcı zərbə vurdu və bu sabiq SSRİ-nin bütün respublikalarına təsir göstərdi. Axı o zaman heç kim başlanılan islahatların necə sona yetiriləcəyini bilmirdi. Bunu nə Qorbaçov bilir, nə də Yeltsin anlayırdı; nəticədə sovet sisteminin transformasiyası nəzarətolunmaz yolla gedərək ölkənin dağıdılmasına gətirib çıxardı. Kommunizmə bəraət qazandırmağa və müdafiə etməyə cəhd etməyərək etiraf etməliyik ki, ölkənin süqutu ilk növbədə bəşəri fəlakətdir. Əliyev və Əliyev kimi siyasətçilər o vaxt ölkə üçün nicat ola bilərdilər, heyhat ki, tarixin gərdişi başqa cür oldu. Sovet islahatlarının kəskin dönəmlərində hakimiyyət başına heç də intellektual sayıla biləcək adamlar çıxmırdı (Xruşşov, Qorbaçov, Yeltsin), onilliklər boyu hakimlər zümrəsi nadir idarəetmə bacarığı olan insanlara yer vermirdi, aparıcı vəzifələri çox vaxt təsadüfi şəxslər tuturdular"[128].

Heydər Əliyevin kənarlaşdırılması ölkədə sistemli siyasi və iqtisadi böhranın başlanğıcına təsadüf etdi, 1988-ci ildən etibarən böhran sürətlə kəskinləşməyə üz qoydu...

Və məni bir fikir rahat buraxmır: bəli, Heydər Əliyev təklənsə də, imkan daxilində təqaüdə "tərxis olunmasına" müqavimət göstərirdi, çünki bir dövlətçi kimi, vətəndaş kimi həyatını işsiz, fəaliyyətsiz təsəvvür etmirdi. Amma buna baxmayaraq, yenə də, necə deyərlər, xeyirsiz şər olmur və Qorbaçov kimiləri ilə üzülüşmək onun, bizim, tarixin xeyrinə oldu! Beləliklə, Qorbaçov özü də bilmədən, istəmədən Əliyevin qarşısında dağılan imperiyanın tərkibindən çıxmaqda olan yaralı, başıbəlalı Azərbaycanın nicatına yönəlmiş tarixi missiyasını yerinə yetirmək üçün bir növ meydan yaratmış oldu... Əminəm ki, o, ağır xəstəlikdən sonra Nazirlər Sovetində "gensek" əsabələrinin tikanlı atmacaları, "badalaqları" ilə müşayiət olunan işini davam etdirsəydi, o, səhhətini tamamilə poza bilərdi və biz onu müstəqil Azərbaycanın prezidenti kimi görmək şansını biryolluq itirərdik... Həm də o vaxt Qorbaçova "yenidənqurma düşmənləri", onun "müzəffər yürüşünə" maneçilik törədənlər çox lazım idi və həmişə qatmaqarışıq dövrlərdə olduğu kimi, "əcinnələr ovu" başlanırdı. Heydər Əliyev Siyasi Büroda bundan sonra da qalsaydı, onun üstünə şər də ata bilərdilər, "ziyankarlıq"da və daha nələrdə suçlaya da bilərdilər... Əlamətdar hadisədir ki, o tarixi baxımdan öz məqamında mərkəzdən uzaqlaşmış, özünü, sağlamlığını doğma vətəni, doğma xalqı naminə gələcək böyük əməllər üçün qoruyub saxlamışdır.

Və bir məqam da: Qorbaçov da, Əliyev də çağdaş dünya tarixində qalmışlar. Məsələ ondadır ki, hansı qiymətlə, hansı dəyərləndirmələrlə? İstər-istəməz sonuncu Baş katib Heydər Əliyevi öz dəstəsindən ayıraraq, böyük məmləkətin dağıdıcılarının sırasından, günahından, rüsvayçılığından da xilas etmişdir... Heydər Əliyev sabiq Sovet İttifaqının bütün xalqlarının yaddaşında qurucu kimi əbədi olaraq qalacaqdır.

---

[1] Медведев В. В команде Горбачева. Взгляд изнутри. М. 1994. С.353.
[2] Гришин В. От Хрущева до Горбачева. М., 1996. С. 66.
[3] Рыжков Н. Десять лет великих потрясений. М., 1996. С. 41.
[4] Крючков В. Личное дело. М., 2003. С. 274.
[5] Легостаев В. Технология измены. М., 1993. С. 44-45.
[6] Рыжков Н. Десять лет великих потрясений. С. 72-73.
[7] Легостаев В. Технология измены. С. 48-49.
[8] Лаптев И. Власть без славы. М., 2002. С. 36-37.
[9] Лигачев Е. Предостережение. М., 1999. С. 101-103.
[10] Лаптев И. Власть без славы. С. 36.
[11] Легостаев В. Гебист магнетический. Завтра. 2004. №5.
[12] Караулов А. Вокруг Кремля. М., 1993, т.2. С.16.
[13] Казначеев В. Последний генсек. М., 1996. С. 94.
[14] Караулов А. Вокруг Кремля. М., 1993, т.1. С. 232-233.
[15] Громыко А. Андрей Громыко. В лабиринтах Кремля. М., 1997. С.86.
[16] Шубин А. Золотая осень, или Период застоя. СССР в 1975-1985 гг. М., 2008. С. 306-307.
[17] Легостаев В. Технология измены. С. 27-28.
[18] Горбачев М. Жизнь и реформы. М., 1995, т. 1. С. 230-231.
[19] Зюганов Г. Верность. М., 2003. С.45.
[20] Шубин А. Золотая осень, или Период застоя. С. 298-300.
[21] Легостаев В. Технология измены. С. 53-54.
[22] Рыжков Н. Десять лет великих потрясений. С. 75.
[23] Эхо планеты, № 24. 2007. С. 29.
[24] Медведев Р. Неизвестный Андропов. Ростов-на-Дону, 1999. С. 85.
[25] Яковлев А. Сумерки. М., 2003. С. 495-496.
[26] Грачев А. Кремлевская хроника. М., 1994. С. 120.
[27] Рыжков Н. Десять лет великих потрясений. С. 94-95.
[28] Там же. С. 95-96.
[29] Иван Лаптев. Власть без славы. С. 96-98.
[30] Там же. С. 102-105.
[31] Там же. С. 107-108.
[32] Рыжков Н. Десять лет великих потрясений. С. 100-101.
[33] Шахназаров Г. С вождями и без них. М., 2001. С. 258.
[34] Рыжков Н. Десять лет великих потрясений. С. 110.
[35] Лаптев И. Власть без славы. С. 27.
[36] Андриянов В., Мираламов Г. Гейдар Алиев. М., 2006. С. 216-217.
[37] Воротников В. А было это так... Из дневника члена Политбюро ЦК КПСС. М., 1995. С. 61-63.
[38] Кремлевские будни Гейдара Алиева. Баку, 2007. С 298.
[39] Московские новости. 1985. № 28.

[40] Там же.
[41] Волкогонов Д. Семь вождей, кн. 2. М., 1995. С. 349.
[42] Изюмов Ю. Каким он был. В книге: Гришин В. От Хрущева до Горбачева. С. 325.
[43] Волкогонов Д. Семь вождей, кн. 2. С. 354-356.
[44] Лаптев И. Власть без славы. С.95-96.
[45] Андрианов В., Мирламов Г. Гейдар Алиев. С. 202.
[46] Рыжков Н. Десять лет великих потрясений. С. 170-171.
[47] Казначеев В. Последний Генсек. С.27-28.
[48] Лигачев Е. Предостережение. С. 111.
[49] Легостаев В. Технология измены. С. 59-60.
[50] Воротников В. А было это так... С. 66.
[51] Горбачев М. Жизнь и реформы, т.1. С. 289.
[52] Грачев А. Кремлевская хроника. С. 53-54.
[53] Крючков В. Личное дело. С. 287.
[54] Там же. С. 285-287.
[55] Литературная газета. 2004. № 3-4.
[56] Рыжков Н. Десять лет великих потрясений. С. 138-139.
[57] Лаптев И. Власть без славы. С. 243-244.
[58] Горбачев М. Жизнь и реформы. Стр. 289.
[59] Изюмов Ю. Каким он был. В книге: Гришин В. От Хрущева до Горбачева. С. 333.
[60] Воротников В. А было это так... С. 129.
[61] Черняев А. Шесть лет с Горбачевым. М., 1993. С. 63.
[62] Крючков В. Личное дело. С. 317-318.
[63] Лигачев Е. Предостережение. С. 182.
[64] Яковлев А. Сумерки. С. 302-303.
[65] Там же. С. 532.
[66] Зюганов Г. Верность. С. 54.
[67] Лигачев Е. Предостережение. С. 147-148.
[68] Крючков В. Личное дело. С. 322.
[69] Медведев В. В команде Горбачева. Взгляд изнутри. С. 20-21.
[70] Легостаев В. Технология измены. С.89.
[71] Там же. С. 91.
[72] Клепикова Е., Соловьев В. Заговорщики в Кремле. М., 1991. С.243-.248.
[73] Казначеев В. Последний генсек. С. 22.
[74] Там же. С. 28-29.
[75] Кеворков В.Тайный канал. М., 1997. С. 208-210.
[76] Яковлев Н. Мечтатель с Лубянки. Молодая гвардия. 1992. № 8.
[77] Болдин В. Горбачевская "перестройка" и судьба СССР. Бакинский рабочий. 2003. 24 сентября.

[78] Гришин В. От Хрущева до Горбачева. С. 69.
[79] Леонов Н.Лихолетье. М., 1997. С. 247.
[80] Зюганов Г. Верность. М., 2003. С. 56.
[81] Легостаев В. Технология измены. С. 54-55.
[82] Фалин В. Конфликты в Кремле. Сумерки богов по-русски. М., 2000. С. 73.
[83] Караулов. Вокруг Кремля. М., 1993, т.2. С.293.
[84] Крючков В. Личное дело. С. 295.
[85] Александров-Агентов А. От Коллонтай до Горбачева. М., 1994. С. 290-291.
[86] Яковлев А. Сумерки. С. 494.
[87] Рыжков Н. Десять лет великих потрясений. С. 351-352.
[88] Медведев В. Человек за спиной. М,, 1994. С. 207.
[89] Казначеев В. Последний Генсек. С. 211.
[90] Там же. С. 251-252.
[91] Воротников В. А было это так... С. 260-262.
[92] Рыжков Н. Десять лет великих потрясений. С. 77.
[93] Бурлацкий Ф. Вожди и советники. М., 1990. С. 296.
[94] Бакинский рабочий. 2003. 25 сентября.
[95] Горбачев М. Жизнь и реформы, т.1. С. 230-231.
[96] Караулов А. Вокруг Кремля, т.1. С. 233.
[97] Рыжков Н. Десять лет великих потрясений. С. 351.
[98] Легостаев В. Технология измены. С. 69.
[99] Валянский С., Калюжный Д. Русские горки: конец российского государства. М., 2004. С. 274-275.
[100] Крючков В. Личное дело. С. 289-290.
[101] Медведев В.. В команде Горбачева. Взгляд изнутри. С. 53.
[102] Валянский С., Калюжный Д. Русские горки: конец российского государства. С. 276-277.
[103] В.Легостаев. Технология измены. С. 113.
[104] Рыжков Н. Десять лет великих потрясений. С. 362-363.
[105] Архив Управления делами Президента АР. Фонд 1, опись 74, дело 209 "а", л.л. 2-22.
[106] Там же, л. 17.
[107] Там же, л.л. 9-11.
[108] Архив Управления делами Президента АР. Ф. 2, опись 155, дело 1, л. 105.
[109] Коммерсант. Власть. 2003. № 50.
[110] Бакинский рабочий. 1996. 27 марта.
[111] Томас де Ваал. Черный сад. Армения и Азербайджан между миром и войной. М., 2005. С.38-39.

[112] Генсек Брежнев. Беседа В.Болдина с В.Голиковым. Завтра. 2002. № 48.
[113] Прибытков В. Аппарат. М., 1995. С. 148.
[114] Черняев А. Моя жизнь и мое время. М., 1995. С. 441.
[115] Клепикова Е., Соловьев В. Заговорщики в Кремле. С.264-265.
[116] Завтра. 2004. № 8.
[117] Совершенно секретно. 1993. № 9.
[118] Прибытков В. Аппарат. С. 14.
[119] Там же. С. 15-17.
[120] Легостаев В. Гебист магнетический. Завтра. 2004. № 7.
[121] Завтра. 2002. № 48.
[122] Лигачев Е. Предостережение. С. 68-69.
[123] Андрианов В., Мираламов Г. Гейдар Алиев. С. 229.
[124] Бакинский рабочий. 2004. 18 марта.
[125] Шелест П. Как это было. Совершенно секретно. 1990. № 6.
[126] Караулов А. Вокруг Кремля, т 2. С. 11.
[127] Воротников В. А было это так... С. 173.
[128] Ильхам Алиев: Открытый мир. М., 2008. С. 18-19.

Dördüncü fəsil

Süqut

Oktyabr 1987 – iyul 1990

"Ona qarşı haqsızlıq etmişdilər..."

1987-ci il oktyabrın 21-də "yol. H.Ə.Əliyevin SSRİ Nazirlər Soveti yanında Dövlət müşaviri təyin edilməsi haqda" SSRİ Nazirlər Sovetinin Qərarı çıxdı.

İ.Laptevlə söhbətdən:

"Hakimiyyətə gələn Qorbaçov sadəcə olaraq bütün köhnə Siyasi Büronu dəyişdirdi. O, Tixonovu, Qrişini, Romanovu, Əliyevi, Solomentsevi, Dolgixi təqaüdə göndərdi. Plenumda Qorbaçovu məsləhət görmüş Qromıko hamıdan çox duruş gətirdi, lakin sonra Qromıko da təqaüdə yollandı. Bu o demək deyildi ki, o öz əl-qolunu açırdı. Xeyr, hakimiyyətin daxili qanunauyğunluğu bu cür olmur. Zənnimcə, hakimiyyətin daxili qanunauyğunluğu yeni liderlə gələn insanların özlərinə yer tələb etmələrindədir.

Başqa bir məqam da var. Hər lider bütün çatışmazlıqları özündən əvvəlkilərin üzərinə yıxmağa, öz siyasi fəaliyyətini, öz "tarixini" ağ vərəqdən başlamağa çalışır. Sonra isə o, sələfinin aqibəti ilə üzləşir. Buna görə də Siyasi Bürodakı yerdəyişmələr bizim hakimiyyətin nöqteyi-nəzərincə kifayət qədər məntiqli idi.

Bu cür yerdəyişmələr hər yerdə baş verir. ABŞ-da yeni gələn prezident də hamını dəyişir. Lakin bizdə, mahiyyət etibarilə elementar bürokratik proses faciəyə çevrilirdi.

– SSRİ-də bəzən yüksək vəzifədən istefaya getmək ölümə bərabər olurdu.

– Əlbəttə. Bizdə istefa verən adam hər şeyi itirirdi. Təkcə ünsiyyət imkanını yox. O, sadəcə olaraq qeyb olurdu".

Bununla belə, mənim sonuncu Baş katibə ciddi iradlarım var. Ona görə yox ki, o öz komandasını dəyişirdi, nəhayətdə, kiminlə işləmək istəməsi onun öz işidir. İradlarım onun bunu necə etməsinədir, başlıcası isə ona görədir ki, gedənlərə qarşı ölkədə çox keçməmiş qarayaxma və böhtan kampaniyasına rəvac verilirdi. Heç yarım il keçməyəcək ki, elə bu cür murdar kampaniya Heydər Əliyevə qarşı da başlanacaq. Bu barədə bir qədər sonra danışarıq. Hələlik isə onun öz istefasının ilk aylarını necə keçirməsini şahidlərin dili ilə söyləyək.

Camal Camalovla söhbətdən:

"Noyabrın 23-nə kimi Heydər Əliyeviç işə gedir, işləri təhvil verirdi. O, Kremlin 58-ci kabinetində son dəfə 1987-ci il noyabrın 23-də olmuşdur. Mən həmin gün işləyirdim. O dedi:

– Mənə məsləhətçi işləməyi təklif ediblər, amma özümü pis hiss edirəm, xəstəxanaya gedəcəyəm, bir az istirahət edim.

Səhv etmirəmsə, 1988-ci ilin yanvarından o, artıq məsləhətçi işləməyə başlamışdı. Lakin Kremldə deyil, Vladimirov keçidindəki 7 nömrəli binada. Bu, keçmiş "Rossiya" mehmanxanası ilə üzbəüzdür. Heydər Əliyevin orada dördüncü mərtəbədə ayrıca kabineti var idi. Vidalaşan zaman mən soruşdum:

– Heydər Əliyeviç, bəs mən nə edim?

O cavab verdi:

– Qal işlə, hər şey yaxşı olacaq.

Noyabrdan yanvaracan sədr müavini təyin edilməmişdi. İşə çıxır, maaş alırdım, iş isə yox idi. Səhv etmirəmsə, fevralın 11-i, ya da 14-də Siyasi Büronun qərarı ilə Talızin sədr müavini təyin edildi.

Ertəsi gün mənə dedilər:

– Yoldaş Camalov, bizim sizin işinizə iradımız yoxdur, lakin yoldaş Talızinin bu yerə öz namizədləri var. Ona görə haradan gəlmisinizsə ora qayıtmağınızı xahiş edirik.

Və məni geriyə – Azərbaycanın daimi nümayəndəliyinə qaytardılar. Mən 1982-ci ilin dekabrınadək işlədiyim elə həmin kabinetə və həmin böyük referent vəzifəsinə geri qayıtdım. Əlbəttə, sarsıntı içərisində idim. Xüsusilə ona görə ki, daimi nümayəndə Sənan Səmədər oğlu Axundovun mənə münasibəti çox qəribə olmuşdu. Necə oldusa, bir dəfə Heydər Əliyevin yanına gəlib şikayətləndim: "Heydər Əliyeviç, daimi nümayəndə məni adam yerinə qoymur. – Halbuki, o, Heydər Əliyevin sayəsində o vəzifəyə getmişdi. – Mən artıq yarım ildir ki, nümayəndəlikdə işləyirəm və bu müddət ərzində bir dənə də olsun tapşırıq almamışam, sanki nümayəndəlikdə heç belə bir böyük referent yoxdur". O cavab verdi. "Döz, hər şey yoluna düşər. Belə şeylər çox olur". Və mən onda dedim ki, nümayəndəlikdən çıxıb onun yanında işləmək istəyirəm. Həyatda təsadüfən Heydər Əliyevin İvanovodan Moskvaya gətirib yüngül sənaye naziri elədiyi Vladimir Qriqoryeviç Klyuyevlə rastlaşdım. O mənə dedi: "Gəl səni öz yerlinin yanına göndərim, üç-dörd ay işləyərsən orada, sonra keçərsən bizim Yüngül Sənaye Nazirliyinə". Bu, 1988-ci ilin oktyabrında olmuşdu, lakin dekabrda Vladimir Qriqoryeviçin ürəyi ilə bağlı problemləri çıxdı, 1989-cu ildə isə Qorbaçov SSRİ Yüngül Sənaye Nazirliyini ləğv etdi.

Və həmin söhbətdə Heydər Əliyeviç mənə dedi:

– Nə baş verdiyini anlamıram. Neçə il Siyasi Büronun üzvü olmuşam, ancaq onların siyasətini başa düşə bilmirəm. Nəyə görə, hansı məqsədlə məni istefaya göndərdilər? Nəyi, məsələn, Talızin məndən yaxşı eləyir? Və dövlət bu əvəzetmədən nə qazandı?"

Vladimir Uxovla söhbətdən:

"Heydər Əliyeviç hamını dəvət etdi və dedi ki, onun istefası haqda qərar var, o gedir. İlk dediyi bu oldu: "İşinizə görə hamınıza minnətdaram". Sonra dedi ki, Nazirlər Sovetində qalır. Onun vəzifəsi hökumət yanında dövlət müşaviri adlanırdı. Yəni şəxsən Rıjkovun yox, hökumətin müşaviri. Bizim aparatda stenoqrafçı-makinaçı işləyən Qalina Timofeyevna bir müddət onun katibi oldu.

– Bəs niyə o, tezliklə bu vəzifədən də getdi?

– Bizdə bu vəzifələrə Tixonovun, Dımşitsin, Baybakovun əmri verilmişdi, lakin təcrübə onların işinin səmərəsizliyini göstərdi, çünki müşavirin heç bir səlahiyyəti yoxdur. O Rəyasət Heyətinə gedə bilər, hansısa məsələ barədə məktub yaza bilər. Lakin pulu və hakimiyyəti olan nazirdən fərqli olaraq onun yazdığı məktuba məsləhət kimi baxır, uzaqbaşı "sizin fikriniz yaxşıdır" deyə bilərdilər.

– Yəni o öz gərəksizliyini hiss etdi".

Yazıçı Elçin həmin günlərdə Heydər Əliyevə iki dəfə baş çəkmişdi – 1987-ci il, oktyabrın əvvəli və sonunda, artıq istefadan sonra. Bu görüşləri o sonralar belə xatırlayır:

"Onu infarktdan sonra, çətin günlərində Moskvada yoluxmağımı həmişə qiymətləndirirdi. 1987-ci il oktyabrın əvvəllərində Saşa İvanova zəng vurub məni Heydər Əliyevlə görüşdürməsini xahiş etdim. Kremlə, onun yanına gəldim və çox mehriban görüşdük. Sonra Sergey Baruzdin ilə Almaniyaya səfərə yollandıq... Moskvaya oktyabrın 25-də qayıtdıq. "Moskva" mehmanxanasına daxil olarkən ilk rastlaşdığım akademik Eldar Salayev oldu. Yadımdadır, ona dedim: "Eldar, görərsən, birinci ermənilər başlayacaq". Səhərisi Heydər Əliyevə zəng etdim. Hal-əhval tutdum və dedim: "Mənim sizə həmişə hörmətim olub, lakin bütün bunlardan sonra hörmətim ikiqat artıb. Mənə nə qulluğunuz olsa, hazıram". O, minnətdarlığını bildirdi və əlavə etdi: "Mənə görə narahat olma, vəzifə gəldi-gedər şeydir, bu gün var, sabah yox".

Aleksandr İvanov danışırdı ki, Heydər Əliyev "işdən, siyasi həyatdan aralanmasını kifayət qədər ağrılı keçirirdi. İşə gəlirdi, vəzifənin adı yaxşı səslənir – SSRİ Nazirlər Sovetinin dövlət müşaviri, iş isə faktiki yoxdur. "Gedək evə, – deyirdi, – biz heç kimə lazım deyilik". Amma onun təcrübəsindən uzun illər yararlanmaq olardı axı. Lakin heç kim ona müraciət etmirdi. Onu vəzifədən götürən kimi ətrafındakılar dağılışdılar, hərə öz yuvasına çəkildi".

Heydər Əliyeviç istefadan sonra bir müddət Siyasi Büronun üzvü statusu saxlanılmaqla Sov.İKP MK-nın Barvixa sanatoriyasında yaşadı. Onun öz otaqları vardı, sadiq mühafizəçisi Aleksandr İvanov yanında olurdu. Heydər Əliyevin müalicə həkimi Aleksandr Borodkin hər gün gəlirdi. Aleksandr Alekseyeviçlə şəxsi söhbətdə pasiyentinin Barvixada həyatının necə keçdiyini soruşdum.

"Bu, rəhbər heyət üçün yaxşı kliniki bazası olan 4-cü İdarənin sanatoriyasıdır, – deyə A.Borodkin danışır. – Orada əsas korpus və lyukslar var. Heydər Əliyeviç lyuksda yaşayırdı. Tibb kabineti də, yaşayış otaqları da var orada. Mən Barvixada həmişə onun yanında olmurdum, çünki onlarda tibbi nəzarət daimi idi. Lakin təbii ki, hər gün ona baş çəkirdim.

Heydər Əliyeviç daim oxuyurdu. Mən onun masası üzərində çoxlu qəzet, jurnal, kitab görürdüm. Ora gələn zaman biz onunla gəzintiyə çıxırdıq. Meşə-park, dərə-təpəli yerlər var orada. Parkda cığırlar, marşrutlar salınmış, metraj qoyulmuşdu. Və müxtəlif metrajı göstərən lövhəciklər ayrı-ayrı rənglərlə boyanmışdı. Tutaq ki, marşrut № 1 – 1 kilometr, marşrut № 2 – 1,5 kilometrdir. Məsələn, biz bilirdik ki, bu gün 5 kilometri müəyyən sürətlə getməliyik və özümüzə marşrut seçirdik.

Hər şeyə addım-addım başlamışdıq. Əvvəlcə çarpayıdan masayacan, məsafəni yavaş-yavaş artırırdıq, küçəyə çıxdıq, Miçurinsk parkında gəzdik. Orada da metrləri artırırdıq: 10 metr, 20 metr.

Barvixada daha böyük gərginliklə çalışırdıq. Yarım il keçmiş, çapıq möhkəmlənmişdi, ona görə daha böyük gərginliklə çalışmaq olardı.

– Bu gəzintilər zamanı siz onunla nədən danışırdınız? O, artıq istefada idi. Əhvalı necə idi?

– Çox bədbin. Heydər Əliyeviç həyatından, öz planlarından heç nə danışmırdı. O, ümumiyyətlə qapalı insan idi. Mən, əslində, yarım il onun yanından aralanmamışam, o isə yalnız uşaqlardan, nəvələrindən danışırdı, soruşurdu ki, onlar necədir, özü barədə isə susurdu. Böyük həyat məktəbi keçdiyi duyulurdu. Ən çox səhhətindən, nə etməyin vacibliyindən, bu və ya digər dərmanın nə vaxt qəbul ediləcəyindən danışırdıq.

İstefa barədə isə mən ondan heç bir şikayət eşitmədim. Bəlkə də o, məndən ehtiyatlanırdı, necə olsa, biz bir-birimizi az tanıyırdıq. DTK-da çoxillik fəaliyyət məktəbi keçmiş bir insan təbii ki, hər kəsə ürək qızdırmaz".

İvan Laptevin fikrincə, "Qorbaçov Əliyevi kənarlaşdırmaqla böyük səhvə yol verib. İnfarkt ağır xəstəlikdir, ancaq o nəyinsə nəticəsidir axı. Bir də, infarkt hamıda var idi. Onu sadəcə kənarlaşdırdılar, özü də insafsızcasına. Dərhal da özlərini elə göstərdilər ki, guya belə adam heç yoxdur. Bundan əlavə, bir səciyyəvi məqamı da açıqlamaq istəyirəm.

O, tək qaldığı zaman təbii ki, biz onun yanına gedə bilmirdik. Adı qara dəftərə salınmış insanla ünsiyyətin başqaları üçün təhlükə yarada biləcəyini gözəl anlayaraq ətrafında təcrid zolağı yaratmışdı. Həmişə belə olur. Keçmiş rəhbər işçi tənhalığa məhkumdur.

Çox vaxt sanki çəkisizlik mühitinə düşür və özü də bu vakuumu artırır, çünki bilir ki, insanlar heç nədən ziyan çəkə bilərlər.

Mən bunu Şelepində də müşahidə etmişdim. O gedirdi, ətrafında isə heç kəs yox. Halbuki, artıq təqaüddə idi və heç kimə mane olmurdu. Heydər Əliyeviç də özünə bu cür qapanmışdı. Uzun illər fəaliyyətdə olan insan üçün bu çox ağırdır. Əlbəttə, onun telefonları nəzarətdə idi, mən buna tamamilə əminəm.

– Ona, təqaüdçüyə qulaq asmaq nəyə lazım idi axı?

– Elə deməyin, sistem istisnasız işləyir. Əgər onu şübhəli, yaxud nədənsə hakimiyyət üçün təhlükəli sayıblarsa, onda sistem şübhəlilik atmosferi yaradırdı. Kimin necə getdiyi mühüm deyil. Xruşşovu, başqalarını yadınıza salın".

Yüksək vəzifəli partiya funksionerləri, xüsusən Siyasi Büro üzvləri, bəzi nazirlər, yüksək hərbi çinlilər, əlbəttə, bu günlə müqayisədə kifayət qədər məhdud olan bir sıra imtiyazlara malik idilər. Onların "məxsusi" bufet və yeməkxanaları var idi, onlar elita üçün xüsusi dükanlardan ərzaq ehtiyaclarını ödəyə, QUM-un "6-cı seksiyası"ndan əyin-baş ala bilərdilər. Yaxşı mənzilləri var idi və xidmətçisi, mühafizəçisi, kinozalı, hətta çarhovuz və saunası olan yaxşı dövlət bağlarında yaşayırdılar. Onların dövlət sanatoriyalarında dincəlmək imkanı vardı, şəxsi maşınlardan istifadə edirdilər. Lakin Rusiya politoloqu A.Qraçovun haqlı olaraq söylədiyinə görə, "proletar dövlətinin ən yüksək vəzifəli şəxsləri belə qəlblərinin dərinliyində həqiqətən proletar olaraq qalırdılar. Onlar öz bacarıq və xidmətləri müqabilində heç kim idilər və hər gələn rəhbərin qeyri-rəsmi təyinatı ilə ümumi qazandan faydalandıqları imtiyaz və maddi nemətlərdən başqa heç nəyə malik deyildilər"[1].

Əgər istefaya buraxılan adam rəhbər şəxslərin hüsn-rəğbətini qazanmamışdısa onda onun nə dövlət qulluğunda uzunmüddətli və sədaqətli fəaliyyəti, nə də başqa xidmətləri hesaba alınmırdı. İvan Laptevin mənə danışdığı epizod buna sübutdur. Bir dəfə Heydər Əliyev "İzvestiya"nın baş redaktoruna zəng vurub. O zaman o, artıq vəzifədə deyildi, əli heç kəsə çatmırdı və buna görə İvan Dmitriyeviçdən xahiş etmişdi ki, ailəsi üçün şəxsi nəqliyyat almasına köməklik etsin.

Laptev dövlət telefonu ilə Nazirlər Sovetinə zəng vurub Siyasi Büronun keçmiş üzvünün xahişini çatdırır və istehzalı rədd cavabı eşidir. Yəni, belə de, hələ ona maşın da verməliyik?

"Bu, elə qisas dolu bədxahlıqla deyilmişdi ki, – deyə İvan Dmitriyeviç xatırlayır, – mən üzr istədim və dəstəyi qoydum. Oturub düşünürəm: bunu ona nəzakətlə necə başa salım. Təxminən üç saatdan sonra Əliyevə zəng vurub deyirəm:

– Heydər Əliyeviç, xahiş edirəm üzrlü sayasınız, bu, mənim gücüm daxilində olmadı. "İzvestiya"nın fondu yoxdur və elə indi öyrəndim ki, bunu bizə heç verməyəcəklər də.

O, ədavət aparan həmin adamı çox yaxından tanıyırdı".

Ramiz Mehdiyevlə söhbətdən:

" – Heydər Əliyevlə onun istefasından sonra görüşlərinizi yadınıza salın. Siz axı respublikada az qism insanlardansınız ki, əvvəlki tək ona baş çəkirdiniz.

– İstefadan sonra o, SSRİ Nazirlər Sovetində məsləhətçi işləyirdi. Onun kabineti "Rossiya" mehmanxanasının yanında, kiçik kilsə ilə üzbəüz binada idi. Mən ona ya mehmanxanadan, ya da kilsənin yanındakı avtomatdan zəng vururdum, işdən sonra görüşməyi razılaşdırır və onun maşınında bağına gedirdik.

Təbii ki, əhvalı yaxşı deyildi. Doğrudan da, onun xətrinə dəymiş, ona qarşı haqsızlıq, vicdansızlıq etmişdilər.

1988-ci il mayın 31-də məni MK katibi vəzifəsindən azad etdikdən sonra tez-tez Moskvaya gedirdim. Çünki İctimai Elmlər Akademiyasında doktorluq dissertasiyası üzərində işləyirdim. Və hətta bir müddət orada yaşadım, təbii ki, Heydər Əliyevlə zənglərləşirdim.

Yadımdadır, 1988-ci il iyunun əvvəllərində məzuniyyət götürüb arvadımla "Puşkino" sanatoriyasına getdim. Oradan Heydər Əliyevə zəng vurdum və o, maşın göndərdi. Onun bağı ilə sanatoriya arasında məsafə böyük idi. Demək olar ki, hərəsi Moskvanın bir başında idi. Yadımdadır, gəldim, çay içdik, gəzişdik, söhbət etdik.

Vəzirov barədə, onun düşünülməmiş addımları, aksiyaları barədə məlumatlı idi. Onu, doğma balası kimi əzizləyib böyütdüyü respublikanın taleyi, uçuruma yuvarlanması, kadr potensialının dağıl-

ması, Dağlıq Qarabağ probleminin get-gedə dərinləşməsi narahat edirdi. O vaxtlar hələ respublikaya gələrək "sükanı ələ alıb" situasiyanı düzəltmək söhbətləri yox idi. Bu, heç mümkün də deyildi. Biz yalnız hadisələrdən xəbər tutur və fikir mübadiləsi edirdik. Hiss olunurdu ki, o, Azərbaycanın xiffətini çəkir, həyəcan keçirir, respublikanın taleyindən qorxur. Əlbəttə, Dağlıq Qarabağdakı hadisələr onu xüsusilə narahat edirdi. Yadımdadır, Heydər Əliyev deyirdi: "Azərbaycan üçün nə qədər iş gördüm, iqtisadiyyatı, mədəniyyəti inkişaf etdirdim. Və heç kim bunu qiymətləndirmir, bir çoxları bunu unudublar, hətta irəli çəkdiyim, rəhbər vəzifəyə təqdim etdiyim insanlar da". Sözsüz ki, inciklik var idi.

Qorbaçov barədə də dəfələrlə söylənərək deyirdi ki, onun siyasəti SSRİ-ni, hamımızı dalana dirəyəcək, o, məhvə aparır və ölkə düşünülməmiş eksperimentlərin nəticəsində dağılacaq..."

Süleyman Əliyevlə söhbətdən:

"Heydər Əliyeviç xəstələnən zaman mən onun yanına Moskvaya getdim, bağında oldum. Dedim ki, Əliyevin qohumu olduğum üçün Vəzirov məni işdən çıxartdı. O, başını yellədi: "Axı səfir getməyə ona mən kömək etdim. Qromıkoya zəng vurub dedim: "Niyə azərbaycanlı SSRİ-ni xaricdə təmsil edə bilməz?". Və onu əvvəlcə Kəlküttəyə baş konsul, sonra isə Nepala səfir göndərdilər. Hər dəfə məzuniyyətə gələndə qəbuluma düşmək üçün yalvarırdı və gələn kimi mənə dua edirdi, yüz dəfə "çox sağ ol" deyirdi və s. İndi isə Azərbaycana gedib və mənə quyu qazır. Ondan çox incimişəm. Ümumiyyətlə, əvvəllər onların hamısı Moskvada olarkən zəng edirdilər, gəlirdilər, öz işlərindən danışırdılar. İndi isə eşitmişəm ki, Həsən Seyidov işinə görə burdadır, amma zəng vurmağa ehtiyat edir. Adama yer eləyir. Mən onu 37 yaşında MK katibi elədim. O isə demək, zəng vurmağa qorxur, yəni qulaq asarlar, yuxarı xəbər çatdırarlar və onu götürərlər vəzifədən".

Bütün bunlar ona çox təsir edirdi".

Yuri Soloduxinlə söhbətdən:

"Heydər Əliyeviç infarktdan sonra yaxşılaşıb istefaya getdiyi vaxtlar nəvələrini görmək üçün İlhamgilə gəlirdi və necə oldusa bir-iki dəfə aşağıda onunla rastlaşdım. Hər dəfə məni gördükdə gəzişməyi, söhbət etməyi təklif edirdi. Siyasətdən, yenidənqurmadan danışırdıq. O, baş verənlər barədə tənqidlə və təəssüflə söz açırdı. Mən onunla razı idim.

Onu iki adam müşayiət edirdi. Mən bir dəfə qanrılıb arxaya baxdım, o dedi:

– Yuri Nikolayeviç, bu, **mənim** mühafizəmdir, – və vurğunu "mənim" sözünə saldı, yəni rahat danışa bilərik.

Təbii ki, o, daha kəskin fikir söyləyirdi. Mən bir qədər yumşaq danışmalıydım, bununla belə, o vaxtlar Yakovlevin təşəbbüsü ilə məni də Sov.İKP MK-dan kənar etdilər. Əvvəlcə ideoloji şöbədən, Qorbaçovun yaxın həndəvərindən, guya irəli çəkəcəkdilər. Lakin hər şey yaxşılıqla nəticələndi, mən Aleksandra Pavlovna Biryukovanın köməkçisi oldum. O və Heydər Əliyeviç mənim həyatda ən yaxşı müdirlərim olmuşlar.

Yadımdadır, Biryukovanın yanında katibliyin müdiri olan Qrdnev ilə Heydər Əliyeviç barədə çox söhbətlər edirdik. Kremlin ərazisində gəzişir, danışırdıq. Hamı məsələnin nə ilə bitəcəyini görürdü. Həyəcanlı idik və rəhbərliyimizin laqeydliyinə təəccüb edirdik. Lakin bu, artıq başqa söhbətin mövzusudur".

Sevil Əliyeva ilə söhbətdən:

" – Heydər Əliyev öz həyatını işsiz təsəvvür edə bilmirdi. İstefadan sonrakı ilk müddətdə o özünü necə hiss edirdi?

– Çox pis. Əgər həkimlər onun qayğısına bu cür qalırdılarsa, anlamalıydılar ki, onun üçün işdən çıxmaq – səhhətinə zərbə vurmaqdır. Odur ki, həkimlər də öz alçaq sifətlərini göstərdilər. Ümumiyyətlə isə, bu, dəhşətli illər idi. Onun uzaqlaşdırılmasını əsaslandırmaq üçün sifarişli murdar məqalələr təşkil etdilər. Uydurulması mümkün olan ən əcayib şeyləri onun adına yazırdılar. Ağır infarktdan təzə-təzə qurtulan xəstə insana iztirab verirdilər.

Bu azmış kimi, həkimlər də qorxudurdular, elə hey təkrarlayırdılar ki, ona heç nə yemək olmaz. Ciddi pəhriz altında idi. Ona mənən güclü təzyiq edilirdi. Fiziki cəhətdən elə o zaman zəiflədi...

Atamın istefasından sonra Qorbaçov onun uşaqlarına keçdi. İlham MDBMİ-də dərs deyirdi. Onu çağırıb dedilər ki, işdən get-

məlisən. Və səbəbini açıq anlatdılar. Yadımdadır, atam çox hirslənmişdi. Şevardnadzenin qəbul otağına zəng vurub xahiş etdi ki, onunla telefonla əlaqə yaratsın. Lakin Şevardnadzedən heç bir zəng gəlmədi. Yaxşı, tutaq ki, sənə tapşırmışdılar, əmr etmişdilər ki, Əliyevin oğlunu işdən çıxarasan. Sadəcə zəng vurmaq olardı axı.

Anam sağ olsaydı, atam bu çətin illəri bir qədər asan keçirərdi. O, bir anda hər şeyi itirdi: öz məhəbbətini, öz dostunu və işini. Yaxşı ki, biz yanında idik.

Biz – mən və mənim ailəm bağdan Aleksey Tolstoy küçəsinə köçdük. Atamı bir an belə diqqətsiz qoymurduq. Yadımdadır, o, hollda, divanda uzanıb istirahət edir, mən isə sakitcə yaxınlaşıb onun nəfəsinə qulaq asırdım. O hətta hərdən mənim bu "zəhlətökənliyimdən" inciyirdi.

O dövrdə o, nə ilə məşğul olurdu? Əvvəla, çox oxuyurdu – həm mətbuatı, həm də bədii ədəbiyyatı. Televizora baxırdı. Və nəvələri ilə fəal ünsiyyətdə idi – onlar öz uşaq sirlərini ona açır, məktəbdə baş verənlərdən danışırdılar, o isə onlara Azərbaycan dilini öyrədirdi. Bu ünsiyyət atama sevdiyi işdən gözlənilməz ayrılığa dözmək üçün hava-su qədər gərəkli idi.

Ümumiyyətlə, bizim həyatımız – uşaqlarının həyatı onun həyatı ilə daim sıx bağlı olmuşdur. Xatırlayıram ki, mətbuatda ünvanına çıxan yazılara təkzib yazırdı. Biz onunla birlikdə mətnə düzəlişlər edir, məsləhətlər verirdik. Düzdür, heç bir redaksiya onun məqalələrini qəbul etmir və qəzetlərin bütün baş redaktorları ondan gizlənirdilər. Onun Siyasi Bürodakı keçmiş həmkarları da belə edirdilər. Bu halda onlar hansı düzgünlük və ədalətdən, hansı demokratiyadan danışa bilərdilər?

Andrey Karaulov 1990-cı ildə atamdan müsahibə alıb "Teatralnaya jizn"də dərc etdirən ilk jurnalistdir. Mən bu müsahibə üçün fotoşəkilləri özüm seçmişdim. Sonra Andrey "Naşa jizn" adlı yarıleqal qəzetləri olan hansısa jurnalistləri tapdı və onlar atamla böyük bir müsahibəni üç nömrədə dərc etdirdilər. Yadımdadır, onlar ərarvad idilər, bizdən bir qədər uzaqda işləyirdilər. Mən onlara atamın fotoşəkillərini aparırdım, bir sözlə, bu işə qoşulmuşdum. Daha məşhur qəzet və jurnallar heç bir vəchlə Əliyevin xeyirinə heç nə dərc etməzdilər".

Siyasi Büronun keçmiş üzvü ilə onun istefasından sonra da ilıq münasibətlər saxlayanlardan biri də görkəmli rəssam Tahir Salahov idi. Bir gün o, Barvixaya ona baş çəkməyə gəlmişdi. 20 il keçəndən sonra Tahir müəllim bu görüşü xatırladı və bunu əsil sənətkar istedadı ilə təsvir etdi:

"Şaxtalı qış günü idi. Mühafizəçilər sənədlərimi uzun-uzadı yoxlayıb, nəhayət, buraxdılar.

Üzü bu uzun binaya qarşı dayananda, soldakı boksda Heydər Əliyev yaşayırdı. Bokslar ikimərtəbəlidir, hərəsinin girişi ayrıcadır. Birinci mərtəbə dəhliz, ikinci mərtəbə qonaq otağı və kabinetdir.

Binaya daxil olub qalxdım. Heydər Əliyeviç hələ zəif idi.

– Tahir, nə yaxşı ki gəldin, – dedi. – Gəl, gəzişək, sonra şam edərik. Etiraz etmirsən ki?

– Yox, Heydər Əliyeviç.

Biz geyindik. O, qalın geyindi: isti boğazlı çəkmə, idman kostyumu, qalın palto, xəz papaq.

Parka çıxdıq və yadımdadır, ayağımızın altında qar necə xırçıldayırdı. Addımlayırdıq, adama elə gəlirdi ki, uzaq Azərbaycandan ikimiz gəlib çıxmışıq bura. Qış, soyuq, toran, xəstə Heydər Əliyeviç, onun yanında mən. Həyat yoldaşı dünyadan köçmüşdü. Axır ki, ağlasığmaz mənzərədir. Və bu, kədərdən söhbət açmasaq da, yalnız xoş şeyləri yada salsaq da söhbətimizə təsirini göstərirdi. Fikrimdən hər şey yarımçıq, hissə-hissə keçirdi. Ürəyimdə bir ağırlıq vardı, lakin pis fikirləri qovmağa çalışırdım. Zarafat edir, gülür, ordan-burdan söhbətlər edirdik. Amma o, ciddi məsələlərdən danışmaq istəyirdi, məsələn:

– "Pravda"da Rüstəm İbrahimbəyovun məqaləsini oxudum. Bilirsən, məqalə xoşuma gəldi.

O dövr üçün bu məqalə çox aktual idi. O illər Rüstəm SSRİ Kinematoqrafiya İttifaqının sədri və SSRİ Ali Sovetinin deputatı idi.

– Çox xoşuma gəldi, – Heydər Əliyeviç təkrar etdi. – Məni Rüstəmlə calaşdırsaydın, bunu ona deyərdim.

Biz onun iqamətgahına qayıdanda qonşu boksda işıq yanırdı.

– Heydər Əliyeviç, orada kim yaşayır? – deyə soruşdum. O cavab verdi:

– Boris Yeltsin, o da mənim kimi istefadadır.

Binanın qalan yerləri qaranlıq idi. Yalnız iki boksun pəncərələrindən işıq gəlirdi. Burada yalnız bu iki nəfər yaşayırdı.

– Sizin onunla münasibətiniz necədir? – soruşdum.

– Normal.

Şam yeməyini gətirdilər. O, ikiadamlıq sifariş etmişdi. Qulluqçu da elə gətirdi. Şam etdik, bir az da oturduq. Üç-dörd saat onunla oldum.

Bütün bu müddətdə Heydər Əliyev, bir dəfə də olsun, başına gətirilənlərdən incikliyini bildirmədi, bəlkə də ona görə ki, o cür söhbətə köklənməmişdik.

O görüşümüzü tez-tez xatırlayıram. Orada yaşayan iki adam, görünür, böyük iradə sahibləri idi. Sonralar biri Rusiyanın, o biri isə Azərbaycanın prezidenti oldu. Bu gecə və sonralar tamamilə müxtəlif yollarla hakimiyyət zirvəsinə qalxan iki rədd edilmiş, üz döndərilmiş insan... Bu günəcən həmin mənzərə gözlərimin önündədir.

Moskvaya qayıdandan sonra Rüstəmə zəng vurdum:

– Heydər Əliyeviç səninlə maraqlanırdı. Məqaləni oxuyub, fikrini söyləmək istəyir. İstəyirsən səni onunla calaşdırım, ya bəlkə onun yanına gedək?

Rüstəm getmək istədiyini dedi. Beş-on gündən sonra biz getdik və artıq üçlükdə gəzişirdik. Hər şey birinci dəfə olduğu kimi idi – Heydər Əliyev həminki kimi geyindi, parka çıxdıq, ondakı kimi xiyabanlarla dolandıq. Lakin bu dəfə onunla daha çox Rüstəm danışırdı. Heydər Əliyeviç ona məqalə ilə bağlı suallar verdi, yazını çox bəyəndiyini söylədi. Sonra onun boksuna qayıtdıq, bir yerdə şam etdik. Hiss olunurdu ki, ürəyi açılıb. Biz ömrünün ən çətin günlərində ona dəstək olmaq istəyirdik.

– Siz onun yenidən hakimiyyət zirvəsinə qalxa biləcəyinə inanırdınız?

– Bunu heç kim gözləmirdi. Hələ Moskvada yaşayarkən o, mənə zəng vurub dedi:

– Tahir, məni Naxçıvandan partiya qurultayına nümayəndə seçiblər. Necə fikirləşirsən, getməyimə dəyərmi?

– Heydər Əliyeviç, sizi sizə inanan insanlar seçiblər. Mən hesab edirəm ki, ora getməyiniz vacibdir.

– Hə? Çox sağ ol, Tahir, çox sağ ol".

Aleksandr Borodkinlə söhbətdən:

"Heydər Əliyeviç Barvixada bir aydan bir qədər çox qaldı. Nazirlər Sovetində müşavir olduqdan sonra onun statusu dəyişdi. Məni başqa şöbəyə keçirdilər. Burada ailələrin sayı çox idi. İndi artıq mən hər gün onun yanında olmurdum, həftədə iki-üç dəfə ya işinə, ya da evinə gedir, onun üçün dərmanları hazırlayırdım, çünki onları dəqiq qəbul etmək lazım idi. O, çox sözəbaxan pasiyent idi. Buna hamı təəccüb edirdi. Hətta Aleksandr İvanov soruşurdu: "Ona nə etmisən? Əvvəllər o həkimləri vecinə almırdı. Amma indi, vaxt çatan kimi dərman içir". O, müqavimət göstərmirdi, əksinə, deyilənləri bircə-bircə yerinə yetirirdi. Mən dərman dozalarını çox götür-qoy edirdim. Annotasiyada "Hər dəfə bir həb olmaqla gündə 3 dəfə" yazılır, faktiki isə hər dəfəyə 1/8 həb lazımdır. Biz dəqiq doza seçdik və o, bütün deyilənlərə dürüst riayət edirdi. Bu yaxşı nəticə verdi.

Mən 1990-cı ilədək ona nəzarət etdim.

Biz ona mütəmadi kardioqram edirdik, elə əvvəlki çapıq dəyişikliyini görürdük. İnfarktda əvvəlcə kəskin mərhələ başlanır, sonra çapıq əmələ gəlir. Çapıqda dəyişikliklər baş verir. Əgər pisləşirsə, tədbir görmək lazımdır. Əgər hər şey sabitdirsə, əvvəlki müalicə davam etdirilir. Onun vəziyyəti, demək olar ki, stabil idi.

Səhhəti ilə bağlı problemlər sonralar da olurdu, lakin ürəkdə yox. Heydər Əliyeviçin öd kisəsində daş əmələ gəlmişdi və 1989-cu ildə onun öd kisəsini kəsib atdılar. O zaman o, kifayət qədər tez özünə gəlmişdi".

İstefadan sonra Heydər Əliyev, demək olar ki, qapalı həyat keçirirdi. Heydər Əliyevin özünün "Azadlıq" radiosunun müxbirinə dediyi kimi, əslində o, üç il Moskvada "ev dustağı" olmuşdu. Ona görə uşaqları ilə nadir hallarda "adam içinə" çıxanda həqiqətən böyük zövq alırdı. Xüsusən bu zaman mədəniyyət xadimləri ilə ünsiyyətə imkan yarananda. Tahir Salahov Heydər Əliyevin 1988-ci ildə məşhur Azərbaycan rəssamı Elbəy Rzaquliyevin sərgisinə gəldiyini xatırladı.

Tahir Salahovun söhbətindən:

"1988-ci ildə Heydər Əliyeviç mənə zəng etdi:

– Tahir, dünən televizorda Elbəy Rzaquliyevin Mərkəzi Rəs-

samlar Evində sərgisinin açılışını gördüm. Sərgiyə baxmaq istəyərdim.

Mən cavab verdim:

– Heydər Əliyeviç, biz sizi gözləyirik.

Danışdıq ki, o, saat on ikidə gəlsin. Ailəlikcə gəlmişdilər: İlham Mehribanla və Seva. Heydər Əliyeviçi qarşıladım, Siyasi Büro üzvlərinin qarderobuna apardım.

Yuxarı qalxdıq. Sərgiyə gələnlər onu tanıdılar, salamlaşmaq üçün yaxınlaşdılar. Bu, ona xoş idi. Elbəy də həyat yoldaşı ilə gəldi. Mən isə fikirləşirəm: necə edim ki, görüşümüzü layiqincə bitirim. Nahar sifariş etmək qərarına gəldim. Amma tərs kimi, bütün restoranlarda təmizlik günü idi. Nəhayət, Beynəlxalq Hammer Ticarət Mərkəzinin Petrovsk zalında uşaqlarla razılaşdıq, onlar dedilər ki, Tahir Teymuroviç, sizi gözləyəcəyik.

Mən bütün bunların kimin üçün edildiyini dedim və səkkiz adamlıq masa sifariş etdim.

Sərgidə söhbətimiz saat yarıma qədər çəkdi, artıq çıxışa tərəf gedəndə mən dedim:

– Heydər Əliyeviç, bu gün elə gündür ki, Elbəy gəlib, sərgi açılıb, siz ailənizlə gəlmisiniz. Bu günü necəsə qeyd etmək lazımdır. İcazə versəydiniz, sizi restorana, nahara dəvət edərdim.

– Dəvət elə, mən razıyam, – deyə cavab verdi. – Bəs hara gedəcəyik?

– Beynəlxalq Ticarət Mərkəzinə.

Maşınımız ora çatdı, mühafizə işçiləri onu görüb sevindilər:

– Heydər Əliyeviç!.. Salam, Heydər Əliyeviç!

O, istefadan sonra ilk dəfə sadə insanların ona olan münasibətini hiss etdi. Holla daxil olanda mənə dedi:

– Tahir, mən iyirmi ildir ki, restoranda olmamışam.

Və budur, zala yaxınlaşdıqca insanlar onu tanıyır, salamlayırlar. Rus zalına daxil oluruq, inzibatçı onu təbəssümlə qarşılayır:

– Salam, Heydər Əliyeviç, sizi burada görməyimizə şadıq.

Masamızın arxasına keçdik. Həyat yoldaşım da gəldi, təxminən üç saat oturduq, məclisimizdə səmimiyyət, mehribanlıq hökm sürürdü: zarafatlar, gülüş.

Güman ki, bu görüşümüz barədə Bakıya xəbər çatdırmışdılar, çünki elə ertəsi gün Vəzirovdan xəbər gəldi ki, mən Əliyevlə hansısa blok yaratmışam.

Dedim:

– Rəhmana* deyin ki, o vəzifədən gedəndə mən onunla da görüşəcəyəm.

Daha nə deyə bilərdim?

Heydər Əliyev artıq Bakıda işləyərək respublikaya başçılıq etdiyi vaxt mən ona portretini bağışladım. Yadımdadır, o dedi:

– Tahir, mənim sizinlə həmişə rəvan münasibətlərim olub. Və bu münasibətlər heç vaxt qırılmayıbdır.

Aramızdakı etibar dolu münasibətlər həmişə onun mənə hörməti və mənim ona və ailəsinə ehtiramım çərçivəsində olub. Biz birbirimizlə zarafat edə bilərdik, lakin müvafiq çərçivəni qorumaq şərtilə".

Azərbaycan Yazıçılar Birliyinin sədri Anar isə mənimlə həmin dövr barəsində xatirələrini bölüşərkən belə dedi:

"Mən SSRİ Ali Sovetinin deputatı olduğum zaman, Heydər Əliyev artıq istefada idi. Necə oldusa onun cangüdəni Aleksandr İvanovla rastlaşdım. Soruşdum ki, Heydər Əliyeviç necədir. "Necədir? O sizdən, ziyalılardan inciyib, onu itirib axtarmırsınız". – "Axı məndə onun telefonu yoxdur". – "Alın, bu da onun nömrəsi". Zəng edib səhhətini xəbər aldım. O, mətbuatda ona qarşı təşkil olunmuş kampaniyadan gileylənməyə başladı. "Siz – tarixi şəxsiyyətsiniz, – dedim, – bütün bu hərzə-hədyana fikir verməyin". Və birdən o, mənə: "Mən Bakıya qayıtmaq istəyirəm, mənə kömək edin!" – dedi. Mən çaşıb qaldım, Heydər Əliyevdən belə şey eşitmək ağlagəlməz idi. "Heydər Əliyeviç, axı mən nə edə bilərəm?" – "Burada yaşaya bilmirəm, Azərbaycana qayıtmaq istəyirəm!".

Bakıya gəldim, Rüstəm İbrahimbəyovla danışdım, onunla Ayaz Mütəllibovun qəbuluna getdik. Ona dedik ki, Heydər Əliyev xəstədir, işləmir, hətta onu məsuliyyətə cəlb etmək istəyirlər. Onu deputat seçmək lazımdır ki, toxunulmazlığı təmin olunsun. Mütəllibov dediklərimizlə razılaşdı, lakin birdən yumruğunu masaya vurub:

* Əbdürrəhman Vəzirov – 1988–1990-cı illərdə Azərbaycan KP MK-nın birinci katibi.

"Respublikada bir xozeyin olmalıdır! Əgər o bura ağalıq etmək fikri ilə gəlirsə, buna yol verməyəcəyəm".

Abbas Abbasov* da bizə danışırdı: "Getdim Mütəllibovun yanına və ona təklif etdim ki, gəl Heydər Əliyevi, aeroportda bu cür şəxsiyyətin layiq olduğu kimi ehtiramla qarşılayaq. Mən bir aya ona villa tikim, mühafizə, xidmət ayıraq və o öz vətənində dinc yaşasın". Mütəllibov razı oldu, səhərisi isə nədənsə qorxaraq fikrini dəyişdi.

Sonralar artıq Heydər Əliyev özü mənə danışırdı: "Mütəllibovdan xahiş etdim ki, Harri Kasparovun Bakıdakı mənzilini mənim Moskvadakı mənzilimlə dəyişmək üçün imkan yaratsın. Lakin o, buna da razılıq verməmişdi".

Heydər Əliyevin Moskva dövrü həyatındakı dramatizmin gərginliyinə onun geniş arxivi ilə bağlı bir epizod misal ola bilər.

1988-ci ildə Heydər Əliyev öz sabiq köməkçisi və komendantı Yuri Kamayevə zəng vurub xahiş edir ki, Bakıya uçsun və onun şəxsi arxivinin taleyi ilə maraqlansın. Əliyevin Azərbaycan KP MK-nın birinci katibi işlədiyi dövrə aid kağız, sənəd, həmçinin kino və fotomaterialların böyük bir hissəsi 1977-ci ildə partiya elitası üçün Saraykin küçəsində tikilmiş evin zirzəmisində saxlanırdı. Təbii ki, Moskvaya işləməyə gedərkən Heydər Əliyev bütün bunları özü ilə apara bilməzdi.

Və budur, indi kimsə evin arxiv yerləşən bu hissəsini boşaltmaq istəyirdi. Y.Kamayev Bakıya uçub sənədləri binadan çıxarmaq məcburiyyətində qaldı. Arxivin kinomateriallardan, həmçinin Sovet Azərbaycanına gəlmiş çoxsaylı qonaq və nümayəndələrin hədiyyə və suvenirlərindən ibarət müəyyən hissəsini o, aktlaşdıraraq V.İ.Lenin muzeyinə təhvil verdi. Kağızlar, bir sıra fotomateriallar Moskvaya, bağa gətirildi. Sonralar, hakimiyyətə ikinci gəlişindən sonra Heydər Əliyev öz arxivinin muzeyə təhvil verilmiş hissəsinin taleyindən xəbər tutmağa cəhd göstərdi. Lakin hər şey izsiz yoxa çıxmışdı. Artıq Lenin muzeyi də mövcud deyildi. Əşyaları aktlaşdırıb qəbul edən direktor da tapılmadı. Hədiyyələrin maddi dəyəri elə də yüksək deyildi, lakin onlar tarixi dövrü əks etdirirdi: zavod və cihazların maketləri, şəhərlərin gerbləri, təsviri sənət nümunələri, inkrustasiyalar və s. Bütün bunlar izsiz yoxa çıxmışdı ki, bu da Heydər Əliyevin qanını çox qaraltmışdı. Sonralar, 90-cı illərdə bu suvenirlərin bəziləri respublikadan çıxarılmağa cəhd edilərkən gömrük tərəfindən üzə çıxarılmış və qaytarılmışdı.

Yerdə qalan kağız və sənədlərin də taleyi faciəli oldu: tezliklə, elə Yeni ilqabağı "yuxarıdan" əmr gəldi: Qorki 10-dakı bağ boşaldılsın. Heydər Əliyev Yuri Kamayev və uşaqlarla bir neçə gün öz böyük arxivini saf-çürük etdi. Bəzi şeyləri qovluqlara yığdı, yerdə qalanını məhv etmək üçün Yuri Kamayevə verdi. Bunların arasında Heydər Əliyevin xarici səfərləri və dövlət nümayəndə heyətləri ilə danışıqlarının lentləri, məruzələrinin, müxtəlif çıxışlarının qaralamaları, çoxlu fotoşəkillər və tarix üçün çox qiymətli digər materiallar, sənədli filmlər olan qutular və sair məhv edildi.

Sonralar Heydər Əliyeviç öz arxivinin böyük hissəsinin aqibətindən heyfsilənir və məhv etmək məcburiyyətində qaldığı üçün kədərlənirdi. Lakin o zaman onun bütün bunları daşımağa yeri yox idi, çünki arxiv nəhəng idi və onu adi şəhər mənzilinə yerləşdirmək mümkün deyildi.

Sevil Əliyevanın söhbətindən:

" – Mən eşitmişəm ki, Heydər Əliyeviç istefadan sonra öz arxivinin bir hissəsini məhv etmişdir. Bu, necə baş vermişdi?

– Yeni ilqabağı bizi hökumət bağından çıxardılar. Atam SSRİ Nazirlər Sovetində müşavir vəzifəsində işləyirdi, sonra isə bu vəzifədən də getdi. Çünki orada ona məhəl qoymurdular, iş vermirdilər. Elə-belə müşavir adı daşımaq isə istəmirdi. 88-ci ildə bizə bağdan çıxmağı əmr etdilər.

Əvvəllər belə bir ənənə vardı: əgər Siyasi Büronun üzvü daha işləmirsə, nə qədər ki sağdır, bağ onun adında qalırdı. Belə adamlar az idi və tək-tək adamlara bu icazə verilirdi. Bizi isə sadəcə bayıra atdılar. Yeni il ərəfəsində bunu etmək insanlığa nə qədər yaraşır?! "Yuxarıdan" əmr gəlmişdi. Siyasi Büronun istefa vermiş üzvləri qısa müddət ərzində dövlət bağlarını təhvil verməlidirlər.

* Abbas Aydın oğlu Abbasov – 1991-ci ilin oktyabr ayından Azərbaycan Respublikasının aqrar məsələlər üzrə dövlət müşaviri vəzifəsində çalışıb, 1992-ci ilin may ayından R.Hüseynovun hökumətində baş nazirin birinci müavini olub.

Məsələ isə ondadır ki, Moskvaya köçərkən biz hər şeyimizi bağa gətirmişdik. Moskvalı deyilik axı. Hamımız bir yerdə yaşayırdıq: valideynlərimiz, mən ailəmlə və İlham ailəsi ilə. Əlbəttə, əşyalarımızı şəhərə gətirmək çətin deyildi. Bəs atamın arxivi, onun kitabları! Kitablar lap çox idi – bədii ədəbiyyat, hədiyyə edilmiş kitablar. Nə qədər fotoşəkil var idi! Ümumiyyətlə, atamın arxivində çoxlu maraqlı şeylər saxlanılırdı. Məsələn, sadə insanların, el sənətkarlarının hədiyyələri: onun buğda dənələrindən düzəldilmiş əksi, müxtəlif tikmələr, döymə işləri. Öz-özlüyündə əşyaların elə bir qiyməti yox idi, lakin atamı sevən, ona hörmət bəsləyən ən müxtəlif insanların məhəbbəti və ürəyinin istisi hopmuşdu onlara.

Biz çox şeyi məhv etməli olduq. Yadımdadır, mənim çoxlu valım var idi. Onları qulluqçulara payladım. O günlər atam xəstə idi, soyuqlamışdı. O, gecə və gündüz bağın zirzəmisində oturub öz sadiq komendantı Yuri Petroviçlə arxivi saf-çürük edirdi. Yuri Petroviç Kamayev qardaşımla mən hələ uşaq ikən ailəmizə daxil olmuşdu. Onun düzlüyü və alicənablığı valideynlərimdə böyük rəğbət oyatmışdı. Yuri Petroviç uzun müddət Bakıda və Moskvada atamın yanında işləmiş və zaman keçdikcə ailəmizin sanki bir üzvü olmuşdu. Bütün bu çətin dövrü o, atamla birlikdə keçmişdi.

Biz də bacardığımız kimi onlara kömək edirdik ki, bağdan tez köçək. Gərək insanlıqdan nə qədər uzaq olasan ki, Yeni ilqabağı belə iş tutasan!

Atam sonralar arxivin bir hissəsinin məhv edilməsinə görə çox heyfsilənir, özünü də, bizi də günahlandırırdı, axı biz nə üçün bunu etdik. Lakin o zaman biz psixoloji şokda idik. Bir də, biz arxivi kimə etibar edə bilərdik axı? Bizim Moskvada yaxın dostlarımız yox idi".

Bu dramatik epizod bədii ədəbiyyatda təsvir edilsəydi, düşünürəm ki, bu cür canlandırılardı:

"Gecə saat birdən keçirdi. Əliyev üşüyürdü – iki gün əvvəl bağda gəzən zaman ona bərk soyuq dəymişdi və o çoxdan yatağında olmalı idi. Sevil artıq iki dəfə zirzəmiyə, atasına baş çəkməyə düşmüşdü. Lakin o, səhərəcən işləməyi qərara almışdı – sakitlikdi, heç kəs mane olmur və hər şeylə maraqlanan nəvələri: "Babacan, neyləyirsən? Bu kağızları niyə cırırsan?" sualları ilə onu yormurlar.

"Kağızlar", – Əliyev öz növbəti məruzəsini vərəqləyərkən istehza ilə qımışdı. Onun bütün həyatı bu kağızlarda idi – titanik zəhmət və gərgin düşüncələrlə dolu yuxusuz gecələri və gündüzləri, uğurları, qələbələri, uğursuzluğu, ümidsizliyi... Kağızlar, doğrudan da, çoxdu, düzü, lap çox. Axı iş də az deyildi.

Qərarların, qətnamələrin surətlərini vərəqlədikcə, müşavirə və plenumların materiallarını nəzərdən keçirdikcə həmkarları ilə bu və ya digər sənəd üzərində necə işlədiklərini xatırlayırdı. Xidməti bioqrafiyasının müxtəlif mərhələlərində birgə çalışdığı şəxsləri gözü önünə gəldi. Bu ideyanı, məsələn, MK-nın Bürosunda N irəli sürdü və o, hamının müqavimətinə baxmayaraq onu dəstəklədi. Bu büronun gedişini isə o özü qəsdən "döndərdi" ki, Z-ni müdafiə etsin. Haqlı da oldu: Z indiyə qədər öz vəzifəsindədir və yaxşı da işləyir. Bu 13 ildə o, çoxlu bacarıqlı rəhbər işçi yetişdirmişdi, bəziləri indi də yuxarılardadır, lap yuxarılarda... Əliyev köks ötürdü və növbəti sənədi "yandırmaq" üçün qalağın üstünə atdı.

"Doğrudanmı nəvəm haqlıdır və bütün bunlar heç kimə lazım olmayan "kağızlar"dır?" – deyə o yenidən fikirləşdi və bədənindən gizilti keçdiyini hiss etdi. Doğrudanmı hər şey əbəs imiş: "böyük üzüm uğrunda" çarpışma da, qızmar cənub günəşi altında respublika rayonlarına ardıcıl səfərlər və "talançılara" qarşı amansız mübarizə də. Kreml kabinetlərində və Köhnə meydanda Moskva rəislərini Azərbaycan üçün yeni perspektivlər açan bu və ya digər qərarın qəbul edilməsinə inandırarkən apardığı mübarizə! Təkcə elə kondisioner zavodu epopeyası nələr demir!.. Məgər Moskvada iş asan idimi? Doğrudan da, onun özünə yazığı gəlmirdi, asudə saatlarını da, ailəsilə ünsiyyətini də işə qurban verirdi. İşdən başqa onun elə bir məşğuliyyəti də yox idi. "Hobbi?" – indi bu haqda danışmaq necə dəbdədir. O, acı-acı gülümsədi. Elə iş onun yeganə hobbisi idi.

Bəs niyə bunu heç kim qiymətləndirmədi? Niyə onu qəzetlərdə yalnız neqativ planda yada salırlar? Bəs niyə öz əliylə bəsləyib yetişdirdiyi həmkarları belə indi ondan qaçırlar?

Əliyev qalxdı, keyimiş ayaqlarını hərəkətə gətirdi və kiçik pəncərəyə yaxınlaşdı. Qar yeri ağartmışdı. Kağızlarla işlədiyi iki saat

arzində pəncərənin az qala bütün çərçivəsi qarla örtülmüşdü. Yəqin ki, sabah gəzmək də olmayacaq.

"Sabah..." – Əliyev düşündü və yenə acı-acı gülümsədi: Onun "sabah"ı olacaqmı görən?".

...Bir neçə gündən sonra Yuri Petroviç Kamayev Əliyevin arxivini öz bağına daşıdı və kağızları bir həftə yandırdı. Qonşular evlərindən çıxıb şaxtalı havanı ciyərlərinə çəkərkən təəccüb edirdilər: görəsən, arasıkəsilməyən bu yanıq iyi haradan gəlir?

Vaqif Mustafayevin "Moskva. Kreml" filmindən:

Andrey Karaulov:

"Əliyev – XX əsrin ən güclü insanlarından biridir və düşünürəm ki, bunu hamı, hətta onun düşmənləri də etiraf edir. Mən ən müxtəlif situasiyalarda Heydər Əliyevi görmüşəm. Nə prezident olanda, nə qiyama qalib gələndə, nə bir çağırışı ilə yüz min insan meydana gəlib Azərbaycan prezidentinə öz dəstəyini bildirəndə, sən demə o, ən güclü deyilmiş. **O, istefa günlərində daha güclü idi** (seçmə bizimdir – ***E.A.***)".

Artyom Borovik:

"Belə bir hadisə yadımdadır. Heydər Əliyevi Qorbaçovun Siyasi Bürosunun heyətindən kənarlaşdırdıqda oğlu İlhama qarşı da kifayət qədər sərt ölçü götürməyə cəhd etdilər. Onun işlədiyi XİN sistemindən çıxarılması haqda gizli göstəriş verilmişdi. Heydər Əliyev Şevardnadzeyə zəng vurub xahiş etmişdi ki, oğlunu rahat buraxsınlar və soruşmuşdu: niyə oğlum mənə görə əziyyət çəkməlidir, karyerası təzə-təzə başlayan cavan oğlanın başına bu cür dəyənəklə nə üçün vurursunuz, niyə? Axı, onun cəmiyyətə də, quruluşa da, rejimə də bütün inamı yox olar. Buna baxmayaraq, İlhamı işdən azad etdilər və o, hər şeyi sıfırdan başlamalı oldu. Yeri gəlmişkən, bu ailənin çox varlı olması barədə söz-söhbətlər həqiqətə uyğun deyil. Ailəni praktiki olaraq İlham saxlayırdı. O, biznesə qoşuldu, əlindən gələn hər şeyi etdi. Kooperativ hərəkatı onda hələ təzəcə başlayırdı. Və o, atasını da, ailəsini də saxlayırdı. İlham, neçə deyərlər, atası ilə bir yerdə çətinlik görmüşdür, odur ki, təkrar edirəm, bu, əzilmiş, başı çox şey çəkmiş ailədir.

Heydər Əliyevlə söhbətim yadımdadır, biz onun haqq dünyasına qovuşmuş, hələ Heydər Əliyeviç Moskvada işləyərkən vəfat etmiş həyat yoldaşı haqda danışırdıq. O, bu vaxtsız itkini, bu erkən itkini xatırlayaraq dedi: "Bilirsiniz, Artyom, ümumiyyətlə, şadam ki, Siyasi Büro sıralarından kənarlaşdırılandan sonra mənə qarşı edilən alçaq hərəkətləri görmədi, o təhqir və həqarətlərdən ki mən keçəsi oldum, onların şahidi olmadı".

Heydər Əliyevin həyatında son partiya plenumu

Sevil Əliyeva ilə söhbətdən:

" – Deyirlər ki, plenumların birində o çıxış etmiş və Qorbaçova demişdi: siz bizi hesabdan tez silirsiniz.

– Bəli, bu, "qoca" MK üzvlərinin Mərkəzi Komitənin tərkibindən çıxarıldığı plenumda olmuşdu. Bir dəfəyə 100 ya 200 nəfəri. Atam çıxış etmək istəyirdi, lakin Qorbaçov ona söz vermirdi. Təkcə hirslə "Mən sizi görürəm, yoldaş Əliyev" demişdi. Lakin atam onun icazəsi olmadan tribunaya qalxaraq çıxış etmişdi".

1989-cu ilin əvvəlində, yenidənqurma getdikcə "yerində saymağa" başlayanda, baş katibin inqilabi "sıçrayışları" isə partiya həmkarları tərəfindən böyük şübhə ilə qarşılananda M.Qorbaçov "atla gediş" edib bütün opponentlərindən birdəfəlik yaxa qurtarmaq fikrinə düşdü. Quyruq bulayan məsləhətçilər ona "yeniləşmənin" müxtəlif variantlarını, o cümlədən Qərb variantını, yəni bütün Siyasi Büro üzvlərinin istefasını təklif edirdilər. Lakin M.S. bu ideyaya əl atmağa ürək etməyib öz variantını – Sov.İKP MK-nın tərkibinin əsaslı dəyişdirilməsini irəli sürdü.

Qorbaçov komandasının üzvlərindən biri olan Vadim Medvedev bunu belə xatırlayır:

"Rəhbərlərin intensiv dəyişdirilməsi nəticəsində təqaüdçülər təbəqəsi xeyli artmışdı. MK-nın 301 üzvündən 83-ü təqaüdçü idi. Partiyanın rəhbər orqanlarının tərkibi ictimai fikirdə partiyada doq-

matik, mühafizəkar qüvvələrin üstünlük təşkil etməsi təsəvvürünü yaradırdı.

Qorbaçovun bu yoldaşlarla söhbəti son dərəcə açıq və səmimi oldu. Siyasi Büronun fikirləri onlar tərəfindən tam anlaşma ilə qarşılandı. Doğrudur, çıxış edənlər, ehtiyatlanırdılar ki, onların getməyi nümayişkarlıq və ya fərarilik kimi qarşılanar və sonradan tapdaq altına düşərlər. Belə zəmanətlər verildi (və yerinə yetirilmədi – ***E.A.***).

Sov.İKP MK-ya istefa haqqında köhnə "ideoloq" Zimyanin və mənim tərəfimdən buradaca hazırladığımız müraciəti rəhbər orqanların 110 üzvü, o cümlədən Siyasi Büro üzvləri olan qocaman xadimlər – Qromıko, Solomentsev və başqaları imzaladılar. Sonradan sabiq orta maşınqayırma naziri Slavskidən başqa bu iclaslarda xəstəlik və digər səbəblərdən iştirak edə bilməyənlərin də hamısı sənədi imzaladı və beləliklə, Sov.İKP MK-nın tərkibində yaşı 90-ı ötmüş cəmi bir nəfər qaldı"[2].

Qorbaçovun bu görünməmiş aksiyasının səbəblərini Yeqor Liqaçov başqa cür şərh edir:

"Məsələ ondadır ki, Sov.İKP Mərkəzi Komitəsinin XXVII qurultayda seçilmiş tərkibi əsas etibarilə güclü idi, orada bir çox yeni, möhkəm, təzə irəli çəkilmiş adamlar var idi. Mənim fikrimcə, bu işgüzar, sağlam düşüncəyə malik Mərkəzi Komitə idi. O, yenidənqurma mövqeyində inamla dayanmışdı. Məhz elə buna görə yenidənqurmanın ilkin ideyasını kökündən dəyişən, "demokratik" örtüklü radikal "böyük sıçrayış" ideyalarına ehtiyatla yanaşırdı. Hər Plenumda kəskin diskussiyalar baş qaldırırdı, radikal KİV-lər, iqtisadiyyatda sapmalar ittihamlara məruz qalırdı, Qorbaçovun özünü də tez-tez tənqid edirdilər.

Hər Plenum Baş katib üçün ciddi sınağa çevrilirdi və Mixail Serqeyeviç mənə dəfələrə deyirdi ki, istefaya getməlidir. Bu, bir çox plenumlarda olmuşdu. Fasilə vaxtı, ünvanına səslənən kəskin tənqidlərdən sonra Qorbaçov Siyasi Büro üzvlərinin dar çərçivəsində deyirdi:

– MK-nın tərkibi ifrat mühafizəkardır, onlarla işləmək mümkün deyil. İstefaya getmək lazımdır... İndi çıxıb bu barədə deyəcəyəm.

Hadisələr göstərdi ki, bu tənqidlərə baxmayaraq, Qorbaçov öz əməli fəaliyyətində MK-nın rəyi ilə o qədər də hesablaşmırdı. Ona görə də heç kimin ixtiyarı yoxdur ki, indiki böhrana görə günahı "MK-nın mühafizəkar tərkibinin", bütövlükdə partiyanın üstünə yıxsın, necə ki, indi Qorbaçovun özü edir. Lakin deyərdim ki, Qorbaçovun o vaxtkı MK-nın bir hissəsi ilə gərgin münasibətləri "Xruşşov sindromunun" güclənməsinə rəvac verdi. Bu vəziyyət 1989-cu ilin may Plenumunda* müxtəlif səbəblərə görə təqaüdə göndərilən MK üzvlərinin böyük qrupunun "kollektiv surətdə istefa verməsi" ilə həll olundu. Görünür, rəhbərliyin fikrincə hadisələrin bu cür axarı "çevriliş" xofunu aradan götürmüş, siyasi islahatlar prosesini gücləndirmək üçün onun əl-qolunu açmışdı"[3].

Əvvəlcədən hazırlanmış ssenariyə baxmayaraq, 1989-cu il aprelin 25-də keçirilən Sov.İKP MK Plenumu M.Qorbaçov üçün sakıt ötüşmədi. Həm istefaya gedən, həm də digər MK üzvləri dedikcə kəskin və üzgörənlikdən uzaq çıxışlar etdilər.

V.Vorotnikov öz kitabında bunu belə xatırlayır:

"Əvvəlcə gedənlər öz qərarlarının əsaslandırılmasından danışırdılar, onlara göstərilən etimad və keçmiş fəaliyyətlərinin MK tərəfindən dəstəkləndiyinə görə təşəkkürlərini bildirir, arzularını səsləndirirdilər.

Lakin sonra çıxışlar daha kəskin və tənqidi xarakter aldı. Özü də söz istəyənlər əsasən MK-nın istefaya gedən üzvləri yox, qalanlar idilər. Söhbət yenidənqurmanın ən vacib problemlərindən, MK-nın mövqeyindən, iş metodlarından və s. getməyə başladı.

R.S.Bobovikov. *Seçkilərin nəticələri nəyi göstərir? İqtisadi islahat əyintilərlə aparılır. Çatışmazlıqlara görə bütün günahlar yerli partiya orqanlarının ayağına yazılır. Mətbuatda yalnız neqativ hallar dərc olunur. Partiya aparatı tənqid atəşinə tutulur. Ordu ətrafında diskussiyalar qaldırıblar. Bütün sirləri açmaq, bütün sərhədləri açmaq. Müzakirə üçün bu nə mövzudur! Mitinqlər gedir, lakin demaqoqları yerində oturtmaq üçün orada nə Medvedev, nə Yakovlev görünür. Əgər Qərb yenidənqurmanı tərifləyirsə – bu faktı Leninin mövqelərindən qiymətləndirmək lazımdır.*

A.P.Myasnikov. *Ekskavatorçu. Demokratiyadan sui-istifadə etməyə, millətçilik əhval-ruhiyyəsi qızışdırmağa başlayıblar. Demok-*

* Liqaçov səhv salır – Sov.İKP MK-nın plenumu 1989-cu ildə, aprelin axırında olmuşdu.

ratiyanın hüquqi müdafiəyə ehtiyacı vardır. Partiya rəhbərliyi xalqa yaxın olmalıdır. Lenin haqqında nələr danışırlar... (qurtarmadı, tribunanı göz yaşları ilə tərk etdi).

P.N.Fedoseyev. *Mən yeniləşmə tərəfdarıyam. Lakin yeniləşməni MK-ya vəzifəli şəxslərin gəlməsi zərurəti ilə əsaslandırmaq olmaz (bu, Lenin prinsipi deyil). Biz eyni cür düşünməyin əleyhinəyik, lakin biz həmfikirlərik. Partiyanın birliyinə, sıralarının möhkəmləndirilməsinə daha çox qayğı lazımdır.*

Y.F.Solovyov. *Biz bir çox hallarda qərar qəbul etməyə tələsirik. Məsələn, müəssisələrin rəhbərlərinin seçilməsi mexanizmi əks istiqamətdə işləmişdir (mənfəətpərəstlik, istifadəçilik). Adamlar bizim varlı ölkəmizdə pis yaşamağımızdan iztirab çəkirlər. İndi meydan bic, avantürist adamlarındır. Partiyada ideya sarıdan boş, Sov.İKP-nin prinsipial mövqeyinin əleyhinə çıxan adamlar peyda olub.*

V.T.Saykin. *Xalqa "canıyananlar" çətinlik və problemlərdən öz xeyirləri üçün istifadə edir, qeyri-real layihələr irəli sürürlər. Şəxsi ambisiyalarını hər şeydən üstün tutur, öz şöhrətpərəst planları xatirinə Sovet hakimiyyətini qurban verməyə hazırdırlar. Yenidənqurmanı partiyanın əlindən vermək olmaz.*

İ.K.Polozkov. *Azğın kampaniya gedir. Partiyanın işini və ideyalarını mənimsəyirlər. SSRİ-ni parçalamaq, kommunistləri asmaq və s. bu kimi çağırışlar səslənəndə bizim çox uzağa gedib çıxmağımız aydın olur. Hər şeyi mətbuatın üstünə yıxmaq olmaz. Bütün bunlar partiya komitələrində, partiya təşkilatlarında, Sov.İKP MK-nın özündə hələ araşdırılmayıb. Köhnə metodlar kənara atılıb, yeniləri isə hazırlanmayıb. Bir çox fəlsəfi və ideoloji sualların cavabı yoxdur. MK isə susur.*

A.Q.Melnikov. *İdeoloji problemləri araşdırmaq lazımdır. MK-da kim kütləvi informasiya vasitələri ilə məşğuldur, kim milli məsələlərlə və s.? MK aparatında kimlər işləyir, onlar nə dərəcədə hazırlıqlı və partiyaya sadiq adamlardır?*

V.İ.Melnikov. *Yenidənqurmanın başlanğıcı əsassız optimizmlə səciyyələnirdi. Seçkilərdə bir sıra səhvlərə yol verildi. Lakin günahkar yalnız partiya təşkilatlarıdırmı? MK aparatının yerlərdəki vəziyyətdən xəbəri yoxdur. MK-nın plenumları məqsədinə nail olmur.*

Çıxış edənlərin çoxu MK və onun rəhbərliyinin iş metodlarından narazılığını bildirdi. Beləliklə, plenumda bir tərəfdən mühafizəkarlıq, "göstərişlə" işləmək kimi kökü kəsilməyən metodlara bağlılıq, digər tərəfdən isə yenidənqurmanın üzüaşağı getməsi, XXVII qurultayın müəyyənləşdirdiyi kimi həyata keçirilməməsindən doğan səmimi narahatlıq, təşviş özünü aşkar büruzə verdi"[4].

Sonralar jurnalistlər A.Karaulov və D.Remnikə müsahibəsində Heydər Əliyev plenumu və ondan qabaq baş verənləri yada saldı:

"1989-cu il aprelin 24-də, Mərkəzi Komitənin növbəti Plenumu ərəfəsində, MK-nın bir çox üzvlərinə və üzvlüyə namizədlərə onun tərkibindən çıxmaq təklif olundu. Digər yoldaşlarla birlikdə Sov.İKP MK-da mən də belə bir təklif aldım. Bütün təqaüdçüləri MK-ya yığıb dedilər: MK-nın tərkibində təqaüdçülərin sayı çoxdur, siz hamınız aktiv fəaliyyətlə məşğul olmursunuz, ona görə fikir var ki, bu gün getməyiniz barədə ərizə imzalayasınız. Bu, sürpriz idi.

– Hamı da dedi: "Nə olar, lap yaxşı"?

– Hamı demədi, ancaq bəziləri çıxış etdi, bilmirəm, bəlkə onlarla lap əvvəlcədən söhbət etmişdilər, başladılar deməyə ki, hə, biz indi təqaüddəyik, biz getməliyik. Sizə gülməli gəlir? Biz axı, partiya intizamına öyrənmişik. Sonra isə hamımızın kollektiv surətdə imzaladığı ərizə hazırlandı. Hər kəs yaxınlaşıb imza atırdı.

– Bu asan məsələ deyildi?

– Kimin ürəyində nə vardı deyə bilmərəm, hər halda hamı qol çəkdi. Ertəsi gün plenum oldu, mən çıxış etdim, dedim ki, ərizəni imzalamışam və bunu düşünülmüş etmişəm, axırda da dedim ki, hazırda məruz qaldığım hücumlara layiq deyiləm"[5].

H.Əliyevin şəxsi arxivində 1989-cu il aprelin 25-də Sov.İKP MK-nın Plenumunda "Bir qrup Sov.İKP MK üzvü və üzvlüyünə namizədin, Sov.İKP Mərkəzi Təftiş komissiyası üzvünün müraciəti haqqında" məsələnin müzakirəsi zamanı çıxışının stenoqramı saxlanılır. Həmin stenoqramın mətnini veririk:

"Hörmətli yoldaşlar! Dünən mən Sov.İKP MK üzvləri qrupu tərəfindən sizin bu gün tanış olduğunuz müraciəti imzalamışam. Bu məsələ ilə bağlı Mixail Sergeyeviç Qorbaçovun bugünkü məruzəsini tam dəstəkləyirəm. Düşünürəm ki, təklif olunmuş qərarın qəbul edilməsinin zəruriliyi orada aydın və əsaslı şəkildə göstərilmişdir.

Şübhə yoxdur ki, bu çox mühüm qərarın qəbulu Sov.İKP Mərkəzi Komitəsinin yenidənqurmanı həyata keçirmək istiqamətində daha məhsuldar fəaliyyət göstərməsinə kömək edəcəkdir. Partiyanın Mərkəzi Komitəsinə, Siyasi Büroya, Mixail Sergeyeviç Qorbaçova uzun illər Mərkəzi Komitənin, Siyasi Büronun tərkibində məna göstərilən etimada görə təşəkkürümü bildirmək istərdim.

İmkandan istifadə edərək, mənim üçün ağrılı olan bir məsələyə toxunmaq istərdim. Son vaxtlar mətbuatda Azərbaycan KP MK-nın birinci katibi olduğum dövrdə mənim işimə tənqidi qiymət verən yazılar meydana gəlmişdir. Əgər onlar obyektiv xarakter daşısaydı, sağlam əsasa söykənsəydi, onları qəbul edərdim. Lakin bir halda ki, nə birinci, nə də ikinci yoxdur, onlar məndə etiraz hissi doğurur, mənəvi zərbə vurur. Vaxtınızı bu məqalələrin təhlili ilə almaq istəməzdim, bildirirəm ki, mən onları qərəzli, qeyri-obyektiv, əsassız olduqlarına görə rədd edirəm.

Qeyd etmək istəyirəm ki, bütün bu məqalələr Azərbaycanda işlədiyim dövrdə cinayət və müxtəlif pozuntulara görə rəhbər vəzifələrdən azad edilmiş və partiya məsuliyyətinə cəlb olunmuş ayrı-ayrı insanların dilindən yazılır. Öz subyektiv, eqoist hisslərindən çıxış edərək onlar qisas alırlar, mətbuat orqanlarının işçilərinə yalan məlumat verməklə çaşdırırlar. Əfsus ki, bununla bərabər məqalə müəllifləri də birtərəfliliyə yol verirlər, digər tərəfin fikrini öyrənməyi lazım bilmirlər. Belə vəziyyəti çətin ki, normal hesab etmək olar.

Dağlıq Qarabağ hadisələri ilə bağlı ünvanıma səslənən iradlarla da razılaşa bilmərəm. Onlar əsassız və sübutsuzdur. Muxtar vilayət və onun ətrafında mürəkkəb vəziyyət yaranmışdır və bu, dərin, düşünülmüş, başlıcası isə obyektiv təhlil tələb edir. Burada emosional yanaşma yolverilməzdir.

Mən Azərbaycandan 1982-ci ildə getmişəm, Dağlıq Qarabağda hadisələr isə 1988-ci ildə başlayıb. Azərbaycanda işlədiyim dövrdə Dağlıq Qarabağda vəziyyət normal, sabit idi. Millətlərarası zəmində heç bir neqativ hal yox idi. Dağlıq Qarabağda tez-tez olurdum, mehriban münasibət görürdüm, heç kim mənim qarşımda bu cür xarakterli məsələləri qoymurdu. Azərbaycan KP MK-nın birinci katibi işlədiyim dövrdə Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxması haqqında bir dənə də olsun məktub, xahiş olmamışdı. Yeri gəlmişkən, sosial-iqtisadi inkişaf səviyyəsinə görə Dağlıq Qarabağ Muxtar Vilayətinin göstəriciləri Azərbaycan və Ermənistan üzrə olan orta respublika göstəricilərini üstələyir. Bununla mən demək istəmirəm ki, keçmişdə Dağlıq Qarabağa, onun partiya təşkilatına rəhbərlikdə nöqsan və səhvlər olmayıb və orada problemlər yoxdur. Vilayətdə sosial-iqtisadi və mənəvi xarakterli problemlər vardır, onları həll etmək lazımdır, lakin görülən işləri qiymətdən salmaq, danmaq olmaz.

Bütün dediklərim şəxsi məsələ kimi görünə bilər, lakin mənə elə gəlir ki, bu, ümumi xarakter daşıyır, çünki söhbət ədalətdən, obyektivlikdən gedir.

Sonda demək istəyirəm ki, Bakıda və Moskvada işləyərkən namusla, vicdanla çalışmışam, vaxtı nəzərə almadan işləmişəm, bütün canımı işə sərf etmişəm, heç kimi təqib etməmişəm, heç bir klanım olmayıb, sui-istifadə və neqativ hallara qarşı fəal mübarizə aparmışam, nəticədə xeyli düşmən və geniş infarkt qazanmışım.

Partiyanın yenidənqurmaya, demokratiyanın inkişafına, aşkarlığa yönələn xəttini tamamilə dəstəkləyirəm və hesab edirəm ki, mətbuatda məruz qaldığım hücumlara layiq deyiləm. Bir daha göstərilən etimada görə təşəkkür edirəm".

"Patriarxın baharı" filmində (ANS teleşirkətinin istehsalı, 1998) Rusiya Federasiya Şurasının sabiq sədri Yeqor Stroyev Heydər Əliyevin MK-nın aprel Plenumundakı çıxışı barədə o vaxtkı təəssüratlarını xatırlayır:

"...Mənim üçün o, tarixin ən sərt döngələrində sınmayan bir insandır. Tarix isə ona bir neçə dəfə zərbələr endirmişdi... Mən onu elə vəziyyətdə görmüşəm ki, sizin heç biriniz heç vaxt onu o vəziyyətdə görməyib. Bu, Qorbaçovun onu MK-dan çıxarmağı qərara aldığı məqamdır. Zala ölüm sükutu çökmüşdü. Birdən o, arxa sıradan replika verdi: "Mənim üstümdən xətt çəkməyə tələsməyin: mənim sözüm var". O, tribunaya qalxdı, Sovet İttifaqından, xalqlar dostluğundan danışdı, bütövlükdə Rusiyaya, tərkibində olduğu partiyaya və həmin vaxt partiya daxilində baş verənlərə və niyə məhz onun barəsində belə məsələnin qaldırılmasına öz şəxsi münasibəti-

ni bildirdi. Zal daxildən qaynasa da, ortaya ölüm sükutu çökmüşdü. Və mən sizə həqiqəti deyirəm, bütün zal onun tərəfində idi. Əliyev zalı qalib kimi tərk edirdi. Bu, hər adamın işi deyil ki, belə qeyri-standart vəziyyətdə ədaləti, öz simasını müdafiə edə bilsin. Həmin mənzərə ömrüm boyu yadımdan çıxmayacaq. Mən də MK üzvü idim, zalda oturmuşdum, o vaxt Oryol vilayətində rəhbər vəzifədə işləyirdim. Bu, mənim üçün böyük həyat dərsi oldu".

DQMV ətrafında münaqişənin başlanması

Son illər Heydər Əliyevin kənarlaşdırılmasının Dağlıq Qarabağın ilhaqı ilə bağlı kampaniyanın başlanması ilə birbaşa əlaqəsi haqqında çox yazılıb. H.Əliyevin istefasından düz iyirmi gün sonra akademik A.Aqanbeqyanın Parisdə çıxan "Humanite" qəzetinə verdiyi müsahibədə Qarabağı Ermənistana birləşdirməyin zəruriliyini və problemin lap bu günlərdə həll ediləcəyini bəyan etməsi haqqında da az yazılmamışdır.

"O vaxt Aqanbeqyan Qorbaçovla yaxın idi, – SSRİ DTK sədrinin birinci müavini F.Bobkov xatırlayır, – xaricdə onu müəyyən dərəcədə Sov.İKP MK Baş katibinin baxışlarını ifadə edən adam kimi tanıyırdılar. Təbii ki, bu xəbər tez bir zamanda bütün erməni diasporuna yayıldı, Ermənistana və Azərbaycana çatdı. Həmin andan Aqanbeqyan azərbaycanlılar üçün ümumiləşmiş fiqura – Qarabağ tonqalına kibrit yaxınlaşdıran ilk adama çevrildi"[6].

İngilis jurnalisti Tomas de Vaalın artıq adı çəkilən "Qara bağ" kitabında İqor Muradyanın dilindən bildirilir ki, "miatsum"* təşəbbüskarları Moskvaya Dağlıq Qarabağ haqqında ərizə aparmış və doqquz Moskva ermənisini (onların arasında MK üzvləri də olub, tanınmış alimlər də) kağıza imza atmaq üçün yola gətirmişlər.

"Qorbaçovun iqtisadi islahatlar üzrə müşaviri Aqanbeqyanın imzası daha əhəmiyyətli oldu. Muradyan xatırlayır ki, Aqanbeqyan məktubu imzalayacağı evə gələndə onun hara və nə üçün aparıldığını bilmirdi. Məktuba imza atana qədər Aqanbeqyan dörd saat orada oldu. Və bu dörd saat ərzində iki litrə yaxın araq içmişdi"[7].

* Miatsum – erməni dilində – birləşmək.

Bu cür "məsləhətçilərin" təsiri altında M.Qorbaçovda ermənipərəst hisslər Qarabağ hadisələrindən çox qabaq, hətta onun Sov.İKP MK Baş katibi seçilməsindən də qabaq yaranmışdı. Azərbaycanın müharibədən sonrakı tarixində ən müxtəlif "ağ ləkələrin" doldurulması üçün böyük işlər görmüş tanınmış Azərbaycan tarixçisi və ictimai xadimi Cəmil Həsənli Corc Vaşinqton universiteti yanında ABŞ Milli Təhlükəsizlik Arxivində olduqca maraqlı bir sənəd aşkar etmişdir. Bu, "Erməni soyqırımının 70 illiyi ilə bağlı tədbirlər haqqında"* məsələ müzakirə edən Siyasi Büronun 1985-ci il 21 fevral tarixli iclasının protokoludur. K.Çernenko o vaxt artıq ağır və sağalmaz xəstə idi və Siyasi Büronun iclaslarına M.Qorbaçov sədrlik edirdi. Məhz bu səbəbdən o, aprelin 24-nün "Soyqırım qurbanlarının xatirə günü" elan edilməsi haqqında məsələni "superhökumətin" müzakirəsinə çıxarmağa müvəffəq olmuşdu. Əvvəlcədən qeyd etmək lazımdır ki, H.Əliyev həmin iclasda iştirak etmişdi, lakin onun çıxışı stenoqramda yoxdur. Sov.İKP MK katibi A.Biryukovanın H.Əliyevin müdrik insan olduğu və həmişə diplomatik tərzdə çıxış etdiyi barədə dediyi sözləri yada salmaq pis olmazdı: düşünürəm ki, H.Əliyev Siyasi Büroda ona görə çıxış etməmişdi ki, türk mənşəli bir şəxs üçün bu, olduqca incə məsələ idi. O, əsas "təbliğat" işini qeyri-rəsmi görüşlərdə və həmkarları ilə təkbətək söhbətlərdə aparmağa üstünlük verirdi. Əminəm: növbəti Siyasi Büro iclasının gündəliyi ilə tanış olub bədnam "soyqırım" məsələsini görəndən sonra, o bu işi ona yaxın olan Siyasi Büro üzvləri, xüsusən N.Tixonovla aparmışdı. Bu da onların qəti və prinsipial mövqe tutmasını həll etmişdi. V.Qrişinin replikasında bu özünü daha aydın göstərir:

"Bu məsələdə biz yetmiş il Ermənistan Ali Sovetinin Fərmanı olmadan keçinmişik, indi isə fərman qəbul etmək təklif olunur. Nəyə görə bunu etməliyik?"

* C.Həsənlinin sözlərinə görə, bütün bu və digər sənədlər, təbii ki, Rusiya arxivlərində də vardır, lakin ötən əsrin 90-cı illərinin əvvəlində bir sıra sənədlər müəyyən müddətə tədqiqat üçün açılanda, amerikalılar Siyasi Büronun protokol və stenoqramlarının əksəriyyətinin kserosurətini çıxarmağa, sonradan isə ABŞ-a aparmağa müvəffəq olmuşlar.

Siyasi Büronun digər "ağır çəkili" üzvləri də K.Dəmirçyanın təklifini eyni qətiyyətlə rədd etdilər.

"**Tixonov:** – Mən Ermənistan KP MK-nın təklifini oxuyanda ciddi sürətdə narahat oldum. Bizdə Türkiyə ilə münasibətlər təzə-təzə yoluna düşür. Mən bu ölkədə olarkən Türkiyə rəhbərləri Sovet İttifaqını dost dövlət adlandırırdılar, bəyan edirdilər ki, öz ərazilərində bizim ölkəyə tuşlanan raketlərin qurulmasına yol verməzlər. Mənim üçün aydındır ki, respublika fərmanı Sovet-Türkiyə münasibətlərində gərginlik yaradacaq və istər-istəməz Moskvanı da buna bağlayacaqdır... Türkiyədə olduğum vaxt ölkənin prezidenti və Baş naziri təxminən 40 dəqiqə Ermənistan rəsmi şəxslərinə istinad edərək bu respublikadakı antitürk əhval-ruhiyyəsindən mənə şikayətləndilər. Aydın məsələdir ki, biz buna yol verməməliyik...- Yaxşı olardı ki, Ermənistanda, onun partiya təşkilatında bütün nəsillərdən olan zəhmətkeşlərlə beynəlmiləl tərbiyə işi daha yaxşı təşkil olunsun, bütün hadisələr nəzarətdə saxlanılsın".

Bu mövqeyi xarici işlər naziri A.Qromıko dəstəklədi:

"...Bizə Türkiyəyə qarşı belə münasibəti əbədiləşdirmək lazımdırmı? Hesab edirəm ki, daşnaklar türklərdən çox Sovet hakimiyyətinə nifrət edirlər. Odur ki, onlar və onların çığır-bağırı bizim üçün meyar ola bilməz..."

Siyasi Büro üzvlərinin fikirlərinin başqa səmtə yönəldiyini hiss edən M.Qorbaçov dərhal "valı dəyişdi" və həmkarları qarşısında özünü təmizə çıxarmağa başladı:

"Əgər bizdə şübhə oyanmasaydı, Katiblik məsələni bu iclasın müzakirəsinə çıxarmazdı. Düşünürəm ki, bugünkü müzakirə bu məsələdə biliklərimizi zənginləşdirdi (?! – ***E.A.***)... İrəli sürülmüş təkliflər barədə yol. K.S.Dəmirçyandan başqa hələ heç kim bilmir, heç lazım da deyil ki, kimsə bilsin. Ümumilikdə, bizim hər hansı yeni tədbirə əl atmağımız lazım deyil..."

Ermənistanda və xaricdə Qorbaçovun ermənipərəst əhval-ruhiyyəsi barədə dərhal xəbər tutdular. O, baş katib seçiləndən sonra erməni separatizminin ideya ilhamçıları daha fəal, sağına-soluna baxmadan hərəkət etməyə başladılar. Qarabağda separatçıların Ermənistanla birləşmək haqqında "referendum" adlandırdıqları sənəd üçün imza toplanırdı, Moskvaya bir-birinin ardınca nümayəndə heyətləri göndərilirdi, Sergey Mikoyan (Anastas Mikoyanın oğlu), Zori Balayan və digərləri "Qarabağ məsələsinə" xaricdə lobbiçilik edirdilər. Ardı – yaxşı məlumdur. Bu məqamda M.Qorbaçovun DQMV ətrafında cərəyan edən hadisələrin olduqca özünəməxsus şərh edildiyi "Həyat və islahatlar" kitabından geniş sitat gətirmək yerinə düşər:

"1988-ci ilin fevralında Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin əhalisi (85 faizi ermənilərdir) vilayəti Ermənistan SSR-in tərkibinə keçirməyi tələb etdi. Qərar Vilayət Soveti tərəfindən qəbul olunmuş və dərhal da Ermənistanda çoxminlik nümayiş və mitinqlərlə dəstəklənmişdi. Bunlar mütəşəkkil, asayişi pozmadan keçirdi. Yenidənqurma və aşkarlığı dəstəkləyən plakatlarla gedirdilər. Hüquq-mühafizə orqanları yalnız qayda-qanuna nəzarət edirdi, heç bir başqa ölçü götürmürdü, bu insan dənizinə qarşı heç götürə də bilməzdi.

Bu, Azərbaycanda kəskin cavab reaksiyası doğurdu, orada da antierməni şüarları altında mitinqlər keçdi.

Fevralda Siyasi Büro Dağlıq Qarabağ haqqında məsələni müzakirə etdi. Razumovski məlumat verdi ki, fevralın 12-də Stepanakertdə keçirilən partiya və təsərrüfat rəhbərlərinin yığıncağı Ermənistanla birləşməyin lehinə fikir bildirib. Fevralın 13-də mitinq olub. "Camaatı yerindən oynadan" iki nəfərin adı çəkilib – Yerevandan "Qosplanın" əməkdaşı Muradyan və vilayət partiya komitəsinin təlimatçısı Karapetyan. Respublika rəhbərlərinin mövqeyi haqqında məlumat daxil oldu. Bağırov təkid edirdi ki, mərkəz DQMV-nin dəyişilməz statusunu təsdiqləsin və buna zəmanət versin. Dəmirçyan DQMV-nin müraciətinə Azərbaycan, Ermənistan və Sovet İttifaqının Ali Sovetlərində baxılmasını istəyirdi. **Aydın oldu ki, Bakı və Yerevanın Stepanakert ətrafında mübahisəsini Moskva həll etməli olacaq** (burada və bundan sonra seçmə bizimdir – ***E.A.***).

Rıjkov dedi ki, "Konstitusiya çərçivəsində hərəkət etmək lazımdır". Çebrikov fikir söylədi ki, bir yox, bir neçə addım atmaq lazımdır: birgə iclas keçirmək, Moskvadan elə adamları göndərmək ki, onların fikirlərini eşitsinlər. Məlumat verdi ki, hadisələr digər

respublikalarda da əks-səda doğurur. Estoniyada SSRİ-nin tərkibindən çıxmaq əhval-ruhiyyəsi artır, Tacikistan Buxara və Səmərqəndə olan iddialarını müzakirə edir.

Mənim nöqteyi-nəzərim belə idi: problemi siyasi üsullarla həll etmək lazımdır. Bəyan edilməlidir ki, MK hər hansı sərhəd dəyişikliklərini yolverilməz hesab edir. Dağlıq Qarabağın iqtisadi, sosial və mədəni həyatı ilə bağlı təkliflər hazırlamaq. Qoy ermənilər və azərbaycanlılar bir yerə yığışıb özləri həll etsinlər, biz onların istənilən qərarını qəbul edərik. Rus ziyalılarını, fəhlələri onların diskussiyalarına qoşmaq. Qərara alındı ki, yerli rəhbərliyə kömək üçün hər iki respublikaya Siyasi Büro nümayəndələri göndərilsin. Bakıya Liqaçov və Razumovski, Yerevana isə Yakovlev və Dolgix yollandılar. Onların vəzifəsinə əlaqə yaratmaq, insanları sakitləşdirmək daxil idi.

O anda başlıcası sakitliyi bərpa etmək, insanları ümidsiz vəziyyətə çatdırmamaq, millətçi-ekstremistlərin demokratiyanı öz xeyirlərinə çevirməyə imkan verməmək idi. Fevralın 26-da mən Azərbaycan və Ermənistan xalqlarına düşüncə, məsuliyyət, ağıl nümayiş etdirmək çağırışı ilə müraciət etdim. Çağırışda deyilirdi ki, biz müxtəlif təklifləri açıq müzakirə etməkdən kənara çəkilmirik. Lakin bunu sakit, demokratik proses və qanun çərçivəsində etmək lazımdır.

Müraciət şəraitin bir qədər normallaşmasına kömək etdi. Yerevanda fasiləsiz kütləvi mitinq dayandırıldı, sakitləşmiş adamlar evlərinə dağıldılar.

Mən dialoq qurmağa, **mənim qəti inamıma görə vəziyyətdən çıxmaq üçün yeganə yol olan kompromis axtarmağa çalışırdım.**

Bu günlərdə şair Silva Kaputikyan və jurnalist Zori Balayanla görüşüm oldu. Söhbətdə G.Şahnazarov da iştirak edirdi.

Söhbət uzun çəkdi. Mən həmsöhbətlərimə məsələnin tarixçəsini ətraflı danışmaq imkanı verdim. Qarabağ ətrafında mübahisənin kökləri, deyilənlərə görə, uzaq keçmişə gedib çıxır. Əsrlərdən bəri iki xalq bu bərəkətli torpaqda yan-yana yaşamışdır. Vaxt olub torpaq əldən-ələ keçmiş, yüzilliklərlə İranın hakimiyyəti altında olmuşdur. Ancaq əsas etibarilə oranın əhalisi ermənilər olmuşdur. **İnqilabdan dərhal sonra onların ana vətənlə birləşmək haqqında**

çoxdankı arzusu az qala gerçəkləşəcəkdi (?!). Lakin əvvəlcə buna söz verən Azərbaycanın o vaxtkı rəhbəri Nəriman Nərimanov, tezliklə sözünü geri götürdü. Sonradan bu məsələ dəfələrlə qaldırılmışdı, o cümlədən müharibədən sonra, lakin öz həllini tapmamışdı.

Bu barədə Kaputikyan və Balayan ətraflı danışırdılar, mənə səliqə ilə toplanmış sənədləri, coğrafi xəritələri , tarixi arayışları göstərirdilər. Sonra isə Qarabağın erməni əhalisinin sıxışdırılması, onun Ermənistandan təcrid olunması, tarixi abidələrin dağıdılması haqqında danışmağa başladılar. Əslində söhbət ermənilər vilayətdən məqsədyönlü çıxarmaqdan gedirdi. Necə ki, bunu Naxçıvan MSSR-də həyata keçirmək mümkün olmuşdu – orada inqilabdan sonra erməni əhalisi üstünlük təşkil edirdi, indi isə 95 faiz azərbaycanlılardır. **İslamın xristianlıq üzərinə hücumu davam edir – qonaqlarımdan kimsə bütün baş verənləri belə səciyyələndirdi.**

Sonra isə mən sözə başladım və rəhbərliyin mövqeyini təfərrüatı ilə izah etdim. Bu mövqeyin məğzi ondan ibarətdir ki, **DQMV ermənilərinin qanuni və haqlı istəkləri yerinə yetməlidir,** lakin ölkədə sənçirvari reaksiya doğura biləcək, qan tökülməsinin başlanğıcı ola biləcək milli-ərazi bölümünü dəyişmədən.

– Fikirləşin, – mən onları inandırmağa çalışırdım, – alovlanan münaqişə hansı nəticələrə gətirib çıxara bilər. O, indi Azərbaycanda yaşayan 500 min erməninin və Ermənistanda yaşayan 200 min azərbaycanlının labüd olaraq qovulmasına gətirib çıxaracaqdır. Böyük insan kütləsi məhrumiyyətlərə və əziyyətlərə düçar olacaqdır. Bu fakt öz-özlüyündə dözümsüzlüyün güclənməsinə gətirib çıxaracaqdır. Bəlanın qarşısını almaq – bizim ümumi borcumuz, ilk növbədə hər iki respublika ziyalılarının müqəddəs vəzifəsidir. Halbuki, həm bu, həm də digər tərəf ehtirasları qızışdırmaqla məşğuldur.

Silva Kaputikyan etiraz etdi:

– Bu, milli hisslərin intibahıdır, burada hansı qızışdırmadan söhbət gedə bilər!

– Yaxşı, – cavab verdim, – sizin sözlərinizin səmimiliyinə şübhə etmirəm. İnanıram ki, bir çox başqaları da erməni xalqının taleyinə yanır. Lakin artıq indidən milli hisslərlə oynayanlar var.

Bir qədər irəliyə gedib deyim ki, hər şey belə də oldu. Ermənistanın adlı-sanlı ziyalılarını, intellektuallarını utanmadan ikinci plana sıxışdırdılar. Azərbaycanda, Gürcüstanda və digər respublikalarda da belə oldu. Bir il sonra SSRİ xalq deputatlarının I qurultayı yığılanda, Kaputikyan hələ öz bəyanatlarını yayırdı, sonra onun səsi eşidilmədi. Həyasız, ağına-bozuna baxmayan qüvvələr işləri öz əllərinə aldılır.

Şahnazarov da eyni fikirdə idi: əsas odur ki, məsələ qızışdırılmasın, ehtiraslar coşmasın, bu, bəlli olmayan nəticələrə gətib çıxara bilər. Onun özü isə Qarabağdandır, tanınmış knyaz Şahnazarovlar nəslindəndir.

Bu görüş nəticəsiz qalmadı. Ertəsi gün Balayan mənim xahişimlə hazırlanmış DQMV-yə ilk təcili yardım tədbirləri haqqında təklifləri göndərdi. Orada 21 bənd var idi – yolların salınması, mənzil tikintisi, kilsələrin bərpası, Yerevan radiosu verilişlərinin qəbul olunması üçün imkan yaradılması, erməni dilində kitabların nəşri, Stepanakertdə universitet açılması və s. Mən Rıjkovla əlaqə yaratdım:

– Nikolay İvanoviç, sənə Qarabağa dair təklifləri göndərirəm, mümkün qədər hamısını nəzərə almağa çalış.

– Əlbəttə, Mixail Sergeyeviç, bütün ölkə üçün həyati əhəmiyyətli məsələdir, bu işdə xəsislik etmək olmaz.

İki gün sonra Nazirlər Sovetindən DQMV-nin təxirəsalınmaz ehtiyacları üçün 400 milyon rubl ayrılmasını nəzərdə tutan qərarın layihəsini göndərdilər. Əvvəl bu çox güclü təəssürat oyatdı, lakin iki-üç aydan sonra siqnallar gəlməyə başladı ki, respublika hakimiyyəti mərkəzin ayırdığı pulları özü bildiyi kimi sərf edir, yalnız kiçik bir hissə ünvan sahibinə çatır. Komissiya göndərib yoxlamalı olduq.

Əsas təkliflər, hər halda nəzərə alınmışdı. Ancaq bu iş on il qabaq görülsəydi, Əliyev düzgün beynəlmiləlçilik xətti yürütsəydi – fəlakətin qarşısını almaq olardı. 1988-ci ildə artıq gec idi"[*].

Necə deyərlər, şərhə ehtiyac yoxdur. Bu qeydlər M.Qorbaçovun mürəkkəb və incə problemi anlamaqda nə qədər diletant və səriştəsiz olduğunu, siyasətdə burnundan uzağı görə bilmədiyini, səbatsızlığını, zəifliyini, "yenidənqurmanın" səhvlərini respublikanın keçmiş rəhbəri Heydər Əliyevin üzərinə yıxmaq cəhdlərini çox gözəl nümayiş etdirir. Daha bir məqam: demək olar ki, hər bir ifadədə ermənilərə, onların "haqlı istəklərinə" rəğbət və canıyananlıq duyulur, özü də separatizm nəinki pislənmir, əksinə, erməni tərəfinə yox, Azərbaycana "kompromislərə getmək" təklif olunur.

Bəli, formal olaraq Dağlıq Qarabağın Ermənistana verilməsinə M.Qorbaçov razı olmadı, bununla belə başa saldı ki, mübarizə aparan tərəflər bir-birini buna inandıra bilsələr ("qoy ermənilər və azərbaycanlılar özləri həll etsinlər. Biz onların istənilən qərarını qəbul edərik"), bu, prinsip etibarilə mümkündür. Bununla da keçmiş Baş katib faktiki olaraq separatizmə və SSRİ-də müttəfiq respublkaların ərazi sərhədlərinin dəyişdirilməsinə yönəlmiş ilk cəhdə bəraət qazandırır. Nüfuzlu ekspertlərin fikrincə bu, İttifaqın dağılmasında detonator rolunu oynamışdır. Kremldə Z.Balayan və S.Kaputikyanın qəbul edilməsini yada salan F.Bobkov heyrətlənir:

"Bu görüşlərin niyə keçirildiyini demək çətindir. Bəlkə ölkə rəhbərləri bərk vurulmuş düyünü açmaq üçün ziyalıların nüfuzundan istifadə etmək istəyirdi? Bəs niyə Moskvada yalnız ermənilər qəbul etdilər? Bu açıq-açığına, bəlkə də nümayişkaranə üstün tutmaq nəyə lazım idi?..

Hakimiyyətin belə hərəkətləri azərbaycanlılar arasında nəinki çaşqınlıq yaradır, həm də belə bir güman doğururdu ki, onlara xəyanət etmişlər. Ermənilər isə sevinirdilər, xüsusən də Moskvadan dönən Silva Kaputikyan və Zori Balayan birmənalı şəkildə işarə edirdilər ki, Qorbaçov Qarabağ münaqişəsində ermənilərin tərəfindədir. Mərkəzin bilərəkdən bu cür addımlar atdığını söyləməyə məndə əsas yoxdur, lakin belə uzağı görməyən siyasət, münaqişəni şiddətləndirdi və burada günah bilavasitə Qorbaçovun üzərinə düşür"[*].

Qorbaçovun mövqeyinin ikili və yarımçıq olmasını mənimlə söhbətdə keçmiş Sov.İKP MK Siyasi Bürosunun üzvü V.Vorotnikov da xatırlayırdı:

"Erməni təsiri həmişə olub. Şahnazarov bu barədə mənimlə dəfələrlə söhbət edib.

– O, hansı mövqeyi tutmuşdu? DQMV-ni ermənilərə vermək?

– Əlbəttə, ermənilərə. Orada 76% erməni yaşayır, bunu nəzərə almaq lazım idi. Orada Manuçarov deyilən bir nəfər var idi, hərəkatın liderlərindən biri. Şahnazarov mənə deyirdi: "Onunla görüşmək lazımdır, siz onu dinləyin. Onlar axı, orada əsrlərdən bəri yaşayırlar və s.".

– Bəs siz ona demirdiniz ki, Gürcüstanın üç rayonunda azərbaycanlılar kompakt yaşayırlar? Ermənistanda da etnik təmizləmələr aparılmazdan əvvəl azərbaycanlıların əsrlərdən bəri yaşadıqları rayonlar vardı?

– Deyirdik, bunların hamısı söylənib. Yəni, demək istəyirəm ki, Qorbaçova təsir edən bu amil (erməni amili – ***E.A.***) mövcud idi.

Onu inandırmışdılar ki, problemi siyasi yolla həll etmək, nəsə bir çıxış tapmaq lazımdır. O axı, heç vaxt qarşıya aydın şəkildə vəzifə qoya bilmirdi. Qırğın başlayandan, Sumqayıt, Yerevan hadisələrindən sonra da ona deyilirdi ki, təcili, sərt tədbirlər görmək, qoşun göndərmək lazımdır. Lakin hətta bu vəziyyətdə belə, qəti bir qərar yox idi. SSRİ Ali Soveti Rəyasət Heyətinin iclasında bu məsələ müzakirə edilirdi, müraciətlər qəbul olunurdu, düşünürdülər ki, əgər Azərbaycanın və Ermənistanın deputatları, partiya komitələri razılığa gəlsələr məsələ yoluna qoyulacaq və onlar münaqişəni istədikləri kimi həll edəcəklər. Mövqe belə idi: hər iki əlini boş saxlayıb, nə bu, nə də o biri tərəfi dəstəkləmək".

Mənimlə söhbətdə V.Vorotnikov Zori Balayanı və Silva Kaputikyanı Stepanakertə gəlib Sov.İKP MK-nın dəstək verəcəyini bəyan edən "iki araqızışdıran" adlandırdı.

"Biz Qorbaçovdan soruşanda ki: "Onları kim qəbul edib, kim deyib ki dəstək göstəriləcək? Onların adını de", o cavab verdi: "Mən bilmirəm onlar kimin yanında olublar. Soruşmaq lazımdır". Sonra kiməsə, dəqiq yadımda deyil, onun ideologiya üzrə cavabdeh olanlarından birinə – Yakovlev ya Medvedevə müraciət etdi: "Bura bax, sən xəbər al. Siz öyrənin bu necə olub". Biz deyirik: "Belə olmaz axı, onları Yerevanda təmtəraqla qarşılayırlar. Nümayəndə heyəti Moskvadan qayıdır, xalqın sevinci yerə-göyə sığmır: "Nəhayət ki, mümkün oldu, bizə yuxarıda icazə verdilər". Ancaq heç kim belə bəyanat verməyib. Onlar bunu məgər özləri uydurublar?".

Qorbaçov susur. Deyir, mən bilmirəm, zəhmət olmasa, aydınlaşdırın..."

İllər keçəndən sonra G.Şahnazarov Bakı haqqında, öz uşaqlıq şəhərini görmək həsrətindən yanğı ilə yazacaq:

"Ömrüm uzandıqca, dəmiryol vaqonunun pəncərəsindən Bakının işıqlarını seyr etmək, onun mərkəzi küçələrində (əgər onlar qorunub saxlanıbsa!) – Krivoy, Torqovı, Suraxanski, Krasnoarmeyski, Vidadi... gəzişmək istəyi daha da güclənir. Uşaqlıq illərimdə yaşadığım köhnə evin həyətinə girmək, dənizkənarı bulvarda və Azadlıq meydanının parkında skamyada oturmaq. Heyif ki, bu mümkün deyil. Heydər Əliyev məni və Qorbaçova yaxın olan digər erməniləri Qarabağı Azərbaycandan qoparmaqda günahlandırır. Qarabağın müstəqillik qazanmasına lazımi yardım göstərmədiyimə görə məni qınayan ermənilər də var. Halbuki, Qorbaçov və onun ətrafı milliyyətindən asılı olmayaraq vahid ittifaq dövlətinin saxlanılması mövqeyindən çıxış edirdilər (seçmə müəllifindir – ***G.Ş.***). Bu, hər şeyi həll edir"[10].

Xeyr, hər şeyi yox. Özü də G.Şahnazarovun qocalana yaxın Bakını görmək arzusuna çata bilməməsində Heydər Əliyev yox, o özü və Qorbaçovun ətrafından olan onun kimi "intellektuallar" təqsirkardır. Məhz onlar gizli, yaxud açıq şəkildə Qarabağ separatizminin nazı ilə oynayır, erməni ziyalılarının nümayəndələri ilə Qorbaçovun görüşlərini təşkil edir, paralel olaraq mətbuatda isterik anti-əliyev kampaniyası aparır və ona qarşı Georgi Şahnazarovun dediyi kimi "Rəşidovdan betər" genişmiqyaslı cinayət işi hazırlayırdılar.

Belə "intellektuallardan" biri A.Yakovlev idi. "Yenidənqurmanın xaç atası" hər rəng və hər çeşiddən olan separatçılara qeyri-sağlam rəğbət bəsləyirdi. Qorbaçovun mətbuat katibi A.Qraçovun dediyinə görə, Zori Balayan və Silva Kaputikyanın simasında erməni "elçilərini" "Köhnə meydana" Baş katibin yanına məhz Yakovlev gətirmişdi.

Y.Liqaçov öz memuarlarında A.Yakovlevin Pribaltikada separatçı təmayüllərin qızışdırılmasındakı rolundan belə yazır:

"Burada separatçı və millətçi əhval-ruhiyyə zəminində yaranmış antikommunizm dalğaları sürətlə güclənirdi. Avqustun əvvəlində A.N.Yakovlev tələsik Pribaltikaya yollandı. Riqa və Vilnüsdə o, partiya fəalları, yaradıcı ziyalıların nümayəndələri, kütləvi informasiya vasitələri işçiləri ilə görüşdü. Riqada "Marune" aqrofirmasın-

da, Vilnüsdə istixana təsərrüfatında oldu, şəhərkənarı kollektiv bağçılıq təsərrüfatına baş çəkdi. Sov.İKP MK katibinin böyük sənaye kollektivlərinə gedib fəhlələrlə söhbət etməyə vaxt tapmaması bu səfəri mətbuatdan izləyənlərin diqqətindən yayınmadı. "Yenidənqurma təşəbbüsü alqışlayır", – A.N.Yakovlev Litvaya səfərini bu sözlərlə yekunlaşdırmışdı.

Moskvaya qayıdandan sonra A.N.Yakovlev Pribaltikadakı hadisələrin gedişi haqqında Siyasi Büroya öz müsbət rəyini bildirdi. Sonradan M.S.Qorbaçovun emissarının bu səfəri partiyada dəfələrlə mübahisə və ziddiyyətli şərhə səbəb oldu.

Aleksandr Nikolayeviçin özü camaat qarşısında çıxışlarında Pribaltikada antisovet və separatçı əhval-ruhiyyənin qızışdırılmasında əli olduğunu büsbütün inkar edirdi. Bu qəbildən olan bütün ittihamların cavabında o, "təxribatçılıq fəaliyyəti" barədə təkzibedilməz, son dərəcə dəqiq sübütlar tələb edirdi. Rəsmi qəzet materiallarında belə şey tapılmırdı. Lakin 1991-ci ilin dekabrında Rusiya telekanallarında Bi-Bi-Si-nin "İkinci rus inqilabı" filmi göstərildi. Pribaltikada hadisələrin inkişafından danışan fəallardan biri bəyan edir: "Sayudis"in fəaliyyət göstərməyə davam etməsi faktı – Yakovlevin hədiyyəsi idi". Əlbəttə, indiki meyarlarla yanaşanda bu hədiyyənin özündə elə bir qəbahət yoxdur. Lakin, yada salsaq ki, "Sayudis"in döyünən ürəyi antikommunizm idi, A.N.Yakovlevin özü isə 1988-ci ildən Sov.İKP MK Siyasi Bürosunun üzvü idi və məvacibini Kommunist partiyasının kassasından alırdı, onda onun təqdim etdiyi "hədiyyələrin" xarakteri o illərdə MK Baş katibinin yaxın əhatəsinin mənəvi prinsipləri üzərinə qəribə işıq salır. O ki qaldı A.N.-in yalnız öz adından danışmaması məsələsinə, bunu elə həmin filmdə K.Prunskene təsdiqlədi: "Yakovlev bizim üçün çox işlər görürdü. O bizi əmin etdi ki, ali rəhbərlər Moskvada bizi başa düşürlər"[11].

Qəribə də olsa, Ermənistanda və DQMV-də baş verən hadisələrin antisovet mahiyyətini anlayan və birmənalı mövqe tutan yeganə şəxs Yeqor Liqaçov oldu (ancaq, qəribə niyə? Bütün çatışmayan şəxsi cəhətlərinə baxmayaraq, o, əsil dövlətçi və prinsipial insan idi). Onun təşəbbüsü ilə 1988-ci il martın 21-də "Pravda" qəzetində dərc olunmuş məqalədə yerevanlıların qarabağpərəst nümayişləri okeanın o tayındakı sovetoloqların Sovet İttifaqını milli knyazlıqlara bölmək arzusundan doğan və onların göstərişi ilə həyata keçirilən "antisosialist" hərəkətlər adlandırılırdı.

Y.Liqaçov əmindir ki, əgər 1988–1989-cu illərdə əsas təhlükə – separatizmin güclənməsi düzgün müəyyən edilsəydi, ölkə qanlı münaqişə və dəhşətlərdən yaxasını qurtara bilərdi.

V.Vorotnikov öz gündəliklərində 1988-ci il martın 24-də Siyasi Büroda yaranmış vəziyyəti təsvir edir:

"Orexovo" otağında. Zaqafqaziya və Pribaltikadakı vəziyyətin kəskin müzakirəsi. Liqaçovla Medvedevin toqquşması. Medvedev fikir yürütməyə başladı ki, adamlara imkan vermək lazımdır ki, ürəklərini boşaltsınlar. "Nə imkan? – Liqaçov özündən çıxdı. – Düzgün partiya mövqeyi lazımdır. Ekstremist və millətçilərə göz yummaq olmaz. Yoxsa məsələ müharibə ilə bitəcək. Sülhməramlı olmağımız bəsdir". Hamı çıxış etdi. Əsasən nəticə belədir ki, siyasi həll üçün əməli, radikal tədbirlər lazımdır, lakin millətçi və ekstremist ruhda köklənmiş şəxslərin təxribatçılıq hərəkətlərinə qarşı barışmaz mübarizə də zəruridir"[12].

Liqaçov öz kitabında DQMV ətrafında hadisələrin başlanmasını belə xatırlayır:

"İlk dəhşətli siqnal... Dağlıq Qarabağdakı hadisələr oldu. Bu hadisələr milli məsələlərin nə qədər təhlükəli olduğunu, güclənən millətçiliyin qarşısı vaxtında alınmazsa, ictimai proseslərin inkişafının necə fəlakətli, çıxılmaz vəziyyətə aparan yolla inkişaf edə biləcəyini göstərdi. Təbii ki, 1988-ci ilin əvvəlində Siyasi Büronun iclaslarında biz Qarabağda yaranmış vəziyyəti, Ermənistanın və Azərbaycanın tələblərini dəfələrlə müzakirə etmişdik. Və yekdilliklə yeganə düzgün qərara gəlmişdik: hazırkı vaxtda milli-ərazi sərhədlərinin dəyişdirilməsi yolverilməzdir! Burada söhbət prinsipdən gedir. Onun çox yox, bircə dəfə pozulması çoxsaylı qanlı münaqişələrə yol açacaqdır.

Bir qədər sonra, 1988-ci ilin mayında digər, artıq taktiki məsələlər həllini tapdı: məsələn, Azərbaycanda və Ermənistanda partiya rəhbərliyinin dəyişdirilməsi. MK plenumlarını keçirmək üçün respublikalara Siyasi Büro üzvlərini göndərmək nəzərdə tutuldu:

məni – Bakıya, Yakovlevi – Yerevana.

Əslinə qalsa bu, Qorbaçovun təklifi idi, və onu hamı bəyəndi. Bundan başqa qərara alındı ki, mənimlə birlikdə Bakıya Razumovski, Yakovlevlə isə Yerevana Dolgix gedəcək.

Azərbaycanda vəziyyətlə tanış oldum və çıxışımı hazırlamağa başladım. Təxminən axşam saat on birdə yazıb qurtardım – həmin əlyazmanın vərəqləri indi də arxivimdə saxlanılır, köhnə adətimdir: çıxışları əllə yazıram və orijinalları saxlayıram. Ancaq Bakıda vəziyyət mürəkkəb olduğundan, vaxtın gec olmasına baxmayaraq, telefonla Qorbaçovla məsləhətləşmək qərarına gəldim:

– Mixail Sergeyeviç, sabahkı plenumda çıxışımın əsas yerlərini sizinlə razılaşdırmaq istəyirəm.

– Buyur...

– Çıxışımın əsasında Siyasi Büronun DQMV üzrə qərarı olacaq (fevral, 1988-ci il – ***E.A.***). Mahiyyəti ondan ibarətdir ki, respublikaların razılığı olmadan milli məsələləri sərhədlərin dəyişdirilməsi yolu ilə həll etmək olmaz, status-kvonu saxlamaq lazımdır. Lakin əhalinin bütün milli qruplarının, hər bir insanın qanuni tələblərinin milliyyətindən asılı olmayaraq tam ödənilməsinə nail olunmalıdır...

– Hə, prinsipial mövqedir, – Qorbaçov bəyəndi. – Uğur arzulayıram.

Ertəsi gün bu mövqeyimi Azərbaycan KP MK plenumu iştirakçılarının qarşısında açıqladım. Və şübhə etmirdim ki, Yakovlev də Yerevanda bü cür hərəkət edəcəkdir, çünki söhbət Siyasi Büronun prinsipial qərarından gedirdi. Lakin Yakovlevin Ermənistan KP MK-nın plenumundakı çıxışı ilə tanış olanda, gördüm ki, o, DQMV probleminin üstündən tamamilə sükutla keçmişdir. Yakovlev cəmiyyətdə kök salmış mühafizəkarlardan və mühafizəkarlıq təhlükəsindən xeyli danışmış, lakin "Dağlıq Qarabağ" sözünü bir dəfə də olsun dilinə belə gətirməmişdi, mərkəzin milli-ərazi sərhədləri haqqındakı qəti mövqeyini yada salmamışdı – sanki nə bu mühüm sənəd var idi, nə də bu mühüm problem. 1988-ci ilin may ayı idi"[13].

Doğrudan da, 1988-ci il mayın 21-də Azərbaycan KP MK-nın plenumunda Yeqor Kuzmiç Dağlıq Qarabağda baş verən hadisələr barədə çox sərt danışdı və bununla da başa saldı ki, erməni separatçılarının başladığı millətçilik isteriyası nəinki iki respublikaya, bütün ölkəyə ziyan gətirir. Onun Bakıdakı çıxışından sitat:

"Məlumdur ki, bizim ölkəmiz çoxmillətlidir və hər hansı bir məsələni həll edərkən bütün millət və xalqların maraqları nəzərə alınmalıdır. MK ərazi-dövlət quruluşuna yenidən baxılmasını yolverilməz hesab edir (seçmə bizimdir – ***E.A.***). Bununla bərabər, Sov.İKP MK – mən MK-nın qərarından, MK-nın məlum qərarından nöqtəbənöqtə sitat gətirirəm – ona əsaslanır ki, bu regionda mövcud milli-ərazi quruluşuna yenidən baxılmasına yönəlmiş hərəkət və tələblər Azərbaycan və Ermənistan SSR zəhmətkeşlərinin maraqlarına ziddir və milli münasibətlərə zərər gətirir. Müttəfiq respublikalar və muxtariyyətlər çərçivəsində bütün millətlərin və hər birinin ayrılıqda azad və hərtərəfli inkişafı üçün şərait vardır... Sonrakı hadisələr Sov.İKP MK-nın düzgün mövqedə olduğunu sübut etdi. Bir fikir verin, yoldaşlar, hətta Dağlıq Qarabağın verilməsi haqqında məsələ qaldırmağın özü belə erməni və azərbaycanlı əhalinin bir hissəsi arasında münasibətləri son dərəcə kəskinləşdirmiş, Ermənistan və Azərbaycanda millətçi, şovinist əhval ruhiyyə yaratmışdır... Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr partiya təşkilatlarını və əmək kollektivlərini yenidənqurmadan yayındırdı. Bundan əlavə, düşünürəm, mənimlə razılaşarsınız ki, sizlərdən bəziləri üçün nə qədər ağrılı olsa da, baş verənlərin hamısı yenidənqurma siyasətinə, cəmiyyətimizin demokratikləşməsinə vurulan birbaşa zərbədir"[14].

Y.Liqaçovdan fərqli olaraq A.Yakovlev Yerevanda millətlərin öz müqəddəratını təyin etmək hüququ barədə boşboğazlıq edib, faktiki olaraq separatçıların qızmış ürəklərində ümid çırağı yandırırdı. O vaxt yüksək partiya elitasına mənsub iki xadimin buna bənzər, yumşaq desək, mövqe ayrılığını heç kim xatırlamır.

Ekspertlərin qeyd etdikləri kimi, erməni millətçilərinin bu səviyyədə açıq-aşkar dəstəklənməsi misli görünməmiş fakt idi. Yakovlev hələ o vaxt öz həqiqi simasını göstərmişdi. Əbəs yerə deyil ki, onu ölkədə məlum xarici xüsusi xidmət orqanlarının buyruğu ilə fəaliyyət göstərən "təsir agenti" adlandırırdılar.

Boş yerə deyil ki, M.Qorbaçova qədər ölkəni idarə edən sovet rəhbərləri hər şeydən çox müttəfiq respublikalarda millətçilik təzahürlərindən ehtiyat edirdilər. Biz bu barədə kitabın ikinci hissəsin-

də yazmışdıq. Radikal millətçilik və separatizm detonator rolunu oynayaraq sovet imperiyasının hələ möhkəm olan binasını alova bürüdü.

Sonuncu baş katibin mətbuat katibi A.Qraçov öz kitabında yazır: "Sonrakı hadisələrin təsdiq etdiyi kimi, məhz millətçilik, həm total ideoloji sistem, həm də güclü səfərbəredici amil kimi öz antipodu və qan qardaşı olan kommunist totalitarizminə meydan oxudu"[15].

Yeri gəlmişkən, A.Qraçovun fikrincə SSRİ-də millətçilik və separatizm yanğınını təhlükəsizlik orqanlarının işçiləri törətdilər:

"Rejimin zəif nöqtələrini partiya liderlərindən daha yaxşı bilən məhz bu orqanların peşəkarları yenidənqurmanın zəif binasını millətçilikdən, vaxtilə təqib, bəlkə də himayə etdikləri ekstremistlərdən alışdırıcı kimi istifadə edərək, müxtəlif yerlərdən alışdırdılar. Məhz onlar Qorbaçovu qanlı Sumqayıt (orada qəsdən erməni qırğınına təhrik edərək), Tbilisi, Vilnüs və Riqa "imtahanına" çəkdilər. Bu yolla onlar ya təzə liderin əl-qolunu axıdılan qanla bağlamaq, ya da ölkədə əsl hakimiyyətin kimin əlində olmasını xatırlatmaq istəyirdilər"[16].

Sonralar Sumqayıt hadisələrində DTK-nın əli olması, Pribaltikada, Zaqafqaziyada xalq cəbhələrini DTK-nın özünün yaratması barədə çox yazıldı. Bunu, mənimlə söhbətdə Azərbaycan Xalq Cəbhəsinin keçmiş xadimi, tanınmış yazıçı Yusif Səmədoğlu təsdiq edirdi. O vaxt "Literaturnaya qazeta"da dərc olunmuş müsahibə Azərbaycandan kənarda da əks-səda doğurdu. Həmin müsahibədən geniş sitat gətirməyi lazım bilirəm:

"Sadəlövh romantik kimi Xalq cəbhəsinin onun liderləri tərəfindən kütlələrin kortəbii hərəkatı nəticəsində yaradılmasına əmindim. Sonradan hadisələri təhlil edərkən qərara gəldim ki, bütün respublikalarda bütün xalq cəbhələri Moskva, daha dəqiq desək, ittifaq DTK-sı tərəfindən yaradılmışdır. Bu, Sovet İttifaqının dağılmasına, iqtisadi məhvə aparan məqsədyönlü aksiya idi. Azərbaycan xalqının istedadlı oğlu Əbülfəz Elçibəyə və AXC-nin digər liderlərinə hörmətimə baxmayaraq, bu təşkilatda məsələləri həll edən onlar deyildi, biz deyildik. Biz yalnız şirma idik.

– Ciddi bəyanatdır...

– Bunu tam məsuliyyətlə, şayiə və uydurmalara yox, faktlara istinad edərək deyirəm. AXC-də nüfuzu olan və eyni zamanda DTK təxribatçısı olan ən azı üç nəfərin adını çəkə bilərəm. Bilərəm, ancaq çəkməyəcəyəm – birincisi, ona görə ki, əlimdə lazımi sənədlər yoxdur, ikincisi isə, şəxsi təhlükəsizliyim baxımından. Yadınızdadırsa, Xalq Cəbhəsi hakimiyyətə gələndən sonra parlamentdə DTK arxivlərinin açılması barədə məsələ qaldırıldı. Kim bunun əleyhinə açıq çıxış etdi? Xalq Cəbhəsinin həmin o iqtidarda olan nümayəndələri"[17].

Lakin bu fərziyyələri sübuta yetirən bir dənə də olsun tutarlı fakt yoxdur. Əgər vardırsa da DTK-nın arxivlərindədir, bu idarə isə öz sirlərini qorumağı bacarırdı. Qraçov və onun kimilər bu fikirlərlə SSRİ-ni laxlatmış azğın millətçilik və separatizmə görə məsuliyyətin xeyli hissəsini Qorbaçovun üzərindən götürməyə çalışırlar. Halbuki, əsas səbəb "yenidənquranların" səriştəsizliyi və iradəsizliyində, bir də separatçılarla birbaşa xoş münasibətlərindədir.

Yeri gəlmişkən, millətçiliyn qızışdırılmasında sovet xüsusi xidmət orqanlarının "əli" barədə mənimlə söhbətdə Yakovlevin özü də danışıb. O, 1988-ci ilin mayında Yerevana getməsini də xatırladı.

Aleksandr Yakovlevlə söhbətdən:

"Yüz faiz əminəm: Sumqayıt hadisələri təşkil olunmuşdu. Daşkənddə, Fərqanədə olduğu kimi.

– Bəs nə məqsədlə təşkil olunmuşdu, necə bilirsiniz?

– Qiyamla eyni məqsədlə. Sabitliyi pozmaq üçün. Bir sözlə, DTK.

– Belə çıxır ki, DTK Sovet İttifaqını dağıtmaq istəyirdi?

– Yox, əksinə, onlar birləşdirmək istəyirdi, mənim nöqteyi-nəzərimcə çox da yaxşı olmayan bu razılaşmanı pozmaq üçün (?! – *E.A.*).

– Axı Sumqayıt hadisələri hələ 1988-ci ildə baş vermişdi, o vaxt SSRİ-nin dağılması söhbəti yox idi. Bu, DTK-nın nəyinə gərəkdi?

– Yenidənqurmanın mümkünsüzlüyünü göstərmək üçün.

– Belə xalqla demokratik üsullarla hərəkət etməyin mümkün olmadığını göstərmək üçün?

– Həm də bunun üçün. DTK əyani surətdə demokratik xarak-

terli dəyişiklikləri nə ilə nəticələnəcəyini nümayiş etdirmək istəyirdi.

– Əgər belədirsə, bəlkə, həqiqətən sərt üsullara əl atmaq lazım idi. Heç olmazsa həmin o Qarabağda? Ehtirasları sakitləşdirib elan etmək: "Sərhədlərin yenidən bölünməsi haqqında söhbət ola bilməz". Bunun əvəzinə Mərkəz güzəşt mövqeyi tutdu: bir tərəfdən deyirdilər ki, sərhədlər dəyişməyəcək. Digər tərəfdən isə Qorbaçov erməniləri sakitləşdirirdi: darıxmayın, bəlkə də məsələni sizin xeyrinizə həll etdik. Azərbaycanda hesab edirdilər ki, Qorbaçov erməni tərəfinə kömək edir.

– Məni də bu məsələdə günahlandırırdılar. Sizə iki plenum haqqında danışacağam. Məni Ermənistana, Liqaçovu isə Azərbaycana ezam etdilər. Uzun danışıqlardan sonra mən erməni elitası ilə razılığa gələ bildim ki, birincisi, Qarabağa Laçın dəhlizi açılacaq. İkincisi, sosial-mədəni inkişaf barədə qərara gəldik ki, kilsə belə dəhşətli vəziyyətdə olmasın (?! – *E.A.*). Və üçüncüsü, müstəqillik barədə söhbətlərə son qoyulsun, o şərtlə ki, Azərbaycanda dövlət səviyyəsində Qarabağın həmişə Azərbaycanın olduğu və olacağı haqqında heç bir söz-söhbət aparılmayacaqdır.

– Bunu necə qadağan etmək olardı? Bu, axı real deyil.

– Ancaq Baş nazir və ya birinci katibə qadağan etmək olardı ki! Söhbət küçələrdəki insanlardan getmir.

Qarabağ Azərbaycanın tərkibində qalır, amma SSRİ vaxtında olduğu kimi Dövlət Plan Komitəsi Azərbaycanın tərkibində Qarabağ üçün vəsaiti ayırır, lakin ayrıca sətirlə. Onlar razılaşdılar.

Mən sevincək telefonla Qorbaçova bütün bunlar barədə məlumat verirəm, xahiş edirəm ki, Bakıda olan Liqaçova çatdırsın. Aydın məsələdir ki, qərar müvəqqətidir, lakin başqa, daha vacib məsələlər sahmana düşənə qədər, bu məsələ qoy bir müddət bu vəziyyətdə qalsın. Bəlkə də iqtisadi, siyasi məsələlər həll olunan zaman bütün bunlar başqa cür görünəcəkdir.

Qorbaçov dediklərimi yaxşı qarşıladı. Gecə Yerevanda məni yuxudan oyatdılar:

– Bizi aldatmısınız! Liqaçov Bakıda plenumda deyib: Siyasi Büronun xətti ondan ibarətdir ki, Qarabağ Azərbaycanın tərkibində olub, tərkibindədir və bundan sonra da olacaqdır.

Nə etməli idim? Moskvaya qəzəblənmiş halda qayıdıram.

– Mixail Sergeyeviç, Liqaçova zəng vurmuşdunuz?

Susur.

– Məni nə vəziyyətdə qoydunuz? Əgər siyasətiniz dəyişmişdisə, mənə zəng vuraydınız. Mən də adamları yığıb deyərdim: "Mən sizə bu mövqeyi bildirdim, cənab Qorbaçov isə mənimlə razılaşmadı". Belə olmamalıdır. Biz yenə də münaqişə yaratdıq.

– Bu Liqaçovla nə edəsən axı? – köks ötürür.

Bununla belə Qorbaçov mənim zəngimdən sonra Liqaçova zəng vurduğunu təqdiqləmədi.

Mən bu barədə ona görə belə müfəssəl danışıram ki, aydın olsun: Siyasi Büroda bizdə heç bir məsələdə fikir birliyi yox idi. Bu hələ möcüzədir ki, tormoz tapmaq mümkün oldu və köhnə vaxtlara qayıtmadıq. Belə qayıdış qanlı olacaqdı".

Beləliklə, A.N. faktiki olaraq təsdiq etdi: o, müvəqqəti də olsa DQMV-ni Azərbaycanın tabeliyindən çıxarmağın tərəfdarı idi. Və bu məsələdə onun mövqeyi Liqaçovun mövqeyi ilə daban-dabana zidd olub.

Yeqor Liqaçovla söhbətdən:

"– Qorbaçov separatizmə göz yummağın təhlükəli olduğunu başa düşürdümü?

– Sənədlər əsasında mühakimə yürütmək lazımdır. Qorbaçovun beynindəki, ürəyindəki nə idi, deyə bilmərəm, ancaq bu hadisələr dövründə qəbul etdiyimiz sənəd tamamilə ədalətli idi. Orada göstərilirdi ki, indi, cəmiyyətdə islahatların getdiyi bir vaxtda milli-ərazi quruluşuna yenidən baxılmasının vaxtı deyil, status-kvonu saxlamaq lazımdır. Ermənistanla Azərbaycan arasındakı sərhəddə heç bir dəyişiklik olmamalıdır. Bu qərar Siyasi Büro tərəfindən qəbul edilmişdi.

– Əgər belə qərar vardısa, onda niyə Qorbaçov birmənalı çıxış etmədi, demədi ki, bunu qurtarmaq lazımdır? Niyə əməli tədbirlər görülmədi, məsələn, Qarabağ separatçılarının liderləri həbs edilmədi?

– Çünki Ermənistanda elə adamlar var idi ki, Qorbaçov onlarla əlaqədə idi, məsələn, Kaputikyan, Balayan. Qorbaçov onlarla gö-

rüşmüşdü, söhbət etmişdi. Mənə də bir dəfə zəng etmişdilər, ancaq mən görüşdən imtina etdim. Onlar mövqeyimi bilirdilər, məni fikrimdən döndərmək istəyirdilər, lakin mən onlarla əlaqəyə getmədim. Yakovlevi isə inandırdılar. Yakovlev Yerevanda olanda, Siyasi Büronun qərarı haqqında bir söz belə demədi, baxmayaraq ki, biz iki məqsədlə getmişdik: yeni rəhbərləri təqdim etmək və ən əsası – Siyasi Büronun mövqeyini bəyan etmək. Yakovlev heç bir söz demədi. Mən Bakıda Siyasi Büronun bir qədər əvvəl qəbul etdiyi qərar barədə danışdım. O isə bunu gizlətdi. Ermənilərin yanında yerini yaxşı etmək istəyirdi".

Aleksandr Yakovlevlə söhbətdən:

"– Siz ideologiya məsələlərinə, o cümlədən mətbuata cavabdeh idiniz. Niyə 1989, 1990-cı illərdə, kiçik istisnalar nəzərə alınmazsa, Azərbaycandan olan məqalələr mərkəzi mətbuatın, Moskva qəzetlərinin səhifələrinə yol tapa bilmirdi? Sumqayıt, Vilnüs haqqında hamı xəbər tutdu, hiddətləndi. Bakıda isə 1990-cı ilin yanvarında 170 adam həlak oldu, 700-dən yuxarı yaralandı, ancaq Moskva bunu faktiki olaraq gizlətdi.

– "Çap etmək, yaxud etməmək" məsələsi Siyasi Büroda həll olunurdu. Ancaq heç bir ermənipərəst mövqe yox idi.

O vaxt o qədər zidd fikirlər səslənirdi ki, hamıda belə bir təəssürat yaranmışdı: bir tərəfi çap etsək, üsyan başlayacaq. Biz ziyan vurmaqdan, işi gətirib qiyam səviyyəsinə çıxarmaqdan qorxurduq. Sumqayıt haqqında isə, həqiqətən yalan yazırdılar.

Mən tamamilə əminəm ki, həqiqəti yazmaq mümkün deyildi, çünki o hadisələr xüsusi xidmət orqanları tərəfindən təşkil olunmuşdu. Məsələ Sumqayıtda deyildi, qat-qat yuxarılarda idi. Bu yolla DTK vəziyyəti az qala bütün Siyasi Büronun Qorbaçovun əleyhinə çıxış etdiyi 1991-ci il qiyamına gətirib çatdırdı. Əgər hadisələrin kökünü axtarsaq, o zaman sizinlə söhbətimiz başqa cür olacaq.

Bir çox hallarda Qorbaçov qətiyyətsiz hərəkət edirdi. Sumqayıtdan sonra mən ona, Ermənistan, Azərbaycan, Rusiya xüsusi xidmət orqanlarının bütün rəhbərlərini dəyişməyi təklif etmişdim. O etiraz edirdi: "Ola bilməz ki, təşkilatçı onlar olsunlar". Burada, Ali Sovetdə güc strukturlarının rəhbərləri çıxış edib deyəndə ki, ordu dağılıb, yenidənqurma müvəffəqiyyətsizliyə uğrayıb, mən ona bu adamları dərhal vəzifədən azad etməyi təklif edirdim, o isə deyirdi: "Adamların belini qırmaq olmaz".

Ayrılıqda hər bir fakt əhəmiyyətsiz görünür, ancaq onun səbəblərini aramağa başlayanda, haradasa başqa səviyyədə hər şey qaranlıqlaşır. Qorbaçovun qətiyyətsizliyi isə ona çox adamların təsir göstərməsi ilə izah olunur".

* * *

Qarabağ hadisələri Azərbaycan rəhbərliyini qəfildən yaxaladı. K.Bağırov H.Əliyevin Azərbaycandan gedərkən ona verdiyi əsas öyüdü unutdu: "Dağlıq Qarabağı yadından çıxarma". A.İvanovun sözlərinə görə "əgər Heydər Əliyev hansısa rayonda ümumiyyətlə, olmamışdısa – 80 rayondur, hamısını gəzə bilməzsən – DQMV-yə ildə azı iki dəfə səfər edirdi. Mütləq sosial, kənd təsərrüfatı məsələlərini həll edirdi: taxıl, üzüm... O, Qarabağın əhəmiyyətini başa düşürdü".

80-ci illərin ortalarında, açıq münaqişənin başlanmasına bir neçə il qalmış, Azərbaycan yazıçıları həyəcan təbili vurdular. Zori Balayanın türk xalqlarına nifrət və kin dolu "Ocaq" kitabı çıxandan sonra S.Rüstəmxanlı, M.İbrahimov və yaradıcı ziyalıların digər görkəmli nümayəndələri qarşıdan gələn təhlükə haqqında xəbərdarlıq edərək respublika mətbuatında tənqidi məqalələr dərc edir, ittifaq orqanlarına yazılar göndərirdilər.

Respublika Yazıçılar İttifaqının sədri Mirzə İbrahimov mərkəzi mətbuatda Zori Balayana cavab verməyə cəhd göstərənlər arasında birincilərdən idi. Mən o vaxt Yazıçılar İttifaqında sədrin köməkçisi işləyirdim. Yadımdadır, biz Mirzə müəllimin Balayanın "əsəri" ilə bağlı tənqidi araşdırmalardan ibarət müfəssəl məqaləsinin üzünü beşinci, onuncu dəfə köçürürdük. O öz erməni həmkarlarını keçmişin faciəli səhvlərini təkrar etməkdən çəkindirirdi. Biz məqaləni bütün mərkəzi dövri mətbuat orqanlarına göndərdik. Cavab "aşkarlıq" dövrü mətbuatının ölüm sükutu oldu. Mirzə İbrahimovun sovet mədəniyyəti qarşısındakı bütün xidmətlərinə, bütün orden və fəxri adlarına, deputat olmasına baxmayaraq məqalə senzura maneələrini aşa bilmədi. Yalnız "Literaturnaya qazeta"dan baş

redaktor A.Çakovskinin tapşırığı ilə zəng vurub dedilər: "Kitab Yerevanda çap olunduğu və **redaksiyanın ümumittifaq və beynəlxalq arenaya çıxarmaq istəmədiyi məsələyə toxunduğu üçün, məqaləni dərc etmək mümkün deyil**". Eyni zamanda xüsusi vurğulanırdı ki, "bu məsələ bütünlüklə respublikaların səlahiyyətindədir".

Bir müddət sonra "Sovetskaya kultura" qəzetində M.İbrahimovun erməni yazıçılarının, ilk növbədə Zori Balayanın millətçilik ideyalarını kəskin tənqid edən "Biz kimə və niyə qulaq asırıq?" adlı məqaləsi dərc olundu. Lakin həmin tənqidi hissəni yazıçıdan xəbərsiz "kəsib götürmüş", nəticədə məqalənin əsas qayəsi təhrif edilmişdi.

Yeri gəlmişkən, Mirzə İbrahimov 1988-ci il mayın 21-də Azərbaycan KP MK-nın plenumunda Sov.İKP MK katibləri Y.Liqaçovun və Q.Razumovskinin qarşısında erməni millətçiliyinə qarşı açıq çıxış edən yeganə adam olmuşdu. Çoxlarına məlum deyil ki, Kirovabad şəhərinin adının dəyişdirilməsi və ona tarixi "Gəncə" adının qaytarılması məsələsini Y.Liqaçovun qarşısında məhz bu cəsarətli insan qaldırmışdı.

2002-ci ildə Azərbaycan Elmlər Akademiyası Naxçıvan şöbəsinin açılışında çıxışı zamanı H.Əliyev Siyasi Büronun üzvü olduğu vaxtlarda "Şərq qapısı" qəzetində (əvvəllər "Sovet Naxçıvanı" adlanırdı) Azərbaycan xalqının qədim tarix və mədəniyyət abidəsi Gəmiqaya haqqında məqalə verildiyini xatırlatmışdı. Həmin məqalədən ermənilər böyük bir problem düzəltmişdilər ki, guya Azərbaycanda millətçilik vüsət almışdır.*

"Yadımdadır, bir dəfə biz, Siyasi Büronun üzvləri, Moskvada, Böyük Teatrda mövsümün açılışında iştirak edirdik. Fasilə zamanı Qorbaçov, mən, Siyasi Büronun digər üzvləri çay içirdik. Qorbaçov məndən soruşdu ki, Azərbaycanda millətçilik genişmi yayılmışdır. Cavab verdim ki, bəzi müttəfiq respublikalarda millətçilik vardır, Azərbaycan isə SSRİ-də ən beynəlmiləl respublikadır, ona görə də orada millətçilik başqa yerlərdə olduğundan azdır.

Onda bizim yanımızda oturmuş Siyasi Büro üzvlərindən biri dedi: "Yox, Heydər Əliyeviç, məncə siz səhv edirsiniz. Bir baxın, Naxçıvanda millətçilik ruhunda məqalə çap olunmuşdur..." Mən soruşdum bu nə məqalədir. Doğrusu, xəbərim yox idi. Məsələni elə şişirtmişdilər ki, söhbət SSRİ rəhbərliyi səviyyəsində aparılırdı. Moskvada buna olduqca ciddi reaksiya vermişdilər".

Maraqlıdır ki, Z.Balayanın Azərbaycan xalqına və bütün türk dünyasına qarşı təhqirlərlə dolu olan "Ocaq" kitabı Siyasi Büro üzvlərinin "gözünə dəymədi", ancaq bəşəriyyətin maddi mədəniyyətinin ən qədim nümunəsindən danışan günahsız, kiçik bir məqaləni "filə döndərdilər". Əsil səbəb aydındır: yalnız bir millət bəşər sivilizasiyasının "beşiyi", Yer üzündə ən qədim ola bilərdi – erməni milləti.

AMEA-nın Naxçıvan şöbəsinin açılışına həsr olunmuş həmin o toplantıda Vasif Talıbov Gəmiqaya haqqında məqalənin nəticələrindən danışdı: "Sovet Naxçıvanı" qəzetinin redaktoru işdən çıxarılmış, redaktorun müavini isə töhmət almışdı. Bundan başqa, məsələ Azərbaycan KP MK-da müzakirə edilmişdi.

"Axı, niyə? – H.Əliyev ritorik sual verir. – Çünki ermənilər iddia edirdilər ki, abidə Azərbaycana məxsus deyil, onlarındır. Ancaq bu, həqiqətən Azərbaycan abidəsidir. Görürsünüz, bu abidə Azərbaycana məxsusdur deyəndə məsələ hansı səviyyəyə gəlib çatmış və hansı reaksiya doğurmuşdu? Bu fakt nədən xəbər verir? Qarşı tərəfin həddindən artıq təşəbbüskar, ayıq olmasından, ona məxsus olmayan nə varsa öz adına çıxmaq, zəbt etmək cəhdlərindən və bizim passivliyimizdən, ən ziyansız işin o dəqiqə qarşısının alınmasından. İndi fikirləşirəm: məgər o vaxt Azərbaycan Kommunist partiyasının Mərkəzi Komitəsi məsələni araşdırandan sonra Moskvaya xəbər verə bilməzdi ki, bu məqalədə qorxulu heç nə yoxdur? Lakin sudan quru çıxmaq üçün onlar məsələni müzakirə etməyi üstün tutdular, yəni gəlin özümüz boynumuza alaq ki, biz burada millətçiliyə yol vermişik və bu yolla sübut edək ki, biz millətçi deyilik"[18].

...Yaradıcı ziyalıların xəbərdarlığına baxmayaraq, respublika KP MK-nın birinci katibi K.Bağırov təhlükəni görə bilmədi. Separa-

* Naxçıvanın Ordubad rayonunda üzərində b.e.ə. III-I minilliklərə aid qaya rəsmləri (piktoqram) olan dağ. Dağın adı dünyanı su basan zaman gəmisi guya bu dağa yan almış Nuh peyğəmbər haqqında əfsanə ilə əlaqələndirilir. Yeri gəlmişkən, Naxçıvanın qədim adlarından biri Nuhçıxandır.

tizm alovu gözlənilmədən DQMV-ni bürüyəndə isə buna hazır deyildi. Bu adam sakit vaxtda bir təhər respublikanı idarə edə bilirdi, çünki H.Əliyevin nizamladığı maşın öz ətaləti ilə hələ ki, irəliləyirdi. Ancaq ekstremal vəziyyətdə respublika rəhbəri öz acizliyini tamamilə göstərdi. Bu barədə mənimlə söhbətdə K.Bağırovun vaxtında Azərbaycan KP MK bürosunun üzvü olmuş həmkarları da danışdılar.

R.Mehdiyevlə söhbətdən:

"Demək olar ki, onun ağlı başında deyildi, praktiki olaraq vəziyyətə nəzarət etmirdi, reallıq hissini itirmişdi. Onun hərəkətlərində, danışığında çaşqınlıq, qeyri-adekvatlıq hiss olunurdu".

Azərbaycan DTK-sının sabiq sədri Ziya Yusifzadə ilə söhbətdən:

" – Ziya müəllim, bilirəm ki, Qarabağ hadisələrinin lap əvvəlində Stepanakertdə idiniz və hətta erməni deputatların vilayət icraiyyə komitəsinin sessiyasında DQMV-nin Ermənistana birləşdirilməsi haqqında "məşhur" qərarı qəbul etdikləri zaman orada olmusunuz.

– 1988-ci ilin fevralında mən Bakı Şəhər Partiya Komitəsinin birinci katibi Fuad Musayevlə birlikdə Kislovodskda "Partiyanın XXII qurultayı" sanatoriyasında istirahət edirdim. Heç on gün keçmədi ki, mənə MK-nın birinci katibi Kamran Bağırov zəng vurdu. Bəs, dərhal Bakıya gəl, Stepanakertdə vəziyyət yaxşı deyil. Mən Bakıya uçdum, sonra isə əməliyyat qrupu ilə birlikdə Stepanakertə. SSRİ DTK sədrinin birinci müavini Filip Bobkov da bizim ardımızca Stepanakertə gəldi. Mən öz adamlarımızı kütlənin içinə göndərdim ki, orada nə baş verdiyini öyrənək. O vaxt hansı iddiaların irəli sürüldüyü sizin yadınızdadır: guya DQMV-də sosial-iqtisadi vəziyyət pisdir, Azərbaycan muxtar vilayətə kömək etmir və s. Ekstremistlər gecə-gündüz vilayət partiya və icraiyyə komitələrinin qarşısında "Miatsum!" qışqırırdılar. Mən gündə iki dəfə SSRİ DTK sədri Çebrikova şifrəteleqram göndərirdim ki, əgər təcili tədbirlər görülməsə vəziyyət nəzarətdən çıxa bilər. Bizim teleqramlar Baş katibin, kurator katibin və xarici işlər nazirinin stolunun üstünə qoyulur, lazım bildikləri halda Siyasi Büronun digər üzvlərinə də çatdırılırdı. Vaxtaşırı Kamran Bağırova da zəng vururdum, deyirdim ki, vəziyyət mürəkkəbdir, artıq sosial-iqtisadi məsələ müzakirə olunmur. Separatçılar DQMV-nin Azərbaycandan ayrılmasını tələb edirlər və artıq bu məsələni həll etmək üçün vilayət Xalq Deputatları Sovetinin sessiyasını çağırmağa hazırlaşırlar. Buna görə də sizin buraya gəlməyiniz lazımdır.

Kamran Bağırov MK katibi Həsən Həsənovla Stepanakertə gəldilər. Gevorkov o vaxt hələ vilayət partiya komitəsinin birinci katibi idi. Gevorkovun kabinetində sessiyanın keçirilməsi müzakirə olunurdu. DQMV-də azərbaycanlı deputatlar 11–12 nəfər idi. Biz məsləhət gördük ki, onlar iclasda iştirak etməsinlər. Çünki azlıqda olacaqlar, erməni deputatlar isə onsuz da özlərinə sərf edən qərarı qəbul edəcəklər, yəni Dağlıq Qarabağı Ermənistana birləşdirməyə səs verəcəklər.

Həsən Həsənov Kamran Bağırovdan təkidlə xahiş edirdi ki, bu biabırçılığın şahidi olmamaq üçün vilayət XDS-nin sessiyasında iştirak etməsin. Ancaq Bağırov getməyi qərara aldı. Mən onunla birlikdə yollandım. Sessiyanı vilayət icraiyyə komitəsinin sədri aparırdı. Erməni deputatlar yekdilliklə DQMV-nin ayrılmasına və Ermənistana birləşdirilməsinə səs verdilər. Kamran Bağırov yaranmış vəziyyətdə orada çıxış etməyi lazım bilmədi və sessiyanın qurtarmasını gözləmədən zalı tərk etdi. Sonradan Azərbaycan Ali Soveti vilayət sovetinin qərarını səlahiyyətsiz elan etdi.

Çox keçmədən biz Moskvaya, SSRİ Ali Sovetinin sessiyasına yollandıq. Orada foyedə Heydər Əliyevlə rastlaşdıq. O, artıq Siyasi Büronun üzvü deyildi, lakin SSRİ Ali Sovetinin deputatlığında qalırdı. Ona yaxınlaşdıq: Kamran Bağırov, Qurban Xəlilov, Həsən Seyidov və mən. O bizə dedi: "Dağlıq Qarabağ haqqında məsələni Siyasi Büroya çıxarmağa çalışın. Söhbət artıq separatizmdən, sərhədlərin dəyişdirilməsindən gedir". Bağırov dedi ki, o da belə düşünür.

Bu hadisələrdən bir qədər sonra Sov.İKP MK katibi Razumovski başda olmaqla Sov.İKP MK-dan 15 nəfər Bakıya gəldi. Kamran Bağırovun da kabinetini tutdular. Mən Stepanakertdən Bağırova zəng vururam ki, bəs, qərar qəbul etmək lazımdır: burada pozğunluq salan "Krunk" təşkilatının 10–12 nəfər əsas üzvü var. Məndə

hər şey hazırdır, onları bir gecədə təcrid edə bilərik və hamı sakitləşər. Mən bunu respublika rəhbərinin sanksiyası olmadan edə bilməzdim. Kamran Bağırov isə cavab verdi: "Sən niyə bunu mənə deyirsən? Mən heç nə həll etmirəm. Budur, Moskvadan gələnlər kabinetimdə oturublar, hər şeylə onlar məşğul olur". Beləliklə də rəhbərliyin qətiyyətsizliyi üzündən məqam əldən çıxdı".

Süleyman Tatlıyev də mənimlə söhbətində bu barədə danışdı:

"...1988-ci ildə azərbaycanlıları qəddarcasına Ermənistandan qovmağa başladılar. Mən MK-ya təqdimat yazdım ki, DQMV Partiya Komitəsinin birinci katibi Poqosyan respublikaya tabe olmur, hər şeyi öz bildiyi kimi edir, müəssisələri dayandırıb, tətillər təşkil edir. Onu Büroya çağırmağı, əməllərinə görə cavab verməyini, qaçqınları isə Qarabağda yerləşdirməyi təklif etdim. Bu təmayüllərin qarşısını vaxtında almaq lazım idi. Əgər biz qaçqınları Qarabağda yerləşdirsək, ermənilər azərbaycanlıların Ermənistandan deportasiyasına son qoyacaqlar.

Kamran Bağırov təqdimatımı Büronun müzakirəsinə çıxartdı. O vaxt burada Sov.İKP MK-dan briqada işləyirdi. Onlar da Büroya dəvət olunmuşdular. Təqdimatımı müzakirə etdilər, Büro üzvlərindən heç kim məni dəstəkləmədi. Moskvalılar mənə deyirdilər:

– Siz ermənilərı yenə də qızışdırmaq istəyirsiniz.

Kamran Bağırov onların bütün dedikləri ilə razılaşırdı.

Onun, ümumiyyətlə, heç bir məsələdə öz fikri yox idi".

Erməni separatçıları ilə mübarizə aparmaq əvəzinə, həm Bağırov, həm də sonradan Vəzirov Qarabağ məsələsinin həllində Mərkəzin iradəsizliyinə və respublika rəhbərliyinin qətiyyətsizliyinə qarşı getdikcə daha fəal etiraz edən öz vətəndaşları ilə mübarizə aparmağa üstünlük verirdilər. Aşağıda Azərbaycanın **Qarsda Baş konsulu Həsən Zeynalovun** məxsusi olaraq bizim kitab üçün yazdığı maraqlı xatirələr dərc olunur:

"Bakıda kütləvi mitinqlər başlayanda mən onların ən fəal iştirakçılarından idim. O vaxt Bakı Soveti Texniki İnventarlaşdırma Bürosunda sahə rəisi işləyirdim. Hələ Aqanbeqyanın Fransada məşhur bəyanatından əvvəl biz Dağlıq Qarabağda separatçı hərəkatın necə baş qaldırdığını, Qarabağı Azərbaycandan ayırmaq üçün necə iş aparıldığını hiss edirdik, Moskvanın Heydər Əliyevə münasibətini görürdük. Azərbaycan ziyalılarının hər bir nümayəndəsi bunu başa düşməyə başlayırdı. Aqanbeqyanın çıxışından sonra, deyəsən, 1987-ci ilin sonlarında, Bakıda kiçik etiraz mitinqi oldu. Həmin gün səhər işə gələndə rəhbərlikdən xahiş etdim ki, iclas keçirmək üçün kollektivi yığsınlar. Bizim kollektivimizdə isə 10-dan çox erməni işləyirdi. Onlara hörmətlə yanaşırdılar, başqalarından ayırmırdılar. Mən bütün əməkdaşları yığdım, yaranmış vəziyyətlə bağlı onlara məlumat verdim və bizdə işləyən ermənilərə müraciət etdim: "Siz həmişə bizim kollektivin üzvü olmuşsunuz, biz heç vaxt sizi başqa millətə mənsub işçilərdən ayırmamışıq. Biz həmişə bir yerdə olmuşuq, aramızda heç zaman millətlərarası münaqişə olmamışdır. Sizə Azərbaycan vətəndaşları kimi müraciət edirəm (o vaxt Azərbaycandan Moskvaya Heydər Əliyevdən şikayətlər gedirdi ki, guya o, Dağlıq Qarabağın inkişafının qarşısını alırmış, ermənilərı "sıxırmış"). Siz ki, bilirsiniz, Bakıda ermənilər azərbaycanlılardan yaxşı yaşayır, hər halda onlardan pis yaşamır. Öz etirazınızı bildirib Qorbaçova məktub yazmağı, imza toplamağı təklif edirəm.

Və onlara məktubun təxmini məzmununu belə başa saldım: biz heç bir sıxışdırılmaya məruz qalmadan vahid qardaşlıq ailəsində yaşayırıq, Heydər Əliyevin rəhbərliyi dövründə də vəziyyət belə idi. Ona görə də Qorbaçovdan tələb edirik ki, qardaş xalqları siyasi oyunların qurbanına çevirməsin, bütün bunlara son qoysun. Təklif etdim ki, müraciətin altında qol çəksinlər, üstəlik hər biri daha 20-50 imza toplasın.

Səhəri gün ermənilərin heç biri işə çıxmadı.

O vaxt respublika rəhbərliyi də mitinqlərdə iştirak edir və Moskvanın göstərişi ilə bütün qüvvələri Heydər Əliyevin bir vaxt Azərbaycanda apardığı siyasəti nüfuzdan salmağa yönəldirdi. Belə çıxırdı ki, bütün bugünkü hadisələr – iğtişaşlar, separatçılıq Heydər Əliyevin 70-ci illərdə apardığı yanlış siyasətin nəticəsidir.

Bəziləri, xüsusən də cavanlar, tələbələr buna inana bilərdi. Axı, o vaxt onlar uşaq idilər. Belə vəziyyətdə biz, bir qrup ziyalı, qarşımıza məqsəd qoyduq ki, qarşıdırmanı gücləndirməyək, camaata həqiqəti başa salaq, Heydər Əliyevin Bakıdakı fəaliyyətindən, Moskvadakı işindən danışaq. Mitinq rəhbərləri bizi dəstəklədi. Adamları inandırmağa çalışırdıq ki, Heydər Əliyev Moskvanın adamı deyil, o

öz xalqını, torpağını sevir. Biz buna nail olduq, mitinq iştirakçılarının Heydər Əliyevə münasibəti yavaş-yavaş dəyişməyə başladı.

Heç vaxt yadımdan çıxmaz, mitinqlərin birində bizimlə bir yerdə, ön sıralarda dayanan cavan bir oğlan Heydər Əliyevin şəklini gətirmişdi və təxribatdan çəkinərək ara-sıra onu qaldırırdı. Ondan soruşdum ki, sən kimsən? Dedi ki, pedaqoji institutun tələbəsidir.

...Əbdürrəhman Vəzirov hakimiyyətə gələndən sonra naxçıvanlılara qarşı açıq repressiyalar başlandı. Vəzirov Lenin meydanında təşkil etdiyi ilk mitinqdə böyük pafosla deyirdi ki, bu vaxta qədər adamları sıxışdırıblar, yaşamağa imkan verməyiblər. İndi hər şey başqa cür olacaq. Bu vaxt artıq Ermənistandan Bakıya yüzlərlə qaçqın gəlməyə başlamışdı.

Əvvəlcə mitinqlərdə Heydər Əliyevə qarşı çıxışlar çox səslənirdi. Onu ən çox yerlipərəstlikdə təqsirləndirirdilər. Bu tezisdən Azərbaycanı zəiflətmək, ayrı-ayrı regionlar arasında qarşıdurma yaratmaq üçün daha çox istifadə olunurdu. Əsas məqsəd xalqın qəzəbini başqa istiqamətə yönəltmək idi.

Biz buna qarşı etiraz etməyə başladıq. Məsələn, mən müxtəlif instansiyalara, o cümlədən MK-ya müraciətlər edirdim, teleqramlar göndərirdim, Vəzirovu qayda-qanun yaratmaq əvəzinə azərbaycanlılar arasında ədavət yaymaqda ittiham edirdim.

Bir sözlə, naxçıvanlılara qarşı repressiyalar gücləndi, müəssisələrdə Naxçıvandan olanların siyahıları tərtib olunurdu, onları kütləvi şəkildə işdən çıxarırdılar. Mətbuatda, televiziyada Naxçıvana, Heydər Əliyevə qarşı çıxışlar təşkil olunurdu. Biz buna qarşı da mübarizə aparmağa çalışırdıq.

Gərək ki, XIX partiya konfransındakı çıxışında Vəzirov ermənilərin separatçı hərəkətlərinə haqq qazandırmaq məqsədilə hər şeydə Heydər Əliyevi günahlandırmağa başladı. Bundan əlavə, biz bir dəfə Moskvada, SSRİ Ali Sovetinin sessiyasında Bakı Şəhər Partiya Komitəsinin birinci katibi təyin olunmuş Müslüm Məmmədovun çıxışını dinləyirdik. Bakıda yaranmış vəziyyətdən, ermənilərin fitnəsindən danışmaq əvəzinə o, iddia etməyə başladı ki, "kütləvi iğtişaşlar" adlandırılan etiraz mitinqləri Moskvadan Heydər Əliyev tərəfindən təşkil olunur, onun özü də naxçıvanlıdır, Ermənistandan gəlmədir.



Novorossiysk. Həlak olanların qohumları ilə ilk görüş. Sentyabr, 1986-cı il.



O, həmsöhbətlərini dinləməyi bacarırdı.




H.Əliyevin Laosun paytaxtı Vyentyana gəlməsi. 11 noyabr 1986-cı il.



H.Əliyev və LXİP MK Baş katibi K.Fomvihan.
Noyabr, 1986.




H.Əliyevin Vyetyanda LXİP 4-cü qurultayında çıxışı.
13 noyabr 1986-cı il.




H.Əliyev Volqoqradda. 15-18 mart 1987-ci il.



Kamışinsk Pambıq-Parça Kombinatında. Mart, 1987-ci il.



Volqoqradda Təcili Yardım Kliniki Xəstəxanasında. Mart, 1987-ci il.



H.Əliyev Volqoqrad vilayəti yüngül sənaye, ticarət və xidmət sahəsi işçilərinin fəallar yığıncağında çıxış edir. 17 mart 1987-ci il.



Volqoqrad sakinləri ilə planlaşdırılmamış görüş.
Mart, 1987-ci il.



H.Əliyev Volqoqradda bazara baş çəkir.
Mart, 1987-ci il.



H.Əliyev Volqoqrad traktor zavodunun məhsulunu gözdən keçirir. Mart, 1987-ci il.



H.Əliyev xalq arasında çox populyar idi.




Zərifə və Heydər Əliyevlər Qorki-10-da.














Moskvada işlədiyi illərdə çox ümidlər boşa çıxdı.

Bütün bunlar məni Müslüm Məmmədova geniş teleqram vurmağa məcbur etdi. Axı, vaxtilə Heydər Əliyev onu əxlaqsız davranışına görə Bakı şəhəri Nəsimi Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsindən azad etmişdi. Ona görə də Vəzirov onu Heydər Əliyevdən narazı adam kimi irəli çəkmişdi. Akademiyanın əməkdaşı Nadir Mehdiyev və Heydər Əliyevə qarşı şəxsi incikliyi olan bəzi digər adamlar da onlara qoşulmuşdu. Vəzirov öz nalayiq "oyunlarında" məhz belə adamlardan istifadə edirdi.

O, "Kommunist" qəzetinin baş redaktoru vəzifəsinə qocaman yazıçı Cəmil Əlibəyovu təyin etdi və qəzet Heydər Əliyevə qarşı silsilə materiallar dərc etməyə başladı. Mən Əlibəyovun qəbuluna yazıldım.

– Siz tanınmış yazıçısınız, ziyalısınız. Özünüz də Qarabağdansınız, indi Azərbaycanda bütün aksiyalar Qarabağın müdafiəsi naminə keçirilir. Vəzirov Azərbaycandan çoxdan getmiş adamdır, bir çox məsələləri başa düşmür. Bəs niyə siz, təcrübəli, həyat görmüş bir insan, millətin birliyi uğrunda mübarizə aparmaq əvəzinə, ədavət toxumu səpirsiniz, Heydər Əliyev haqqında bu cür məqalələr dərc edirsiniz?

Biz onunla xeyli mübahisə etdik.

1989-cu il aprelin 4-də Elmlər Akademiyasının binası qarşısında mitinq təşkil olundu. Onun əsas mövzusu Volskinin rəhbərliyi altında Xüsusi İdarəetmə Komissiyasının yaradılmasına, həmçinin Arkadi Volski və Zori Balayanın Qarabağdan SSRİ Ali Sovetinə deputatlığa namizəd irəli sürülməsinə etiraz idi. Bu, Xalq Cəbhəsi, Elmlər Akademiyası, Azərbaycan Dövlət Universiteti nümayəndələrinin iştirak etdiyi ümumrespublika mitinqi idi. Mən mitinqdə çıxış etdim və xalqı bu cür aksiyalara qarşı etiraz etməyə çağırdım.

– Bu mitinqdən sonra sizi həbs etdilər.

– Bakıda artıq Sovet ordusu qoşunları dayanmışdı, fövqəladə vəziyyət elan olunmuşdu. Bununla bağlı məni və daha bir neçə nəfəri tutdular. Sonra yalnız Ermənistan və Naxçıvandan olanları həbsdə saxladılar. Mən onlar üçün yarayan sima idim, çünki Bakı Soveti sistemində müəyyən vəzifə tuturdum, əslən naxçıvanlı, Kommunist Partiyasının üzvü idim. Onlara respublikada gərginliyi naxçıvanlıların, Heydər Əliyevin yerlilərinin yaratması barədə Və-

zirovun Moskvaya göndərdiyi informasiyanı təsdiqləmək lazım idi. Milisdə məni döydülər, çoxsaylı xəsarətlər aldım, nəticədə sonra uzun müddət müalicə olundum. Elə oradaca mənə Heydər Əliyevə qarşı ifadə vermək təklif olundu. Guya, biz səhvə yol vermişik, onunla əlaqədə olmuşuq, bir sözlə, təsdiqləyim ki, bütün bu mitinqlərə Moskvadan Əliyev rəhbərlik edir. Söz verdilər ki, "Baksovet" sistemində mənə yüksək vəzifə verəcəklər, mənzil şəraitimi yaxşılaşdıracaqlar. Başa düşəndə ki, heç bir şey alınmayacaq, məni, nəhayət, azadlığa buraxdılar.

Bakıda o çətin dövrdə məni dəstəkləyən insanlar tapıldı, məsələn, o vaxt Bakı şəhər təsərrüfatı idarəsinin rəisi, yəni bizim bilavasitə kuratorumuz olan Rauf Gülməmmədov. Sonralar baş nazirin müavini, Bakı Soveti İcraiyyə Komitəsinin sədri işləyən zamanda da o, daim bizə yardım göstərirdi.

1990-cı ildə, yanvar hadisələrindən sonra hakimiyyətə Mütəllibov gəldi. Xalqı birləşdirməyə yönələn siyasət aparmaq əvəzinə o, Vəzirovun siyasətini davam etdirdi, xalqı parçaladı və Naxçıvana qarşı düşmənçilik mövqeyi tutdu. Ona görə Azərbaycan ziyalıları, o cümlədən naxçıvanlılar, Elmlər Akademiyasında etiraz aksiyaları keçirməyə başladılar, blokada vəziyyətində olan Naxçıvana maddi və mənəvi dəstək göstərmək məqsədilə "Əlincə" cəmiyyətini yaratdılar.

Azərbaycanın Moskvada təzyiqlərə məruz qalan Heydər Əliyevə ehtiyacı var idi və ziyalılar onun Bakıya qayıtması üçün şərait yaradılmasını dəfələrlə tələb etmişdilər. Cavabında onun tərəfdarlarına qarşı repressiyalara başlandı. Silahlı qruplaşmalar yaradıldı – "Qardaşlıq", Bakı ağsaqqallar cəmiyyəti. Paytaxtda "Bakı bakılılarındır!" şüarı səslənməyə başladı və s. Regionların qarşıdurması yarandı. Naxçıvana münasibətdə isə sərt düşmənçilik mövqeyi tutuldu. Paralel olaraq erməni təcavüzü də güclənirdi, Azərbaycanın vəziyyəti getdikcə daha da mürəkkəbləşirdi.

Ərzaq, yanacaq, informasiya, nəqliyyat sarıdan qıtlıq çəkən Naxçıvan tam blokada şəraitində yaşayırdı. Əlaqə yalnız hava yolu ilə idi, təyyarələr də 20-25 sərnişin ancaq götürürdü. Artıq muxtar respublikada xalq azadlıq hərəkatı güclənmişdi, rəsmi Bakının Naxçıvana belə münasibətinə qarşı etiraz səsləri ucalırdı.

Heydər Əliyevlə bizim şəxsi telefon əlaqələrimiz artıq 1988-ci ildən başlamışdı. Onun Moskvadakı vəziyyəti biz ziyalıları narahat edirdi. Belə bir vaxtda, Azərbaycanın bu ağır günlərində onun ən azı məsləhətlərinə böyük ehtiyacımız vardı. Odur ki, Heydər Əliyevlə əlaqəni kəsmir, onu Bakıya qayıtmağa dəvət edirdik..."

Bəs Heydər Əliyev necə? Doğrudanmı hadisələri kənardan müşahidə edir, vəziyyətə hər hansı yolla təsir etməyə cəhd göstərmirdi? Xeyli sonra söhbətlərində və müsahibələrində H.Əliyev təsdiq edirdi: cəhdlər olurdu, özü də çox ciddi. Əfsus ki, Qorbaçov komandasının ambisiyalı, uzağı görməyən üzvləri onun bütün məsləhət və təkliflərinə məhəl qoymurdular.

Vitali Vorotnikovla söhbətdən:

"Yeri gəlmişkən, qiymətləndirmək lazımdır: Dağlıq Qarabağla bağlı bütün müzakirələrdə Əliyevin adı bir dəfə də olsun hallanmadı. Heç vaxt, nə o tərəfdən, nə də bu tərəfdən. Mən bütün iclaslarda iştirak etmişəm və bilirəm ki, artıq Ali Sovetdə bu məsələ müzakirə ediləndə, 1990-cı ildə hadisələr başlananda, nəhayət, 1991-ci ildə od-alov güclənən zaman Əliyevin adını heç vaxt çəkmirdilər.

– Heç olmasa, bircə dəfə onun təcrübəsinə, məsləhətinə, təvsiyələrinə qulaq asaydılar. O, axı, Dağlıq Qarabağı hamıdan yaxşı tanıyırdı...

– Onu bu məsələlərin müzakirəsinə heç kim dəvət etmirdi. O artıq təqaüdçü idi. Əlbəttə, təcrübəli şəxs kimi Əliyevə müraciət edə bilərdilər. Bununla belə hesab edirəm: o, çox düzgün olaraq özünün bu ziddiyyətlərə qatılmasına imkan vermədi".

Vorotnikovun açıq-aydın bir çox mətləblərdən xəbəri yoxdur, çünki həm Yakovlev, həm Siyasi Büronun digər üzvləri mənə söyləmişdilər ki, Qorbaçov dəfələrlə Dağlıq Qarabağda təhlükəli vəziyyətin yaranmasının səbəbkarı kimi Əliyevi göstərmişdi. A.Çernyayev də gündəliyində bu barədə yazır. Baş katibin özü də "Həyat və islahatlar" kitabında bu məsələ ilə bağlı açıq-aşkar H.Əliyevi günahlandırır.

O, Qarabağ mövzusu ilə bağlı düşüncələrində, nə qədər obyektiv olmağa çalışsa da, erməni tərəfin mövqeyinə və dəlillərinə rəğbətini aydın şəkildə büruzə verir. Təkcə "1915-ci il soyqırımını" qəbul etməsi nəyə desən dəyər!

"...Hələ faciəli hadisələrdən əvvəl mən mütəxəssislərin fikirləri ilə tanış olmuşdum və münaqişənin qaynaqları haqqında kifayət qədər dolğun təsəvvürüm vardı. Ermənilərin farslardan, türklərdən nələr çəkdiyini yada salaq. Türklərin milyon yarım ermənini doğradığı, iki milyonunu isə bütün dünyaya səpələdiyi 1915-ci il soyqırımını onların yaddaşından silməkmi olar? Onlar nə vaxtsa Rusiyaya çara olan məhəbbətlərinə görə yox, xilas olmaq ümidi ilə müraciət etmişdilər. Rus xalqının qanadı altına çəkilmişdilər.

Ancaq azərbaycanlıların da Qarabağda öz kökləri var. Hələ Lenin, problemin bütün çətinliklərini başa düşərək, xarici işlər üzrə xalq komissarı Çiçerinə bu məsələnin həllini tapmağı tapşırmışdı. Əlbəttə, orada xarici aspekt də öz rolunu oynamışdı, lakin, zənnimcə, bu **seçimdə həlledici amil təcrübəli diplomatın belə mürəkkəb məsələdən daha yaxşı baş çıxara bilməsi olmuşdu.**

O vaxt milli məsələlərə cavabdeh olanlar, ilk növbədə də Stalin, vəziyyəti idarə edə bilməmişdilər, bacarıqları çatmamışdı, məsələnin həlli səviyyəsi yüksək deyildi. Onilliklər ərzində muxtar vilayətdə xeyli çətinlik və problem yığılıb qalmışdı. **Azərbaycan rəhbərliyi Qarabağ əhalisinə Lenin yanaşması ruhundan çox uzaq, bəzən isə qeyri-insani münasibət göstərirdi** (seçmə bizimdir – ***E.A.***). Dil, mədəniyyət yönlü problemlər ortaya çıxdı, kadr siyasətində ciddi nöqsanlara yol verilirdi. Aşkarlıq şəraitində bütün bunlar üzə çıxdı. Beləcə də aləm bir-birinə qarışdı. Səciyyəvidir ki, nə Qarabağda, nə Azərbaycanda, nə də Ermənistanda antisovet, antisosialist xarakterli şüarlar irəli sürülmədi, heç kim Sovet dövlətindən çıxmaq məsələsi qaldırmadı.

Hər iki respublikada bir çox yüksəkrütbəli vəzifəli şəxslər özlərini korrupsiya ilə ləkələmişdilər. Məhz bu ünsürlər yenidənqurma başlananda və altlarındakı kürsünün laxladığını hiss edəndə insanları etnik münaqişələrə təhrik edib qızışdırdılar. Milli hisslər amansız istismar predmetinə çevrildi. Qarabağ onların əlində yenidənqurmanın altına qoyulmuş mina oldu.

... İyunun 6-da Siyasi Büronun iclasında mən fərziyyə irəli sürdüm ki, respublikaların hakimiyyət eşelonlarında kimsə təhrikçiliklə məşğul olur, ehtirasları qızışdırır.

– Yeganə, heç vaxt razı olmayacağımız bir şey varsa, o da bir xalqı o birisinin zərərinə dəstəkləməkdir. Qoy bizi bununla bağlı şantaj etməsinlər. Biz imkan vermərik, heç vaxt qoymamalıyıq ki, həqiqəti qan bahasına axtarsınlar!" Bu 1988-ci ilin iyununda deyilmişdi.

Deputatlara göstərilən görünməmiş təzyiqlər şəraitində Ermənistan SSR Ali Soveti Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil olmasına razılıq verilməsi haqqında qərar çıxardı və həmin məsələyə baxılmaq üçün SSRİ Ali Sovetinə müraciət etdi. İki gün sonra Azərbaycan SSR Ali Sovetinin sessiyasında DQMV-nin Ermənistana verilməsinin mümkünsüzlüyü və vilayətin sosial-iqtisadi inkişafının sürətləndirilməsi tədbirləri barədə qərar qəbul olundu.

İyunun 25-də Stepanakertdə mitinqlər keçirilir. Əhali yerli mətbuatın DQMV Xalq Deputatları Sovetinin Azərbaycanın tərkibindən çıxmaq haqqında qərarı barədə xəbər verməməsindən hiddətlənmişdir.

Gərginlik sürətlə artırdı. Stepanakertdə mitinq və tətillər ara vermirdi. İyulun 6-da Yerevan aeroportu blokadaya alındı. DQMV-də vilayət sovetinin sessiyası yenidən "çıxmaq haqqında" qərar qəbul edir, Bakıda yenidən onu qanunsuz elan edirlər.

Sual doğurdu: çıxış yolu nədədir? Qromıko onu adət etdiyi üsulda görürdü: "Küçədə ordu görünən kimi, qayda-qanun yaranar". Çebrikov etiraz edirdi. Yakovlev təklif etdi ki, "DQMV-nin idarə olunması bir illiyə Moskvaya verilsin". Şevardnadze söylədi ki, DQMV-yə dərhal muxtar respublika statusu verilsin. Liqaçov bu ideyaları sintez etməyə çalışdı: "Artıq indi 20 min qaçqın vardır. Adamlar evsiz-eşiksizdirlər. Əgər DQMV üçün muxtar respublika statusu kömək etməsə – qoşun yeritmək, zavodları dayandırmaq, partiya təşkilatlarını, icraiyyə komitələrini buraxmaq, qayda-qanun yaratmaq".

Mən muxtar respublika haqqında təklifi dəstəklədim. Lakin bu məsələni münaqişə tərəflərinin özləri həll etməli idi.

İyulun 18-də SSRİ Ali Soveti Rəyasət Heyətinin iclasına hər iki tərəf dəvət olundu, fikirlərini söyləməyə imkan verildi. Mövqelər hamıya aydın olsun deyə, iclas televiziya ilə yayımlanırdı. Bizim mövqeyimizi – mərkəzi hakimiyyətin mövqeyini çoxluq dəstəklədi.

Mən sual edirdim:

– Siz məsələni necə həll etmək istəyirsiniz, nəyin bahasına olursa-olsun qalib gəlmək? Ermənistan Dağlıq Qarabağı öz tərkibi-

nə qatmaq istəyir, Azərbaycan buna imkan vermək fikrində deyil, bir millimetr də geri çəkilməyəcək. Axı, bu real deyil! **Hamını qane edən kompromis tapmaq lazımdır** (Qorbaçovun əsas səhvi bunda idi: separatçılarla kompromis – *E.A.*). Qələbə yalnız ümumi olmalıdır. Bir-birinin üstünə yeriyəndə məsələləri həll etmək olmaz. Bu, siyasi cəhətdən çıxılmaz vəziyyətdir. Sumqayıt hadisələri, Dağlıq Qarabağ ətrafında digər hadisələr iki xalqın münasibətlərində dərin izlər buraxmışdır, onların yox olması üçün müəyyən vaxt tələb olunacaq. Lakin indinin özündə də bir-birinə qarşı addım atmaq, kompromis axtarmaq lazımdır.

Baş verənlərin təkrarlanmaması üçün iclasda Dağlıq Qarabağ əhalisinə təminatı gücləndirmək təklifləri səsləndi. Qabaqlar da çoxlu vədlər verilmişdi, lakin boş bir şey, əslinə qalsa yalan olmuşdu. Mən verilən təkliflərə baxmaq üçün Millətlər Soveti çərçivəsində xüsusi komissiya yaradılmasını təklif etdim. Belə komissiya yaradıldı və faydalı iş gördü. Rəsul Həmzətovun çıxışı mənə güclü təsir bağışladı. O, Dağlıq Qarabağı müvəqqəti olaraq ittifaq orqanlarının idarəsinə verməyi təklif etdi. Sonradan Millətlər Sovetinin komissiyası da eyni təkliflə çıxış etdi.

İyulun 20-də Rəyasət Heyətinin sərhədlərin dəyişdirilməsinin mümkünsüzlüyünü bir daha qeyd edən qərarı dərc olundu. İyulun 26-da Sov.İKP MK və SSRİ Ali Sovetinin Rəyasət Heyəti qəbul olunmuş qərarın yerinə yetirilməsini təşkil və koordinasiya etmək üçün A.İ.Volskinin DQMV-yə göndərilməsini qərara alır. Lakin vəziyyət normallaşmır. Sentyabrın 21-də Stepanakertdə və Ağdam rayonunda xüsusi vəziyyət və komendant saatı tətbiq olunur.

Dekabrın 3-də, SSRİ Ali Sovetinin payız sessiyasından sonra Azərbaycan və Ermənistandan olan SSRİ deputatları, hər iki respublika və DQMV rəhbərliyi ilə görüşüm oldu. Rıjkov, Slyunkov, Çebrikov, Lukyanov, Razumovski görüşdə iştirak edirdilər. Mən dedim:

– Daha bir addım uçurumdur. Siz, hər iki xalqın nüfuzlu nümayəndələri, dəyirmi masa arxasına əyləşib birlikdə bu çətin vəziyyətdən necə çıxmaq barədə fikirləşməyə borclusunuz...

Bu gün mən daha çox inanıram ki, heç bir yerdə milli məsələni zor gücünə həll etmək mümkün deyil. Bizdə, Şimali Qafqazda çar hökuməti onilliklərlə müharibə aparmışdı, qalalar sistemi, kazakların yaşayış məskənlərini yaratmışdı, cəzalandırırdı, dağıdırdı – bütün bunlar heç bir yaxşı nəticə vermədi. Nəticəni ticarətin qurulması, insanlar arasında əməkdaşlıq, hakim elita və ağsaqqallarla ittifaq bağlanması, onların çar sarayına yaxınlaşdırılması, rütbə və imtiyazlar verdi. Oktyabr inqilabından sonra özünəməxsus yeni birlik yarandı. Bu ittifaqda bütün çatışmazlıqlarına baxmayaraq, müəyyən maraqlar balansı gözlənilirdi.

Barışdırma prosesi son dərəcə çətinləşmiş, ölkədə, SSRİ Ali Sovetində, Rusiyada yaranmış ictimai ab-hava öz rolunu oynamışdı. Mahiyyət etibarilə ortada iki mövqe var idi. Biri ondan ibarət idi ki, bəs, DQMV-də araqarışdıranlara qəti zərbə endirmək və onu beşikdə boğmaq lazım idi. Digər mövqe belə idi: bir halda ki, Qarabağ xalqı öz Vətəni ilə qovuşmaq istəyir, biz isə xalqların öz müqəddəratını təyin etmək hüququnu qəbul edirik, niyə buna qarşı çıxmalıyıq? Axı, Naxçıvan Muxtar Respublikası Azərbaycanın tərkibinə daxildir, ancaq Ermənistan ərazisi ilə ondan ayrılmışdır. DQMV-nin məsələsinin də bu yolla həlli mümkündür.

Hansı mərhələdəsə elə gəldi ki, bu baş tutacaq: Naxçıvan kimi Qarabağa da Azərbaycanın tərkibində qalmaqla muxtar respublika statusu verilsin. Elə məqam düşdü ki, bu təklifin həyata keçməsi az qala reallaşacaqdı. Lakin məhz bu anda Yerevanda Ali Sovet DQMV-ni Ermənistanın tərkibinə qəbul etmək barədə qərar qəbul etdi və hər şey alt-üst oldu. Bu, daxili çəkişmələrin nəticəsi idi. Artıq orada hakimiyyət uğrunda, hakim elitanın dəyişməsi uğrunda mübarizə vüsət alırdı. Hakimiyyətə "Qarabağ" komitəsi bazasında yaradılmış Erməni Ümummilli Hərəkatı can atırdı.

Bununla bağlı Siyasi Büroda da səslənmiş daha bir variant meydana çıxdı: hərbi qüvvələrin, mərkəzi hakimiyyətin köməyilə status-kvonu qorumaq. Başqa sözlə, Azərbaycanın xeyrinə, ancaq hər halda Azərbaycan ekstremistlərinin əli ilə yox, qanuni hakimiyyət qüvvələri ilə. Mən həmkarlarımdan soruşurdum: yaxşı, prezident idarəçiliyini tətbiq etdik, bəs sonra? Ağlabatan bir cavab almırdım.

"Qayda-qanun" yaradılmasının xeyrinə çox güclü meyl var idi (!) Belə vəziyyətdə öz mövqeyini qoruyub saxlamaq asan deyildi. Buna baxmayaraq mən əvvəldən axıra qədər öz mövqeyimdə qaldım, lakin ekstremal vəziyyətlərdə ciddi limitləşdirilmiş sərt tədbirlərdən yan keçmək olmurdu"[19].

H.Əliyevin A.Karaulova müsahibəsindən:

"Qorbaçov daim öz-özünü təkzib edir. Fevralın 5-də MK-nın Plenumunda etdiyi məruzədə o, DQMV-dəki hadisələrdən yenə də uzun-uzadı (baxmayaraq ki, məruzə özü çox da geniş deyildi) danışdı. Dedi, indi ona tam aydındır ki, DQMV məsələsi Azərbaycanın bütövlüyü saxlanılmaqla həll olunmalıdır və bundan savayı heç bir anlaşıqlı söz söyləmədi. Soruşan gərək, bəs niyə bu, iki il əvvəl deyilmirdi? Deməli, o vaxt o başqa, orta mövqe tuturdu: nə bizə, nə sizə – gedin vuruşun, kim kimi vurur vursun. Belə olar məgər? Əgər bu federasiyadırsa, ittifaq dövlətidirsə, deməli, ittifaq dövləti o saat öz fikrini bildirməli idi. Budur, milli məsələdə daha bir səhv. Ancaq yaddan çıxarmaq olmaz ki, yenidənqurmaya qədər Zaqafqaziyada ermənilərlə azərbaycanlılar arasında heç bir problem yox idi: Azərbaycan KP MK-nın birinci katibi işlədiyim 14 il ərzində mən hər il, bəzən bir neçə dəfə Dağlıq Qarabağda olurdum və bu muxtar vilayətdən bir nəfər də olsun, mənim qarşımda məsələ qaldırmamışdı ki, DQMV-ni Azərbaycanın tərkibindən çıxarıb Ermənistana vermək lazımdır. Başa düşürsünüz, heç kim! Tək-tək millətçilik meyilləri Ermənistanda olurdu, orada kimsə belə fikirlərlə yaşayırdı, lakin onlar DQMV əhalisi tərəfindən dəstəklənmirdi..."[20].

Dağlıq Qarabağ ətrafında münaqişə respublikadan kənarda yaşayan azərbaycanlıların ictimai-siyasi fəallığının artmasına və birləşməsinə səbəb oldu. O vaxt diaspor qurumlarında birləşən Moskva azərbaycanlıları daha çox təşəbbüskarlıq göstərir, öz xalqının haqlı tələblərini müdafiə etmək üçün müxtəlif aksiyalar keçirirdilər. Azərbaycan Milli Məclisinin sosial siyasət şöbəsinin müdiri **Adilə Abasova** bu hadisələrin iştirakçılarından biri idi.

"O illərdə Rusiyada azərbaycanlıların mədəniyyət mərkəzləri yaranmağa başlayırdı. Bunlardan birincisi – "Ocaq" mədəniyyət mərkəzi Moskvada tanınmış türkoloq Tofiq Məlikli tərəfindən təsis edilmiş və Mossovetdə qeydiyyatdan keçmişdi. Tofiq müəllim bizimlə tez-tez tədbirlər keçirirdi, milli bayramlarımızı birlikdə keçirir, respublikadakı vəziyyəti müzakirə edirdik və s. Mən və həyat yoldaşım bütün tədbirlərin ən fəal iştirakçısı idik. O vaxt, 1987-ci ildə mən artıq müdafiə etmişdim, fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsi almışdım, müsabiqə yolu ilə laboratoriya müdiri vəzifəsini tutmuşdum. Ona görə də bizim mərkəzdə nəzərəçarpan simalardan idim.

O zaman bütün SSRİ-də bu cür mərkəzlər təşkil olunurdu, lakin fəaliyyətlərində pərakəndəlik var idi. Onların səylərini birləşdirmək üçün Vətəndaş Assambleyası yaratmaq və Moskvada Ədliyyə Nazirliyində qeydiyyatdan keçirmək qərara alındı. Yadımdadır, paytaxtın böyük salonlarından birində Azərbaycan Vətəndaş Assambleyasının təsis konfransı oldu. Tədbirdə Azərbaycanın Polşadakı indiki səfiri Vilayət Quliyev, Milli Məclisin keçmiş deputatı Rza İbadov, digər ziyalılar iştirak etdilər. 20 nəfərdən ibarət idarə heyəti seçildi, mən də heyətin tərkibində idim. Prezident isə tanınmış alim, "Fəlsəfə məsələləri" jurnalının baş redaktoru Əhməd İskəndərovu seçdik. Mən onun seçilməsi üçün çox fəallıq göstərdim. Hesab edirdim ki, Assambleyanın başında Azərbaycan diasporunu birləşdirmək iqtidarında olan nüfuz sahibi, hörmətli şəxsiyyət dayanmalıdır.

Heydər Əliyev Assambleyanın işi ilə maraqlanırdı. Mənim yaxşı yadımdadır, iclaslardan birinin gedişində (o vaxt bütün iclaslar ya A.İskəndərovun kabinetində, ya da həmyerlimiz Məmməd Ağayevin elə indi də direktoru olduğu Satira teatrının kiçik zalında keçirilirdi) Heydər Əliyev zəng vurdu. İskəndərov dəstəyi qaldırıb onunla xeyli danışdı, sonra isə bizə dedi ki, Heydər Əliyev zəng vurmuşdu, o işimizlə maraqlanır və bizə uğurlar arzulayır.

Hazırkı Prezident İlham Əliyev Assambleyamızın iclaslarında dəfələrlə iştirak etmiş, diskussiyalarda daim fəal olmuşdur. Onu görən zaman həmişə qürur hissi keçirmişəm ki, Heydər Əliyevin oğlu bu çətin günlərdə öz xalqı ilə bir yerdədir. Xatirimdədir, Vətəndaş Assambleyasının üzvləri "Bakı" kinoteatrında Novruz bayramını qeyd edirdilər və İlham Əliyev də bizimlə birlikdə idi".

Sözügedən dövrdə SSRİ rəhbərliyində yüksək vəzifə tutan moskvalı müsahiblərimdən çoxu əmindir: əgər o vaxt Azərbaycana Heydər Əliyev rəhbərlik etsəydi, "Qarabağ apokalipsisi" olmayacaqdı.

Anatoli Lukyanovla söhbətdən:

"Mən Yerevanda olmuşam, xaçkarlara da doyunca baxmışam və ümumiyyətlə, bütün problemlərdən xəbərdaram. Düşünürəm ki, hadisələr təkcə Qafqazla bağlı deyildi. Məsələn, orada eston millətçiləri başqalarından daha fəal hərəkət edirdilər. Onların nümayəndələri də var idi.

– Qafqazda?

– Yox, Qarabağda. Bütün Qarabağ problemləri kənardan qızışdırılırdı. Bax, onda başa düşdüm və qətiyyətlə deyə bilərəm ki, əgər o vaxt Heydər Əliyeviç Azərbaycana rəhbərlik etsəydi, müharibə olmazdı. Qarabağ problemi onun hələ Naxçıvanda işlədiyi zaman qazandığı böyük təcrübə və biliklər hesabına qan tökülmədən həll olunacaqdı. Axı, orada da bu problemlər var idi və öz həllini tapmışdı. Mən bu məsələləri sonradan həm xalq deputatları qurultaylarında, həm də Vəzirovla, Mütəllibovla görüşlərimdə müzakirə etməli oldum.

– Bu adamlar zəif idi? Münaqişənin həlli yollarını bilmirdilər?

– Bilirsiniz, mən yanaşma səviyyəsini nəzərdə tuturam. Burada həm bilik, həm də müdriklik, təmkin, variantları seçə bilmək bacarığı tələb olunur. Bu, Əliyevin əsas etibarilə Andropovdan götürdükləridir: vəziyyətin bütün səbəblərini, bütün xüsusiyyətlərini nəzərə almaq bacarığı. Bunu etiraf etmək lazımdır, bu, olduqca yüksək səviyyə idi.

Mən tamamilə əminəm ki, Qarabağ problemi hər iki tərəfin problemidir. Hər iki tərəf xeyli səhvə yol vermişdi. Hər şey Ermənistanda hakimiyyət dəyişməsindən başladı. Erməni xadimləri açıq deyirdilər ki, əgər siz rəhbərliyi dəyişsəniz, bunun ardınca həmişə əldə bəhanə olan Qarabağ gələcək. Sonra bu hadisələr artıq ölkədə gedən dağılma prosesi ilə üst-üstə düşdü. İqtisadi suverenlik, müstəqillik və başqa tələblər ortaya çıxdı. Və bu zəmində hər cür millətçilər, o cümlədən Pribaltika separatçıları öz məsləhətləri ilə buraya can atırdılar. Hər şey bax, buradan başlandı. Çox mürəkkəb proses idi, maksimum cəsarət, maksimum təcrübə və Qafqazı tanımaq tələb edirdi. Məsələ burasındadır ki, müdriklik göstərilmədi, Qorbaçov isə, həmişə olduğu kimi, kompromis axtarırdı, anlamırdı ki, bu, çıxılmaz vəziyyətə aparan yoldur".

Vadim Peçenevin "Rusiya minilliklərin qovuşuğunda. 1985–2002-ci illər" kitabından:

"...H.Əliyev (və siyasi səviyyəcə ona uyğun digər insanlar) Sov.İKP MK Siyasi Bürosunda olsaydı, əlbəttə ki, artıq 80-ci illərin sonunda SSRİ-nin faktiki (struktur) dağılması başlanmazdı. Ölkə, məlum olduğu kimi, Dağlıq Qarabağ münaqişəsi ilə (onun səbəb və bəhanələrinin necə qiymətləndirilməsindən asılı olmayaraq) çökməyə başladı. Sovet İttifaqı Silahlı Qüvvələri Ali Baş komandanının, yəni sürətlə itirilən hakim mövqelərini silah gücünə qaytarmağa cəhd göstərən (özü də təkcə Zaqafqaziyada yox) Qorbaçovun əmri ilə 1990-cı ilin yanvarında Bakıya qanlı qoşun yeridilməzdi. Azərbaycanda bundan sonra baş verənlər də olmazdı. Ümumiyyətlə, Qorbaçov SSRİ-nin partlamasına xeyli dərəcədə səbəb olan milli məsələdə çox naşı idi. Bu səbəbdən ona təcrübəli, nüfuzlu həmkar-məsləhətçilər lazım idi. Ancaq "kadr inqilabından" sonra onun əhatəsində kimlər idi? Əsas etibarilə siyasi diletantlar və qab dibi yalayanlar"[2].

Yevgeni Primakovla söhbətdən:

"Qarabağ münaqişəsi başlananda, əlbəttə, Heydər Əliyevin ona heç bir aidiyyəti yox idi. Kaputikyan, Balayan aləmi qarışdırdılar, sonra isə kənara çəkildilər. Qarabağ hadisələrinin əvvəlində Əliyev amili tamamilə yox idi. Əksinə, hamı deyirdi ki, Əliyev birinci katib olanda Qarabağın sakitliyi üçün əlindən gələni edirdi. Hamı onun erməni kadrlarını irəli çəkməsindən, vilayətdə iqtisadiyyatı qaldırmasından və s. danışırdı. Əliyev Moskvaya gedəndən sonra isə vəziyyət tamamilə dəyişdi.

– Deməli, hesab edirsiniz ki, Əliyev vəziyyəti nəzarətdə saxlayırdı. Və əgər o dövrdə o, respublikada olsaydı...

– Münaqişə olmayacaqdı. Əminəm ki, olmayacaqdı..."

Sonralar Heydər Əliyev ölkə rəhbərliyinə məsləhətlərini çatdırmaq üçün göstərdiyi cəhdlərin uğursuzluqla nəticələndiyini ürək ağrısı ilə xatırlayırdı:

"Mən təxminən 14 il respublikaya rəhbərlik etmişəm və Dağlıq Qarabağ həmişə, indi də Azərbaycanın tərkibində olub, deməli, mən bütün bu 14 ili DQMV-yə rəhbərliyi də həyata keçirmişəm və

vəziyyətlə yaxşı tanışam. Dəfələrlə orada olmuşam və mənim vaxtımda Ermənistandan olan bəzi millətçi əhval-ruhiyyəli adamların bu məsələni qaldırmaq cəhdlərinin qarşısı qətiyyətlə alınırdı. Biz bu məsələnin qaldırılmasına imkan vermirdik, çünki o, qanuni deyildi. Əfsus ki, Qorbaçov, indi məndə belə təəssürat yaranır, artıq ölkəni idarə edə bilmədiyini hiss etdiyindən, müttəfiq respublikalarda sabitlik olmasını bir o qədər də istəmirdi. Ona sərf edirdi ki, respublikalarda toqquşmalar və s. baş versin, bu səbəbdən respublikalar öz hüquqlarını fəal müdafiə edə bilməsinlər. Ona görə hesab edirəm ki, onun səhlənkarlığı üzündən belə bir məsələ, süni yaradılmış Dağlıq Qarabağ məsələsi ortaya çıxmışdı.

Vəziyyət kəskinləşəndə, bu artıq 88-ci ilin əvvəli idi, o, Ermənistanda və Azərbaycanda rəhbərliyi dəyişməkdən yaxşı bir şey fikirləşə bilmədi və buraya, Azərbaycana, olduqca təcrübəsiz, qeyri-ciddi adam olan Əbdürrəhman Vəzirovu göndərdi. Onun köməyilə o, burada öz xəttini yeritmək istəyirdi, lakin nəticədə xalqda daha böyük narazılıq doğurdu.

Həmin dövrdə mən Qorbaçova dəfələrlə müraciət etmişdim, ona fikrimi bildirmək istəyirdim. Necə olsa, 14 il respublikaya rəhbərlik etmişdim, 5 il Siyasi Büronun tərkibində olmuşdum. Mənim fikirlərimlə, tutalım, hesablaşmamaq olar, lakin dinləmək və nəsə xeyirli bir şey götürmək ki olardı. Ancaq o mənimlə danışmaq istəmədi. Neçə dəfə ona müraciət etdim! Mənimlə, hətta telefonla da danışmadı. Onda mən Liqaçova müraciət etdim. O da mənimlə görüşməkdən qaçırdı. Bir səhər durub düz MK-ya getdim, Liqaçov hələ gəlməmişdi. Qəbul otağında o gələnədək gözlədim. Ona dedim ki, neçə dəfə sizə zəng vurmuşam, niyə mənimlə əlaqə yaratmırsınız? "Yaxşı, keçin içəri". Keçdim. Üç saat onunla söhbət etdim, başa saldım, məsləhətlər verdim, o isə heç nəyi qəbul etmirdi. Düşünürdü ki, məndən çox bilir və bu işdə hamıdan yaxşı baş çıxarır. Bu məsələ ilə bağlı Lukyanovla, Razumovski ilə də söhbətlərim oldu, lakin heç bir şey alınmadı. O vaxt hesab edirdilər ki, guya Əliyev heç nə ilə kömək edə bilməz, özümüz daha yaxşı bilirik. Bax elə bu "bilirik" də gətirib faciəyə çıxardı"*.

* V.Ağayevin "Xilaskar" filmindən. AzTV. 2003.

"Mənim öz Oljasım olmadı"!

1988-ci il yanvarın 23-də Bakıda Azərbaycan KP MK-nın Plenumu keçirildi. Plenumda yenidənqurmaya rəhbərlik sahəsində görülən işlər barədə MK bürosunun hesabatı dinlənildi.

Kamran Bağırovun məruzəsi kəskin tənqidi yönümü ilə seçilirdi. Məruzədə ilk dəfə olaraq iqtisadiyyatda "durğunluq" halları, respublikanın bir sıra ümumittifaq göstəricilərindən ənənəvi geri qalması, "nailiyyət və sanballı nəticələrdən müqayisəyəgəlməz dərəcədə çox" olan çətinlik və problemlər haqqında fikirlər səsləndi. Xalq təsərrüfatının demək olar ki, bütün sahələri və ilk növbədə baza sahələr – neft emalı, neft-kimya və kimya sənayesi sarsıdıcı tənqidə məruz qaldı. Respublikanın "baş kommunisti"nin yekun sözləri amansız səslənirdi: "Onların istehsal etdiyi məhsulun xeyli hissəsi müasir tələblərə cavab vermir". K.Bağırov açıq-aşkar H.Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə işarə edərək, xalq təsərrüfatının digər sahələrindəki vəziyyəti də eyni cür qiymətləndirirdi. Həmin məruzədən bəzi parçalar.

Azərbaycan Boru-Prokat zavodunda **"uzun illər** (burada və irəlidə seçmələr bizimdir – ***E.A.***) avadanlığın yenidən qurulması və təzələnməsi, məhsulun keyfiyyətinin yüksəldilməsi, sosial məsələlər kimi vaxtı çatmış problemlər həll olunmamışdır"; "istehsalı əsaslı surətdə təkmilləşdirmək, ehtiyatlardan qənaətlə istifadə etmək sahəsində köklü tədbirlər görmək əvəzinə pis işləyən kollektivlərə ***uzun müddət*** maliyyə yardımı göstərmək təcrübəsi qeyri-normal haldır"; "nədənsə respublikada **xeyli vaxtdır ki,** heyvandarlıq problemlərini əsasən ölkənin digər rayonlarından cins mal-qara gətirilməsi yolu ilə həll etmək cəhdləri üstünlük təşkil edir. Belə ki, son on il ərzində 120 min belə heyvan gətirilmişdir...Respublikada seleksiya-damazlıq işlərinin elmi cəhətdən əsaslandırılmış mexanizmini yaratmaq vaxtı **çoxdan yetişmişdir"**. Sosial sahədən danışarkən K.Bağırov qeyd edir ki, "köhnə problemlərin kökləri çox dərinə işləmişdir, ticarətdə, məişət xidmətində, səhiyyədə, kommunal təsərrüfatında qayda-qanun yaratmaq üçün xeyli səy göstərmək, ciddi tədbirlər görmək lazım olacaqdır"[1].

Hərdən elə təsəvvür yaranır ki, hesabat məruzəsi ilə artıq 5 il

respublikanın başında dayanan və xalq təsərrüfatındakı vəziyyətə görə məsuliyyət daşıyan rəhbər yox, bu vəzifəyə yenicə təyin olunmuş adam çıxış edir. Heç kim respublikaya rəhbərlik etdiyi dövrdə H.Əliyevin bütün problemləri həll etmiş olduğunu söyləyə bilməz. İnzibati-amirlik sistemi və Mərkəzdən tam asılılıq şəraitində isə onlardan bir çoxunu aradan qaldırmaq mümkün də deyildi. Romanın ikinci kitabında mən 80-ci illərin əvvəlində H.Əliyevin plenum və müşavirələrdəki çıxışlarında yaranmış vəziyyətdən giley və narazılıq intonasiyalarının güclənməsi haqqında danışmışdım. Lakin onun istefası və Siyasi Büronun tərkibindən çıxmasından sonra əlverişli presedent yarandı: bütün çatışmazlıq və çətinlikləri respublikadan 6 il əvvəl getməsinə və bütün bu illər ərzində fədakarlıqla doğma Azərbaycana kömək etməsinə baxmayaraq, keçmiş rəhbərin üstünə yıxmaq.

Maraqlıdır ki, K.Bağırovun məruzəsində neqativ hallara qarşı mübarizədən elə danışılır ki, guya respublikada bu mübarizə 1969-cu ildə deyil, "demokratikləşmə və aşkarlıq" dövrünə qədəm qoyulandan sonra başlanıb":

"MK Bürosu qeyd edir ki, son illər respublikada mənəvi mühitin sağlamlaşdırılması, həyatımızın sosializmin təbiətinə yad olan ünsürlərdən təmizlənməsi prosesi sürətlənib... İki il ərzində rüşvətxorluğa görə 160 adam cəzalandırılmışdır... Son vaxtlar pambıqçılıqda, üzümçülükdə, tütünçülükdə, aqrar sənaye kompleksinin digər sahələrində, həmçinin ticarətdə, əhaliyə məişət xidmətində, yerli sənayedə, tıkintidə, nəqliyyatda fəaliyyət göstərən cinayətkar qruplar ifşa edilmişlər. Təkcə kənd təsərrüfatında mənimsəmə və suiistifadə hallarına görə 500 nəfərdən çox müxtəlif rütbəli rəhbər işçi həbs olunmuş, bir neçə min adam cinayət məsuliyyətinə cəlb edilmişdir"[23].

Burada iki məqam diqqət çəkir: birincisi, nəinki respublikada, hətta bütün ölkədə təmizləmə işlərinin təşəbbüskarının kim olduğu barədə heç bir söz deyilmir. İkincisi, göstərilən rəqəmlərdən göründüyü kimi, aşkarlıq dövründə neqativ hallara qarşı mübarizə məhz kampaniya, özü də sifarişli kampaniya xarakteri daşıyırdı.

Daha bir məqam: K.Bağırov öz məruzəsində faktiki etiraf edir ki, bir vaxtlar H.Əliyev tərəfindən irəli çəkilmiş kadrların geniş-miqyaslı təmizlənməsi işinə başlanmışdır. Bu təmizləmə "kadr korpusunda müsbət dəyişikliklər" kimi qələmə verilir. K.Bağırov deyir ki, respublikada proteksionizm, qohumluq, yerliçilik, şəxsi sədaqət prinsiplərinə görə rəhbər vəzifələrə irəli çəkilmə hallarına qarşı mübarizə güclənmiş, rəhbər vəzifəlilər arasında bir-birinə qohum olanlar işdən çıxarılmışlar. MK-nın birinci katibi qeyd edir ki, bütövlükdə "son iki ildə Azərbaycan KP MK-nın vəzifə nomenklaturasına daxil olan 400 nəfər vəzifəsindən azad edilmişdir"[24].

Öz uğursuzluqlarını və səhvlərini vaxtilə ona etimad göstərib respublikanın "sahibi" vəzifəsinə irəli çəkmiş adamın üstünə atmaq cəhdi köməyə çatmadı. 1988-ci ilin fevralında Sumqayıt hadisələri baş verdi, daha üç ay sonra isə artıq Azərbaycanı de-fakto idarə etməyən K.Bağırov istefaya göndərildi.

1988-ci il mayın 21-də keçirilən Azərbaycan KP MK-nın plenumunda Kamran Bağırov kifayət qədər özünütənqid mövqeyində idi, etiraf etdi ki, Dağlıq Qarabağ və Sumqayıt hadisələrindən sonra onun respublika partiya təşkilatına rəhbərlik etməyə mənəvi haqqı yoxdur. Onun digər etirafı da maraqlıdır: "...Respublika partiya təşkilatının işindəki nöqsan və çatışmazlıqları ilk növbədə Azərbaycan KP MK-nın birinci katibi olduğum vaxtlarda özümə aid edirəm"[25].

O öz varisini "böyük təşkilatçılıq və siyasi təcrübəyə malik, respublika kommunistlərinin, Azərbaycan zəhmətkeşlərinin səylərini bizim Lenin partiyasının qarşıya qoyduğu vəzifələri yerinə yetirməyə səfərbər edə biləcək, vəziyyəti sağlamlaşdırmaq, düzəltmək, yenidənqurmanı lazımi məcraya yönəltmək üçün əlindən gələni əsirgəməyəcək dəyərli kommunist" kimi səciyyələndirdi. Nə yazıq ki, Kamran Bağırovun proqnozları özünü doğrultmadı, "ləyaqətli kommunist" isə artıq ilyarımdan sonra canını xilas etmək üçün Rusiya hərbi təyyarəsi ilə qaçmalı oldu.

Zənnimcə, Əbdürəhman Vəzirovun əsas səhvi onda idi ki, respublikadakı vəziyyəti ciddi təhlil etmək, böhrandan konstruktiv çıxış yolları tapmaq, qonşuların separatçılıq səylərinin qarşısını almaq, respublikanın ərazi bütövlüyünü qorumaq üçün sərt tədbirlər siyasəti işləyib hazırlamaq və həyata keçirmək əvəzinə "günahkar

axtarışı" ilə fəaliyyətə başladı. Ə.Vəzirovun səhlənkarlığı ucbatından mərkəzi hakimiyyət orqanlarının nümayəndələri respublikaya axışdılar: MK-nın hər cür inspektorları, partiya nəzarəti komitəsinin nəzarətçiləri, Baş prokurorluğun nümayəndələri Heydər Əliyev və onun komanda üzvlərinə kompromat axtarışında bir-bir rayonları gəzirdilər. Müəyyən müddətə Dağlıq Qarabağ problemi Vəzirov üçün ikinci plana keçdi. Hər halda o, kor-koranə Moskvanın siyasətini həyata keçirərək barış mövqeyindən çıxış edir, separatçıların liderləri ilə barışmaq üçün uğursuz cəhdlərə əl atır, onlara üz göstərirdi. O, "Partiya dedi, komsomol cavab verdi: oldu!" şüarı altında keçən döyüşkən komsomol cavanlığı sindromuna heç cür qalib gələ bilmədi.

Onun respublikaya rəhbərik etdiyi dövrdə mətbuatda bu problemlə bağlı hər hansı tənqidi material dərc etmək qadağan idi. Büroda Ermənistandan olan on minlərlə azərbaycanlı qaçqının aqibəti müzakirə olunan zaman bəzi Büro üzvləri (o cümlədən Bakı Şəhər Partiya Komitəsinin birinci katibi Fuad Musayev) qaçqınları DQMV-də yerləşdirməyi təklif edirdilər ki, bəs onlar orada dərhal qayda-qanun yaradarlar. Ancaq Vəzirov hər vəchlə bu ideyaya qarşı çıxırdı.

Sabir Hüseynovun xatirələrindən:

"Dekabrın 30-da (1988-ci ildə – ***E.A.***) Azərbaycan KP MK-nın plenumu oldu. Bu elə bir vaxt idi ki, Dağlıq Qarabağda təcavüzkar millətçilər tərəfindən qızışdırılmış erməni isteriyası Ermənistanla birləşmək üçün tüğyan edirdi. Vəzirov plenuma gecikmişdi.

– Yoldaşlar, bilirsiniz niyə gecikmişəm? – deyə o, sözünə sualla başladı. – Mən Şuşadan yanıma gələn adamlarla söhbət edirdim. Bir işə baxın, bunlar Yerevan ermənilərinin gəlib Topxanada özlərinə istirahət evi tikmələrindən narazıdırlar. Hiddətlənirlər ki: "Bu biabırçılıqdır! Bizim torpaqlarımızda istədiklərini edirlər". Onlara dedim ki, bizə lazım olan obyektləri tikən ermənilər nə qədər çox olsa, bir o qədər yaxşıdır.

Zal onun sözlərini alqışlarla qarşıladı. Sonra Vəzirov ona necə ağır mirasın qaldığından danışdı. Daha sonra – ortaya çıxmış Qarabağ problemindən, sonra isə – Azərbaycan kəndlərində tikilməli olan hamamlardan... Onun dolaşıq, bir mətləbdən o birinə adlayan çıxışı öyrəşdiyimiz işgüzar, məntiqli Heydər Əliyev nitqlərindən kəskin fərqlənirdi. Bu, çoxlarını əsəbiləşdirirdi".

Dolaşıq təkcə onun nitqləri deyildi, onun düşüncəsi, davranışı, hərəkətləri dolaşıq idi. O, respublikanı, demək olar ki, tanımırdı, arxalanmağa kadrları yox idi. Düzdür, Heydər Əliyevə qatı nifrət bəsləyən, onun respublikaya yolunu kəsmək üçün dəridən-qabıqdan çıxan üç-dörd yaltaq ortaya çıxmışdı. Ancaq nifrət zəminində uzağa getmək olmur, axı. Sadə camaat Kremlin yeni təyin olunmuş adamını əvvəlcə maraqla qarşıladı, çox keçmədi ki, maraq heyrətlə, sonra isə açıq-aşkar əsəbiliklə əvəz olundu. Paytaxtın baş meydanında izdihamlı mitinqlər başlandı. Getdikcə güclənən milli-azadlıq hərəkatı AXC-nin timsalında Vəzirovun ən barışmaz opponentinə çevrildi.

Vəzirovun bəlkə də yeganə bir şeydə – Azərbaycanın başına gələn bəlanın baş səbəbkarını axtarmaqda işləri yaxşı gedirdi. Mətbuatda, televiziyada, teatr tamaşalarında Əliyevə qarşı yönəlmiş materiallara "yaşıl" işıq yandırılmışdı.

Özü də onun Heydər Əliyevi "ifşa etməyə" yönəlmiş cəhdləri obyektiv olaraq erməni separatizmi ideoloqlarının məqsədləri ilə üst-üstə düşürdü. Qanlı "Qarabağ marafonunun" təşəbbüskarları başa düşürdülər ki, onlar Ermənistanın Azərbaycana ərazi iddialarının məntiqi cəhətdən əsaslandırılmış səbəblərini dünyaya bəyan etməlidirlər. Bunun üçün isə "başıbəlalı Dağlıq Qarabağ xalqı", onun milli hüquq və azadlıqlarının müntəzəm pozulması haqqında, Azərbaycanda guya Heydər Əliyevin icazəsi və dəstəyi ilə Qarabağdakı erməni azlığının ən yaxşı nümayəndələrinə qarşı təqib və zülm siyasətinin həyata keçirilməsi haqqında mümkün qədər inandırıcı mif yaratmaq lazım idi. Düzdür, dünya ictimaiyyətinin bu mifə inanması üçün əvvəlcə Heydər Əliyevin özünü gözdən salmaq, 70-80-ci illərdə onun bilavasitə rəhbərliyi altında Azərbaycanda aparılan böyük quruculuq işlərini şübhə altına almaq lazım idi.

Antiazərbaycan isteriyası və Qarabağ separatizminin qızışdırılması 80-ci illərdə nəyin bahasına olursa-olsun, SSRİ-nin dağılmasını, imperiyanın çökməsini özlərinin başlıca məqsədi elan etmiş Rusiyanın özündəki demokratik qüvvələrin də marağında idi. De-

mokratik düşərgədən olan rusiyalı ziyalıların bir çoxu gözəl başa düşürdü ki, Qarabağ hadisələri zəncirvarı reaksiya kimi Sovet İttifaqının bütün ərazisində digər "qaynar nöqtələr" yaranmasına səbəb olacaq və mərkəzdənqaçma meylləri yaradacaqdır. Bir dəfə, Qarabağ münaqişəsinin lap başlanğıcında "Aprel" birliyinə daxil olan bir qrup demokratik yönümlü Rusiya yazıçısı Bakıya gəlmişdi. Mən soruşdum ki, niyə onlar Dağlıq Qarabağda baş verən hadisələrə bu qədər sakit yanaşır, hətta təqdir edirlər? Axı bu hadisələr ölkənin dağılmasına gətirib çıxara bilər. Onlar belə cavab verdilər: "Bizə də elə bu lazımdır. Bizim üçün ən əsas SSRİ-ni dağıtmaqdır. – "Bəs sonra nə olacaq?" – soruşurduq. "Sonra fikirləşərik, görək nə etmək lazımdır".

Açıq etiraf etmək lazımdır ki, Azərbaycan tərəfi mətbuat səhifələrində, eləcə də elektron KİV-lərdə başlanan təbliğat müharibəsində ermənilərə uduzurdu. Bunun günahı həmçinin yeni partiya rəhbərindən gələn "barışığa getmək" göstərişi idi. Ə.Vəzirov onu "şahlığa" göndərmiş M.Qorbaçovun iradəsini vicdanla yerinə yetirirdi, hər vəchlə ehtirasları soyutmağa çalışırdı. Cəmiyyətdə hiddət kritik həddə çatırdı, o isə öz ətrafını inandırmağa çalışırdı ki, qorxulu heç nə yoxdur, guya Moskva bizim tərəfimizdədir, Mərkəz tezliklə sərt tədbirlər görəcək və ermənilər "sakitləşəcəklər". Gizli müşavirələrdə partiya rəhbərləri kütləvi informasiya rəhbərlərindən barışıq ruhunda olan materiallar dərc etməyi, "Azərbaycan və erməni xalqlarının dostluğunu tərənnüm etməyi" tələb edirdilər. Bakıya Ermənistan, Dağlıq Qarabağdan ardı-arası kəsilməyən qaçqın axını gəlirdi, respublikanın jurnalistləri, yazıçıları, publisistləri isə əvvəlki kimi susur, yaxud camaatı beynəlmiləlçi nağıllarla yastıqlayırdılar.

Azərbaycanın o vaxtkı partiya rəhbərliyinin öz xalqının maraqlarını qorumaqda göstərdiyi passivlik gətirib ona çıxardı ki, azərbaycanlılar könüllü surətdə təbliğat meydanını ermənilərə verdilər. Onlar uzun illər bu meydanın sahibi oldular. Azərbaycan ziyalılarının uzun müddət özlərini günahkar hiss etdikləri Sumqayıt hadisələrindən isə erməni ideoloqları maksimum bəhrələndilər.

Azərbaycanın H.Əliyev tərəfindən sevə-sevə bəslənmiş bir çox dostları isə o saat respublikadan üz döndərdilər və hətta onun badxahlarına çevrildilər. Bir çox Azərbaycan ədibi ilə dostluq edən məşhur Qafqaz qartalı Rəsul Həmzətov ermənilərin tərəfini tutdu. Sonralar o özünü təmizə çıxarırdı, deyirdi ki, səhv edib, Moskva mətbuatındakı həddindən artıq fəal antiazərbaycan təbliğatı onu yoldan çıxarıb. Deyirdi ki, Azərbaycanda baş verən dəhşətlərdən, qarabağlıların öz "azadlıqları" uğrunda apardıqları haqlı mübarizədən danışan həmkarlarına, tanınmış rus yazıçılarına, publisistlərinə inanmaya bilməyib.

Maraqlıdır ki, Ə.Vəzirov adam arasında "ağır durğunluq dövründən" dəm vurmağı xoşlayırdı, respublikanın keçmiş rəhbərliyinin idarəetmədə inzibati-amirlik üsulunu tənqid edirdi. Ancaq qeyri-rəsmi söhbətlərdə Heydər Əliyev haqqında hörmətlə danışırdı, onun uğurlu diplomatik karyerasının Əliyevin köməyi ilə başlanmasını qeyd etməyi yaddan çıxarmırdı. Halbuki, Moskvada nüfuz sahibi, həm də populyar olan Azərbaycan KP MK-nın birinci katibi üçün Vəzirovun namizədliyinin üstündən xətt çəkmək bir o qədər də çətin məsələ deyildi, hələ üstəlik Vəzirov respublikada məsuliyyətli partiya vəzifələrində özünü bir o qədər də göstərə bilməmişdi.

Azərbaycan KP MK-nın keçmiş katibi **Ramiz Mehdiyev** bununla bağlı xatirələrini söyləyir:

"Vəzirov mənə özü danışırdı ki, Heydər Əliyev onun Pakistanda səfir olmasına necə kömək edib. Vəzirov Kremlə onun qəbuluna gəlib, yalvar-yaxar edib: "Mən Nepaldan başqa yerə dəyişilmək istəyirəm, orada daha işləyə bilmirəm. Əgər mümkünsə, Qromıkodan xahiş edin, məni Pakistana səfir keçirsinlər".

Heydər Əliyev dəstəyi götürüb SSRİ xarici işlər naziri ilə danışır. Qromıko ona cavabında deyir:

– Mən artıq başqa adamın namizədliyini Siyasi Büroya təqdim etmişəm, bir neçə gündən sonra onu təsdiq etməlidirlər. Bir halda ki, xahiş edirsiniz, fikirləşərəm. Onu yanıma göndərin.

Vəzirov deyirdi ki, getdim XİN-ə, girdim nazirin kabinetinə. Qromıko heç ağzımı açmağa qoymadı:

– Bura bax, sənin barəndə mənə Heydər zəng vurmuşdu. Başa düşdün, **Heydər** zəng vurmuşdu?

– Bəli, Andrey Andreyeviç, o, mənim yanımda sizə zəng vurmuşdu.

– Deməli, belə. Mən artıq Siyasi Büroya bu vəzifəyə namizəd təqdim etmişəm. Ancaq Heydərin zəngindən sonra qərarımı ləğv etdim və təqdimatı geri götürdüm. Öz adamlarıma tapşırmışam, onlar yeni təqdimat hazırlayırlar. Pakistanda səfir vəzifəsinə səni təqdim edəcəyik.

Yeri gəlmişkən, nə vaxtsa Vəzirova xarici ölkəyə konsul kimi getməyə məhz Heydər Əliyev kömək etmişdi. Ümumiyyətlə, onun vəzifə dəyişmələri ayrıca söhbətin mövzusudur. Vəzirovu ÜİLKGİ MK-nın katibi vəzifəsindən azad edəndən sonra o, "göydən asılı" qaldı. Heydər Əliyev danışırdı ki, ona Sov.İKP MK-nın təşkilat şöbəsindən zəng vurub deyirdilər: "Onu öz yanınıza, Bakıya aparın". Heydər Əliyev deyir: "Bura baxın, o uzun illər Moskvada işləyib, yəni siz ona bir iş tapa bilmirsiniz?" – "Yox, – deyirlər, – götürün onu özünüzə". Heydər Əliyev Vəzirovla görüşüb onun məsələsini həll edəcəyinə söz verir. Moskvanın belə inadkar xahişindən sonra daha nə etməliydi ki?

Bu görüşün harada baş tutduğu, Bakıda ya Moskvada, yadımda deyil, ancaq məğzi bundan ibarət idi: "Əbdürəhman, sənə Azərbaycanda işləməyi təklif edirlər, Moskvada sən heç bir vəzifə ala bilməyəcəksən. Sənə kömək etməyə çalışdım, ancaq Moskva sənin Azərbaycana keçməyinə təkid edir. Harada işləmək istəyərdin?

– Bakı Şəhər Partiya Komitəsinin birinci katibi olmaq istəyirəm.

Heydər Əliyev təəccüblənir:

– Bizim şəhər partiya komitəsinin birinci katibini dəyişmək fikrimiz yoxdur. Nəsə başqa şey təklif elə.

– Onda Sumqayıta birinci katib.

– Axı, biz orada da katibi dəyişməyə hazırlaşmırıq. Ancaq Kirovabadda rəhbəri dəyişmək vaxtı yetişib, səni oraya şəhər komitəsinin birinci katibi göndərə bilərik...

Onun Gəncədə necə işlədiyini yaşlı nəslin nümayəndələri indiyə qədər gülə-gülə yada salırlar. Arvadı ilə parka rəqs etməyə gəlməsini, kirovabadlılara "şortı" geymək öyrətməsini... Onun ov zamanı adam ölümü ilə nəticələnən bədbəxt hadisədə guya əli olmasını da söyləyirdilər. Bir sözlə, ondan ciddi iş bacaran olmadı. Günlərin bir günü o, Heydər Əliyevin qəbuluna gəlib yalvardı:

– Orada daha bacarmıram, mənə Bakıda iş verin.

Qərəz, Büroda məsləhətləşdilər və onu Mərkəzi Komitənin sənaye şöbəsinə müdir təklif etdilər. Çox məsuliyyətli vəzifədir, özü də respublika sənayesinin qızğın inkişaf etdiyi bir vaxtda. O vaxt Mərkəzi Komitə katibi Həsən Seyidov idi. Vəzirov özünü bu vəzifədə də doğrultmadı. O, bütün günü kabinetində oturub... ingilis dili öyrənməklə məşğul idi. Onun müavini Markina Polina İvanovna adlı sadə, zəhmətkeş qadın idi, işdən başqa həyatında heç bir şeyi yox idi. Əbdürəhman bütün işi onun üstünə atmışdı. Sənayenin, əmək kollektivlərinin problemləri, müəssisələrin inkişaf perspektivləri, bu sahə üçün kadr hazırlanması və s. Bütün bunlar onun əsas işi idi. Lakin o, belə ağır yükün altına girməyə öyrəşməmişdi. Onu daha çox öz yan-yörəsi, moskvalı dostları ilə görüşmək, ingilis dili ilə məşğul olmaq, boş söz-söhbət maraqlandırırdı. Həsən Seyidov narazılığını tez-tez bildirirdi: "O işləmir, bütün günü telefon əlindən düşmür, saatlarla hökumət hesabına Moskva ilə danışır, vaxt öldürür". Nəhayət Seyidov Vəzirovun şöbə müdiri vəzifəsindən azad edilməsi barədə Heydər Əliyevin qarşısında məsələ qaldırdı. Lakin H.Əliyev məsələnin həllini uzadırdı, çünki onun karyerasını "sındırmaq" istəmirdi, ümid edirdi ki, nəhayət, ağıllanar və işdən yapışar.

Bir dəfə Vəzirov özü növbəti xahiş üçün birinci katib Heydər Əliyevin yanına gəldi.

– Xarici İşlər Nazirliyi sistemində mənə iş vəd edirlər... Bu məsələdə mənə kömək edin.

Heydər Əliyev mat qaldı:

– Axı, niyə dinc otura bilmirsən? MK-da o cür vəzifə tutursan, respublikanın bütün sənayesinə kuratorluq edirsən. Özün də gəlmisən ki, "konsul".

– Bacara bilmirəm, Heydər Əliyeviç, – Əbdürəhman yenə də yalvarmağa başladı. – Diplomatik işə keçmək istəyirəm, Allah xatirinə, kömək edin!

Bir sözlə, Heydər Əliyev başa düşdü ki, onu yola gətirmək mənasızdır, heç lazım da deyil: o, respublikanın həyatına uyğunlaşa bilmirdi, yalquzaq kimi gözü meşədə idi. Dildən pərgardır, ancaq

həqiqi, ciddi iş görməkdə səriştəsi yoxdur, öyrənməyə də həvəs göstərmir. Vəzirova xas olan yüngüllük, yelbeyinlik ona sanballı, ciddi rəhbər kadr olmağa imkan vermirdi.

Heydər Əliyev SSRİ XİN-i ilə əlaqə yaradıb Vəzirovun diplomatik işə keçməsinə köməklik göstərdi.

Beləliklə, təxminən 70-ci illərin ortalarında Vəzirov Bakıdan getdi. 12 ildən sonra, Qorbaçovun iradəsilə Azərbaycana qayıdan bu fərsiz insan doğma vətəninə saysız-hesabsız bədbəxtliklər gətirəcək..."

Ə.Vəzirovun qeyri-səmimiliyi və boşboğazlığı barədə mənimlə söhbətdə Azərbaycan KP MK-nın İnzibati orqanlar şöbəsinin keçmiş müdiri **Sabir Hüseynov** da danışdı. MK-da təkbətək görüşləri zamanı yeni birinci katib uzun-uzadı H.Əliyevi tərifləyir, ondan yalnız yaxşılıq gördüyünü söyləyir. Partiya məmuru vəzifəsini diplomat karyerasına dəyişmək qərarına gələndə isə Heydər Əliyev SSRİ xarici işlər naziri A.Qromıkoya zəng vurur. Bunu Vəzirov belə danışırdı:

Əliyev dedi:

" – Andrey Andreyeviç, mən bir məsələ ilə bağlı zəng vururam. Sovet hakimiyyəti illərində ölkənin diplomatik korpusunda azərbaycanlı səfir olmayıb, heç indi də yoxdur. Bütün millətlər təmsil olunubdur, bir Azərbaycandan başqa". Qromıko əvvəlcə susdu, sonra isə dedi: "Doğru deyirsiniz, Heydər Əliyeviç. Ancaq bu iş düzələn işdir. Layiqli namizədiniz varmı?" – "Var, Andrey Andreyeviç", – Heydər Əliyeviç çox gözlətmədi, mənim adımı çəkib tərifli sözlər deməyə başladı.

Özüm haqqında o gün eşitdiyim qədər tərifli sözləri heç vaxt və heç kimdən eşitməmişəm... "Yaxşı, Heydər Əliyeviç, – Qromıko dedi. – Əgər tövsiyə edirsinizsə, göndərin onu yanıma. Məndə Kəlküttədə boş konsul yeri var".

Artıq Moskvada Qromıko mənimlə öz barəmdə deyil, Heydər Əliyev haqqında danışırdı – necə də ağıllı adamdır, vətənpərvərdir.

Məgər belə şeyləri yaddan çıxarmaq olar, Sabir Mamedoviç? Bu yaxınlarda Moskvada idim. Tamara Sinyavskaya, Maqomayevin həyat yoldaşı, məni qucaqlayıb dedi: "Siz nə yaxşı adamsınız, Rəhman Xəliloviç! Hamının yaddan çıxardığı Heydər Əliyeviçi Bakıya istirahətə dəvət etmisiniz. Xəstəxanadan sonra istirahət ona çox lazımdır! Başqası bunu etməzdi...".

(... Sonralar, mən ona Vəzirovla söhbətimin məzmununu çatdıranda, Heydər Əliyev dedi: "Yalandır. O heç vaxt məni Bakıya istirahətə dəvət etməyib...")

– Təsəvvür edirsən, – Vəzirov sözünə davam etdi, – hamı ondan üz döndərib. Kim gəldi, onun haqqında ağzına gələni yazır. Bir buna bax...

Vəzirov yerindən qalxıb istirahət otağına cumdu, oradan "Zarya Vostoka" qəzeti ilə qayıtdı.

– Budur, bax, gör gürcü mətbuatı Mjavanadzedən nələr yazır. Tbilisi onu son mənzilə qəhrəman kimi yola salır. Özü də Sov.İKP MK Mjavanadzeni ciddi fırıldaqlarda ittiham edərək onun haqqında xüsusi qərar qəbul edəndən sonra. Mjavanadzenin Moskvada, şəhərin mərkəzində böyük mənzili vardır, Tbilisidə də vardır. Moskva ətrafında və Gürcüstanda dəbdəbəli bağları, əyri yolla qazandığı daş-qaşları, pulları vardır... Bizim Heydər Əliyeviçin isə – heç nəyi! Tamahı olmayan adam. Amma onun ətrafında iyrənc şayiələr, böhtan dolu məqalələr dolanır...

Bu yaxınlarda DTK-dan uşaqlar gəlib məlumat verirlər: "Sizə Sabir Hüseynovun Heydər Əliyevlə söhbətinin maqnit yazısını gətirmişik. Söhbətləri bir saat iyirmi dəqiqə çəkib. Hüseynov ona Əliyevi təmizə çıxaran tənqidi məqalənin siqnal nüsxəsini oxuyurdu...". Soruşuram onlardan: "Hüseynovun məqaləni oxumasından savayı onların arasında partiya və sovet hökumətinin əleyhinə söhbət olubmu?". Deyirlər ki, yox. Mən də onları, Sabir Mamedoviç, qovdum...".

"Gurultulu alqışlar" məqaləsi barədə Heydər Əliyevlə söhbətimin yazılması və Vəzirovun stolunun üstünə qoyulması məni heç də təəccübləndirmədi. Çünki elə ertəsi gün Ali Sovetin kodla Moskvanı yığmaq mümkün olan bütün telefonları şəhərlərarası xətdən kəsilmişdi.

Mən Vəzirovun Heydər Əliyev haqqında mədhiyyəsinə hələ çox qulaq asmalı oldum".

A.İvanovla söhbətdən:

"Heydər Əliyev Siyasi Büronun üzvü olanda Vəzirov səfir işləyirdi. O mənə göz verib işıq vermirdi: evə də, bağa da zəng vururdu. Hər vəchlə onu Heydər Əliyevlə görüşdürməyimi istəyirdi. Moskvaya ezamiyyətə gələndə onunla əlaqə yaratmaq üçün ATS-2 ya ATS-1-in olduğu kabinetlərə gedirdi.

Axşamüstü Heydərə Əliyeviçə deyirəm ki, bəs Vəzirov məni yığıb boğaza. "Yaxşı, – cavab verir, – vaxt seç qoy gəlsin". O gəldi, gedəndə isə mənə dedi: "Saşa, təsəvvür etmirsiniz ki, mən necə ruhlanmışam, gücümə inamım artıb!". Sonralar eşidəndə ki, o, birinci katib vəzifəsində Bakıda Heydər Əliyevin əleyhinə nələrə əl atır, ürəyim bulandı!".

Həqiqətən də, Ə.Vəzirov "həmişə yaxşılıq gördüyü adamı" olduqca özünəməxsus qiymətləndirdi. Ə.Vəzirov yenidənqurmanın bütün səhvlərini və uğursuzluqlarını durğunluq adlandırılan dövrün üzərinə yıxmağa qərar vermiş Kreml ideoloqlarının tapşırığı ilə Heydər Əliyevi həmin bu durğunluğun "memarları" sırasına saldı. O öz sahiblərinin "çox sağ ol"unu qazanmaq üçün dəridən-qabıqdan çıxırdı və bir çox hallarda, az qala Papanın özündən də müqəddəs görünməyə çalışırdı. Elə həmin vaxtdan 70-ci illərdə respublikada nə olmuşdusa yalnız qara rənglə göstərilməyə başladı. Bununla bağlı respublika KP MK-nın keçmiş katibi, Ə.Vəzirovun rəhbərliyi altında cəmi doqquz gün işləmiş Ramiz Mehdiyev bu insanı olduqca səciyyəvi xarakterizə edən bir epizodu xatırlayır.

Ramiz Mehdiyevin söhbətindən:

"1988-ci ilin yazında Azərbaycan Dövlət Dram Teatrı gənc dramaturq Seyran Səxavətin "Qızıl teşt" pyesi əsasında tamaşa hazırlamışdı. Əsas baxışda mədəniyyət naziri Zakir Bağırov və Azərbaycan Nazirlər Soveti sədrinin müavini Elmira Qafarova iştirak etmişdilər.

Baxışdan sonra Zakir Bağırov mənə zəng vurub dedi ki, Azdrama "Qızıl teşt" adlı tamaşa hazırlayıb, lakin onu bu vəziyyətdə səhnəyə buraxmaq olmaz: o, yaxın keçmişimizin hadisələrini birtərəfli, açıq-aydın konyunktur mövqedən əks etdirir, 70-ci illərin axırı, 80-ci illərin əvvəllərində respublikada aparılan böyük quruculuq işlərinin üstünə kölgə salır. Mən Elmira Qafarovanın fikri ilə maraqlananda o dedi: "Biz Bağırovla tamaşaya baxmışıq, hesab edirik ki, pyes əsaslı surətdə yenidən işlənməlidir, çünki o reallığı əks etdirmir". Müəlliflər iradlarla razılaşdılar və premyeraya qədər bütün nöqsanları aradan qaldıracaqlarına söz verdilər.

1988-ci ilin mayında respublikada hakimiyyət dəyişikliyi baş verdi. Moskva Kamran Bağırovun yerinə 12 il respublikadan kənarda işləmiş, regionumuzdakı proseslərdən tamamilə uzaq olan Əbdürəhman Vəzirovu təyin etdi. Həmin dövrdə tüğyan edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə ciddi məşğul olmaq əvəzinə o, bütün səylərini 70-80-ci illərin əvvəllərində fəaliyyət göstərən partiya orqanlarını gözdən salmağa, Heydər Əliyevi ləkələməyə yönəltdi. Lap ilk günlərdə quyruq bulayanlardan kimsə onun qulağına pıçıldadı ki, Azdramada partiya orqanlarının tənqidinə, Heydər Əliyevin vaxtında guya kənd təsərrüfatında tətbiq edilən "pripiska" siyasətinin ifşasına yönələn "Qızıl teşt" adlı tamaşa hazırlanmışdır. Vəzirov MK Bürosunda baxışda iştirak etməyə və tamaşaya şəxsən "həyat vəsiqəsi verməyə" hazır olduğunu bildirdi. Bunu eşidəndə dedim ki, ideologiya üzrə katib kimi mən də baxışda iştirak etmək istəyirəm. Mədəniyyət naziri Zakir Bağırov və onun müavini Teymur Əliyev də bizimlə bir yerdə teatrda idilər.

Tamaşa qurtarandan sonra nə baş verdiyini – o faciəvi-komik səhnəni heç vaxt yadımdan çıxarmaram. Vəzirov birdən yerindən sıçradı, irəli cumdu və pillələrin yanından yel kimi ötüb sözün hərfi mənasında səhnəyə atıldı. Ona xas olan tərzdə əl-qol ataraq, guya gözdən pərdə asmaqla məşğul olan, xalqı incidən, hər hansı azadlıq və təşəbbüsü boğan keçmiş partiya rəhbərlərini abırdan salmağa başladı. Bir sözlə, ən pis komsomol ənənələri məcrasında sırf populist çıxış. Baxış qurtarandan sonra hamı teatrın direktoru Həsənağa Turabovun kabinetinə qalxdı. Vəzirov Teymur Əliyevdən soruşdu ki, pyesin müəllifi kimdir. Teymur Əliyev dedi ki, gənc dramaturq Seyran Səxavətdir və onu qəbul etməyi təklif etdi. O, pyes müəllifini gənc və çox istedadlı ədəbiyyatçı kimi təqdim etdi. Vəzirov tamaşanı, pyesin özünü tərifləndi və soruşdu ki, əslin haradandır. Səxavət deyəndə ki, Fizuli rayonundandır, Vəzirovun üzü gül-

dü, çünki özü də o yerlərdən idi. "Nə problemlərin var?" – deyə katib müəllifə müraciət etdi. "Problemlərim çoxdur, – gənc istedad dedi, – ancaq ən vacibi mənzilimdə telefonun olmamağıdır". Vəzirov söz verdi ki, günü sabah telefon məsələsi həll olunacaq. Sonra yenidən tamaşanın müzakirəsinə keçdilər. Vəzirov dedi ki, bu tamaşa Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanın rayonlarında baş verənləri obyektiv işıqlandırır, ona "yaşıl işıq" yandırmaq lazımdır. Bir azdan onun şəxsi göstərişilə ictimai baxışlar təşkil olundu: tamaşa ilə tanış olub sonradan onun partiya fəalları yığıncaqlarında müzakirəsini keçirmək üçün respublikanın müxtəlif rayonlarından adamları Bakıya gətirirdilər.

Yadımdadır, "Sovetskaya kultura" qəzetində bu nəşrin xüsusi müxbiri Faiq Mustafayevin imzası ilə "Qızıl teşt" tamaşasının respublikanın partiya rəhbəri Əbdürəhman Vəzirovun iştirak etdiyi premyerasına həsr olunmuş kiçik bir məqalə çıxdı. Məqalədə həmçinin deyilirdi ki, keçmiş partiya rəhbərliyinin üslub və metodlarının ifşasına həsr olunan tamaşa çoxdan hazır idi, lakin KP MK-nın katibi Ramiz Mehdiyev onun səhnə üzü görməsinə mane olurdu. Və yalnız Mehdiyev tutduğu vəzifədən azad edildikdən sonra pyes tamaşaçısını tapmışdır. Bundan sonra Azərbaycanın yeni partiya rəhbərini tərifləyən cümlələr gəlirdi.

Faciəli yanvar hadisələrindən və Vəzirovun respublikadan biabırcasına qaçmasından sonra mən təsadüfən Faiq Mustafayevlə respublika səhiyyə nazirliyinin 4-cü idarəsinin poliklinikasında rastlaşdım. "Sovetskaya kultura"nın xüsusi müxbiri mənə yaxınlaşdı və çılğınlıqla Vəzirovu söyməyə başladı:

– Allaha şükür, bu alçağı nəhayət ki, respublikadan rədd etdilər.

Mən ona yalnız bir cümlə ilə cavab verdim:

– Bəli, bunların hamısı düzdür, lakin o tək deyildi, ona bir çox başqa alçaqlar mədhiyyə oxuyurdular, indi isə söyürlər və arxasınca daş atırlar.

Mustafayev mənə baxdı, heç nə demədi, dinməz-söyləməz çıxıb getdi.

Bu da sizə o dövr üçün, həm də karyerasına görə Heydər Əliyevə borclu olan insanların ikiüzlülüyünü göstərən maraqlı ştrix".

Aleksandr İvanovun sözlərinə görə "bütün bu alçaqlıqlar, respublikadan gələn bu ədalətsiz həcvlər onun axırına çıxırdı. Bütün bunlar ona çox pis təsir edirdi. Heç kəs bilmirdi ki, ürəyində nələr çəkirdi. Heydər Əiyeviç istefaya çıxanda məni prokurorluğa çağırdılar. Onu Özbəkistan məsələsilə əlaqələndirmək istəyirdilər. Mən o vaxt hələ DTK-da işləyirdim. Yazdılar ki, guya mənim vasitəmlə ona Özbəkistandan içi pulla dolu diplomat veriblər. Bax, belə bir iyrənc məsələ".

Aleksandr Qavrilovla söhbətdən:

"Daha bir epizod haqqında danışmaq istəyirəm. Azərbaycanda hansısa bir qrup adam onu yıxmaq istəyirdi. Budur, 1988-ci ildə, Heydər Əliyeviç artıq istefada olanda və müşavir işləyəndə, Nazirlər Sovetinə məktub daxil oldu. Qərara alındı ki, məktuba partiya iclasında baxılsın. Əliyevin özünü də dəvət etdilər. Məktubu oxudular.

Kimsə ona qarşı çıxış edib, başladı hiddətlənməyə: bu nə olan şeydir, belə də iş olar?

Bu yerdə Heydər Əliyeviç etiraz etməyə başladı. Ancaq mənim aləmimdə tamamilə nahaq. Adamın üstünə şər atanda onun emosional vəziyyətini başa düşmək olar. Lakin mənə elə gəlir ki, o, onların qarşısında özünə bəraət qazandırmağa çalışmamalıydı, gərək deyəydi: "Yoxlayın, ondan sonra bu söhbətə qayıdarıq". Ancaq yoxlamadan yoxlamaya da fərq var. Heydər Əliyeviç isə sadəcə ədalətsizliyə dözə bilmədi. O, tribunaya qalxdı və nəyisə başa salmağa, bir növ özünə bəraət qazandırmağa başladı.

Partiya iclası heç nə ilə nəticələnmədi. Məktubu müzakirə etdilər, vəssalam. Ancaq başqa tərəfdən buna lüzum vardımı? Bir də ki, o, artıq vəzifədən getmişdi. Müdir qarşısında özünü göstərməyə çalışan adamlar isə həmişə tapılır. Bütün bunlar olduqca ədalətsiz işlər idi".

Camal Camalovla söhbətdən:

"O illər göstəriş verilmişdi ki, necə olur-olsun Əliyev "Özbəkistan məsələsinə" qatılmalıdır. 1990-cı ildə, (artıq iki il idi ki, "Lyuks" Qapalı Səhmdar Cəmiyyətində direktorlar şurasının sədri işləyirdim) mənə SSRİ Baş prokurorunun köməkçisi zəng vurdu:

– Biz sizinlə söhbət etmək istəyirik.

– Nə barədə? – soruşuram.

– Əliyevlə işləmisiniz?

– İşləmişəm.

– Elə bu barədə də danışarıq. Ancaq yaxşı olardı ki, Əliyevə heç nə deməyəsiniz.

Sonra onlar məni bir dəfə də çağırdılar. Hər vəchlə Əliyevlə Rəşidovu bir-birinə bağlamaq istəyirdilər. Onlar hər şeyə əl atırdılar ki, Əliyevi ləkələsinlər".

Təxminən eyni hal Azərbaycanda da təkrar olunurdu: vaxtilə Əliyevin yüksək vəzifələrə irəli çəkdiyi adamları incidir, onları H.Əliyevə və onun 70-ci illərdə apardığı kadr siyasətinə (sosial, iqtisadi,mədəni sahələrdə) qarşı çıxmağa vadar edirdilər. Bu zaman sınaqdan çıxmış üsullara əl atırdılar: bəzilərinə yüksək vəzifə vəd edir, digərlərini isə işdən çıxarmaqla hədələyirdilər. Heydər Əliyevin irəli çəkdiyi **Abbas Əsgərovun** danışdığı əhvalat dediklərimizə nümunə ola bilər:

"1983-cü ildən mən DTK-da işləməyə başladım. Bunun üçün bir daha Moskvaya, Ali DTK məktəbinə, rəhbər kadrların hazırlanması kurslarına getməli oldum. İki il oxuyub qayıtdım və DTK sədri Ziya Yusifzadə məni 2-ci şöbə rəisinin müavini təyin etdi. Sonra şöbə müdiri oldum.

1988-ci ildə Vəzirov MK-nın birinci katibi təyin olunandan sonra DTK əməkdaşları ilə görüş keçirdi. Məndən xəbərsiz kiməsə mənim əvəzimə çıxış yazdırmışdılar. Mətni mənə verib dedilər:

– Görüşdə çıxış elə, bunu oxu, general olarsan.

Baxıb görürəm ki, bu, Əliyevin əleyhinə çıxışdır, ağızlarına gələni yazıblar.

Bizim yeni DTK sədrinin stolunun üstündə siyahı var idi – "Naxçıvandan olanlar". Özüm görməmişəm, ancaq siyahıya baxmağa müvəffəq olmuş dostum deyirdi ki, mənim adım orada ikincidir. Özü də orada göstərilmişdi ki, mən "İsmayıl Əsgərovun qohumuyam". Ancaq mənim rəhmətlik Əsgərovla yalnız soyadım eynidir, o Ordubaddandır, mən isə Naxçıvandan.

Mənim işdən çıxarılmağımı yubadanda mən Qorelovskinin üzünə dedim:

– Stolunuzun üstündəki o nə siyahıdır elə, mənim adım da orada ikinci gəlir? Bəli, mən naxçıvanlıyam və bunu gizlətmirəm. İsmayıl Əsgərova da böyük hörmətim var, ləyaqətli insandır. Ancaq belə siyahılar tərtib etməklə siz nə məqsəd güdürsünüz?

– Siz nə danışırsınız, Abbas Quliyeviç? Nə danışırsınız?

– İvan İvanoviç, siz də İctimai Elmlər Akademiyasını bitirmişsiniz, mən də. Siz bura Azərbaycan DTK-sının sədri gəlmişsiniz, mənim isə hətta şöbə rəisinin müavini belə olmağa haqqım yoxdur?

Bir sözlə, o, məndən əl çəkdi. Ancaq sonra başladı təhqiqat aparmağa ki, bu siyahı barədə mənə kim danışıb.

Heydər Əliyevin qardaşı oğlu Nazim Əliyevi bu siyahı ilə işdən çıxardılar. Hətta təxribat hazırlamışdılar ki, həbs etsinlər.

Vəzirovun vaxtında Qorelovski DTK sədri olandan sonra, Danilenkonu ona müavin təyin etdilər, DTK sədrinin birinci müavini də rus idi – Dubrovin. Nəqliyyat şöbəsinin rəisi – rus, Sumqayıtda DTK şəhər şöbəsinin başında duran – rus. Yerli kadrlara artıq etibar etmirdilər".

1988–1989-cu illərdə bir vaxt H.Əliyev tərəfindən irəli çəkilən bir çox kadrlara divan tutdular. Şair Fikrət Qoca Heydər Əliyevin keçmiş komandasında olan ən təmiz və ləyaqətli insanlardan biri – hökumətdə elm, mədəniyyət, təhsil məsələlərinə kuratorluq edən respublika Nazirlər Soveti sədrinin müavini Fikrət Əhmədova qarşı göstərilən amansızlığı yaxşı xatırlayır. F.Əhmədovu işdən çıxardılar və cinayət işi açacaqları ilə hədələdilər. Üstəlik oğlu Riadı da hüquq-mühafizə orqanlarından kənarlaşdırdılar. Həqarətlərə dözə bilməyən Fikrət müəllim ağır xəstələndi və iki aydan sonra dünyasını dəyişdi. Bir qədər sonra vətənpərvərlər sırasında respublikanın ərazi bütövlüyünü qorumaq üçün könüllü Qarabağa gedən polkovnik-leytenant Riad Əhmədov Daşaltı kəndi yaxınlığında əməliyyat zamanı qəhrəmancasına həlak oldu. Ölümündən sonra ona "Azərbaycanın Milli Qəhrəmanı" adı verildi. Rejim üçün arzuedilməz olan adamlara "aşkarlıq və demokratiya" dövründə 37-ci ilin metodları ilə belə divan tuturdular.

Həmsöhbətlərimin bir çoxu Heydər Əliyevi "pambıq məsələsinə", yəni SSRİ prokurorluğunun təhqiqat apardığı Özbəkistan SSR-də kütləvi "pripiskalar"a dair cinayət işinə qatmaq cəhdlərini xatır-

layırdılar. Bu epizod üzərində bir qədər təfərrüatı ilə dayanmağına dəyər, həm də ona görə ki, oxucuların gənc nəsli bu barədə heç nə bilmir. Cinayət işi müəyyən mərhələdə SSRİ Prokurorluğunun mühüm işlər üzrə baş müstəntiqi Telman Qdlyanın və onun həmkarı Nikolay İvanovun əlinə düşür. Bu adamlar 80-ci illərin ikinci yarısında yenidənqurma mətbuatının qəhrəmanına çevrilmişdilər. Bir-iki ildən sonra "fədakarlıqla" korrupsiya əjdahasına qarşı vuruşan bu "cəsur" müstəntiqlər barədə mif sabun köpüyü kimi partladı, onlar Baş prokurorluqdan qovuldular. Ancaq o vaxta qədər çoxmilyonlu özbək xalqını qorxuya salaraq olmazın bəlalara bais oldular. Bu cür adamlar və onların törətdiyi əməllər "yenidənqurma və demokratikləşmə" dövrünün ab-havasını çox gözəl əks etdirir. O vaxt siyasi və ictimai həyatın üzünə xeyli "insan köpüyü" qalxmışdı.

"Pambıq məsələsi"nin araşdırılması hələ Y.Andropovun sağlığında başlanmışdı. Orta Asiyada (özü də təkcə Özbəkistanda yox) korrupsiya ənənəvi münasibətlər sistemi ilə elə çulğaşmışdı ki, az qala bütün quruluşun leqal xüsusiyyətinə çevrilmişdi. Rüşvət olmadan bir çox məmurlar və təsərrüfat işçiləri sadəcə işləyə bilmirdilər, rüşvət – icazəsi yuxarıdan verilmiş normal əlavə ödəniş sayılırdı. Müvafiq olaraq bir o qədər də gizlədilməyən cinayətin "izinə düşmək" asan idi. Korrupsiya piramidasının bazisi və orta hissəsi Andropovun zərbəsinə tuş gəldi. Həbslər dalğası külli miqdarda rüşvət verən və rüşvət alanı ağuşuna aldı.

1983-cü ilin aprelində Buxara Vilayət İcraiyyə Komitəsi Daxili İşlər İdarəsi sosialist mülkiyyətinin talan edilməsi ilə mübarizə şöbəsinin (OBXSS) müdiri A.Müzəffərovun həbsi ilə Özbəkistanda korrupsiyanın kökünün kəsilməsi əməliyyatı başlandı. Çox keçmədən vilayət səviyyəli daha 7 milis və təsərrüfat rəhbəri həbs olundu. Eyni vaxtda Daşkənddə DTK-nın əməliyyatları keçirildi. İttifaq prokurorluğu işə qoşuldu. 1983-cü ilin sentyabrında Buxara vilayətində korrupsiya ilə bağlı işi araşdıran SSRİ prokurorluğu qrupunun başçısı mühüm işlər üzrə baş müstəntiq T.Qdlyan təyin olundu.

Rusiya politoloqu A.Şubin qeyd edir: "Qdlyanın qrupunu korrupsiya mexanizminin yuxarı hissəsi maraqlandırırdı. İstintaq həlqəsi tədricən vilayət rəhbərləri ətrafında da daralmağa başladı. 1983-cü ilin dekabrında Buxara vilayətinin rəhbəri A.Kərimov vəzifəsindən azad edildi, istintaq materiallarında adı hallanan Özbəkistan daxili işlər naziri Erqaşov təqaüdə getdi.

Qdlyanın qrupu qarşısında çətin vəzifə durmuşdu. SSRİ DİN Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin rəisi V.Qurovun sözlərinə görə, "hər bir hüquqşünasa bəllidir ki, rüşvəti postfaktum sübuta yetirmək praktiki olaraq mümkün deyil. Ya gərək zorla səmimi etirafa nail olasan, ya da başqa dəlillər tapasan. SSRİ DİN "SƏDM"-in peşəkar işçilərindən olan M.Averkovun (Averkov hazırda RF DİN idarələrindən birinə rəhbərlik edir) sözləri yadıma düşdü: "Mən Qdlyanla işləməkdən imtina etdim, ona görə yox ki nədənsə çəkindim, sadəcə insanları alçaltmağa öyrəşməmişdim".

V.İlyuxinin sonralar üzə çıxardığı 1989–1990-cı illərdə SSRİ Prokurorluğunun yoxlama materiallarına inansaq, Qdlyan və İvanov onların işini xeyli tezləşdirən, əmək məhsuldarlığını artıra bilən yolla getdilər. Bunun üçün onlar, Vışinskinin sözləri ilə desək, sübutların şahına – ittiham olunanın etirafına nail olurdular. Yoxlama aparanların dediyinə görə, Qdlyan axtarışdan yox, şübhəli bilinənlərin həbsindən başlayırdı, sonra isə müxtəlif metodlardan istifadə etməklə etirafa nail olurdu. İlyuxin bu metodların sırasında döyülmə, qohumların təqib edilməsi ilə hədələmə (onlardan da bir çoxu həbs edilirdi), aldatma, residivistlərin təhqirləri və s. kimi halların adlarını çəkir.

Qdlyan və İvanov müttəhimdən özünə və yuxarıdakı şəxsə qarşı ifadə almağa nail olur, tədricən Sov.İKP MK-dakı rəhbərlərə lazım olan piramidanı qururdular. Getdikcə bu piramidaya respublikanın daha yüksək rəhbərləri qoşulurdu. Qdlyanın başçılıq etdiyi qrupa Özbəkistanın məmur klanına həlledici zərbə endirmək missiyası həvalə edilmişdi"*.

Lakin, necə deyərlər, iştah diş altındadır. Artıq respublika miqyaslı ifşalar Qdlyan və İvanovun gözünə az görünürdü. Bütün İttifaqı, hətta İttifaq nədir, bütün dünyanı Rusiya pinkertonları haqqında danışmağa məcbur edən əsil sensasiya lazım idi! Bu yolla "Özbəkistan məsələsi"ndə ortaya H.Əliyevin, Y.Liqaçovun, V.Qrişinin və hətta... Sov.İKP MK-nın Baş katibi M.Qorbaçovun adı çıxdı.

* Bu barədə daha ətraflı bax: A.Şubin. "Qızıl payız, və ya Durğunluq dövrü. SSRİ 1975–1985-ci illərdə". M., 2008. S. 261-275.

Maraqlıdır ki, Sov.İKP MK katibi Yeqor Liqaçov ilk vaxtlar Qdlyan və İvanovu fəal dəstəkləyirdi. Baş katib Y.Andropovun tapşırığı ilə zəhmətkeşlərin çoxsaylı şikayətlərini yoxlamaq üçün bu cənub respublikasına göndərilən Y.Liqaçovun özü əslində antiözbək kampaniyasının ilhamvericisi olmuşdu. Lakin bir müddət sonra Yeqor Kuzmiçin özü başqaları üçün qurulan tora düşdü. Həmin hadisələri SSRİ DTK-sının keçmiş rəhbəri V.Kryuçkov xatırlayır:

"SSRİ Baş prokurorluğunun sabiq müstəntiqləri Qdlyan və İvanov Liqaçovu "pambıq məsələsi" adlandırılan işlə əlaqədar rüşvət almaqda ittiham etdilər. Mən bütün bu əhvalatı bilirəm və bu ittihamın heç bir əsası olmadığını bir daha vurğulamaq istəyirəm.

SSRİ Baş prokurorunun rəsmi məlumatı o vaxt dərc olunmuşdu, orada Liqaçovun üzərinə kölgə salan bəyanatların əsassız olduğu göstərilmişdi.

Liqaçovun guya rüşvət alması barədə Qdlyan və İvanvovun böhtanlarının cəfəngiyat olması artıq 1988-ci ilin sonlarında tamamilə aydın idi. Dövlət Təhlükəsizliyi Komitəsinin materiallarından bəlli olurdu ki, Liqaçov xüsusi siyasi məqsədlər güdən bir sıra ləyaqətsiz şəxslər tərəfindən məqsədyönlü təqiblərə məruz qalır.

Qorbaçov da bunu çox yaxşı bilirdi. Bundan əlavə, dövlət təhlükəsizliyi komitəsinin rəhbəri kimi, mən Siyasi Büronun iclaslarında bir neçə dəfə məlumat vermişdim ki, Liqaçova qarşı iftira kampaniyası aparılır, İvanov, Qdlyan və onların arxasında dayanan şəxslər bu adamı ləkələmək, sonra isə bütün Siyasi Büronun üzərinə kölgə salmağı qarşılarına məqsəd qoyublar. Onlar təkcə Liqaçovu "ifşa etməyi" nəzərdə tutmayıblar, artıq başqa hədəflər də seçiblər, bu sırada, hətta Qorbaçov da vardır.

Bundan əlavə, DTK-ya çatan bir materialdan məlum olurdu ki, Qdlyan və İvanov ilk vaxtlar rüşvət almaqla bağlı Yakovlevin də üzərinə kölgə salmağa hazırlaşırmışlar. Mən bu barədə də Siyasi Büroya məlumat verdim. Düzdür, sonradan Qdlyan və İvanov bu fikirlərindən vaz keçdilər və razılaşdılar ki, ona toxunmasınlar.

Bununla demək istəyirəm ki, Qdlyan və İvanovun, onların arxasında duranların müəyyən mərhələlərdə arzuedilməz hesab etdikləri adamlara böhtan atmalarının kökündə açıq-aydın siyasi məqsədləri, böyük iştahaları dururdu.

Liqaçovun iztirablarını yaxşı xatırlayıram. Onun üçün bütün bu çirkaba davam gətirmək bir insan kimi çətin idi, lakin bundan da çox Liqaçovu ağrıdan o idi ki, partiya yoldaşları onun şər və böhtanlardan qurtarması üçün tədbir görmürdülər.

...Məndə bəzən elə təəssürat yaranır ki, Qorbaçov bütün bunlara ona görə dözürdü ki, böhtan şəxsən ona toxunmurdu. Bu səbəbdən də hesab edirdi ki, onun üçün həmkarlarının zəif olması güclü və toxunulmaz olmaqlarından daha əlverişlidir"[20].

Anatoli Lukyanovla söhbətdən:

– SSRİ Ali Soveti Rəyasət Heyətinin sizin sədrlik etdiyiniz sessiyalarında Qdlyan və İvanovun apardığı "Özbəkistan məsələsi"nin təhqiqatı müzakirə olunmuşdu. Onlar Liqaçova, az sonra Əliyevə qarşı ittihamlar təşkil etməyə çalışır, Qorbaçovun özünü gözdən salmağa cəhd göstərirdilər. Nəticədə Roy Medvedevin sədrliyi ilə artıq Qdlyan və İvanovun fəaliyyətinin araşdırılması üzrə komissiya yaradıldı. Öz qalmaqallı ifşaları ilə onlar nəyə nail olmaq istəyirdilər?

– Birincisi, bu qalmaqal və sensasiyaların vasitəsilə Qdlyan və İvanov deputat oldular. Onlar "Özbəkistan məsələsi" ilə məşğul olmağa başladılar və birdən-birə böyük demokrata çevrildilər. O vaxt sovet quruluşunu ifşa edən demokratların güclü dalğası tüğyan edirdi. Bir çoxlarının ad qazanmaq üçün partiya üzvlərini, kommunizm quruluşu və sovet hakimiyyətini ifşa etməsinin əsil "doqquzuncu val"ı. Roy Medvedevin komissiyası "pambıq məsələsi"ni araşdırırdı. Orada heç bir xüsusi nəticə yox idi. Bir də ki, Qdlyan və İvanovun ittiham etdikləri adamların əksəriyyəti bu gün bəraət almışlar.

– Bəs Liqaçov, Əliyev, Qorbaçov. Onları nədə günahlandırırdılar?

– Onların bu işlərə heç bir aidiyyəti yox idi. Qətiyyən heç bir aidiyyəti.

– Hansı yolla onları bura qatmaq istəyirdilər?

– Burada bir məsələ nəzərə alınmalıdır ki, əgər sizin bir qonağınız gəlirdisə, o, hədiyyəsiz qayıtmırdı. Brejnev də balıq tutmağa gedəndə qarmağa az qala nərə balığı bağlayırdılar. Bütün bunlar ol-

muşdu. Belə faktlardan yapışıb Liqaçovu "ifşa" etmək olar ki, bəs, ona xalat bağışlayıblar. Boş şeydir, bir də ki, Liqaçov, ona necə münasibətdən asılı olmayaraq, demək olar ki, içən adam deyil, tamamilə təmizdir, heç vaxt imkan verməz ki, onun yerinə kimsə bir qəpik ödəsin. Bunu danmaq olmaz.

– Əliyev də öz yerinə pul ödəməyə icazə vermirdi, ümumiyyətlə, şəxsi həyatda asket kimi tanınmışdı. Bəlkə hədiyyələr verirmiş, bunsuz necə ola bilərdi, ancaq özü çox asket idi.

– Bu "əcinnələr ovu" vaxtı idi. O ki qaldı Siyasi Büro üzvü kimi gəlirlərimizə, biz indiki xırda biznesmenlər kimi yaşayırdıq, hər hansı iri zavod direktorundan, daha Elmlər Akademiyasının prezidentini demirəm, az maaş alırdıq. Mən 800 rubl alırdım. Hər halda hər şey olduqca sadə tərzdə idi.

Y.Liqaçovla söhbətdən:

" – Mətbuatda sizə qarşı, Əliyevə qarşı aparılan kampaniya nə idi elə? Haradan idarə olunurdu? Vahid mərkəzdən?

– Sözsüz. Niyə Liqaçova qarşı? Niyə Əliyevə qarşı? Çünki bizim mövqelərimiz qəti idi. Mən hesab edirdim və bu haqda Siyasi Büroda dəfələrlə açıq demişdim ki, dövlətdə istənilən qədər islahatlar aparmaq olar, ancaq sistemi saxlamaq vacibdir. İqtisadi və siyasi əsaslar sarsılmaz olmalıdır. Onlar isə metodik surətdə bunu dağıdırdılar.

Mənim mövqeyimi çoxları bilirdi. Mən kifayət qədər sərt idim, müəyyən siyasi iradəyə malik idim. Qorbaçova etiraz edə bilən yeganə adam idim və ona qarşı çıxış edirdim. Və bütün bu Yakovlevlər – Yeqor da, Aleksandr da, digərləri də bunu görürdülər.

Ancaq Qdlyana təkcə Qorbaçov rəhbərlik etmirdi, ona artıq Yeltsin də rəhbərlik edirdi. Ona görə də mən 1988-ci ildə XIX partiya konfransında cənab Yeltsin barədə fikrimi dəqiq və aydın söylədim. Mən orada daha bir çox vacib cümlə işlətdim: "Boris, sən enerjiyə maliksən, lakin bu, quruculuq enerjisi deyil, dağıdıcı enerjidir". O, bunu mənə, əlbəttə, bağışlaya bilmədi, təqib və böhtanlar təşkil etdi. Bütün bu Saxarovlar, Popovlar, Afanasyevlər baş qaldırdı. İndi görüşəndə onlar deyirlər: "Yeqor Kuzmiç, heç nəyi dağıtmaq lazım deyildi, yaxşılaşdırmaq lazım idi".

Qdlyana yol göstərən də Yeltsin idi. Bilirəm, onlar o vaxt görüşürdülər, hətta bu görüşlərin fotoşəkilləri də qalıb. Onların hamısı Regionlararası deputat qrupuna daxil idilər, Qdlyan da, İvanov da orda idilər. Bəs indi haradadırlar? Zibillikdə.

– Onlar sizi Rəşidovun məsələsi ilə necə bağlaya bilərdilər?

– Onlar daha çox eyhamla, ikibaşlı danışırdılar. "Yeqor Kuzmiç Özbəkistanda olub". Orada belə əhvalat baş vermişdi. Şərəf Rəşidovu vəzifədən azad etmək məsələsi qalxmışdı, çünki o, rüşvətxorluq içində batıb qalmışdı. Bu hələ Andropovun vaxtında, 1983-cü ildə olmuşdu. Partiya-təşkilat işi şöbəsinin müdiri kimi mən Andropovun tapşırığı ilə Rəşidovla görüşmüşdüm. Andropov dedi:

– Yeqor Kuzmiç, onu dəvət elə, söhbət et.

– Yuri Vladimiroviç, – mən etiraz etdim, – o, axı Siyasi Büro üzvlüyünə namizəddir.

– Mən sənə deyirəm, – o təkrar etdi, – dəvət elə və söhbət et.

Mən Rəşidovu dəvət etdim. Lap əvvəldə o, mənə dedi:

– Kiminlə danışdığınızı bilirsiniz?

– Bilirəm və sizinlə baş katibin tapşırığı ilə danışıram.

Rəşidov o dəqiqə yumşaldı və söhbət alındı. Mənim stolumun üstündə bir qalaq zərf var idi, respublikadan otuz minə yaxın məktub almışdıq. Müxtəlif adamlar yazırdı: xətlər ayrı, epizodlar ayrı-ayrı idi.

Yoxlamanı başa çatdıra bilmədik, çünki Rəşidov dünyadan köçdü. Mən Özbəkistana getdim, Usmanxocayevi katib seçdik. Sonra mən Özbəkistanda meliorasiya məsələləri və digər problemlərlə əlaqədar oldum. Və guya mənim orada olduğum dövrdə Usmanxocayev mənə otuz min rubl verib. Bununla əlaqədar Solomentsev həmişə mənə sataşırdı:

– Bəs niyə belə az götürmüsən?

Qdlyan və İvanov bu ifadələri Usmanxocayevdən zor gücünə alıblar. O, verdiyi ifadədən səhəri günü imtina edib. Sonra artıq cəzaçəkmə müəssisəsindən mənə peşmançılıqla dolu məktub yazmışdı. "Sizin qarşınızda günahkaram. Sizi şərə salmışam". Çox yaxşı adamdır. Lakin onu sındırmışdılar".

Y.Liqaçovun "Xəbərdarlıq" kitabında Qdlyan və İvanov qrupunun olduqca özünəməxsus iş metodları ətraflı təsvir edilib. Bir neçə sitat gətirirəm:

"Daşkəndə gələn istintaq qrupu gərgin çalışırdı. Lakin tezliklə təmiz peşəkarlıq səyləri ilə yanaşı qrup rəhbərlərinin yeni, mən deyərdim, dırnaq içində "yenidənqurma" keyfiyyətləri özünü büruzə verdi. Onlar mətbuat, televiziya ilə olduqca bacarıqla işləyirdilər. Məhkəmə proseslərini gözləmədən mətbuata sensasiya doğuran materiallar ötürürdülər, özü də çox vaxt bunu şəxsən özləri edirdilər. Peşə etikası nöqteyi-nəzərindən buna necə baxılır, deyə bilmərəm. Ancaq məsələ ondadır ki, istintaq orqanlarının əvvəlki qeyri-aşkarlığı fonunda mətbuatla fəal əlaqəyə girmiş Qdlyan və İvanov açıq-aşkar udurdular. Onlar populyar olmağa başlayırdılar.

Ancaq bu yola ayaq basmaq kifayətdir! Artıq hadisələrin məntiqi, pozuntulara getməyə məcbur edəcək. Mətbuat, kütlələrin marağı yeni sensasiyalar, ifşalar tələb edirdi. Və Qdlyanla İvanov tələsik nəticələr xatirinə qeyri-qanuni hərəkətlərə əl atmağa başladılar. İstintaq altında olanlar, heç bir günahı olmayanlar mənəvi və fiziki işgəncələrə məruz qaldılar. Qanunla müəyyən olunmuş həbsdə saxlama müddəti pozulurdu, lazım olan ifadələri almaq üçün ailə üzvlərinə və yaxın qohumlarına divan tutulacağı ilə hədələməkdən təzyiq vasitəsi kimi istifadə olunurdu.

Ancaq bu başdan deyim: İvanovun Leninqrad televiziyası ilə məni rüşvətxorluqda günahlandırdığı həmin o may günlərində İvanov və Qdlyanın özlərinin törətdikləri qanunsuzluqlardan xəbərim yox idi. Özbəkistan problemlərimdən çoxdan uzaqlaşmışdım, başım tamamilə aqrar məsələlərə qarışmışdı. Bu qanunsuzluqlarla tam mənada mayın 24-də O.Çaykovskayanın "Mif" adlı oçerki dərc olunmuş "Literaturnaya qazeta"nı açanda tanış oldum.

Həmin oçerkdə ilk dəfə olaraq Qdlyan və İvanovun metodları barədə həqiqət bəyan edildi. Çaykovskaya, əslinə qalsa, onları ifşa etmişdi. Özü də həftəlik nəşrdə dərc olunma tarixi nəzərə alınarsa oçerk, çox güman ki, redaksiyaya İvanovun televiziya ilə çıxışından əvvəl təqdim olunmuşdu. İstisna deyil ki, Qdlyan və İvanov hazırlanan zərbədən xəbər tutub qabaqlayıcı əks-zərbə endirmək qərarına gəlmişdi.

"Mif" oçerkində, yeri gəlmişkən, Qaraqalpaq Vilayət Partiya Komitəsi katibinə rüşvət verməsini etiraf etməyə zorla məcbur edilən sovxoz direktoru A.Rəcəbovun məktubu verilirdi. Rəcəbov razı olmur. Bəs sonra? Müstəntiqlər "hədələməyə başladılar ki, – deyə Rəcəbov yazırdı, – məni cinayətkarlarla bir yerə salacaqlar, onlara da deyəcəklər ki, mənimlə istədiklərini etsinlər, qoy səni əzsinlər, öldürsünlər (dedikləri sözləri olduğu kimi yazmaq mümkün deyil), onda sən quzu kimi nə lazımdırsa onu da yazarsan. Kobudluq, alçaq jarqon, küçə söyüşü və ədəbsiz sözlər müstəntiqlər üçün danışıq norması idi. Əgər mənə deməsəydilər ki, bizim vaxtda bu mümkündür, çətin inanardım".

Çaykovskaya istintaq altında olanların hədələrə, işgəncələrə tab gətirməyib müstəntiqlərin verdiyi hər kağıza imza atdıqları hallardan yazırdı. Bəziləri istintaqın gedişində intihar etmişdilər.

Bütün bunlar haqqında təfərrüatı ilə, təkrar edirəm, "Literaturnaya qazeta"dakı oçerkdən xəbər tutdum. Yeri gəlmişkən, 1990-cı ilin payızında Çaykovskaya Qdlyan və İvanovu ifşa edən daha bir kəskin oçerk yazdı. Burlatskinin "Literaturnaya qazeta"sı Çaykovskayanın ifşaedici materialını dərc etməkdən imtina etdi, material "SSRİ Elmlər Akademiyasının xəbərləri"ndə kiçik tirajla çap edildi (№ 8, 1990-cı il).

Lakin mənim üçün dramatik olan 1989-cu ilin may günlərinə qayıdıram. O dövrdə Siyasi Büroda mənim xidməti vəzifəmin əhatəsi, təkrar edirəm, Özbəkistandakı mafioz araşdırmalarından uzaq idi. Maraqlanmağa başladım və o saat məlum oldu ki, 1983-cü ilin hadisələri olduğu kimi təkrarlanır: respublikadan MK-ya, SSRİ Prokurorluğuna yenə də özbaşınalıq, qanunsuzluq, hüquq pozuntuları haqqında məktub axını başlamışdı. Lakin bu dəfə bu ağır günahlarda insanlar əvvəllər odluğu kimi artıq respublika rəhbərlərini deyil... müstəntiqlər Qdlyan və İvanovu ittiham edirdilər. Bir çox məktublarda onları "Özbəkistanın cəlladları" adlandırırdılar.

Ancaq əgər əvvəllər şikayətlərin obyektiv baxılmasına yuxarı hakimiyyət eşelonunda nüfuzlu əlaqələri olan Rəşidov əngəl törədirdisə, indi məktubların sakit, hərtərəfli araşdırılmasına... bəzi kütləvi informasiya vasitələrinin yaratdığı ictimai rəy mane olurdu. Aydın məsələdir ki, hər iki variant hüquqi dövlət üçün olduqca acınacaqlıdır... Sonda bu, bütün cəmiyyətimiz üçün, yenidənqurma üçün faciəli nəticələrə gətirib çıxardı, yenidənqurmanın normal gedişini, müxtəlif siyasi qüvvələr balansını pozdu. Vaxtı gələndə mə-

lum oldu ki, Qdlyan və İvanov vəzirlik iddiasında olan özündən bədgüman lovğa piyadalarmış. Cəmiyyətin Qdlyan və İvanov tərəfindən irəli sürülmüş ittihamları vaxtlı-vaxtında, obyektiv, hərtərəfli və isterikasız araşdıra bilməməsinin, onların çaldığı ilə oynamasının məsuliyyətini isə sensasiya xatirinə, yaxud siyasi maraqlar naminə bir göz qırpımında "qəhrəman müstəntiqlər" mifi yaratmış kütləvi informasiya vasitələri də bölüşməlidir.

Həmin mif Özbəkistanın istintaq otaqlarından gələn inilti səslərini boğdu. Mətbuat, hətta SSRİ Ali Soveti Rəyasət Heyətinin Özbəkistandan gələn şikayətləri yoxlamaq üçün yaratdığı xüsusi komissiyanın üzərinə hücuma da keçdi.

Əslində bu, uzaq keçmişdə qalmış vaxtlara qayıdış idi. Yeni aşkarlıq və demokratiya pərdəsi altında, köhnə "toxunulmazlıq" metodları tətbiq olunurdu.

Yeri gəlmişkən, bu komissiya İvanovun Leninqrad televiziyasındakı çıxışından qabaq yaradılmışdı. Belə bir xəbər qulağıma dəymişdi, ancaq elə də diqqət yetirməmişdim. Qdlyanla İvanov isə hiss etmişdilər ki, hə, işlər şuluq ola bilər! Onların əsas seçkiqabağı tezisi olduqca sadə idi: özbək mafiyasını ifşa etməyə Moskva mane olur, çünki MK-da və əlbəttə ki, SSRİ Prokurorluğunda korrupsiyaya uğramış yuxarı təbəqələr əyləşibdir. Ölkə bir-birinə dəydi. Yəni doğrudanmı Moskva? Doğrudanmı Kreml? Doğrudanmı Köhnə meydan? Deputatlığa can atan müstəntiqlərin primitiv üsulu öz bəhrəsini verdi: yüksək partiya təbəqələrini darmadağın etməklə, ağına-bozuna baxmadan hamını rüşvətxorluqda günahlandırmaqla, ikibaşlı ifadələrlə onlar populyarlıq qazandılar. Bu dalğada Qdlyan Moskvanın Tuşino rayonundan elə birinci turda deputat seçildi...

O ki qaldı şəxsən mənə, müstəntiqlərin irəli sürdüyü ittihamlara qurultayda xalq deputatları qəti surətdə əmin oldular ki, mənim günahım yoxdur və bütün diqqət açıq-aşkar Qdlyan və İvanovun cinayətlərinə yönəldi. Bir qədər irəliyə gedib deyim ki, 1990-cı ilin aprelində SSRİ Ali Sovetinin sessiyası qurultay tərəfindən Qdlyanın istintaq qrupunun fəaliyyətilə bağlı materialların yoxlanılması üçün yaradılmış komissiyanın nəticələrini nəzərdən keçirdi və xüsusi qətnamə qəbul etdi. Sənəddə SSRİ xalq deputatları T.X.Qdlyan və N.V.İvanovun ayrı-ayrı xalq deputatlarını və vəzifəli şəxsləri ləkələyən sübutsuz bəyanatları pisləndi və xəbərdarlıq edildi: "Əgər işdir, belə fəaliyyət davam edərsə, SSRİ Ali Soveti onları deputat toxunulmazlığından məhrum etmək təşəbbüsü ilə çıxış edəcəkdir". Bundan əlavə, Ali Sovet müstəntiqlərin prokurorluqdan kənar edilməsinə razılıq verdi. Onlar işdən çıxarıldılar.

Konkret misal. Qdlyanın çıxışlarından birinin mətnində deyilirdi: "İşin materiallarında cinayət məsuliyyətinə cəlb olunanların Siyasi Büronun üzvləri Qrişin, Romanov, Əliyev, Liqaçov, həmçinin Sov.İKP MK aparatının bir sıra məsul işçiləri ilə əlaqələri haqqında məlumatlar vardır".

Mətni təhlil edən hüquqşünaslar həmin dəqiqə peşəkar sual verdilər: "Söhbət hansı əlaqələrdən gedir?". Və izah etdilər: Qdlyanı böhtan atmağa görə cinayət məsuliyyətinə cəlb etmək üçün bu abzasda təkcə bir söz çatışmır – "cinayət". Əgər o deməydi ki, cinayət əlaqələri haqqında məlumat vardır, onda tamam başqa məsələ. Lakin Qdlyan nə etdiyini gözəl başa düşür, ümumiyyətlə, əlaqələrdən danışırdı. Bu nə deməkdir? Usmanxocayev Moskvaya gəlirdi, işlə əlaqədar MK-nın şöbəsinə baş çəkirdi – buyurun, bu da sizin üçün əlaqələr! Çox iyrənc hərəkətdir. Təkcə mənə qarşı yox, axmaq yerinə qoyduqları bütün həmvətənlərinə qarşı"[27].

* * *

İlk cəhdin boşa çıxmasına baxmayaraq, qərara alındı ki, ölkədə "qayda-qanun" yaratmaq üzrə eksperiment davam etdirilsin. Bu dəfə poliqon qismində Azərbaycanı, növbəti qurban isə – respublikanın keçmiş rəhbəri Heydər Əliyevi seçdilər.

Sov.İKP XXII qurultayında və sonrakı MK plenumlarında M.Qorbaçov dəfələrlə neqativ hallarla mübarizənin zəruri olması barədə bəyanatla çıxış etdi. "Bizdə toxunulmaz adamlar yoxdur və olmayacaqdır!" – deyə zalın gurultulu alqışları altında qeyd edirdi. Heydər Əliyev yeni qalmaqallı, "Rəşidovdan betər" cinayət işinin mərkəzi fiquru olmalı idi (A.Çernyayevin kitabından G.Şahnazarovun çoxmənalı ifadəsi yadınıza düşürmü?).

Həsən Seyidovla söhbətdən:

"O vaxt respublikaya Moskvadan müstəntiqlər qrupu gəldi. Onlar burada Özbəkistanda üzə çıxardıqlarından tapmaq və ona bən-

zər "pambıq məsələsi"nə başlamaq istəyirdilər. İlk baxışdan münasib səbəb də seçilmişdi: guya, MK-ya yerlərdən çoxlu siqnallar gəlir, yoxlamaq lazımdır.

Moskva müstəntiqləri rayonlara yayıldılar, adamları dindirmək üçün çağırmağa başladılar. Qərəzlə, hədə-qorxu gəlməklə, saxlanılma və həbslərlə dindirirdilər. "Pripiskaları" boyunlarına almağa məcbur edirdilər. Lakin material eşib tapa bilmədilər. Ancaq hamının, ilk növbədə Əliyevin əsəbləri ilə oynadılar".

Zakir Abdullayevlə söhbətdən:

"Vəzirov burada da Moskvada da Heydər Əliyevin əleyhinə açıq çıxış eləməyə başladı. Sonra tələb etdi ki, bura böyük müstəntiqlər qrupu göndərsinlər.

– Özü? Öz respublikasının əleyhinə?

– O vaxt mətbuatda kampaniya qalxmışdı – "əliyevçilik", "klançılıq" və s. Azərbaycana SƏDM xəttilə 650 nəfər müstəntiq, 80 nəfər isə prokurorluq əməkdaşı gəldi. Onlardan biri, səkkiz nəfərlik qrupun başında duran polkovnik Fyodorov mənim Xaçmaz rayonundakı işimlə maraqlanırdı. Orada dükanların birində 650 min manatlıq qızıl əskik gəlmişdi. Bu əskikliyi mənim ayağıma yazmaq istəmişdilər, guya, raykomun birinci katibi olan vaxt bu qızılı rüşvət qismində almışam. Sonra sübut olundu ki, mənim bu məsələyə heç bir aidiyyətim yoxdur. Mağaza müdiri qumarbaz imiş, hər şeyi uduzub.

Beləliklə, 1988-ci ilin axırları üçün ittifaq DİN və prokurorluq işçiləri bütün respublikanı ələk-vələk etmişdilər.

– Tapdıqları nə oldu?

– Elə bir şey olmadı. Şamxor rayonunun birinci katibi Vəliyevi həbs etdilər. Ona cinayət işi komissiya gəlməmişdən qabaq açılmışdı. Keçmiş kənd təsərrüfatı naziri Məmməd Həsən oğlu Əsgərovu "ifşa" etdilər. Bir vaxt o, Şamxorda birinci katib olmuşdu. Əsgərov harasa getmək istəyib, lakin milis onu saxlayıb ki, bəs, siz ev dustağısınız. Əsgərov da intihar etmişdi.

– Ancaq onlar Özbəkistanda olduğu kimi ciddi material tapa bilmədilər?

– Yox, elə ciddi bir şey yox idi".

İvan Laptevlə söhbətdən:

" – Yadınızdadırmı, Heydər Əliyevə cinayət işi açmaq istəyirdilər?

– Hansısa araşdırmalar təşkil etmək istədikləri barədə qulağıma çatıb. Bu, təşəbbüskarlıq deyildi, bu, yarınmaq istəyi idi.

– İstefadan üç il sonra onun nəyindən qorxurdular?

– Fərqi yoxdur. Bürokratizm ruhu yarınmaq həvəsi doğurur. Bu gün ona qulluq göstərən insanlar, sabah onun yerinə gələn digərinə qulluq göstərəcəklər. Onlar başa düşürdülər ki, Qorbaçovun Əliyevə münasibəti pisdir, ona görə də bu pis münasibəti təsdiq etmək istəyirdilər. İnandırım sizi ki, Qorbaçovun heç bundan xəbəri olmaya bilərdi, heç bir göstəriş də verməyə bilərdi. Ancaq hansısa xırda məmur özünü gözə soxmaq istəyir, Stalin vaxtında olduğu kimi: biz işləmişik, biz üstünü açmışıq və s.

Yeri gəlmişkən, Qorbaçovun Əliyevə qarşı pis münasibətini bir faktla təsdiq edə bilərəm.

Bu, Qarabağ münaqişəsinin başladığı zaman olmuşdu. Qorbaçov dörd, ya beş nəfər erməni alimini qəbul edirdi, mən də orada idim. Söhbət zamanı o, məni tamamilə sarsıdan, bu vəziyyətdə dinamit kimi partlayan bir ifadə işlətdi: "Bütün bunlar Əliyevin cinayətkar siyasətinin nəticələridir". Yəni, bu partlayışa yaxın olan vəziyyəti o yaradıb.

Bu, adamı diri-diri basdırmaq deməkdir".

Əslində Heydər Əliyevə qarşı kompromat toplamaq üçün Qorbaçov Azərbaycana 650 deyil, 1500 (!) nəfərlik istintaq-əməliyyat briqadası göndərmişdi. Aslaxanov və Barannikovun rəhbərlik etdiyi briqadaya Heydər Əliyevlə işləmiş rəhbər kadrlara qarşı ifadələr alınması (daha dəqiq desək, hədə-qorxu və şantaj gücünə zorla alınması) tapşırılmışdı.

Bu məqsədlə Şüvəlan istintaq təcridxanası SSRİ DİN-nin əmri ilə əməliyyat-istintaq qrupunun sərəncamına verilmişdi. Orada Vladimir Şkolinin rəhbərliyi altında agentura-əməliyyat tədbirləri keçirilirdi. Heydər Əliyevin yaxın əhatəsinə qarşı yalan ifadələr almaq məqsədilə həbs olunanlara fiziki və psixoloji təzyiq göstərmək üçün dustaqlar arasından bəzilərini seçib öyrədirdilər. Bu murdar

"mətbəx"də baş verən bütün iyrənc işlər Vəzirovun gündəlik nəzarəti altında idi.

Lakin onların bütün səylərinə baxmayaraq Kremlin siyasi sifarişini yerinə yetirmək mümkün olmadı. Hələ bu harasıdır: "biabırçılıq" baş verdi, az keçmədən müstəntiqlərin özlərinə cinayət işləri açmaq lazım gəldi. O vaxt respublika DİN sistemində, həmçinin DTK-da işləyən və Heydər Əliyevə sadiq qalan adamlardan öyrənə bildim ki, onlar da boş oturmur, istintaq-əməliyyat briqadasına qarşı əks-əməliyyatlar hazırlayırdılar. Belə ki, 1989-cu il sentyabrın 2-də gecə qəfil əməliyyat keçirildi. Nəticədə Şkolin "Lisovski", "İvanov", "Sergeyev" ləqəbli agentlərin vasitəsilə həbs olunanların yaxın adamlarından rüşvət almaqda ifşa olundu. Beləliklə Şkolin bu agentlərin də üstünü açdı.

Sonra briqadanın daha iki üzvü – milis polkovnikləri Sergey Rezniçenko və İvan Çijik 18 min 500 manat məbləğində rüşvət alan yerdə tutuldular.

Həmçinin müəyyən olundu ki, öz vəzifə səlahiyyətlərindən və nəzarətsizlikdən istifadə edən Şkolin, Rezniçenko və Çijik dəfələrlə dustaqları kameralardan mühafizəsiz çıxarıb bağ yerlərinə, mənzil və pritonlara aparmış, yüngül əxlaqlı qadınlarla sərxoş məclislər qurmuş, cinayətkarların qohumları, kriminal elementlərlə qeyri-qanuni görüşlərini təşkil etmişlər.

Hər üçü daxili işlər orqanlarından xaric edilmiş, barələrində cinayət işi açılmışdı. Bir müddət sonra "gurultulu" iş üçün faktlar toplaya bilməyən əməliyyat-istintaq qrupu Azərbaycanda fəaliyyətini dayandırdı.

Yeri gəlmişkən, Qorbaçov deyəndə ki, bundan belə SSRİ-də toxunulmazlar olmamalıdır, əslinə qalsa özündən başlamalı idi. Çünki təxminən eyni vaxtda Stavropolda Qorbaçova bilavasitə aidiyyəti olan likör-araq zavoduna dair cinayət işi aparılırdı. Artıq SSRİ dağıldıqdan, M.Qorbaçov siyasi səhnədən çəkildikdən sonra, tanınmış jurnalist Mark Deyç bu iş haqqında yazmışdı. Onun "İki dost xidmət edirdi" oçerki "Stolitsa" jurnalında dərc edilmişdi (№ 13 (71) 1992-ci il).

Oçerkdə Leninqraddan Stavropola göndərilən, burada likör-araq işi üzrə təhqiqatda iştirak edən podpolkovnik Vladimir Savçenko və kapitan Serqey Gerasimov adlı iki "tərs" müstəntiqdən söhbət açılır. "Bu vaxta qədər başa çatmayan iş çətin ki, axıra çatdırılsın". Bu cinayət işi 1986-cı ildə Stavropol likör-araq zavodunun işçisi Anatoli Martirosyanın həbsi ilə başlandı. Həbs zamanı ondan 600 min manatlıq qiymətli əşya müsadirə olundu. Martirosyan təqsirini boynuna aldı. O, zavoddakı oğurluqlar və 1976-cı ildən diyar və ölkə rəhbərliyinin necə səxavətlə "yedizdirildiyindən" danışdı. Zavodun direktoru Tamara Karlovanın qeydlərinə görə (bu qeydlər işə əlavə olunmuşdur), Martirosyan külli miqdarda spirtli içkini müdirlər üçün daşıyırmış.

Spirtli içkiləri alanlar sırasında Stavropol Diyar Partiya Komitəsi təsərrüfat şöbəsinin müdiri Aleksey Pşikov da vardı. Martirosyanla üzləşdirmə zamanı o boynuna aldı ki, alkoqollu içkiləri "qonaq evi" üçün pulsuz alırmış – orada Mixail Qorbaçov qonaqlarını yedirib-içirdirmiş.

Yeri gəlmişkən, Mixail Sergeyeviç zavod direktorunu iki mükafata – "Oktyabr inqilabı" və "Şərəf nişanı" ordenlərinə şəxsən təqdim etmişdi.

"... Qorbaçov ali partiya nomenklaturasına daxil idi və onun qanunları ilə yaşamağa məcbur idi. Söz yox, yüksəlişinin hələ erkən vaxtlarında o bu yazılmamış qanunları yerinə yetirməkdən boyun qaçıra bilərdi. Bu halda Sov.İKP-nin Baş katibi bir başqası olacaqdı. Bizdə isə nə yenidənqurma olacaqdı, nə də prezident. İndi bəziləri deyir ki, belə daha yaxşı olardı..."

Tamara Karlovanı həmin o 1986-cı ildə həbs etdilər. Həbsxanadan Karlova diyar prokurorluğunun işçisi olan ərinə məktublar ötürməyə çalışırdı. Məktublarda təlimatlar var idi: onun işini düzəltmək üçün kimə və nə barədə işarə etmək lazımdır. Karlovanın ərinin müraciət etməli olduğu adamların içərisində diyar və ölkənin 80-dən (!) yuxarı yüksək vəzifəli şəxsinin adı vardı.

"Bəziləri məktublarda ancaq baş hərflərlə göstərilmişdilər, məsələn "M.S." və "R.M.". Karlova birmənalı bildirirdi ki, əgər ona kömək etməsələr, o hamını **satacaq** (seçim müəllifindir – ***M.D.***). Məktublar əlbəttə ki, Karlovanın saxlandığı həbsxanadan kənara çıxmadı. Onlar cinayət işinə əlavə olundu. Karlovanın özü isə 1988-i ildə... azadlığa buraxıldı – guya ki, xəstəliyi səbəbindən.

Hazırda təqaüddədir, hətta Stavropoldakı mənzilini də Moskvaya dəyişə bilmişdir.

Stavropol likör-araq zavodu barəsində cinayət işi 1989-cu ildə başa çatdı. İstintaq briqadasının çox böyük iş görməsinə baxmayaraq, nomenklatura vəzifəlilərindən heç kim məhkəməyə cəlb olunmadı. Stavropol məhkəməsi müəyyən etdi ki, dövlətə ən azı 1 milyon manat ziyan dəymişdir. Lakin yalnız xırda işçilər, özü də qısa müddətlərə məhkum olundular. Ancaq bunun özü də kiməsə çox göründü. Rusiya DİN İstintaq Komitəsi istintaq şöbəsinin rəisi Titarovun təşəbbüsü ilə protest çıxarıldı və hökm ləğv edildi... Bundan sonra polkovnik Leonid Titarov "SSRİ DİN Əməkdar işçisi" adına layiq görüldü".

Stavropol işinin daha bir maraqlı cəhəti var idi. Bu iş üzrə birinci həbs olunan Anatoli Martirosyan yadınızdadır? Bir çox nomenklatur rütbəli işçilərə qarşı ifadələri məhz o vermişdi (bu ifadələr istintaqın gedişi zamanı yoxlanılmış və təsdiqini tapmışdı). Həmin o vəzifəli məmurların məhkəmə prosesində iştirakına yol verməmək üçün, Martirosyan barəsində cinayət işi Moskvaya qaytarılır – guya əlavə təhqiqat üçün. Ancaq iş gəlib paytaxta çıxmır, heç kim də onu icraata götürmür. Martirosyan isə 1986-cı ildən həbsdə qalmaqda davam edir. Son iki ili – **qanunsuz** (seçmə müəllifindir – ***M.D.***). Maraqlıdır ki, Martirosyanın özü bununla bağlı səs-küy qaldırmır. O, azadlığa çıxmaqdan qorxur. Qorxur ki, verdiyi ifadələrdən sonra onu sadəcə olaraq öldürərlər".

Stavropolun keçmiş "sahibi" ilə likör-araq mafiyasının əlaqələrindən, bax, belə bir maraqlı məqalə. Əlbəttə, M.Qorbaçovun hakimiyyətdə olduğu dövrdə, belə bir məqalə sadəcə verilə bilməzdi. Çünki qorbaçovsayağı yenidənqurma və aşkarlıq "bir qapılı oyun" idi. İcazə yalnız "durğunluq memarlarını" ifşa etməyə verilirdi, Mixail Sergeyeviçin öz yeri isə, məlum olduğu kimi, o vaxt başqa sırada idi – "yeni düşüncə memarları" siyahısında. Yəni, toxunulmazlar silkində.

Ümumiyyətlə, yenidənqurma mətbuatı və o dövrdə onda baş verənlər ayrıca söhbətin mövzusudur. Zənnimcə, KİV səhifələrinə axışan və əsas etibarilə saxtalaşdırılmış iftira və ifşalar axınının SSRİ boyda nəhəngin dağılmasındakı rolu Qorbaçov və K?-nın fərasətsiz fəaliyyətindən az olmamışdır.

Rusiya kommunistlərinin lideri G.Züqanovun sözlərinə görə "80-ci illərin axırı – 90-cı illərin əvvəllərinin qəzetlərini sağlam düşüncəli hər bir adam utanc və ikrah hissi keçirmədən oxuya bilməz, çünki ictimai və fərdi düşüncənin məruz qaldığı manipulyasiyanın ardıcıllığı və mexanikası rentgen şüaları altında olduğu kimi görünür. Bu da son nəticədə sosiokultur böhrana – dəyərlərin barışmaz münaqişəsinə gətirib çıxardı. Dünyanın "tanış mənzərəsi" dağılırdı və bu dağılma prosesləri baş verən hadisələri qiymətləndirmək üçün oriyentir və əsasların itirilməsinə gətirirdi"[28].

Qeyd etmək lazımdır ki, Sov.İKP MK-nın yanvar (1987-ci il) Plenumundan sonra təbliğat, elm və tədris müəssisələrinə, mədəniyyət şöbələrinə kuratorluq Y.Liqaçovla birlikdə Siyasi Büronun yeni üzvü A.Yakovlevin səlahiyyətinə verilmişdi. Bu insanların xarakter və baxışlarındakı ciddi fərqlər nəzərə alınarsa, Yakovlev və Liqaçovun ideologiya və mədəniyyətə rəhbərlik zəminində bilərəkdən baş-başa gəlmələrinin təşkil edildiyini anlamaq çətin deyildi.

Sov.İKP MK-nın sabiq işçisi V.Leqostayevin fikrincə "bu məqam partiyada siyasi mübarizənin eskalasiyasında ciddi və düşünülmüş addım demək idi. Qəbul edilmiş qərarın ilkin nəticəsi kütləvi informasiya vasitələrinin sürətlə siyasi qarşıdurmaya qatılması oldu. Söz yox, nəşriyyat, radio, televiziya əvvəllər də apreldən sonrakı xəttin dəstəklənməsində çox fəal idi, demokratik dəyişiklikləri alqışlayırdı. Bu, tamamilə təbii hal kimi qarşılanırdı, çünki həm demokratikləşmə, həm aşkarlıq özünün ilkin mənasında cəmiyyətin çoxdan yetişmiş maraqlarına cavab verirdi. Əslində mətbuat elə bunu əks etdirirdi. Təxminən 1986-cı ilin ikinci yarısında, dərc olunan materiallarda siyasi qərəzlilik xeyli dərəcədə artanda, yenidənqurmanın gizli düşmənlərinin axtarılması ruhu özünü göstərəndə vəziyyət tədricən dəyişməyə başladı. Yanvar Plenumundan, A.N.Yakovlevin yüksəlişindən sonra bu meylin inkişafı sürətləndi, mətbuatda aşkarlığın hansısa gizli düşmənlərinə dair dumanlı eyhamlar bir-birini əvəz etməyə başladı"[29].

"Əvvəlcə Stalinə girişdilər, xalq buna bir o qədər də təəccüblənmədi: bu artıq köhnə bayatı idi. Stalin üzərində jurnalistlərin qələmini itiləyirdilər; onlar da, axı, uşaqlıqdan sosializm keçmişinə

hörmətlə yanaşmağa alışmış insanlardı. Səciyyəvidir ki, "yolüstü" Trotskiyə bəraət qazandırdılar. Leninə girişində "ilahiləşdirilmiş" rəhbər haqqında "qara" informasiyaya qarşı qızğın etirazlar yarandı. Ancaq yavaş-yavaş öyrəşdilər. Qalın kitablarını sağlığında belə heç kimin başa düşmədiyi Marksın, sən demə, dəlinin biri olmasına heç əhəmiyyət verilmədi. Xalq heç vaxt Marksı oxumamışdı.

Ümumiyyətlə, belə bir mənzərə yaranmışdı: Lenin – sifilisli kütbeyin, Stalin – cəllad və paranoik, Beriya – manyak və sadist, Xruşşov qarğıdalı volyuntaristi, Brejnev – qalınqaş kaftar. Çernenko, deyəsən heç yada da düşmürdü. Yeganə "işıqlı nöqtə" Andropov idi; ancaq ona da nizam-intizamı xatırlatdılar. Doğrudan da – biz tam azadlıq uğrunda mübarizə aparırıqsa, intizamın bura nə dəxli? Bundan əvvəlki çar Rusiyası imperatorluğu daha miskin görünürdü, ən yaxşı halda xalqlar üçün zindan kimi.

Keçmiş zamanın belə fonunda indiki dövrün özündə də Qorbaçovdan savayı yaxşı bir şey tapmaq mümkün deyildi, çünki onun "alternativi yox idi". Nəticə: tariximizin 70 ilini yaddan çıxarmaq, ideologiyanı bir kənara atmaq və hər şeyi təzədən başlamaq...

Aşkarlıq sovet cəmiyyətini birləşdirən obraz, simvol və ideyaları dağıtmaq üçün böyük proqram idi. Bu proqram nüfuzlu alim, şair və artistlərin iştirakı ilə dövlət kütləvi informasiya vasitələrinin var gücünü işə salmaqla həyata keçirilmişdi. Onun uğuru ziyalıların sağlam məntiqə çağıran hissəsinin tam blokadaya alınması və ictimai dialoqa tam qadağa qoyulması ilə təmin olunmuşdu – "irticaçı çoxluq" sözünü deyə bilmirdi"[30].

Sonralar, yenidənqurma dövründə KİV-də baş verənlərdən yaxasını qurtarmağa çalışan Yeqor Liqaçov sübut etməyə çalışırdı ki, guya bütün bunlar "mətbuatı öz üzərlərinə götürmüş" Qorbaçovla Yakovlevin işidir:

"Qorbaçov müntəzəm surətdə baş redaktorlarla görüşlər keçirir, onlardan bəziləri ilə zəngləşirdi. O dövrdə Mixail Serqeyeviç partiyanın ideoloji fəaliyyəti ilə bilavasitə məşğul olurdu.

Düzdür, Baş katibin rəhbərlərlə görüşlərinin bəzi məqamları getdikcə özünü daha qabarıq büruzə verirdi. Birincisi, demək olar ki, bütün Siyasi Büro üzvlərinin iştirak etməsinə baxmayaraq, bu görüşlərdə yalnız Qorbaçov danışırdı. O birilər statist rolunda idilər. İkincisi, belə görüşlər açıq-aşkar saatlarla davam edən boş-boş danışıqlara çevrilirdi. Mixail Sergeyeviç tənqid edir, redaktorları inandıraraq cəmiyyətin birliyinə yardım etməyə çağırırdı. Lakin onun çağırışlarına qulaq asan yox idi: ekstremist mətbuat neqativ çıxışlara meyilləri gücləndirib öz dağıdıcı fəaliyyətini genişləndirir, ölkə tarixində nə vardısa məhv edirdi...

... Qorbaçovun tariximizin heç bir gününün əbəs yerə yaşanması haqqında tezisi partiyanın ideoloji fəaliyyəti, həmçinin mətbuat üçün istiqamətə çevrilmədi. Bax, əgər bu mövqelərdən yanaşsaq, o halda Qorbaçovla mənim aramda tarixə münasibət məsələsində artıq o zaman ciddi fikir ayrılığı var idi.

Ümumiyyətlə deməliyəm ki, Qorbaçov çıxışlarında bu və ya digər məsələlərə dair öz mövqeyini yalnız bildirirdi, ancaq həqiqətdə onu həyata keçirmək uğrunda mübarizə aparmırdı. Bundan əlavə, əgər tarixi ləkələmək haqqında söhbəti davam etdirsək, mən Baş katibin keçmişimizin təhrif olunması ilə bağlı hiddətlənməsini görməmişdim. Bu nə deməkdir? O deməkdir ki, tarixə münasibət kimi mühüm məsələdə Qorbaçov gah mənim tərəfimi saxlayırdı, gah da Yakovlevin. Halbuki, bizim mövqelərimiz bir-birini istisna edirdi. Belə manevrlər onun siyasi xadim kimi xarakterinə uyğun gəlirdi"[31].

Məhz yenidənqurmaya qarşı çıxan gizli və açıq düşmən axtarışı şəraitində mərkəzi və yerli mətbuatda H.Əliyev və onun ailəsinə qarşı misli görünməmiş hücumlar başlandı.

Mənimlə söhbətdə Sov.İKP MK Siyasi Bürosunun sabiq üzvü V.Vorotnikov maraqlı bir məqamı yada saldı:

"Bir dəfə Siyasi Büroda zəhmətkeş məktubları ilə bağlı məsələnin müzakirəsi idi. Bu, deyəsən, 1989-cu ildə olmuşdu, Qorbaçov məruzə etdi ki, Kunayev, Əliyev, Rəşidov və digərlərinin əleyhinə xeyli məktub vardır. Ancaq o, işin mahiyyətini açmadı. Qorbaçov təklif etdi ki, məktublar yoxlanılmaq üçün Solomentsevə, Partiya Nəzarəti Komitəsinə verilsin".

Çox illər ötəndən sonra "Komsomolskaya pravda"nın jurnalisti Andrey Vandenko Heydər Əliyevə söyləyəcək ki, o, nəinki yüksək vəzifələrdə keçirdiyi illərin sayına, həm də ona edilən siyasi xəya-

nətlərin çoxluğuna görə də rekordçudur. H.Əliyev cavab verəcək: "Düzdür. Mən heç təsəvvürümə belə gətirə bilməzdim ki, ətrafımda bu qədər insan mənim büdrəməyimi gözləyirmiş".

"Səksəninci illərin axırlarına yaxın jurnalistlərin əksəriyyəti nəhayət ki, özlərini partiyanın avtomatçıları hiss etməkdən qurtuldular (nə vaxtsa Xruşşov mətbuat işçilərini belə adlandırırdı), lakin komanda eşidən kimi atəş açmaq vərdişləri hələ dururdu. Atəş hədəfini həmişəki yerdən göstərirdilər (Köhnə meydanın kabinetlərindən), ancaq komandanı pıçıltı ilə verirdilər, sanki təsadüfən olub.

Belə komanda Heydər Əliyevin barəsində də verildi. Bunun səbəbləri haqqında, altı-yeddi il keçdikdən sonra, kifayət qədər əsaslı fikir yürütmək olar. Qanlı Qarabağ marafonu başlayırdı, eyni vaxtda Azərbaycanda milli-azadlıq hərəkatı genişlənirdi. Neft hasil edən respublikanın rəhbərliyində güclü adamın olması arzuedilməz idi. H.Əliyev kimi təcrübəli, nüfuzlu və iradəli adam hələ o vaxt Azərbaycan üçün xarizmatik tipli lider olaraq, Mərkəzin komandalarını yerinə yetirməkdən imtina edə bilərdi. Ona görə də MK öz canişini kimi keçmiş komsomol funksioneri Vəzirovu Azərbaycana göndərdi, Əliyev isə özlərini sərbəst atıcı zənn edən partiya avtomatçılarının nişangahı seçildi. Cəlbedici hədəf idi. Böyük şəxsiyyət, o vaxt üçün artıq iyirmi ildən çox yüksək vəzifələrdə olmuş, vəzifə uğurunun titrək nərdivanı ilə lap yuxarıya çata bilmiş (SSRİ Nazirlər Soveti sədrinin birinci müavini) bir insan. Qısası, ürəkdən "atmaq" olardı. Bir maraqlı məqam: Əliyevlə bağlı oxucunu diksindirən əsaslı bir dəlil, daşdan keçən kriminal tapa bilmədilər, halbuki sizi əmin edim ki, çox möhkəm qazırdılar. Yaxşı, "Azərbaycan geniş addımlarla irəliləyir" deyən Brejnevə üzük bağışlayıb-bağışlamayıb barədə danışdılar, yaxşı, milyonlarla rüşvətdən, milyardlarla "pripiskadan" qeybət qırdılar. Ancaq artıq o vaxt (indi isə heç danışmağına dəyməz) belə mövzularda söhbətlərlə çətin ki, kimisə maraqlandırmaq olardı. Real sübutlar isə nəinki yox idi, onların heç izi-tozu görünmürdü.

...Lakin əgər hədəfi nişan alıb atmaq alınmırdısa, "meydanlara" güllə açmağı sınamaq olardı. Ola bilsin ki, kiməsə dəysin. "Əliyev klanı" ilə haqq-hesab çəkmək ideyası məhz belə yarandı. Əliyevin qardaşları respublikada yaxşı tanınan adamlar idilər. Onlarla "məşğul" oldular. Əvvəlcə elan etdilər ki, tanınmış alim Həsən Əliyev akademik adına görə "şahlıqda olan" kiçik qardaşı Heydərə borcludur. Düzdür, Həsən müəllim 1952-ci ildə akademik olanda gənc Heydər öz gələcək karyerasını yalnız yuxularında görə bilərdi. Əlbəttə ki, ifşa edənlər kimin neçə yaşı olduğunu aydınlaşdıra bilərdilər, ancaq saymaq yox, yazmaq sifarişi verilmişdi. Odur ki, yazırdılar.

Böyük qardaşdan sonra kiçiyə girişdilər. Akademik Cəlal Əliyev ömrü boyu siyasətlə yox, molekulyar biologiya ilə məşğul olmuşdu. Vavilov və Lısenko qarşıdurması zamanından bu sahədə, deyəsən, siyasi oyunlar olmamışdı. Yenidənqurma Azərbaycanında oynamaq qərarına gəldilər"[32].

Akademik C.Əliyev "Elm həqiqətdir" kitabında yuxarıların göstərişilə elm məmurlarının onun yaratdığı unikal elmi kollektivi dağıtmaq cəhdlərindən, barəsində isə mərkəzi mətbuatda hay-küy qaldırılmasından yazır. Sonralar tanınmış Rusiya jurnalisti Antonina Qalayeva yenidənqurma hərc-mərcliyini yada salaraq yazacaq:

"Heydər Əliyevi siyasətdən uzaqlaşdırdılar – respublikanı qan, iğtişaşlar, səfalət bürüdü. Vətəndaşların gözləri qarşısında bir saatlıq xəlifələrin – paxıl, bu səbəbdən də Spinozanın dediyi kimi, özözlərini alçaltmış insanların kaleydoskopu bir-birini əvəz edirdi. Əfsanəvi liderin səyləri nəticəsində Azərbaycanın çiçəklənən güclü iqtisadiyyatı bu müvəqqəti adamlar tərəfindən dağılmağa, respublikanın özü isə məhvə məhkum olundu.

Cəlal Əliyeviçi elmdən ayırdılar, elmi işlər dayandı, əməkdaşlar işsiz qaldılar. Dağıtmaq – yaratmaq deyil. Kollektiv beyin, necə deyərlər, zərrə-zərrə, illərlə yığılmışdı, hərtərəfli hazırlığa malik mütəxəssislər, istedadlı, əsil elm cəngavərləri olan insanlar işə olan sonsuz sədaqət zəminində həmfikirlər komandası yaratmışdılar. Dağılmasına isə çox vaxt tələb olunmadı. Elmi liderin təqibə məruz qaldığı dövrdə Botanika İnstitutunun 60 əməkdaşı bir göz qırpımında iş yerini itirdi. Unikal seleksiya kompleks-fitotronu bağlandı, eksperimentlər pozuldu. Gözəl təhsil görmüş cavanlar xarici laboratoriyalara dağılışdılar. Perspektiv təhqiqatlara elə güclü zərbə vurulmuşdu ki, institutun alimləri hələ uzun müddət özlərinə gəlməli, zamanın əlaqəsini bərpa etməli olacaqdılar"[33].

Əliyevlər ailəsi üçün o çətin illəri akademik Həsən Əliyevin oğlu Rasim Əliyev belə xatırlayır:

"Atam hələ sağ idi. Təbii ki, o da repressiyalara məruz qalmışdı. Təkcə məni, atamı yox, bizim hamımızı işdən çıxartdılar. Hətta mənim İncəsənət İnstitutunun aspiranturasında oxuyan oğlum Comərdi də. İndi mənim əlimi sıxan həmkarlarım tələb etdilər ki, o, ərizə yazıb getsin. Bu gün sağ olan xadimlərdən biri gəlinimizi çağırıb demişdi: "Bilirsiniz, sizin soyadınız münasib deyil. Ərizə yazın, çıxın gedin".

Bütün bu işlərdən yaman hiddətlənmiş atam dedi ki, Moskvaya yazmaq lazımdır. Cəlal Əliyeviç də atamın yanına gəlirdi, sən demə o da rəhmətlik həyat yoldaşı ilə birlikdə Moskvaya etiraz məktubları yazırlarmış. Ancaq atam artıq tamam xəstə idi, qələmi əlində tuta bilmirdi, o diktə elədi, mən də yazdım. Sov.İKP MK-ya, SSRİ Nazirlər Sovetinə, SSRİ Ali Sovetinə, ayrıca Qorbaçova, Rıjkova, Qromıkoya, "Pravda", "İzvestiya", "Krasnaya Zvezda" qəzetlərinə, SSRİ DTK-sına yazdıq. Atam yazırdı: "Mən qardaşımla fəxr etmişəm və edəcəyəm də, çünki o, həmişə dövlətə sədaqətli olmuşdur və bilirəm ki, öz xalqına nə qədər xeyir gətirə bilər. Bu belə də olacaqdır!". Biz onun təmiz adı uğrunda mübarizə aparırdıq".

İvan Laptevlə söhbətdən:

" – Heydər Əliyev Bakıya qayıdana qədər, olduqca xoşagəlməz hadisələr baş vermişdi. Mərkəzi KİV-lərdə – "Literaturnaya qazeta", "Moskovskie novosti", "Pravda" qəzetlərində böhtan dolu məqalələr dərc olundu. Mənə danışıblar ki, Qorbaçov mətbuat nümayəndələrilə görüşlərində tez-tez təxminən belə bir ifadə işlədirmiş: "Çoxdandır Əliyev haqqında material yoxdur". Olub belə şey?

– Yox, belə şey olmayıb. Məqalələrin təşkili – bu aydındır. Lakin bu görüşlərdə – mən isə onların hamısında iştirak etmişəm, bundan əlavə MK Katibliyinin bütün iclaslarına getmişəm, hərdən Siyasi Büroda da olmuşam – bu cür sözlər səslənməyib.

Belə sözlər təkbətək söhbətlərdə deyilə bilərdi. Ancaq belə gizli tapşırıqlar olsaydı, onlar ilk növbədə mənə çatmalı idi. Mənə isə heç vaxt işarə də vurmamışdılar.

Yəqin ki, vəzifəsi bir qədər aşağı olan adamlar tapılmışdı, bəlkə də hansısa köməkçi öz şefinin bir-iki kəlməsini eşidib bunun davamını təşkil etmişdi, bəlkə də bu elə jurnalistlərin öz işi idi. Axı onlar kimisə qaralayanda, kifayət qədər prinsipsiz hərəkət edə bilərlər.

Əliyevin əleyhinə məqalələr ortalığa çıxanda, o, mənə zəng vurdu, dedi ki, cavab yazmaq istəyir.

– Axı bunların heç biri olmayıb. Siz məni tanıyırsınız, təsəvvür edə bilirsinizmi ki, mən bu motivlərə əsaslanmışam və bu cür hərəkət etmişəm?

– Xeyr, Heydər Əliyeviç, edə bilmirəm.

– Bəs nə etməli? Mən "Literaturnaya qazeta"ya, digər orqanlara yazmaq istəyirəm. "Pravda"ya yazacağam...

– Heç vəchlə lazım deyil, Heydər Əliyeviç! Sizin hər sözünüz dəyişdirilib əleyhinizə istifadə olunacaq. Burada heç bir həqiqəti də axtarıb tapa bilməyəcəksiniz. Başa düşürəm, sizinçün çətindir, ancaq dözün, özünüzü elə aparın ki, bunun sizə aidiyyəti yoxdur.

– Axı bunu necə edə bilərəm?

– Əgər indi çıxış etsəniz, nəticəsi özünüzə qarşı kampaniya olacaq. Siz yazanları çap etməyəcəklər. Məktubunuzdan yalnız bir-iki yeri verəcəklər, sonra isə sizdə salamat yer qoymayacaqlar.

O, məni dinlədi, ancaq hadisələrin sonrakı inkişafından xəbərim yoxdur.

– Axı bu necə aşkarlıq olur? Ölkənin keçmiş rəhbərinin, keçmiş Siyasi Büro üzvünün üstünə kompromat dolu çirkab axıdırlar, cavab verməsinə isə imkan yaratmırlar?

– Aşkarlıq axı yarımçıq idi. Bir səviyyəyə aid idi, digərinə isə yox. Əgər biz Siyasi Büro iclaslarının necə keçməsini, qərarların necə qəbul edilməsini bilmiriksə, hansı aşkarlıqdan söhbət gedə bilər? Haradadır o sənədlər? Siyasi Büronun stenoqramlarına necə düzəlişlər aparıldığından xəbəriniz var? İclas gedəndə zalda stenoqrafçı əyləşir, üstəlik hər şey iki diktofona da yazılır. Sonra isə iki saatlıq müzakirədən dörd sətir saxlayırlar. "Siyasi Büro filan qərarı yekdilliklə qəbul etdi. Bütün çıxış edənlər..." Əslində isə onlar iclasda öz aralarında dalaşa da bilərdilər.

Ona görə də heç bir aşkarlıqdan söhbət ola bilməzdi, çünki bizdə aşkarlıq da "buyuruq qulu" idi".

Aleksandr Yakovlevlə söhbət əsnasında mən ondan Əliyev əleyhinə məqalələrə kimin komandası ilə və nə üçün rəvac verildiyini, həmçinin Şalnazarovun Qorbaçova dediyi "Qazırıq, axtarırıq. Rəşidovunkundan betər iş olacaq" ifadəsinin mənası barədə soruşdum. Aleksandr Nikolayeviç başını yellədib cavab verdi: "Təsəvvürüm belə yoxdur". Vəssalam.

Lakin mən əminəm ki, onun dedikləri səmimiyyətdən uzaqdır. Çünki o vaxtlar, bunu artıq qeyd etmişik, ideoloji sahə Liqaçovla Yakovlev arasında bölünmüşdü. Qəzet və jurnal redaktorları "mənəvi ata"nı qeyri-ortodoksal materiallarla, xüsusən partiya elitası nümayəndələrinin ünvanına olan tənqidi yazılarla mütləq tanış edirdilər.

Əliyevin əleyhinə ilk səs-küylü məqalələrdən birini 1988-ci ilin sentyabrında, o vaxt SSRİ-də, yəqin ki, ən populyar olan həftəlik "Literaturnaya qazeta" dərc etdi. Arkadi Vaksberqin "Gurultulu alqışlar" oçerkində gözdən salınmış eks-prokuror Qamboy Məmmədovun əhvalatından, Azərbaycan Ali Sovetinin doqquzuncu sessiyasında onun qalmaqallı çıxışından və "gəmidə qiyamın"* nəticələrindən danışılırdı. Sözgəlişi A.Vaksberq guya H.Əliyevin müharibə ərəfəsində Sənaye İnstitutunu atması, vərəm xəstəliyinə tutulması haqqında arayış alması, müharibədən sonra isə həmin instituta Böyük Vətən müharibəsində iştirakı barədə arayış təqdim edərək bərpa olunması, lakin oxumadan Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin üçüncü kursuna dəyişilməsi barədə köhnə bayatıları təkrar edir. Romanın birinci kitabında bu böhtanları ətraflı və mənə elə gəlir ki, kifayət qədər inandırıcı surətdə təkzib etmişəm. Ona görə də A.Vaksberq tərəfindən uydurulmuş qalaq-qalaq yalanların üzərində dayanmağı artıq sayıram. Məni bir şey hiddətləndirir: təcrübəli jurnalist öz məqaləsində riyakarcasına iddia edir ki, cəmiyyət indi başqa vaxtda, yenidənqurma dövründə yaşayır, bu

* Q.Məmmədovun əhvalatı haqqında romanın ikinci hissəsində "Qoy ədalət zəfər çalsın!" fəslində ətraflı yazmışıq.

gün hər kəsin rəsmi, hamı tərəfindən qəbul edilmiş fikirlə üst-üstə düşməyən şəxsi fikirlərini açıq şəkildə bildirmək ixtiyarı vardır. "Bu azadlığa, hansı bəhanə ilə olur-olsun, qəsd etmək mümkündürmü? – deyə, jurnalist çılğınlıqla sual edir. – Qəsd etməklə biz demokratiyanı öyrənə bilməyəcəyik. Sonu görünməyən bu "ancaq", "bununla belə", "hər halda"larla onu buxovlayacağıq..."

Buna baxmayaraq, Heydər Əliyev redaksiyaya şəxsən təkzib gətirib dərc olunmasını tələb edəndə, ona heç qulaq da asmadılar. Sözün hərfi mənasında. Həm baş redaktor, həm onun müavini H.Əliyevi qəbul etmədilər. Bunları onun-bunun sözü ilə danışmıram, çünki iki ildən sonra məni həmin o "Litqazeta"ya Azərbaycan üzrə xüsusi müxbir götürmüşdülər. Xatırlayıram, qəzetin baş redaktoru Arkadi Udaltsov mənə danışırdı ki, gözdən salınmış keçmiş Siyasi Büro üzvü ilə görüşməyə utanıb (o illər Arkadi Petroviç baş redaktorun müavini işləyirmiş), çünki onun Əliyevə deməyə sözü yox imiş. Ona görə də katibəsinə tapşırıb ki, nəsə fikirləşsin, qəbul otağında oturan Əliyevə bir təhər başa salsın ki, onu bu gün (sabah, birigün) qəbul edə bilməyəcək.

Sabir Hüseynovun danışdığından:

"Mənə yaxın olan qəzet redaktorlarından biri xəbər verdi ki, Arkadi Vaksberqin "Literaturnaya qazeta"nın sabahkı nömrəsində çıxacaq "Gurultulu alqışlar" məqaləsi yığılmış səhifəsinin siqnal nüsxəsini almışdır. Xahiş etdim ki, onu mənə göndərsin. Heydər Əliyevə qarşı qəzəbli, təhqiramiz, əsassız hücumlara biganə qala bilməzdim. Məqalə haqqında ona deməyə bilməzdim.

Onunla əlaqə yaradandan sonra xahiş etdi ki, məqaləni oxuyum.

Mən oxumağa başladım.

– Sən ki, bilirsən, bu belə deyil, – deyə arabir hirsli halda sözümü kəsirdi.

– Mən bilirəm, Heydər Əliyeviç, ancaq bunları mən yazmıram axı .

– Yaxşı. Təkzib yaz və onu da götürüb cəld mənim yanıma gəl.

Elə də etdim. Heydər Əliyev yazdıqlarımı əsaslı surətdə redaktə etdi və baş redaktora zəng vurub hazırladığı təkzibin çap olunmasını istədi. Redaktor dedi ki, bunu məsləhət görmür, çünki onun

təkzibi arzuolunmaz zəncirvarı reaksiya doğurar və qalmaqala çevrilər (?!)... Onda Heydər Əliyeviç Qorbaçovun nömrəsini yığdı. Köməkçi dedi ki, Baş katib məşğuldur və onunla danışa bilməyəcək.

– Belə olan halda ona çatdırın: mərkəzi qəzetlərdə məni bağışlanmaz günahlarda ittiham edən məqalələrin dərc olunması ilə əlaqədar xahiş edirəm, Baş prokurora bu faktlarla bağlı cinayət işinin açılması və qərəzsiz təhqiqat aparılması tapşırılsın. Və nəticəsindən asılı olaraq qərar qəbul edilsin...

Heç kim cinayət işi qaldırmadı. Lakin ləkə yaxmaq məzmunlu məqalələrin sayı xeyli azaldı".

H.Əliyevin özü A.Karaulova müsahibəsində həmin o ağır dövrü belə xatırlayırdı:

"...Uzun müddət hesab edirdim ki, gərək bu məqalələrin səviyyəsinə enməyəm. Məni ölkədə, partiyada tanıyırlar, böyüyüb başa çatdığım respublikada yaxşı tanıyırlar, belə məqalələrlə haqqımda yaranmış fikri dəyişmək olmaz. Ona görə də reaksiya vermirdim. Düzdür, "Literaturnaya qazeta"da çıxan məqaləyə cavab yazdım, telefonla o vaxt baş redaktor olan Çakovski ilə, onun müavini ilə danışdım. Onlar cavabımı dərc etməyə söz verdilər. Lakin yerinə yetirmədilər. Məktubun surətini Sov.İKP MK-ya, Baş katib Qorbaçovun adına göndərdim.

– Oxudu?

– Köməkçisi mənə dedi ki, ona məruzə olunub. Bu məktubda mən "Literaturnaya qazeta"da cavab dərc etmək üçün kömək istəyirdim. Lakin Qorbaçov diqqət yetirmədi. Belə çıxır ki, demokratiya və aşkarlıq bir tərəfə yönəldilmişdi. Mən özüm üçün nəticə çıxarıb susurdum"[34].

Yenə həmin söhbətdən:

"...Burada yenə də böhtan atmağa başlayırlar. Məni ittiham edirlər ki, həyat yoldaşım əvvəlcə elmlər doktoru, sonra akademik olmuşdur, əsərləri çap edilmişdir. Mən sizdən soruşuram: niyə ömür boyu MK-nın aparatında işləyən və heç vaxt elmi işdə olmayan Baş katibin köməkçisi Şahnazarov SSRİ EA-nın müxbir üzvü olmuşdur? O, kitab yazmağa haradan vaxt tapır? Yaxud "Sovetskaya kultura"nın redaktoru Belyayev. Bu gün onun Plenumdakı çıxışını oxudum,

deyir: "Əliyevşina" və ya "gözəl" günlər üçün göz yaşları" məqaləsi bizi sarsıtdı. Mən axı Belyayevi yaxşı tanıyıram. O, 20 il MK-nın aparatında işləyib, dəfələrlə Azərbaycana gəlib, bizim tədbirlərdə iştirak edib, ayaq üstə məni alqışladığı nə qədər fotoşəkil var – nədir, o, Azərbaycandakı şəraiti bilmirdi?! Bəs niyə o, Sov.İKP MK mədəniyyət şöbəsi müdirinin müavini qismində SSRİ Yazıçılar İttifaqına kuratorluq edəndə və Brejnevin "Xam torpaq" kitabını tərifləyəndə sarsılmırdı?! Səmimilik yoxdur, düzgünlük yoxdur"[35].

Böhtan məqalələr yazan təkcə KİV nümayəndələri deyildi. Ən iyrənc də o idi ki, onun keçmiş əməkdaşlarını "ələ almağa", keçmiş başçını "30 gümüşə" satmağı təklif etməyə başlamışdılar.

"Bilirsiniz, o vaxt hamını hörmətdən salmaq dəbə düşmüşdü, – Aleksandr Qavrilov mənə danışırdı. – Mənə də bir neçə qəzetdən Əliyevin pis adam olması barədə yazmağı təklif edirdilər.

– Mən belə şey yaza bilmərəm, – deyirdim onlara. – Belə şey olmayıb.

Mən onun istəkli adamı deyildim, o, hamı kimi mənə də ciddi münasibət bəsləyirdi. Ancaq deyə bilmərəm ki, mənə qarşı haqsızlıq edib, haradasa insani münasibət göstərməyib. Ona görə də mən nəsə neqativ bir şey yazmaqdan boyun qaçırdım. Əslində onun barəsində nəsə mənfi bir şey də yox idi ki, deyəsən".

SSRİ Nazirlər Sovetinin keçmiş sədri Nikolay Rıjkov mənimlə söhbətində xatırlayırdı:

"Bilirsiniz, mənə nə qədər jurnalist yaxınlaşırdı, xüsusən də Əliyev yenidən qayıdan dövrdə? Dəstə-dəstə ardımca gəzirdilər.

– Əliyevlə bağlı?

– Bəli. Siz axı bilirsiniz, bizdə Əliyevin arxasınca daş atanlar az olmayıb. Mənim də yanıma gəlirdilər: "Nikolay İvanoviç, o sizin birinci müavininiz olub, danışın". Bu onun əleyhinə kampaniya başlayanda, 1988–1989-cu illərdə, elə bundan sonra da 1990-cı, 1991-ci illərdə idi.

– İstəyirdilər ki, onun əleyhinə çıxış edəsiniz?

– Mənə çox böyük təzyiq göstərilirdi. "O adamın sizinlə necə işlədiyindən danışın". Mən hamıya deyirdim: "Mənim yanıma nahaq gəlmisiniz, bilirəm sizə nə lazımdır. Ancaq məndən bunu gör-

məyəcəksiniz. Bilirəm ki, Əliyev haqqında neqativ toplamaq istəyirsiniz, onu lağa qoymaq istəyirsiniz. Sizi məyus etməli olacağam: bizim bir yerdə işlədiyimiz illərdə mən bu insan haqqında müsbət fikirdən başqa heç bir söz deyə bilmərəm. Əliyev çox gözəl işləyirdi".

Sonralar SSRİ DTK-sının keçmiş rəhbərlərindən biri Filip Bobkov Andrey Karaulova müsahibəsində deyəcək:

"Başa düşürsünüz, Əliyev haqqında çox məqalə var idi, lakin qanun mövqeyindən baxanda ki, onu nədə müqəssir saymaq olar, görürdük DTK-da heç bir sübut yoxdur. Azərbaycanda çox adam (o cümlədən, DTK əməkdaşı) deyir: Əliyev belədir, Əliyev elədir, Əliyev rüşvət alırdı, bütün respublikanı korlayıb. Mən cavab verirəm: yaxşı, Əliyevin rüşvət alması barədə hər hansı bir sənəd göstərin. Əgər deyirsinizsə, deməli, bilirsiniz? Hə, hanı sübutlar? Verin! Hamı danışır, amma bir dənə də olsun sübut yoxdur"[36].

"Literaturnaya qazeta"dan sonra "Sosialistiçeskaya industriya", "Moskovskiye novosti", "Selskaya jizn" qəzetlərində məkrli materiallar çıxdı. Ancaq ən böyüyü – həm həcminə, həm də saxtalaşdırma və təhqiramizliyinə görə əsas partiya qəzetindəki məqalə oldu. "Pravda"da "Əliyevşina" və ya "gözəl" günlər üçün göz yaşları" adlı material 1990-cı il fevralın 4-də, Heydər Əliyevin Moskvadakı Azərbaycan nümayəndəliyinə gəlib Bakıdakı qanlı təcavüz aktını kəskin tənqid edəndən (bu barədə kitabın növbəti fəslində) iki həftə sonra çap olundu.

Məqalədə hər hansı yeni "ifşaedici" fakt yox idi: sadəcə bundan əvvəl Əliyevin əleyhinə çap edilmiş həcvləri və anonim məktubları toplayıb onlardan iyrənc "xülasə" düzəltmişdilər. H.Əliyevi bir daha klançılıqda, qohumbazlıqda, "pripiska"larda, Abşeronda bağ təsərrüfatının inkişafına qadağa qoymaqda və s. ittiham edirdilər. Yenə də Əliyevin qardaşlarına, xüsusən də Cəlal Əliyevə zərbələr dəydi. Cəlal müəllim mənə danışırdı ki, o, hiddətlənərək DTK sədri Vaqif Hüseynovun qəbuluna düşməyə nail olanda, sonuncu ağzından qaçırıb ki, məqalə "Pravda"da bir il (!) "yatıbmış". O vaxt məqalənin çapını saxlayıblar, ancaq Heydər Əliyev ölkə rəhbərliyi üçün təhlükəli olan siyasi fəallıq göstərəndə onu "daşdankeçən" saxta materialla "ram etmək" qərarına gəliblər.

Xoşbəxtlikdən H.Əliyevə sadiq olan həmyerliləri, ilk növbədə kiçik qardaşı Cəlal müəllim saxtakarlığın mexanizmini müəyyən edə bildilər və qəzetin səhifələrində təkzib verilməsinə nail oldular. Məqalənin altında imza var idi: V.Əfəndiyev. Cəlal Əliyev yaxın adamlarının köməkliyi ilə müəyyən edə bildi ki, Əfəndiyev həkimdir, bir müddət Moskvada yaşayıb, orada doktorluq dissertasiyası müdafiə edib. Sonra qayıdıb Bakıya. Belə görünür ki, narazı imiş, hesab edirmiş ki, daha böyük vəzifələrə layiqdir. Əvvəlcə akademik C.Əliyev düşündü ki, Əfəndiyev yuxarı instansiyaların "hörmət edəcəyinə" ümid bəsləyərək tamah məqsədilə yalan dolu məqalə yazmağa razılaşmış adi böhtançıdır. Lakin həqiqət daha dəhşətli oldu. Əfəndiyev bu məqaləni... ümumiyyətlə, yazmamışdı. Daha doğrusu o, "Pravda"ya respublikanın tibb və səhiyyə sahəsinin durumuna dair tənqidi fikirlər yer almış material göndərmişdi. Lakin bir ildən sonra qəzetdə işıq üzü görən material orijinaldan çox uzaq idi.

Cəlal müəllim bütün bunları məqalənin çıxdığı günün ertəsi axtarıb tapdığı doktor Əfəndiyevin öz dilindən eşitdi. Onun razılığını alan akademik Əliyev fəaliyyətə başladı. İlk növbədə o, V.Əfəndiyevdən öz əli ilə təkzib yazmağı xahiş etdi. V.Əfəndiyev razılıqla aşağıdakı məzmunda bir neçə sətir yazdı:

"4 fevral 1990-cı il tarixli "Pravda" qəzetində imzamla dərc olunmuş "Əliyevşina və ya "gözəl" günlər üçün göz yaşları" adlı məqalə heç vaxt mənim tərəfimdən imzalanmayan uydurma və böhtandır. Bu fitnəkarlığa və ailəmin taleyinə görə narahatlıq keçirirəm. Məni bir həkim kimi həmişə respublikamızda səhiyyənin vəziyyəti narahat etmişdir. Tibb elmləri doktoru V.Əfəndiyev. 05.02.90".

C.Əliyev və onun könüllü köməkçiləri tərəfindən xeyli sayda belə təkzib ən müxtəlif ünvanlara göndərildi: Azərbaycan KP MK-ya və Sov.İKP MK-ya, SSRİ Ali Sovetinə, "Pravda" qəzetinin redaksiyasına və respublika kütləvi informasiya vasitələrinə.O vaxt Heydər Əliyevin yaşadığı Moskva, Aleksey Tolstoy küç., ev 15-ə də teleqram göndərdilər.

"Hörmətli Heydər Əliyeviç!

"Pravda" qəzetinin 4 fevral 1990-cı il tarixli nömrəsində mənim imzam ilə dərc olunmuş, sırf siyasi xarakter daşıyan və 1990-cı il

yanvarın axırlarında baş verən hadisələri əks etdirən məqalə mənə tanış deyil, mənim tərəfimdən yazılmamış və imzalanmamışdır. Orada mənim bir zamanlar səhiyyəyə, tibb kadrlarının hazırlanmasına və durğunluq dövründə ölkənin sosial-iqtisadi vəziyyətinə dair səsləndirdiyim mülahizələrimdən istifadə olunmuşdur.

Hörmətlə,

Tibb elmləri doktoru
V.M.Əfəndiyev".

Teleqram göndərilən zaman poçtda maraqlı hadisə baş vermişdi. E.Əfəndiyev onu tanıyanların qəzəbindən çəkinərək xeyli vaxt şəhərin küçələrinə çıxmağa ürək etmirdi. O, pasportunu Cəlal Əliyevə vermişdi, o da öz növbəsində sənədi şöbənin elmi katibi Ramiz Babayevə təqdim edib, Əfəndiyevin hazırladığı teleqramları poçtamtdan göndərməyi xahiş etmişdi. Teleqrafçı qız pasportu götürüb uzun-uzadı şəklə baxır, sonra baxışlarını elmi katibin üzünə dikib soruşur: "Bığlarınız hanı?". R.Babayev başa düşür ki, qız onu Əfəndiyevə oxşadıb. O, başıbəlalı eskulapa həqiqətən oxşayırdı. Alim özünü itirməyib deyir: "Mən bığlarımı dünən qırxdım ki, tanıyan olmasın". Qız gülümsəyir: "Düz də eləmisiniz. Yoxsa camaat sizi bu məqaləyə görə didib-dağıdardı".

Bir sözlə, akademik Əliyev və onun həmfikirləri elə hay-küy qaldırdılar ki, əvvəlcə respublika qəzetləri V.Əfəndiyevin şərhini verdilər, sonra "Pravda"nın" şöbə müdirinin müavini Q.Ovçarenko vəziyyəti yerində araşdırmaq üçün Bakıya gəldi. Əfəndiyev moskvalı qonağa saxtalaşdırma barədə tutarlı sübutlar təqdim etdi, hətta öz əli ilə redaksiyaya ətraflı məktub yazdı. Həmin yazı mətbuatın o zaman əyalətdən gələn məktublara necə saymazyana yanaşdığını, onlardan çirkin siyasi məqsədlər üçün bir alət kimi istifadə etdiyini əyani şəkildə göstərir. Nəticədə qəzetin rəhbərliyi qeyri-adi addım atmaq məcburiyyətində qaldı: Sovet İttifaqının ən qocaman partiya qəzetinin tarixində ilk dəfə olaraq öz səhifəsində öz məqaləsinə təkzib dərc olundu*.

* Bu barədə daha ətraflı bax: C.Əliyev. "Elm həqiqətdir". Bakı, 1999. S. 216-230.

H.Əliyevin A.Karaulova müsahibəsindən:

"...Məni yenidənqurmaya qarşı klan yaratmaqda günahlandırırlar. Zəhmət olmasa deyin, hansı klanı? Yoxdur axı. Bu axı ümumi mülahizələrdir. Birincisi, heç yerdə yazılmayıb ki, kimsə klan yaratmaqda ittiham edilməlidir. İkincisi isə, bu klan yoxdur. Bu uydurmadır. Zəhmət olmasa deyin görək bu klan kimdən ibarətdir? Yazırlar ki, Naxçıvanda adamlar nümayişdə mənim portretlərimi aparıblar; mən Siyasi Büronun üzvü olanda bu mümkün idi, Siyasi Büronun üzvlərinin portretləri Moskvada çap olunurdu və ölkənin hər yerinə göndərilirdi. Deməli, qorunub saxlanılıb. Ancaq bu, şəxsiyyətə pərəstiş deyil. Mən onların yerlisiyəm, orada böyüyüb başa çatmışam. Mən bu kiçik diyardan çıxmışam və necə deyərlər, böyük siyasi vəzifələrə yüksəlmişəm. "Prada"nın yazdığı kimi onlar "Əliyevi bizə qaytarın!", qışqırırlarmış. Niyə belə qışqırdıqlarını onlardan soruşmaq lazımdır. Mənim günahım nədir? Deməli, burada heç nə yoxdur. Sonra oxuyuram: "Azərbaycan çoxmillətli respublikadır, ancaq Əliyevin şahlığı illərində..." (fikir verin, necə təhqiramiz ifadələrdir, əgər insanlıq etikası çatışmırsa, heç olmasa jurnalist etikası olmalıdır axı) – bəli, guya heç bir rəhbər vəzifəyə "nə talış, nə ləzgi, nə kürd, nə tat təyin edilməmişdir". Bu elə axmaqlıqdır ki, heç bilmirəm nə deyim. Onların hamısı rəhbər vəzifələrdə olmuşdu. Götürün Ali Sovetin tərkibini, orada talış da, ləzgi də, kürd də var... "Pravda"da Azərbaycanı parçalamağa cəhd göstərilir. Yəni, bu naxçıvanlılardır, bu da yerdə qalanlar. Və bu, bütün xalqımızın birləşərək öz suverenliyi uğrunda mübarizə apardığı bir vaxtda yazılır. Onu isə, görürsünüz, regionlara parçalamaq istəyirlər. Bəlkə bu siyasətdir? Hər şey buna yönəlmişdir? Mən bilmirəm. Sadəcə olaraq, bilmirəm. Lakin yaxşı başa düşürəm ki, heç bir tibb elmləri doktoru özü bir məqalə üçün bu qədər material toplaya bilməzdi. Hesab edirəm ki, bu məqaləni təkcə "Pravda"nın redaksiyası hazırlamayıb, burada yuxarıda duran qüvvələr də iştirak etmişlər. Mənim üçün bu aydındır"[7].

Qorbaçov "aşkarlığı" illərində Siyasi Büro üzvləri içərisində obstruksiyaya məruz qalan təkcə H.Əliyev deyildi. Məsələn, Moskva partiya təşkilatının keçmiş rəhbəri Viktor Qrişin də belə hücumların "qurbanı" olmuşdu. O öz kitabında bunu xatırlayır:

"1986–1989-cu illərdə qəzetlərdə, jurnallarda, televiziyada mənim şəhər partiya komitəsində işimlə əlaqədar bir qayda olaraq uydurulmuş və ya təhrif edilmiş "faktlar"a dair digər materiallar da gedirdi. Mən bir çox belə çıxışlarla bağlı redaksiyalara məktublar göndərirdim. Məktublarımı ya çap etmir, ya da elə verirdilər ki, əvvəlki məqalələrdə yazılanlar təsdiqini tapsın.

1987-ci ilin əvvəlində Qorbaçova məktub yazıb, xahiş etdim ki, məni bəzi qəzet, jurnal, televiziyanın... haqsız və təhqiramiz çıxışlarından qorusun... Məktubuma cavab almadım. Məqalə və çıxışlarda tənqidi hücumlar davam edirdi... Kinorejissor Klimovun "Aqoniya" filmi haqqında dedikləri, guya mən R.Medvedevin Stalinə pərəstiş haqqında kitabını qadağan etmişəm, Mitişi bədii tökmə zavodunda öz büstümün düzəldilməsini tələsdirmişəm, sonradan oğurluq üstündə tutulmuş Moskva ticarət işçilərinin irəli çəkilməsində iştirakım olub, memarlıq abidələrinin keyfiyyətinin aşağı olmasına, Moskvadakı tikinti və abadlaşdırma işlərindəki nöqsanlara görə məsuliyyət daşıyıram və s. bu kimi fikirlər yenidən təkrarlanırdı. Bütün bu cızma-qaralardan məqsəd şəhər partiya komitəsindəki işimi ləkələmək, əhali arasında mənim barəmdə, o vaxtkı şəhər partiya komitəsi barəsində mənfi fikir yaratmaq idi"[38].

Söz yox, hər adamın işində çatışmazlıq olur. Ancaq Viktor Qrişinin paytaxt meqapolisinin ən nüfuzlu, enerjili və prinsipial rəhbərlərindən biri olmasını onun müasirlərinin çoxu təsdiq edir.

"Demokratik" mətbuat tərəfindən Leonid İliçin özü də daxil olmaqla onun bütün silahdaşlarına "daş atıldı". Həftəlik "Nedelya" qəzeti (iyul, 1988-ci il) jurnalist Y.Dodolevin "Vərəsəciklər" adlı məqaləsini dərc etdi. Orada A.Kirilenkonun həyatından sensasiyalı "faktlar" verilmişdi (guya o, "bütün qanunlardan kənar" yaşayır, Afrika ölkələrindən birində "dəbdəbəli safarilər" (?!) təşkil edir, bu əyləncəyə qiymətli valyuta xərcləyir). "Moskovskaya pravda" qəzetində dərc olunmuş "Durğunluq dövrü çağlarının ailə xronikası" məqaləsində isə (dekabr, 1988-ci il) hansısa anonim informatora istinadla deyilirdi ki, guya Brejnev işdən bağına gedərkən yolda onu müşayiət edən mühafizəçilərinə araq içirtməkdən ləzzət alırmış.

Ümumiyyətlə, bədnam aşkarlıq həqiqətən bir qapıya yönəlmiş oyun idi. Nina Andreyevanın başına gələnlər bunu çox gözəl sübut

eləyir. Qorbaçov və komandası bütün "itlərini" onun üstünə qısqırdıb adi leninqradlı qadının adını "yenidənqurma və demokratiya" düşmənlərinin mənfur rəmzinə çevirdilər.

Y.Liqaçovun sözlərinə görə, yenidənqurma illərində bu yeganə hal idi ki, Siyasi Büronun iclasında mətbuatda dərc olunan məqalə müzakirə edilirdi. Özü də o vaxtlar kütləvi informasiya vasitələrində qatı antisovet, antisosialist məqalələr az çap olunmurdu. Lakin onlardan heç biri Yakovlev, Medvedev və Qorbaçovun özü tərəfindən heç bir reaksiya doğurmurdu – bəs necə: aşkarlıqdır, fikir plüralizmidir! Ancaq sosializm ideallarının müdafiəsi ilə əlaqədar məqalə ortaya çıxan kimi – qoy lap həddini aşmaqla olsun – onun əleyhinə mətbuatda əsil tufan qoparıldı. "Andreyevanın məqaləsini müzakirə etmirdilər, tənqid etmirdilər, əks halda bu normal hal olardı – onu edam edirdilər, didib-dağıdırdılar, ondan vahiməli "manifest" düzəltdilər, sonra isə dağıdıcı radikal antisovet ideyasına qarşı çıxanlarla mübarizədə istifadə etdilər. Ümumiyyətlə, Nina Andreyevanın məktubunun dərci ilə bağlı əhvalat bütün cəmiyyətimiz üçün mühüm olan bir aspektlə bağlıdır... Bu hadisə göstərdi ki, "gözəl" şüarlarla pərdələnmiş sağ radikallar demokratiyanı hər vasitə ilə boğmağa, hətta ən totalitar, antidemokratik metodlardan istifadə etməyə hazırdırlar"[39].

Nina Andreyevanın "Sovetskaya Rossiya" qəzetində məqaləsi 1988-ci il martın 13-də dərc olunmuşdu. Martın 23-də məqaləni Siyasi Büroda müzakirə etdilər, özü də Baş katib ona nail oldu ki, iclas iştirakçılarının hər biri bu və ya digər şəkildə heç kimin tanımadığı Nina Andreyevanın məqaləsindəki müddəalardan xəbərsiz olduğunu bildirdi. Elə o vaxt da A.Yakovlevə tapşırıldı ki, MK aparatının qüvvələrini cəlb etməklə "Sovetskaya Rossiya"nın çıxışına rəsmi cavab hazırlasın və təsdiq üçün Siyasi Büroya təqdim etsin.

V.Leqostayev öz kitabında yazır: "N.A.Andreyevanın ideya mövqelərindən asılı olmayaraq, etiraf etmək lazımdır ki, onun dövlət səviyyəsində düşünülmüş siyasi təqibi, Qorbaçov demokratikləşdirməsinin ən şərəfsiz səhifələrindən oldu. Şahidiyəm, MK aparatında Nina Andreyevanın adı ətrafındakı təbliğat sadizminin tüğyan etməsi ilə bağlı dəfələrlə fikir söylənmişdi ki, partiyanın rəhbərliyi bütün bunlardan kənarda qalmalı, eyni zamanda zərurət yaranar-

sa "Sovetskaya Rossiya"dakı məqalənin tezisləri ilə razılaşmadığını bildirməlidir. Bir dəfə mən şəxsən A.N.Yakovlevə bu təklifi çatdırdım. O, dinməz-söyləməz qulaq asdı, gülümsündü və heç bir cavab vermədi...

N.A.Andreyevaya qarşı təbliğat müharibəsi ilə yenidənqurma siyasi motivlərə görə konkret şəxsin təqib olunmasında dövlətin bütün mətbuat və digər dövlət təbliğat nəhənglərini eyni vaxtda əlaqəli şəkildə tətbiq etmək sahəsində ilkin təcrübə qazandı. Nina Andreyeva hadisəsi son onilliklərdə plüralizm əleyhdarları siyahısına düşən bütün zavallıları damğalamaq üçün canlı insan adını qara siyasi yarlığa çevirməyin ilk nümunəsidir.

Əvvəllər cəmiyyətin aşkarlıq və yeniləşmə ilə bağlı ən ülvi arzularının güman yeri olan mətbuat əldə etdiyi təcrübə nəticəsində yenidənqurma inqilabının edam yerinə çevrildi"[40].

Süleyman Tatlıyevlə söhbətdən:

"Sovet dövründə, əgər adamı işdən çıxarırdılarsa, açıq tənqid edirdilərsə, onun ətrafında bir boşluq yaranırdı. Sonralar Heydər Əliyev də bunu öz üzərində hiss etdi. 1988-ci ilin noyabrında Moskvada növbəti sessiya keçirildiyi vaxt Heydər Əliyev vəzifədən çıxarılmışdı, lakin SSRİ AS deputatlığında qalırdı. Yeri gəlmişkən, orada çox tənqidi çıxış etdim. O vaxt mən Azərbaycan AS Rəyasət Heyətinin sədri, SSRİ AS sədrinin müavini idim, bilirdim ki, bir azdan məni vəzifədən getməyə məcbur edəcəklər, çalışırdım ki, nə qədər imkan var, xalqımın səsini və tələblərini ümumittifaq ictimaiyyətinə çatdırım. Qaydaya görə çıxışın mətnini MK-nın birinci katibinə göstərməli idim. Mətni Vəzirova verdim, o, ən kəskin yerləri pozdu. Ancaq mən onları bərpa etdim, Bakıda keçən mitinqlərdən, orada qaldırılan tələblərdən danışdım. Heydər Əliyev zalda oturmuşdu. Fasilə elan olunanda onunla foyedə görüşdük. O, tamamilə tək dayanmışdı, bizim nümayəndə heyətindən heç kim ona yaxınlaşmırdı. Yanına gəldim, bir az söhbət etdik, məni tərifladı ki, bəs, yaxşı çıxış eladin.

Mən mətbuat mərkəzi rəhbərinin yanına gedib xahiş etdim ki, çıxışıma toxunmasınlar. Dedi ki, göstəriş var bütün çıxışlar tam verilsin. Arxayın oldum. Axşam məni MK-ya çağırdılar, təbliğat şöbəsinin müdiri dedi ki, çıxışı ixtisar etmək lazımdır. Dedim bu, mənim xalqımın tələbidir və sözlərimdən dönən deyiləm. O, məni Sov.İKP MK katibi Medvedevin yanına apardı, o da çox dilə tutub öyüd-nəsihət verdi. Son nəticədə mətn ixtisar olundu və "ütülənmiş" şəkildə çıxdı. Mən heç nə edə bilmədim, heç kimə heç nəyi sübut etmək mümkün olmadı. Bu da sizin üçün Qorbaçov aşkarlığı".

* * *

H.Əliyevin istefası və təqiblərə məruz qalması ilə bağlı hadisələr D.Kunayevin Qazaxıstan rəhbərliyindən kənarlaşdırılması tarixçəsinə çox oxşayır. Ancaq H.Əliyevdən fərqli olaraq qazax liderinin yanında həmin məqamda Oljas Süleymenov var idi. Bu, maraqlı və ibrətamiz əhvalatı, Oljas müəllim özü mənə danışıb. Aşağıda 2003-cü ildə onunla olan söhbətimizdən bir parçanı təqdim edirəm:

" – Bu sizin Heydər Əliyev hakimiyyətə qayıdandan sonra birinci görüşünüz idi. Siz onunla artıq başqa zamanda, başqa ölkədə görüşürdünüz. Əliyev gözünüzə necə dəydi? Çoxmu dəyişmişdi?

– Bu, o vaxt, Nizaminin yubileyində "Oljas, sən təkcə qazaxlara yox, bütün türklərə lazımsan" deyən elə həmin Əliyev idi. O dəyişməmiş, daha da mehriban olmuşdu. Biz qucaqlaşdıq, yaxşıca söhbət etdik. Və mənim yadıma onun istefadan sonra dediyi sözlər düşdü. Hələ o vaxt gəlib bizə çatmışdı: "Mənim Kunayev kimi öz Oljasım olmadı". O vaxt həqiqətən mən Kunayevin arxasında durdum.

– Həmin dramatik əhvalatı danışın. Bu barədə az adam eşidib.

– 1986-cı il dekabrın 16-da Qazaxıstan KP MK-nın plenumu oldu. Moskvadan Kolbini göndərdilər, onu seçdilər və bu, qəzəb dalğası doğurdu, əsil gənclər qiyamına səbəb oldu. Kunayevi çıxarıb təqaüdə göndərdilər. Halbuki, yanvarın 12-ni, 75 yaşının tamam olmasını gözləmək, bir orden də verib, onu ləyaqətlə yola salmaq, əvəzinə isə yerlilərdən kimisə seçmək olardı. Yox, tələsdilər, ordenə heyifləri gəldi.

Sonra onu da, məni də təqib etməyə başladılar. Hesab edirdilər ki, iğtişaşları biz hazırlamışıq. Yadımdadır, bizim "Kazaxstanskaya

pravda"da yazmışdılar: "Nə vaxta kimi Süleymenov Mərkəzi Komitəni oynadacaq?". Onda Kunayev mənə dedi:

– Oljas, çıx get Moskvaya. Bu, son xəbərdarlıqdır. Onlar ictimai rəy hazırlayırlar, bundan sonra səni həbs edəcəklər.

Mən Moskvaya getdim, Yulian Semyonovun evində yaşadım. Mən orada sadəcə gizlənməmişdim, mən orada iş görürdüm. Yulian Semyonovun yuxarılarda yaxşı əlaqələri var idi. SSRİ DTK-sında Filip Bobkov işləyirdi, çox ağıllı adam idi. Sov.İKP MK-da – Aleksandr Nikolayeviç Yakovlev. Biz Kunayevi müdafiə edə bildik. Axı o vaxt onu Rəşidovun gününə salmaq, bütün mükafatlarını əlindən almaq, ölkədə biabır etmək, cinayət işi qaldırmaq, büstünü götürmək istəyirdilər. Yulianla biz hər qarış mövqeyi müdafiə edirdik. O vaxt mən kimisə hədələdim:

– Siz şübhələnirsiniz, ancaq hələ əmin deyilsiniz ki, dekabr üsyanını Süleymenov qaldırmışdı, yoxsa yox. Bax, əgər büstü götürsələr, arxayın ola bilərsiniz ki, mən bunu edəcəyəm.

Büst yerində qaldı, elə indi də Almatıda, Kunayev bağçasındadır. Qısası, nə büstə, nə də onun özünə toxundular. Ancaq evində axtarışlar aparmışdılar. 1987-ci ilin iyulunda Sov.İKP MK-nın Plenumunda Kunayevi Siyasi Büronun tərkibindən çıxarırdılar. İdeologiya üzrə katibimiz çıxış edib dedi ki, dekabrın 17-də səhər saat dörddə Oljas Süleymenov Kunayevə zəng vurub demişdi: "Cavanlar hazırdır, biz çıxırıq".

Siyasi Büronun iclasından sonra Almatı aeroportunda Kunayevi qarşıladım. O, mənə bu fitnəkar çıxış barədə danışdı.

Mən dərhal Moskvaya, SSRİ Ali Sovetinin sessiyasına uçdum. Plenumdan sonra, adətən, həmin o Georgi zalında sessiya keçirilirdi. Sessiyaya qalmış bizim vilayət partiya komitələrinin birinci katiblərindən biri həmin adamın çıxışını təfərrüatı ilə danışdı. O da sessiyaya görə qalmışdı. Baxdım ki, bizə tərəf gəlir. Məni görüb qucaqladı. Geri çəkilib dedim:

– Georgi zalında mən, əlbəttə ki, sənin cavabını lazım olan kimi verə bilmirəm, özümə rəva bildiyim yalnız bir şey qalır – sənə əl uzatmamaq.

Bir müddət sonra Yulian Semyonov Almatıya zəng vurdu, mən onunla artıq danışmışdım ki, gizli mənzilə zəng vursun, çünki telefonum dinlənilirdi. O, gizlətmədən dedi:

– Dimaş Axmetıça de ki, (biz onu belə çağırırdıq, əsl adı Dinmühəmməd Əhmədoviç idi) bütün ittihamlar götürülüb.

Bu, artıq 1988-ci il idi.

Mən dedim:

– Yulian, sənin yadından çıxıb, onun adını açıq çəkirsən?

O isə dəstəyə çığırdı:

– Qoy bütün bu alçaqlar, əclaflar eşitsinlər. Eşidirsiniz məni? Kunayevə daha toxunmaq olmaz!

Kunayevin hələ bizim mart Plenumunda MK-nın tərkibindən çıxarılmağı yadımdadır, o, artıq Rəyasət Heyətində deyil, aşağıda, zalda əyləşmişdi. Mən çıxış edirdim, baxırdım ki, o, tək oturub, ətrafı isə bom-boşdur. Bütün MK üzvləri zalda əyləşiblər, ancaq heç biri onun yanında oturub "dilə-dişə" düşmək istəmir.

Dedim:

– Yoldaşlar, sizə nə olub? Vaxtilə o, sizin hər birinizə vəzifə verib, MK-ya irəli çəkib.

Axı hansısa insani normalara əməl etmək lazımdır. O, ortada oturub, ətrafda isə boşluqdur. Yanındakı iki, ya üç kresloda heç kim oturmamışdı. Birdən coşdum və sərt danışmağa başladım:

– Məndən Moskvada, digər respublikalarda xəbər alırlar: "Kimdir yoldaş Kolbin?" (O isə Rəyasət Heyətində əyləşib). Deyirəm, Kolbin idealistdir, yerli şəraitdən xəbəri olmayan adamdır və bizim od-alovda qayğanaq bişirmək istəyənlər bundan istifadə edirlər. İndi elə vaxtdır ki, əgər özünüzü əsil partiya əsgəri hesab edirsinizsə, gərək daha obyektiv olasınız.

Mənim çıxışımdan sonra plenum qərar çıxardı ki, Süleymenovun məsələsinə baxılsın, onun işi Partiya Nəzarəti Komitəsinə göndərilsin.

Bir sözlə, bütün Qazaxıstan bilir ki, Süleymenov Kunayevin yanından çəkilmədi. Əliyev də bunu bilirdi. Ona görə də Heydər Əliyeviçi Siyasi Bürodan çıxaranda o, yaxınlarından kiməsə demişdi: "Mənim Kunayev kimi öz Oljasım olmadı".

Mən Kunayevdən heç bir imtiyaz almamışam. Onunla tez-tez görüşürdüm, ancaq nə mənzil, nə ad xahiş edirdim – hamısını özüm müstəqil qazanırdım. Və bəlkə də buna görə o mənə bir çoxların-

dan fərqli yanaşırdı. Əgər yazıçı birinci katiblə görüşməyə can atırdısa, onun kabinetini tərk edəndə mütləq dimdiyində ya maşın açarı, kitab, fəxri ad, ya da laureatlıq çıxarırdı. Mən həmişə başqaları üçün ağız açırdım. O, hərdən məndən soruşurdu: "Bəlkə sənə kömək lazımdır?". İmtina edirdim. Ona görə də bizim münasibətlər lap əvvəldən başqa dəyərlər üzərində qurulmuşdu.

Sonra mən başa düşdüm ki, o gedir. Patriarxın payızı başlandı. Hamı da başa düşürdü ki, bu qaçılmazdır. Ancaq mən fəxr edirəm ki, onun etimadını doğrultdum, duruş gətirdim və son günlərinə qədər yanında oldum. O, 1993-cü ildə vəfat etdi. Səksən bir il ömür sürdü".

Bəli, Heydər Əliyevin arxasında belə nəhəng, belə mərd insan tapılmadı. Lakin o dövrdə hamının onu tərk etdiyini söyləmək düzgün olmazdı. Əliyevin uğrunda onun ailəsi mübarizə aparırdı – Bakıda və Moskvada. Respublikanın bir çox vicdanlı vətəndaşları mərkəzi və respublika mətbuatında dərc olunan böhtan dolu məqalələrə qarşı öz hiddətlərini yazılı ifadə edirdilər. Heydər Əliyevin təmiz adının qorunmasında ziyalılar – alimlər, yazıçılar, incəsənət xadimləri daha fəal idilər. Fikrət Qoca mənə danışmışdı ki, "Literaturnaya qazeta" ona tərcümə problemləri ilə bağlı məqalə sifariş vermişdi. Sonra isə "Literaturka"nın xüsusi müxbiri İ.Dadaşidze onun yanına gəlib demişdi ki, redaksiyanın xahişini nəzərə alıb məqalədə "əliyevçilik" sözünü işlətsin, həmçinin nüfuzdan salınmış Siyasi Büro üzvü haqqında bir-iki tənqidi cümlə yazsın. Fikrət müəllim qəzəblənmiş və bu əlavələrə qəti surətdə etiraz etmişdi. Ona redaksiyadan zəng çalıb təkid edəndə isə demişdi ki, məqalə onların istədikləri şəkildə çıxarsa, qəzeti məhkəməyə verəcək və məsələnin geniş əks-səda doğurması üçün əlindən gələni edəcəkdir. Yalnız bundan sonra redaksiya geri çəkilmiş, F.Qocanın məqaləsi düzəlişsiz dərc olunmuşdu. Sadə təbiətli Fikrət Qoca o illərdə ona və yazıçı həmkarlarına ənənəvi "qamçı və qoğal" metodundan istifadə etməklə müxtəlif psixoloji təzyiqlərin göstərilməsi barədə danışmır.

Bakıda və Moskvada kütləvi informasiya vasitələri nümayəndələrinin arasında prinsipialları da tapıldı. Onlardan biri tanınmış Rusiya jurnalisti A.Karaulovdur. O, gözdən salınmış Əliyevlə təmasda olmaqdan çəkinmədi, ondan silsilə müsahibələr götürdü, az keçmiş onunla görüşmək üçün Naxçıvana getdi, H.Əliyev ikinci dəfə hakimiyyətə qayıdandan sonra isə Rusiya televiziyasında onun səciyyəvi ad daşıyan "Hakimiyyət ustadı" adlı ilk teleportretini yaratdı.

Daimi nümayəndəlikdəki çıxışından sonra xarici KİV-lər H.Əliyevə uzun müddət ciddi maraq göstərdilər. Belə ki, 1990-cı il yanvarın 26-da "Nyu-York tayms" Heydər Əliyevin qəzetin Moskva müxbiri B.Kellerə verdiyi müsahibəsini dərc etdi. 1990-cı il fevralın 17-də "Vaşinqton post" qəzetində D.Remnikin H.Əliyev haqqında məqaləsi işıq üzü gördü. Bunlardan əlavə, başqa yazılar da dərc olunmuşdu.

Gözdən salınmış Siyasi Büro üzvü ilə ilk müsahibələrdən birini müstəqil "İnterfaks" agentliyi hazırlamışdı. Aşağıda müsahibənin bütöv mətni təqdim olunur:

30/03/1990 12.18 "İNTERFAKS" XƏBƏRLƏRİ

Heydər Əliyev: "Azərbaycanla Ermənistan arasındakı münaqişənin nizama salınmasında ölkənin siyasi rəhbərliyi ciddi səhvlərə yol vermişdir".

Azərbaycan KP MK-nın keçmiş birinci katibi, Sov.İKP MK Siyasi Bürosunun sabiq üzvü Heydər Əliyevin müxbirimiz Yevgeni Kolesnikə müsahibəsi.

SUAL: Azərbaycanda hakimiyyəti əllərində saxlamaq üçün millətçi çıxışları dəstəkləyən korrupsiyaya uğramış klanların olması barədə fikirlərə münasibətiniz necədir?

CAVAB: Hər şeydən əvvəl onu deməliyəm ki, son vaxtlar bütün ölkədə, o cümlədən də cənubda millətlərarası münaqişələr meydana çıxanda bəzi məsul şəxslər, bir də kütləvi informasiya orqanları məsələnin məğzini araşdırmaq, münaqişələrin yaranmasının əsl səbəblərini müəyyənləşdirmək əvəzinə çeynənmiş formul seçdilər. Guya bu, korrupsiyaya uğramış klanların öz hakimiyyətini

saxlamaq cəhdidir. Düşünürəm ki, millətlərarası münaqişələrin dərin səbəbləri və dərin kökləri vardır. Ancaq mən bütün ölkədə, o cümlədən Ermənistan və Azərbaycanda, Dağlıq Qarabağ Muxtar Vilayətində korrupsiyanın mövcudluğunu inkar etmirəm. Elə Moskvanın özündə də.

İkincisi, bildirirəm ki, 1969-cu ildən başlayaraq Azərbaycanda işlədiyim dövrdə, korrupsiya, rüşvətxorluq, mənimsəmə və digər buna bənzər halların geniş yayılması haqqında açıq danışılmadığı bir vaxtda, Azərbaycan partiya təşkilatı, təvazökarlıqdan kənar səslənməsin, əsas etibarilə mənim təşəbbüsüm sayəsində korrupsiya, rüşvətxorluq, bütün neqativ hallara qarşı mübarizə aparırdı. Biz bu barədə mətbuatda açıq yazırdıq, rüşvətxorları partiya xətti ilə cəzalandırırdıq. Ona görə də mən korrupsiyaya uğramış klanların mövcudluğunu inkar etmirəm. Lakin bu korrupsiyaya uğramış şəxslərin millətlərarası münaqişə ilə bağlı hərəkətlərə nə dərəcədə aidiyyəti olduğunu müəyyən etmək lazımdır. Bunun üçün sübutlar vardır, yoxsa yox?

SUAL: Məqalələrdən birinin müəllifi yazır ki, siz deyirdiniz respublikada təmiz kadr yoxdur, ona görə də bir çox vəzifələrə şəxsən inandığınız adamları təyin edirdiniz. Belə çıxmırmı ki, yaxşılıq naminə atdığınız addımlar indi əleyhinizə işləyir, yəni tənqidə çevrilir?

CAVAB: Mən heç vaxt deməmişəm ki, respublikada təmiz kadr yoxdur. Mən Azərbaycan KP MK-nın birinci katibi seçiləndə hansısa yaxın adamlarım yox idi, öz işimdə şəxsi münasibətlərə arxalanmırdım. 1969-cu ildən başlayaraq Azərbaycanda kadrların formalaşmasına diqqət yetirmək olar. Mənim tərəfimdən yüksək vəzifələrə irəli çəkilən adamlardan heç biri ilə əvvəllər tanış deyildim – mən Ali Sovetin Rəyasət Heyətinin sədrini, Nazirlər Sovetinin sədrini, MK katiblərini və digərlərini nəzərdə tuturam. Bunlar əsas etibarilə təmiz və ləyaqətli insanlar idi və biz onları irəli çəkirdik. Bununla belə, bir müddətdən sonra irəli çəkdiyimiz adamların içərisindən natəmizlər də çıxdı. Biz onları cəzalandırırdıq, işdən azad edirdik.

SUAL: Düzmü deyirlər ki, Azərbaycanda baş verən neqativ halların arxasında sizin adamlar, siz dururşunuz?

CAVAB: Bu böhtandır, ağ yalandır. Azərbaycanda "mənim adamlarım" deyilən anlayış yoxdur. Azərbaycanda işlədiyim dövrü yəqin ki, müsbət qiymətləndirib, mənə rəğbət bəsləyən adamlar vardır. Mənim oradan getdiyim yeddi ildən çoxdur. Əgər insanlar indiyədək yada salırlarsa, demək, bunun bir səbəbi var. Ancaq vəziyyəti həqiqətən mürəkkəbləşdirən hər hansı "mənim adamımın" adını heç kim çəkməyib, çəkə də bilməz. Və mən bilmirəm vəziyyəti kim mürəkkəbləşdirir. Əgər mən başa düşdüyüm kimi, bütün bunların təşkilatçısı Xalq Cəbhəsidirsə, mənim onunla da heç bir əlaqəm yoxdur.

SUAL: Bəs ümumiyyətlə, siz Azərbaycan Xalq Cəbhəsinə rəğbət bəsləyirsinizmi?

CAVAB: Mən bu təşkilatı xalq arasında böyük nüfuza malik təşkilat kimi qiymətləndirirəm. Yeri gəlmişkən, Xalq Cəbhəsi tanınıb, Azərbaycanda rəsmi qeydiyyatdan keçib və rəsmi fəaliyyət göstərir.

SUAL: Sizin fikrinizcə Azərbaycanla Ermənistan arasındakı münaqişənin həlli perspektivi nə yerdədir?

CAVAB: Azərbaycanda, eləcə də Ermənistanda az qala iki ildir ki, siyasi vəziyyət mürəkkəbdir. Bəzən vəziyyət partlayış həddinə çatır. Sonra bir qədər səngiyir. Lakin iki il ərzində Azərbaycanda və Ermənistanda, bu iki respublika arasındakı münasibətlərdə sabitlik olmamışdır. Bu, Dağlıq Qarabağ Muxtar Vilayətindəki vəziyyətlə bağlıdır. Məlumdur ki, vilayət Azərbaycan SSR-in tərkibinə daxildir. Təxminən iki il qabaq Ermənistanda, sonra isə Dağlıq Qarabağın özündə qarşılarına bu vilayəti Azərbaycandan qopararaq Ermənistana birləşdirmək məqsədi qoyan müəyyən qüvvələr meydana gəldi. Bu cəhdlər Azərbaycanda müxtəlif səviyyələrdə Azərbaycan Sovet Respublikasının suverenliyinə qarşı qəsd kimi qarşılandı. Nəticədə millətlərarası münaqişəyə gətirib çıxaran toqquşmalar baş verdi. Bu səbəb idi. Nəticə isə artıq iki ildir ki, davam edən faciə oldu. Əvvəlcə azərbaycanlılar Ermənistandan qovuldu. Özü də sonuncu nəfərinə kimi. Bu, zorakılıq, qətl, insanların şikəst edilməsi, doğma ocaqlarından didərgin salınmaları ilə müşayiət olunurdu. Azərbaycana iki yüz min qaçqın pənah gətirdi, bu da təbii ki, vəziyyəti mürəkkəbləşdirdi. Sonra Sumqayıt hadisə-

ləri, azərbaycanlıların Dağlıq Qarabağdan çıxarılması baş verdi. Azərbaycanda baş qaldıran və qanuna zidd əməllər törədən qüvvələri həmin vəziyyət meydana gətirmişdi. Azərbaycan və Ermənistanın keçmiş rəhbərliyinin, ölkənin siyasi rəhbərliyinin kobud, səhv və yanlış hərəkətləri haqqında deməyi vacib sayıram. İki respublika – Sovet İttifaqının bir hissəsidir. Bizim ümumi SSRİ Konstitusiyamız, ümumi ali orqanlarımız vardır. Onların bu problemi ən erkən mərhələdə həll etmək üçün Konstitusiya əsasında radikal tədbirlər görməyə bütün hüquq və səlahiyyətləri var idi. Tədbir görülsəydi, qan tökülməzdi, bu qədər qurbanlar olmazdı, Azərbaycanda böyük insan tələfatına gətirib çıxarmış qoşun yeridilməsinə ehtiyac qalmazdı.

SUAL: Siz nəyin tərəfdarısınız: Mərkəzdən sərt tədbirlər görülməsinin, yoxsa hər iki respublikanın danışıqlar masası arxasında əyləşib problemi həll etməsinin?

CAVAB: Mən onu deyirəm ki, münaqişəyə yol verməmək olardı. Ancaq, ümumiyyətlə, gülməli görünür: "iki respublika öz aralarında razılığa gəlməlidirlər". Məsələyə yanaşma lap əvvəldən düzgün deyildi.

SUAL: Siyasi Büronun sabiq üzvü kimi sizə bir neçə sual. Necə bilirsiniz, Sov.İKP-nin yeniləşməsi, islahatı lazımdırmı?

CAVAB: Hesab edirəm ki, bu, labüd prosesdir. Cəmiyyət irəliyə doğru hərəkət edir, daxili və xarici vəziyyət dəyişir. Aydındır ki, partiya da ictimai siyasi təşkilat olaraq öz strukturunu, metodlarını və s. təkmilləşdirməlidir. Lakin mənə elə gəlir ki, burada məsələ gecikdirilib. Və MK-nın fevral Plenumunda qəbul olunan siyasi proqram əsas etibarilə aşağıdan olan təzyiqin nəticəsidir. Hərçənd, biz hər şeyin yuxarıda həll edildiyini deyirik. Bu, aşağıdan təzyiqdir.

SUAL: "Durğunluğun memarlarını", yəni sizi də, məhkəməyə cəlb etmək haqqında çağırışlar barədə nə düşünürsünüz? Onların ünvanına səslənən ittihamlara münasibətiniz necədir?

CAVAB: Bu çağırışlar konkret və əsaslı olmaqdan daha çox emosional xarakter daşıyır. Birincisi, durğunluq və onun memarları deyilən anlayış çox genişdir. Nədənsə xalq arasında bir neçə ad çəkilir, ancaq durğunluq adlanan dövrdə daha məsul, həlledici mövqelər tutan digər insanların adlarının üstündən sükutla keçilir. Heç kim iqtisadiyyatda, siyasətdə, ictimai həyatda baş verən böhranı, bir halda ki partiya parçalanırsa onun keçirdiyi böhranı inkar etmir. Bu, axı durğunluq dövründə baş verməmişdir! Onda bəs niyə əsas diqqət "durğunluq memarları"na yönəldilir, lakin son dövrlərdə buraxılmış böyük səhvlərdən ağızucu danışılır? Adımın durğunluq memarları sırasında çəkilməsi məni təəccübləndirir. Mən özümü belələrindən saymıram. Çünki əgər razılaşsaq ki, ölkədə durğunluq idi və memarlar var idi, belə olan təqdirdə bu memarlar Moskvada, Nazirlər Kabinetində, Siyasi Büroda oturmuşdular. Ölkəni onlar idarə edirdilər. Mən o vaxt Moskvada işləmirdim, ölkəyə rəhbərlik etmirdim. Mən yalnız ölkə miqyasında o qədər də böyük yer tutmayan Azərbaycan Respublikasına rəhbərlik edirdim. O dövrün Azərbaycanında hər hansı çatışmazlığın ölkənin bütün sosial-iqtisadi sahəsinə neqativ təsir göstərməsini iddia etmək isə axmaqlıqdır. Mən Moskvaya işləməyə Brejnev öləndən sonra, Andropovun vaxtında gəlmişəm. Ancaq bu dövr artıq durğunluq sayılmır. İkincisi, əgər o dövrdə Azərbaycandakı iqtisadi artım sürəti bütün ölkədə olsaydı, biz bolluq içində yaşayardıq. Azərbaycanda durğunluq olmayıb.

SUAL: Partiyada parçalanma baş verməsi, idarəetmədə inzibati-amirlik üsulu tərəfdarları olan mühafizəkarlara və islahatlara çağıran radikallara bölünməsi haqqında fikirlər barədə nə düşünürsünüz? Özünüzü hansı qanada aid edərdiniz?

CAVAB: Mən özümü heç bir qanada aid etmirəm. Hesab edirəm ki, radikallara və mühafizəkarlara bölünmə süni şeydir. Ancaq, bir halda ki Litva Kommunist Partiyası artıq Sov.İKP-dən ayrılıb, deməli, Sov.İKP vahid partiya kimi parçalanır.

SUAL: Bizdə çoxpartiyalılığın yaranması ehtimalı barədə nə deyə bilərsiniz?

CAVAB: Bu, artıq real faktdır.

SUAL: Latviyada çıxan "Sovetskaya molodyoj" qəzeti Qərbi Almaniyanın "Ştern" jurnalına istinadən qohumluq əlaqələrinin sxemini dərc etmişdir. Həmin sxemə əsasən siz Qorbaçovla qohumsunuz. Bu belədir?

CAVAB: Mən nə "Ştern" jurnalını, nə də ki, "Sovetskaya mo-

lodyoj" qəzetini oxumuşam. Qorbaçovla heç bir qohumluğum yoxdur.

SUAL: Bu yaxınlarda "Nedelya" həftəlik qəzeti "Moskvaya daha kim gələcəkdir?" adlı məqalə dərc etmişdir. Məqalə müəllifi zarafatla söyləyir ki, yəqin ki, bu yaxınlarda Moskva ətrafındakı bağ yerlərində gəzişən Honekker və Jivkovu görmək olacaq. Onlarla yanaşı isə Sedenbalı, həmçinin Əliyevi, Nəsrəddinovu, Medunovu... Məqaləyə görə Moskva özünü nüfuzdan salan, işin öhdəsindən gələ bilməyən rəhbərlər üçün sığınacaq yerinə dönmüşdür. Siz niyə Moskvada yaşayırsınız? Vətən sizi özünə çəkmirmi?

CAVAB: Azərbaycanlı məgər Moskvada yaşaya bilməz? Nədir, Moskva təkcə ruslar üçündür? Moskva Sovet İttifaqının, vahid çoxmillətli dövlətin paytaxtıdır. İkincisi isə, 1982-ci ilin sonunda məni Moskvaya işə keçirdilər. Mən köçdüm və burada yurd-yuva saldım. Bakıda mənim nə mənzilim var, nə bir sığınacağım. Ona görə də iki il yarım əvvəl təqaüdə çıxanda, yalnız azərbaycanlı olduğuma görə Azərbaycana qayıtmağın vacibliyi barədə düşünmürdüm"[3].

Nüfuzlu müstəqil agentliyə verilmiş bu müsahibə H.Əliyev və onun adı ətrafında süni yaradılmış informasiya blokadasının yarılmasında ciddi addım oldu. Bir müddət sonra H.Əliyev Sov.İKP-dən çıxması haqqında ərizəni məhz "İnterfaks"a gətirəcək. Lakin bu barədə söhbət romanın növbəti hissəsində gedəcəkdir.

Bakıda da prinsipial jurnalistlər tapıldı. İlk növbədə mərhum Elmira Əhmədovanı (E.Əmrahqızı) yada salmaq lazımdır. O, birinci olaraq istefada olan Siyasi Büro üzvündən geniş müsahibə almışdı. Bu müsahibəni çap etmək üçün o, bir çox redaksiyaları gəzdi. Özü də buna harada müvəffəq oldu – "Ulduz" gənclər jurnalında (1990-cı il, iyun). O vaxt jurnalın baş redaktoru tanınmış Azərbaycan şair və tərcüməçisi Abbas Abdulla idi. Həmin müsahibənin dərc olunmasının təfərrüatını o, belə xatırlayır:

"Bir dəfə redaksiyamıza jurnalist Elmira Əmrah qızı Əhmədova gəldi. O mənə danışdı ki, respublikamızın bütün qəzet və jurnal redaksiyalarının qapısını döyüb, ancaq heç kimin respublikanın keçmiş rəhbəri Heydər Əliyevlə müsahibəni çap etməyə cəsarəti çatmır.

Xahiş etdim ki, materialı mənə versin. Oxuyub gördüm ki, həqiqətən çox maraqlıdır. Yadımdadır, onda mən işdə həmkarlarıma dedim: "Bu adam 13 il respublikaya rəhbərlik edib. Yəni doğrudanmı Azərbaycanda bir redaksiya tapılmayacaq ki, onun müsahibəsini dərc etsin?".

Bilirsinizmi, mənim başım həyatda çox çəkib, ona görə də həmişə vurulanların tərəfində olmuşam. Əliyevi o vaxt gözümçıxdıya salmışdılar, haqqında cürbəcür uydurmalar yazırdılar, ona görə də mən bir insan kimi ona acıyırdım.

Qərəz, Elmira xanıma söz verdim ki, müsahibə mənim jurnalımda gedəcək. O təəccübləndi və düzünü desək, mənə inanmadı.

Jurnalı çapa imzaladıqdan sonra məni gözlənilmədən MK-ya, ideoloji şöbəyə çağırdılar və bir yoldaş təkbətəkdə mənə yavaşca dedi: "Bilirsiniz, rəhbərlik bu müsahibənin işıq üzü görməsini istəmir". Cavab verdim: "Rəhbərliyə çatdırın ki, müsahibə çap olunacaq". Müsahibim çiyinlərini çəkdi: "Özünüz bilərsiniz".

Bir qədər sonra həmin adam yenə də mənimlə danışmaq arzusunu bildirdi. Görüşdük. O dedi: "Rəhbərliyim xahiş etdi çatdırım ki, biz Abbas Abdullanı deputat seçərik". Bir sözlə, məni satın almaq istədilər.

Mən isə, düzünü desək, fikirləşdim: "Birdən alınmadı, parlamentə seçilmədim? Müsahibə də getməyəcək. Bəs onda necə?". Bir saniyəlik pauzadan sonra dedim: "Yoldaşlara çatdırın ki, mən deputatlığa can atmıram. Müsahibə isə çap olunacaq".

Müsahibə dərc olundu. O vaxt "Qlavlit"də yaxşı uşaqlar işləyirdilər, biz xeyli antisovet əsərlər çap etdik. Mən onlara zəng vurardum ki, bəs filan şeyi oxumağa dəyməz. Onlar söhbətin nədən getdiyini başa düşürdülər. Mənə zəng vurub deyirdilər: "Biz onu oxumadıq". Yəni çap edə bilərsən, gözlərimizi yumuruq. Heydər Əliyevin müsahibəsi də bu cür.

6-cı nömrə çapdan çıxandan sonra (tiraj çox böyük idi, 100 min nüsxəyə yaxın) nəşriyyatda bütün tiraj həbs olundu, bir müddət anbarda saxlanıldı, ancaq sonra biz onun "azadlığa çıxmasına" nail ola bildik və jurnal oxucusu ilə görüşdü.

Elmira Əhmədova söyləyirdi ki, jurnalı Heydər Əliyevə təqdim edəndə, o, jurnalı götürüb, şübhə ilə o tərəf bu tərəfinə baxıb və deyib:

"Bura bax, axı mən bu Abbas Abdullaya heç bir yaxşılıq etməmişəm. O, bu söhbətin çapına necə ürək edib?"

Həqiqətən də, yaxşı müsahibədir, yerli-yataqlı, səmimi, kitabda biz tez-tez həmin söhbətdən sitatlar gətirmişik. Məhz orada H.Əliyev partiya sıralarında olduğu vaxtlardan və keçmiş siyasi əqidəsi barədə söhbət açır:

"Mənim qəlbimdə böyük şübhələr baş qaldırdı. Düşünməyin ki, mən polad kimi əyilməzəm. Mən də bu gün çox mətləbləri özüm üçün yenidən təhlil edirəm. Ancaq bu çox mürəkkəb, ağrılı, psixoloji cəhətdən çətin prosesdir"[42].

Əlbəttə, ölkənin keçmiş rəhbəri üçün "həqiqət anı" 1990-cı ilin Qanlı yanvar hadisələri oldu. Həmin hüznlü günlərdə o, qəti qərar qəbul etdi: onu keçmişlə bağlayan bütün telləri qırdı, sovet quruluşunun və kommunist sisteminin islahatının mümkünlüyünə bəslədiyi son illüziyalarla vidalaşdı. O günlər onun üçün və onun Vətəni üçün yeni dövrün başlanğıcı oldu...

"Faciədə əli olanların hamısı cəzalanmalıdır"

H.Əliyevin 1990-cı il yanvarın 21-də Moskvada Azərbaycan Respublikası nümayəndəliyində çıxışından

Dəhşətli Qanlı yanvar hadisələri yaxınlaşır, iki Zaqafqaziya xalqları arasındakı uçurum getdikcə daha da dərinləşirdi. Bununla belə, M.Qorbaçov və onun yaxın ətrafı lütfkar Qərbin məhəbbət və hörmət saçan nəzərləri altında xoşhallanmaqda davam edirdi. Maykl Mandelbaum "Forin Affeyrs" qəzetində yazırdı:

"Bütün çatışmayan cəhətlərinə baxmayaraq, xarakter etibarilə Mixail Qorbaçov Sovet İttifaqının əvvəlki liderlərində, əslinə qalsa elə Rusiya imperiyasının bütün hökmdarlarında olmayan daxili təmizliyilə seçilir. O, könüllü olaraq öz səlahiyyətlərinə məxsus əsas idarəetmə metodlarının birindən imtina etdi. Atəş açmaqdan imtina etdi...Təkcə buna görə o, 1990-cı ilin payızında aldığı Nobel sülh mükafatına, bununla da XX əsr tarixində şərəfli yer tutmağa layiqdir".

Qərbdəki mövqeləri o, həqiqətən bir güllə belə atmadan və həddən artıq tələskənliklə təslim edirdi, ancaq öz xalqı ilə silah dilində danışmağa üstünlük verirdi.

E.Axundova və İ.Nəcəfovun "Naşirin qətli" kitabından:

"...1990-cı il yanvarın 19-da Qorbaçov Əliyevin istirahət etdiyi "Barvixa" sanatoriyasına zəng vurdu. 1987-ci ildən bəri bu, onların ilk söhbəti idi. Qarabağ hadisələri başlayanda Əliyev Sov.İKP MK Baş katibi ilə danışmağa dəfələrlə cəhd göstərmişdi. Onu xəbərdar etmək istəyirdi ki, hadisələr olduqca təhlükəli hal alır və Sovet İttifaqının dağılmasına gətirib çıxaran zəncirvarı reaksiyanın başlanmasına təkan verə bilər. Məsləhət vermək istəyirdi ki, yaranmış mürəkkəb vəziyyətdə necə və hansı metodlarla hərəkət etmək lazımdır. Hər halda o,14 il Azərbaycan partiya təşkilatına rəhbərlik etmişdi, respublikanı beş barmağı kimi tanıyırdı, xalq arasında, o cümlədən də qiyamçı Dağlıq Qarabağ Vilayətində böyük nüfuza malik idi. Köməkçilərdən xahiş edirdi ki, onu Qorbaçovla birləşdirsinlər, başa salırdı ki, şəxsi məsələyə görə yox, bütün dövlət üçün taleyüklü əhəmiyyəti olan problemə görə zəng edir. Lakin, heç kim onu eşitmirdi. O, Qarabağ problemi ilə bağlı fikirlərini mərkəzi mətbuatda dərc etməyə çalışırdı, lakin "demokratik" nəşrlərin baş redaktorları nüfuzdan salınmış Siyasi Büro üzvü ilə danışmaqdan imtina edirdilər. Onda o, yenidən telefona yaxınlaşır və MK-nın qəbul otaqlarının nömrələrini yığırdı: Liqaçov, Razumoski, Lukyanov... Uzun sürən sükutdan sonra telefonda köməkçilərin laqeyd səsi eşidilirdi: "Yoldaş Liqaçov (Razumovski, Lukyanov və b.) məşğuldur. Bir neçə gündən sonra bir də zəng vurun".

Siyasi Büronun bütün üzvlərindən yalnız DTK sədri Vladimir Kryuçkov köhnə tanışlıq xatirinə Əliyevi dinləməyə razılıq verdi. Onlar görüşdülər, söhbətləri bir neçə saat çəkdi. Əliyev qondarma Qarabağ probleminin həlli yolları barədə öz mülahizələrini ətraflı söylədi və fikrini Qorbaçova çatdırmağı xahiş etdi. "O məndən qaçır, ona başa salın ki, mən yalnız bir-iki məsləhət vermək istəyirəm. Yəni o, doğrudan başa düşmür ki, separatçıları şirniklərdirməklə

oturduğu ağacın budağını kəsir?"

Kryuçkov dərindən köks ötürdü və Baş katiblə danışacağını vəd etdi. Lakin Qorbaçovdan səs-soraq gəlmədi.

İndi isə budur, Baş katib öz təşəbbüsü ilə zəng edib.

H.Əliyevin ifadəsindən*:

"Yanvarın 19-da, faciədən bir gün qabaq, Qorbaçov qəflətən mənə zəng vurdu. 1987-ci ildən bəri bu bizim ilk danışığımız idi və yüksək tonda keçirdi. O bəyan etdi ki, Azərbaycanda iğtişaşlar baş alıb gedir və bunların günahkarı mənəm. Guya günahım ondadır ki, respublikada faktiki olaraq sovet hakimiyyətini devirmişlər və mən təcili tədbir görüb hadisələrə təsir etməliyəm. O, hədələdi ki, əgər bunu etməsəm mənə qarşı tədbir görəcəklər. Azərbaycanda isə onsuz da qayda-qanun yaradacaqlar. Ancaq bunların hamısında mən günahkar olacağam. Ona çox sərt cavab verdim, dedim ki, bütün bunlar böhtandır: birincisi, mənim Azərbaycanla belə əlaqələrim yoxdur, ikincisi isə, Azərbaycanda xalq hərəkatı Moskvanın ədalətsiz siyasətinə və Azərbaycan rəhbərliyinə qarşı qəti etiraz olaraq yaranmışdır, ona görə də bu etiraz tamamilə qanunidir. Bir sözlə, mən Qorbaçovun bütün ittihamlarını qəti surətdə rədd etdim..."

1990-cı il yanvarın 20-də günorta vaxtı Əliyev həmişəki kimi sanatoriyanın parkında gəzintiyə çıxdı. Ötən gecə Bakıda baş verənlər haqqında onun xəbəri yox idi. Parkda o, hətta gəzinti zamanı tranzistorundan ayrılmayan akademik Arbatovla rastlaşdı. Əliyevlə salamlaşandan sonra akademik zənnlə sabiq Siyasi Büro üzvünü süzdü. Sonra dedi:

– Bilirsiniz, nə olub?

– Yox. Nədir ki?

– Bakıda faciə baş verib. Qoşun yeridilib, çoxlu insan həlak olub... "Azadlıq"la hər saatdan bir yeni informasiya verirlər. Qulaq asmaq istəyirsiniz?

– Xeyr, xeyr, təşəkkür edirəm... – Əliyev tələsik cavab verdi və az qala yüyürə-yüyürə korpusa tərəf yollandı. Akademik təəccüblə onun arxasınca baxırdı.

Əliyev müalicə həkiminin etirazlarına məhəl qoymayıb maşın çağırdı və elə həmin gün Moskvaya yollandı. Bakıya, qohumlarına zəng vurdu, bəzi informasiyaları əldə etdi. Sonra xarici radiosəslərə qulaq asmaq istədi. Ürəyindən elə bil daş asılmışdı. Zərifə xanım dünyasını dəyişən gün də o, belə dərin kədər və ələm içində idi. Telefon zəng çaldı. Dəstəyi qaldırdı. Qızı idi...

– Ata, evdəsən? – o qızının həyəcanlı səsini eşitdi. – Mən sanatoriyaya zəng vurmuşdum, dedilər ki, tələsik yığışıb harasa getmisən. Sən... hər şeyi bilirsən?..

– Bəli...

Bir müddət hər ikisi dinmədi. Bir-birilərinə ürək-dirək vermək üçün söz axtardılar, lakin tapa bilmədilər. Çünki Yer üzündə elə bir söz yox idi ki, indi onların sonsuz kədərini ovundura bilsin.

– Mən axı onları xəbərdar edirdim, mən axı onları həmişə xəbərdar edirdim... Ancaq onlar bilərəkdən bu provokasiyaya getdilər. Ona görə də heç nəyə qulaq asmaq istəmirdilər. Canilər!

– Əsəbiləşmə ata, axşam söhbət edərik. Yaxşı?

Qızı mənzildəki telefona qulaq asıldığını bilirdi, ona görə istəmirdi ki, atası yeni problemlərlə üzləşsin. Ancaq Əliyev üçün fərq etmirdi, onların söhbətinə qulaq asırlar ya yox.

Ertəsi gün səhər Əliyev eşitdi ki, Moskvada Azərbaycanın daimi nümayəndəliyinin binası qarşısında adamlar yığışıb. Təxminən 4 – 5 min nəfər. Əliyev o saat qərara aldı ki, oraya getsin. Onunla birlikdə övladları da daimi nümayəndəliyin binasına tərəf yollandılar.

...Əliyevin bu tarixi mitinqdə çıxışı dünyada sensasiya doğurdu. Onun ittiham nitqi qan içində boğulan Qorbaçov "yenidənqurması" üçün rekviyem oldu. Həmin gün bütün xarici radiosəslər Əliyevdən sitatlar gətirirdi, daimi nümayəndəliyin qarşısına yığılmış xarici müxbirlər isə müsahibə almaq üçün Əliyevi mühasirəyə almışdılar. Bir neçə gündən sonra həmin çıxışın videoyazısını kimsə gizli yolla çoxaldacaq və kassetlər Bakıya çatdırılacaqdı. Videokassetləri yayanlar tutulub saxlanılacaq, plyonkalar isə məhv ediləcəkdir. Lakin Əliyevin Azərbaycan vətəndaşlarının qəlbində ümid çırağı yandıran,

* 1992-ci il noyabrın 2-də Naxçıvanda Azərbaycan KP MK-nın keçmiş birinci katibi, Sov.İKP MK Siyasi Bürosunun keçmiş üzvü H.Əliyev Ə.Xanbabayevin qətli ilə bağlı prokurorluq orqanlarına ifadə vermişdir.

Kreml əlaltılarının isə canına üşütmə salan çıxışı yazılmış kassetləri yığışdırmaq mümkün olmayacaq, hər dəfə onların yeniləri əldənələ gəzəcəkdi.

Çox-çox sonra ona məlum olacaq ki, daimi nümayəndəlikdəki çıxışından sonra Kreml onun həbsinə hazırlıq görməyə başlayıbmış. Yakovlev həmin o sənədli filmdə danışır ki, Puqo ona zəng vurub özünü itirmiş halda soruşurmuş: Əliyev barəsində topladığımız materiallar cinayət işi üçün çox azdır. Bəs indi nə edək?

Əliyevin Azərbaycanın daimi nümayəndəliyində çıxışı, həmin günlərdə xarici jurnalistlərə verdiyi müsahibələr, mahiyyət etibarilə onun "böyük" siyasətə qayıtmasının ilk addımları oldu. Onsuz da onun şəxsiyyət və nüfuzundan çəkinən müəyyən dairələrin reaksiyası özünü çox gözlətmədi. Partiya aparatı işçiləri sınaqdan çıxmış üsuldan – Əliyevi mətbuatda nüfuzdan salmaq "ənənəsindən" bir daha istifadə etməyi qərara aldılar".

Xəstəlikdən tam sağalmamış, bədxahların əhatəsində, "demokratik" KİV-lər tərəfindən suçlanan H.Əliyev həmin günlər öz xalqı kimi tamamilə müdafiəsiz idi. O başa düşürdü ki, əgər daimi nümayəndəliyə getsə və İttifaq rəhbərliyinin vəhşi aksiyasına münasibətini bildirsə, bu addımın nəticələri onun özü və ailəsi üçün xeyli ciddi olacaqdır. Ancaq bunu etməli idi, susmağa ixtiyarı yox idi. Çünki dünyanın hər yerində soydaşları baş verənlərə məhz onun qiymət verməsini gözləyirdilər...

Andrey Karaulov Heydər Əliyevin daimi nümayəndəliyin qarşısındakı çıxışına oraya toplaşanların necə reaksiya verdiyini yada salır:

"...İstirahət günü, 1990-cı il yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyinin qarşısındakı izdihamın Bakıda baş verən hadisələrlə bağlı Azərbaycan xalqına başsağlığı verməyə gəlmiş Heydər Əliyevi necə qarşıladığını öz gözlərimlə görmüşəm. Adamların necə yığışdığını görmək üçün mən bir saat qabaq gəlmişdim: onlar əsasən tək-tək, açıq-aydın təşkilatlanmamış gəlirdilər, Əliyevi görəndə, izdiham geri çəkildi, canlı, dinib-danışmayan dəhliz yarandı, o, binaya daxil oldu, təxminən on beş dəqiqə keçdi, kimlərsə Azərbaycan dilində nəsə qışqırmağa başladı, anladım ki, onlar Əliyevin çıxış etməsini istəyirlər. Onun nitqi (təxminən on dəqiqə danışdı) sürəkli alqışlarla qarşılandı. Ən maraqlı hadisələr isə mətbuat konfransında baş verdi. Əliyevin Moskvanın Bakıya qoşun yeritməsini insanlığa, demokratiyaya və konstitusiyaya zidd adlandırdığı bəyanatından sonra hansısa bir qız, MDU-nun aspirantı Əliyevin üzünə dedi ki, onun Vəzirov barədə pis danışmağa ixtiyarı yoxdur, Vəzirovu günahlandırmaq lazım deyil, çünki indi Bakıda baş verənlərin hamısı Əliyevin "imperiya siyasətinin izləridir". Düzü mən elə bildim ki, bu kiçik zala toplaşan azərbaycanlılar onu dəstəkləyəcəklər. Ancaq onu az qala parçalayacaqdılar. Əliyevin müdafiəsinə bir səs-küy qalxdı ki..."[43].

Bu isə hadisələrin digər iştirakçısı **Adilə xanım Abasovanın** danışdıqlarıdır:

"...1990-cı ilin 20 yanvarında Bakıda baş verən faciədən xəbər tutan kimi biz dərhal Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinin qarşısına getməyi qərara aldıq. Yanvarın 21-də yəqin ki, Moskvada yaşayan bütün azərbaycanlılar daimi nümayəndəliyin qarşısına gəlmişdilər. Çoxlu adam var idi! Elə həmin vaxt mən Mixail Qorbaçov tərəfindən sanksiyalaşdırılan insanlığa zidd aksiyaya qarşı hiddət və etirazını bildirmək üçün daimi nümayəndəliyə gələn Heydər Əliyevi ikinci dəfə gördüm. O, bizim qarşımızda çıxış etdi. Onun yaxınlığında durmuşdum. Kəskin danışırdı, ilk dəfə məhz bu mitinqdə söylədi ki, Mərkəz Azərbaycan xalqına qarşı əsil təcavüz etmişdir. O, heç kimdən və heç nədən çəkinməyərək danışırdı.

Xalq onu çox yaxşı, mehriban qarşıladı. Sonra o, binaya keçdi, biz isə onun cəsarətindən ürəklənib əvvəlcə SİTA-nın binası qarşısına, oradan isə mərkəzi televiziyaya gedib bəyanatı ötürmək və efirdən səslənməsini tələb etmək qərarına gəldik. Hava çox soyuq idi, haradasa 18-20 dərəcə şaxta olardı. Bax, o vaxt mən başa düşdüm ki, dərd insanları necə birləşdirir. Şaxtaya, yolların buz bağlamasına fikir verməyərək, insanlar əl-ələ tutub gedirdilər – bir-birini tanıyan və tanımayanlar da, qocalar və cavanlar da – hamı hakimiyyətə öz ağrı və hiddətini bildirmək üçün gedirdi.

Biz SİTA-nın binasına yaxınlaşdıq. Yeri gəlmişkən, burada bizə məşhur qazax şairi Oljas Süleymenov da qoşuldu. Rəfiqəmin oğ-

lu Elin Süleymanovla (indi o diplomatdır) birlikdə ona yaxınlaşdıq və Bakıda baş verən faciənin təfərrüatlarını danışmağa başladım. Biz artıq Azərbaycandan göndərilmiş videokadrları görmüşdük. Onlar bizi dəhşətə gətirmişdi. Biz hamımız hələ SSRİ-də yaşayırdıq və təsəvvürümüzə belə gətirə bilməzdik ki, Sovet ordusu öz ölkəsində öz xalqının başına bu cür oyun aça bilər. Mən öz sarsıntılarımı Oljasla bölüşmək istədim. O, əlini çiynimə qoyub dedi: "Həyəcanlanma, bacım, harada imkan düşdü mən özüm çıxış edib bu barədə danışacağam". Və sözünün üstündə durdu, çox keçmədi ki, SSRİ Ali Sovetinin sessiyasında çıxış etdi, bunun üçün hamımız ona minnətdarıq.

Sonra Moskvanın mərkəzi Qorki küçəsi, Trubnı meydanı ilə Mərkəzi televiziyanın binasına tərəf yollandıq. O vaxt hələ milli bayrağımız yox idi, kimsə qara kəlağayını taxtaya dolayıb bayraq kimi qaldırdı. Mənimlə yanaşı uşaqlı qadın gedirdi, özü də hamilə idi. Dəstənin arxasında təcili yardım və milis maşınları gəlirdi, yəqin ki, hökumətin göstərişi ilə bizi müşayiət edirdilər.

Televiziyanın binasına yaxınlaşdıq, 2–3 saat dayandıq, heç kim çıxmadı. Yaman şaxta idi! Lakin istədiyimizə nail olduq. Rəhbərlikdən iki nəfər bayıra çıxdı, biz ultimatum irəli sürdük: Bakıda baş vermiş faciə haqqında informasiya efirə getməlidir. Onda Moskvanın 3-cü kanalında paytaxt küçələri ilə "yürüşümüzü" göstərdilər, tələblərimizi qısa olaraq səsləndirdilər. Təəssüf ki, respublika sakinləri bu kadrları görmədilər. O günlərdə biz bu cür ağrılı və həyəcanlı məqamlar yaşadıq.

Bizə sanki ikinci nəfəs gəlmişdi, Moskvadakı bir çox nüfuzlu adamlarla görüşür, onlara öz mövqeyimizi başa salır, günahkarların cəzalandırılmasını tələb edirdik. Hətta müdafiə naziri Dmitri Yazovla görüşmək üçün cəhd etdik. Kiçik yaşlı oğlumu qonşunun yanında qoyub, həyat yoldaşımla Müdafiə Nazirliyinin qarşısına gəldik, Moskvadan və ətraf yerlərdən oraya artıq yüzlərlə həmvətənimiz yığışmışdı. Nazirlik o vaxt Kalinin prospektində, metronun "Arbatskaya" stansiyasının yaxınlığında yerləşirdi. Nazirliyin binası azərbaycanlılar tərəfindən əhatəyə alınmışdı. Aksiya təşkilatçıları meqafonla deyirdilər ki, gərək provokasiyalara uymayaq, özümüzü sakit və intizamlı aparaq. Çünki camaat içərisində təhrikçilər var idi, onlara ehtirasları qızışdırmaq və bizi gözdən salmaq tapşırığı verilmişdi. Ətraf milis nəfərləri ilə dolu idi, sarı maşınlar dayanmışdı. Birdən nazirliyin binasında işıqlar söndü, sonra kimsə çıxıb insan kütləsinə yaxınlaşdı və mitinq rəhbərləri ilə danışmağa başladı, ərizəmizi götürdü.

Doğrusu, "Qara yanvar" hadisələri, xalqın başına gələn faciə bizi vətənə daha sıx bağladı. Sonra eşitdik ki, Heydər Əliyev, bütün təhlükələrdən çəkinməyərək Azərbaycana qayıtmışdır. Uzun illər Rusiyada yaşamış bir çox azərbaycanlı həkimlər, alimlər, hərbi qulluqçular ondan nümunə götürdülər. Mən də həyat yoldaşımla birgə qərara gəldik ki, Moskvanı tərk edək və bu çətin vaxtda vətənə qayıdaq. 1992-ci ildə biz Bakıya köçdük".

Akademik R.Mehdiyevin fikrincə, "1990-cı ilin Qanlı yanvar hadisələri Heydər Əliyevi siyasi fəaliyyətə qaytardı, lakin bu fəaliyyət artıq sovet sistemi çərçivəsinə sığmırdı. Keçmiş SSRİ-də siyasi postu olmayan adam apriori siyasi fəaliyyətlə məşğul ola bilməzdi. Buna yol verilmirdi, buna lap əvvəldən ciddi qadağa qoyulmuşdu. Onun 20 yanvarla bağlı siyasi bəyanatı yalnız Azərbaycanda deyil, bütün keçmiş SSRİ-də yeni siyasi eranın başlanğıcı oldu"[2].

* * *

Bu kitab üçün Moskvada sənədli materiallar axtararkən, müsahiblərimə Bakıya qoşun yeridilməsinin səbəbləri haqqında sual verirdim. Bir çoxu yüksək dövlət vəzifələri tutmuş və həmin dövrdə ən məsuliyyətli siyasi qərarların qəbul edilməsində iştirak etmiş bu məlumatlı adamlar az qala 20 il əvvəl baş vermiş hadisələrə aydınlıq gətirirlər. Onların şərhləri və verdiyi qiymətlər, bir-birindən nə qədər fərqli olsa da, Azərbaycanın ən yeni tarixinin bugünki və gələcək tədqiqatçıları üçün əvəzsiz dəyərə malikdir.

Nikolay Rıjkovla söhbətdən:

" – 20 yanvar ərəfəsində baş verən hadisələri Qorbaçov nədənsə Heydər Əliyevlə bağlayırdı. İddia edirdi ki, Əliyev özü Moskvada ola-ola Bakıdakı milli-demokratik hərəkata başçılıq edir, adamları mitinqlərə qaldırır. Qorbaçov ona yanvarın 19-da qoşun yeridilməzdən qabaq zəng vurmuşdu...

– Mən söhbətin şahidi olmuşdum. Bütün olub-keçənlər yadımdadır. Yaxşı yadımdadır, Siyasi Büronun iclası qurtarmışdı. Qorbaçov çıxdı, orada, Siyasi Büro zalının yanında qəbul otağı vardı, ondan sonra isə – baş katibin kabineti. Onunla Əliyev arasında telefon əlaqəsi yaratdılar. Ancaq mən elə bilirdim ki, Əliyev Bakıdadır.

– Xeyr, o Moskvada idi.

– Qorbaçov mənim yanımda dedi ki, Bakıda iğtişaşdır, bir sözlə, təzyiq göstərməyə başladı, yəni bunda sənin də əlin var. Mən Əliyevin ona nə cavab verdiyini eşitmirdim. Ancaq Qorbaçovun dediklərindən belə başa düşdüm ki, Əliyev bu işlərə heç bir aidiyyəti olmadığını söylədi.

– O belə də dedi: "Mən Moskvadayam, Bakıda baş verənlərə necə təsir göstərə bilərəm? Mitinqlər və bu kimi şeylər – Moskvanın ədalətsiz siyasətinə qarşı etirazdır". Ancaq niyə axı Qorbaçov Əliyevdən şübhələnirdi, əlində məgər hansısa faktlar vardı?

– Onda heç bir fakt yox idi. Kimsə bunu özündən toxumuşdu. Bəs niyə belə oldu, günahkar kimdir? Heç kim ciddi analiz aparmamışdı. Mənim yanımda daha belə bir söhbət olmuşdu, ancaq Almatı hadisələri ilə bağlı. Qorbaçov bir neçə Siyasi Büro üzvünün yanında Kunayevlə danışırdı. Kunayev dedi: "Mənim heç bir aidiyyətim yoxdur, əksinə, mən adamları sakit edirdim". Qorbaçov isə onun Siyasi Bürodan çıxmasını tələb etməyə başladı. Kunayev özünü təmizə çıxarırdı: "Mən mümkün olan hər şey edirəm, iğtişaşlarla heç bir əlaqəm yoxdur. Bunu mən təşkil etməmişəm və s.". Yadımda qalan iki belə söhbət olmuşdu".

Nikolay İvanoviçin şəhadətliyi olduqca əhəmiyyətlidir. Gördüyümüz kimi SSRİ-nin sonuncu Baş katibi hər iki halda eyni ssenari ilə hərəkət edir: mürəkkəb vəziyyətin səbəblərini üzdə axtarır, millətlərarası problemlərin həllində öz gücsüzlüyünü və səriştəsizliyini gizlətmək üçün günahı respublikaların keçmiş partiya rəhbərlərinin üstünə yıxmağa çalışır.

İvan Laptevlə söhbətdən:

" – Qorbaçov niyə Əliyevə zəng vurmuşdu?

– Vəziyyət nəzarətdən çıxmışdı. Kiminsə onu sakitləşdirməsi tələb olunurdu. Görünür, Əliyevin Azərbaycanda bütün vasitələri əlində saxlaması haqqında fikir Qorbaçovun beyninə elə dolmuşdu ki, zəng edib əsəbi halda bunları ona söyləməyə başladı.

Qorbaçovun özü isə, bilmirəm kiçik müşavirədə idimi, yoxsa bir neçə adam arasında, belə söyləyirdi:

– Mən Əliyevə zəng vurdum və dedim: "Siz orada bütün bu işlərinizi qurtarın!".

Sonralar respublikada bəzi adamlar Qorbaçov sayaq ciddiyyətlə təsdiq etməyə başladılar ki, yanvar hadisələri əsas etibarilə H.Əliyev tərəfindən qızışdırılmışdır. O bu yolla guya diqqətdən yayınmaq və həbs olunmasının qarşısını almaq istəmişdi.

Belə ki, politoloq Zərdüşt Əlizadə "Exo" qəzetindəki "Qəhrəmanlar və obıvatellər" (27 yanvar, 2005-ci il) yazısında jurnalist İlahə Balaxanovanın söylədikləri ilə pərdələnərək, Heydər Əliyevi 1990-cı il yanvarın 20-də Bakıda törədilmiş "qanlı qırğının əsas səbəbkarı" adlandırmışdı. O, üstüörtülü şəkildə Heydər Əliyevin AXC liderləri ilə əlaqəsinə işarə edirdi. Cəbhənin liderləri guya Əliyevin göstərişləri ilə durub-oturur, hər vasitə ilə respublikada sabitliyi pozmağa çalışırdılar.

"Üç tale – dörd versiya" ("Exo", 15 yanvar, 2005-ci il) məqaləsində Zərdüşt fikirlərinə bir qədər aydınlıq gətirərək bəyan edir ki, AXC xalqı tankların altına yeganə bir məqsədlə – "o vaxt Heydər Əliyevə açılan cinayət işindən onu xilas etmək" və həm "özlərinin, həm də Heydər Əliyevin cinayətlərinin üstünü ört-basdır etmək üçün" atıb.

Bundan axmaq və absurd bir şey fikirləşmək çətindir. Birincisi, bu cür sözləri yalnız H.Əliyevin xarakterini, həm də onun öz xalqına olan məhəbbət və sədaqətinin dərinliyini anlamaqdan çox uzaq olan adamlar söyləyə bilər. İkincisi, əgər xatırlayırsınızsa, Heydər Əliyev özü məhkəmədə çıxış edib ona qarşı irəli sürülən bütün ittihamları birdəfəlik aradan qaldırmaq üçün SSRİ Prokurorluğundan barəsində cinayət işinin açılmasını tələb etmişdi. Kitabın ötən fəsillərində biz ali siyasi elitanın əksər hallarda telefonlarına qulaq asılmasına və H.Əliyevin ailəsinin DTK əməkdaşlarının sıx əhatəsində yaşadığına dair şəhadətlər gətirmişik. Bu halda, Əliyevin Xalq Cəb-

həsinin liderləri ilə həqiqətdə də əlaqəsi və danışıqları olsaydı, bu fakt xüsusi xidmət orqanlarının, eləcə də Kremlin diqqətindən kənarda qala bilərdimi? Əlbəttə ki, yox. Bir qədər sonra biz "Azərnəşr"in direktoru Əjdər Xanbabayevin Əliyevlə tamamilə sadə, insani münasibətlərindən, bir neçə telefon zəngindən həmin dəqiqə Azərbaycan DTK-sının xəbər tutması və bütün bunların son nəticədə bu xoşxasiyyət, ziyalı insanın ölümünə səbəb olması barədə danışacağıq.

Və daha bir sual: yəni doğrudanmı Qorbaçovun əlində Heydər Əliyevin İsa Qəmbər, Etibar Məmmədov, Rəhim Qazıyev və digər "cəbhəçilər"lə əlaqəsini sübut edən faktlar olsaydı, o bundan istifadə etməyəcəkdi? Xüsusilə də Əliyevin Moskvadakı daimi nümayəndəlikdə ifşaedici çıxışından, həmçinin tutularaq Lefortovo həbsxanasında saxlanılan AXC liderləri Etibar Məmmədovun və Rəhim Qazıyevin, eləcə də Heydər Əliyevin öz taleyinin tamamilə Qorbaçovun ixtiyarında olduğu bir vaxtda? O günlərdə qanlı qoşun yeridilməsinə beynəlxalq birliyin gözündə bəraət qazandırmaq üçün hər hansı bir faktı təqdim etmək Baş katibə hava və su kimi lazım idi. Həqiqətən də, AXC "ekstremistləri" ilə gözdən düşmüş Siyasi Büro üzvünün əlaqəsi olmuş olsaydı, o bunu bütün dünyaya car çəkərdi!..

1990-cı ilin əvvəli üçün Boris Puqonun idarəsində, yəni Sov.İKP MK yanında Partiya Nəzarəti Komitəsində olan Əliyevin dosyesi artıq arxivə göndərilmişdi və heç kimin onu oradan çıxarmaq fikri yox idi. Bir şərtlə ki, Heydər Əliyev Qorbaçovun və onun siyasətinin ünvanına ehtiyatsız bir jest etməsin, bir ifadə işlətməsin. Odur ki, Əliyev onu nə gözlədiyini çox gözəl bilirdi. Təsadüfi deyil ki, daimi nümayəndəliyə yollanmazdan əvvəl o, övladlarını zərbə altına qoymamaq üçün onlarla məsləhət etmək qərarına gəlmişdi. Ancaq əbəs yerə narahat olurdu: qızı da, oğlu da onu yarım kəlmədən başa düşdülər.

"Bakıdakı faciəli hadisələrdən xəbər tutan kimi o, Barvixadan evə gəldi, – Sevil xanım mənə danışırdı. – Bizi yığıb dedi ki, məsləhətləşmək istəyir. "Ya, – deyir, – indi gedirəm daimi nümayəndəliyə, çıxış edirəm və artıq məlum deyil başıma nə gələcək. Ya da ki, belə yaşamaqda davam edirəm". O özünə görə deyil, bizə görə qorxurdu. Ona görə də fikrimizi bilmək istəyirdi. Biz ona dedik: "Get! Başqa yolumuz yoxdur". Və özümüz də onunla bir yerdə getdik".

Ümumiyyətlə, Əliyevin xəstəlikdən və istefadan sonra düşdüyü "quyunun" dərinliyini təsəvvür etmək lazımdır: mətbuatın qaldırdığı həngamə, Qorbaçovun ittihamları, ikinci "Özbəkistan işi"nin açılmasına cəhdlər (respublikada 187 cinayət işi qaldırılmışdı!), Azərbaycanda onun kadrlarının başına gətirilən oyunlar. Pəhriz saxlamaq barədə həkimlərin ciddi göstərişindən sonra onun fiziki cəhətdən zəifləməsini, faktiki təcrid edilməsini, ev dustağı olmasını, telefonlarının dinlənilməsini və s. və s. də bunların üstünə gəlin...

Məgər o bu şəraitdə – gözümçıxdıya salındığı, fiziki cəhətdən taqətdən düşdüyü bir vaxtda – hələ bir AXC liderləri ilə əlaqə saxlamaq, xüsusən də Bakı və Qarabağda atəşi qarışdırmaq iqtidarındaydı? Əgər xalq Bakıdakı mitinqlərdə Əliyevi dəstəkləyən şüarlar səsləndirirdisə, əgər Naxçıvanda onun portretləri əldə gəzirdisə, bunun səbəbi aydındır: bu yolla insanlar H.Əliyevin dövründə respublikadakı sabitlik və qayda-qanuna niskillərini ifadə edirdilər. Onun mitinqləri idarə etməsi, Xalq Cəbhəsinin yaradılmasında fəal iştirakı haqqındakı əfsanələr isə Heydər Əliyev xarizmasının, ən ağır vəziyyətlərində belə insanlar üzərində necə böyük hakimiyyətə malik olmasının bariz nümunəsidir.

Bütün bu fikirlərimi mən kağıza köçürdüm və həmin o "Exo" qəzetində "Bəs stulları niyə sındırmalı?" başlığı altında dərc etdim. Orada belə bir abzas da var idi:

"İndi isə Zərdüştün ucuz vətənpərvərlik bəlağətinin ən bayağı ənənələrinə sadiq qalıb "fərasətsiz və xalqa zidd partokratlara qarşı xalq qəzəbindən alışıb-yanan qızmış pələng" kimi səciyyələndirdiyi "Azərbaycan jurnalisti" İlahə Balaxanova haqqında. Bilmirəm, bəlkə də İlahə xalq qəzəbindən alışıb yanırmış (bu qəzəb o vaxt hər birimizi alovlandırırdı), ancaq o vaxt o, sadəcə "Azərbaycan jurnalisti" deyildi, Amerikanın "Azadlıq" radiosunun əməkdaşı idi. Bu məqam isə məsələni kökündən dəyişir, çünki Siyasi Büro üzvünə sual verərkən, Balaxanova Azərbaycan xalqının iradəsini ifadə etmirdi, müəyyən redaksiya tapşırığını, daha dəqiq desək, həmin radiostansiyasının siyasi sifarişini yerinə yetirirdi".

Vitali Vorotnikovla söhbətdən:

" – Yadınızdadır Bakıya qoşun yeridilməsi barədə qərarı kim qəbul etmişdi? Bakatin deyir ki, Qorbaçov tərəddüd etdiyinə görə, qərarı Lukyanov imzalamışdı.

– Qərarı Qorbaçov qəbul etmişdi. O dedi: "Mən hesab edirəm ki, Bakıya qoşun göndərmək lazımdır". Müdafiə nazirinə göstəriş verdi, o da ehtiyatda olanların çağırışına başladı. Bununla bağlı Krasnodarda, Stavropolda qalmaqallar baş verdi.

– Özü də ehtiyatda olanların tərkibinə çoxlu erməni də daxil etmişdilər.

– Bəli. Sonra Krasnodardan mənə zəng vururdular. Mən də Yazovun yanına getdim: "Niyə ehtiyatda olanları çağırırsınız? Elələri var 10–15 ildir əllərinə tüfəng almayıblar.

– Hara gəldi atırdılar, lazım oldu-olmadı.

– Bir neçə gündən sonra onlar geri çağırıldılar.

– Ancaq artıq öz bədnam əməllərini törətmişdilər. Nə qədər dinc vətəndaş qırılmışdı!"

"Bu belə olmuşdu" kitabında V.Vorotnikov qoşun yeridilən günün səhərisi çağırılmış Siyasi Büroda M.Qorbaçovun çıxışını tezislər şəklində verir. Baş katib Sovet ordusunun Azərbaycana soxulmasına haqq qazandırmağa çalışır, ona görə də əhalinin silahlı müqaviməti haqqında yalan informasiyanı bilərəkdən təkrar edir.

"Yanvarın 20-si. Sov.İKP MK. Siyasi Büronun iclası. Azərbaycanda vəziyyət.

M.S.Qorbaçovun məlumatı. *Bakıya Müdafiə Nazirliyinin qoşunları yeridilib. Yazov və Bakatin indi oradadırlar. Azərbaycan Ali Sovetinin Rəyasət Heyəti fövqəladə vəziyyət haqqında Fərmanı dəstəkləmədi. Rəhbərlik özünü qəti tədbirlər görməkdən kənara çəkir. Qorxublar. Əslində respublikada hakimiyyət yoxdur.*

Azərbaycan Xalq Cəbhəsi öz qərargahını yaradıb, xüsusi vəziyyət elan edib. Beləliklə, respublika rəhbərliyi hakimiyyəti onlara vermişdir. Ordu hissələrinin irəliləməsini süni maneələr, yaraqlı qruplar, avtobuslar ləngidir. Evlərdən, taksilərdən atəş açırlar, o cümlədən sovet hərbi qulluqçularının mənzillərinə. Belə təəssürat yaranır ki, hücuma hazırlaşıblar. Məcbur olub cavab veririk, bundan sonra yaraqlılar dağılışırlar. Qarətlər, yanğınlar. Ölənlər var. İtkilər barədə ilkin məlumat: 57 mülki şəxs, üstəgəl 10 hərbçi. Bir neçə yüz yaralı var. Azərbaycan KP MK-nın birinci katibi Vəzirovu geri çağırmağı təklif etdi. M.S.Qorbaçov 14.00-da televiziya ilə çıxış etsin. XİN mətbuat konfransı keçirsin. Azərbaycan KP MK-nın bürosunu saxlamaq lazımdır. Sədrlik növbə ilə. Orada üçgünlük matəm elan etmək.

(Müşavirənin gedişində Qorbaçov telefonla Bakı ilə, Mütəllibovla danışdı)"[45].

Aleksandr Yakovlevlə söhbətdən:

" – Niyə qoşunları bu qədər qan tökməklə yeritdilər və niyə məhz 20-sində? Hakimiyyətin dəyişilməsi, rejimin devrilməsi təhlükəsi yaranmışdı? Deməli, Qorbaçovun yazdığı kimi erməniləri yox, Sovet hakimiyyətini xilas edirdilər? Bu qərar necə qəbul edildi?

– Mən ilkin qərarın qəbul edilməsinin şahidiyəm. Biz Qorbaçov və Şevardnadze ilə xaricdən gəlmişdik. Bizə dedilər ki, Vnukovoda, Siyasi Büro üzvlərinin istirahət otağında iclasa yığışıblar. Bizi gözləyirlər. Getdik həmin otağa. Hər kəs bu vaxt ərzində nə baş verdiyi haqqında məruzə edirdi. Bakıdan başladılar. Liqaçov danışdı: Azərbaycanda filan-filan şeylər baş verir. O, talanlar haqqında bir söz demədən davam etdi: iğtişaşlar. Nə etməliyik? Qorbaçov gözləri ilə iclas iştirakçılarını süzdü, Primakova:

– Ora get, bax, – sonra Girenkoya, – sən də, – dedi.

Bununla da dağılışdıq. Verilən məlumatlar nəsə bir qeyri-adi, təhlükəli hadisə təəssüratı yaratmırdı.

Mən dərhal şəhər kənarına getdim və artıq orada **Primakovun teleqramı haqqında, qayda-qanun yaratmaq üçün hərbi qüvvədən istifadə etmək qərarı haqqında xəbər tutdum** (seçmə bizimdir – *E.A.*). Primakov teleqramında yazırdı ki, o hərbçi deyil və xahiş edirdi Bakıya müdafiə naziri Yazovu və DTK sədri Kryuçkovu göndərsinlər. Bununla bərabər o, ümumi rəhbərliyi özündə saxlamaqla çox bic hərəkət etmişdi. Kryuçkov oraya öz müavinini göndərdi, Yazov isə özü uçdu. Və bütün bu vurhavur başlandı. Sonra mənə orada baş vermiş bir çox biabırçılıqlardan danışdılar".

Yeri gəlmişkən, "Alatoran" kitabında A.Yakovlev "onun əli qana batmayıb" deməklə M.Qorbaçovu təmizə çıxarmağa çalışır:

"Bakıda, Vilnüsdə, Almatıda, digər yerlərdə axıdılmış qanları onun ayağına yazırlar. Mən bu fikirdə deyiləm. Bu fikri insanların beyninə qanla nəticələnmiş bir çox provokasiyalara görə günahları üstlərindən atmağa çalışan "qəkaçepistlər" yeridirlər. Qorbaçov özü həmişə deyirdi ki, milli və digər münaqişələri güclə həll edə bilməzsən. Ancaq güc strukturları qana susamışdılar, onu axıdırdılar, sonra məlumat verirdilər ki, silah cavab tədbiri kimi tətbiq olunub. Bu, hələ sovet vaxtlarından qalma sınaqdan çıxmış taktika idi"[46].

Keçmiş SSRİ daxili işlər naziri Vadim Bakatin Andrey Karaulova müsahibəsində qoşun yeridilməsinin səbəblərini izah edərkən açıq yalan informasiyaya əl atır, faktları təhrif edir: "...Azərbaycan Ali Soveti Bakıda fövqəladə vəziyyətin tətbiqi haqqında qərar qəbul etmişdi; qərara uyğun olaraq şəhərə qoşun daxil oldu, onlara müqavimət göstərildi, **ancaq qoşun özü qanuni olaraq daxil oldu, burada sovet hakimiyyətini qorumaq məsələsi dururdu** (seçmə bizimdir – ***E.A.***), bu nə Tbilisidir, nə də Vilnüs, çünki Vilnüsdə hər şey əksinə idi, orada qoşunlar qanuni hakimiyyətə qarşı çıxış etmişdilər..."[47]

Bu fikirdə ən azı iki məqam maraqlıdır. Birincisi, Bakatin qoşun yeridilməsi ilə bağlı məsuliyyəti Azərbaycan Ali Sovetinin, Bakının üzərinə atmaq istəyir. Bəs, onlar xahiş etdilər, biz də girdik. İkincisi, daxili işlər naziri açıq-aşkar etiraf edir ki, qoşunlar şəhərə erməni əhalisini deyil, sovet hökumətini müdafiə etmək üçün daxil olmuşdu. Yeri gəlmişkən, sonralar memuarlarında V.Bakatin inkar etmirdi ki, məhz o, Qorbaçovu hamıdan çox fövqəladə vəziyyət elan etməyə və Bakıya qoşun yeritməyə çağırırdı.

Yevgeni Primakovla söhbətdən:

"Bilirsiniz, mənim haqqımda 1990-cı ilin yanvar hadisələri, qoşunların yeridilməsilə bağlı tez-tez danışırlar. Nə deyim...

– Qoşun çıxarmaq qərarını kim qəbul etmişdi? Moskva?

– Şübhəsiz. Qorbaçov özü demişdi axı. Bu yaxınlarda da təkrar etdi ki, buna görə o, məsuliyyət daşıyır. O, həyata keçirib bu işi. Vəzirov elə vəziyyətdə idi ki, hətta intihar etmək istəyirdi. Mən onu vertolyotla apardım.

Mənim yaşım çoxdur, yalan deməyəcəyəm. Və bir şeyi sizə söyləmək istəyirəm. Dörd nəfər – Əbülfəz Əliyev, İsa Qəmbərov, Etibar Məmmədov və Rəhim Qazıyev... Mən onlarla görüşür, dilə tutmağa çalışırdım. Lakin bu insanlar artıq dayana bilmirdilər. Özləri Bakıda komendant saatı elan etdilər, şəhərə yolları bağladılar, bütün hərbi hissələri mühasirəyə aldılar.

Sonra isə, mən Vəzirovun kabinetində olanda, Qorbaçov zəng vurdu, məni telefona çağırıb dedi ki, bu gün Bakıya 35 ya 40 min hərbçi girəcək. Ona dedim ki, hərbi əməliyyata başçılıq edə bilmirəm. O cavab verdi ki, bir saatdan sonra müdafiə naziri və daxili işlər naziri təyyarə ilə çıxırlar".

Əlbəttə, Bakıdakı mitinq ehtiraslarından bərk qorxmuş və güc tətbiq etməyi təklif edən respublika rəhbərliyinin də günahlarını inkar etmək olmaz. Bunu Azərbaycan KP MK burosunun 13, 15, 16, 17 və 18 yanvar tarixli materialları, həmçinin Ə.Vəzirovun və A.Mütəllibovun Moskvaya vurduqları teleqramlar təsdiq edir. AXC-nin ekstremist qanadı da günahkardır. Onların liderləri öz tərəfdarlarını "axıracan durmağa" çağırırdılar, qoşun yeridilməsi labüd olanda isə qorxaqcasına evlərində gizləndilər. Hər halda o müdhiş gecədə onlardan heç biri zərər çəkmədi...

Bakıya qoşun yeridilməsinin operativ himayəsini "Alfa" qrupu təmin edirdi. Yanvarın 19-u saat 20.00-da Azərbaycan Dövlət Televiziyasının enerji blokunun partladılmasını da həmin qrup təşkil etdi. Nəticədə respublikanın əhalisi tam informasiya blokadasına düşdü. Eyni vaxtda "Alfa" dəstəsi Naxçıvan Muxtar Respublikasında peyda oldu. Yalnız Naxçıvan DTK-sının sədri vəzifəsini icra edən Arif Zeynalovun qətiyyəti nəticəsində dəstəyə havalə edilmiş aksiyanın – Xalq Cəbhəsi fəallarının həbs olunmasının qarşısını almaq mümkün oldu.

Arif Zeynalovla söhbətdən:

"Moskvadan "Alfa" qrupu uçub gəlir və mənə deportasiya olunmaq üçün 11 nəfərdən ibarət siyahı verirlər. AXC liderləri: Sülhəddin Əkbərov, İbrahim İbrahimli, Fərəməz Allahverdiyev, Fərəc Quliyev və b. Orada 75-ci motoatıcı diviziyasının öz xüsusi şöbəsi var

idi, 41-ci sərhəd dəstəsi də əks-kəşfiyyat orqanına malik idi. Onlardan heç nəyi gizlədə bilməzsən. "Alfa" sərhəd dəstəsində yerləşdi. Deportasiya olunanlar üçün təyyarə də hazır idi.

Mən siyahıya baxıb deyirəm: "Bir nəfəri də sizə verməyəcəyəm". – "Bu Kryuçkovun göstərişidir!" – "Kryuçkov oturub Moskvada, mən isə burada hələ işləməliyəm! Siz Bakıda səhvə yol verdiniz. Etibar Məmmədovu və Rəhim Qazıyevi həbs etdiniz, onlar Moskvadan qəhrəman kimi qayıdacaqlar. Siz mənimçün burada operativ vəziyyəti qarışdırmayın. Mən ona nəzarət edirəm və buna görə cavabdehlik daşıyıram. Mən bu adamlarla əlaqə saxlayıram, onlar mənə inanırlar".

O vaxt SSRİ DTK Əks-Kəşfiyyat İdarəsi rəisinin müavini general Şeronin bizdə idi, dəstənin döyüşçüləri ilə bir yerdə gəlmişdi. Ona deyirəm: "Əgər biz indi onları həbs etsək, mən Naxçıvana görə cavabdeh deyiləm". O "VÇ"-ni götürüb düz Kryuçkova zəng vurur, məruzə edir ki, NMR DTK sədrinin əvəzi AXC liderlərini deportasiya etməyin qəti əleyhinədir. "Viktor Aleksandroviç, əgər buna getsək, Naxçıvanda vəziyyəti partladacağıq". – "Nədir, "Alfa"nı qaytaraq?" – "Bəli". – "Qaytarın, ancaq özünüz qalın, vəziyyəti öyrənməkdə davam edin".

Xüsusi döyüş bölməsi ("A" qrupu) SSRİ DTK 7-ci İdarəsinin tərkibində 1974-cü ildə yaradılmışdı. SSRİ DTK sədri V.Kryuçkovun 1990-cı il fevralın 16-da Sov.İKP MK-ya göndərdiyi 327-K nömrəli məktubdan bəlli olur ki, o, "terror aktlarına və girov götürülməsinə, xarici nümayəndəliklərin, təyyarə, gəmi və s. nəqliyyat vasitələrinin ələ keçirilməsinə yönəlmiş digər xüsusi cinayətkar qəsdlərin lokallaşdırılması və qarşısının alınması üçün" nəzərdə tutulmuşdu.

Bölmə Moskvada yerləşirdi, peşəkar hazırlıq keçmiş zabit və praporşiklərdən təşkil olunmuşdu, müasir atıcı və xüsusi silahlarla, rabitə və fərdi müdafiə vasitələrilə təmin edilmişdi. Maraqlıdır ki, 20 Yanvar hadisələrindən çox keçməmiş, ölkənin müxtəlif regionlarında "ekstremist təzahürlərindən" qorxuya düşmüş V.Kryuçkov M.Qorbaçovdan Kiyevdə, Minskdə, Almatıda, Krasnodarda, Sverdlovskda yerləşməklə "A" qrupunun, hərəsində 45 nəfərdən ibarət daha 5 regional şöbəsinin yaradılmasına icazə istəyir. Sov.İKP MK Siyasi Bürosunun bu təklifə rəğbətlə yanaşması və SSRİ Nazirlər Sovetinə lazımi göstərişlər verməsi barədə danışmağa ehtiyac yoxdur.

Ə.Vəzirov öz postunu qoyub biabırcasına qaçdıqdan sonra qərara alındı ki, respublika partiya təşkilatına rəhbərlik Azərbaycan SSR Nazirlər Sovetinin sədri Ayaz Mütəllibova həvalə edilsin. Onu və Azərbaycan KP MK Bürosunun daha üç üzvünü Moskvaya Siyasi Büronun iclasına dəvət etdilər. A.Mütəllibovla birlikdə KP MK-nın ikinci katibi V.Polyaniçko, iqtisadiyyat üzrə MK katibi H.Həsənov və Bakı Şəhər Partiya Komitəsinin birinci katibi M.Məmmədov paytaxta yollandılar.

Yeri gəlmişkən, Həsən Əziz oğlu Həsənov hakimiyyətin yuxarı eşelonunda respublika partiya-təsərrüfat fəallarının iclasında SSRİ və Azərbaycan rəhbərliyini kəskin tənqid edən yeganə şəxs idi. Bu barədə Qorbaçova məlumat verilmişdi. Hökumət mətbuatında çıxışın dərcinə qadağa qoyulmuşdu. Lakin görkəmli Azərbaycan jurnalisti Nəcəf Nəcəfovun təşəbbüsü ilə yazı həmin faciəli günlərdə təsis etdiyi respublikada ilk müxalifət qəzeti "Azadlıq"da dərc olundu və böyük əks-səda doğurdu.

Mənimlə söhbət əsnasında **Həsən Həsənov** həmkarları ilə birlikdə iştirak etdiyi Siyasi Büro iclasının təfərrüatlarını yada saldı:

"...Biz Siyasi Büro zalının qəbul otağında idik. Sov.İKP MK-nın işçiləri də burada idilər. Mütəllibovla Məmmədov və Polyaniçko bir yerdə dayanmışdılar, mən kənara çəkildim, pəncərədən baxmağa başladım və sən demə, elə bu zaman toplaşanları iclas zalına dəvət ediblər. Mən içəri daxil olanda artıq hamı uzun stolun arxasında oturmuşdu. Bir tərəfdə Qorbaçov komandası ilə, o biri tərəfdə isə "bizimkilər". Qorbaçov məni görəndə soruşdu: "Siz kimsiniz?" – "Mən MK katibi Həsənovam". – "Biz sizinlə tanışıq?" – "Bəli", – deyirəm. "Nə vaxt tanış olmuşuq?" Bu suala müxtəlif cür cavab vermək olardı. Mənim, bəlkə, on mümkün variantım var idi, mən isə dedim: "1981-ci ildə bizi Heydər Əliyeviç Əliyev tanış edib". Ola bilsin, Qorbaçov da on mümkün variantdan birini eşitməyə hazır idi. Amma o, məhz özü üçün bir o qədər də xoş olmayan variantı eşitdi. "Onda hər şey aydındır, əyləşin", – Qorbaçov bunu deyib, gözlənilmədən söhbəti kəsdi.

Çıxışlar başladı. Polyaniçko çox mətləbdən yan keçirdi. Mütəllibov deyirdi ki, indi günahkar axtarmaq yox, iqtisadiyyatı yüksəltmək lazımdır. Bu, Qorbaçovun xoşuna gəldi və o, dərhal dilləndi: "Düzdür, afərin!". Mütəllibov davam etdi: "Mənim Kanadada tanışlarım var, onların vasitəsilə yeni neft avadanlığı məsələsini həll etmək olar". Bu dəfə də Qorbaçov razı qaldı: "Düzdür!". Sonra Müslüm Məmmədov danışdı. Dedi ki, yeni məktəblər tikmək lazımdır, Qorbaçov onu da təriflədi ki, bəs, düzdür, belə işlərlə məşğul olmaq gərəkdir. Növbə mənə çatanda, dedim ki, başa düşmürəm, bizi bura niyə yığıblar. "Heç kim neft sənayesinin inkişafının, məktəb tikməyin əleyhinə deyil, ancaq indi başqa işlə məşğul olmaq lazımdır. Bakının küçələrində bu gün 19–20 yanvardakından çox adam var, bizdən onları narahat edən suallara cavab gözləyirlər. Komissiya yaratmaq, Bakıda baş verən hadisənin səbəblərini araşdırmaq, günahkarları müəyyənləşdirib, məsuliyyətə cəlb etmək lazımdır. Nə qədər ki, Ermənistanın bizə qarşı torpaq iddiaları aradan qaldırılmayıb, vəziyyətin sabitləşməsinə nail ola bilməyəcəyik". Bundan əlavə, mən Qorbaçovdan Ermənistanın ərazi iddialarının qarşısını almaq üçün qəti tədbirlər görülməsini və Azərbaycanla Ermənistan arasında sərhədlərin möhkəmləndirilməsini tələb etdim. Qorbaçov bütün təkliflərimə və bütövlükdə çıxışıma çox əsəbi yanaşdı, bir neçə dəfə sözümü kəsdi.

Sonradan, Mütəllibov müsahibələrinin birində bu toqquşma haqqında belə demişdi: "Mən çıxış etdim, Məmmədov çıxış etdi, bu, Qorbaçovun xoşuna gəldi, birdən Həsənov Qorbaçovla dava etməyə başladı". Jurnalist, təbii ki, soruşur: "Davanın məğzi nədə idi?". Mütəllibov sualdan yayınaraq cavab verir ki, bəs, yadımda deyil. Bu halda qəzetin əməkdaşları ondan çox siyasətçiyə və politoloqa müraciət edərək Qorbaçovla Həsənov arasındakı münaqişənin mahiyyəti haqqında onların rəyini soruşurlar. Bir çoxlarının cavabı belə olur: "Aydındır nə olub: Həsənov yanvar hadisələri ilə bağlı fikirlərini bildirib və törədilən qırğında birbaşa Qorbaçovu günahlandırıb".

Siyasi Bürodakı müşavirədən dərhal sonra aydın oldu ki, Qorbaçovun mənə qarşı kəskin və qərəzli münasibəti həm də söhbətə Heydər Əliyevin adını çəkməklə başlamağım olub. Biz çıxanda Polyaniçko mənə dedi: "Əliyevi sən nahaq Qorbaçovun yadına saldın" – və həmin gün Heydər Əliyevin Moskvada Azərbaycan nümayəndəliyindəki çıxışından, Qorbaçovun ünvanına Bakı hadisələri ilə bağlı kəskin sözlər dediyindən danışdı. Onda mən başa düşdüm ki, xüsusi bir məqsəd güdmədən Heydər Əliyevin adını çəkməyim yerinə düşüb.

Biz Bakıya gecədən xeyli keçmiş qayıtdıq, səhər isə artıq mənə Heydər Əliyevin Moskvada Azərbaycan nümayəndəliyinin binasında verdiyi müsahibənin videokassetini gətirdilər. Mən ona diqqətlə qulaq asdım, ancaq o günlərdə onu televiziyada göstərmək, qəzetlərdə dərc etmək mümkün olmadı. Yaxşı ki, ətrafımda Heydər Əliyevə inanan adamlar kifayət qədərdi, videokasset sadə köçürmə üsulu ilə kütləvi şəkildə bütün Azərbaycanda yayılmağa başladı. Xalqımız başa düşdü ki, tək deyildir. Beləliklə, tarixi zərurət və Azərbaycanın düşdüyü böhran vəziyyəti yenidən Heydər Əliyevi fəal siyasi meydana gətirib çıxardı. Və o, yenidən Tarixdə qəti sözünü dedi".

Sistem böhranının dərinləşməsi

1987–1988-ci illər o dövr tədqiqatçılarının fikrincə yenidənqurmanın sonuncu az-çox sabit dövrü idi (o da bir sıra müttəfiq respublikalarda artan separatçılıq hərəkatları nəzərə alınarsa olduqca nisbi idi). Sonra siyasətdə və iqtisadiyyatda böhran hallarının dərinləşməsi başladı. Sürətlənən və vüsət alan bu vəziyyət bir neçə ildən sonra hətta Qərbin aparıcı dövlətlərinin gözləmədiyi halda SSRİ-nin dağılması prosesinə gətirib çıxaracaqdı. Bu gün bəzi Rusiya politoloqları Sovet İttifaqına qarşı "böyük qəsd" nəzəriyyəsini əsaslandırmağa çalışaraq kitablar yazsalar da* o illərdə Qorbaçovun yanında olmuş şəxslərin, yaxud əsas hadisələrin bilavasitə iştirak-

* Belə kitablardan biri: A.Şevyakin. "SSRİ-nin məhv olmasının sirri". Dövrü keçmiş sosial-siyasi və iqtisadi sistem kimi Sovet İttifaqının dağılmasının təbii xarakteri haqqında fikirləri təkzib etməyə çalışan müəllif SSRİ-nin darmadağın edilməsində ABŞ analitik-informasiya institutlarının və texnologiyalarının iştirakını müfəssəl işıqlandırır.

çılarının xatirələri təsdiq edir: yenidənqurmanın iflası daha çox subyektiv səhvlərin, hakim elitanın sərişləsizliyinin, ötən əsrin 80-ci illərində Qorbaçov və onun komandasının başladığı tələsik və düşünülməmiş eksperimentlərin nəticəsidir. Bunu nəinki sonuncu Baş katibin opponentləri, həmçinin onun yaxın əhatəsinə daxil olanlar da təsdiqləyir. Söz onlarındır.

V.Leqostayev:

"Partiya rəhbərliyinə Qorbaçov gələndən sonrakı illərin sırasında 1987-ci ilin tutduğu yerə dair öz fikirlərimi söyləyəcəyəm. Məsələnin mənzi məncə bundadır ki, **həmin** ildə inkişafımızın təməl prinsiplərində və məntiqinin özündə prinsipial dəyişikliklər baş verdi: təkamül dəyişikliyi məntiqindən hakimiyyət uğrunda qarşısalınmaz mübarizə məntiqinə doğru. Bu zaman tədricən hər şey oyuna qoyulmuşdu – partiya da, xalq da, ölkənin mövcudluğu da. Əgər 1987-ci ilə qədər Siyasi Büronun, Katibliyin və Hökumətin vahid məcrada ahəngdar fəaliyyətindən danışmaq hələ mümkün idisə, 1987-ci il ərzində ali partiya-dövlət orqanlarının fəaliyyətində son nəticədə bütün digərlərini özünə tabe edən siyasi maraqlar, hakimiyyət maraqları ön plana çəkildi. 1987-ci ildən sonra siyasət öz şərtlərini iqtisadiyyata birbaşa diktə etməyə və dövlətin həyatında total xarakter almağa başladı. Məhz hadisələrin belə gedişi daha hakimiyyətin, necə deyərlər, "çoxsaylı səhvləri" yox, nəticə etibarilə 1991–1992-ci illər ərəfəsində düşdüyümüz vəziyyəti irəlicədən müəyyənləşdirdi"[48].

V.Falin:

"M.Qorbaçovun vaxtına əlverişsiz amillər çələngi düşmüşdü – siyasi, hərbi, texnoloji, sosial-iqtisadi, milli. Bu cür mürəkkəb vəziyyətin öhdəsindən isə dövlət xadimi lap üçqat dahi olsa belə, təkbaşına gələ bilməz. M.Qorbaçov avtoritar rejimi saxlayıb gücləndirməklə, hər şeyi öz əlində cəmləşdirməklə, doğru və səmərəli anlayışını, sistemin davamlılıq həddini, siyasət və mənəviyyatın, söz və əməlin, tam və hissənin nisbətini öz subyektiv düşüncə və görüşləri ilə ölçməklə ölkəyə regenerasiya üçün, Sovet İttifaqının səmərəli fəaliyyət göstərən müasir federasiyaya çevrilməsi üçün verilən şansı kökündən kəsdi.

Təkhakimiyyətlilik şəraitində şəxsiyyətin böhranı qaçılmaz surətdə sistemin və dövlətin böhranına, şəxsiyyətin siyasi tənəzzülü SSRİ-nin dağılmasına gətirib çıxardı. Özünü dəyişə bilməmək, hakimiyyətə istədiyini etmək, nəzarətsizlik kimi baxmaq düşüncəsini dəyişə bilməmək yenidənqurmanın faktiki olaraq hələ start götürməmiş konstruktiv məqsədlərinə çıxarılan ölüm hökmü oldu"[49].

G.Züqanov:

"Bizim axı elə nəhəng, mürəkkəb ölkəmiz vardı ki, hər hansı böyük qərar əvvəlcə mütləq diqqətlə, hərtərəfli düşünülməli, təcrübədə yoxlanılmalı idi. Kaliningrad üçün yarayan Kamçatkanı qane etməyə bilərdi. Həmişə həm milli özünəməxsusluq, həm də coğrafi vəziyyət nəzərə alınmalı idi. Bəs 1986-cı ildən nə başladı? Yenidənqurma – demokratikləşdirmə, demokratikləşdirmə – yenidənqurma... Yaxşı öyrədilmiş tutuquşu kimi təkrar edirdilər. Səylərin əlaqələndirilməsini nəzərə alan, resursları səfərbər edən heç bir hesablanmış layihə irəli sürmədilər, fəaliyyətlərində hər hansı sapma olanda elementar düzəlişlər aparmaq barədə düşünmədilər. Hakimiyyət tərəfindən öz hərəkətlərinin real qiymətləndirilməsi də yox idi. Amma naqis sistem qurulmuşdu: seçilmiş siyasətin düzgünlüyünü cəmiyyət tərəfindən şübhə altına almaq, ölkə üçün dağıdıcı nəticələr verəcəyini bildirmək istiqamətində ən kiçik cəhd göstəriləndə "qələm" və "mikrofonlardan" ibarət böyük diviziya coşmuş goreşənlər kimi opponentlərin üstünə atılaraq onlara "mühafizəkar", "yenidənqurmanın düşməni" yarlıqları yapışdırır, amansız təqiblərə başlayırdı"[50].

Y.Liqaçov da memuarlarında bu barədə yazır:

"Sağ radikal A.N.Yakovlev çoxdan ötüb-keçmiş günlərin ən pis ənənələrinə uyğun yenidənqurma düşməni obrazını icad etmişdi. Maraqlıdır ki, bu termin – "yenidənqurma düşməni" – yenə də ilk dəfə "Moskovskiye novosti" qəzetinin səhifələrində meydana çıxdı. Fəlsəfi anlamda siyasətin bu ziqzaqı mahiyyət etibarilə o demək idi ki, "yenidənqurma" anlayışının özü xəlvətcə "böyük sıçrayış" məfhumu ilə əvəz olunurdu. Tədriciliyə və ardıcıllığa, sosializmin təməl prinsiplərinin dəyişilməməsi şərtilə onun yeniləşməsi prosesinə üstünlük verərək bu sıçrayış qarşısında ehtiyatlı hərəkət edənlər keçmiş bürokratik-amirlik metodlarının tərəfdarları, tormozlayı-

cı qüvvələr, ümumilikdə isə – siyasi simvol kimi – mühafizəkarlar adlandırılırdılar"[51].

V.Vorotnikov:

"...Siyasi yenidənqurmalar diqqəti iqtisadi islahatlardan yayındırdı. Hüquqi və iqtisadi bazalar hazırlamadan, ənənəni, ölkənin xüsusiyyətlərini nəzərə almadan iqtisadiyyatdan dövlət-siyasi islahatlara bu dərəcədə radikal keçid ölkədə dövlət və təsərrüfat strukturları arasında üfiqi və şaquli əlaqələrin qırılmasının əsas səbəblərindən biridir. Məhz bu, siyasi qeyri-sabitlik yaratdı, iqtisadiyyat siyasətin girovuna çevrildi. Bu cür tədbir müttəfiq respublikaları deklarasiyalara, sonra isə müstəqillik, suverenlik uğrunda fəaliyyətə sövq etdi. Bu illərdə üzə çıxmış millətlərarası münaqişələrin də kökü buradadır"[52].

Və sonra:

"Yenidənqurma prosesləri, xüsusən də MK-nın yanvar (1987-ci il) Plenumundan sonra, rəhbərlikdə, partiyada, cəmiyyətdə birmənalı qarşılanmırdı. Səbr və ardıcıllıq, düşünməyə çağırış bəzilərinə mühafizəkarlıq kimi görünürdü. Bu, daxilində bəlli olmayan nəticələr gizlənmiş aldadıcı tendensiya idi. Məhz 1987-ci ildən başlayaraq artıq 1988-ci ilin əvvəlində konkret olaraq belə bir fikir formalaşdı ki, demokratiyaya ənənəvi mühafizəkar münasibət iqtisadiyyatın və idarəetmənin gələcək inkişafına əngəl törədir. Odur ki, təcili və köklü surətdə dövlət-siyasi islahatı, dövlət strukturlarının bütün səviyyələrdə "əsil demokratikləşdirilməsi" lazımdır.

...Bizim əsas bəlamız ondan ibarət idi ki, siyasi islahatların təşkilati proseslərində möhkəm ilişib qalmışdıq. Özü də siyasi islahatlar, dövlət strukturlarının yenidən qurulması sahəsində işlər bir-birinin üstünə gəlirdi. Bütün səviyyələrdə deputatların seçilməsi, qurultay, sessiya və plenumların keçirilməsi, insanlara aparılan dəyişikliklərin mahiyyət və mənasının başa salınması külli miqdarda vaxt və böyük diqqət tələb edirdi. Partiya və sovetlərin bütün əsas qüvvəsi işə qoşulmuşdu. Nəticədə biz nəinki iqtisadiyyata kömək edə bilmədik, hətta başımız söz və kağız döyüşlərinə o qədər qarışdı ki, iqtisadi problemlərdən aralandıq. İqtisadiyyatı həqiqi mənada yaddan çıxardıq. Ona görə də 1988-ci ildə xalq təsərrüfatında işlər pis getdi, 1989-cu ildə – daha da betər. Bu da siyasətə baş qoşanların sayını artırdı. Hara gəlib çıxdıq? Bu, səhv idimi, yenidənqurma xəttinin həyata keçirilməsində taktiki nöqsan idimi, yoxsa yenidənqurmanın bəyan edilmiş strateji məqsədlərindən düşünülmüş, iblisanə geri çəkilmə planı? Əsas sual budur"[53].

V.Medvedev:

"Bu arada iqtisadiyyatın dərinliyində olan neqativ amillərin təsiri artırdı. 1988-ci il bu mənada sonuncu az-çox müvəffəqiyyətli il oldu. Sonra ciddi çətinliklər başladı, ilk növbədə istehlak bazarına zərbə vurmuş əsil iqtisadi böhran yaxınlaşırdı. Onu elə qeyri-sabit vəziyyətə gətirmişdilər ki, hətta kiçik, təsadüfi nöqsanlar belə ciddi nəticələrə, ajiotajlı tələbat partlayışlarına səbəb olurdu. Açıq satışdan gah qənd yoxa çıxırdı, gah qənnadı məmulatları, gah diş cövhəri, gah sabun və yuyucu toz, gah məktəbli dəftərləri, gah batareyalar. Ət, ayaqqabı, xəz məmulatları və s. haqqında isə heç danışmağa dəyməz"[54].

V.Leqostayev:

"Siyasətinin iflasa uğraması hamıya aydın olduğu zaman M.S.Qorbaçov qəzetlərdə yer alan çoxsaylı müsahibələrində, çıxışlarında inadla ictimai düşüncəyə təlqin edirdi ki, guya o, MK Baş katibi vəzifəsinin ona verdiyi qeyri-məhdud hakimiyyətdən demokratiya idealları naminə könüllü imtina etmişdir. Məsələn, 14 dekabr 1991-ci il tarixli "Nezavisimaya qazeta"ya verdiyi müsahibədə o, iddia edirdi: "Tarixin müəyyən dövründə qismətimə düşən hakimiyyətdən özüm imtina etmək qərarına gəldim". Düşünürəm ki, onun bu sözləri həqiqətə nəinki uyğun deyil, hətta tamamilə ziddir. Həqiqətdə Sov.İKP MK-da, xüsusilə də onun ali rəhbərliyində kifayət qədər tez başa düşdülər ki, M.S.Qorbaçovun Baş katib vəzifəsinə seçilməsi bağışlanmaz səhv idi. Mövcud vəziyyət hakimiyyətə yaxın olan daha çox adam tərəfindən dərk edildikcə M.S.Qorbaçovun mövqeləri tədricən zəifləyirdi. Onu gündəlik təsərrüfat həyatındakı konkret problemlərin həllindən mümkün qədər uzaqlaşdırmağa, məsuliyyət yükünü qismən Siyasi Bürodan MK Katibliyinin üzərinə keçirməyə çalışırdılar. Hakimiyyətin yavaş-yavaş əlindən çıxdığını hiss edən M.S.Qorbaçov, onu saxlamaq üçün əvvəlcə bəzi yaxın silahdaşlarına, sonra Sov.İKP MK-ya və bütövlükdə partiyanın peşəkar qurumlarına qarşı, sonra isə öz Baş katibindən

qurtulmağa çalışan bütün Sov.İKP-yə qarşı gizli mübarizə aparmağa başladı.

Əlbəttə, hər hansı bir siyasətçi üçün hakimiyyəti əlində saxlamaq uğrunda mübarizə, hər bir insanın nəfəs alması qədər təbiidir. Əslində siyasətin havası elə hakimiyyətdir. Mənəvi problemlər siyasətçinin hakimiyyəti öz əlində saxlamaq üçün ödəməyə razı olduğu qiymətdən söz düşəndə ortaya çıxır. Odur ki, əgər o özünün şübhəli şəxsi siyasi iddiaları kartına nəhəng dövlətin və xalqın taleyini qoyursa, bu halda "mənəviyyatlı insan" barədə danışmağa dəyməz. Ancaq mənim müşahidələrimə görə M.S.Qorbaçov məhz belə bir iş görmüşdü..."[55].

A.Yakovlev:

"Cinayətkarlıq, korrupsiya, bürokratizm ilə mübarizəyə çağıran çox sözlər işlənmişdi, ancaq çağırışlardan əməli işə keçməyə biz heç cür nail ola bilmədik. Mən tez-tez bu suallarla Mixail Sergeyeviçin zəhləsini tökürdüm, o isə yaxınlaşmaqda olan təhlükəni tam mənada qiymətləndirə bilmədi. Bu mövzuda söhbətlərin birində o dedi: "Yaxşı, məşğul ol bununla". Və o qədər "səxavət" göstərdi ki, katibliyimə əlavə məsləhətçi götürməyə razılıq verdi. Mən biriki dəfə güc və hüquq-mühafizə idarələrinin rəhbərlərini yığdım və onların əməkdaşlıq etmək istəmədiklərinə əmin oldum. Belə hallarda həmişəki kimi konkret tədbirlər "işləyib hazırlamaq" barədə razılaşdıq. Bununla da məsələ bağlandı. Heç kim heç nə etmək istəmədi. Mixail Sergeyeviçin isə ümumiyyətlə, bu əlaqələndirici qrup heç yadına düşmədi"[56].

M.Qorbaçovun köməkçisi A.Çernyayevin gündəlikləri sonuncu Baş katib üçün "baş ağrısına" çevrilmişdir. Bu gündəliklərdə Qorbaçovun əhatəsində hökm sürən intizamsızlıq, çəkişmə, xırda intriqalar, bu və ya digər məsələnin həllinə vahid yanaşmanın, partiya və dövlət intizamının olmaması öz əksini tapmışdır. Qorbaçov həm sağdan, həm də soldan tənqid edilir, yaxın əhatəsi onun sözünə baxmır, ona nəsihət verir. A.Çernyayevin özü etiraf edir ki, söz çox idi, iş isə az. Həddini aşan isə çaşqınlıq və anlaşılmazlıq idi – bundan sonra hansı istiqamətdə getmək lazımdır – bilinmirdi:

"...1989-cu ilin əvvəlində, yəni yenidənqurma başlanandan dörd il sonra, irəliyə sıçramaq imkanı var idi. Ancaq hara sıçramağı görmək lazım idi... O, yanvarın 18-də "üçtərəfli komissiya" (Rokfeller, Kissincer, Jiskar d'Esten, Nakasone) üzvlərinə dedi: "Yeni problemləri keçmişin əsasında həll etmək çətin ki mümkün ola". Lakin hansı əsaslarla? Ümumbəşəri dəyərlər yeni siyasi oriyentasiyaya and içmək qədər çox vacibdir. Lakin praktik siyasət üçün əlavə nəsə lazım idi. Heç kim bilmirdi ki, hara və necə irəliləmək lazımdır"[57].

M.Qorbaçov özü həmişə tərəddüd edirdi, qətiyyətsiz idi, ardıcıllığı ilə seçilmirdi. İdeoloji ehkamlardan yaxa qurtarmağa çağıraçağıra, özü bu ehkamlardan yapışıb qalmışdı, çoxpartiyalılıqdan danışırdı, lakin uzun müddət buna keçməyə, respublikalara real müstəqillik verməyə cürət etmirdi (itaətsizlik göstərənləri Vilnüsdə, Bakıda olduğu kimi tank və silah gücünə ram etməyə üstünlük verirdi). O, ölkədə olan-qalan nüfuzunu itirirdi, vurnuxurdu, artıq həm MK-da, həm Xalq Deputatları Sovetlərinin qurultayında ona aşkar gülürdülər. Çernyayev gündəliyində yazmışdı: "Nə qədər həlledici mərhələnin (məqamın, həddin və s.) başlanmasını elan edərək Rubikonu keçməmək olar?".

Bu xüsusiyyətlərində M.Qorbaçov H.Əliyevin tam əksidir. H.Əliyev azacıq da olsa həmişə zamanı qabaqlayırdı. Variantları saya bilirdi, qəbul etdiyi qərarların nəticələrini irəlicədən görməyi bacarırdı. Üstəlik H.Əliyev siyasətçi üçün çox önəmli bir xüsusiyyətə malik idi: o, dəyişən şəraitə uyğun olaraq dəyişirdi. Məsələn, 80-ci illərin ortalarında H.Əliyev ölkədə şəxsi mülkiyyətin tətbiq olunmasının əleyhinə idi və bu barədə A.Karaulova verdiyi müsahibədə açıq söyləyirdi. Lakin hakimiyyətə gələndə – əvvəlcə Naxçıvanda, sonra bütün respublikada, gördüyü ən birinci iş şəxsi mülkiyyətin tətbiq edilməsi, torpağın özəlləşdirilməsi, bazar iqtisadiyyatının inkişafı oldu. O, həmişə zamanın nəbzini tutur, eyni zamanda islahatları düşünülmüş, perspektivi nəzərə alaraq aparırdı.

Zəif liderin güclü komandası olmalıdır. M.Qorbaçov zəif lider idi, ancaq onun ətrafında güclü həmfikirlər komandası yaranmadı ki yaranmadı. Qorbaçovsayağı yenidənqurmanın iflasa uğramasının bir səbəbi də budur.

"Daha belə yaşaya bilmirəm!.."

Sevil Əliyeva ilə söhbətdən:

– Heydər Əliyev niyə Bakıya qayıtmaq qərarına gəldi? Bu fikir onda nə vaxt yetişdi? Necə bilirsiniz?

– Atamın Azərbaycan nümayəndəliyindəki çıxışından dərhal sonra iyrənc "Əliyevşina və ya "gözəl" vaxtlar üçün göz yaşları" məqaləsi çıxdı. Onda o, tədricən siyasətə qayıtmağı qərara aldı. Təkan, əlbəttə ki, yanvar hadisələri oldu.

Yeri gəlmişkən, o vaxt mən birinci dəfə Əjdər Xanbabayevi – mehriban, ziyalı insanı gördüm. O, çox istəyirdi ki, atam Vətənə qayıtsın. Xanbabayev bizim yanımıza bağa da gəlirdi, şəhərə də.

Atamın Bakıya gəlməsi mayın 30-na planlaşdırılırdı. Bundan bir gün əvvəl isə İlham Bakıya gəlməli idi. Elə həmin gün, mayın 29-u Əjdər Xanbabayevi öldürdülər.

Atam heç nəyə baxmadan Azərbaycana qayıtdı. O bizə dedi:

– Mən gedirəm Vətənə, daha belə yaşaya bilmirəm".

Həsən Zeynalovun xatirələrindən:

"Heydər Əliyev Azərbaycan Kommunist Partiyasının XXXII qurultayına Naxçıvandan nümayəndə seçilmişdi. Fikir var idi ki, Heydər Əliyev mütləq qurultaya gələcəkdir, çünki MK bürosu üzvlərinin əksəriyyəti onun kadrları idi. Onlar bununla əlaqədar təşəbbüs göstərməli idilər. Bir çox sıravi partiya üzvləri onun qayıtmasını və Azərbaycan Kommunist Partiyasına rəhbərlik etməsini istəyirdilər. Biz, bir qrup ziyalı, o vaxt Leninin adını daşıyan sarayın qabağına toplaşmışdıq. Sarayı hər tərəfdən DİN qoşunları sıx mühasirəyə almışdı. Onlara o vaxt Bakı Şəhər Baş Milis İdarəsinin başçısı Nofəl Kərimov rəhbərlik edirdi. Biz gözləyirdik, bilirdik ki, adətən Heydər Əliyev iclasın başlanmasına 10-15 dəqiqə qalmış gəlir. Onun təhlükəsizliyini təmin etmək istəyirdik, başa düşürdük ki, ona qarşı fiziki provokasiyalar da ola bilər. Mən Kərimovun müavininə yanaşıb onun diqqətinə çatdırdım ki, Əliyevin qatı düşməni olan adamlar buradadırlar. Ağa Axundovun rəhbərlik etdiyi "Qardaşlıq" cəmiyyətinin üzvləri saraya yaxınlaşdılar və "Rədd ol Bakıdan!", "Bakı, bakılılar üçündür!" şüarlarını və Heydər Əliyevin əleyhinə olan digər plakatları çıxartdılar. Mən Kərimovun müavinini xəbərdar etdim ki, əgər onlar Əliyevə qarşı hər hansı aksiyaya əl atsalar, qarşıdurma yarana bilər, çünki burada onu müdafə edənlər vardır və bu halda məsuliyyət sizin üzərinizə düşəcəkdir. Qurultayın başlanmasına təxminən 15 dəqiqə qalmış Heydər Əliyevin gəlişini gözləyən bu adamlar Lenin Sarayının qabağında durdular və bu anda dava düşdü. Yadımdadır, davada Xalq Təsərrüfatı İnstitutu coğrafiya kafedrasının müdiri, vaxtilə mənə dərs demiş Adil müəllim də iştirak edirdi. Ahıl yaşlı bu adam baş verənlərə dözə bilməyib Ağa Axundova sillə vurmuşdu. Belə vəhşi aksiyalarla hakimiyyət Heydər Əliyevin qarşısını kəsməyə çalışır, bütün qüvvələri ermənilərlə müharibəyə yönəltmək əvəzinə daxildə qarışıqlıq yaradırdı".

Əliyevin tərəfdarları onun qurultaya gəlməsini əbəs yerə gözləyirdilər. O, ümumiyyətlə, Bakıda yox idi, son məqamda fikrini dəyişmiş və bileti qaytarmışdı. Azərbaycan Kommunist Partiyasının XXXII qurultayı ərəfəsində nələr baş verdiyi, Qorbaçovun Moskvada, Mütəllibovun isə Bakıda Heydər Əliyevin gəlməsindən niyə bu qədər qorxuya düşdükləri barədə bir neçə il keçdikdən sonra "Literaturnaya qazeta"nın 26 iyun 1996-cı il tarixli nömrəsində bütöv bir səhifədə dərc olunmuş "Naşirin qətli" kriminal oçerkimdə yazmışam. Respublika mətbuatında bu yazı "Bir cinayətin tarixi" ("Panorama", № 108, 29 iyun 1996-cı il) sərlövhəsi ilə çıxdı. Oçerk böyük əks-səda doğurdu, bir sıra xarici KİV-lərdə dərc olundu. Sonradan İsa Nəcəfovla birlikdə cinayət işinin materialları əsasında "Naşirin qətli" kitabını yazdıq. Sovet xüsusi xidmət orqanlarının keçmiş şefi V.Kryuçkov isə məndən incidi və ömrünün sonuna kimi barışmadı. Hər halda mən onun ev telefonunun nömrəsini tapıb onu təkidlə müsahibəyə dəvət edəndə, o eyni cür təkidlə razı olmurdu. Bir dəfə isə hirslənib dedi: "Siz DTK haqqında pis kitab yazmısınız". Nə olsun, mənə elə gəlir ki, bu cür rəy çox şeyə dəyər. Həmin oçerki oxucuların diqqətinə təqdim edirik.

Bir cinayətin tarixi

(Proloq, epiloq və üç fəsildən ibarət siyasi detektiv)

Elmira Axundovanın "Naşirin qətli" adlı məqaləsi "Literaturnaya qazeta"da bəzi ixtisarlarla çap olunub. Məqalə müəllifi həmin yazının tam mətnini qəzetimizə təqdim edib. "Panorama" bunun üçün Elmira xanıma minnətdarlığını bildirir.

...1990-cı il mayın 30-da şəhərin yuxarı məhəlləsindəki küçələrin birində "Azərnəşr"in direktoru Əjdər Xanbabayevi öz maşınında güllə ilə vurdular. Tanınmış poliqrafçının öldürülməsi bütün Bakını sarsıtdı. Ə.Xanbabayev, ümumiyyətlə, tanınmış və hörmətli şəxsiyyət idi. Hətta məsələ onun peşəkarlıq məziyyətlərində də deyildi. Düzdür, əslində o, ən ali dərəcəli peşəkar idi. Onun həyatdan faciəli surətdə getməsi respublikanın kitab nəşri işinə çox böyük zərbə vurdu. 10 cildlik "Azərbaycan ensiklopediyası"nın, 50 cildlik "Dünya uşaq ədəbiyyatı"nın, "Dünya ədəbiyyatı kitabxanası"nın ilk 30 cildinin Azərbaycan dilində işıq üzü görməsi Ə.Xanbabayevin adı ilə bağlıdır. Lakin bütün sadalananlarla yanaşı, Əjdər Rza oğlu son dərəcə xeyirxah və ziyalı insan idi. Dəfn günü Azərbaycan ensiklopediyasının ağzınacan dolu akt salonunda iştirak edənlərin çox güman ki, hər biri onun qayğı dolu diqqətini, maddi və mənəvi dəstəyini bir vaxtlar hiss etməmiş deyildi.

Mən Əjdər Rza oğlunu çox yaxşı tanıyırdım. Belə ki, on il Azərbaycan Yazıçılar İttifaqında məsləhətçi işləmişəm və Yazıçılar İttifaqı üzvlərinin nəşriyyat işlərilə əlaqədar, demək olar, hər gün onunla ünsiyyətdə olurdum. O, bədii tərcümə, elmi publisistika ilə maraqlandığımı görüb hər vasitə ilə məni həvəsləndirərdi. Beləcə mənim də püxtələşib dirçəlməyimə kömək etmişdi.

Ə.Xanbabayevin yaradıcı gəncliyə münasibəti xüsusi bir söhbətin mövzusudur. 80-ci illərin ortalarında Ə.Xanbabayevin köməyilə "Yazıçı" nəşriyyatında tərcümələrimdən ibarət "Gənc Azərbaycan nəsri" adlı ilk məcmuəm nəşr olundu. Bir müddət sonra isə namizədlik dissertasiyam əsasında yazdığım monoqrafiyanı çap etdirməkdə köməyini əsirgəmədi.

Bir sözlə, bu insanın xeyirxah əməllərini sadalamaqla qurtaran deyil. Məhz buna görə də Xanbabayevin həyatını yarımçıq qoyan o güllə dəhşətli dərəcədə absurd görünürdü.

O vaxt təsəvvürümüzə də gətirməzdik ki, "Azərnəşr"in direktorunun öldürülməsi barədə təhqiqat işi illərlə davam edəcək, əldən-ələ keçəcək və ümidsiz iş kimi dəfələrlə arxivə təhvil veriləcək. Yalnız altı il ötəndən sonra qatillər müttəhimlər kürsüsünə əyləşəcək, iz gedib ən ali dairələrə çıxacaq. Nəticədə istintaq orbitinə elə adamlar düşəcəklər ki, onlar nəinki Azərbaycanın, həm də keçmiş SSRİ-nin taleyini müəyyən etmişdilər. 44808 saylı iş özü maraqlı detallarla, təfsilatlarla o qədər zəngindir ki, ondan istifadə edib sənədli detektiv yazmaq və yenidənqurmadan sonrakı dövrdə Azərbaycanda hakimiyyət uğrunda gedən mübarizəni öyrənmək olar.

Ə.Xanbabayevin qətlinin icraçılarının məhkəmə prosesindən sonra cinayət işinin altı cildi ilə tanış olmaq, əməlinə və nəticəsinə görə çox ağır cinayətin açılmasında iştirak etmiş adamlarla söhbət etmək imkanı qazandım.

I fəsil
"İstintaq bitdi, onu yaddan çıxarın!"

Ə.Xanbabayevin öldürülməsinin ertəsi günü, yəni mayın 31-də Bakı Şəhər Prokurorluğu 44808 saylı cinayət işi qaldırdı. Hadisə yerinə baxış keçirilməsi, şahidlərin və mərhumun qohumlarının dindirilməsi faciənin bəzi-bəzi təfərrüatlarına işıq salırdı. "Makarov" tipli tapançadan atəş açılmışdı. Qatil öz qurbanını Poluxin küçəsindəki evin yanında öldürmüşdü. Burada Xanbabayevin bir neçə ay əvvəl həyatdan getmiş yaxın dostunun ailəsi yaşayırdı. Xanbabayev mərhum dostunun uşaqlarına himayədarlıq etməyi özünə borç bilirdi və tez-tez bu evə baş çəkirdi. Qatil tək olmayıb. Bir qədər aralıda "Jiquli"də onu daha iki nəfər gözləyirmiş. Şahidlərdən biri – Fuad Abdullayev hadisə zamanı Poluxin küçəsindən keçirmiş. O, atəş səsi eşidir, sonra isə əlində tapança tutmuş bir kişinin ona tərəf qaçdığını görür. "Onun əlamətləri yaxşı yadımdadır. Həmin adam maşına oturana kimi ona baxdım", – deyə F.Abdullayev qatilin bütün əlamətlərini müstəntiqə təsvir edir. O vaxt – 90-cı ildə bu ifadəyə xüsusi diqqət vermədilər. Hətta qatilin fotorobotunu da tərtib etmədilər. Yalnız beş il keçəndən sonra Fuad Abdullayev təzədən müstəntiqin yanına çağırılacaq və verdiyi ifadəni bir daha təsdiq edəcək. O bildirəcək ki, xeyli vaxt keçməsinə baxmayaraq,

Xanbabayevin qatilini indi də görsə tanıyar. Cani həmin vaxt artıq həbs edilmişdi və F.Abdullayev, doğrudan da, üzləşdirmə prosesində onu başqa adamların arasında tanıdı.

Bu, hələ sonra olacaq. Hələlik isə istintaq müxtəlif versiyalar işləyib hazırlamaqla məşğul idi. Düzdür, cinayət işinin materialları əsasında fikir yürüdərkən prokurorluq nədənsə saysız-hesabsız versiyalardan yalnız "məişət" versiyası, yəni guya qisas almaq və qısqanclıq zəminində öldürülməsi versiyası üzərində dayandı.

Mümkün ola bilən münaqişə vəziyyətini aşkar etmək üçün mərhumun qohumlarını çək-çevirə saldılar, onun intim əlaqələrini müəyyənləşdirməyə çalışdılar. Ə.Xanbabayevin 60 yaşı olmasına baxmayaraq, gözəgəlimli kişi idi, özü də dul idi. Lakin bu yöndə aparılan axtarışlar heç bir bəhrə vermədi. Özü də kimsə Bakıda belə bir şayiə yaymışdı ki, guya Xanbabayev öz ölümünə özü bais olub, qadın üstündə öldürülüb.

1990-cı il iyunun 29-da Xanbabayevin qardaşı İsmayıl şahid qismində istintaqa bildirir ki, hüquq-mühafizə orqanlarının tutduğu mövqe ona aydın deyil. "Belə təsəvvür yaranır ki, istintaqı belə bir məcraya kimsə qəsdən yönəldir. Guya Ə.Xanbabayev özü cinayətkardır".

Onun qohumlarının və tanışlarının bəziləri artıq o vaxt bu qətlin həqiqi səbəbini anlamışdılar. Ancaq susmağı üstün tuturdular. Etiraf anı hələ yetişməmişdi.

1991-ci il yanvar ayının 30-da Bakı Şəhər Prokurorluğunun böyük müstəntiqi Q.Əlixanov özünün gücsüz olduğunu etiraf etdi: "Cinayəti törədənin şəxsiyyəti məlum edilmədiyinə görə, 44808 saylı cinayət işi üzrə ibtidai istintaqın icrasına xitam verilsin".

II fəsil
"Xanbabayevi öldürdülər ki, məni qorxutsunlar, Azərbaycana gəlməyimə mane olsunlar"

(Naxçıvan MR Ali Məclisinin sədri H.Əliyevin dindirilmə protokolundan, 2 noyabr 1992-ci il)

44808 saylı cinayət işi arxivdə yatan bir zamanda Azərbaycanda növbəti hakimiyyət dəyişikliyi oldu. Moskvaya qaçan Mütəllibovun əvəzinə siyasi səhnəyə öz cavan komandası ilə Elçibəy gəldi. Bu komandanın üzvlərindən biri, Bakı şəhər prokuroru Çingiz Qəniyev Əjdər Xanbabayevin öldürülməsi barədə işin istintaqını bərpa etməyi qərara aldı. Təxminən elə həmin vaxt "Müxalifət" qəzetində tanınmış hüquqşünas Adil İsmayılovun DTK-nın sabiq sədri Vaqif Hüseynova açıq məktubu dərc edildi. Bir çox başqa suallarla yanaşı, belə bir sual da verilirdi: "Etibarlı mənbələrdən mənə məlum olmuşdur ki, Ə.Xanbabayev həlak olmamışdan bir qədər əvvəl DTK onu "hədəfə götürüb". Xanbabayevin hərəkətləri izlənir, onun telefon danışıqlarına qulaq asılırmış.

Xanbabayev öldürüldükdən sonra DTK-nın əməkdaşları onun xidməti kabinetinə daxil olub və orada quraşdırılmış cihazları çıxarıblar.

Deyin görüm, hansı səbəbə görə Xanbabayev izlənirdi? Əgər onun öldürülməsində DTK-nın əli yoxdursa, bəs onda nəyə görə onun izlənilməsinə dair materiallar istintaqa təqdim olunmayıb?".

Bu suala Vaqif Hüseynovun əvəzinə Bakı Şəhər Prokurorluğunun xüsusilə mühüm işlər üzrə müstəntiqi, 1992-ci il oktyabrın 1-də 44808 saylı işi icra üçün qəbul edən Rahib Həsənov cavab verdi. Bundan bir qədər əvvəl R.Həsənov Rusiyadan köçüb Azərbaycana gəlmişdi. Onun enerjisi aşıb-daşır, hansısa ağır bir cinayətin üstünü açmaqla fərqlənmək üçün əldən gedirdi.

– Materialı öyrəndikdən sonra başa düşdüm ki, bu işdən məişət motivinin qoxusu gəlmir, – deyə Həsənov mənimlə söhbətində bildirdi.

Onu da anladım ki, nəşriyyatın direktorunun öldürülməsi müəyyən dərəcədə H.Əliyevlə, daha doğrusu, onun Azərbaycana qayıtmasına mane olmaq cəhdilə bağlıdır. Həmin versiyanı yoxlamaq üçün mən Əliyevlə görüşməyə çalışdım. Həmin vaxt o, artıq Naxçıvan parlamentinə sədr seçilmişdi.

...Heydər Əliyev söhbətin "Azərnəşr"in direktorunun öldürülməsindən getdiyini bilən kimi R.Həsənovu Naxçıvanda qəbul etməyə və ifadə verməyə razılığını bildirir.

1992-ci il noyabrın 2-də Azərbaycan KP MK-nın sabiq birinci katibi, Sov.İKP MK Siyasi Bürosunun keçmiş üzvü ömründə ilk dəfə olaraq istintaq orqanlarına ifadə verir. Dörd saatlıq söhbətin videokamera ilə lentə çəkilmiş materiallarının sonradan şifrəsi açılmış

və mətn 44808 saylı cinayət işinə tikilmişdir. İrihəcmli bu material təkcə hüquq nöqteyi-nəzərindən maraqlı deyil. Ona görə də bunun üzərində ətraflı dayanmağı lazım bilirik.

1990-cı il mayın 17-də Naxçıvanda şəhər partiya komitəsinin konfransı keçirilir və orada H.Əliyevi Azərbaycan KP-nin XXXII qurultayına nümayəndə seçirlər. Bu, bir qədər gözlənilməz olur, çünki Siyasi Büronun taxtdan düşmüş üzvünün adı əvvəlcədən tərtib olunmuş heç bir siyahıda yox idi. Nümayəndələrin bir qrupunun verdiyi təklifi bütün konfrans müdafiə edir. Bir neçə gün sonra Şərur, Ordubad və Naxçıvan Muxtar Respublikasının başqa rayonlarının partiya konfranslarında da H.Əliyevin namizədliyi irəli sürülür.

O vaxt respublikada yaranmış mürəkkəb ictimai-siyasi vəziyyəti nəzərə alaraq elə güman edə bilərəm ki, H.Əliyevin partiya qurultayına nümayəndə seçilməsi o dövrün rəhbərlərini şok vəziyyətinə salıb.

Sovet ordusunun Bakıya qanlı müdaxiləsindən və sıravi partiya üzvlərinin öz partiya biletlərini kütləvi surətdə yandırmağa başlamasından sonra Azərbaycanın partiya təşkilatı dərin böhran keçirirdi. A.Mütəllibovun, V.Hüseynovun və onlar kimi bir çoxunun timsalında respublikanın moskvapərəst rəhbərləri hakimiyyəti hərbçilərin süngüləri gücünə saxlayır və buna görə də fövqəladə vəziyyət rejimini hər vəchlə uzadırdılar. Dağlıq Qarabağda baş verən hadisələr hakimiyyət orqanlarını daha da gözdən salırdı. Çünki oradakı hadisələr heç də Azərbaycanın xeyrinə cərəyan eləmirdi. Belə bir vaxtda H.Əliyevin XXXII partiya qurultayında peyda olması Mütəllibov komandası üçün arzuolunmaz idi. Bu şəxsiyyət hər hansı "ssenari"ni pozub, məclisi özünün dəmir iradəsinə tabe etdirə bilərdi. Üstəlik, Mütəllibovun Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi məsələsi sual altında qala bilərdi.

H.Əliyevin partiyanın bütün qanunlarının ziddinə olaraq siyasi heçlikdən təzədən baş qaldırıb qayıtmaq niyyətini onun 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyində keçirilən mitinqdə söylədiyi sensasiyalı nitqi bariz şəkildə göstərdi. "O, məcburi istefa"dan, həyat yoldaşının ölümündən, keçirdiyi ağır infarktdan sonra ilk dəfə idi "işığa" çıxırdı. O, qoşunların Bakıya yeridilməsini qeyri-adi, sərt tonda pisləyir, bunu hərbi müdaxilə adlandırıb, baş vermiş faciədə M.Qorbaçov başda olmaqla Sov.İKP rəhbərlərini günahlandırdı.

Heydər Əliyevin ifadəsindən:

Yanvarın 19-da, faciə baş verməmişdən bir gün qabaq birdən Qorbaçov mənə zəng elədi. Bu, 1987-ci ildən sonra ilk söhbətimiz idi və söhbət yüksək tonda keçdi. O bildirdi ki, Azərbaycanda iğtişaşlar baş verir və bütün bunlara bais mənəm. Guya mənim günahım üzündən respublikada faktiki olaraq sovet hakimiyyəti devrilib və buna görə də təcili tədbir görüb, hadisələrə təsir göstərməliyəm. O, məni hədələyib dedi ki, əgər mən bunu etməsəm, onlar mənə divan tutacaqlar. Azərbaycanda isə onsuz da qayda-qanun yaradılacaq. Yanvarın 21-də daimi nümayəndəlikdə keçirilən mitinqdən sonra Qorbaçovla telefonla danışmağa cəhd göstərdim. Məni onunla calaşdırmadılar. Belə olanda ağzıma gələni Kryuçkova, Liqaçova, Yakovlevə, Razumovskiyə dedim. Onlar hamısı dedi ki, mən cinayət edirəm. Dedim ki, cinayətkar özünüzsünüz. Vaxt gələcək, hər şeyə cavab verəcəksiniz...

Ümumiyyətlə, onların hamısı mənim Azərbaycana qayıtmağımın əleyhinə idilər".

Azərbaycan KP-nin XXXII qurultayını keçirmək iyunun 8-nə təyin edilmişdi. H.Əliyev doğma Naxçıvana baş çəkmək üçün bir qədər əvvəl gəlməyi qərarlaşdırdı. Və buna görə də iyunun 1-nə təyyarəyə bilet aldı.

Heydər Əliyevin ifadəsindən:

"O dövrlərdə Sov.İKP MK-nın göstərişilə mən DTK-nın tam nəzarəti altında idim. Mən Bakıya qoşunların yeridilməsini kəskin surətdə pisləyəndən və xarici kütləvi informasiya vasitələrinə müsahibə verəndən sonra bu nəzarət bir qədər də gücləndi. Moskva – Bakı təyyarə reysinə təzəcə bilet almışdım ki, zənglər başlandı. Əvvəlcə Partiya Nəzarəti Komitəsindən Puqonun müavinləri Slezko və Gerasimov zəng elədilər. Məsləhət gördülər ki, səfərdən imtina edim: belə ki, Azərbaycanda vəziyyət gərgindir. Mənim oraya getməyim şəraiti daha da çətinləşdirər. Sonra başladılar mənimlə sövdələşməyə. Guya onlarda Əliyevə qarşı Partiya Nəzarəti Komi-

təsinin materialları var. Əgər o, Bakıya getməsə, materialları arxivə verəcəklər. Getsə, üzə çıxaracaqlar (sonralar həmin "sənədlər"i Bakıda üzə çıxartdılar. H.Əliyevin Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində çalışarkən fəaliyyətini yoxlamaq üçün hətta hökumət komissiyası yaradıldı – ***E.A.***).

Mayın 30-da Puqo özü zəng elədi. Məlum oldu ki, bu da o məqsədlə zəng edib. Ona dedim: "Qəribədir, çoxdan idi yadınıza düşmürdüm. Halbuki, ağır günlər keçirirdim. Xəstələnib xəstəxanaya düşmüşdüm. İndi dirçəlib Vətənimə getmək istəyəndə, birdən yadınıza düşmüşəm. Mənə bu səfəri qadağan etməyə haqqınız yoxdur".

...Həmin gün Naxçıvan parlamenti başçısının danışdıqları R.Həsənova çox maraqlı görünürdü. Ancaq bu tarixçənin nəşriyyat direktorunun ölümünə hər hansı bir aidiyyəti vardımı? Bu məsələ müstəntiqi daha çox düşündürürdü. H.Əliyevin ifadəsindən belə çıxırdı ki, bəli, aidiyyəti var, özü də birbaşa.

Köhnə vaxtlarda, yəni H.Əliyev respublikaya rəhbərlik etdiyi dövrlərdə Ə.Xanbabayevlə aralarında yaxınlıq olmayıb. MK-nın birinci katibi ilə nəşriyyat direktoru arasında məsafə çox böyükdür. 1989-cu ildə Xanbabayev Moskvada onu özü axtarıb tapdı. Bundan sonra müntəzəm olaraq təmasda olurdular. H.Əliyevin respublikaya qayıdıb gəlməsi ideyasının əsas təşəbbüsçüsü məhz Xanbabayev olmüşdu. Məhz o, özünəməxsus coşğunluq və işgüzarlıqla həmin ideyanı həyata keçirməyə başlamışdı. Sonralar, yəni istintaq sürət götürəndən sonra məlum oldu ki, o vaxtlar çoxları Əjdər Rza oğluna bu qorxulu niyyətindən əl çəkməyi məsləhət görüblər. Dostları xəbərdarlıq edib, düşmənləri hədə-qorxu gəlib. Lakin gülümsər sifətli, xoş xasiyyətli bu adam demə, tutduğunu buraxan deyilmiş. Müqavimət artdıqca o, daha möhkəm inanırdı ki, respublikanın başı üzərini almış təhlükəni yalnız H.Əliyev kimi dünyagörmüş siyasətçi sovuşdura bilər. Sən demə, Ə.Xanbabayevin özünün də başı üzərində təhlükə dolaşırmış:

"O, son günlər nədənsə ehtiyatlanırdı, hətta maşını qaraja qoymağa gedəndə də tək getmirdi, məni özü ilə aparırdı" (mərhumun qardaşı İsmayılın ifadəsindən).

"Öldürülən günü Bəxtiyar Vahabzadə Əjdər Xanbabayevin yanına gəlir. O, Ayaz Mütəllibovun xahişini ona çatdırır. Yəni Xanbabayev Əliyevə zəng eləyib, onu Bakıya gəlməkdən çəkindirsin. Xanbabayev cavab verir ki, artıq Əliyevlə danışıb və iyunun 1-də o, Bakıya gələcək" (ittihamnamədən).

"Əjdər hiss etmişdi ki, DTK onu izləyir. O, H.Əliyevə şəhərlərarası telefondan zəng edirdi. Mən bunu dəqiq bilirəm, özüm də bir neçə dəfə onunla getmişəm. O, Əliyevlə açıq danışmaqdan ehtiyat edirdi" (Dövlət Mətbuat Komitəsinin sabiq sədri Nazim İbrahimovun ifadəsindən).

Yeri gəlmişkən, Xanbabayev bir dəfə məxfiliyi pozaraq, Əliyevə öz xidməti telefonundan zəng edib. Bu, mayın 30-da – öldürüldüyü gün olub.

Akademik Cəlal Əliyevin söhbəti:

– Mayın 30-da səhər-səhər qızımla Dənizkənarı parkda gəzirdim. Bir nəfər naməlum adam mənə yaxınlaşaraq müqəddiməsizfilansız dedi: "Təcili qardaşınıza zəng eləyib deyin ki, Bakıya gəlməsin. Yoxsa, təyyarənin pilləkəni yanında onu vuracaqlar". Soruşdum ki, axı siz kimsiniz? O isə heç bir cavab vermədən dönüb getdi. Qızımı evə qoyub "Azərnəşr"ə – Əjdər Xanbabayevin yanına yollandım. Həmin günəcən biz qiyabi tanış idik. Gəlişimin səbəbini biləndə bütün işlərini atıb Moskvaya danışıq sifariş verdi. Bizi çox gec birləşdirdilər. Deyəsən təxminən dörd saat çəkdi. İndi başa düşürəm ki, bu, nə qədər çətin idi. Əjdər bir neçə dəfə avtomat telefonla zəng edib Rabitə Nazirliyinin məsul işçilərinə müraciət etdikdən sonra bu, mümkün oldu. Düzünü deyim, mən tərəddüd edirdim. O isə, bir dəqiqə belə olsun, tərəddüd etmirdi. Qardaşıma dedi ki, bütün bu hay-küyə əhəmiyyət vermək lazım deyil. Ziyalıların əhval-ruhiyyəsi qətidir, H.Əliyevi aeroportda qarşılayacaqlar. Yadımdadır, qardaşım xahiş etdi ki, artıq səs-küy qaldırmaq lazım deyil. Qoy Cəlaldan başqa məni heç kəs qarşılamasın.

Xanbabayev etiraz etdi: "Mən isə sizi hökmən qarşılayacağam. Əvvəlcə mənim yanımda qalarsınız. Bu cür təhlükəsiz olar...".

Həmin gün axşam təzədən Əjdərlə danışmaq lazım gəldi. Mən Bəxtiyar Vahabzadədən onun ev telefonunun nömrəsini alıb zəng elədim. Dəstəyi bir qadın götürdü və hıçqıra-hıçqıra dedi: "Qardaş,

Əjdəri ağır yaralayıblar, xəstəxanadadır...". Təzədən bir də B.Vahabzadəyə zəng elədim. O, mənə inanmadı. Dedi ki bu, ola bilməz. İki saat bundan qabaq onu görmüşəm. Ola bilsin, başqa yerə düşübsən. Ancaq bəd xəbər tezliklə təsdiq edildi. Dərhal qohumum, tanınmış cərrah Cəmil Əliyevə zəng vurdum. Xahiş etdim ki, əlindən gələni əsirgəməsin. Təəssüf ki, həkimlər heç nə eləyə bilmədilər. Bir neçə saatdan sonra huşu özünə qayıtmadan Əjdər keçindi. İndiyə kimi təəssüflənirəm ki, belə bir gözəl insanı çox gec tanımışam. Heyf, çox heyf!

* * *

İyunun 1-də H.Əliyev Bakıya gəlmədi. O, arxayın vaxtı xeyli götür-qoydan sonra ona edilən təklifi qəbul edib iyunun 6-na bilet sifariş verdi.

"Lesnıye dali" pansionatında 5-ci mərtəbənin növbətçisi Əliyevi telefona çağırdı. Zəng eləyən təzədən Puqo idi. Quduza dönmüşdü.

H.Əliyev xatırlayaraq deyir: "Onlar Xanbabayevi öldürdülər ki, məni qorxutsunlar, vətənə qayıtmağıma mane olsunlar. Yəni ki, səni də öldürərik. Həbs etməklə hədələyirlər. Mən dediyimdən dönməyəcəyəm".

Puqodan sonra Razumovski və nəhayət, ittifaq DTK-sının şefi Kryuçkov zəng elədi. Sonuncu ilə H.Əliyev əvvəlki işdən tanış idilər və aralarında münasibətlər yaxşı idi. Ona görə də birbaşa soruşdu: "Axı nəyə görə belə əl-ayağa düşübsünüz?". Kryuçkov etiraf etdi: "Mütəllibov bunu bizdən dönə-dönə xahiş edir". Əliyev təəccübləndi: "Onu bu cür narahat edən nədir? Əgər doğrudan da o, Azərbaycan KP MK-nın qanuni birinci katibidirsə, onda sıravi partiyaçının gəlişi onu niyə belə qorxudur? Yəqin vəziyyətinin möhkəm olmadığını başa düşüb.

Sizə yazığım gəlir: belə bir adamın əli ilə Azərbaycanda hakimiyyətinizi qorumağa çalışırsınız...

Kryuçkov məndən xahiş etdi ki, Mütəllibovla danışım".

Bu, onların ilk söhbəti deyildi. Yanvar hadisələrindən və plenumda MK-nın birinci katibi seçiləndən sonra Mütəllibov H.Əliyevin mənzilində onunla görüşmüşdü. Onlar bir neçə saat söhbət eləmişdilər. "O zaman Mütəllibova çox məsləhətlər verdim. O şəraitdə neçə işləmək lazım gəldiyini başa saldım, – deyə H.Əliyev danışır. – Ancaq əfsuslar olsun ki, o, mənim məsləhətlərimin heç birinə qulaq asmadı. Mən dedim ki, Azərbaycandan ötrü burnumun ucu göynəyir və vətənə qayıtmaq istəyirəm. Mütəllibov söz verdi ki, Bakıya dönən kimi mənə zəng eləyəcək və mənim Bakıya dönməyimi təşkil edəcək".

Aylar keçdi. Mütəllibov verdiyi vədi unutdu. İndi, Əliyevin özbaşına Bakıya qayıtması ərəfəsində, mənəvi-psixoloji qüvvə tətbiq etməklə təsir göstərmək tədbirlərinə baş vurduqdan sonra, o, özü "Lesnıye dali" pansionatına, Əliyevə zəng vurdu.

H.Əliyevin ifadəsindən:

"Bizim bir saatlıq söhbətimiz zamanı o, məndən xahiş etdi, hətta yalvardı ki, Bakıya gəlməyim. Vəziyyət guya gərgindir, hər cür hadisə baş verə bilər. Mən ona birbaşa dedim: siz Xanbabayevi öldürdünüz, məni də öldürə bilərsiniz. Ancaq Azərbaycana gələcəyəm. Başladı özünə haqq qazandırmağa ki, bu nə sözdür mənə deyirsiniz? Xanbabayevin ölümündən xəbərim yoxdur. Sizə burada heç kim barmağının ucu ilə də toxuna bilməz. Ümumiyyətlə, çaşıb qaldı: gah deyirdi ki, Bakıya gəlməyim təhlükəlidir, gah da məni əmin edirdi ki, heç kəs mənə toxuna bilməz".

Söhbətin sonunda A.Mütəllibov and içib söz verdi ki, iyunun 15-də Sov.İKP-nin qurultayında iştirak etmək üçün Moskvaya gələcək. Onda H.Əliyevin qayıtması təfərrüatını onunla müzakirə edəcək.

İyunun 6-da Əliyev Bakıya gəlmədi. Mütəllibov rahat nəfəs aldı. Nəhayət, "qoca"nı inandırmaq mümkün olmuşdu. Əliyev Mütəllibovun zənginə görə yox, ümumiyyətlə, onunla söhbətdən sonra pansionatdan yığışıb evə getdi və yola hazırlaşdı. Gecə qardaşı Cəlala zəng elədi və yetişməkdə olan qarşıdurma barədə məlumat aldı. Adamların bir qrupu Əliyevi qarşılamağa, başqa bir qrupu isə etiraz mitinqi təşkil etməyə hazırlaşırdı. Toqquşma baş verə bilərdi. Bu xəbər neçə gündən bəri davam edən təkbətək mübarizənin nəticəsini həll etdi. H.Əliyev qan tökülməsi bahasına qayıtmaq istəmirdi. Bu yolda verilmiş bir qurban – Əjdər Xanbabayev kifayət idi.

...Azərbaycan KP-nin XXXII qurultayı heç bir xüsusi fövqəladə hadisə olmadan keçdi. Ayaz Mütəllibovu MK-nın birinci katibi seçdilər. Bir neçə gündən sonra "Staraya ploşad"ın təbriklərini qəbul etməkdən ötrü Moskvaya uçdu. Əliyevə baş çəkmək barədəki vədini, əlbəttə, yenə də "unutdu".

* * *

Bakı Şəhər Prokurorluğunun böyük müstəntiqi R.Həsənov H.Əliyevlə söhbətdən sonra özünün ilkin fərziyyəsinə tam əmin oldu. Əla başlanğıc böyük əks-səda doğurmuş işin əla da başa çatdırılmasını vəd edirdi. Doğrudan da, Naxçıvana səfərindən artıq bir ay sonra Rahib qatilin izinə düşmüşdü. Və 1992-ci il dekabrın 28-də Baş prokurorun müavini İ.Tatıyev milli təhlükəsizlik naziri F.Təhməzovun adına məktub göndərərək Maştağa qəsəbəsinin sakini Tarix Quliyev adlı birisi barədə məlumat toplamağı xahiş edir. Prokurorluğa daxil olan qeyri-rəsmi məlumatlara görə, nəşriyyatın direktorunu Tarix Quliyev öldürüb.

DTK-nın təqdim etdiyi informasiya düşünmək üçün müəyyən əsas verirdi. Əvvəla, T.Quliyevin cinayətkar aləmlə əlaqəsi var və bir neçə il İƏD-də yatıb: ikincisi, informasiyada deyilirdi ki, o, tez-tez "Qardaşlıq" cəmiyyətinin üzvləri ilə görüşür. Bu, artıq ciddi dəlil idi. Yarıhərbi "Qardaşlıq" cəmiyyəti A.Mütəllibovun birbaşa göstərişi, DTK-nın köməyi ilə yaradılmışdı.

Bu cəmiyyət ilk prezidentin xəlvəti qvardiyası idi və prezident devrildikdən sonra dəfələrlə onu müxtəlif üsullarla təzədən hakimiyyətə gətirmək üçün cəhdlər etmişdi. "Qardaşlıq" cəmiyyətinin sədri Ağa Axundov indi həbs edilib. Qeyri-rəsmi məlumatlara görə, olduqca maraqlı ifadə verir.

R.Həsənov Tarix Quliyevlə əməlli-başlı məşğul olmaq əvəzinə, nədənsə ona qarşı marağını itirir və MTN-in işçilərini prokurorluğa çağırmağa keçir. Məlum olur ki, 1990-cı ilin may ayında, doğrudan da, Xanbabayevin üzərində nəzarət qoyulubmuş. Lakin o, əsasən, "xırda adamları" istintaq edir və buna görə də DTK-nın ali rəhbərliyinin bu işdə əli olmasına işıq salan heç bir maraqlı şey tapa bilmir. R.Həsənov dindirilənlərdən heç nə "qopara" bilmir. Üstəlik, DTK-nın arxivləri də onun üzünə bağlı idi.

Ən heyrətlisi odur ki, müstəntiq artıq o, vaxt 90-cı il Yanvar faciəsində əli olmaqda ittiham edilərək həbs edilmiş və istintaq altında yatan sabiq DTK sədri V.Hüseynovu dindirməyə səy göstərməyib.

...Faktiki olaraq 11 aylıq fəaliyyətsizlikdən sonra R.Həsənov həmin ifadə ilə, yəni "cinayəti törədənin şəxsiyyəti müəyyənləşdirilmədiyinə görə" işə xitam verir.

Mən məqalə üzərində işləyərkən Rahib Həsənovla görüşdüm. Soruşdum ki, nəyə görə o, Tarix Quliyev barədəki versiya üzərində işləməyib? Cavab verib dedi: "Onu tutmaq və dindirmək üçün əlimdə əsas yox idi". "Bəlkə sizə kimsə təzyiq göstərib, hədələyib? Axı bu qətli T.Quliyevə sifariş verənlər 1992-ci ildə çox güclü idilər".

"Xeyr. Heç bir təzyiq göstərilməyib. Ancaq müdafiə edən də yox idi. Hiss elədim ki, bu işin üstünün açılması heç kimi maraqlandırmır".

Mənə elə gəldi ki, müstəntiq düz demir. Çox güman ki, o, elə o vaxt hər şeyi, ya da təxminən çox şeyi bilirmiş. Hər halda anlayıb ki, caninin arxasında hansı qüvvələr dayanıb və bu çirkli işi qurdalamaq ona baha başa gələ bilər. Bakı Şəhər Prokurorluğunun müstəntiqi komissar Katani deyildi və özünə başağrısı verməməyi ölkə mafiyası ilə mübarizədə şöhrət qazanmaqdan üstün tuturdu. Bir sözlə, Azərbaycan kriminalistikası tarixinə düşmək Rahib Həsənova nəsib olmadı.

III fəsil
İudasayağı öpüş

1995-ci il mayın 18-də Azərbaycanın Baş prokurorunun müavini İsa Nəcəfov "Azərnəşr"in direktorunun öldürülməsinə dair işin bərpası barədə qərar qəbul etdi. O, Respublika Prokurorluğu kriminalistika şöbəsinin rəisi R.Əliyevin və xüsusilə mühüm işlər üzrə böyük müstəntiq A.Əhmədovun iştirakı ilə istintaq qrupu yaratdı. Bu qrupun işinə tam əsasla əla qiymət vermək olar. Təəssüf ki, istintaqın gedişində onların əldə etdikləri faktların hamısını təsvir etmək üçün qəzet səhifəsi azlıq edir.

Artıq 1995-ci il mayın 22-də Maştağa qəsəbəsindəki "Qarabağ" kooperativində axtarış aparılır və axtarış zamanı iki tapança aşkar edilib götürülür. Onlardan biri – RN 2262 nömrəli "Makarov" tipli tapança müstəntiqlərin diqqətini cəlb edir. Xanbabayev məhz "Makarov" tipli tapançadan atılan atəşlə öldürülmüşdü. Ballistik ekspertizanın nəticələri göstərdi ki, hadisə yerindən tapılan güllə və giliz RN 2262 nömrəli "Makarov" tapançasından atılıb. Məlum oldu ki, tapançanın sahibi "Qarabağ" kooperativinin sədri Tarix Quliyevdir. İyulun 7-də üzləşdirmə prosesində Fuad Abdullayev həmin may gecəsi Poluxin küçəsində əlində tapança qaçan Tarix Quliyevi tanıyır. Tezliklə Tarixin cinayət yoldaşı, Bakı Sovetinin deputatı, "Lalə" kafesinin direktoru Tofiq Qasımov da yaxalanır.

Maraqlıdır ki, 1994-cü ildə T.Quliyev qanunsuz silah və döyüş sursatı saxlamaqda ittiham olunaraq həbs edilib. Artıq elə həmin vaxt Xanbabayevin öldürülməsi barədə cinayət işinin üstünü açmaq üçün imkan var idi. Lakin bu dəfə də himayədarlar tapıldı və onun növbəti dəfə məhkəmədən yayınmasını təmin etdilər. İşi hansı yollasa ört-basdır edib, Tarixi azadlığa buraxdılar.

Canilərin yaxalanması və dindirilməsi ilə eyni vaxtda MTN-in kontingenti ilə gərgin iş aparılırdı.

"Keqebeşniklərin" sərt müqavimətini qırmaq asan olmadı. İstintaq qrupu lazımi sənədləri MTN-in xüsusi arxivlərindən az qala kəlbətinlə bir-bir çıxararaq yavaş-yavaş irəliləyirdi. Təkzibedilməz faktlar önündə qalan DTK-nın 5-ci şöbəsinin sabiq rəisi Vladimir Mirzəyev istintaqa kömək edəcəyinə söz verdi və doğrudan da, xeyli maraqlı şeylər danışdı. O biri "keqebeşniklər"in də dili açıldı. Onlardan bəziləri 90-cı ildə komitədə çox məsul vəzifələr tutmuşdular. Onların ifadələri zənciri xatırladırdı və onun bir ucu lap yuxarılara gedib çıxırdı.

...1990-cı ilin aprelində Vladimir Mirzəyevi DTK-nın sədri Vaqif Hüseynovun kabinetinə çağırırlar. Şefə yaxın olan başqa şöbələrin rəisləri də burada idilər.

"Məlumat almışam ki, "Azərnəşr"in direktoru Ə.Xanbabayev H.Əliyevin respublikaya qayıtmasının tərəfdarlarındandır, – deyə sef söhbətə başladı. – O, Əliyevlə müntəzəm əlaqə saxlayır. Əliyevin Bakıya qayıtması barədə ziyalılarla söhbətlər aparır. Bütün bunları ayırd etmək lazımdır".

V.Mirzəyev ifadəsində göstərir ki, V.Hüseynov H.Əliyevin Azərbaycana qayıtmasından dəhşətli dərəcədə qorxurdu. Tez-tez təkrar edib deyirdi: "Əliyev gələn kimi bütün respublikanı qatıb-qarışdıracaq". Hüseynov Mütəllibovu da yumşaqlıq göstərməkdə, fəaliyyətsizlikdə günahlandırırdı: "Mütəllibov gözləyir ki, bizim hamımızı tutub bayıra atsınlar". V.Hüseynovla SSRİ DTK-nın sədri V.Kryuçkov arasında xüsusi telefonla olan söhbətləri yadımdadır. V.Hüseynov H.Əliyevin gözlənilən gəlişindən ehtiyatlandığını həyəcanla bildirirdi.

Həmin gün müvafiq şöbələrin rəislərinə göstəriş verildi ki, "Azərnəşr"in direktorunun xidməti telefonlarına və kabinetindəki söhbətlərə qulaq asılsın, habelə gecə-gündüz üzərində nəzarət qoyulsun. Texniki-əməliyyat tədbirlərinin gedişini V.Hüseynov şəxsən nəzarətə götürdü. Texniki-əməliyyat şöbəsinin rəisi Y.Bataman bir dəfə necə olursa, V.Mirzəyevə şikayət edir ki, Xanbabayevlə "işləmək" ortaya çıxandan sonra onun qətiyyən asudə vaxtı qalmayıb. V.Hüseynov tələb etmişdi ki, o, daim yerində olsun, ləngimədən günün istənilən vaxtı danışıqlara qulaqasmanın nəticələri barədə ona məlumat versin.

Batamanın məlumatları çox vaxt onu qane etmirdi. Belə olanda şef tələb etdi ki, onun kabinetinə Ə.Xanbabayevin danışıqları yazılmış lent yazılarını gətirsinlər. Özü oturub lentə qulaq asırdı. Bundan əlavə, MTN-in iki şöbəsi növbə ilə Xanbabayevi izləyirdi. 7-ci şöbənin əməkdaşlarına xüsusi texnikanın verilməsi barədə jurnalda aparılan qeydlərə görə, 90-cı il mayın 21-dən 30-dək Xanbabayevi izləmək üçün 7 nəfərdən 14 nəfərədək adam işləyib (!). Özü də öldürülməmişdən bir neçə gün qabaq, həmçinin həmin gün adamların sayı artırılıb. Bir sözlə, Azərbaycanın xüsusi xidmət idarəsinin ən yaxşı qüvvələri geçə-gündüz sakit və heç nə ilə diqqəti cəlb etməyən Əjdər Xanbabayevi elə izləyirdilər ki, sanki o, hansısa xarici ölkə kəşfiyyatının "yekə" bir agentidir.

Məhkəmədə ifadə verən təxminən on beş komitə işçisindən heç biri Xanbabayevin öldürülməsinin siyasi xarakter daşıdığına şübhə

eləmədi. Onlardan biri – Sadıq Əliyev deyəcək:

"Xanbabayevin ölümü ilə bağlı bütün informasiyanı təhlil edib tam yəqinliklə təsdiq edirəm ki, o, məqsədyönlü şəkildə təşkil edilib və DTK-nın xüsusi xidmətinin şöbələri tərəfindən həyata keçirilib. DTK-nın rəhbərlərinin razılığı ilə onun qüvvə və vasitələrindən istifadə olunub".

Doğrudan da, bu fərziyyəni təsdiq edən çoxlu fakt var. Onlardan bəzilərini diqqətinizə çatdırırıq.

XXXII partiya qurultayı ərəfəsində V.Hüseynov A.Mütəllibova respublikada siyasi vəziyyət barədə xidməti arayış göndərir. Ayrıca abzasda göstərilir ki, H.Əliyevin qurultayda iştirak etməsinə yol vermək olmaz. Elə həmin arayışda H.Əliyevin "qatı tərəfdarı" kimi, Əliyevin respublikaya gəlməsi məsələsi ilə bilavasitə məşğul olan "Azərnəşr" direktorunun adı çəkilir. Məlumatın qətnamə hissəsində belə bir təklif var: "Əliyevin respublikaya gəlməsinə mane olmaq!".

Mayın 30-da texniki-əməliyyat şöbəsinin rəisi Y.Bataman işdə yox idi. Şöbənin əməkdaşı olan bir qadın zərfin içərisində məlumat gətirib Mirzəyevə verir və xahiş edir ki, onu təcili V.Hüseynova çatdırsın. Zərfdə Əliyevin respublikaya gəlməsi barədə məlumat var idi. Mirzəyev zərfi "şef"in yanına özü aparır. Həmin gün Xanbabayevin üzərində müşahidə gücləndirilmişdi. Belə ki, "Həsənin obyekti" (komitə işçiləri onu öz aralarında bu cür adlandırırdılar) 7-ci şöbənin əməkdaşlarının diqqətindən kənarda qala bilməzdi. İstintaq materialında oxuyuruq: "Buna baxmayaraq, DTK sədri heç bir xidməti təhqiqat aparmayıb. Halbuki daxili təlimatın tələblərinə görə o, bunu etməli idi. Üstəlik, Xanbabayevin qətlindən sonra həmin cinayətin üstünün açılmasına kömək etmək xahişi ilə DİN-dən komitəyə məktub gələndə V.Hüseynov qətiyyən heç bir tədbir görməyib".

1996-cı il yanvarın 17-də Respublika Prokurorluğunun böyük müstəntiqi A.Əhmədov DTK-nın sabiq sədri Vaqif Hüseynovun barəsində axtarış elan etmək qərarına gəlir və onun həbsi üçün sanksiya verir. Bu barədə Rusiya Federasiyasının Prokurorluğuna müvafiq sorğu göndərilir. Belə ki, V.Hüseynov Rusiya ərazisində gizlənmişdi.

* * *

...Birinci Tofiq Qasımov danışmağa başladı. Onun dilini Azərbaycan daxili işlər naziri Ramil Usubov yaxşı bilirdi. Çünki keçmiş cinayət işlərindən biri ilə tanış olmuş və onun xarakterini yaxşı öyrənmişdi. O, dərhal həmkarlarına bildirdi ki, T.Qasımovu elə-belə ələ almaq mümkün deyil. Yalnız inandırma yolu ilə ondan söz çəkmək olar. Artıq həmin vaxt istintaq icraçılar və qətlin necə törədilməsi barədə hər şeyi bilirdi. Qasımovu fakt qarşısında qoydular. Quran gətirib dedilər: and iç, de ki, doğrudan da, nəşriyyatın direktorunun öldürülməsindən xəbərin yoxdur. Vəziyyəti belə görən Tofiq tab gətirə bilmədi və hər şeyi etiraf etdi: "Altı ildir elə bil ürəyimdə daş gəzdirirəm. Axırıncı dəfə nə vaxt üzümün güldüyü yadıma gəlmir. Nəhayət, bundan sonra rahat nəfəs ala bilərəm".

1995-ci il noyabrın 5-də Azərbaycanın Milli Məclisi parlamentin üzvü Seyfəl Babayevin deputat toxunulmazlığını ləğv etdi. S.Babayev o adam idi ki, MK-dan və DTK-dan olan öz yüksək vəzifəli dostlarının tapşırığı ilə Ə.Xanbabayevin öldürülməsini Quliyevə sifariş vermişdi. Tofiq Qasımovun ifadəsindən aydın olur ki, o bu adamdan olduqca bərk qorxurmuş. Yeri gəlmişkən, ondan təkcə Tofiq qorxmurdu. Bakı mafiyasının mənəvi atası sayılan S.Babayev Abşeronun xəlvəti biznesinə nəzarət edir, hakimiyyət orqanlarında çalışan yüksək vəzifəli şəxslərin himayəsinə arxalanaraq olduqca qüdrətli şəxsiyyətə çevrilmişdi. Öz ağasından daha çox onun H.Əliyevdən acığı gəlirdi. Əliyevin Bakıya gəlməsinə hər vasitə ilə mane olmaq tapşırığını alması onun çoxdankı istəyi ilə üst-üstə düşürdü. Qəlbindəki bu istəyi həyata keçirmək ehtirası, özünə yaxın dost hesab etdiyi adamın həyatından da irəli idi.

...Əjdər Xanbabayev Seyfəllə 1980-ci ildən tanış idi. O vaxt Seyfəl gənc və istedadlı iqtisadçı olan oğlunun kitabını nəşr etdirməyi Ə.Xanbabayevdən xahiş etmişdi. Ə.Xanbabayev həmişə gənclərə kömək edirdi. Bu dəfə də etiraz etmədi. O vaxtdan Seyfəl özünü Əjdərin qabağında borclu hesab edir və bu yaxşılığın əvəzini çıxmaq istəyirdi. Xanbabayevin qızı Afət danışırdı ki, o, bəzən bağımıza fəhlə göndərirdi ki, bağ işlərində bizə kömək etsinlər. Özü

də hərdənbir atama qonaq gələrdi. Qadınlara qarşı (Xanbabayevin arvadı və iki qızı) daha diqqətli idi, bayramlarda mütləq təbrik edərdi. Acı təfsilat: Xanbabayevin kiçik qızı Nərgiz televizordan eşidir ki, hüquq-mühafizə orqanları atasının qatillərini tutublar və Seyfəl Babayev də onların arasındadır. Qızın ürəyi pis olur. Həmişə olduğu kimi, təcili yardım maşını gec gəlir və iki körpə uşaq anası infarktdan keçinir. Atanın həyatını yarımçıq qoyan güllə, beş il keçəndən sonra bu dəfə qızını haqlayır...

İnsanın alçaqlığının dərəcəsini sübut edən bir-iki təfərrüatı da demək istəyirik: nə Tarix, nə də Tofiq (sonuncuya sürücü vəzifəsi tapşırılmışdı) Əjdər Xanbabayevi üzdən tanımırdılar. Odur ki, Seyfəl özü də onlarla birlikdə getdi. Həmin nəhs günü Əjdər mərhum dostu Rizvanın arvadına zəng edib deyir ki, axşam gəlib uşaqlara baş çəkəcəyəm. DTK-nın telefon danışıqlarına qulaq asan şöbəsinin əməkdaşı həmin xəbəri dərhal instansiyalar üzrə "yuxarı"ya ötürdü (sonralar o, özü də bu barədə ətraflı ifadə verdi). Belə ki, Xanbabayevin gedəcəyi marşrut qatillərə əvvəlcədən məlum idi.

Əjdər heç vaxt bu ailəyə əliboş gəlməzdi. Bu dəfə də maşını "Şimiyyat" mağazasının qənşərində saxlayıb iri bir tort aldı. Tofiq Qasımovun qırmızı "Jiquli"sində Xanbabayevin arxasınca gələn Seyfəl maşından düşüb öz qurbanına yaxınlaşdı, dodağını yaxınlaşdırıb iudasayağı onun yanağından öpdü. **İki min il sonra Bakının mərkəzində Seyfəl öz mənəvi ulu babasının hərəkətlərini təkrar edərək dostunu güdaza verdi.**

Xanbabayevin dəfnində Seyfəl bir həngamə çıxarırdı ki gəl görəsən. Ehsan üçün hətta qoyun da göndərmişdi. Yeri gəlmişkən, Bakının mərkəzi bazarlarından birinin hər şeyə qadir direktoru üçün bir qoyun nədir ki...

Qəribədir: S.Babayev Mütəllibovun vaxtında özünü elə təhlükəsiz hiss edirdi ki, Xanbabayevin ölümündə əli olduğunu gizlətməyi ağlına da gətirmirdi. H.Əliyev hakimiyyətə gələndən sonra isə başladı qorxmağa. İki il bundan qabaq bərk xəstələndi. Hikkədən qupquru qurumuşdu, qorxudan iflic olmuşdu. Sağalmaz xəstəliyə tutulmuşdu. Çox da qoca olmayan, sapsağlam adam üçün, doğrudan da, bu, qəribə idi. Hər iki əli və ayaqları iflic olmuşdu. Əzələlərində atrofiya gedirdi. Bütün var-yoxunu qoyub iki il Moskvanın, Almaniyanın, İsrailin ən yaxşı klinikalarında müalicə olundu. Noyabrın 3-də növbəti müalicədən sonra onu həbs etdilər. Elə orada, həbsxana xəstəxanasında da öldü. Seyfəl axıra kimi təqsirini boynuna almadı...

Azərbaycan Ali Məhkəməsinin məhkəmə kollegiyası Tofiq Qasımovu cəzasını ciddi rejimli islah əmək düşərgəsində çəkməklə 9 il azadlıqdan məhrum etdi. Tarix Quliyevə isə ən ağır cəza – güllələnmə verildi.

Epiloq əvəzi

Xanbabayevin öldürülməsindən üç il sonra Heydər Əliyev dövlət başçısı seçildi. Əvvəlki iki prezidentdən sonra o, respublikanı təhqir edilmiş, qana bulaşmış şəkildə təhvil aldı, hər tərəf qaçqınlarla, quldur dəstələri ilə dolu idi, həmin problemlərin bəzilərinin (təkcə Qarabağ problemi elə bəsdir) öhdəsindən bu günəcən gələ bilmir.

90-cı ilin fevralını, A.Mütəllibovun Moskvada H.Əliyevin evində onun nəsihətlərini dinlədiyi vaxtları xatırlayıram və düşünürəm: əgər o, bu nəsihətlərə qulaq assaydı, Əliyevi özündən kənarlaşdırmayıb, əksinə, özünə yaxınlaşdırsaydı və onun Bakıya gəlişindən vahiməyə düşməsəydi, əksinə, hörmətlə yanaşsaydı, görəsən neçə olardı? Çox güman ki, belə halda həqiqətən onu MK-nın birinci katibi seçməzdilər və bu yeri Əliyevə güzəşt etməli olardı. Ancaq açıq və təmiz mübarizə şəraitində! Respublikanın mənafeyinə görə! 90-cı ildə göstərilən cılızlıq ucbatından bu gün az-çox əldə edilən nailiyyətlər bizə belə baha başa gəlməzdi. Azərbaycanın milyonlarla sadə adamı Əliyev+Mütəllibov tandemindən faydalanardı. Təəssüf ki, bütün bunların hamısı xəyaldır. Hakimiyyət uğrunda mübarizənin öz sərt qanunları var. Bostanda kələm becərmək üçün taxt-tacı könüllü olaraq verən Roma imperatoru Diolektianın əhvalatı mənə nədənsə gözəl əfsanə təsiri bağışlayır. Həm də bu, bəşər tarixində yeganə hadisədir.

"Literaturnaya qazeta" isə oçerki belə bir sözardı ilə tamamlayırdı:

"Altı il bundan qabaq başlanmış əhvalatı tam əminliklə siyasi detektiv adlandırmaq olar. İstintaq materiallarından göründüyü kimi, tanınmış Azərbaycan naşirinin qətli – bu ağır cinayət siyasətlə, hakimiyyət uğrunda mübarizədə kommunistlərin hər zaman istifadə etdiyi metodlarla bağlıdır. Partiyaya sadiq olan xüsusi xidmət orqanlarının oynadığı məşum roldan isə danışmaq artıqdır.

Yada salmaq lazımdır ki, Heydər Əliyevin Bakıya gəlməsi ilə bağlı süjetin inkişafı artıq yenidənqurma adlandırılan vaxtlara təsadüf edir. Artıq beş ildir ki, cəmiyyətdə hökm sürən ab-hava dəyişmişdir, demokratikləşdirmə və aşkarlıq anlayışları dilimizə daxil olmuşdur. Lakin bunların hamısı meydanlarda və zallarda, ziyalıların toplantılarındadır. Kremldə isə hər şey əvvəlki kimidir. Mərkəzin göstərişi və telefon hüququnun təntənəsi.

Bəlkə də Əliyevin kommunist ehkamlarından, təklif olunan asılılıqdan şəxsən imtina etməsinin bir səbəbi də Moskvanın ona qarşı tətbiq etdiyi basqı olmuşdur".

Bir neçə gündən sonra jurnalist briqadasının tərkibində mən prezident ilə növbəti xarici səfərə yola düşdüm. Bonnda keçirilən mətbuat konfransında xarici, o cümlədən Rusiya jurnalistləri onlara bir çox məsələlərə başqa gözlə baxmağa imkan vermiş "Literaturka"dakı məqaləni yada salanda, Heydər Əliyev aşkar məmnuniyyətlə diqqətə çatdırdı ki, məqalə müəllifi burada, zaldadır.

Biz geri dönən zaman o məni prezident salonuna dəvət etdi, məqaləyə görə təşəkkürünü bildirdi, dedi ki, oçerkin "Literaturnaya qazeta"da dərc olunmasından xüsusilə razıdır. Çünki 8 il öncə A.Vaksberqin "Gurultulu alqışlar" məqaləsi məhz bu qəzetdə çap olunmuşdu. Ağıllı redaktorun sözardı yazısını isə o, gecikmiş üzrxahlıq kimi qəbul etdi.

Oçerk üzərində, sonra isə kitab üzərində işləyərkən məni bir sual dinc buraxmırdı: Vaqif Hüseynov Heydər Əliyevin Azərbaycana qayıtmasından niyə bu qədər qorxurdu? Niyə o, hətta Mütəllibovdan da çox vurnuxur və təşvişə düşürdü?

V.Hüseynov gənc kadrlara qarşı həmişə xeyirxah münasibətdə olan Heydər Əliyev tərəfindən irəli çəkilmişdi, onun komandasına daxil idi, özü də ən yaxın adamları sırasında idi. Əliyevin Azərbaycan KP MK-nın birinci katibi olduğu vaxtda, bu sıravi jurnalist "Molodyoj Azerbaydjana" qəzetinin baş redaktorluğundan Azərbaycan komsomolunun MK katibi, sonra isə birinci katibi vəzifəsinə qədər başgicəlləndirici karyera yüksəlişinə nail olmuşdu. Daha sonra o, Moskvada ÜİLKGİ-nin katibi işləmiş, nəhayət Bakının "sahibi" təyin olunmuş, həmişə də Heydər Əliyevdən dəstək və diqqət görmüşdü. Deyilənə görə, H.Əliyev Azərbaycanın paytaxt partiya komitəsinin birinci katibi vəzifəsinə Hüseynovun namizədliyini Siyasi Bürodan böyük çətinliklə keçirə bilmişdi. Əliyev Moskvaya işləməyə gedəndən dərhal sonra K.Bağırov Hüseynovu vəzifədən kənarlaşdırmaq qərarına gəldi, lakin H.Əliyev xeyli müddət müqavimət göstərdi. Hətta bir dəfə öz çoxdankı köməkçisi Rafael Allahverdiyevə incimiş halda demişdi: "Kamran axı, bilir ki, mən ona oğlum kimi yanaşıram".

Vaqif Hüseynovu Bakı Şəhər Partiya Komitəsinin birinci katibi vəzifəsindən çıxarandan sonra o, Dövlət İdman Komitəsinin sədri oldu. Sonra onu Moskvaya, "İdman oyunları" jurnalının baş redaktoru vəzifəsinə keçirdilər. O, bir müddət XİN-də işlədi, burada Torontoya konsul vəzifəsinə təyin olunacağı gözlənilirdi, bu barədə 1988-ci ilin aprelində Siyasi Büronun xüsusi qərarı olmuşdu. Lakin bir aydan sonra Azərbaycanda rəhbərlik dəyişildi. Vəzirov Vaqif Hüseynovu yenidən "dartıb" Bakıya gətirdi. O, MK-nın təşkilat şöbəsinin müdiri, sonra isə Azərbaycan DTK-sının sədri oldu. "Molodyojka"dan çıxan jurnalistin karyerası belə idi!

İlk baxışda V.Hüseynovun təşviş keçirməsi üçün elə bir əsas yox idi. Ancaq o qorxurdu. Yaman qorxurdu... Bunun, məncə, bir neçə izahı vardır.

İlk növbədə, o, çox gözəl başa düşürdü ki, Heydər Əliyev kimi iradəli, xarizmatik lider vətənə dönəndən sonra mütləq böyük siyasətə də qayıdacaqdır. Və o vaxt onun hakimiyyət ambisiyalarına son qoyulacaqdır. Hüseynova yaxın olan keçmiş DTK əməkdaşlarının sözlərinə görə, o öz təşkilatçılıq qabiliyyətini çox yüksək qiymətləndirirmiş. DTK sədri kürsüsü keçmiş komsomol funksionerinin arzularının heç də ən yüksək nöqtəsi deyildi. O, siyasət Olimpinin ən yüksək zirvəsinə can atırdı. Əbəs deyil ki, Vaqif Hüseynov Mütəllibovun bütün hərəkətlərinə göz qoyur, hər addımını güdür, Moskvanı onun hər səhvi, iradəsizliyi və ürəyiyumşaqlığı barədə məlumatlandırırdı. Çox güman ki, o, Azərbaycan DTK-sının sədri kürsüsündən MK-nın birinci katibi kürsüsünə keçən Heydər Əliyevin taleyini təkrarlamaq arzusunda idi. Bir sözlə, V. Hüseynov artıq prezident "libasını" əyninə ölçərkən üfüqdə Əliyev və onun həmfikirləri timsalında tam real təhlükənin cizgiləri görünməyə başladı. Öz şefinin xarakterini uzun illər bir yerdə çalışdığı zaman yaxşı öyrənmiş Vladimir Mirzəyev də 1995-ci il 26 avqust tarixli ifadəsində bu barədə danışır:

"DTK-ya gəlməzdən qabaq Vaqif Hüseynov partiya işçisi idi və bir rəhbər kimi özünü çox yüksək qiymətləndirirdi. O, hətta yuxuda da özünü respublika rəhbəri kürsüsündə görürdü. Ona görə də 1990-cı ildə Heydər Əliyevin respublikaya qayıtması haqqında söhbətlər artanda V.Hüseynov özündən çıxmışdı"[58].

Çox güman ki, digər səbəb də var idi. O başa düşürdü ki, Əliyev DTK fəaliyyətinin bütün gizli mexanizmlərini hamıdan yaxşı bilir, ona görə də son vaxtlar Azərbaycanda baş vermiş bütün faciəli hadisələrdə bu idarənin oynadığı məşum rolu asanlıqla aşkar edəcəkdir. Və o zaman, Dövlət Təhlükəsizliyi Komitəsinə başçılıq edənin, xeyli səhv, absurd, bəzən isə cinayətkar əmrlər verən şəxsin siyasi və hüquqi məsuliyyəti problemi tam çılpaqlığı ilə ortaya çıxacaqdır. H.Əliyevin daimi nümayəndəlikdəki çıxışı və xüsusilə son ifadəsi – "Faciədə əli olanların hamısı cəzalanmalıdır" – o vaxt çoxlarını qorxuya salmışdı.

Azərbaycanın Rusiyadakı səfirliyində "Naşirin qətli" kitabının təqdimatındakı çıxışımda mən fərziyyə irəli sürmüşdüm: əgər 1990-cı ilin iyununda Azərbaycan Kommunist Partiyasının XXXII qurultayına nümayəndə seçilmiş Heydər Əliyevə Bakıya gəlib qurultayda iştirak etmək imkanı verilsəydi, çox güman ki, Azərbaycanın bütün müasir tarixi başqa yolla, dramatik hadisələrdən və qanqadalardan uzaq yolla gedəcəkdi. Bu tarixdə nə Qarabağ savaşı, nə yüz minlərlə qaçqın, nə də ki, işğal altında qalan 20 faiz Azərbaycan ərazisi olacaqdı. Əfsus ki, Mütəllibov və onun komandası Əliyevin qurultayda olmaması üçün əllərindən gələni etdilər və yalnız hakimiyyət məsələsinin həllindən sonra ona Azərbaycana gəlməyə "icazə verdilər".

Heydər Əliyevin "Azadlıq" radiosuna müsahibəsindən:

"Mən, əslinə qalsa, Moskvadan güclə çıxa bildim, məni axı buraxmırdılar. Məni – xəstə adamı! – vətənə getməyə qoymurdular. Üç dəfə bilet almışdım. O saat da zənglər başlayırdı... Liqaçov, zəng vururdu, Kryuçkov və digərləri zəng vururdular: Heydər Əliyeviç, məsləhət görmürük, biz istəmirik ki, siz Azərbaycana gedəsiniz, çünki sizin gəlişiniz sabitliyi pozacaq! Deyirəm: qulaq asın, xəstə adamam, infarkt keçirmişəm, heç cür özümə gələ bilmirəm, mən getmək istəyirəm, havamı dəyişmək istəyirəm, mənim başqa yerə getmək imkanım yoxdur. Moskvada mən boğuluram. Əslində, mən oradan gizli çıxdım.

Ona görə də hər şey başqa cür oldu... Mənim dostum, Şevardnadze, Sovet İttifaqı dağılanda sakitcə Tbilisiyə qayıtdı, respublikasının başında durdu, – çox şükür ki, uğurla rəhbərlik edir. Biz möhkəm dostuq, yaxşı münasibətlərimiz var, bir-birimizə kömək edirik. Mən isə 87-ci ildən 90-cı ilə qədər təqib olundum, sonra 90-cı ildə Bakıya gəldim, ancaq mənə burada da yaşamağa icazə vermədilər. Hədələməyə başladılar: sizi öldürəcəklər. Və mən uçdum blokadada olan Naxçıvana, orada ağır şəraitdə üç il yaşadım...

Ona görə də mənim həyatım – sizin sualınıza artıq çox geniş cavab verirəm – çox ağır idi..."

1990-cı ilin iyulunda Heydər Əliyev qızı Sevilin ailəsi ilə Nazirlər Sovetinin "Lesnıye dali" pansionatında istirahət edirdi. Pansionatın səviyyəsi aşağı idi: yeməkləri keyfiyyətsiz, otaqları narahat... Sevil xanım xatırlayır ki, nahardan sonra ailə üçün sabaha nahar sifariş verməkdən ötrü xeyli növbədə durmaq lazım gəlirdi. Ancaq belə şərait H.Əliyevə əziyyət vermirdi. O, əvvəllər də aza qane olan idi, son aylarda isə gündəlik qayğılardan tamamilə uzaqlaşmışdı. Lermontovun Mtsırisi kimi onun vücuduna yalnız "bir, lakin alovlu ehtiras" hakim kəsilmişdi: nəyin bahasına olursa olsun, Vətənə qayıtmaq.

İyulun 20-nə biletləri lap uçuş ərəfəsində aldılar, məsələdən mümkün qədər az adamı agah etdilər. Bakıda olan yaxın adamlara tapşırdılar ki, onun gəlişini bildirməsinlər. Heydər Əliyev qızı ilə vidalaşdı, nəvələrini öpüb aeroporta yollandı. Əslində o, qeyri-müəyyənliyə gedirdi, hər cür provokasiyanın mümkünlüyünə inanır, hiss edirdi ki, qarşıda onu çətin sınaqlar gözləyir. Lakin bir şeyə şübhə etmirdi: Rusiyanı həmişəlik tərk edir, Vətəninə əbədi qovuşur.

Qəhrəmanımızı Azərbaycana aparan təyyarə göyə qalxdı. Heydər Əliyevin "Kreml beşilliyi" arxada qaldı. Bizim hekayətimiz də başa çatdı.

Sonda bir neçə kəlmə

Heydər Əliyevin Sovet İttifaqının rəhbərlərindən biri olduğu 1982–1987-ci illər ölkə tarixində asan dövr olmamışdı. Andropov erasının sovet adamlarında doğurduğu ümid və nikbinlik az sonra Çernenkonun rəhbərliyə gəlişilə ümidsizliklə əvəz olundu. İki ildən sonra Qorbaçovun hakimiyyət başına keçməsi SSRİ xalqlarına yenidən eyforiya və sevinc hissləri yaşatdı. Əfsuslar ki (artıq neçənci dəfə!), bu ümidlər gerçəkləşmədi.

H.Əliyevin Kremldə keçirdiyi beş il ən müxtəlif istiqamətlər üzrə titanik həcmdə işi ehtiva etmişdir – nəqliyyat və rabitə, elm, mədəniyyət və səhiyyə, təhsil və sosial problemlər, nəhayət, xarici siyasət. Bu istiqamətlərin hər birində o öz izini qoymuşdur və onun şəxsi töhfəsini, hətta onilliklər ötəndən sonra da görmək çətin deyil. Əslində kitabımızda biz elə buna çalışmışıq.

Beş "Kreml ili" ərzində H.Əliyev nüfuzlu Qərb analitiklərinin dəfələrlə qeyd etdikləri kimi **beynəlxalq miqyaslı** görkəmli siyasi simaya çevrilmişdi. Ölkə və dünya üzrə səfərləri, ən böyük siyasi partiyaların liderləri və dövlət başçıları ilə danışıqları, nəhəng ölkənin taleyini müəyyən edən ən məsuliyyətli qərarların qəbulunda fəal iştirakı H.Əliyevin ömür bioqrafiyasını bir siyasətçi və dövlət xadimi kimi unikal təcrübə ilə zənginləşdirmiş, müstəqil Azərbaycanın rəhbəri vəzifəsində gələcək işlərin və nailiyyətlərin təməlini qoymaqda mühüm rol oynamışdır.

Moskvada yaşadığı illərdə o, çox itkilərlə rastlaşdı, çox ümidləri boşa çıxdı. Onun sözsüz inandığı və onun özünə də sözsüz inanan insan – Yuri Vladimiroviç dünyadan köçdü. Sevimli həyat yoldaşı və sirdaşı Zərifə Əliyevanın vəfatı ona ölçüyəgəlməz sarsıntılar yaşatdı. Ağır fəlakətlərin, yüzlərlə insanın məhvi ürəyində silinməz yaralar açdı. Sonuncu Baş katibin namərdliyi, "demokratik" KİV-lərin ona və ailəsinə qara yaxması ağır sınaq oldu.

Bu illər böyük yüksəliş, məsuliyyət, şöhrət və nüfuz, eyni zamanda ümidlərin boşa çıxması, acı itkilər və idealların iflası dövrüdür. Psixoloji anlamda "dəyərlərin qiymətləndirilməsinə yeni baxış", kommunizm ehkam və ideallarından imtina, mənəvi böhrandan çıxmaq və yeni həyata başlamaq üçün qüvvə və dayaqların ta-

pılması prosesi də asan başa gəlmədi. Lakin Heydər Əliyev yeganə doğru qərarı – Vətənə qayıtmaq, xalqına qovuşmaq qərarını qəbul etməklə həmin dayaq nöqtəsini tapmışdı.

...Son 13 il onun uzun ömründə çox güman ki, ən mürəkkəb illər olacaqdı. Dünyadan təcrid olunmuş, işğal təhlükəsindən xilas etdiyi Naxçıvanda keçirdiyi üç il, hakimiyyətə zəfərlə qayıdışı, çoxsaylı terror aktları və dövlət çevrilişləri, Ermənistanla müharibə və atəşkəs müqaviləsinin bağlanması, neft strategiyasının parlaq təntənəsi, Əliyev diplomatiyasının çoxşaxəliliyi, dünyanın siyasi xəritəsində Cənubi Qafqazın "Azərbaycan" adlı kiçik respublikasının təsdiqi...

Bütün bunlar haqqında romanımızın sonrakı hissəsində.

Qəhrəmanımızla vidalaşmırıq. Bir neçə vaxtdan sonra Heydər Əliyev ömrünün enişli-yoxuşlu, dramatik yolları və Zaman haqqında söhbəti davam etdirmək üçün yenidən görüşəcəyik. Bir sözlə,

ardı var

Bakı,
2007-2008-ci illər.

---

[1] Грачев А.Кремлевская хроника. М., 1994. С. 74.
[2] Медведев В. В команде Горбачева. Взгляд изнутри. М., 1994. С. 93.
[3] Лигачев Е. Предостережение. М., 1999. С. 154-155.
[4] Воротников В. А было это так... Из дневника члена Политбюро ЦК КПСС. М., 1995. С. 256-258.
[5] Караулов А. Вокруг Кремля. М., 1993, т. 1. С. 228.
[6] Бобков Ф. КГБ и власть. М., 2003. С. 315.
[7] Т. де Ваал. Черный Сад. Армения и Азербайджан между миром и войной. М., 2005. С. 38.
[8] Горбачев М. Жизнь и реформы. М., 1995, т. 1. С. 502-504.
[9] Бобков Ф. КГБ и власть. С. 318.
[10] Шахназаров Г. С Вождями и без них. М., 2001. С. 45.
[11] Лигачев Е. Предостережение. С. 147.
[12] Воротников В. А было это так... С. 234.
[13] Лигачев Е. Предостережение. С. 308-310.
[14] Архив Управления делами Президента АР. Фонд 1, опись 83, дело 8, л. 32-33.
[15] Грачев А. Кремлевская хроника. С. 46.
[16] Там же. С. 47.
[17] Литературная газета. 1995. 24 мая.
[18] Бакинский рабочий. 2002. 15 августа.
[19] Горбачев М. Жизнь и реформы, т. 1. С. 505-509.
[20] Караулов А. Вокруг Кремля. М., 1993, т. 1. С. 236-237.
[21] Бакинский рабочий. 2003. 25 сентября.
[22] Архив Управления делами Президента АР. Фонд 1, опись 83, дело 1, л. 4-74.
[23] Там же, л. 42.
[24] Там же, л. 48.
[25] Архив Управления делами Президента АР. Фонд 1, опись 83, дело 8, л.8.
[26] Крючков В. Личное дело. М., 2003. С. 358-360.
[27] Лигачев Е. Предостережение. С. 241-270.
[28] Зюганов Г. Верность. М. 2003. С. 49.
[29] Легостаев В. Технология измены. М., 1993. С. 106-107.
[30] Валинский С., Калюжный Д. Русские горки: конец российского государства. М., 2004. С. 288-289.
[31] Лигачев Е. Предостережение. С. 129, 173-175.
[32] Перовский А. Утро России. 1994. 26 мая – 01 июня.
[33] В этот мир я не вмещусь. М., 1997. С. 194-197.
[34] Караулов А. Вокруг Кремля, т. 1. С. 227-228.
[35] Там же. С. 237-238.

[36] Там же. С. 425.
[37] Там же. С. 230-232.
[38] Гришин В. От Хрущева до Горбачева. М., 1996. С. 318.
[39] Лигачев Е. Предостережение. С. 184-185.
[40] Легостаев В. Технология измены. С. 130-134.
[41] О Гейдаре Алиеве телеграфным текстом. Баку, 2008. С.17-20.
[42] Улдуз. 1990. № 6.
[43] Караулов А. Вокруг Кремля, т.1. С.287-288.
[44] Мехтиев Р. Гражданин, Личность, Лидер. Бакинский рабочий. 2003. 23 мая.
[45] Воротников В. А было это так... С. 344-345.
[46] Яковлев А. Сумерки. М., 2003. С. 519.
[47] Караулов А. Вокруг Кремля, т.2. С.75.
[48] Легостаев В. Технология измены. С. 95-96.
[49] Фалин В. Конфликты в Кремле. Сумерки богов по-русски. М., 2000. С. 122-123.
[50] Зюганов Г. Верность. С. 155.
[51] Лигачев Е. Предостережение. С. 153.
[52] В.Воротников В. А было это так... С. 103.
[53] Там же, С. 119-121.
[54] Медведев В. В команде Горбачева. Взгляд изнутри. С. 87.
[55] Легостаев В. Технология измены. Стр. 103
[56] Яковлев А. Сумерки. С. 475.
[57] Черняев А. Шесть лет с Горбачевым. М., 1993. Стр. 280.
[58] Уг. дело № 44808, т.4, л.д. 142.

Mündəricat

Müəllifdən 3

Birinci hissə. **Yeni ümidlər** 7
Yuri Andropov və onun irsi 7
Heydər Əliyev və Yuri Andropov ..... .22
Kreml komendantlığının birinci korpusunda ..... .51
"Siyasi Büroda çox sərt mühit var idi" ..... .75
"Andropov islahatlar mövqeyində dayanmışdı" ..... .87
"XII beşilliyi nəqliyyat beşilliyi etməli" ..... .118
"Onun iş yükü həddindən artıq çox idi" ..... .131
"Bu Heydər Əliyevin zəfəri idi" ..... .155
"O çox sürətlə irəli çəkilirdi" ..... .166

İkinci hissə. **Durğunluq** ..... .181
"Kral öldü... Yaşasın kral!" ..... .181
SSRİ-də məktəb təhsili islahatı ..... .198
"Bizim üçün incəsənətin bütün növlərindən ən mühümü kinodur ..... .219
Heydər Əliyev xarici mətbuatın diqqət mərkəzində ..... .224
"O, Siyasi Büroda Şərqin nümayəndəsi idi" ..... .238
Ucsuz-bucaqsızdır doğma Vətənim ..... .249
"Heydər Əliyev rus dilini incəliklərinə qədər duyurdu" ..... .264
"Xahiş edirəm diqqətlə nəzərdən keçirəsiniz" ..... .275
"Mənim ürəyim burada qalıb" ..... .292
Kasparovla Karpovun məşhur "heç-heçə"si ..... .311
7 №-li dövlət bağ evinin hasarları arxasında ..... .315
"Ziyalılar onun ətrafına yığışırdılar" ..... .322

Üçüncü hissə. **İki il yarım Qorbaçovun komandasında . . .347**
Qorbaçovu hakimiyyətə kim gətirdi? 347
"O, sonadək öz iztirablarını gizli saxladı" 369
"O, heyrətamiz iradə qüvvəsi nümayiş etdirdi..." . . .381
"Yaşıl ilan"la mübarizə "dastanı" 389
"Ölkədə onun böyük nüfuzu vardı" 405
Cümə axşamları, saat 11:00-da 429
Heydər Əliyev və sovet səhiyyəsi 449
Beynəlxalq gənclər ili 456
Çernobıl müsibəti 458
"Admiral Naximov"ün faciəsi 465
Qorbaçov və kadr siyasəti 481
"O, qulaq asmağı əsla bacarmırdı..." 502
Heydər Əliyev və Mixail Qorbaçov 519
Yenidənqurma, yaxud şirin röyaların acı sonluğu . . .534
Heydər Əliyevi necə kənarlaşdırdılar 550
"Qəribə" infarkt 569
"Onun xəstəliyi yalnız bəhanə idi..." 595

Dördüncü hissə. **Süqut 619**
"Ona qarşı haqsızlıq etmişdilər..." 619
Heydər Əliyevin həyatında son partiya plenumu 639
DQMV ətrafında münaqişənin başlanması 646
"Mənim öz Oljasım olmadı"! 685
"Faciədə əli olanların hamısı cəzalanmalıdır" 746
Sistem böhranının dərinləşməsi 765
Daha belə yaşaya bilmirəm 772

Sonda bir neçə kəlmə 797

Axundova Elmira Hüseyn qızı

HEYDƏR ƏLİYEV
Şəxsiyyət və Zaman
Kreml beşilliyi
III HİSSƏ

Korrektor: **Gülarə Əmirxanova**
Texniki redaktor
və dizayner: **Cəsarət Qasımov**

Yığılmağa verilib: 20.08.2008. Çapa imzalanıb: 16.03.2009.
Formatı: 60x90 1/16. Ofset çapı. Həcmi: 50,25
Sifariş № 31. Tiraj: 2000.



mətbəəsində çap olunmuşdur